Azərbaycan Respublikası
Xarici İşlər Nazirliyi

AZƏRBAYCANIN XARİCİ SİYASƏTİ

Sənədlər məcmuəsi

2007

Azərbaycan Respublikası Prezidentinin
İşlər İdarəsi
PREZİDENT KİTABXANASI

Bakı – 2008

Redaksiya kollegiyasının sədri:
Xarici işlər naziri E.M.Məmmədyarov

Redaksiya kollegiyasının məsul katibi:
B.K.Həsənov

"AZƏRBAYCANIN XARİCİ SİYASƏTİ". Bakı, "GARİŞMA" MMC, 2008-ci il, 704 səh.

ISBN 9952-409-10-1

Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi "Azərbaycanın xarici siyasəti" adlı sənədlər məcmuəsinin silsilə nəşrinə başlayır. Məcmuənin ilk buraxılışı 2007-ci ildə Azərbaycan diplomatiyası və xarici siyasətinin ən vacib sənədlərini əhatə edir.

Hazırkı buraxılışda çox hissəsi müxtəlif mənbələrdə nəşr edilmiş rəsmi sənəd və materiallar vardır. Onların bir nəşrdə cəmləşdirilməsi Azərbaycanın bu dövrdəki xarici siyasətini daha dolğun göstərməyə imkan verir. Bir sıra materiallar ilk dəfə olaraq təqdim edilir. Sənədlər xronoloji ardıcıllıqla nəşr edilir.

Məcmuə beynəlxalq münasibətlər sahəsində praktiki və elmi işçilərə, həmçinin diplomatiya, xarici siyasət və beynəlxalq hüquq tarixi ilə maraqlanan şəxslər üçün faydalı ola bilər.

Məcmuə Azərbaycan Respublikası Xarici İşlər Nazirliyinin Tarix-Arxiv İdarəsinin əməkdaşları tərəfindən hazırlanmışdır.

© Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi

MÜQƏDDİMƏ

Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi "Azərbaycanın xarici siyasəti" adlı sənədlər məcmuəsinin silsilə nəşrinə başlayır. Məcmuənin ilk buraxılışı 2007-ci ildə Azərbaycan diplomatiyası və xarici siyasətinin ən vacib sənədlərini əhatə edir.

Ötən 2007-ci ildə Azərbaycan Respublikası milli maraqlarının təmin edilməsinə, dövlətin davamlı inkişafı və vətəndaşların hüquqlarının müdafiəsi üçün əlverişli şəraitin yaradılmasına yönəlmiş ardıcıl fəaliyyətini həyata keçirməkdə davam etmişdir. Dövlətin beynəlxalq arenada nüfuzunun və avtoritetinin möhkəmləndirilməsinə xüsusi diqqət ayrılmışdır.

Azərbaycan Respublikasının suverenliyinin, ərazi bütövlüyünün bərpası və etnik təmizləməyə məruz qalmış məcburi köçkünlərin öz torpaqlarına qaytarılması ölkə xarici siyasətində prioritet məsələ kimi qalmışdır.

Ermənistan və Azərbaycan arasında silahlı münaqişənin tənzimlənməsi üzrə iki dövlətin prezidentləri və xarici işlər nazirləri səviyyəsində "Praqa prosesi" çərçivəsində danışıqların gedişində, Azərbaycan danışıqlar prosesinin irəli aparılması üçün bütün imkanlardan maksimal dərəcədə yararlanmağa çalışmışdır.

Eyni zamanda, beynəlxalq ictimaiyyətin, Azərbaycanın ərazi bütövlüyünü, beynəlxalq səviyyədə tanınmış sərhədlərinin toxunulmazlığını dəstəkləmək və ərazilərinin işğalını və etnik təmizləməni pisləmək mövqeyinin daha da möhkəmləndirilməsi yönündə səylər davam etdirilmişdir.

Azərbaycan terrorizmə, transmilli mütəşəkkil cinayətkarlığa, narkotik maddələrin qeyri-qanuni dövriyyəsinə, insan alveri və digər qeyri-hüquqi fəaliyyətə qarşı beynəlxalq mübarizədə fəal iştirak etmişdir. Tərəfdaşlarla qarşılıqlı əlaqələrin bütün mümkün ikitərəfli, qlobal və regional formaları istifadə olunmuş, müvafiq milli strukturların inkişafı üçün beynəlxalq yardımın cəlb olunması davam etdirilmişdir.

Xarici siyasətin Avropa və Avro-Atlantik istiqaməti çərçivəsində Azərbaycanın NATO və Avropa İttifaqı ilə inteqrasiya əlaqələrinin inkişafı və tərəfdaşlığının möhkəmləndirilməsi üçün irəliləyən proses davam etmişdir. Azərbaycan Avropa və beynəlxalq təhlükəsizliyə öz töhfəsini verməkdə davam etmiş, tərəfdaşlıq mexanizmlərinin təkmilləşdirilməsi və əsaslarının möhkəmləndirilməsi təşəbbüslərini fəal həyata keçirmişdir. 2007-ci ilin mayında NATO Şurası Azərbaycanın 2005-2007-ci illər üçün Fərdi Tərəfdaşlıq planının həyata keçirilməsində əldə etdiyi tərəqqini yüksək qiymətləndirmişdir. Avropa İttifaqı ilə tərəfdaşlığın inkişafı kontekstində, Azərbaycanın xüsusi çəkisi artmış və onun qlobal enerji təhlükəsizliyin təminatında rolu gücləndirilmişdir. İl ərzində Avropa Qonşuluq Siyasəti çərçivəsində fəaliyyət planının yerinə yetirilməsinə xüsusi diqqət verilmişdir.

Avropa istiqaməti ilə yanaşı, Azərbaycan, islam dünyasının bir hissəsi olmaqla, İslam Konfransı Təşkilatı ilə sıx əməkdaşlığı davam etdirmişdir. 2006-2007-ci illərdə İKT sədri vəzifəsini yerinə yetirərək, Azərbaycan Təşkilatın siyasi rolunun artırılması, beynəlxalq problemlərin həllində onun təsiri və iştirakının gücləndirilməsi, beynəlxalq ictimaiyyətdə, və ilk növbədə Avropada islamın, onun mədəniyyət, dəyərlər və fəlsəfəsinin düzgün dərk edilməsi məqsədilə fəal səylər göstərmişdir.

Azərbaycan insan haqları sahəsində beynəlxalq səviyyədə fəal qarşılıqlı əlaqələri davam etdirmiş, bərabərhüquqlu tərəfdaş kimi, beynəlxalq hüquqi müdafiə əməkdaşlığı sisteminin möhkəmlənməsinə öz töhfəsini vermişdir.

Azərbaycanın xarici siyasət fəaliyyətinin regional istiqamətinin vacib tərkib hissələrindən biri "Demokratiya və iqtisadi inkişaf naminə-GUAM" təşkilatının üzv dövlətləri ilə əməkdaşlığın genişləndirilməsi və dərinləşdirilməsi olmuşdur. Bakıda GUAM-ın iyun sammiti, bu sammit zamanı isə sədrlik Azərbaycana keçmişdir, Vilnyusda GUAM-ın on illiyinə həsr olunmuş oktyabr sammiti ilk dəfə olaraq, tərəfdaş və digər maraqlı dövlətlərin ali rəhbərlərinin, həmçinin

beynəlxalq və regional strukturların yüksək nümayəndələrinin iştirakı ilə geniş formatda keçmişdir.

Ötən il ərzində GUAM növbəti dəfə sübut etmişdir ki, üzv dövlətlərin təhlükəsizliyinə risk və təhlükələrə qarşı razılaşdırılmış şəkildə fəaliyyət göstərən və öz səylərinin beynəlxalq ictimaiyyət tərəfindən səfərbər olunmasına çalışan səmərəli bir qurumdur. Ölkələr ərazisində olan münaqişələrin tənzimlənməsi məsələlərində eyni yanaşma əsasında GUAM BMT-nin Baş Assambleyasının 62-ci sessiyasının müzakirəsinə "GUAM ərazisində uzadılmış münaqişələr və onların beynəlxalq sülh, təhlükəsizlik və inkişafa təsiri" adlı qətnamə layihəsini təqdim etmişdir.

Ötən il ərzində Azərbaycan Ümumdünya Ticarət Təşkilatına üzvlük məsələsi ilə bağlı danışıqları davam etdirmişdir. Azərbaycan qanunvericiliyinin ÜTT standartlarına uyğun şəkildə təkmilləşdirilməsi planının yerinə yetirilməsi məsələsi diqqət mərkəzində olmuşdur.

Regional xarici iqtisadi təşəbbüslərin, o cümlədən Qara Dəniz İqtisadi Əməkdaşlıq Təşkilatı və İqtisadi Əməkdaşlıq Təşkilatının fəal üzvü kimi, Azərbaycan tərəfdaş-dövlətlərin diqqətini regional əməkdaşlıq yolunda əngəl təşkil edən regionda mövcud olan uzadılmış münaqişələrə yönəltmiş, bundan əlavə regional qurumların fəaliyyətinin səmərəliliyinin artırılması və qarşılıqlı əlaqələrinin artırılması istiqamətində aparılmış müzakirələrdə fəal iştirak etmişdir.

Ötən il Azərbaycan regional və qlobal səviyyədə enerji təhlükəsizliyinin möhkəmləndirilməsinə öz töhfəsini verməyə davam etmişdir. Avropa İttifaqı ilə bu sahədə mövcud olan əməkdaşlıqdan başqa, ötən il eyni zamanda ABŞ-la da enerji sahəsində dialoq yaradılmışdır. Xəzər dənizi və Aralıq dəniz hövzələrini birləşdirən səmərəli və təhlükəsiz nəqliyyat dəhlizlərinin təmin olunması üçün trans-regional boru kəməri infrastrukturunun yaradılması sahəsində inkişaf əldə olunmuşdur. 2007-ci ildə Türkiyə və Yunanıstanı birləşdirən qaz boru kəmərinin istismara verilməsi Azərbaycan qazının Avropa bazarlarına çıxarılması üçün əlavə imkanlar yaradır.

Xəzər regionunda "Şərq-Qərb" nəqliyyat dəhlizinin inkişafı çərçivəsində ötən il strateji əhəmiyyətli Bakı-Tbilisi-Qars dəmiryolu layihəsinin tikintisi üzrə ciddi praktiki tədbirlər həyata keçirilmişdir.

Azərbaycanın diaspor təşkilatlarının təşkilatlanması ilə bağlı iş davam etdirilmişdir. Azərbaycan və türk diaspor təşkilatları arasında əməkdaşlığın möhkəmləndirilməsinə və fəaliyyətin əlaqələndirilməsinə xüsusi diqqət yetirilmişdir. Bu və digər məsələlər Bakıda keçirilmiş Azərbaycan və türk diaspor təşkilatlarının rəhbərlərinin birinci forumu və türk dövlət və icmalarının 11-ci toplantısında diqqət mərkəzində olmuşdur.

Ötən ilə eyni zamanda ikitərəfli əlaqələrin möhkəmləndirilməsi ilə də yadda qalmışdır. Bu proses çərçivəsində Almaniya, Gürcüstan, Misir, İordaniya, Qazaxıstan, Koreya Respublikası, Litva, Rusiya, Rumıniya, Tacikistan, Fransa və İsveçrəyə edilən ən yüksək səviyyəli səfərlər xüsusi rol oynamışdır. Azərbaycanın xarici siyasət idarəsinin rəhbərliyi səviyyəsində dünyanın müxtəlif ölkələrində aparılmış danışıqlar, müxtəlif səviyyələrdə çoxsaylı qarşılıqlı səfərlər, birgə hökumətlərarası komissiyaların və işçi qruplarının iclasları, o cümlədən qonşu dövlətlərlə sərhədlərin delimitasiyası məsələləri, eyni zamanda müqavilə-hüquq bazasının genişləndirilməsi ikitərəfli əməkdaşlığın dərinləşdirilməsini təmin etmişdir. Ötən il ərzində Xəzər dənizinin hüquqi statusu ilə bağlı Konvensiya layihəsinin razılaşdırılması ilə bağlı danışıqlar prosesi davam etdirilmiş, Tehranda yüksək səviyyədə Xəzəryanı dövlət başçılarının ikinci zirvə sammiti keçirilmiş və yekunda bəyannamə qəbul olunmuşdur.

Bundan başqa, Azərbaycanın diplomatik nümayəndəliklərinin əhatə dairəsi genişlənmiş və bu il ərzində Azərbaycan Qətər, Qırğızıstan, Litva, Niderland, Tacikistan, Çexiya və İsveçdə öz səfirliklərini, Kuba və Meksikada isə ofislərini açmışdır. Eyni zamanda cari il ərzində Belçika, İordaniya, Qətər, Kuba, Litva və İsveçrə Azərbaycanda öz diplomatik nümayəndəliklərini açmışlar.

DÜNYA AZƏRBAYCANLILARININ HƏMRƏYLİYİ GÜNÜ, QURBAN BAYRAMI VƏ YENİ İL MÜNASİBƏTİLƏ AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ İLHAM ƏLİYEVİN TƏBRİKİ

- Hörmətli xanımlar və cənablar!

Əziz həmvətənlər!

Mən sizi Yeni il münasibətilə ürəkdən təbrik edirəm. 2006-cı il arxada qalır. 2006-cı il bütövlükdə, Azərbaycan üçün çox uğurlu keçdi. Ölkəmiz möhkəmləndi, dünyadakı mövqelərini daha da gücləndirdi. Ölkədə çox gözəl ictimai-siyasi ab-hava vardır.

İqtisadi baxımdan 2006-cı ildə Azərbaycan çox uğurlu inkişaf sürətini saxlaya bilmişdir. İkinci ildir ki, ölkəmiz iqtisadi inkişaf sürətinə görə birinci dövlətdir. Dünyada hər hansı bir sahədə birinciliyi əldə etmək, xüsusilə iqtisadiyyatın ən önəmli göstəricisi olan ümumi daxili məhsulun artımına görə birinci olmaq, əlbəttə ki, böyük nailiyyətdir. İqtisadiyyatımız 2005-ci ildə 26 faiz, 2006-cı ildə isə 35 faiz artmışdır. Əlbəttə ki, Azərbaycanın hərtərəfli inkişafı üçün bu göstərici əsas rol oynamışdır.

Son üç il ərzində ölkəmizdə işsizlik probleminin aradan qaldırılması üçün çox böyük işlər görülür. 500 min yeni iş yeri açılmışdır. Prezident vəzifəsinə seçiləndə bəyan etmişdim ki, 5 il ərzində Azərbaycanda 600 min yeni iş yeri açılacaqdır. Artıq onlardan 500 mini açılıbdır. Azərbaycanda yoxsulluğun səviyyəsi kəskin şəkildə aşağı düşür. Regionların sosial-iqtisadi inkişafı çox sürətlə davam edir və bölgələr müasirləşir, yeniləşir, yeni infrastruktur layihələri həyata keçirilir.

Bununla bərabər, sosial siyasət Azərbaycanda çox güclüdür və sosial məsələlərə diqqət daim olmalıdır. Mənim siyasətimin, demək olar ki, əsas istiqamətlərindən biri də bundan ibarətdir. Hər il pensiyalar artırılır, əmək haqları artırılır. 2007-ci il yanvarın 1-dən minimum əmək haqqı və minimum pensiya yenə də artırılacaqdır. Əlbəttə ki, əmək haqları və pensiyaların məbləği bizi tam şəkildə qane edə bilməz, ancaq artım dinamikası çox güclüdür. Yaxın müddət ərzində Azərbaycanda yoxsulluğun aşağı salınması, işsizliyin aradan qaldırılması nəticəsində insanların həyat səviyyəsi daha da yaxşı olacaqdır. Bu, bizim əsas məqsədimizdir. Hər şey insanlar üçün, hər şey Azərbaycan xalqı üçün! Azərbaycan xalqı yaxşı yaşamalıdır və bunu etmək üçün mütləq və mütləq həm iqtisadi islahatlar, həm də siyasi islahatlar davam etdirilməlidir. Güclü sosial siyasət aparılmalıdır ki, ölkəmiz hərtərəfli inkişaf etsin.

Bu il çox böyük quruculuq, abadlıq işləri aparılmışdır. Yüzlərlə yeni məktəb tikilmişdir. Ən müasir dünya standartlarına cavab verən xəstəxanalar tikilib istifadəyə verilmişdir. Yeni yollar - magistral yollar, kənd yolları salınır, Bakı şəhərinin nəqliyyat probleminin həlli üçün böyük quruculuq-abadlıq işləri aparılır. Yəni biz bunu ona görə edirik ki, insanlar daha da rahat yaşasınlar. Ölkənin infrastrukturu möhkəmlənsin və bütövlükdə, inkişafa daha da böyük təkan verilsin.

2006-cı il bizim üçün həm də ona görə tarixi əhəmiyyət kəsb edir ki, 2006-cı ildə Azərbaycanda iki tarixi hadisə baş vermişdir. Heydər Əliyev adına Bakı-Tbilisi-Ceyhan neft kəməri istismara verilmişdir və "Şahdəniz" yatağından ilk qazın hasil edilməsinə nail ola bilmişik. Bu iki tarixi hadisə Azərbaycanın uzunmüddətli inkişaf strategiyasını mü-

əyyən edəcək. Azərbaycanı iqtisadi cəhətdən möhkəmləndirəcək və əlbəttə ki, dünyadakı mövqelərini möhkəmləndirəcəkdir.

Bakı-Tbilisi-Ceyhan Azərbaycan üçün tarixi nailiyyətdir. Bu, sadəcə, bir neft kəməri deyil, sadəcə, Azərbaycan neftini dünya bazarlarına daşıyan bir infrastruktur layihəsi deyildir. Bunun çox böyük geosiyasi əhəmiyyəti vardır. Azərbaycan bu kəmərin istismara verilməsi ilə artıq bunun çox gözəl nəticələrini görməkdədir. Azərbaycan Dövlət Neft Fondunda milyardlarla dollar vəsait yığılıbdır. Bizim valyuta ehtiyatlarımız 4 milyard dolları keçibdir. Son üç il ərzində büdcə gəlirləri 4 dəfə artıbdır. Əgər 2003-cü ildə Azərbaycanın büdcəsi təxminən 1 milyard 500 milyon dollar səviyyəsində idisə, 2007-ci ildə artıq bu, 6 milyard 500 milyon dollar səviyyəsindədir. Bütün bunların əsas səbəbi məhz 1994-cü ildə ulu öndər Heydər Əliyev tərəfindən, onun təşəbbüsü ilə imzalanmış "Əsrin müqaviləsi"nin icrasıdır. Biz bunun bəhrəsini görürük və görəcəyik.

Azərbaycanın iqtisadi potensialı artır. Azərbaycanın siyasi çəkisi artır. Bizim beynəlxalq mövqelərimiz möhkəmlənir və şübhəsiz. Azərbaycan dünyada çox önəmli ölkəyə çevrilir. Xüsusilə indiki zəmanədə ki, dünyanı və Avropanı ən çox düşündürən enerji təhlükəsizliyi məsələləridir. Azərbaycanın neft, qaz yataqlarının işlənilməsi, neft və qazın dünya bazarlarına çatdırılması xüsusi əhəmiyyət kəsb edir. Bu baxımdan "Şahdəniz" yatağından çıxarılan və Cənubi Qafqaz qaz boru xətti ilə daşınacaq qaz, əlbəttə ki, Azərbaycanın siyasi mövqelərini də möhkəmləndirməkdədir. Bu, məni çox sevindirir, mən çox şadam, çox böyük qürur hissi keçirirəm ki, Azərbaycan bu böyük transmilli və çox çətin layihələri uğurla icra etdi. Çox ağır, çətin şəraitdə öz yolundan dönmədi, iradə göstərdi. Xalqın iradəsi, iqtidarın iradəsi, Azərbaycanın müstəqil siyasətinin aparılması nəticəsində biz bu tarixi nailiyyətlərə nail ola bilmişik. Bundan sonra Azərbaycanın qarşısında heç bir iqtisadi problem qalmayacaqdır. Bizim düşünülmüş konsepsiyamız var. İqtisadi və siyasi islahatların davam etdirilməsi üçün iradə var, bunu edirik və edəcəyik. Ona görə bu iki hadisənin Azərbaycan tarixindəki rolu çox böyükdür. Deyə bilərəm ki, müasir Azərbaycan tarixində buna bərabər hadisələr olmamışdır.

Şübhəsiz ki, biz beynəlxalq məsələlərin həllinə də böyük diqqət göstəririk. Azərbaycanın həm daxili, həm iqtisadi, həm də xarici siyasəti çox uğurlu olmuşdur. Məhz bu siyasətlərin sintezi nəticəsində biz qarşıda duran bütün vəzifələri ləyaqətlə yerinə yetirə bilmişik.

2006-cı ildə Azərbaycanın beynəlxalq mövqeləri möhkəmlənmiş, güclənmişdir. Biz bütün qonşularla səmərəli, işgüzar şəraitdə əməkdaşlıq edirik və öz siyasətimizi çox açıq şəkildə aparırıq. Azərbaycanın müstəqil siyasət aparmaq imkanları da məhz bizim iradəmizdən qaynaqlanır, iqtisadi gücümüzdən qaynaqlanır və əlbəttə ki, Azərbaycanın gələcəyi müstəqil siyasətimizdən asılı olacaqdır. Ona görə regional çərçivədə apardığımız işlər Azərbaycanın mövqelərini möhkəmləndirmişdir.

Bununla bərabər, beynəlxalq təşkilatlarda da əməkdaşlığımız çox uğurludur. 2006-cı ildə çox önəmli beynəlxalq təşkilatlarla bizim əməkdaşlığımız yeni mərhələyə qədəm qoymuşdur. Xüsusilə Avropa İttifaqı ilə imzalanmış qonşuluq proqramı Azərbaycanda növbəti beş il ərzində həm iqtisadi, həm də siyasi islahatların davam etdirilməsi üçün gözəl şərait yaratdı. Bununla bərabər, Avropa İttifaqı ilə enerji sahəsində strateji əməkdaşlıq haqqında imzalanmış memorandum Azərbaycanı Avropa istehlakçıları üçün qaz

nəql edən və qazla təmin edən ölkəyə çevirir. Əlbəttə ki, bunun həm iqtisadi, həm də siyasi əhəmiyyəti göz qabağındadır.

Beynəlxalq siyasətdə bizim apardığımız işlər, əlbəttə ki, təqdirəlayiqdir. Azərbaycanın beynəlxalq təşkilatlarda və xarici siyasət çərçivəsində bütün səyləri məhz bir məsələnin – Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həllinə yönəldilmişdir. Bizim mövqeyimiz dəyişməz olaraq qalır. Azərbaycanın ərazi bütövlüyü bərpa olunmalıdır. Azərbaycanın ərazi bütövlüyü danışıqlar predmeti deyildir və Azərbaycan heç vaxt Dağlıq Qarabağın müstəqil olmasına razılıq verməyəcəkdir. Biz öz siyasətimizi beynəlxalq hüquq normaları və prinsipləri əsasında qururuq. Dağlıq Qarabağa Azərbaycan daxilində, ərazi bütövlüyü qorunmaq şərti ilə yüksək özünüidarə imkanları verilə bilər. Bu, bizim konstruktiv mövqeyimizdir. Bundan kənarda heç vaxt heç bir danışıqlar aparılmayıb və aparılmayacaqdır. Çox sevindirici hal ondan ibarətdir ki, bu məsələ ilə bilavasitə məşğul olan Minsk qrupunun həmsədrləri, Minsk qrupu, beynəlxalq təşkilatlar Azərbaycanın mövqeyini dəstəkləyirlər. Ərazi bütövlüyü artıq heç vaxt müzakirə obyektinə çevrilməyəcəkdir.

Bu yaxınlarda Dağlıq Qarabağda keçirilmiş qondarma referendum bir daha bizim mövqelərimizin nə qədər güclü və ədalətli olduğunu təsdiqlədi. Bütün dünya, bütün beynəlxalq təşkilatlar qanunsuz rejim, kriminal rejim tərəfindən keçirilmiş qanunsuz referendumu pislədilər və öz münasibətini bildirdilər.

Danışıqlar davam edir. Ümid edirəm ki, qarşı tərəf konstruktivlik nümayiş etdirəcək və beləliklə, Azərbaycan torpaqları işğalçılardan azad olunacaqdır.

Bununla bərabər, ordu quruculuğu prosesinə də böyük diqqət göstərilir. Hələ iki il bundan əvvəl mən bəyan etmişdim və söz vermişdim ki, Azərbaycanın hərbi büdcəsi Ermənistanın bütün büdcəsinə bərabər olmalıdır və 2007-ci ilin büdcəsində biz bu məqsədə nail ola bilmişik. Azərbaycanın hərbi xərcləri Ermənistanın bütün xərclərinə bərabər olub və növbəti illərdə daha da artıq olacaqdır.

Bir tərəfdən, bu onu göstərir ki, bütün verilmiş vədlər, sözlər həyatda öz əksini tapır. Digər tərəfdən, biz ordumuzu gücləndirməliyik. Biz danışıqlar aparırıq, ancaq düşmən bilməlidir ki, Azərbaycan istənilən vaxtda, istənilən yolla öz doğma torpaqlarını azad edə bilər və azad edəcəkdir. Bundan sonra da orduya diqqət artırılacaqdır. Bizim siyasətimiz bundan ibarətdir. Görəndə ki, bu siyasət xalq tərəfindən dəstəklənir, çox sevinirəm və bu dəstək mənim üçün çox önəmlidir.

Bütövlükdə, Azərbaycanda gedən işlər müsbət istiqamətdə inkişaf edir. Mən çalışıram və çalışacağam ki, xalqın inamını bundan sonra da doğruldum. Mənə həvalə edilən bütün vəzifələri ləyaqətlə yerinə yetirməyə çalışıram. Mənim bir məqsədim var – Azərbaycan xalqına xidmət etmək, Azərbaycanı möhkəmləndirmək, ölkəmizin dünyadakı mövqelərini gücləndirmək, Azərbaycan xalqının rifah halının yaxşılaşması üçün iş görmək, əməli-praktik işlərlə, müxtəlif proqramların həyata keçirilməsi ilə ölkəmizi möhkəmləndirmək və Azərbaycanı müasir güclü ölkəyə çevirmək.

Sizə deyə bilərəm ki, son üç il ərzində elə məsələ olmayıb ki, biz onu qarşımıza qoyaq və həll edə bilməyək. Bütün məsələlər öz həllini tapıb, Azərbaycan çox dinamik şəkildə inkişaf edir, bizim siyasətimiz çox çevikdir, çox məqsədyönlüdür, düşünülmüş proq-

ram çərçivəsində aparılır. Əminəm ki, bu siyasət bundan sonra da Azərbaycana uğurlar gətirəcəkdir.

Əziz həmvətənlər!

Bu gün, eyni zamanda, hər bir azərbaycanlı üçün əziz olan Qurban bayramıdır. Bu gözəl bayram münasibətilə mən sizi ürəkdən təbrik edirəm. Biz öz milli ənənələrimizə sadiqik və bu sədaqət uzun illər ərzində, Azərbaycan müstəqil olmayan dövrdə də Azərbaycan xalqını, Azərbaycan millətini birləşdirmişdir. Əlbəttə ki, milli-mənəvi dəyərlərə sadiqlik, onlara olan hörmət mütləq davam etməlidir. Biz bu gözəl bayramı birlikdə keçiririk və bundan sonra da keçirəcəyik.

Eyni zamanda, mən sizi Dünya azərbaycanlılarının həmrəyliyi günü münasibətilə ürəkdən təbrik etmək istəyirəm. Dünya azərbaycanlılarının həmrəyliyi hər birimiz üçün çox önəmlidir, çox vacibdir. 2006-cı ildə çox yüksək səviyyədə, çox böyük ruh yüksəkliyi ilə Dünya azərbaycanlılarının II qurultayı keçirilmişdir. Demək olar ki, Dünya azərbaycanlılarının II qurultayı azərbaycançılıq ideologiyasının təntənəsi olmuşdur. Bütün dünyada yaşayan azərbaycanlılara sülh, əmin-amanlıq arzu edirəm və onlar da bilməlidirlər ki, onların bir Vətəni var, o da Azərbaycandır.

Əziz bacılar və qardaşlar!

Hörmətli xanımlar və cənablar!

Bir daha sizi Yeni il münasibətilə ürəkdən təbrik edirəm. Sizə xoşbəxtlik, ailə səadəti, cansağlığı arzulayıram. Sağ olun.

MÜASİR DÖVRDƏ SƏRHƏDLƏRİ ZOR GÜCÜNƏ DƏYİŞDİRMƏK YOLVERİLMƏZDİR

Yanvarın 15-də Xarici İşlər naziri Elmar Məmmədyarov Beynəlxalq Qızıl Xaç Komitəsinin (BQXK) Azərbaycandakı nümayəndəliyinin rəhbəri Martin Amaşer ilə görüşmüşdür.

M.Amaşer BQXK-nın cari il üçün fəaliyyətinin əsas istiqamətləri, nəzərdə tutulan tədbirlər barədə məlumat vermiş, əsir və itkin düşmüş şəxslərlə bağlı işin davam etdiriləcəyini qeyd etmiş, komitənin Bərdədə ofisinin açılmasının itkin düşmüş şəxslər barədə məlumatların toplanmasını asanlaşdıracağını diqqətə çatdırmışdır. Qonaq həmçinin erməni əsirliyində olan iki Azərbaycan əsgərindən birinin yanvarın 16-da qaytarılacağını bildirmişdir.

Cari ildə hərbi əsirlərlə bağlı işin davam etdiriləcəyini diqqətə çatdıran M.Amaşer itkin düşmüş şəxslərin axtarışı ilə əlaqədar yerli heyətə təlimlərin keçiriləcəyini, cəzaçəkmə müəssisələrində vərəm xəstəliyinə düçar olmuş dustaqların müalicəsi istiqamətində iş aparılacağını demişdir.

Nazir E.Məmmədyarov BQXK-nın ölkəmizdə fəaliyyət göstərdiyi on beş il ərzində mühüm işlər gördüyünü və Azərbaycan hökumətinin etimadını qazandığını bildirmişdir.

Qonağın Ermənistan və Azərbaycan arasında aparılan sülh danışıqlarının mövcud duru-

mu barədə sualına toxunan nazir, münaqişənin həllinin əsas prinsipləri üzrə razılığın ilkin mərhələ üçün əhəmiyyətini vurğulamış, bir sıra qüvvələrin, o cümlədən erməni diasporunun, Ermənistan daxilində gedən siyasi proseslərin bu işə mane olduğunu söyləmişdir.

Ermənistanın sərhədləri zor gücünə dəyişdirmək məqsədinin müasir dövrdə yolverilməz olduğunu xüsusi vurğulayan E.Məmmədyarov azərbaycanlı əhaliyə qarşı etnik təmizləmə siyasəti apardığını, bu işğalı "öz müqəddəratını təyin etmək" bəhanəsi ilə ört-basdır etmək cəhdlərini pisləmişdir.

Sonda qonaq Azərbaycan hökumətinin komitənin fəaliyyətinə göstərdiyi köməyə, xüsusilə də BQXK-nın büdcəsinə köçürülmüş vəsaitə görə təşəkkürünü bildirmiş, əməkdaşlığın davam etdiriləcəyini demişdir.

BAŞ NAZİR ARTUR RASİZADƏ POLŞA XARİCİ İŞLƏR NAZİRİNİN BİRİNCİ MÜAVİNİNİ QƏBUL ETMİŞDİR

Yanvarın 22-də Azərbaycan Respublikasının baş naziri Artur Rasizadə Polşa xarici işlər nazirinin birinci müavini Pavel Kovalın rəhbərliyi ilə ölkəmizdə səfərdə olan nümayəndə heyətini qəbul etmişdir.

Azərbaycanla Polşa arasında tarixi əlaqələrin mövcud olduğunu nəzərə çatdıran baş nazir Artur Rasizadə qeyd etmişdir ki, ölkələrimizin prezidentlərinin qarşılıqlı səfərləri zamanı müvafiq qanunvericilik bazasının formalaşdırılması əlaqələrimizin daha da genişlənməsinə böyük imkanlar açmışdır. İkitərəfli faydalı əməkdaşlığı dərinləşdirmək baxımından hökumətlərarası iqtisadi komissiyanın işinin səmərəliliyini daha da artırmağın vacib olduğunu qeyd edən baş nazir, regionda həyata keçirilən qlobal enerji və nəqliyyat layihələri barədə danışmışdır.

Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinə toxunan Artur Rasizadə, təcavüzkar separatizmin və Ermənistanın işğalçılıq siyasətinin bütün region üçün ağır nəticələr verdiyini diqqətə çatdırmışdır.

Polşalı diplomat Pavel Koval Azərbaycan ilə ölkəsi arasında əməkdaşlığın möhkəmləndirilməsinə dair Bakıda apardığı danışıqlar və keçirdiyi görüşlər barədə baş nazirə ətraflı məlumat vermişdir. Azərbaycanın regionda həqiqətən lider dövlətə çevrildiyini qeyd edən polşalı qonaq, enerji təhlükəsizliyini təmin etmək istəyən ölkəsinin təkcə neft-qaz sənayesi deyil, ümumən iqtisadi, siyasi, mədəni əməkdaşlıq sahəsində respublikamızla əlaqələrə böyük maraq göstərdiyini, polşalı iş adamlarının respublikamızla əlaqələri fəallaşdırmaq niyyətində olduğunu söyləmişdir.

Pavel Koval, həmçinin Avropa İttifaqına inteqrasiya sahəsində də respublikamıza Polşanın hər cür yardım etməyə hazır olduğunu bildirmişdir.

Görüşdə tərəfləri maraqlandıran bir sıra digər məsələlər ətrafında da fikir mübadiləsi aparılmışdır.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV FRANSANIN "LE MONDE DİPLOMATİQUE" QƏZETİNİN MÜXBİRİNƏ MÜSAHİBƏ VERMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev yanvarın 22-də Fransanın "Le Monde Diplomatique" qəzetinin müxbiri Sebastyen Bottariyə müsahibə vermişdir.

Dövlətimizin başçısı Azərbaycan-Fransa ikitərəfli münasibətləri, ümummilli liderimiz Heydər Əliyevin müasir, müstəqil Azərbaycan dövlətinin yaranmasında xüsusi rolu, regional məsələlər, xarici ölkələrin, o cümlədən fransalı iş adamlarının fəaliyyəti üçün respublikamızda yaradılmış şərait, Azərbaycanın iqtisadi əlaqələri, ölkəmizin əldə etdiyi böyük iqtisadi uğurlar və digər məsələlər barədə suallara cavab verdi.

AZƏRBAYCAN İLƏ KÜVEYT ARASINDA ƏLAQƏLƏR YÜKSƏK SƏVİYYƏDƏDİR

Küveytdə səfərdə olan xarici işlər naziri Elmar Məmmədyarov yanvarın 21-də Küveyt Dövlətinin əmiri şeyx Sabah Əl-Əhməd Əl-Cabir Əl-Sabah ilə görüşmüşdür.

Nazir E. Məmmədyarov Azərbaycan Prezidenti İlham Əliyevin Küveyt əmirinə və xalqına səmimi salamlarını çatdırmışdır.

Küveyt əmiri Azərbaycan Prezidenti İlham Əliyevin Küveytə rəsmi səfərini məmnuniyyətlə gözlədiklərini bildirmişdir.

Daha sonra nazir Elmar Məmmədyarov ölkələrimiz arasında inkişaf etməkdə olan ikitərəfli münasibətlərə toxunaraq, Azərbaycan Prezidenti İlham Əliyevin Küveytə nəzərdə tutulan səfərindən sonra bu əlaqələrin daha yüksək səviyyəyə qalxacağına əmin olduğunu bildirmiş, Küveyt əmirini Azərbaycana səfərə dəvət etmişdir.

Görüşdə Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinə toxunan nazir, Küveytin Azərbaycana göstərdiyi daimi dəstəyə görə minnətdarlığını bildirmişdir.

Küveyt əmiri Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin sülh yolu həllinin tərəfdarı olduğunu söyləyərək, ölkəsinin bundan sonra da Azərbaycanın haqlı mövqeyini bütün müstəvilərdə dəstəkləyəcəyini bəyan etmişdir.

***

Həmin gün nazir E.Məmmədyarov Küveyt dövlətinin Baş naziri şeyx Nasir Əl-Məhəmməd Əl-Əhməd Əl-Sabahla görüşmüşdür. Nazir dövlətimizin başçısı İlham Əliyevin salamlarını həmsöhbətinə çatdırmışdır.

İkitərəfli münasibətlərdən söz açan nazir Elmar Məmmədyarov, iqtisadi, ticarət, turizm və səhiyyə sahəsində əməkdaşlığın inkişaf etdirilməsinin vacibliyini bildirmiş, ölkələrimiz və xalqlarımız arasında dini, mədəni və tarixi əlaqələri məmnunluqla diqqətə çatdırmışdır.

Regionda sülhün və əmin-amanlığın təmin edilməsinin vacibliyini qeyd edən nazir, Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin sülh yolu ilə həlli istiqamətində görülən işlər barədə ətraflı məlumat vermişdir.

Küveytin Baş naziri qarşılıqlı səfərlərin ikitərəfli münasibətlərə töhfə verdiyini vurğulayan şeyx Nasir Əl-Məhəmməd Əl-Əhməd Əl-Sabah, Küveytin Azərbaycanın ədalətli mövqeyini daim dəstəkləyəcəyini demiş, azərbaycanlı qaçqın və məcburi köçkünlərə göstərilən humanitar yardımın bundan sonra da davam etdiriləcəyini diqqətə çatdırmışdır.

***

Xarici işlər naziri Elmar Məmmədyarovun Küveyt parlamentinin sədri Casim əl-Xərrafi ilə görüşündə ölkələrimizin qanunvericiorqanları arasında əlaqələri, parlamentlərarası dostluq qrupunun fəaliyyəti ətrafında fikir mübadiləsi aparılmış və parlament sədrlərinin qarşılıqlı səfərlərinin həyata keçirilməsinin vacibliyi vurğulanmışdır.

Küveyt Baş nazirinin müavini, xarici işlər naziri şeyx Məhəmməd Sabah Əl-Səlim Əl-Sabah ilə görüşdə ölkələrimiz arasında siyasi əlaqələrin yüksək səviyyədə olduğu vurğulanmış, habelə iqtisadi və humanitar sahələrdə münasibətlərin daha da genişləndirilməsi və bu əməkdaşlığın hüquq-müqavilə bazasının gücləndirilməsi yollarına dair fikir mübadiləsi aparılmışdır.

Tərəflər Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi barədə söhbət açmış, Küveyt rəsmisi ölkəsinin Azərbaycanın haqq işini daim dəstəklədiyini, Ermənistanın Azərbaycana qarşı hərbi təcavüzünü qəti pislədiyini bəyan etmişdir.

Elmar Məmmədyarov, Azərbaycanın ədalətli mövqeyini dəstəklədiyinə, habelə azərbaycanlı qaçqın və məcburi köçkünlərə daim göstərilən humanitar yardıma görə Küveyt tərəfinə minnətdarlığını bildirmişdir.

Şeyx Məhəmməd Sabah Əl-Səlim Əl-Sabah Azərbaycanın Küveytə göstərdiyi daimi dəstəyə görə dərin minnətdarlığını bildirmişdir.

Nazir E. Məmmədyarov respublikamızda həyata keçirilən islahatlar, neft və energetika sahəsində əldə olunmuş nailiyyətlər, habelə qeyri-neft sektoru, xüsusilə də turizm və kənd təsərrüfatı sahələrinin inkişafı istiqamətində görülən işlər barədə küveytli həmkarına məlumat vermişdir.

Görüşdə hər iki ölkədə səfirliklərin qarşılıqlı əsasda təsis edilməsinin ikitərəfli münasibətlərin inkişafına əvəzsiz təkan verdiyi vurğulanmışdır.

Sonda "Azərbaycan Respublikası Xarici İşlər Nazirliyi ilə Küveyt Xarici İşlər Nazirliyi arasında ikitərəfli məsləhətləşmələrə dair Anlaşma Memorandumu" imzalanmışdır.

Həmin gün Ərəb İqtisadi İnkişafı üzrə Küveyt Fondunun baş direktorunun müavini Hişam Əl-Uqeyyan ilə görüşdə fondun Azərbaycana ayırdığı kreditlər, habelə gələcəkdə maliyyələşdirilə biləcək layihələr barədə müzakirələr aparılmışdır.

Nazir Azərbaycanda həyata keçirilən müxtəlif layihələrin maliyyələşdirilməsinə görə fondun rəhbərliyinə minnətdarlığını bildirmiş, kreditlərin davam etdiriləcəyinə ümidvar olduğunu söyləmişdir.

Hişam Əl-Uqeyyan Azərbaycan ilə bundan sonra da səmərəli əməkdaşlığı davam etdirmək niyyətində olduqlarını bildirərək, yaxın gələcəkdə yeni layihəyə kredit ayrılacağını diqqətə çatdırmışdır.

AZƏRBAYCAN RESPUBLİKASININ XARİCİ İŞLƏR NAZİRLİYİ VƏ KÜVEYT DÖVLƏTİNİN XARİCİ İŞLƏR NAZİRLİYİ ARASINDA MƏSLƏHƏTLƏŞMƏLƏRƏ DAİR ANLAŞMA MEMORANDUMU

21 yanvar 2007-ci il

Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi və Küveyt Dövlətinin Xarici İşlər Nazirliyi (bundan sonra "Tərəflər" adlandırılacaq),

İki ölkə arasında mövcud olan dostluq münasibətləri və əməkdaşlığı təşviq etmək niyyətilə,

1961-ci il Diplomatik əlaqələr haqqında Vyana konvensiyasını rəhbər tutaraq,

Beynəlxalq məsələlər və iki dövlət arasındakı ikitərəfli münasibətlərin bütün aspektləri üzrə konstruktiv dialoqun əhəmiyyətini təsdiq edərək,

Aşağıdakılar barədə razılığa gəldilər:

MADDƏ 1

Tərəflər ümumi maraqlar kəsb edən beynəlxalq məsələlər, eləcə də Tərəflər arasında əməkdaşlığı genişləndirmək və dərinləşdirmək imkanlarını müzakirə etmək məqsədilə mütəmadi surətdə yüksək səviyyəli rəsmi məsləhətləşmələr keçirəcəklər.

MADDƏ 2

1. Məsləhətləşmələr Beynəlxalq Təşkilatlar yanında daimi nümayəndəliklər arasında və ya Beynəlxalq Konfranslar çərçivəsində, eləcə də alternativ olaraq Küveyt və ya Azərbaycanda ildə bir dəfə və ya zərurət olduğu təqdirdə daha tez-tez keçiriləcəkdir.

2. Hər bir məsləhətləşmə və ya görüşün gündəliyi diplomatik kanallar vasitəsilə müəyyənləşdiriləcəkdir.

MADDƏ 3

Tərəflərin razılığı olduğu təqdirdə məsləhətləşmələrin nəticəsi ictimaiyyətə açıqlanacaqdır.

MADDƏ 4

Tərəflər ümumi maraqlar kəsb edən məsələlərin spesifik sahələrini müzakirə etmək məqsədilə işçi qrup və ya ekspert görüşləri təşkil edə bilərlər.

MADDƏ 5

Tərəflərin qarşılıqlı razılığı əsasında Anlaşma Memorandumuna əlavələr edilə bilər.

MADDƏ 6

1. Bu Anlaşma Memorandumu imzalandığı tarixdən qüvvəyə minir.

2. Bu Anlaşma Memorandumu 2 (iki) il ərzində qüvvədə qalır və Hər iki Tərəfdən biri iki illik müddətinin başa çatmasına ən azı 3 (üç) ay qalmış digər Tərəfə onun qüvvəsini ləğv etmək niyyəti barədə yazılı bildiriş təqdim etməzsə, Memorandum avtomatik olaraq növbəti iki illik müddətə uzadılır.

Bu Memorandum bütün mətnlər eyni qüvvəyə malik olmaqla, iki əsl nüsxədə Azərbaycan, ərəb və ingilis dillərində 21 yanvar 2007-ci il tarixində Əl-Küveyt şəhərində imzalanmışdır. Mətnlərin təfsirində fikir ayrılığı yarandığı təqdirdə, ingilis dilində olan mətndən istifadə ediləcəkdir.

AZƏRBAYCAN RESPUBLİKASININ XARİCİ İŞLƏR NAZİRİ	KÜVEYT DÖVLƏTİ BAŞ NAZİRİNİN MÜAVİNİ, XARİCİ İŞLƏR NAZİRİ
ELMAR MƏMMƏDYAROV	*MƏHƏMMƏD SABAH ƏL-SƏLİM ƏL-SABAH*

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN FRANSANIN "FİQARO" QƏZETİNƏ MÜSAHİBƏSİ

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev yanvarın 23-də Prezident sarayında Fransanın "Fiqaro" qəzetinin redaktor müavini Pyer Ruselinə müsahibə vermişdir.

- İcazənizlə, söhbətimizə neft və qaz məsələsindən başlayım və belə bir sual verim: ötən yay Bakı-Tbilisi-Ceyhan boru kəmərinin istismara verildiyini və bu il qaz boru kəmərinin işə düşməsini nəzərə alaraq, Sizin fikrinizcə, neft və qaz idxalında mənbələrin müxtəlifləşdirilməsində Azərbaycan Avropaya hansı köməyi göstərə bilər?

- Neft və qaz layihələrimizi başladığımız zaman biz, əlbəttə ki, Avropa bazarlarındakı enerji məsələsi ilə bağlı bu cür vəziyyətin yaranacağını bilmirdik. Buna görə də, artıq çəkilmiş neft və qaz boru kəmərləri nəinki bizim öz tələbatlarımızın, həm də dünya bazarlarına etibarlı çıxışın təmin edilməsinə yönəlibdir. Çünki əvvəllər Azərbaycanın dünya bazarlarına birbaşa çıxışı olmayıb və bu boru kəmərinin tikintisi zəruri xarakter almışdır. Neft və qaz boru kəmərləri artıq çəkilibdir. Bakıdan Ceyhana çəkilmiş boru kəməri artıq istifadə olunur və onunla nəql edilən neftin həcmi artmaqdadır. Bu il biz gündə təqribən bir milyon barrel neft hasil edəcəyik. Türkiyəyə və oradan Yunanıstan vasitəsilə Avropaya çıxışı təmin edən qaz boru kəməri də artıq çəkilib və biz bir trilyon kubmetr təbii qaz ehtiyatı olan nəhəng "Şahdəniz" yatağında hasilat əməliyyatlarını başlamalıyıq. Ümid edirik ki, hasilat yaxın vaxtlarda başlayacaqdır.

Belə oldu ki, boru kəmərləri tikintisinin başa çatması Avropada enerji təhlükəsizliyinin gündəliyə çıxması ilə üst-üstə düşdü. Bu, böyük və müsbət hadisə oldu. Ona görə də Avropa İttifaqı ilə Azərbaycan arasında olan münasibətlərdə artıq bu müddəa var və ötən ilin noyabr ayında Brüsseldə Azərbaycan ilə Avropa İttifaqı arasında enerji məsələləri üzrə strateji tərəfdaşlığa dair memorandum imzalanmışdır. Hazırda biz Avropa ilə Azərbaycan arasında əməkdaşlığın yeni sahəsinə qədəm qoyuruq. Azərbaycan etibarlı tərəfdaşdır və bu günə qədər beynəlxalq şirkətlər ilə həyata keçirdiyimiz enerji layihələri çox uğurlu olmuşdur. Biz məsuliyyətli tərəfdaşıq və Avropanın enerji bazarında etibarlı təchizat mənbəyinə çevriləcəyik.

- Əvvəlcə Ukrayna, sonra isə Gürcüstan və indi isə Azərbaycanla neft və qaz qiymətləri mübahisəsindən sonra Sizin Rusiya ilə münasibətləriniz necədir? Siz bu sahədə tam mənada müstəqilsinizmi?

- Bəli, biz müstəqilik. Amma bununla belə, son dörd-beş il ərzində biz Rusiya ilə çox fəal əməkdaşlıq etmişik. Biz əvvəlki vaxtda Rusiyadan qaz alırdıq və öz qaz hasilatımızı tələbatımızı tam ödəmədiyinə görə, həmin qazı elektrik stansiyalarında istifadə edirdik. Biz öz tələbatımızın yarısı həcmində qaz hasil edirik. Buna görə də daha səmərəli iqtisadi dividentləri əldə etmək üçün və bundan əlavə, elektrik stansiyaları üçün ekoloji cəhətdən daha təmiz enerji daşıyıcısını istifadə etmək məqsədi ilə biz Rusiyadan min kubmetri 110 ABŞ dollarına 4.5 milyard kubmetr həcmində qaz alırdıq. Bu qiymət təqribən digər keçmiş Sovet İttifaqı respublikalarına da tətbiq olunurdu. Bu il onlar Azərbaycan üçün min kubmetrin qiymətini 235 dollara qaldırmışdılar. Biz bundan birmənalı şəkildə imtina etdik. Biz Rusiya vasitəsilə nəql etdiyimiz neftimizi elektrik stansiyalarımı təchiz edəcək yanacağa çevirmək üçün onu neft emalı zavodlarına yönəltdik. Beləliklə, "Qazprom"la qaz əməkdaşlığımız bitdi. Biz bundan əziyyət çəkmirik. Əlbəttə ki, biz bu əməkdaşlığı qəbul oluna biləcək qiymətlə davam etdirmək istədik, lakin onun olduqca yüksək və qeyri-faydalı olmasını gördükdə, razılıq vermədik.

- Sizin fikrinizcə, Rusiya enerji daşıyıcılarını öz təsirini gücləndirmək üçün vasitə hesab edirmi?

- Bunu şərh etmək çətindir. Rusiya ilə ikitərəfli münasibətlərimizə gəldikdə, deyə bilərəm ki, bu, olduqca müsbət istiqamətdə inkişaf etmişdir və indi də inkişaf edir. Bizim bir çox ümumi layihələrimiz var və hesab etmirik ki, Azərbaycan üçün qazın qiymətinin qaldırılmasında siyasi məna var idi. Biz öz tələbatlarını ödəyən və böyük həcmdə enerji daşıyıcıları hasil edən ölkəyik. Ötən il ölkəmiz 30 milyon tondan çox neft hasil etmişdir.

- Gəlin, digər qonşunuz haqqında danışaq. Söhbət İrandan gedir. Son xəbərlərdə bu ölkənin adı nüvə böhranı ilə bağlanılır. Siz müəyyən hərbi əməliyyatların keçirilməsi ehtimalından narahatsınızmı? ABŞ və ya İsrail İrana qarşı hərbi əməliyyatlar keçirməyə cəhd edə bilər. Bu, Sizi narahat edirmi?

- Biz mövcud və potensial münaqişələrin olduğu bir regionda yaşayırıq. Ona görə biz region üçün təhdidləri minimal səviyyəyə endirməyə çalışmalıyıq. Regionun hər bir ölkəsi baş verə biləcək hərbi əməliyyatlardan əziyyət çəkəcəkdir. Bu, region üçün böyük fəlakət olardı. Biz hesab edirik ki, əməkdaşlıq və danışıqlar həll olunmamış məsələlərin aradan qaldırılması və ümumi həll variantının tapılmasında ən münasib yoldur.

- Zənnimcə, mən bu sualı ötən dəfə Sizə vermişdim, əgər İrana qarşı hərbi əməliyyatlar keçirilərsə, onda Azərbaycanın mövqeyi necə olacaqdır? Siz ərazinizdən uçuşlara icazə verərsiniz, yoxsa?..

- Biz heç vaxt elə bir addım atmarıq ki, qonşulara ziyan dəysin. İran qonşumuzdur və bizim çox yaxşı münasibətlərimiz var. İranda milyonlarla azərbaycanlı yaşayır. Bu, təqribən 30 milyon insandır. Bizim hökumətlərarası sazişimiz var və orada qeyd edilir ki, ölkələrimizdə bir-birimizə qarşı heç bir addım atılmayacaqdır və ya bir-birimizə ziyan gətirəcək heç bir tədbir görülməyəcəkdir.

- Lakin bildirilir ki, İran Azərbaycanda müəyyən rol oynamağa çalışır və buradakı islamçı hərəkatları və partiyaları canlandırmaq istəyir. Bu məsələ narahatlıq doğururmu?

- Xeyr. Biz dünyəvi ölkəyik. Bizim tamamilə fərqli olan idarəçilik strukturumuz var. Dini amil və ya ekstremizm narahatlıq doğura biləcək məsələ kimi Azərbaycanda mövcud

deyildir. Biz nəinki Konstitusiyaya əsasən, həm də insanların gündəlik həyatı timsalında dünyəvi ölkəyik. Ona görə də, bu, bizim üçün təhlükə, bizi narahat edə biləcək məsələ deyildir. Azərbaycanda bir çox müxtəlif dinlərin nümayəndələri bir ailə kimi yaşayır. Burada bir çox millətlərin nümayəndələri yaşayır. Biz olduqca yüksək dözümlülük səviyyəsi və bütün ənənələrə hörmətlə yanaşması ilə seçilən çoxmillətli ölkəyik. Eyni zamanda, ölkəmizdə din dövlətdən ayrıdır.

- Eşitdim ki, Moskvada bir görüş keçirilibdir. Görüş Sizin və Ermənistanın xarici işlər nazirləri arasında Dağlıq Qarabağ məsələsi ilə bağlı təşkil olunmuşdur. Bu məsələdə irəliləyiş nə yerdədir?

- Əfsuslar olsun ki, hələlik heç bir nəticə yoxdur. Bu, əsasən Ermənistanın qeyri-konstruktiv mövqeyi ilə bağlıdır. Bu ölkə beynəlxalq hüququn bir çox elementlərini pozur və Azərbaycan torpaqlarını işğal altında saxlamaqda davam edir. Bu işğal və etnik təmizləmə siyasəti nəticəsində bir milyon azərbaycanlı qaçqın-köçkün vəziyyətinə düşmüşdür. Ərazimizin 20 faizi işğal altındadır. Etnik təmizləmə siyasəti başa çatdırıldıqdan və nəinki Dağlıq Qarabağın özündən, həm də onun ətrafındakı ərazilərdən sonuncu azərbaycanlı qovulandan sonra, onlar bu yaxınlarda qondarma konstitusiya ilə bağlı "referendum" keçirmişlər. Bu, tamamilə qanunsuz bir hərəkət idi. Bütün beynəlxalq təşkilatlar bunu pislədi. ATƏT, o cümlədən bu təşkilatın Minsk qrupunun həmsədrləri olan Birləşmiş Ştatlar, Fransa və Rusiya, habelə Avropa İttifaqı, Avropa Şurası, İslam Konfransı Təşkilatı, GUAM, Türkiyə – hamı bu addımı pislədi və bəyan etdilər ki, onlar Azərbaycanın ərazi bütövlüyünü dəstəkləyirlər. Bundan əlavə, Azərbaycanın ərazi bütövlüyü Birləşmiş Millətlər Təşkilatı tərəfindən tanınır və dəstəklənir. Ona görə də Ermənistanın Dağlıq Qarabağı Azərbaycandan qoparmağa yönəlmiş bütün cəhdləri heç bir uğur gətirməyəcək və belə cəhdlərin heç bir gələcəyi yoxdur. Onlar, sadəcə, anlamalıdırlar ki, bu, heç vaxt baş tutmayacaqdır. Azərbaycan Dağlıq Qarabağın müstəqilliyinə heç vaxt razılıq verməyəcəkdir. Onlara Azərbaycanın ərazi bütövlüyü çərçivəsində yüksək səviyyəli muxtariyyət təklif olunur.

Bu cür muxtariyyətin nümunələri bir çox ölkələrdə var. Yəni, həmin yerlərdə azlıqlar azlıq kimi yaşayır. Azlıq olmaq o demək deyil ki, sən yaşadığın ərazini ölkədən qoparmaq hüququna maliksən. Dünyada yaşayan hər bir azlıq özünə müstəqillik tələb etsə, nələr baş verər? Bu, fəlakət olar. Bir çox ölkələrdə azlıqlar var və həmin dövlətlər normal yaşayır.

Bizim də təklif etdiyimiz ondan ibarətdir ki, Dağlıq Qarabağ ermənilərı Azərbaycanın hüdudları çərçivəsində mümkün yüksək muxtariyyət statusuna malik ola bilərlər. Lakin onlar buna razılaşmır. Onlar beynəlxalq dəstəyə göz dikiblər və bu dəstək də get-gedə azalır. Onlar erməni lobbisinə arxalanırlar. Həmin lobbi isə ermənilərin müxtəlif ölkələrdəki təcavüzkar hərəkətlərini dəstəkləyir. Lakin bunun yalnız müvəqqəti təsiri var. Bu gün Ermənistan öz qüdrətini artıran və hər bir baxımdan – iqtisadi, siyasi, hərbi cəhətdən çox güclənən Azərbaycanla rəqabət apara bilməz. Yaxşısı budur ki, onlar bu gün təqdim olunan təklifləri anlasınlar. Sabah və yaxud bir ildən sonra təkliflərimiz daha da sərtləşə bilər. Belə olarsa, onlar özlərini daha çətin vəziyyətə salacaqlar. Bir sözlə, 2006-cı ilin heç bir nəticəsiz başa çatmasının səbəbi Ermənistanın siyasəti ilə bağlıdır.

Mən Sizə əlavə bir məsələni deyə bilərəm. Prezident Şirak hər iki ölkənin başçısını

Fransaya dəvət edərək, Rambuye qəsrini onların ixtiyarına verdiyi vaxt, Ermənistan Prezidenti danışıqları sonuncu mərhələ ərəfəsində tərk etmişdir. Biz birinci gün görüşdük və nəzərdə tutulurdu ki, ikinci gün də görüş olacaqdır. Hətta planlaşdırılırdı ki, Prezident Şirak da sonda bizə qoşulacaqdır. Lakin Ermənistan Prezidenti imtina etdi və olduqca müəmmalı səbəb gətirərək, danışıqları yarımçıq qoyub getdi. Məhz bu, onların yürütdüyü siyasətin açıq-aydın təzahürüdür. Onlar məsələni yubandırmaq, vaxt udmaq istəyirlər. Bilmirəm, onlar bunu nəyə arxalanaraq edirlər? Bununla belə, uğursuz danışıqların ağırlığını bizim üzərimizə atmaq istəyirlər. Lakin bütün beynəlxalq ictimaiyyət və ATƏT-in Minsk qrupu görür ki, məhz onların siyasəti nəticəsində münaqişənin həlli baş tutmur. Beləliklə, vaxt keçdikcə, kimin hansı vəziyyətdə olduğu bəlli olacaqdır. Biz danışıqları daimi apara bilmərik.

- Azərbaycan tərəfindən bildirilir ki, əgər bu məsələ ATƏT və ya onun Minsk qrupu çərçivəsində öz həllini tapmasa, onda bəlkə Birləşmiş Millətlər Təşkilatı bununla məşğul olsun?

- Bu, tam Sizin təsvir etdiyiniz kimi deyildir. Biz hazırda hesab etmirik ki, Minsk qrupu hər hansı digər təşkilat ilə əvəz edilsin. Lakin eyni zamanda düşünürük ki, əgər digər təşkilatlar da bu məsələ ilə məşğul olsa, bunun faydası ola bilər. Misal üçün, iki il bundan əvvəl Avropa Şurası münaqişə ilə bağlı qətnamə qəbul etmişdir və orada aydın şəkildə deyilir ki, Ermənistan Azərbaycana qarşı təcavüz edibdir. Bu, həll üçün yeni əsas yaradan müsbət siyasi bəyanat idi. Avropa İttifaqı Ermənistan və Azərbaycanla imzaladığı beşillik proqrama bu məsələ ilə bağlı müddəanı əlavə etmişdir. Avropa İttifaqı ilə imzaladığımız Yeni qonşuluq siyasəti haqqında sənəddə ölkəmizin ərazi bütövlüyü aydın şəkildə tanınır. Bunlar vacib rol oynayır. Eyni sözləri Birləşmiş Millətlər Təşkilatına da şamil etmək olar. Daha sonra, GUAM təşkilatı var. Onun dörd üzvü var və onların üçündə eyni münaqişə mövcuddur. Onlar bu məsələ ilə bağlı BMT-də təşəbbüs irəli sürmüşlər və bu, hazırda müzakirə olunmaqdadır. Bu, formatı dəyişmək cəhdi kimi qəbul edilməməlidir, müzakirəni daha da genişləndirmək səyləri ilə bağlıdır. Təbii ki, Ermənistan buna qarşı çıxır, çünki onlar hesab edirlər ki, beynəlxalq təşkilatlar bu münaqişə haqqında nə qədər az məlumatlı olsalar, bu, onların xeyrinə olacaqdır. Onlar münaqişənin nəticələri ilə bağlı ictimai rəyi çaşdırmağa çalışırlar. Lakin bu, baş tutmur və hamının bu haqda məlumatı var. Məhz bu səbəbə görə biz məsələnin digər təşkilatlarda da müzakirə etmək təşəbbüsünü irəli sürmüşük.

- Burada hər hansı beynəlxalq sülhməramlı qüvvələrin yerləşdirilməsi məsələsi varmı? Bu, Ermənistan üçün problem ola bilərmi?

- Mən belə hesab etmirəm. Fikrimcə, əgər onlar bütün qoşunları işğal olunmuş ərazilərdən çıxarsalar, Dağlıq Qarabağdakı ermənilərin təhlükəsizliyini təmin etmək üçün müəyyən müddət beynəlxalq sülhümühafizə əməliyyatları aparıla bilər. Biz buna etiraz etmirik. Bu, hətta, Ermənistan həmin məsələnin üzərində dayandığı halda da baş tuta bilər, çünki həmin qüvvələr bizə lazım deyildir. Əgər onlar öz rahatlığını təmin etmək istəyirlərsə və yaxud münaqişənin yenidən başlanması ehtimalından çəkinirlərsə, onda biz bunu müzakirə edə bilərik. Lakin bu günə qədər bizim aramızda heç bir beynəlxalq sülhməramlı qüvvələrin yerləşdirilməsi məsələsi olmamışdır. Yəni, özümüz təmas xəttindəyik.

- Əgər bu məsələdə Rusiya, Avropa İttifaqı və ya Birləşmiş Ştatların roluna gəlsək, Sizin fikrinizcə, hansı tərəf öz təzyiqini artırmalıdır?

- Onların hamısı. Minsk qrupu sizin indicə qeyd etdiyiniz həmsədr ölkələrdən ibarətdir. Onlar vahid heyət kimi işləyir və bizə yardım etməyə çalışırlar. Rusiya, Fransa və Birləşmiş Ştatların nümayəndələri bizimlə görüşməyə gəlir, məsələnin həllinə kömək məqsədi ilə Azərbaycana və Ermənistana səfərlər edirlər. Eyni zamanda, prezidentlər və xarici işlər nazirləri arasında müzakirə olunan məsələləri yekun formaya salmağa çalışırlar. Biz onları bir qrup kimi dəyərləndiririk və hesab edirik ki, onlardan hər birini fərdi qaydada qiymətləndirməkdənsə, bu, ən münasib formatdır.

- Siz vaxt meyarının Azərbaycan və Ermənistan tərəfindən istifadə olunduğunu qeyd etdiniz. Lakin vaxt məhduddur və bəlkə də, məsələ yubansa, daha pis olar. Siz məsələnin hərbi yolla həllini nəzərdə tutursunuzmu və Azərbaycanın hərbi baxımdan inkişafını necə görürsünüz?

- Biz mümkün olan həll yollarının heç birini istisna edə bilmərik. 12 illik atəşkəsdən sonra Azərbaycanın münaqişənin sülh danışıqları əsasında həllinə sadiq olması faktı bizim iradəmizi aydın şəkildə nümayiş etdirir. Lakin 12 il danışıqlar aparmaq və bu müddət ərzində ərazilərin işğal altında qalmasına dözmək və heç bir nəticə olmasa da, işğala yenə də sülh yolu ilə son qoymağa çalışmaq, ola bilsin ki, tarixdə ən nadir hallardan biridir. Gələcəkdə biz bu danışıqları nə qədər aparmalıyıq? Əlavə on iki il də gözləməliyik? Bu, belə olmayacaqdır. Burada vaxt məhdudiyyəti və səbrin hüdudları var. Ötən illər ərzində, yəni on il bundan əvvəl, Ermənistan ilə Azərbaycan arasındakı qüvvələrin tarazlığı siyasi əhəmiyyət baxımından müəyyən dərəcədə eyni idi. Bəlkə də, onlar daha üstün vəziyyətdə idilər, çünki onlarınkı kimi, bizim Qərbdə və digər ölkələrdə güclü lobbimiz yox idi. Bunu, iqtisadi və hərbi baxımdan da demək olardı.

İndi isə, qüvvələrin tarazlığı dəyişibdir. İqtisadiyyatımız Ermənistanın iqtisadiyyatından təxminən 7 dəfə böyükdür. Bizim təkcə build hərbi büdcəmiz Ermənistanın bütün dövlət büdcəsinə bərabərdir. 2007-ci il üçün hərbi xərclərimiz 1 milyard ABŞ dolları səviyyəsində nəzərdə tutulur. Dövlət büdcəmiz 6,5 milyard dollardır. Ermənistanın büdcəsi isə, yalnız 1 milyard dollardır. Bir sözlə, bu, aydındır.

Bundan əlavə, gələcək üçün iqtisadi perspektivlər də genişdir. Dünya Bankının qənaətinə görə, Azərbaycan gələn iyirmi il ərzində enerji layihələrindən 140 milyard dollar əldə edəcəkdir. Bu, həddindən artıq böyük həcmdə maliyyə vəsaitidir. Biz həmin vəsaitləri güclü ölkə qurmaq üçün sərf edirik. İnsanlara daha yaxşı əmək haqları, pensiyalar verməyə, iş yerləri və infrastruktur yaratmağa çalışırıq. Lakin eyni zamanda, bir Prezident kimi mənim üçün və hesab edirəm ki, bütün Azərbaycan vətəndaşları üçün Dağlıq Qarabağ münaqişəsinin həlli bir nömrəli məsələdir. Ölkənin iqtisadi potensialı, siyasi əhəmiyyəti və çəkisi, enerji sahəsində əməkdaşlığı və sair meyarlar əsasında Azərbaycanın öz məqsədinə çatmaq, yəni torpaqlarını azad etmək iqtidarında olmasını hesablamaq çətin deyildir. Biz bunu sülh yolu ilə etmək arzusundayıq və müharibənin yenidən başlanmasını istəmirik. Lakin başqa yol qalmasa, heç nəyi istisna etmək olmaz.

- Bəs, bu cür böyük hərbi büdcə ilə Siz nə edəcəksiniz? Silah alacaqsınızmı?

- Bəli. Biz bir çox silahları alırıq. Yəni bizim müdafiə gücümüzü möhkəmləndirəcək daha çox silahları almaqdayıq.

- İkitərəfli məsələlərə gəldikdə, Sizin Fransaya dövlət səfərinizin əsas məqsədi nədən ibarətdir?

- Prezident seçildikdən sonra mən bir neçə dəfə Parisdə səfərdə olmuşam. Yeri gəlmişkən deyim ki, Prezident kimi mənim ilk rəsmi səfərim məhz Fransaya olmuşdur. Bu, seçkilərdən üç ay sonra, 2004-cü ilin yanvar ayında baş tutdu. Daha sonra mən Fransaya bir neçə dəfə işgüzar səfər etmişəm. Lakin bu dəfə dövlət səfəri olacaq. Bu, ən yüksək səviyyəli səfərdir və gələcəkdə ikitərəfli münasibətlərimizin inkişafında çox böyük rol oynayacaqdır. Mən Prezident Şirakla dəfələrlə görüşmüşəm. Bizim ikitərəfli münasibətlər, regional inkişaf və təbii ki, Dağlıq Qarabağ məsələsinin həllinə dair olduqca səmimi və dostcasına müzakirələrimiz olmuşdur. İndiki səfər fikir mübadiləsi aparılması üçün əlavə bir imkan olacaqdır.

Ölkələrimiz arasında çox gözəl siyasi əlaqələr var. İqtisadi əməkdaşlıq artır. Fransa şirkətləri Azərbaycanın müxtəlif sahələrində çox fəaldır. Biz Fransa sənayesinin bir çox məhsullarını, məsələn, milli hava şirkətimiz üçün "Airbus" təyyarələri alırıq. Bu il "Azərbaycan Hava Yolları" üçün əlavə Fransa təyyarələrinin alınması ilə bağlı daha bir müqavilə imzalanacaqdır. Vertolyotlar və bir çox digər məhsullar da alınır.

Təbii ki, Azərbaycanın maliyyə resursları artdıqca, biz ticarət münasibətlərimizi daha da genişləndirmək imkanlarına malik olacağıq. Bizim bir çox infrastruktur və inkişaf layihələrimiz var. Fransa şirkətlərinin yaxşı nüfuzu və iş keyfiyyəti var və onlar Azərbaycanda daha fəal ola bilər. Əvvəlki səfərlərim zamanı fransız sahibkarları ilə MEDEF-də iki görüşüm olub və Azərbaycanda gələcək fəaliyyət sahələri müzakirə edilibdir. Bu görüşlərin çox yaxşı nəticəsi olmuşdur. Onlar ölkəmizə böyük şirkətlər qrupu ilə gəlmiş və müvafiq iş aparmışlar. Azərbaycanda biznes aparmaq sahəsində böyük imkanlar vardır. Ölkələrimiz və prezidentlər arasında çox güclü siyasi, dostluq münasibətləri olduğunu da nəzərə alsaq, biznes adamları üçün yaxşı fürsət yaranıb və bu gün seçim böyükdür.

- Üzr istəyirəm, insan hüquqlarını müdafiə təşkilatları və Avropa Şurası həmişə şikayətlənir ki, ölkənizdə vəziyyət daha da çətinləşir. Sizin cavabınız necə olardı?

- Mən elə hesab etmirəm ki, onlar bunu deyirlər. Fikrimcə, onlar deyirlər ki, vəziyyət daha da yaxşılaşır. Sizin məlumatınız artıq köhnəlibdir. Artıq altı ildir ki biz Avropa Şurasına üzv olmuşuq. Həmin təşkilata qəbul olunmaq məhz Azərbaycanın öz seçimi idi. Biz bunu qəsdən və ya kiminsə təzyiqi altında etməmişik. Təbii ki, qəbul olunduqda biz üzərimizə öhdəliklər götürmüşük və onları yerinə yetiririk. Həmin öhdəliklərin yerinə yetirilməsi, sadəcə, onunla bağlı deyil ki, bunu Avropa Şurası qarşısında etmək lazımdır. Bu, ölkəmizin inkişafına yardım edir. Buna görə də Avropa Şurasına qəbul olunduqdan sonra Azərbaycanın tənqid edildiyi bir çox məsələlər aradan qaldırıldı. Biz onları həll etdik. "Siyasi məhbuslar" məsələsi, demokratik proses öz həllini tapdı. Ölkəmiz Avropaya daha sıx inteqrasiya edən və daha açıq olan ölkəyə çevrilir. Ona görə də, son illər ərzində biz o qədər də tənqid yox, müsbət mesajlar alırıq. Tənqidə gəldikdə isə, o, hər zaman var. Demokratiya baxımından ən inkişaf etmiş ölkələr də bəzən Avropa Şurası tərəfindən tənqid edilir. Bu, normaldır. Tənqid obyektiv olduqda və bizim inkişafımıza xidmət etdikdə ona çox dözümlü yanaşırıq.

Bundan əlavə, mən sizə deyə bilərəm ki, ötən ilin noyabr ayında Avropa İttifaqı ilə imzalanmış beşillik proqram siyasi və iqtisadi mövzularla yanaşı, insan hüquqları və demokratik prosesə aid hissəni də özündə əks etdirir. Bu da bizim seçimimiz idi. Heç kəs bizi bunu imzalamağa məcbur etməmişdir. Bu addımı atdıq, çünki hesab edirik ki, bizə lazımdır. İndi biz Azərbaycanda olan iqtisadi, siyasi və demokratik meyarları Avropa İttifaqında olan meyarlara uyğunlaşdırmağa çalışırıq. Bu, bizə lazımdır və belə razılaşmalara gəlməyimizin və həmin öhdəlikləri götürməyimizin əsas səbəbidir.

Demək istəyirəm ki, Azərbaycan öz tələbatlarını ödəyən ölkədir, heç kimdən asılı deyilik. Bizim kadrlarımız və olduqca istedadlı insanlarımız var. Biz önəmli coğrafi məkanda yerləşirik. Ölkəmiz regional işlərə lazımi dərəcədə inteqrasiya olunubdur. İqtisadi baxımdan öz tələbatlarımızı ödəyirik. Bundan başqa, artıq başlanmış və gələcəkdə uzun illər, onilliklər ərzində davam etdiriləcək böyük neft və qaz hasilatı ilə biz artıq lazımınca formalaşmış dövlətik. Bu gün və sabah gücümüz yalnız və yalnız artacaqdır. Buna görə də biz hər hansı yardıma xüsusi ehtiyac duymuruq. Avratlantik məkana inteqrasiya ilə bağlı siyasətimiz və baxışlarımız, sadəcə, onunla bağlı deyil ki, kimsə gəlib bizə yardım etsin və ya problemlərimizi aradan qaldırsın. Bunun səbəbi ondan ibarətdir ki, biz bu yolu ölkənin gələcəyi üçün düzgün yol kimi qəbul edirik.

İqtisadi, siyasi və insan hüquqları sahələrinin inkişafı – bunlar hamısı bir-biri ilə bağlıdır. Ölkədə azad cəmiyyət olmalıdır. Əgər siz insan hüquqları baxımından dünya xəritəsinə baxsanız, görərsiniz ki, iqtisadi cəhətdən inkişaf etmiş ölkələrdə bu hüquqlar daha yaxşı müdafiə olunur. Niyə? Çünki onlar daha inkişaf etmiş ölkələrdir və orada insanların tələbatları ödənilir. Yoxsul ölkələrdə insanlar bir çox hallarda demokratiya haqqında düşünmürlər. Onlar özlərinin gündəlik tələbatları haqqında düşünürlər. Ona görə də daha demokratik cəmiyyətə doğru addım atmaq üçün biz, eyni zamanda, iqtisadiyyatı inkişaf etdirməli və insanlar üçün azad şəraiti təmin etməliyik. Sahibkarlığı inkişaf etdirməliyik. Tənzimləyici orqanlardan olan şəxslərin müdaxiləsini məhdudlaşdırmalıyıq. Özəlləşdirməni irəliyə aparmalıyıq. Özəl sektoru inkişaf etdirməliyik. Bu gün iqtisadiyyatımızın 76 faizini özəl sektor təşkil edir. Bu, irəliyə doğru aparan yoldur. Ona görə də hesab edirəm ki, demokratik gələcəyə doğru aparan yolda biz irəliləyişə nail olmuşuq.

- Sonuncu sualımı verim. Hazırda Fransada Türkiyənin Avropa İttifaqına qoşulması ilə bağlı mübahisələr gedir. Əminəm ki, Siz Türkiyənin həmin quruma daxil olmasını istəyirsiniz?

- Bəli. Əlbəttə ki, istəyirik. Bu, düzgün olardı.

- Siz bu ölkənin Avropa İttifaqına daxil olmasını necə əsaslandırardınız?

- İlk növbədə, onu deyim ki, Türkiyənin Avropa İttifaqının üzvü olmağa haqqı var, çünki bu məsələ uzun illər ərzində müzakirə edilmişdir. Bu yaxınlarda, Türkiyədən xeyli sonra müraciət etmiş ölkələr onun üzvünə çevrilmişlər. Həmin ölkələrdəki inkişaf səviyyəsi Türkiyənin səviyyəsindən o qədər də fərqlənmir. Ona görə də, fikrimcə, Türkiyənin Avropa İttifaqında olmağa tam hüququ var. Bu, Türkiyə və Avropa, habelə bütün region üçün vacibdir. Çünki Türkiyə qəbul olunarsa, bu, o deməkdir ki, Avropa İttifaqının sərhədləri bizim sərhədlərə çatacaqdır. Bu isə Cənubi Qafqaz ölkələrini Avropaya daha sıx bağlayacaqdır. Bundan əlavə, Avropa bizim regionda və Mərkəzi Asiyada fəaliyyətini daha da genişləndirə bilər. Bu, dini dözümlülük baxımından da çox vacibdir. Əgər Türkiyə Avropa İttifaqının üzvü olsa, onda bu təşkilatın xristian ölkələrin klubuna bənzəməsi barədə gəzən söhbətlərə son qoyulacaqdır. İndi həmin söhbətlər artmaqda-

3632

İşlər İdarəsi
PREZİDENT KİTABXANASI

dır. Bu, sivilizasiyalararası dialoq baxımından da əhəmiyyətlidir, çünki hazırda bu haqda da çox danışılır. Lakin, əslində vəziyyət fərqlidir və biz, əksinə, müxtəlif dinlərin nümayəndələri arasında gərginliyi görürük. Bu, hətta Avropada da müşahidə olunur. Bir sözlə, bu, regional inkişafa və region ölkələrinin Avropa İttifaqına inteqrasiyasına çoxtərəfli təsir göstərəcəkdir.

- Çox sağ olun.

- Sağ olun.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN İSVEÇRƏYƏ SƏFƏRİ

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev yanvarın 25-də Davosda Konqres Mərkəzində Dünya İqtisadi Forumunun icraçı prezidenti Klaus Şvabla görüşmüşdür.

Görüşdə bu beynəlxalq tədbirin uğurla keçdiyi və ölkələr arasında iqtisadi əməkdaşlığın genişlənməsi işində rolu qeyd olundu.

Klaus Şvab Azərbaycan Prezidentinin bu mötəbər Forumda iştirakının əhəmiyyətini vurğuladı. Ölkəmizdə böyük iqtisadi uğurların qazanılması, yüksək inkişaf sürətinə nail olunması, Azərbaycanın enerji sahəsində artan rolu, regional əməkdaşlıqda iştirakı yüksək qiymətləndirildi.

Yanvarın 25-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev onun üçün ayrılmış iqamətgahda, "Morasani" mehmanxanasında Hollandiyanın "Şell" şirkətinin icraçı direktoru Yeroyn Van der Veer ilə görüşmüşdür.

Azərbaycanın bu şirkətlə əməkdaşlığının perspektivlərinin müzakirə olunduğu görüşdə Yeroyn Van der Veer "Şell"in Azərbaycan ilə energetika sahəsində əməkdaşlıq etməyə böyük maraq göstərdiyini söylədi.

Prezident İlham Əliyev onların bu istəyini müsbət qarşıladığını və "Şell" ilə əməkdaşlığın başlanması üçün ölkəmizdə müvafiq tapşırıqlar veriləcəyini bildirdi.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev yanvarın 25-də Davos Forumu çərçivəsində İran İslam Respublikasının sabiq Prezidenti Məhəmməd Xatəmi ilə görüşmüşdür.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev yanvarın 25-də "Soros" Fondunun prezidenti Corc Soros ilə görüşmüşdür.

Corc Soros son illər Azərbaycanda gedən proseslər, ölkəmizin gələcək inkişaf perspektivləri haqqında fikirlərini söylədi və bu proseslərdən razı qaldığını bildirdi. Eyni zamanda bu baxımdan Azərbaycan Prezidentinin fikirlərini öyrənmək, nəzərdə tutulan proqramlar barədə məlumat almaq istədiyini söylədi.

Prezident İlham Əliyev Azərbaycanda gedən proseslərin gələcəkdə hansı istiqamətlərdə davam etdiriləcəyi barədə danışdı.

Görüş zamanı Azərbaycanın xarici siyasətinin əsas istiqamətləri və xüsusilə Avropada, Avrasiyada enerji təhlükəsizliyi məsələləri ətrafında geniş fikir mübadiləsi aparıldı. Həmçinin bir sıra regional məsələlər barədə də müzakirələr oldu.

Corc Soros Azərbaycanda həyata keçirilən bir sıra təşəbbüslərin razılıqla qarşılandığını

bildirərək, Neft Fondu ilə bağlı şəffaflığın təmin olunması təşəbbüsünü xüsusi vurğuladı və dedi ki, bu, dünyanın bir çox dövlətləri üçün bir nümunədir.

Prezident İlham Əliyev Azərbaycanda təhsil sahəsində, yoxsulluğun aradan qaldırılması ilə bağlı görülən tədbirlərdən də bəhs etdi.

Bu istiqamətdə işlərin davam etdirilməsini yüksək qiymətləndirən Corc Soros Azərbaycan hökuməti ilə əməkdaşlıq etmək arzusunda olduğunu bildirdi.

Yanvarın 25-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev onun üçün ayrılmış iqamətgahda Amerika Birləşmiş Ştatlarının "Sisko" şirkəti idarə heyətinin sədri Con Çambers ilə görüşmüşdür.

Görüşdə Azərbaycanda informasiya texnologiyalarının inkişafı, ölkəmizdə xüsusi iqtisadi zonaların yaradılmasında "Sisko" şirkətinin iştirakı məsələləri müzakirə olundu.

Con Çambers dedi ki, son zamanlar Azərbaycanda texnoloji tutumlu iqtisadi sektorların informasiya texnologiyalarının inkişafına yönəldilmiş dövlət siyasəti, Prezident İlham Əliyevin bu istiqamətdəki siyasəti çox dəstəklənir. Biz bu sahədə Azərbaycan hökuməti ilə hərtərəfli əməkdaşlıq etməyə hazırıq. O vurğuladı ki, bu, əsasən, Azərbaycanda yeni tipli informasiya infrastrukturunun qurulması, xüsusi iqtisadi zonaların yaradılması, bu sektora sərmayələrin gətirilməsi və digər məsələlərlə bağlıdır.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev yanvarın 25-də Ukraynanın Baş naziri Viktor Yanukoviç ilə görüşmüşdür.

Azərbaycan ilə Ukrayna arasında müxtəlif sahələrdə əlaqələrin uğurla inkişaf etdiyinin bildirildiyi görüşdə siyasi, iqtisadi və digər sahələrdə əməkdaşlığın daim genişlənməsindən məmnunluq ifadə olundu. Ölkələrimizin beynəlxalq təşkilatlarda regional səviyyədə əməkdaşlığının möhkəmləndirildiyi vurğulandı və bunun gələcəkdə də davam etdiriləcəyinə əminlik ifadə olundu.

Viktor Yanukoviç Azərbaycana səfərinin uğurla keçdiyini məmnunluqla xatırlatdı.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev yanvarın 25-də Avropa Yenidənqurma və İnkişaf Bankının prezidenti Jan Lemyer ilə görüşmüşdür.

Görüşdə Azərbaycan ilə bu beynəlxalq bank arasında uğurlu əməkdaşlıq qeyd olundu, əlaqələrin hazırkı vəziyyəti və perspektivləri barədə fikir mübadiləsi aparıldı.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev yanvarın 25-də günün sonunda MDB və Baltik Dövlətləri Yəhudi İcmaları Federasiyasının rəhbəri Lev Levayev ilə görüşmüşdür.

Lev Levayev Azərbaycanda müxtəlif xalqlara və dinlərə mənsub insanların, o cümlədən yəhudilərin azad yaşaması üçün hər cür şəraitin yaradıldığını vurğuladı, bunun rəhbərlik etdiyi təşkilat tərəfindən yüksək qiymətləndirildiyini söylədi. O, bütün bunlara görə dövlətimizin başçısına minnətdarlığını bildirdi. Lev Levayev xüsusi vurğuladı ki, Azərbaycanda tarixən müxtəlif xalqlara və milli azlıqlara münasibətdə yüksək tolerantlığın indi də davam etməsi Azərbaycan xalqının tarixi nailiyyətlərindən biridir.

Prezident İlham Əliyev Azərbaycanda yaşayan müxtəlif xalqların nümayəndələrinə dövlət tərəfindən daim diqqət və qayğı göstərildiyini və bunun gələcəkdə də davam edəcəyini bildirdi.

PREZİDENT İLHAM ƏLİYEV "ENERJİ-2007: NEFT SİYASƏTİNİN YENİ ERASI" MÖVZUSUNDA İCLASDA ÇIXIŞ ETMİŞDİR

Yanvarın 25-də Davos Forumu çərçivəsində Konqres Mərkəzində "Enerji-2007: Neft siyasətinin yeni erası" mövzusunda iclas keçirilmişdir.

İclasda Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev, Amerika Birləşmiş Ştatlarının energetika naziri Samuel Bodman, Ukraynanın Baş naziri Viktor Yanukoviç, Rusiyanın "Qazprom" şirkətinin nümayəndəsi Aleksandr Medvedev, Hollandiyanın "Şell" şirkətinin icraçı direktoru Yeroyn Van der Veer, Çin Xalq Respublikasının Milli İnkişaf İslahatları Komissiyası sədrinin müavini, "Nyu-York Tayms" qəzetindən Tom Fridman, "Exson/Mobil" korporasiyasının nümayəndələri iştirak edirdilər.

APARICI: Prezident Əliyev, xoş gəlmisiniz! Bizim Prezident ötən il ölkədə vəziyyət haqqında verdiyi hesabatda qeyd etmişdir ki, Amerika özünün neftdən asılılığına son qoymalıdır. Lakin inkişaf edən ölkə kimi Azərbaycan həmin neft asılılığının təsirinə başqa formada düşməkdən narahatdırmı? Biz bunu resursların çox olmasından irəli gələn bəla adlandırırıq. Yəni insanlarımızın inkişafı, onların yaradıcılıq və sahibkarlıq keyfiyyətlərinin formalaşması əvəzinə, üstünlük neft və qaz yataqlarında qazma işlərinə yönəlmiş səyləro verilir. Hazırda inkişaf edən ölkənin başçısı kimi Siz resursların çox olmasından irəli gələn potensial bəla məsələsinə necə baxırsınız?

-1991-ci ildə müstəqil ölkəyə çevrilmiş Azərbaycanda iqtisadi və siyasi vəziyyət olduqca gərgin idi. Sözün əsl mənasında, ölkəni tam böhran və iqtisadi tənəzzül bürümüşdü. Müstəqil dövlət kimi yaşamaq üçün biz iqtisadiyyatın aparıcı qüvvəsinə ehtiyac duyurduq. Təbii ki, Xəzər dənizinin böyük neft və qaz yataqları bir ölkə kimi inkişaf etmək üçün əsas vasitə idi. Həmin vaxt biz beynəlxalq neft şirkətlərindən milyardlarla dollar sərmayə cəlb etməyə nail olduq. Xəzər dənizində böyük həcmdə nefti hasil etmək, yeni və etibarlı boru kəmərləri sistemi vasitəsilə onu nəql etmək kimi məqsədlərimizə çatdıq.

İndi isə, bu nailiyyətlərin ümumi iqtisadi inkişafa çox müsbət təsiri var. Biz neft hasil edən olduqca vacib ölkəyə çevrilməyin ilkin mərhələsindəyik. Ona görə deyilən həmin potensial təhdidlərdən danışmaq vaxt baxımından bizim üçün tezdir. Lakin, eyni zamanda, biz qısa müddət ərzində neft kapitalını insan kapitalına çevirməyə çalışırıq. Əgər Siz Azərbaycanın iqtisadi göstəricilərinə nəzər yetirsəniz, görərsiniz ki, ÜDM-in artım sürəti baxımından ölkəmiz son iki il ərzində dünyada ən yüksək səviyyədə olub, yəni ötən il ÜDM-in artımı 35 faiz, 2005-ci ildə isə 26 faiz olmuşdur.

Lakin ən vacibi isə odur ki, son üç il ərzində, neft hasilatının inkişaf etdirilməsi iqtisadiyyatımız üçün daha böyük əhəmiyyət kəsb etdiyi halda, yoxsulluq səviyyəsində yaşayan insanların sayı 49 faizdən 20 faizə qədər azalmışdır. Son üç il ərzində 520 min yeni iş yeri açılmışdır. Bildiyiniz kimi, neft sektoru çox yeni iş yeri açmır. İş yerlərinin əksəriyyəti qeyri-neft sektorunda yaradılmışdır. Bizim timsalımızda görə bilərik ki, neft sənayesinin inkişafı iqtisadiyyatın şaxələndirilməsi ilə nəticələnə bilər. Neft gəlirləri düzgün bölüşdürüldükdə, şəffaflıq və məsuliyyət olduqda və hökumətin siyasətinin proqnozlaşdırılması mümkün olan təqdirdə və nəhayət, neft kapitalının insan kapitalına çevrilməsi üçün səylər göstərildikdə həmin nəticə əldə oluna bilər. Ona görə, mən əminəm

ki, Azərbaycan neftdən və neft qiymətlərindən asılı olan ölkəyə çevrilməmək üçün bir çox təhlükəsizlik meyarlarına və imkanlara malikdir. Biz bu hadisənin ölkəmizdə baş verməsini istəmirik. İqtisadiyyatımızın həmin mühüm elementini iqtisadiyyatın şaxələndirilməsi, xalqımızın yaşayış standartlarının yaxşılaşdırılması və Azərbaycanın güclü ölkəyə çevrilməsi üçün istifadə etmək istəyirik.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV ABŞ-IN "MİCROSOFT" ŞİRKƏTİNİN RƏHBƏRİ İLƏ GÖRÜŞMÜŞDÜR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev yanvarın 26-da Davos şəhərində dünyanın ən məşhur şirkətlərindən olan ABŞ-ın "Microsoft" şirkətinin prezidenti Bill Qeyts ilə görüşmüşdür.

Prezident İlham Əliyev ölkəmizin iqtisadi siyasətinin istiqamətlərindən danışaraq dedi ki, əsas məqsədimiz neftdən gələn gəlirlərdən istifadə edərək, yeni iqtisadiyyatın qurulmasıdır. Bunun üçün yüksək texnologiyalara əsaslanan sektorların yaradılması başlıca məsələlərdən biridir və Azərbaycan bunun üçün xüsusi hüquqi baza yaradır. Dövlətimizin başçısı ölkəmizdə yüksək texnologiyaların inkişafı, xarici investorların dəvət olunması, lokal kompaniyaların inkişafı üçün çox gözəl şərait yaradılacağını söylədi. Bildirildi ki, məqsəd 10-15 ildən sonra bu sahədən əldə olunan gəlirləri neftdən gələn gəlirlərlə bərabərləşdirmək, neftdən asılılığı azaltmaqdır.

Bill Qeyts Azərbaycan Prezidentinin bu fikirlərini dəstəklədiyini və yüksək dəyərləndirdiyini, ölkəmizin iqtisadi inkişafı ilə maraqlandığını söylədi. O, 2006-cı ilin oktyabrında Bakıda keçirilmiş "Bakutell" sərgisinə göndərdiyi məktubda yazdığı "Azərbaycan Prezidenti İlham Əliyevin iqtisadi siyasəti neftin əsasında gələcək iqtisadiyyatın qurulmasıdır və bu çox vacibdir" sözlərini bir daha xatırlatdı.

Görüşdə Azərbaycanda bu sahənin inkişafı üçün insan resurslarının yaranmasının zəruriliyi bildirildi.

Prezident İlham Əliyev Azərbaycanda təhsil sahəsində, ümumiyyətlə, gənc nəslin yüksək bilik almaşı üçün aparılan siyasətin əhəmiyyətini vurğuladı. Bill Qeyts bu istiqamətdə Azərbaycanla əməkdaşlıq etməyə və kömək göstərməyə hazır olduğunu bildirdi.

Görüşdə həmçinin ölkəmizdə tranzit elektron informasiya mərkəzinin yaradılması üçün Qərbdə olan informasiya texnologiyalarının Azərbaycana gətirilməsi, Şərqə və bütün region ölkələrinə informasiya xidmətləri göstərilməsi, Azərbaycanın bu istiqamətdə ixrac mərkəzinə çevrilməsi məsələsindən də söhbət getdi.

"Microsoft" şirkətinin rəhbəri dedi ki, bu sahədə Azərbaycana həm investisiya qoymağa, həm də ölkəmizlə əməkdaşlıq etməyə hazırıq. Biz Azərbaycanın bir nömrəli tərəfdaşı ola bilərik. Şirkətin rəhbəri Azərbaycana səfər etmək arzusunda olduğunu da söylədi.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV ABŞ-IN "İNTEL" ŞİRKƏTİ İDARƏ HEYƏTİNİN SƏDRİ İLƏ GÖRÜŞMÜŞDÜR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev yanvarın 26-da Davos şəhərində ABŞ-ın "İntel" şirkəti idarə heyətinin sədri Kreyq Barret ilə görüşmüşdür.

Kreyq Barret dedi ki, əsasən kompyuter, noutbuk və digər elektron avadanlığı istehsalı və ixracı sahəsində çox məşhur şirkət kimi biz Azərbaycanda xüsusi iqtisadi-texnoloji zonalar yaradılması işinə sərmayə qoyub, istehsalla məşğul olmaq istəyirik. Məqsəd Azərbaycanın elektron avadanlıqlarının ixracatçısına çevrilməsinə kömək etməkdir. O, şirkətin Azərbaycanda təhsildə, məktəblərin kompyuterləşdirilməsində iştirakından danışdı, bu əməkdaşlıqdan razılığını bildirdi.

Cənab Barret həm də BMT tərəfindən yaradılmış İKT və İnkişaf üzrə Qlobal Alyansın sədri kimi fəaliyyət göstərdiyini xatırlatdı. O, dövlətimizin başçısını bu il fevralın sonunda ABŞ-da keçiriləcək foruma dəvət edərək dedi ki, bu mötəbər forumda, əsasən, iqtisadi siyasətlə bağlı yeni fikirlər açıqlanacaqdır. Kreyq Barret özünün də Azərbaycana səfər etməyə hazır olduğunu bildirdi.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV İSRAİLİN BAŞ NAZİRİNİN MÜAVİNİ İLƏ GÖRÜŞMÜŞDÜR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev yanvarın 26-da İsrailin Baş nazirinin müavini, xarici işlər naziri xanım Sipi Livni ilə görüşmüşdür.

Söhbət zamanı Azərbaycan ilə İsrail arasında iqtisadi-siyasi və digər sahələrdə əlaqələrin vəziyyəti və gələcək inkişaf perspektivləri ətrafında fikir mübadiləsi aparıldı. Görüşdə bu istiqamətdə əməkdaşlığı gücləndirmək üçün müəyyən tədbirlərin və qarşılıqlı səfərlərin əhəmiyyəti vurğulandı.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV BÖYÜK BRİTANİYANIN TİCARƏT VƏ SƏNAYE NAZİRİ İLƏ GÖRÜŞMÜŞDÜR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev yanvarın 26-da Böyük Britaniyanın ticarət və sənaye naziri Alister Darlinq ilə görüşmüşdür.

Alister Darlinqin xahişi ilə keçirilən görüşdə Azərbaycan ilə Böyük Britaniya arasında siyasi-iqtisadi sahələrdə, o cümlədən enerji sahəsində əlaqələrin yüksək səviyyəsi vurğulandı və gələcək perspektivlər haqqında geniş fikir mübadiləsi edildi. Bir sıra regional məsələlər ətrafında da müzakirələrin aparıldığı görüşdə ikitərəfli münasibətlərin strateji xarakter daşıdığı bildirildi, gələcəkdə əlaqələrin daha da inkişaf etdirilməsinin vacibliyi vurğulandı.

Cənab Alister Darlinq Azərbaycanın hasilat sənayesi sahəsində şəffaflıq təşəbbüsündə fəal iştirakını yüksək qiymətləndirdi və bunun çox böyük əhəmiyyətli olduğunu söylədi.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV AVROPA İTTİFAQININ ENERJİ MƏSƏLƏLƏRİ ÜZRƏ MƏSUL KOMİSSARI İLƏ GÖRÜŞMÜŞDÜR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev yanvarın 26-da Davosda Avropa İttifaqının enerji məsələləri üzrə məsul komissarı Andris Pyelbalqs ilə görüşmüşdür.

Görüşdə Azərbaycan ilə Avropa İttifaqı arasında əməkdaşlıq məsələləri ətrafında geniş fikir mübadiləsi aparıldı, bu əməkdaşlığın yüksək səviyyədə olduğu vurğulandı.

Andris Pyelbalqs Azərbaycanda gedən bütün proseslərin, siyasi, iqtisadi və digər sahələrlə bağlı həyata keçirilən islahatların Avropa İttifaqı tərəfindən daim dəstəkləndiyini söylədi. Bildirildi ki, ümumiyyətlə, Avropa İttifaqı Azərbaycanda gedən proseslərə çox böyük əhəmiyyət verir, Azərbaycan ilə Avropa İttifaqı arasında əməkdaşlığın gələcəkdə də böyük perspektivləri olacaqdır.

Prezident İlham Əliyev hazırda ölkəmizdə gedən proseslərdən geniş bəhs etdi.

Andris Pyelbalqs dedi ki, ötən ilin noyabrın 7-də Brüsseldə Azərbaycan Respublikası ilə Avropa İttifaqı arasında enerji məsələləri üzrə strateji tərəfdaşlığa dair anlaşma memorandumunun imzalanması tarixi hadisədir və bu, çox yüksək qiymətləndirilir. Azərbaycanın gördüyü işlər, regionda apardığı siyasət onun regional proseslərdə liderlik etməsinə imkan yaradır və Avropa İttifaqı buna çox böyük əhəmiyyət verir.

Görüşdə Azərbaycanın Avropaya inteqrasiyasının uğurla davam etdirildiyi də xüsusi vurğulandı.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN VƏ İSVEÇRƏ PREZİDENTİ MİŞELİN KALMİ-REYİN GÖRÜŞÜ

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev yanvarın 26-da Davosda İsveçrə Konfederasiyasının Prezidenti xanım Mişelin Kalmi-Rey ilə görüşmüşdür.

Görüşdə ölkələrimiz arasında ikitərəfli münasibətlərin inkişafı ilə bağlı fikir mübadiləsi aparıldı və gələcəkdə əməkdaşlığın daha da genişləndirilməsi, eləcə də İsveçrə şirkətlərinin Azərbaycana sərmayə qoyması barədə söhbət getdi.

İsveçrənin Prezidenti Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli ilə də maraqlandı. Prezident İlham Əliyev münaqişə və aparılan danışıqlar prosesi barədə məlumat verdi.

Prezident Mişelin Kalmi-Rey Azərbaycanın Avropanın enerji təhlükəsizliyində mühüm rol oynadığını xüsusi vurğuladı və dedi ki, bu, Azərbaycanı çox vacib ölkəyə çeviribdir.

Prezident İlham Əliyev Azərbaycandakı proseslərdən danışdı, ölkəmizdə qeyri-neft sektoruna sərmayə qoyulması üçün geniş imkanların olduğunu bildirdi.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN FRANSAYA DÖVLƏT SƏFƏRİ

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev yanvarın 29-da Fransa Respublikasına ilk dövlət səfərinə gəlmişdir.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN VƏ FRANSA PREZİDENTİ JAK ŞİRAKIN TƏKBƏTƏK GÖRÜŞÜ

Yanvarın 29-da Yelisey sarayında Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Fransa Respublikasının Prezidenti Jak Şirak arasında təkbətək görüş keçirilmişdir.

Prezident Jak Şirak dövlətimizin başçısına müraciətlə dedi ki, mən çox məmnunam ki, Azərbaycan Prezidenti Fransaya dövlət səfəri edir. Son zamanlar Azərbaycanla Fransa arasındakı əməkdaşlıq çox inkişaf edib və bu il Fransada Azərbaycan İli keçiriləcəkdir. Hesab edirəm ki, münasibətlərimiz həm siyasi, həm də iqtisadi baxımdan çox vacib və səmərəlidir.

Prezident İlham Əliyev təşəkkür edərək dedi ki, Fransaya dövlət səfəri etmək mənim üçün çox şərəflidir. Prezident seçildikdən sonra mənim ilk rəsmi səfərim də Fransaya olmuşdur.

Dövlət başçıları enerji layihələri, Cənubi Qafqazda vəziyyət və Dağlıq Qarabağ münaqişəsi ilə bağlı fikir mübadiləsi apardılar.

Prezident İlham Əliyev Bakı-Tbilisi-Ceyhan və Bakı-Tbilisi-Ərzurum layihələri haqqında danışaraq, onların əhəmiyyətini vurğuladı, ötən ilin noyabrında Brüsselə səfəri zamanı Azərbaycan ilə Avropa İttifaqı arasında enerji məsələləri üzrə strateji tərəfdaşlığa dair anlaşma memorandumunun imzalandığını xatırlatdı. Dövlətimizin başçısı bildirdi ki, beləliklə, Azərbaycan Xəzər regionundan Avropa bazarlarına neft və qaz ixrac edən ilk ölkə olacaqdır. Bu da Azərbaycan dövlətinin seçimidir.

Regionda gedən proseslərin müzakirəsi zamanı Prezident Jak Şirak öz ölkəsinin mövqeyini ifadə edərək dedi ki, biz çox istərdik, Azərbaycanın yerləşdiyi regionda sülh və sabitlik şəraiti olsun.

Prezidentlər görüşdə Dağlıq Qarabağ münaqişəsinin həlli ilə bağlı danışıqların son vəziyyətini də müzakirə etdilər.

Prezident İlham Əliyev həmsədrlərin regiona axırıncı səfəri barədə danışaraq, keçirilən görüşlərin faydalı olduğunu söylədi. Dövlətimizin başçısı Azərbaycan və Ermənistan prezidentlərinin son görüşünün Minskdə keçirildiyini bildirərək dedi ki, Ermənistan öz təcavüzkar siyasətinə son qoymalıdır və bundan sonra Cənubi Qafqaz regionunda sabitlik təmin edilə və daha çox inkişaf əldə oluna bilər.

Prezident Jak Şirak vurğuladı ki, Minsk qrupunun həmsədri kimi Fransa regiona sülhün daha tez bir zamanda gəlməsi, qaçqın və məcburi köçkünlərin öz doğma yurd-yuvalarına qayıtması üçün bütün nüfuzundan və imkanlarından istifadə edəcəkdir.

"FƏXRİ LEGİONUN BÖYÜK XAÇ KOMANDORU" VƏ "HEYDƏR ƏLİYEV" ORDENLƏRİNİN TƏQDİM OLUNMASI MƏRASİMİ

Yanvarın 29-da Yelisey sarayında Azərbaycan Prezidenti İlham Əliyevə "Fəxri legionun böyük xaç komandoru" ordeninin və Prezident Jak Şiraka "Heydər Əliyev" ordeninin təqdim olunması mərasimi keçirilmişdir.

Mərasimdə Azərbaycan Prezidentinin xanımı Mehriban Əliyeva, Fransa Prezidenti Jak Şirakın xanımı Bernadet Şirak, habelə dövlətimizin başçısını müşayiət edən nümayəndə heyətinin üzvləri iştirak edirdilər.

Əvvəlcə Azərbaycan Prezidenti İlham Əliyev Fransa Prezidenti Jak Şiraka üzərində onun portreti toxunmuş xalça hədiyyə etdi. Dövlət başçıları xalçanın önündə xatirə şəkli çəkdirdilər. Sonra Fransa Prezidenti Jak Şirak dövlətimizin başçısına xatirə hədiyyəsi təqdim etdi.

Prezident Jak Şirak Fransanın ən yüksək ordenini Azərbaycan Prezidenti İlham Əliyevə təqdim edərək dedi:

- Əziz dost, bildiyiniz kimi, 2004-cü ildə mən atanızın təltif olunduğu "Fəxri legion" ordenini Sizə verdim. Siz bilirsiniz ki, mən ona böyük hörmət və böyük dostluq hissləri bəsləyirdim. Mən həmin mükafatı Sizə təqdim edərkən çox böyük həyəcan hissi keçirirdim. İndi isə Siz ölkəmizə ilk dövlət səfərinə gəlmisiniz. Ona görə də böyük məmnuniyyətlə Sizi Fransanın yüksək mükafatı – "Fəxri legion" ordeninin ən yüksək dərəcəsi ilə təltif etmək istəyirəm.

Bildiyiniz kimi, bu orden Napoleon tərəfindən təsis olunmuşdur və bütün fransızlar öz ölkəsinin fərqlənmə nişanlarına və medallarına çox sadiqdirlər. Bəzən əcnəbilər bizə gülərək deyirlər ki, iki fransız görüşdükdə, əgər bir-birini tanımırlarsa, ilk növbədə, butonyörə və fərqlənmə nişanlarına baxırlar.

Bu mükafatı böyük məmnunluqla Sizə təqdim edirəm.

Sonra Azərbaycan Prezidenti İlham Əliyev Fransa Prezidenti Jak Şiraka "Heydər Əliyev" ordenini təqdim edərək dedi:

- Hörmətli cənab Prezident, bu gün mənim üçün çox əziz bir gündür. Fransanın ən yüksək ordenini almaq çox böyük şərəfdir. Siz qeyd etdiniz ki, üç il bundan əvvəl mən Fransada rəsmi səfərdə olarkən Prezident Heydər Əliyevin təltif edildiyi ordeni almaq mənə nəsib olmuşdur. Sizin şəxsi dostluğunuz Fransa-Azərbaycan münasibətlərinin inkişafında xüsusi rol oynamışdır. Məhz Sizin birgə fəaliyyətiniz nəticəsində Fransa-Azərbaycan münasibətləri sürətlə inkişaf etmişdir və bu gün ən yüksək zirvəyə qalxmışdır. Bütün sahələrdə – siyasi, iqtisadi, mədəni sahələrdə biz çox uğurlu əməkdaşlıq edirik, Fransa bizim üçün dost ölkədir, çox yaxın tərəfdaşdır. Mən çox şadam ki, bizim aramızda olan şəxsi münasibətlər də ən yüksək zirvədədir. Biz bir-birimizə dost deyirik və bu, sözün əsl mənasında, böyük dostluğun nümunəsidir.

Bu gün Sizin tərəfinizdən Fransa dövlətinin ən yüksək ordeni ilə təltif olunmaq, əlbəttə ki, böyük xoşbəxtlikdir. Demək istəyirəm ki, bundan sonra da iki ölkə arasında olan münasibətlərin inkişafında öz söylərimi göstərəcəyəm.

Mən bu gün böyük məmnunluq hissi ilə Sizi Azərbaycan dövlətinin ən yüksək ordeni olan "Heydər Əliyev" ordeni ilə təltif edirəm. Bu orden çox nadir hallarda təqdim olunur. Bu, üçüncü ordendir və mən onu bu gün Sizə təqdim edirəm. Bu, həm Azərbaycanın ən yüksək mükafatıdır, eyni zamanda, Sizin dostunuz Heydər Əliyevin adını daşıyan ordendir. Sizi Təbrik edirəm.

AZƏRBAYCAN PREZİDENTİNİN VƏ XANIMININ ŞƏRƏFİNƏ DÖVLƏT QƏBULU

Yanvarın 29-da Yelisey sarayında Fransa Respublikasının Prezidenti Jak Şirakın və xanımı Bernadet Şirakın adından Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və xanımı Mehriban Əliyevanın şərəfinə dövlət qəbulu təşkil edilmişdir.

Dövlət başçıları qəbulda nitq söyləmişlər.

FRANSA PREZİDENTİ JAK ŞİRAKIN NİTQİ

- Hörmətli cənab Prezident,

Hörmətli xanım,

Xanımım və mən Sizi Parisdə qəbul etməkdən çox məmnunuq. Bütün fransızlar adından ən dərin səmimiyyətlə Sizə "Xoş gəlmisiniz!" deyirik. Münasibətlərimizin tarixində bu ilk dövlət səfəri ölkələrimiz arasındakı dostluğu alqışlamaq fürsətidir. Bu güclü və səmimi dostluğun təşəbbüskarı Sizin atanız mərhum Heydər Əliyev olmuşdur. İcazə verin, bu təntənəli anları onun xatirəsi ilə bağlayaq.

Cənab Prezident!

Ölkələrimiz arasındakı münasibətlərin tarixi hələ ki, qısadır. Lakin bu münasibətlər bizim ziyalılarımız və böyük yazıçılarımız tərəfindən əsrlər boyu formalaşdırılmış tellərə söykənir.

Bölgədəki xalqların özünəməxsusluğu Xəzər sahillərinin çoxsaylı səyahətçiləri arasında Fransada və Avropada ən yaxşı tanınan Aleksandr Dümanın "Qafqaza səyahət" əsərində təsvir olunmuşdur. 1858-ci ildə Bakıda Düma qonağı olduğu ev sahiblərinin fransız mədəniyyəti və fəlsəfəsinə marağına valeh olmuşdur. Paytaxt şəhərin cazibəsinə vurulmuş Düma Sizin poeziya ənənələrinizin və onun böyük nümayəndələrinin, o cümlədən məşhur Nizami Gəncəvinin əsərlərinin və böyük şairəniz Natəvanın heyranedici təsirinə qapılmışdır. Belə deyirlər ki, Natəvan öz istedadı və gözəlliyi ilə onu məftun etmişdir.

İlk Azərbaycan Respublikasının süqutundan sonra, Azərbaycan ziyalılarının bir sıra böyük şəxsiyyətləri təbii ki, məhz Fransaya üz tutdular. Mən Fransanı ikinci vətən seçmiş və yazıçı həyatını Bakı və Paris arasında paylaşan Baninin adını çəkmək istərdim. Mən parlamentin sədri və Versal konfransında Azərbaycan nümayəndə heyətinin başçısı, son məskəni Sən-Klodda dəfn edilmiş Əlimərdan bəy Topçubaşovun adını çəkmək istərdim.

1991-ci ildə, bir çoxlarının tərəddüd etdiyi vaxtda, Fransa Türkiyə ilə birlikdə Sizin Vətəninizin müstəqilliyini tanıyan ilk ölkələrdən biri olmuş və ona öz inamını ifadə etmişdir.

Ölkənizin müstəqilliyini müşayiət edən sınaq illərindən sonra, mərhum atanız Azərbaycan üçün yeni yüksəliş şəraiti yarada bilmişdir. Onun 1994-cü ildə ölkənizin karbohidrogen ehtiyatlarının istismara verilməsi, Bakı-Tbilisi-Ceyhan neft boru kəmərinin və Bakı-Tbilisi-Ərzurum qaz kəmərinin inşası ilə bağlı strateji qərarlarına Fransa öz dəstəyini vermişdir. Həmin qərarlar Sizin ölkənizə dünyada ən yüksək iqtisadi artım göstəricisinə nail olmağa imkan vermişdir. Bu qərarlar Sizə vətəndaşlarınızın legitim arzularına və daha böyük iqtisadi və sosial inkişafa doğru yönələn ümidlərinə cavab vermək vasitəsinə çevrilmişdir. Eyni zamanda, uzaq perspektivdə ölkənizdə sabitlik və firavanlığı təmin edəcək ictimai azadlıqlar və demokratiyanın möhkəmləndirilməsinə yönəlmiş arzu və ümidlərdən də söhbət gedir. Bu, Sizin ölkənizdəki dini dözümlülük və bərabərlik ənənəsinə tam uyğun bir yoldur. Xatırlatmaq lazımdır ki, ölkəniz qadınlara seçki hüququnu hələ 1918-ci ildə vermişdir.

Cənab Prezident!

Tarixinizin bu yeni mərhələsində Fransa əsl demokratiya, eləcə də müasir və çoxşaxəli iqtisadiyyatın yaradılmasına kömək göstərmək üçün öz milli təcrübəsini Sizinlə paylaşmağa və xüsusən də hüquqi dövlətin formalaşması sahəsində də əməkdaşlığı möhkəmləndirməyə hazırdır.

Fransız şirkətləri öz təcrübələrini iqtisadi inkişafınız üçün bölüşməyi arzulayır. Onlar Bakı, onun strateji ürəyi olan Xəzərdə karbohidrogen ehtiyatlarının istismarında, habelə digər sektorlara sərmayə qoyulmasında fəaliyyətlərini genişləndirməyə hazırdırlar.

Şirkətlərimiz istər ətraf mühit, şəhərsalma işləri, bank sektoru, sığorta, istərsə də kənd təsərrüfatı, yeyinti sənayesi sahələrində ölkənizin tələbatlarına cavab vermək iqtidarında olacaqdır. Mən onlarla işləməyi tam səmimiyyətilə Sizə tövsiyə edirəm.

Eyni zamanda, biz qarşılıqlı mədəni əlaqələrimizi gücləndirmək istəyirik. 2004-cü ildə "Orangeric" muzeyində "Bakı-Paris" sərgisindən sonra, Fransada böyük Azərbaycan mədəniyyəti günləri layihəsi fransız ictimaiyyətinə Azərbaycanı, əsasən də, onun vəlehedici muğam sənəti, böyük bəstəkarlar Üzeyir Hacıbəyov və Qara Qarayevin yaradıcılığından bugünkü müasir əsərlərə qədər musiqi ənənələri ilə yenidən tanış olmağa imkan verəcəkdir.

Cənab Prezident!

Siz bilirsiniz ki, on ildən artıq müddət ərzində Fransa Minsk qrupu çərçivəsində ağrılı Dağlıq Qarabağ münaqişəsinin həlli istiqamətində səylərini əsirgəməmişdir.

Mən bunu Yerevanda bəyan etmişəm. Bu axşam bunu bir daha Sizə deyirəm. Fransa bu gün inanmaq istəyir ki, sülh vaxtı artıq yetişmişdir. Fransa buna inanmaq istəyir, çünki o, müharibənin nəyə bərabər olduğunu bilir. Buna nail olmaq son addımın atılmasını tələb edir. Çətin bir addımdır. Elə bir addımdır ki, insanların gələcəyinə yönəlmiş etimad aktı olacaqdır. Cəsarətli hərəkəti status-kvonun zahiri təhlükəsizliyindən üstün tutmaq lazımdır. Bu son addım həm Bakıda, həm Yerevanda atıla bilər, çünki onun nəticəsində nurlu həyatın, sülh və firavanlığın üfüqləri açılacaqdır. Mən bu arzuları bütün Cənubi Qafqaz xalqları üçün ifadə etmək istərdim.

Cənab Prezident!

İndi isə icazə verin, badəmi Azərbaycanın, onun xalqının və gələcəyinin şərəfinə qaldırım.

Cənab Prezident, mən badəmi Sizin şərəfinizə və çox dərin hörmət bəslədiyim xanımınız Mehriban Əliyevanın şərəfinə qaldırıram.

Mən badəmi bu axşam öz iştirakları ilə bizim dostluğumuza və bu dostluğun gələcəyinə

inandıqlarını nümayiş etdirən iki ölkənin bütün yüksəkvəzifəli şəxslərinin şərəfinə qaldırıram.

Yaşasın Azərbaycan!

Yaşasın Fransa!

Yaşasın bizim dostluğumuz!

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN NİTQİ

- Hörmətli cənab Prezident!

Əziz dost!

Hörmətli xanım Bernadet Şirak!

Xanımlar və cənablar!

İlk növbədə, cənab Prezident, məni ölkənizə dövlət səfərinə dəvət etdiyinizə görə Sizə ürəkdən təşəkkür edir, Fransa torpağında mənə və nümayəndə heyətinə göstərdiyiniz səmimi qonaqpərvərliyə görə dərin minnətdarlığımı bildirmək istəyirəm.

Keçirdiyimiz görüşlərdən çox məmnunam. Biz ikitərəfli əməkdaşlıqla, bir sıra regional və beynəlxalq məsələlərlə bağlı geniş və səmərəli fikir mübadiləsi apardıq. Şübhəsiz ki, bütün bunlar, həmçinin qəbul etdiyimiz Birgə Bəyannamə və imzalanacaq sənədlər əməkdaşlığımızın daha da inkişafına və dərinləşməsinə öz töhfəsini verəcəkdir.

Məmnuniyyətlə qeyd etmək istəyirəm ki, əməkdaşlığımızın səviyyəsi yüksəkdir. Fransa Azərbaycanın iqtisadi tərəfdaşları sırasında birinci beşliyə daxildir. Ölkələrimiz arasında əmtəə dövriyyəsinin həcmi son illər ərzində təxminən 3 dəfə artıbdır. Fransa şirkətləri Azərbaycanın iqtisadi inkişafında yaxından iştirak edir, Fransa iş adamları energetika və infrastruktur sektorunda, aviasiya, mülki təhlükəsizlik, maliyyə, istehsal, xidmət sahələrində və digər sahələrdə fəallıq göstərirlər.

Sevindirici haldır ki, Fransa Azərbaycanın beynəlxalq miqyasda və Avropa qitəsində enerji təhlükəsizliyinə töhfəsinə xüsusi önəm verir. Xəzər dənizinin zəngin karbohidrogen ehtiyatlarının hasilatı və dünya bazarlarına nəqli sahəsində əldə etdiyimiz uğurlarda Fransanın mövqeyi bizim üçün çox əhəmiyyətlidir. Biz həmçinin Azərbaycanın demokratik inkişafına Fransanın göstərdiyi dəstəyi vacib hesab edirik.

Eyni zamanda, ölkələrimiz beynəlxalq terrorizm, nüvə silahlarının yayılması, narkotik maddələrin qanunsuz dövriyyəsi və digər müasir çağırış və təhdidlərə qarşı mübarizə sahəsində uğurlu əməkdaşlıq edir. Beynəlxalq və regional təşkilatlar, o cümlədən Avropa İttifaqının "Yeni qonşuluq siyasəti" proqramı və NATO-nun "Fərdi tərəfdaşlığın fəaliyyət planı" çərçivəsində sıx əlaqələrimiz məmnunluq doğurur. Avropa İttifaqı ilə Azərbaycan arasında enerji sahəsində strateji tərəfdaşlığa dair anlaşma memorandumunun imzalanması etibarlı tərəfdaşlığımızın parlaq nümunəsidir.

Xalqımızın ən ağrılı problemi olan Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin beynəlxalq hüququn norma və prinsiplərinə uyğun, Azərbaycanın ərazi bütövlüyü çərçivəsində ədalətli həlli sahəsində ATƏT-in Minsk qrupunun həmsədri kimi Fransanın və cənab Prezident, şəxsən Sizin fəaliyyətinizi yüksək qiymətləndiririk.

Azərbaycan ilə Ermənistan arasında gedən danışıqlar prosesini daim diqqətinizdə saxladığınıza, münaqişənin aradan qaldırılması istiqamətində göstərdiyiniz şəxsi səylərə görə Sizə təşəkkürümü bildirirəm. Əminəm ki, münaqişənin sülh yolu ilə aradan qaldırılması Cənubi Qafqazda sülhün, sabitliyin və təhlükəsizliyin bərqərar olması, regionun Avratlantik strukturlarına inteqrasiyası sahəsində yeni səhifə açacaqdır.

Bu gün Azərbaycan böyük sürətlə inkişaf edir. Həyata keçirilən siyasi və iqtisadi islahatlar ölkənin dinamik inkişafına imkan yaradıbdır. 2005-ci ilədək, on il ərzində Azərbaycanda ümumi daxili məhsulun artımı hər il 10 faizdən çox olmuşdur. 2005-ci ildə isə bu, 26 faiz, 2006-cı ildə 35 faiz artmışdır. Son üç il ərzində ölkədə 500 mindən çox yeni iş yeri açılmışdır. Azərbaycanda çox yaxşı sərmayə mühiti vardır. Son 10 ildə iqtisadiyyatımıza 33 milyard dollar sərmayə qoyulmuşdur.

Azərbaycan regionda sabitliyin və təhlükəsizliyin möhkəmlənməsinə, iqtisadi inkişafa və inteqrasiyaya təkan verəcək beynəlxalq layihələr həyata keçirir. Bakı-Tbilisi-Ceyhan neft kəməri, Bakı-Tbilisi-Ərzurum qaz kəməri, Bakı-Tbilisi-Qars dəmir yolu layihələri bütün regionun inkişafında və Azərbaycanın Avropaya inteqrasiyasında mühüm rol oynayacaq, ölkələrimizi birləşdirən möhkəm əməkdaşlıq körpüsü olacaqdır.

Mən Azərbaycan ilə Fransa arasında münasibətlərin bütün sahələrdə inkişaf etməsinin, genişlənməsinin tərəfdarıyam və inanıram ki, dost ölkənizə səfərim, Sizinlə görüşümüz, apardığımız fikir mübadiləsi bu münasibətləri daha yüksək səviyyəyə qaldıracaqdır.

Hörmətli cənab Prezident!

İcazə verin, bu badəni Sizin şərəfinizə, xanım Bernadet Şirakın şərəfinə, ölkələrimiz arasında səmimi dostluq və faydalı əməkdaşlıq əlaqələrinin inkişafı şərəfinə qaldırım!

PARİS ŞƏHƏR MERİYASINDA GÖRÜŞ

Yanvarın 30-da Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Paris şəhər meriyasının binasına gəlmişdir.

Binanın qarşısında dövlətimizin başçısının şərəfinə fəxri qarovul dəstəsi və ali qonağa hörmət və ehtiram əlaməti olaraq atlı milli qvardiyanın əsgərləri düzülmüşdü.

Azərbaycan Prezidenti İlham Əliyevi və xanımı Mehriban Əliyevanı Paris şəhərinin meri Bertran Delanoe böyük hörmətlə qarşıladı.

Sonra Prezident İlham Əliyev ilə Paris şəhərinin meri Bertran Delanoe arasında görüş oldu.

Görüşdə Azərbaycan ilə Fransa arasında ikitərəfli münasibətlərin uğurla inkişaf etdiyi vurğulandı, tarixi, mədəni, iqtisadi və siyasi sahələrdə əlaqələrin genişləndiyi bildirildi. Həmçinin humanitar sahədə əməkdaşlıq üçün böyük potensialın olduğu və bu istiqamətdə əlaqələrin genişləndirilməsinin vacibliyi vurğulandı.

Prezident İlham Əliyev, eyni zamanda, Bakı ilə Paris arasında münasibətlərin inkişaf edərək, ölkələrimiz arasındakı səviyyəyə çatmasının zəruriliyini söylədi. Dövlətimizin başçısı Parisin merini Bakıya dəvət etdi.

Bertran Delanoe dəvəti məmnunluqla qəbul etdi və dövlətimizin başçısına dərin təşəkkürünü bildirdi.

FRANSA İCTİMAİYYƏTİNİN VƏ DİPLOMATİK KORPUSUN NÜMAYƏNDƏLƏRİ İLƏ GÖRÜŞ

Yanvarın 30-da Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Paris şəhər meriyasında Fransa ictimaiyyətinin və diplomatik korpusun nümayəndələri ilə görüşü keçirilmişdir.

Görüşü Paris şəhərinin meri Bertran Delanoe açdı. O, ali qonağı və xanımını, habelə dövlətimizin başçısını müşayiət edən nümayəndə heyətini salamladı, bu görüşü özləri üçün tarixi hadisə adlandırdı. Azərbaycanın 1991-ci ildə müstəqilliyini əldə etdiyi zaman Fransanın ölkəmizi tanıyan ilk ölkələrdən olduğunu bildirdi. Mer xalqımızın ümummilli lideri Heydər Əliyevin tarixi xidmətlərini, ölkələrimiz arasında əlaqələrin inkişafındakı rolunu xatırlatdı və hazırda qarşılıqlı münasibətlərin Prezident İlham Əliyev tərəfindən uğurla inkişaf etdirildiyini söylədi. Bertran Delanoe Azərbaycan xalqının keçdiyi şərəfli tarixi yoldan, ölkəmizdə demokratik cəmiyyətin formalaşdırılması üçün görülən tədbirlərdən, habelə Azərbaycanın üzləşdiyi çətinliklərdən söhbət açdı. O dedi ki, Fransa Ermənistanla Azərbaycan arasında sülhün yaranacağına əmindir.

Paris şəhərinin meri Azərbaycanı inkişaf edən dövlət kimi səciyyələndirərək dedi ki, iqtisadi inkişaf sürətinə görə ölkə dünyada birinci yeri tutur. Bakı ilə Paris arasında iqtisadi, mədəni, humanitar və digər sahələrdə əməkdaşlıq zəruridir. Mer vurğuladı ki, Azərbaycanın Avropaya inteqrasiya siyasəti dəstəklənir və Azərbaycan Avropa üçün mühüm ölkəyə çevrilir.

Sonra dövlətimizin başçısı görüş iştirakçıları qarşısında nitq söylədi.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN NİTQİ

Hörmətli cənab mer!

Hörmətli xanımlar və cənablar!

Əziz dostlar!

İlk növbədə, mənə və nümayəndə heyətinə Fransada göstərdiyiniz qonaqpərvərliyə görə sizə və bütün Fransa xalqına öz dərin minnətdarlığımı bildirmək istəyirəm. Mənim Fransaya dövlət səfərim iki ölkə arasında möhkəmlənən əlaqələrin inkişafı deməkdir. Bu, əlaqələrə yeni təkan verəcəkdir. Bizim aramızda olan əlaqələr bütün sahələri əhatə edir və çox sürətlə inkişaf edir. Siyasi, iqtisadi, mədəni və bütün başqa sahələrdə biz, sözün əsl mənasında, tərəfdaşıq və bizim tərəfdaşlığımız, əməkdaşlığımız təkcə iki ölkə arasında olan münasibətlərə yox, eyni zamanda, regionda gedən proseslərə də öz müsbət təsirini göstərir.

Cənab mer öz çıxışında qeyd etdi ki, Azərbaycan cəmi 15 ildir müstəqil ölkə kimi yaşayır. Təbii ki, bu, tarix baxımından çox qısa bir müddətdir. Ancaq buna baxmayaraq, bu qısa müddət ərzində Azərbaycan çox böyük uğurlara nail ola bilmişdir və indi ölkəmiz

çox dinamik şəkildə inkişaf edir. Siyasi islahatlar uğurla davam etdirilir. Azərbaycan Avropa Şurasının üzvüdür, Avropa İttifaqı ilə Yeni qonşuluq siyasəti proqramının iştirakçısıdır və bütövlükdə, Avropa məkanına bizim inteqrasiyamız çox uğurla davam edir. İqtisadi sahədə ölkəmiz dünyada analoqu olmayan sürətlə inkişaf edir. 2005-ci ildə iqtisadiyyatımız 26 faiz artmışdır, 2006-cı ildə isə 35 faiz artıb və Azərbaycan çox zəngin ölkəyə çevrilir. Həyata keçirilən nəhəng enerji layihələri həm ölkənin tələbatlarını tam şəkildə ödəyəcək, eyni zamanda, Avropanın enerji təhlükəsizliyi məsələlərinə də öz töhfəsini verəcəkdir. Keçən ilin sonunda Avropa İttifaqı ilə Azərbaycan arasında imzalanmış enerji sahəsində strateji tərəfdaşlıq haqqında memorandumun icrası nəticəsində Avropanın enerji təhlükəsizliyi məsələlərinə Azərbaycan öz töhfəsini verəcəkdir.

Fransa şirkətləri ilə çox uğurlu əməkdaşlıq edirik, bu əməkdaşlığın artıq böyük tarixi var və bundan çox məmnunuq. Mənim səfərim çərçivəsində yeni sahələr üzrə anlaşmalar imzalanacaq və beləliklə, Fransa şirkətlərinin Azərbaycanda fəaliyyəti daha da genişlənəcəkdir.

Bizim təbii ehtiyatlarımız, əlbəttə ki, böyük sərvətdir və Azərbaycan xalqının rifah halının yaxşılaşmasına xidmət göstərir. Ancaq bunlar tükənən sərvətlərdir. Bundan daha da dəyərli sərvət ondan ibarətdir ki, Azərbaycanda bütün millətlər, bütün dinlərin nümayəndələri bir ailə kimi, qardaş kimi yaşayırlar. Azərbaycanda mövcud olan milli və dini tolerantlıq, dözümlülük həm ölkəmizi zənginləşdirir, həm də başqa bölgələr üçün nümunə ola bilər.

Siyasətimizin əsas istiqamətləri ondan ibarətdir ki, biz güclü iqtisadi potensial yaratmalıyıq, siyasi islahatları davam etdirməliyik, demokratikləşmə, insan hüquqları məsələlərində böyük nailiyyətlər əldə etməliyik, cəmiyyətdə sosial ədalət prinsipini bərqərar etməliyik və beynəlxalq müstəvidə özümüzə mənsub olan yeri tutmalıyıq. Bütün bu məqsədlərə nail olmaq üçün Fransa ilə Azərbaycan arasında münasibətlərin inkişafına böyük ehtiyac var. Sadaladığım bütün bu məsələlərdə biz uğurlu əməkdaşlıq edirik.

Bir sözlə, Azərbaycan ötən 15 il ərzində öz dövlət müstəqilliyini təsdiq edib, iqtisadi potensialını möhkəmləndirib və Avropa ilə inteqrasiya siyasətini davam etdirir. Bizim çox gözəl iqtisadi perspektivlərimiz var. Dünya Bankının verdiyi məlumata görə, növbəti 20 il ərzində təkcə neft əməliyyatlarından ölkəmiz 140 milyard dollar qazanc əldə edəcəkdir. Bu vəsaitdən istifadə edib biz Azərbaycanı hərtərəfli inkişaf etdirəcək, müasirləşdirəcək və dünyanın inkişaf etmiş ölkəsinə çevirəcəyik.

Ancaq bununla bərabər, bu məqsədlərə çatmaq üçün, təbii ki, bizim regionda sülh, təhlükəsizlik bərqərar olunmalıdır. Əfsuslar olsun ki, hələ buna nail ola bilməmişik və regional məsələlərə ən böyük təhlükə Ermənistanın Azərbaycana 10 ildən artıq davam edən təcavüzüdür. Bu təcavüzün nəticəsində azərbaycanlılara qarşı edilən etnik təmizləmə siyasətidir və torpaqlarımızın 20 faizinin işğal olunmasıdır, 1 milyondan artıq azərbaycanlının qaçqın-köçkün vəziyyətinə düşməsidir. Biz tələb edirik ki, ərazi bütövlüyümüz bərpa olunsun. Azərbaycanın ərazi bütövlüyü bütün dünya ictimaiyyəti tərəfindən tanınır və dəstəklənir. Birləşmiş Millətlər Təşkilatı tərəfindən və bütün beynəlxalq təşkilatlar tərəfindən dəstəklənir və tanınır və təbii olaraq, biz tələb edirik ki, ərazi bütövlüyümüz bərpa olunsun. XXI əsrdə bir ölkənin başqa bir ölkənin ərazisini işğal etməsi və 15 ilə yaxın müddətdə işğal altında saxlaması dözülməz və qəbuledilməzdir.

Ermənistan-Azərbaycan münaqişəsinin həlli işində Fransa çox fəal iştirak edir və bu fəallığa görə biz Fransa rəhbərliyinə öz minnətdarlığımızı bildirmək istəyirik. Mən ümid edirəm ki, Cənubi Qafqazda mövcud olan bütün münaqişələr öz həllini tapacaq, bütün separatçı qüvvələr öz əməllərindən əl çəkəcək və nəhayət, bölgəmizə sülh gələcəkdir.

Əziz dostlar, mən bir daha demək istəyirəm ki, Fransa bizim üçün dost, tərəfdaş ölkədir. Bunu müxtəlif məsələlərlə, misallarla sübut etmək olar. Mən sizin vaxtınızı almaq istəmirəm. Bir məsələni deyə bilərəm ki, Prezident vəzifəsinə seçiləndən sonra mən ilk rəsmi səfərimi 2004-cü ilin yanvar ayında Fransaya etmişəm. Ondan sonra da ölkənizdə dəfələrlə olmuşam, indi isə dövlət səfərindəyəm. Bu gün cənab merlə söhbət əsnasında biz qeyd etdik ki, Parislə Bakı arasında münasibətlər də Fransa-Azərbaycan münasibətləri səviyyəsinə qalxmalıdır və yəqin ki, yaxın zamanlarda biz buna nail olacağıq.

Əziz dostlar, mənə və nümayəndə heyətinə göstərdiyiniz diqqətə, məhəbbətə və qonaqpərvərliyə görə sizə bir daha ürəkdən minnətdarlığımızı bildirmək istəyirəm, sizə cansağlığı, xoşbəxtlik arzulayıram. Sağ olun.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN FRANSANIN BAŞ NAZİRİ DOMİNİK DE VİLPEN İLƏ GÖRÜŞÜ

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev yanvarın 30-da Fransa hökumətinin binasına – "Matinyon" sarayına gəlmişdir.

Azərbaycan Prezidenti İlham Əliyev və xanımı Mehriban Əliyevanı Fransanın Baş naziri Dominik de Vilpen sarayın önündə böyük hörmət və ehtiramla qarşıladı. Sonra Azərbaycan Prezidenti ilə Fransanın Baş naziri arasında görüş keçirildi.

Görüşdə ölkələrimiz arasında ikitərəfli münasibətlərin inkişafı, Prezident İlham Əliyevin Fransaya dövlət səfərinin əhəmiyyəti, eləcə də bu səfərin qarşılıqlı əməkdaşlığın genişləndirilməsinə təkan verəcəyi vurğulandı.

Bildirildi ki, Fransa ilə Azərbaycan arasında bütün sahələrdə əməkdaşlıq daim genişlənir və iqtisadi əlaqələrin daha da inkişafı üçün böyük perspektivlər vardır. Bu baxımdan, Azərbaycan ilə Fransa arasında imzalanacaq sənədlər gələcək əməkdaşlığın konkret istiqamətlərinin müəyyənləşdirilməsində mühüm rol oynayacaqdır.

SƏNƏDLƏRİN İMZALANMASI MƏRASİMİ

Yanvarın 30-da Parisdə, "Matinyon" sarayında Azərbaycan Prezidenti İlham Əliyevin və Fransanın Baş naziri Dominik de Vilpenin iştirakı ilə sənədlərin imzalanması mərasimi olmuşdur.

"Azərbaycan Respublikasının Mədəniyyət və Turizm Nazirliyi və Fransa Respublikasının Mədəniyyət və Kommunikasiya Nazirliyi arasında əməkdaşlıq memorandumu"nu, "Azərbaycan Respublikasının Mədəniyyət və Turizm Nazirliyi və Fransa Respublikasının Mədəniyyət və Kommunikasiya Nazirliyi arasında muzey işi sahəsində əməkdaşlığa dair protokol"u, "Mirzə Fətəli Axundov adına Azərbaycan Milli Kitabxanası və Fransa Milli Kitabxanası arasında qarşılıqlı əməkdaşlıq haqqında memorandum"u

Azərbaycan tərəfindən xarici işlər naziri Elmar Məmmədyarov, Fransa tərəfindən bu ölkənin xarici işlər naziri Filip dü Blazi imzaladılar.

"Azərbaycan Respublikası hökuməti və Fransa Respublikası hökuməti arasında turizm sahəsində əməkdaşlıq haqqında saziş"i Azərbaycan tərəfindən xarici işlər naziri Elmar Məmmədyarov, Fransa tərəfindən bu ölkənin turizm naziri İv Bertran imzaladılar.

"Azərbaycan Respublikasının Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi və Fransa Respublikasının Əmək, Sosial Bərabərlik və Yaşayış Nazirliyi arasında ikitərəfli əməkdaşlıq haqqında inzibati razılaşma"nı Azərbaycan tərəfindən Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin sədri Hicran Hüseynova, Fransa tərəfindən bu ölkənin əmək, sosial bərabərlik və yaşayış naziri Katrin Detrin imzaladılar.

"Azərbaycan Respublikası hökuməti və Fransa Respublikası hökuməti arasında mülki müdafiə və təhlükəsizlik sahəsində əməkdaşlıq və yardım haqqında saziş"i Azərbaycan tərəfindən fövqəladə hallar naziri Kəmaləddin Heydərov, Fransa tərəfindən ərazilərin abadlaşdırılması məsələləri naziri Kristian Estrozi imzaladılar.

"Azərbaycan Respublikası Milli Elmlər Akademiyası və Fransa Respublikası Milli Elmlər, Araşdırmalar Mərkəzi arasında elmi əməkdaşlıq saiziş"ini Azərbaycan tərəfindən Milli Elmlər Akademiyasının prezidenti Mahmud Kərimov, Fransa tərəfindən Milli Elmlər, Araşdırmalar Mərkəzinin rəhbəri xanım Tapi Roşinyak imzaladılar.

"Azərbaycan Respublikasının İqtisadi İnkişaf Nazirliyi və Fransanın "SNİM" təşkilatı arasında razılaşma memorandumu"nu Azərbaycan tərəfindən iqtisadi inkişaf naziri Heydər Babayev, Fransa tərəfindən "SNİM" təşkilatının rəhbəri Filip Suli imzaladılar. Bu sənəd Bakı şəhəri ətrafındakı tullantılardan istifadə məqsədi daşıyır.

"Dörd ATR tipli təyyarənin alınması ilə bağlı "Azərbaycan Hava Yolları" Dövlət Konserni – AZAL və ATR tipli təyyarələrin istehsalçı şirkəti arasında saziş"i Azərbaycan tərəfindən Konsernin baş direktoru Cahangir Əsgərov, Fransa tərəfindən ATR şirkətinin icraçı direktoru Filip Bonyato imzaladılar.

FRANSA MİLLİ ASSAMBLEYASININ SƏDRİ İLƏ GÖRÜŞ

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev yanvarın 30-da Fransa parlamentinin aşağı palatasının – Milli Assambleyasının binasına gəlmişdir.

Azərbaycanın və Fransanın dövlət bayraqları önündə xatirə şəkli çəkdirildikdən sonra Prezident İlham Əliyev ilə Jan-Lui Debre arasında görüş oldu.

Milli Assambleyanın sədri dedi ki, Azərbaycan Prezidentinin Fransaya dövlət səfərinin ikitərəfli əlaqələrin inkişafı baxımından böyük əhəmiyyəti var. Milli Assambleyada keçirilən görüş deputatlar, Fransanın iqtisadi strukturlarında məşğul olan iş adamları və digər insanlar üçün Azərbaycanda və regionda gedən proseslər barədə bilavasitə Sizdən məlumat almaq baxımından çox dəyərlidir.

Prezident İlham Əliyev dedi ki, son üç ildə Fransaya beş dəfə səfər etməyim Azərbaycanın bu ölkə ilə əlaqələrə böyük əhəmiyyət verdiyini göstərir. Siyasi sahədə əlaqələrimiz uğurla inkişaf edir, Fransa bizim üçün dost ölkədir. Azərbaycanın Avropa İttifaqı ilə əməkdaşlığının inkişafında Fransanın rolunu qeyd edən dövlətimizin başçısı iqtisadi sa-

həddə geniş əməkdaşlığın olduğunu xatırladaraq dedi ki, Fransaya ötən səfərim zamanı Tuluza şəhərində olduq və aerobus tipli təyyarələr aldıq. Bu gün imzalanan sənədə görə isə yeni ATR tipli təyyarələr alınacaqdır. Energetika və digər sahələrdə də əməkdaşlıq münasibətlərimizin inkişafını göstərir.

Söhbət zamanı Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinə də toxunuldu. Prezident İlham Əliyev Minsk qrupunun həmsədri kimi Fransanın danışıqlar prosesində fəal iştirakını və bu münaqişənin Azərbaycanın ərazi bütövlüyü prinsipi əsasında həllinə sadiq olduğunu yüksək qiymətləndirdi. Dövlətimizin başçısı Ermənistanın Azərbaycana qarşı təcavüzü, ermənilərin etnik təmizləmə siyasəti barədə danışdı, ərazilərimizin 20 faizinin işğal edildiyini, 1 milyon insanın qaçqın və məcburi köçkün vəziyyətinə düşdüyünü bildirdi.

Görüşdə parlamentlərarası əlaqələrin genişlənməsinin əhəmiyyəti və bu baxımdan qarşılıqlı səfərlərin rolu vurğulandı. Bildirildi ki, əməkdaşlığın bundan sonra da genişlənməsi üçün yaxşı imkanlar vardır.

"GAZ DE FRANCE" ŞİRKƏTİNİN PREZİDENTİ İLƏ GÖRÜŞ

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev yanvarın 30-da, onun üçün ayrılmış iqamətgahda Fransanın "Gaz de France" şirkətinin prezidenti və baş direktoru Jan Fransua Sireli ilə görüşmüşdür.

Jan Fransua Sireli rəhbərlik etdiyi şirkətin fəaliyyəti və gördüyü işlər haqqında dövlətimizin başçısına məlumat verərək, Azərbaycan ilə əməkdaşlığı genişləndirmək istədiyini bildirdi.

Prezident İlham Əliyev bu şirkətlə əməkdaşlığa müsbət baxdığını söyləyərək, birgə işlərin görülməsi üçün yaxşı imkanların olduğunu vurğuladı.

"VİNCİ" ŞİRKƏTİ İDARƏ HEYƏTİNİN SƏDRİ İLƏ GÖRÜŞ

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev yanvarın 30-da Parisdə, onun üçün ayrılmış iqamətgahda Fransanın "VİNCİ" şirkətinin idarə heyətinin sədri İv Tibo Silqi ilə görüşmüşdür.

İv Tibo Silqi Azərbaycan Prezidentinin Fransaya dövlət səfərini yüksək qiymətləndirərək, onu çox gözəl və tarixi hadisə adlandırdı.

Görüşdə səfər zamanı imzalanmış sənədlərin ikitərəfli əlaqələrin gələcək inkişafına böyük təkan verəcəyi vurğulandı.

"VİNCİ"-nin idarə heyətinin sədri Azərbaycan ilə əməkdaşlığa üstünlük verdiyini və bu baxımdan konkret layihələrin olduğunu söylədi.

Prezident İlham Əliyev ölkəmizdə xarici şirkətlər, iş adamları üçün hər cür şəraitin yaradıldığını bildirdi.

"SOCİETE GENERALE" ŞİRKƏTİNİN BAŞ İCRAÇI DİREKTORU İLƏ GÖRÜŞ

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev yanvarın 30-da onun üçün ayrılmış iqamətgahda "Societe Generale" şirkətinin baş icraçı direktoru Daniel Buton ilə görüşmüşdür.

Görüşdə "Societe Generale" şirkətinin Azərbaycanla yaxşı əməkdaşlıq qurduğu vurğulandı. Eyni zamanda bildirildi ki, əlaqələrin daha da genişləndirilməsi üçün şirkət konkret işlər görür və artıq bir sıra layihələri maliyyələşdirir. Nəzərdə tutulan yeni layihələrə də sərmayə qoyulacaq və Azərbaycanın bank sektorunda müəyyən işlər görüləcəkdir.

"BNP PARİBAS" BANKININ DİREKTORLAR ŞURASININ SƏDRİ İLƏ GÖRÜŞ

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev yanvarın 30-da onun üçün ayrılmış iqamətgahda Fransanın ikinci ən böyük bankı olan "BNP Paribas"ın direktorlar şurasının sədri Mişel Pebero ilə görüşmüşdür.

Azərbaycan Prezidentinin Fransaya dövlət səfərinin əhəmiyyətini vurğulayan Mişel Pebero bankın fəaliyyəti barədə məlumat verdi.

Görüşdə ölkələrimiz arasında əməkdaşlıqla bağlı fikir mübadiləsi aparıldı.

Prezident İlham Əliyev "BNP Paribas"ın Azərbaycanda bir sıra layihələri maliyyələşdirdiyini xatırladaraq dedi ki, bundan sonra qeyri-neft sektoruna da sərmayə qoyulması məqsədəuyğun olardı. Eyni zamanda, Azərbaycanda gedən iqtisadi proseslərə təkan verə bilən sahələr üzrə də fəaliyyət mümkündür.

NATO PARLAMENT ASSAMBLEYASININ SƏDRİ İLƏ GÖRÜŞ

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev yanvarın 30-da onun üçün ayrılmış iqamətgahda NATO Parlament Assambleyasının sədri Pyer Löluş ilə görüşmüşdür.

Pyer Löluş Fransada keçiriləcək prezident seçkiləri ərəfəsində bu ölkədə gedən proseslər, seçkilərə hazırlıq barədə dövlətimizin başçısına məlumat verdi.

Görüşdə bir sıra regional məsələlərə dair geniş fikir mübadiləsi aparıldı.

FRANSA SENATI SƏDRİNİN ADINDAN ZİYAFƏT

Yanvarın 30-da Fransa Senatının sədri Kristian Ponsölenin adından Azərbaycan Prezidenti İlham Əliyevin və xanımı Mehriban Əliyevanın şərəfinə ziyafət verildi.

Fransa Senatının sədri və Azərbaycan Prezidenti ziyafətdə nitq söylədilər.

FRANSA SENATININ SƏDRİ KRİSTİAN PONSÖLENİN NİTQİ

-Cənab Azərbaycan Respublikasının Prezidenti!

Çox hörmətli xanım Əliyeva!

Cənab nazirlər!

Cənab senatorlar və əziz həmkarlar!

Cənab səfirlər!

Zati-aliləri, xanımlar və cənablar, artıq gördüyünüz kimi, bu axşam buraya müxtəlif sahələrdən olan, lakin bir-biri ilə sıx dostluq əlaqələri qurmuş məsuliyyətli şəxslər toplaşmışdır. Mən buraya toplaşan böyük fransız-Azərbaycan ailəsini görməkdən olduqca məmnunam. Sizləri görməkdən və Sizə əziz dostlar kimi müraciət etməkdən çox şadam.

Cənab Prezident,

Hörmətli xanım Əliyeva,

İlk öncə, cənab Prezident, icazə verin, son illər ərzində, xüsusən də 2004-cü ilin yanvar ayında xaricə, Fransaya ilk səfəriniz çərçivəsində Sizinlə görüşdüyümüz tarixi salonda Sizi yenidən qəbul etməkdən məmnun olduğumu bildirim. Bu, ölkə başçısı kimi Sizin ilk rəsmi səfəriniz oldu və biz bunu olduqca yüksək qiymətləndirdik. Mən Azərbaycan dövləti başçısının Fransaya ilk dövlət səfəri çərçivəsində xanımınızın müşayiəti ilə burada Senat sədrinin salonunda keçirilən yeni görüşü əlaqələrimizin möhkəmləndirilməsinə sadiqliyinizin rəmzi və dostluq əlaməti kimi dəyərləndirirəm.

Cənab Prezident, ölkələrimiz arasında mövcud olan münasibətlər gözəldir. Apardığımız siyasi dialoq zəngin və genişdir. Bu iş məni çox sevindirir, çünki əminliyin bəzən tərəddüdlə əvəz olunduğu bir vaxtda dünyada sabitliyi, tarazlığı və təhlükəsizliyi arzulayan ölkələr arasında əməkdaşlığın aparılması böyük əhəmiyyət daşıyır.

Parlamentlərarası əməkdaşlığımız fəaldır, qarşılıqlı səfərlər dövri xarakter daşıyır. Onun dinamik inkişafı, əsasən, Fransa-Qafqaz parlamentlərarası qrupunun sədri, burada əyləşən həmkarımız və dostumuz Ambruaz Düponun fəaliyyəti ilə bağlıdır. Mədəni əlaqələrimiz inkişaf edir və Senat hazırkı mədəni mübadilələrimizin tanınmış qüvvəsi olan Bakıda Fransa Mədəniyyət Mərkəzinin yaradılması layihəsini dəstəkləməyindən qürur hissi duyur. Bildiyiniz kimi, həmin Mərkəz Senatın təşəbbüsü ilə təsis edilmişdir və mən çox şadam ki, onun fəaliyyəti uğurludur və o, münasibətlərimizin inkişafına xidmət edir.

Aydındır ki, iqtisadi əlaqələrimiz siyasi münasibətlərimiz səviyyəsində deyil, lakin bu qeyri-tarazlığın aradan qaldırılması üçün hər iki tərəfdən böyük səylərin göstərildiyini bilirəm. Bu baxımdan, cənab Prezident, icazə verin, Sizin həmçinin bu məqsədə nə qədər yüksək dərəcədə nail olmağa çalışdığınızı vurğulayım. Ötən ilin dekabr ayında fransız sahibkarlarından ibarət nümayəndə heyətini şəxsən qəbul etdiniz və hazırkı səfəriniz çərçivəsində artıq bir neçə müqavilə imzalanmışdır. İqtisadiyyatının şaxələndirilməsi yolunda böyük səylər göstərən və 2005-ci ildə 26 faiz iqtisadi artım göstəricisi ilə seçilən Azərbaycana fransız müəssisələrinin artan marağını müşahidə etməkdən şadam.

Cənab Prezident, əziz dostum!

Azərbaycan elə burada qəbul etmək şərəfinə nail olduğum rəhmətlik atanızın rəhbərliyi altında, indi isə, Sizin rəhbərliyinizlə çox dəyişikliklərdən keçmişdir. Lakin özünün ənənəvi dəyərlərini, dini dözümlülüyünü və nəhayət, hələ 1918-ci ildə qadınlara seçki hüququ verərək, onların mövqeyini möhkəmləndirmək əzmini qoruyub saxlaya bilmişdir. Təbii ki, biz bunu etiraf etməliyik ki, Siz qadın ilə kişi arasındakı bərabərliyi bizdən öncə tanımısınız.

İrəliyə doğru atılmış bu cür gözəl addımla yanaşı, təhdidlər hələ də qalmaqdadır. Söhbət sülhdən gedir. Bildiyiniz kimi, Fransa Senatı, – icazə verin, mən bunu bir daha xatırladım, – Cənubi Qafqazda münaqişələrin aradan qaldırılmasına öz fəal töhfəsini verir. Fransa Senatının sədri olduğum vaxtdan etibarən mən Cənubi Qafqazın üç parlamenti arasında əməkdaşlıq və müzakirələrin aparılması məqsədi ilə şəxsən çalışmışam. 1999-cu ilin dekabr ayında Versalda təşkil etdiyim ilk görüşdən sonra bir çox bu cür toplantılar keçirilmişdir. Göstərilmiş səylər turizm və mədəni irsin qorunması sahələrində regional əməkdaşlığı inkişaf etdirmək qərarı ilə nəticələndi. Bu məqsədlə hesabatlar hazırlanmış və hər bir tərəfə göndərilmişdir. Biz Senatda ümid edirik ki, onlar gələn aylar ərzində hamı tərəfindən müzakirə olunacaqdır. Bilirəm ki, sülhün bərqərar olunmasına sadiqliyi ilə tanınan ölkənizin dəstəyinə arxalana bilərəm. Münaqişələrin ədavət və güc hesabına həllinin mümkünsüzlüyünü anlamaq nəinki vətəndaşların, o cümlədən siyasətçilərin ən böyük məsuliyyətidir. Sülh gələcəkdir. Biz onu bir çox zamanlar faydasız olan, əsrlər boyu aparılmış müharibələr və münaqişələrdən sonra Avropada hiss etmişik. Xüsusən Minsk qrupu daxilində çalışan və daimi sadiqliyinə bələd olduğunuz Fransa və Avropa İttifaqının qonşuluq siyasəti çərçivəsində ölkənizlə tədbirlər planı imzalamış bütün Avropa hələ də həll olunmamış Dağlıq Qarabağ münaqişəsinin qəti və razılaşdırılmış formada nizamlanmasında Sizin tərəfinizdə olacaqdır. Mən belə ümidlərə əlavə əsasları görürəm.

Yekun olaraq, icazə verin, bu badəni xalqlarımız arasındakı dostluğun şərəfinə, Sizin və xanım Əliyevanın şərəfinə qaldırım.

Yaşasın Azərbaycan!

Yaşasın Fransa!

Yaşasın Fransa-Azərbaycan dostluğu!

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN NİTQİ

- Hörmətli xanımlar və cənablar!

Əziz dostlar!

Mənim Fransaya dövlət səfərim başa çatır. Bu günlər ərzində ölkələrimiz arasında olan əlaqələr yeni təkan almışdır. Səfər günlərində geniş danışıqlar aparılmış, iki ölkə arasında iqtisadi, mədəni və digər sahələrin inkişafı üçün lazım olan sənədlər imzalanmışdır. Deyə bilərəm ki, bu səfərdən sonra Fransa-Azərbaycan münasibətləri yeni pilləyə qalxmışdır. Ölkələrimiz arasında mövcud olan gözəl siyasi əlaqələr, təbii ki, iqtisadi sahədə işlərin görülməsinə kömək göstərir və biz ümid edirik ki, Fransa-Azərbaycan ticarət əlaqələri də sürətlə inkişaf edəcəkdir.

Sizə deyə bilərəm ki, artıq neçə ildir Fransanın tanınmış, aparıcı şirkətləri Azərbaycanda işləyir, sərmayə qoyur, müxtəlif layihələr üzərində çalışırlar və biz onların Azərbaycandakı fəaliyyətini çox yüksək qiymətləndiririk. Mən ümid edirəm ki, bu səfərdən sonra Fransa şirkətləri Azərbaycanda daha da fəal işləyəcəklər və beləliklə, bizim iqtisadi əlaqələrimiz daha da möhkəmlənəcəkdir.

Eyni zamanda, Fransanın regionları ilə Azərbaycan arasında mümkün olan əlaqələrin inkişafı üçün də gözəl imkanlar vardır. Mən çox şadam ki, səfər zamanı sizin regiona – Nord-Pa-de-Kalc regionuna gəlmişəm və əminəm ki, bu səfərdən sonra bu regiondan olan iş adamları da Azərbaycana gələcəklər və biz birlikdə işləyəcəyik.

İndi Azərbaycanda biznesiə məşğul olmaq çox əlverişli iş olubdur. Azərbaycanda çox gözəl investisiya mühiti var və son 10 il ərzində ölkə iqtisadiyyatına 33 milyard dollar sərmayə qoyulmuşdur. Bizim tərəfdaşlarımız dünyanın aparıcı şirkətləridir. Onların böyük əksəriyyəti, əlbəttə ki, energetika sektorunda fəaliyyət göstərir. Amma biz istəyirik ki, böyük şirkətlər, o cümlədən Fransa şirkətləri iqtisadiyyatın digər sahələrində də işləmək üçün Azərbaycana gəlsin. Çünki bir daha demək istəyirəm ki, iş görmək, gözəl iqtisadi imkanlar əldə etmək üçün Azərbaycanda çox yaxşı şərait vardır.

Azərbaycanda iqtisadi inkişaf da çox sürətlə gedir və bu baxımdan ölkəmiz dünyada birinci yeri tutur. 2005-ci ildə iqtisadiyyatımız 26 faiz, 2006-cı ildə isə 35 faiz artmışdır. Çox güman ki, bu il də iqtisadi artım təxminən eyni səviyyədə olacaqdır. Beləliklə, üç il ərzində Azərbaycanda ümumi daxili məhsul 2 dəfə artacaqdır. Əlbəttə ki, bu, investisiyaların qoyuluşu üçün də çox önəmli məsələdir və biz gözəl investisiya mühitindən istifadə edib dünyanın müxtəlif yerlərindəki şirkətlərlə səmərəli əməkdaşlıq edirik. Bir də demək istəyirəm ki, Fransa şirkətlərinin bu işlərdə xüsusi yeri vardır. Biz, sadəcə, istəyirik ki, daha da fəal olsunlar.

Dövlətimizin gəlirləri artır, büdcəmiz artır və beləliklə, növbəti illərdə Azərbaycanda çoxlu layihələr həyata keçiriləcəkdir. Bizim ölkəmiz müasirləşir. İnfrastruktur layihələrinə böyük sərmayə qoymaq fikrindəyik. Tikinti işlərində böyük layihələr nəzərdə tutulur. Fransa şirkətlərinin böyük təcrübəsi, şöhrəti var və onlar bu gözəl imkanlardan faydalana bilərlər.

Əgər Fransa şirkətləri Azərbaycanda investor kimi fəaliyyət göstərmək istəsələr, biz buna çox sevinərik. Əgər kontraktor kimi işləmək istəsələr, bunun üçün də imkanlar var. Çünki bir daha bildirmək istəyirəm ki, gələn illərdə Azərbaycanda, demək olar, iqtisadiyyatın bütün sahələrinə dövlət xətti ilə böyük sərmayələr qoyulacaqdır. Biz sadəcə istəyirik ki, bu işləri yaxşı şirkətlər ən yüksək səviyyədə görsünlər.

Hər bir iqtisadi uğurun əsasında siyasi sabitlik məsələləri dayanır. Əgər Azərbaycanda siyasi sabitlik olmasaydı, biz heç vaxt ölkəmizə bu qədər xarici sərmayə gətirə bilməzdik. Potensial investorlar üçün bu amil də çox böyük əhəmiyyət kəsb edir. Azərbaycan siyasi cəhətdən çox sabit ölkədir. Artıq Azərbaycanın həm regional, həm siyasi, həm də iqtisadi məsələlərdə aparıcı rolu vardır. Bizim tərəfimizdən və xarici tərəfdaşlarla birlikdə inşa edilmiş neft-qaz kəmərləri Azərbaycanın təbii sərvətlərini Avropa və dünya bazarlarına çatdırır. Azərbaycan Avropanın enerji təhlükəsizliyi məsələlərinə öz töhfəsini verməyə başlamışdır.

Bizim Fransa ilə olan əlaqələrimizin bir hissəsi də Avropa İttifaqı-Azərbaycan əlaqələri çərçivəsində həyata keçirilir. Avropa İttifaqı ilə keçən ilin noyabr ayında imzalanmış yeni qonşuluq siyasətinə dair müqavilə ölkəmizi Avropaya daha da yaxınlaşdıracaqdır. Yəni bütün bu amillər, əlbəttə ki, bütövlükdə Azərbaycanın gələcək inkişafını müəyyən edəcək, Avropa ilə Azərbaycan arasında mövcud olan çox gözəl əlaqələri daha da möhkəmləndirəcək, Azərbaycanı Avropa üçün çox möhkəm tərəfdaşa çevirəcək və beləliklə, bizim həm siyasi, iqtisadi, həm də başqa sahələrdə olan münasibətlərimiz genişlənəcəkdir. Fransanın böyük şirkətləri, transmilli şirkətlər, əlbəttə ki, bu imkanlardan istifadə edirlər, Azərbaycanda olan vəziyyətlə tanışdırlar. Biz istəyirik ki, orta səviyyəli şirkətlər, orta təbəqənin maraqlarını əks etdirən şirkətlər Azərbaycanda işləsinlər və beləliklə, əlaqələrimiz daha da möhkəmlənsin. Çünki siz də bunu yaxşı bilirsiniz ki, inkişaf etmiş ölkələrdə iqtisadi potensialın formalaşması işində orta səviyyəli şirkətlər əksəriyyət təşkil edir.

Mən çox istərdim ki, Fransanın regionlarında fəaliyyət göstərən, xüsusilə sizin regionda işləyən şirkətlər Azərbaycanı tanısınlar, özləri üçün kəşf etsinlər, Azərbaycana gəlsinlər və bizimlə işləsinlər. Ümid edirəm ki, bu görüşdən sonra biz bunun şahidi olacağıq.

Bir məsələni də demək istəyirəm ki, bu səfər zamanı mənə və bizim nümayəndə heyətinə çox böyük hörmət, böyük qonaqpərvərlik göstərilmişdir. Mən Fransanın ən yüksək ordeni ilə təltif olunmuşam. Bu, mənim üçün çox böyük şərəfdir. Bu, bir daha göstərir ki, bizim aramızda olan əlaqələr səmimidir, dostluq əsasında qurulubdur, uzunmüddətlidir, iki ölkə üçün faydalıdır və Fransa-Azərbaycan xalqları üçün əhəmiyyətlidir. Mən bu fürsətdən istifadə edib, sizin hamınızı Azərbaycana dəvət edirəm.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN FRANSANIN NORD-PA-DE-KALE REGİONUNUN İŞGÜZAR ADAMLARI İLƏ GÖRÜŞÜ

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev yanvarın 31-də Fransa paytaxtının "Paris-Nord" vağzalından yüksək sürətli "TGV" qatarı ilə ölkənin ən şimalında yerləşən Nord-Pa-de-Kalc regionunun baş şəhəri olan Lillə gəlmişdir.

Prezident İlham Əliyevi dəmir yolu vağzalında Nord-Pa-de-Kalc regional şurasının sədri Daniel Perşeron qarşıladı.

Dövlətimizin başçısı regionun Ticarət palatasına gəldi. Binanın qarşısında Prezident İlham Əliyevi palatanın sədri Patrik Van den Şrik böyük hörmət və ehtiramla qarşıladı. O, palatanın tarixi və fəaliyyəti barədə dövlətimizin başçısına məlumat verərək dedi ki, palatanın yerləşdiyi bina 1910-cu ildə bu bölgədə toxuculuqla məşğul olan iş adamları tərəfindən tikilmişdir, geniş salonları və iş otaqları vardır. Ticarət palatası, əsasən, regionun iş adamlarının istər ölkə daxilində, istərsə də xaricdə fəaliyyəti üçün lazımi məsləhətlər verir.

Sonra Ticarət palatasının iclas salonunda regionun işgüzar adamları ilə görüş keçirildi. Patrik Van den Şrik görüşü açaraq, ali qonağı və onu müşayiət edən şəxsləri bir daha salamladı. O dedi ki, Azərbaycan Prezidenti İlham Əliyevin Lill şəhərinə gəlməsi bizim üçün böyük və əlamətdar hadisədir, son bir neçə ildə biz belə yüksək qonaq qarşılamamışdıq. Ticarət palatasının sədri işgüzar dairələrin nümayəndələrini təqdim edərək bil-

dirdi ki, Lill şəhəri Fransanın sənaye mərkəzlərindən biridir. Əvvəllər toxuculuq üzrə tanınan bu regionun böyük iqtisadi potensialı vardır. Burada müxtəlif sahələr üzrə bir çox nüfuzlu şirkətlərin, universitetlərin elmi tədqiqat mərkəzləri də yerləşir. Coğrafi baxımdan əlverişli məkanda yerləşən regionun iş adamları Böyük Britaniya, Hollandiya, Belçika, Almaniya və Avropanın digər ölkələri ilə geniş əlaqələr qurmuşlar və onların 100 milyonadək istehlakçısı vardır. Fransanın, o cümlədən bu bölgənin iş adamları Azərbaycanla da əməkdaşlığa böyük maraq göstərirlər. Bu, həm işgüzar dairələrin nümayəndələri, həm də ölkələrimiz arasında əlaqələrin daha da genişlənməsi üçün çox əhəmiyyətlidir.

Patrik Van den Şrik dövlətimizin başçısına regiona gəldiyinə, görüşdə iştirak etməklə onlara böyük şərəf verdiyinə görə bir daha təşəkkür etdi və bu görüşün birgə əməkdaşlıq üçün səmərəli olacağına əminliyini bildirdi.

Prezident İlham Əliyev görüşdə nitq söylədi.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN NİTQİ

- Hörmətli xanımlar və cənablar!

Əziz dostlar!

Mənim Fransaya dövlət səfərim başa çatır. Bu günlər ərzində ölkələrimiz arasında olan əlaqələr yeni təkan almışdır. Səfər günlərində geniş danışıqlar aparılmış, iki ölkə arasında iqtisadi, mədəni və digər sahələrin inkişafı üçün lazım olan sənədlər imzalanmışdır. Deyə bilərəm ki, bu səfərdən sonra Fransa-Azərbaycan münasibətləri yeni pilləyə qalxmışdır. Ölkələrimiz arasında mövcud olan gözəl siyasi əlaqələr, təbii ki, iqtisadi sahədə işlərin görülməsinə kömək göstərir və biz ümid edirik ki, Fransa-Azərbaycan ticarət əlaqələri də sürətlə inkişaf edəcəkdir.

Sizə deyə bilərəm ki, artıq neçə ildir Fransanın tanınmış, aparıcı şirkətləri Azərbaycanda işləyir, sərmayə qoyur, müxtəlif layihələr üzərində çalışırlar və biz onların Azərbaycandakı fəaliyyətini çox yüksək qiymətləndiririk. Mən ümid edirəm ki, bu səfərdən sonra Fransa şirkətləri Azərbaycanda daha da fəal işləyəcəklər və beləliklə, bizim iqtisadi əlaqələrimiz daha da möhkəmlənəcəkdir. Eyni zamanda, Fransanın regionları ilə Azərbaycan arasında mümkün olan əlaqələrin inkişafı üçün də gözəl imkanlar vardır. Mən çox şadam ki, səfər zamanı sizin regiona – Nord-Pa-de-Kale regionuna gəlmişəm və əminəm ki, bu səfərdən sonra bu regiondan olan iş adamları da Azərbaycana gələcəklər və biz birlikdə işləyəcəyik.

İndi Azərbaycanda bizneslə məşğul olmaq çox əlverişli iş olubdur. Azərbaycanda çox gözəl investisiya mühiti var və son 10 il ərzində ölkə iqtisadiyyatına 33 milyard dollar sərmayə qoyulmuşdur. Bizim tərəfdaşlarımız dünyanın aparıcı şirkətləridir. Onların böyük əksəriyyəti, əlbəttə ki, energetika sektorunda fəaliyyət göstərir. Amma biz istəyirik ki, böyük şirkətlər, o cümlədən Fransa şirkətləri iqtisadiyyatın digər sahələrində də işləmək üçün Azərbaycana gəlsin. Çünki bir daha demək istəyirəm ki, iş görmək, gözəl iqtisadi imkanlar əldə etmək üçün Azərbaycanda çox yaxşı şərait vardır.

Azərbaycanda iqtisadi inkişaf da çox sürətlə gedir və bu baxımdan ölkəmiz dünyada birinci yeri tutur. 2005-ci ildə iqtisadiyyatımız 26 faiz, 2006-cı ildə isə 35 faiz artmışdır.

Çox güman ki, bu il də iqtisadi artım təxminən eyni səviyyədə olacaqdır. Beləliklə, üç il ərzində Azərbaycanda ümumi daxili məhsul 2 dəfə artacaqdır. Əlbəttə ki, bu, investisiyaların qoyuluşu üçün də çox önəmli məsələdir və biz gözəl investisiya mühitindən istifadə edib dünyanın müxtəlif yerlərindəki şirkətlərlə səmərəli əməkdaşlıq edirik. Bir də demək istəyirəm ki, Fransa şirkətlərinin bu işlərdə xüsusi yeri vardır. Biz, sadəcə, istəyirik ki, daha da fəal olsunlar.

Dövlətimizin gəlirləri artır, büdcəmiz artır və beləliklə, növbəti illərdə Azərbaycanda çoxlu layihələr həyata keçiriləcəkdir. Bizim ölkəmiz müasirləşir. İnfrastruktur layihələrinə böyük sərmayə qoymaq fikrindəyik. Tikinti işlərində böyük layihələr nəzərdə tutulur. Fransa şirkətlərinin böyük təcrübəsi, şöhrəti var və onlar bu gözəl imkanlardan faydalana bilərlər.

Əgər Fransa şirkətləri Azərbaycanda investor kimi fəaliyyət göstərmək istəsələr, biz buna çox sevinərik. Əgər kontraktor kimi işləmək istəsələr, bunun üçün də imkanlar var. Çünki bir daha bildirmək istəyirəm ki, gələn illərdə Azərbaycanda, demək olar, iqtisadiyyatın bütün sahələrinə dövlət xətti ilə böyük sərmayələr qoyulacaqdır. Biz sadəcə istəyirik ki, bu işləri yaxşı şirkətlər ən yüksək səviyyədə görsünlər.

Hər bir iqtisadi uğurun əsasında siyasi sabitlik məsələləri dayanır. Əgər Azərbaycanda siyasi sabitlik olmasaydı, biz heç vaxt ölkəmizə bu qədər xarici sərmayə gətirə bilməzdik. Potensial investorlar üçün bu amil də çox böyük əhəmiyyət kəsb edir. Azərbaycan siyasi cəhətdən çox sabit ölkədir. Artıq Azərbaycanın həm regional, həm siyasi, həm də iqtisadi məsələlərdə aparıcı rolu vardır. Bizim tərəfimizdən və xarici tərəfdaşlarla birlikdə inşa edilmiş neft-qaz kəmərləri Azərbaycanın təbii sərvətlərini Avropa və dünya bazarlarına çatdırır. Azərbaycan Avropanın enerji təhlükəsizliyi məsələlərinə öz töhfəsini verməyə başlamışdır.

Bizim Fransa ilə olan əlaqələrimizin bir hissəsi də Avropa İttifaqı-Azərbaycan əlaqələri çərçivəsində həyata keçirilir. Avropa İttifaqı ilə keçən ilin noyabr ayında imzalanmış yeni qonşuluq siyasətinə dair müqavilə ölkəmizi Avropaya daha da yaxınlaşdıracaqdır. Yəni bütün bu amillər, əlbəttə ki, bütövlükdə Azərbaycanın gələcək inkişafını müəyyən edəcək, Avropa ilə Azərbaycan arasında mövcud olan çox gözəl əlaqələri daha da möhkəmləndirəcək, Azərbaycanı Avropa üçün çox möhkəm tərəfdaşa çevirəcək və beləliklə, bizim həm siyasi, iqtisadi, həm də başqa sahələrdə olan münasibətlərimiz genişlənəcəkdir. Fransanın böyük şirkətləri, transmilli şirkətlər, əlbəttə ki, bu imkanlardan istifadə edirlər, Azərbaycanda olan vəziyyətlə tanışdırlar. Biz istəyirik ki, orta səviyyəli şirkətlər, orta təbəqənin maraqlarını əks etdirən şirkətlər Azərbaycanda işləsinlər və beləliklə, əlaqələrimiz daha da möhkəmlənsin. Çünki siz də bunu yaxşı bilirsiniz ki, inkişaf etmiş ölkələrdə iqtisadi potensialın formalaşması işində orta səviyyəli şirkətlər əksəriyyət təşkil edir.

Mən çox istərdim ki, Fransanın regionlarında fəaliyyət göstərən, xüsusilə sizin regionda işləyən şirkətlər Azərbaycanı tanısınlar, özləri üçün kəşf etsinlər, Azərbaycana gəlsinlər və bizimlə işləsinlər. Ümid edirəm ki, bu görüşdən sonra biz bunun şahidi olacağıq.

Bir məsələni də demək istəyirəm ki, bu səfər zamanı mənə və bizim nümayəndə heyətinə çox böyük hörmət, böyük qonaqpərvərlik göstərilmişdir. Mən Fransanın ən yüksək ordeni ilə təltif olunmuşam. Bu, mənim üçün çox böyük şərəfdir. Bu, bir daha göstərir

ki, bizim aramızda olan əlaqələr səmimidir, dostluq əsasında qurulubdur, uzunmüddətlidir, iki ölkə üçün faydalıdır və Fransa-Azərbaycan xalqları üçün əhəmiyyətlidir. Mən bu fürsətdən istifadə edib, sizin hamınızı Azərbaycana dəvət edirəm.

***

Sonra Fransanın "Eurosast", "Eriteks", "Mod-Material", "Teknipol Lill Metropol", "Transport Terrestr Promosyon" şirkətlərinin nümayəndələri çıxış etdilər, təmsil etdikləri şirkətlər barədə məlumat verdilər.

Onlar əsasən kənd təsərrüfatı, səhiyyə, yüngül sənaye, mebel, məişət əşyaları istehsalı, istehsal müəssisələri üçün yeni texnologiyaların hazırlanması, elmi tədqiqat işlərinin görülməsi, rabitə və informasiya texnologiyaları, şəhər nəqliyyatı, yükdaşıma və digər sahələrdə fəaliyyət göstərdiklərini söylədilər, Azərbaycanda da işləmək istədiklərini bildirdilər.

Nord-Pa-de-Kale regional şurasının sədri DANİEL PERŞERON çıxışında yüksək səviyyəli xalqın təmsilçilərinin – Azərbaycan Prezidenti İlham Əliyevin və nümayəndə heyəti üzvlərinin bu görüşdə iştirakının özləri üçün böyük şərəf və tarixi hadisə olduğunu vurğuladı. O dedi ki, cənab Prezident, biz Sizi bu gözəl salonda dərin hörmət və ehtiram hissi ilə salamlayırıq. Mən ona görə böyük hörmət və ehtiramla deyirəm ki, Sizin dərin hörmət bəslədiyim, tarixi və mədəniyyəti qarşısında baş əydiyim xalqınız vardır. Mən əvvəllər Türkiyədə çalışdığım zaman bütün bunları dərindən öyrənmişəm, şahidi olmuşam. Fransanın bu şimal bölgəsinin zəngin sənaye potensialına malik olduğunu vurğulayan cənab Perşeron dedi ki, Siz siyasi iradəniz, təcrübəniz və gücünüzlə ölkənizdə iqtisadi sərbəstliyə, iqtisadi artıma nail olmusunuz və xalqlar arasında əməkdaşlığa üstünlük verirsiniz.

Daniel Perşeron iqtisadi dirçəliş üçün möhkəm sabitliyin olduğu və inkişaf edən ölkə kimi, həmçinin "qara qızıl" və digər sərvətlərlə zəngin Azərbaycanda yaradılmış sərmayə mühitindən Fransa şirkətlərinin faydalanmasının vacibliyini vurğuladı və bunun hər iki tərəf üçün səmərəli olacağını söylədi. Şuranın sədri yüksək səviyyəli siyasi lider kimi Prezident İlham Əliyevin fəaliyyətini bir daha təqdir etdi.

Prezident İlham Əliyev minnətdarlıq edərək dedi:

- Mən xoş sözlərinizə görə, bizə göstərilən qonaqpərvərliyə görə sizə ürəkdən təşəkkür edirəm. Biz sizinlə ilk dəfədir görüşürük və ilk dəfədir ki, sizin regiona səfər edirik. Amma əminəm ki, məndə və nümayəndə heyətinin hər bir üzvündə belə bir təəssürat var ki, biz bir-birimizi çoxdan tanıyırıq. Bu, çox önəmli məsələdir və hər bir uğurlu layihənin həyata keçirilməsi üçün başlıca şərtdir. İnsanlar arasında olan münasibət, qarşılıqlı maraq və xoş niyyət, Fransa-Azərbaycan münasibətləri, Fransa və Azərbaycan xalqlarının dostluğu, əlbəttə ki, bütün gələcək layihələri həyata keçirəcəkdir.

Mən bu görüşə gələn bütün insanlara, xüsusilə burada öz fəaliyyəti haqqında məlumat verən dostlarımıza təşəkkürümü bildirirəm. Çox maraqlı məlumat verdilər. Əminəm ki, gələcəkdə biz perspektivi görəcəyik.

NORD-PA-DE-KALE REGİONUNUN PREFEKTİ İLƏ GÖRÜŞ

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev yanvarın 31-də Nord-Pa-de-Kale regionu prefektliyinin binasına gəlmişdir.

Prefekt Daniel Kanepa dövlətimizin başçısını binanın önündə böyük hörmət və ehtiramla qarşıladı.

Sonra Azərbaycan Prezidenti İlham Əliyev ilə prefekt Daniel Kanepa arasında görüş oldu.

"Marifo" zalında keçirilən görüşdə Daniel Kanepa Prezident İlham Əliyevin Fransaya dövlət səfərinin böyük maraqla izləndiyini, dövlətimizin başçısına bu regiona gəldiyinə görə dərin minnətdarlığını söylədi və bundan şərəf duyduqlarını vurğuladı. O, ümidvar olduğunu bildirdi ki, bu səfər ölkələrimiz arasında əlaqələrin daha da genişlənməsinə təkan verəcəkdir.

Görüşdə Azərbaycan ilə Fransanın ayrı-ayrı bölgələri, o cümlədən çox böyük iqtisadi potensialı olan Nord-Pa-de-Kale regionu arasında iqtisadi əməkdaşlığın dərinləşməsinin və müxtəlif sahələr üzrə yeni əlaqələrin yaradılmasının faydalı olacağı vurğulandı.

Görüşdən sonra prefektin adından Prezident İlham Əliyevin və xanımı Mehriban Əliyevanın şərəfinə nahar verildi.

"ALSTON" ŞİRKƏTLƏR QRUPUNUN ZAVODU İLƏ TANIŞLIQ

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev yanvarın 31-də Lill şəhərində "Alstom" şirkətlər qrupunun zavodunda olmuşdur.

Şirkətlər qrupunun sədri Patrik Krom dövlətimizin başçısını səmimiyyətlə qarşıladı.

Azərbaycan Prezidentinə məlumat verildi ki, burada Avropanın və dünyanın əksər ölkələri üçün sürət qatarları, dəmir yolu nəqliyyatı üçün avadanlıq istehsal olunur. Bu sahədə "Alstom" dünyada birinci yeri tutur. Dünyanın 70 ölkəsində fəaliyyət göstərir. Lill şəhərindəki zavodda 60 min işçi çalışır. Şirkətlər qrupunun gəlirinin 90 faizi Fransa ərazisindəki fəaliyyətdən əldə olunur.

Prezident İlham Əliyev zavodla yaxından tanış oldu, ayrı-ayrı istehsal sahələrini gəzdi.

Müəssisədə tədqiqat işlərinin aparılması üçün 33 laboratoriya var. Dünya üzrə 50 şirkəti birləşdirən "Alstom" şirkətlər qrupunun ümumilikdə 200 min işçisi, 2400 tədqiqatçısı vardır. Baş müəssisənin ümumi gəliri 14 milyard dollardır. Burada sürət qatarları 1978-ci ildən başlayaraq istehsal olunur. Bu qatarların sürəti saatda 300 kilometrdən çoxdur. Zavod nəqliyyat infrastrukturu sahəsində layihələrin həyata keçirilməsində də iştirak edir. Metro vaqonları istehsalında dünyada ikinci yeri tutur. Paris, London, Nyu-York, Vaşinqton, Karakas, Sinqapur, Şanxay, İstanbul və Afina kimi şəhərlərin yeraltı nəqliyyat sistemi "Alstom" tərəfindən qurulmuşdur. Şirkətlər qrupu elektrik stansiyalarından ötrü avadanlığın istehsalı ilə də məşğul olur və SES-lər üçün avadanlıq buraxılmasında liderdir.

Azərbaycan Prezidenti İlham Əliyev zavodda hazır vaqonlara baxdı. Bildirildi ki, bu vaqonlar Sinqapurun sifarişi ilə hazırlanmışdır.

Dövlətimizin başçısı hər cür rahatlıqla təmin olunan, yüksək zövqlə hazırlanan vaqona əyləşdi, ikimərtəbəli və birmərtəbəli vaqonların dizaynına və quruluşuna baxdı və burada xatirə şəkli çəkdirdi.

Prezident İlham Əliyev nohəng zavodla tanışlıqdan məmnunluğunu söylədi və bu cür müasir müəssisə ilə əməkdaşlığın faydalı olacağını vurğuladı.

Azərbaycan Prezidentinə xatirə olaraq vaqon maketi hədiyyə olundu.

PARİSDƏ BİRGƏ BƏYANNAMƏ QƏBUL EDİLMİŞDİR

Fransa Respublikasının Prezidenti Jak Şirakın dəvəti ilə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Fransaya dövlət səfərinin yekunları ilə əlaqədar Birgə Bəyannamə qəbul edilmişdir.

Bəyannamədə deyilir: "Azərbaycan və Fransa "Azərbaycan Respublikası ilə Fransa Respublikası arasında dostluq, qarşılıqlı anlaşma və əməkdaşlıq" sazişində sadalanmış prinsip və məqsədlərə sadiq qaldıqlarını xatırlatdılar. Bu çərçivədə Fransa Azərbaycanın müstəqilliyini, suverenliyini və ərazi bütövlüyünü dəstəklədiyini bir daha bəyan etdi. Hər iki ölkə ikitərəfli münasibətlərin bütün sahələrdə müsbət inkişaf etdiyini və bütün səviyyələrdə fəal və dərin siyasi dialoqun davam etdirilməsini vurğuladılar".

Bildirilir ki, hər iki ölkə öz münasibətlərini insan hüquqlarına və həmçinin demokratiya, hüquqi dövlət və bazar iqtisadiyyatı kimi dəyərlərə hörmət çərçivəsində inkişaf etdirməkdə maraqlı olduğunu qeyd etdi. Bəyannamədə qarşılıqlı əməkdaşlıq məsələlərinə geniş yer verilmişdir. Sənəddə deyilir: "Azərbaycan və Fransa enerji sahəsində əməkdaşlığın səviyyəsindən və Fransa şirkətlərinin Azərbaycanda bu sahənin inkişafındakı mühüm iştirakından razı qaldıqlarını qeyd etdilər. Onlar Azərbaycan ilə Fransa arasındakı ticarət mübadiləsinin müsbət şəkildə artmasını alqışladılar və iqtisadi əlaqələrin daha da dərinləşməsi və Azərbaycanda qoyulan fransız investisiyalarının müxtəlifləşdirilməsi üçün çalışmaq istəyində olduqlarını təsdiqlədilər.

Hər iki ölkə mədəniyyət, təhsil, səhiyyə və sosial müdafiə sahəsində mövcud əməkdaşlığın dərinləşdirilməsinə, həmçinin qarşılıqlı mədəniyyət günlərinin təşkilinə mühüm önəm verdiklərini qeyd etdi".

Bəyannamədə qlobal təhlükələrlə bağlı məsələlər də öksini tapmış, Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinə mühüm yer verilmişdir: "Azərbaycan və Fransa yeni qlobal təhlükələr olan beynəlxalq terrorizmə, narkotik vasitələrin və psixotrop maddələrin qanunsuz dövriyyəsinə və onların satışı ilə məşğul olanlara, kütləvi qırğın silahlarının yayılmasına, transmilli mütəşəkkil cinayətkarlığa, qanunsuz silah və insan alverinə qarşı daha yaxşı mübarizə aparmaq üçün ikitərəfli və çoxtərəfli əməkdaşlığa yeni təkan vermək istədiklərini təsdiqlədilər.

Hər iki ölkə ATƏT-in Minsk qrupunun Rusiya, ABŞ və Fransadan olan həmsədrlərinin vasitəçiliyi ilə Dağlıq Qarabağ münaqişəsinin həllinə dair baza prinsiplərinin razılaşdırılması üzrə tərəflərin mövqelərinin yaxınlaşması ilə əlaqədar danışıqlarda irəliləyişlərin olduğundan məmnun qaldığını ifadə etdi. Onlar münaqişənin sülh yolu ilə, ədalətli və tez həlli üçün səylərin daha da artırılmasının vacibliyini qeyd etdilər. Fransa Prezidenti Böyük səkkizliyin dövlət və hökumət başçılarının 2006-cı il iyul ayında Sankt-Peterburqda keçirilən sammiti zamanı Minsk qrupu həmsədrlərinin səylərini dəstəklədiklərindən məmnun qaldığını qeyd etdi".

Sənəddə daha sonra deyilir: "Azərbaycan və Fransa yeni qonşuluq siyasəti çərçivəsində AB və Azərbaycan arasında Fəaliyyət planının imzalanmasını alqışladılar və qonşuluq siyasətinin Cənubi Qafqazın sabitliyi və bu regionda siyasi və iqtisadi islahatların həyata keçirilməsi üçün mühüm xeyir verəcəyini qeyd etdilər.

Hər iki ölkə enerji təhlükəsizliyi məsələlərinə xüsusi diqqət yetirdiklərini və Avropanın enerji təchizatında Xəzər bölgəsinin mühüm rol oynadığını qeyd etdi. Onlar Avropa Birliyi ilə bu regionun ölkələri arasında enerji sahəsində əməkdaşlığın möhkəmləndirilməsini arzu etdiklərini bildirdilər və bu münasibətlə 7 noyabr 2006-cı il tarixdə AB ilə Azərbaycan Respublikası arasında enerji sahəsində tərəfdaşlıq haqqında memorandumun imzalanmasını alqışladılar.

Azərbaycan və Fransa mədəniyyətlərarası dialoqun vacibliyini, həmçinin insan haqlarının, o cümlədən din və etiqad azadlıqlarının inkişafına və sivilizasiyaların qovuşmasına özlərinin dəstəyini ifadə etdilər. Tərəflər sülh, azadlıq və ədalət üçün münbit şərait yaratmaq naminə mədəniyyətlərarası əlaqələrin və anlaşmanın genişləndirilməsinin vacibliyini vurğuladılar.

Hər iki ölkə yüksək səviyyədə qarşılıqlı səfərləri davam etdirmək barədə razılığa gəldi. Fransa Respublikasının Prezidenti 2007-ci ilin birinci yarısında Azərbaycan Respublikasına səfər etməyi nəzərdə tutur".

SƏFƏR BAŞA ÇATDI

Yanvarın 31-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Fransaya dövlət səfəri başa çatdı.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV İRANIN RADİO VƏ TELEVİZİYA TƏŞKİLATININ SƏDRİ İZZƏTULLAH ZƏRĞAMİNİ QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev fevralın 1-də Prezident sarayında İran İslam Respublikasının Radio və Televiziya Təşkilatının sədri İzzətullah Zərğamini qəbul etmişdir.

Prezident İlham Əliyev ölkələrimiz arasında müxtəlif sahələrdə əlaqələrin uğurla inkişaf etdiyini vurğuladı, qonağın ölkəmizə bu səfərinin televiziya və radio sahəsində əməkdaşlığa da töhfə verəcəyini bildirdi.

İzzətullah Zərğami İran İslam Respublikasının Prezidenti Əhmədinejadın salamlarını dövlətimizin başçısına çatdırdı. Ölkələrimiz arasındakı ikitərəfli münasibətlərin inkişafını vurğulayan qonaq bu əlaqələrin radio və televiziya sahəsində də genişlənəcəyinə əminliyini söylədi.

Azərbaycan Prezidenti İlham Əliyev İran Prezidenti Əhmədinejadın salamlarına görə minnətdarlıq etdi, özünün də salamlarını ona çatdırmağı xahiş etdi.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV "DOİNG BUSİNESS 2007"-NİN MÜƏLLİFİ, DÜNYA BANKININ BAŞ İQTİSADÇISI SİMEON DJANKOVU VƏ BANKIN AZƏRBAYCAN ÜZRƏ MENECERİ QREQORİ YEDJEYÇAKI QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev fevralın 2-də Prezident sarayında "Doing Business 2007"-nin müəllifi, Dünya Bankının baş iqtisadçısı Simeon Djankovu və bankın Azərbaycan üzrə meneceri Qreqori Yedjeyçakı qəbul etmişdir.

Azərbaycanda gedən iqtisadi inkişaf prosesləri ilə yaxından tanış olmaq məqsədi ilə ölkəmizə səfər etdiklərini bildirən qonaqlar görüləcək işlər barədə dövlətimizin başçısına məlumat verdilər.

Prezident İlham Əliyev Azərbaycanda iqtisadi sahədə əldə olunan uğurlar barədə ətraflı danışdı və bu qurum ilə Azərbaycanın İqtisadi İnkişaf Nazirliyi arasında əməkdaşlığın gələcəkdə səmərəli olacağına və ölkəmizdə gedən inkişaf prosesləri barədə beynəlxalq aləmdə real təsəvvürün yaradılması sahəsində konkret işlərin görüləcəyinə əminliyini bildirdi.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV AVROPA ŞURASI KATİBLİYİNİN SİYASİ MƏSƏLƏLƏR ÜZRƏ BAŞ DİREKTORU JAN-LUİ LORANI QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev fevralın 2-də Prezident sarayında Avropa Şurası Katibliyinin siyasi məsələlər üzrə baş direktoru Jan-Lui Loranı və Avropa Şurası baş katibinin Azərbaycandakı xüsusi nümayəndəsi Denis Bribosianı qəbul etmişdir.

Görüşdə Azərbaycan ilə Avropa Şurası arasında əməkdaşlığın uğurla həyata keçirildiyi qeyd olundu və bu beynəlxalq qurumla Azərbaycanın, o cümlədən ölkəmizin müvafiq strukturlarının əlaqələrinin bundan sonra genişlənəcəyinə əminlik ifadə edildi.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV "BOİNQ-MÜLKİ AVİASİYA TƏYYARƏLƏRİ" ŞİRKƏTİNİN PREZİDENTİ VƏ BAŞ İCRAÇI DİREKTORU SKOTT KARSONUN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİNİ QƏBUL ETMİŞDİR

Azərbaycan Prezidenti İlham Əliyev fevralın 5-də ABŞ-ın "Boinq-Mülki aviasiya təyyarələri" şirkətinin prezidenti və baş icraçı direktoru Skott Karsonun başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.

Dövlətimizin başçısı ölkəmizin son illər əldə etdiyi iqtisadi uğurlardan danışdı və Azərbaycanın regionda lider dövlətə çevrildiyini vurğuladı. Azərbaycan Prezidenti ABŞ-ın "Boinq-Mülki aviasiya təyyarələri" şirkəti ilə Azərbaycanın 6 ildən artıq bir dövrü əhatə edən uğurlu əməkdaşlığından məmnunluğunu ifadə etdi və şirkətin rəhbərinin ölkəmizə bu səfərinin əməkdaşlığımıza yeni imkanlar açacağına əminliyini bildirdi. Ölkəmizin regionda mövqeyindən danışan dövlətimizin başçısı Azərbaycanın sərmişin və

yükdaşımaları üçün cəlbedici ölkə olduğunu və respublikamızın iqtisadi inkişaf potensialının gələcəkdə tam təmin edilməsi üçün daha yeni təyyarələrə ehtiyacı olduğunu bildirdi.

"Boinq-Mülki aviasiya təyyarələri" şirkətinin Prezidenti və baş icraçı direktoru Skott Karson Azərbaycanda gedən sürətli iqtisadi inkişafın, ölkənin hər yerində aparılan tikinti və abadlaşdırma işlərinin onlarda böyük təəssürat yaratdığını qeyd etdi. O, ölkəmizlə əməkdaşlıqdan razı qaldıqlarını vurğuladı və yeni Boinq-787 təyyarələrinin regionda ilk dəfə olaraq, Azərbaycana gətirəcəklərini planlaşdırdıqlarını bildirdi.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV GÖRKƏMLİ FİZİK, KEÇMİŞ SSRİ ELMLƏR AKADEMİYASININ HƏQİQİ ÜZVÜ ROALD SAQDEYEVİ QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev fevralın 5-də Prezident sarayında görkəmli fizik, keçmiş SSRİ Elmlər akademiyasının həqiqi üzvü Roald Zinnuroviç Saqdeyevi qəbul etmişdir.

Akademik Saqdeyev Bakıya ötən səfəri zamanı xalqımızın ümummilli lideri Heydər Əliyevlə görüşünü məmnunluqla xatırladaraq, bu görüşdən aldığı xoş təəssüratın bu günə kimi onun qəlbində yaşadığını vurğuladı.

Dövlətimizin başçısı akademik Saqdeyevin ölkəmizə səfərinin Azərbaycanın beynəlxalq elmi-ictimai əlaqələrinin daha da genişlənməsi işinə xidmət edəcəyinə əminliyini ifadə etdi.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV ABŞ DÖVLƏT KATİBİNİN MÜAVİNİ, ABŞ-AZƏRBAYCAN BİRGƏ İQTİSADİ ƏMƏKDAŞLIQ KOMİSSİYASININ HƏMSƏDRİ DANİYEL SALLİVANIN RƏHBƏRLİK ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİNİ QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev fevralın 6-da Prezident sarayında ABŞ dövlət katibinin iqtisadiyyat, energetika və biznes məsələləri üzrə müavini, ABŞ-Azərbaycan Birgə İqtisadi Əməkdaşlıq Komissiyasının həmsədri Daniyel Sallivanın rəhbərlik etdiyi nümayəndə heyətini qəbul etmişdir.

Daniyel Sallivan ölkəmizə səfərin əsas məqsədinin ABŞ-Azərbaycan İqtisadi Əməkdaşlıq üzrə İşçi qrupunun Birgə İqtisadi Əməkdaşlıq Komissiyasına çevrilməsi barədə hökumətlərarası sazişin imzalanması olduğunu vurğuladı. O, son illərdə, xüsusilə Prezident İlham Əliyevin ABŞ-a səfərindən ötən müddətdə iqtisadi əlaqələrin sürətlə inkişaf etməsinin belə bir Komissiyanın yaradılmasını zəruri etdiyini bildirdi. Qonaq iqtisadi əlaqələrin tez bir zamanda belə səviyyəyə çatdırılmasında Azərbaycan Prezidentinin rolunu yüksək qiymətləndirdi.

Dövlətimizin başçısı bu səfərin Azərbaycan-ABŞ ikitərəfli münasibətlərinin daha da inkişaf etdirilməsi baxımından əhəmiyyətli olduğunu bildirdi. Ölkələrimiz arasında iqtisadi əlaqələrin səviyyəsini qaldırmaq üçün hər iki tərəfin maraqlı olduğunu qeyd edən Prezident İlham Əliyev iqtisadi əməkdaşlığın yalnız neft sektorunda deyil, qeyri-neft

sektorunda da uğurla inkişaf etməsinin önəmli olduğunu vurğuladı. Azərbaycanın iqtisadi cəhətdən sürətlə inkişaf etdiyini xatırladan dövlətimizin başçısı ABŞ şirkətlərinin ölkəmizlə əməkdaşlığından məmnunluğunu söylədi.

Daniyel Sallivan ölkəsinin Azərbaycan ilə qeyri-neft sektorunda da fəal əməkdaşlıq etməkdə maraqlı olduğunu və rəhbərlik etdiyi nümayəndə heyətinin əsasən ABŞ-ın qeyri-energetika sahəsini təmsil etmələrini bu marağın bariz nümunəsi olduğunu bildirdi. Qonaq dedi ki, nümayəndə heyətinə ABŞ-ın mühüm dövlət orqanları və nazirliklərinin nümayəndələrinin daxil olması ABŞ-ın Azərbaycan ilə iqtisadi əməkdaşlığın bundan sonra da inkişaf etdirilməsinə önəm verməsinin göstəricisidir.

ABŞ-LA ƏLAQƏLƏRİN İNKİŞAFI AZƏRBAYCANIN XARİCİ SİYASƏTİNİN ƏSAS İSTİQAMƏTLƏRİNDƏN BİRİDİR

Milli Məclisin sədri Oqtay Əsədov fevralın 6-da ABŞ Dövlət Departamentinin Avropa və Avrasiyaya yardım məsələlərinin əlaqələndiricisi Tomas Adamsın rəhbərlik etdiyi nümayəndə heyəti ilə görüşmüşdür.

Parlamentin sədri bildirmişdir ki, ABŞ-la münasibətlərin genişləndirilməsi və inkişafı Azərbaycanın xarici siyasətinin əsas istiqamətlərindən biridir. Hazırda əməkdaşlıq strateji tərəfdaşlıq səviyyəsinə yüksəlmişdir və bu işdə dövlət başçılarının xüsusi rolu vardır. Ermənistan tərəfindən təcavüzə və terrora məruz qalmış Azərbaycan məlum 11 sentyabr *hadisələrindən dərhal sonra antiterror koalisiyasına qoşulmuşdur*, hazırda əsgərlərimiz sülhməramlı əməliyyatlarda iştirak edirlər. Oqtay Əsədov dünyanın, xüsusən Avropanın enerji təhlükəsizliyinə mühüm töhfə olan Bakı-Tbilisi-Ceyhan neft, Bakı-Tbilisi-Ərzurum qaz kəmərləri layihələrinin gerçəkləşməsində ABŞ-ın dəstəyini, bu ölkənin iri neft və digər şirkətlərinin Azərbaycandakı fəaliyyətini də xatırlatmışdır. O, məlum 907-ci maddənin tam ləğvinin vacibliyini xüsusi vurğulamışdır.

Tomas Adams demişdir ki, ABŞ-ın inkişaf məsələləri ilə məşğul olan agentlikləri Azərbaycanda bir sıra layihələr həyata keçirir və bundan məqsəd ölkənin inkişafına və əlaqələrin genişlənməsinə yardım etməkdir.

ROALD SAQDEYEV DİPLOMATİK AKADEMİYADA MÜHAZİRƏ OXUMUŞDUR

Dünya şöhrətli alim, akademik, hazırda ABŞ-ın Merilend Universitetinin professoru Roald Saqdeyev fevralın 6-da Xarici İşlər Nazirliyinin Diplomatik Akademiyasında mühazirə oxumuşdur.

Əvvəlcə akademiyanın rektoru Hafiz Paşayev uzun illər SSRİ Elmlər Akademiyasının Kosmik Tədqiqatlar İnstitutuna başçılıq etmiş Roald Saqdeyevin ictimai-siyasi və elmi fəaliyyətinin əsas mərhələlərindən danışmışdır. Bildirilmişdir ki, müasir plazma fizikasının yaradıcılarından biri, kosmik aparatlarda bir sıra nadir tədqiqat proqramlarının rəhbəri, "Veqa" beynəlxalq layihəsinin elmi rəhbəri olmuş alim "yenidənqurma" dövründə siyasi proseslərdə fəal iştirak etmişdir. Akademik 1990-cı ildən ABŞ-ın Merilend Universitetində mühazirələr oxuyur və tədqiqat fəaliyyəti ilə məşğul olur. Hafiz Paşayev demişdir ki, ABŞ-da diplomatik xidmət dövründə bu dərin zəka sahibi ilə ünsiyyət məni daim sevindirmişdir.

Roald Saqdeyev Bakıda Rabitə və İnformasiya Texnologiyaları Nazirliyinin mütəxəssisləri ilə görüşmüşdür. Görüş zamanı bərpa olunan İpək yolu üstündə yerləşən ölkələrə yayımlanacaq şərti olaraq Silksat adlanacaq peykin yaradılması layihəsinin perspektivləri müzakirə edilmişdir.

Saqdeyevin məzmunlu məruzəsi, yenidənqurma dövründə siyasətə gəlməsi, Amerikanın intellektual elitası ilə görüşləri barədə söhbətləri dinləyicilərin – XİN əməkdaşlarının, alimlərin və jurnalistlərin böyük marağına səbəb olmuşdur. O, 1973-cü ildə Azərbaycan Respublikasına Sov.İKP MK-nın, SSRİ Nazirlər Sovetinin, ÜİHİMŞ-nin və ÜİLKGİ-nin Keçici Qırmızı Bayrağı təqdim edilərkən ümummilli lider Heydər Əliyevlə olan ilk görüşünü böyük səmimiyyətlə xatırlamışdır.

Vaşinqtonun postsovet dövlətləri ilə əlaqədar müasir mövqeyindən danışan Roald Saqdeyev bildirmişdir ki, ABŞ-ın siyasi dairələrində keçmiş SSRİ-nin iki ölkəsinin – demokratik proseslər, iqtisadi islahatlar sahəsində lider olan Azərbaycan və Qazaxıstanın uğurlarını diqqətlə izləyirlər.

R.Saqdeyev Silksat layihəsi barədə suala cavab verərək demişdir ki, bu uzaqgörən ideya Heydər Əliyevə məxsusdur, lakin onun gerçəkləşdirilməsinin yubanması XXI əsrin başlanğıcında ən iri telekommunikasiya şirkətlərinin məruz qaldığı itkilərlə bağlı olmuşdur. Böyük İpək yolu ölkələri üçün vahid telekommunikasiya sisteminin yaradılmasına tələbat var, Rabitə və İnformasiya Texnologiyaları Nazirliyində görüşdə layihənin dirçəldilməsi yollarının axtarılmasından söhbət getmişdir. Alim xatırlatmışdır ki, informatika iqtisadiyyatda getdikcə daha böyük rol oynayır və Azərbaycan regionda informasiya texnologiyaları sahəsində lider dövlət olmaq perspektivlərinə malikdir. O demişdir: "Ölkənizdə bu sahədə kifayət qədər ixtisaslı kadrlar var".

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN GÜRCÜSTANA İŞGÜZAR SƏFƏRİ

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev fevralın 7-də Gürcüstana işgüzar səfərə gəlmişdir.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN VƏ GÜRCÜSTAN PREZİDENTİ MİXAİL SAAKAŞVİLİNİN GÖRÜŞÜ

Fevralın 7-də Tbilisidə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və Gürcüstan Prezidenti Mixail Saakaşvilinin görüşü olmuşdur.

Görüşdə Azərbaycan ilə Gürcüstan arasında münasibətlərin, o cümlədən iqtisadi sahədə əməkdaşlığın uğurla inkişaf etdiyi bildirildi. Prezidentlər Bakı-Tbilisi-Qars dəmir yolu layihəsinin həm ikitərəfli, həm də regional əlaqələr baxımından əhəmiyyətini xüsusi vurğuladılar. Bildirildi ki, bu əməkdaşlığın xalqlarımızın rifahının yüksəldilməsində də böyük rolu olacaqdır.

Görüşdə qarşılıqlı maraq doğuran bir sıra digər məsələlər də müzakirə edildi.

HEYDƏR ƏLİYEV ADINA PROSPEKTİN TƏNTƏNƏLİ AÇILIŞ MƏRASİMİ

Fevralın 7-də Gürcüstan paytaxtının mərkəzində Heydər Əliyev adına prospektin təntənəli açılış mərasimi olmuşdur.

Azərbaycan Prezidenti İlham Əliyev və Gürcüstan Prezidenti Mixail Saakaşvili mərasimdə iştirak edirdilər.

Mərasimə toplaşan, əllərində Azərbaycanın və Gürcüstanın dövlət bayraqları, prezidentləri salamlayan şüarlar olan minlərlə sakin dövlət başçılarını hərarətlə qarşıladı.

Prezidentlər İlham Əliyev və Mixail Saakaşvili üzərində gürcü və ingilis dillərində "Heydər Əliyev prospekti" sözləri yazılan xatirə lövhəsinin üzərindən ağ örtüyü götürdülər.

Kür çayının sağ sahilində yerləşən prospektin uzunluğu 3,7 kilometrdir. Hündürlüyü 4 metr olan xatirə lövhəsində göstərilir ki, buradan Bakıya olan məsafə 556 kilometr, Ankaraya isə 1441 kilometrdir.

İncəsənət ustaları Azərbaycan xalq mahnılarını ifa etdilər.

Sonra prezidentlər İlham Əliyev və Mixail Saakaşvili Tbilisi sakinlərinə yaxınlaşıb onlarla səmimi görüşdülər.

MƏRKƏZİ UNİVERSİTET KLİNİKASI İLƏ TANIŞLIQ

Fevralın 7-də Azərbaycan Prezidenti İlham Əliyev və Gürcüstan Prezidenti Mixail Saakaşvili Tbilisinin Vaja Pşavela prospektində tikilən Mərkəzi universitet klinikası (keçmiş Respublika xəstəxanası) ilə tanış olmuşlar.

Klinikanın direktoru Nikoloz Tibşidze məlumat verdi ki, 1974-cü ildə tikilmiş binada keçən il əsaslı təmir-tikinti və yenidənqurma işlərinə başlanılmışdır.

Prezidentlər ayrı-ayrı şöbələrə baxdılar, quraşdırılmış müasir avadanlıqla yaxından tanış oldular. Bildirildi ki, tibb universitetinin tələbələri bu klinikada ixtisasartırma kursları keçəcəklər.

Gürcüstanın sosial müdafiə, əmək və sahiyyə naziri Vladimir Gipaşvili Prezident İlham Əliyevə məlumat verərək dedi ki, tikinti və yenidənqurma işləri bu il başa çatacaq, ərazi daha da genişləndiriləcək və burada böyük bir tibb mərkəzi yaranacaqdır.

Prezidentlər klinikaya hədiyyə olunmuş təcili tibbi yardım maşınlarına da baxdılar.

TBİLİSİ METROSUNUN "AZADLIQ MEYDANI" STANSİYASI İLƏ TANIŞLIQ

Fevralın 7-də Azərbaycan Prezidenti İlham Əliyev və Gürcüstan Prezidenti Mixail Saakaşvili Tbilisi metropolitenının təmir-bərpa işləri aparılmış "Azadlıq meydanı" stansiyası ilə tanış olmuşlar.

Dövlət başçıları ekskalatorla stansiyaya endilər. Prezident Mixail Saakaşvili bildirdi ki, bu stansiya əvvəllər Leninin adını daşımışdır. Müstəqillik əldə etdikdən sonra isə

"Azadlıq meydanı" adlanır. Keçən ilin dekabrında təmir olunmuş və hazırda səmişinlərin ixtiyarına verilmişdir.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN VƏ TÜRKİYƏNİN BAŞ NAZİRİ RƏCƏB TAYYİB ƏRDOĞANIN GÖRÜŞÜ

Fevralın 7-də "Tbilisi-Mariott" mehmanxanasında Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və Türkiyə Respublikasının Baş naziri Rəcəb Tayyib Ərdoğanın görüşü olmuşdur.

Görüşdə dost və qardaş ölkələr arasında münasibətlərin uğurla inkişafından məmnunluq bildirildi, Azərbaycan və Türkiyənin qlobal enerji layihələrində və Bakı-Tbilisi-Qars dəmir yolunun tikintisinə dair imzalanacaq layihədə iştirakının bu münasibətləri daha da möhkəmləndirəcəyi vurğulandı.

Bu əməkdaşlığın regionda sülhə, sabitliyə xidmət etdiyinin bildirildiyi görüşdə qarşılıqlı maraq doğuran bir sıra məsələlər barədə də fikir mübadiləsi aparıldı.

ÜÇTƏRƏFLİ GÖRÜŞ

Fevralın 7-də Gürcüstan Parlamentinin binasında Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin, Gürcüstan Prezidenti Mixail Saakaşvilinin və Türkiyə Respublikasının Baş naziri Rəcəb Tayyib Ərdoğanın üçtərəfli görüşü olmuşdur.

Prezident Mixail Saakaşvili bu görüşün və Bakı-Tbilisi-Qars dəmir yolu layihəsinin əhəmiyyətini vurğuladı, onun regional əməkdaşlığın inkişafına xidmət edəcəyini söylədi.

Prezident İlham Əliyev Bakı-Tbilisi-Qars dəmir yolu layihəsinin zəruriliyindən danışaraq dedi ki, bu, bizi daha sıx birləşdirəcək, regional əməkdaşlığı daha da genişləndirəcəkdir. Bu layihənin həyata keçirilməsi həm də regiona sabitlik, sülh gətirəcək və ümumiyyətlə ölkələrimizin, xalqlarımızın iqtisadi maraqlarına cavab verir. Bakı-Tbilisi-Ceyhan və Bakı-Tbilisi-Ərzurum neft, qaz kəmərlərinin iqtisadi əhəmiyyətindən danışan dövlətimizin başçısı bildirdi ki, Bakı-Tbilisi-Ərzurum qaz kəmərinin işə düşməsi əlaqələrimizi daha da möhkəmləndirəcəkdir. Üç ölkə arasında enerji sahəsində əməkdaşlıq var, lakin qeyri-neft sektorunda da əlaqələrin genişlənməsi vacibdir və hazırda bu istiqamətlərdə konkret işlər görülür. Prezident İlham Əliyev 2007-ci ildə Azərbaycanın neft və qaz hasilat və ixracını genişləndirəcəyini bildirdi və dedi ki, bu gün görülən işlər, ölkələrimiz və xalqlarımız arasında, eləcə də regional əməkdaşlığın daha da genişləndirilməsi və möhkəmləndirilməsinə xidmət edir.

Türkiyənin Baş naziri Rəcəb Tayyib Ərdoğan Bakı-Tbilisi-Qars dəmir yolu layihəsindən danışarkən onu Dəmir İpək yolu adlandırdı. O, Bakı-Tbilisi-Ceyhan və Bakı-Tbilisi-Ərzurum neft-qaz kəmərləri də daxil olmaqla, üç böyük layihənin regionda sabitliyə və iqtisadi inkişafa böyük töhfə verdiyini dedi və xalqlarımızın firavanlığı üçün əhəmiyyətini vurğuladı. Baş nazir dedi ki, Asiya ilə Avropanı birləşdirəcək dəmir yolu layihəsi regional əməkdaşlığa daha bir nümunədir.

ÜÇTƏRƏFLİ REGİONAL ƏMƏKDAŞLIQ SAMMİTİ SƏNƏDLƏRİNİN İMZALANMASI MƏRASİMİ

Fevralın 7-də Gürcüstan parlamentinin binasında Azərbaycan-Gürcüstan-Türkiyə üçtərəfli regional əməkdaşlıq sammiti sənədlərinin imzalanması mərasimi olmuşdur.

Əvvəlcə Gürcüstan Prezidenti Mixail Saakaşvili, Türkiyənin Baş naziri Rəcəb Tayyib Ərdoğan və Azərbaycan Prezidenti İlham Əliyev bəyanatla çıxış etdilər.

TÜRKİYƏNİN BAŞ NAZİRİ RƏCƏB TAYYİB ƏRDOĞANIN BƏYANATI

Hörmətli prezidentlər!

Dəyərli Baş nazir, dəyərli nazirlər!

Hörmətli qonaqlar!

Sizləri hörmət və ehtiramla salamlayıram. Öncə belə bir mənalı gecədə sizlərlə birlikdə olmaqdan böyük məmnuniyyət hissi keçirdiyimi ifadə etmək istəyirəm. Göstərdikləri qonaqpərvərliyə görə Gürcüstan Prezidenti hörmətli Saakaşvili başda olmaqla, Gürcüstanın rəsmi şəxslərinə öz adımdan və nümayəndə heyətimin üzvləri adından təşəkkür edirəm.

Azərbaycan Prezidenti hörmətli İlham Əliyevin də bu mərasimdə iştirak etməsi bizləri son dərəcə məmnun etmişdir. Çünki bu gün bir yerə toplaşmaqla birlikdə dünyaya çox mühüm mesaj veririk. Regional əməkdaşlıq necə ola bilər – bunun nümunəsini göstəririk. Regional əməkdaşlıq edərkən hazırda üçüncü addımı atırıq. Birinci addım, bildiyiniz kimi, Bakı-Tbilisi-Ceyhan neft kəməri idi. İkincisi, Bakı-Tbilisi-Ərzurum, digər adı ilə "Şahdəniz" layihəsi idi. İndi də üçüncü addımı atırıq. O da Bakı-Tbilisi-Qars layihəsidir, tarixi İpək yolunun artıq bir dəmir yoluna çevrilməsi hadisəsidir. Təbii ki, bunun arxasınca gələn müxtəlif layihələr də var. Ancaq bu həmrəylik, sadəcə, regional əməkdaşlıqla məhdudlaşmır. Eyni zamanda bu dəmir yolu üzərindəki hər bir stansiya bir sülh stansiyası, dostluq və həmrəylik stansiyası olaraq, dünyaya mesajını verir. Qafqazın vəziyyəti hər kəsə məlumdur. Ancaq indi Qafqaz bu regional əməkdaşlıqla fərqli bir mesaj verərək, artıq bir həmrəylik mərkəzi olduğunu nümayiş etdirir.

Hazırda Bakı-Tbilisi-Qars dəmir yolu layihəsi ilə bağlı Çərçivə Sazişinin imzalanması mərasimi münasibətilə bir yerə toplaşmışıq. Bu, çox mənalı görüşdür. Bu sənədi biz bu gün imzalayırıq. Ancaq bizdən sonra gələn nəsillər də bizləri xeyirlə yad edəcəklər. Mən indi bunu burada görürəm. Bu gün imza atdığımız bu layihə ilə müştərək gələcəyimizi qurur və müştərək tariximizin zənginliyini müştərək gələcəyə birlikdə aparırıq. Bu baxımdan bugünkü mərasim çox əhəmiyyətlidir. Xüsusilə qitələrin, dənizlərin, xalqların və mədəniyyətlərin bir-birinə qovuşduğu geosiyasi bir məkanda yerləşən ölkələrimizin tarixi və coğrafi məsuliyyətlərini dərk edirik.

İnşasına 2007-ci ildə başlanacaq dəmir yolunun Türkiyəyə aid layihəsi başa çatdırılmışdır, Gürcüstana aid layihə də sürətlə başa çatır. Ümid edirəm ki, dəmir yolunun təməlini yay aylarında birlikdə qoyacağıq və o, Xəzər hövzəsini Avropaya birləşdirəcəkdir. Yəni təsəvvür edin. Xəzərdən keçərək Asiyadan Çinə qədər uzanan yol, digər tərəfdən, İstanbul boğazından keçir və Avropanın ən uçqar guşələrinə qədər uzanır.

Bu layihənin başqa bir xüsusiyyəti də, hava yolu, avtomobil yolu ilə birlikdə, bölgədə nəqliyyat növləri və imkanlarının genişləndirilməsinə xidmət etməsidir.

Bir az əvvəl hörmətli Prezidentin də dediyi kimi, Tbilisi hava limanı yenidən qurulmuşdur və bir az sonra onun da açılışı olacaqdır. Bu işi bir Türkiyə şirkətinin görməsi bizi sevindirmişdir. Ən qısa zamanda Batumi hava limanının da açılışı olacaqdır. Bundan sonra Batumi və Trabzon hava limanları müştərək istifadəyə veriləcəkdir. Bütün bunlar xalqlarımız arasındakı əlaqələri möhkəmləndirməklə yanaşı, nəqliyyat sahəsində alternativ yolların artırılmasına da xidmət edəcəkdir.

Bu gün Qafqazda hələ də öz həllini tapmayan problemlər var. Biz onları dərk edirik. Bu münaqişələr tezliklə ədalətli həllini tapmalıdır. Türkiyə olaraq, biz indiyə kimi bu məqsədlə hər cür dəstək verdiyimiz kimi, bundan sonra da eyni mövqedə olacağıq.

Bir məsələni də xüsusilə vurğulamaq istəyirəm. İndi enerji təhlükəsizliyi dünyanın ən mühüm məsələlərindən biridir. Bilirəm ki, bizim də, Gürcüstanın da enerji məsələsində çətinlikləri var. Hazırda bu məsələdə ən əlverişli vəziyyətdə olan Azərbaycanın da müəyyən çətinlikləri var. Azərbaycan indi bu çətinliklərin öhdəsindən gəlmək səviyyəsinə çatmışdır. Aramızda olan həmrəylik bizim də yükümüzü azaldır, inanıram ki, bu həmrəylik bizi gələcəkdə daha yaxşı mövqeyə çatdıracaqdır. Necə ki, Bakı-Tbilisi-Ceyhan vasitəsilə dünya Azərbaycandan sanki nəfəs almaq imkanı əldə etdi, eləcə də, Bakı-Tbilisi-Ərzurum layihəsi vasitəsilə Avropa Azərbaycandan yenə bir nəfəs almaq imkanı əldə edəcəkdir. Çünki Yunanıstana qədər uzanan kəmər hazırda tamamlanmaqdadır. Bunun tamamlanması ilə Avropa bu sülh düşüncəsi ilə öz payını alacaqdır.

Mən göstərdikləri səylərə görə xüsusilə hörmətli prezidentlərə və Baş nazirlərə, nazirlərə, bu layihədə əməyi olan firmalara, bundan sonra əməyi olacaq firmalara istər öz adımdan, istərsə də ölkəm və millətim adından təşəkkür edirəm. Bu birliyimizin möhkəmlənərək davam etməsi arzusu ilə sizləri ən səmimi hisslərlə salamlayıram.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN BƏYANATI

Hörmətli cənab Prezident!

Hörmətli cənab Baş nazir!

Hörmətli xanımlar və cənablar!

İlk növbədə, mən qardaş Gürcüstan torpağında yenidən olmağımdan böyük məmnunluq hissimi ifadə etmək istəyirəm. Bu gün çox gözəl bir gündür. Səhər tezdən mən Tbilisi şəhərindəyəm və dostum Mixail ilə bir neçə yerlərə baş çəkmişəm. Yeni tikilən xəstəxana, təmir olunmuş metro stansiyası, Tbilisinin yeni görkəmi ilə tanış oluram. Bu gün biz Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin adını daşıyan sahilyanı küçənin açılış mərasimində iştirak etmişik. Bu küçəyə Heydər Əliyevin adı verilibdir. Yəni çox zəngin proqramımız var idi.

Təbii ki, bu gün imzalanacaq sənədlər tarixi baxımdan, bugünkü vəziyyət və üç ölkənin gələcək işbirliyi, əməkdaşlığı baxımından çox böyük əhəmiyyət kəsb edir. Mən demək istəyirəm ki, imzalanacaq sənədlər bizim dostluğumuzu daha da möhkəmləndirəcəkdir. Bu gün artıq burada deyildi ki, bu əməkdaşlıq böyük və gözəl tarixə malikdir. Bizim tə-

rəfimizdən həyata keçirilən nəhəng transmilli layihələr, enerji layihələri, Azərbaycan nefti və qazını dünya bazarlarına çıxaran layihələr çox böyük fədakarlıq tələb edirdi, çox böyük müdriklik, cəsarət tələb edirdi. Biz bunları çox ağır siyasi və geosiyasi durumda həyata keçirdik. Əgər xatırlayırsınızsa, Bakı-Tbilisi-Ceyhan neft kəmərinin tikintisinə dair müxtəlif fərziyyələr irəli sürülürdü, şayiələr yayılırdı. Çox güclü müqavimət var idi. Ancaq bütün bunlara baxmayaraq, bu nəhəng layihə artıq reallıqdır və Azərbaycan nefti bu kəmər vasitəsilə dünya bazarlarına çıxarılır. Nəyin hesabına biz buna nail ola bildik? İlk növbədə, üç ölkə arasında və üç xalq arasında olan dostluq, qardaşlıq hesabına.

Əlbəttə ki, bu layihələrin həyata keçirilməsində çoxlu vacib amillər olmuşdur – peşəkar insanlar, bizə dəstək verən maliyyə qurumlarının imkanları, bizimlə bərabər çalışan xarici neft şirkətlərinin yatırımları, investisiyaları ilə fəaliyyəti. Ancaq ilk növbədə, bu, üç ölkənin iradəsi və qətiyyətidir. Bu gün Bakı-Tbilisi-Qars dəmir yolunun tikintisinin başlanması ilə əlaqədar imzalanacaq sənədlər bu görülən işlərin məntiqi nəticəsidir. Əgər bu böyük layihələrin adlarına fikir versəniz görərsiniz ki, bunlarda da oxşarlıq var: Bakı-Tbilisi-Ceyhan, Bakı-Tbilisi-Ərzurum və Bakı-Tbilisi-Qars. Yəni Bakı ilə Tbilisi və Türkiyənin üç şəhəri. Bu, onu göstərir ki, üç ölkə arasında olan əməkdaşlıq öz konkret nəticələrini verir. Onu göstərir ki, bizim strateji xəttimiz, siyasətimiz uğurludur. Bu, bir daha bizim siyasətimizin təntənəsinin əlamətidir. Xüsusilə, yeni müstəqil ölkələrin – Gürcüstanın, Azərbaycanın müstəqilliyinin bir daha təntənəsidir. Biz sübut etdik ki, müstəqil ölkələr kimi yaşaya və yaxşı yaşaya bilərik, qarşımızda duran bütün vəzifələri özümüz həll edə bilərik.

Biz 15 ildir ki, müstəqilik. Müstəqillik hər bir insan üçün, hər bir ölkə üçün ən böyük dəyərdir. Biz uzun illər, əsrlər boyu bu müstəqillikdən məhrum olmuşduq. İndi biz onu qazanmışıq. Amma biz elə etməliyik ki, bu, əbədi olsun, dönməz olsun. Bizim xalqlarımız bunun bəhrəsini görsünlər, insanlarımız daha da yaxşı yaşasınlar, iqtisadi artım olsun. Bunların hamısı var. Əgər, sadəcə olaraq, Türkiyə, Gürcüstan və Azərbaycanın iqtisadi inkişafına nəzər salsanız görərsiniz ki, hər üç ölkədə çox kəskin şəkildə iqtisadi artım var, insanların həyat səviyyəsi, sosial rifah yaxşılaşır, qlobal, transmilli layihələr öz həllini tapır və üç ölkə, üç qardaş həm öz xalqları üçün, həm də regionun inkişafı üçün əlindən gələni edir.

Bakı-Tbilisi-Ceyhan və Bakı-Tbilisi-Ərzurum layihələri kimi, Bakı-Tbilisi-Qars dəmir yolu layihəsinin də həyata keçirilməsi regiona sabitlik, əməkdaşlıq gətirəcəkdir. Regionun problemlərinin həlli üçün önəmli rol oynayacaq, bizi birləşdirəcək, qitələri birləşdirəcəkdir. Gələcəkdə bu yoldan müxtəlif ölkələr, tərəflər istifadə edə bilər. Biz isə bundan, əlbəttə ki, həm siyasi, həm iqtisadi, həm də regional müstəvidə böyük fayda götürəcəyik. Əminəm ki, işlər düzgün istiqamətdə gedəcəkdir.

Bizim ölkələrimiz, yəni Gürcüstan və Azərbaycan qarşısında duran ən önəmli problem ərazi bütövlüyümüzün bərpasıdır. Biz separatizmdən əziyyət çəkirik, etnik təmizləmə siyasətindən əziyyət çəkirik, bizim ərazi bütövlüyümüz pozulubdur. Bu, ən böyük ədalətsizlik, bütün beynəlxalq hüquq normalarının pozulması deməkdir. Biz mübarizə aparırıq və aparacağıq da ki, bunu ədalətli, beynəlxalq hüquq əsasında, dünya praktikası əsasında həll edək. Ancaq bunu həll etmək üçün biz güclü olmalıyıq. Bizim gücümüz isə birliyimizdədir. Sizin uğurlarınız bizi sevindirir. Bu gün səhərdən buradayam, baxıram və görəndə ki, Tbilisidə böyük yeniliklər var, mənim ürəyim sevinir. Çünki siz güclü olsanız, biz də güclü olacağıq.

Bu gün görülən işlərin tarix qarşısında böyük əhəmiyyəti var. Biz bu gün bu tarixi yazırıq. Bəlkə də bəziləri indi bunu tam şəkildə dərk edə bilmir ki, bu gün atılan addımlar uzunmüddətli inkişaf strategiyamızı müəyyən edir, xalqlarımızın əbədi müstəqil yaşamasını təmin edir. Ona görə mən bir daha demək istəyirəm ki, bu layihənin həyata keçirilməsi tarixi nailiyyətdir, böyük uğurdur. İndi biz elə etməliyik ki, bunu vaxtında başa çatdıraq. Nəzərə alsaq ki, biz indiyə qədər görülmüş işləri vaxtında başa çatdırmışıq, əminəm ki, Bakı-Tbilisi-Qars dəmir yolu da vaxtında başa çatacaqdır və onun açılışında birlikdə iştirak edəcəyik.

Əziz dostlar, bu gözəl hadisə münasibətilə sizi bir daha ürəkdən təbrik edirəm və qardaş Türkiyə, Gürcüstan xalqlarına sülh, əmin-amanlıq, xoşbəxtlik arzulayıram. Sağ olun.

***

Sonra Azərbaycan Prezidenti İlham Əliyevin, Gürcüstan Prezidenti Mixail Saakaşvilinin və Türkiyənin Baş naziri Rəcəb Tayyib Ərdoğanın iştirakı ilə sənədlər imzalandı.

Əvvəlcə Azərbaycan Prezidenti İlham Əliyev, Gürcüstan Prezidenti Mixail Saakaşvili və Türkiyənin Baş naziri Rəcəb Tayyib Ərdoğan "Regional əməkdaşlığa ümumi baxış haqqında Tbilisi Bəyannaməsi"ni imzaladılar.

"Bakı-Tbilisi-Qars yeni dəmir yolu xətti haqqında sazişi"i Azərbaycan tərəfindən nəqliyyat naziri Ziya Məmmədov, Gürcüstan tərəfindən iqtisadi inkişaf naziri Georgi Arveladze, Türkiyə tərəfindən nəqliyyat naziri Binali Yıldırım imzaladılar.

"Bakı-Tbilisi-Qars yeni dəmir yolu xətti layihəsinin həyata keçirilməsi çərçivəsində Marabda-Türkiyə Respublikası sərhədinə qədər (Karksaxi) dəmir yolu sahəsinin maliyyələşdirilməsi, layihələndirilməsi, inşası, reabilitasiya – yenidən qurulması və istismarının prinsip və şərtləri haqqında Azərbaycan Respublikası Hökuməti və Gürcüstan Hökuməti arasında saziş"i Azərbaycan tərəfindən nəqliyyat naziri Ziya Məmmədov, Gürcüstan tərəfindən iqtisadi inkişaf naziri Georgi Arveladze imzaladılar.

"Bakı-Tbilisi-Qars yeni dəmir yolu xətti layihəsinin Marabda-Türkiyə Respublikası sərhədinə qədər dəmir yolu sahəsinin maliyyələşdirilməsinin şərtlərinə dair kredit sazişi"ini Azərbaycan tərəfindən nəqliyyat naziri Ziya Məmmədov, Azərbaycan Beynəlxalq Bankı Açıq Səhmdar Cəmiyyəti idarə heyətinin sədri Cahangir Hacıyev, "Azərbaycan Beynəlxalq Bankı-Gürcüstan" Səhmdar Cəmiyyətinin baş direktoru Samir Vəliyev və "Marabda-Karksaxi Dəmir Yolu" Məhdud Məsuliyyətli Cəmiyyətinin direktoru Ramaz Georqadze imzaladılar.

TBİLİSİ BEYNƏLXALQ HAVA LİMANININ AÇILIŞI

Fevralın 7-də Azərbaycan Prezidenti İlham Əliyevin, Gürcüstan Prezidenti Mixail Saakaşvilinin və Türkiyənin Baş naziri Rəcəb Tayyib Ərdoğanın iştirakı ilə Tbilisi beynəlxalq hava limanının təntənəli açılış mərasimi olmuşdur.

Mərasimi Türkiyənin "TAV" şirkətinin sədri açdı. Türkiyənin Baş naziri, Azərbaycan Prezidenti və Gürcüstan Prezidenti çıxış etdilər. Bildirildi ki, Türkiyənin "Tənə Akfen (TAV) şirkəti tərəfindən tikilmiş Tbilisi beynəxalq hava limanı ildə 2,8 milyon sərnişin daşıması üçün nəzərdə tutulmuşdur. Hava limanı TAV şirkətinə 20 illiyə icarəyə veriləcəkdir. 25 min kvadratmetr ərazisi olan hava limanının tikintisinə 28,5 milyon dollar vəsait xərclənmişdir.

Beynəlxalq hava limanının açılışını bildirən lenti kəsən prezidentlər və Baş nazir müasir dizayn üslubunda tikilmiş, hər bir şərait yaradılmış, Avropa standartlarına uyğun aerovağzal binası ilə tanış oldular.

Burada incəsənət ustalarının iştirakı ilə konsert verildi.

AZƏRBAYCAN YAPONİYA İLƏ MÜNASİBƏTLƏRİN İNKİŞAFINA BÖYÜK ƏHƏMİYYƏT VERİR

Xarici İşlər Naziri Elmar Məmmədyarov fevralın 7-də Yaponiya Xarici İşlər Nazirliyi Avropa bürosunun direktoru Çikahito Haradanın rəhbərlik etdiyi nümayəndə heyəti ilə görüşmüşdür.

Azərbaycan Prezidenti İlham Əliyevin ötən il Yaponiyaya rəsmi səfərinin ikitərəfli əlaqələrin inkişafında böyük əhəmiyyət kəsb etdiyini vurğulayan Ç.Harada, xarici işlər nazirlikləri arasında məsləhətləşmələrin keçirilməsi haqqında imzalanmış memorandumа uyğun olaraq, ölkəmizə səfər etdiyini diqqətə çatdırmışdır.

Nazir E.Məmmədyarov Azərbaycanın Yaponiya ilə münasibətlərin inkişafına böyük əhəmiyyət verdiyini bildirmiş, xüsusilə Yaponiyanın iqtisadi təcrübəsinin Azərbaycan üçün maraqlı olduğunu demişdir.

Görüşdə ölkələrimiz arasında siyasi sahədə əməkdaşlığın yüksək səviyyədə olduğu, bir sıra məsələlərdə eyni mövqeyin nümayiş etdirildiyi vurğulanmışdır.

Nazir, həmçinin Yaponiya şirkətlərinin ölkəmizdə fəaliyyətinin genişləndirilməsini zəruri hesab edərək, bunun üçün əlverişli şəraitin olduğunu, ümumi daxili məhsulun (ÜDM) yüksək artımını, Azərbaycanın iştirakı ilə həyata keçirilən regional layihələri nümunə gətirmişdir.

Ç.Harada Yaponiyanın xarici siyasətində yeni istiqamətin seçildiyini qeyd edərək, demokratiyanı və azad bazar iqtisadiyyatını inkişaf etdirən ölkələrə dəstəyin artırılacağını bildirmişdir. Azərbaycanın da bu ölkələr sırasında olduğunu deyən qonaq ölkəmizin mühüm strateji əhəmiyyətini vurğulamış, səfəri zamanı buna bir daha əmin olduğunu qeyd etmişdir.

Tərəflər Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli istiqamətində aparılan danışıqlar, beynəlxalq ictimaiyyətin diqqət mərkəzində olan məsələlərə dair ətraflı fikir mübadiləsi aparmışlar.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV ATƏT PARLAMENT ASSAMBLEYASININ SƏDRİ QORAN LENMARKERİN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİNİ QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev fevralın 8-də Prezident sarayında ATƏT Parlament Assambleyasının sədri Qoran Lenmarkerin başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.

Dövlətimizin başçısı qonağı yeni vəzifəyə seçilməsi münasibətilə təbrik etdi, onunla keçirdiyi əvvəlki görüşlərini xatırlatdı. Hazırda regionda vəziyyətin sürətlə dəyişdiyini bildirən Azərbaycan Prezidenti hadisələrin müsbət istiqamətdə inkişaf etdiyini, irimiqyaslı layihələrin həyata keçirilməsinin önəmini vurğuladı. Dövlətimizin başçısı müsbət meyillərlə yanaşı, regionda mövcud olan münaqişələrin ümumi inkişaf prosesinə böyük əngəl törətdiyini də bildirdi.

Prezident İlham Əliyev yeni dəmir yolu layihəsinin icrasına başlanılması münasibətilə Gürcüstanda olduğunu və bu layihənin son dərəcə böyük əhəmiyyət daşıdığını vurğuladı. Ermənistanın ölkəmizə təcavüzü nəticəsində Azərbaycanın ərazi bütövlüyünün pozulduğunu bildirən dövlətimizin başçısı mancələrə baxmayaraq, ölkəmizin iqtisadiyyatının dinamik şəkildə yüksəldiyini və Azərbaycanın artıq güclü enerji təminatçısına çevrildiyini bildirdi.

Qoran Lenmarker Azərbaycanda yüksək iqtisadi inkişafı və eyni zamanda, çox mühüm amil kimi, insanlarda nikbin əhval-ruhiyyəni müşahidə etdiklərini vurğuladı. O, Azərbaycanda təkcə iqtisadi sahədə deyil, digər sahələrdə də inkişafın müşahidə olunduğunu bildirdi.

Görüşdə Azərbaycan ilə ATƏT arasında əməkdaşlığın müxtəlif sahələrinə dair fikir mübadiləsi aparıldı.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV İQTİSADİ ƏMƏKDAŞLIQ TƏŞKİLATININ BAŞ KATİBİ XURŞİD ƏNVƏRİ QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev fevralın 8-də Prezident sarayında İqtisadi Əməkdaşlıq Təşkilatının (İƏT) baş katibi Xurşid Ənvəri qəbul etmişdir.

Saxta dərmanlara qarşı mübarizə üzrə beynəlxalq konfransın işində iştirak etmək üçün Bakıya gəldiyini söyləyən Xurşid Ənvər Prezident İlham Əliyevin rəhbərliyi altında Azərbaycanda böyük nailiyyətlərin əldə edildiyini vurğuladı, İƏT ilə Azərbaycan arasında əlaqələrin daim genişləndiyini bildirdi. Eyni zamanda, Pakistan-Azərbaycan ikitərəfli münasibətlərinin uğurla inkişaf etdiyini qeyd edən qonaq ötən il Pakistanın Baş naziri Şövkət Əzizin Bakıda Prezident İlham Əliyevlə keçirdiyi görüşün bu baxımdan mühüm rol oynadığını dedi. Ermənistanın Azərbaycana təcavüzü məsələsinə toxunan baş katib bu təcavüzün Pakistan xalqı tərəfindən qəti şəkildə pisləndiyini vurğuladı.

Prezident İlham Əliyev İqtisadi Əməkdaşlıq Təşkilatının Bakı sammitini məmnunluqla xatırlatdı və həmin vaxt çox uğurlu ikitərəfli görüşlərin keçirildiyini, mühüm məsələlərin müzakirə edildiyini bildirdi. Azərbaycan-Pakistan ikitərəfli münasibətlərinin müx-

təlif sahələrdə uğurla inkişaf etdiyini vurğulayan dövlətimizin başçısı bu münasibətlərin həqiqi dostluq və qardaşlıq xarakteri daşıdığını söylədi.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV GÜRCÜSTANIN ƏDLİYYƏ NAZİRİ GİYA KAVTARADZENİ QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev fevralın 8-də Prezident sarayında Gürcüstanın ədliyyə naziri Giya Kavtaradzeni qəbul etmişdir.

Dövlətimizin başçısı Gürcüstana səfərini xatırlatdı və həmin səfər zamanı imzalanan Bakı-Tbilisi-Qars dəmir yolu layihəsinin böyük əhəmiyyət daşıdığını, ölkələrimiz arasında əlaqələrin müxtəlif sahələrdə uğurla inkişaf etdiyini bildirdi. Dövlətimizin başçısı Azərbaycan və Gürcüstanın müxtəlif qurumları, o cümlədən hüquq mühafizə orqanları arasında əlaqələrin ikitərəfli münasibətlərin inkişafında əhəmiyyətini qeyd etdi. Azərbaycan Prezidenti ədliyyə nazirlikləri arasındakı əlaqələrin də ümumi əməkdaşlığın genişlənməsinə xidmət etdiyini söylədi.

Qonaq Azərbaycan Prezidenti İlham Əliyevin Gürcüstana səfərinin və bu səfər zamanı dəmir yolu layihəsinə dair müqavilənin imzalanmasının böyük önəm daşıdığını vurğuladı. Gürcüstanla Azərbaycan arasında əməkdaşlığın digər sahələrdə olduğu kimi, ədliyyə sahəsində də uğurla inkişaf etdiyini bildirən Giya Kavtaradze dedi ki, Bakıya səfərinin əsas məqsədi də Azərbaycanın ədliyyə sistemi ilə əlaqələri daha da genişləndirməkdir.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV İTALİYANIN BEYNƏLXALQ TİCARƏT NAZİRİNİN MÜAVİNİ, SENATOR MİLOS BUDİNİN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİNİ QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev fevralın 8-də Prezident sarayında İtaliyanın beynəlxalq ticarət nazirinin müavini, senator Milos Budinin başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.

Dövlətimizin başçısı bildirdi ki, ölkəmizin iqtisadiyyatı dünyada ən yüksək sürətlə inkişaf edir. Azərbaycanın maliyyə imkanları getdikcə artır, ölkədə geniş investisiya layihələri həyata keçirilir. Azərbaycan uzun müddətdir ki, İtaliya şirkətləri ilə uğurlu əməkdaşlıq edir, indiki mövcud iqtisadi və maliyyə durumu isə əməkdaşlıq üçün daha böyük imkanlar açır.

Senator Milos Budi İtaliya-Azərbaycan münasibətlərinin yüksələn xətlə inkişafda olduğunu bildirdi. O, Azərbaycanın regional və beynəlxalq siyasətdə rolunun getdikcə artdığını xatırladaraq dedi ki, bu, İtaliya şirkətlərinin Azərbaycana olan marağını daha da gücləndirir. Qonaq əmin olduğunu bildirdi ki, İtaliya-Azərbaycan münasibətləri Avropada sabitlik və sülh prosesi çərçivəsində daha da möhkəmlənməkdədir.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV ABŞ MÜDAFİƏ NAZİRİNİN BEYNƏLXALQ TƏHLÜKƏSİZLİK MƏSƏLƏLƏRİ ÜZRƏ MÜAVİNİ PİTER RODMANIN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİNİ QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev fevralın 12-də Prezident sarayında ABŞ müdafiə nazirinin beynəlxalq təhlükəsizlik məsələləri üzrə müavini Piter Rodmanın başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.

Piter Rodman bildirdi ki, Bakıya səfərin məqsədi ölkələrimiz arasında təhlükəsizlik məsələlərinə dair dialoqu, tərəfdaşlığı daha da genişləndirməkdir. O dedi: "Azərbaycanın müstəqilliyi və ərazi bütövlüyü Birləşmiş Ştatların strateji maraq dairəsindədir, biz sizinlə mövcud olan tərəfdaşlığı yüksək qiymətləndiririk və Azərbaycanla etibarlı tərəfdaşlıq əlaqələrinin qurulmasında maraqlıyıq".

Dövlətimizin başçısı ölkələrimiz arasında təhlükəsizlik, antiterror əməliyyatları və digər sahələrdə uğurla inkişaf edən tərəfdaşlıq münasibətlərini yüksək qiymətləndirdiyini bildirdi. O, Azərbaycanla ABŞ arasında tərəfdaşlıq əlaqələrinin çox yaxşı tarixi olduğunu xatırladaraq, bunun gələcəkdə də inkişaf etdiriləcəyinə ümidvar olduğunu söylədi. Prezident İlham Əliyev dedi: "Biz enerji təhlükəsizliyinin müxtəlif aspektləri, regional əməkdaşlıq məsələləri üzərində işləyirik. Bunlar bir-biri ilə sıx bağlı olan məsələlərdir".

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV ABŞ-IN NYU-HEMPŞİR ŞTATININ KEÇMİŞ QUBERNATORU, CORC BUŞ ADMİNİSTRASİYASI APARATININ SABİQ RƏHBƏRİ CON SUNUNUNU QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev fevralın 12-də Prezident sarayında ABŞ-ın Nyu-Hempşir ştatının keçmiş qubernatoru, Corc Buş Administrasiyası aparatının sabiq rəhbəri Con Sununu qəbul etmişdir.

Görüşdə Azərbaycan-ABŞ ikitərəfli münasibətləri və qarşılıqlı maraq doğuran bir sıra digər məsələlər ətrafında fikir mübadiləsi aparılmışdır.

AZƏRBAYCANIN BAŞ NAZİRİ TÜRKMƏNİSTANIN YENİ PREZİDENTİ İLƏ GÖRÜŞMÜŞDÜR

Türkmənistanın yeni Prezidenti Qurbanqulu Berdiməhəmmədovun fevralın 14-də andiçmə mərasimindən sonra nümayəndə heyətlərinin rəhbərləri ilə təkbətək görüşü olmuşdur.

Azərbaycan Respublikasının Baş naziri Artur Rasizadə Türkmənistanın yeni dövlət başçısını təbrik etmişdir. Prezident İlham Əliyevin təbriklərini Qurbanqulu Berdiməhəmmədova çatdıran Baş nazir A.Rasizadə ona yeni dövləti vəzifəsində uğurlar arzulamışdır.

Görüşdə ölkələrimiz arasında bütün sahələrdə əməkdaşlığın davam etdirilməsinə hər iki tərəfin hazır olduğu bildirilmiş, qarşılıqlı əlaqələrin inkişafına dair fikir mübadiləsi aparılmışdır.

Türkmənistana səfəri çərçivəsində Baş nazir A.Rasizadə Azərbaycanın Aşqabaddakı səfirliyinin binası ilə tanış olmuşdur. Səfir Elxan Hüseynov Baş nazirə səfirliyin fəaliyyəti barədə ətraflı məlumat vermişdir.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN ALMANİYAYA RƏSMİ SƏFƏRİ

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev fevralın 14-də Almaniyaya rəsmi səfərə gəlmişdir.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN VƏ ALMANİYANIN KANSLERİ ANGELA MERKELİN GÖRÜŞÜ

Görüşdə Azərbaycan ilə Almaniya, eləcə də Azərbaycan ilə Avropa İttifaqı arasında mövcud olan əlaqələrin inkişaf perspektivlərindən, ölkəmizdə gedən iqtisadi tərəqqidən, bütün sahələrdə iqtisadi islahatların uğurla həyata keçirilməsindən və demokratik proseslərdən söhbət açıldı. Bildirildi ki, iki ölkə arasındakı münasibətlər çox yaxşı səviyyədədir və Azərbaycanın Avropa İttifaqı ilə əməkdaşlığı vacibdir. Bu istiqamətdə Azərbaycanın gördüyü işlər təqdirəlayiqdir.

Tərəflər Azərbaycan ilə Almaniya arasındakı münasibətlərin getdikcə möhkəmləndiyini vurğuladılar və Azərbaycanın Avropanın enerji təhlükəsizliyindəki rolu yüksək qiymətləndirildi. Həmçinin vurğulandı ki, Avropa ilə Azərbaycan arasında enerji sahəsində olan əməkdaşlığın yeni səviyyəyə qalxması üçün qarşılıqlı tədbirlər görüləcək və Almaniya tərəfi bu işdə öz köməyini əsirgəməyəcəkdir.

Görüşdə Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinə də toxunuldu, qarşılıqlı maraq doğuran bir sıra regional və beynəlxalq məsələlər barədə də fikir mübadiləsi aparıldı.

BİRGƏ MƏTBUAT KONFRANSI

Görüş başa çatdıqdan sonra Azərbaycan Prezidenti İlham Əliyevin və Almaniya Kansleri Angela Merkelin birgə mətbuat konfransı oldu.

Xanım Angela Merkel və Prezident İlham Əliyev bəyanatlarla çıxış etdilər.

ALMANİYANIN FEDERAL KANSLERİ ANGELA MERKELİN BƏYANATI

Hörmətli xanımlar və cənablar!

Mən bu gün Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevi ölkəmizdə ürəkdən salamlayıram. Söhbətimiz zamanı əsas mövzularımız iki ölkə arasında mövcud olan əlaqələrə aid idi. Deyə bilərəm ki, Azərbaycan ilə Almaniya arasında, eyni zamanda, Azərbaycan ilə Avropa İttifaqı arasında mövcud olan əlaqələr çox vacibdir. Hesab edirəm ki, bu əlaqələr həm Avropa İttifaqı, həm də Azərbaycan üçün çox vacibdir. Biz Azərbaycanda gedən inkişaf proseslərindən danışdıq. İqtisadi sahədə, eləcə də ictimai-siyasi sahədə islahatların həyata keçirilməsi çox zəruridir.

Söhbətimizin ikinci mövzusu demokratiyanın inkişafı ilə bağlı idi. Zənnimcə, transformasiya prosesində demokratik inkişafa nail olmaq çox vacibdir.

Əlbəttə ki, biz Azərbaycan ilə Almaniya arasında iqtisadi sahədə əməkdaşlıqdan da danışdıq. Daha çox enerji sahəsində əməkdaşlığa üstünlük verildi. Avropa İttifaqı ilə Azərbaycan arasında mövcud olan əlaqələr bu sahədə gündən-günə artacaqdır. İqtisadiyyatın şaxələndirilməsi sahəsində Almaniya Azərbaycana həmişə öz yardımını göstərəcəkdir. Gələn illərdə həm Almaniya-Azərbaycan, həm də Avropa İttifaqı-Azərbaycan arasında olan iqtisadi əməkdaşlıq gündən-günə artacaqdır.

Bildiyiniz kimi, Azərbaycan İranla qonşu ölkədir və əlbəttə, Azərbaycan ilə İran arasındakı əlaqələrdən, İranın nüvə proqramından da danışdıq.

Cənab Prezident, Sizi bir daha salamlayıram və əminəm ki, mövcud olan əlaqələr dinamik şəkildə inkişaf edəcək və Almaniya öz yardımını həmişə göstərəcəkdir.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN BƏYANATI

Hörmətli xanım Merkel!

Hörmətli mətbuat nümayəndələri!

Bu gün biz çox səmərəli və işgüzar şəraitdə geniş fikir mübadiləsi aparmışıq. İkitərəfli münasibətlərdə bizim əlaqələrimiz günü-gündən güclənir. Siyasi əlaqələr möhkəmlənir, iqtisadi sahədə birgə layihələr həyata keçirilir. İnsan haqları, Azərbaycanda demokratiya proseslərinin geniş şəkildə gücləndirilməsində birgə səylərimiz müzakirə olunmuşdur.

Eyni zamanda, Avropa İttifaqı-Azərbaycan münasibətləri və əlbəttə ki, bölgədə mövcud olan təhlükələr və münaqişələr danışıqlar mövzusu olmuşdur. Azərbaycan Avropa İttifaqının yeni qonşuluq siyasətinin iştirakçısıdır və ümid edirik ki, növbəti 5 il ərzində proqramın icrası nəticəsində Azərbaycanda bütün sahələrdə mövcud olan meyarlar Avropa İttifaqının meyarlarına yaxınlaşacaqdır. Keçən ilin noyabr ayında Avropa İttifaqı ilə Azərbaycan arasında enerji sahəsində strateji tərəfdaşlıq haqqında memorandum imzalanmışdır. Əminəm ki, bundan sonra Avropa İttifaqı ilə Azərbaycan arasında bu sahədə əməkdaşlıq daha da möhkəmlənəcəkdir. Azərbaycanda çox zəngin təbii ehtiyatlar var, neft, qazı var. Təbii ehtiyatlarımızı dünya və Avropa bazarlarına çatdırmaq üçün artıq neft kəməri və qaz kəməri tikilib istifadəyə verilibdir. Düşünürəm ki, bu kəmərlərin fəaliyyəti nəticəsində Avropa ilə Azərbaycan arasında enerji sahəsində əməkdaşlıq yeni səviyyəyə qalxacaqdır.

Eyni zamanda, Avropa İttifaqı Cənubi Qafqazda mövcud olan separatist meyillər nəticəsində yaranmış münaqişələrə də öz münasibətini bildirib və bu münasibət də müsbətdir. Əminəm ki, Avropa İttifaqının bu məsələlərlə məşğul olması münaqişələrin həllinə öz töhfəsini verəcəkdir.

Hörmətli xanım Merkel, Sizə bu dəvətə görə bir daha öz minnətdarlığımı bildirmək istəyirəm. Əminəm ki, bu səfərdən sonra Almaniya-Azərbaycan münasibətləri daha da sürətlə inkişaf edəcəkdir.

* * *

Sonra Prezident İlham Əliyev və xanım Angela Merkel jurnalistlərin suallarına cavab verdilər.

- Mənim sualım cənab Prezidentə və xanım Kanslerədir. Azərbaycan-Almaniya iqtisadi əlaqələrindən razısınızmı? Ölkələr arasında ticarət dövriyyəsinin artımı gözlənilirmi? Ümumiyyətlə, Almaniya şirkətləri gələcəkdə Azərbaycanın qeyri-neft sektoruna sərmayə qoya bilərmi?

ANGELA MERKEL: İqtisadi sahədə ölkələrimiz arasındakı əlaqələr bizi çox qane edir. Alman firmalarının Azərbaycanda fəaliyyəti çox hiss olunur. Mən ümid edirəm ki, alman firmaları Azərbaycan iqtisadiyyatına daha da çox investisiya qoyacaqdır. Hazırda Azərbaycanda çoxlu sayda Almaniya şirkətləri fəaliyyət göstərir və biz danışıqlarımız zamanı qeyd etdik ki, onlar Azərbaycanda yeni infrastrukturların yaradılmasına öz töhfələrini verə bilər.

İLHAM ƏLİYEV: Mən əlavə edə bilərəm ki, Azərbaycanda çox gözəl investisiya mühiti var. Son 10 il ərzində ölkəmizə 30 milyard dollardan çox sərmayə qoyulmuşdur. Alman şirkətləri çox yüksək nüfuza malikdir. Onlar bizim üçün çox əlverişli tərəfdaşdır. Almaniyanın böyük şirkətləri Azərbaycanda uzun illərdir fəaliyyət göstərir. Əminəm ki, mənim səfərim çərçivəsində keçiriləcək Almaniya-Azərbaycan biznes forumu daha yeni müqavilələrin yaranmasına gətirib çıxaracaqdır. Bu sahədə bizim əməkdaşlığımız sürətlə irəliyə gedir.

- Hörmətli xanım Merkel və cənab Prezident, Azərbaycan Avropanın enerji təhlükəsizliyinə öz köməyini necə göstərə bilər?

ANGELA MERKEL: Hazırda neft kəmərləri tikilir. Məsələn, bu kəmərlər Ukrayna və Polşadan Avropa istiqamətinə çəkilir. Həmçinin Azərbaycan qazı kəmərlə Yunanıstana keçəcəkdir. Bununla da Avropanın bir hissəsi neft və digər enerji daşıyıcıları alacaqdır. Ancaq ümumiyyətlə, bu sualı iqtisadiyyatla məşğul olan şəxslərə vermək lazım idi. Biz siyasətçilər bu məsələ ilə məşğul deyilik.

İLHAM ƏLİYEV: Mən əlavə edə bilərəm ki, Azərbaycan artıq öz neft-qaz strategiyasını davam etdirir, Azərbaycan neftini və qazını dünya və Avropa bazarlarına çıxaran neft-qaz kəmərləri tikilib istismara verilibdir. Texniki cəhətdən hətta bu il Azərbaycan qazı Avropa İttifaqının bazarlarına çatdırıla bilər.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN BERLİN ŞƏHƏR MERİ KLAUS VOVERAYT İLƏ GÖRÜŞÜ

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Almaniya Federativ Respublikasına rəsmi səfərinin ikinci günü, fevralın 15-də Berlin şəhərinin meri Klaus Voverayt ilə görüşmüşdür.

Mer Klaus Voverayt xüsusi hörmət və ehtiram əlaməti olaraq səhər dövlətimizin başçısının iqamətgahına – "Adlon Kempinski" mehmanxanasına gələrək, nümayəndə heyətləri ilə birgə paytaxtın tarixi "Paris" meydanını gəzdilər. Bu tarixi yerlər barədə dövlətimizin başçısına məlumat verildi. Brandenburq darvazası önündə xatirə şəkli çəkdirdilər. Xatırladaq ki, İkinci Dünya müharibəsi zamanı, 1945-ci il mayın 2-də 416-cı Azərbaycan atıcı diviziyasının bölmələri həmin darvazaya döyüş bayrağını sancmışdı.

Gəzintidən sonra Azərbaycan Prezidenti İlham Əliyev Berlin şəhər meriyasına gəldi. Dövlətimizin başçısı əvvəlcə meriyanın fəxri qonaqlar kitabını imzaladı.

Sonra Prezident İlham Əliyev və mer Klaus Voverayt arasında görüş oldu. Berlin şəhərinin meri Azərbaycan Prezidentinə meriyaya gəldiyinə görə dərin təşəkkürünü bildirdi və meriyanın fəxri qonaqlar kitabını imzalamasından çox məmnun qaldığını söylədi. O dedi ki, Azərbaycan Prezidentinin Almaniyaya rəsmi səfəri ölkələrimiz arasında bütün sahələrdə, o cümlədən siyasi, iqtisadi, mədəni, humanitar sahələrdə əlaqələrin yeni səviyyəyə qalxmasına təkan verəcəkdir. Mer paytaxtın inkişafı ilə bağlı həyata keçirilən və nəzərdə tutulan tədbirlərdən danışdı. Eyni zamanda bildirdi ki, Azərbaycanda içməli su təchizatı ilə bağlı layihələrin həyata keçirilməsində Almaniyanın nüfuzlu şirkətləri əməkdaşlığa maraq göstərirlər.

Prezident İlham Əliyev Azərbaycanda həyata keçirilən iqtisadi islahatlardan, əldə olunmuş nailiyyətlərdən danışdı, kənd təsərrüfatı, informasiya-kommunikasiya texnologiyaları, maşınqayırma və digər sahələrdə ixtisaslaşmış alman şirkətlərini əməkdaşlığa dəvət etdi.

Görüşdə regiondakı vəziyyət barədə fikir mübadiləsi aparıldı. Dövlətimizin başçısı bildirdi ki, hazırda ölkəmizdə regionların sosial-iqtisadi inkişafı proqramının həyata keçirilməsi nəticəsində şəhərdən kəndlərə axın başlamışdır. İndi Azərbaycanın özünün bir çox sahələrə sərmayə qoymaq imkanı var. Bununla belə, nüfuzlu alman şirkətlərinin təcrübəsindən yararlanmaq faydalı olardı.

Prezident İlham Əliyev Berlin şəhərinin meri ölkəmizə səfərə dəvət etdi və dəvət məmnunluqla qəbul olundu.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN MİXAEL ZUKKOV FONDUNUN PREZİDENTİ İLƏ GÖRÜŞÜ

Fevralın 15-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev onun üçün ayrılmış iqamətgahda Almaniyanın Mixael Zukkov Fondunun prezidenti Mixael Zukkov ilə görüşmüşdür.

Azərbaycanda ekologiya sahəsində dövlət siyasətinin yüksək səviyyədə aparıldığını və Prezident İlham Əliyev tərəfindən bu sahəyə xüsusi diqqət göstərildiyini vurğulayan Mixael Zukkov ölkəmizdə Fondun iştirakı ilə ekologiyanın və təbiətin qorunması ilə əlaqədar həyata keçirilən layihələr haqqında danışdı.

Azərbaycan Prezidenti İlham Əliyev ekologiya məsələlərində yaxından əməkdaşlığına görə Fondun rəhbərliyinə təşəkkürünü bildirdi. Fondun Azərbaycandakı fəaliyyətini yüksək qiymətləndirən dövlətimizin başçısı dedi ki, biz ekoloji problemlərə xüsusi fikir veririk. Bakıda və Abşeron yarımadasında ekoloji vəziyyətin yaxşılaşdırılmasına dair hökumət siyasəti həyata keçirilir və xalqımızın rifahı, genefondunun qorunması, gələcək nəsillərin sağlamlığının təmin olunması üçün konkret layihələr hazırlanır və bu işə daim diqqət göstəriləcəkdir.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV ALMANİYANIN BİR SIRA ŞİRKƏTLƏRİNİN RƏHBƏRLƏRİ İLƏ GÖRÜŞMÜŞDÜR

Fevralın 15-də "Adlon Kempinski" mehmanxanasında Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Almaniyanın "Şərqi və Mərkəzi Avropa Birliyi" Cəmiyyətinə üzv olan bir sıra şirkətlərin idarə heyətlərinin rəhbərləri və nümayəndələri ilə işçi görüşü olmuşdur. Bu Cəmiyyət Almaniyanın 15-dək nüfuzlu şirkətini birləşdirir.

"Şərqi və Mərkəzi Avropa Birliyi" Cəmiyyətinin rəhbəri, "Accumulatorenwerke Hoppecke Gmbh" şirkətinin idarə heyətinin sədri KLAUS KSOLNER onları qəbul etdiyinə görə Prezident İlham Əliyevə dərin təşəkkürünü bildirərək dedi:

- Hörmətli xanımlar və cənablar!

Mən sizə Azərbaycan Respublikasının Prezidenti, zati-aliləri cənab İlham Əliyevi təqdim edirəm. Cənab Prezident, xoş gəlmisiniz. Mən istəyirəm, söhbətimizin əvvəlində burada işçi naharda iştirak edəcək bütün şəxslər adından Sizi bir daha salamlayaq. Buraya "Şərqi və Mərkəzi Avropa Birliyi" Cəmiyyətinə üzv olan bir sıra şirkətlərin idarə heyətlərinin rəhbərləri gəliblər. Mən bu fürsətdən istifadə edərək, bu görüşə görə Sizə təşəkkürümüzü bildirirəm. Biz bu görüş əsnasında Sizinlə və nümayəndə heyətinizlə ölkənizdə gedən proseslər barədə fikir mübadiləsi aparacağıq. Biz bilirik ki, ölkənizdə iqtisadi, siyasi və sosial sahədə çox böyük inkişaf müşahidə olunur. Eyni zamanda, qarşılaşdığımız təhdidlər, çətinliklər və imkanlarımız haqqında söhbət edəcəyik.

Biz bilirik ki, ümumi daxili məhsulun artımına görə Sizin ölkəniz gözəl nəticələrə nail olmuşdur. Siz ölkənizi daha güclü iqtisadiyyata və mütəşəkkil cəmiyyətə malik olan dövlətə çevirmək üçün, sözün əsl mənasında, səylərinizi əsirgəmirsiniz. Biz bu gün Sizin mülahizələrinizi eşitməkdən çox məmnun olarıq. Burada olan nümayəndələr – bizim idarə heyətinin üzvləri və bir sıra alman şirkətlərinin və müəssisələrinin təmsilçiləri Sizinlə görüşə gəliblər. Onlar Sizinlə tərəfdaşlar, sərmayədarlar və təchizatçılar qismində işləmək arzusundadırlar.

Mən ticarət, mühəndis işi, maliyyə və digər sahələrə aid təcrübəli şəxsləri Sizə təqdim etməkdən şərəf duyuram. Onların hamısının yetərincə imkanları və bilikləri var və Sizin ölkənizin inkişafına töhfə verə bilərlər. Eyni zamanda, biz Azərbaycana məhsul ixrac edən ölkə kimi beşinci yerdəyik. Sizin bu sahədə bizə verdiyiniz tövsiyələri yüksək qiymətləndirərdik.

O ki qaldı Almaniyanın sərmayələrinə, biz bu sahədə artıq fəaliyyət göstəririk. Biz 2006-cı ilin martında Azərbaycanda bu məsələ ilə bağlı görüş keçirmiş və yeni sərmayə sahələrini araşdırmışıq. Mən indi həmkarlardan xahiş edəcəyəm ki, onlar öz şirkətlərini təqdim etsinlər. Sonra Sizin şərhlərinizi dinləyəcək və Azərbaycanda mövcud olan potensial imkanlar barədə məlumat əldə edəcəyik.

Cənab Prezident, görüşə görə bir daha çox sağ olun.

* * *

Görüşdə iştirak edən şirkətlərin rəhbərləri və nümayəndələri böyük perspektivə malik Azərbaycan iqtisadiyyatının inkişafında yaxından iştirak etmək istədiklərini diqqətə çatdırdılar. Xatırladaq ki, həmin iqtisadi qurumlar istehsalın təşkili, təchizat və sərmayə

qoyuluşu üzrə zəngin təcrübəyə malikdirlər, dünyanın ən etibarlı şirkətlərindən sayılırlar. Bu şirkətlər neft-qaz sənayesi, sement, polad və polad məmulatları istehsalı, energetika, metallurgiya, neft kimyası, gəmiqayırma, tikinti, kreditlərin verilməsi, kreditlərin sığortalanması, konsaltinq xidməti və sair sahələrdə xidmət göstərir və əksəriyyəti dünyanın onlarca ölkəsində iş qurmuş, bəzilərinin illik gəliri isə 10 milyard avronu üstələyir.

Almaniyanın Kredit və Yenidənqurma Bankının (KFW) idarə heyətinin üzvü Haynrix Hayms Avropanın və dünyanın digər ölkələrində də stimullaşdırıcı bank kimi fəaliyyət göstərərək, maliyyə ixracı və layihə maliyyələşdirməsi sahələrində əməkdaşlıq etdiklərini, məsləhət və digər xidmətlər göstərdiklərini bildirdi. Bankın səhmlərinin 80 faizi Almaniya hökumətinə, qalan 20 faizi federal əyalətlərə məxsusdur. Almaniyanın 10 ən iri bankından biri olan KFW 1994-cü ildən Azərbaycanda həyata keçirilən müxtəlif layihələrdə fəal iştirak edir.

"Euler Hermes Kreditversixerungs AG" şirkəti də görüşdə təmsil olunurdu. Bu şirkətin əsas fəaliyyəti alman iş adamları tərəfindən xaricdə biznes fəaliyyətinin qurulması üçün əldə etdikləri kreditlərin sığortalanmasından ibarətdir.

60 ölkədə nümayəndəlikləri olan "ThussenKrupp Services AG" şirkəti polad və polad məmulatları, digər sənaye məhsulları istehsalı və bu sahələr üzrə xidmətlərin göstərilməsi üzrə dünyanın aparıcı şirkətlərindən biridir. Son 2-3 ildə şirkətin illik gəliri 12-13 milyard avro olmuşdur. Uçot, hesablama və konsaltinq xidmətləri və digər fəaliyyət sahəsi ilə məşğul olan "Price Vaterhous Coopers" şirkəti də Azərbaycanda çalışmaq istəyini bildirdi. "MAN Ferrostaal AG" və digər şirkətlərin təmsilçiləri də Azərbaycanla energetika, metallurgiya, neft kimyası, polad istehsalı, gəmiqayırma və sair sahələrdə əməkdaşlıq etmək arzusunda olduqlarını vurğuladılar.

Azərbaycan Prezidenti İlham Əliyev görüşdə çıxış etdi.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN ÇIXIŞI

Çox sağ olun. Mən sizin hamınızı görməkdən çox şadam. Sizin bəzilərinizlə biz Bakıda və burada görüşmüşdük. Hesab edirəm, bu, çox gözəl bir fürsətdir ki, biz yenidən bir-birimizi görürük. Həyat davam edir, ölkələrimiz inkişaf edir.

Almaniyada 2004-cü ildə olduqdan sonra, hesab edirəm, bizim planlarımız, proqramlarımız daha da artmışdır, xüsusən də enerji sahəsində bütün layihələr yerinə yetirilir. İndi isə vaxt gəlib çatıb ki, Azərbaycanın digər sahələrinə diqqət yetirək. Bizim bir çox ideyalarımız var, qəbul edilmiş çoxlu proqramlarımız var. Burada tikinti, infrastrukturun inkişaf etdirilməsi, xidmətlər, turizm və iqtisadiyyatın digər sahələrini nəzərdə tuturuq. Təbii ki, son iki il ərzində Azərbaycanın dinamik inkişaf həcmi ümumilikdə 60 faiz təşkil etmişdir. Bu il isə təqribən 30 faiz olacaqdır. Bu o deməkdir ki, biz ümumi daxili məhsulu iki dəfə artırmış olacağıq. Bütün bunlar biznesin inkişafı və daha böyük infrastruktur layihələrinin həyata keçirilməsi üçün imkanlar yaradır. Bütün bu işlərin ən vacib elementi ondan ibarətdir ki, Azərbaycanda fəaliyyət göstərən və göstərəcək bütün şirkətlər işləri ən yüksək standartlara uyğun aparmalıdırlar. Bilirik ki, sizin ölkənizdə yüksək standartlar var. Beynəlxalq standartlar artıq təsbit olunubdur. İstəyirik ki, bizim

ölkəmizdə də şirkətlərimiz bu standartlara uyğun işləsin. Alman şirkətləri ilə işləmək bizə, bizim sahibkarlara çox yaxşı təcrübə verə bilər. Bu da bizim üçün daha güclü imkanlar açır.

Ümumiyyətlə, iqtisadiyyatımız neftin və qazın qiymətlərindən asılı olmayacaqdır. Bu, bizim məqsədimiz, gündəliyimizdir. Bu gün artıq biz gözəçarpan maliyyə resurslarına malikik və xarici sərmayələrin cəlbini də davam etdirmək istəyirik. Ancaq bunu iqtisadiyyatda yeganə yol kimi görmürük. Artıq bizim öz resurslarımız var və bunları istifadə etmək istəyirik. Biz Dövlət İnvestisiya Şirkəti yaratmışıq, onun öz kapitalı var. Bununla bağlı büdcəmizdə xüsusi vəsaitlər var. Onlar əsasən infrastruktur – elektrik stansiyalarının, məktəblərin və xəstəxanaların tikilməsi, yolların çəkilməsi üçün ayrılacaqdır. Bütün bunlar biznes mühitinin daha da yaxşılaşdırılması üçün zəmin yaradacaq və hesab edirəm ki, bizim əməkdaşlığımız çox uğurlu olacaqdır.

Ümumiyyətlə, Almaniya ilə bizim çox yüksək səviyyədə təmaslarımız var. Bu, mənim Almaniyaya ikinci rəsmi səfərimdir. Təbii ki, bizim iqtisadi sahədə də bir çox imkanlarımız var və Azərbaycanda işləmək arzusunda olan şirkətlərin də sayı çoxdur. Bu görüş də həmin tərəfdaşlığın rəmzidir. Sağ olun.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN ALMANİYANIN XARİCİ İŞLƏR NAZİRİ İLƏ GÖRÜŞÜ

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev fevralın 15-də Almaniya Federativ Respublikasının xarici işlər naziri Frank-Valter Ştaynmayer ilə görüşmüşdür.

Söhbət zamanı Azərbaycan ilə Almaniya arasında siyasi, iqtisadi əməkdaşlığın səviyyəsindən məmnunluq bildirildi. Azərbaycan ilə Avropa İttifaqı arasında əməkdaşlığın gələcək perspektivləri ətrafında da geniş fikir mübadiləsi aparıldı.

Görüşdə bir sıra regional və beynəlxalq məsələlər, o cümlədən Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi, bu problemin həlli ilə bağlı aparılan danışıqlar prosesinin vəziyyəti barədə də söhbət getdi.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN ALMANİYA BUNDESRATININ SƏDRİ İLƏ GÖRÜŞÜ

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev fevralın 15-də Almaniya parlamentinin aşağı palatasının – Bundesratın binasına gəlmişdir.

Prezident İlham Əliyevi binanın önündə Bundesratın sədri Harald Rinqştorff hörmət və ehtiramla qarşıladı.

Bundesratın binasında keçirilən görüşdə Azərbaycan ilə Almaniya arasında ikitərəfli münasibətlər, onların inkişaf perspektivləri, eyni zamanda, Azərbaycanın enerji sahəsindəki fəaliyyəti, Avropanın enerji təhlükəsizliyində rolu, enerji daşıyıcılarının nəqlində çoxşaxəliliyin təmin olunması barədə geniş fikir mübadiləsi aparıldı.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN ALMANİYANIN SABİQ MÜDAFİƏ NAZİRİ İLƏ GÖRÜŞÜ

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev fevralın 15-də, onun üçün ayrılmış iqamətgahda Almaniyanın sabiq müdafiə naziri Fölker Ruhe ilə görüşmüşdür.

Görüşdə Almaniya ilə Azərbaycan arasında ikitərəfli münasibətlərdən məmnunluq bildirildi. Prezidentin Almaniyaya rəsmi səfərinin əməkdaşlığın daha da genişləndirilməsi baxımından əhəmiyyəti vurğulandı.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV ALMANİYANIN KONRAD ADENAUER FONDU TƏRƏFİNDƏN TƏŞKİL OLUNMUŞ "AZƏRBAYCAN XXI ƏSRDƏ – İNKİŞAF VƏ PERSPEKTİVLƏR" MÖVZUSUNDA GENİŞ MÜZAKİRƏLƏRDƏ İŞTİRAK ETMİŞDİR

Fevralın 15-də Azərbaycan Respublikasının Prezidenti Berlinin "Adlon Kempinski" mehmanxanasında Konrad Adenauer Fondunun təşkil etdiyi "Azərbaycan XXI əsrdə – İnkişaf və perspektivlər" mövzusunda tədbirdə iştirak etmişdir.

Fondun baş katibi Vilhelm Ştaudaxer dövlətimizin başçısı İlham Əliyevi və xanımı Mehriban Əliyevanı böyük hörmət və ehtiramla qarşıladı.

Xatırladaq ki, müstəqil ictimai-siyasi təşkilat olan Fond 40 ildən çoxdur fəaliyyət göstərir. Avropada ümumi anlaşmaya və qarşılıqlı əməkdaşlığa yardım edir, siyasi fəaliyyətə dair elmi təhlillər aparır, siyasi maarifləndirmə, istedadlı gənc alimlərə təqaüdlərin verilməsi ilə məşğuldur. Fondun beynəlxalq əlaqələr şöbəsi vardır, Avropada, ABŞ-da proqramlar reallaşdırır, Almaniyada peşəkar beynəlxalq seminarlar keçirir, müxtəlif ölkələrin beynəlxalq səviyyəli rəhbərlərini informasiya proqramları ilə təmin edir. Fondun 61 ölkədə 63 əməkdaşı fəaliyyət göstərir. Hazırda Fond 230 layihəni reallaşdırır.

İndiki müzakirələrdə Almaniyanın elm, mədəniyyət, siyasət, iqtisadiyyat və digər sahələrinin 400-dən çox nüfuzlu təmsilçisi iştirak edirdi.

Görüşü Fondun baş katibi Vilhelm Ştaudaxer açdı.

KONRAD ADENAUER FONDUNUN BAŞ KATİBİ VİLHELM ŞTAUDAXERİN ÇIXIŞI

Zati-aliləri, hörmətli cənab Prezident və xanım Əliyeva!

Mən sizin hamınızı salamlayıram. Çox şadam ki, burada Almaniya Bundestaqının bir çox nümayəndəsi də iştirak edir. Bir daha hamınıza "Xoş gəlmisiniz!" deyirəm. Mən həmçinin hiss edirəm ki, cənab Şopenhoff ilə birgə hamınız hörmətli qonağımızla görüşə böyük maraqla gəlmisiniz. Cənab Şopenhoff müzakirələrə sədrlik edəcəkdir. Lakin böyük məmnuniyyətlə qeyd edirəm ki, bu gün iştirakçıların belə çoxsaylı olması qonağımızın çıxışına olan xüsusi diqqət və maraqdan xəbər verir.

Cənab Prezident, bu axşam burada bu qədər iştirakçıların olması ölkənizin inkişafı ilə

bağlı söyləyəcəyiniz maraqlı fikirləri eşitməkdən irəli gəlir və iştirakçılar bunu səbirsizliklə gözləyirlər.

Almaniya ilə Azərbaycan arasında əlaqələrin uzun tarixi var və yaxşı ənənələrə əsaslanır. Hələ 1819-cu ildə ilk alman köçkünləri Azərbaycana gəlmişlər. Onlardan biri hətta Bakıda quberniya mühəndisi işləmişdir. Mən onun adını da çəkmək istəyirəm. Onun adı çox mənalı və gözəl səslənir: Mikolaus fon der Nonne. Yaxud, Siemens qardaşları vaxtilə Gədəbəydə mis istehsalı ilə məşğul olmuşlar. Yəni, ümumi tariximiz ölkənizin Almaniya ilə münasibətlərinin nə qədər qədim olduğunu nümayiş etdirir. Həmin vaxtdan etibarən əlaqələrimiz nəinki kəsilməmiş, hətta inkişaf etmiş və son illər ərzində daha da sıx və intensiv xarakter almışdır.

Cənab Prezident, Siz son iki-üç ildə Almaniyada, Berlində iki dəfə olmusunuz və indi, 2007-ci ildə yenidən paytaxtımıza gəlmisiniz. Bu, həmçinin onunla bağlıdır ki, Almaniya hazırda Avropa İttifaqına sədrlik edir. Avropa İttifaqının Şərqə doğru genişlənməsi, Rumıniya və Bolqarıstanın daxil olması nəticəsində Avropa ilə Azərbaycan bir-biri ilə müəyyən mənada qonşu olmuşdur. Bu səbəbdən deyə bilərəm ki, qonşu ölkəyə xoş gəlmisiniz!

Artıq dediyim kimi, Siz 2004-cü və 2006-cı illərdə Almaniyada səfərdə olmusunuz və özünüzü Berlində evinizdəki kimi hiss edə bilərsiniz. Eyni zamanda, demək istəyirəm ki, Berlində bir neçə yüz azərbaycanlı yaşayır. "Berlin Festivalı-2007"də Azərbaycan rejissoru Oleq Səfərəliyevin filmi nümayiş etdiriləcəkdir. Təəssüf ki, azərbaycanca adını deyə bilməyəcəyəm, ingiliscə isə, həmin film "Good bye, Southern City" adlanır. Çox ümid edirik ki, bu film mükafat alacaqdır. Berlində azərbaycanlı rəssam, dizayn və qrafika ustası İbrahim Əhrari və virtuoz pianoçu Emin Məmmədov da yaşayırlar. Bu o deməkdir ki, biz Berlində Azərbaycan mədəniyyəti vasitəsilə zənginləşirik. Mən bir daha Sizi və bu görüşə gəlmiş Azərbaycan rəsmilərini salamlayır, Sizə "Xoş gəlmisiniz!" deyirəm.

Azərbaycan "odlar yurdu" deməkdir. Hələ orta əsrlərdə Azərbaycanın zəngin neft ölkəsi olması məlum idi. Ancaq əslində, zəngin sərvətlərin olmasının həm mənfi, həm də müsbət cəhətləri olur. Müsbət cəhəti ondan ibarətdir ki, Dünya Bankının hesablamalarına görə, Azərbaycanın inkişafı 2005-ci ildə 26,5 faiz olmuşdur. Həmin neft sərvəti müəyyən problemlər də yaradır. Azərbaycan coğrafi-strateji, daha doğrusu, coğrafi-strateji- iqtisadi əhəmiyyətə malik olan ölkəyə çevrilməkdədir. Bununla yanaşı, Azərbaycan bir tərəfdən, ABŞ-la Rusiyanın, digər tərəfdən isə, İranla Türkiyənin maraqlarının kəsişdiyi məkanda yerləşir. Bu o deməkdir ki, Azərbaycan üçün önəmli olan meyar, eyni zamanda, risk də yarada bilər.

Biz böyük bir maraqla Sizdən eşitmək istəyirik ki, Azərbaycan bu cür mürəkkəb xarici siyasət mühitində öz mövqeyini hansı yolla saxlayır və heç kimin marağına toxunmur. Eyni zamanda, cənab Prezident, bilmək istəyirik ki, Siz Avropa İttifaqından hansı dəstəyi gözləyirsiniz? Azərbaycan qısa bir müddət ərzində gözəçarpan dərəcədə inkişaf etmişdir. Təkcə 2004-2005-ci illərdə adambaşına düşən gəlirin həcmi ildə 500 dollar artmışdır.

Eyni zamanda, Almaniya ilə aparılan idxal və ixrac əməliyyatları iki dəfə artmışdır. 2008-ci ilə qədər artım daha da çox olacaqdır. Beləliklə, enerji sektoru ilə bərabər, digər

sahələr də inkişaf edəcəkdir. Bütün bunlar ümid verir ki, Azərbaycan iqtisadiyyatı olduqca geniş bünövrəyə əsaslanacaqdır. Biz Qərbi avropalılar bilirik ki, belə bir sürətli iqtisadi inkişafla digər sosial problemləri də həll etmək mümkündür.

Cənab Prezident, ölkənizdəki daxili siyasi, ictimai və sosial planlarınız barədə məlumat verməyinizdən çox məmnun olardıq. Konrad Adenauer Fondunun qonağı kimi bir daha Sizə "Xoş gəlmisiniz!" deyirik. Ölkənizə bizim marağımız olduqca böyükdür və gələcəkdə Azərbaycanda fəaliyyətimizin genişləndirilməsinə, xüsusən də gənclərin təhsilinə, ölkənizin iqtisadiyyatına və siyasətinə rəhbərlik edəcək gənc nəslin formalaşdırılması işinə önəm verəcəyik. Bilirik ki, Azərbaycanda müxtəlif dinlərə mənsub olan adamlar yaşayırlar. Bu cür yerlərdə dinlərarası dialoqlara ehtiyac böyük olur. İstərdik ki, Azərbaycan beynəlxalq səviyyədə dinlərarası dialoqlara cəlb olunsun. Eyni zamanda, Azərbaycanın uzun müddət apardığımız Qara dəniz dialoquna da qoşulmasını arzulayırıq. Azərbaycan Avropaya aid olan qlobal təhlükəsizlik siyasətində iştirak etməlidir və bununla yanaşı, Avropa İttifaqı ilə əlaqələrin inkişafına öz töhfəsini verməlidir.

Mən bütün bunları nəzərə alaraq, görüşə gəlmiş və burada iştirak edən hər kəsə bir daha minnətdarlığımı ifadə edir, cənab Prezidentin çıxışını məmnuniyyətlə dinləməyə hazır olduğumuzu bir daha qeyd edirəm.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN NİTQİ

Hörmətli xanımlar və cənablar!

İlk növbədə, mən bizimlə görüşə gəldiyinizə görə sizin hamınıza minnətdarlığımı bildirirəm. Hesab edirəm ki, bu, ölkəmizdə gedən prosesləri, əldə edilən nailiyyətləri və gələcək perspektivləri müzakirə etmək üçün yaxşı bir imkandır. Mən ölkəmiz və onun əhəmiyyəti haqqında deyilmiş xoş sözlərə, o cümlədən Azərbaycanın önəminə Avropadakı marağın artmasına çox məmnunam.

Bizim ölkəmizin böyük mədəniyyəti, tarixi və zəngin ənənələri var. Lakin müstəqil ölkə olaraq, beynəlxalq ictimaiyyətin bir üzvü kimi biz, sadəcə, 15 ildir yaşayırıq. Həmin illər müstəqilliyimiz və suveren inkişafımız üçün olduqca vacibdir. Çünki Sovet İttifaqı dağıldıqdan sonra biz müstəqillik əldə etdikdə, demək olar ki, ölkəmiz keçmiş sovet respublikaları arasında ən ağır vəziyyətdə idi. Bunu, digər ölkələrlə müqayisə edərək demək olar. Biz tam iqtisadi böhran və tənəzzül içərisində idik. Bu, vətəndaş müharibəsi və siyasi böhranla müşayiət edilirdi. Bütün zavodlar dayanmışdı, istehsal yox idi. Ermənistanın Azərbaycana qarşı etdiyi təcavüz bütün problemləri daha da kəskinləşdirirdi. Belə bir vəziyyətdə müstəqilliyimizin gələcəyi sual altında idi. Lakin bizim Prezidentimiz Heydər Əliyevin siyasəti sayəsində bütün çətinliklər artıq keçmişdə qaldı. Biz iqtisadi tənəzzüldən iqtisadi artıma, siyasi böhrandan siyasi sabitliyə gəldik və bu, çox qısa tarixi müddət ərzində baş verdi.

Müstəqillik qazandığımız zaman Azərbaycanda özəl sektor yox idi. İndi isə ölkənin iqtisadiyyatında özəl sektorun rolu durmadan artır. Bizim özəl sektorun ümumi daxili məhsuldakı payı 81 faizdir. Ölkəmizdəki indiki siyasi sistem bizim tariximizdə əvvəllər heç zaman olmamışdır. Bu gün Azərbaycanda bütün təsisatlar var və ölkəmiz fəal surətdə Avropa təsisatlarına inteqrasiya olunur. Hazırda biz Avropa İttifaqı ilə əməkdaşlıq edi-

rik və bu əməkdaşlıq yeni qonşuluq siyasəti çərçivəsində aparılır. Biz nüfuzlu beynəlxalq təşkilatlarla çox möhkəm münasibətlər qurmuşuq və ölkəmizdə siyasi islahatlar, demokratikləşmə güclü iqtisadi siyasətlə müşayiət olunur. Hazırda biz iqtisadi artım tempinə görə dünyada birinci yeri tuturuq. Qeyd edildiyi kimi, 2005-ci ildə ümumi daxili məhsul 26 faiz artmışdır. 2006-cı ildə bu artım 34,5 faiz təşkil etmişdir. Bu il də artım, ola bilsin ki, eyni səviyyədə saxlanılacaqdır.

Adətən keçid dövrünü yaşayan, bir siyasi sistemdən digər sistemə keçən ölkələr çətinliklərlə üzləşir. Çünki bu, sosial problemlərin artması ilə bağlıdır. Sovet İttifaqının süqutundan dərhal sonra əhalinin əksəriyyəti yoxsul vəziyyətə düşdü. Biz ölkəmizdə olduqca cəsarətli iqtisadi islahatlar aparmalı idik. Lakin eyni zamanda, bunu aparmaqla biz yoxsulluğun yayılmasının qarşısını almalı olduq.

Düşünürəm ki, əldə etdiyimiz nailiyyətlərdən ən əsası ümumi daxili məhsulun artımı və yaxud digər iqtisadi göstəricilər deyil, Azərbaycanda yoxsulluğun azaldılmasıdır. Çünki bizim bu sahədə siyasətimiz nəticəsində yoxsulluğun səviyyəsi 2003-cü ildəki 49 faizdən 2006-cı ildə 20 faizə qədər azaldılmışdır. Biz gələn bir neçə il ərzində bunu daha da aşağı salacaq və ümumiyyətlə, yoxsulluğu aradan qaldıracağıq. Eyni zamanda, bu proses yeni iş yerlərinin açılması ilə müşayiət olunur. Son üç il ərzində Azərbaycanda 520 min yeni iş yeri açılmışdır və bunun çoxu qeyri-neft sektorunda yaradılmışdır. Bu, əsasən, regionlarda baş vermişdir. Qeyd etmək istərdim ki, neft hasil edən, neft bazarında özü üçün daha geniş yer tutan ölkə kimi çoxşaxəli iqtisadiyyatın olması bizim üçün olduqca vacibdir. Biz bəzi neft hasil edən ölkələrin mənfi təcrübəsini təkrarlamaq istəmirik. Yəni, orada insanların bir qismi daha da zənginləşir, qalan hissəsi isə daha da kasıb vəziyyətə düşür. Ona görə biz neft sərvətini insan kapitalına çevirmək istəyirik. Yoxsulluğun azaldılması, yeni iş yerlərinin açılması və iqtisadiyyatın şaxələndirilməsi bugünkü Azərbaycanın reallığını təşkil edir. Yəni, 10 il bundan əvvəl heç təsəvvür etmək mümkün deyildi ki, bizim ölkədə bu baş verəcəkdir. Amma indi bu reallıqdır.

Mən burada istehsalla bağlı bir çox iqtisadi göstəricilər barədə rəqəmləri misal gətirə bilərəm. Amma, sadəcə, bununla sizin vaxtınızı almaq istəmirəm. Bu gün Azərbaycanda iqtisadi və siyasi islahatlara çoxmilyardlıq sərmayələr yatırılmışdır, ölkəmiz olduqca dinamik surətdə inkişaf edir. Biz enerji sektorunda güclü siyasət həyata keçiririk. Azərbaycan iqtisadiyyatına son 10 il ərzində 30 milyarddan çox sərmayə yatırılmışdır. Eyni zamanda, biz olduqca əlverişli sərmayə mühiti yaratmışıq. Bizim ölkəmiz adambaşına düşən birbaşa xarici sərmayələrin həcminə görə keçmiş Sovet İttifaqı və Mərkəzi Avropa ölkələri arasında ilkin yerlərdən birini tutur.

Sərmayədarları əsasən enerji sektoruna cəlb etmişik. Biz qeyri-neft sektoruna da diqqət yetiririk. Bu, bizə, eyni zamanda, özümüzü təqdim etmək, xarici şirkətlər və banklar qarşısında daha etibarlı tərəfdaşa çevrilmək imkanını yaratdı. Artıq beynəlxalq səviyyədə zəngin təcrübə əldə etmişik, ölkəmizin nüfuzu daim artmaqdadır, bu gün iqtisadiyyatın müxtəlif sektorlarına çoxmilyardlıq kreditlər cəlb edə bilərik və bunu edirik. İlkin neft hasilatından gəlirlər əldə etdikdən dərhal sonra Dövlət Neft Fondunu təsis etmişik və həmin vəsaitlər hazırda Neft Fonduna yığılır. Ölkəmizin hər bir vətəndaşı bu gəlirlərin nə səviyyədə olduğunu bilir və bunlar beynəlxalq auditorlar tərəfindən yoxlanılır və mütəmadi olaraq hesabatlar çap edilir.

Eyni zamanda, biz hasilat sənayesi sahəsində şəffaflıq təşəbbüsünə də qoşulmuşuq və demək olar ki, enerji layihələrindən əldə olunan gəlirləri gizlətmək və yaxud da bəyan etməmək mümkün deyildir. Bu, etimad yaradır, əhali arasında hökumətə inamı artırır. Eyni zamanda, Neft Fondundan gəlirlərin xərclənməsi yalnız büdcə vasitəsilə, yəni nə qədər və nə məqsədlə sərf edilməsi ilə bağlı qərarı Milli Məclis qəbul edir və bu yolla qərarların qəbul edilməsində xalq da iştirak edir.

Sosial problemlər yaşayan ölkələrdə iqtisadi islahatlar aparmaqla yanaşı, ehtiyac içərisində yaşayan insanlara yardım göstərmək də olduqca vacibdir. Bizim olduqca güclü sosial siyasətimiz var, ildə ən azı, iki dəfə pensiyaları, əmək haqlarını artırırıq. Əhalimiz, xalqımız ilbəil daha yaxşı yaşayır. Beləliklə, bizim enerji siyasətimiz digər sektorların da inkişafı və iqtisadiyyatın daha da şaxələndirilməsi və infrastruktura sərmayələrin yatırılması üçün yaxşı imkan yaradır. Hazırda Azərbaycanda infrastruktur layihəsi çox sürətlə inkişaf edir. Eyni vaxtda, bir neçə elektrik stansiyası tikilir, şəhər və kəndlərə yollar çəkilir, magistral yollar salınır, xəstəxanalar, məktəblər inşa edilir. Son iki-üç il ərzində ölkədə 500-dən çox məktəb tikilmişdir. Hazırda onların hamısının internetə çıxışı var və buna görə də məktəbdəki gənclərimiz bu fürsətdən istifadə edərək, dünyada gedən hadisələri izləyirlər. Uzunmüddətli perspektivdə, bizim uğurlu gələcəyimizi neft və qaz deyil, məhz bu istiqamətlər – təhsil və peşəkarlıq müəyyən edəcəkdir. Eyni zamanda, mənfi təcrübəni də öyrənirik ki, bunu təkrarlamayaq. İnkişaf etmiş ölkələr buna necə başlamışdır? Hesab edirik ki, onların bir çoxu sıfırdan başlamışdır. Sizin ölkəniz, Almaniya son bir neçə onilliklər ərzində əhəmiyyətli uğurları məhz güclü siyasət, həmin siyasətə əhalinin verdiyi dəstək sayəsində və müasir texnologiyalar nəticəsində əldə etmişdir.

Ümumiyyətlə, texnologiyalar hər bir ölkənin uğurunu təmin edir. Ona görə, təhsil, yeni texnologiyalar və Avratlantik məkanına inteqrasiya - bütün bunlar bizim üçün prioritetlərdir. Bütün bu sahələrdə irəliləyişə nail olmaqdayıq. Biz ilkin olaraq, xarici şirkətləri Xəzər dənizinə dəvət etdik, -- ondan əvvəl Xəzər dənizi xaricilər üçün bağlı idi, – sərmayələri cəlb etdik, neft hasil etməyə başladıq. Boru kəmərlərini çox çətin, mürəkkəb coğrafi və geosiyasi şəraitdə çəkməyə nail olduq. İndi Azərbaycanda hasil olunan neft böyük həcmdə Aralıq dənizi və Qara dəniz vasitəsilə dünya bazarlarına çıxarılır. Bu məqsəd üçün üç boru kəməri mövcuddur. Eyni zamanda, bir trilyon kubmetrdən çox qaz ehtiyatı olan "Şahdəniz" yatağını aşkar etdikdən sonra, Azərbaycan dərhal Bakıdan Qərb istiqamətində qaz kəmərinin çəkilməsinə də başladı. Bu günlərdə Avropaya qaz boru kəmərinin tikintisi artıq başa çatdırılıb. Ola bilsin, gələn aylar ərzində biz daha çox qaz hasil edəcək, öz qonşularımız və Avropa üçün potensial təchizatçı ölkəyə çevriləcəyik.

Keçən ilin noyabrında biz Avropa İttifaqı ilə enerji sahəsində strateji tərəfdaşlıq haqqında anlaşma memorandumunu imzaladıq. Bu, həmin istiqamətdə atılan ilkin addımdır. Gələcəkdə əməkdaşlığımız daha da möhkəmlənəcəkdir. Etibarlı tərəfdaş, xarici ölkələrin əminliklə əməkdaşlıq etdiyi ölkə kimi biz müqavilələri parlamentdə ratifikasiya edirik ki, onların həyata keçirilməsi üçün təminat yaransın. Biz bu cür mühiti yarada bilmişik.

İndi biz inkişafımızın yeni mərhələsindəyik. Qeyri-neft sektorunun müxtəlif sahələrinə

sərmayələr qoyuruq. Artıq bunun həyata keçirilməsi üçün özümüzün maliyyə gücümüz var. Biz kifayət qədər kapitala malik olan Dövlət Sərmayə Şirkətini yaratmışıq. Hazırda yerli və xarici şirkətləri dəvət edirik ki, onlar qeyri-neft sektoruna sərmayələr qoysunlar və iqtisadiyyat şaxələndirilsin. Bu, daxildə bizim iqtisadi prioritetlərimizi təşkil edir. Eyni zamanda, enerji sahəsinə gəldikdə, dünyada dəyişən şəraiti nəzərə alaraq, biz ənənəvi tərəfdaşlarımızla gələcək planlarımız naminə işləyirik. Biz Bakıdan Aralıq dənizinə neft boru kəmərini, eyni zamanda Türkiyəyə və oradan Avropaya qaz boru kəmərini çəkəndə enerji məsələləri dünya siyasətində vacib yer tutmurdu. İndi isə vəziyyət dəyişir. Hazırda enerji siyasi qərarların qəbul edilməsində əsas yer tutur. İndi isə, bu, fəal şəkildə, istər istehsalçılar, tranzit ölkələr və istərsə də, bəzən istehlakçılar tərəfindən siyasi məqsədlər üçün istifadə olunur. Ona görə biz özümüzü dəyişən dünyaya uyğunlaşdırmalıyıq. Biz yeni layihələri irəli sürürük.

Hazırda biz regionda Türkiyə-Gürcüstan-Azərbaycan arasında dəmir yolu xəttinin tikintisinə başlamışıq və daha sonra Avropaya çıxış əldə edəcəyik. Bundan sonra iki il ərzində uğur əldə etsək, - və mən əminəm ki, bu, belə də olacaq, – biz malların Asiyadan ölkəmizin ərazisi vasitəsilə Avropaya daşınmasında tranzit ölkəyə çevriləcəyik. Biz regional nəqliyyat qovşağına çevrilmək məqsədi ilə nəqliyyat infrastrukturu layihələrinə böyük sərmayələr qoyuruq və bu istiqamətdə artıq böyük işlər görmüşük. Bu, bizim qarşımızda duran yeni çağırışlardır.

Birmənalı olaraq, enerji ehtiyatlarımızın mövcudluğu bizə böyük üstünlüklər verir. Bizim qarşımızda duran çətin vəzifə çox riskli hesab olunan ölkəyə sərmayələri cəlb etmək, iki ölkədən və bəlkə də, daha çox yerlərdən keçən və o qədər də asan hesab olunmayan boru kəmərini çəkmək, bu regionda sülhü qorumaq, öz siyasətimizi həyata keçirmək və müstəqilliyimizi qoruyub saxlamaqdan ibarət idi. Bu gün bizim qarşımızda duran vəzifələr yüz faiz uğurla yerinə yetirilib, başa çatdırılıbdır.

Artıq biz enerji, daşıma, siyasi islahatlar və əməkdaşlıq sahələrində yeni mərhələyə qədəm qoyuruq. Bizim uğurumuzun vacib elementi ölkədə siyasi sabitliyin olmasıdır. Əgər hökumət ilə xalq arasında birliyə nail olmasaydıq, uğur mümkün olmazdı. Siyasi sabitlik və proqnozlaşdırma uğura aparan əsas amillərdir. Əgər biz dünyanın müxtəlif guşələrində və öz mühitimizdə uzun və qısa tarixə nəzər salsaq görərik ki, sabitlik olmayan yerdə dərhal iqtisadi tənəzzül müşahidə edilir, problemlər üzə çıxır, ölkənin müstəqilliyini qoruyub saxlamaq imkanları məhdudlaşır. Bizim bu sahədə gördüyümüz işlər siyasi islahatların aparılmasına, iqtisadi vəziyyətin dəyişdirilməsinə və beynəlxalq təşkilatlarla yeni formatda əməkdaşlığın qurulmasına imkan yaratdı.

Bu, bizim seçimimizdir. Azərbaycanın seçimi ondan ibarət idi ki, Avratlantik strukturlarına inteqrasiya olunsun və indi biz bu istiqamətdə NATO ilə tərəfdaşlığımızda nəzərəçarpan irəliləyiş əldə etmişik. Biz "Fərdi tərəfdaşlığa dair fəaliyyət planı"nı imzalamışıq. Altı ildən çoxdur ki, Avropa Şurasının üzvüyük. Bu da bizim seçimimizdir. Heç kim bizi bu addımı atmağa məcbur etməmişdir. Ötən ilin noyabr ayında biz Avropa İttifaqı ilə yeni qonşuluq siyasəti çərçivəsində beşillik tədbirlər planını imzalamışıq. Bunun çox elementləri var və həmin sənəddə siyasi islahatların aparılması ən vacib meyardır.

Azərbaycanın inkişafının digər elementi sülh şəraitində yanaşı yaşamaqdır. Biz bir çox millətlərin nümayəndələrinin yaşadığı ölkəyik və müxtəlif dinlərin təmsilçiləri bir ailə

kimi yaşayır. Bu, bizim inkişafımız üçün vacibdir. Bu müsbət təcrübə digər yerlərdə də öyrənilə bilər. Bu gün dünyada yaşanan problemlərdən biri müxtəlif dinlərin nümayəndələri arasında artan gərginlikdir. Biz sivilizasiyalararası dialoq haqqında çox eşidirik. Lakin bir çox hallarda reallıqda bunun əksini görürük. Biz gərginliyi, qarşılıqlı surətdə şübhəli yanaşmanı, o cümlədən insanlar arasında ziddiyyətlər və bəzən də qarşıdurmanı görürük. Azərbaycanda isə bütün dinlərin təmsilçiləri bir ailə kimi yaşayır. Nə Konstitusiyada, nə də gündəlik həyatda heç bir ayrı-seçkilik yoxdur. Bu, bizi daha da güclü edir. Bu, bizi mədəni baxımdan daha da zənginləşdirir. Biz öz dinimizi, öz mədəniyyətimizi yüksək dəyərləndiririk və eyni zamanda, digər dinlərə və mədəniyyətlərə yüksək dərəcədə hörmət edirik. Əminəm ki, Azərbaycanın təcrübəsi, xüsusilə bu cür mühüm tarixi baxımdan digər yerlər üçün faydalı ola bilər.

Lakin, eyni zamanda, əlbəttə, ölkədə problemlər də mövcuddur. Çünki hər bir şey bizim üçün yenidir. Müstəqilliyimizin, müstəqil inkişafımızın 15 ilinin ilk beş-altı ili sabitləşmə dövrü idi. Yalnız 1996-cı ildə iqtisadi tənəzzülü dayandıra bildik. 1991-ci ildən 1996-cı ilə qədər olduqca böyük böhran var idi. 1996-cı ildən 2005-ci ilə qədər ölkədə iqtisadi inkişaf hər il on faiz səviyyəsində olmuşdur. Artıq qeyd etdiyim kimi, 2005-ci ildən etibarən iqtisadi artım daha yüksək sürətlə gedir.

Lakin bir çox sosial, psixoloji problemlər hələ də qalır. Çünki bizim nəsil başqa sistemdə yaşamışdır. Bu, Sovet İttifaqının sistemi idi, orada məhdudiyyətlər mövcud idi. Bu, elə bir sistem idi ki, hər bir ölkənin inkişafı üçün vacib olan bütün məsələlər, misal üçün, insan hüquqları məsələsi, ümumiyyətlə, mövcud deyildi. Demokratik sistem, ümumiyyətlə, mümkün deyildi. Bu, sadəcə təkpartiyalı sistemi idi. Biz bu sistemdə yaşayırdıq. Ona görə dəyişikliklər hətta insanların şüurunda belə asan olmur. Xüsusən də əgər biz iqtisadi problemlərimizi görürdüksə, digər ölkənin təcavüzünə məruz qalmışdıqsa, bunun nəticəsində ölkəmizdə bir milyon qaçqın və məcburi köçkün yaranmışdısa, bu, olduqca çətin idi. Demək olar ki, bu, adambaşına düşən göstəriciyə görə dünyada ən yüksək göstəricidir. Yəni 8,5 milyonluq əhaliyə 1 milyon məcburi köçkün və qaçqın düşür. Hökumət onların problemlərinə qayğı ilə yanaşır. Hökumət onlara maliyyə və ərzaq yardımı göstərir. Bu, böyük bir humanitar fəlakətdir. Əlbəttə ki, bu, əlavə problemlər yaradır.

Ona görə də Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli geniş regional inkişaf üçün ən başlıca məsələdir. Biz bu ədalətsiz vəziyyətə son qoymalıyıq. XXI əsrdə beynəlxalq hüququn əsas prinsipi pozulmuşdur. 1 milyon azərbaycanlının insan hüquqları da pozulubdur. 700 min azərbaycanlı Azərbaycanın Dağlıq Qarabağla qonşu olan 7 rayonunda etnik təmizlənməyə məruz qalmışdır. 250 min azərbaycanlı Ermənistanın daxilindən qovulubdur, onlar orada öz ata-baba torpaqlarında yaşayırdılar. Təqribən 50 min azərbaycanlı Dağlıq Qarabağda yaşadığı torpaqlarından qovulubdur. Artıq on ildən çoxdur ki, bu problem həll olunmamış qalır. Hazırda biz əlimizdən gələni edirik ki, məsələni dinc yolla həll edək. Biz sülh danışıqlarına sadiqik. Amma bu, nə qədər çəkə bilər? Bu sülh danışıqları nə qədər çəkəcəkdir?

Birləşmiş Millətlər Təşkilatı Təhlükəsizlik Şurasının qəbul etdiyi 4 qətnamədə Ermənistan qoşunlarının Azərbaycanın işğal olunmuş rayonlarından qeyd-şərtsiz, dərhal çıxarılması tələb edilir. Amma Ermənistan buna məhəl qoymur. Avropa Şurasının iki il

bundan öncə qəbul etdiyi qətnamədə aydın şəkildə deyilir ki, Ermənistan təcavüzkardır və Azərbaycana qarşı təcavüz etmişdir. Bu qətnamə də diqqətdən kənarda qalır. Ermənistan beynəlxalq təşkilatların, ATƏT-in Minsk qrupunun vasitəçilərinin məsələnin dinc yolla həllinə yönəlmiş cəhdlərini kobudcasına pozur. Ermənistan tərəfi iki dəfə danışıqlar masasını tərk etmişdir. Biz orada dinc nizamlamaya artıq yaxın idik. Belə bir halda biz danışıqlar prosesini necə davam etdirə bilərik? Bizim səbrimiz artıq tükənməkdədir. Ona görə bu vəziyyət tamamilə aydın qavranılmalıdır. Azərbaycan heç vaxt Dağlıq Qarabağın müstəqilliyinə razılıq verməyəcəkdir. Bizim ərazi bütövlüyümüz Birləşmiş Millətlər Təşkilatı, bütün beynəlxalq təşkilatlar tərəfindən tanınmışdır və dəstəklənir. Bu yaxınlarda onlar "Dağlıq Qarabağ Konstitusiyası" ilə bağlı səsverməni pisləmişlər. Avropa Şurası, Avropa İttifaqı, ATƏT-in Minsk qrupunun həmsədrləri və dünyanın aparıcı dövlətləri bunu pislədi. Hamıya aydındır ki, Dağlıq Qarabağ tarixi baxımdan Azərbaycanın ərazisidir. Ermənilər oraya XIX əsrin əvvəllərində çar Rusiyası tərəfindən köçürülmüşdür. Onlar gəlib orada məskən salmış, sonradan çoxluq təşkil etmiş və həmin ərazidə separatist meyillərə başlamışlar.

Biz heç vaxt Dağlıq Qarabağa müstəqilliyin verilməsinə razılaşmayacağıq. Biz onlara nə verə bilərik? Yüksək özünüidarə statusu verə bilərik ki, bu da Azərbaycan dövlətinin hüdudları çərçivəsində olmalıdır. Bunun üçün Avropada, dünyada modellər var; milli azlıqlar özünüidarə, yüksək muxtariyyət statusuna malikdirlər, yaşadıqları ölkələr tərəfindən dəstəklənirlər və sülh şəraitində yaşayırlar. Biz bunu təklif edirik. Lakin biz qeyri-adi və ya qəbul edilə bilməyən bir məsələni təklif etmirik və ərazi bütövlüyümüzlə bağlı heç vaxt güzəştə getməyəcəyik. Biz etnik təmizləmə siyasəti ilə heç vaxt razılaşa bilmərik. Bu, uğursuz siyasətdir. Ancaq indi qüvvələr nisbəti artıq dəyişibdir. Bu il Azərbaycanın iqtisadiyyatı Ermənistanın iqtisadiyyatından 7 dəfə güclüdür. Gələn 5-6 il ərzində 20-30 dəfə çox olacaqdır. Onlar bizimlə rəqabət aparmaq iqtidarında deyil. Ermənistanın Azərbaycanla rəqabət aparmaq gücü artıq tükənibdir. Onlar bu prosesi davam etdirə bilməyəcəklər. Biz güclü iqtisadiyyata malikik.

Ölkəmizdə neft hasilatı cari il ərzində gündə təqribən 800 min barrel, gələn il isə 1 milyon barreldən çox olacaqdır. Biz bu yaxınlarda böyük qaz hasilatına başlayacağıq. Dünya Bankının hesablamalarına görə, gələn 20 il ərzində Azərbaycan orta qiymətlərlə 140 milyard dollar gəlir əldə edəcəkdir. Biz bunu necə istifadə edəcəyik? Biz məktəblər, xəstəxanalar, elektrik stansiyaları və körpülər tikəcəyik, yollar çəkəcəyik, Azərbaycanı tamamilə müasirləşdirəcəyik. Eyni zamanda, ordumuzu da gücləndirəcəyik. Ermənistan bunu bilməlidir. Onlar nə edə bilərlər? İndi onlar hər hansı bir daşınma marşrutlarından, sadəcə, kənarda qalıblar. Biz Ermənistanın ərazisindən kənar keçən neft və qaz boru kəmərləri çəkmişik. Biz indi olduqca güclü regional tərəfdaşlıq və əməkdaşlıq ərəfəsindəyik.

Prezident kimi mənim üçün Dağlıq Qarabağ problemi bir nömrəli problemdir. Biz çalışırıq ki, bu problemi tamamilə aradan qaldıraq və inkişafımızı ən yüksək səviyyəyə gətirək, siyasi sistemi getdikcə möhkəmləndirək, qonşularla əməkdaşlığımız daha da genişlənsin. Bizim bütün qonşularımızla yaxşı olaqələrimiz var. Bu, həm siyasi, həm iqtisadi və həm də digər sahələrə aiddir. Avratlantik məkanına, Avropa İttifaqına, NATO-ya inteqrasiyamız çox yaxşıdır. Gələcəkdə bizim hansı problemimiz ola bilər? Biz yoxsulluğu azaldırıq, işsizliyi aşağı salırıq və Azərbaycanda əhalinin həyatı daha da yaxşılaşır və

cəmiyyəti bir araya gətiririk, səfərbər edirik. Bütün cəmiyyət Dağlıq Qarabağ probleminin həllinə töhfə verməlidir. On ildən çox müddət ərzində hansısa bir nəticə olmasa da, biz yenə də danışıqlar prosesindəyik. Bu onu göstərir ki, biz məsələnin dinc yolla həllində səmimiyik, müharibənin yenidən başlanmasını istəmirik. Müharibə fəlakətdir. Eyni zamanda, biz oturub gözləyə bilmərik ki, bir gün gələcək və Ermənistan rəhbərliyi qərar qəbul edəcək ki, onlar işğala son qoysunlar. Ona görə bu problemə çox güclü beynəlxalq diqqət yetirilməlidir.

Mən bilmirəm, çıxış üçün nə qədər vaxtım qalıbdır. Bəlkə mən bu problem haqqında daha təfərrüatlı danışa bilərdim. Bu, nəinki bizim üçün, ümumiyyətlə, region üçün vacibdir. Çünki region dinamik surətdə inkişaf edir və Azərbaycan bunun lokomotividir. Enerji, daşınma layihələri bizim tərəfimizdən başlanmışdır və indi bunlar tamamilə yeni bir vəziyyət yaradır. Burada giriş sözündə qeyd edildi və müzakirələrdə vurğulandı, bu gün, dünən aparılmış görüşlər zamanı da deyildi ki, Xəzər dənizi, Qara dəniz və Mərkəzi Asiya əməkdaşlıq formatı artıq görünür. Bu əməkdaşlıq formatı digər elementlərlə yanaşı, bünövrəsində enerji gündəliyini saxlayır. Ona görə biz olduqca böyük regional inkişaf ərəfəsindəyik. Həmin separatçı münaqişələr, sadəcə, vaxtla işləyən bombaya bənzəyir və bunlar hər yerdə eynidir. Dağlıq Qarabağda, Abxaziyada, Cənubi Osetiyada, Dnestryanı bölgədə – hamısında eynidir.

Onların hamısı təcavüzkar separatçı siyasətin təzahürüdür, hamısında etnik təmizləmə siyasəti aparılmışdır, hamısı humanitar fəlakətlə nəticələndi və çoxsaylı qaçqın-köçkünlər təbəqəsi yarandı. Onların nəticəsində Gürcüstan, Moldova və Azərbaycanın ərazi bütövlüyü pozulubdur. Həmin tanınmamış qondarma "respublikalar" elə bir zonalardır ki, orada heç bir beynəlxalq monitorinq və nəzarət yoxdur. Bizim məlumatımıza əsasən, orada bir çox qeyri-qanuni işlər aparılır. Biz kifayət qədər məlumat əldə etmişik ki, Dağlıq Qarabağda narkotiklərin və silahların qanunsuz dövriyyəsi, terrorçulara sığınacağın verilməsi və çirkli pulların yuyulması halları müşahidə olunur. Onlar, çox şeyləri gizlətmək üçün əlverişli yerlərdir. Onlar mövcuddurlar, lakin hüquqi baxımdan mövcud deyillər. Bu səbəbdən də beynəlxalq monitorinq və nəzarət yoxdur. Bu, qlobal xarakterə malik olan bir problemdir. Mən ümid edirəm ki, Azərbaycanın fəal diplomatiyası, regional işlərdə iştirakı, iqtisadi potensialı və siyasi iradəsi bunun həllinə yardımçı olacaqdır.

Mən eyni zamanda, Azərbaycan-Almaniya münasibətləri haqqında danışmaq istərdim. Onlar bu günə qədər çox uğurla inkişaf etmişdir. Bunun bariz nümunəsi mənim Almaniyaya iki il yarım ərzində səfərlərim olubdur. Bu, mənim ikinci rəsmi səfərimdir. Bundan əvvəl mən Almaniyada işgüzar səfərdə olmuşdum. Bizim iş adamlarından ibarət böyük nümayəndə heyətimiz mənimlə buraya gəlibdir, burada Almaniya-Azərbaycan biznes forumu təşkil olunacaqdır. Biz müxtəlif layihələr üzərində işləmək arzusundayıq. İstəyirik ki, Azərbaycanda işləmək üçün mümkün qədər çox alman şirkətlərini dəvət edək. Nəinki sərmayə qoymağa, eyni zamanda, podrat və xidmət şirkətlərini də dəvət edirik ki, onlar keyfiyyətli iş görsünlər. Bu cür iqtisadi fəaliyyət bizim siyasi əlaqələrimizi birmənalı olaraq gücləndirir, bunlar çox uğurludur və müsbətdir. Əminəm ki, bu səfər tərəfdaşlığımızı möhkəmləndirəcək, Azərbaycan Avropaya daha da yaxınlaşacaq və gələcəkdə Avropa-Qafqaz və Avropa-Mərkəzi Asiya arasında daha geniş regional əməkdaşlıq üçün yeni perspektivlər açılacaq və dünya daha sabit olacaqdır.

Diqqətinizə və səbrinizə görə çox sağ olun.

***

Sonra Azərbaycan Prezidenti İlham Əliyev görüş iştirakçılarının çoxsaylı suallarına cavab verdi.

ANDREAS ŞOPENHOFF (aparıcı): Cənab Prezident, çox sağ olun. Mən hesab edirəm ki, Sizin nitqiniz fəal diplomatiyanın mühüm bir təzahürü oldu. Biz hamımız bilirik ki, Azərbaycanın nə qədər strateji əhəmiyyəti var və Siz bunu olduqca gözəl bir formada, özünüzə əminliklə və təvazökarlıqla təsvir etdiniz. Siz ölkənizdə nəinki iqtisadi baxımdan işlərin aparılmasına sadiqsiniz, eyni zamanda, istəyirsiniz ki, Azərbaycanda Avropa İttifaqının etibarlı tərəfdaşı nüfuzu yaransın. Cənab Prezident, bir daha çox sağ olun.

Hörmətli cənab Prezident sizin suallarınıza cavab verməyə hazırdır. Sizin şərhləriniz ola bilər. Burada mikrofonlar qurulubdur. Buyurun, ilk sualı verin.

-Əslində, ilk sualı mən vermək istəmirdim. Ancaq Azərbaycan elə bir ölkədir ki, hamımızı çox maraqlandırır və həmin ölkə ilə sıx əlaqələrimiz var. Məni ən çox maraqlandıran odur ki, Siz Azərbaycanın inkişafını ümumi Qafqaz məkanında necə görürsünüz? Bizim üçün xüsusilə maraqlıdır ki, Şimali Qafqazın gələcək inkişafı haqqında nə deyə bilərsiniz, çünki həmin region olduqca həssas regiondur. Xüsusən də Çeçenistan. Bunlar, mənim kiçik suallarımdır.

-Cənab Prezident, Siz qeyd etdiniz ki, Dağlıq Qarabağ problemi ölkəniz üçün bir nömrəli problemdir. Mən Qafqazdakı digər iki münaqişə üzrə işləmişəm. Abxaziya və Cənubi Osetiya münaqişələri haqqında eşitmişəm və bilirəm ki, hansı mövcud çətinliklər var. Həll məsələsinə gəldikdə, hamımız bilirik və Siz də deyirsiniz ki, Azərbaycanın uğurlu inkişafını davam etdirmək üçün biz Dağlıq Qarabağ üzrə güzəştə getməliyik. Bu yaxınlarda biz oxşar bir məsələ ilə bağlı Balkanlarda güzəşt variantını gördük. Bu, Kosovo regionunda, sadəcə, bir neçə gün bundan əvvəl baş verdi. Siz Kosovo həll variantı ilə bağlı öz rəyinizi bildirə bilərsinizmi ki, bu da Azərbaycanın ümidverici qaydada Dağlıq Qarabağ probleminin həllinə imkan yarada bilər? Sağ olun.

-Hörmətli cənab Prezident, Siz burada Azərbaycandakı vəziyyəti hərtərəfli təsvir etdiniz. Mən bu yaxınlarda Bakıda olmuşam. Orada narahatlıq doğuran ekoloji problemlərin olduğu bildirilir. Siz ekoloji sahədəki siyasət haqqında nə söyləyə bilərsiniz?

-Mən azad jurnalistəm və Cənubi Qafqazda işləmişəm, Gürcüstanda və Azərbaycanda olmuşam. Mən bilmək istərdim, Siz Azərbaycanın Şərqdəki qonşuları ilə münasibətlərini və onların inkişafını necə görürsünüz? Sağ olun.

ANDREAS ŞOPENHOFF (aparıcı): Cənab Prezident, mənca, biz Sizə imkan verməliyik ki, suallara cavab verəsiniz.

İLHAM ƏLİYEV: Suallarınıza görə sağ olun. Qafqazdakı vəziyyətə gəldikdə onu deməliyəm ki, Qafqaz bir orqanizmdir. Şimali və cənubi Qafqazda qonşularımız var. Şimali Qafqaz Rusiyada yerləşir və digər istiqamətlərdə də ölkələr var. Təbii ki, mədəni münasibətlər var və bir ölkə kimi Azərbaycanın Cənubi Qafqazla, Şimali Qafqazla hüdudları var və bu əlaqələrdən bəhrələnir. Bir çox azərbaycanlı Şimali Qafqazda, Rusiyanın ərazisində yaşayır və orada bir çox dostlarımız var. Eyni zamanda, Rusiya ilə ikitərəfli münasibətlərimizlə müxtəlif istiqamətlərdə öz töhfəmizi veririk. İşlərimizin elementlərindən biri təhlükəsizlik və sabitlikdir. Lakin tarixi şəraiti nəzərə alaraq, istər

Cənubi, istərsə də Şimali Qafqazda sabitliyin hər hansı şəkildə pozulmasının bütün Qafqaza mənfi təsiri olacaqdır. Əfsuslar olsun ki, dünyanın bu çox kiçik bir guşəsində daim müharibələr baş verib, münaqişələr müşahidə olunubdur. İstər şimalda, istərsə də cənubda. Bu, əsrlər boyu belə olub və həmin torpaqlara, regiona əsrlər boyu sülh gəlməyibdir. Bu regionun özü də gözəldir. Azərbaycan, öz növbəsində, sülhün bərpasına töhfə verir. Region sülh və tərəqqi şəraitində yaşamalıdır ki, müharibədən, hər hansı bir təcavüzdən əziyyət çəkməsin.

O ki qaldı Dağlıq Qarabağ məsələsinin həllinə, hansı model olmasına gəldikdə, bilirsiniz, hər hansı bir münaqişə öz xüsusiyyətinə və həll yoluna malikdir. Bu baxımdan mən hesab edirəm, o qədər də yaxşı bir ideya olmaz ki, bir potensial həll yolunu digər münaqişəyə şamil edək. Çünki münaqişənin mahiyyəti müəyyən mənada aydındır və bu, separatizmdir. Tarixi baxımdan bu fərqlər ola bilər.

Dağlıq Qarabağ məsələsinin mümkün həllinə və Azərbaycanın nəyə razılıq verəcəyinə gəldikdə, ən birincisi, Dağlıq Qarabağ müstəqil ola bilməz və əminəm ki, bu, belə də olacaqdır. Çünki əgər beynəlxalq ictimaiyyət Dağlıq Qarabağı Azərbaycanın zəif və qeyri-sabit bir vaxtında tanımadısa, bundan sonra da tanımayacaqdır. Ermənilər artıq öz müqəddəratını təyin ediblər. İndi isə onlar çalışırlar ki, bu iki prinsipi – ərazi bütövlüyü və öz müqəddəratını təyinetmə prinsiplərini bir-biri ilə ziddiyyətə gətirsinlər. Erməni xalqı öz müqəddəratını artıq təyin edibdir, Ermənistan dövləti var. Əgər bu baxımdan, bu məntiqdən yanaşsaq, yəni onların məntiqini götürsək, onda dünyada nə qədər erməni dövlətləri yaranmalıdır? Çünki onlar bir çox ölkələrdə yaşayırlar. Əgər Dağlıq Qarabağda digər erməni dövləti yaratsalar, onda sabah onlar istəyəcəklər ki, Gürcüstanda da belə bir dövlət yaransın. Hətta deyim ki, Dağlıq Qarabağda yaşayan ermənilərin sayı Gürcüstanda yaşayan ermənilərin sayından 4 dəfə azdır. Dağlıq Qarabağ müstəqil ola, yaxud Ermənistana birləşə bilməz. Azərbaycanın əraziləri Ermənistanın işğalından azad edilməlidir. Bizim qaçqınlarımız, məcburi köçkünlərimiz öz torpaqlarına qayıtmalıdırlar. Eyni zamanda, Dağlıq Qarabağdan olan, xüsusən də qədim Azərbaycan şəhəri Şuşadan olan məcburi köçkünlər öz yerlərinə qayıtmalıdırlar.

Eyni zamanda, beynəlxalq sülhyaratma əməliyyatları olmalıdır və biz buna razıyıq. Dağlıq Qarabağın gələcək statusu məsələsi iki tərəf arasında müzakirə olunacaq və Dağlıq Qarabağa dünyada mövcud olan, – yaxud mövcud olmayan, biz bu haqda düşünməliyik, – muxtariyyət statusu verilə bilər. Bu, maksimumdur, konstruktiv bir mövqedir.

Bundan əlavə, əgər Dağlıq Qarabağ Azərbaycana qaytarılsa, təbii ki, regionun iqtisadi inkişafı da daha sürətlə gedər. Onlar bu işğal siyasəti ilə nəyə nail oldular? Mən sizə deyə bilərəm, bunun nəticəsi necə oldu. Yəni, Ermənistan əhalisinin yarısı ölkəni tərk edibdir. Dağlıq Qarabağın əhalisinin yarısı da həmin ərazilərdən gedibdir. Onların gələcək üçün, öz tələbatlarını ödəmək imkanı üçün bir perspektivi yoxdur. Onlar diasporun köməyi, yaxud da digər ölkələrin yardımı ilə yaşamalıdırlar. Ona görə əgər ermənilər istəyirlərsə ki, Dağlıq Qarabağ məsələsi həll olunsun, onlar buna razılaşmalıdırlar. Bizim təklif etdiyimiz mövqe konstruktivdir. Bu, ATƏT-in Minsk qrupu tərəfindən dəstəklənir, onlar bu məsələ ilə məşğul olur və bu, regiona sülh gətirə bilər.

Ətraf mühitlə bağlı vəziyyətə gəldikdə, biz bunun üzərində işləyirik. Bilirsiniz, bizə Sovet İttifaqından çox mənfi bir miras qalmışdır. Ümumiyyətlə, o vaxt dünyada ekologi-

ya haqqında olan anlayış, belə bir məfhum bizdə yox idi. Biz sadəcə, təbii resurslardan istifadə edirdik. Məqsəd o idi ki, dayanmadan istehsal edək. Heç kim diqqət yetirmirdi ki, təbiətin vəziyyəti necədir. İndi Bakıda, Abşeron yarımadasında neftlə çirklənmiş bir çox göllər var. Azərbaycanın digər yerlərində ətraf mühitlə bağlı vəziyyət çox yaxşıdır. Göllərimiz, çaylarımız və dağlarımız yaxşı vəziyyətdədir.

O ki qaldı Bakının özünün rayonları, onlar neft hasilatı ilə əlaqədar çətin vəziyyətə düşübdür. Ona görə bizim ekoloji proqramımız qəbul edilibdir. Bu, mənim tərəfimdən, Prezident Sərəncamı əsasında qəbul olunmuşdur. Biz bu proqram çərçivəsində gələn 5-10 il ərzində yüz milyonlarla dollar sərf edərək, Bakı ətrafında və digər yerlərdə neftlə çirklənmiş gölləri tamamilə təmizləyəcəyik və öz təbiətimizə onun gözəlliyini qaytaracağıq. Bu proqramı başladıqdan dərhal sonra Dünya Bankı bizimlə birgə işləməyə gəldi. Biz öz iradəmizi nümayiş etdirdik ki, vəsaitlərimizdən istifadə edəcəyik. Bizim digər yardıma ehtiyacımız yoxdur. Bu, bizim əhalimiz üçün, həyatın yaxşılaşması üçün vacibdir. Biz ekoloji təşkilatlarla da işləyirik. Xüsusən, biz Zukkov Fondu ilə çalışırıq. Mən bu gün Mixael Zukkovla görüşdüm. Onlar ölkəmizə, iqtisadi inkişafa böyük töhfə verirlər.

Sonuncu sual Xəzərdən Şərqdəki ölkələr ilə münasibətlərə aid idi. Bizim Qazaxıstanla çox yaxşı əlaqələrimiz var. Hökumətlərarası saziş imzalamışıq ki, Azərbaycan ərazisi ilə Qazaxıstan neftini Aralıq dənizinə daşıyaq. Digər ümumi layihələrimiz də var. Biz indi artıq Azərbaycanda olduqca müasir boru kəməri infrastrukturu yaratmışıq. Bunun vasitəsilə Xəzərin Şərqindən böyük miqdarda neft daşına bilər. Bilirəm ki, Qazaxıstan artıq liman qurğularının genişləndirilməsinə sərmayə qoyur. Eyni işlər Azərbaycanda da aparılır və ola bilsin ki, 2-3 il ərzində, bəlkə də bundan əvvəl, Qazaxıstan neftı bizim ərazimizlə daşınacaqdır. Bizim boru kəməri gündə 1 milyon barrel neftin daşınması üçün nəzərdə tutulubdur. Amma biz onun gücünü artırmağa nail ola bilərik ki, bu da gündə 1,8 milyon barrel neftin daşınmasına imkan yaradar.

ANDREAS ŞOPENHOFF (aparıcı): Çox sağ olun cənab Prezident. İndi isə biz yenə suallara keçəcəyik. Dörd sual var:

-Hörmətli cənab Prezident, mən bir sual vermək istəyirəm, Siz burada qeyd etdiniz ki, Azərbaycan bir sıra strateji qlobal enerji layihələrini həyata keçirir. Bu, Xəzər regionuna və onun ətrafına aiddir. "Nabukko" layihəsi barədə nə deyə bilərsiniz? Bu layihə ilə bağlı Sizin mülahizələriniz necədir? Çox sağ olun.

-Cənab Prezident, mənim adım İvansdır, həkiməm, klinikada çalışıram. Mən bir neçə dəfə Bakıda olmuşam. Çox sağ olun ki, Siz Azərbaycandakı vəziyyəti gözəl təsvir etdiniz. Biz bilirik ki, Siz səhiyyə sistemini də inkişaf etdirmək istəyirsiniz. Bu istiqamətdə ideyalarımız necədir? Bəzi şərhlərinizi eşitmək istərdik ki, Siz təkcə Bakıda deyil, həm də ölkənin digər bölgələrində səhiyyə sistemini hansı şəkildə dəstək verirsiniz? Sağ olun.

-Cənab Prezident, mənim adım Konerusdur, Fondu təmsil edirəm. Siz, ümumiyyətlə, öz çıxışınızda Rusiyanı qeyd etmədiniz. Bu ölkəyə aid strategiyanız haqqında nə deyə bilərsiniz? Xüsusən də Prezident Vladimir Putin bu yaxınlarda aydın, lakin qeyri-diplomatik çıxış etmişdir. Bu, Rusiyanın gələn illər ərzində planları ilə bağlı idi. Sağ olun.

-Mənim adım Fariz Qasımlıdır. Berlin Universitetinin tələbəsiyəm. Hörmətli cənab Prezident, geniş çıxışınıza görə çox sağ olun. Mənim sualım Azərbaycanın bu yaxınlarda yeni regional Bakı-Tbilisi-Qars dəmir yolunun çəkilməsi sahəsində əldə etdiyi uğurla bağlıdır. Bu, Azərbaycan diplomatiyasının böyük qələbəsi idi. Sizin fikrinizcə, bu layihə yaxın perspektivdə Dağlıq Qarabağ münaqişəsinin mümkün həllinə necə təsir göstərə bilər? Siz bəzi erməni dairələrinin bu layihəyə müqavimət göstərilməsi barədə fikirlərinə necə yanaşırsınız?

-Biz enerji inkişafımızın başlanğıc mərhələsində olan zaman, xüsusən də neft və qaz nəqli əməliyyatlarından söhbət gedirdik. Avropada qaz bazarının tamamilə başqa vəziyyətdə olduğunu anlayırdıq. Təbii ki, əsas diqqətimizi məhz öz ölkəmizin qaza olan tələbatının ödənilməsinə yönəltmişdik və Gürcüstan, Türkiyəyə də qaz göndərməyi planlaşdırırdıq. Yəni bu işə başlayanda bizim təbii qazımızın üç bazarı var idi. İşlərimizi bu günə qədər davam etdirirdik. İndi isə Avropada əlavə qaz mənbələrinə ehtiyac duyulduğunu hiss etdik. Belə bir halda, özümüzü bu yeni vəziyyətə uyğunlaşdırmaq məcburiyyəti qarşısında olduq. İndi biz hasil etdiyimiz həcmi daha da artırmalıyıq. Çünki neft bazarından fərqli olaraq, qaz bazarında ilk növbədə, istehlakçı olmalıdır. Siz sadəcə, qazı tankerə vurub bazara çıxara bilməzsiniz. Lazımdır ki, istehlakçı olsun. Biz bu prosesi başladıq.

Qaz kəmərinə başlayanda Türkiyədən o tərəfə istehlakçılar yox idi. İndi isə biz görürük ki, tələbat artır və hətta hasilat həcmimizlə müqayisədə tələbat daha çoxdur. Əgər xarici şirkətlər mart ayında qaz hasilatını artıracaqsa, Azərbaycanın Dövlət Neft Şirkəti də ilyarım ərzində öz hasilatını iki dəfə artıracaqdır. Çünki tələbat da artır. "Nabukko" kimi layihələr uzun illər ərzində yaxşı bir layihə kimi müzakirə olunurdu. Amma indi həyata keçirilə bilər. Azərbaycan qazı üçün, eyni zamanda, digər ölkələr tərəfindən təchizat üçün yaxşı bir variant ola bilər. Biz artıq kifayət qədər qaz infrastrukturu yaratmışıq və bu da prosesin gedişində rol oynayacaqdır. Biz öz infrastrukturumuzu digər ölkələrin də istifadəsinə verməyə hazırıq. Azərbaycan Enerji Xartiyasını imzalamışdır və bizim daşınma sistemi istifadədə ola bilər.

Azərbaycanın tibb sahəsi təkmilləşir. Bu, ən təcili sahələrdən biridir ki, biz burada gözəçarpan, sürətli inkişafa nail olmalıyıq. Biz, əsasən, rayonlarımızda tibb müəssisələrinin sayını artırırıq, bir çox tibb mərkəzləri açırıq. İki şəhərdə – Naxçıvan və Lənkəranda artıq açılmışdır. Orada artıq açıq ürək üzərində cərrahiyyə əməliyyatı da aparılmışdır. Bu əməliyyat Azərbaycan vətəndaşı üzərində aparılmışdı. Bu tibb mərkəzlərinin sayı 2007-ci il ərzində də artacaqdır. Azərbaycanda onlarca yeni xəstəxana tikiləcəkdir. Biz bu sahəyə çox sərmayə yatırırıq. Eyni zamanda, təlim kursları təşkil edirik ki, həkimlər daha yaxşı imkanlara, biliklərə malik olsunlar. Tibbi xidmətlərin keyfiyyətini də artırırıq. Təcili tibbi yardıma da sərmayəni artırırıq ki, bizim vətəndaşlarımıza dərhal tibbi yardım göstərilsin. Ümid edirəm ki, gələn üç-beş il ərzində Azərbaycanda əsas tibbi xidmətlər məsələsi öz həllini tapacaqdır.

Rusiya məsələsinə gəldikdə, – mən ötən il Bertelsmann Forumunda çıxış edəndə də eyni sualı vermişdilər ki, nəyə görə Rusiyanı qeyd etmədim, – bəlkə, bu ona görədir ki, mən Azərbaycanın Prezidentiyəm. Ona görə Azərbaycan haqqında danışıram. Lakin Rusiya ilə ikitərəfli münasibətlərə gəldikdə, onlar müsbətdir. Biz müxtəlif sahələrdə

işləyirik, qonşuyuq və birgə iqtisadi maraqlarımız vardır. Bizim qonşuluq əlaqələrimiz çox yaxşı ruhda inkişaf edir və keçmişdə gərginlik mənbəyi olan məsələlərin hamısı öz həllini tapıbdır. Məsələn, Xəzər dənizinin sektorlara bölünməsi məsələsi. Rusiya ilə müxtəlif sahələrdə, enerji sahəsində, hərbi sahədə əməkdaşlıq aparılır. Ona görə Rusiya ilə ikitərəfli əlaqələrimiz normaldır və bu, çox yaxşıdır. Bizim, adətən, bütün qonşularımızla yaxşı əlaqələrimiz var, bu, müsbət amildir. Bunun hamısı əvvəlcədən razılaşdırıla bilən, normal əlaqələr üçün vacibdir və eyni zamanda, qarşılıqlı maraqlara xidmət edir, qarşılıqlı hörmətə əsaslanır. Təbii ki, bir-birinin işlərinə müdaxilə etməmək prinsipinə arxalanır. Bunlar çox müsbətdir.

Ola bilsin ki, 1990-cı illərdə, keçmiş Sovet İttifaqı dağıldıqdan sonra ikitərəfli əlaqələrimiz daha pis idi. İndi isə, 2007-ci ildə mən bunu demərəm. Çünki mən deyə bilərəm ki, bütün məsələləri həll etdik. İndi biz yaxşı ruhda əməkdaşlıq edirik.

Bakı-Tbilisi-Qars çox yaxşı nəqliyyat layihəsidir və bu, Asiya ilə Avropanı birləşdirə bilər. Azərbaycan dəmir yolu vasitəsilə Türkiyəyə çıxış əldə edəcəkdir. Bunu nəzərə alsaq ki, hazırda Türkiyə də Bosfor boğazının altından tunelin çəkilməsi ilə məşğuldur, bu, Avropaya birbaşa çıxış deməkdir. Bu, bizim üçün Xəzər dənizi vasitəsilə Qazaxıstan və Çinə də yeni çıxışı təmin edir. Bu, yeni dəhlizdir və Azərbaycan da bu layihənin sponsoru kimi çıxış edir. Biz artıq Gürcüstana çox güzəştli kredit verdik. Bu, illik cəmi bir faizlə 25 il müddətinə nəzərdə tutulur. Söhbət 200 milyon ABŞ dollarından gedir ki, Gürcüstan öz ərazisində bu işləri maliyyələşdirsin.

Ermənistan lobbisi tərəfindən Birləşmiş Ştatlarda bəzi səylər göstərilirdi və ermənipərəst konqresmenlər də belə bir addım atdılar ki, layihəyə Amerikanın birbaşa yardımı dayandırılsın. Amma bəxtimizdən, biz bu gün elə bir inkişaf mərhələsindəyik ki, heç bir köməyə ehtiyacımız yoxdur. Əksinə, biz Gürcüstana öz yardımımızı göstəririk. Lakin, eyni zamanda, hamı onu anlamalıdır ki, Ermənistan artıq sonuncu qatarı əldən buraxdı. Onlar Bakı-Tbilisi-Ceyhandan məhrum oldular, Cənubi Qafqaz boru kəmərindən kənarda qaldılar. İndi isə dəmir yolu xəttindən kənarda qalırlar.

Bir sözlə, onlar tam mənada bütün regional əməkdaşlıqdan kənarda qaldılar. Regional əməkdaşlıq isə möhkəmlənir, Gürcüstan, Türkiyə, Azərbaycan, Mərkəzi Asiya, Avropa enerji və nəqliyyat dəhlizlərinə malikdirlər. Əlbəttə, bu, bütün münaqişələrin həllində müsbət rol oynayacaqdır. Çünki biz gücləndikcə, yəni siz güclü olanda daha çox uğurlar əldə edə biləcəksiniz.

Bu, sonuncu suala cavab idi. Sağ olun.

ANDREAS ŞOPENHOFF: Üzr istəyirəm, biz bütün suallara vaxt ayıra bilməyəcəyik. Ona görə əlavə dörd sual verilə bilər.

-Sizin ölkənizin çox böyük iqtisadi gücü var. Ölkənizə xaricdən gələn qaçqınlara, milli azlıqlara yardım edirsinizmi? Mən öz yerlərindən didərgin düşmüş məsxeti, axıska türklərini, krım tatarlarını nəzərdə tuturam. Sualım belədir, Siz onların problemlərinə necə yanaşırsınız?

-Mənim adım Hanno Masnerdir. Hagen Universitetinin tələbəsiyəm. Ölkəniz İranla qonşuluqda yerləşir. Şimal-qərbi İranda çox sayda azərbaycanlı yaşayır. Məni onların mədəni, siyasi və dil məsələləri maraqlandırır. Bu baxımdan Sizin ölkə həmin məsələ-

lərin həlli üçün nə edə bilər? Məsələn, sərhədlərdən sərbəst keçid və iqtisadi, siyasi, mədəni hüquqlar. Çox sağ olun.

-Cənab Prezident, mənim adım Kones Yaardır. Siz öz iqtisadi və enerji qüdrətiniz sayəsində artıq dünyada böyük potensiala maliksiniz. Mən bilmək istəyirəm, Siz bu gücdən Dağlıq Qarabağ probleminin həlli üçün niyə istifadə etmirsiniz? Xahiş edirik, bu haqda bizə bir az məlumat verəsiniz.

-Cənab Prezident, dəqiq və gözəl çıxışınıza görə təşəkkür edirəm. Siz Azərbaycandakı inkişaf və nailiyyətlərdən söhbət açdınız. İnkişaf və tərəqqi yolu ilə gedən ölkədə güclü müxalifətin olması da vacibdir. Sizin fikrinizcə, güclü müxalifətin formalaşması üçün nə etmək lazımdır? Siz bu müxalifəti necə görürsünüz? Əgər mümkündürsə, Sizdən bu məsələyə dair öz şərhlərinizi bildirməyi xahiş edirik. Çox sağ olun.

İLHAM ƏLİYEV: Biz keçmişdə beynəlxalq təşkilatlardan bir çox yardım almışdıq ki, öz qaçqınlarımız və məcburi köçkünlərimizə dəstək verək. Hesab edirik, indi, biz maliyyə baxımından daha da gücləndikdə, Azərbaycan bu məsələdə hətta donora çevrilə bilər və özü maliyyə yardımı göstərə bilər.

O ki qaldı azlıqlara, siz burada suallarınızda onu qeyd etdiniz, bilirsiniz, siyasətimizin ən vacib elementi ondan ibarətdir ki, biz digər ölkələrin daxili işlərinə qarışmırıq. Hər bir ölkənin özünün problemləri var. Əgər bizdən xahiş etsələr, məsləhət verə bilərik. Əgər bizdən soruşmurlarsa, digər ölkələrin daxili vəziyyətinə müdaxilə etmirik. Bu, olduqca vacibdir. Ümumiyyətlə, bütün dünyada digərlərinin işlərinə heç bir müdaxilə addımları olmasa, hesab edirəm, onda dünya daha təhlükəsiz şəraitdə yaşaya bilər.

O ki qaldı İranda böyük sayda azərbaycanlının yaşamasına, onu sizə deyə bilərəm ki, onlar bu gün İran cəmiyyətinin bütün sahələrində təmsil edilmişlər. Mədəniyyət, siyasi sahələrdə çalışırlar, parlament üzvləri var, rəsmilər arasında Azərbaycan mənşəli şəxslər var. İranda yaşayan azərbaycanlılarla çox güclü mədəni əlaqələr mövcuddur. Biz vahid bir millətik, hamımız azərbaycanlıyıq, eyni dildə danışırıq və biz qardaşıq. Ona görə onların gələcəyi, təbii ki, bizi maraqlandırır. Bizim çox güclü münasibətlərimiz var, oraya səfərlər edirik, hər iki tərəfdə qohumlar var, bir-birimizi görürük. Ümumiyyətlə, bu, İranla ikitərəfli münasibətlərimizin vacib elementidir.

Burada, eyni zamanda, belə sual oldu, dediniz ki, Azərbaycan öz qüdrətindən nəyə görə Dağlıq Qarabağ probleminin həlli üçün istifadə etmir? Səmimi deyim ki, mən bunu, belə bir sualı Avropada eşidəcəyimi gözləmirdim. Çünki Avropada biz, adətən, başqa yanaşmaları eşidirik ki, biz məsələni sülh yolu ilə həll edək. Amma mən bu sualı anlaya bilərəm. Mənim özüm və Azərbaycanda bir çoxları hər zaman özümüz-özümüzdən soruşuruq, bu problemin həllini nə qədər gözləməliyik, bu ədalətsizliyə nə qədər dözməliyik, Azərbaycan xalqı işğal altında nə qədər yaşayacaq? Bilirsiniz, bu suala cavab hər zaman eynidir. Biz daimi gözləyə bilmərik. Biz əlavə on il gözləyə bilmərik. Sadəcə, Ermənistan rəhbərliyinin müdrikliyinə bel bağlaya bilmərik. Əgər onlar Ermənistan xalqının gələcəyi haqqında düşünmək istəmirlərsə, gələcəkdə nəyin baş verəcəyi haqqında düşünmürlərsə və əgər münaqişənin yenidən başlanması təhlükəsi haqqında düşünmürlərsə, onda məsuliyyət tamamilə onların üzərinə düşəcəkdir. Biz səbrimizi çox nümayiş etdirdik, konstruktiv mövqeyimizi nümayiş etdirdik.

Biz yenə də çalışırıq ki, bu məsələni sülh yolu ilə həll edək. Ancaq nə vaxt hesab etsək ki, sülh imkanları tükənib, biz siyasətimizi dərhal dəyişəcəyik. Biz diplomatik səyləri göstərmişik. Birləşmiş Millətlər Təşkilatında bu prosesi başlamışıq. Orada GUAM ölkələri tərəfindən keçmiş Sovet İttifaqı məkanında dondurulmuş münaqişələr məsələsi müzakirəyə çıxarıldı. İndi bu, Birləşmiş Millətlər Təşkilatının gündəliyindədir.

Biz bu məsələni Avropa Şurasında qaldırdıq. Artıq qeyd etdim ki, 2005-ci ildə Avropa Şurası qətnamə qəbul etdi və orada Ermənistanı təcavüzkar kimi pislədi. 1990-cı illərin əvvəllərində Birləşmiş Millətlər Təşkilatının Təhlükəsizlik Şurası dörd qətnamə qəbul edibdir. Eyni zamanda, biz ATƏT-in Minsk qrupu ilə işləyirik ki, məsələni dinc yolla həll edək. İndi Avropa İttifaqının Cənubi Qafqazda xüsusi nümayəndəsi var, onunla da işləyirik. Yəni bu, bizim müzakirələrimizin əsas mövzusudur. Bir sözlə, bütün mümkün vasitələrdən istifadə etmək istəyirik. Sonda isə biz öz qarşımızda üzüağ olmaq istəyirik. Bəli, demək istəyirik ki, biz məsələnin dinc yolla həlli üçün hər şeyi etdik, lakin bu, baş vermədi.

Lakin, eyni zamanda, biz hərbi potensialımızı möhkəmləndiririk. Bu sirr deyil, cəmiyyətə bildirilir. Biz son 3-4 il ərzində öz hərbi büdcəmizi təxminən 10 dəfə artırmışıq. Bu gün Azərbaycanın hərbi büdcəsinin həcmi 1 milyard ABŞ dollarıdır. Bu da bütün Ermənistanın büdcəsinə bərabərdir. Biz bunu gələcəkdə daha da artıracağıq, yenə də artıracağıq. Biz Müdafiə Sənayesi Nazirliyi yaratmışıq. Gələcəkdə ölkəmiz üçün, Azərbaycana tələb olunan malları istehsal edə biləcəyik.

Burada güclü müxalifətin olması ilə bağlı sual verildi. Mən bununla razıyam, bizim sözün əsl mənasında güclü müxalifətə ehtiyacımız var. Amma bizim günahımız deyil ki, bu sahədə bəxtimiz gətirməyibdir. Mən bu məsələdə kömək edə bilmərəm. Bu, mənim imkanlarımdan kənardadır. Prezidentlər bir çox işləri görə bilər, lakin müxalifəti gücləndirmək, bu, prezidentlərin səlahiyyətlərindən kənardadır.

Amma ciddi danışsaq, mən hesab edirəm ki, müxalifətin daha da güclənməsi üçün, onların siyasi işlərdə rolunun artması üçün dəyişikliklər lazımdır. Çünki cəmiyyət dəyişir, insanlar dəyişir, biz də dəyişirik. Azərbaycanda yeni prezident seçilibdir və üç ildir fəaliyyət göstərir. Lakin siz görərsiniz ki, həmin insanlar, müxalifətçilər arasında 15 il bundan əvvəlki eyni şəxslər dayanır.

Onlar eyni məsələlər haqqında düşünürlər. Bütün seçkiləri – 1993-cü ildə, 1998-ci ildə, 2003-cü ildə prezident seçkilərini, 1995-ci ildə, 2000-ci ildə və 2005-ci ildə parlament seçkilərini uduzdular, böyük fərqlə uduzdular. Həmin seçkilərdə siyasi partiyaların rəhbərləri uğursuzluğa düçar oldular. Belə olan halda rəhbərlər istefa verməli, yeni nəsil üçün yollar açmalıdırlar. Azərbaycan cəmiyyətində bir çox istedadlı şəxslər var ki, onlar mütləq şəkildə hökumətin fikrini bölüşmürlər. Amma onlar həmin ənənəvi müxalifətçilər tərəfindən hər hansı imkandan məhrumdurlar, onlara dəstək verilmir.

Ona görə mən də müxalifətə məsləhət görərdim ki, əgər güclənmək istəyirsə, dəyişsin, xüsusən də rəhbərləri dəyişsin. Siyasi baxımdan mənim üçün daha asandır ki, növbəti seçkilərdə bir siyasətçi kimi elə mövcud müxalifət liderləri ilə rəqabətə çıxım. Amma bir dövlət xadimi, Prezident kimi istərdim ki, Azərbaycanda normal siyasi sistem olsun. Səmimi desək, normal siyasi sistem hələ yoxdur. Amma bu, bizim günahımız deyildir. Bəzi sahələr var ki, onlar yüz faiz bizdən asılıdır. Siyasi, iqtisadi, xarici işlər, sosial mə-

sələlər, Avratlantik strukturlara inteqrasiya – bunlarda hökumət yüz faizlik uğur əldə edibdir. Lakin siyasi sistem məsələsinə gəldikdə, nisbət əlli-əlliyədir.

Yeri gəlmişkən, sizə maraqlı bir məsələni söyləyim, o, bu suala cavabdır. Bir neçə ay bundan əvvəl hesab edirdik ki, müxalifət tamamilə ruhdan düşüb və artıq yoxa çıxmaq üzrədir. Mən bir görüş zamanı ictimaiyyətin qarşısında müraciət etdim ki, hökumətlə müxalifət arasında dialoq təşkil olunsun. Mən bunu bilərəkdən etmək fikrində deyildim. Çünki hətta cəmiyyətin özünün də yadından çıxmışdır ki, müxalifət var, ya yox. Lakin mən hesab edirdim, onlara şans verilməsi vacib idi ki, oyansınlar. Bilirsiniz nə baş verdi? Bəziləri, hansılar ki, deyirdilər gəlin hökumətlə, Prezidentlə dialoqa başlayaq, dərhal onların "keçmiş qvardiyası" tərəfindən satqın kimi təsvir olundular. Onlara deyildi ki, əgər siz hökumətlə danışsanız, müxalifətin satqınısınız, onun ideyalarının satqınısınız. Mən bilmirəm, ümumiyyətlə, müxalifətin hansı ideyaları var. Çünki bizim siyasi-iqtisadi gündəliyimiz ölkənin bütün tələbatlarını əhatə edir. Real vəziyyət bundan ibarətdir. Ona görə biz müxalifət məsələsində bir şey edə bilmərik. Amma sizə vəd edirəm ki, mən qayıdandan sonra çalışacağam ki, onları daha da stimullaşdırım.

ANDREAS ŞOPENHOFF: Cənab Prezident, təşəkkür edirəm.

Görüş zamanı səsləndirilmiş suallar onu göstərir ki, Almaniyada Azərbaycana böyük maraq var. İcazə verin, ölkənizi özünəməxsus formada təsvir etdiyinizə görə Sizə öz minnətdarlığımızı bildirək. Çıxışınız olduqca praqmatik oldu. Bu, işbirliyimizin, əməkdaşlığımızın genişləndirilməsinə və intensivləşdirilməsinə bir təkan idi. Söhbət, təkcə iqtisadi əməkdaşlıqdan getmir. Cənab Vilhelm Ştaudaxer giriş nitqində qeyd etdi ki, Konrad Adenauer Fondu öz fəaliyyətini regionda, xüsusilə də Sizin ölkənizdə intensivləşdirəcəkdir. Mənə elə gəlir, bu çox perspektivli bir siyasi fəaliyyət olacaqdır. Ölkənizin iqtisadi potensialı göstərir ki, Siz bizim çox etibarlı siyasi tərəfdaşımızsınız. Bizimlə qonşu olduğunuzu bir daha deməyə ehtiyac yoxdur. Çünki bu, artıq hamıya bəllidir.

Cənab Prezident, bir daha çox sağ olun.

Vilhelm Ştaudaxerin xahişi ilə Sizi Konrad Adenauer Fondu adından təşkil olunan qəbulda fikir mübadiləsini davam etdirməyə dəvət edirik.

Cənab Prezident, Siz artıq ikinci dəfədir ki, Almaniyaya rəsmi səfər edirsiniz. Arzu edirik ki, bu cür görüşlərimiz gələcəkdə daha da çox olsun.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN ALMANİYADA FƏALİYYƏT GÖSTƏRƏN AZƏRBAYCAN CƏMİYYƏTLƏRİNİN SƏDRLƏRİ İLƏ GÖRÜŞÜ

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev fevralın 15-də "Adlon Kempinski" mehmanxanasında Almaniyada fəaliyyət göstərən Azərbaycan cəmiyyətlərinin sədrləri ilə görüşmüşdür. Salona toplaşanlar dövlətimizin başçısını hərarətlə qarşıladılar.

Prezident İlham Əliyev görüşü giriş nitqi ilə açdı.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN GİRİŞ NİTQİ

- Əziz dostlar!

Mən sizin hamınızı ürəkdən salamlayıram. Artıq iki gündür ki, Berlindəyəm və mənim bütün görüşlərim çox yaxşı, çox uğurlu keçir. Bu səfər bir daha onu göstərir ki, Almaniya-Azərbaycan münasibətləri çox sürətlə inkişaf edir. Bu, son iki il yarım ərzində mənim Almaniyaya ikinci rəsmi səfərimdir və özlüyündə göstərir ki, bizim əlaqələrimiz nə qədər zəngindir. Həm siyasi, həm iqtisadi, həm də mədəni sahələrdə əməkdaşlığımız çox gözəl nəticələrini verməkdədir. Almaniya bizim üçün çox önəmli ölkədir, çox vacib tərəfdaşdır. Həm ikitərəfli müstəvidə, həm də Avropa İttifaqı-Azərbaycan münasibətləri çərçivələrində bizim əməkdaşlığımızın böyük əhəmiyyəti var.

Bildiyiniz kimi, Azərbaycan Avropa İttifaqına inteqrasiya siyasətini uğurla davam etdirir. Biz artıq Avropa İttifaqı üçün qonşu ölkə olmuşuq və əminəm ki, beş il müddətinə nəzərdə tutulan birgə fəaliyyət planı çərçivəsində biz Avropaya daha da yaxın olacağıq. Bununla bərabər, Azərbaycanın zəngin neft-qaz ehtiyatları da Avropa və dünya bazarlarına çatdırılacaqdır. Bu məsələləri tənzimləmək üçün keçən ilin noyabr ayında Avropa İttifaqı ilə Azərbaycan arasında enerji sahəsində strateji tərəfdaşlığa dair memorandum imzalanmışdır. Bütün bunlar həm ölkənin əhəmiyyətini artırır, həm də bizim siyasətimizi əks etdirir və bütünlükdə bizim bölgədə yeni vəziyyətin yaradılmasına gətirib çıxarır.

Artıq heç kim üçün sirr deyil ki, Azərbaycan bölgənin lider dövlətidir. Biz bu liderliyi qazanmışıq. Bizim uğurlu siyasətimiz ölkəni möhkəmləndirir, eyni zamanda, regionda gedən proseslərə də müsbət təsir göstərir. Biz regional layihələrin icrası ilə böyük uğurlar əldə etmişik. Həm energetika, həm də nəqliyyat sahəsində, bütün başqa sahələrdə regional müstəvidə biz çox önəmli təşəbbüslərin həyata keçirilməsində uğurlu siyasət aparmışıq. Bütün bunlar Azərbaycanı Avropa ilə daha da birləşdirəcəkdir. Bu, bizim seçimimizdir, bizim siyasətimizdir və Avropaya inteqrasiya siyasətimizdir. Hərtərəfli əməkdaşlıq Azərbaycanın milli maraqlarına uyğundur.

Bizim ölkəmiz müstəqil siyasət aparır. Azərbaycan xalqının iradəsi bizim üçün əsasdır. Əlbəttə ki, Azərbaycanın hərtərəfli inkişafı, müasirləşməsi hər bir vətəndaşın həyatında öz müsbət təsirini göstərəcəkdir. Biz zəngin ölkəyə çevrilirik. Azərbaycanın iqtisadi inkişafı dünyada heç bir analoqu olmayan sürətlə gedir. Keçən il 34,5 faiz iqtisadi artım olubdur. Son üç il ərzində yoxsulluğun səviyyəsi kəskin şəkildə azalmış, 49 faizdən 20 faizə düşübdür. Əminəm ki, 2007-ci ilin yekunlarına görə yoxsulluq daha da aşağı düşəcəkdir. Məqsəd də ondan ibarətdir ki, Azərbaycanda nə yoxsul, nə də işsiz olsun və ölkə əhalisi yaxşı yaşasın. Bunu etmək üçün cəsarətli və ölkəmiz üçün lazım olan iqtisadi islahatlar aparılmalıdır və aparılır. Eyni zamanda, siyasi islahatlar da aparılmalıdır. Avropa İttifaqı ilə bizim birgə fəaliyyət proqramımızda məhz siyasi islahatlar da nəzərdə tutulur. Azərbaycanda demokratikləşmə proseslərinin sürətləndirilməsi, insan haqlarının qorunması işində də böyük addımlar atılıb və bundan sonra da atılacaqdır.

Bir sözlə, müasir, iqtisadi cəhətdən özünü təmin edən, regional proseslərə təsir göstərən ölkə və açıq cəmiyyət – budur, Azərbaycanın gələcəyi. Artıq siyasətimizin nəticələri də göstərir ki, biz bu istiqamətdə böyük irəliləyişə nail ola bilmişik. Bütün bu işlərdə xaricdə yaşayan azərbaycanlıların da əməyi çox əhəmiyyətlidir və dəyərlidir, onların bu işlərdə böyük rolu var. Biz çox istəyirik ki, dünyada yaşayan bütün azərbaycanlılar birləşsinlər. Həm yaşadıqları ölkələrdə onların vəziyyəti yaxşı olsun, həm də onlar öz fəaliyyəti ilə müstəqil Azərbaycanın möhkəmlənməsində fəal rol oynasınlar. Bu baxımdan dünya azərbaycanlılarının qurultayları böyük əhəmiyyət kəsb edir. Son dəfə biz Bakıda qurultaya yığışanda və çox geniş fikir mübadiləsi aparılanda gördük ki, fəaliyyət üçün nə qədər böyük imkanlar var, Azərbaycanın imkanları nə qədər artır. Artıq Azərbaycan o ölkədir ki, öz soydaşlarını, istənilən yerdə yaşayan soydaşlarını müdafiə etmək, onlara kömək göstərmək və arxa durmaq iqtidarındadır.

Sovet İttifaqı dağılanda biz həm iqtisadi, həm də siyasi cəhətdən çox ağır vəziyyətdə idik. Biz hamımız bunu yaxşı xatırlayırıq. Faktiki olaraq, ölkənin gələcəyi şübhə altında idi. İqtisadi və siyasi böhran Azərbaycanı çox ağır vəziyyətə salmışdı. Ancaq cəmi 15 il keçibdir. Baxın, bu 15 il ərzində cəmiyyəti narahat edən bütün problemlər aradan qaldırıldı. Azərbaycanda siyasi sistem yarandı. Azərbaycanın tarixində heç vaxt siyasi sistem olmamışdır. Azərbaycanda bazar iqtisadiyyatı prinsipləri tətbiq olundu. 1991-ci ildə Azərbaycanda özəl sektor sıfır idi. Bu gün ölkə iqtisadiyyatında özəl sektorun çəkisi 81 faizdir. Böyük neft-qaz kəmərləri, Bakı-Tbilisi-Qars dəmir yolu layihəsi – bütün bunlar ölkəmizi möhkəmləndirir. Belə olan halda, əlbəttə, Azərbaycan dövləti, güclü dövlət öz soydaşlarına daha da böyük diqqət göstərməlidir və göstərir. Siz də bunu bilməlisiniz.

Mən istəyirəm ki, xaricdəki hər bir azərbaycanlı yaşadığı ölkədə özünü rahat hiss etsin, yaxşı yaşasın. Eyni zamanda, bilsin ki, onun tarixi vətəni, onun dövləti qüdrətli dövlətdir. Bax, biz bütün səyləri bu istiqamətə yönəldirik. Sirr deyil ki, xaricdə yaşayan azərbaycanlılar da bizim vətənimiz üçün dayaq, arxadır. Yəqin, siz də bilirsiniz ki, biz xaricdə öz diplomatik nümayəndəliklərimizi də yaradırıq, onların sayını artırırıq. Artıq 50 ölkədə Azərbaycanın səfirliyi fəaliyyətə başlayıb, yaxud başlayacaqdır. Avropanın, demək olar ki, bütün ölkələrində Azərbaycanın səfirlikləri yaradılır. Bunlar həmin ölkələrdə yaşayan azərbaycanlılar üçün də doğma evdir. Biz ondan sonra mədəniyyət evlərinin yaradılmasına başlamalıyıq. Bu işdə xaricdə yaşayan azərbaycanlılar da iştirak etməlidirlər. Azərbaycan dövləti bu işi öz üzərinə götürməlidir, indi bizim maddi imkanlarımız var.

Bizim çevik xarici siyasətimiz ölkəmizin möhkəmlənməsinə gətirib çıxarıbdır. Baxın, biz əhali, ərazi baxımından böyük ölkə deyilik. Amma biz dünyanın aparıcı ölkələri ilə bərabər şəraitdə, bərabər səviyyədə əməkdaşlıq edirik. Avropanın bütün ölkələri ilə, digər dövlətlərlə çox yaxın münasibətlərimiz var. Yəni Azərbaycan etibarlı bir tərəfdaş kimi artıq çox gözəl nüfuza malikdir. Biz çox istəyirik ki, beynəlxalq mövqelərimiz daha da möhkəmlənsin. Çünki bizi ən çox narahat edən problem hələ öz həllini tapmayıbdır. Ermənistanın işğalçı qüvvələri Azərbaycanın torpaqlarından hələ çıxarılmayıbdır. Baxmayaraq ki, biz bütün səyləri bu məsələnin həllinə yönəldirik və beynəlxalq təşkilatlar da bu məsələ ilə çox ciddi məşğul olur. Ona görə bu məsələni həll etmək üçün biz güclü olmalıyıq.

Bizim gücümüz hər bir azərbaycanlının gücüdür və Azərbaycan dövlətinin gücüdür. Bu, həm iqtisadi ölçülərlə müəyyən olunur və əlbəttə ki, burada siyasi məqamlar da az de-

yildir. Xaricdə yaşayan azərbaycanlılar bizim dayağımızdır. Xüsusilə müstəqilliyimizin ilk illərində buna daha çox ehtiyac duyulurdu, çünki gənc Azərbaycan Respublikasının ehtiyacları çox idi. İndi, bəlkə, o qədər də böyük ehtiyac yoxdur. Ona görə ki, artıq səfirliklər var. Ancaq səfirlik öz xətti ilə işləri görür. Diaspor, Azərbaycan təşkilatları isə bu işləri öz xətti ilə görür. Mən çox istəyirəm ki, bu fəaliyyət əlaqələndirilmiş şəkildə aparılsın. Azərbaycan cəmiyyətləri səfirliklə daim əlaqədə olsunlar və birgə fəaliyyət göstərsinlər. Çünki bizim məqsədimiz də, istəyimiz də birdir ki, ölkəmiz möhkəmlənsin. Hər bir vətənpərvər vətəndaş, insan bunu arzulayır. Biz öz tərəfimizdən bunu edirik. Ölkəmizin iqtisadi gücünü qaldırırıq, siyasi çəkisini artırırıq və deyə bilərəm ki, gənc, müstəqil dövlət olduğumuza baxmayaraq, biz özümüzü dünyaya artıq kifayət qədər təqdim edə bilmişik. Yəni, artıq bilirlər ki, Azərbaycan müstəqil ölkədir və öz siyasətini Azərbaycan xalqının maraqlarının ətrafında qurur. Əlbəttə, bu, bizim qarşımızda yeni imkanlar yaradır.

Xaricdə yaşayan hər bir azərbaycanlı bunu hiss edir, bilir. Əminəm ki, Azərbaycanın hansısa uğurlara nail olduğunu görəndə haqlı olaraq qürur hissi keçiririk.

Biz Bakı-Tbilisi-Ceyhan, Bakı-Tbilisi-Ərzurum transmilli layihələrini həyata keçirdik. Çox ağır şəraitdə, çətin geosiyasi durumda, təzyiqlərlə, müxtəlif başqa mancələrlə üzləşərək bunu edə, öz gücümüzü nümayiş etdirə bilmişik. İndi biz yeni layihə üzərində işləyirik. Bakı-Tbilisi-Qars dəmir yolu Azərbaycan vasitəsilə Avropanı Asiya ilə birləşdirəcəkdir. Bu nə deməkdir? Yəni, Azərbaycan artıq elə ölkəyə çevrilir ki, bizim iştirakımız olmadan heç bir regional layihə həyata keçirilə bilməz. Bu, nəyə gətirib çıxaracaq? Əlbəttə ki, iqtisadi məsələlərin həllinə. Büdcəmizə daha da çox pul gələcək və bizim siyasi çəkimiz artacaqdır. Belə olan halda, istənilən məsələ öz həllini tapa bilər.

Yəqin bilirsiniz, mən çalışıram ki, bütün xarici səfərlərdə Azərbaycan diasporunun nümayəndələri ilə görüşüm, onlara öz münasibətimi, dəstəyimi bildirim. Həmişə səfirliklərə də göstəriş verirəm ki, – bütün ölkələrdə Azərbaycan diasporları var, – daim əlaqədə olsunlar, kömək etsinlər, çətin anlarda həmişə əl uzatsınlar. İndi bizim buna imkanlarımız çatır, bunu etməliyik. Biz xaricdə yaşayan hər bir azərbaycanlını qorumalıyıq. Onun problemi olanda, ilk növbədə, səfirliyə müraciət etməlidir və bilməlidir ki, Azərbaycan dövləti onu darda qoymamalıdır.

Mənim sizə deyəcəyim əsas sözlər bunlardır. Bir daha deyə bilərəm ki, siz də Azərbaycanda olursunuz, vəziyyətlə də tanışsınız. Yəni, siz də ölkəmizdə gedən prosesləri izləyirsiniz, görürsünüz, Azərbaycanda olursunuz. Bizim ölkəmiz iqtisadi, siyasi cəhətdən və biznes mühitinə görə regionun mərkəzinə çevrilibdir. Mən çox istəyirəm ki, indi Azərbaycanda ən qabaqcıl texnologiyalar, xüsusilə təhsil, informasiya-kommunikasiya sahəsində texnologiyalar tətbiq olunsun. Biz artıq bu barədə dünyanın aparıcı şirkətləri ilə danışıqlar aparırıq.

Yəqin bilirsiniz ki, biz indi yeni proqram qəbul etmişik. Gənclərimizi xaricə göndərəcəyik ki, onlar Avropanın, dünyanın aparıcı təhsil ocaqlarında yaxşı təhsil alsınlar. Biz məktəblərdə internet sistemini yaradırıq. Nə üçün? Çünki bizim uşaqlarımız savadlı, bilikli olsunlar. Dünyanı bilik idarə edəcək və bu gün də belədir, gələcəkdə də belə olacaqdır. Biz buna hazır olmalıyıq. Bizim iqtisadi gücümüz var, təbii sərvətlərimiz var. Bu təbii sərvətləri Avropaya, dünyaya çatdırmaqla öz siyasi gücümüzü artırırıq. İndi bölgədə möhkəm mövqeyimiz var. Elə etməliyik ki, bizim insanlarımız savadlı, bilikli olsunlar, dünyaya açıq olsunlar, bilsinlər ki, nökər baş verir və inteqrasiya olunsunlar. Biz Avropa ilə daha çox inteqrasiya etməliyik. Mən inteqrasiya deyəndə, təkcə dövlət xətti ilə olan hansısa məsələləri nəzərdə tutmuram. Bu, öz yerində, bu, ümumi çərçivədir. Azərbaycan yeni qonşuluq siyasətinə dair sənəd imzalayıbdır. Orada kifayət qədər müxtəlif məqamlar var ki, beş il ərzində bizi Avropa ilə daha da sıx birləşdirəcəkdir. Amma inteqrasiya, eyni zamanda, fərdi qaydada da olmalıdır. Bunu etmək üçün Avropada, misal üçün, Almaniyada yaşayan azərbaycanlılar da çox fəal olmalıdırlar.

Vətənlə əlaqə daim olmalıdır. Bu, təbii bir prosesdir. Xüsusilə nəqliyyat problemləri də həll olunduğu indiki şəraitdə. İndi çoxlu yeni təyyarələr alınır. Azərbaycanın hava yolları şirkəti bölgənin aparıcı şirkətinə çevriləcək və müxtəlif istiqamətlərdə uçuşlar olacaqdır. Biznes marağı artır. Bu gün mənim Almaniyanın aparıcı şirkətlərinin rəhbərləri ilə də görüşüm olubdur. Sabah da biznes forumunda olacağam. Mən onları da Azərbaycana işləməyə sövq edirəm. Bütün bunlar iqtisadi əsaslarla idarə olunan məsələlərdir.

Əlbəttə, bütün bunlarla yanaşı, mənəvi əlaqələr də olmalıdır. Biz, azərbaycanlılar elə millətik ki, harada yaşamağımızdan asılı olmayaraq, istənilən yerdə öz milli ənənələrimizi qoruyuruq, saxlayırıq. Uşaqlarımızı milli ruhda böyüdürük. Əgər tarixə baxsaq görərik ki, əsrlər boyu müstəqillikdən məhrum olmuşuq, müxtəlif ölkələrin tərkibində yaşamışıq. Amma öz milli ənənələrimizi saxlamışıq. Nəyə görə, nəyin hesabına? İlk növbədə, ana dili. Bu, bizi millət kimi saxlayıbdır. İkinci tərəfdən, bizim ədəbiyyatımız, musiqimiz, mədəniyyətimiz. Bunlar olmasaydı, indi müstəqil ölkə kimi yaşamaq bizə çox çətin olardı. Bu, bizi bir millət kimi saxladı, qorudu. İndi isə biz müstəqilik. Hər bir xalq üçün bundan böyük xoşbəxtlik ola bilməz. Vətənlə əlaqələr, xüsusilə mənəvi əlaqələr olmalıdır. Bəlkə də bu, sizə daha çox lazımdır, nəinki hansısa başqa bir məsələ. Bunu təmin etmək üçün kifayət qədər imkanlar var və daha da çox olacaqdır. Biz indi bu sahəyə böyük diqqət göstəririk.

Müxtəlif ölkələrdə Azərbaycan günləri keçirəcəyik. Azərbaycanın mədəniyyət və incəsənət nümayəndələrinin səfərləri, rəssamların sərgiləri təşkil olunur və bunları genişləndirmək üçün əlavə tədbirlər görülür. Bu, həm xaricdə yaşayan azərbaycanlılar üçün lazımdır ki, mənəvi bağlılıq itməsin. Həm də ölkəmizi təqdim etməliyik. Bəzi hallarda Avropada bilmirlər ki, Azərbaycanda hansı proseslər gedir. Yaxud da buraya yanlış məlumat ötürülür. Amma Azərbaycana gələndə, vəziyyətlə tanış olanda görürlər ki, bu, tamamilə başqa bir mənzərədir. Güclü iqtisadiyyat, açıq cəmiyyət, dözümlü insanlar, ən yüksək səviyyədə tolerantlıq var, bütün xalqlar, bütün dinlərin nümayəndələri bir ailə kimi yaşayırlar. Ölkəmizi daha çox təqdim etməliyik, onu təbliğ etməliyik ki, bizi olduğu kimi tanısınlar.

Mən çox danışa bilərəm. Çünki bu görüş mənim üçün çox əhəmiyyətlidir. Bakıda və Azərbaycanın müxtəlif rayonlarında görüşlərim çox olur və onlar çox böyük əhəmiyyət kəsb edir. Amma sizinlə görüş tamamilə başqadır. Çünki siz vətəndən kənarda yaşayırsınız. Sizin üçün, yəqin ki, vətəndən gələn hər bir insanla görüşmək vacibdir. Mənim üçün də. Siz gözəl ölkədə yaşayırsınız, inkişaf etmiş ölkədə yaşayırsınız. Amma əminəm ki, sizin ürəyiniz Azərbaycandadır. Əminəm ki, siz bu fikirlərlə, duyğularla yaşayırsınız və çox istəyirsiniz ki, bizim ölkəmiz tərəqqi etsin, inkişaf etmiş ölkələrin sırası-

na daxil olsun. Biz də bunu edəcəyik. Çünki bizim intellektual potensialımız güclüdür.

Ölkənin çox düşünülmüş və məqsədyönlü inkişaf strategiyası var. Aparıcı dövlətlərlə işbirliyimiz də möhkəmlənir. Azərbaycanda neftdən əldə olunan gəlirlər ədalətli şəkildə bölünür. Əgər belə olmasaydı, üç ildə yoxsulların sayı 49 faizdən 20 faizə düşməzdi. Mənim üçün ən böyük göstərici budur. Ümumi daxili məhsulun artımı 34,5 faizdir. Mən bunu çox böyük qürur hissi ilə qeyd edirəm. Çünki bu baxımdan biz dünyada birinci yerdəyik. Özü də bir il yox, iki il dalbadal. Amma mənim üçün bundan daha önəmlisi yoxsulların sayının azalmasıdır. Yəni bizim neft strategiyamız insanların həyat səviyyəsinin yaxşılaşmasına gətirib çıxarır. Yenə deyirəm, üç il əvvəl Azərbaycanda əhalinin 49 faizi yoxsul idi, indi 20 faizdir. Əminəm ki, ölkə inkişaf etdikcə, daha da aşağı düşəcəkdir.

Bir daha demək istəyirəm ki, mənim sizə sözlərim çoxdur. Amma iş qrafikim bir az gərgindir. Ona görə vaxtınızı çox almaq istəmirəm. Burada çıxış etmək istəyənlər də var. İstəyirəm onlara da imkan yaradım ki, öz sözlərini desinlər.

AVROPA AZƏRBAYCANLILARI KONQRESİNİN SƏDRİ BAHƏDDİN KAYANIN ÇIXIŞI

- Cənab Prezident, xoş gəlmisiniz. Sizi Avropada yaşayan azərbaycanlılar adından ürəkdən salamlayırıq. Avropa ölkələri ilə münasibətlərdə apardığınız siyasət və işbirliyi Avropada yaşayan biz azərbaycanlılara çox böyük qürur verir və bunun davamını gözləyirik. On beş ildən çoxdur ki, gənc Azərbaycan Respublikasının torpaqlarının 20 faizi Ermənistanın təcavüzü nəticəsində işğal olunmuşdur. 15 ildən artıqdır ki, bir milyondan çox qaçqın və məcburi köçkünün ehtiyaclarının dövlət büdcəsi hesabına ödənilməsinə baxmayaraq, gənc dövlətin iqtisadi cəhətdən inkişaf etməsi, ictimai-siyasi sabitliyin qorunması, sabit ölkə kimi inkişaf etməsi bizlər üçün çox sevindiricidir.

Xüsusilə, gənc dövlət olmasına baxmayaraq, böyük dövlətlərin də görə bilmədiyi işləri – dünyanın enerji siyasətini müəyyən edən Bakı-Tbilisi-Ceyhan boru kəmərinin gerçəkləşdirilməsi Azərbaycanın qısa müddət ərzində dünya dövlətləri içərisində nüfuzunun artması istiqamətində mühüm bir addımdır. Dağlıq Qarabağ münaqişəsi ilə əlaqədar apardığınız sülhpərvər danışıqlar siyasətini, bununla bağlı verəcəyiniz qərarları, zənn edirik ki, dünyanın hər yerində yaşayan azərbaycanlılar və hətta bütün türklər dəstəkləyəcək, Sizin yanınızda olacaqlar. Ümid edirik ki, ən qısa zamanda ölkəmizin işğalına son qoyulacaqdır.

Bütün bu problemlərin olmasına baxmayaraq, xarici ölkələrdə yaşayan azərbaycanlılarla əlaqələrə verilən önəm, bizimlə aparılan dialoq, xüsusilə ümummilli lider, böyük dövlət adamı, mərhum atanız Heydər Əliyevin 2001-ci ildə Bakıda Dünya azərbaycanlılarının I qurultayını gerçəkləşdirməsi, 2002-ci ildə Xarici Ölkələrdə Yaşayan Azərbaycanlılarla İş üzrə Dövlət Komitəsinin yaradılması və bu komitəyə çox böyük imkanlar açmaqla xaricdəki azərbaycanlıların təşkilatlanmasına böyük dəstək verməyiniz bizləri sevindirir və buraya toplaşan Azərbaycan cəmiyyətlərinin fəaliyyətlərinə çox böyük kömək göstərir.

2006-cı ilin mart ayında mənim də iştirak etdiyim Dünya azərbaycanlıları konqresinin keçirilməsi də bütün dünyadakı soydaşlarımıza böyük qürur vermişdir. 2007-ci ilin mart

ayında Türk-Azərbaycan cəmiyyətlərinin forumunun keçirilməsi diasporlarının formalaşması, birgə çalışması baxımından "Bir millət, iki dövlət" siyasətinin ən parlaq nümunələrindən biri olacaqdır. Bunların hamısını fərəh hissi ilə təqdir edirik. Xüsusilə, Avropada yaşayan azərbaycanlılar adından Azərbaycanın buradakı səfirliyinə son illərdəki fəaliyyətinə görə minnətdarlığımı bildirirəm. Almaniyadakı bütün təşkilatların işbirliyinin qurulması, yaxın əməkdaşlığın yaradılması məqsədi ilə dəyərli işlər görülür. Bu işdə səfirliyin bizimlə də yaxından əməkdaşlıq etməsi hamımızı sevindirir.

Cənab Prezident, vaxtınızın məhdud olduğunu bilirəm. Amma yenə də Avropa istiqamətində apardığınız siyasətin doğru olduğunu, bizim bu siyasəti dəstəklədiyimizi bəyan edirəm. Almaniyaya bu rəsmi səfəriniz həm iqtisadi, həm də dostluq baxımından Almaniya-Azərbaycan münasibətlərinə çox böyük töhfələr verəcəkdir. Səfərinizin iki ölkənin əməkdaşlığı, işbirliyi baxımından daha faydalı olmasını arzulayır və Sizə dərin təşəkkürümü bildirirəm. Sağ olun.

AVROPA-AZƏRBAYCAN STRATEJİ ARAŞDIRMALAR MƏRKƏZİNİN SƏDRİ BAŞAR KÖMÜRÜN ÇIXIŞI

- Zati-aliləri hörmətli cənab Prezident, Ali baş komandan!

Mən demək istəyirəm ki, xaricdə yaşayan azərbaycanlıların ürəyində Siz varsınız və Azərbaycan vardır. Biz bununla yaşayırıq, fəxr edirik və sizlərin sayəsində çətinliklərimiz ortadan qalxır. Ona görə deyirəm ki, hamımızın ürəyində Azərbaycan eşqi vardır. Siz buraya xoş gəlmisiniz.

Rəhmətlik atanız deyirdi ki, dünyanın harasında yaşayırsınız yaşayın, yaşadığınız ölkənin dilini danışın, yaşadığınız ölkənin vətəndaşı olun, amma siz öz vətəninizi, dilinizi, ənənələrinizi yadınızdan çıxarmayın, Azərbaycanımızı tanıyın. Burada olanların hamısı atanızın söylədiyi fikirlərin daşıyıcılarıdır, o sözləri yadda saxlayırlar. Atanızın dediyi kimi, biz yaşadığımız ölkələrdə siyasətçilərə, dövlət adamlarına, ziyalılara – hamısına Azərbaycanın məsələlərini çatdırırıq. Biz bu amalla yaşayırıq. Sizin bu yolda göstərdiyiniz fəaliyyəti yüksək qiymətləndiririk. Atasının yolu ilə gedən bir insan kimi Sizinlə fəxr edirəm.

Cənab Prezident, yəqin ki, yadınızdadır, 2002-ci ildə Frankfurt aeroportuna gəlməli idiniz. Siz onda Milli Olimpiya Komitəsinin prezidenti idiniz. Biz Sizi yola salmaq üçün oraya getdik. Çantanızı Siz özünüz götürdünüz, hər şeyi özünüz etdiniz. Düzdür, biz lazım olan hər şeyi həll etmişdik. Lakin Siz dediniz ki, burada Azərbaycan vətəndaşları var, mən də onlar kimi növbəyə dayanacağam. Siz çantanız, biletiniz əlinizdə onlarla bərabər növbəyə dayandınız. Mən yanımdakı dostlarıma dedim ki, Azərbaycanın dövlət başçısının, Prezidentimizin oğlunu yola salmağa gəlmişik, amma biz bu sadəlikdə gələcəyin liderini gördük. Bunu Sizə söyləməyi özümə borc bildim.

Hörmətli xanımlar və cənablar, üzümü sizə tutub deyirəm, eşq olsun ki, sizin Azərbaycan kimi dövlətiniz, bu dövlətin də İlham Əliyev kimi başçısı var. Ona eşq olsun!

Cənab Prezident, Sizin 1982-ci ildə bitirdiyiniz ali məktəbdə bir sərgi təşkil olunmuşdu. O sərgidə Sizin xoşunuza gələn bir rəsm əsəri vardı. İcazə verin, həmin onu Azərbay-

can və türk diasporları adından, – Avropadakı, o cümlədən Almaniyadakı türk diasporunun nümayəndələri də buradadır, – Sizə hədiyyə edək. Əsərin müəllifi xalq rəssamı, YUNESKO-nun mükafatı laureatı Əşrəf Heybətovdur. Arzu edirik ki, Siz həmişə cavan, dövlətimiz kimi sarsılmaz, xoşbəxt və sağlam olasınız. Siz bizim ürəyimizdəsiniz. Həmişə Sizi gözləyirik.

Hörmətli dövlət başçımız, Sizə arxayın olun, Avropada yaşayan azərbaycanlılar elmləri, savadları ilə Azərbaycana dəstək verirlər. Avropada nəşr olunmuş bu kitabı da azərbaycanlı ziyalılar adından Sizə təqdim etmək istəyirəm və özümü xoşbəxt sanıram ki, Sizinlə tanış olmuşam. Allah atanıza qəni-qəni rəhmət etsin, sağ olun, var olun.

* * *

Başar Kömür və xalq rəssamı Əşrəf Heybətov rəsm əsərini və kitabı dövlətimizin başçısına təqdim etdilər.

* * *

Almaniyada yaşayan bəstəkar, Bax mükafatı laureatı ARİF MİRZƏYEV dövlətimizin başçısına müraciətlə dedi ki, cənab Prezident, mərhum əbədiyaşar Prezidentimizin xatirəsinə böyük əsər yazmışam. "Skripka, kamança və orqan üçün dahi Prezidentə xatirə dualarr" adlı beş hissədən ibarət əsərdir. İnşallah, bu ilin aprel ayında Bakıda Bəstəkarlar İttifaqının qurultayı keçiriləcək və orada bu əsəri Almaniyada yaşayan kamança ifaçısı Anar İbrahimovla birlikdə ifa edəcəyik. Bu əsəri ABŞ, Böyük Britaniya, İtaliya və Vatikanda, dünyanın digər ölkələrində məşhur kilsələrdə də səsləndirəcəyik.

Arif Mirzəyev əsərin kompakt diskini Prezident İlham Əliyevə təqdim etdi.

ALMAN-AZƏRBAYCAN FORUMUNUN ÜZVÜ SAMİRƏ İSMAYILOVANIN ÇIXIŞI

- Möhtərəm cənab Prezident!

Almaniyada yaşayan azərbaycanlı və Alman-Azərbaycan Forumunun üzvü kimi Sizi bu torpaqda salamlayır, bizimlə görüşə vaxt ayırdığınıza görə təşəkkür edirəm. Harada yaşamasından asılı olmayaraq, hər bir azərbaycanlı öz ölkəsindəki inkişafdan qürur duymalıdır. Biz Azərbaycanda baş verən dəyişiklikləri həmişə izləyirik. Bu inkişafı uzaqdan seyr edir, ölkəmizin ictimai həyatındakı müsbət prosesləri görürük. Əlbəttə, bu əhəmiyyətli dönüşün təməli xalqımızın ulu öndəri, mərhum Prezidentimiz Heydər Əliyev tərəfindən qoyulmuşdur. Məhz 2001-ci ildə onun təşəbbüsü ilə Dünya azərbaycanlılarının I qurultayı keçirilmişdir. Sonra isə bu ənənəni Siz davam etdirərək, 2006-cı ildə Dünya azərbaycanlılarının II qurultayını təşkil etdiniz. Bu, xaricdə yaşayan azərbaycanlılara olan böyük diqqətinizi göstərir. Hesab edirəm ki, bugünkü görüş də bu yolun davamında yeni bir mərhələdir.

Bu gün Azərbaycan dünya miqyasında iqtisadiyyatı sürətlə inkişaf edən ölkə, neft səltənəti kimi tanınır. Eyni zamanda, Azərbaycan təkrarolunmaz xalq yaradıcılığı, Şərq və Qərb mədəniyyətinin vəhdətinə malik, həm də müasirliyi, yeniliyi ilə seçilən bir ölkədir. Biz Azərbaycan və Almaniya əlaqələrinin mədəniyyət sahəsində və digər istiqamətlərdə daha da möhkəmləndirilməsinə çalışırıq. Bundan başqa, Azərbaycanın gələ-

cəyi üçün çox vacib olan turizm sahəsində planlar nəzərdə tutulubdur. Çünki Avropada yaşayanlar, o cümlədən almanlar Azərbaycana çox məmnuniyyətlə səyahət etmək istəyirlər. Bu, Avropa ilə Azərbaycan arasında əlaqələrin inkişafında ən vacib amillərdən olacaqdır.

Alman-Azərbaycan Forumu xalqımız üçün ən yaralı məsələ olan Qarabağ problemində ölkəmizin ədalətli mövqeyinin dünya ictimaiyyətinə çatdırılmasına mədəni, bədii sənət yolu vasitəsilə yardımçı olur. Belə ki, Qarabağın nəinki Azərbaycanın tarixi-coğrafi baxımdan, eyni zamanda, mədəni və mənəvi cəhətdən ayrılmaz bir hissəsi olmasının dünya ictimaiyyətinə çatdırılmasında forumumuz fəal rol oynayır. Bundan əlavə, informasiya vasitələri, jurnalistlərlə görüşlərin keçirilməsi, xarici ölkələrin televiziya və radiolarında ölkəmiz haqqında mütəmadi məlumatların getməsi də çox vacibdir.

2008-ci ildə Almaniyada Azərbaycan günlərinin keçirilməsinə dair geniş mədəni tədbirlər planı hazırlanır. Bu tədbirdə Şərq ölkəsi kimi Azərbaycan müasir baxımdan doğun şəkildə təqdim olunacaqdır. Bu işdə incəsənət sahəsində çalışan gənclərin potensialından istifadə ediləcəkdir. Mən bu tədbirlərin, istəklərin həyata keçirilməsində Azərbaycan səfirliyinin dəstəyini qeyd etmək istəyirəm. Səfirlik dövrün tələblərinə uyğun mövqe tutaraq öz köməyini əsirgəmir, hər bir azərbaycanlı ilə əlaqə yaratmağa çalışır, bir çox tədbirlərin təşəbbüskarı kimi çıxış edir. Misal kimi, ötən il Azərbaycanın müstəqilliyinin 15 illiyinə həsr olunmuş mədəniyyət tədbirlərinin keçirilməsini deyə bilərəm. Bunlar Almaniyada yüksək səviyyədə müvəffəqiyyətlə keçdi və əks-səda doğurdu.

Çıxışımın sonunda demək istərdim ki, əgər əvvəllər xaricdəki azərbaycanlılar həsrət hissi ilə yaşayırdılarsa, bu gün qüvvətlənmiş, ölkəmizin müjdəçisinə çevrilmişlər. İnanıram ki, Almaniyada yaşayan digər həmvətənlərimizlə birlikdə həm siyasi, iqtisadi, mədəni və həm də Siz dediyiniz kimi, fərdi inteqrasiya yolu ilə Azərbaycanı təmsil etməliyik. Göstərilən diqqət və qayğıya görə Sizə, dövlətimizə təşəkkür edirəm. Hamınıza sıx əlaqə və səmərəli əməkdaşlıq arzulayıram.

ALMAN-AZƏRBAYCAN FORUMU SƏDRİNİN MÜAVİNİ, KÖLN UNİVERSİTETİNİN PROFESSORU RZA TALİBİ DƏRYANİNİN ÇIXIŞI

- Hörmətli cənab Prezident!

Mən Almaniyada yaşayan azərbaycanlılar adından Sizə xoşbəxtlik arzulayıram. Sizin nitqinizi çox diqqətlə dinlədim. Almaniyadakı diaspor və alman həmkarlarım ilə birgə Azərbaycanın inkişafı üçün hansı xidmətləri göstərdiyimiz barədə Sizə məlumat vermək istəyirəm. Köln Universitetinin professoru, 1992-ci ildən Köln və Azərbaycan universitetləri arasında əməkdaşlıq üzrə əlaqələndirici kimi mən azərbaycanlı tələbələrlə Almaniyadakı tələbələr arasında əlaqə yaradırıq.

Köln Universitetinin Avropa İttifaqından aldığı qrant layihəsi çərçivəsində 2001-ci ildən 2003-cü ilədək Azərbaycandan 38 dosent Almaniyaya gələrək, Avropa standartlarını, tədris planlarını öyrənmişdir və hazırda onlar Azərbaycanda müxtəlif ali təhsil ocaqlarında çalışırlar. 2003-cü ildən 2005-ci ilədək isə Bakı, Sumqayıt və Mingəçevirdə yerləşən 4 universitetdən 117 dosent buraya gəlmiş, təcrübə keçmişdir, 17 alman alimi isə Bakıya göndərilmiş və onlar iki-üç həftəlik seminarlar təşkil etmiş, mühazirələr oxu-

muşlar. Məqsəd təhsilin Avropa standartlarına uyğunlaşdırılmasına kömək etməkdir. Hazırda Bakı, Sumqayıt və Mingəçevirdə 245 tələbə Avropa standartları səviyyəsində tədris planlarını öyrənmişdir. Biz Bakıda Avropa standartlarına uyğun 9, Mingəçevirdə 2, Sumqayıtda 4 laboratoriya yaratmış, onlarda müasir cihazlar quraşdırmışıq.

Amma vacib olan pul deyil, Azərbaycan zəngin ölkədir. Almaniya hökuməti sağ olsun, bizə yaxşı imkanlar yaradıb ki, elmi əməkdaşlığımızı davam etdirək və almanlar Azərbaycan mədəniyyətini yaxından tanısınlar. Həqiqətən də, ölkəmizin böyük elmi potensialı var və bu, Azərbaycanın müasir ölkə olmasına əsas verir. Avropa İttifaqı Azərbaycanda gedən müsbət prosesləri qiymətləndirir və bunu çox yaxşı bilir. Sizi əmin edirəm ki, biz bu imkanlardan yararlanaraq, Azərbaycanın inkişafına kömək etməyə çalışırıq.

Azərbaycan zəngin dövlətdir, universitetlərə kömək göstərilir. İstərdim, dövlət daha da çox kömək göstərsin. Sizin dediyiniz kimi, ötən il Azərbaycanda iqtisadi artım təxminən 35 faiz olubdur. İnanırıq ki, bu inkişaf daha da çox olacaqdır. Bunun üçün hər cür, o cümlədən elmi potensial vardır. Biz fikrən kömək edəcəyik, amma Sizin yardımınız daha faydalı ola bilər. Əminəm ki, bir gün gələcək, alman tələbələri Azərbaycanda təhsil alacaqlar. Sağ olun.

***

Prezident İlham Əliyev görüşə yekun vurdu.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN YEKUN NİTQİ

- Sağ olun. Biz də bütün bu işləri bundan sonra daha da sistemli şəkildə quracağıq. İndi bu məqsədlərə vəsait də ayırırıq. Dövlət büdcəsində də bu məqsədlər üçün vəsait nəzərdə tutulur ki, Azərbaycanın müstəqil ölkə kimi yaşaması və uğurları geniş mənada dünya ictimaiyyətinə bəlli olsun. Hələ ki, bu belə deyildir. Siz də qeyd edirsiniz, mən də bunu görürəm. Bakıya xaricdən ilk dəfə gələn qonaq bilmir ki, Azərbaycan nədir. Təsəvvür tamamilə başqadır və yaxud da kifayət qədər deyildir. Ancaq Avropanın hər bir vətəndaşı Azərbaycana gələ bilməz. Ona görə biz burada, Avropada özümüzü daha da çox tanıtmalıyıq. Ona görə bu məsələnin maliyyə tərəfinə əlbəttə ki, biz baxacağıq. Ancaq, eyni zamanda, çox vacibdir ki, burada da fəaliyyət güclü olsun. Yəni, siz də fəal olasınız və dediyiniz bütün bu məsələləri biz birlikdə həll edək.

Biz haqlıyıq və Ermənistan-Azərbaycan münaqişəsinin həlli məsələsi ilə məşğul olanlar da artıq bilir ki, günahkar kimdir və münaqişənin qurbanı kimdir. Artıq bu məsələ gündəlikdədir. Sadəcə olaraq, daha da fəal olmalıyıq, təbliğatımızı daha da güclü aparmalıyıq. Xüsusilə nəzərə alsaq ki, bizim təbliğatımız həqiqət əsasında qurulur, Ermənistan təbliğatı isə yalan üzərində qurulur. Əlbəttə ki, Azərbaycan dövləti də bu işlərdə fəal iştirak edəcəkdir.

İndi bizim proqramlarımızda yeni kitabların nəşri, onların xarici dillərə tərcüməsi də vardır. Bəzi hallarda tarixi əks etdirən kitablar Azərbaycan dilində yazılır. Biz onsuz da Azərbaycanda bunları bilirik. Bizə lazımdır ki, bunu dünyada bilsinlər. Kitablar ingilis, alman, fransız dillərində və başqa dillərə tərcümə olunmalıdır. İnternet vasitəsilə bu məlumatlar ötürülməlidir. Ona görə mən çıxışımın əvvəlində dedim ki, biz hamımız –

Azərbaycan dövləti, Xarici İşlər Nazirliyi və onun xaricdəki nümayəndələri, Xarici Ölkələrdə Yaşayan Azərbaycanlılarla İş üzrə Dövlət Komitəsi və diaspor təşkilatları bu məsələdə vahid siyasət aparmalıyıq. Qurultayın da məqsədi məhz ondan ibarət idi ki, hamımız yığışaq, bu məsələləri birlikdə həll edək. İndi bütün bu işlər məqsədyönlü şəkildə aparılmalıdır. Mən çox şadam ki, burada, Almaniyada da belə güclü fəallıq var. Əminəm ki, bu fəallıq davam etsə, biz çox işlərə nail olacağıq.

İndi isə gərək mən başqa görüşlərə gedim. Mən sizə bir daha öz hörmətimi ifadə etmək istəyirəm, uğurlar arzulayıram. Arzu edirəm ki, sizin həyatınızda hər şey yaxşı olsun və həmişə doğma Vətəninizlə əlaqədə olasınız. Sağ olun.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN ALMANİYANIN "DEUTSCHE WELLE" TELERADİO KANALINA MÜSAHİBƏSİ

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Almaniya Federativ Respublikasına rəsmi səfəri zamanı, fevralın 15-də Berlində ölkənin nüfuzlu "Deutsche Welle" teleradio kanalına müsahibə vermişdir.

- ABŞ və Rusiya silahlanma və geosiyasət ilə bağlı qarşılıqlı dəlillər irəli sürürlər. Cənab Prezident, necə fikirləşirsiniz, "soyuq müharibə" yenidən başlayacaqmı?

- Mən belə zənn etmirəm. Hesab edirəm ki, ümumiyyətlə, proseslər normal istiqamətdə cərəyan edir. Biz ABŞ və Rusiyanın bizim ölkədə əməkdaşlığını çox müsbət qiymətləndirə bilərik. Hesab edirəm ki, bu, qarşılıqlı surətdə faydalı əməkdaşlığın çox gözəl nümunəsidir. Ümid edirəm ki, iki ölkə arasındakı münasibətlərdə mövcud olan müsbət meyillər davam edəcək və bu da öz növbəsində Qafqazda daha da proqnozlaşdırıla bilən vəziyyətin yaranmasına gətirib çıxaracaqdır.

- Zənnimcə, Azərbaycan müxtəlif dünyalar arasında yerləşən bir ölkədir. Sizin üçün MDB-də fəal iştirak etmək Qərb ilə yaxşı münasibətlərə malik olmaq qədər vacibdir. Şəxsən Sizin üçün nə daha önəmlidir, Moskva ilə yaxşı münasibətlərə malik olmaq, yoxsa Avropa strukturları və təsisatlarına uyğunlaşmaq?

- Prezident kimi şəxsən mənim üçün ən önəmlisi Azərbaycanın müstəqilliyini gücləndirmək, ölkəmizdə daha yaxşı şərait, yaşayış səviyyəsi, ən sabit vəziyyət, iqtisadi rifah bərqərar etməkdir. Buna görə də qonşularımız, Avropa, ABŞ ilə münasibətlərimiz çox müsbət istiqamətdə inkişaf edir. Bizim təcrübəmiz göstərir ki, qonşularla güclü inteqrasiya şəraitində yaşamaq və aparıcı beynəlxalq təşkilatlarla çox yaxşı münasibətlərə malik olmaq mümkündür. Bu baxımdan, biz hər hansı geosiyasi seçim qarşısında deyilik. Biz xalqımız, millətimiz üçün düzgün olanı edirik və Azərbaycanın iqtisadi inkişafı, çox sürətli iqtisadi inkişafı, – ikinci ildir ki, ölkəmiz ümumi daxili məhsulun artımına görə dünyada birinci yeri tutur, – və siyasi sabitlik göstərir ki, seçimimiz düzgündür. Yenə deyirəm, Azərbaycan öz qonşuları ilə birlikdə çox mühüm transmilli enerji və nəqliyyat layihələrinin iştirakçısıdır. Ölkəmiz Avropa İttifaqı ilə yaxın qonşuluğa dair beşillik proqrama daxil olmuşdur. Biz Avropa İttifaqı ilə enerji sahəsində strateji tərəfdaşlığa dair memorandum imzalamışıq. Rusiya və ABŞ ilə çox yaxşı münasibətlərimiz var.

- Xəzər dənizi neft ilə zəngindir və Bakıdan Türkiyənin Ceyhan limanına boru kəməri

inşa edilmişdir. Bütün bunlar sizi ən çox istənilən tərəfdaşa çevirdiyinə görə, qorxmursunuz ki, Qərblə, yoxsa Şərqlə olmağımız barədə qərar çıxarmalısınız?

- Əslində, biz bütün enerji layihələrimizi başa çatdırmışıq. İki boru kəməri inşa etmişik – birincisi, Bakıdan Ceyhana neft kəməri və ikincisi, Bakıdan Ərzuruma qaz kəməri. Hər iki boru kəməri Gürcüstandan keçir. Beləliklə, bizim neftimiz və qazımızın artıq Avropa və dünya bazarlarına çıxışı var. Bu layihələr texniki, siyasi baxımdan çox çətin idi və iri həcmdə maliyyə tələb edirdi. Biz bunu etməyi bacardıq, baxmayaraq ki, bir çoxları mövcud geosiyasi məkanda bunun mümkün olmayacağını düşünürdülər. Həmin layihələri xarici şirkətlər, beynəlxalq maliyyə qurumları ilə tərəfdaşlıq şəraitində və ABŞ hökumətinin güclü dəstəyi sayəsində həyata keçirdik. Bu boru kəmərləri kiminsə əleyhinə yönəldilməmişdir. Onlar regional əməkdaşlığa, təhlükəsizliyə, Azərbaycan xalqının rifahına xidmət edir. Hazırda biz başqa bir beynəlxalq layihə üzərində, Asiya ilə Avropanı Azərbaycan vasitəsilə birləşdirəcək dəmir yolu layihəsi üzərində çalışırıq. Artıq bu məqsədlə böyük maliyyə vəsaiti ayırmışıq və ümid edirik ki, iki ildən sonra yük və sərnişinlərin bu xətt vasitəsilə qatarlarla Çindən Avropaya daşınması mümkün olacaqdır. Bütün bunlar onu göstərir ki, biz hər hansı regional rəqabətdən əziyyət çəkmirik. Mən həmişə demişəm ki, Azərbaycan özünü təmin etməyə qadir olan bir ölkədir, biz müstəqil siyasət həyata keçiririk. Biz istər Rusiya, istər Avropa İttifaqı, istərsə də ABŞ ilə əməkdaşlıq edəndə özümüzü eyni dərəcədə rahat hiss edirik. Burada bizim üçün seçim məsələsi yoxdur, milli maraqlar məsələsi var və bu milli maraqlar, əlbəttə ki, siyasətimizi müəyyənləşdirir.

- NATO-ya qoşulmaqda maraqlısınızmı?

- NATO ilə "Sülh naminə tərəfdaşlıq" proqramından başlamış "Fərdi tərəfdaşlığa dair fəaliyyət planı"na qədər çox illərdir ki, əməkdaşlıq edirik. Keçən ilin noyabr ayında mən NATO-nun mənzil-qərargahında oldum və orada çox konstruktiv danışıqlar apardıq. Biz bu qurumun müxtəlif proqramlarında iştirak edirik. Ümid edirik ki, bu tərəfdaşlıq və əməkdaşlıq davam edəcəkdir. Lakin bu və ya digər beynəlxalq təşkilatda iştirak qarşılıqlı surətdə razılaşdırılmalıdır. Bu gün həm NATO, həm də bizim üçün aydındır ki, ölkəmiz buna hazır deyildir. Buna görə də biz tərəfdaşlar kimi çalışmaqda davam etməliyik. Azərbaycan NATO tərəfindən dünyanın müxtəlif yerlərində həyata keçirilən sülhməramlı əməliyyatlarda iştirak edir və biz etibarlı tərəfdaşıq. Bu tərəfdaşlıq və əməkdaşlığın sonunun nə olacağını zaman göstərəcəkdir. Mən hər şeyi qabaqcadan demək və ya bu gün real olmayan bir hədəfi qarşıya qoymaq istəməzdim. Siyasətimizi real zəminlər üzərində qurmalıyıq. Hər iki tərəf əməkdaşlığın yeni formatına hazır olduqda, bunu istədikdə və buna can atdıqda, əlbəttə ki, bu, baş verəcəkdir. Lakin bunun nə vaxt və necə olacağını zaman göstərəcəkdir.

- ABŞ-ın rəhbərlik etdiyi koalisiyanın üzvü kimi Azərbaycan 150-yə yaxın əsgərini İraqa göndərmişdir. İraqdakı bugünkü vəziyyəti necə qiymətləndirirsiniz?

- Bəli, siz haqlısınız. Biz lap əvvəldən əsgərlərimizi oraya göndərmişik. Hərbi əməliyyatlar başlayan kimi, ölkəmiz ABŞ-a və koalisiya qüvvələrinə dəstək vermək qərarına gəldi. İndiyə kimi bizim əsgərlərimiz İraqda xidmət edirlər və qoşunlarını buradan çıxaran bəzi digər, hətta NATO üzvü olan ölkələrdən fərqli olaraq, ölkəmiz dəstək və İraqda sülhü bərqərar etməyə töhfə vermək səylərinin göstəricisi kimi əsgərlərini burada

saxlamaqda davam edir. Əlbəttə ki, İraqda baş verənlər bütün beynəlxalq birlik, o cümlədən bizim üçün böyük narahatçılıq doğurur. Biz orada sülhün bərqərar olunmasını, baş verən zorakılığın, İraq xalqı üçün bu dəhşətli faciənin sona çatmasını istəyirik ki, beləliklə onlar inkişaf yoluna qədəm qoysunlar. İraqda vəziyyət sabit deyil, bu, hazırda hamıya, bütün beynəlxalq birliyə məlumdur. İraqda sülh və təhlükəsizliyin bərpa olunmasına töhfə vermək üçün Azərbaycan əlindən gələni edəcəkdir.

- İran Azərbaycanın birbaşa qonşusudur. Mənim üçün maraqlıdır, Siz Tehran rəhbərliyinin nüvə proqramı ilə bağlı narahatlıq keçirirsinizmi?

- Əlbəttə, bir qonşu və tərəfdaş kimi biz müxtəlif potensial hadisələrin inkişafına məhəl qoymaya bilmərik. Nüvə proqramı ilə bağlı mövqeyimiz ondan ibarətdir ki, əgər bu, beynəlxalq qaydalara əsaslanıbsa, hər bir ölkə dinc məqsədlər üçün nüvə enerjisinə malik ola bilər və hər bir şey qanun, hüquqi çərçivə və bu və ya digər proqram ilə məşğul olan beynəlxalq təşkilatlar çərçivəsində tənzimlənməlidir. Buna görə də biz hesab edirik ki, istənilən digər ölkə kimi, İran da dinc məqsədlərlə nüvə enerjisini inkişaf etdirmək hüququna malikdir. Eyni zamanda, əgər beynəlxalq birliyin, beynəlxalq təşkilatların bu proqram ilə bağlı narahatlığı varsa, bu da həll olunmalıdır. Buna görə də danışıqlar konstruktiv şəkildə, dinc yolla və yaxşı ruhda aparılmalıdır ki, hər iki tərəfin maraqları – İranın nüvə enerjisi imkanına malik olmaq marağı və məsələ ilə bağlı narahatlıq keçirən beynəlxalq birliyin, beynəlxalq təşkilatların maraqları təmin olunsun. Əlbəttə ki, bir qonşu kimi biz hadisələrin mümkün inkişafından narahatlıq keçiririk və ümid edir, bütün tərəflərə təkidlə məsləhət görürük ki, problemin həllinin dinc formatına sadiq qalsınlar.

- Beləliklə, problemin hərbi həlli yolunu siz qəbul etmirsiniz.

- Əlbəttə ki, yox.

- Cənab Prezident, Dağlıq Qarabağ münaqişəsi hələ də həll edilməyib, o, dondurulubdur. Münaqişəni həll etmək, Ermənistan ilə həllə nail olmaq üçün hansı addımlar atılmalıdır?

- Danışıqların on ildən artıq bir müddət ərzində Ermənistanın qeyri-konstruktiv mövqeyi ucbatından nəticəsiz davam etməsinə baxmayaraq, biz hələ də münaqişənin sülh yolu ilə həllinə sadiqik. Ermənistan beynəlxalq hüququn bütün normaları və prinsiplərini pozur. Onlar BMT Təhlükəsizlik Şurasının Ermənistan qoşunlarının işğal edilmiş ərazilərdən qeyd-şərtsiz və dərhal çıxarılmasını tələb edən dörd qətnaməsinə məhəl qoymurlar. Ermənistan Dağlıq Qarabağda və onun ətrafında olan ərazilərdə etnik təmizləmə siyasətini həyata keçirmişdir. Azərbaycanın Dağlıq Qarabağ bölgəsinin ətrafındakı yeddi rayonundan 700 min, Dağlıq Qarabağın özündən 50 min azərbaycanlı qovulmuşdur. Əvvəllər Ermənistanda yaşamış 250 min azərbaycanlı da etnik təmizləmə siyasətinə məruz qalmışdır. Xaricdən aldıqları dəstək sayəsində bunu edən ermənilər bu yaxınlarda Dağlıq Qarabağda heç bir beynəlxalq təşkilat tərəfindən tanınmayan qanunsuz referendum keçirdilər. Hamı – Avropa İttifaqı, Avropa Şurası, ABŞ, Fransa, Rusiya, Türkiyə qondarma referendumu qınadı. Onlar bunu necə edə bilərdilər, etnik təmizləmə siyasətini həyata keçirib, bütün azərbaycanlıları oradan qovduqdan sonra bu qondarma referendumu necə keçirə bilərdilər?! Belə mövqe beynəlxalq davranış, beynəlxalq hüquq normalarına tam ziddir. Dağlıq Qarabağ Azərbaycanın ərazisidir. Azərbaycanın ərazi bütövlü-

yü BMT və bütün beynəlxalq birlik tərəfindən tanınmışdır. Buna görə də münaqişə Azərbaycanın ərazi bütövlüyü çərçivəsində, Dağlıq Qarabağa yüksək özünüidarə və muxtariyyət verilməklə həll olunmalıdır. Bu, yeni və ya fövqəladə bir şey deyildir. Belə hallar dünyanın başqa bölgələrində də baş verir. Bir çox ölkələrdə milli azlıqlar yaşayır. Ola bilsin ki, yalnız Ermənistanda milli azlıq yoxdur, o, monodövlətdir. Lakin bütün digər ölkələrdə milli azlıqlar var. Ancaq milli azlıq olmaq o demək deyil ki, sənin hansısa ərazini ölkədən ayırmaq hüququn var. Təsəvvür edin ki, ermənilər yaşadıqları dünyanın bütün ölkələrində öz müqəddəratlarını təyin etməyə çalışsalar, nə baş verər?! Neçə yeni erməni dövləti yaranacaq?! Nə üçün onlar öz müqəddəratlarını Azərbaycanda təyin etməlidirlər?! Onların artıq Ermənistan dövləti var. Ermənilər artıq öz müqəddəratını təyin etmişlər. İndi onlar başqa bir dövlət yaratmaq istəyirlər, bizim ərazimizdə, tarixi torpaqlarımızda. Sabah onlar başqa ölkələrin ərazilərində dövlət yaratmaq istəyəcəklər. Bu, qəbulolunmazdır!

Bizim güzəştimiz, konstruktiv yanaşmamız ondan ibarətdir ki, on ildən artıqdır, biz hələ də danışıqlar prosesindəyik, ümid edirik ki, Ermənistan rəhbərliyi özündə müdriklik və cəsarət taparaq, işğalçı qüvvələri torpaqlarımızdan çıxaracaq və öz ölkəsinin təhlükəsizliyini təmin edəcəkdir. Əks təqdirdə, hadisələr gözlənilməyən məcrada cərəyan edə bilər. Bu gün Azərbaycan Ermənistandan çox güclüdür. İqtisadiyyatımız Ermənistanın iqtisadiyyatından 7 dəfə güclüdür və gələn illərdə bu, 20-30 dəfə artıq ola bilər. Azərbaycan xalqının səbrinin də həddi vardır. Beləliklə, biz çox konstruktiv yanaşma təklif edirik – Azərbaycanın ərazi bütövlüyü çərçivəsində Dağlıq Qarabağda yaşayan ermənilərə maksimum geniş muxtariyyət verilməsi, orada yaşayan bütün insanların təhlükəsizliyinin təminatı, yurdundan didərgin düşmüş insanların Dağlıq Qarabağa və onun ətrafındakı rayonlara qaytarılması və sülhün bərqərar edilməsi.

- Hazırda Balkanlarda, Kosovoda ərazi bütövlüyü prinsipi pozulur. Kosovoya Dağlıq Qarabağ problemini həll etmək üçün nümunə kimi baxıla biləcəyindən ehtiyat etmirsiniz ki?

- Bilirsiniz, hər bir münaqişənin öz tarixi və həll yolları var. Dünyada müxtəlif münaqişələr mövcuddur. Qafqazda Abxaziyada, Cənubi Osetiyada, Dağlıq Qarabağda, habelə Dnestryanı bölgədə separatçı rejimlər var. Onlar hamısı separatçı və hərbi rejimlərdir, qanunsuz zonalardır. Bu ərazilərdə heç bir beynəlxalq nəzarət, beynəlxalq monitorinq, beynəlxalq iştirak yoxdur. Ona görə də bu ərazilərdə narkotik maddələrin qanunsuz dövriyyəsi, çirkli pulların yuyulması, terrorçulara sığınacaq verilməsi halları mövcuddur. Kosovoda vəziyyət fərqlidir. Kosovo beynəlxalq nəzarət altındadır və orada beynəlxalq sülhməramlı qüvvələr var. Buna görə də, biz deyə bilmərik ki, Dağlıq Qarabağda və postsovet ərazisində olan digər separatçı rejimlər kimi Kosovo da Avropada qara yaradır. Ona görə də burada böyük fərq var. Lakin əlbəttə, ərazi bütövlüyü prinsipi belə münaqişələr həll olunan zaman əsas prinsip kimi götürülməlidir. Əgər bu prinsip pozularsa, zəncirvarı reaksiya baş verər. Hamımızın bildiyi kimi, müxtəlif ölkələrdə, Avropada, Asiyada, digər yerlərdə çoxlu milli azlıqlar yaşayır. Əgər onlar hamısı müstəqil dövlət yaratmağa başlasalar, nə baş verəcək?! Bizim məlumatlara və beynəlxalq müşahidələrə əsasən hazırda Dağlıq Qarabağda 60 minə qədər insan yaşayır. Dünya xəritəsində 60 min əhalisi olan yeni xırda bir ölkənin peyda olunmasını kim istər?! Heç kəs bunu istəməz və Azərbaycan da buna razı olmayacaqdır. Ölkələrdə istənilən ərazi dəyişikliyi yalnız həmin ölkənin razılığı ilə ola bilər. Bizim halda, Azərbaycan Dağlıq Qarabağın müstəqilliyi ilə razılaşmasa, o, heç zaman müstəqil olmayacaqdır. Beynəlxalq birlik də heç zaman Dağlıq Qarabağı müstəqil dövlət kimi tanımayacaqdır. Buna görə də, beynəlxalq münasibətlərin əsas prinsipləri qorunmalıdır. Əgər bu prinsip bir dəfə pozularsa, digər prinsiplərin pozulması üçün heç bir məhdudiyyət olmayacaqdır. Bu halda beynəlxalq münasibətlərin bütün sistemi zərər çəkəcək və alt-üst olacaqdır. Nə üçün BMT Təhlükəsizlik Şurasının Dağlıq Qarabağla bağlı qəbul etdiyi qətnamələrin həyata keçirilməməsi məsələsi bu qədər vacibdir?! Çünki bu, onu göstərir ki, mexanizm işləmir. Təhlükəsizlik Şurasının qətnamələrinin icra mexanizmi Ermənistan üçün məcburiyyət yaratmır və Ermənistan onlara məhəl qoymur. Deməli, sabah da heç kəs Təhlükəsizlik Şurasının qətnamələrinə məhəl qoymayacaqdır. BMT beynəlxalq mübahisələri və münasibətləri nizama salmaq üçün universal mexanizmdir. Əgər bu halda o, işləmirsə, digər hallarda da işləməyəcək, bu isə fəlakətə gətirib çıxaracaqdır.

- Müsahibəyə görə təşəkkür edirik.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV ALMANİYANIN İQTİSADİYYAT VƏ YENİ TEXNOLOGİYALAR NAZİRİ İLƏ GÖRÜŞMÜŞDÜR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Almaniya Federativ Respublikasına rəsmi səfərinin üçüncü günü, fevralın 16-da "Almaniya İqtisadiyyat Evi"ndə iqtisadiyyat və yeni texnologiyalar naziri Mixael Qlos ilə görüşmüşdür.

Azərbaycan ilə Almaniya arasında əməkdaşlığın yüksək səviyyədə olduğu vurğulanan görüşdə nazir Mixael Qlos ölkəmizin son illər əldə etdiyi iqtisadi inkişafı yüksək dəyərləndirdi, bu ilin oktyabrında böyük nümayəndə heyəti ilə birlikdə Azərbaycana səfərə gəlmək istədiyini, alman şirkətlərinin bir sıra mühüm layihələrdə iştirak etmək arzusunda olduqlarını bildirdi. Səfərdən məqsəd Azərbaycan Prezidentinin Almaniyaya rəsmi səfəri zamanı keçirdiyi görüşlərdə verilən təkliflərin bir daha araşdırılması, əməkdaşlığın yeni istiqamətlərinin müəyyənləşdirilməsi və konkret işə başlanılmasıdır.

Prezident İlham Əliyev ölkələrimiz arasında əməkdaşlığın daha da genişləndirilməsi üçün potensialın mövcud olduğunu söylədi və Almaniya nümayəndə heyətinin Azərbaycana səfərə gəlmək istəyini razılıqla qarşıladı.

AZƏRBAYCAN-ALMANİYA BİZNES FORUMU

Fevralın 16-da Berlində – "Almaniya İqtisadiyyat Evində" Azərbaycan-Almaniya biznes forumu keçirilmişdir.

Azərbaycanın 30-dan çox, Almaniya tərəfindən isə 200-dən çox iş adamının iştirak etdiyi biznes forumunu ölkəmizin Almaniyadakı səfirliyi, İqtisadi İnkişaf Nazirliyi və Azərbaycanda İxracın və İnvestisiyaların Təşviqi Fondu təşkil etmişdi.

Almaniyanın "Şərqi və Mərkəzi Avropa Birliyi" Cəmiyyətinin sədri KLAUS KSOLNER forumu açaraq dedi:

- Möhtərəm xanımlar və cənablar!

"Şərqi və Mərkəzi Avropa Birliyi" Cəmiyyəti və onun tərəfdaşı Alman Gənclər Gücü Təşkilatı, eləcə də Almaniya iqtisadiyyatının Şərqi Avropa ölkələri üzrə komitəsi adından sizi Berlindəki Almaniya-Azərbaycan biznes forumunda səmimi qəlbdən salamlayıram. Cənab Prezident, ilk növbədə, Sizə və Sizi müşayiət edən iqtisadi inkişaf naziri Heydər Babayevə, xarici işlər naziri Elmar Məmmədyarova xüsusi salamlarımızı yetiririk.

Cənab Prezident, bu görüşə nə qədər böyük maraq olduğunu, neçə ümidlər bəsləndiyini iştirakçıların sayının çoxluğundan görmək olar. Sizin təqdimatınız bizi çox maraqlandırır.

Cənab Qlos, biz sevinirik ki, siz Azərbaycanla iqtisadi münasibətlərin inkişaf vəziyyətini şərh etməyi öz üzərinizə götürmüsünüz. Siz də görüşümüzə xoş gəlmisiniz.

Mən həm də Almaniya iqtisadiyyatı barədə söhbətimizə qoşulacaq cənab Svitserlootu salamlamaq istərdim. Son olaraq, mən bu forumun formatı üçün əlindən gələni etmiş Alman Gənclər Gücü Təşkilatına minnətdarlığımı bildirir və hamıya mənalı anlar və müzakirələr arzulayıram.

Çıxışlardan sonra müzakirələr başlanacaqdır. Bir daha xoş gəlmisiniz və hamınıza forumun maraqlı keçməsini arzulayıram.

"WİNTERSHALL" ŞİRKƏTİ İDARƏ HEYƏTİNİN SƏDRİ RAYNİP SVİTSERLOOTUN ÇIXIŞI

- Sabahınız xeyir, möhtərəm cənab Prezident Əliyev!

Hörmətli cənab nazir Babayev!

Hörmətli cənab nazir Qlos!

Hörmətli cənab səfir!

Hörmətli azərbaycanlı qonaqlar!

Xanımlar və cənablar!

Sizi Almaniyanın iqtisadiyyat qurumları adından Berlində salamlamaq imkanı əldə etməyimdən olduqca şadam. Bugünkü Azərbaycan-Almaniya biznes forumu uğurlu iqtisadi əlaqələrimizin intensivləşməsində növbəti bir addımdır. Hər iki tərəfdən iştirakçıların sayının belə çoxluğu Azərbaycan və Almaniya müəssisələri arasında uğurlu tərəfdaşlığı daha da genişləndirmək üçün son illərdə inkişaf edən fikir mübadiləsindən ötrü yaxşı bir əsasdır.

Möhtərəm cənab Prezident Əliyev!

Sizi Berlində salamlamağıma ürəkdən sevinirəm. Almaniya iqtisadçıları Sizi Almaniya-Azərbaycan iqtisadi münasibətlərinin inkişafına söylə və etibarlı yol açan şəxs kimi tanıyır və qiymətləndirirlər. Biz həm də ona görə şadıq ki, Siz indiki səfərinizdə Azərbaycan iqtisadiyyatını təmsil edən yüksək səviyyəli nümayəndə heyəti gətirmisiniz. Burada xüsusi vurğulandı ki, ölkələrimizin qarşılıqlı əməkdaşlığı üçün hansı potensiallar mövcuddur. Bu baxımdan, cənab Babayev, sizi də ürəkdən salamlamaq istəyirəm.

Dünya iqtisadiyyatında ən sürətlə inkişaf edən ölkələrdən birinin iqtisadiyyat naziri kimi, siz ölkənizin zəngin sərvətlərindən gələn gəlirlərlə perspektiv üçün nəzərdə tutulan yatırımlara, eləcə də iqtisadiyyatın gələcəyə yönəlmiş sahələrinin inkişafına üstünlük verirsiniz. Məsələn, informasiya texnologiyaları, telekommunikasiya və enerji sahələrinə.

Azərbaycanın hörmətli sənaye nümayəndələri, sizləri ürəkdən salamlayıram. Berlində olmağınızdan və geniş fikir mübadiləsi aparmağınızdan məmnunluq duyuram. Eyni zamanda, siz bununla Almaniya müəssisələri ilə əlaqələrin qurulmasına olan marağınızı nümayiş etdirirsiniz.

Möhtərəm cənab nazir Qlos, bu biznes forumunda iştirakınıza görə sizə öz minnətdarlığımı bildirirəm. Siz xüsusilə qeyd etmisiniz ki, Almaniya hökuməti Azərbaycan ilə iqtisadi əlaqələrə çox yüksək qiymət verir.

Xanımlar və cənablar, Azərbaycanın neft hasilatı sahəsində qədim və çox zəngin ənənələri var. Dünyada sənaye üsulu ilə ilk neft hasilatçısı kimi dünya neft sənayesinin inkişafına çox müsbət təsir göstərmişdir. Hələ 1848-ci ildə birinci dəfə Azərbaycanda mexaniki üsulla ilk neft quyusu qazılmışdır. XIX əsrin sonlarında Azərbaycan ilk dəfə özünün neft bumunu yaşadı və dünyada ən çox neft istehsalçısına çevrildi.

Xanımlar və cənablar, ötən əsrin əvvəlində dünya neftinin tam yarısı Azərbaycanda çıxarılırdı.

1991-ci ildə müstəqilliyini yenidən bərpa edəndən sonra Azərbaycan hökuməti Xəzərin dibindən neft və qaz çıxarılması üçün beynəlxalq neft və qaz şirkətlərinin ölkədə fəaliyyətini ardıcıl şəkildə həyata keçirmişdir. Həmin sərmayələr və neft hasilatının başlanması Azərbaycanda son illərdə bu sahədə yeni bir inkişafın yaranmasına, ölkənin sürətli inkişafına gətirib çıxardı. Gələcək illərdə də neft və qaz Azərbaycanın iqtisadi inkişafında əsas bünövrəni təşkil edəcəkdir. 2006-cı ilin ortalarında istifadəyə verilmiş Bakı-Tbilisi-Ceyhan neft kəməri buna əlavə təkan verdi. Bu, Azərbaycanın regionda, ümumiyyətlə, Avropada enerji təchizatı sahəsində necə önəmli rol oynadığını göstərir.

2006-cı ilin noyabrında Avropa İttifaqı ilə Azərbaycan arasında enerji məsələləri üzrə strateji tərəfdaşlığa dair anlaşma memorandumu imzalanmışdır. Avropa Komissiyasının sədri Barrozu və enerji komissarı Pyebalqs imzalanma mərasimində bu anlaşmanın Avropada enerji təhlükəsizliyi sahəsində oynadığı önəmli rolu xüsusi vurğulamışlar. Neft sahəsindəki yeni yüksəliş Azərbaycan hökuməti tərəfindən iqtisadiyyatın digər sahələrinin inkişafı və birbaşa xarici sərmayələr üçün istifadə olunacaqdır.

AZPROMO Azərbaycanda xarici sərmayədarları yüksək səviyyədə dəstəkləyir. Onların Azərbaycanda sərmayə yatırımlarını müxtəlif iqtisadi sahələrə – tikinti, telekommunikasiya və başqa sahələrə yönəltmələrini dəstəkləyir. Bu qurum lazımi konsalting xidmətləri də göstərir. Azərbaycanda neft, kənd təsərrüfatı, yeni enerji sahəsində çox böyük potensial mövcuddur. Almaniya biznesinin xüsusilə Azərbaycanda çox yaxşı nüfuzu var. Alman şirkətləri informasiya-kommunikasiya texnologiyaları sahəsində Amerikada, neft sahəsində Afrika və Asiya ölkələrində, ümumiyyətlə, alman məhsulları bütün dünyada çox müsbət nüfuza malikdir.

Xanımlar və cənablar, mən əminəm ki, bizim iqtisadi əlaqələr gələn illərdə çox sürətlə inkişaf edəcəkdir. Azərbaycanın regionda rolu getdikcə artır. İnanıram ki, Almaniya

müxtəlif sahələrdə Azərbaycan iqtisadiyyatına sərmayələr qoyacaqdır. Azərbaycan bu gün öz iqtisadiyyatını çox ciddi şəkildə şaxələndirmək istəyir. Qeyri-neft sektorunu da inkişaf etdirmək arzusundadır və inanıram ki, alman biznesi bu sahədə Azərbaycana çox böyük yardım və dəstək göstərəcəkdir.

Xanımlar və cənablar, bizim kifayət qədər imkanlarımız var və bunlardan yararlanmalıyıq. Azərbaycanın da bu gün böyük iqtisadi imkanları var. Biz gərək biznes, sərmayələr barəsində informasiyanı təmin edək və birgə düşünək ki, Almaniya-Azərbaycan iqtisadi əlaqələrini hansı istiqamətdə və hansı yolla daha da inkişaf etdirək. Beləliklə, alman biznesi Azərbaycanda hansı sahələrə sərmayələrin qoyulması barədə daha da məlumatlı olmalıdır. Bütün bunları nəzərə alaraq, hesab edirəm ki, biz bir çox məlumatı əldə edəcəyik. Düşünürəm ki, bu il alman şirkətlərinin Azərbaycandakı fəaliyyəti daha da genişlənəcək və Almaniya-Azərbaycan iqtisadi münasibətləri daha da yüksək səviyyəyə qalxacaqdır.

Diqqətinizə görə minnətdaram.

ALMANİYANIN İQTİSADİYYAT VƏ YENİ TEXNOLOGİYALAR NAZİRİ MİXAEL QLOSUN ÇIXIŞI

- Zati aliləri hörmətli cənab Prezident Əliyev!

Hörmətli cənab iqtisadi inkişaf naziri Babayev!

Hörmətli cənab Svitserloot!

Hörmətli azərbaycanlı qonaqlar!

Xanımlar və cənablar!

Mən çox şadam ki, bu gün buraya Azərbaycandan böyük iqtisadi nümayəndə heyəti təşrif buyurubdur. Burada olan şəxslərin sayına görə demək olar ki, Azərbaycan iqtisadiyyatına maraq çox böyükdür.

Azərbaycan son aylarda alman iqtisadi comiyyətinin şüuruna daha çox aşağıdakı göstəricilərlə həkk olunubdur. Azərbaycan iqtisadi baxımdan dünyada ən sürətlə inkişaf edən ölkədir. 2006-cı ildə ümumi daxili məhsul 34,5 faiz, ticarət dövriyyəsi 6 dəfə artmışdır. Azərbaycanda artıq neft bumu başlayıbdır. Bunlar çox vacib göstəricilərdir. Mən deyərdim ki, bunların hamısı çox gözəl məlumatlardır. Lazım olan sərmayələr artıq Azərbaycanda yatırılıbdır. Biz cənab Prezidentlə söhbətimiz zamanı belə bir nəticəyə gəldik ki, bu sahədə Azərbaycana Almaniyanın da dəstəyi çox vacibdir və bu, diplomatik münasibətlər vasitəsilə həyata keçirilməlidir.

Bildiyiniz kimi, diplomatik münasibətlər neçə illərdən bəridir mövcuddur və bunun sayəsində biz həm iqtisadi, həm də siyasi əməkdaşlığımızı davam etdirəcəyik. Azərbaycanda iqtisadi inkişafa dair rəqəmlərə nəzər yetirsək, biz bunu Almaniya ilə müqayisə də bilmərik. Azərbaycan son illərdə, doğrudan da, böyük iqtisadi uğurlar əldə edib və Almaniya da Azərbaycanla bu sahədə əməkdaşlıq etmək arzusundadır. Azərbaycan bizim üçün siyasi, iqtisadi və ticarət siyasəti baxımından böyük və vacib tərəfdaşdır. Bizim əlavə alternativ enerji mənbələrinin olmasında böyük marağımız var.

İki gün bundan əvvəl Brüsseldə böyük enerji konfransında iştirak edirdim. Biz belə bir qərara gəldik ki, bu, çox vacib sahədir və burada əlavə mənbələrin olmasına ehtiyac duyulur. Mən hətta deyərdim ki, enerji təchizatının dünya siyasətinə təsiri mövcuddur. Məhz bu, elə amillərdəndir ki, bunlara xüsusi diqqət və həssaslıqla yanaşmaq lazımdır. Mən deyərdim ki, bu, həm Almaniya, həm də bütün Avropa üçün vacib sahədir və biz özümüzü müəyyən bir ölkədən asılı vəziyyətə sala bilmərik. Ona görə də Azərbaycanla bu sahədə əməkdaşlıqda çox maraqlıyıq. Biz müvafiq texniki inkişaf vasitəsilə öz tərəfimizdən təkliflərimizi irəli sürməliyik.

Nəzərə almalıyıq ki, biz bu cür layihələrin həyata keçirilməsinin ətraf mühitə təsirinə həssaslıqla yanaşmalıyıq.

Neft-qaz sahəsində yeni mənbələrə ehtiyac duyulur. Xəzərətrafı region beynəlxalq diqqəti getdikcə daha çox cəlb edir. Təbii ki, bu, ilk növbədə, neft və qaz sərvətlərinə aiddir və Xəzərdə yeni yataqların aşkar edilməsi, habelə Qərbi Avropaya gedən yeni neft kəmərlərinin çəkilməsi bu məkanın iqtisadi əhəmiyyətindən xəbər verir.

Bir neçə il bundan öncə xülya kimi görünən neft ixrac kəmərləri layihəsi artıq həyata keçirilib və mən burada, əsasən, Bakı-Tbilisi-Ceyhan layihəsini nəzərdə tuturam. Bu kəmər 2006-cı ildə istismara verildi və mən Azərbaycanı bu böyük beynəlxalq layihənin həyata keçirilməsi münasibətilə təbrik etmək istəyirəm.

Almaniya Azərbaycandan 2005-ci ildə 0,9 milyon ton neft ixrac etmişdi və 2006-cı ilin noyabrına kimi bu, 1,7 milyon tona çatdı. Bildirmək istəyirəm ki, digər neft kəmərləri layihəsi də nəzərdə tutulur və bu, bizim üçün enerji təchizatının təhlükəsizliyi deməkdir. Biz Transxəzər qaz kəməri layihəsinin həyata keçirilməsində də olduqca maraqlıyıq. İki min kilometrlik həmin kəmər qazı Türkmənistanın şərqindən Xəzər dənizi vasitəsilə Azərbaycandan, Gürcüstandan keçməklə Ərzuruma – Türkiyəyə çatdıracaqdır. Mənə belə gəlir ki, əməkdaşlıq sahəsində Qafqazda bazar genişlənir və xarici sərmayədarlar bu bazara daxil ola bilər. Hazırda Azərbaycan Xəzər dənizinin neft, qaz yataqlarının işlənilməsini inkişaf etdirməklə, eyni zamanda, xarici sərmayədarları ölkəyə cəlb etməklə böyük iqtisadi artımlara nail olur.

Cənab Prezident, Sizin iqtisadi siyasətinizin əsas amili iqtisadiyyatınızın şaxələndirilməsi, onun rəqabətə davamlı edilməsi, qeyri-neft sektorunun inkişaf etdirilməsi, davamlı sənaye və inkişaf etmiş xidmət sektorunun yaradılmasından ibarətdir. Demək istəyirəm ki, bu işdə xarici sərmayələr də böyük əhəmiyyət kəsb edir. Burada əsas vəzifə ondan ibarətdir ki, artan dövlət gəlirləri xalq təsərrüfatının qurulmasına sərf edilməlidir. Neft dövrünün başa çatmasından sonra bu, ölkənin firavanlığını təmin edəcək və əhalinin həyat səviyyəsinin yüksəlməsinə geniş imkan yaradacaqdır.

Almaniya Azərbaycan iqtisadiyyatının şaxələndirilməsində sizinlə tərəfdaş olmağa hazırdır. Əməkdaşlıq dedikdə, mən neft kimyası, maşınqayırma, yüngül və qida sənayesi sahələrində işbirliyini nəzərdə tuturam. İnfrastruktur sahəsində də əməkdaşlıq imkanları vardır. Əhalinin sosial vəziyyətinin yaxşılaşdırılması sahəsində layihələr həyata keçirməklə də əməkdaşlıq etməyə hazırıq. Eyni zamanda, yüksək texnologiyalar və əhaliyə səhiyyə xidmətini yaxşılaşdırmaq sahəsindəki layihələrdə iştirak edəcəyik.

Almaniya alternativ enerji mənbələrinin yaradılması sahəsində də özünü yaxşı tərəfdaş

kimi görür. Son illərdə həyata keçirilən layihələr, məsələn, "Siemens" tərəfindən layihələrin uğurla reallaşdırılması onu göstərir ki, biz Azərbaycan üçün yaxşı tərəfdaş ola bilərik. Azərbaycanın Dövlət Neft Şirkəti ilə də böyük layihələr həyata keçirilməkdədir. Ölkələrimiz arasında imzalanan anlaşma memorandumu baza kimi yaxşı əməkdaşlığın əsasını təşkil edir. Eyni zamanda, artıq informasiya və kommunikasiya texnologiyaları sahəsində 21 çox gözəl layihə imzalanıbdır. Bundan əlavə, gələcəkdə biz bərpa edilə bilən enerji mənbələri haqqında da layihələri həyata keçirə bilərik. Mən dövlət başçısının diqqətinə çatdırdım ki, cari ilin payızında Azərbaycana səfər etməyi planlaşdırıram.

Hesab edirəm ki, biz bu arada çox gözəl layihələri reallaşdıra bilərik. Daha da yaxşılaşdırılmış imkanlar sayəsində Azərbaycana daha çox sərmayələr cəlb etmək olar. Ona görə də sizi əmin edə bilərik ki, bu sahələrdə bizə tam arxalana bilərsiniz və biz bundan sonra da sərmayə qoyuluşunu davam etdirəcəyik. Əlbəttə ki, bu sərmayələr üçün əlverişli mühitin olması vacib əhəmiyyət kəsb edir.

Cənab Prezident, mən yenə demək istəyirəm ki, Almaniya Azərbaycanla münasibətlərinin daha da inkişaf etdirilməsində çox maraqlıdır və 2005-ci ildə malların mübadiləsi sahəsində yaşanan durğunluq artıq aradan qaldırılıbdır. İxracın həcmi 90 faiz qalxıb və Azərbaycandan olan idxalın artımı isə 81 faiz təşkil edibdir. Qeyd edim ki, Azərbaycanın ixracı müqayisədə hətta bizi ötmüşdür. Federal hökumət gələcəkdə də xarici iqtisadiyyatın inkişafı naminə müvafiq bazar iqtisadiyyatı alətlərindən istifadə edərək, sərmayələri, zəmanətləri öz üzərinə götürməklə bu inkişafa dəstək verməyə hazırdır. Bilirsiniz ki, "Hermez" kredit zəmanətləri Sizə tanışdır və həmin qurum sərbəst maliyyə-kredit zəmanətlərini üzərinə götürməyə hazırdır.

2006-cı ildə Azərbaycan ATƏT ölkələri arasında ixrac zəmanəti üzrə 6-cı yerdən 5-ci yerə keçdi. Bu da artıq yaxşı bir göstəricidir. Federal hökumət eyni zamanda, Azərbaycanın Dünya Ticarət Təşkilatına daxil olmaq arzusunu da dəstəkləyir. Bilirsiniz ki, bununla əlaqədar danışıqlar hələ başa çatdırılmayıb və komissiyalar danışıqlarını davam etdirir. Onu da bilirsiniz ki, Almaniya Avropa İttifaqının sədridir və bu vəzifəsi çərçivəsində çalışacaq ki, Azərbaycana dəstəyini versin.

Ölkələrimiz arasında münasibətlərin inkişafı və dərinləşdirilməsi üçün böyük imkanların olması göz qabağındadır. Hər iki tərəf bu imkanlardan və potensialdan tam mənada istifadə etməlidir.

Cənab Prezident, çıxışımın sonunda Sizə təşəkkür etmək istəyirəm ki, bu inkişaf məsələləri ilə özünüz yaxından məşğul olursunuz və biznes foruma gəlmisiniz. Mən forumun bütün iştirakçılarına uğurlar arzulayır və sizi bu münasibətlərdən yararlanıb yeni təmaslar qurmağa çağırıram.

* * *

Azərbaycan Prezidenti İlham Əliyev forumda nitq söylədi.

PREZİDENT İLHAM ƏLİYEVİN NİTQİ

- Hörmətli cənab nazir!

Hörmətli xanımlar və cənablar!

İlk növbədə, mən ölkənizə rəsmi səfərimin nəticələrindən olduqca məmnun olduğumu bildirmək istəyirəm. Bu mənim səfərimin artıq üçüncü günüdür və bu günlər ərzində səfər proqramım çox geniş olubdur. Bir çox mühüm görüşlər və genişmiqyaslı müzakirələr keçirilmişdir. Biz bir daha gördük ki, Almaniya-Azərbaycan münasibətləri çox müsbət istiqamətdə inkişaf edir. Bizim çox güclü siyasi əlaqələrimiz var və iqtisadi əməkdaşlığımız da artır. Əminəm ki, bu səfərin nəticəsində əməkdaşlığımızın bütün sahələrində yeni inkişaf və nailiyyətlər əldə olunacaqdır. Xüsusən də iqtisadi əməkdaşlıq sahəsində əlavə işlərin aparılması üçün imkanlar böyükdür.

Bu gün buradakı çıxışlar zamanı Azərbaycanın iqtisadi göstəriciləri qeyd olundu. Bu, bir reallıqdır. Ölkəmiz sürətlə inkişaf edir. Son iki il ərzində biz ümumi daxili məhsulun artımına görə lider ölkə olmuşuq və çalışacağıq ki, 2007-ci ildə də bu liderliyi saxlayaq. Bunun üçün əsas səbəb, əlbəttə ki, bizim enerji siyasətimizdir. Biz bunu 1994-cü ildə başladıq və o vaxt dünyanın əsas şirkətləri ilə müqavilə imzalandı. İndi isə onun nəticələri qeyri-neft sektorunda böyük inkişafa nail olmaq imkanı yaradır. Bizim üçün neft və qaz sektorunun inkişafı ölkənin tərəqqisi, əlavə sərmayələrin cəlb edilməsi, xarici şirkətlər qarşısında daha etibarlı tərəfdaşa çevrilməsi, neft və qazdan əldə olunan gəlirlərin iqtisadiyyatın şaxələndirilməsinə yönəldilməsi üçün vasitədir.

Çox fərəhləndirici haldır ki, hazırda Azərbaycanın ümumi daxili məhsulunun həcmində qeyri-neft sektorunun payı çox böyükdür. Təbii ki, indi neft və qaz sektoru iqtisadiyyatımızın əsas hissəsini təşkil edir. Biz böyük həcmli hasilat ərəfəsindəyik və artıq çəkdiyimiz boru kəmərləri neft və qaz resurslarımızı dünyaya çıxarmağa imkan yaradır. Hasilatımız artır, cari il ərzində neft hasilatının həcmi 40 milyon ton, gələn il isə 50 milyon tondan çox olacaqdır. Böyük "Şahdəniz" yatağından qaz hasilatı cari ilin mart ayında başlayacaqdır. Əlbəttə, bunun sayəsində biz həm öz tələbatlarımızı, həm də qonşuların tələbatlarını ödəyə biləcəyik.

Artıq qeyd edildiyi kimi, biz Avropa İttifaqı ilə enerji sahəsində strateji tərəfdaşlıq haqqında memorandum imzalamışıq. Bu, bizim inkişafımızın yeni mərhələsidir. Bu o deməkdir ki, əvvəllər, neft və qaz layihələrimizə başlayanda Avropa bazarları barədə düşünmürdük. Çünki, həmin vaxt biz öz bazarımıza və qonşu bazarlara diqqət yetirirdik. Lakin bu gün vəziyyət dəyişib və biz əlavə addımlar atırıq ki, Avropa ilə neft və qaz sahəsində enerji tərəfdaşlığımızı daha da möhkəmləndirək.

Son on il ərzində biz ölkəmizə çoxlu xarici sərmayə cəlb edə bilmişik. Azərbaycana on il ərzində ümumilikdə 30 milyard dollar sərmayə yatırılmışdır. Bizim yaxşı nüfuzumuz var və etibarlı tərəfdaşıq. Biz imzalanmış müqavilələrin yerinə yetirilməsinə çox sadiqik. Buna görə də Azərbaycan sərmayələr üçün cəlbedici ölkə olaraq qalır. Sərmayə mühiti çox yaxşıdır. Təbii ki, xarici sərmayələr bizim ölkədə alqışlanır. Yerli sərmayələrin artması böyük vədlər verir. Orta təbəqə formalaşır və bu gün ümumi daxili məhsulda özəl sektorun payı artıq 81 faizdir. 15 il əvvəl, ümumiyyətlə, ölkəmizdə özəl sektor yox idi. Hesab edirəm ki, bu, çox böyük bir nailiyyətdir. Bu rəqəm get-gedə daha da

artacaqdır. Artıq Azərbaycanda bazar iqtisadiyyatı prinsipləri tam tətbiq olunubdur.

Eyni zamanda, biz, çox güclü sosial siyasət aparmağa çalışırıq ki, əhali iqtisadi islahatlardan əziyyət çəkməsin. Adətən, islahatlar çətinliklərlə müşayiət olunur. Ona görə də islahatların mənfi təsirini azaltmaq üçün biz bu mərhələdə çox fəal sosial siyasəti aparmağa çalışırıq ki, yoxsul əhali üçün əlavə imkanlar yaransın. Azərbaycanda yoxsulluq gözəçarpan dərəcədə azalır və 2003-cü ildəki 49 faiz artıq bu ilə qədər 20 faizə düşmüşdür. Vəzifəmiz işsizliyin və yoxsulluğun tamamilə aradan qaldırılmasından ibarətdir. Bu baxımdan sizə deyə bilərəm ki, biz, əsasən, qeyri-neft sektoruna diqqət yetiririk. Çünki neft sektoru çox sayda iş yerləri açmır. Həmin sektor bizə əlavə imkanlar və maliyyə resursları verir ki, biz sosial, o cümlədən infrastruktur layihələrini həyata keçirə bilək.

Amma güclü iqtisadiyyata nail olmaq üçün bizim kiçik və orta sahibkarlar daha fəal olmalıdır. Ona görə biz yerli sahibkarlara dəstək veririk. Biz hər il əsasən fermerlərə və regionlara 100 milyon dollar həcmində çox güzəştli kreditlər ayırırıq. 100 milyon ABŞ dolları kapitalına malik olan Dövlət İnvestisiya Şirkəti yaratmışıq ki, o, müxtəlif sahələrdə həmtəsisçi kimi çıxış etsin. Bu günə qədər Azərbaycanda sərmayələr məhz xarici sərmayədarlar üçün cəlbedici sahələrə yatırılmışdır. Bu da təbiidir. Amma elə sahələr ola bilər ki, onlar o qədər də cəlbedici olmasın, lakin hökumət onları inkişaf etdirmək istəyir. Ona görə də biz Dövlət İnvestisiya Şirkəti yaratmışıq ki, həmin sahələrdə digər investorlarla birgə həmtəsisçi olsun ki, onların etimadı da artsın. Onların qoyduğu pullar itməyəcəkdir. Bütün bunlar biznes fəaliyyətini daha da stimullaşdıracaqdır.

Son üç il ərzində Azərbaycanda 520 min iş yeri açılmışdır və onların əksər hissəsi regionlarda qeyri-neft sektorunun payına düşür. Bütün bunlar çox yaxşı bir sahibkarlıq mühiti yaradır. Dövlət özəl sektora dəstək verir. Mən mütəmadi olaraq sahibkarlarla görüşlər keçirirəm, çalışıram ki, onlara yardım edim və daha əlverişli şərait yaradım, onları qoruyum. Biz bunu necə edə bilərik? Təbii ki, bizim dövlət siyasətimiz və kifayət qədər qanunvericilik bazamız vardır. Lakin, eyni zamanda, praktik işləri də yüksək səviyyədə görməliyik. Biz tam əminik ki, müasir infrastruktur olmadan biznes inkişaf edə bilməz. Ona görə də biz elektrik stansiyalarının tikintisinə sərmayə yatırırıq. Təkcə ötən il ərzində Azərbaycanda dörd stansiya tikilmişdir. İndi Azərbaycanda yeni bir layihə var. Burada qeyd edildi ki, alman şirkətləri hazırda Sumqayıtda böyük elektrik stansiyasının tikilməsində iştirak edir.

Eyni zamanda, biz şəhərlərə, kəndlərə və turizm yerlərinə yollar çəkirik. Bunu regionlardakı prosesin daha da sürətlənməsi məqsədi ilə edirik. Xidmət infrastrukturuna da böyük sərmayələr qoyulur. Bütün bunlar biznesin inkişafı üçün əlverişli şəraitin yaradılmasına yönəlibdir. Ona görə də 2007-ci ildə büdcəmizdən bu məqsədlə 1,5 milyard dollar ayrılacaqdır. Bu nə deməkdir? İlk növbədə, o deməkdir ki, biz olduqca qısa müddət ərzində ölkəmizin bütün infrastrukturunu müasirləşdirə biləcəyik. Çünki onların bir çox hissəsi sovet vaxtlarından qalmışdır. Eyni zamanda, bu, şirkətlər üçün həmin layihələrdə iştirak etməyə əlavə imkanlar yaradır. Biz çox yaxşı nüfuza və iş keyfiyyətinə malik olan peşəkar şirkətlərin dəvət edilməsində olduqca maraqlıyıq. Çünki mənim kimi, siz də bilirsiniz ki, Almaniyada bu cür şirkətlər çoxdur. Beləliklə, alman şirkətləri Azərbaycanda işləmək üçün əlavə imkanlara malikdir. Artıq bizim iqtisadiyyatımız əvvəlki

kimi xarici sərmayələrdən asılı vəziyyətdə deyildir. Biz sərmayələri alqışlayırıq və əlverişli sərmayə mühitini saxlayırıq. Bu gün ölkəmiz sərmayələrin yatırılmasında daxili imkanlara malikdir. Şirkətləri çeşidli layihələrdə iştirak etməyə dəvət edirik. Gələn illər ərzində Azərbaycanda böyük işlər aparılacaq və mən alman şirkətlərini bizimlə işləməyə dəvət edirəm.

Bəzən məlumatsızlıq əlavə problemlər yaradır. Ona görə də bu görüş – Azərbaycan-Almaniya biznes forumu çox yaxşı fürsətdir. İlk növbədə, siz imkanları araşdıra biləcək, gələn beş ildə Azərbaycanda nələrin baş verə biləcəyini müzakirə edəcəksiniz. Bizim bütün sahələri əhatə edən dövlət proqramlarımız var. Yoxsulluğun azaldılması, regional inkişafın təmin olunması üçün, eləcə də infrastruktur, enerji sektorunun inkişafı, o cümlədən alternativ enerji mənbələri ilə bağlı proqramlarımız var. Bizim ekologiya sahəsində də böyük proqramımız var. Hər bir proqramın özünün maliyyə mənbəyi var. Bunlar sadəcə, arzular deyil. 2007-ci ildə praktik addımlar atılmalıdır və bu proqramların əksəriyyəti 2012-ci ilə qədər yekunlaşdırılacaqdır.

Bu görüş imkanları araşdırmaq və təmaslar qurmaq üçün əlverişli fürsətdir. Azərbaycandan gəlmiş çoxsaylı iş adamları görüşdə iştirak edir və bilirəm ki, bir neçə saziş imzalanmaq üçün artıq hazırdır. Bunlar forum zamanı imzalanacaqdır. Eyni zamanda, burada nazir də iqtisadi münasibətlərimizin müzakirəsinə dair fikirlərini ifadə etdi. O bildirdi ki, bu il ərzində Azərbaycana səfər etməyi planlaşdırır. Əminəm ki, onun səfərindən əvvəl şirkətlərimiz arasında əlavə, dövlət qurumları arasında isə yeni sazişlər imzalanacaqdır. Bütün bunlar müsbət inkişaf üçün əlverişli zəmin yaradır.

Bizim çox yaxşı əlaqələrimiz var və Azərbaycan çox yüksək iqtisadi artım sürəti ilə seçilən ölkəyə çevrilir. Qeyri-neft sektorunun fəallığından asılı olmayaraq, enerji amili, təbii ki, üstünlük təşkil edəcəkdir. Neftdən gələn gəlir qeyri-neft sektorundan əldə olunan gəlirlərlə müqayisə edilə bilməz. Biz həmin vəsaitləri iqtisadiyyatın şaxələndirilməsi üçün sərf edirik. Azərbaycanda Dövlət Neft Fondu təsis olunub, bütün gəlirlər həmin Fondda yığılır və onların xərclənməsi ilə bağlı qərarlar parlament tərəfindən qəbul edilir. Bir tərəfdən, mən alman şirkətlərini bizim əlverişli sərmayə mühiti olan ölkəmizə sərmayə qoymağa dəvət edirəm, digər tərəfdən, biz öz resurslarımızın əsasında sizinlə birgə tərəfdaş və podratçı kimi işləməyə hazırıq.

Əlbəttə, regionda enerji sektorunun inkişafı müxtəlif proseslərə təsir göstərir. Azərbaycan bütün dünyada quruda və dənizdə ilk dəfə neft hasil edən ölkə olmuşdur. Eyni zamanda, Azərbaycan Xəzər dənizini xarici sərmayədarlar üçün açıq elan edən ilk ölkə oldu. Biz, milyardlarla dollar sərmayə cəlb etmişik və bu gün dünyanın aparıcı şirkətləri tərəfdaşlarımız arasındadır. Bu, eyni zamanda, çox çətin şəraitdə və mürəkkəb bir coğrafi məkanda baş vermişdir. Çünki bizim dünya bazarlarına çıxışımız yox idi. Biz nefti çıxarmaq və onu nəql etmək imkanlarımızı əldə etdik. Bakıdan Aralıq dənizinə çəkilən boru kəməri tarixi bir nailiyyətdir. Nazir qeyd etdi ki, bu, əvvəllər əfsanə hesab edilirdi. Lakin biz bu əfsanəni reallığa çevirdik.

Biz eyni addımları qaz kəmərinin çəkilməsində də atdıq. Azərbaycan qazının dünya bazarlarına çıxarılması işi artıq hazırdır. Eyni zamanda, biz, Bakıdan Gürcüstan vasitəsilə Türkiyəyə dəmir yolu çəkərək və Avropa ilə Asiyanı birləşdirmək üçün dəmir yolu layihəsinin də həyata keçirilməsinə başlamışıq. Azərbaycan elə bir ölkədir ki, onun ərazi-

sindən tranzit kimi istifadə etməmək qeyri-mümkündür. İstər enerji məqsədləri, istərsə də daşınmalar üçün Azərbaycan çox əlverişli bir dəhlizdir. Bu səbəbdən də biz bütün bu layihələri irəli sürən bir ölkəyik. Bir çox ölkələrdən gələn müxtəlif marşrutlar və müxtəlif yollar Azərbaycandan keçir. Bu isə, sadəcə, coğrafiya ilə bağlı olmayıb, Azərbaycanın qətiyyəti, baxışları və infrastrukturu sayəsində mümkün olmuşdur.

Biz boru kəmərlərinin inşasını tamamladıq, indi isə dəmir yolu tikintisi üzərində işləyirik. Hazırda həmin boru kəmərlərindən dostlarımız və qonşularımızla, bir sözlə, tərəfdaşlarımızla birlikdə istifadə edirik. Əminəm ki, sərmayədarları qəbul edən və etibarlı tərəfdaş ölkə kimi Azərbaycan özünü nümayiş etdirəcəkdir. Eyni zamanda Azərbaycan tranzit ölkə kimi etibarlı tərəfdaş olaraq qalacaqdır. Bu, bizim Avropa İttifaqı ilə və ümumiyyətlə, Avropa ilə əlaqələrimizi möhkəmləndirir. Biz bu sahədə müxtəlif aspektlərdə işləyirik.

Burada qeyd edildi ki, ötən ilin noyabr ayında Brüsseldə Avropa İttifaqı ilə enerji məsələləri üzrə strateji tərəfdaşlığa dair anlaşma memorandumu imzalandı. Biz artıq gələcək əməkdaşlığımızı müəyyən etmişik. Eyni zamanda, biz noyabr ayında Avropa İttifaqı ilə "Yeni qonşuluq siyasətinə dair fəaliyyət planı" çərçivəsində beşillik tədbirlər planını imzalamışıq. Burada iqtisadi, sosial, mədəni və regional sahələrdə işlərin aparılması nəzərdə tutulur. Ona görə də gələn beş il ərzində Azərbaycan Avropaya daha yaxın olacaqdır. Bizim gündəliyimizdə duran məsələlər Azərbaycandakı meyarları Avropa İttifaqında olan meyarlara yaxınlaşdırmaqdan ibarətdir. Çünki Avropa modeli uğurlu bir modeldir. Avropa çox yaxşı inkişaf edir, genişlənir və yaşayış standartları təkmilləşir. Biz öz vətəndaşlarımız üçün də eyni addımları atmaq istəyirik.

Biz təhsil sahəsinə sərmayələr qoyuruq. Hər bir məktəbdə kompyuterlər quraşdırır və internetə çıxışı təmin edirik. Hazırda yaxşı maliyyə vəziyyətimiz malikik. Bizim böyük enerji resurslarımız var. Təbii ki, bizim üçün neft və qaz ehtiyatları, ən azı, 100 il üçün də kifayət edəcəkdir. Artıq bizim daşınma sahəsində infrastrukturumuz mövcuddur və qarşıdakı iyirmi-otuz il ərzində on və ya daha çox, ola bilsin, yüz milyardlarla dollar gəlir əldə edəcəyik. Biz bilirik ki, hansı istiqamətdə sərmayə yatıracağıq. Ona görə hər bir baxımdan bizim təkrarolunmaz fürsətimiz var ki, tərəqqi edən, müasir, iqtisadi-siyasi baxımdan möhkəm ölkəyə çevrilək. Öz məqsədlərimizə nail olmaq üçün Avropa İttifaqı və eləcə də, onun aparıcı ölkələri ilə əməkdaşlığımızı getdikcə artırmalıyıq.

Almaniya-Azərbaycan münasibətləri bizim əməkdaşlığımızın və planlarımızın yaxşı bir nümunəsidir. Prezident kimi mən Almaniyaya iki il yarım ərzində üç dəfə səfər etmişəm və indiki ikinci rəsmi səfərimdir. Bütün bunlar bizim təmaslarımızın səviyyəsini göstərir. Dünənki görüşlər göstərdi ki, möhkəm əməkdaşlığımız qarşılıqlı maraq və hörmət prinsiplərinə əsaslanır. Əlbəttə, bu əsasən, qərarları qəbul edən insanlar, siyasətçilər tərəfindən həll olunur. Lakin, eyni zamanda, bizim biznes icmamız da var ki, onlardan və onların götürdükləri öhdəliklərdən də çox şey asılıdır. Məhz bu səbəbdən bu forum nəinki ticari və iqtisadi əlaqələrə, ümumiyyətlə, ikitərəfli münasibətlərimizə dair gündəlikdə duran bütün məsələlərə çox güclü təsir göstərəcəkdir. Ona görə mən istəyirəm ki, Almaniyanın və Azərbaycanın biznes adamları uğurlu əməkdaşlıq etsinlər. Ümid edirəm ki, bu dəfə biz bir çox sazişlərin imzalanmasının şahidi olacağıq və bu sazişlər sayəsində ikitərəfli iqtisadi əlaqələrimiz daha da artacaqdır.

Üç gün ərzində mənə və nümayəndə heyətinə göstərilmiş yüksək qonaqpərvərliyə görə bütün alman dostlarımıza minnətdarlığımı bildirirəm. Sizə və xalqınıza uğurlar arzulayıram.

Təşəkkür edirəm.

* * *

"Şərqi və Mərkəzi Avropa Birliyi" Cəmiyyətinin sədri KLAUS KSOLNER Prezident İlham Əliyevə minnətdarlıq edərək dedi:

- Hörmətli cənab Prezident, Sizə çıxışınıza görə təşəkkürümü bildirirəm. Siz ölkənizi çox əhatəli şəkildə təqdim etdiniz və apardığınız siyasətin hansı nəticələrinin olması barədə məlumat verdiniz. Həmin siyasət uzaqgörənliyə əsaslanır və bu gün öz bəhrələrini verməkdədir. Əldə olunan müsbət nəticələr onu göstərir ki, Siz nəinki bu gününüzü, həmçinin sabahınızı və gələcək illərinizi planlaşdırırsınız. Bu sahədə həyata keçirdiyiniz uzaqgörən siyasətiniz sayəsində ölkənizin gələcəyi artıq təmin olunubdur. Əminəm ki, Sizin simanızda elə bir ölkə başçısı ilə tanış oldum ki, bu məsələnin öhdəsindən gələcəkdir. Siz hər zaman biz tərəfdən dəstək ala, həmişə əməkdaşlığa əmin ola bilərsiniz.

Biz qeyd etdik ki, federal hökumət Azərbaycanda ixrac sahəsində, sadəcə olaraq, 6 faizlə iştirak edir. Mən düşündüm ki, biz bəlkə nəyisə səhv edirik, bu əməliyyatlarda az iştirak edirik. Axı bizim alman məhsulları əməliyyatlarda daha çox təmsil oluna bilər. Mənim bu suala cavabım belə oldu ki, ya biz başqalarından yavaş tərpənirik, yaxud da başqa səbəblər var. Siz bizi dəvət edirsiniz və bu dəvətin nəticəsində Sizə nə isə təklif etməliyik.

Bizim cənab nazirimiz Qlosun rəhbərliyi ilə nümayəndə heyətinin Azərbaycana səfəri planlaşdırılır. Bu səfər çərçivəsində işlərlə intensiv məşğul olmaq niyyətindəyik. Biz Azərbaycana açıq ürəklə və təmiz niyyətlə gələcəyik. Mən Sizə təşəkkür edirəm və fəaliyyətimizlə Sizə arxa durmağa hazırıq. Ölkənizin gələcəyi naminə gördüyünüz işlərdə Sizə uğurlar arzulayır və yenidən təşəkkür edirəm ki, Siz Almaniyaya gəlmisiniz. Çox sağ olun ki, buradasınız və Sizə Vətənə uğurla dönməyi arzulayıram.

* * *

Sonra forum öz işini davam etdirdi. İqtisadi inkişaf naziri Heydər Babayev "Azərbaycan iqtisadiyyatı: perspektivlər və ikitərəfli əməkdaşlıq" mövzusunda çıxış etdi, "Azərbaycanda investisiya mühiti, ticarət və biznes imkanları" mövzusunda təqdimat keçirildi. Sonra açıq müzakirələr oldu. Biznes forumunda Azərbaycan və Almaniya şirkətləri arasında qeyri-neft sektorunun müxtəlif sahələrinə aid bir neçə saziş imzalandı.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN ALMANİYANIN BADEN-VÜRTEMBERQ FEDERAL ƏYALƏTİNİN BAŞ NAZİRİ İLƏ GÖRÜŞÜ

Azərbaycan Prezidenti İlham Əliyev fevralın 16-da, onun üçün ayrılmış iqamətgahda Almaniyanın Baden-Vürtemberq Federal Əyalətinin Baş naziri Günter Ettinger ilə görüşmüşdür.

Günter Ettinger XIX əsrdə Baden-Vürtemberqdən almanların Azərbaycana gəldiyini, burada məskunlaşdığını və İkinci Dünya müharibəsi zamanı onların İosif Stalin tərəfindən köçürüldüyünü xatırlatdı. O, bu federal əyalətin iqtisadi cəhətdən böyük potensiala malik olduğunu vurğulayaraq dedi ki, bizim Azərbaycanla xüsusi əlaqələrimiz var və ölkənizə böyük maraq göstəririk. Məqsədimiz Azərbaycan ilə əməkdaşlığı inkişaf etdirmək, birgə layihələr həyata keçirmək və sərmayə qoymaqdır.

Prezident İlham Əliyev bu təklifi razılıq hissi ilə qarşıladı, Baden-Vürtemberqin ölkəmizlə tarixi əlaqələri barədə danışdı, federal əyalətin Baş nazirini Azərbaycana səfərə dəvət etdi. Dövlətimizin başçısı ölkəmizin iqtisadiyyat, mədəniyyət və təhsil sahələrində əməkdaşlığa hazır olduğunu bildirdi.

SƏFƏR BAŞA ÇATDI

Fevralın 16-da Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Almaniyaya rəsmi səfəri başa çatmışdır.

MALAYZİYA AZƏRBAYCAN İLƏ BÜTÜN SAHƏLƏRDƏ ƏLAQƏLƏRİN GENİŞLƏNMƏSİNDƏ MARAQLIDIR

Milli Məclisin sədri Oqtay Əsədov fevralın 15-də ölkəmizdə səfərdə olan Malayziya Baş nazirinin departamentində nazir Məhəmməd Nəzri Əbdüləziz ilə görüşmüşdür.

Oqtay Əsədov demişdir ki, Azərbaycan 1991-ci ildə dövlət müstəqilliyini bərpa etdikdən sonra dünya birliyinə inteqrasiyaya xüsusi diqqət yetirir. Malayziya ilə də əlaqələrin diqqət mərkəzində olduğunu bildirən sədr, Azərbaycanın bu ölkədə səfirliyinin yaradıldığını demişdir.

Azərbaycanın iqtisadi inkişafı haqqında məlumat verən Oqtay Əsədov, ölkəmizdə qeyri-neft sektorunun tərəqqisi istiqamətində mühüm işlər görüldüyünü diqqətə çatdırmışdır. Son 10 ildə Azərbaycan iqtisadiyyatına 30 milyard ABŞ dollarından çox sərmayə qoyulmuşdur. Azərbaycan regionun lider ölkəsidir. Bakı-Tbilisi-Ceyhan neft kəməri, Bakı-Tbilisi-Ərzurum qaz kəməri, habelə Bakı-Tbilisi-Qars dəmir yolu layihələrinin təşəbbüskarı Azərbaycandır. Bu dəmir yolu yüklərin Avropadan Asiyaya və əks istiqamətdə daşınması üçün ən sərfəli xəttidir.

Azərbaycan və Malayziya xalqları arasında dini, mədəni bağlılığı qeyd edən Milli Məclisin sədri, Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin tarixi, səbəbləri, acı nəticələri barədə ətraflı məlumat vermişdir. Sədr bu məsələdə Azərbaycanın haqlı mövqeyini beynəlxalq təşkilatlar çərçivəsində həmişə dəstəklədiyinə görə, Malayziya tərəfinə minnətdarlığını bildirmişdir.

Səmimi qəbula görə təşəkkür edən Məhəmməd Nəzri Əbdüləziz ölkəsinin Azərbaycan ilə bütün sahələrdə əlaqələrin genişləndirilməsində maraqlı olduğunu demişdir. Qonaq ölkələrimiz arasında əməkdaşlığın dərinləşməsində parlamentlərarası əlaqələrin əhəmiyyətini vurğulamışdır.

Görüşdə qarşılıqlı maraq doğuran digər məsələlər ətrafında geniş fikir mübadiləsi aparılmışdır.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV AVROPA BİRLİYİNİN CƏNUBİ QAFQAZ ÜZRƏ XÜSUSİ NÜMAYƏNDƏSİ PETER SEMNEBİNİ QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev fevralın 17-də Prezident sarayında Avropa Birliyinin Cənubi Qafqaz üzrə xüsusi nümayəndəsi Peter Semnebini qəbul etmişdir.

Görüşdə Azərbaycan-Avropa Birliyi arasında əməkdaşlığın uğurla inkişaf etdiyi vurğulanmış və qarşılıqlı maraq doğuran bir sıra məsələlər müzakirə edilmişdir.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV ALMANİYANIN XARİCİ İŞLƏR NAZİRİ FRANK-VALTER ŞTAYNMAYERİ QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev fevralın 19-da Prezident sarayında Almaniya Federativ Respublikasının xarici işlər naziri Frank-Valter Ştaynmayeri qəbul etmişdir.

Dövlətimizin başçısı qonağa müraciətlə dedi: Xoş gəlmisiniz cənab nazir! Çox şadam ki, qısa müddət ərzində sizinlə ikinci dəfə görüşürəm.

Mən Almaniyaya səfərimdən çox razıyam. Bu səfər, şübhəsiz, bizim münasibətlərimizi yeni səviyyəyə gətirib çıxaracaqdır. Sizin bizim regiona səfərinizin də böyük əhəmiyyəti var və əminəm ki, bu səfər də çox uğurlu olacaqdır. Mən Almaniyada olduğum zaman həm siyasi, həm iqtisadi, həm də bütün başqa sahələrə dair məsələləri çox geniş müzakirə elədim. Bütün sahələrdə çox yaxşı inkişaf var. Bir daha xoş gəlmisiniz.

Nazir Frank-Valter Ştaynmayer minnətdarlıq edərək dedi: Çox sağ olun, cənab Prezident! Çox sevinirəm ki, belə qısa müddətdə Sizinlə yenə görüşürəm. Səfərdən əvvəl mən çox böyük hazırlıq işi apardım və bizim mətbuatda Azərbaycan haqqında çıxan hər bir məqaləni oxudum, çox yaxşı məlumatım var. Sizi əmin etmək istəyirəm ki, Almaniya tərəfi həm Sizin səfərinizdən, həm də iqtisadi nümayəndə heyətinin fəaliyyətindən çox razı qaldı. Ümid edirəm ki, Sizin bu səfərinizdən sonra əlaqələrimiz yeni bir səviyyəyə qədəm qoyacaqdır.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV GÜRCÜSTANIN TƏBİİ SƏRVƏTLƏR VƏ ƏTRAF MÜHİTİN MÜHAFİZƏSİ NAZİRİ DAVİD TKEŞELAŞVİLİNİN RƏHBƏRLİK ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİNİ QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev fevralın 20-də Prezident sarayında Gürcüstanın təbii sərvətlər və ətraf mühitin mühafizəsi naziri David Tkeşelaşvilinin rəhbərlik etdiyi nümayəndə heyətini qəbul etmişdir.

Görüşdə Azərbaycan ilə Gürcüstan arasında münasibətlərin müxtəlif sahələrdə uğurla inkişaf etdiyi vurğulandı, iki ölkənin ətraf mühitin qorunması sahəsində əməkdaşlığının əlaqələrimizin daha da gücləndirilməsi baxımından önəmli olduğu bildirildi.

David Tkeşelaşvili Gürcüstan Prezidenti Mixail Saakaşvilinin salamlarını Prezident İlham Əliyevə çatdırdı.

Prezident İlham Əliyev Prezident Mixail Saakaşvilinin salamlarına görə minnətdarlığını bildirdi və onun da salamlarını Gürcüstanın dövlət başçısına çatdırmağı xahiş etdi.

MOLDOVA RESPUBLİKASININ BAŞ NAZİRİ VASİLE TARLEVİN AZƏRBAYCANA RƏSMİ SƏFƏRİ

Moldova Respublikasının Baş naziri Vasile Tarlev fevralın 22-də Bakıya rəsmi səfərə gəlmişdir.

BAKIDA AZƏRBAYCAN İLƏ MOLDOVA ARASINDA İQTİSADİ ƏMƏKDAŞLIQ ÜZRƏ BİRGƏ HÖKUMƏTLƏRARASI KOMİSSİYANIN İKİNCİ İCLASI KEÇİRİLMİŞDİR

Fevralın 22-də Bakıda Azərbaycan ilə Moldova arasında iqtisadi əməkdaşlıq üzrə birgə hökumətlərarası komissiyanın ikinci iclası keçirilmişdir.

İclasdan əvvəl iki ölkənin baş nazirləri Artur Rasizadənin və Vasile Tarlevin təkbətək görüşü olmuşdur.

Komissiyanın Azərbaycan tərəfindən sədri, Baş nazirin birinci müavini Yayub Eyyubov iclası açaraq, ümidvar olduğunu bildirdi ki, Moldova Baş nazirinin başçılıq etdiyi hökumət nümayəndə heyətinin ölkəmizə səfəri qarşılıqlı surətdə faydalı ikitərəfli əməkdaşlığın daha da dərinləşməsinə xidmət edəcəkdir.

Komissiyanın Moldova tərəfindən sədrinin müavini, iqtisadiyyat və ticarət naziri İqor Dodon isə xatırlatdı ki, hazırda iki ölkə arasında müqavilə-hüquqi baza 43 sazişdən ibarətdir. Keçən il 6,6 milyon dollar səviyyəsində olmuş ikitərəfli ticarət dövriyyəsi Azərbaycan və Moldovanın potensialına cavab vermir.

İclasda ikitərəfli əməkdaşlığın fəallaşdırılmasına və səmərəliliyinin yüksəldilməsinə yönəldilmiş təkliflər irəli sürüldü. Moldova Azərbaycanla kənd təsərrüfatı, energetika, turizm sahəsində əlaqələrin inkişafında maraqlıdır. Azərbaycanın Moldovada yerin təkinin kəşfiyyatı üzrə Kişinyovda keçiriləcək beynəlxalq müsabiqədə iştirakının arzu olunduğu bildirildi. Moldova Azərbaycandan qaz idxalına maraq göstərir, ölkəmizə isə kənd təsərrüfatı texnikası, üzümlüklər üçün əkin materialı təklif edir.

Moldova tərəfi müştərək müəssisələr yaradılmasının vacibliyini vurğuladı. Belə bir faktı diqqətə çatdırdı ki, Avropa İttifaqı ilə sərhəddə yerləşən Moldovanın ticarət imtiyazlarına malik olması məhsulun 80 faizini gömrük rüsumu tutulmadan Aİ bazarlarına göndərməyə imkan verir. Bu isə belə müəssisələrin yaradılması üçün yaxşı stimul olar. Bundan başqa, Moldovada 7 azad iqtisadi zona yaradılmışdır.

Sonra iclas iki ölkənin baş nazirlərinin iştirakı ilə davam etdirildi.

Azərbaycan hökumətinin başçısı Artur Rasizadə dedi ki, Azərbaycan-Moldova münasibətləri bütün sahələrdə səmərəli inkişaf edir. Ölkələrimiz GUAM çərçivəsində dinamik əməkdaşlıq edir, beynəlxalq təşkilatlarda eyni mövqe tuturlar. O, belə geniş tərkibli

nümayəndə heyətinin ölkəmizə səfərini Azərbaycan-Moldova münasibətlərinin dərinləşməsi işində daha bir mühüm addım kimi qiymətləndirdi.

A.Rasizadə Azərbaycan iqtisadiyyatının son nailiyyətlərindən, dövlətimizin təşəbbüsü ilə həyata keçirilən qlobal energetika və nəqliyyat layihələrindən danışdı. Eyni zamanda bildirdi ki, Dağlıq Qarabağ münaqişəsinin həll edilməməsi, bir milyon azərbaycanlı qaçqın-köçkünün ağır vəziyyəti ölkəmiz üçün başlıca problem olaraq qalır.

Hökumət başçısı Azərbaycan diasporuna diqqətcil münasibətə görə Moldovanın Baş nazirinə təşəkkür etdi.

Vasile Tarlev vurğuladı ki, iki ölkə arasında həll edilməmiş problemlər yoxdur və Azərbaycan Moldova üçün dost dövlət olaraq qalır. Moldovanın da ərazisində həll edilməmiş qalan Dnestryanı bölgə münaqişəsi var. Moldova dövlətlərin ərazi bütövlüyü və suverenliyi uğrunda, münaqişələrin beynəlxalq hüquq əsasında dinclikllə həlli uğrunda çıxış edir.

O bildirdi ki, azərbaycanlı həmkarı ilə danışıqlar zamanı iki ölkənin Bakıda və Kişinyovda ticarət evlərinin, habelə aviasiya xətlərinin açılması haqqında razılaşma əldə olunmuşdur.

Tərəflər 2007-ci ildə Moldovada Azərbaycan mədəniyyəti günləri keçirilməsi barədə də razılığa gəldilər.

Komissiyanın növbəti iclası gələn il Kişinyovda olacaqdır.

Sonra ikitərəfli hökumətlərarası sazişlər imzalandı.

Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi ilə Moldova Respublikasının Milli Statistika Bürosu arasında statistika sahəsində əməkdaşlıq haqqında sazişi Azərbaycan tərəfindən Dövlət Statistika Komitəsinin sədri Arif Vəliyev, Moldova tərəfindən xarici işlər və Avropa inteqrasiyası nazirinin müavini Yevgeniya Kistruqa imzaladılar.

Azərbaycan Respublikasının Səhiyyə Nazirliyi ilə Moldova Respublikasının Səhiyyə Nazirliyi arasında səhiyyə və tibb elmləri sahəsində əməkdaşlıq haqqında sazişi Azərbaycan tərəfindən səhiyyə naziri Oqtay Şirəliyev, Moldova tərəfindən səhiyyə nazirinin müavini Boris Qolovin imzaladılar.

Azərbaycan Respublikasının Maliyyə Nazirliyi ilə Moldova Respublikasının Maliyyə Nazirliyi arasında əməkdaşlıq haqqında sazişi Azərbaycan tərəfindən maliyyə naziri Samir Şərifov, Moldova tərəfindən maliyyə nazirinin müavini İon Kiku imzaladılar.

Azərbaycan Respublikası Hökuməti ilə Moldova Respublikası Hökuməti arasında geodeziya, xəritəçəkmə, kadastr, yer quruluşu, geoinformasiya sistemləri və Yerin məsafədən zondlaşdırılması sahəsində əməkdaşlıq haqqında sazişi Azərbaycan tərəfindən Dövlət Torpaq və Xəritəçəkmə Komitəsinin sədri Qərib Məmmədov, Moldova tərəfindən kənd təsərrüfatı və yeyinti sənayesi nazirinin müavini Anatolie Spivaçenko imzaladılar.

Azərbaycan Respublikası Hökuməti ilə Moldova Respublikası Hökuməti arasında ətraf mühitin mühafizəsi sahəsində əməkdaşlıq haqqında sazişi Azərbaycan tərəfindən ekologiya və təbii sərvətlər naziri Hüseynqulu Bağırov, Moldova tərəfindən iqtisadiyyat və ticarət naziri İqor Dodon imzaladılar.

Azərbaycan Respublikası Hökuməti ilə Moldova Respublikası Hökuməti arasında miqrasiya sahəsində əməkdaşlıq haqqında sazişi Azərbaycan tərəfindən əmək və əhalinin sosial müdafiəsi naziri Füzuli Ələkbərov, Moldova tərəfindən iqtisadiyyat və ticarət naziri İqor Dodon imzaladılar.

Azərbaycan Respublikası ilə Moldova Respublikası arasında iqtisadi əməkdaşlıq üzrə birgə hökumətlərarası komissiyanın ikinci iclasının protokolunu Azərbaycan tərəfindən Baş nazirin birinci müavini Yaqub Eyyubov, Moldova tərəfindən iqtisadiyyat və ticarət naziri İqor Dodon imzaladılar.

AZƏRBAYCAN RESPUBLİKASI HÖKUMƏTİ İLƏ MOLDOVA RESPUBLİKASI HÖKUMƏTİ ARASINDA ƏTRAF MÜHİTİN MÜHAFİZƏSİ SAHƏSİNDƏ ƏMƏKDAŞLIĞA DAİR SAZİŞ

22 fevral 2007-ci il

Bundan sonra "Tərəflər" adlandırılacaq Azərbaycan Respublikası Hökuməti və Moldova Respublikası Hökuməti;

iki ölkə xalqları arasında dostluq əlaqələrinin möhkəmləndirilməsi və ətraf mühitin mühafizəsi və təbii sərvətlərdən davamlı istifadə məqsədi ilə əməkdaşlığı inkişaf etdirmək niyyətində olduqlarını ifadə edərək;

hər iki dövlətin iştirakçısı olduqları beynəlxalq konvensiyalardan irəli gələn öhdəliklərin yerinə yetirilməsi üçün ətraf mühitin mühafizəsi sahəsində ikitərəfli əməkdaşlığın gücləndirilməsinin əhəmiyyətini qeyd edərək;

aşağıdakılar barədə razılığa gəldilər:

MADDƏ 1

Müvəkkil orqanları sayılırlar:

Azərbaycan Respublikası tərəfindən – Azərbaycan Respublikası Ekologiya və Təbii Sərvətlər Nazirliyi;

Moldova Respublikası tərəfindən - Moldova Respublikası Ekologiya və Təbii Sərvətlər Nazirliyi.

MADDƏ 2

Ətraf mühitin çirklənməsinin qarşısının alınması, mühafizəsi və təbii sərvətlərdən davamlı istifadə sahəsində qarşılıqlı əməkdaşlığın möhkəmləndirilməsi müvafiq proqramlar və planlar vasitəsi ilə təmin ediləcəkdir.

MADDƏ 3

Tərəflər arasında ətraf mühit üzrə əməkdaşlığın əsas sahələri aşağıdakılar olacaqdır:

a) Mühafizə olunan ərazilərin idarə olunması;
b) Bioloji müxtəlifliyin qorunması;
c) Ətraf mühitə təsirin qiymətləndirilməsi, transsərhəd kontekstinin daxil edilməsi;
d) Tullantıların (o cümlədən təhlükəli tullantıların) idarə olunması;

e) Qanunvericilik və normativ aktların işlənib hazırlanması və tətbiq edilməsi;
f) Atmosfer havası, o cümlədən ozon təbəqəsinin qorunması, qlobal iqlim dəyişmələrinin və uzaq məsafələrdə havanın transsərhəd çirklənməsinin qarşısının alınması;
g) Meşələrin idarə olunması;
h) Mineral ehtiyatlarının idarəedilməsi, o cümlədən yeraltı sərvətlərin tədqiqatı, kəşfiyyatı və istismarı
i) Ətraf mühit sahəsində elmi tədqiqatlar və monitorinq;
j) Tərəflərin birgə maraq obyekti olan bu və ya digər sahə.

MADDƏ 4

Sazişin 3-cü maddəsində sadalanan sahələr üzrə əməkdaşlıq aşağıdakı şəkildə həyata keçiriləcəkdir:

- Birgə elmi-texniki təhqiqatlar/proqramlar;
- Əməkdaşlıq üzrə layihələrin hazırlanması;
- ətraf mühitin mühafizəsinin ən yaxşı fəaliyyətləri üzrə təcrübə, məlumat və sənədlərin mübadiləsi, davamlı inkişaf və ekoloji təhsilin həyata keçirilməsi;
- qanunvericiliyin və normativ aktlar üzrə mübadilə;
- Ətraf mühitin mühafizəsi üzrə ən yaxşı texnologiyaların mübadiləsi;
- Mütəxəssislər mübadiləsi;
- Təhsil proqramları, konfranslar və simpoziumların təşkili;
- Tərəflərin zəruri hesab etdikləri hər hansı digər əməkdaşlıq formaları.

MADDƏ 5

Tərəflər ətraf mühitin mühafizəsi və təbii sərvətlərdən davamlı istifadə sahəsində çalışan hökumət və qeyri-hökumət təşkilatları nümayəndələrinin əməkdaşlığına yardım göstərəcəklər.

MADDƏ 6

Hazırkı Saziş qüvvəyə mindikdən sonra Tərəflərin hər biri hazırkı Saziş çərçivəsində əməkdaşlıq fəaliyyətinin idarə edilməsinə cavabdeh olan Milli Əlaqələndirici təyin edəcəkdir. Tərəflər Milli Əlaqələndiricilərin təyin olunması barədə bir-birini məlumatlandıracaqlar. Tərəflər qarşı Tərəfə yazılı bildiriş göndərməklə Milli Əlaqələndiricini əvəz edən şəxsləri təyin edə bilərlər.

Tərəflərin Milli Əlaqələndiriciləri hazırkı Sazişin 3-cü maddəsində əksini tapmış əməkdaşlıq sahələri üzrə fəaliyyətlə əlaqədar müfəssəl illik işçi proqramları hazırlayacaqlar.

Milli Əlaqələndiricilər hazırkı Sazişlə müəyyən edilmiş fəaliyyəti müzakirə etmək və ya ətraf mühitin mühafizəsi sahəsində əməkdaşlığa dair məsələlərə baxmaq məqsədi ilə qarşılıqlı razılaşma əsasında görüşlər keçirə bilərlər. Görüşün vaxtı və keçirilmə yeri qarşılıqlı razılaşma ilə müəyyən edilir.

MADDƏ 7

Hazırkı Sazişin təfsiri və ya həyata keçirilməsi zamanı ortaya çıxan bütün mübahisələr Tərəflər arasında danışıqlar və məsləhətləşmələr yolu ilə həll ediləcəkdir.

MADDƏ 8

Hazırkı Sazişin müddəaları Tərəflərin iştirakçıları olduqları digər beynəlxalq müqavilələrdən irəli gələn hüquq və öhdəliklərə toxunmur.

MADDƏ 9

Tərəflərin qarşılıqlı razılığı ilə hazırkı Sazişə onun ayrılmaz hissəsi sayılan və Sazişin 11-ci maddəsində nəzərdə tutulan qaydada qüvvəyə minən ayrı – ayrı protokollarda rəsmiləşdirilən əlavə və dəyişikliklər edilə bilər.

MADDƏ 10

Hazırkı Sazişin qüvvəsinin dayandırılması hazırkı Sazişə uyğun olaraq razılaşdırılmış və onun qüvvədə olduğu zaman başlanmış və sona çatdırılmamış işlərin davam etdirilməsinə təsir etməyəcəkdir.

MADDƏ 11

Hazırkı Saziş Tərəflərin onun qüvvəyə minməsi üçün zəruri olan dövlətdaxili prosedurların yerinə yetirmələri haqqında diplomatik kanallar vasitəsi ilə sonuncu yazılı xəbərdarlığın alındığı tarixdən qüvvəyə minir.

Hazırkı Saziş 5 (beş) il müddətinə bağlanılır. Əgər Tərəflərdən heç biri hazırkı Sazişin qüvvədə olma müddətinin bitməsinə ən azı altı ay qalmış ona xitam vermək niyyəti ilə yazılı formada xəbərdarlıq etməzsə, onun qüvvəsi növbəti beşillik müddətə uzadılacaq.

Bu Saziş Bakı şəhərində 22 fevral 2007-ci il tarixində, iki əsl nüsxədə, hər biri Azərbaycan, moldav və rus dillərində imzalanmışdır, bütün mətnlər eyni qüvvəyə malikdir.

Hazırkı Sazişin müddəalarının təfsirində fikir ayrılığı yaranacağı təqdirdə rus dilində olan mətn əsas götürüləcəkdir.

AZƏRBAYCAN RESPUBLİKASININ EKOLOGİYA VƏ TƏBİİ SƏRVƏTLƏR NAZİRİ	MOLDOVA RESPUBLİKASININ İQTİSADİYYAT VƏ TİCARƏT NAZİRİ
HÜSEYNQULU BAĞIROV	*İQOR DODON*

AZƏRBAYCAN RESPUBLİKASININ MALİYYƏ NAZİRLİYİ İLƏ MOLDOVA RESPUBLİKASININ MALİYYƏ NAZİRLİYİ ARASINDA DÖVLƏT MALİYYƏLƏŞMƏSİ SAHƏSİNDƏ ƏMƏKDAŞLIĞA DAİR SAZİŞ

22 fevral 2007-ci il

Bundan sonra "Tərəflər" adlandırılacaq Azərbaycan Respublikasının Maliyyə Nazirliyi və Moldova Respublikasının Maliyyə Nazirliyi,

- büdcə və maliyyə sisteminin möhkəmləndirilməsi zərurətini qeyd edərək,
- dövlət maliyyələşməsi sahəsində əməkdaşlığın gücləndirilməsi məqsədinə çatmaq niyyətində olaraq,
- dövlət büdcə və maliyyə sisteminin beynəlxalq standartlara uyğunlaşdırılmasına səy göstərərək,
- iki dövlət arasında mövcud müsbət münasibətlərə əsaslanaraq,
- aşağıdakılar barədə razılığa gəldilər:

MADDƏ 1
SAZİŞİN MƏQSƏDİ

Bu Sazişin məqsədi Tərəflər arasında onların səlahiyyətləri çərçivəsində və mövcud qanunvericiliyinə müvafiq olaraq, uzunmüddətli əməkdaşlığa şərait yaratmaqdan ibarətdir.

MADDƏ 2
ƏMƏKDAŞLIQ SAHƏLƏRİ

Tərəflər aşağıdakı sahələrdə əməkdaşlıq edəcəklər:

1) dövlət büdcəsinin tərtib olunması və icrası;
2) dövlət sektorunda mühasibatlıq;
3) büdcədaxili münasibətlər;
4) vergi siyasəti və vergiqoymanın idarə olunması;
5) dövlət borcunun idarə olunması;
6) şirkətlərin mühasibat uçotu və auditi;
7) daxili dövlət maliyyə nəzarəti;
8) maliyyə xidmətləri: sığorta bazarı;
9) Tərəflərin razılaşdığı digər əməkdaşlıq sahələri.

MADDƏ 3
ƏMƏKDAŞLIĞIN HƏYATA KEÇİRİLMƏSİ

Tərəflər arasında əməkdaşlıq aşağıdakı formalarda həyata keçiriləcək:

1) Bu Sazişin 2-ci maddəsində göstərilən sahələrdə ümumi əməkdaşlıq proqramlarının işlənib hazırlanması və həyata keçirilməsi;
2) Dövlət büdcə və maliyyə sisteminin tənzimlənməsi sahəsində təcrübə mübadiləsi və dövlət sektorunda mühasibat uçotu prosesinin beynəlxalq standartlara uyğunlaşdırılmasının təmin edilməsi;

3) Tərəflər arasında görüşlərin, tədris xarakterli tanışlıq səfərlərinin və məsləhətləşmələrin həyata keçirilməsi;
4) Dövlət maliyyələşməsi sahəsinə dair qanunvericilik aktlarının, metodiki təlimatların və digər məlumatların mübadiləsi;
5) Birgə təlim proqramları;
6) Ümumi maraqlar sahəsində ekspertlərin mübadiləsi və görüşlərin təşkil olunması;
7) Dövlət maliyyələşməsinin idarə olunması sahəsində yeni texnologiyaların tətbiqi.

Tərəflər yuxarıda göstərilənlərlə yanaşı öz aralarında razılaşdırdıqları digər formalarda da əməkdaşlıq edə bilərlər.

MADDƏ 4
ƏMƏKDAŞLIĞIN PLANLAŞDIRILMASI

Bu Sazişə uyğun olaraq, Tərəflər birgə Azərbaycan-Moldova Hökumətlərarası Komissiya çərçivəsində həyata keçirilən beynəlxalq əməkdaşlığa əlavə olaraq müxtəlif tədbirlərin görülməsinə razılaşırlar.

MADDƏ 5
MALİYYƏ MÜDDƏALARI

Tərəflər konkret hallardan asılı olaraq və öz büdcə imkanları çərçivəsində maliyyələşdirmə və hər hansı bir layihənin həyata keçirilməsi ilə bağlı tədbirlərin görülməsini nəzərdən keçirəcəklər.

MADDƏ 6
MÜBAHİSƏLƏRİN HƏLLİ

Hazırkı Sazişin təfsiri və ya tətbiqi zamanı yaranan fikir ayrılıqları Tərəflər arasında danışıqlar və məsləhətləşmələr yolu ilə həll ediləcəkdir.

MADDƏ 7
TƏRƏFLƏRİN DİGƏR BEYNƏLXALQ SAZİŞLƏRDƏN YARANAN ÖHDƏLİKLƏRİ

Bu Saziş Tərəflərin dövlətlərinin bağladığı digər beynəlxalq müqavilələrdən, yaxud onların beynəlxalq təşkilatlara üzvlüyündən irəli gələn hüquq və öhdəliklərinə təsir etmir.

MADDƏ 8
ƏMƏKDAŞLIQ SAZİŞİNƏ DÜZƏLİŞLƏR

Tərəflərin qarşılıqlı razılığı ilə hazırkı Sazişə onun ayrılmaz hissəsi olan və hazırkı Sazişin 9-cu maddəsində nəzərdə tutulan qaydada qüvvəyə minən ayrı-ayrı Protokollarla rəsmiləşdirilən əlavə və dəyişikliklər edilə bilər.

MADDƏ 9
MÜDDƏT VƏ XİTAM

Bu Saziş onun qüvvəyə minməsi üçün zəruri olan dövlətdaxili prosedurların yerinə yetirilməsi barədə diplomatik kanallar vasitəsi ilə Tərəflərin sonuncu yazılı bildirişinin alındığı tarixdən qüvvəyə minir.

Bu Saziş beş il müddətinə bağlanılır və Tərəflərdən biri Sazişin müddətinin başa çatmasına ən azı 6 ay qalmış diplomatik kanallar vasitəsilə digər Tərəfə Sazişin ləğv edilməsi niyyəti barədə yazılı bildiriş təqdim etməzsə, Saziş növbəti beş illik müddətlərə uzadılır.

Bu Saziş Bakı şəhərində 22 fevral 2007-ci il tarixində iki əsl nüsxədə, hər biri Azərbaycan, moldav və ingilis dillərində imzalanmışdır, bütün mətnlər eyni qüvvəyə malikdir. Sazişin təfsirində fikir ayrılığı olduqda ingilis dilində olan mətn əsas götürüləcəkdir.

AZƏRBAYCAN RESPUBLİKASININ MALİYYƏ NAZİRİ	MOLDOVA RESPUBLİKASI MALİYYƏ NAZİRİNİN MÜAVİNİ
SAMİR ŞƏRİFOV	*İON KİKU*

AZƏRBAYCAN RESPUBLİKASI HÖKUMƏTİ İLƏ MOLDOVA RESPUBLİKASI HÖKUMƏTİ ARASINDA MİQRASİYA SAHƏSİNDƏ ƏMƏKDAŞLIQ HAQQINDA SAZİŞ

22 fevral 2007-ci il

Bundan sonra "Tərəflər" adlandırılacaq Azərbaycan Respublikası Hökuməti və Moldova Respublikası Hökuməti,

hər iki dövlət arasında əlaqələrin möhkəmləndirilməsini və genişləndirilməsini arzulayaraq,

miqrasiya proseslərinin tənzimlənməsinin və idarə olunmasının və qeyri-leqal miqrasiya ilə mübarizənin zəruriliyini nəzərə alaraq,

miqrasiya proseslərinin tənzimlənməsi sahəsində qarşılıqlı faydalı əməkdaşlığın möhkəmləndirilməsinə və inkişaf etdirilməsinə və insan hüquq və azadlıqlarının müdafiəsinin təmin edilməsinə xüsusi əhəmiyyət verərək,

miqrasiya sahəsində ikitərəfli əməkdaşlığın effektiv formalarının inkişaf etdirilməsi və peşəkar əlaqələrin genişləndirilməsi üzrə ümumi niyyətlərini ifadə edərək,

aşağıdakılar barədə razılığa gəldilər:

MADDƏ 1

Tərəflər aşağıdakı əsas istiqamətlər üzrə əməkdaşlıq edəcəklər:

bütün növ miqrantların hüquqlarının qorunması və təmin edilməsi;

miqrasiyanın idarə olunması, qanunsuz miqrasiyanın qarşısının alınması və insan alverinə qarşı mübarizə;

sığınacaq və qaçqınlar problemi;

vətəndaşların könüllü geriyə qayıtması.

MADDƏ 2

Bu Sazişin yerinə yetirilməsi üçün Tərəflərin Səlahiyyətli Orqanları aşağıdakılardır:

Azərbaycan Respublikası Hökuməti tərəfindən - Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyi, Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi;

Moldova Respublikası Hökuməti tərəfindən - Moldova Respublikasının Daxili İşlər Nazirliyi, Moldova Respublikasının İqtisadiyyat və Ticarət Nazirliyi.

MADDƏ 3

Tərəflər miqrasiya proseslərinin tənzimlənməsi sahəsində təcrübə və məlumat mübadiləsini həyata keçirəcəklər, xüsusən də:

bu sahədə milli siyasətin hazırlanması və həyata keçirilməsi;

bu sahədə milli qanunvericilik;

miqrasiya sahəsində informasiya sistemlərinin yaradılması və məlumat bazasının idarə olunması;

miqrasiya axınlarına nəzarət;

qanunsuz miqrasiyaya qarşı tədbirlər;

xarici əmək miqrasiyası və bir Tərəf dövlətinin vətəndaşının digər Tərəf dövlətində işə düzəlməsi imkanları.

MADDƏ 4

Tərəflərin Səlahiyyətli Orqanları bu Sazişin həyata keçirilməsi ilə bağlı məsələlərin həlli üçün birgə işçi qrupu yaradırlar.

İşçi qrupu ehtiyac yarandıqda növbə ilə Bakı və Kişinev şəhərlərində birgə iclaslar keçirir.

Tərəflər zəruri hallarda bu Saziş çərçivəsində ikitərəfli əməkdaşlığın səmərəliliyinin artırılması imkanlarının öyrənilməsi məqsədi ilə iclaslar və məsləhətləşmələr təşkil edirlər.

Həmçinin Tərəflər iş təcrübəsinin öyrənilməsi və bu Sazişlə müəyyən edilmiş əməkdaşlıq üzrə məlumatlandırılma məqsədi ilə mütəxəssislərinin ezam olunmasını təşkil edirlər.

Əməkdaşlıq və təcrübə mübadiləsi üzrə fəaliyyətin müddəti, proqramı və maliyyə şərtləri Tərəflərin qarşılıqlı razılığı əsasında müəyyən ediləcəkdir.

MADDƏ 5

Tərəflər beynəlxalq və regional təşkilatların işində iştirak çərçivəsində mövqelərin razılaşdırılması və əhalinin miqrasiya problemlərinin həlli üzrə səylərin əlaqələndirilməsi məqsədi ilə əməkdaşlıq etmək və məsləhətləşmələr aparmaq niyyətlərini ifadə edirlər.

MADDƏ 6

Tərəflər həmçinin digər qarşılıqlı məqbul olan istiqamətlərdə də əməkdaşlıq etmək niyyətindədirlər.

MADDƏ 7

Tərəflər bu Sazişin müddəalarının tətbiqi və təfsiri zamanı yaranmış mübahisələri və fikir ayrılıqlarını danışıqlar və məsləhətləşmələr yolu ilə həll edirlər.

Bu Sazişin müddəaları Tərəflərin iştirakçısı olduqları digər beynəlxalq müqavilələrdən irəli gələn öhdəliklərinə təsir etmir.

MADDƏ 8

Tərəflərin qarşılıqlı razılığı əsasında bu Sazişə onun ayrılmaz hissəsi olan ayrıca Protokollarla rəsmiləşdirilən və 9-cu Maddədə müəyyən olunmuş qaydada qüvvəyə minən əlavələr və dəyişikliklər edilə bilər.

MADDƏ 9

1. Bu Saziş, onun qüvvəyə minməsi üçün zəruri olan dövlətdaxili prosedurların yerinə yetirilməsi haqqında Tərəflərin diplomatik kanallar vasitəsilə axırıncı yazılı bildirişinin alındığı tarixdən qüvvəyə minir.

2. Bu Saziş 5 il müddətinə bağlanılır. Tərəflərdən biri Sazişin müddətinin başa çatmasına ən azı 6 ay qalmış diplomatik kanallar vasitəsilə digər Tərəfə Sazişin ləğv edilməsi niyyəti barədə yazılı bildiriş təqdim etməzsə, Saziş növbəti bir illik müddətlərə uzadılır.

Bu Saziş, Bakı şəhərində 22 fevral 2007-ci il tarixində, iki əsl nüsxədə, hər biri Azərbaycan, moldav və rus dillərində imzalanmışdır, bütün mətnlər bərabər autentikdir. Bu Sazişin təfsiri ilə bağlı fikir ayrılığı yarandığı təqdirdə, rus dilində olan mətndən istifadə edilir.

AZƏRBAYCAN RESPUBLİKASININ ƏMƏK VƏ ƏHALİNİN SOSİAL MÜDAFİƏSİ NAZİRİ	MOLDOVA RESPUBLİKASININ İQTİSADİYYAT VƏ TİCARƏT NAZİRİ
FİZULİ ƏLƏKBƏROV	*İQOR DODON*

AZƏRBAYCAN RESPUBLİKASININ DÖVLƏT STATİSTİKA KOMİTƏSİ İLƏ MOLDOVA RESPUBLİKASININ MİLLİ STATİSTİKA BÜROSU ARASINDA STATİSTİKA SAHƏSİNDƏ ƏMƏKDAŞLIQ HAQQINDA SAZİŞ

22 fevral 2007-ci il

Bundan sonra "Tərəflər" adlandırılacaq Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi və Moldova Respublikası Milli Statistika Bürosu,

statistika sahəsində əməkdaşlığın inkişaf etdirilməsində, məlumatların mübadiləsinin genişləndirilməsi və iki dövlət arasında iqtisadi əlaqələrin əks etdirilməsində qarşılıqlı surətdə maraqlı olaraq

aşağıdakılar barədə razılığa gəlmişlər:

MADDƏ 1

Məlumatların konfidensiallığını və dövlət sirrini əks etdirən informasiyaların qorunmasını təmin etməklə, göstəricilərin müqayisəliliyini təmin etməyə imkan verəcək hər iki dövlətin sosial-iqtisadi vəziyyətini əks etdirən statistik məlumatların qarşılıqlı mübadiləsi üzrə statistika sahəsində qarşılıqlı əlaqələri və əməkdaşlığı inkişaf etdirmək.

MADDƏ 2

Tərəflər statistika sahəsində əməkdaşlığı aşağıdakı vasitələrlə həyata keçirəcəklər:

- dövlətin sosial-iqtisadi, demoqrafik, ekoloji vəziyyətini əks etdirən statistik nəşrlərin və çap məhsullarının mübadiləsi;
- statistik müşahidələrin (o cümlədən siyahıyaalmaların və müayinələrin) həyata keçirilməsi, statistik göstəricilər sisteminin yaradılması və istifadə edilməsi üzrə statistik materialların və işləmələrin mübadiləsi;
- seminarların və müşavirələrin keçirilməsi, həmçinin digər Tərəfin iş təcrübələrinin öyrənilməsi üçün mütəxəssislərin qarşılıqlı səfərlərin təşkil edilməsi;
- beynəlxalq statistika və iqtisadi təşkilatlar tərəfindən keçirilən tədbirlərdə iştirak məsələləri üzrə birgə fəaliyyət.

MADDƏ 3

Əməkdaşlıq bu Sazişin ayrılmaz hissəsi hesab olunan qarşılıqlı razılıq əsasında işlənib hazırlanmış və hər iki statistika təşkilatının rəhbərləri tərəfindən 2 illik dövr üçün təsdiq olunmuş tədbirlər planı əsasında həyata keçiriləcəkdir.

MADDƏ 4

Əməkdaşlığın əlaqələndirilməsi hər iki Tərəfdən təyin olunmuş vəzifəli cavabdeh şəxslər tərəfindən həyata keçirilir.

MADDƏ 5

Əməkdaşlıq prosesində bir tərəfdən alınmış informasiya yalnız bu informasiyanı təqdim edən Tərəfin yazılı razılığı əsasında üçüncü tərəfə verilə bilər. Əməkdaşlıq prosesində alınan informasiya Tərəflərin mənafelərinin ziyanına istifadə edilə bilməz.

MADDƏ6

Tərəflərin qarşılıqlı razılığı əsasında bu Sazişə onun ayrılmaz hissəsi olan, Sazişin 7-ci maddəsində nəzərdə tutulan qaydada qüvvəyə minən və ayrıca Protokollarla rəsmiləşdirilən əlavə və dəyişikliklər edilə bilər

MADDƏ7

Bu Saziş, onun qüvvəyə minməsi üçün zəruri dövlətdaxili prosedurların yerinə yetirilməsi barədə Tərəflərin diplomatik kanallar vasitəsilə sonuncu yazılı bildirişinin alındığı tarixdən qüvvəyə minir.

Bu Saziş qeyri-müəyyən müddətə bağlanılır. Onun tətbiqi Tərəflərdən birinin Sazişin tətbiqini dayandırmaq təşəbbüsündə olduğu barədə digər Tərəfə göndərdiyi yazılı bildiriş vasitəsilə dayandırıla bilər. Saziş belə bildiriş alındıqdan 6 ay sonra qüvvəsini itirir.

Bu Saziş, Bakı şəhərində 22 fevral 2007-ci il tarixində, iki əsl nüsxədə, hər biri Azərbaycan, moldav və rus dillərində imzalanmışdır, bütün mətnlər autentikdir.

Bu Sazişin təfsiri ilə bağlı fikir ayrılığı yarandığı təqdirdə, rus dilində olan mətndən istifadə edilir.

AZƏRBAYCAN RESPUBLİKASI DÖVLƏT STATİSTİKA KOMİTƏSİNİN SƏDRİ	LİTVA RESPUBLİKASI XARİCİ İŞLƏR VƏ AVROPA İNTEQRASİYASI NAZİRİNİN MÜAVİNİ
ARİF VƏLİYEV	*YEUCENİYA KİSTRUQA*

AZƏRBAYCAN RESPUBLİKASININ SƏHİYYƏ NAZİRLİYİ İLƏ MOLDOVA RESPUBLİKASININ SƏHİYYƏ NAZİRLİYİ ARASINDA SƏHİYYƏ VƏ TİBB ELMİ SAHƏSİNDƏ ƏMƏKDAŞLIQ HAQQINDA SAZİŞ

22 fevral 2007-ci il

Bundan sonra "Tərəflər" adlandırılacaq Azərbaycan Respublikasının Səhiyyə Nazirliyi və Moldova Respublikasının Səhiyyə Nazirliyi Səhiyyə və Tibb elmi sahəsində ikitərəfli əməkdaşlığın inkişafı məqsədilə və bu əməkdaşlığın əhalinin sağlamlıq statusunun yaxşılandırılmasına səbəb olacağından əmin olaraq, aşağıdakılar barədə razılığa gəldilər:

MADDƏ 1

Tərəflər tibb müəssisələri və elmi-tədqiqat institutları arasında səhiyyə və tibb elmi sahəsində uzunmüddətli, qarşılıqlı faydalı və bərabər hüquqlu əməkdaşlığı, hər iki Tərəfin ölkə daxili qanunvericiliyinə əsasən inkişaf etdirəcəklər.

MADDƏ 2

Tərəflər tibbin və səhiyyənin aşağıda qeyd olunan sahələri üzrə qarşılıqlı faydalı əməkdaşlığı inkişaf etdirəcəklər:

- Xəstəxanaların menecmenti və səhiyyə sahəsində islahatların idarəedilməsi;
- Səhiyyənin ehtiyaclarına müvafiq olaraq tibb və əczaçılıq elmlərinin inkişaf etdirilməsi;
- Tərəflər üçün qarşılıqlı maraq təşkil edən məlumatlar və materiallar ilə operativ mübadilə;
- Sanitar-epidemioloji vəziyyətin qənaətbəxş olmasının təmin edilməsi sahəsində koordinasiyanın aparılması;
- Sağlamlığın və ətraf mühitin qorunmasının bütün sahələri üzrə, xüsusilə qida məhsullarının təhlükəsizliyinə, suyun monitorinqinə və çalışan əhalinin sağlamlığına aidiyyəti olan proqramlara dair əməkdaşlığın aparılması;
- Ana və uşaq sağlamlığı sahəsində aparılan proqramlar və yaşlı insanlar üçün nəzərdə tutulan proqramlar barədə məlumat mübadiləsi;
- Sanitar kurort müalicəsi və fizioterapevtik proqramlar sahəsində təcrübə və məlumat mübadiləsi;
- Tərəflərin razılığa gəldikləri digər sahələr

MADDƏ 3

Tərəflər hazırkı Sazişin 2-ci Maddəsində qeyd olunanları, mütəxəssislər və tibbi-texniki məlumatlar mübadiləsi, simpoziumların, konfransların təşkili yolları ilə həyata keçirilməsini təmin edəcəklər.

MADDƏ 4

Bu məqsədlə Tərəfləri təmsil edən ölkələrin qanunvericiliyi əsasında tibbi – sanitar müəssisələr özlərinin fəaliyyətləri çərçivəsində birbaşa əlaqələr quraraq xarici tərəfdaşlarla qarşılıqlı faydalı anlaşmalar imzalaya bilərlər.

Sözügedən müəssisələr götürdükləri öhdəçiliklərin həyata keçməsində bu müqavilələrə görə qanuni və maliyyə məsuliyyəti daşıyırlar. Əməkdaşlıq edən müəssisələr arasında hər hansı fikir ayrılığı onlar tərəfindən birbaşa və ya Tərəflər vasitəsi ilə həll edilir. Bu məqsədlə Tərəflər paritet əsasında müvəqqəti və ya daimi fəaliyyət göstərən işçi qruplar yarada bilərlər.

MADDƏ 5

Tərəflər öz ölkələrində keçirməyi planlaşdırılan konqreslər, sərgilər, konfranslar, və digər əməkdaşlıq növləri barədə bir – birini məlumatlandıracaqlar və bu tədbirlərdə iştirak edəcək mütəxəssislərin ölkələrində qəbul edilməsində dəstək göstərəcəklər.

MADDƏ 6

Tərəflər tibb kadrlarının universitet, postuniversitet və ixtisas hazırlığı sahəsində əməkdaşlıq edəcəklər; tibb sahəsində işləyən müəllimlərin və elmi kadrların təkmilləşdirilməsi üçün imkanlar yaradacaq və buna təcrübə mübadiləsi yolu ilə nail olacaqlar.

MADDƏ 7

Hazırkı Sazişin həyata keçirilməsi ilə bağlı xərcləri, bu məqsəd üçün ayrılan vəsaitlərdən asılı olaraq, hər iki Tərəf ödəyəcəkdir.

MADDƏ 8

Tərəflər səhiyyə sahəsində aparılan beynəlxalq səviyyədə maraq doğuran, xüsusilə Ümumdünya Səhiyyə Təşkilatının, digər ixtisaslaşdırılmış agentliklərin və Birləşmiş Millətlər Təşkilatının proqramları çərçivəsində əməkdaşlıq edəcəklər.

MADDƏ 9

Tərəflərin qarşılıqlı razılığı əsasında bu Sazişə onun ayrılmaz hissəsi olan ayrıca Protokollarla rəsmiləşdirilən və hazırkı Sazişin 10-cu maddəsində müəyyən olunmuş qaydada qüvvəyə minən əlavələr və dəyişikliklər edilə bilər.

MADDƏ 10

Bu Saziş onun qüvvəyə minməsi üçün zəruri olan dövlət daxili prosedurların yerinə yetirilməsi barədə diplomatik kanallar vasitəsilə yazılı bildirişin alındığı tarixdən qüvvəyə minir.

Hazırkı Saziş 5 il müddətinə bağlanılır. Tərəflərdən biri Sazişin qüvvədə olma müddətinin bitməsinə ən azı 6 ay qalmış diplomatik kanallar vasitəsilə digər Tərəfə Sazişin ləğv

edilməsi niyyəti barədə yazılı bildiriş təqdim etməzsə, Saziş növbəti beş illik müddətlərə uzadılır.

Bu Saziş, Bakı şəhərində 22 fevral 2007-ci il tarixində, iki əsl nüsxədə, hər biri Azərbaycan, moldav və rus dillərində imzalanmışdır, bütün mətnlər eyni qüvvəyə malikdir.

Bu Sazişin təfsiri və tətbiqi ilə bağlı fikir ayrılığı yarandığı təqdirdə, rus dilində olan mətn əsas götürüləcəkdir.

AZƏRBAYCAN RESPUBLİKASININ SƏHİYYƏ NAZİRİ	MOLDOVA RESPUBLİKASI SƏHİYYƏ NAZİRİNİN MÜAVİNİ
OQTAY ŞİRƏLİYEV	*BORİS QOLOVİN*

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV MOLDOVANIN BAŞ NAZİRİ VASİLE TARLEVİ QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev fevralın 22-də Prezident sarayında Moldova Respublikasının Baş naziri Vasile Tarlevin başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.

Dövlətimizin başçısı qonaqları səmimiyyətlə salamlayaraq dedi ki, hökumətdə keçirilən görüşdə, komissiyanın iclasında ikitərəfli əlaqələrə dair məsələləri müzakirə etmisiniz. Azərbaycan Moldova ilə iqtisadi sahədə əməkdaşlığın fəallaşmasına ümid bəsləyir. İki ölkənin siyasi münasibətləri çox uğurla inkişaf edir, Moldova Prezidentinin Azərbaycana və Azərbaycan Prezidentinin Moldovaya rəsmi səfərləri olmuşdur. Prezident İlham Əliyev dedi: "Biz beynəlxalq təşkilatlar çərçivəsində də, ikitərəfli səviyyədə də fəal işləyirik". Dövlətimizin başçısı iqtisadi əməkdaşlığın yaxşı perspektivləri olduğundan danışaraq əminliyini bildirdi ki, Moldova Baş nazirinin səfəri iki ölkənin ticarət-iqtisadi münasibətlərinin inkişafına təkan verəcəkdir. Azərbaycan Prezidenti dedi: "Potensial mövcuddur, ikitərəfli iqtisadi əlaqələr üçün imkanlar və onları inkişaf etdirmək arzusu var. Biz müttəfiq, tərəfdaş ölkələrik. Ona görə də fəal əməkdaşlığa ümid bəsləyirik".

Vasile Tarlev Azərbaycan dövlətinin başçısına minnətdarlığını bildirərək dedi ki, bu, Moldova Baş nazirinin Azərbaycana ilk rəsmi səfəridir. Azərbaycan-Moldova hökumətlərarası komissiyası iclasının yekunu olaraq, müxtəlif sahələrdə əməkdaşlıq haqqında altı saziş imzalanmışdır. Moldova ilə Azərbaycan arasında heç bir siyasi problem yoxdur. Baş nazir vurğuladı ki, iki ölkənin hökumətləri, nazirlikləri və baş idarələri arasında yaxşı münasibətlər yaranmışdır. Biz ikitərəfli və çoxtərəfli səviyyədə kifayət qədər uğurla əməkdaşlıq edirik.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV "TOTAL" ŞİRKƏTİNİN KONTİNENTAL AVROPA VƏ MƏRKƏZİ ASİYA REGİONU ÜZRƏ BAŞ VİTSE-PREZİDENTİ ARNO BREYAKIN RƏHBƏRLİK ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİNİ QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev fevralın 23-də Prezident sarayında "TOTAL" şirkətinin Kontinental Avropa və Mərkəzi Asiya regionu üzrə baş vitse-prezidenti Arno Breyakın rəhbərlik etdiyi nümayəndə heyətini qəbul etmişdir.

Arno Breyak Prezident İlham Əliyevin bu ilin yanvar ayında Fransaya dövlət səfərinin uğurla keçdiyini bildirərək, bu səfərin iki ölkə arasındakı əlaqələrin, o cümlədən iqtisadi sahədə əməkdaşlığın daha da genişləndirilməsi üçün böyük əhəmiyyəti olduğunu vurğuladı.

Dövlətimizin başçısı "TOTAL" şirkətinin Azərbaycanda uzun illər müvəffəqiyyətlə fəaliyyət göstərdiyini xatırlatdı, şirkət ilə əməkdaşlığın bundan sonra da davam etdiriləcəyinə ümidvar olduğunu bildirdi.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV "CHEVRON" KORPORASİYASININ DİREKTORLAR ŞURASI SƏDRİNİN MÜAVİNİ PİTER ROBERTSONUN RƏHBƏRLİK ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİNİ QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev fevralın 23-də Prezident sarayında "Chevron" korporasiyasının Direktorlar Şurası sədrinin müavini Piter C.Robertsonun rəhbərlik etdiyi nümayəndə heyətini qəbul etmişdir.

Piter C.Robertson Azərbaycanın energetika sahəsində əldə etdiyi böyük nailiyyətlər, xüsusilə Bakı-Tbilisi-Ceyhan və Bakı-Tbilisi-Ərzurum kimi qlobal boru kəmərlərinin inşası ilə əlaqədar Prezident İlham Əliyevi təbrik etdi.

Görüşdə "Chevron" korporasiyası ilə ölkəmiz arasında əməkdaşlığın hazırkı vəziyyəti və perspektivləri barədə fikir mübadiləsi aparıldı.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV HADSON İNSTİTUTUNUN AVRASİYA SİYASƏTİ ÜZRƏ MƏRKƏZİNİN DİREKTORU ZEYNO BARANI QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev fevralın 26-da Prezident sarayında ABŞ-ın Hadson İnstitutunun Avrasiya siyasəti üzrə mərkəzinin direktoru Zeyno Baranı qəbul etmişdir.

Görüşdə beynəlxalq məsələlər ətrafında fikir mübadiləsi aparılmışdır.

AZƏRBAYCAN RESPUBLİKASININ KONSULLUĞU HAQQINDA ƏSASNAMƏ

I. Ümumi müddəalar

1. Azərbaycan Respublikasının Konsulluğu (bundan sonra - Konsulluq) qəbul edən dövlətin ərazisindəki müvafiq konsul dairəsi hüdudlarında Azərbaycan Respublikası adından konsul funksiyalarını yerinə yetirən Azərbaycan Respublikasının dövlət orqanıdır. Konsulluq Azərbaycan Respublikası Xarici İşlər Nazirliyinin (bundan sonra - Nazirlik) rəhbərlik etdiyi diplomatik xidmət orqanlarının vahid sisteminə daxildir.

2. Konsulluqlar Azərbaycan Respublikasının baş konsulluqlarından, konsulluqlarından, vitse-konsulluqlarından, konsul agentliklərindən ibarətdir.

3. Konsulluqlar Azərbaycan Respublikası xarici işlər nazirinin təqdimatı ilə Azərbaycan Respublikasının Prezidenti tərəfindən təsis edilir.

4. Konsulluqlar Azərbaycan Respublikasının qəbul edən dövlətdəki diplomatik nümayəndəliyinin (olduğu halda) başçısının ümumi siyasi rəhbərliyi altında fəaliyyət göstərir.

5. Konsulluq öz fəaliyyətində Azərbaycan Respublikasının Konstitusiyasını, "Diplomatik xidmət haqqında" Azərbaycan Respublikasının Qanununu və digər qanunlarını, Azərbaycan Respublikası Prezidentinin fərman və sərəncamlarını, Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərar və sərəncamlarını, Konsulluq əlaqələri haqqında Vyana Konvensiyasını və Azərbaycan Respublikasının tərəfdar çıxdığı digər müvafiq beynəlxalq müqavilələri, eləcə də beynəlxalq hüququn digər tətbiq edilə bilən normalarını, Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi haqqında Əsasnaməni, Azərbaycan Respublikasının Konsul Nizamnaməsini, bu Əsasnaməni, Nazirliyin əmr, sərəncam və göstərişlərini rəhbər tutur və qəbul edən dövlətin qanunvericiliyini nəzərə alır.

6. Konsulluğun yeri, dərəcəsi və konsul dairəsi qəbul edən dövlətlə razılıq əsasında müəyyənləşdirilir.

7. Konsulluğun binasında və ya onun ərazisində, konsulluğun başçısının iqamətgahında Azərbaycan Respublikasının qanunvericiliyinə uyğun olaraq Azərbaycan Respublikasının Dövlət bayrağı qaldırılır. Konsulluğun binasında və ya onun ərazisində Azərbaycan Respublikasının Dövlət gerbinin təsviri və Azərbaycan dilində və qəbul edən dövlətin dövlət dilində (dövlət dillərində) Konsulluğun adı olan lövhə vurulur. Konsulluğun başçısının nəqliyyat vasitəsi üzərində Azərbaycan Respublikasının Dövlət bayrağı yerləşdirilir. Azərbaycan Respublikasının dövlət rəmzləri qəbul edən dövlətin protokol təcrübəsi nəzərə alınaraq istifadə olunur.

8. Konsulluq, Konsulluğun işçiləri və onlarla birlikdə yaşayan ailə üzvləri qəbul edən dövlətdə beynəlxalq hüquq normalarına və qəbul edən dövlətin qanunvericiliyinə uyğun olaraq immunitet və imtiyazlardan istifadə edir. Konsulluğun işçiləri və onlarla birlikdə yaşayan ailə üzvləri qəbul edən dövlətin qanunvericiliyinə, adət və ənənələrinə hörmət etməli, qəbul edən dövlətin daxili işlərinə qarışmaqdan və daxili işlərinə qarışmaq kimi təfsir oluna bilən hərəkətlərdən çəkinməlidir.

9. Konsulluq Nazirlik tərəfindən təsdiq edilmiş Azərbaycan Respublikasının Dövlət gerbinin təsviri və öz adı həkk olunmuş möhürə,ştamplara, blanklara və bank hesablarına malikdir.

10. Konsulluğun Azərbaycan Respublikasının mülkiyyəti olan torpaq sahələri, binaları, qurğuları və digər əmlakı Azərbaycan Respublikasının qanunvericiliyi ilə müəyyən edilmiş qaydada Konsulluğa təhkim olunur.

11. Konsulluq ona təhkim olunmuş əmlak üzərində sahiblik, istifadə və sərəncam hüququnu Azərbaycan Respublikasının müvafiq qanunvericilik aktları ilə müəyyən edilmiş qaydada həyata keçirir.

12. Bu Əsasnamə fəxri (ştatdankənar) konsullara şamil edilmir.

II. Konsulluğun əsas vəzifələri

13. Konsulluğun əsas vəzifələri aşağıdakılardır:

13.1. Azərbaycan Respublikası ilə qəbul edən dövlət arasında dostluq münasibətlərinin inkişafına, iqtisadi, elmi-texniki, mədəniyyət, ticarət, idman, turizm və digər sahələrdə əlaqələrin genişlənməsinə yardım göstərmək;

13.2. qəbul edən dövlətdə Azərbaycan Respublikasının, onun vətəndaşlarının və hüquqi şəxslərinin hüquq və maraqlarını öz səlahiyyətləri daxilində müdafiə etmək;

13.3. qəbul edən dövlətdə Azərbaycan Respublikasının diplomatik və konsul əlaqələrini qanunvericiliklə nəzərdə tutulmuş qaydada həyata keçirmək;

13.4. qəbul edən dövlətə rəsmi nümayəndə heyətlərinin səfərlərinin hazırlanmasına və həyata keçirilməsinə öz səlahiyyətləri daxilində kömək etmək.

III. Konsulluğun funksiyaları

14. Konsulluq bu Əsasnamə ilə müəyyən edilmiş vəzifələrə uyğun olaraq aşağıdakı funksiyaları həyata keçirir:

14.1. müəyyən olunmuş qaydada Azərbaycan Respublikasının Prezidentini, Azərbaycan Respublikasının Nazirlər Kabinetini və Nazirliyi konsul dairəsi çərçivəsində qəbul edən dövlətin iqtisadi, elmi-texniki, mədəni, ticarət, idman, turizm və digər məsələləri üzrə məlumatlandırır;

14.2. konsul dairəsində Azərbaycan Respublikasının xarici və daxili siyasəti, ölkənin iqtisadi, sosial və mədəni həyatı haqqında rəsmi məlumatın yayılmasını təmin edir;

14.3. dövlət orqanlarına və zəruri hallarda Azərbaycan Respublikasının qeyri-hökumət təşkilatlarına (ictimai birliklərinə və fondlarına) və işgüzar dairələrinin nümayəndəliklərinə həmin dövlətin qeyri-hökumət təşkilatları və işgüzar dairələrinin nümayəndəliklərilə əlaqələr qurmasına öz səlahiyyətləri daxilində köməklik göstərir;

14.4. qəbul edən dövlətdə yaşayan azərbaycanlılarla əlaqələrin qurulmasına və əməkdaşlığın inkişafına öz səlahiyyətləri daxilində yardım edir;

14.5. Azərbaycan Respublikasının qəbul edən dövlət ilə beynəlxalq müqavilələrinin layihələrinin hazırlanmasında öz səlahiyyətləri daxilində iştirak edir;

14.6. Azərbaycan Respublikası Prezidentinin, Azərbaycan Respublikası Nazirlər Kabi-

netinin və Nazirliyin tapşırıqlarını yerinə yetirir, həmçinin Azərbaycan Respublikasının digər dövlət hakimiyyəti orqanlarının Nazirliklə razılaşdırılmış müraciətlərinə baxır;

14.7. Azərbaycan Respublikasının yerli icra hakimiyyəti və özünüidarəetmə orqanlarının, idarə, təşkilat və müəssisələrinin müraciətlərinə baxır;

14.8. qəbul edən dövlətin əvvəlcədən razılığı olduğu təqdirdə, qəbul edən dövlətdə akkreditə olunmamış üçüncü dövlətin xahişi ilə həmin üçüncü dövlətin və onun vətəndaşlarının maraqlarını beynəlxalq razılaşmalar əsasında müdafiə edir;

14.9. öz səlahiyyətləri daxilində qəbul edən dövlətin qanunvericiliyinə riayət etməklə, Azərbaycan Respublikası vətəndaşlarına mülki, ailə və cinayət işlərinə dair hüquqi yardım göstərir;

14.10. qanunvericiliklə müəyyən olunmuş qaydada konsul dairəsində yaşayan Azərbaycan Respublikası vətəndaşlarının uçotunu aparır;

14.11. konsul dairəsində itkin düşmüş Azərbaycan Respublikası vətəndaşlarının axtarışı üzrə lazımi tədbirlər görür;

14.12. konsul dairəsində yaşayan və (və ya) müvəqqəti olan Azərbaycan Respublikası vətəndaşlarına seçki hüquqlarını həyata keçirmələrinə köməklik göstərir;

14.13. öz səlahiyyətləri daxilində notariat əməliyyatlarını, vətəndaşlıq vəziyyəti aktlarının dövlət qeydiyyatını, vətəndaşlıq məsələləri üzrə funksiyalarını, sənədlərin leqallaşdırılması və digər arayışların verilməsi, vərəsəlik məsələləri, qəyyumluqla, himayəliklə və övladlığa götürülməklə bağlı tədbirləri qəbul edən dövlətin qanunvericiliyinə riayət etməklə yerinə yetirir;

14.14. Azərbaycan Respublikasının vətəndaşları özləri olmadıqda və öz işlərinin aparılmasını digər şəxsə tapşırmadıqda, yaxud başqa səbəblərə görə öz maraqlarını müdafiə edə bilmədikdə, qəbul edən dövlətin məhkəmə və digər dövlət hakimiyyəti orqanlarında qəbul edən dövlətin qanunvericiliyinə riayət etməklə onları müəyyən olunmuş qaydada təmsil edir və ya müvafiq təmsilçiliyini təşkil edir;

14.15. Azərbaycan Respublikasının qanunvericiliyinə uyğun olaraq pasport-viza xidmətlərini həyata keçirir;

14.16. Azərbaycan Respublikasının qanunvericiliyinə və müəyyən olunmuş qaydaya uyğun olaraq Azərbaycan Respublikasının vətəndaşlarına pasport verir və onlara xüsusi qeydlər edir;

14.17. Azərbaycan Respublikasının qanunvericiliyinə və müəyyən olunmuş qaydaya uyğun olaraq konsul dairəsində yaşayan Azərbaycan Respublikası vətəndaşlarının şəxsiyyətini müəyyənləşdirir və onlara müvafiq sənədlər verir;

14.18. Azərbaycan Respublikasının qanunvericiliyinə uyğun olaraq Azərbaycan Respublikasının vətəndaşlarına qayıdış şəhadətnaməsi verir;

14.19. Azərbaycan Respublikasının qanunvericiliyinə uyğun olaraq Azərbaycan Respublikasında daimi yaşayan vətəndaşlığı olmayan şəxslərə Azərbaycan Respublikasına qayıtmaq üçün müvafiq sənəd verir;

14.20. Azərbaycan Respublikasının qanunvericiliyinə uyğun olaraq Azərbaycan Res-

publikasına gəlmək istəyən şəxslərə viza və digər müvafiq sənədlər verir;

14.21. konsul dairəsində yerləşən və Azərbaycan Respublikasının Dövlət bayrağı altında üzən dəniz və çay gəmiləri, Azərbaycan Respublikasının hərbi gəmiləri və köməkçi hərbi gəmiləri, Azərbaycan Respublikasında qeydiyyata alınmış hava gəmiləri və onların heyəti ilə bağlı qanunla müəyyən edilmiş funksiyaları həyata keçirir, belə gəmilərə və onların heyətinə qəbul edən dövlətin qanunvericiliyinə riayət etməklə yardım göstərir;

14.22. qəbul edən dövlətin razılığı ilə konsul dairəsində yerləşən Azərbaycan hərbi və mülki məzarlarının, qəbirüstü abidələrin, abidə nişanlarının və memorial (xatirə) tikililərin uçotu, mühafizəsi və abadlığı üzrə tədbirlər görür;

14.23. konsulluq əməliyyatları üçün alınan dövlət rüsumunu "Dövlət rüsumu haqqında" Azərbaycan Respublikasının Qanunu ilə müəyyən edilmiş qaydada və müddətdə Azərbaycan Respublikasının dövlət büdcəsinə köçürülməsini təmin edir;

14.24. qəbul edən dövlətin qanunvericiliyi ilə qadağan olunmayan və Azərbaycan Respublikasının qanunvericiliyinə uyğun olaraq digər funksiyaları həyata keçirir.

IV. Konsulluğun hüquqları

15. Konsulluq öz vəzifələrini yerinə yetirmək üçün aşağıdakı hüquqlara malikdir:

15.1. öz səlahiyyətləri daxilində rəsmi nümayəndə heyətlərinin səfərlərinə dair Nazirliyə təkliflər vermək;

15.2. qəbul edən dövlətin dövlət və yerli özünüidarəetmə orqanları, qeyri-hökumət təşkilatları (ictimai birlikləri və fondları), elmi, mədəni və işgüzar dairələri, kütləvi informasiya vasitələri, qəbul edən dövlətdə fəaliyyət göstərən diplomatik nümayəndəlik, konsulluq və beynəlxalq və regional təşkilatlar ilə işgüzar əlaqələr qurmaq və inkişaf etdirmək;

15.3. Konsulluğun səlahiyyətinə aid olan məsələlərin həll olunması üçün Azərbaycan Respublikasının dövlət orqanlarından, eləcə də yerli icra hakimiyyəti və özünüidarəetmə orqanlarından, idarə, təşkilat və müəssisələrindən müəyyən olunmuş qaydada sənədləri, məlumat və digər xarakterli materialları almaq;

15.4. öz səlahiyyətləri daxilində qəbul edən dövlətdə Azərbaycan Respublikasının fəxri konsullarının təyin edilməsi barədə təkliflərini Nazirliyə təqdim etmək;

15.5. öz səlahiyyətləri daxilində konfranslar, görüşlər və digər tədbirlər təşkil etmək;

15.6. Azərbaycan Respublikasının qanunvericiliyi ilə nəzərdə tutulmuş digər hüquqları həyata keçirmək.

V. Konsulluğun fəaliyyətinin təşkili

16. Baş konsulluğa, konsulluğa, vitse-konsulluğa və konsul agentliyinə müvafiq olaraq baş konsul, konsul, vitse-konsul və konsul agenti başçılıq edir.

17. Baş konsul Azərbaycan Respublikası xarici işlər nazirinin təqdimatı ilə Azərbaycan Respublikasının Prezidenti tərəfindən, konsul, vitse-konsul və konsul agenti Azərbaycan Respublikasının xarici işlər naziri tərəfindən təyin edilir və geri çağırılır.

18. Ali təhsilli və üzərinə qoyulmuş vəzifələri yerinə yetirmək üçün işgüzar, mənəvi,

peşəkar keyfiyyətlərə və sağlamlıq vəziyyətinə malik olan Azərbaycan Respublikasının vətəndaşı Konsulluğun başçısı təyin edilə bilər.

19. Baş konsul təyin olunmuş şəxsin xaricdə fasiləsiz iş müddəti, bir qayda olaraq, dörd ildir. Bu müddət Azərbaycan Respublikasının Prezidenti tərəfindən uzadıla bilər.

Konsul, vitse-konsul və konsul agenti təyin olunmuş şəxsin xaricdə fasiləsiz iş müddəti, bir qayda olaraq, üç ildir. Bu müddət Azərbaycan Respublikasının xarici işlər naziri tərəfindən bir ildən artıq olmayan müddətə uzadıla bilər.

20. Konsulluğun başçısı və ya Konsulluğun digər işçiləri Azərbaycan Respublikasının və ya qəbul edən dövlətin qanunvericiliyinə görə məsuliyyət doğuran əməllər törətməkdə təqsirli bilindikdə, habelə Azərbaycan Respublikasının qanunvericiliyində nəzərdə tutulmuş digər hallarda vaxtından əvvəl geri çağırıla bilərlər.

Konsulluğun başçısının və ya Konsulluğun digər işçilərinin vaxtından əvvəl geri çağırılmasına onlarla birlikdə yaşayan ailə üzvlərinin yuxarıda göstərilən əməllərin törədilməsində təqsirli bilinməsi də əsas ola bilər.

21. Azərbaycan Respublikasının diplomatik nümayəndəliklərində konsulluq funksiyalarını diplomatik nümayəndəliyin rəhbəri tərəfindən müəyyən edilmiş nümayəndəliyin əməkdaşı həyata keçirir.

22. Konsulluğa qanunvericiliklə müəyyən olunmuş qaydada Azərbaycan Respublikasının digər dövlət orqanlarının nümayəndələri ezam oluna bilərlər. Konsulluğa ezam olunmuş Azərbaycan Respublikasının digər dövlət orqanlarının nümayəndələri öz qərarlarını və hərəkətlərini Konsulluğun başçısı ilə razılaşdırmalıdırlar.

23. Konsulluğun başçısı konsulluğa həvalə edilmiş vəzifələrin yerinə yetirilməsi üçün şəxsən məsuliyyət daşıyır, göstəriş və tapşırıqların yerinə yetirilməsinə görə Nazirlik qarşısında hesabat verir.

24. Konsulluğun başçısı:

24.1. Konsulluğun fəaliyyətini təşkil edir və ona rəhbərlik edir;

24.2. dövlət sirrinin və qanunla mühafizə edilən digər sirlərin qorunmasını öz səlahiyyətləri daxilində təşkil edir;

24.3. Konsulluğa ayrılan dövlət vəsaitinin səmərəli sərf olunması və maliyyə intizamına riayət olunması üzərində nəzarəti öz səlahiyyətləri daxilində həyata keçirir;

24.4. öz səlahiyyətləri daxilində Konsulluğun fəaliyyətinə dair icrası məcburi olan əmrlər, sərəncamlar, göstərişlər verir;

24.5. öz səlahiyyətləri daxilində Konsulluqda Azərbaycan Respublikasının normativ hüquqi aktlarının və Nazirliyin əmr, sərəncam və göstərişlərinin icrasını təşkil edir və onların yerinə yetirilməsi üzərində nəzarəti həyata keçirir;

24.6. Konsulluğun işçilərini lazımi iş şəraiti ilə təmin edir, müəyyən olunmuş qaydada Konsulluğun fəaliyyəti ilə bağlı Nazirliyə təkliflər verir;

24.7. Nazirliyin razılığı ilə xidməti ezamiyyətlərə gedir;

24.8. Konsulluğun xüsusi fərqlənmiş işçilərini Azərbaycan Respublikasının dövlət təltifləri ilə təltif edilməsi üçün, habelə Konsulluğun işçiləri barəsində həvəsləndirmə və

intizam tənbehi tədbirləri görülməsi üçün Nazirliyə təqdimat verir;

24.9. Konsulluğun işçilərinin rütbədə və vəzifədə yüksəldilməsi, Konsulluğun işçilərinin xaricdəki iş müddətinin "Diplomatik xidmət haqqında" Azərbaycan Respublikasının Qanununa müvafiq olaraq uzadılması haqqında Nazirliyə müəyyən olunmuş qaydada təklif verir;

24.10. Konsulluğun işçilərinin məzuniyyətləri və ezamiyyətləri barədə əmrlər verir;

24.11. Konsulluğun ştatdankənar vəzifələrinə Nazirlik ilə razılaşdıraraq işə qəbul edir və işdən azad edir, ştatdankənar vəzifələrdə çalışan işçilərin məzuniyyətləri və ezamiyyətləri barədə əmrlər verir;

24.12. Konsulluğun işçilərinin və onlarla birlikdə yaşayan ailə üzvlərinin Azərbaycan Respublikasına və digər ölkələrə səfərləri ilə bağlı məsələləri öz səlahiyyətləri daxilində həll edir;

24.13. öz səlahiyyətləri daxilində Konsulluğun, onun işçilərinin və onlarla birlikdə yaşayan ailə üzvlərinin təhlükəsizliyinin təmin edilməsi üçün lazımi tədbirlər görür, fövqəladə vəziyyət şəraitində konsul dairəsi hüdudlarında Azərbaycan Respublikasının vətəndaşlarının hərəkətlərini Azərbaycan Respublikasının həmin dövlətdəki Səfirliyi ilə (olduğu halda) əlaqələndirməklə müəyyən olunmuş qaydada təşkil edir və onun üzərində rəhbərliyi öz səlahiyyətləri daxilində həyata keçirir;

24.14. beynəlxalq hüquqa və qəbul edən dövlətin qanunvericiliyinə görə Konsulluğa, onun işçilərinə və ailə üzvlərinə, konsul valizinə və onu daşıyan şəxslərə, həmçinin immunitet və imtiyazlara hüququ olan Azərbaycan Respublikasının digər vətəndaşlarına verilən immunitet və imtiyazların təmin olunması məqsədilə öz səlahiyyətləri daxilində lazımi tədbirlər görür;

24.15. Konsulluğun və konsul dairəsində yerləşən Azərbaycan Respublikasının digər qurumlarının heyətinə qəbul edən dövlətdə Azərbaycan Respublikasının maraqlarını layiqli təmsil etmələri, onun qanunvericiliyinə, adət və ənənələrinə hörmət etmələri üçün tövsiyələr verir;

24.16. qəbul edən dövlətlə danışıqlar aparır, beynəlxalq konfranslarda və görüşlərdə iştirak edir;

24.17. Azərbaycan Respublikasının dövlət orqanlarının nümayəndə heyətlərinin və mütəxəssis qruplarının qərarları və hərəkətləri Azərbaycan Respublikasının maraqlarına cavab vermədiyi halda Nazirliyə məlumat verir və Nazirlik bu məlumat əsasında həmin dövlət orqanlarının nümayəndə heyətlərinin və mütəxəssis qruplarının işinə vaxtından əvvəl xitam verilməsi məsələsi ilə bağlı həmin dövlət orqanları qarşısında məsələ qaldırır;

24.18. qəbul edən dövlətin qanunvericiliyini nəzərə almaqla Azərbaycan Respublikasının qanunvericiliyinə, Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələrə, beynəlxalq hüququn digər tətbiq edilə bilən normalarına uyğun olaraq digər səlahiyyətləri həyata keçirir.

25. Azərbaycan Respublikasının diplomatik nümayəndəliyi olmadığı və üçüncü dövlətin diplomatik nümayəndəliyi vasitəsilə təmsil olunmadığı bir dövlətdə Konsulluğun

başçısına və (və ya) Konsulluğun digər işçilərinə qəbul edən dövlətin razılığı ilə onların konsul statusuna təsir göstərmədən diplomatik funksiyaların həyata keçirilməsi həvalə oluna bilər. Konsulluğun başçısı və (və ya) Konsulluğun digər işçiləri tərəfindən bu funksiyaların yerinə yetirilməsi onlara diplomatik imtiyaz və immunitetlərə iddia etmək hüququ vermir.

26. Konsulluğun başçısı vəzifəsi vakant olduqda və ya Konsulluğun başçısı öz vəzifəsini icra etmək iqtidarında olmadıqda, onun funksiyalarını müvəqqəti olaraq Azərbaycan Respublikasının xarici işlər naziri tərəfindən təyin olunan Konsulluğun başçısı vəzifəsini icra edən şəxs yerinə yetirir.

Konsulluğun başçısı vəzifəsini icra edən şəxsin adı Azərbaycan Respublikasının həmin ölkədəki Səfirliyi tərəfindən, Azərbaycan Respublikasının həmin ölkədə Səfirliyi olmadığı halda Konsulluğun başçısı tərəfindən, Konsulluğun başçısı bunu etmək iqtidarında olmadıqda isə Nazirlik tərəfindən qəbul edən dövlətin Xarici İşlər Nazirliyinə bildirilir.

27. Konsulluğun strukturu və ştat cədvəli Nazirlik tərəfindən təsdiq edilir.

28. Konsulluğun maddi-texniki təminatı Nazirlik tərəfindən həyata keçirilir.

29. Konsulluğun işçilərinin hüquq və vəzifələri Azərbaycan Respublikasının qanunvericiliyi, Nazirliyin normativ aktları və vəzifə təlimatları ilə müəyyən olunur. Konsulluq işçiləri Konsulluğun başçısına, Konsulluğun başçısı olmadığı halda isə Konsulluğun başçısı vəzifəsini icra edən şəxsə tabedirlər və onun əmr və göstərişlərini yerinə yetirməyə borcludurlar.

30. Konsulluğun işi müəyyən olunmuş qaydada Nazirlik tərəfindən təsdiq edilmiş illik iş planı əsasında təşkil olunur.

31. Konsulluq qəbul edən dövlətin ərazisində aparılan konsul əməliyyatları üçün Azərbaycan Respublikasının qanunvericiliyinə uyğun olaraq dövlət rüsumu tutur. Göstərilmiş əməliyyatların aparılması ilə bağlı faktiki xərclər də ödənilməlidir.

32. Konsulluqda Azərbaycan Respublikasının və qəbul edən dövlətin qanunvericiliyinə uyğun olaraq ümumtəhsil məktəbi və məktəbəqədər müəssisə fəaliyyət göstərə bilər.

33. Azərbaycan Respublikasının qanunvericiliyinə müvafiq olaraq, həmkarlar ittifaqı istisna olmaqla, Konsulluqda siyasi partiyaların, dini təşkilatların və qeyri-hökumət təşkilatlarının (ictimai birliklərin və fondların) bölmələri yaradıla bilməz.

Azərbaycan Respublikası Prezidentinin 26 fevral 2007-ci il tarixli 532 nömrəli Fərmanı ilə təsdiq edilmişdir.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV TÜRKİYƏ SİLAHLI QÜVVƏLƏRİ BAŞ QƏRARGAHININ İKİNCİ RƏİSİ ERGİN SAYQUNUN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİNİ QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev fevralın 27-də Prezident sarayında Türkiyə Silahlı Qüvvələri Baş Qərargahının ikinci rəisi Ergin Sayqunun başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.

Dövlətimizin başçısı ölkələrimiz arasında əlaqələrin bütün sahələrdə, o cümlədən hərbi əməkdaşlıq sahəsində uğurla inkişaf etdiyini bildirdi. Prezident İlham Əliyev Azərbaycan-Türkiyə dostluğunun və qardaşlığının bundan sonra da möhkəmlənəcəyinə əminliyini ifadə etdi. Tükiyəli qonağın ölkəmizə bu səfərinin gələcək əməkdaşlığımıza töhfə verəcəyini vurğuladı.

Qonaq Türkiyə Silahlı Qüvvələrinin Baş Qərargah rəisi, ordu generalı Yaşar Böyük Anıtın salamlarını Azərbaycan Prezidenti İlham Əliyevə çatdırdı. O dedi ki, Azərbaycana ilk dəfə gəlməsinə baxmayaraq, ölkəmiz onda böyük təəssürat oyatdı. Azərbaycana səfərindən məqsəd gələcək əməkdaşlığımızla bağlı fikir mübadiləsi aparmaqdır.

Prezident İlham Əliyev ordu generalı Yaşar Böyük Anıtın salamlarına görə minnətdarlığını bildirdi, özünün də salamlarını ona çatdırmağı xahiş etdi.

AZƏRBAYCANIN XARİCİ İŞLƏR NAZİRİ QAZAXISTAN PREZİDENTİ İLƏ GÖRÜŞMÜŞDÜR

Fevralın 27-də Azərbaycanın xarici işlər naziri Elmar Məmmədyarov Qazaxıstan Prezidenti Nursultan Nazarbayev ilə görüşmüşdür.

Elmar Məmmədyarov danışıqlardan sonra jurnalistlər üçün keçirilən brifinqdə demişdir: "Qazaxıstan Prezidenti Nursultan Nazarbayevlə geniş fikir mübadiləsi apardıq, bir sıra məsələləri müzakirə etdik. Biz yekdil fikrə gəldik ki, siyasi sahədə iki ölkə arasında heç bir problem yoxdur".

Nazir bildirmişdir ki, söhbət zamanı iqtisadi sahədə əməkdaşlığın daha da dərinləşdirilməsi məsələsinə xüsusi diqqət yetirilmiş, energetika sahəsində iki ölkə arasında maraqlı ideyaların olduğu vurğulanmışdır. Qazaxıstanın Bakı-Tbilisi-Ceyhan əsas ixrac boru kəmərinə qoşulması ilə əlaqədar hökumətlərarası müqavilə imzalanmışdır. İndiki danışıqlarda isə Qazaxıstanın Bakı-Tbilisi-Ərzurum qaz kəmərinə qoşulmasının mümkünlüyü geniş müzakirə olunmuşdur. Bu ölkə Bakı-Tbilisi-Qars dəmir yolu layihəsinə də maraq göstərir və bu barədə də müzakirələr aparılmışdır. Görüşdə Bakı və Aktau limanları arasında əlaqələrin genişləndirilməsi, Transxəzər layihəsinin həyata keçirilməsi məsələləri də diqqət mərkəzində olmuşdur.

E.Məmmədyarov daha sonra demişdir: "Mən Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin sülh yolu ilə həll olunması istiqamətində görülən işlər haqqında Nursultan Nazarbayevə məlumat verdim. Vaxtilə Qazaxıstan Prezidenti Dağlıq Qarabağ münaqişəsinin sülh yolu ilə həllində vasitəçiliyini təklif etmişdi. Təəssüf ki, bunu həyata keçirmək mümkün olmadı. Buna baxmayaraq, Nursultan Nazarbayev bu məsələ ilə həmişə maraqlanıb və münaqişənin Azərbaycanın ərazi bütövlüyü və suverenliyi çərçivəsində həll olunmasının tərəfdarıdır".

Nazir bildirmişdir ki, görüşdə iki ölkə arasında humanitar sahədə əlaqələrin dərinləşdirilməsindən də söhbət getmiş, Azərbaycanda Qazaxıstan, Qazaxıstanda isə Azərbaycan mədəniyyət günlərinin keçirilməsi ilə bağlı fikir mübadiləsi aparılmışdır.

AZƏRBAYCAN İLƏ QAZAXISTAN ARASINDA ƏLAQƏLƏRİN DAHA DA İNKİŞAF ETDİRİLMƏSİ MƏSƏLƏLƏRİ MÜZAKİRƏ OLUNMUŞDUR

Qazaxıstanda səfərdə olan Azərbaycanın xarici işlər naziri Elmar Məmmədyarov fevralın 27-də bu ölkənin Baş naziri Kərim Məsimovla görüşmüşdür.

Elmar Məmmədyarov Kərim Məsimovu bu yüksək vəzifəyə seçilməsi münasibəti ilə təbrik etmiş, ona fəaliyyətində uğurlar arzulamışdır.

Görüşdə ölkələrimiz arasında iqtisadi əlaqələrin dərinləşdirilməsinin vacibliyi vurğulanmış, təkcə neft-qaz sahəsində deyil, rabitə, nəqliyyat, kənd təsərrüfatı, emal sənayesi və digər istiqamətlərdə əməkdaşlığın genişləndirilməsi məsələləri müzakirə edilmişdir.

Elmar Məmmədyarov Kərim Məsimovu Azərbaycanın Baş naziri adından ölkəmizə səfərə dəvət etmişdir. Dəvət məmnuniyyətlə qəbul olunmuşdur.

***

Azərbaycanın xarici işlər naziri Qazaxıstan parlamentinin yuxarı palatasının – Senatın sədri Qasımcomərd Tokayevlə də görüşmüşdür. Söhbət zamanı parlamentlərarası əlaqələrin genişləndirilməsinin vacibliyi qeyd olunmuşdur.

Tərəflər humanitar sahədə əlaqələrin dərinləşdirilməsi, parlamentlərin nümayəndə heyətlərinin qarşılıqlı səfərlərinin təşkil edilməsi məsələlərinə də toxunmuşlar.

***

Həmin gün Azərbaycanın xarici işlər naziri Elmar Məmmədyarov qazaxıstanlı həmkarı Marat Tajin ilə görüşmüşdür.

Marat Tajin bildirmişdir ki, bu il ölkələrimiz arasında diplomatik əlaqələrin qurulmasının 15 ili tamam olur və ötən dövrdə əlaqələrin dərinləşdirilməsi istiqamətində çox iş görülmüşdür. Ölkələrimiz arasında əmtəə dövriyyəsinin həcmi 250 milyon dollar səviyyəsinə çatmışdır və bu, son həddi deyildir.

Nazirlər ölkələrimiz arasında nəqliyyat-kommunikasiya, energetika, ticarət-iqtisadi və mədəni sahələrdə əməkdaşlığa dair məsələləri də müzakirə etmişlər.

Görüşdə nazirlər Azərbaycan Respublikası ilə Qazaxıstan Respublikası arasında strateji tərəfdaşlıq və müttəfiqlik əlaqələri haqqında müqavilənin ratifikasiyasına dair fərmanların mübadiləsi barədə protokolu və Azərbaycan ilə Qazaxıstan arasında vətəndaşların vizasız gediş-gəlişi haqqında 1997-ci il 10 iyun tarixli sazişə ikinci protokolu imzalamışlar.

AZƏRBAYCAN RESPUBLİKASI HÖKUMƏTİ VƏ QAZAXISTAN RESPUBLİKASI HÖKUMƏTİ ARASINDA AZƏRBAYCAN RESPUBLİKASININ VƏ QAZAXISTAN RESPUBLİKASININ VƏTƏNDAŞLARININ QARŞILIQLI VİZASIZ GEDİŞ-GƏLİŞİ HAQQINDA 10 İYUN 1997-Cİ İL TARİXLİ SAZİŞƏ PROTOKOL

27 fevral 2007-ci il

Bundan sonra "Tərəflər" adlandırılan Azərbaycan Respublikası Hökuməti və Qazaxıstan Respublikası Hökuməti, 10 iyun 1997-ci il tarixində Almatı şəhərində imzalanmış

Azərbaycan Respublikası Hökuməti və Qazaxıstan Respublikası Hökuməti arasında Azərbaycan Respublikasının və Qazaxıstan Respublikasının vətəndaşlarının qarşılıqlı vizasız gediş-gəlişi haqqında Sazişin 7-ci maddəsinə uyğun olaraq aşağıdakılar barədə Protokolu imzaladılar:

MADDƏ 1

Onların sahiblərinin şəxsiyyətini müəyyən edən və vətəndaşlığını təsdiq edən və digər Tərəflərin dövlətinin ərazisinə vizasız gəlmək, getmək, oradan tranzitlə keçmək, orada hərəkət etmək və qalmaq hüququ verən sənədlərə hazırkı Protokola 1-ci və 2-ci Əlavədə sadalanan sənədlər aiddir.

Hazırkı Protokola 1-ci və 2-ci Əlavələr bu Protokol qüvvəyə mindikdən sonra 10 iyun 1997-ci il tarixində imzalanmış Azərbaycan Respublikası Hökuməti və Qazaxıstan Respublikası Hökuməti arasında Sazişə 1-ci və 2-ci Əlavələri əvəz edir.

MADDƏ 2

Bu Protokol Tərəflərin onun qüvvəyə minməsi üçün zəruri olan dövlətdaxili prosedurları yerinə yetirdikləri barədə bir-birilərinə göndərdikləri sonuncu yazılı bildirişin alındığı tarixdən qüvvəyə minir.

Bu Saziş Astana şəhərində 27 fevral 2007-ci il tarixində, iki nüsxədə Azərbaycan, qazax və rus dillərində imzalanmışdır və bütün mətnlər eyni qüvvəyə malikdir.

AZƏRBAYCAN RESPUBLİKASININ XARİCİ İŞLƏR NAZİRİ	QAZAXISTAN RESPUBLİKASININ XARİCİ İŞLƏR NAZİRİ
ELMAR MƏMMƏDYAROV	*MARAT TAJİN*

AZƏRBAYCAN RESPUBLİKASI HÖKUMƏTİ VƏ QAZAXISTAN RESPUBLİKASI HÖKUMƏTİ ARASINDA VƏTƏNDAŞLARIN QARŞILIQLI VİZASIZ GEDİŞ-GƏLİŞİ HAQQINDA 10 İYUN 1997-Cİ İL TARİXLİ SAZİŞ-Ə

ƏLAVƏ 1

Qazaxıstan Respublikasının vətəndaşlarına Azərbaycan Respublikasının ərazisinə vizasız gəlmək, getmək, oradan tranzitlə keçmək və orada qalmaq və hərəkət etmək hüququ verən sənədlərinin siyahısı

1. Qazaxıstan Respublikası vətəndaşının pasportu;

2. Xidməti pasport;

3. Diplomatik pasport;

4. Dənizçinin pasportu (dənizçinin şəxsiyyətini təsdiq edən sənəd, gəminin şəxsi heyətinin siyahısı və ya ondan çıxarış olduqda);

5. Qazaxıstan Respublikasına qayıdış şəhadətnaməsi (yalnız Qazaxıstan Respublikasına qayıdış üçün);

AZƏRBAYCAN RESPUBLİKASI HÖKUMƏTİ VƏ QAZAXISTAN RESPUBLİKASI HÖKUMƏTİ ARASINDA VƏTƏNDAŞLARIN QARŞILIQLI VİZASIZ GEDİŞ-GƏLİŞİ HAQQINDA 10 İYUN 1997-Cİ İL TARİXLİ SAZİŞ-Ə

ƏLAVƏ 2

Azərbaycan Respublikasının vətəndaşlarına Qazaxıstan Respublikasının ərazisinə vizasız gəlmək, getmək, oradan tranzitlə keçmək və orada qalmaq və hərəkət etmək hüququ verən sənədlərinin siyahısı

1. Azərbaycan Respublikasının ümumvətəndaş pasportu; 2. Xidməti pasport; 3. Diplomatik pasport; 4. Dənizçinin pasportu (dənizçinin şəxsiyyətini təsdiq edən sənəd, gəminin şəxsi heyətinin siyahısı və ya ondan çıxarış olduqda); 5. Azərbaycan Respublikasına qayıdış şəhadətnaməsi (yalnız Azərbaycan Respublikasına qayıdış üçün).

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV POLŞANIN XARİCİ İŞLƏR NAZİRİ ANNA FOTIQANIN RƏHBƏRLİK ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİNİ QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev fevralın 28-də Prezident sarayında Polşa Respublikasının xarici işlər naziri Anna Fotiqanın rəhbərlik etdiyi nümayəndə heyətini qəbul etmişdir.

Dövlətimizin başçısı Polşanın Prezidenti Lex Kaçinski ilə görüşlərini məmnunluqla xatırlatdı. Azərbaycan ilə Polşa arasında münasibətlərin uğurla inkişaf etdiyini bildirən Prezident İlham Əliyev iki ölkə arasındakı əməkdaşlığın səviyyəsindən razılığını ifadə etdi. Dövlətimizin başçısı Polşa nazirinin səfərinin əlaqələrimizin daha da gücləndirilməsi işinə töhfə verəcəyinə ümidvar olduğunu bildirdi.

Anna Fotiqa Polşa Prezidenti Lex Kaçinskinin salamlarını Azərbaycanın dövlət başçısına çatdırdı. İki ölkə arasında diplomatik münasibətlərin 15 ilə yaxın bir müddət ərzində qurulduğunu qeyd edən qonaq bu əlaqələrin Polşa üçün çox vacib olduğunu bildirdi.

Prezident İlham Əliyev Polşa Prezidenti Lex Kaçinskinin salamlarına görə minnətdarlığını bildirdi və onun da salamlarını Polşanın dövlət başçısına çatdırmağı xahiş etdi.

AZƏRBAYCAN RESPUBLİKASI XARİCİ İŞLƏR NAZİRLİYİ VƏ POLŞA RESPUBLİKASI XARİCİ İŞLƏR NAZİRLİYİ ARASINDA 2007-2008-Cİ İLLƏR ÜÇÜN AVROPAYA İNTEQRASİYA ÜZRƏ ƏMƏKDAŞLIQ HAQQINDA MEMORANDUM

1 mart 2007-ci il

Azərbaycan Respublikası Xarici İşlər Nazirliyi və Polşa Respublikası Xarici İşlər Nazirliyi

- Azərbaycan və Polşa arasında ikitərəfli münasibətlərin dərinləndirilməsinin zəruriliyini anlayaraq,

- Azərbaycanın Avropa Birliyi ilə əməkdaşlığının və Avropanın Azərbaycan meylinin əhəmiyyətini qiymətləndirərək,
- Azərbaycanın Avropa Qonşuluq Siyasətinə qoşulmasını və Fəaliyyət Planını qəbul etməsini alqışlayaraq,
- Bütün Şərqi Avropa və Cənubi Qafqazın Avropa dəyərləri və prinsipləri ruhunda keçid prosesinin mühümlüyünü tanıyaraq,

2007-2008-ci illərdə aşağıdakı istiqamətlərdə əməkdaşlıq etməyə hazırlıqlarını bəyan etdilər:

1. Polşanın xüsusilə aşağıdakı dəstəyi ilə Azərbaycan-Avropa İttifaqı Fəaliyyət Planın həyata keçirilməsi:

- Əsas sektorlarda Aİ ilə əməkdaşlığı möhkəmləndirəcək Azərbaycan qanunvericiliyinin Avropa Birliyinin qanunvericiliyinə uyğunlaşdırılması prosesinə yardım göstərmək,
- Avropa inteqrasiyasında Polşa təcrübəsini bölüşmək məqsədilə mütəxəssis yardımı göstərmək.

2. Avropaya inteqrasiya məqsədilə Azərbaycan Respublikası və Polşa Respublikası dövlət qurumları arasında Avropa Qonşuluq və Əməkdaşlıq Sənədi və İkili Proqram çərçivəsində, əməkdaşlıq proqramının hazırlanması.

3. İki dövlətin Xarici İşlər Nazirlikləri arasında Avropaya inteqrasiya haqqında mütəmadi məsləhətləşmələrin keçirilməsi mexanizminin tətbiqi.

4. Aİ və Azərbaycan arasında strateji tərəfdaşlıq çərçivəsində enerji təhlükəsizliyi sahəsində mütəmadi məsləhətləşmələrin keçirilməsi mexanizminin tətbiqi.

5. Avropa məsələləri ilə məşğul olan gənc Azərbaycanlı diplomatların Polşa Respublikasının Xarici İşlər Nazirliyinə təhsil səfərlərinin təşkil edilməsi,

6. Polşa Respublikasının Xarici İşlər Nazirliyi Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyinin Diplomatik Akademiyası və Polşa Beynəlxalq Münasibətlər İnstitutunun Diplomatik Akademiyası arasında əməkdaşlığını dəstəkləyəcək.

7. Avropa inteqrasiyasının təşviqində Azərbaycan və Polşa ictimai təşkilatları arasında əməkdaşlıq üçün şəraitin yaradılması.

Bakı şəhərində 1 mart 2007-ci ildə İngilis dilində iki nüsxədə imzalanmışdır.

AZƏRBAYCAN RESPUBLİKASININ XARİCİ İŞLƏR NAZİRİ	POLŞA RESPUBLİKASININ XARİCİ İŞLƏR NAZİRİ
ELMAR MƏMMƏDYAROV	*ANNA FOTİQA*

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV RUSİYANIN TƏHSİL VƏ ELM NAZİRİ ANDREY FURSENKONU QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Qəbələ rayonuna səfəri çərçivəsində martın 2-də rayon icra hakimiyyətinin binasında Rusiya Federasiyasının təhsil və elm naziri Andrey Fursenkonu qəbul etmişdir.

Görüşdə Azərbaycan ilə Rusiya arasında əlaqələrin bütün sahələrdə, o cümlədən təhsil sahəsində uğurla inkişaf etdiyi vurğulandı.

Prezident İlham Əliyev nazir Andrey Fursenkonun Azərbaycana budəfəki səfərinin iki ölkə arasında təhsil sahəsində əməkdaşlığın genişləndirilməsinə təkan verəcəyini bildirdi.

Nazir respublikamıza, o cümlədən Qəbələyə səfərinin onda Azərbaycan həqiqətləri, ölkəmizin sürətli sosial-iqtisadi inkişafı barədə dolğun təsəvvür və zəngin təəssürat oyatdığını söylədi. O, təhsil sahəsində əməkdaşlığın genişləndirilməsi, konkret layihələrin reallaşdırılması üçün səyini əsirgəməyəcəyini bildirdi.

BMT AZƏRBAYCANIN DONOR DÖVLƏTƏ ÇEVRİLMƏK SƏYLƏRİNİ YÜKSƏK QİYMƏTLƏNDİRİR

Martın 2-də Xarici İşlər naziri Elmar Məmmədyarov ölkəmizdə səfərdə olan BMT baş katibinin köməkçisi, BMT İnkişaf Proqramı (BMTİP) administratorunun yardımçısı, BMTİP-in Avropa və MDB üzrə regional bürosunun direktoru xanım Kori Udoviçkinin rəhbərlik etdiyi nümayəndə heyəti ilə görüşmüşdür.

Xanım K.Udoviçki Azərbaycanın BMT-yə üzv qəbul edilməsinin 15-ci ildönümü ilə bağlı təbriklərini çatdırmış, ölkəmizin BMTİP ilə əməkdaşlıqda bir sıra uğurlar qazandığını demişdir.

O, həmçinin Azərbaycanın əldə etdiyi iqtisadi nailiyyətləri, apardığı uğurlu siyasəti alqışlamış, neft gəlirlərinin düzgün idarə edilməsi və bu gəlirlərin qeyri-neft sektorunun inkişafına sərf olunmasını yüksək qiymətləndirmişdir. Qonaq bu iqtisadi inkişaf sayəsində ölkəmizin humanitar yardım alan ölkədən donor dövlətə çevrilməsi istiqamətində səylərini qeyd etmişdir.

Nazir Elmar Məmmədyarov BMT nümayəndəsinin region dövlətlərindəki vəziyyətlə tanış olmaq təşəbbüsünü yüksək qiymətləndirmiş, Azərbaycanın enerji sahəsində əldə etdiyi uğurların ölkə əhalisinin sosial rifahının yüksəldilməsinə, təhsil və informasiya texnologiyaları sahələrinin inkişafına yönəldiyini diqqətinə çatdırmışdır.

Ölkəmizin təşəbbüskarı və iştirakçısı olduğu irimiqyaslı regional iqtisadi layihələr haqqında məlumat verən nazir, Azərbaycanın regionda lider dövlət olduğunu vurğulamışdır. O, Azərbaycanın donor ölkəyə çevrilmək istiqamətində səylərinin artırılması üçün BMTİP ilə əməkdaşlığı davam etdirməyə ehtiyac duyulduğunu bildirmişdir.

Görüşdə Azərbaycanda insan resurslarının, aqrobiznesin inkişafı, kiçik və orta sahibkarlığın formalaşdırılmasında BMTİP-in təcrübəsindən istifadə, yoxsulluğun azaldılması və digər məsələlərə dair ətraflı fikir mübadiləsi aparılmışdır.

AZƏRBAYCANIN XARİCİ İŞLƏR NAZİRİ ELMAR MƏMMƏDYAROV POLŞANIN XARİCİ İŞLƏR NAZİRİ XANIM ANNA FOTIQA İLƏ GÖRÜŞMÜŞDÜR

Mart ayının 3-də Azərbaycan Respublikasının Xarici İşlər Naziri Elmar Məmmədyarov Polşa Respublikasının Xarici İşlər Naziri xanım Anna Fotiqanın rəhbərlik etdiyi geniş tərkibli nümayəndə heyəti ilə görüşmüşdür.

Görüşdə tərəflər ikitərəfli münasibətlərin inkişaf etdirilməsi, enerji təhlükəsizliyi sahəsində əməkdaşlıq, Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi həlli və regionda davamlı sabitliyin möhkəmləndirilməsi və digər qarşılıqlı maraq doğuran məsələləri müzakirə etmişlər.

Səmimi qəbula görə təşəkkürünü bildirən xanım A.Fotiqa, bu il ölkələrimiz arasında diplomatik əlaqələrin qurulmasının 15-ci ildönümü olduğunu qeyd edərək, ötən müddət ərzində ölkələrimiz arasındakı münasibətlərin inkişafından məmnun qaldığını vurğulamış və bu əlaqələrin daha da genişləndirilməsinin vacibliyini vurğulamışdır.

Öz növbəsində, nazir Məmmədyarov Azərbaycanla Polşa arasında diplomatik əlaqələrin qurulmasının 15 illiyinin əhəmiyyətli tarix olduğunu qeyd edərək, ölkələrimiz arasındakı münasibətlərin dərin tarixi ənənələrə söykəndiyini söyləmişdir. O, iki ölkə arasında uğurla inkişaf etmiş həm ikitərəfli əlaqələrin, həm də beynəlxalq təşkilatlar çərçivəsində qarşılıqlı əməkdaşlığın hər iki tərəf üçün faydalı olduğunu vurğulamışdır.

Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin həlli istiqamətində aparılan danışıqlar prosesinə toxunan nazir Məmmədyarov, Azərbaycan tərəfinin danışıqlar yoluna üstünlük verdiyini və münaqişənin yalnız ölkəmizin ərazi bütövlüyü və beynəlxalq hüququn norma və prinsipləri əsasında həll edilməsinin vacibliyini vurğulamışdır. O, Ermənistanın Azərbaycana qarşı etnik təmizləmə və işğalçılıq siyasətinin davam etdirməsi faktının ümum Avropa dəyərləri ilə tam ziddiyyət təşkil etdiyini qonağın diqqətinə çatdırmış və bunun Avropanın bir hissəsi olmaq istəyən ölkə üçün yolverilməz olduğunu vurğulamışdır.

Avropa və Avro-Atlantik strukturlara inteqrasiyanın ölkəmizin xarici siyasətinin prioritetlərindən biri olduğunu vurğulayan nazir Məmmədyarov, Azərbaycanla Avropa Birliyi arasında inkişaf edən münasibətlərdən söz açmış və bu istiqamətdə Polşanın faydalı təcrübəyə malik olduğunu qeyd etmişdir.

Azərbaycanın neft-qaz sənayesi sahəsində həm ixrac edən, eyni zamanda strateji coğrafi mövqeyini nəzərə alaraq, regionda əhəmiyyətli tranzit ölkə olduğunu qeyd edən nazir Məmmədyarov, ölkə iqtisadiyyatında əldə olunmuş nailiyyətlər, qeyri-neft sektorunun, xüsusi ilə də təhsil və informasiya texnologiyaları, habelə kənd təsərrüfatı sahələrinin inkişafı barədə qonağa ətraflı məlumat vermişdir. O, Azərbaycanla Polşa arasında iqtisadi əlaqələrin genişləndirilməsi və ticarət dövriyyəsinin daha da artırılmasının hər iki tərəf üçün faydalı olduğunu vurğulamış və Polşanın iş adamlarının fəaliyyəti üçün ölkəmizdə geniş imkanlar olduğunu diqqətə çatdırmışdır.

Nazir A.Fotiqa Azərbaycanla Avropa Birliyi arasında münasibətlərin daha da genişləndirilməsinin vacibliyinə toxunaraq, bu əməkdaşlığın hər iki tərəf üçün əhəmiyyətli olduğunu söyləmişdir. Azərbaycanın Avropa ölkələri üçün alternativ enerji mənbəyi olduğunu qeyd edən xanım Fotiqa, AB ölkələrinin regionda əməkdaşlığın genişləndirilməsində maraqlı olduğunu vurğulamış və Polşa iş adamlarının Azərbaycanda daha geniş şəkildə fəaliyyət göstərmələri, həmçinin Azərbaycanın iş adamları arasında Polşanın iqtisadi imkanlarının təbliğ edilməsinin tərəfdarı olduğunu qeyd etmişdir.

Daha sonra, Polşanın xarici siyasət prioritetlərindən söz açan xanım Fotiqa Azərbaycanla öz ölkəsinin Avropa Qonşuluq Siyasəti çərçivəsində, həmçinin Qara Dəniz İqtisadi Əməkdaşlıq Təşkilatı çərçivəsində də münasibətlərinin inkişaf etdirilməsinin əhəmiyyətini önə çəkmişdir. O, Azərbaycan və Vişeqrad qrupu arasında əməkdaşlıq perspektivlərindən söz açaraq, bu əlaqələrin tərəflər üçün səmərəli olacağını söyləmişdir.

Görüş zamanı tərəflər cari ilin aprel ayında Bakıda "Dini dözümlük və qarşılıqlı anlaşmanın inkişafında kütləvi informasiya vasitələrinin rolu" mövzusunda keçiriləcək konfrans, həmçinin ölkələrimizin siyasi, iqtisadi, mədəni həyatında və dünyada cərəyan edən hadisələr barədə geniş fikir mübadiləsi aparmışlar.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV TÜRKİYƏNİN QURU QOŞUNLARI KOMANDANI İLKER BAŞBUĞUN RƏHBƏRLİK ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİNİ QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev martın 6-da Prezident sarayında Türkiyənin Quru Qoşunları komandanı İlker Başbuğun rəhbərlik etdiyi nümayəndə heyətini qəbul etmişdir.

Dövlətimizin başçısı Azərbaycan-Türkiyə münasibətlərinin çox sürətlə inkişaf etdiyini bildirdi. İki ölkə arasında bütün sahələrdə, o cümlədən hərbi sahədə əməkdaşlığın uğurla həyata keçirildiyini vurğulayan Prezident İlham Əliyev əlaqələrimizin daha da gücləndiriləcəyinə əminliyini ifadə etdi. O, ölkələrimizin mühüm beynəlxalq layihələrin həyata keçirilməsində birgə iştirak etdiyini və Azərbaycan-Türkiyə əməkdaşlığının region üçün böyük əhəmiyyəti olduğunu bildirdi.

İlker Başbuğ Türkiyənin Prezidenti Əhməd Necdət Sezərin salamlarını Azərbaycanın dövlət başçısına çatdırdı. Ölkəmizə ikinci dəfə səfər etdiyini bildirən qonaq dedi ki, bu səfərindən məqsəd Azərbaycanda ordu quruculuğu sahəsində həyata keçirilən işlərlə tanış olmaq, iki ölkənin silahlı qüvvələri arasında gələcək əməkdaşlıq məsələlərini müzakirə etməkdir.

Prezident İlham Əliyev Türkiyənin Prezidenti Əhməd Necdət Sezərin salamlarına görə minnətdarlığını bildirdi və onun da salamlarını Türkiyənin dövlət başçısına çatdırmağı xahiş etdi.

AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ ATƏT-İN MİNSK QRUPUNUN FRANSALI HƏMSƏDRİNİ QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev martın 8-də Prezident Sarayında ATƏT-in Minsk qrupunun fransalı həmsədri Bernard Fasyeni qəbul etmişdir.

Görüşdə Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin nizama salınması ilə bağlı aparılan danışıqların hazırkı vəziyyəti və perspektivləri ilə əlaqədar məsələlər müzakirə edilmişdir.

XARİCİ İŞLƏR NAZİRİ UNİCEF-İN REGİONAL DİREKTORU İLƏ GÖRÜŞMÜŞDÜR

Martın 12-də Xarici İşlər naziri Elmar Məmmədyarov BMT-nin Uşaq Fondunun (UNİCEF) Mərkəzi və Şərqi Avropa və Müstəqil Dövlətlər Birliyi üzrə regional direktoru xanım Maria Kalivis ilə görüşmüşdür.

Azərbaycan ilə UNİCEF arasında əməkdaşlığın yüksək səviyyədə olduğunu vurğulayan nazir, ölkəmizdə uşaqların hüquqlarının müdafiəsi sahəsində görülən işlərdən, o cümlədən Heydər Əliyev Fondunun təşəbbüsü ilə yeni məktəblərin tikilməsindən, hökumətin gələcək nəslin düzgün yetişdirilməsi istiqamətində atdığı addımlardan, iqtisadi sahədə əldə olunan gəlirlərin əsas hissəsinin təhsilə sərf edilməsindən danışmışdır. Qaçqın və məcburi köçkünlərin 60 faizini uşaqların təşkil etdiyi və onların müharibə qurbanları olduğu qonağın diqqətinə çatdırılmışdır.

Xanım M.Kalivis Azərbaycanın bu sahədə fəaliyyətini, təşkilatla əməkdaşlığını yüksək qiymətləndirmiş, gənc nəslin gələcəyin çağırışlarına cavab vermək qabiliyyətində yetişdirilməsinin zəruriliyini vurğulamışdır. O, həmçinin hökumətin qaçqın və məcburi köçkün uşaqların reabilitasiyası, cəmiyyətə inteqrasiyası istiqamətində gördüyü işləri alqışlamış, gənclərə xüsusi diqqəti, 2007-ci ilin gənclər ili elan olunmasını müsbət qiymətləndirmişdir.

Görüşün sonunda tərəflər əməkdaşlığın davam etdirilməsi və daha da genişləndirilməsi barədə razılığa gəlmişlər.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV BELARUS RESPUBLİKASININ FÖVQƏLADƏ HALLAR NAZİRİ ƏNVƏR BARİYEVİ QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev martın 13-də Prezident sarayında Belarus Respublikasının fövqəladə hallar naziri Ənvər Bariyevi qəbul etmişdir.

Dövlətimizin başçısı Azərbaycanla Belarus arasında əməkdaşlığın müxtəlif sahələr üzrə uğurla inkişaf etdiyini bildirdi. Ötən il Belarus Respublikasına səfərini xatırlayan Prezident İlham Əliyev bu səfərin ikitərəfli münasibətlərimizin inkişafı baxımından əhəmiyyətini vurğuladı. Ölkələrimizin müxtəlif qurumları arasında əməkdaşlığın vacibliyini nəzərə çatdıran dövlətimizin başçısı fövqəladə hallar nazirlikləri arasında əməkdaşlığın əlaqələrimizin daha da genişlənməsi işinə töhfə verəcəyinə əminliyini bildirdi.

Belarus Respublikasının fövqəladə hallar naziri Ənvər Bariyev ölkəsinin Azərbaycanla geniş əməkdaşlıqda maraqlı olduğunu söylədi. O, fövqəladə hallar nazirlikləri arasında əlaqələrin uğurla inkişaf etdiyini bildirdi. Azərbaycanın fövqəladə hallar nazirliyi ilə əməkdaşlığın gələcəkdə də davam edəcəyinə ümidvar olduğunu vurğuladı.

CENEVRƏDƏ AZƏRBAYCAN VƏ ERMƏNİSTAN XARİCİ İŞLƏR NAZİRLƏRİNİN NÖVBƏTİ GÖRÜŞÜ KEÇİRİLMİŞDİR

Martın 14-də Cenevrədə Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli ilə bağlı Azərbaycanın xarici işlər naziri Elmar Məmmədyarovun və Ermənistan xarici siyasət idarəsinin rəhbəri Vardan Oskanyanın növbəti görüşü keçirilmişdir.

ATƏT-in Minsk qrupunun həmsədrləri Yuri Merzlyakov, Bernar Fasye, Mətyu Brayzə və ATƏT-in hazırkı sədrinin şəxsi nümayəndəsi Anji Kaspşikin də iştirak etdikləri görüşdə tərəflər mövqelərini bir daha bəyan etmişlər.

Sonda məsləhətləşmələri davam etdirmək qərara alınmış, növbəti görüşün apreldə keçirilməsi təklifi irəli sürülmüşdür. Nazirlər təklifi qəbul etmişlər.

Minsk qrupunun həmsədləri növbəti görüşün təşkili üzərində işləyəcəklər.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV NATO BAŞ KATİBİNİN CƏNUBİ QAFQAZ VƏ ORTA ASİYA ÜZRƏ XÜSUSİ NÜMAYƏNDƏSİ ROBERT SİMMONSU QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev martın 14-də Prezident sarayında NATO Baş katibinin Cənubi Qafqaz və Orta Asiya üzrə xüsusi nümayəndəsi Robert Simmonsu qəbul etmişdir.

Dövlətimizin başçısı ölkəmizin NATO ilə fəal əməkdaşlıq etdiyini vurğuladı. Brüsselə səfərini xatırladan Azərbaycan Prezidenti həmin səfər zamanı NATO Baş katibi ilə səmərəli fikir mübadiləsi aparıldığını bildirdi.

NATO Baş katibinin Cənubi Qafqaz və Orta Asiya üzrə xüsusi nümayəndəsi Robert Simmons Azərbaycan Prezidentinin Brüsselə səfərinin uğurla keçdiyini dedi və NATO-nun Baş katibi Yaap de Hoop Sxefferin salamlarını Prezident İlham Əliyevə çatdırdı.

Dövlətimizin başçısı NATO Baş katibinin salamlarına görə minnətdarlığını bildirdi və onun da salamlarını Baş katibə çatdırmağı xahiş etdi.

Görüşdə qarşılıqlı maraq doğuran bir sıra digər məsələlər barədə fikir mübadiləsi aparıldı.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN TACİKİSTAN RESPUBLİKASINA RƏSMİ SƏFƏRİ

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev martın 15-də Tacikistan Respublikasına rəsmi səfərə gəlmişdir.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN VƏ TACİKİSTAN PREZİDENTİ EMOMƏLİ RƏHMONOVUN TƏKBƏTƏK GÖRÜŞÜ

Martın 15-də Düşənbədə – Dövlət iqamətgahında Azərbaycan Prezidenti İlham Əliyevin və Tacikistan Prezidenti Emoməli Rəhmonovun təkbətək görüşü olmuşdur.

Söhbət zamanı Azərbaycan ilə Tacikistan arasında ikitərəfli münasibətlərin müxtəlif sahələrdə genişləndirilməsi üçün yaxşı potensialın olduğu bildirildi, o cümlədən iqtisadi sahədə əməkdaşlığın genişləndirilməsinin vacibliyi vurğulandı.

Dövlət başçıları Azərbaycan Prezidentinin Tacikistana ilk rəsmi səfərinin gələcək əlaqələrin daha da möhkəmlənməsi və dərinləşməsinə xidmət edəcəyini söylədilər, ikitərəfli münasibətlərin bundan sonra daha da genişlənəcəyinə əminliklərini bildirdilər.

Görüşdə qarşılıqlı maraq doğuran bir sıra digər məsələlər barədə fikir mübadiləsi aparıldı.

DÖVLƏT BAŞÇILARININ GENİŞ TƏRKİBDƏ GÖRÜŞÜ

Martın 15-də, təkbətək görüşdən sonra, Dövlət iqamətgahında Azərbaycan Prezidenti İlham Əliyevin və Tacikistan Prezidenti Emoməli Rəhmonovun nümayəndə heyətlərinin iştirakı ilə geniş tərkibdə görüşü olmuşdur.

Prezident EMOMƏLİ RƏHMONOV görüşü açaraq dedi ki, Azərbaycan dövləti başçısının Tacikistan Respublikasına rəsmi səfəri xalqlarımızın kökləri əsrlərin dərinliklərinə gedən qarşılıqlı münasibətlərinin yeni tarixində mühüm mərhələdir. Azərbaycan xalqının böyük oğlu, tacik-fars ədəbiyyatının klassiklərindən biri kimi ehtiram bəslənilən və Rudəki, İbn Sina, Sədi və digərləri ilə birlikdə dünya ədəbiyyatı xəzinəsinə misilsiz töhfə vermiş Nizami Gəncəvinin yaradıcılığı buna parlaq sübutdur. Mədəniyyətlərin qarşılıqlı nüfuzu və qarşılıqlı zənginləşməsi daimi prosesdir. Bu baxımdan Tacikistanın təxminən üç min nəfərdən ibarət Azərbaycan diasporunun rolunu yüksək qiymətləndirmək istəyirəm. Onun nümayəndələri cəmiyyətimizin inkişafına sanballı töhfə vermiş və verirlər. Bugünkü Azərbaycan tərəqqi və quruculuq yolu ilə inamla irəliləyən dinamik inkişaflı ölkədir. Bu uğurların əsasını hamımızın dərin hörmət bəslədiyi, regionda və dünyada çox böyük nüfuza malik olmuş mərhum Heydər Əliyeviç qoymuşdur. Mən onunla uzun illər birgə işimizi xatırladım. Həm də təkcə birgə işimizi yox. Xatırladım ki, Heydər Əliyeviç Moskvada işləyərkən Tacikistana sənaye komplekslərinin, hidroenergetikanın inkişafı üçün çox güclü kömək göstərirdi. Biz hər dəfə görüşərkən o, Tacikistanın necə inkişaf etdiyi ilə maraqlanırdı.

Tacikistan xalqının bunu heç zaman unutmayacağını vurğulayan Prezident Rəhmonov belə bir faktı da xatırlatdı ki, Tacikistan Respublikası yaradıldıqdan sonra ilk daxili işlər nazirlərindən biri azərbaycanlı olmuşdur. Azərbaycan diasporu ziyalılarının hələ çox nümayəndələrini misal göstərmək olar. Əminəm ki, Sizin simanızda Azərbaycan xalqı bu nəcib işin layiqli davamçısına malikdir. Əziz həmkarım, doğma torpağımızın tərəqqisi və xalqının firavanlığı naminə Sizə ürəkdən yeni-yeni uğurlar arzulamaq istəyirəm.

Tacikistan rəhbəri dedi ki, biz Azərbaycanla münasibətlərin hər vasitə ilə inkişafında maraqlıyıq, bütün istiqamətlərdə qarşılıqlı surətdə faydalı əməkdaşlığın genişlənməsi və dərinləşməsi üçün mümkün olan bütün işləri görmək niyyətindəyik. Qarşılıqlı münasibətlərimizi keyfiyyətcə yeni səviyyəyə yüksəltməkdən ötrü sənədlər hazırlamışıq və onların imzalanması ənənəvi dostluq münasibətlərimizin daha da inkişaf etməsinin hüquqi bazası üçün əsas qoymalıdır. Həmin sənədlər sırasında dostluq və əməkdaşlıq haqqında müqaviləni xüsusi vurğulayan dövlət başçısı bildirdi ki, burada respublikalarımız

arasında ikitərəfli münasibətlərin əsas prinsipləri təsbit olunmuşdur. Bu münasibətlər beynəlxalq hüququn hamılıqla tanınmış norma və prinsipləri, qarşılıqlı hörmət, hüquq bərabərliyi əsasında inkişaf edəcəkdir. Müqavilə uzunmüddətli perspektiv üçün nəzərdə tutulan əməkdaşlığımızın sanballı binasının qurulacağı bünövrə olmalıdır.

Bu, beynəlxalq aləmdə əməkdaşlığımıza da, regional strukturlar çərçivəsində və ikitərəfli əlaqələr formatında qarşılıqlı əlaqələrimizə də aiddir.

Ölkələrimiz arasında ticarət-iqtisadi əlaqələrin inkişafı üçün böyük potensial olduğunu bildirən Tacikistan rəhbəri dedi ki, əmtəə dövriyyəsi keçən il rekord səviyyəyə çatmış və 140 milyon dollardan artıq olmuşdur. Tacikistanda təbii sərvətlərin, o cümlədən də enerji daşıyıcılarının zəngin ehtiyatları var. Azərbaycanlı tərəfdaşlarımızın zəngin təcrübəsi, malik olduqları texnologiyalar və sərmayə imkanları bu sahələrdə faydalı əməkdaşlıq üçün baza ola bilər. Ölkəmizdə hidroenergetika potensialının artırılmasına, faydalı qazıntılar, o cümlədən neft və qaz hasilatına və digər sahələrə dair layihələr hazırlanmışdır və Rusiya, Çin, İran və bir sıra digər ölkələrlə birlikdə iş aparılır. Biz Azərbaycanın da bu prosesdə fəal iştirak etməsində maraqlıyıq.

Humanitar sahədə əməkdaşlıqdan danışan Emoməli Rəhmonov dedi ki, biz elmi, yaradıcılıq və təhsil müəssisələri arasında bilavasitə münasibətləri, insanlar arasında əlaqələri hər vasitə ilə təşviq edəcəyik. Düşünürəm ki, Tacikistanda Azərbaycan və Azərbaycanda Tacikistan mədəniyyəti günlərinin keçirilməsi bu sahədə qarşılıqlı əlaqələrə kömək edəcəkdir.

Prezident Rəhmonov bildirdi ki, Tacikistan Cənubi Qafqazda vəziyyəti də izləyir və planetin bu mühüm regionunda problemlərin ancaq dinclik yolu ilə həllinə tərəfdardır. Azərbaycan və Ermənistan xarici siyasət idarələri başçılarının Cenevrədə keçirilən sonuncu görüşü Qafqazda uzunmüddətli sülh və sabitliyin bərqərar olacağına və region ölkələrinin münasibətlərinin normallaşacağına müəyyən nikbinlik və ümid doğurur. Hörmətli həmkarım İlham Heydəroviçlə biz bu məsələləri müzakirə etdik - ancaq danışıqlar, dialoq. Həm də ona görə ki, hazırda Cənubi Qafqazda inkişafın başlıca hərəkətverici qüvvəsi məhz Azərbaycandır. Biz çox sevinirik ki, son illərdə Azərbaycan iqtisadi inkişafın belə səviyyəsinə nail olmuşdur. Bu, yaxşıdır.

Taciklərin atalar sözündə deyilir ki, əgər qonşunun işi yaxşıdırsa, deməli, sənin də işin yaxşıdır. Həqiqətən, indiki bu çətin zamanda, qışda Gürcüstanın vəziyyəti çox ağır olduğu vaxtda Azərbaycanın siyasi rəhbərliyi tərəfindən yardım əli uzadıldı və qonşu ölkə qazla təmin edildi. Hətta burada, Mərkəzi Asiyada biz, xalqımız buna çox müsbət reaksiya verdik.

Prezident Emoməli Rəhmonov çıxışının sonunda dedi: Hörmətli İlham Heydəroviç, ölkəmizə səfərinizə, xalqlarımızın dostluq və əməkdaşlıq münasibətlərinin möhkəmlənməsi, dövlətlərimizin tərəqqisi naminə səmərəli işinizə görə Sizə minnətdarlığımı bildirmək istəyirəm. Biz Tacikistan-Azərbaycan əməkdaşlığının gələcəyinə nikbinliklə baxırıq və ölkələrimizin potensialından istifadə üçün lazım olan bütün işləri görməyə hazırıq. Əminəm ki, səfəriniz buna güclü təkan verəcəkdir.

Əziz dostlar, icazə verin, ümumi bayramımız Novruz ərəfəsində sizin hamınızı ürəkdən təbrik edim, sizə möhkəm cansağlığı və ölkələrimizin tərəqqisi, xalqlarımızın firavanlığı naminə yeni-yeni uğurlar arzulayım.

Sonra Azərbaycan Prezidenti İLHAM ƏLİYEV çıxış edərək, rəsmi səfərə dəvətə görə Prezident Emoməli Rəhmonova təşəkkürünü bildirdi. Dövlətimizin başçısı dedi ki, bu, Azərbaycan Prezidentinin Tacikistana ilk rəsmi səfəridir. Gözəl torpağınızda olduğumuz ilk dəqiqələrdən biz qonaqpərvərlik hiss edirik. Bu, bir daha göstərir ki, xalqlarımızın qarşılıqlı münasibətlərinin qədim tarixi, ortaq mədəniyyətləri və ənənələri var. Xalqlarımız bu ənənələri çoxəsrlik əməkdaşlıqla yaşatmışlar və onlar indi inkişaf edərək, möhkəmlənir. İki müstəqil dövlət – Tacikistan və Azərbaycan azadlıq, öz potensialını möhkəmlətmək yolu ilə inamla gedir.

Mən bu imkandan istifadə edərək, Sizi özünüz üçün əlverişli vaxtda ölkəmizə rəsmi səfərə dəvət etmək, aramızda olan fəal dialoqu davam etdirmək istəyirəm. Çox istərdim ki, səfər zamanı Sizin ölkəmizin regionlarına, o cümlədən dahi Azərbaycan şairi Nizaminin vətəni və onun məzarının yerləşdiyi Gəncə şəhərinə də getmək imkanınız olsun. İstərdim ki, qədim tarixi, xalqlarımızı birləşdirən kökləri bir daha duyasınız.

Həqiqətən, bu gün biz Sizinlə bu barədə danışdıq. Ümumi tarix çox şey deməkdir. Biz özgünlüyümüzü, öz dilimizi, öz mədəniyyətimizi, ənənələrimizi məhz bu tarixi köklər sayəsində qoruyub saxlamışıq. Dövlətlərimizin həm iqtisadi, həm də siyasi müstəvidə əməkdaşlığı belə möhkəm bünövrəyə əsaslanır. Ümidvaram ki, səfərim zamanı imzalanacaq sənədlər fəal əməkdaşlıq üçün çox geniş imkanlar açacaqdır. Siyasi baxımdan biz müttəfiqlərik, bütün təşkilatlarda – BMT-də, ATƏT-də, İslam Konfransı Təşkilatında, MDB-də və digər forumlarda bir-birimizi dəstəkləyirik. İqtisadi baxımdan bizdə əmtəə dövriyyəsi kifayət qədər yüksək səviyyədədir və qarşıdakı illərdə onu artırmağa ümid edirik.

Azərbaycan Prezidenti bildirdi ki, humanitar sahədə əməkdaşlıq məsələlərində də aramızda tam fikir birliyi var. Bir-birimizi daha yaxşı tanıya bilməyimiz üçün ölkələrimizdə mədəni tədbirlər keçirilməsi ideyasına mən də qoşuluram.

Dövlətimizin başçısı dedi ki, Azərbaycanda bizim həll etdiyimiz çox mühüm məsələlər, ilk növbədə, energetika ilə bağlıdır və onlar sırf Cənubi Qafqaz regionunun çərçivəsindən çox tez-tez kənara çıxır və Mərkəzi Asiya, Avropa regionuna da potensial surətdə yayıla bilər. Biz bu istiqamətdə neft-qaz kəmərlərinin, habelə nəqliyyat infrastrukturunun tikintisi üçün çoxmilyardlıq layihələr həyata keçirmişik. Yaxın vaxtlarda Bakı-Tbilisi-Qars dəmir yolunun tikintisinə başlayırıq. O da Asiya ilə Avropa arasında körpüyə çevriləcəkdir. Düşünürəm ki, gələcəkdə həmin dəmir yoluna qoşulmaq Tacikistan üçün də maraq doğuracaqdır. Regional əməkdaşlığın bu elementi onda iştirak edəcək bütün ölkələrə sərfəli olacaqdır.

Prezident İlham Əliyev vurğuladı ki, regionda etimad tədbirlərinin, təhlükəsizliyin möhkəmləndirilməsi, terrorizmlə mübarizə – bütün bu məsələlər bizi narahat edir. Təəssüf ki, indi gördüyümüz kimi, dünya bu hədələrdən müdafiə edilməyib, heç bir ölkə özünü tam təhlükəsiz hiss etmir, xüsusən də bizim region. Çünki burada həm daxildə, həm də ətrafda münaqişələr, təhdidlər mövcuddur. Ona görə də təbii ki, bu təhdidləri minimuma endirməklə, fəaliyyəti uzlaşdırmaqla məşğul olmalı olan strukturların qarşılıqlı əlaqəsi mühüm prioritetdir.

Biz sülh, sabitlik şəraitində yaşamaq və öz dövlətimizi, müstəqilliyimizi möhkəmlətmək, adamlarımız üçün daha yaxşı həyat şəraiti yaratmaq istəyirik. Əlbəttə ki, bunun üçün, ilk növbədə, təhlükəsizlik gərəkdir.

Narkotrafiklə əlaqədar məsələ bizi də narahat edir, çünki narkotrafikin bir hissəsi bizim ərazimizdən də keçir və bununla mübarizə üçün bizdə də fəal tədbirlər görülür. Odur ki, bu sahədə ölkələrimizin səylərinin əlaqələndirilməsi böyük fayda gətirərdi. Biz də BMT-nin müvafiq qurumları, digər təşkilatlarla əməkdaşlıq edir və narkotrafikin qarşısına güclü sipər çəkmək üçün öz tərəfimizdən mümkün olan bütün işləri görürük. Əlbəttə ki, bundan ötrü çox ciddi tədbirlər görmək, sərhədlərdə infrastruktur yaratmaq, yeni sərhədlər yaratmaq gərəkdir. Regionumuzda yeni sərhəd infrastrukturu yaradılmasına böyük tələbat var, çünki Azərbaycanla qonşu ölkələr arasında sərhədlər, əslində, şəffafdır. Ona görə də bu fəaliyyəti təkmilləşdirmək üçün böyük investisiyalar, habelə bu fəaliyyəti təkmilləşdirmək işində beynəlxalq təşkilatlarla əməkdaşlıq lazımdır.

Dövlətimizin başçısı Cənubi Qafqaz regionunda separatçı hərəkatlardan danışaraq dedi ki, bunların nəticəsində həm Gürcüstanın, həm də Azərbaycanın ərazi bütövlüyü pozulmuşdur və bu, təhlükənin başlıca amilidir. Artıq on ildən çoxdur ki, Azərbaycan ərazisinin bir hissəsi Ermənistanın işğalı altındadır. Ermənistanın etnik təmizləmə siyasəti nəticəsində bir milyondan çox azərbaycanlı qaçqına və məcburi köçkünə çevrilmişdir. Bu, çox böyük humanitar fəlakətdir. Səkkiz milyon yarım əhalinin bir milyonu erməni təcavüzü nəticəsində qaçqın və məcburi köçkünə çevrilmiş adamlardır.

Prezident İlham Əliyev dedi ki, biz məsələni nizama salmağa çalışır və ATƏT çərçivəsində danışıqlar aparırıq. Amma, təəssüf ki, nəticələrdən danışmaq hələlik tezdir. Biz beynəlxalq hüququn prinsipləri və normalarını əsas tuturuq. Azərbaycanın ərazi bütövlüyünü dünyanın bütün dövlətləri, habelə Birləşmiş Millətlər Təşkilatı tanımışdır. BMT Təhlükəsizlik Şurası dörd qətnamə qəbul etmişdir. Lakin erməni işğalçı qüvvələrinin Azərbaycan ərazisindən dərhal çıxarılmasını tələb edən bu qətnamələr yerinə yetirilmir. Ona görə də beynəlxalq hüququn aliliyi və ərazi bütövlüyü prinsipləri, əlbəttə, bu münaqişənin və oxşar münaqişələrin həlli zamanı əsas kimi götürülməlidir.

O ki qaldı millətlərin öz müqəddəratını təyin etmək hüququna, – erməni tərəfi ona tez-tez əl atır. Deməliyəm ki, erməni xalqı artıq öz müqəddəratını təyin etmişdir, onun Ermənistan dövləti var. Əgər Ermənistanın məntiqini götürsək, onda hər bir milli azlıq öz müqəddəratını təyin edəcək və bununla da ölkələrin ərazi bütövlüyünü pozacaqdır. Bunun nəyə gətirib çıxaracağı yaxşı məlumdur. Bu, fəlakətə gətirib çıxaracaqdır.

Ona görə də Azərbaycan münaqişənin sülh yolu ilə həllinə tərəfdardır, amma məhz beynəlxalq hüququn normaları və prinsipləri əsasında. Ermənistanın işğalçı qüvvələri zəbt olunmuş ərazilərdən çıxarılmalıdır. Dağlıq Qarabağ ermənilərı isə vahid Azərbaycan dövləti çərçivəsində yüksək özünüidarə və muxtariyyət statusu ala bilərlər.

Biz MDB çərçivəsində, digər beynəlxalq təşkilatlar çərçivəsində forumlarda tez-tez ünsiyyətdə olur, tez-tez görüşürük. Emoməli Rəhmonovla bizim aramızda çox yaxın, çox səmimi münasibətlər yaranmışdır. Mənim buraya səfərim, ümidvaram, Tacikistan Prezidentinin yaxın vaxtlarda cavab səfəri əlaqələrimizi daha da möhkəmləndirəcəkdir.

Təəssüf ki, müstəqillik əldə edildikdən sonra Tacikistanda da, Azərbaycanda da xalqlarımız daxili münaqişələrdən, vətəndaş müharibəsindən çox əziyyət çəkdilər. Biz bunu

da yaşadıq, amma, xoşbəxtlikdən, bu, o qədər də uzun sürmədi. Bu proses sizdə daha sürəkli, daha qanlı oldu və ölkənin bərpası üçün çox böyük səylər göstərməli oldunuz. Bunu necə uğurla etməyiniz onu göstərir ki, rəhbərliyin siyasəti düzgündür, əhali tərəfindən dəstəklənir. Dostlarımız və qonşularımızı uğurlarınızı gördükdə sevinirlər.

Belə səmimi qəbula görə Sizə bir daha təşəkkür etmək istəyirəm. Tacikistanda olmağıma çox şadam. Ölkənizə bu mənim nəinki ilk rəsmi, həm də, ümumiyyətlə, birinci səfərimdir. Ümidvaram ki, bundan sonra tez-tez görüşəcək və ünsiyyətdə olacağıq. Ümumi bayramımız – Novruz bayramı ərəfəsində öz adımdan bütün qardaş Tacikistan xalqına ən xoş arzularımı da yetirmək istəyirəm.

SƏNƏDLƏRİN İMZALANMA MƏRASİMİ

Əvvəlcə prezidentlər İlham Əliyev və Emomali Rəhmonov Azərbaycan Respublikası ilə Tacikistan Respublikası arasında dostluq və əməkdaşlıq haqqında müqaviləni imzaladılar.

Azərbaycan Respublikasının hökuməti ilə Tacikistan Respublikasının hökuməti arasında Azərbaycan Respublikası və Tacikistan Respublikası vətəndaşlarının qarşılıqlı vizasız gediş-gəlişi haqqında sazişi Azərbaycanın xarici işlər naziri Elmar Məmmədyarov və Tacikistanın xarici işlər naziri Xamroxon Zarupov imzaladılar.

Azərbaycan Respublikasının hökuməti ilə Tacikistan Respublikasının hökuməti arasında investisiyaların təşviqi və qarşılıqlı qorunması haqqında sazişi Azərbaycanın iqtisadi inkişaf naziri Heydər Babayev və Tacikistan Respublikası İnvestisiyalar və Dövlət Əmlakının İdarəolunması üzrə Dövlət Komitəsinin sədri Şərif Raximov imzaladılar.

Azərbaycan Respublikasının hökuməti ilə Tacikistan Respublikasının hökuməti arasında ticarət-iqtisadi əməkdaşlıq haqqında sazişi Azərbaycanın iqtisadi inkişaf naziri Heydər Babayev və Tacikistanın iqtisadi inkişaf və ticarət naziri Qulomjon Boboyev imzaladılar.

Azərbaycan Respublikasının hökuməti ilə Tacikistan Respublikasının hökuməti arasında beynəlxalq avtomobil əlaqələri sahəsində əməkdaşlıq haqqında sazişi Azərbaycanın nəqliyyat naziri Ziya Məmmədov və Tacikistanın nəqliyyat və kommunikasiyalar naziri Abdulraxim Aşurov imzaladılar.

Azərbaycan Respublikasının hökuməti ilə Tacikistan Respublikasının hökuməti arasında mədəniyyət və incəsənət sahəsində əməkdaşlıq haqqında sazişi Azərbaycanın mədəniyyət və turizm naziri Əbülfəs Qarayev və Tacikistanın mədəniyyət naziri Mirzoşoxrux Asrorov imzaladılar.

Tacikistan Respublikasının hökuməti ilə Azərbaycan Respublikasının hökuməti arasında gömrük işlərində əməkdaşlıq və qarşılıqlı yardım haqqında sazişi Azərbaycan Dövlət Gömrük Komitəsinin sədri Aydın Əliyev və Tacikistan hökuməti yanında Gömrük Xidmətinin sədri Qurez Zaripov imzaladılar.

Azərbaycan Respublikasının hökuməti ilə Tacikistan Respublikasının hökuməti arasında turizm sahəsində əməkdaşlıq haqqında sazişi Azərbaycanın mədəniyyət və turizm naziri Əbülfəs Qarayev və Tacikistan hökuməti yanında Gənclərin İşi, İdman və Turizm

Komitəsinin sədri Davlatali Saidov imzaladılar.

Azərbaycan Respublikasının hökuməti ilə Tacikistan Respublikasının hökuməti arasında standartlaşdırma, metrologiya, sertifikasiya və akkreditasiya sahəsində əməkdaşlıq haqqında sazişi Azərbaycanın Standartlaşdırma, Metrologiya və Patent üzrə Dövlət Agentliyinin baş direktoru Ramiz Həsənov və Tacikistan hökuməti yanında Standartlaşdırma, Metrologiya, Sertifikasiya və Ticarət Müfəttişliyi Agentliyinin direktoru Davlatali Hotəmov imzaladılar.

Azərbaycan Respublikasının hökuməti ilə Tacikistan Respublikasının hökuməti arasında dəmir yol nəqliyyatı sahəsində əməkdaşlıq haqqında sazişi Azərbaycanın nəqliyyat naziri Ziya Məmmədov və "Roxu Oxanu Tacikistan" Dövlət unitar müəssisəsinin sədri Emoməli Xokimov imzaladılar.

Azərbaycan Respublikasının hökuməti ilə Tacikistan Respublikasının hökuməti arasında hava əlaqəsi haqqında sazişi "Azərbaycan Hava Yolları" Dövlət Konserninin baş direktoru Cahangir Əsgərov və "Tacikeyr" Dövlət unitar aviasiya müəssisəsinin baş direktoru Xakimşo Tulloyev imzaladılar.

* * *

İmzalanma mərasimindən sonra dövlət başçılarının birgə mətbuat konfransı keçirilmişdir.

TACİKİSTAN PREZİDENTİ EMOMƏLİ RƏHMONOVUN BƏYANATI

Hörmətli kütləvi informasiya vasitələrinin nümayəndələri. İlk növbədə, mən dostlarımızı – dost Azərbaycanın Prezidenti, əziz dostum İlham Əliyevi və onu müşayiət edən nümayəndə heyətini Tacikistan hökuməti və xalqı adından hərarətlə salamlamaq istəyirəm.

Azərbaycan dövləti başçısının Tacikistana ilk rəsmi səfəri iki ölkənin rəhbərliyinin möhkəm çoxəsrlik ənənələri olan ölkələrimiz və xalqlarımız arasında münasibətlərə yeni təkan verməyə qarşılıqlı surətdə səy göstərdiyinə sübutdur.

Bu ənənələrdən danışarkən, ilk növbədə, Azərbaycanın böyük oğlu, həm də tacik və fars ədəbiyyatının klassiki sayılan, poeziya dühaları sırasına daxil olan Nizami Gəncəvini nəzərdə tuturam. Tacik xalqı diyarımızın tərəqqisinə, Tacikistanda elmin, təhsilin, mədəniyyətin inkişafına sanballı töhfə vermiş Azərbaycan xalqının şanlı nümayəndələrinin adlarını heç zaman unutmayacaqdır.

Aparılmış danışıqların yekunları barədə demək istəyirəm ki, danışıqlar konstruktivlik və qarşılıqlı hörmət şəraitində, qarşılıqlı anlaşma və mövcud zəngin potensialdan əməkdaşlıq üçün istifadə edilməsinə maraq göstərilməsi ruhunda keçmişdir.

Səfər iki dövlətin uzunmüddətli əməkdaşlığı üçün hüquqi baza olacaq sənədlərin sanballı paketini hazırlamış nümayəndələrimizin gərgin işinə, əslində, nöqtə qoymağa imkan verəcəkdir.

Bunların sırasında mən geniş əhatəli sənədi - Tacikistan Respublikası ilə Azərbaycan Respublikası arasında dostluq və əməkdaşlıq haqqında müqavilənin imzalanması faktını xüsusi vurğulamaq istəyirəm. Deyə bilərik ki, bu müqavilənin imzalanması ilə münasi-

bətlərimiz beynəlxalq hüququn hamılıqla tanınmış prinsipləri və normalarına əsaslanan keyfiyyətcə yeni səviyyəyə çıxmışdır. Tərəflər ölkələrimiz arasında çoxşaxəli əməkdaşlıq yaratmaq arzusunu ifadə etmişdir və zənnimcə, indi bundan ötrü bütün zəruri ilkin zəmin var və olduqca əlverişli şərait yaradılmışdır.

Biz yaxın gələcəkdə qarşılıqlı fəaliyyət mexanizmini formalaşdırmağı nəzərdə tuturuq və münasibətlərin müqavilə-hüquq bazasını təkmilləşdirmək üzərində işi daimi əsasda davam etdirmək barədə razılığa gəldik. Biz aktual regional və beynəlxalq problemləri müzakirə etdik, fəaliyyətin, o cümlədən həm Tacikistanın, həm də Azərbaycanın daxil olduqları beynəlxalq təşkilatlar çərçivəsində mövqelərin əlaqələndirilməsi məqsədi ilə siyasi əlaqələri davam etdirməyi qərara aldıq.

Biz Mərkəzi Asiyada və Qafqazda cərəyan edən proseslər haqqında fikir mübadiləsi apardıq. Dövlətlər arasında bütün mübahisələrin dincliklə həllinin qəti tərəfdarı olan Tacikistan Dağlıq Qarabağ münaqişəsinin tərəflər arasında danışıqların bərpasını alqışlayır və bunu dünyanın bu çox mühüm regionunda sülhün və sabitliyin möhkəmlənməsi üçün yeganə vasitə sayır.

Tacikistan tərəfi aparılmış danışıqları qiymətləndirərək hesab edir ki, Azərbaycan Respublikasının Prezidenti hörmətli İlham Əliyevin rəsmi səfərinin birinci günü çox səmərəli olmuşdur. Mən ona, habelə Azərbaycan nümayəndə heyətinin bütün üzvlərinə ölkəmizə səfərin xoş keçməsini və ikitərəfli münasibətlərimizin möhkəmlənməsi naminə yeni-yeni uğurlar arzulayıram.

İndi isə İlham Heydəroviçdən səfərdən aldığı təəssüratını bizimlə bölüşməyi böyük məmnunluqla xahiş edirəm. Buyurun.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN BƏYANATI

İlk növbədə, mən qardaş Tacikistan torpağında belə səmimi qəbula, mənə və nümayəndə heyətimizin bütün üzvlərinə göstərilən qonaqpərvərliyə görə dostum Emoməli Şaripoviçə bir daha dərin minnətdarlığımı bildirmək istərdim.

Bu, Azərbaycan Prezidentinin Tacikistana ilk rəsmi səfəridir və artıq bu gün demək olar ki, səfər çox uğurlu keçir. Çox əhatəli danışıqlar aparıldı, istər ikitərəfli əməkdaşlıqla, istərsə də beynəlxalq münasibətlərlə bağlı məsələlərin bütün spektri nəzərdən keçirildi. Həmçinin münasibətlərimizin inkişafının əsas yolları göstərildi, ikitərəfli siyasi, iqtisadi, humanitar əlaqələrin inkişaf istiqamətlərini bəri başdan müəyyən edəcək çox mühüm sənədlər imzalandı. Hətta bu sənədlərin özü ikitərəfli planda mövcud olan başlıca istiqamətləri göstərir. Bunlar həm siyasi, həm iqtisadi, həm də mədəni münasibətlərdir.

Biz ikitərəfli münasibətlərimizə çox böyük əhəmiyyət veririk və bunun parlaq təzahürü kimi deyə bilərəm ki, Azərbaycanın Tacikistanda səfirliyinin açılması haqqında qərar qəbul etmişik. Ümidvaram ki, bu səfirlik yaxın vaxtlarda açılacaqdır. Bu, ikitərəfli əlaqələrimizi möhkəmləndirmək barədə niyyətlərimizin ciddiliyinin parlaq təsdiqidir.

Çox yaxşı perspektivlər var. Bizi ümumi mədəniyyət, ümumi tarixi keçmiş, ənənələr, zəngin mədəni irs, xalqlarımızın yaxınlığı, habelə müstəqilliyin bütün illəri ərzində ölkələrimizin və xalqlarımızın hiss etdikləri qarşılıqlı dəstək birləşdirir.

15 il əvvəl xalqlarımız azadlıq əldə etdilər, ölkələrimiz müstəqil dövlətlər oldu və oxşar problemlərlə – müharibə, dağıntılar, insanların bədbəxtlikləri ilə qarşılaşdı. Lakin xalqlarımız bu ciddi sınaqdan şərəflə çıxdılar. Hazırda dövlətçilik sabit inkişaf edir, möhkəmlənir, öz vətəndaşlarımıza yaxşı həyat yaradılması üçün iş gedir.

Ölkələrimizin iqtisadiyyatlarının inkişaf sürəti çox aydın şəkildə göstərir ki, onlar ən ağır vaxtları, böhran dövrünü arxada qoymuşlar. Hərçənd bizim regionda, – Cənubi Qafqazda da problemlər hələ vardır.

Azərbaycan Ermənistanın azərbaycanlılara qarşı apardığı etnik təmizləmə siyasətindən zərər çəkmişdir. Bu etnik təmizləmə siyasəti nəticəsində bir milyondan çox azərbaycanlı qaçqın və məcburi köçkünə çevrilmişdir. Azərbaycan ərazisinin 20 faizi işğal altındadır. Biz münaqişənin beynəlxalq aləmdə tanınmış hüquqi normalar çərçivəsində və BMT Təhlükəsizlik Şurasının qətnamələri nəzərə alınmaqla həll edilməsinə tərəfdarıq. Bu qətnamələr erməni işğal qüvvələrinin Azərbaycan ərazilərindən dərhal və qeyd-şərtsiz çıxarılmasını tələb edir.

Bununla yanaşı, biz 1994-cü ildə müvəqqəti barışıq yarandığı vaxtdan bəri iqtisadi potensialın möhkəmləndirilməsi, iqtisadiyyatımızın inkişafı üzərində fəal işləmişik və işləyirik. Bu istiqamətdə çox böyük uğurlar qazanmışıq. Biz çox böyük transmilli regional enerji və nəqliyyat layihələri həyata keçirmişik. Onlar, bir tərəfdən, Azərbaycanın regionda və dünyada rolunu və mövqeyini möhkəmləndirir, digər tərəfdən isə, ölkəmizin malik olduğu çox böyük iqtisadi və intellektual potensialdan tam istifadə etmək imkanı verir.

Əminəm ki, məqsədyönlülük, öz gücümüzə, habelə haqq-ədalətə inam və əzmkarlıq elə amillərdir ki, onlar ölkəmizə işğalın nəticələrini aradan qaldırmağa və ərazi bütövlüyümüzü bərpa etməyə imkan verəcəkdir.

Bu gün mənim hörmətli Emoməli Şaripoviçlə ikitərəfli münasibətlərimizlə bağlı məsələlərin çox geniş dairəsini müzakirə etmək imkanım oldu. Ümumi anlayışımız belədir ki, münasibətlərimizi yalnız real, əməli işlərlə dolğunlaşdırmaqla yüksək səviyyəyə çıxarmaq olar. Mənim Tacikistana səfərim də bu istiqamətdə mühüm addımlardan biridir. Mən də dostum Emoməli Şaripoviçi onun üçün əlverişli vaxtda Azərbaycana rəsmi səfərə və bu cür fəal dialoqu davam etdirməyə dəvət etdim.

Səmimi qəbula görə bir daha təşəkkürümü bildirmək istəyirəm, burada özümü evimdəki kimi hiss edirəm. Ümidvaram ki, ölkələrimiz və xalqlarımız arasındakı münasibətlər gələcəkdə də möhkəmlənəcəkdir. Diqqətinizə görə təşəkkür edirəm.

***

Sonra dövlət başçıları jurnalistlərin suallarına cavab verdilər.

SUAL: (Zərinə Nazarova, "Mir" Dövlətlərarası Teleradio Şirkəti): İlham Heydəroviç, Azərbaycanın Mərkəzi Asiya ölkələri ilə əməkdaşlığının perspektivləri necədir və Azərbaycan hansı investisiya layihələrində, – xüsusən Tacikistanda, – iştirak etmək niyyətindədir?

İLHAM ƏLİYEV: Əməkdaşlıq, ümumən, çox uğurla inkişaf edir. Biz Mərkəzi Asiya və Cənubi Qafqaz regionlarını, habelə sonra Qara dəniz hövzəsi regionlarını və Avropanı

birləşdirən energetika və nəqliyyat layihələri üzərində işləyirik. Nəqliyyat və energetika layihələri, Mərkəzi Asiya ölkələri ilə əmtəə dövriyyəsinin artırılması öz bəhrələrini verir. Ona görə də bu istiqamət bizim üçün çox vacib, çox perspektivlidir. Asiya ilə Avropa arasında körpü olan Azərbaycan bu baxımdan özünün bütün istər nəqliyyat, istərsə də energetika infrastrukturunu, - bunlar həm neft, həm də qaz kəmərləridir, - Mərkəzi Asiyanın istehsalçıları və təchizatçılarının istifadəsinə verməyə hazırdır və verir.

O ki qaldı investisiya layihələrinə, deməliyəm ki, hələ ötən il Azərbaycan şirkətləri ölkəmizin hüdudlarından kənarda kapital qoyuluşu proqramını ciddi surətdə həyata keçirməyə başlamışlar. O vaxtadək bütün əsas səylərimiz daxili investisiyalara, iqtisadiyyatın real sektorunun inkişafına və sənaye istehsalının artırılmasına yönəldilmişdi. Deməliyəm ki, bu, çox hissolunan nəticələrini vermişdir. Keçən il Azərbaycan sənayesi, əsasən, sərmayələr, o cümlədən Azərbaycanın öz şirkətlərinin sərmayələri hesabına 40 faiz artmışdır.

Hazırda müəssisələrimizin dünyada yaxşı nüfuzu var, maliyyə imkanları var və sərmayə yatırımı prosesi başlanmışdır. Ona görə də bugünkü səfər, imzalanmış sənədlər, əminəm ki, fəal dialoqun gələcəkdə də davam etdirilməsi, nümayəndə heyətləri mübadiləsi, - o cümlədən iqtisadi sahədə, – vəsaitimizin Tacikistan iqtisadiyyatının hansı sektoruna yatırıla biləcəyi barədə daha tam təsəvvür yaradacaqdır. Biz bunu çox diqqətlə nəzərdən keçiririk və əminəm ki, hörmətli Emomoli Şaripoviçin Azərbaycana səfərinədək bu istiqamətdə birgə fəaliyyətimizin əsas cizgiləri artıq görünəcəkdir.

SUAL: (Fərid İsgəndərov, Azərbaycanın "Space" teleşirkəti): Mən prezidentləri salamlayıram. Sualım həm Azərbaycan Prezidentinə, həm də Tacikistan Prezidentinədir. Lütfən deyin, iki ölkə arasında humanitar, mədəni əlaqələrin inkişaf perspektivləri necədir?

EMOMƏLİ RƏHMONOV: Bu gün biz geniş tərkibdə görüşümüzdə də mədəni-humanitar sahədə əlaqələrin inkişafı, o cümlədən Azərbaycanda Tacikistan mədəniyyəti günləri və Tacikistanda Azərbaycan mədəniyyəti günləri keçirilməsi məsələlərini müzakirə etdik. Özü də təkcə mədəniyyət günlərinin keçirilməsini deyil. Bu gün biz sənədlər imzaladıq və yaxşı bünövrə, sanballı hüquqi baza yaratdıq. Bu gün biz qapılarımızı açırıq - viza rejimi haqqında saziş imzaladıq. Bu, yaxşı perspektiv açır. Bu gün mən hörmətli və əziz dostum İlham Heydəroviçə məlumat verdim ki, respublikanın təşəkkülünün hətta ilk illərində, hələ keçmiş Sovet İttifaqı dövründə Azərbaycan ziyalılarının olduqca çox nümayəndələri bu prosesdə iştirak edir, rəhbər vəzifələrdə, Tacikistan KP MK-nın katibləri olmuşlar. Tacikistanın birinci daxili işlər naziri məhz Azərbaycan diasporunun nümayəndəsi idi. İndi biz çox sanballı hüquqi-müqavilə bazası yaratmışıq və iqtisadiyyatdan, siyasi, diplomatik fəaliyyətdən tutmuş bütün istiqamətlərdə, bütün sahələrdə inkişafa başlandığını bildirmişik. Ticarət-iqtisadi fəaliyyət xüsusilə inkişaf edir, ildən-ilə artır, inkişaf sürəti çox yüksəkdir – əmtəə dövriyyəsi hər il 25-30 faiz artır. O, ötən il 140 milyon dollardan artıq olmuşdur ki, bu da 2005-ci ildəkinə nisbətən 22 faiz çoxdur. Bu gün hər iki tərəf mədəni-humanitar əlaqələrimizi inkişaf etdirmək niyyətində olduğunu təsdiqlədi.

İLHAM ƏLİYEV: Əlavə etmək istərdim ki, biz əməkdaşlığımızın iqtisadi və siyasi sahələri kimi, bu istiqamətinə də ciddi yanaşırıq. Çünki, qeyd olunduğu kimi, bizi həm də mədəniyyətlərin ümumiliyi birləşdirir. Sovet İttifaqının tərkibində olduğumuz dövrdə

də qarşılıqlı əlaqələr çox fəal idi. Xalqlarımızın humanitar sahədə qarşılıqlı əlaqələr çərçivəsində yaratdıqları müsbət nə varsa, hamısını bugünkü həyata da keçirmişik və ümid edirik ki, əlaqələrimiz möhkəmlənəcək, inkişaf edəcəkdir. Bundan ötrü çox sanballı baza var. Yeri gəlmişkən, ikitərəfli münasibətlərimizin əsasını da, başlıca olaraq, bu baza təşkil edir. Çünki böyük mədəni ümumilik olan ölkələrlə, xalqlarla ümumi dil tapmaq və münasibətlər qurmaq həmişə asandır. Bizim ənənələrdə də, ədəbiyyatda da, incəsənətdə də, bütün başqa sahələrdə də ümumiliyimiz mövcuddur. Hətta bayramlarımız da eynidir.

Bu imkandan istifadə edərək, qardaş tacik xalqını üzümüzə gələn Novruz bayramı münasibətilə təbrik etmək, hamıya firavanlıq, xoşbəxtlik və ölkənizə tərəqqi arzulamaq istərdim.

SUAL: (Zarohoddin Sirocov, Tacikistan): Mənim sualım Azərbaycan Respublikasının Prezidentinədir. Hörmətli İlham Heydəroviç, Tacikistanda bir sıra işlənilməmiş neft və qaz yataqları var. Azərbaycan isə bu sahədə böyük təcrübəyə malikdir. Siz bu sahədə inkişafın mümkünlüyünə və perspektivlərinə necə baxırsınız?

İLHAM ƏLİYEV: Mən artıq əvvəldə bu suala cavab verdim. Biz bütün bunları xaricdə gerçəkləşdirilən ciddi investisiya layihələri çərçivəsində nəzərdən keçiririk. Artıq ötən ilin axırlarından bəri bu cür layihələr həyata keçirilməyə başlanmışdır. Azərbaycan Dövlət Neft Şirkəti keçmiş İttifaqın bəzi respublikalarının infrastrukturuna on, yüz milyon dollarlarla sərmayə qoymuşdur. Bu proses davam edir. Dediyiniz kimi, bizim çox böyük təcrübəmiz var. Azərbaycan dünyada neftin ilk dəfə sənaye üsulu ilə çıxarıldığı, eləcə də dünyada ilk dəfə dəniz yataqlarından neft çıxarıldığı ölkədir. Əlbəttə, bu böyük təcrübədir, üstəlik, indi onun çox ciddi iqtisadi kapitalı, milyardlarla dollar valyuta ehtiyatları olan dünyanın aparıcı neft şirkətləri ilə, – dünyanın bütün aparıcı neft şirkətləri investorlar kimi Azərbaycandadır, – əməkdaşlıq təcrübəsi ilə möhkəmləndiyi bir vaxtda Tacikistanda bir sıra layihələrdə birgə iştirak bizim üçün böyük maraq doğurardı. Amma bunun üçün təkcə xoş məram və niyyət azdır. Zənnimcə, əgər biz bunu daha ətraflı müzakirə etsək, onda vəziyyətlə daha ətraflı tanış olmaq və mümkün əməkdaşlığın yollarını müəyyənləşdirmək üçün Azərbaycan neft sənayesinin ekspertlərindən ibarət nümayəndə heyətinin Tacikistana göndərilməsindən danışmaq olar.

SUAL: (Zöhrə Talıbova, Azərbaycanın ANS teleşirkəti.): Mənim sualım hər iki prezidentədir. Sizcə, Azərbaycan Prezidentinin Tacikistana rəsmi səfəri ölkələrimiz arasında siyasi dialoq üçün nə kimi yeni imkanlar açır?

EMOMƏLİ RƏHMONOV: Ölkələrimiz bir çox beynəlxalq və regional təşkilatların üzvüdür. Əvvəla, biz BMT-nin, ATƏT-in, MDB-nin üzvüyük. Bu beynəlxalq təşkilatlarda uyğun gələn baxışlarımız, müzakirə və qəbul edilən qərarlarımız olduqca çoxdur. Yəni ölkələrimiz arasında siyasi əlaqələr, siyasi dialoq həm ikitərəfli formatda, həm də beynəlxalq təşkilatlar çərçivəsində inkişaf etdiriləcəkdir. Biz Azərbaycanın mərhum Prezidenti, uzun illər tanıdığımız və birlikdə işlədiyimiz Heydər Əliyeviçdən həmişə dəstək alırdıq. Heydər Əliyeviç bütün beynəlxalq və regional təşkilatlarda Tacikistanın mövqeyini həmişə dəstəkləyirdi. Düşünürəm ki, belə ənənə gələcəkdə də davam etdiriləcəkdir. Biz bir-birimizi hər vasitə ilə dəstəkləyəcəyik. Hər vasitə ilə buna çalışacağıq. Bu gün biz razılığa gəldik və mən dostum İlham Heydəroviçin Azərbaycana rəsmi səfər et-

mək barədə dəvətini qəbul etdim. Çox təəssüf ki, bütün bu illər ərzində mən Azərbaycanda, Bakıda olmamışam. Odur ki, ilin sonunadək cavab səfərinə getmək niyyətindəyəm. Bu, işimizə kağız üzərində deyil, əməli surətdə təkan verəcəkdir. Bax, indi sual verirsiniz. Demək istəyirəm ki, bütün məsələlərimizi bir səfər ərzində dərhal həll etmək olmaz və dərhal sabah burada sərmayə olmayacaq, yaxud investisiya şirkəti işləməyəcək və digər iqtisadi layihələr həyata keçirilməyəcəkdir. Bu, həmin prosesə güclü təkan verəcək və onu sürətləndirəcəkdir. Qısa müddət ərzində yüksək səviyyədə görüşlər, ölkələrimizin diplomatik əlaqələri, biznes forumları olacaqdır. Zənnimcə, cavab səfərində biznes qurumlarımızın nümayəndələrini də dəvət etmək yaxşı olardı.

İndi Tacikistanda 400-dən çox layihə hazırlanmış və sərmayələrin cəlb olunması üçün təqdim edilmişdir. Bunlar hidroenergetika sahəsinə, mineral ehtiyatların, qiymətli daşların, qiymətli metalların emalının inkişafı, kömür sənayesinin inkişafı sahəsinə aiddir. Tacikistan bunlarla zəngindir. Keçmiş Sovet İttifaqından bizə xəritə üzərində qalan neft və qaz yataqları Tacikistanın özünü neft və qaz ilə çox cüzi təmin etmək üçün kifayətdir. İlham Heydəroviç deyir ki, dünyanın ən iri şirkətləri Azərbaycanda bu sahədə işləyir. Bu, bizi çox maraqlandırır. Düşünürəm ki, gələcəkdə biz bu şirkətləri yataqların işlənilməsinə, öyrənilməsinə, belə layihələrə sərmayə yönəltməsinə cəlb etməyin mümkünlüyünü nəzərdən keçirəcəyik.

İLHAM ƏLİYEV: Əlavə etmək istərdim ki, Emoməli Şaripoviçlə bizim aramızda çox fəal dialoq mövcuddur. Biz müxtəlif beynəlxalq forumlarda tez-tez görüşürük və həmişə də ikitərəfli görüşlər keçirməyə, fikir mübadiləsi aparmağa imkan tapırıq. Mövqelərimiz üst-üstə düşür. Elə bugünkü səfərim və istər təkbətək, istərsə də geniş formatda apardığımız ikitərəfli danışıqlar bir daha göstərir ki, baxışlarımız uyğun gəlir. İkitərəfli, regional əməkdaşlıq məsələlərində də, regionda təhlükəsizlik tədbirlərinin möhkəmləndirilməsi məsələlərində də, ölkələrimizdə dövlətçiliyin möhkəmləndirilməsi və inkişaf etdirilməsi, müstəqilliyimizin möhkəmləndirilməsi məsələlərində də.

Əlbəttə ki, bütün bunlar çox fəal siyasi dialoqa kömək edir. Dediyim kimi, biz Azərbaycanın Tacikistanda səfirliyini açmağı qərara almışıq və bu mühüm siyasi addım siyasi əlaqələrimizi möhkəmləndirəcək və eyni zamanda, hər iki ölkənin potensialını daha yaxşı bilməyə imkan verəcək, iqtisadi münasibətləri də, humanitar əlaqələri də və s. inkişaf etdirməyə daha çox imkan yaradacaqdır.

Ona görə də biz münasibətlərimizin səviyyəsindən razıyıq, aramızda heç bir problem yoxdur. Əksinə, qarşılıqlı hörmət, dostluq hissləri mövcuddur və bu hisslər xalqlarımızın əməkdaşlığının çoxəsrlik təcrübəsi ilə möhkəmlənmişdir.

Bu gün Emoməli Şaripoviç Azərbaycanın ümummilli lideri Heydər Əliyev ilə görüşlərini və onların arasında mövcud olmuş səmimi münasibətləri də xatırladı. Azərbaycanda Heydər Əliyevin xətti və siyasəti bütün istiqamətlərdə davam edir. Mən bunu Prezident vəzifəsinə yenicə başlayanda bildirmişdim və indi də bu, ölkəmiz üçün tərəqqiyə və çiçəklənməyə doğru yeganə yoldur. Təbii ki, əvvəlki illərdə mövcud olmuş siyasət bu gün ikitərəfli münasibətlərimizdə davam və inkişaf edir.

Daha bir məqamı da demək istəyirəm ki, Emoməli Şaripoviçlə ikilikdə keçirdiyimiz görüşlər bir çox ümumi cəhətlərimizin olduğunu göstərdi. Təəssüf ki, belə bir ümumi məqam o idi ki, nə mən indiyədək Tacikistanda olmuşdum, nə də o, Azərbaycanda olub-

dur. Bu, böyük nöqsan idi və bu gün mən onu aradan qaldırdım. Ümidvaram ki, Emoməli Şaripoviç yaxın vaxtlarda ölkəmizə gələcək və biz fəal əməkdaşlığımızı davam etdirəcəyik.

EMOMƏLİ RƏHMONOV: Əziz dostlar, əlavə olaraq deyim ki, Azərbaycanın indiki inkişaf səviyyəsi bizi çox sevindirir. Bizi Qazaxıstanın da inkişaf səviyyəsi çox sevindirir. Bütün ənənəvi, çoxəsrlik dostluq münasibətləri, sırf insani münasibətlər də. Bir də ki, onlar qonşularımız, ən yaxın qonşularımızdır.

Taciklərin yaxşı bir məsəli var: qonşunun gün-güzəranı yaxşı olsa, ondan sənə də pay düşər. Əgər qonşunun vəziyyəti pisdirsə, onda sən də buna hazırlaş. Tacikistanda baş vermiş faciə – vətəndaş müharibəsinin başlanması, Əfqanıstanda baş vermiş və iyirmi iki ildən artıq davam etmiş faciə Tacikistanda vəziyyətə təsir göstərir. Uğurla inkişaf edən ölkə kimi yaxşı qonşumuz olduqda isə, biz də qazanırıq. İndi hər il Qazaxıstandan Tacikistan iqtisadiyyatına 70 milyon dollardan çox vəsait yönəldilir. Halbuki beş il əvvəl Qazaxıstanın özünün belə imkanı yox idi. Düşünürəm ki, tezliklə Azərbaycandan da sərmayələr olacaqdır. Bu, məgər pisdir? Yox, bu yaxşıdır. Bu gün biz çox yaxınıq. İlham Heydəroviç bu gün buraya təyyarə ilə cəmi iki saat yarıma gəldi. Bu, məgər məsafədir? İndi bu məsafə heç nədir.

Hörmətli jurnalistlər, çox sağ olun. Bu gün mən mətbuat konfransının əvvəlində bayram münasibətilə sizi də təbrik etdim, üzümüzə gələn Novruz bayramı münasibətilə bir daha təbrik edirəm. Düşünürəm ki, o, bizim hamımız üçün ümumi bayramdır. Odur ki, yaxşı ovqat, möhkəm cansağlığı, xoşbəxtlik, firavanlıq arzulayıram.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV TACİKİSTANIN BAŞ NAZİRİ AKİL AKİLOVU QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev martın 15-də Düşənbədə, onun üçün ayrılmış iqamətgahda Tacikistan Respublikasının Baş naziri Akil Akilovu qəbul etmişdir.

Prezident İlham Əliyevin bu rəsmi səfərini tarixi hadisə adlandıran Akil Akilov Azərbaycanda son illər əldə olunan iqtisadi inkişafdan məmnunluqla danışdı və bundan öz ölkəsinin də faydalanmaq fikrində olduğunu bildirdi. O, ölkələrimiz arasında əməkdaşlıq sahəsində potensial imkanların çox geniş olduğunu vurğuladı və dedi ki, əsas elektroenergetika, mədən sənayesi, neft-qaz sektoru, ümumiyyətlə, faydalı qazıntıların hasilatı sahəsində Azərbaycanın təcrübəsindən yararlanaraq, əlaqələri daha da genişləndirmək zəruridir. Kənd təsərrüfatı, infrastruktur, yolların və körpülərin salınması istiqamətində layihələr həyata keçirilə bilər.

Prezident İlham Əliyev bildirdi ki, iki ölkə arasında əməkdaşlığa regional xarakter vermək daha perspektivli və faydalıdır, əlaqələrin genişləndirilməsi üçün konkret sahələr üzrə işçi qruplarının yaradılması əhəmiyyətlidir.

DÖVLƏTİMİZİN BAŞÇISININ ŞƏRƏFİNƏ RƏSMİ QƏBUL

Martın 15-də Düşənbədə, Dövlət iqamətgahında Tacikistan Prezidenti Emomәli Rəhmonovun adından Azərbaycan Prezidenti İlham Əliyevin şərəfinə rəsmi qəbul təşkil edilmişdir.

Dövlət başçıları qəbulda nitq söylədilər.

TACİKİSTAN PREZİDENTİ EMOMƏLİ RƏHMONOVUN NİTQİ

-Hörmətli İlham Heydəroviç!

Əziz dostlar!

İcazə verin, əziz dostlarımızı bir daha salamlayım. Biz toplanmış təcrübəni, ölkələrimizin və bir-birinə rəğbət hissləri bəsləyən xalqlarımızın qarşılıqlı münasibətlərini dəyərli hesab edirik və bunları gələcək nəsillər üçün qoruyub saxlamaq və artırmaq əzmindəyik. Sevindirici haldır ki, indi, ölkələrimizin müstəqil inkişafının yeni şəraitində xoş ənənələr – xalqlarımız arasında dostluq, qarşılıqlı rəğbət və etimad ənənələri öz əhəmiyyətini itirməyib və keyfiyyətcə yeni zəmində məntiqi davamı var.

Müstəqil inkişafın 15 ildən artıq dövrü ərzində qarşılıqlı əlaqələr sahəsində qiymətli təcrübə toplanmışdır. Fürsətdən istifadə edərək bildirmək istəyirəm ki, iki ölkənin əməkdaşlıq sahələrinin genişlənməsi və dərinləşməsi üçün Tacikistan bundan sonra da bütün zəruri səyləri göstərəcəkdir.

İndi hamı münasibətlərimizin bütün kompleksinin müzakirə edilməsinə maraq göstərir. İmzalanmış ikitərəfli sənədlər paketi, ilk növbədə, Dostluq və əməkdaşlıq haqqında dövlətlərarası müqavilə Tacikistan-Azərbaycan münasibətlərinin ardıcıl inkişafı üçün yaxşı perspektiv yaradır. Əminəm ki, keçirilmiş görüşlər və aparılmış danışıqlar birgə qarşılıqlı əlaqələrimizə güclü təkan verəcək və faydalı əməkdaşlıq üçün geniş imkanlar açacaqdır.

Əziz dostlar, mənim əziz dostum, Azərbaycan Respublikasının Prezidenti hörmətli İlham Heydəroviç Əliyevin və bütün əziz dostlarımızın sağlığına böyük məmnuniyyətlə badə qaldırmaqdı təklif etmək istərdim. Tacikistan ilə Azərbaycan arasında dostluq, qarşılıqlı surətdə faydalı əməkdaşlıq və tərəfdaşlıq münasibətlərinin inkişafı və dərinləşməsi şərəfinə, ölkələrimizin və xalqlarımızın əmin-amanlığı, tərəqqisi və firavanlığı şərəfinə!

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN NİTQİ

-Çox hörmətli Emomәli Şaripoviç!

Əziz dostlar!

İcazə verin, qardaş Tacikistan torpağında mənim və nümayəndə heyətimin üzvlərinə göstərilən qonaqpərvərliyə görə sizin hamınıza bir daha təşəkkür edim.

Bu gün biz çox uğurlu danışıqlar apardıq, qeyd olunduğu kimi, mövqelərimiz üst-üstə düşür, onlar imzalanan bütün sənədlərdə, dostluq və əməkdaşlıq haqqında müqavilədə

öz əksini tapmışdır. Bu, ikitərəfli münasibətlərimizin sürətli inkişafını bir sıra illər öncədən müəyyənləşdirəcəkdir. Bu gün siyasi, iqtisadi, humanitar sahələrdə hərtərəfli əməkdaşlığın çox möhkəm təməli qoyulur. Əminəm ki, imzalanmış sazişlərin bütün müddəalarının yerinə yetirilməsi nəticəsində biz bir-birimizə daha yaxın olacağıq.

Fəal regional iqtisadi əməkdaşlığın perspektivləri artıq indinin özündə görünməkdədir. Bu əməkdaşlığın əsas istiqamətləri artıq müəyyən edilmişdir. Əminəm ki, gələcəkdə münasibətlərimizin inkişaf etdirilməsi və müxtəlif səviyyələrdə nümayəndə heyətlərinin qarşılıqlı səfərləri əməkdaşlığımıza və əlaqələrimizə daha çox kömək edəcəkdir.

Bu gün mən dostum, çox hörmətli Emomәli Şaripoviçi rəsmi şəkildə Azərbaycana səfərə dəvət etdim və yeni görüşümüzü səbirsizliklə gözləyirəm. Bu gün mən özümü evimdəki kimi hiss edirəm, Tacikistana ilk dəfə səfər edirəm, amma mənə elə gəlir ki, ölkənizi çoxdan tanıyıram. Bu, həqiqətən belədir. Ölkənizi kitablardan, tacik mədəniyyəti, incəsənəti incilərinin nümunələrindən tanıyırdım. Bu gün Milli Tarix Muzeyində olarkən bu torpağın nə qədər zəngin olduğunu, dünyaya həm memarlıq, həm mədəniyyət, həm də sənət əsərlərinin belə incilərini verən bu xalqın nə qədər qədim olduğunu bir daha yəqin etdim.

Bu gün mən bu badəni dostum Emomәli Şaripoviç Rəhmonovun şərəfinə, qardaş Tacikistan xalqının şərəfinə qaldırmaq istəyirəm. Qoy, Emomәli Şaripoviç Rəhmonovun rəhbərliyi ilə ölkəniz gələcəkdə də uğurla inkişaf etsin, torpağımızda həmişə sülh, sabitlik və firavanlıq olsun! Tacikistan ilə Azərbaycan arasında dostluğun şərəfinə!

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN TACİKİSTANIN MİLLİ MƏCLİSİNİN SƏDRİ MAHMADSAİD UBAYDULLOYEV İLƏ GÖRÜŞÜ

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev martın 16-da Tacikistan Respublikası parlamentinin yuxarı palatasının – Milli Məclisin sədri Mahmadsaid Ubaydulloyev ilə görüşmüşdür.

Mahmadsaid Ubaydulloyev Prezident İlham Əliyevi parlamentin binası qarşısında böyük hörmət və ehtiramla qarşıladı.

Görüş zamanı Mahmadsaid Ubaydulloyev zəhmətkeş və istedadlı Azərbaycan xalqının rəhbərini salamlamaqdan məmnunluğunu bildirərək dedi ki, zəngin tarixi və mədəniyyəti olan Azərbaycanla dostluq əlaqələrini genişləndirmək istəyimiz böyükdür. Sizin rəsmi səfərinizi yüksək qiymətləndirir və əminik ki, bu, əməkdaşlığımızda yeni səhifə açacaqdır.

Milli Məclisin sədri bildirdi ki, görkəmli dövlət xadimi Heydər Əliyev vaxtilə SSRİ Nazirlər Soveti sədrinin birinci müavini işləyərkən Tacikistan üçün mühüm strateji əhəmiyyət daşıyan Kulyab dəmir yolunun çəkilişində müstəsna rol oynamışdır. Tacikistanda iqtisadiyyatın inkişafı, yoxsulluğun azaldılması sahəsində görülən işlərdən söhbət açan Mahmadsaid Ubaydulloyev dedi ki, biz Azərbaycanda gedən inkişaf proseslərindən sevinirik. Azərbaycanda regional inkişaf proqramı uğurla icra olunur və biz ölkənizin bu təcrübəsindən yararlanmaq fikrindəyik. O, parlamentlərarası əməkdaşlıqdan danışaraq bildirdi ki, Tacikistan Milli Məclisində Tacikistan-Azərbaycan dostluq qrupu yaradılıbdır və bu, əməkdaşlığımızı daha da dərinləşdirəcəkdir.

Prezident İlham Əliyev Azərbaycanda gedən iqtisadi inkişafdan, siyasi proseslərdən danışdı. Azərbaycan ilə Tacikistan arasında layihələrin həyata keçirilməsinin zəruriliyini, imzalanmış sənədlərin, parlamentlərarası əlaqələrin əhəmiyyətini vurğuladı. Dövlətimizin başçısı bildirdi ki, ölkələrimiz arasında əlaqələrin genişlənməsi üçün möhkəm potensial, xalqlarımızın dostluğu, mədəni tarixi yaxınlıqlar var və bütün bunlar yeni əməkdaşlıq üçün böyük imkan yaradır.

Bu səfərin ikitərəfli əlaqələrin genişlənməsində yeni mərhələ açacağını vurğulayan dövlətimizin başçısı qarşılıqlı mədəniyyət günlərinin keçirilməsinin qərara alındığını da xatırlatdı.

Prezident İlham Əliyev Ermənistanın Azərbaycana təcavüzündən və onun ağır nəticələrindən, Dağlıq Qarabağ münaqişəsinin sülh yolu ilə həlli məsələsində ölkəmizin mövqeyindən də ətraflı danışdı.

ATƏT-İN MİNSK QRUPUNUN HƏMSƏDRLƏRİ AZƏRBAYCAN VƏ ERMƏNİSTAN XARİCİ İŞLƏR NAZİRLƏRİNİN CENEVRƏ GÖRÜŞÜ BARƏDƏ BƏYANAT YAYMIŞLAR

ATƏT-in Minsk qrupunun həmsədrləri Azərbaycanın və Ermənistanın xarici işlər nazirləri Elmar Məmmədyarovun və Vartan Oskanyanın martın 14-də Cenevrədə keçirilmiş görüşü ilə bağlı bəyanat yaymışlar.

Bəyanatda deyilir ki, ATƏT-in Minsk qrupunun həmsədrləri Yuri Merzlyakov (Rusiya), Bernar Fasye (Fransa), Mətyu Brayzə (ABŞ) və ATƏT-in hazırkı sədrinin şəxsi nümayəndəsi Anji Kaspşikin iştirakı ilə keçirilən görüşdə nazirlər Azərbaycan Prezidenti İlham Əliyevin və Ermənistan Prezidenti Robert Koçaryanın ötən il noyabrın 29-da olmuş görüşündən sonra tərəflərin irəli sürdüyü məsələlər ətrafında konstruktiv müzakirələr aparmışlar. Nazirlər Dağlıq Qarabağ münaqişəsinin nizamlanması məqsədi ilə həmsədrlərin irəli sürdükləri əsas prinsiplər üzrə tərəflər arasında müzakirələrə imkan verən mövqelər barədə bir-birini məlumatlandırmışlar. Bundan başqa, prezidentlərin növbəti görüşünə hazırlıq məqsədi ilə nazirlər bu ilin aprel və may aylarında görüşmək barədə razılığa gəlmişlər.

AZƏRBAYCAN VƏ HİNDİSTAN ARASINDA TİCARƏT, İQTİSADİ VƏ ELMİ ƏMƏKDAŞLIQ ÜZRƏ HÖKUMƏTLƏRARASI İŞÇİ KOMİSSİYA YARADILACAQDIR

Xarici İşlər nazirin müavini Xələf Xələfovun rəhbərlik etdiyi nümayəndə heyəti martın 13-15-də Azərbaycan və Hindistan Xarici İşlər nazirlikləri arasında məsləhətləşmələr aparmaq məqsədi ilə bu ölkədə səfərdə olmuşdur.

Nümayəndə heyəti martın 14-də Hindistan-MDB Ticarət və Sənaye Palatasının və Azərbaycanın Hindistandakı səfirliyinin təşkilatçılığı ilə Azərbaycan iqtisadiyyatına həsr edilmiş təqdimat mərasimində iştirak etmişdir.

Mərasimdə çıxış edən X.Xələfov Azərbaycanın Hindistan ilə əlaqələrin inkişafında maraqlı olduğunu bildirmiş, ölkəmizdə həyata keçirilən irimiqyaslı iqtisadi layihələr -

Bakı-Tbilisi-Ceyhan neft, Bakı-Tbilisi-Ərzurum qaz kəməri, Bakı-Tbilisi-Qars dəmir yolu layihələri, habelə respublikamızın iqtisadiyyatına qoyulmuş xarici sərmayələr, Azərbaycanın dünya və Avropa bazarlarına inteqrasiyası barədə ətraflı məlumat vermişdir.

Martın 15-də X.Xələfov Hindistan Xarici İşlər Nazirliyinin Şərq üzrə katibi N.Ravi ilə məsləhətləşmələr keçirmiş, Azərbaycan ilə Hindistan arasında həm ikitərəfli, həm də çoxtərəfli əməkdaşlığa dair fikir mübadiləsi aparmışdır.

Nazir müavini Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi, ərazimizin 20 faizinin Ermənistan hərbi qüvvələri tərəfindən işğalı, bir milyondan çox soydaşımızın qaçqın və məcburi köçkün vəziyyətində yaşaması barədə danışmış, münaqişənin ATƏT-in Minsk qrupu çərçivəsində sülh yolu ilə həlli prosesini, həmçinin Azərbaycanın ədalətli mövqeyini hərtərəfli izah etmişdir.

Azərbaycan nümayəndə heyəti məsləhətləşmələr zamanı, həmçinin ölkəmizin Hindistandakı səfirliyinin fəaliyyətinin lazımi səviyyədə qurulması məqsədi ilə Nyu Dehli şəhərində yeni binanın tikilməsi üçün torpaq sahəsi ayrılması məsələsini də qaldırmışdır.

Həmin gün Hindistan XİN-də xarici işlər üzrə dövlət naziri E.Ahamedlə keçirilən görüşdə ölkələrimiz arasında münasibətlərin inkişafına, eyni zamanda beynəlxalq təşkilatlarda mövqelərin qarşılıqlı dəstəklənməsinə dair ətraflı fikir mübadiləsi aparılmışdır.

Azərbaycan nümayəndə heyəti Hindistanın Ticarət və Sənaye Nazirliyində ticarət üzrə dövlət naziri Cayram Rameşlə görüşdə isə Azərbaycan və Hindistan arasında hökumətlərarası ticarət, iqtisadi və elmi əməkdaşlıq üzrə işçi komissiyanın yaradılmasına dair sazişin imzalanmağa hazır olduğu bildirilmiş və bu məqsədlə C.Rameşin Bakıya səfərinin tarixləri təsdiq olunmuşdur. Bundan əlavə, iki ölkə arasında ticarət-iqtisadi əlaqələrin genişləndirilməsi üçün böyük potensialın mövcudluğu vurğulanmış, bu münasibətlərin yeni səviyyəyə qaldırılmasına dair fikir mübadiləsi aparılmışdır.

XARİCİ İŞLƏR NAZİRİNİN MÜAVİNİ ARAZ ƏZİMOV BRÜSSELƏ SƏFƏR ETMİŞDİR

2007-ci il martın 20-də Azərbaycan Respublikasının Xarici İşlər Nazirinin müavini cənab Araz Əzimov Brüsselə işçi səfər edərək, Aİ ilə Azərbaycan arasında siyasi və təhlükəsizlik məsələləri üzrə dialoq çərçivəsində Aİ-nin yüksək səviyyəli rəsmiləri ilə bir sıra məhsuldar görüşlər keçirmişdir.

Avropa Parlamentinin Xarici Əlaqələr Komitəsi və Aİ-Cənubi Qafqaz Parlamentlərarası Əməkdaşlıq Komitəsinin birgə iclasında çıxış etmiş cənab Əzimov, Avropa Parlamentinin üzvlərini Azərbaycanın xarici siyasət prioritetləri ilə tanış edərək, ölkənin geostrateji və iqtisadi əhəmiyyətini açıqlamış, Cənubi Qafqaz bölgəsinin cari siyasi və təhlükəsizlik vəziyyəti, habelə mövcud münaqişələr, enerji təhlükəsizliyi, qonşu ölkələrlə münasibətlər və digər bu kimi məsələlər barədə məlumat vermişdir. Çıxışının sonunda cənab Əzimov Avropa Parlamenti üzvlərinin çoxsaylı suallarını cavablandırmışdır.

Avropa Komissiyasının Xarici Əlaqələr üzrə Baş Direktorluğunda keçirilən görüş zamanı cənab Əzimov Avropa Qonşuluq Siyasəti çərçivəsində Aİ-Azərbaycan Fəaliyyət

Planının tezliklə həyata keçirilməsinin vacibliyini vurğulayaraq, ikitərəfli iqtisadi münasibətlərdə, xüsusilə enerji sahəsində Azərbaycanın etibarlı tərəfdaş ölkə olduğunu bildirmiş və ticarət, nəqliyyat, gömrük, sərhəd təhlükəsizliyi və sair aidiyyəti sahələr üzrə əməkdaşlığın gücləndirilməsinin labüdlüyünü qeyd etmişdir. Qarşı tərəf Azərbaycan ilə münasibətlərin daha da inkişaf etdirilməsində Aİ-nin maraqlı olduğunu bildirmiş və enerji təhlükəsizliyi və enerji mənbələrinin müxtəlifliyinin təmin edilməsində gələcək səmərəli əməkdaşlığın gücləndirilməsinin vacibliyini vurğulamışdır.

Avropa Komissiyasının Enerji və Nəqliyyat üzrə Baş Direktorluğunda keçirilmiş görüşdə tərəflər arasında Aİ ilə Azərbaycan arasında enerji sahəsində tərəfdaşlıq üzrə Anlaşma Memorandumunun həyata keçirilməsi yolları, həmçinin Xəzər dənizi hövzəsinin enerji ehtiyatlarının Avropa bazarına çıxarılması və bölgənin enerji infrastrukturunun təşkilində Azərbaycanı rolu kimi məsələlər ətrafında fikir mübadiləsi aparılmışdır.

Aİ Şurasında keçirilmiş görüşdə cənab Əzimov qarşı tərəfə regional təhlükəsizlik məsələləri, xüsusilə də Ermənistan-Azərbaycan münaqişəsinin tənzimlənməsi prosesinin son durumuna dair dolğun məlumat vermiş, məsələ ilə bağlı ətraflı fikir mübadiləsi aparılmışdır. Qarşı tərəf Aİ-nin münaqişənin tezliklə sülh yolu ilə həll olunması mövqeyindən çıxış etdiyini və məsələ ilə bağlı hər zaman lazımı yardım göstərməyə hazır olduğunu bildirmişdir.

Cənab Əzimov Aİ Şurasının Mətbuat Mərkəzində Aİ-də akkreditə olunmuş bir sıra aparıcı KİV nümayəndələrinə Brüsselə səfərinin nəticələrinə dair brifinq vermiş və jurnalistləri maraqlandıran sualları cavablandırmışdır.

Səfər çərçivəsində cənab Əzimov Brüsseldə yerləşən tanınmış Avropa Siyasət Mərkəzində "Azərbaycan: Xarici və Təhlükəsizlik Siyasətinin prioritetləri" mövzusunda təqdimat vermiş və tədbirdə iştirak edən diplomatik korpusun üzvləri, müxtəlif yerli və beynəlxalq təşkilatların rəsmiləri, habelə KİV nümayəndələrinin çox saylı suallarını cavablandırmışdır.

ELMAR MƏMMƏDYAROV VƏ KONDOLİZA RAYS ENERJİ TƏHLÜKƏSİZLİYİ SAHƏSİNDƏ ƏMƏKDAŞLIĞA DAİR ANLAŞMA MEMORANDUMU İMZALAMIŞLAR

ABŞ-ın dövlət katibi Kondoliza Raysın dəvəti ilə Vaşinqtonda rəsmi səfərdə olan Azərbaycanın xarici işlər naziri Elmar Məmmədyarov martın 22-də amerikalı həmkarı ilə görüşmüşdür.

Qısa müzakirələrdən sonra tərəflər enerji təhlükəsizliyi sahəsində əməkdaşlığa dair Anlaşma Memorandumu imzalamışlar. Dövlət katibinin Avrasiya məsələləri üzrə müavini Metyu Brayza imzalama mərasimindən əvvəl demişdir ki, sənəd ABŞ və Azərbaycan hökumətlərinin Xəzər hövzəsinin enerji təhlükəsizliyi ilə bağlı yüksək səviyyədə dialoqun aparılması niyyətini ifadə edir. Bu dialoq Azərbaycanın neft və qaz hasilatını artıraraq dünya bazarların çıxması üçün hökumətlər və şirkətlər arasında artıq mövcud olan möhkəm əməkdaşlığı dərinləşdirməyə və genişləndirməyə yönəldilmişdir. Bu formatda keçiriləcək müzakirələrdə xüsusi diqqət Türkiyə-Yunanıstan-İtaliya qaz kəmərinin inşasına, Nabukko və digər kəmərlərlə Azərbaycan qazını nəql edərək təbii qaz

təchizatı yollarını müxtəlifləşdirməklə Avropanın enerji təhlükəsizliyini gücləndirilməyə ayrılacaqdır.

Kondoliza Raysla görüşünü AzərTAc-ın müxbirinə şərh edən Elmar Məmmədyarov bildirmişdir ki, Dövlət Katibi ilə müzakirələrdə Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli üzrə aparılan danışıqların hazırkı mərhələsi, Azərbaycanda demokratik islahatlar və insan haqları ilə bağlı vəziyyət, ölkəmizin bölgədəki siyasəti kimi ikitərəfli maraq doğuran məsələlər ətrafında fikir mübadiləsi aparılmışdır. Kondoliza Rays Azərbaycanın demokratik islahatlar prosesinə sadiq qaldığını dəstəkləmiş, bu sahədə ABŞ-ın yardım etməyə hazır olduğunu bildirmişdir. Nazir E.Məmmədyarov Azərbaycan hökumətinin demokratik islahatlarda maraqlı olduğunu demiş, ABŞ ilə bu sahədə əməkdaşlığa ümid bəslədiyini vurğulamışdır. Ermənistanlı həmkarı ilə Cenevrədə son görüşü barədə Kondoliza Raysa məlumat verən nazir bildirmişdir ki, münaqişənin mərhələli həlli yeganə çıxış yoludur. O demişdir ki, Ermənistan silahlı qüvvələri işğal olunmuş torpaqlardan çıxmalı, qaçqınlar və məcburi köçkünlər evlərinə qayıtmalı, iki xalq arasında etimad yaradacaq tədbirlər həyata keçirilməlidir. Dövlət Katibi Rays ATƏT-in həmsədr ölkəsi kimi ABŞ-ın münaqişənin tezliklə sülh yolu ilə həllinin tapılması üçün səylərini davam etdirəcəyini bildirmişdir.

Martın 22-də Elmar Məmmədyarov Konqresin Azərbaycan üzrə işçi qrupunun həmsədrləri konqresmenlər Solom Ortiz və Bill Şuster ilə görüşmüşdür. Nazir Konqres üzvlərini Azərbaycana səfərə dəvət etmişdir. Tərəflər Azərbaycanın bölgədəki siyasəti, neft və qaz layihələrinin perspektivlərini nəzərdən keçirmişdilər. Konqresmen Ortiz Azərbaycanın bölgədə apardığı siyasəti müsbət dəyərləndirmiş və "Azərbaycanın xoş niyyətlərini dəstəklədiyini" demişdir. Nazir E.Məmmədyarov Konqres üzvlərinə xatırlatmışdır ki, Azadlığa Dəstək Aktının ədalətsiz 907-ci maddəsi ABŞ-ın maraqlarına ziddir. O, Solomon Ortiz və Bill Şusteri maddənin ləğvi istiqamətində səy göstərməyə çağırmışdır.

Azərbaycanın Latın Amerikası ölkələri ilə münasibətləri Elmar Məmmədyarovun Amerika Dövlətləri Təşkilatının (ADT) baş katibi Xose Migel İnsulza ilə görüşündə müzakirə olunmuşdur. Nazir bildirmişdir ki, bu bölgə ilə yaxın əlaqələrin yaradılması üçün Azərbaycan tezliklə Argentina və Meksikada diplomatik nümayəndəliklərini açacaqdır. Cənab İnsulza isə ADT-də müşahidəçi qismində iştirak edən Azərbaycanı təşkilatın Baş Assambleyasının iyun ayında Panamada keçiriləcək 37-ci sessiyasına dəvət etmişdir. Qarşıdan gələn sessiyada enerji məsələlərinin diqqətdə olacağını bildirən ADT Baş katibi Azərbaycan tərəfi ilə bu mövzuda məsləhətləşmələrin keçirilməsini təklif etmişdir. Azərbaycan naziri həmçinin İslam Konfransı Təşkilatının sədri qismində İKT və ADT arasında əməkdaşlıq perspektivlərini müzakirə etmişdir.

Xarici işlər nazirinin martın 23-də Ağ Evin Milli Təhlükəsizlik üzrə müşaviri, habelə ABŞ-ın müdafiə və enerji nazirlərinin müavinləri ilə görüşləri nəzərdə tutulmuşdur. Elmar Məmmədyarov həmin gün Vətənə qayıdacaqdır.

Nazir E. Məmmədyarov ABŞ Senatının Xarici Əlaqələr Komitəsinin aparıcı üzvü Riçard Luqar ilə görüşündə Azərbaycan ilə Birləşmiş Ştatlar arasında ticarət əlaqələrinin genişləndirilməsi üçün ABŞ-ın Bakıdakı səfirliyi nəzdində ticarət üzrə attaşe ofisinin açılması təklifini vermişdir. Nazir, həmçinin Azadlığa Dəstək Aktına 907-ci düzəlişlə

bağlı bildirmişdir ki, qüvvəsi dayandırılsa da bu ədalətsiz maddənin ləğv edilməməsi ikitərəfli münasibətlərimizlə bağlı maraqlarımıza cavab vermir. E.Məmmədyarov senator R.Luqarı həmin maddənin aradan qaldırılması üçün səy göstərməyə çağırmışdır. Senator R.Luqar Azərbaycan Prezidenti İlham Əliyevlə görüşünü məmnunluqla xatırlatmışdır. Fəaliyyətində enerji təhlükəsizliyi məsələlərinə geniş yer ayıran R. Luqar bu baxımdan Azərbaycanı daim "xatırladığını və respublikamızla maraqlandığını" bildirmişdir. Tərəflər Azərbaycan-Ermənistan, Dağlıq Qarabağ münaqişəsinin sülh yolu ilə həlli üzrə danışıqların hazırkı mərhələsinə, Azərbaycanın bölgədə apardığı siyasətə dair məsələləri də müzakirə etmişlər. Nazir E. Məmmədyarov Kapitolidə, həmçinin Nümayəndələr Palatası Təxsisatlar Komitəsinin üzvü xanım Nita Loui ilə də müzakirələr aparmışdır.

Vaşinqtondakı Con Hopkins Universitetinin Mərkəzi Asiya və Qafqaz Araşdırmaları İnstitutunda "Azərbaycanın regional və beynəlxalq rolu" mövzusunda çıxış edən Elmar Məmmədyarov bildirmişdir ki, ölkəmiz bölgədə lider dövlətdir. Nəhəng Bakı-Tbilisi-Ceyhan neft, Bakı-Tbilisi-Ərzurum qaz kəmərləri bu layihələrin iştirakçısı olan dövlətlərin sabitliyinə və çiçəklənməsinə təminat yaradır. "Son illər Azərbaycanla bağlı rəqəmlərdən danışanda biz artıq milyonları deyil, milyardları misal gətiririk" – deyən nazir, böyük gəlirlərin gətirdiyi böyük məsuliyyəti Azərbaycan hökumətinin anladığını və neft gəlirlərinin ölkədə infrastrukturun, qeyri-neft sektorunun inkişafına istiqamətləndirildiyini bildirmiş və demişdir: "İlk ideyalardan biri nadir coğrafi mövqeyimizdən istifadə etmək idi. Azərbaycan Bakı-Tbilisi-Axalkalaki-Qars dəmir yolu layihəsini maliyyələşdirmək qərarına gəldi. İlkin hesablamalara görə, mövcud dəmir yollarını bərpa etsək, layihə 600 milyon ABŞ dolları məbləğində xərc tələb edir və 18 ay ərzində başa çata bilər. Yeni infrastruktur yeni xidmətlər, yeni iş yerləri yaradacaqdır. Kənd təsərrüfatı, informasiya texnologiyaları, təhsil layihələri ilə biz, "Holland sindromuna" yol verməyəcəyik."

Regionun müsbət iqtisadi göstəricilərini təsvir edən nazir E.Məmmədyarov xatırlatmışdır ki, Ermənistan bu inkişafdan kənarda qalıb: "Qatar tərpənir. Biz, Ermənistanı da bölgə dövlətlərinə qoşulmağa dəvət edirik. Amma Dağlıq Qarabağ münaqişəsi həll olunmayınca Ermənistan bu layihələrin heç birində iştirak etməyəcəkdir". Erməni həmkarı ilə Cenevrədə son görüşünü şərh edən Elmar Məmmədyarov demişdir ki, münaqişənin yeganə həlli mərhələli şəkildə olmalıdır. Ermənistan anlamalıdır ki, əvvəl-axır o, qoşunlarını zəbt olunmuş Azərbaycan ərazilərindən çıxarmalı, qaçqınlar və məcburi köçkünlər evlərinə qayıtmalı, iki xalq arasında etimad yaradacaq tədbirlər həyata keçirilməlidir.

ABŞ VƏ AZƏRBAYCAN ENERJİ TƏHLÜKƏSİZLİYİ MƏSƏLƏLƏRİ ÜZRƏ BİRGƏ QRUP YARADACAQLAR

Azərbaycanın Xarici İşlər Nazirliyi və ABŞ Dövlət Departamenti enerji təhlükəsizliyi məsələləri üzrə birgə qrup təsis edilməsi barədə razılığa gəlmişlər.

Bunu Azərbaycanın xarici işlər naziri Elmar Məmmədyarov Vaşinqtonda Cons Hopkins Universiteti yanında Orta Asiya və Qafqaz İnstitutunda çıxışından sonra İTAR-TASS-ın müxbirinə müsahibəsində bildirmişdir.

Onun dediyinə görə, dövlət katibi Kondoliza Rayslа görüşdə "enerji təhlükəsizliyi məsələləri üzrə məşvərət mexanizmi yaradılması" nəzərdə tutulan qarşılıqlı anlaşma haqqında memorandum imzalanacaqdır. XİN başçısı demişdir: "Enerji daşıyıcıları – neft və qazla, onların göndərilməsilə bağlı məsələlərin bütün kompleksi bu mexanizm çərçivəsində nəzərdən keçiriləcəkdir. Bakı-Tbilisi-Ceyhan neft kəmərinin istismarı, Azərbaycan qazının Avropa bazarına çıxarılması, qazın qiymətinin sabitləşdirilməsi – bu və digər məsələlər birgə qrupda müzakirələr mövzusu olacaqdır".

Dövlət katibinin Avropa və Avrasiya işləri üzrə köməkçisinin müavini Mətyu Brayzə jurnalistlərə bildirmişdir ki, memorandumda yeni nəsil qaz kəmərləri tikintisi ideyasının dəstəkləndiyi ifadə ediləcəkdir. Xəzər regionunda çıxarılacaq qaz bu boru kəmərlərinin köməyilə Avropaya çatdırılacaqdır. Brayzə demişdir ki, Avropaya qaz göndərilməsinin iri alternativi olmaq üçün Azərbaycan Yunanıstana və İtaliyaya gedəcək qaz kəmərinin inşasına dair planları mümkün qədər tezliklə gerçəkləşdirməlidir.

AZƏRBAYCAN XARİCİ İŞLƏR NAZİRİNİN BMT BAŞ KATİBİ İLƏ GÖRÜŞÜNDƏ DAĞLIQ QARABAĞ MÜNAQİŞƏSİN TƏNZİMLƏNMƏSİ PROBLEMİ MÜZAKİRƏ EDİLMİŞDİR

Azərbaycanın xarici işlər naziri Elmar Məmmədyarovun və BMT-nin baş katibi Pan Gi Munun martın 21-də Nyu-Yorkda, beynəlxalq təşkilatın iqamətgahında keçirilən görüşündə Dağlıq Qarabağ münaqişəsinin nizama salınması problemi müzakirə edilmişdir.

E.Məmmədyarov Pan Gi Muna erməni həmkarı ilə ATƏT-in Minsk qrupu həmsədrlərinin iştirakı ilə bu yaxınlarda Cenevrədə keçirilən məsləhətləşmələrin nəticələri barədə danışmışdır. Azərbaycan XİN-in başçısı demişdir ki, Cenevrədə ciddi irəliləyişə nail olmadıq və indi növbəti görüş Ermənistanda mayın 12-nə təyin edilən parlament seçkilərindən sonra prezidentlər səviyyəsində keçiriləcəkdir.

BMT-nin baş katibinə GUAM ölkələri ərazilərindəki münaqişələrin həlli yolları barədə bu qurum çərçivəsində aparılan diskussiya barədə də məlumat verən E.Məmmədyarov BMT-ni bu münaqişələrin tənzimlənməsinə daha yaxından qoşulmağa çağırmışdır.

Nazir BMT ilə daha geniş əməkdaşlıq aparılacağına ümid bəslədiyini bildirmiş və ümumdünya təşkilatının fəaliyyətində, o cümlədən Azərbaycanın da üzv olduğu BMT-nin İnsan Hüquqları Şurasında Bakının daha fəal rol oynamaq əzmində olduğunu təsdiq etmişdir.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN MOSKVAYA SƏFƏRİ

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev dünya şöhrətli musiqiçi və dirijor, maestro Mstislav Rostropoviçin 80 illiyi ilə bağlı yubiley tədbirlərində iştirak etmək üçün martın 27-də Moskvaya yola düşmüşdür.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN VƏ RUSİYA PREZİDENTİ VLADİMİR PUTİNİN GÖRÜŞÜ

Martın 27-də Moskvada, Dövlət Kreml sarayında Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və Rusiya Federasiyasının Prezidenti Vladimir Putinin görüşü olmuşdur.

Dövlət başçıları ölkələrimiz arasında ikitərəfli münasibətlərin müxtəlif sahələrdə, o cümlədən siyasi, iqtisadi, *mədəni, humanitar və digər* sahələrdə əməkdaşlığın uğurla inkişaf etdiyini vurğuladılar.

Prezidentlər qarşılıqlı münasibətlərin dərinləşməsində yüksək səviyyələrdə keçirilən görüşlərin xüsusi əhəmiyyəti olduğunu qeyd etdilər.

Dövlət başçıları ölkələrimiz arasında etibarlı tərəfdaşlıq prinsiplərinə əsaslanan əməkdaşlığın genişlənməsindən məmnunluqlarını bildirdilər.

Söhbət zamanı prezidentlər Azərbaycan-Rusiya əməkdaşlığının bundan sonra da uğurla inkişaf edəcəyinə əmin olduqlarını vurğuladılar.

Görüşdə qarşılıqlı maraq doğuran bir sıra məsələlər müzakirə olundu.

ÇİN AZƏRBAYCANLA ƏLAQƏLƏRİN İNKİŞAFINDA MARAQLIDIR

Azərbaycanda səfərdə olan Çin Kommunist Partiyası Mərkəzi Komitəsi xarici əlaqələr departamenti rəisinin müavini Ma Venpu martın 27-də Milli Məclis sədrinin birinci müavini Ziyafət Əsgərovla görüşmüşdür.

Z.Əsgərov demişdir ki, Azərbaycan müstəqilliyini bərpa etdikdən sonra ölkələrimiz arasında mövcud olan dostluq münasibətləri daha da genişlənmişdir. Əlaqələrimizin inkişafında dövlətlərimizin başçılarının rolunu xüsusi vurğulayan Z.Əsgərov demişdir ki, Azərbaycan Prezidenti İlham Əliyevin Çinə səfərindən sonra münasibətlərimizin inkişafında yeni mərhələ açılmışdır. Hər iki ölkənin hakim partiyaları – Yeni Azərbaycan Partiyası ilə Çin Kommunist Partiyası arasında əlaqələrin inkişafı da mühüm əhəmiyyət kəsb edir.

Milli Məclis sədrinin birinci müavini ölkəmizin iqtisadi inkişafı, müstəqillik illərində qazanılmış uğurlar barədə qonaqlara ətraflı məlumat vermiş, Azərbaycanın ərazi bütövlüyünü müdafiə etdiyinə görə, Çin Xalq Respublikası rəhbərliyinə və xalqına minnətdarlığını bildirmişdir.

Çin Kommunist Partiyası xarici əlaqələr departamenti sədrinin müavini Ma Venpu xoş sözlərə və ətraflı məlumata görə minnətdarlıq etmiş, Azərbaycanda olmasından məmnunluğunu bildirmişdir. O demişdir ki, Çin xalqının Azərbaycana xüsusi rəğbəti vardır və Pekin ölkələrimizin əlaqələrinin inkişafında maraqlıdır. Müstəqilliyini yenidən bərpa etdikdən sonra ümummilli lider Heydər Əliyevin müdrikliyi nəticəsində əldə olunmuş ictimai-siyasi sabitliyin bu gün də qorunub saxlanması, dinamik inkişaf, qazanılan uğurlar bizi çox sevindirir. Prezident İlham Əliyevin səyi nəticəsində əlaqələrimiz daha da inkişaf edir. Xalqlarımız arasında qədim İpək Yolu dövründən mövcud olmuş dostluq münasibətləri genişlənir.

Azərbaycan-Çin parlamentlərarası əlaqələr üzrə işçi qrupunun üzvlərinin də iştirak etdiyi bu görüşdə daha sonra qarşılıqlı maraq doğuran digər məsələlər ətrafında fikir mübadiləsi aparılmışdır.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV RUSİYA FEDERAL MƏCLİSİ FEDERASİYA ŞURASININ SƏDRİ SERGEY MİRONOVUN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİNİ QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev martın 28-də Prezident sarayında Rusiya Federal Məclisi Federasiya Şurasının sədri Sergey Mironovun başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.

Azərbaycan Prezidenti bildirdi ki, istər dövlət orqanları, hökumət qurumları, istərsə də parlamentlərarası əlaqələr ikitərəfli münasibətlərin inkişafında mühüm rol oynayır. Beynəlxalq təşkilatlar çərçivəsində də nümayəndələrimiz fəal əməkdaşlıq edirlər.

Dövlətimizin başçısı martın 27-də Rusiya Prezidenti Vladimir Putinlə keçirdiyi görüşü xatırladaraq bildirdi ki, bu görüş zamanı münasibətlərimizin müxtəlif sahələri ilə bağlı səmərəli fikir mübadiləsi aparıldı və bütün məsələlərə yanaşmada fikirlərin üst-üstə düşməsi əlaqələrimizin uğurlu inkişafını bir daha təsdiq etdi.

Sergey Mironov Azərbaycan Prezidentinin Rusiya Prezidenti ilə keçirdiyi görüş barədə dediyi fikirlərin nümayəndə heyətində böyük məmnunluq hissi doğurduğunu vurğuladı. O qeyd etdi ki, Rusiya ali qanunverici orqanının üzvləri də dövlət başçılarının keçirdiyi bu görüşün ruhuna uyğun olaraq, ikitərəfli münasibətlərin hüquqi bazasının daha da möhkəmləndirilməsi istiqamətində bundan sonra da fəal çalışacaqlar. O, Milli Məclisdə keçirdiyi görüşlər barədə məlumat verərək bildirdi ki, səfəri zamanı parlamentlərarası əlaqələrin daha da inkişaf etdirilməsi istiqamətində atılacaq konkret addımlarla bağlı səmərəli müzakirələr aparılmışdır.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV BELARUSUN BAŞ NAZİRİ SERGEY SİDORSKİNİ QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev martın 28-də Prezident sarayında Belarusun Baş naziri Sergey Sidorskini qəbul etmişdir.

Dövlətimizin başçısı Azərbaycan ilə Belarus arasında ikitərəfli münasibətlərin inkişafından məmnun olduğunu bildirdi. O, Belarusa rəsmi səfərindən qısa müddət keçməsinə baxmayaraq, əlaqələrimizin daha da genişləndirilməsi istiqamətində artıq konkret nəticələrin əldə olunduğunu vurğuladı. Prezident İlham Əliyev Belarusun Baş nazirinin Azərbaycana səfərinin iki ölkə arasında əlaqələrin bundan sonra da inkişafına öz töhfəsini verəcəyinə əminliyini ifadə etdi.

Sergey Sidorski Belarusun Prezidenti Aleksandr Lukaşenkonun salamlarını Prezident İlham Əliyevə çatdırdı. O, Belarus Prezidentinin Azərbaycana bu yaxınlarda həyata keçiriləcək rəsmi səfərinə hazırlıq işlərinin aparıldığını və bu səfərin əlaqələrimizin daha da möhkəmlənməsinə mühüm töhfə verəcəyini bildirdi. Belarusun Baş naziri Azərbay-

can Prezidentinin Belarusa səfəri zamanı imzalanmış sənədlərin həyata keçirilməsi sahəsində görülən işlər barədə dövlətimizin başçısına məlumat verdi.

Prezident İlham Əliyev Belarusun Prezidenti Aleksandr Lukaşenkonun salamlarına görə minnətdarlığını bildirdi və özünün də salamlarını ona çatdırmağı xahiş etdi.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV ABŞ-IN "BECHTEL CORPORATİON" ŞİRKƏTİNİN BAŞ VİTSE-PREZİDENTİ VƏ AVROPA, AFRİKA, YAXIN ŞƏRQ, CƏNUB-QƏRBİ ASİYA REGİONLARI ÜZRƏ PREZİDENTİ ÇARLZ REDMANI QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev martın 29-da Prezident sarayında ABŞ-ın "Bechtel Corporation" şirkətinin baş vitse-prezidenti və Avropa, Afrika, Yaxın Şərq, Cənub-qərbi Asiya regionları üzrə prezidenti Çarlz Redmanı qəbul etmişdir.

Çarlz Redman Azərbaycanda iqtisadi sahədə çox böyük uğurların əldə edildiyini vurğulayaraq, təmsil etdiyi şirkətin ölkəmizlə əməkdaşlığa böyük maraq göstərdiyini bildirdi. O, səfəri zamanı bu əməkdaşlığın gələcək perspektivlərinin konkret istiqamətləri barədə səmərəli müzakirələr apardığını söylədi.

Dövlətimizin başçısı Azərbaycanın bütün digər sahələrlə yanaşı, iqtisadi sahədə də sürətli inkişafa nail olduğunu bildirdi. Prezident İlham Əliyev xarici şirkətlərin Azərbaycanda səmərəli fəaliyyəti üçün hər cür şəraitin yaradıldığını və ölkəmizin bu sahədə yaxşı təcrübəyə malik olduğunu vurğuladı.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV ABŞ-IN ATƏT-DƏKİ SƏFİRİ CULİ FİNLİNİN RƏHBƏRLİK ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİNİ QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev martın 29-da Prezident sarayında ABŞ-ın ATƏT-dəki səfiri Culi Finlinin rəhbərlik etdiyi nümayəndə heyətini qəbul etmişdir.

Dövlətimizin başçısı Azərbaycan ilə ATƏT arasındakı əməkdaşlığın səviyyəsindən razı qaldığını bildirdi. Prezident İlham Əliyev bu səfərin ölkəmiz ilə təşkilat arasında əlaqələrin gələcək perspektivlərini müzakirə etmək üçün yaxşı imkan yaratdığını qeyd etdi.

Culi Finli ölkəmizə ilk dəfə səfər etməkdən böyük məmnunluq duyduğunu bildirdi. O, səfərində məqsədin Azərbaycan-ATƏT əməkdaşlığına dair geniş məlumat almaqdan və bu əməkdaşlıqla bağlı Azərbaycan Prezidenti ilə fikir mübadiləsi aparmaqdan ibarət olduğunu söylədi. Qonaq Azərbaycanın ATƏT ilə əməkdaşlığın bir sıra sahələrində, o cümlədən insan alverinə qarşı mübarizə sahəsində böyük uğurlar əldə etdiyini vurğuladı.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV QIRĞIZISTANIN MÜDAFİƏ NAZİRİ İSMAİL İSAKOVUN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİNİ QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev martın 29-da Prezident sarayında Qırğızıstanın müdafiə naziri İsmail İsakovun başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.

Azərbaycan-Qırğızıstan münasibətlərinin uğurla inkişaf etdiyini vurğulayan dövlətimizin başçısı ölkələrimiz arasında bütün istiqamətlərdə əlaqələrin genişlənməsi zərurətini bildirdi. Prezident İlham Əliyev Qırğızıstanın müdafiə nazirinin Azərbaycana səfərinin ikitərəfli münasibətlərin, o cümlədən müdafiə sahəsində əməkdaşlığın inkişafına öz töhfəsini verəcəyinə əminliyini ifadə etdi.

Qırğızıstanın müdafiə naziri İsmail İsakov Prezident İlham Əliyevə Qırğızıstan Prezidenti Kurmanbek Bakiyevin salamlarını çatdırdı. O, Azərbaycana səfəri zamanı ölkələrimizin müdafiə nazirlikləri arasında əlaqələrin perspektivlərinin müzakirə edildiyini vurğuladı.

Prezident İlham Əliyev Qırğızıstan Prezidenti Kurmanbek Bakiyevin salamlarına görə minnətdarlığını bildirdi və özünün də salamlarını ona çatdırmağı xahiş etdi.

POLŞA PREZİDENTİ LEX KAÇİNSKİNİN AZƏRBAYCANA RƏSMİ SƏFƏRİ

Martın 30-da Polşa Respublikasının Prezidenti Lex Kaçinski Azərbaycana ikigünlük rəsmi səfərə gəlmişdir.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN VƏ POLŞA PREZİDENTİ LEX KAÇİNSKİNİN TƏKBƏTƏK GÖRÜŞÜ

Martın 30-da Prezident sarayında Azərbaycan Prezidenti İlham Əliyevin və Polşa Prezidenti Lex Kaçinskinin təkbətək görüşü olmuşdur.

Görüşdə siyasi, iqtisadi və humanitar sahələrdə Azərbaycan-Polşa əlaqələrinin uğurla inkişaf etdiyi vurğulandı. Bildirildi ki, dövlət başçılarının qarşılıqlı səfərləri bu əlaqələrin genişlənməsinə təkan verir. Beynəlxalq təşkilatlarda, habelə Avropa qurumlarına inteqrasiya sahəsində əməkdaşlıq dinamik inkişaf edir.

Görüşdə əməkdaşlığın genişləndirilməsi perspektivləri və qarşılıqlı maraq doğuran bir sıra məsələlər müzakirə olundu.

DÖVLƏT BAŞÇILARININ GENİŞ TƏRKİBDƏ GÖRÜŞÜ

Martın 30-da Prezident sarayında Azərbaycan Prezidenti İlham Əliyevin və Polşa Prezidenti Lex Kaçinskinin nümayəndə heyətlərinin iştirakı ilə geniş tərkibdə görüşü keçirilmişdir.

Prezident İlham ƏLİYEV görüşü açaraq dedi:

-Hörmətli cənab Prezident, hörmətli qonaqlar! Mən sizi bir daha Azərbaycanda ürəkdən salamlayıram, "Xoş gəlmisiniz!". Biz ikitərəfli münasibətlərə çox böyük əhəmiyyət veririk və əminəm ki, Sizin Azərbaycana rəsmi səfəriniz bu münasibətlərin inkişafında mühüm rol oynayacaqdır. Bu gün Sizinlə təkbətək görüşdə ikitərəfli münasibətlərin bütün aspektlərini geniş müzakirə etdik və görürük ki, bizim aramızda çox yaxşı siyasi münasibətlər, dostluq əlaqələri var. Biz çox istəyirik ki, bu əlaqələr daha da güclənsin. Görüşümüzdə həm ikitərəfli münasibətlər geniş şəkildə müzakirə olundu, həm də Avropa İttifaqı-Azərbaycan münasibətləri və regional məsələlər.

Bu, Sizin Azərbaycana ilk səfərinizdir və əminəm ki, səfər çox uğurlu olacaqdır. Bir daha "Xoş gəlmisiniz!".

Polşa Prezidenti Lex KAÇİNSKİ təşəkkür edərək dedi:

-Hörmətli cənab Prezident, xanımlar və cənablar! Mən istəyirəm ki, ilk növbədə, Bakıya səfərimdən olduqca məmnunluğumu bildirim. Bakı çox gözəl şəhərdir. Ümumiyyətlə, Bakıya gəlmək mənim üçün böyük şərəfdir.

Cənab Prezident Sizinlə görüşməyimdən olduqca məmnunam. Düzdür, dediyim kimi, mən Azərbaycana, Bakıya ilk rəsmi səfərimə çıxmışam, lakin biz cənab Prezidentlə bundan əvvəl bir-birimizlə tanış olmaq imkanına malik olmuşuq. Aramızda dostluq münasibətləri var.

Polşa rəhbəri bildirdi ki, onun bu səfəri ikitərəfli münasibətlərin inkişaf etdirilməsi ilə yanaşı, regionda və dünyada gedən proseslərlə bağlı fikir mübadiləsi aparılması baxımından da çox əhəmiyyətlidir.

AZƏRBAYCAN VƏ POLŞA PREZİDENTLƏRİ BİRGƏ BƏYANNAMƏ İMZALAMIŞLAR

Martın 30-da Prezident sarayında, dövlət başçılarının geniş tərkibdə görüşü başa çatdıqdan sonra Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Polşa Respublikasının Prezidenti Lex Kaçinski birgə bəyanat imzaladılar.

AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN VƏ POLŞA RESPUBLİKASI PREZİDENTİNİN BİRGƏ BƏYANATI

30 mart 2007-ci il

Azərbaycan Respublikası Prezidenti və Polşa Respublikası Prezidenti,

Azərbaycan Respublikası və Polşa Respublikası arasında ənənəvi dostluq münasibətlərinin hərtərəfli əməkdaşlıq, etimad və qarşılıqlı hörmət əsasında inkişaf etdirilməsini dəstəkləyərək,

Azərbaycan və Polşa arasında ikitərəfli siyasi, iqtisadi, humanitar və mədəni əlaqələrin hərtərəfli inkişafının vacibliyini qeyd edərək,

Müxtəlif beynəlxalq və regional təşkilatlar, qurumlar və layihələrdə iki ölkə arasında əməkdaşlığın əhəmiyyətini vurğulayaraq,

İki ölkə arasında iqtisadi əməkdaşlığın dərinləşdirilməsi və genişləndirilməsi prosesində Azərbaycan-Polşa ticarət mübadiləsinin artırılması və diversifikasiyasının əhəmiyyətini qeyd edərək,

Beynəlxalq münasibətlərdə Birləşmiş Millətlər Təşkilatının Nizamnaməsinin məqsəd və prinsiplərinə, beynəlxalq hüququn ümumtanınmış prinsip və normalarına, o cümlədən, dövlətlərin ərazi bütövlüyü, sərhədlərin toxunulmazlığı və dövlətlərin suveren bərabərliyi, zor işlətməmək və ya zor işlətməklə hədələməmək prinsiplərinə riayət edilməsinin vacibliyini vurğulayaraq,

Polşa Respublikasının Prezidenti cənab Lex Kaçinskinin Azərbaycana hazırkı səfərinin iki ölkə arasında dostluq və əməkdaşlığın inkişafına töhfə verəcəyinə əminlik ifadə edərək,

aşağıdakıları bəyan etdilər:

Azərbaycan-Polşa dostluq və tərəfdaşlıq münasibətlərinin yüksələn xətlə inkişafını nəzərə alaraq, hər iki ölkə arasında ikitərəfli əməkdaşlığın daha da möhkəmləndirilməsi və genişləndirilməsi istiqamətində səylərin gücləndirilməsinin vacibliyini qeyd edirlər.

Azərbaycan Respublikası ilə Avropa İttifaqı arasında sıx əlaqələrin qurulmasında Avropa Qonşuluq Siyasəti və Fəaliyyət Planının vacib əhəmiyyət kəsb etdiyini təsdiq edirlər.

Azərbaycan Respublikasının Avropa Qonşuluq Siyasətində iştirakı imkanlarından faydalanmaqla, Avropa Qonşuluq Siyasəti çərçivəsində iki dövlət arasında əməkdaşlığın dərinləndirilməsinin vacibliyini vurğulayırlar.

Regiondakı stabilliyin və təhlükəsizliyin təşviq olunması üçün azad bazar iqtisadiyyatının prinsiplərinə və ümumi Avropa dəyərləri və təcrübəsinə əsaslanan real və kommersiya baxımından davamlı əməkdaşlıqla bağlı qarşılıqlı öhdəliklərini təsdiq edirlər.

İkitərəfli əlaqələrin qanunun aliliyi, demokratiya, insan hüquqları və bazar iqtisadiyyatı prinsipləri əsasında inkişaf etdirilməsində qətiyyətli olduqlarını vurğulayırlar.

Avropa Şurası Parlament Assambleyası çərçivəsində əməkdaşlıq daxil olmaqla, parlamentlərarası əlaqələrin vacibliyini bir daha təsdiq edirlər.

İkitərəfli iqtisadi əməkdaşlığın möhkəmləndirilməsi və iki ölkənin biznes dairələri arasında birbaşa əlaqələrin qurulması üçün əlverişli şəraitin yaradılması istiqamətində tədbirlərin görülməsinin, habelə, Azərbaycan-Polşa Hökumətlərarası Birgə Komissiyanın iki dövlət arasında iqtisadi əlaqələrin genişləndirilməsində mühüm rolunu vurğulayırlar.

İki ölkə arasında iqtisadiyyat, ticarət, kommunikasiya, turizm, səhiyyə, elm, təhsil, mədəniyyət, ətraf mühitin mühafizəsi, humanitar və s. sahələrdə əlaqələrin və texniki əməkdaşlığın genişləndirilməsinin təmin edilməsi üçün tədbirlərin həyata keçirilməsini təşviq edirlər.

Polşa Respublikası Azərbaycan Respublikasında həyata keçirilən islahatları və iqtisadi inkişaf sahəsində əldə olunmuş mühüm nailiyyətləri alqışlayır və Azərbaycanın ÜTT-yə üzv olmasını dəstəkləyir.

Azərbaycan Respublikasının Vişeqrad qrupu ölkələri ilə V4+Azərbaycan formatında qarşılıqlı faydalı dialoq və əməkdaşlığın qurulması səyləri Polşa Respublikası tərəfindən dəstəklənir. Bu dialoq münasibətlərdə ən vacib məsələlərin birgə qiymətləşdirilməsi və əməkdaşlıq sahələrinin müəyyənləşdirilməsi üçün əhəmiyyətli çərçivə olacaqdır. Bu əməkdaşlığın Avropa Qonşuluq Siyasəti çərçivəsində əməkdaşlığa əlavə töhfə verəcəyindən əminliklərini ifadə edirlər.

Enerji təhlükəsizliyi məsələlərinə xüsusi diqqət yetirdiklərini və Avropanın enerji təchizatında Xəzər bölgəsinin mühüm rol oynadığını qeyd edirlər. Avropa İttifaqı ilə bu regionun ölkələri arasında enerji sahəsində əməkdaşlığın möhkəmləndirilməsini arzu etdiklərini bildirdirərək, 7 noyabr 2006-cı il tarixində Aİ ilə Azərbaycan Respublikası arasında enerji sahəsində tərəfdaşlıq haqqında memorandumun imzalanmasının bu əməkdaşlığa töhfə verəcəyini vurğulayırlar.

Enerji sahəsində əməkdaşlığın genişlənməsinin vacibliyini vurğulayaraq, Avropa-Qafqaz-Asiya nəqliyyat dəhlizinin bir hissəsi olan Bakı-Tbilisi-Ceyhan və Bakı-Tbilisi-Ərzurum neft və qaz boru kəmərlərinin işə düşməsi, habelə Bakı-Tbilisi-Qars yeni dəmir yolu xətti layihəsinin həyata keçirilməsinin əhəmiyyətini qeyd edərək, onların Avropa və geniş qlobal enerji təhlükəsizliyinə töhfə verəcəklərinə, region ölkələrinin davamlı iqtisadi inkişafına xidmət edəcəyinə əminliklərini bildirirlər.

Beynəlxalq hüququn prinsiplərini, eləcə də dövlətlərin suverenliyinə hörmət, ərazi bütövlüyü və sərhədlərinin toxunulmazlığına riayət edilməsinə əsaslanaraq, Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin Birləşmiş Millətlər Təşkilatının müvafiq qətnamələrinə, Avropada Təhlükəsizlik və Əməkdaşlıq Təşkilatının qərar və qətnamələrinə uyğun olaraq tezliklə həll olunmasının vacibliyini vurğulayırlar.

Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin sülh yolu ilə həll edilməsi istiqamətində ATƏT çərçivəsində fəaliyyət göstərən Minsk Qrupu tərəfindən daha təsirli və qətiyyətli addımların atılmasının vacibliyini qeyd edirlər.

Beynəlxalq terrorizm, ekstremizmin bütün növləri və aqressiv separatizm, nəzarətsiz zonalarda narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının qeyri-qanuni dövriyyəsi, transmilli mütəşəkkil cinayətkarlıq, insan və qanunsuz silah alveri, kütləvi qırğın silahlarının yayılması kimi beynəlxalq təhlükəsizlik və sabitliyə təhlükə törədən ümumi təhdidləri pisləyir və onlara qarşı mübarizə sahəsində beynəlxalq səylərin artırılması zəruriliyindən çıxış edirlər.

Birləşmiş Millətlər Təşkilatı, Avropada Təhlükəsizlik və Əməkdaşlıq Təşkilatı, Avropa İttifaqının Qonşuluq Siyasəti, NATO-nun "Sülh naminə Tərəfdaşlıq" və Avro-Atlantika Tərəfdaşlıq Şurası, Avropa Şurası və digər beynəlxalq təşkilatlar çərçivəsində əməkdaşlığı yüksək qiymətləndirir, bu sahədə əlaqələrin və birgə fəaliyyətin intensivləşdirilməsini dəstəkləyirlər.

Avro-Atlantik Tərəfdaşlığın möhkəmləndirilməsi məqsədilə siyasi dialoq və əməkdaşlığın, habelə Fərdi Tərəfdaşlıq Fəaliyyət Planı da daxil olmaqla Azərbaycan Respublikasının NATO ilə əməkdaşlığının və siyasi dialoqunun dərinləşməsində maraqlı olduqlarını ifadə edirlər.

Azərbaycan Respublikasının Avropa və Avro-Atlantik strukturlara inteqrasiyası prosesində, Polşanın müdafiə və təhlükəsizlik sektorunda islahatlar təcrübəsi də daxil olmaqla, Polşanın dövlət təcrübələrinin bölüşməyə hazır olduqlarını təsdiqləyirlər.

Sülhün, sabitlik və etimadın möhkəmlənməsində dinlərarası dialoqun mühüm rolunu xüsusi olaraq qeyd edərək, bu istiqamətdə səylərin artırılmasının vurğulayırlar.

Bu Birgə Bəyanatın Azərbaycan-Polşa arasındakı ikitərəfli münasibətlərin intensivləşdirilməsinə təkan verəcəyinə əminliklərini ifadə edirlər.

Bakı şəhərində, 30 mart 2007-ci il tarixində iki əsl nüsxədə, Azərbaycan, Polşa və ingilis dillərində imzalanmışdır.

AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ	POLŞA RESPUBLİKASININ PREZİDENTİ
İLHAM ƏLİYEV	*LEX KAÇİNSKİ*

BİRGƏ MƏTBUAT KONFRANSI

Martın 30-da Prezident sarayında, Birgə bəyannamənin imzalanmasından sonra Azərbaycan və Polşa prezidentlərinin birgə mətbuat konfransı olmuşdur.

Dövlət başçıları jurnalistlər qarşısında bəyanatlarla çıxış etdilər.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN BƏYANATI

Hörmətli cənab Prezident!

Hörmətli xanımlar və cənablar!

Hörmətli cənab Prezident, mən Sizi və Polşadan gəlmiş nümayəndə heyətinin bütün üzvlərini Azərbaycanda bir daha salamlayıram. Ölkəmizə xoş gəlmisiniz! Əminəm ki, bu səfər çox uğurlu olacaq və səfərin nəticələri də bizim aramızda olan münasibətlərin inkişafında çox böyük rol oynayacaqdır.

Polşa ilə Azərbaycan arasında əlaqələr çox uğurla inkişaf edir. Azərbaycan öz müstəqilliyini bərpa etdikdən sonra biz həmişə Polşanın dəstəyini hiss etmişdik. Həm ikitərəfli münasibətlərimiz çox uğurludur, səmimidir və dostluq əsasında qurulubdur, eyni zamanda, Polşa Avropa İttifaqına və NATO-ya daxil olandan sonra Azərbaycanın Avratlantik inteqrasiyada atdığı addımları da həmişə dəstəkləmişdir. Xüsusilə Avropa İttifaqı ilə Azərbaycan arasında "Yeni qonşuluq siyasətinə dair fəaliyyət planı"nın imzalanmasında Polşanın çox böyük rolu olmuşdur və buna görə biz sizə öz minnətdarlığımızı bildirmək istəyirik.

Bu gün bizim aramızda çox açıq, səmimi diskussiya, müzakirələr olmuşdur. İkitərəfli münasibətlər təhlil olunmuş və gələcək əməkdaşlıq haqqında fikir mübadiləsi aparılmışdır. Xüsusilə bizim regionda mövcud olan vəziyyət, perspektivlər, təhlükələr geniş şəkildə müzakirə edilmişdir. Regionda gərginlik yaradan münaqişələr və onların həlli yolları geniş müzakirə olunmuşdur. Mən cənab Prezidentə Ermənistan-Azərbaycan.

Dağlıq Qarabağ münaqişəsinin tarixini çatdırdım, eyni zamanda, danışıqlar prosesində əldə olunan nailiyyətlər və problemlər haqqında geniş söhbət açıldı.

Polşa Azərbaycanın ərazi bütövlüyünü həmişə dəstəkləmişdir və bu, bizim üçün çox önəmlidir, vacibdir.

Energetika sahəsində mümkün olan əməkdaşlıq haqqında da danışdıq və bildiyiniz kimi, Azərbaycan bu sahədə öz siyasətini uğurla aparır. Bizim neft strategiyamız Azərbaycan xalqının rifah halının yaxşılaşdırılmasına yönəldilibdir. Eyni zamanda, regional məsələlərə də öz təsirini göstərir. Bizim siyasətimiz müstəqil siyasətdir və Azərbaycan xalqının milli maraqlarının üstündə qurulubdur və bütün dost ölkələrlə bütün sahələrdə, o cümlədən bu sahədə də əməkdaşlıq etmək fikrindəyik. Azərbaycanın artan enerjidaşıyıcıları dünya, Avropa bazarlarına çıxarılır və Polşa ilə bu sahədə əməkdaşlıq da çox uğurlu ola bilər. Biz bu sahəyə böyük əhəmiyyət veririk və ümid edirəm ki, gələcəkdə bizim əməkdaşlığımızın yeni formaları da yaranacaqdır.

Eyni zamanda, Avropa İttifaqı-Azərbaycan münasibətləri müzakirə olundu və bu sahədə də bizim aramızda fikir ayrılığı yoxdur. Əksinə, bizim fikirlərimiz üst-üstə düşür və bir daha demək istəyirəm ki, Azərbaycanın Yeni qonşuluq siyasətinə qoşulması, eyni zamanda, Avropa İttifaqı ilə energetika sahəsində strateji tərəfdaşlıq haqqında memorandum imzalanması bizim niyyətimizi açıq şəkildə ifadə edir. Bu, bizim üçün çox önəmli istiqamətdir və əminəm ki, bu vaxta qədər olduğu kimi, Polşa bundan sonra da Azərbaycanı bu işlərdə dəstəkləyəcəkdir.

Bütövlükdə deyə bilərəm ki, bizim söhbətimiz çox səmimi şəkildə keçmişdir. Biz bir-birimizi tanıyırıq, əvvəllər də görüşmüşük və bu söhbətlər əvvəlki illərdə yaranmış səmimi münasibətlərin davamıdır. Eyni zamanda, ölkələrimizin arasında da münasibətlər çox səmimidir, çox açıqdır və biz bundan çox məmnunuq.

Beləliklə, artıq indidən demək olar ki, səfərin nəticələri çox uğurludur. İmzalanmış birgə sənəd bizim siyasi niyyətimizi əks etdirir. Əminəm ki, nümayəndə heyətinin üzvləri burada bütün sahələrdə öz həmkarları ilə geniş fikir mübadiləsi aparacaqlar və beləliklə, bizim dostluğumuz davam edəcək, əməkdaşlığımız daha da möhkəmlənəcəkdir.

Əziz qonaqlar, mən sizi Azərbaycanda bir daha salamlayıram. Əminəm ki, sizin Azərbaycana səfəriniz xoş keçəcək və vətəninizə xoş təəssüratlarla gedəcəksiniz. Sağ olun.

POLŞA PREZİDENTİ LEX KAÇİNSKİNİN BƏYANATI

Hörmətli cənab Prezident!

Sizə bir daha öz minnətdarlığımı bildirmək istəyirəm ki, məni bu səfərə dəvət etmisiniz. Cənab Prezident, əminəm ki, Sizi yenidən Polşada görəcəyik.

Bizim uzunçəkən təkbətək görüşümüz oldu və mən heç də gizlətmirəm ki, bu görüşdən çox məmnunam. Biz siyasi məsələləri, Azərbaycan Respublikasını maraqlandıran məsələləri, Avropa İttifaqına aid olan və digər məsələləri müzakirə etdik. Öz regionumuzda olan vəziyyəti, Avropa İttifaqının mövqeyini müzakirə etdik. Avropa İttifaqının enerji siyasətini müzakirə etdik və bu baxımdan bizim əməkdaşlıq imkanlarımızdan danışdıq. Bu əməkdaşlıq daha da inkişaf etdirilə bilər.

İkitərəfli münasibətlərin səviyyəsini yüksəltmək üçün mən cənab Prezidenti Varşavaya dəvət etdim. Hesab edirəm ki, Varşavada keçirəcəyimiz görüşdə biz çox məsələləri müzakirə edəcəyik. Onu da deməliyəm ki, mən öz səlahiyyətlərimi icra etdiyim vaxtla müqayisədə daha çox təcrübə toplayacağam və cənab Prezident Əliyevlə keçirdiyim görüşdə aldığım məlumatları öz işimdə istifadə edəcəyəm.

* * *

Sonra dövlət başçıları jurnalistlərin suallarına cavab verdilər.

SUAL (Polşa televiziyası): Mənim sualım cənab Prezident Əliyevədir. Siz bildirdiniz ki, Polşa Azərbaycan nefti və qazının Avropa və dünya bazarlarına çatdırılmasında böyük rol oynaya bilər. Qaza gəldikdə, hər hansı nəqletmə layihələrində Polşa şirkətlərinin iştirakı barədə konkret təkliflər varmı?

İLHAM ƏLİYEV: Azərbaycan qədim neft ölkəsidir və deyə bilərəm ki, istər quruda, istərsə də dənizdə sənaye üsulu ilə ilk neft Azərbaycanda hasil edilmişdir. İndi Azərbaycan öz neft potensialını çox sürətlə artırır. Azərbaycanda son 13 il ərzində həyata keçirilən neft strategiyası bizə imkan verib ki, neft hasilatını kəskin şəkildə artıraq. Bu il Azərbaycanda hasil olunacaq neftin həcmi təxminən 42-43 milyon ton təşkil edəcəkdir. Növbəti illərdə, iki-üç ildən sonra isə Azərbaycanda təxminən 60 milyon ton neft hasil olunacaqdır. Neftin ixracı üçün üç boru kəmər tikilmişdir. Artıq Azərbaycanın nefti Avropa və dünya bazarlarına çox rahat şəkildə çatdırılır.

O ki qaldı qaz hasilatına, bu vaxta qədər Azərbaycanda hasil olunan qaz bizim öz tələbatımızı ödəmirdi və bu ilin əvvəlinə qədər xaricdən qaz alırdıq. Ancaq Azərbaycanda böyük "Şahdəniz" qaz yatağının istismara verilməsi nəticəsində yaxın illərdə qaz hasilatının artımı gözlənilir. Əminəm ki, bir neçə ildən sonra Azərbaycanda kifayət qədər qaz çıxarılacaq ki, Avropa bazarına çatdırılsın. Biz hətta ümid edirik ki, "Şahdəniz" yatağından çıxarılacaq müəyyən miqdarda Azərbaycan qazı bu ilin sonuna qədər Avropa İttifaqı bazarına çatdırılsın. Bu sahədə biz işləyirik.

Əlbəttə ki, qaz hasilatının artması nəticəsində imkanlarımız da artacaq və biz Avropa İttifaqının bazarına çox maraq göstəririk. Biz artıq bu bazara daxil oluruq və o cümlədən Polşa ilə də bu sahədə əməkdaşlıq edə bilərik. Əməkdaşlığın konkret parametrləri haqqında isə hələ bir şey deyə bilmərəm. İlk növbədə, biz Azərbaycanda qaz hasilatını artırmalıyıq ki, ixrac olunacaq qaz bizim tərəfdaşlarımızın tələbatını ödəsin.

Bir daha demək istəyirəm ki, texniki cəhətdən Bakı-Tbilisi-Ərzurum qaz kəmərinin istismara verilməsi nəticəsində Azərbaycan qazı bu il Avropa İttifaqının bazarlarına çatdırıla bilər.

SUAL (ATV telekanalı): Mənim sualım hər iki prezidentədir. Azərbaycan ilə Polşa arasında mədəni əlaqələrin uzun tarixi var. Mədəni və humanitar əməkdaşlığın genişləndirilməsi üçün konkret layihələr müzakirə edilibmi?

LEX KAÇİNSKİ: Biz Varşava Üsyanı Muzeyinin həyətində xatirə lövhəsinin açılışında iştirak etmişik ki, biz bu haqda cənab Prezidentlə danışmadıq. Lakin mən demək istəyirəm ki, Polşa bir çox sahələrdə Azərbaycanla yaxşı münasibətlərin qurulmasında olduqca maraqlıdır. Bu, təkcə enerji sahəsi deyildir. Bəli, enerji sahəsi vacibdir, bilirik ki,

bu Azərbaycanın apardığı siyasətin əsas istiqamətlərindən biridir. Lakin mən hesab edirəm ki, eyni zamanda, mədəni sahədə də əməkdaşlığımız davam etdiriləcəkdir. Bu, həm prezidentlər, həm baş nazirlər, həm də mədəniyyət nazirləri səviyyəsində aparıla bilər.

Cənab Prezident, mən bir daha təkrar edirəm, ümid edirəm ki, Sizi öz ölkəmdə görəcəyəm.

İLHAM ƏLİYEV: Mən əlavə etmək istəyirəm ki, bizim mədəniyyət sahəsində əlaqələrimizin çox böyük tarixi var. Hələ XIX əsrin sonları – XX əsrin əvvəllərində Polşadan gəlmiş mütəxəssislər Azərbaycanda müxtəlif sahələrdə çox fəal işlər görmüşlər. Bakının memarlıq simasının yaranmasında da çox böyük işlər görmüşlər. Bakının bir neçə gözəl tarixi binalarının müəllifləri, Polşa memarları olmuşdur. Onu da qeyd etmək istəyirəm ki, hələ 1909-cu ildə Bakıda "Polşa Evi" yaradılmışdı. Yəni bu, tarixi əlaqələr əlbəttə ki, indiki münasibətlərə də çox gözəl təsir göstərir.

Bir məsələni də demək istəyirəm ki, indi Azərbaycanda katolik kilsəsinin tikintisi davam edir. Bu, ilk növbədə, Azərbaycanda mövcud olan dözümlülüyün, tolerantlığın əlamətidir. Digər tərəfdən, sirr deyil ki, Azərbaycanda əvvəllər yaşamış və indi yaşayan katoliklər Polşa mənşəlidir. Yəni bu, çox gözəl və güclü zəmindir. Bu zəmin əsasında indiki mərhələdə mədəni əlaqələrin inkişafı da mümkündür. Biz bu sahəyə də böyük əhəmiyyət veririk. Cənab Prezidentin sözləri ilə razıyam və mən də demək istəyirəm ki, bizim münasibətlərimizin gündəliyi çox genişdir. Bu gündəliyi hansısa konkret bir məsələyə yönəltmək düzgün olmazdı. Həm siyasi, həm ikitərəfli iqtisadi münasibətləri, energetika sektorunu, təhlükəsizlik məsələlərini əhatə edir. Məsələn, biz başqa ölkələrdə birlikdə sülhməramlı missiyanı da həyata keçiririk. Yəni bu sahələr çoxşaxəlidir. Əlbəttə ki, bu istiqamətdə mədəni əlaqələrin də öz rolu var. Əminəm ki, bu səfərdən sonra bu əlaqələr daha da yüksək səviyyəyə qalxacaqdır.

HEYDƏR ƏLİYEV FONDU İLƏ TANIŞLIQ

Polşa Prezidenti Lex Kaçinski və Azərbaycan Prezidenti İlham Əliyev martın 30-da Heydər Əliyev Fondunda olmuşlar.

Prezident İlham Əliyev Polşa dövlətinin başçısını və xanımını müstəqil Azərbaycan dövlətinin qurucusu və memarı, ümummilli lider Heydər Əliyevin adını daşıyan Fondda görməkdən məmnun qaldığını bildirdi.

Dövlətimizin başçısı ali qonağı və onu müşayiət edən nümayəndə heyətinin üzvlərini Fondun zəngin ekspozisiyaları ilə tanış etdi.

Ulu öndərin uşaqlıq, gənclik, təhsil illərinə aid fotoşəkillər, sənədlər, öz əlilə çəkdiyi rəsmlər, xüsusi xidmət orqanlarında çalışdığı dövrü, respublikaya rəhbərliyinin hər iki mərhələsindəki, habelə Moskvadakı fəaliyyətini əks etdirən eksponatlar qonaqlarda xüsusi maraq oyatdı.

Keçmiş SSRİ-nin rəhbərlərindən biri kimi yüksək nüfuz qazanmış görkəmli şəxsiyyətin sovet rəhbərliyinin siyasətinə etiraz əlaməti olaraq, bəyanat verib Sov.İKP sıralarından çıxmasının böyük cəsarət olduğunu bildirən Lex Kaçinski Azərbaycanın dövlət

müstəqilliyinin qorunub saxlanmasında və bunun əsas təməli olan iqtisadi islahatların həyata keçirilməsində Heydər Əliyevin oynadığı həlledici rolu yüksək qiymətləndirdi.

Prezident İlham Əliyev Polşa Prezidentini ulu öndərin zəkasının bəhrəsi olan və indi onun adını daşıyan Bakı-Tbilisi-Ceyhan əsas neft ixrac boru kəmərinin maketi ilə də tanış etdi, bu layihənin nəinki regionda, həm də bütün Avropada geosiyasi vəziyyətə böyük təsir göstərdiyini vurğuladı.

Lex Kaçinski Heydər Əliyevin dünyanın nüfuzlu siyasi xadimləri, dövlət və hökumət rəhbərləri ilə görüşlərini, dünyanın müxtəlif ölkələrində onun xatirəsinə ucaldılan abidələri əks etdirən fotoşəkillərə də maraqla baxdı.

Polşa Prezidenti Xatirə kitabına ürək sözlərini yazdı və Fondla tanışlıqdan zəngin təəssürat aldığını bildirdi.

Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyeva Polşa Prezidentinə xatirə hədiyyəsi təqdim etdi.

ALİ QONAĞIN ŞƏRƏFİNƏ

Martın 30-da "Gülüstan" sarayında Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və xanımının adından Polşa Respublikasının Prezidenti Lex Kaçinskinin və xanımının şərəfinə rəsmi qəbul təşkil olunmuşdur.

Dövlət başçıları qəbulda nitq söylədilər.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN NİTQİ

- Hörmətli cənab Prezident!

Hörmətli xanım Kaçinska!

Hörmətli qonaqlar!

Xanımlar və cənablar!

Əziz qonaqlar, mən sizi Azərbaycanda bir daha ürəkdən salamlayıram, xoş gəlmisiniz!

Polşa Prezidentinin Azərbaycana rəsmi səfərinin birinci günü başa çatır. Ancaq artıq demək olar ki, səfər çox uğurlu keçir. Bunun müxtəlif səbəbləri var, o cümlədən bizim tarixi keçmişimiz. Xalqlarımız arasında həmişə çox gözəl münasibətlər olmuşdur. Müxtəlif dövrlərdə Polşadan gəlmiş insanlar Azərbaycanda yaşamış, yaratmışlar. Polşadan gəlmiş mütəxəssislər – neft mühəndisləri, memarlar Azərbaycanın inkişafında çox böyük rol oynamışlar. XX əsrin əvvəllərində Azərbaycanda minlərlə polyak yaşamışdır və hətta Bakıda "Polşa Evi" fəaliyyət göstərirdi. Şərqdə ilk demokratik respublika – Azərbaycan Xalq Cümhuriyyəti yarananda, onun fəaliyyətində polyaklar da iştirak etmişlər. Mən bu gün cənab Prezidentə dedim ki, Bakının bir neçə gözəl binalarının memarları polyaklar olmuşdur.

Bu tarixi əlaqələr, əlbəttə, indiki dönümdə bizim münasibətlərimizin möhkəmlənməsində böyük rol oynayır. İndi isə bizim münasibətlərimiz çox sürətlə inkişaf edir. Siyasi, iqtisadi, mədəni sahələrdə – bütün sahələrdə biz münasibətlərimizin səviyyəsindən

çox məmnunuq və şübhə etmirəm ki, Polşa Prezidentinin Azərbaycana rəsmi səfəri bu istiqamətdə atılmış çox böyük və uğurlu addımdır.

Bu gün çox geniş fikir mübadiləsi aparılmışdır. Danışıqlar və imzalanmış birgə bəyannamə bizim niyyətimizi ifadə edir və ikitərəfli münasibətlərin inkişafı üçün çox gözəl töhfədir. Onu da qeyd etmək istəyirəm ki, Polşa Azərbaycanın Avratlantik strukturlarına inteqrasiya siyasətini həmişə dəstəkləmişdir və xüsusilə Azərbaycanın Avropa İttifaqının yeni qonşuluq siyasətinə qoşulmasında çox böyük rol oynamışdır. Biz əməkdaşlığın perspektivlərini çox gözəl görürük və bu əməkdaşlıq çoxşaxəli olacaqdır. O cümlədən energetika sektorunda da əməkdaşlığın perspektivləri çox gözəldir.

Son illər ərzində Azərbaycanda həyata keçirilən nəhəng infrastruktur, nəqliyyat və boru kəmərləri layihələri ölkəmizin imkanlarını əhəmiyyətli dərəcədə genişləndirmişdir. Bakı-Tbilisi-Ceyhan neft, Bakı-Tbilisi-Ərzurum qaz kəmərlərinin istismara verilməsi, gələcəkdə Bakı-Tbilisi-Qars dəmir yolu layihəsinin həyata keçirilməsi əlbəttə, bizim nəqliyyat və ixrac imkanlarımızı artırır. Bu layihələrin həyata keçirilməsi nəticəsində Polşa-Azərbaycan münasibətləri də inkişaf edəcəkdir.

Biz bu gün eyni zamanda, Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli yollarını müzakirə etdik. Mən Polşa Prezidentini danışıqlar prosesində mövcud olan vəziyyətlə tanış etdim və Azərbaycanın ərazi bütövlüyünü dəstəklədiyinə görə Polşaya bir daha öz minnətdarlığımı bildirmişəm. Bütün münaqişələr, o cümlədən Ermənistan-Azərbaycan münaqişəsi beynəlxalq hüquq normaları əsasında öz həllini tapmalıdır. Bu məsələdə Azərbaycanın mövqeyi dəyişməzdir və bütün dünya ictimaiyyəti bizim mövqeyimizi dəstəkləyir.

Bir sözlə, bizim ikitərəfli münasibətlərimiz həm ölkələrimiz üçün çox böyük əhəmiyyət daşıyır, həm də regionda gedən proseslərə öz müsbət təsirini göstərir. Mən çox şadam ki, Polşa Prezidentinin Azərbaycana səfəri çox uğurlu keçir və əminəm ki, əlaqələrimiz bundan sonra da ancaq və ancaq yüksələn xətlə davam edəcəkdir.

Bu badəni Polşa Prezidentinin şərəfinə, xanım Kaçinskanın şərəfinə və Polşa-Azərbaycan dostluğunun şərəfinə qaldırıram!

POLŞA PREZİDENTİ LEX KAÇİNSKİNİN NİTQİ

- Çox hörmətli cənab Prezident!

Hörmətli xanım Əliyeva!

Hörmətli cənab Baş nazir!

Hörmətli parlament sədri!

Hörmətli xanımlar və cənablar!

Mən bu gün cənab Prezidentlə və buraya gəlmiş qonaqlarla görüşün keçirilməsi üçün yaradılmış imkana görə hamıya bir daha minnətdarlığımı bildirmək istəyirəm.

Polşa Azərbaycanla daha gözəl münasibətlərin qurulması üçün çox səylər göstərir. Polşa Azərbaycan və polyak xalqları arasında dostluğun daha da möhkəmləndirilməsində maraqlıdır.

Bu, sadəcə, hazırda Azərbaycanın enerji baxımından dünyada ən mühüm ölkələrdən biri olması ilə bağlı deyildir. Bizim söylərimiz və niyyətlərimiz məhz Polşa öz müstəqilliyini bərpa etdikdən sonra onun vacib hesab etdiyi fəlsəfədən irəli gəlir.

Mən cənab Prezident Əliyevlə ilk dəfə Varşava Üsyanı Muzeyində tanış olmuşam. Biz cənab Prezidentlə orada Varşava üsyanında iştirak etmiş və həlak olmuş Azərbaycan əsgərlərinin xatirə lövhəsinin açılışında iştirak etdik. Mən bunu ona görə xüsusilə vurğulayıram ki, bu, bizim çoxillik tarixi olan əlaqələrimizin bir rəmzidir. Bizim ümumi əlaqələrimiz təkcə İkinci Dünya müharibəsindən sonrakı dövrü əhatə etmir, təbii ki, bizim bundan əvvəlki vaxtlarda, yəni çar Rusiyası zamanı da geniş münasibətlərimiz olubdur.

Cənab Prezident burada çox düzgün qeyd etdi ki, polyaklar həmin dövrlərdə Azərbaycana gəlmiş, burada yaşamış və yaratmışlar. Mən burada xüsusilə xatırlatmaq istəyirəm ki, Polşanın müstəqilliyinə həsr olunmuş və ölkədə çox oxunan romanların biri Polşa istiqlaliyyətinin məhz Azərbaycanla bağlı səhifələri ilə başlayır. Həmin müstəqillik uğrunda aparılan mübarizənin əsas qəhrəmanlarından biri burada təhsil almışdır. Daha sonra inqilab baş vermiş və o, Polşaya qayıtmışdır. Həmin romanın yazılması özlüyündə bizim yaşadığımız ümumi taleyi bir daha sübuta yetirir. Belə deyə bilərik ki, həmin əlaqələrin fəlsəfəsi bizim hazırda həyata keçirdiyimiz siyasətin fəlsəfəsini təşkil edir.

Polşa NATO-ya və Avropa İttifaqına üzv olduqdan sonra tarixən istədiyi istiqamətə bir daha qayıtdı. Tarix artıq bizə belə bir dərs verib ki, ümumiyyətlə, tariximiz Polşanın şərq hissəsindəki sərhədlə bitmir, yəni Buq çayının sahili ilə bitmir. Həmin istiqamətdən cənuba doğru da tarixi hadisələr baş vermişdir və bu, bizim ümumi böyük tariximizdir. Həmin hadisələr zamanı biz də təcrübə qazanmışıq.

Bu gün qəhrəman Qafqaz ölkələri azadlıq yolunu seçmişdir. Lakin həmin xalqların hər biri müxtəlif şəraitlərdədir və onların getdiyi yol eyni deyildir. Bizim fikrimizcə, Azərbaycan ən optimal yolu seçmişdir. Siz məhz bu səbəbdən bizə daha yaxınsınız. Bu gün apardığım söhbət Polşa Prezidenti kimi mənim üçün ən maraqlı söhbət oldu. Hesab edirəm ki, bu fikir bizim hadisələrə verdiyimiz ümumi qiymətdən və ümumi biliklərimizdən irəli gəlir.

Biz bir çox məsələlər haqqında danışdıq və eyni zamanda, mürəkkəb olan Dağlıq Qarabağ məsələsini müzakirə etdik. Polşa qətiyyətlə bəyan etmək istəyir ki, kim haqlıdır, kim haqsız. Biz münaqişənin dinc yolla həllini görmək istəyirik. Lakin yaşadığımız bugünkü dünyada iki həqiqət nəzərə alınmalıdır. Birincisi, heç kim etdiyi təcavüzün nəticələrindən istifadə etməməlidir. İkincisi isə ondan ibarətdir ki, heç kim "parçala və hökm sür" prinsipindən istifadə etməməlidir.

Sonda mən bir daha öz təşəkkürümü bildirirəm və eyni zamanda, onu da demək istəyirəm ki, əfsuslar olsun, bu gün dünya ölkələrində polyak dili tədris edilən universitetlər çox deyildir. Amma Bakı Slavyan Universiteti bu dilin tədris edildiyi universitetlər sırasındadır və biz buna görə sizə minnətdarlığımızı bildiririk.

Cənab Prezident, mən bu badəni Sizin sağlığınıza, xanım Əliyevanın sağlığına, qonaqlarımızın sağlığına, Azərbaycan və Polşa xalqları arasında dostluğun şərəfinə qaldırıram!

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV BMT BAŞ KATİBİNİN MƏCBURİ KÖÇKÜNLƏRİN İNSAN HÜQUQLARI ÜZRƏ NÜMAYƏNDƏSİ VALTER KALİNİN RƏHBƏRLİK ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİNİ QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev aprelin 2-də Prezident sarayında BMT Baş katibinin məcburi köçkünlərin insan hüquqları üzrə nümayəndəsi Valter Kalinin rəhbərlik etdiyi nümayəndə heyətini qəbul etmişdir.

Dövlətimizin başçısı Ermənistanın Azərbaycana təcavüzü və xalqımıza qarşı həyata keçirdiyi etnik təmizləmə siyasəti nəticəsində bir milyondan artıq soydaşımızın doğma torpaqlarından didərgin düşdüklərini və uzun müddət ərzində ağır şəraitdə yaşadıqlarını qeyd etdi. Son illər ərzində qaçqınların və məcburi köçkünlərin yaşayış şəraitinin yaxşılaşdırılması işinə Azərbaycan hökumətinin yüz milyonlarla ABŞ dolları məbləğində vəsait xərclədiyini bildirən Prezident İlham Əliyev qaçqınlar və məcburi köçkünlər üçün bütün lazımi şəraiti olan şəhərciklərin salındığını, bu il sonuncu çadır düşərgəsinin ləğv olunacağını vurğuladı. Bununla yanaşı, dövlətimizin başçısı görülən bu tədbirlərin müvəqqəti xarakter daşıdığını bildirdi, qaçqınların və məcburi köçkünlərin tezliklə öz doğma torpaqlarına qayıdacaqlarına əminliyini ifadə etdi.

Valter Kalin ölkəmizə səfərindən məmnunluğunu ifadə etdi. BMT Baş katibinin məcburi köçkünlərin insan hüquqları üzrə nümayəndəsi kimi fəaliyyəti barədə Prezident İlham Əliyevə məlumat verən qonaq missiyasının yekunlarına dair BMT-nin İnsan Hüquqları Şurasına hesabat verəcəyini bildirdi. Valter Kalin Azərbaycan hökumətinin qaçqınların və məcburi köçkünlərin vəziyyətinin yaxşılaşdırılması istiqamətində gördüyü böyük işlərdən məmnun qaldığını vurğuladı.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV ABŞ KONQRESMENİ PİT HOEKSTRANIN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİNİ QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev aprelin 3-də Prezident sarayında ABŞ konqresmeni Pit Hoekstranın başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.

Prezident İlham Əliyev ölkələrimiz arasında ikitərəfli əlaqələrin bütün sahələrdə uğurla inkişaf etdiyini, parlamentlərarası əməkdaşlığın daha da genişləndirilməsinin zəruriliyini vurğuladı. Dövlətimizin başçısı bu səfərin Azərbaycan-ABŞ münasibətlərinin daha da inkişaf etdirilməsi baxımından əhəmiyyətli olacağına əminliyini bildirdi.

Pit Hoekstra bu səfərin ABŞ-Azərbaycan parlamentlərarası əlaqələrin daha da möhkəmləndirilməsinə xidmət etdiyini söylədi. O, ikitərəfli münasibətlərin durmadan inkişaf etdiyini, parlamentlərarası əlaqələrin inkişafının faydalı olduğunu vurğuladı.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV GÜRCÜSTANIN BAŞ NAZİRİ ZURAB NOĞAİDELİNİ QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev aprelin 4-də Prezident sarayında Gürcüstanın Baş naziri Zurab Noğaidelini qəbul etmişdir.

Görüşdə ölkələrimiz arasında ikitərəfli əlaqələrin müxtəlif sahələrdə uğurla inkişaf etdiyi bildirildi, iqtisadi əməkdaşlığın genişlənməsindən məmnunluq ifadə edildi.

Azərbaycan Prezidenti və Gürcüstanın Baş naziri iqtisadi əlaqələrimizin bundan sonra daha da genişlənəcəyinə əmin olduqlarını bildirdilər.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV QAZAXISTANIN BAŞ NAZİRİ KARİM MASİMOVU QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev aprelin 4-də Prezident sarayında Qazaxıstanın Baş naziri Karim Masimovu qəbul etmişdir.

Dövlətimizin başçısı ölkələrimiz arasında ikitərəfli münasibətlərin müxtəlif sahələrdə uğurla inkişaf etdiyini bildirdi. Prezident İlham Əliyev Karim Masimovu Qazaxıstan Respublikasının Baş naziri vəzifəsinə təyin olunması münasibətilə təbrik etdi, ona fəaliyyətində uğurlar arzuladı.

Baş nazir Qazaxıstan Prezidenti Nursultan Nazarbayevin salamlarını Azərbaycan dövlətinin başçısına çatdırdı. O, ölkələrimizin uğurlu əməkdaşlığını vurğulayaraq bildirdi ki, Azərbaycana səfəri zamanı müzakirə olunan məsələlər xalqlarımızın və dövlətlərimizin mənafeləri naminə əməkdaşlığımızın daha da möhkəmlənməsi işinə öz töhfəsini verəcəkdir.

Prezident İlham Əliyev Qazaxıstan Prezidenti Nursultan Nazarbayevin salamlarına görə minnətdarlığını bildirdi və onun da salamlarını Qazaxıstanın dövlət başçısına çatdırmağı xahiş etdi.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV TÜRKİYƏNİN RADİO TELEVİZİYA ALİ ŞURASININ SƏDRİ ZAHİD AKMANI QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev aprelin 6-da Prezident sarayında Türkiyənin Radio Televiziya Ali Şurasının sədri Zahid Akmanı qəbul etmişdir.

Dövlətimizin başçısı Azərbaycan-Türkiyə münasibətlərinin bütün sahələrdə sürətlə inkişaf etdiyini vurğuladı. Azərbaycanda Türkiyə, Türkiyədə isə Azərbaycan televiziyalarının yayımlanmasının əhəmiyyətini vurğulayan Prezident İlham Əliyev bu sahədə də gələcək işbirliyinin genişləndirilməsi haqqında müzakirələrin aparılmasını zəruri hesab etdi.

Qonaq bildirdi ki, Türkiyə-Azərbaycan dostluq və qardaşlıq münasibətlərinin davam etdirilməsi və gələcək nəsillərə çatdırılması üçün mədəniyyətlərin tanınmasına böyük ehtiyac var. O, bu baxımdan televiziyaların rolunu yüksək qiymətləndirdi və bu istiqamətdə əlaqələrin daha da inkişaf etdiriləcəyinə əminliyini ifadə etdi.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV TÜRKİYƏNİN ƏTRAF MÜHİTİN MÜHAFİZƏSİ VƏ MEŞƏ TƏSƏRRÜFATI NAZİRİ OSMAN PEPENİ QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev aprelin 6-da Prezident sarayında Türkiyənin Ətraf mühitin mühafizəsi və meşə təsərrüfatı naziri Osman Pepeni qəbul etmişdir.

Dövlətimizin başçısı Azərbaycanla Türkiyə arasında münasibətlərin yüksək səviyyədə olduğunu vurğuladı. Bu yaxınlarda Türkiyənin Baş naziri Rəcəb Tayyib Ərdoğanın ölkəmizə səfərinə toxunan Prezident İlham Əliyev dedi ki, vaxtaşırı olaraq Türkiyədən Azərbaycana müxtəlif qurumların nümayəndələri gəlir və bu səfərlər qarşılıqlı əməkdaşlıq üçün geniş imkanlar açır. Azərbaycan Prezidenti ölkəmizdə ekologiya sahəsində genişmiqyaslı proqramların həyata keçirildiyini bildirdi və bu sahədə Azərbaycanla Türkiyənin müvafiq qurumlarının əməkdaşlığının əhəmiyyətini vurğuladı.

Nazir Osman Pepe Azərbaycan-Türkiyə münasibətlərinin bütün sahələrdə inkişaf etdiyini bildirdi. O qeyd etdi ki, təməli ulu öndər Heydər Əliyev tərəfindən qoyulan dostluq, qardaşlıq və əməkdaşlıq münasibətləri Azərbaycan Prezidenti İlham Əliyev tərəfindən uğurla davam etməkdədir. Qonaq ətraf mühitin qorunması sahəsində ölkələrimiz arasında qarşılıqlı surətdə faydalı əməkdaşlığın həyata keçirildiyini bildirdi.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV RUSİYA FEDERASİYASININ REGİONAL İNKİŞAF NAZİRİ VLADİMİR YAKOVLEVİ QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev aprelin 6-da Prezident sarayında Rusiya Federasiyasının regional inkişaf naziri Vladimir Yakovlevi qəbul etmişdir.

Dövlətimizin başçısı Azərbaycan-Rusiya ikitərəfli münasibətlərinin müxtəlif sahələrdə uğurla inkişaf etdiyini bildirdi. Regional iqtisadi əlaqələrin genişləndiyini vurğulayan Prezident İlham Əliyev müxtəlif qurumlar arasında əlaqələrin və qarşılıqlı səfərlərin əhəmiyyətini qeyd etdi. Azərbaycan Prezidenti Rusiya Federasiyasının regional inkişaf nazirinin ölkəmizə bu səfərinin də əlaqələrin daha da genişlənməsi işinə töhfə verəcəyinə əminliyini ifadə etdi.

Rusiya Federasiyasının regional inkişaf naziri Vladimir Yakovlev xalqımızın ümummilli lideri Heydər Əliyevlə görüşlərini məmnunluqla xatırladı. O, əlaqələrimizin bütün sahələrdə yüksək səviyyədə olduğunu vurğulayaraq əməkdaşlığımızın bundan sonra daha da genişlənəcəyinə əmin olduğunu bildirdi.

BMT AZƏRBAYCAN HÖKUMƏTİNİN QAÇQIN VƏ MƏCBURİ KÖÇKÜNLƏRİN VƏZİYYƏTİNİN YAXŞILAŞDIRILMASINA DAİR SİYASƏTİNİ YÜKSƏK QİYMƏTLƏNDİRİR

Aprelin 6-da Xarici İşlər naziri Elmar Məmmədyarov ölkəmizdə səfərdə olan BMT baş katibinin məcburi köçkünlərin insan hüquqları üzrə nümayəndəsi Valter Kalin ilə görüşmüşdür.

E.Məmmədyarov ölkəmizdə qaçqın və məcburi köçkünlərin ağır şəraitinin həm iqtisadi, həm də humanitar fəsadları haqqında danışmış, Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli istiqamətində Praqa prosesi çərçivəsində sülh danışıqlarının davam etdirildiyini demişdir.

V.Kalin Azərbaycana səfərindən məqsədin qaçqınların və məcburi köçkünlərin vəziyyəti ilə yerində tanış olmaq və missiyasının sonunda BMT-nin İnsan Hüquqları Şurasına məruzə etmək olduğunu bildirmişdir.

BMT nümayəndəsi Azərbaycanda bu istiqamətdə görülən işlər barədə ümumi rəyinin müsbət olduğunu diqqətə çatdırmış, hökumətin qaçqın və məcburi köçkünlərin vəziyyətinin yaxşılaşdırılmasına dair siyasətini, xüsusilə onların şəraitinin yaxşılaşdırılmasına yönələn reabilitasiya tədbirlərini və çadır düşərgələrinin ləğvini yüksək qiymətləndirmişdir.

Görüşdə qarşılıqlı maraq doğuran digər məsələlər ətrafında müzakirələr aparılmışdır.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN AVROPA OLİMPİYA KOMİTƏSİNİN PREZİDENTİ PATRİK HİKEY İLƏ GÖRÜŞÜ

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev aprelin 9-da Masallı Olimpiya İdman Kompleksinin açılış mərasimindən sonra, burada Avropa Olimpiya Komitəsinin prezidenti Patrik Hikey ilə görüşmüşdür.

Görüşdə Azərbaycanda idmanın və bədən tərbiyəsinin inkişafına, maddi-texniki bazasının möhkəmləndirilməsinə dövlət səviyyəsində yüksək qayğı göstərildiyi xüsusi vurğulandı. Bildirildi ki, məhz bu cür kompleks tədbirlər sayəsində Azərbaycan idmançıları Olimpiya oyunlarında, dünya və Avropa çempionatlarında, müxtəlif beynəlxalq yarışlarda yüksək nəticələr göstərirlər.

Azərbaycanda mütəmadi olaraq ən mötəbər beynəlxalq yarışların keçirilməsi də təqdirəlayiq hal kimi dəyərləndirildi. Paytaxtda və bölgələrdə istifadəyə verilən olimpiya idman komplekslərinin gənc nəslin sağlam böyüməsində böyük əhəmiyyəti qeyd olundu.

Avropa Olimpiya Komitəsinin prezidenti Patrik Hikey Azərbaycanda idmana dövlət səviyyəsində bu cür qayğının ölkəmizin idmançılarının Pekin Olimpiadasında da yüksək nəticələr göstərmələri üçün geniş imkanlar açdığını bildirdi.

Görüşdə Azərbaycanın beynəlxalq idman təşkilatları, o cümlədən Avropa Olimpiya Komitəsi ilə əməkdaşlığının yüksək səviyyədə olduğu bir daha vurğulandı.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV TÜRKİYƏNİN "MƏRMƏRƏ QRUPU"NUN RƏHBƏRİ AKKAN SUVERİ QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev aprelin 10-da Prezident sarayında Türkiyənin "Mərmərə Qrupu"nun rəhbəri Akkan Suveri qəbul etmişdir.

Görüşdə Azərbaycan-Türkiyə dostluq və qardaşlıq münasibətlərinin bütün sahələrdə uğurla inkişaf etdiyi vurğulanmış. Azərbaycan və Türkiyənin müxtəlif qurumları arasında əlaqələrin və qarşılıqlı səfərlərin bu münasibətlərin möhkəmlənməsinə öz töhfəsini

verdiyi qeyd edilmiş, ölkəmizlə "Mərmərə Qrupu" arasında əməkdaşlığın gələcəkdə də uğurla inkişaf edəcəyinə əminlik ifadə olunmuşdur.

AZƏRBAYCAN RESPUBLİKASINA QAYIDIŞ ŞƏHADƏTNAMƏSİNİN VERİLMƏSİ QAYDASI HAQQINDA ƏSASNAMƏNİN TƏSDİQ EDİLMƏSİ AZƏRBAYCAN RESPUBLİKASININ QANUNU

Azərbaycan Respublikasının Milli Məclisi qərara alır:

I. Azərbaycan Respublikasına qayıdış şəhadətnaməsinin verilməsi qaydası haqqında Əsasnamə təsdiq edilsin (əlavə olunur).

II. Bu Qanun dərc edildiyi gündən qüvvəyə minir.

İlham Əliyev

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 10 aprel 2007-ci il

AZƏRBAYCAN RESPUBLİKASINA QAYIDIŞ ŞƏHADƏTNAMƏSİNİN VERİLMƏSİ QAYDASI HAQQINDA ƏSASNAMƏ

1. Xarici ölkədə pasportunu itirmiş, pasportu oğurlanmış və ya yararsız hala düşmüş, pasportunun etibarlıq müddəti bitmiş Azərbaycan Respublikası vətəndaşının və onunla birgə Azərbaycan Respublikasına qayıdan 18 yaşına çatmayan və ya xarici dövlətdə 18 yaşına çatmış Azərbaycan Respublikası vətəndaşının, habelə Azərbaycan Respublikasında qanuni əsaslarla daimi yaşayan vətəndaşlığı olmayan şəxsin və onunla birgə Azərbaycan Respublikasına qayıdan 18 yaşına çatmayan və ya xarici dövlətdə 18 yaşına çatmış Azərbaycan Respublikasında daimi yaşayan uşağının Azərbaycan Respublikasına qayıtmaq hüququ Azərbaycan Respublikasına qayıdış şəhadətnaməsi əsasında həyata keçirilir.

Bu Əsasnamə Azərbaycan Respublikasına qayıdış şəhadətnaməsinin (bundan sonra – "Şəhadətnamə" adlandırılacaq) verilməsi qaydasını müəyyən edir.

2. Bu Əsasnamədə "pasport" dedikdə, Azərbaycan Respublikasının ümumvətəndaş, xidməti, diplomatik pasportu, dənizçi pasportu, habelə Azərbaycan Respublikasının hüdudlarından kənara getməsi üçün Azərbaycan Respublikasında daimi yaşayan vətəndaşlığı olmayan şəxsin şəxsiyyət vəsiqəsi nəzərdə tutulur.

3. Şəhadətnamə – Azərbaycan Respublikası vətəndaşının və Azərbaycan Respublikasında qanuni əsaslarla daimi yaşayan vətəndaşlığı olmayan şəxsin şəxsiyyətini təsdiq edən rəsmi sənəddir.

4. Şəhadətnamə Azərbaycan Respublikasının diplomatik nümayəndəliyi və ya konsulluğu tərəfindən verilir. Şəhadətnamə ciddi hesabat sənədi kimi tətbiq edilir. Şəhadətnamə blanklarının ciddi hesabat sənədi kimi uçotu qaydaları müvafiq icra hakimiyyəti orqanı tərəfindən müəyyən edilir. İki cür olan Şəhadətnamə blankları bu Əsasnaməyə əlavə olunmuş nümunələr (Əlavələr №1, №2) və müvafiq icra hakimiyyəti orqanı tərəfindən təsdiq edilən spesifikasiya əsasında hazırlanır.

5. Azərbaycan Respublikasının diplomatik nümayəndəliyi və ya konsulluğu olmayan xarici ölkədə pasportunu itirmiş, pasportu oğurlanmış və ya yararsız hala düşmüş, pasportunun etibarlıq müddəti bitmiş Azərbaycan Respublikası vətəndaşının və ya Azərbaycan Respublikasında daimi yaşayan vətəndaşlığı olmayan şəxsin Şəhadətnamə ilə təmin edilməsi Azərbaycan Respublikasının müvafiq icra hakimiyyəti orqanı tərəfindən bu ölkədə Azərbaycan Respublikasının mənafeyini ikitərəfli və ya çoxtərəfli beynəlxalq müqavilələrlə müəyyən edilmiş qaydada təmsil edən digər dövlətin diplomatik nümayəndəliyi və ya konsulluğu vasitəsilə həyata keçirilir.

6. Şəhadətnamənin alınması üçün bu Əsasnaməyə əlavə olunmuş forma üzrə doldurulmuş ərizə-anket (Əlavələr №3, №4) Azərbaycan Respublikasının diplomatik nümayəndəliyinə və ya konsulluğuna təqdim edilir.

7. Şəhadətnamənin verilməsi haqqında ərizə-anketə aşağıdakı sənədlər və ya onların surətləri əlavə edilməlidir:

7.1. pasport yararsız hala düşdükdə və ya onun etibarlıq müddəti bitdikdə – pasportun özü;

7.2. 2 ədəd rəngli fotoşəkil (3x4 sm ölçüdə);

7.3. üzərində fotoşəkil olan aşağıdakı sənədlərdən biri – Azərbaycan Respublikası vətəndaşının şəxsiyyət vəsiqəsi, Azərbaycan Respublikası tərəfindən verilmiş hərbi bileti, Azərbaycan Respublikası tərəfindən verilmiş sürücülük vəsiqəsi və ya şəxsiyyətini və ya vətəndaşlığını müəyyənləşdirən digər rəsmi sənədi;

7.4. Azərbaycan Respublikasının vətəndaşı ilə birgə gedən 18 yaşına çatmayan və ya xarici dövlətdə 18 yaşına çatmış Azərbaycan Respublikası vətəndaşının doğum haqqında şəhadətnaməsi və ya şəxsiyyət vəsiqəsi;

7.5. Azərbaycan Respublikasında daimi yaşayan vətəndaşlığı olmayan şəxsə Azərbaycan Respublikası tərəfindən verilmiş şəxsiyyətini təsdiq edən digər rəsmi sənəd;

7.6. Azərbaycan Respublikasında daimi yaşayan vətəndaşlığı olmayan şəxslə birgə gedən 18 yaşına çatmayan və ya xarici dövlətdə 18 yaşına çatmış uşağının doğum haqqında şəhadətnaməsi və ya Azərbaycan Respublikası tərəfindən verilmiş şəxsiyyətini təsdiq edən rəsmi sənəd;

7.7. dövlət rüsumunun ödənilməsi haqqında sənəd.

8. Şəhadətnamənin verilməsi haqqında ərizə-anket Azərbaycan Respublikasının diplomatik nümayəndəliyində və ya konsulluğunda qeydiyyata alınır.

9. Azərbaycan Respublikasının vətəndaşı və ya Azərbaycan Respublikasında daimi yaşayan vətəndaşlığı olmayan şəxs tərəfindən bu Əsasnamənin 7-ci bəndində göstərilən sənədlər təqdim edildikdən sonra, Şəhadətnamə ərizə-anket qeydiyyata alındığı vaxtdan on gecə 3 təqvim günü müddətində verilir.

10. Azərbaycan Respublikası vətəndaşının və ya Azərbaycan Respublikasında daimi yaşayan vətəndaşlığı olmayan şəxsin şəxsiyyətini təsdiq edən müvafiq sənədlər mövcud olmadıqda, Azərbaycan Respublikasının diplomatik nümayəndəliyi və ya konsulluğu

onun özü barəsində təqdim etdiyi məlumatların düzgünlüyünün yoxlanılması məqsədi ilə Azərbaycan Respublikasının müvafiq icra hakimiyyəti orqanı vasitəsilə, müstəsna hallarda isə birbaşa Azərbaycan Respublikasının müvafiq icra hakimiyyəti orqanına sorğu göndərir.

11. Azərbaycan Respublikasının müvafiq icra hakimiyyəti orqanı qısa müddət ərzində (3 iş günündən çox olmamaq şərti ilə) sorğunun icrası ilə bağlı müvafiq yoxlamalar aparır və əldə olunmuş nəticələr barədə məlumatları Azərbaycan Respublikasının diplomatik nümayəndəliyinə və ya konsulluğuna bildirir.

12. Azərbaycan Respublikası vətəndaşının və ya Azərbaycan Respublikasında daimi yaşayan vətəndaşlığı olmayan şəxsin özləri barəsində təqdim etdikləri məlumatların düzgünlüyü təsdiq edildikdə, onlara bu Əsasnamənin 9-cu bəndində göstərilən müddətdə Şəhadətnamə verilir.

13. Azərbaycan Respublikasında daimi yaşayan vətəndaşlığı olmayan şəxsə Şəhadətnamə Azərbaycan Respublikasının müvafiq icra hakimiyyəti orqanının razılığı ilə verilir.

14. Verilmiş Şəhadətnamələr barədə məlumatlar Azərbaycan Respublikasının diplomatik nümayəndəliyi və ya konsulluğu tərəfindən qaytanlanmış, nömrələnmiş və möhürlə təsdiqlənmiş xüsusi kitabda qeyd edilir.

15. Azərbaycan Respublikasının vətəndaşı və ya Azərbaycan Respublikasında daimi yaşayan vətəndaşlığı olmayan şəxs Şəhadətnaməni Azərbaycan Respublikasının ərazisinə qayıtdığı vaxtdan 20 gün müddətində ona pasport verən dövlət orqanına təhvil verməlidir.

16. Azərbaycan Respublikasının vətəndaşı və ya Azərbaycan Respublikasında daimi yaşayan vətəndaşlığı olmayan şəxs özü, habelə onunla birgə Azərbaycan Respublikasına qayıdan 18 yaşına çatmayan və ya xarici dövlətdə 18 yaşına çatmış şəxs barəsində bilərəkdən yanlış məlumat verərsə, ona Şəhadətnamə verilməsindən imtina olunur və bu barədə yazılı cavab verilir. İmtina haqqında qərardan qanunvericilikllə müəyyən edilmiş qaydada şikayət verilə bilər.

17. Şəhadətnamənin itirilməsində və ya qəsdən korlanmasında, habelə bu Əsasnamənin tələblərinə zidd olaraq Şəhadətnamənin verilməsindən əsassız imtina edilməsində, Şəhadətnamənin verilməsi üçün nəzərdə tutulmayan əlavə sənədlər tələb edilməsində və ya onun verilməsində süründürməçiliyə yol verilməsində təqsirkar şəxslər Azərbaycan Respublikasının qanunvericiliyi ilə nəzərdə tutulmuş qaydada məsuliyyət daşıyırlar.

PREZİDENT İLHAM ƏLİYEVİN İORDANİYAYA QARŞIDAKI SƏFƏRİDƏN SONRA AZƏRBAYCAN-İORDANİYA ƏLAQƏLƏRİ DAHA YÜKSƏK SƏVİYYƏYƏ QALXACAQDIR

İordaniya Haşimilər Krallığında rəsmi səfərdə olan Xarici İşlər nazir Elmar Məmmədyarov aprelin 9-da iordaniyalı həmkarı Abdulilah əl-Xatib ilə görüşmüşdür.

E.Məmmədyarov Azərbaycan Prezidenti İlham Əliyevin İordaniya kralına və xalqına səmimi salamlarını çatdırmışdır. Abdulilah əl-Xatib Azərbaycan Prezidenti İlham Əliyevin İordaniyaya rəsmi səfərini məmnuniyyətlə gözlədiklərini bildirmişdir.

Ölkələrimiz arasında inkişaf etməkdə olan ikitərəfli münasibətlərə toxunan nazir E.Məmmədyarov, dövlətimizin başçısı İlham Əliyevin İordaniyaya nəzərdə tutulan səfərindən sonra bu əlaqələrin daha yüksək səviyyəyə qalxacağına əminlik ifadə etmişdir. Nazir 2006-cı ilin avqustunda kral II Abdullanın, noyabrda isə baş nazir Məruf əl-Bəxitin Azərbaycana səfərlərinin ikitərəfli münasibətlərimizin inkişafında yeni mərhələnin təməlini qoyduğunu demişdir.

Görüşdə ölkələrimiz arasında siyasi əlaqələrin yüksək səviyyədə olduğu qeyd edilmiş, habelə iqtisadi və humanitar sahələrdə münasibətlərin daha da genişləndirilməsi, bu əməkdaşlığın hüquq-müqavilə bazasının gücləndirilməsi yolları ətrafında fikir mübadiləsi aparılmışdır.

Nazir E.Məmmədyarov Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinə toxunaraq, İordaniyanın bu məsələdə ölkəmizə göstərdiyi daimi dəstəyə görə minnətdarlığını bildirmişdir.

Abdulilah əl-Xatib Dağlıq Qarabağ münaqişəsinin sülh yolu ilə həllinə tərəfdar olduğunu bildirərək, ölkəsinin bundan sonra da Azərbaycanın mövqeyini bütün müstəvilərdə dəstəkləyəcəyini bəyan etmişdir.

Gələn ay İordaniyanın Azərbaycanda səfirliyinin fəaliyyətə başlayacağının qeyd edildiyi görüşdə səfirliklərin qarşılıqlı əsasda təsis edilməsinin ikitərəfli münasibətlərin inkişafına əvəzsiz təkan verdiyi vurğulanmışdır.

E. Məmmədyarov respublikamızda həyata keçirilən islahatlar, neft və energetika sahəsində əldə olunmuş nailiyyətlər, habelə qeyri-neft sektoru, xüsusilə də turizm və kənd təsərrüfatı sahələrinin inkişafı istiqamətində görülən işlər barədə ətraflı məlumat vermişdir.

Sonda "Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi və İordaniya Haşimilər Krallığının Xarici İşlər Nazirliyi arasında Anlaşma Memorandumu" imzalanmışdır.

* * *

Elə həmin gün Elmar Məmmədyarov İordaniyanın baş naziri Məruf əl- Bəxit ilə görüşmüşdür. Azərbaycan Prezidentinin salamlarını çatdıran E.Məmmədyarov, ikitərəfli əlaqələrimizdən, iqtisadi-ticarət, turizm və səhiyyə sahələrində əməkdaşlığın inkişaf etdirilməsinin vacibliyini vurğulamış, xalqlarımızın dini, mədəni və tarixi bağlılıqlarını xatırlatmışdır.

Regionda sülhün və əmin-amanlığın vacibliyini qeyd edən nazir, Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin sülh yolu ilə həlli istiqamətində görülən işlərə dair ətraflı məlumat vermişdir.

Baş nazir qarşılıqlı səfərlərin ikitərəfli münasibətlərə töhfə verdiyini bildirərək, İordaniyanın Azərbaycanın ədalətli mövqeyini daim dəstəkləyəcəyini, azərbaycanlı qaçqın və məcburi köçkünlərə göstərilən humanitar yardımın bundan sonra da davam etdiriləcəyini diqqətə çatdırmışdır.

* * *

E.Məmmədyarovun İordaniya Senatının sədri Zeyd əl-Rifai ilə görüşündə ölkələrimizin qanunverici orqanları arasında əlaqələrə, parlamentlərarası dostluq qrupunun fəaliy-

yətinə dair geniş fikir mübadiləsi aparılmış, parlament sədrlərinin qarşılıqlı səfərlərinin həyata keçirilməsinin vacibliyi vurğulanmışdır.

Əmman şəhərinin meri Amr əl-Maani ilə görüşdə isə Bakı və Əmman şəhərlərinin qardaşlaşması, paytaxtımızda həyata keçirilən geniş infrastruktur layihələrində İordaniya şirkətlərinin iştirakı, paytaxt merlərinin qarşılıqlı səfərlərinin həyata keçirilməsi ətrafında fikir mübadiləsi aparılmışdır.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV HİNDİSTANIN TİCARƏT ÜZRƏ DÖVLƏT NAZİRİ CAİRAM RAMEŞİN RƏHBƏRLİK ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİNİ QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev aprelin 11-də Prezident sarayında Hindistanın ticarət üzrə dövlət naziri Cairam Rameşin rəhbərlik etdiyi nümayəndə heyətini qəbul etmişdir.

Dövlətimizin başçısı Azərbaycan ilə Hindistan arasında müxtəlif sahələrdə əməkdaşlığın genişləndirilməsi üçün yaxşı imkanların olduğunu qeyd etdi. İqtisadi əlaqələrin ölkələrimizin potensialına uyğun gəlmədiyini deyən Prezident İlham Əliyev dövlət nazirinin səfərinin bu əlaqələrin gələcək inkişafına öz töhfəsini verəcəyinə ümid etdiyini bildirdi.

Cairam Rameş ölkəmizə səfərindən böyük məmnunluq duyduğunu söylədi. Bakıda keçirəcəyi görüşlər və müzakirə edəcəyi məsələlər barədə dövlətimizin başçısına məlumat verən qonaq səfərinin iki ölkə arasında iqtisadi sahədə əlaqələrin genişləndirilməsi işinə kömək edəcəyinə əminliyini ifadə etdi.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV CƏNUBİ QAFQAZ ÖLKƏLƏRİNİN RUSİYALI HƏMVƏTƏNLƏR TƏŞKİLATLARININ BAKIDA KEÇİRİLƏN REGİONAL KONFRANSININ İŞTİRAKÇILARINI QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev aprelin 12-də Prezident sarayında Cənubi Qafqaz ölkələrinin rusiyalı həmvətənlər təşkilatlarının Bakıda keçirilən regional konfransının iştirakçılarını qəbul etmişdir.

Dövlətimizin başçısı İLHAM ƏLİYEV qonaqlara müraciətlə dedi:

-Sizin hamınızı Azərbaycanda salamlamağıma şadam və ümidvaram ki, ölkəmizə səfəriniz yaddaqalan olacaqdır. Mən bu konfransın məhz ölkəmizdə keçirilməsini çox mühüm hadisə hesab edirəm. Biz bu hadisəyə hazırlaşırdıq və ümid edirik ki, konfrans, fikir mübadiləsi Cənubi Qafqaz ölkələrinin rus icmalarının nümayəndələri arasında daha böyük qarşılıqlı anlaşmaya gətirib çıxaracaqdır.

Bilirəm ki, əlaqələr var və icmaların nümayəndələri müxtəlif beynəlxalq tədbirlərdə, o cümlədən də Moskvada həmvətənlərin hər il keçirilən tədbirində görüşürlər. Lakin Bakıda görüşün öz formatı var.

Azərbaycanda biz millətlərarası münasibətlərə çox böyük diqqət yetiririk. Azərbaycan çoxmillətli ölkədir. Bir çox onilliklər və əsrlər ərzində müxtəlif millətlərin və dinlərin nümayəndələri Azərbaycanda mehriban ailə kimi yaşamış və yaşayırlar. Bu, bizim ölkəmizin sərvətidir. Çox vacibdir ki, ölkəmizdə müstəqillik əldə olunduqdan sonrakı dövr də millətlərarası həmrəylik və sülhlə səciyyələnir, belə halı biz digər ölkələrdə heç də həmişə müşahidə etmirik. Tolerantlığın yüksək səviyyəsi, digər millətin nümayəndələrinə hörmətcil münasibət müstəqil Azərbaycan üçün səciyyəvi haldır. Ona görə də belə formatda görüş bizim üçün həm də təcrübə mübadiləsi baxımından vacibdir. Təbii ki, siz konfrans, ünsiyyət zamanı təəssüratınızı bölüşəcək, mövcud problemlər barədə fikir mübadiləsi aparacaqsınız. Ümidvaram ki, ölkəmizdə keçirəcəyiniz bu günlər sizə Azərbaycanla daha yaxından tanış olmağa kömək edəcəkdir.

Azərbaycana qarşı təcavüz problemi, ölkəmizin ərazisinin bir hissəsinin işğal edilməsi Cənubi Qafqazda ümumi vəziyyətə mənfi təsir göstərir. Düşünürəm ki, bir müddətdən sonra bu problem də həllini tapacaqdır.

Bir daha demək istəyirəm ki, millətlərarası həmrəylik və sülh Azərbaycanın uğurlu inkişafının əsasıdır. İndi, iqtisadi baxımdan, sosial problemlərin həlli baxımından çox böyük uğurlara nail olduğumuz bir vaxtda məhz açıq, demokratik ölkə kimi, bütün xalqların özlərini yaxşı hiss etdikləri ölkə kimi inkişaf etmək çox vacibdir. Prezident kimi mən də bu istiqamətə çox böyük əhəmiyyət verirəm. Gələcək uğurlarımızın rəhni məhz bundadır. Milli azlıqların nümayəndələrinə hörmətcil münasibət həm də xalqın mədəniyyətinin təzahürü deməkdir.

Onu da demək istərdim ki, Rusiya ilə Azərbaycan arasında ikitərəfli münasibətlər də həmin istiqamətdə Azərbaycanda gedən müsbət proseslərin mühüm amilidir. Bu, təbii olaraq, həm Azərbaycanda yaşayan rusların ovqatına, həm də Rusiyada yaşayan azərbaycanlıların ovqatına təsir göstərən mühüm amildir. Son illər ikitərəfli münasibətlərimizin uğurlu inkişafı, təbii ki, ümumən Cənubi Qafqazda vəziyyətin sabitləşməsi amilidir və təbii olaraq, millətlərarası əlaqələr baxımından çox mühüm rol oynayır. Çünki münasibətlər gərgin və ya gərilmiş olsaydı, istəsək də, istəməsək də, bunu Rusiyada yaşayan azərbaycanlılar da, Azərbaycanda yaşayan ruslar da öz üzərlərində hiss edəcəkdilər. Ölkələrimiz arasında dostluq, mehriban qonşuluq münasibətlərinin – Rusiya Prezidentinin də, mənim də strateji tərəfdaşlıq kimi səciyyələndirdiyimiz münasibətlərin dinamik inkişafı isə cəmiyyətdə ümumi əhval-ruhiyyəyə, – o cümlədən millətlərarası münasibətlər baxımından, – çox müsbət təsir göstərir.

Ona görə də bu istiqamətin vacibliyini xüsusi vurğulamaq və sizə bir daha demək istərdim ki, Azərbaycanda mövcud olan millətlərarası həmrəylik və sülh bizim uğurlu inkişafımızın əsasıdır. Düşünürəm ki, burada keçirəcəyiniz günlərdə siz bunu özünüz yəqin edəcəksiniz. Azərbaycanlıların rus xalqına, rus dilinə, ədəbiyyatına, rus dilində təhsilə necə münasibət bəslədiklərini də yəqin edəcəksiniz.

Sizi bir daha salamlayaraq demək istərdim ki, öz müşahidələriniz hər cür sözlərdən daha yaxşı olacaqdır. Sizin kifayət qədər geniş proqramımız var. Ümidvaram ki, bu günlərdən sizdə yaxşı təəssürat qalacaqdır.

Azərbaycanın rus icmasının sədri MİXAİL ZABELİN forumun keçirilməsinə dəstəyə görə Azərbaycan Prezidentinə konfransın iştirakçıları adından təşəkkür edərək dedi:

-Söz yox ki, konfrans iştirakçılarının burada keçirəcəkləri günlərdən biz tam səmərəli istifadə etməyə, Bakını, Azərbaycanın nə ilə zəngin olduğunu, Azərbaycan xalqının yüksək tolerantlığını, respublika rəhbərliyinin bizim bütün qayğılarımıza və problemlərimizə diqqətlə yanaşdığını onlara göstərməyə çalışacağıq. Çox sağ olun.

Xaricdəki Rusiyalı Həmvətənlərin Əlaqələndirmə Şurasının üzvü, Gürcüstandakı "Vətən" rusiyalı həmvətənlər ittifaqının prezidenti VALERİ SVARÇUK Azərbaycanda milli azlıqların nümayəndələrinə göstərilən qayğı və diqqəti digər ölkələr üçün nümunə kimi qiymətləndirdi. O dedi:

-Mən həmkarımın minnətdarlıq sözlərinə qoşulmaq və burada, Azərbaycanda çox gözəl qarşılandığımıza görə, bizə göstərilən və hiss etdiyimiz səmimiliyə və mehribanlığa görə təşəkkürümü bildirmək istərdim. Bizim bir çoxumuz Azərbaycanda tez-tez oluruq, nümayəndə heyətimizin üzvləri artıq ikinci gündür buradadırlar. Biz Bakıda baş vermiş müsbət dəyişikliklərə heyranıq. Nə qədər yeni tikililər, nə qədər yaxşı işlər var! Azərbaycan rəhbərliyinin rus icmasına, rus dili və mədəniyyətinə münasibətdə apardığı müdrik siyasəti xüsusi vurğulamaq istərdim. Yaxşı olardı ki, bunu bütün ölkələrdə nəzərə alsınlar.

Rusiya XİN-in departament direktoru ALEKSANDR ÇEPURİN Azərbaycan paytaxtı haqqında təəssüratını bölüşdü və belə tədbirlərin xaricdə yaşayan rusiyalı həmvətənlər üçün müstəsna rolunu vurğuladı. O dedi:

- Mən uzun müddət Qərbi Avropada işləmişəm və bu gün Bakının dənizkənarı parkından keçərkən o, mənə Neapolu çox xatırlatdı. Azərbaycanda əvvəllər də olmuşam və təsdiq etmək istəyirəm ki, Bakıya ilyarım əvvəl olan axırıncı gəlişimdən sonra şəhərin simasında böyük dəyişikliklər baş vermişdir. Dünən mən Rusiyanın xarici işlər naziri ilə ətraflı danışdım və o, konfransın iştirakçılarına təbrik məktubu göndərdi. Bakıda toplaşmaq imkanı yaradılmasına görə çox sağ olun. Biz görürük ki, tolerantlıq və millətlərarası həmrəylik barədə deyilən sözlər, həqiqətən, ölkə üçün də, burada yaşayan insanlar, o cümlədən ruslar üçün də çox vacibdir. Ona görə mən də həmkarlarıma qoşulmaq və ruslara, rus dilinə belə xoş münasibətə görə çox sağ olun demək istəyirəm. Belə münasibət xeyli dərəcədə dövlətlər arasındakı münasibətlərlə də bağlıdır.

Azərbaycan Prezidenti İLHAM ƏLİYEV görüşə yekun vuraraq dedi:

- Ölkəmiz haqqında, şəhərimiz haqqında deyilən səmimi sözlərə görə sizə çox təşəkkür edirəm. Doğrudan da, ölkəmizdə çox sürətli inkişaf gedir. Hazırda biz şəhərin bütün tarixi binalarını bərpa edirik. Onlar təmizlənir, işıqlandırılır. Çoxlu yeni binalar tikilmişdir. İqtisadi baxımdan son üç ildə dünyada ən yaxşı göstəricilər Azərbaycandadır. Birinci rübdə iqtisadi artım 40 faiz olmuşdur. Bu, keçən il 35 faizə, 2005-ci ildə 26 faizə bərabər idi. Bu, çox ciddi artımdır və əlbəttə ki, təkcə Bakının deyil, bütün ölkənin simasında da özünü göstərir. Siz dəyişiklikləri Azərbaycanın rayonlarında da görərsiniz və insanlar gündəlik həyatlarında da bunu hiss edirlər. Başlıca islahat insanların həyatını daha yaxşı etmək, onların rifahını yüksəltməkdir. Biz bu istiqamətdə olduqca çox tədbirlər görürük. O cümlədən də əmək haqqının qaldırılması sahəsində. Bu yaxınlarda biz büdcə təşkilatlarında əmək haqqını, pensiyaları 25 faiz artırdıq. Bizdə minimum əmək haqqı artıq, demək olar, 60 dollar, orta əmək haqqı təxminən 200 dollardır. İlin yekunla-

rına görə, təxminən 250 dollar təşkil edəcəkdir. Orta pensiya 70 dollar olacaqdır. Yəni bunlar hamısı insanlara lazım olan məsələlərdir.

Hazırda biz məktəb tikintisinə çox böyük diqqət yetiririk. Son üç ildə təxminən 800 yeni məktəb tikilmişdir, o cümlədən də İvanovkada məktəbin inşası başa çatmaqdadır. Bütün dövlət universitetlərində rus dilində bölmələr var.

Prezident İlham Əliyev Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinə bir daha toxunaraq dedi:

-Ermənistanla münaqişə həll edilmədiyinə və davam etdiyinə görə, – münaqişənin aradan qaldırılması ilə məşğul olanların, yəni prezidentlərin, xarici işlər nazirlərinin əlaqələrindən başqa, – əlbəttə, bizim əlaqələrimiz məhdudlaşmışdır. Bu da təbiidir. Lakin bu, belə bir konfransın keçirilməsinə maneə olmadı. Bizim üçün konfransın keçirilməsi faktının özü vacibdir. O, haqlı olaraq Bakıda keçirilir, çünki Cənubi Qafqazda ən böyük rus icması bizim ölkəmizdədir.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV BÖYÜK BRİTANİYANIN İNGİLTƏRƏ-AZƏRBAYCAN CƏMİYYƏTİNİN SƏDRİ LORD FREYZERİN RƏHBƏRLİK ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİNİ QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev aprelin 12-də Prezident sarayında Böyük Britaniyanın İngiltərə-Azərbaycan Cəmiyyətinin sədri lord Freyzerin rəhbərlik etdiyi nümayəndə heyətini qəbul etmişdir.

Lord Freyzer bu il İngiltərə-Azərbaycan Cəmiyyətinin yaradılmasının 10 ilinin tamam olduğunu və bununla bağlı Bakıda xüsusi tədbir keçirilməsinin planlaşdırıldığını söylədi.

Görüşdə Azərbaycan-Böyük Britaniya münasibətlərinin müxtəlif sahələrdə uğurla inkişaf etdiyi vurğulandı, iki ölkənin müxtəlif strukturları arasındakı əməkdaşlığın ikitərəfli əlaqələrin genişləndirilməsi üçün əhəmiyyəti qeyd edildi və İngiltərə-Azərbaycan Cəmiyyətinin Azərbaycan-Böyük Britaniya münasibətlərinin inkişafına töhfə verdiyi bildirildi.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV RUSİYA FEDERASİYASI KURQAN VİLAYƏTİNİN QUBERNATORU OLEQ BOQOMOLOVU QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev aprelin 12-də Prezident sarayında Rusiya Federasiyası Kurqan vilayətinin qubernatoru Oleq Boqomolovu qəbul etmişdir.

Qubernator Oleq Boqomolov ölkəmizə ötən səfərlərini və xalqımızın ümummilli lideri Heydər Əliyevlə görüşlərini məmnunluqla xatırladı. O, ümummilli lider Heydər Əliyevin rəhbərliyi ilə 1985-ci ildə Kurqan vilayətində keçirilən tədbiri yada salaraq, bunun vilayətin iqtisadi həyatında əhəmiyyətli rol oynadığını vurğuladı. Oleq Boqomolov Kurqandakı Azərbaycan diasporunun vilayətin sosial ictimai həyatında fəal iştirak etdiyini qeyd etdi.

Dövlətimizin başçısı ölkəmizin Rusiyanın ayrı-ayrı regionları, o cümlədən Kurqan vilayəti ilə əlaqələrinin Azərbaycan-Rusiya münasibətlərinin daha da inkişaf etdirilməsi işinə töhfə verəcəyini bildirdi və vilayətlə əməkdaşlığın gələcəkdə də fəal surətdə həyata keçiriləcəyinə ümidvar olduğunu söylədi.

SURİYA BAKI-TBİLİSİ-QARS LAYİHƏSİNƏ MARAQ GÖSTƏRİR

Aprelin 11-də xarici işlər naziri Elmar Məmmədyarov suriyalı həmkarı Vəlid əl-Muallim ilə görüşmüşdür.

İkitərəfli münasibətlərə, beynəlxalq və regional məsələlərə dair fikir mübadiləsinin aparıldığı görüşdə BMT və İslam Konfransı Təşkilatı çərçivəsində əməkdaşlığa xüsusi diqqət yetirilmişdir.

Bu il Azərbaycanın Suriyada səfirliyinin açılacağını qeyd edən E.Məmmədyarov, Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi haqqında ətraflı məlumat vermişdir. Vəlid əl-Muallim münaqişənin sülh yolu ilə beynəlxalq hüququn norma və prinsipləri çərçivəsində, beynəlxalq təşkilatların qəbul etdiyi qətnamə və qərarlar əsasında həllinin vacibliyini qeyd etmişdir.

Suriya xarici siyasət idarəsinin başçısı Yaxın Şərqdəki vəziyyət və ərəb-İsrail münaqişəsi haqqında məlumat vermiş, Ərəb Dövlətləri Liqasının sammitində qəbul olunmuş həll planı barədə danışmışdır.

E.Məmmədyarov və Vəlid əl-Muallim Azərbaycanda və Suriyada qarşılıqlı mədəniyyət günlərinin keçirilməsi və tələbə mübadiləsi məsələlərini müzakirə etmişlər. Vəlid əl-Muallim xalqlarımızın mədəniyyətlərinin yaxınlığını qeyd etmiş, vaxtilə çox sayda suriyalının Azərbaycanda ali təhsil aldığını bildirmiş və bu ənənənin davam etdirilməsinin vacibliyini vurğulamışdır.

Həmin gün nazir E.Məmmədyarovun Suriya Ticarət Palatasında keçirdiyi görüşdə ölkələrimizin ticarət əlaqələrinin inkişafı, ikitərəfli iqtisadiyyat komissiyası və birgə işgüzar şuranın yaradılması müzakirə edilmişdir.

***

Aprelin 12-də nazir E.Məmmədyarov Suriyanın vitse-prezidenti Faruk əl-Şaraa ilə görüşmüş, ölkələrimiz arasında siyasi, iqtisadi və mədəniyyət sahəsində münasibətlərin inkişafı perspektivlərini müzakirə etmişdir.

Həmin gün E.Məmmədyarov Suriyanın Prezidenti Bəşər Əsəd ilə görüşmüşdür. Nazir Azərbaycan Prezidenti İlham Əliyevin salamlarını çatdırmış, məktubunu təqdim etmişdir.

Prezident Bəşər Əsəd ölkələrimizdə səfirliklərin açılmasının vacibliyini qeyd etmişdir. Elmar Məmmədyarov bu il Azərbaycanın Suriyada səfirliyinin açılacağını diqqətə çatdırmışdır.

Azərbaycanın xarici siyasət idarəsinin başçısı Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsindən söz açmış, danışıqlar prosesinin hazırkı vəziyyəti haqqında məlumat vermişdir. Prezident Bəşər Əsəd Azərbaycanın mövqeyini anlayışla qarşılamışdır.

E.Məmmədyarov Bakı-Tbilisi-Ərzurum və Bakı-Tbilisi-Qars regional layihələrinin əhəmiyyətindən bəhs etmişdir. Prezident Bəşər Əsəd layihələrə maraq göstərmiş, Azərbaycan, Türkiyə və Suriya mütəxəssislərinin bu layihələr üzrə birgə fəaliyyətini təklif etmişdir.

Nazir Azərbaycan Prezidenti İlham Əliyevin Prezident Bəşər Əsədi Azərbaycana dəvət etdiyini bildirmişdir. Dəvəti məmnunluqla qəbul edən Suriyanın dövlət başçısı, yaxın zamanlarda Azərbaycana gələcəyini demişdir.

***

Suriyaya səfərini başa vuran nazir E.Məmmədyarov həmin gün Livana yola düşmüşdür.

LİVAN DAĞLIQ QARABAĞ MÜNAQİŞƏSİNİN BEYNƏLXALQ HÜQUQUN PRİNSİPLƏRİNƏ ƏSASƏN SÜLH YOLU HƏLLİNƏ TƏRƏFDARDIR

Yaxın Şərq ölkələrinə səfərini davam etdirən nazir Elmar Məmmədyarov aprelin 12-də Livana gəlmişdir.

Həmin gün E.Məmmədyarovun livanlı həmkarı Fauzi Sallux ilə görüşündə ikitərəfli əlaqələrin inkişaf perspektivləri, ölkələrimizdə səfirliklərin təsis edilməsi və digər məsələlər müzakirə olunmuşdur.

Fauzi Sallux Azərbaycanın Livana göstərdiyi daim dəstəyə və humanitar yardıma görə minnətdarlığını bildirmişdir.

E.Məmmədyarov Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi haqqında ətraflı məlumat vermiş, problemin sülh yolu ilə həlli məsələsində dost ölkələrin dəstəyinin vacib olduğunu bildirmişdir.

Livanlı nazir ölkəsindəki erməni diasporunun heç bir siyasi təsirə malik olmadığını diqqətə çatdırmışdır. O, ölkəsinin Dağlıq Qarabağ münaqişəsinin tezliklə beynəlxalq hüququn prinsiplərinə əsasən, sülh yolu həllinə tərəfdar olduğunu xüsusi vurğulamışdır.

Görüşdə beynəlxalq və regional müstəvidə cərəyan edən proseslər ətrafında fikir mübadiləsi aparılmışdır.

Həmin gün E.Məmmədyarov Livan Respublikası parlamentinin üzvü Valid Combulat ilə də görüşmüş və ikitərəfli məsələlərə dair fikir mübadiləsi aparmışdır. Livanlı deputat bölgədə cərəyan edən siyasi proseslər barədə ətraflı məlumat vermişdir.

E.Məmmədyarov Azərbaycanda həyata keçirilən irimiqyaslı enerji və nəqliyyat layihələrindən, ölkəmizin iqtisadi inkişafından, qonşu dövlətlərlə münasibətlərindən danışmışdır.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV LATVİYANIN XARİCİ İŞLƏR NAZİRİ ARTİS PABRİKSİN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİNİ QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev aprelin 16-da Prezident sarayında Latviyanın xarici işlər naziri Artis Pabriksin başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.

Azərbaycan-Latviya münasibətlərinin uğurla inkişaf etdiyini bildirən dövlətimizin başçısı Latviyaya rəsmi səfəri zamanı birgə əməkdaşlığa dair ətraflı müzakirələrin aparıldığını və bundan sonra ölkələrimiz arasında əlaqələrin daha da genişləndiyini vurğuladı. Prezident İlham Əliyev Latviya xarici işlər nazirinin ölkəmizə səfərinin iki ölkə arasında əlaqələrin gələcək inkişafına öz töhfəsini verəcəyinə ümidvar olduğunu söylədi.

Prezident İlham Əliyevin Latviyaya səfərinin uğurlu olduğunu bildirən Artis Pabriks dedi ki, Azərbaycan regionda iqtisadi liderdir və onun ölkəsi rəsmi Bakı ilə iqtisadi əməkdaşlığa böyük önəm verir. Qonaq aprelin 16-da Latviyanın ölkəmizdə səfirliyinin rəsmi açılış mərasiminin olacağını məmnunluqla vurğuladı.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV BP ŞİRKƏTİNİN KƏŞFİYYAT VƏ HASİLAT İŞLƏRİ ÜZRƏ BAŞ İCRAÇI DİREKTORU ENDİ İNQLİSİ QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev aprelin 16-da Prezident sarayında bp şirkətinin kəşfiyyat və hasilat işləri üzrə baş icraçı direktoru Endi İnqlisi qəbul etmişdir.

Dövlətimizin başçısı 1994-cü ildən başlayaraq respublikamızda həyata keçirilən neft strategiyasının hazırda gözəl nəticələr verdiyini və ölkəmizin energetika sahəsində yeni inkişaf mərhələsində olduğunu vurğuladı. Prezident İlham Əliyev Azərbaycanın bp şirkəti ilə əlaqələrinin bundan sonra da genişlənəcəyinə ümidvar olduğunu bildirdi.

Endi İnqlis artıq Bakı-Tbilisi-Ceyhan neft boru kəməri vasitəsilə böyük həcmdə neftin dünya bazarlarına çıxarıldığını qeyd edərək ümummilli lider Heydər Əliyevin Azərbaycanın neft strategiyası ilə bağlı bütün ideyalarının reallığa çevrildiyini bildirdi. Qonaq təmsil etdiyi şirkətin Azərbaycan ilə əməkdaşlığını gələcəkdə də inkişaf etdirəcəyinə əminliyini ifadə etdi.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN KOREYA RESPUBLİKASININ "JOONG ANG LİBO" QƏZETİNİN MÜXBİRİ YU ÇU ÇONA MÜSAHİBƏSİ

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev aprelin 16-da Prezident sarayında Koreya Respublikasının "Joong Ang Libo" qəzetinin müxbiri Yu Çu Çona müsahibə vermişdirş

-Cənab Prezident, ilk növbədə, qiymətli vaxtınızdan bizə ayırdığınıza görə xüsusi təşəkkürümü bildirmək və Sizin Koreya Respublikasına qarşıdan gələn səfərinizi alqışlamaq istəyirəm.

-Sağ olun. Bəli, mən sizin ölkəyə səfərə çıxıram.

-Ən əvvəl, xalqımız Sizin Cənubi Koreyaya səfərinizin gündəliyi haqqında bilmək istərdi.

-Bu səfər Koreya Respublikası Prezidentinin Azərbaycana səfərindən sonra başlanmış güclü dialoqun davamıdır. Hazırda münasibətlərimiz yeni mərhələdədir. Onların olduqca geniş gündəliyi var. Prezidentinizin ölkəmizə səfəri zamanı biz ikitərəfli münasibətlərə, iqtisadi əməkdaşlığa aid məsələləri və iqtisadi inkişafın müxtəlif aspektlərini müzakirə etdik. Bildiyiniz kimi, sizin ölkənizdə səfirliyimizi açdıq. Bu, ölkənizlə olduqca möhkəm əməkdaşlıq edilməsinə olan maraqdan irəli gəlir. Əlbəttə ki, səfərin gündəliyi geniş olacaqdır. Hazırda biz öz infrastrukturumuzu inkişaf etdiririk. İqtisadi artım böyük sürətlə gedir. Bir sözlə, bizim böyük həcmdə əlavə maliyyə ehtiyatlarımız var. Biz təcrübəli, peşəkar və Azərbaycanda iş görməyə marağı olan şirkətlərlə işləmək istəyirik. Bu meyarlara cavab verən bir çox xarici şirkətlər var. Ümidvaram ki, səfər uğurlu olacaqdır.

Bundan əlavə, Azərbaycandan olan bir çox iş adamları Cənubi Koreyaya səfər edəcək və orada biznes forumu keçiriləcəkdir. Hesab edirəm ki, nəticələr çox müsbət olacaqdır.

-Buraya gəlməzdən əvvəl, mən bəzi məlumatlarla, o cümlədən Sizin ölkənizdə son zamanlardakı iqtisadi artımı nümayiş etdirən statistik göstəricilərlə tanış oldum. Misal üçün, Siz 30 faizdən artıq real iqtisadi inkişafa nail olmusunuz.

-Bəli, ötən il ərzində ÜDM-in artımı təqribən 35 faiz olmuşdur. Lakin 2005-ci ildə bu rəqəm 26 faiz idi. 2007-ci ilin birinci rübündə bizdə ÜDM-in artımı 40 faiz olmuşdur. Bu, dünyada analoqu olmayan bir göstəricidir. Artıq üçüncü ildir ki, biz iqtisadiyyatın sürətli inkişafına görə birinci yeri tuturuq.

-Cənab Prezident, bu cür uğurun sirri nədədir?

-İlk növbədə, iqtisadi islahatlar və siyasi sabitlik. Bunlar əsas səbəblərdir. Təbii ki, bir çox müxtəlif proqramlar, özəl sektorun həvəsləndirilməsi, xarici sərmayələrin cəlb olunması amillərini də buraya əlavə etmək olar. Keçmiş Sovet İttifaqı respublikaları arasında adambaşına düşən birbaşa xarici sərmayələrin həcminə görə Azərbaycan hər zaman birinci yerdə olubdur. Bizim liberal qanunlarımız, olduqca əlverişli sərmayə mühitimiz və çox proqnozlaşdırılan gələcəyimiz var. Beləliklə, xarici və yerli şirkətlər sərmayə qoymağa başlamışdır. Misal üçün, ötən il ərzində sərmayələrin təxminən 40 faizi yerli şirkətlər tərəfindən yatırılmışdır. Onlar özəl sektoru və eyni zamanda, əlbəttə ki, enerji sektorunu stimullaşdırır. Neft və qaz hasilatının artması da ÜDM-in artmasına kömək edir.

-Beləliklə, neft yataqları, böyük həcmdə təbii sərvətlər iqtisadiyyatınıza gözəçarpan nağd vəsait gətirə bilər. İdarəçilik baxımından, sosialist cəmiyyətindən bazar iqtisadiyyatına keçdiyiniz zaman hər hansı çətinliyiniz olubmu?

-İlk illərdə, təbii ki, olubdur. Buna səbəb bir sistemdən digər sistemə genişmiqyaslı keçiddir. Sovet İttifaqı dağıldıqdan sonra tamamilə ağır vəziyyətə düşmüş Azərbaycanda həmin dəyişiklik başlayan zaman ölkədə tam qarışıqlıq hökm sürürdü. Biz ən yüksək sərvətimiz olan müstəqilliyi əldə etmişdik. Lakin iqtisadi vəziyyət ağır idi, həmin vaxt iqtisadiyyatımız tamamilə sıradan çıxmışdı. Yalnız 1993-cü ildən etibarən, ümummilli liderimiz Heydər Əliyev hakimiyyətə gəldikdən sonra həmin çətinlikləri aradan qaldırmağa başladıq. Çox sürətli iqtisadi və siyasi islahatlar aparıldı və keçid mərhələsi sürətlə getməyə başladı. İlk illərdə çətinlik mövcud idi, lakin 1996-1997-ci illərdən başlayaraq, iqtisadi və siyasi vəziyyət sabitləşəndən sonra, ölkə dinamik şəkildə inkişaf etməyə başladı. Bu gün, müstəqilliyimizin 15 ili arxada qaldıqdan sonra ölkədə ÜDM-in 80 fa-

izini özəl sektor verir. Halbuki, 1991-ci ildə hər şey yüz faiz dövlətin mülkiyyətində idi.

Deyə bilərəm ki, bu 15 il ərzində biz böyük uğura nail olduq və keçid dövrü artıq başa çatıbdır. Biz tam şəkildə bazar iqtisadiyyatına əsaslanırıq. Olduqca güclü sosial siyasət həyata keçirməyə çalışırıq ki, xalqımız həmin keçiddən əziyyət çəkməsin. Adətən, keçid dövrü zamanı insanlar özlərini çox narahat hiss edir, bir çox sosial çətinliklərlə üzləşirlər.

Beləliklə, güclü sosial siyasət, əmək haqlarının və pensiyaların artırılması, sürətli bazar islahatları ilə müşayiət olunan sosial infrastrukturun yaradılması və nəhayət, siyasi sabitlik uğurlu inkişafın səbəbləridir. Bu gün biz regionda möhkəm yerimizi tutmuşuq. Hazırda regional inkişafa böyük təsir göstərən nəhəng transmilli enerji və nəqliyyat layihələrini həyata keçiririk.

-Siz əminsiniz ki, siyasi sabitlik iqtisadi islahatlar və inkişaf üçün ilkin şərtdir?

-Bəli, tamamilə belədir. Misal üçün, siz görə bilərsiniz ki, sabitlik olmayan bir sıra ölkələrdə iqtisadiyyat işləmir. Həmin ölkələr tam böhran və ümumiyyətlə, toqquşma və daxili mübarizə içərisindədir. Biz 1990-cı illərin əvvəllərində həmin təhlükəli təcrübəni yaşamışıq. Azərbaycan xalqı bütün bu çətinlikləri xatırlayır. Ona görə də hökumətin və xalqın iradəsi güclü dövlət qurmaqdan ibarətdir. Biz buna şüarlar və bəzi populist bəyanatlarla yox, diqqətimizi həyatımızın real aspektlərinə – xalqın gündəlik görəcəyi və duyacağı real işlərə yönəltməklə nail ola bilərik.

-Bir çox ölkələr sosializm sistemindən bazar iqtisadiyyatına keçməyə çalışır, lakin bu sahədə ən çətini insanların düşüncə tərzini dəyişməkdir. Bu, vaxt və mübarizə tələb edir. Bu baxımdan, Sizin xüsusi siyasətiniz varmı?

-Siz haqlısınız. Bu, həmçinin psixoloji dəyişiklikdir, çünki 70 ildən çox biz sosializm sistemində yaşamışıq. O, tamamilə fərqli bir sistem idi. Bir çox nəsillər həmin sistemdə formalaşmışdır. Gənc nəsil üçün bu keçid asan, yaşlı nəsil üçün isə, daha çətin olmuşdur. Ona görə də biz bunu nəzərə almalıyıq və xalqın bütün təbəqələri üçün daha yaxşı şərait yaratmağa çalışmalıyıq.

Bundan əlavə, Azərbaycanda biznesin güclü inkişafı psixoloji dəyişikliyə də müsbət təsir göstərir. Çünki insanlar azaddır, onlar istədiyi yerlərə səfər edə bilir, biznesini qurur, şirkətlər yaradır və pul qazanırlar. Bir sözlə, bütün bunlar keçmişdə mövcud olanlardan fərqli, müsbət inkişafdır. Biz özəl biznesə təkan veririk. Builki büdcəmizdə təkcə özəl sektora veriləcək kiçik kreditlər üçün 100 milyon dollar həcmində vəsaitin ayrılması nəzərdə tutulubdur. Həmin kreditlərin 83 faizi regionlara sərf olunacaq ki, onların inkişafına təkan verilsin. Bundan başqa, biz daxildə sərmayə yatırılması məqsədi ilə ilkin kapitalı 100 milyon dollar olan Dövlət İnvestisiya Şirkəti yaratmışıq. Beləliklə, biz insanlara öz biznesini başlamağa kömək edirik, çünki kapital olmadan, bunu etmək çətindir. Hökumət necə yardım edə bilər? Əlverişli sərmayə mühiti yaratmaq, dövlət orqanlarının biznesə müdaxiləsinin qarşısını almaq və pul vəsaitləri ilə təmin etmək yolu ilə.

-Bəzi bürokratik əngəllər və qaydalar mövcuddur. Siz bunları aradan qaldırmağı planlaşdırırsınızmı?

-Əlbəttə, biz biznes mühitini liberallaşdırırıq. Bir çox dəyişikliklər edilməkdədir.

-Mənə belə gəlir ki, indi iqtisadiyyatımızda əsas məsələ pulu necə qazanmaq yox, ondan hansı şəkildə idarə etməkdən ibarətdir. Pulun xərclənməsi və inflyasiyanın artmasına yol verilməməsi xalq üçün olduqca vacibdir.

-İndiki mərhələdə, bu, həqiqətə uyğundur. Lakin həmişə belə deyildi. 2004-cü ilə qədər biz həmişə pulu necə qazanmaq haqqında düşünürdük. Əgər bizim büdcə göstəricilərimizə nəzər yetirsəniz görərsiniz ki, 2003-cü ildə Azərbaycanın büdcəsi cəmi 1,5 milyard ABŞ dollarına bərabər idi. Bu il isə həmin rəqəm 6,5 milyard dollara çatıbdır. Üç il ərzində biz büdcəmizi bir neçə dəfə artırmışıq. May ayında büdcəyə yenə dəyişikliklər edəcək və onun həcmini artıracağıq. Bu, yalnız büdcə xərclərinə aiddir. Lakin, eyni zamanda, Neft Fondundan da xərclər ayrılır. Beləliklə, ümumilikdə, Azərbaycanın cəmi büdcəsi 8 milyard dollar təşkil edir. Əsas problem ondan ibarətdir ki, gəlirlərin xərclənməsi inflyasiyanın yaranmasına səbəb olur. Əmək haqlarının, pensiyaların artırılması, infrastruktur layihələri və növbəti, üçüncü ildə hələlik 40 faizlik iqtisadi artım iqtisadiyyat üçün çox böyük yükdür. Birincisi, biz xalqın tələbatını ödəməyə, layihələrimizi həyata keçirməyə və eyni zamanda, inflyasiyanı təkrəqəmli həddə saxlamağa çalışırıq. Ümid edirəm ki, bunun öhdəsindən gələ biləcəyik. Biz Neft Fondunun timsalında neftdən gələn vəsaitlərin xərclənməsi üçün olduqca şəffaf mexanizmə malikik. Fond tam şəffaf strukturdur. O, beynəlxalq səviyyədə auditdən keçir. Beynəlxalq Valyuta Fondunun son bəyanatlarına əsasən, gələn 20-25 il ərzində Azərbaycan enerji layihələrindən 200 milyard dollardan çox vəsait əldə edəcəkdir. Bu, olduqca böyük vəsaitdir. Biz ondan lazımi qaydada istifadə etmək üçün çox müdrik olmalıyıq.

-Siz olduqca açıq iqtisadiyyat yaratmağa hazırlaşırsınız. Bu, maliyyə sektoruna da aiddirmi? Xarici bankları dəvət edirsinizmi?

-Bəli, biz ölkəmizdə əsas xarici bankları görməkdən çox şad olardıq. Hazırda burada belə banklar yoxdur. Bizim ölkədə qonşu dövlətlərdən olan və böyük hesab edilməyən bir neçə bank var. Lakin enerji sektorunda dünya liderləri artıq burada olduğu kimi, biz istəyirik ki, bank sahəsinin də dünya liderlərini ölkəmizdə görək. Dünyanın bir çox əsas şirkətləri Azərbaycanda işləyir və onlar uzun illərdir ki, bizim tərəfdaşlarımızdır. Biz eyni vəziyyəti maliyyə sektorunda da görmək istəyirik. Hazırda biz sürətlə artan iqtisadiyyatımızdan, coğrafi mövqeyimizdən və artıq mövcud infrastrukturumuzdan istifadə etmək məqsədi ilə Azərbaycanda xüsusi iqtisadi zonaların yaradılması proqramını həyata keçirməyə başlayırıq. İndi biz böyük nəqliyyat dəhlizi – İpək Yolunun bərpası və Azərbaycanı Avropa ilə, Azərbaycan vasitəsilə Avropanı Mərkəzi Asiya və daha sonra, Şərqi Asiya ölkələri ilə birləşdirəcək Bakı-Tbilisi-Qars dəmir yolu layihəsi üzərində işləyirik. Çox güman ki, Cənubi Koreya da bundan bəhrələnə bilər. Çünki bu, İpək Yolunu bərpa edəcək yeni marşrut ola, Asiyadan mallar Avropaya daşına bilər. Bu yolun tikintisi başa çatdıqdan dərhal sonra bu marşrutla mallarını göndərmək istəyən tərəflər artıq bizim qarşımızda ciddi öhdəliklər götürüblər. Bu yol 2009-cu ildə hazır olacaqdır.

Beləliklə, enerji siyasəti, regional inkişaf və yerləşdiyimiz məkan bizə bir çox üstünlüklər verir. Lakin həmin üstünlüklər bizim yaratdığımız üstünlüklərdir. Əgər işləməsək, bu, heç vaxt baş verməyəcəkdir. Əgər çalışmasaq, heç vaxt dənizin dibindən neft və qaz hasil etməyəcəyik və yaxud əgər dəmir yolunun tikintisi üçün zəhmət çəkilməsə, heç kim mallarını buradan göndərməyəcəkdir. Biz bunu yaratmalıyıq! Hazırda da bunu edirik.

-Cənab Prezident, düzünü desəm, mən çox təəccübləndim ki, Siz Prezident olmağınızla yanaşı, bir çox mürəkkəb iqtisadi göstəriciləri, statistik məlumatları və rəqəmləri yadınızda saxlayırsınız. Siz həmin statistik göstəricilərin hamısını necə yadda saxlaya bilirsiniz? Axı Siz Prezidentsiniz, siyasətçisiniz, lakin iqtisadçı deyilsiniz.

-Mən öz ölkəmdə siyasətçi və iqtisadçıyam. Mən məsuliyyət daşıyıram. Xalq tərəfindən seçilmişəm və yaxşı işləməliyəm. Mən iqtisadi, siyasi və sosial inkişaf üçün işləyirəm. Azərbaycanın siyasi, iqtisadi və sosial həyatı barədə sizə istənilən rəqəmi gətirə bilərəm. Bu, mənim işimdir.

-Azərbaycan özünün vacib siyasi, iqtisadi, hərbi və diplomatik roluna görə böyük əhəmiyyətə malik olan ölkədir. Siz fövqəlgüclərin, o cümlədən ABŞ, Rusiya və Çinin əhatəsində olan bir məkanda yerləşirsiniz. Xüsusən də Rusiya ilə ABŞ-ın təsirinin ortasındasınız. Siz bu məsələləri siyasi və diplomatik baxımdan necə tənzimləyirsiniz?

-Biz öz siyasətimizi olduqca açıq və səmimi şəkildə həyata keçiririk. Bu, çox vacib məsələdir, çünki bizim tərəfdaşlarımız – Rusiya, ABŞ və ya Avropa İttifaqı, yaxud hər hansı digər tərəf bilir ki, onlar bizə etimad göstərə bilər. Biz siyasətimizi yalnız Azərbaycanın milli maraqlarına əsaslanaraq aparırıq. Regional inkişaf, müxtəlif ölkələr və təşkilatlar ilə əlaqələrimiz gənc müstəqil ölkə kimi bizim üçün vacibdir. Lakin Azərbaycanın milli maraqları hər şeydən üstündür. Azərbaycan əməkdaşlıq məkanıdır və bu əməkdaşlıq tərəqqiyə və xalqın daha yaxşı həyat tərzinə apardığı təqdirdə bizim üçün sərfəlidir. Bəzən mən eşidirəm ki, bizim region maraqların kəsişdiyi region adlandırılır. Dünyanın bir çox regionları maraq kəsb edir. Xüsusən də enerji gündəliyi dünya məsələlərində əsas yer tutduğu təqdirdə, zəngin təbii sərvətlərə malik regionlar maraq obyektinə çevrilir. Bir sözlə, biz olduqca açıq siyasət həyata keçiririk və ABŞ, Rusiya, Avropa İttifaqı, İslam Konfransı Təşkilatı ilə, digər qonşu ölkələrlə çox yaxşı münasibətlərimiz var. Bir sözlə, bu, mümkündür.

-İcazə verin, bir daha ikitərəfli münasibətlərimiz məsələsinə qayıdaq. Cənubi Koreyanın iqtisadi məsələləri üzrə jurnalist kimi hesab edirəm ki, ölkəmizin iqtisadiyyatında əldə olunanları uğur kimi qiymətləndirə bilərik. Hazırda isə, ölkəmizin üzləşdiyi problemləri həll etməyə çalışırıq. Əldə etdiyimiz təcrübəni Sizin ölkənizlə bölüşə bilərik. Biz bir çox məsələlərdə uğurlar əldə etmişik, lakin eyni zamanda uğursuzluqlarımız da olubdur. Siz Koreya şirkətləri və hökuməti ilə iqtisadi əməkdaşlıq çərçivəsində nə etməyi planlaşdırırsınız?

-Hesab edirəm ki, biz bir çox məsələlərdə ölkənizin təcrübəsindən istifadə edə bilərik. Sizin ölkəniz heç bir təbii sərvətə malik olmadan yoxsulluqdan sürətli iqtisadi inkişafa nail olmuşdur. Bu, olduqca müsbət təcrübədir. Siz sübuta yetirdiniz ki, uğurla yaşaya və ölkənizi inkişaf etdirə bilərsiniz. Azərbaycanda işləməyə böyük marağımız artıq ifadə etmiş olduqca güclü şirkətləriniz var. Söhbət yalnız sərmayədarlar və podratçılardan getmir, çünki gələn illər ərzində bizim bir çox infrastruktur layihələrimiz olacaqdır. Çox müasir infrastruktur və xidmətlərə malik müasir ölkə qurmaq məqsədi ilə çoxlu planlarımız var. Sizin şirkətləriniz çox peşəkardır. Biz bir yerdə çox uğurla işləyə bilərik. Ola bilsin, bir gün sizin ehtiyac duyacağımız enerji resurslarına malikik. Sizdə isə bizə lazım olan texnologiyalar, müasir yanaşma və peşəkarlıq vardır. Beləliklə, biz bu maraqları uzlaşdıra bilərik. Hesab edirəm ki, bu cür uzlaşdırmanın anlaşılması artıq mövcuddur.

Məhz bu, əlaqələrimizin olduqca sürətli inkişafının səbəbidir. Uzun illər ərzində, Azərbaycan müstəqilliyini əldə etdiyi vaxtdan etibarən, bizim çox geniş münasibətlərimiz olmayıbdır. Bir-birimizi yaxşı tanımırdıq, hər hansı nümayəndə heyətimizin səfəri və ya təmaslarımız yox idi. Amma hazırda isə Koreya Prezidenti Azərbaycana səfər etdi. Mən sizin ölkənizə səfər edəcəyəm. İşgüzar dairələr bir yerə toplaşacaqlar. Bizim artıq səfirliklərimiz və birgə işləməyə yaxşı marağımız var. Sizin iqtisadi məsələlərə yanaşmanızı və siyasi inkişafa aid mövqeyinizi olduqca yüksək qiymətləndiririk. Biz eyni baxışlara malikik. Hər hansı ölkənin daxili işlərinə müdaxilə etməmək ən münasib yoldur. Əgər bütün ölkələr bir-birinin işlərinə qarışmasalar, onda dünya daha təhlükəsiz olar və proqnozlaşdırıla bilər.

-Bildiyimə görə, Cənubi Koreyanın bir çox şirkətləri ölkənizin iqtisadiyyatında və inkişaf proqramlarında fəal iştirak edir. Nəinki tikinti şirkətləri, elektron cihazlarının istehsalçıları, bir çox banklar, neft şirkətləri və digər şirkətlər Sizin ölkənizə dərhal gəlməyə hazırdır. Onların həqiqi mənada ölkənizə gəlməsini və sizinlə əməkdaşlıq etməsini istəyirsinizmi?

-Bəli, əlbəttə. Biz onların üzünə açığıq. İqtisadi əməkdaşlıq sahəsində açıq qapılar siyasəti aparırıq və ciddi məramı, nüfuzu, yüksək iş göstəriciləri və bizimlə işləmək bacarığına malik olan bütün şirkətləri alqışlayırıq. Ölkəmizdə çoxlu belə şirkətlər var. Onların Azərbaycanda işləməkdə maraqlı olması da faktdır. Bu, bizim üçün vacibdir. Bu, uğurlarımızın mühüm əlamətidir, çünki əgər onlar buranın biznes üçün münasib yer olduğuna əmin olmasalar, gəlməzlər. Siz özəl sektoru məcbur edə bilməzsiniz. Onlar hiss edirlər və bunları bilirlər. Həmin şirkətlərin özləri biznes üçün hansı ölkəni seçmək məqsədi ilə qiymətləndirmə və monitorinq aparırlar. Biz Cənubi Koreyanın biznes dairələri ilə daha geniş gündəlik əsasında işləməkdən son dərəcə şad olardıq.

-Cənab Prezident, müsahibə üçün vaxt ayırdığınıza görə çox minnətdaram.

İSRAİLLİ DEPUTATLAR AZƏRBAYCANDA YƏHUDİ İCMASININ FƏALİYYƏTİ ÜÇÜN YARADILMIŞ ŞƏRAİTDƏN MƏMNUNDURLAR

Aprelin 16-da Xarici İşlər naziri Elmar Məmmədyarov İsrail parlamenti – Knessetin spikerinin müavinləri Amnon Kohen və Qideon Saarın rəhbərlik etdikləri nümayəndə heyəti ilə görüşmüşdür.

Görüşdə tərəflər Azərbaycan və İsrail arasında əməkdaşlığın siyasi, iqtisadi, mədəni müstəvidə davam etdirilməsinə və daha da genişləndirilməsinə dair müzakirə aparmış, bu yaxınlarda yaradılmış Azərbaycan-İsrail Beynəlxalq Assosiasiyasının ikitərəfli əlaqələrdə mühüm bir addım olduğunu vurğulamışlar.

Eyni zamanda, görüşdə hər iki dövlətin xarici siyasətində önəmli yer tutan Yaxın Şərq və Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişələrinin sülh yolu ilə həllinin vacibliyi vurğulanmışdır.

İsrail parlamentariləri 16 aprel tarixinin Holokost qurbanlarının anma günü olduğunu xatırladaraq, Azərbaycanda da bu günün qeyd edilməsini müsbət qarşılamışlar. Qonaqlar ölkəmizdə yəhudi icmasının fəaliyyəti üçün yaradılmış şəraitdən məmnun qaldıqlarını bildirmişlər.

AVROPAYA İNTEQRASİYA ETMƏK İSTƏYƏN BİR ÖLKƏNİN TƏCAVÜZKARLIQ VƏ ETNİK TƏMİZLƏMƏ SİYASƏTİ HƏYATA KEÇİRMƏSİ YOLVERİLMƏZDİR

Aprelin 16-da Xarici işlər naziri Elmar Məmmədyarov ABŞ Dövlət Departamentinin rəsmisi xanım Tamara Fitzceraldın rəhbərlik etdiyi Milli Hərbi Kollecin nümayəndə heyəti ilə görüşmüşdür.

Görüşdə Azərbaycan-ABŞ münasibətləri, enerji təhlükəsizliyi sahəsində əməkdaşlıq, Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi, həmçinin digər regional məsələlər ətrafında müzakirələr aparılmışdır.

Nazir E.Məmmədyarov ABŞ-ın dövlət katibi xanım Kondoliza Raysın dəvəti ilə bu yaxınlarda Vaşinqtona rəsmi səfərini xatırlamış, keçirilmiş görüşlər barədə məlumat vermişdir.

Azərbaycanın xarici siyasət idarəsinin rəhbəri respublikamızda uğurla həyata keçirilən sosial-iqtisadi islahatlardan söz açmış, ölkələrimiz arasında münasibətlərdə iqtisadi əlaqələrin xüsusi əhəmiyyət daşıdığını diqqətə çatdırmışdır. Nazir ABŞ-a səfəri zamanı enerji sahəsində əməkdaşlığa dair qarşılıqlı anlaşma memorandumunun imzalanmasının ölkələrimiz arasında mövcud strateji əməkdaşlığın daha da inkişaf etməsinin göstəricisi olduğunu söyləmişdir.

Xanım T.Fitzcerald ölkələrimiz arasında inkişaf etməkdə olan münasibətlərdən məmnunluqla söz açaraq, regiondakı münaqişələrin tezliklə həll edilməsinin tərəfdarı olduğunu qeyd etmişdir.

Dağlıq Qarabağ münaqişəsinin həlli istiqamətində aparılan danışıqlar prosesinə toxunan nazir E.Məmmədyarov, münaqişənin beynəlxalq hüququn norma və prinsipləri, Azərbaycanın ərazi bütövlüyü çərçivəsində həll edilməsinin vacibliyini vurğulamışdır. O, Ermənistanın işğal etdiyi Azərbaycan torpaqlarını indiyədək azad etmədiyini diqqətə çatdıraraq, Avropanın bir hissəsi olmaq istəyən bir ölkənin təcavüzkarlıq və etnik təmizləmə siyasətini həyata keçirməsinin yolverilməz olduğunu söyləmişdir.

Avropa və Avratlantika strukturlarına inteqrasiyanın Azərbaycanın xarici siyasətinin prioritet istiqamətlərindən olduğunu bildirən E.Məmmədyarov, bunun ölkəmizin milli maraqlarına xidmət etdiyini vurğulamışdır.

Görüşdə qarşılıqlı maraq kəsb edən digər məsələlər ətrafında fikir mübadiləsi aparılmışdır.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV QAZAXISTANIN MANGİSTAU VİLAYƏTİNİN HAKİMİ KRİMBEK KUŞERBAYEVİ QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev aprelin 17-də Prezident sarayında Qazaxıstan Respublikasının Mangistau vilayətinin hakimi Krimbek Kuşerbayevi qəbul etmişdir.

Krimbek Kuşerbayev Azərbaycanda təməli ümummilli lider Heydər Əliyev tərəfindən

qoyulmuş iqtisadi strategiyanın Prezident İlham Əliyevin rəhbərliyi altında uğurla davam etdirildiyini və bu sahədə ölkəmizin böyük nailiyyətlər əldə edərək, regionda iqtisadi cəhətdən lider dövlətə çevrildiyini vurğuladı. O, ölkəmizə səfəri zamanı Azərbaycanla birgə əməkdaşlığa dair konkret perspektiv layihələr ətrafında müzakirələr aparıldığını qeyd etdi.

Dövlətimizin başçısı Azərbaycanla Qazaxıstanın dinamik surətdə inkişaf etdiyini vurğulayaraq, həyata keçirilən birgə layihələrin hər iki ölkə üçün böyük əhəmiyyət kəsb etdiyini bildirdi. Prezident İlham Əliyev ikitərəfli münasibətlərin müxtəlif sahələrdə, o cümlədən enerji, nəqliyyat sahələrində uğurla inkişaf etdiyini xatırladaraq, ayrı-ayrı regionlarla əməkdaşlığın bu əlaqələrin daha da genişlənməsinə xidmət etdiyini vurğuladı.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV AVSTRİYANIN OMV ŞİRKƏTİNİN İCRAİYYƏ ŞURASININ SƏDRİ VOLFQANQ RUTTENSTORFERİ QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev aprelin 18-də Prezident sarayında Avstriyanın OMV şirkətinin İcraiyyə şurasının sədri Volfqanq Ruttenstorferi qəbul etmişdir.

OMV-nin Mərkəzi Avropa, Orta Asiya və bir sıra digər yerlərdə fəaliyyət göstərdiyini bildirən Volfqanq Ruttenstorfer şirkət haqqında Azərbaycan Prezidentinə məlumat verdi. Azərbaycanın energetika sahəsində böyük uğurlar əldə etdiyini vurğulayan qonaq təmsil etdiyi şirkətin ölkəmizlə əlaqələrə böyük maraq göstərdiyini bildirdi.

Görüşdə Azərbaycan qazının Avropa bazarlarına nəql edilməsi və Nabukko layihəsinin həyata keçirilməsi sahəsində OMV şirkətinin Azərbaycanla əməkdaşlığının perspektivləri ilə bağlı məsələlər müzakirə olundu.

BELQRADDA AZƏRBAYCAN VƏ ERMƏNİSTAN XARİCİ İŞLƏR NAZİRLƏRİNİN NÖVBƏTİ GÖRÜŞÜ KEÇİRİLMİŞDİR

Aprel ayının 19-da Serbiyanın paytaxtı Belqrad şəhərində Qara Dəniz İqtisadi Əməkdaşlıq Təşkilatına üzv olan (QDİƏT) ölkələrin Xarici İşlər Nazirləri Şurasının iclası keçirilmişdir. 6 ölkənin Nazir səviyyəsində təmsil olunduğu tədbirdə Azərbaycan nümayəndə heyətinə Xarici İşlər Naziri Elmar Məmmədyarov rəhbərlik etmişdir.

Serbiyanın Prezidenti Boris Tadic tədbir iştirakçılarını salamladıqdan sonra nümayəndə heyətlərinin rəhbərlərinə söz verilmişdir. Tədbir iştirakçıları QDİƏT-in getdikcə artan nüfuzunu, təşkilat çərçivəsində müxtəlif sahələr üzrə layihələrin həyata keçirilməsini, Avropa İttifaqı ilə münasibətlərin inkişafını, quruma üzv ölkələr arasında xüsusilə enerji və nəqliyyat sahələrində əməkdaşlığın gücləndirilməsində mühüm rolunu və potensialını vurğulamışlar.

Bildirilmişdir ki, QDİƏT çərçivəsində aparılan islahatlar və Beynəlxalq Katibliyin genişlənməsi üzv ölkələr arasında əməkdaşlıqdan irəli gələn yeni vəzifələrin daha səmərəli surətdə həyata keçirilməsinə zəmin yaradacaqdır.

Səfər zamanı nazir Məmmədyarov Yunanıstan və Rumıniya Xarici İşlər Nazirləri, ABŞ Hökuməti rəsmisi ilə görüşmüş, Rusiya və Türkiyə Xarici İşlər Nazirləri ilə ayaqüstü söhbət etmişdir.

Tədbirin gedişində Belqrad Bəyannaməsi qəbul olunmuşdur və "Qara Dəniz Dairəvi Yolunun İnkişafı", "QDİƏT Regionunda Dəniz Magistrallarının İnkişafı" və "QDİƏT üzv ölkələrinin Xarici İşlər Nazirliklərinin Diplomatik Akademiyaları və İnstitutları arasında əməkdaşlıq" üzrə Anlaşma Memorandumları imzalanmışdır.

QDİƏT Daimi Beynəlxalq Katibliyində Baş Katibin müavini vəzifəsində çalışan və 1 may 2007-ci il tarixdən səlahiyyət müddəti başa çatan Altay Əfəndiyevin səlahiyyət müddəti növbəti 2 il üçün uzadılmışdır.

Bununla, Serbiyanın QDİƏT-ə sədrlik müddəti başa çatmış və təşkilata növbəti sədrlik gələcək 6 ay üçün Türkiyəyə keçmişdir

AZƏRBAYCAN RESPUBLİKASI XARİCİ İŞLƏR NAZİRLİYİNİN MƏTBUAT MƏRKƏZİNİN MƏLUMATI

ABŞ Dövlət Departmentinin 2006-cı il üçün İnsan Hüquqları üzrə məruzənin ilkin variantında Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinə dair müddəalarda dəyişikliklərin olmasını nəzərə alaraq, cari ilin 23-24 aprel tarixlərində ikitərəfli təhlükəsizlik məsləhətləşmələri üçün Azərbaycan nümayəndə heyətinin Vaşinqtona səfəri Azərbaycan Hökuməti tərəfindən təxirə salınmışdır.

Bu məsləhətləşmələrdə Azərbaycan tərəfindən Xarici İşlər Nazirliyi, Müdafiə Nazirliyi, Fövqəladə Hallar Nazirliyi, Milli Təhlükəsizlik Nazirliyi, Daxili İşlər Nazirliyi, Dövlət Sərhəd Xidməti, Dövlət Gömrük Komitəsi və Xüsusi Dövlət Mühafizə Xidmətinin yüksək rəsmilərinin iştirak etməsi planlaşdırılırdı.

Ermənistan-Azərbaycan münaqişəsinin Azərbaycan Respublikasının ərazi bütövlüyü (Dağlıq Qarabağ onun ayrılmaz bir hissəsi olmaqla) əsasında həlli ölkəmiz üçün Azərbaycanla ABŞ arasında təhlükəsizlik sahəsində geniş əməkdaşlığın birinci dərəcəli elementidir.

Artıq dərc edilmiş məruzənin mətninə Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin mahiyyətini təhrif edən düzəlişlərin edilməsi ağlabatmazdır və ABŞ-ın münaqişənin həllində "bitərəf vasitəçi" mövqeyini şübhə altına salır.

Bu kimi addım iki ölkə arasında təhlükəsizlik sahəsində gələcək əməkdaşlıq üçün ciddi mancələr yarada bilər.

22 aprel 2007-ci il

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN KOREYA RESPUBLİKASINA DÖVLƏT SƏFƏRİ

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev aprelin 23-də Koreya Respublikasına üçgünlük dövlət səfərinə gəlmişdir.

DÖVLƏT BAŞÇILARININ GENİŞ TƏRKİBDƏ GÖRÜŞÜ

Aprelin 23-də Seulda, "Çonqvade" Prezident sarayında Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və Koreya Respublikasının Prezidenti Roh Mu-hyunun nümayəndə heyətlərinin iştirakı ilə geniş tərkibdə görüşü olmuşdur.

Prezident Roh Mu-hyun Azərbaycan Prezidentini və nümayəndə heyətini salamladı, bir il bundan əvvəl ölkəmizə rəsmi səfərini, onun gedişində birgə bəyannamə və bir sıra sənədlər imzalandığını xatırlatdı. O dedi ki, Prezident İlham Əliyevin Koreya Respublikasına bu dövlət səfəri ikitərəfli əlaqələrin yeni səviyyəyə qaldırılması üçün daha yaxşı imkanlar yaradacaqdır.

Prezident İlham Əliyev özünə və nümayəndə heyətinə göstərilən qonaqpərvərliyə görə təşəkkürünü bildirdi və dedi ki, Koreya Respublikasına bu səfərim cənab Roh Mu-hyunun səfərindən sonra başlanmış real dialoqun davam etdirilməsi üçün yaxşı imkan yaradır. Qısa müddət ərzində əlaqələrimiz müxtəlif sahələrdə inkişaf etmiş və yeni mərhələyə qalxmışdır.

Görüşdə hazırda rabitə, nəqliyyat, energetika, şəhərsalma, kənd təsərrüfatı, habelə mədəniyyət, təhsil və digər sahələrdə iri layihələr üzərində iş getdiyini məmnunluqla vurğulayan dövlət başçıları xüsusən qeyri-neft sahələrinin inkişafı istiqamətində əməkdaşlığın böyük əhəmiyyət kəsb etdiyini bildirdilər.

Danışıqlarda Cənubi Koreyanın iş adamlarının regionda lider dövlətə çevrilmiş Azərbaycanla əlaqələri daha da fəallaşdırmaq və ölkəmizin iqtisadiyyatına əhəmiyyətli investisiya qoymaq niyyəti açıqlanmışdır.

Tərəflər Azərbaycan-Cənubi Koreya ikitərəfli münasibətləri, ölkəmizin sürətli iqtisadi inkişafı, dünyanın, o cümlədən Cənubi Koreyanın aparıcı şirkətlərinin Azərbaycana marağının artması və digər məsələlər barədə geniş fikir mübadiləsi apardılar.

SƏNƏDLƏRİN İMZALANMA MƏRASİMİ

Aprelin 23-də "Çonqvade" sarayında, dövlət başçılarının geniş tərkibdə görüşü başa çatdıqdan sonra, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və Koreya Respublikasının Prezidenti Roh Mu-hyunun iştirakı ilə Azərbaycan və Cənubi Koreya arasında ikitərəfli əməkdaşlığa dair sənədlərin imzalanma mərasimi olmuşdur.

Əvvəlcə prezidentlər İlham Əliyev və Roh Mu-hyun Azərbaycan Respublikası və Koreya Respublikası arasında Birgə bəyannaməni imzaladılar.

Azərbaycan Respublikası Hökuməti ilə Koreya Respublikası Hökuməti arasında sərmayələrin təşviqi və qorunması haqqında sazişi Azərbaycan tərəfindən iqtisadi inkişaf naziri Heydər Babayev, Cənubi Koreya tərəfindən xarici işlər və xarici ticarət naziri Sonq Min-sun imzaladılar.

Azərbaycan Respublikasının Rabitə və İnformasiya Texnologiyaları Nazirliyi ilə Koreya Respublikasının İnformasiya və Rabitə Nazirliyi arasında Elektron hökumətin formalaşdırılması sahəsində əməkdaşlıq üzrə anlaşma memorandumunu Azərbaycan tərəfin-

dən rabitə və informasiya texnologiyaları naziri Əli Abbasov, Cənubi Koreya tərəfindən informasiya və rabitə naziri Ro Cun-hyonq imzaladılar.

Azərbaycan Respublikasının Nəqliyyat Nazirliyi ilə Koreya Respublikasının Tikinti və Nəqliyyat Nazirliyi arasında şəhər nəqliyyatı əməliyyatlarını intellektual idarəetmə sisteminin sahəsində əməkdaşlıq üzrə anlaşma memorandumunu Azərbaycan tərəfindən nəqliyyat naziri Ziya Məmmədov, Cənubi Koreya tərəfindən tikinti və nəqliyyat naziri Li Yonq-sup imzaladılar.

Azərbaycan Respublikasının Fövqəladə Hallar Nazirliyi ilə Koreya Respublikasının Milli Fövqəladə Halların İdarə Olunması Agentliyi arasında fövqəladə halların idarə olunması sahəsində əməkdaşlıq haqqında anlaşma memorandumunu Azərbaycan tərəfindən fövqəladə hallar naziri Kəmaləddin Heydərov, Cənubi Koreya tərəfindən Fövqəladə Halların İdarə Olunması Milli Agentliyinin rəhbəri Mun Von-kyonq imzaladılar.

Azərbaycan Respublikasının Dövlət Neft Şirkəti ilə Koreya Respublikasının Milli Neft Korporasiyası arasında anlaşma memorandumunu Azərbaycan tərəfindən sənaye və energetika naziri Natiq Əliyev, cənubi Koreya tərəfindən Milli Neft Korporasiyasının icraçı direktoru Hvanq Du-yul imzaladılar.

AZƏRBAYCAN RESPUBLİKASI VƏ KOREYA RESPUBLİKASI ARASINDA BİRGƏ BƏYANAT

23 aprel 2007-ci il

Koreya Respublikasının Prezidenti zati-aliləri cənab Roh Mu-hyunun dəvəti ilə Azərbaycan Respublikasının Prezidenti zati-aliləri cənab İlham Əliyev 23-25 aprel 2007-ci il tarixlərində Koreya Respublikasına dövlət səfəri etmişdir. İki ölkə başçıları bir çox ikitərəfli, regional və beynəlxalq məsələlər üzrə fikir mübadiləsi apardılar və qarşılıqlı etimad və hörmət əsasında ikitərəfli əməkdaşlığın inkişaf etdirilməsi səylərini davam etdirəcəklərini bir daha təsdiqlədilər.

1. Koreya Respublikasının Prezidenti Roh Mu-hyun və Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev (bundan sonra "hər iki tərəf" adlanacaq) iki ölkənin BMT Nizamnaməsinin məqsəd və prinsipləri və beynəlxalq hüququn digər ümumtanınmış normaları əsasında ikitərəfli əməkdaşlığın inkişafının davam etdirilməsi niyyətlərini təsdiqlədilər.

2. 1992-ci ildə iki ölkə arasında diplomatik əlaqələrin qurulmasından sonra ikitərəfli əməkdaşlığın sabit inkişafının Prezident Roh Mu-hyunun rəsmi səfəri çərçivəsində 11 may 2006-cı ildə imzalanmış "Azərbaycan Respublikası və Koreya Respublikası arasında münasibətlərin və əməkdaşlığın prinsipləri haqqında Birgə Bəyannamə" ilə daha da möhkəmləndiyini qeyd edərək, hər iki tərəf hökumətlərarası, parlamentlərarası mübadilə, eləcə də iki ölkənin Xarici İşlər Nazirlikləri arasında yüksək səviyyəli məsləhətləşmələr də daxil olmaqla ikitərəfli dialoqun təşviq edilməsi niyyətlərini ifadə etdilər.

3. Hər iki tərəf beynəlxalq birlik tərəfindən çevik fəaliyyət tələb edən beynəlxalq və regional məsələlər üzrə mühüm fikir mübadiləsi apardılar və həmin məsələlər üzrə ümumi maraq və mövqelərini təsdiqlədilər.

a. Azərbaycan tərəfi Koreya yarımadasında sülhün təşviqi, eləcə də Şimal-Şərqi Asiyada ümumi rifaha nail olunması məqsədi daşıyan Koreya Respublikasının sülh və rifah siyasətinə dəstəyini ifadə etdi və Koreya tərəfinin Şimali Koreyanın nüvə məsələsini sülh yolu ilə həll etmək səylərini dəstəklədi.
b. Hər iki Tərəf Birləşmiş Millətlər Təşkilatının Təhlükəsizlik Şurasının müvafiq qətnamələrinə və ATƏT-in Lissabon sammitinin üç prinsipinə diqqət yetirərək, suverenliyə və ərazi bütövlüyünə hörmət əsasında Azərbaycan və Ermənistan arasında Dağlıq Qarabağ münaqişəsinin sülh yolu ilə həll edilməsinin əhəmiyyətini vurğuladılar.
c. Hər iki tərəf sülh və təhlükəsizlik, inkişaf və insan hüquqları məsələlərində BMT-nin vacib rolunu bir daha təsdiq edərək beynəlxalq terrorizm, narkotiklərin, psixotrop maddələrin və onların prekursorlarının qeyri-qanuni dövriyyəsi, transmilli mütəşəkkil cinayətkarlıq, insan və silah alveri və kütləvi qırğın silahlarının yayılması kimi qlobal təhlükəsizliyə və sabitliyə təhlükə törədən ümumi təhdidlərə qarşı mübarizədə əməkdaşlıq etmək barədə razılığa gəldilər.

4. Hər iki Tərəf ticarət və investisiya sahəsində əməkdaşlığın möhkəmləndirilməsinin vacibliyini təsdiqləyərək, "Azərbaycan Respublikası Hökuməti və Koreya Respublikası Hökuməti arasında sərmayələrin təşviqi və qorunması haqqında Saziş" və enerji, tikinti, nəqliyyat və kommunikasiya sahələrində bir sıra razılaşmalar imzaladılar.

Qarşıdakı illərdə Azərbaycan-Koreya münasibətlərinin hüquqi bazasının genişləndirilməsi məqsədilə hər iki tərəf iki ölkə arasında ikiqat vergitutmanın aradan qaldırılması haqqında Saziş də daxil olmaqla digər saziş və anlaşma memorandumları üzrə aparılan işlərin sürətləndirilməsi barədə razılığa gəldilər.

5. Hər iki tərəf enerji və digər təbii ehtiyatlar sahəsində əməkdaşlığın genişləndirilməsinin vacibliyini ifadə etdilər. Azərbaycan tərəfi Koreya Milli Neft Korporasiyası (KNOC) və digər Koreya şirkətlərinin Azərbaycanda təbii ehtiyatlar və sosial infrastrukturun inkişafına dair qarşılıqlı fayda məqsədi daşıyan təkliflərini alqışladı.

6. Hər iki tərəf ikitərəfli əməkdaşlığın daha da inkişaf etdirilməsi məqsədilə ticarət, iqtisadi, elmi və texnoloji əməkdaşlıq üzrə Azərbaycan-Koreya Komissiyasını təsis edərək, Hökumətlərarası məsləhətləşmələri genişləndirmək barədə razılığa gəldilər.

7. Hər iki tərəf diplomatik və xidməti pasportlara malik şəxslərin vizasız gediş-gəlişi haqqında Sazişin imzalanması yolu ilə iki ölkə arasında viza prosesini sadələşdirmək niyyətlərini ifadə etdilər.

8. Koreya tərəfi Azərbaycanın iqtisadi inkişaf və islahatlar yolunda mühüm nailiyyətlərini alqışlayaraq Azərbaycanın ÜTT-ə qəbul olması niyyətini dəstəklədi.

9. Hər iki tərəf insan, mədəniyyət, təhsil və turizm mübadiləsini təkmilləşdirməklə hər iki ölkənin xalqları arasında qarşılıqlı anlaşmanı və dostluğu genişləndirmək və dərinləşdirmək barədə razılığa gəldilər.

10. Hər iki tərəf Azərbaycan Prezidentinin səfərinin çox uğurlu keçdiyini qeyd etdilər. Azərbaycan Respublikasının Prezidenti zati-aliləri cənab İlham Əliyev Koreya Respublikası Hökuməti və xalqı tərəfindən xoş qarşılanmaya və səmimi qonaqpərvərliyə görə öz təşəkkürünü bildirdi.

Seul şəhərində 23 aprel 2007-ci il tarixində iki əsl nüsxədə, hər biri Azərbaycan, Koreya və İngilis dillərində olmaqla imzalanmışdır.

AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ	KOREYA RESPUBLİKASININ PREZİDENTİ
İLHAM ƏLİYEV	*ROH MU-HYUN*

AZƏRBAYCAN RESPUBLİKASI HÖKUMƏTİ VƏ KOREYA RESPUBLİKASI HÖKUMƏTİ ARASINDA SƏRMAYƏLƏRİN TƏŞVİQİ VƏ QORUNMASI HAQQINDA SAZİŞ

23 aprel 2007-ci il

Bundan sonra "Razılığa gələn Tərəflər" adlandırılan, Azərbaycan Respublikası Hökuməti və Koreya Respublikası Hökuməti,

İki ölkənin qarşılıqlı faydası üçün iqtisadi əməkdaşlığını uzunmüddətlilik əsasında sürətləndirilməsini istəyərək,

Bərabərlik və ədalətlilik prinsipi əsasında bir Razılığa gələn Tərəfin sərmayəçilərinin digər Razılığa gələn Tərəfin dövləti ərazisində sərmayələri üçün əlverişli şərait yaratmaq məqsədilə,

bu Saziş əsasında sərmayələrin təşviqi və qorunmasının ayrı-ayrı biznes təşəbbüslərin yaranmasına təkan verəcəyini və hər iki ölkədə rifah səviyyəsinin artacağını etiraf edərək,

aşağıdakılar barədə razılığa gəldilər:

MADDƏ 1
TƏRİFLƏR

Bu Sazişin məqsədi üçün:

1. "İnvestisiya" termini – bir Razılığa gələn Tərəfin sərmayəçisinin digər Razılığa gələn Tərəfin dövlət ərazisində investisiya edilən, xüsusi halda aşağıdakılar daxil olmaqla, lakin istisna olmamaqla, əmlakın hər hansı növü deməkdir:

a. daşınan və daşınmaz əmlak və ya ipotekalar, girov hüquqları, girovlar, lizinqlər və oxşar hüquqlar kimi hər hansı mülkiyyət hüquqları;
b. paylar, səhmlər, istiqrazlar və ya şirkətdə iştirakın digər forması və bundan törəyəcək hüquqlar və mənfəətlər;
c. pul və ya iqtisadi dəyərə malik və müqavilə çərçivəsində olan icra hüquqlarına iddialar;
d. patentlər, müəlliflik hüquqları, texniki proseslər, ticarət nişanları, sənaye modelləri, firma adları, ticarət sirləri və "nou-hau" və "qudvil" kimi əqli mülkiyyət hüquqları;
e. təbii ehtiyatların kəşfiyyatı, işlənməsi, çıxarılması və ya istismarı üzrə konsessiyalar da daxil olmaqla, qanun və ya kontrakt əsasında verilən və iqtisadi dəyərə malik işgüzar konsessiyalar.

Əmlakın sərmayə və ya yenidən sərmayə formasında edilən hər hansı bir dəyişiklik onun sərmayə kimi dəyərləndirilməsinə təsir etmir.

2. "Gəlir" termini – sərmayələrdən əldə edilən məbləğlər və xüsusi halda, lakin istisna olmamaqla, mənfəət, dividentlər, faizlər, royaltilər, kapital artımı və ya sərmayələrə aid bu cür istənilən ödəmələr deməkdir.

3. "Sərmayəçi" termini – Razılığa gələn bir Tərəfin ərazisində investisiya qoyan digər Razılığa gələn tərəfin fiziki və hüquqi şəxsləri;

a. "fiziki şəxs" – Razılığa gələn bir Tərəfin qanunlarına uyğun olaraq onun dövlətinin vətəndaşı olan hər hansı fiziki şəxsdir;
b. "hüquqi şəxs" – Razılığa gələn bir Tərəfin qanun və qaydalarına müvafiq olaraq yaradılmış şirkətlər, ictimai birliklər, fondlar, tərəfdaşlıqlar, korporasiyalar, firmalar, işgüzar assosiasiyalar, təsisatlar və ya bənzər təşkilatlar kimi hər hansı hüquqi şəxs deməkdir.

4. "Ərazi" – termini:

Azərbaycan Respublikasına münasibətdə – Azərbaycan Respublikasının ərazisi;

Koreya Respublikasına münasibətdə – Koreya Respublikasının ərazisi.

5. "sərbəst dönərli valyuta" termini – Beynəlxalq ödəniş əməliyyatlarında geniş istifadə olunan, həmçinin mühüm beynəlxalq valyuta bazarlarında geniş mübadilə olunan valyuta.

MADDƏ 2
SƏRMAYƏLƏRİN TƏŞVİQİ VƏ QORUNMASI

1. Hər bir Razılığa gələn Tərəf öz qanun və qaydalarına uyğun olaraq digər Razılığa gələn Tərəfin sərmayəçilərinin sərmayələrini təşviq edəcək, onlar üçün əlverişli şərait yaradacaq və bu cür sərmayə qoyuluşlarına icazə verəcək.

2. Hər bir Razılığa gələn Tərəf hər zaman öz dövlət ərazisində digər Razılığa gələn Tərəfin sərmayəçilərinin sərmayələrinə ədalətli rejim tətbiq edəcək və tam və daimi qorunma və təhlükəsizlik təmin edəcəkdir.

3. Heç bir Razılığa gələn Tərəf öz dövlət ərazisində digər Razılığa gələn Tərəfin sərmayəçilərinin sərmayələrinin idarə edilməsinə, saxlanmasına, istifadəsinə, onlardan faydalanmasına, əldə edilməsinə və ya satışına səbəbsiz, əsassız və ya ayrı-seçkilik yolu ilə qarışmayacaqdır.

MADDƏ 3
SƏRMAYƏLƏRƏ TƏTBİQ OLUNAN REJİM

1. Hər bir Razılığa gələn Tərəf, ərazisində sərmayə qoymuş digər Razılığa gələn Tərəfin sərmayəçilərinin sərmayələrinə və gəlirlərinə, öz və yaxud hər hansı bir üçüncü ölkənin sərmayəçilərinin sərmayələri və gəlirlərinə tətbiq etdiyi rejimdən, hansı daha əlverişli olarsa, az əlverişli olmayan rejim tətbiq edəcəkdir.

2. Hər bir Razılığa gələn Tərəf öz dövlətinin ərazisində digər Razılığa gələn Tərəfin sərmayəçilərinin sərmayələrinin idarə edilməsinə, saxlanmasına, istifadəsinə, onlardan faydalanmasına, əldə edilməsinə və ya satışına öz ölkəsinin və ya hər hansı bir üçüncü

ölkənin sərmayəçilərinə tətbiq etdiyi rejimdən, hansı daha əlverişli olarsa, az əlverişli olmayan rejim tətbiq edəcək.

3. Hazırkı maddənin 1-ci və 2-ci bəndlərində müddəaları, bir Razılığa gələn Tərəfin, digər Razılığa gələn Tərəfin sərmayəçilərinə hər hansı rejimdən irəli gələn fayda, imtiyaz və ya güzəştin aid edilməsi öhdəliyi kimi izah olunmayacaqdır:

a. Razılığa gələn Tərəflərdən birinin üzv olduğu və ya üzv ola biləcəyi hər hansı mövcud və ya gələcəkdə yaradılacaq azad ticarət zonası, gömrük ittifaqı, iqtisadi birlik, regional iqtisadi inteqrasiya Sazişi və ya oxşar beynəlxalq Saziş.
b. Tam və ya əsasən vergitutmaya aid olan hər hansı beynəlxalq Saziş və ya razılaşma.

MADDƏ 4
ZƏRƏRƏ GÖRƏ KOMPENSASİYA

1. Bir Razılığa gələn Tərəfin sərmayəçilərinə, digər Razılığa gələn Tərəfin dövlət ərazisindəki sərmayələri sonuncu Razılığa gələn Tərəfin dövlət ərazisində baş verən müharibə və ya başqa silahlı münaqişə, fövqəladə vəziyyət, üsyan, qiyam və ya iğtişaş nəticəsində ziyan çəkirsə, restitusiya, əvəz ödəmə, kompensasiya və ya hər hansı başqa ödənişlərə münasibətdə, sonuncu Razılığa gələn Tərəfin öz sərmayəçilərinə və ya hər hansı üçüncü dövlətin sərmayəçilərinə yaratdığı rejimdən, sərmayəçi üçün hansı daha əlverişlidirsə, az əlverişli olmayan rejim sonuncu Razılığa gələn Tərəf tərəfindən tətbiq ediləcəkdir. Yekun ödəmələr sərbəst dönərli valyuta ilə təxirə salınmadan köçürülməlidir.

2. Bu Maddənin 1-ci bəndinə xələl gətirmədən, bir Razılığa gələn Tərəfin sərmayəçisinə, o, bu bənddə göstərilən hər hansı bir vəziyyətdə, digər Razılığa gələn Tərəfin dövlət ərazisində aşağıdakılar nəticəsində ziyan çəkirsə:

a. sonuncu Razılığa gələn Tərəfin silahlı qüvvələri və ya hakimiyyət orqanları tərəfindən onun mülkiyyətinin müsadirəsi, və ya
b. sonuncu Razılığa gələn Tərəfin silahlı qüvvələri və ya hakimiyyət orqanları tərəfindən onun mülkiyyətinin, vəziyyətin zəruriliyi tələb etmədən məhv edilməsi,

dərhal, digər Razılığa gələn tərəfin və ya hər hansı bir ölkənin sərmayəçilərinə tətbiq edilən adekvat və səmərəli restitusiya və ya kompensasiyadan daha az olmayan rejim tətbiq ediləcəkdir. Yekun ödəmələr səmərəli şəkildə həyata keçirilməli, sərbəst dönərli valyuta ilə və təxirə salınmadan köçürülməlidir.

MADDƏ 5
EKSPROPRİASİYA

1. Bir Razılığa gələn Tərəfin sərmayəçilərinin sərmayələri digər Razılığa gələn Tərəfin dövlət ərazisində, ictimai mənafenin tələb etdiyi, ayrı-seçkiliyə yol vermədən, qanun tələblərinə uyğun olaraq və dərhal, adekvat və səmərəli kompensasiyanın ödənilməsi halları istisna olmaqla, ekspropriasiyaya, milliləşdirməyə və ya, birbaşa və ya dolayısı, ekspropriasiyaya və ya milliləşdirməyə (bundan sonra "ekspropriasiya" adlanır) bərabər təsirə malik olan hər hansı digər tədbirlərə məruz qalmayacaqlar.

2. Bu cür kompensasiya, ekspropriasiyanın həyata keçirildiyi və ya nəzərdə tutulmuş ekspropriasiyanın ictimaiyyətə məlum olduğundan, hansı daha əvvəldirsə, bilavasitə əvvəlki vaxtda ekspropriasiya edilmiş sərmayənin ədalətli bazar dəyərinə bərabər olacaqdır və bu məbləğə ekspropriasiya tarixindən ödəniş tarixinə qədər mövcud olan kommersiya faiz dərəcəsi daxil olacaqdır. Kompensasiya gecikdirilmədən ödəniləcək, sərbəst dönərli valyuta ilə köçürüləcək. Həm ekspropriasiya həm də kompensasiya üçün, Razılığa gələn tərəfin öz sərmayəçilərə və ya hər hansı bir üçüncü ölkənin sərmayəçisinə tətbiq etdiyi rejimdən daha az əlverişli olmayan rejim tətbiq ediləcəkdir.

3. Sərmayələri ekspropriasiya edilmiş sərmayəçi, onun işinə və bu Maddədə ifadə olunmuş prinsiplərə müvafiq olaraq onun sərmayələrinin qiymətləndirilməsinə, qəbul edən Razılığa gələn Tərəfin məhkəmə və ya digər səlahiyyətli orqanı tərəfindən təxirə salınmadan yenidən baxılması hüququna malik olacaqdır.

4. Bir razılığa gələn tərəfin sərmayəçilərinin digər razılığa gələn tərəfin qanun və qaydalarına müvafiq olaraq qurulmuş şirkətlərin səhmlərinə və ya digər şəriklik formalarına sahib olmaları və bu şirkətin mülkiyyətinin sonuncu tərəfindən ekspropriasiya edilməsi halında bu maddənin müddəaları tətbiq ediləcəkdir.

MADDƏ 6
SƏRBƏST KÖÇÜRMƏ

1. Hər bir Razılığa gələn Tərəf digər Razılığa gələn Tərəfin sərmayəçilərinə, sərmayələrinin və gəlirlərinin sərbəst köçürülməsini təmin edəcək. Belə ödəmələrə xüsusi halda, lakin istisna olmamaqla:

a. xalis mənfəət, kapital artımı, dividentlər, faizlər, royaltilər, lisenziya ödəmələri və sərmayədən əldə edilən digər bütün gəlir növləri;
b. sərmayənin satışından və ya tam və ya hissəsinin ləğvindən əldə edilən vəsaitlər;
c. sərmayələrlə bağlı kreditlərin qaytarılması üçün tələb olunan vəsait;
d. investisiyalarla bağlı, bir Razılığa gələn Tərəfin ərazisində işləməyə icazə verilən digər Razılığa gələn tərəfin vətəndaşlarının qazancları;
e. mövcud investisiyaların saxlanılması və ya inkişafı üçün tələb olunan əlavə vəsait;
f. digər Razılığa gələn ölkənin və ya üçüncü bir ölkənin ərazisində, investisiyanın idarə olunması üçün xərclənən məbləğlər;
g. 4-cü və 5-ci maddələrə müvafiq ödənilən kompensasiyalar.

2. Bu Sazişlə bağlı bütün köçürmələr heç bir məhdudiyyətsiz və ya təxirə salınmadan, sərbəst dönərli valyutada və köçürmə valyutasının köçürmə günü tətbiq edilən, üstünlük təşkil edən bazar mübadilə məzənnəsi ilə həyata keçiriləcəkdir.

MADDƏ 7
SUBROQASİYA

1. Bir Razılığa gələn Tərəf və ya onun təyin etdiyi agentlik (qarant), sərmayənin risklərinə görə verilən zəmanət əsasında öz sərmayəçilərinə ödəmə həyata keçirərsə, qəbul edən Razılığa gələn Tərəf:

a. hüquq və ya bu ölkədə mövcud olan rəsmi razılaşmaya uyğun olaraq hər hansı hüququn və ya sərmayəçiləri tərəfindən irəli sürülən iddiaların ilkin Razılığa gələn Tərəfə və ya onun təyin etdiyi agentə təhvil verilməsini; və
b. hüquqlardan istifadə və o sərmayəçilərin iddialarının həyata keçirilməsi üçün subroqasiya əsasında təyin edilmiş ilkin Razılığa gələn Tərəfi və ya onun təyin etdiyi agenti tanıyacaq.

2. Subroqasiya edilən hüquq və iddialar sərmayəçinin əsas hüquq və iddialarının sərhədlərindən kənara çıxmayacaq.

MADDƏ 8
BİR RAZILIĞA GƏLƏN TƏRƏF İLƏ DİGƏR RAZILIĞA GƏLƏN TƏRƏFİN SƏRMAYƏÇİSİ ARASINDA İNVESTİSİYALARLA BAĞLI ORTAYA ÇIXAN MÜBAHİSƏLƏRİN TƏNZİMLƏNMƏSİ

1. Bir Razılığa gələn Tərəf ilə digər Razılığa gələn Tərəfin sərmayəçisi arasında, ekspropriasiya və dövlət tərəfindən müsadirə də daxil olmaq şərtilə, bu müqavilə çərçivəsində götürülən öhdəliyin pozulmasından ortaya çıxan istənilən mübahisələr imkan dairəsində dostca tənzimlənəcəkdir.

2. Ərazisində sərmayə qoyulan Razılığa gələn Tərəfin hüquq və qaydaları çərçivəsində mövcud olan hüquq mühafizə vasitələrindən, ölkənin öz sərmayəçiləri və ya istənilən üçüncü ölkə sərmayəçiləri üçün tətbiq edilən rejimdən hansı daha əlverişlidirsə digər Razılığa gələn Tərəfin sərmayəçiləri da faydalanacaq.

3. Əgər mübahisə, Tərəflər arasında ortaya çıxarıldığı tarixdən etibarən 6 ay ərzində həll olunmazsa və əgər sərmayəçi bu Maddənin 2 paraqrafının eyni mübahisə ilə bağlı prosedurlarının tanıdığı hüquqlardan imtina edirsə, mübahisə, razılığa gələn tərəf sərmayəçinin müraciəti ilə:

a. "İnvestisiyalarla bağlı mübahisələrin tənzimlənməsi üzrə Beynəlxalq Mərkəz"ə (İMTBM) (Ölkələr və digər Ölkələrin vətəndaşları arasında ortaya çıxan İnvestisiya mübahisələrinin Tənzimlənməsi üzrə Konvensiya, 18 mart 1965-ci il, Vaşinqton), və ya
b. əgər İMTBM-in imkanı yoxdursa, Mərkəzin əlavə bir qurumuna, və ya
c. UNCİTRAL Arbitraj qaydalarına uyğun olaraq, və ya
d. mübahisə tərəflərinin razılığına əsasən, istənilən digər hüquq normalarına uyğun olaraq və ya istənilən digər məhkəmə qurumuna təqdim olunacaqdır.

4. Sərmayəçi, 3-cü bəndə əsasən mübahisəli məsələni beynəlxalq məhkəməyə çıxarmış olmağına baxmayaraq, mübahisə tərəfi olan digər Razılığa gələn tərəfin inzibati və hüquqi tribunalından qabaq öz hüquq və maraqlarını müdafiə etmək məqsədi ilə müvəqqəti təyin olunmuş vəsait axtara bilər.

5. Hər bir Razılığa gələn Tərəf bununla, mübahisəli məsələnin, Sazişlə müəyyənləşdirilən proseedurlarla, məhkəməyə çıxarılmasına razı olurlar.

6. Bu maddədə göstərilən beynəlxalq məhkəmənin çıxardığı qərar hər iki tərəf üçün sonuncu və məcburi olacaq. Hər iki Razılığa gələn Tərəf, müvafiq qanun və qaydaları çərçivəsində, çıxarılan qərarın tanınmasını və tətbiq olunmasını təmin edəcəkdir.

MADDƏ 9
RAZILIĞA GƏLƏN TƏRƏFLƏR ARASINDAKI MÜBAHİSƏLƏRİN HƏLLİ

1. Əgər mümkün olarsa, bu Sazişin təfsiri və tətbiqi ilə bağlı Razılığa gələn Tərəflər arasında mübahisələr diplomatik kanallar və ya məsləhətləşmələr yolu ilə həll ediləcəkdir.

2. Əgər mübahisə hər hansı bir Razılığa gələn Tərəfin belə danışıqların aparılması haqqında müraciət etdiyi tarixdən etibarən altı ay ərzində bu cür həll edilə bilinmirsə, o hər hansı bir Razılığa gələn Tərəfin müraciəti əsasında Arbitraj Məhkəməsinə verilə bilər.

3. Bu cür Arbitraj Məhkəməsi hər bir fərdi iş üçün aşağıdakı yolla təsis olunacaqdır: Arbitraj haqqında müraciətin alındığı tarixdən etibarən iki ay ərzində hər bir Razılığa gələn Tərəf Məhkəmənin bir üzvünü təyin edəcəkdir. Sonra bu iki üzv hər iki Razılığa gələn Tərəfin razılığı əsasında Məhkəmənin Sədri kimi təyin olunacaq üçüncü dövlətin vətəndaşını seçəcəklər. Sədr digər iki üzvlərin təyin olunduğu vaxtdan sonra iki ay ərzində təyin olunacaqdır.

4. Əgər bu Maddənin 3-cü bəndində göstərilən müddətlər ərzində lazımi təyinatlar həyata keçirilməzsə, hər hansı bir Razılığa gələn Tərəf Beynəlxalq Məhkəmənin Sədrini hər hansı zəruri təyinatların verilməsi barədə müraciət edə bilər. Əgər Sədr hər hansı bir Razılığa gələn Tərəfin vətəndaşıdırsa və ya hər hansı səbəbdən göstərilən funksiyanı yerinə yetirə bilmirsə, təyinatların keçirilməsi üçün Sədr müavini dəvət ediləcəkdir. Əgər sədr müavini də hər hansı bir Razılığa gələn Tərəfin vətəndaşıdırsa və ya göstərilən funksiyanı yerinə yetirə bilməkdən məhrumdursa, Razılığa gələn Tərəflərdən heç birinin vətəndaşı olmayan Beynəlxalq Məhkəmənin rütbəcə sonra gələn üzvü zəruri təyinatların həyata keçirilməsinə dəvət ediləcəkdir.

5. Arbitraj Məhkəməsi öz qərarını səs çoxluğu ilə qəbul edəcəkdir. Məhkəmənin qərarları hər iki Razılığa gələn Tərəf üçün məcburi olacaqdır.

6. Hər bir Razılığa gələn Tərəf özünün təyin etdiyi üzvünün və özünün məhkəmə prosesində təmsil edilməsi ilə bağlı xərclərini ödəyəcəkdir. Hər iki Razılığa gələn Tərəf, Sədrin xərcini, həmçinin digər ümumi xərcləri bərabər hissədə öz üzərinə götürəcəkdir. Məhkəmə həmçinin, xərclərin çox hissəsinin Razılığa gələn Tərəflərdən biri tərəfindən ödənilməsi ilə bağlı qərar qəbul edə bilər.

MADDƏ 10
DİGƏR QAYDALARIN TƏTBİQİ

1. Əgər məsələ eyni zamanda həm bu Saziş həm də hər iki Razılığa gələn Tərəfin imzaladığı digər bir beynəlxalq sazişlə və ya beynəlxalq hüququn ümumi prinsipləri ilə tənzimlənirsə, bu Saziş heç bir şəkildə istənilən razılığa gələn tərəfi və ya onların sərmayəçilərini özləri üçün daha əlverişli olan normativdən istifadə etmək hüququna məhdudiyyət gətirməyəcək.

2. Əgər bir Razılığa gələn Tərəfin öz hüquq və normativləri və ya digər xüsusi müddəalar və müqavilələr əsasında digər Razılığa gələn Tərəfin sərmayəçilərinə tətbiq etdiyi rejim bu müqavilə ilə nəzərdə tutulan rejimdən daha əlverişlidirsə, daha əlverişli olan rejim tətbiq olunacaqdır.

3. Razılığa gələn Tərəflərdən hər biri öz ərazisində digər Razılığa gələn Tərəfin sərmayəçilərinin investisiyaları ilə əlaqədar üzərinə götürə biləcəyi hər hansı digər öhdəliyi yerinə yetirəcəkdir.

MADDƏ 11
SAZİŞİN TƏTBİQİ

Bu Saziş onun qüvvəyə mindiyi tarixdə mövcud olan, həmçinin sonra təsis ediləcək və ya əldə ediləcək sərmayələrə münasibətdə tətbiq ediləcək, lakin bu Sazişin qüvvəyə mindiyi tarixdən əvvəl sərmayələrlə əlaqədar meydana çıxmış mübahisələrə aid edilməyəcəkdir.

MADDƏ 12
QÜVVƏYƏ MİNMƏ, QÜVVƏDƏ QALMA VƏ QÜVVƏDƏN DÜŞMƏ

1. Tərəflər, bu Sazişin qüvvəyə minməsi üçün zəruri dövlətdaxili prosedurların yerinə yetirilməsi haqqında bir-birini məlumatlandıracaqlar. Bu Saziş sonuncu bildirişin alındığından on üç gün sonra qüvvəyə minəcəkdir.

2. Bu Saziş iyirmi (20) il müddətində qüvvədə qalacaqdır və hər hansı bir Razılığa gələn Tərəfin digərinə Sazişin ləğv edilməsi barədə niyyəti haqqında bir il qabaq yazılı surətdə məlumat vermədə, bundan sonra o, eyni şərtlər əsasında qüvvədə qalacaqdır.

3. Bu Sazişin ləğv edilməsi vaxtından əvvəl qoyulmuş sərmayələrə münasibətdə onun 1-11-ci Maddələrinin müddəaları, bu Sazişin ləğv olunduğu tarixdən etibarən daha iyirmi (20) illik müddət ərzində qüvvədə qalacaqdır.

BUNUN TƏSDİQİ OLARAQ, bunun üçün lazımi surətdə səlahiyyətlər almış, aşağıda imza etmiş təmsilçilər, hazırkı Sazişi imzaladılar.

Seul şəhərində 23 aprel 2007-ci il tarixində, hər biri Azərbaycan, Koreya və İngilis dillərində olmaqla, iki əsl nüsxədə imzalanmışdır, bütün mətnlər eyni qüvvəyə malikdir. Təfsirdə hər hansı fikir ayrılığı olduğu təqdirdə, ingilis dilində olan mətn üstünlük təşkil edəcəkdir.

AZƏRBAYCAN RESPUBLİKASININ İQTİSADİ İNKİŞAF NAZİRİ	KOREYA RESPUBLİKASININ XARİCİ İŞLƏR VƏ XARİCİ TİCARƏT NAZİRİ
HEYDƏR BABAYEV	*SONQ MİN-SUN*

AZƏRBAYCAN RESPUBLİKASININ NƏQLİYYAT NAZİRLİYİ VƏ KOREYA RESPUBLİKASININ TİKİNTİ VƏ NƏQLİYYAT NAZİRLİYİ ARASINDA ŞƏHƏR NƏQLİYYATI ƏMƏLİYYATLARINI İNTELLEKTUAL İDARƏETMƏ SİSTEMİNİN YARADILMASI SAHƏSİNDƏ ANLAŞMA MEMORANDUMU

23 aprel 2007-ci il

Azərbaycan Respublikasının Nəqliyyat Nazirliyi və Koreya Respublikasının Tikinti və Nəqliyyat Nazirliyi (bundan sonra "Tərəflər");

şəhər nəqliyyatı əməliyyatlarını intellektual idarəetmə sisteminin (bundan sonra "İNS")

yaradılması sahəsində əməkdaşlıq etmək məqsədilə;

aşağıdakılar barədə razılığa gəldilər:

MADDƏ 1
MƏQSƏDLƏR

1. Bu Anlaşma Memorandumu (bundan sonra "Memorandum") üzrə əməkdaşlığın məqsədləri Koreya Respublikasının Tikinti və Nəqliyyat Nazirliyinin İNS-in yaradılmasında fəal iştirak etməsi, eləcə də Azərbaycan Respublikası tərəfindən yaradılması nəzərdə tutulan İNS-lə bağlı layihələr üzrə inzibati, texniki və mütəxəssis baxımından dəstək göstərilməsi, beləliklə də Azərbaycan Respublikasında İNS-in uğurla qurulmasına səy göstərilməsidir.

2. Bu Memorandum iki ölkənin müvafiq qayda və qanunları daxilində həyata keçiriləcəkdir.

MADDƏ 2
ƏMƏKDAŞLIQ SAHƏLƏRİ

Bu Memorandum çərçivəsində əməkdaşlıq aşağıdakı istiqamətləri əhatə edir:

a. İNS ilə əlaqədar müasir texnologiya və məlumatların mübadiləsi;
b. Bakı şəhərinin nəqliyyat probleminin, tıxacların həlli və tez və təhlükəsiz nəqliyyatı təmin etmək məqsədilə küçə, yol və prospektin buraxılış qabiliyyətinin arasında İNS-in tətbiq edilməsi mümkünlüyünün araşdırılması;
c. Bu Maddənin b alt bəndində nəzərdə tutulmuş müddəaların gerçəkləşdirilməsi məqsədilə müvafiq tədqiqat işlərinin aparılması və layihənin həyata keçirilməsi;
d. İNS sahəsində mütəxəssislərin hazırlanması;
e. Şəhər nəqliyyatının tənzimlənməsi və idarə olunmasını təmin edən normativ-hüquqi sənədlərin və standartların işlənib hazırlanması;
f. Tərəflər arasında birgə razılaşdırıla bilən hər hansı digər əməkdaşlıq formaları.

MADDƏ 3
İCRASI

Tərəflər bu Memorandumun məqsədlərinə nail olmaq üçün hökumət və ya özəl təşkilatlar və digər qurumlar arasında birbaşa əlaqələri və əməkdaşlığı həvəsləndirəcək yardım edəcək, onlar arasında birgə proqramların tərtib edilməsini dəstəkləyəcəklər.

MADDƏ 4
QÜVVƏYƏ MİNMƏ VƏ QÜVVƏDƏN DÜŞMƏ

1. Bu Memorandum imzalandığı gündən qüvvəyə minir və Tərəflərdən birinin bu Memorandumu ləğv etmək niyyətindən 90 gün əvvəl bu barədə yazılı müraciəti daxil olana qədər qüvvədə qalır.

2. Bu Memoranduma Tərəflərin qarşılıqlı yazılı razılığı ilə düzəlişlər edilə bilər.

Bu Memorandum Seul şəhərində 23 aprel 2007-ci il tarixində Azərbaycan, Koreya və İngilis dillərində olmaqla iki nüsxədə imzalanmışdır, bütün mətnlər eyni hüquqi qüvvə-

yə malikdirlər. Bu Memorandumun müddəalarının təfsiri zamanı mübahisələr yaranarsa, İngilis dilində olan varianta üstünlük veriləcəkdir.

AZƏRBAYCAN RESPUBLİKASININ NƏQLİYYAT NAZİRİ	KOREYA RESPUBLİKASININ TİKİNTİ VƏ NƏQLİYYAT NAZİRİ
ZİYA MƏMMƏDOV	*Lİ YONQ-SUP*

AZƏRBAYCAN RESPUBLİKASI RABİTƏ VƏ İNFORMASİYA TEXNOLOGİYALARI NAZİRLİYİ İLƏ KOREYA RESPUBLİKASI İNFORMASİYA VƏ RABİTƏ NAZİRLİYİ ARASINDA ELEKTRON HÖKUMƏTİN FORMALAŞDIRILMASI SAHƏSİNDƏ ƏMƏKDAŞLIQ ÜZRƏ ANLAŞMA MEMORANDUMU

23 aprel 2007-ci il

Bundan sonra "Tərəflər" adlandırılan Azərbaycan Respublikasının Rabitə və İnformasiya Texnologiyaları Nazirliyi ilə Koreya Respublikasının İnformasiya və Rabitə Nazirliyi,

Hər iki ölkənin sosial və iqtisadi inkişafı çərçivəsində informasiya və kommunikasiya texnologiyaları sahəsində qarşılıqlı faydalı əməkdaşlığı inkişaf etdirmək və möhkəmləndirməyi arzu edərək;

Hər iki ölkədə ictimaiyyət üçün səmərəli və dayanaqlı xidmətlərin yerinə yetirilməsi ilə əlaqədar ümumi məqsəd və maraqları bölüşərək;

Əməkdaşlığın hazırkı səviyyəsi və ümumi maraq kəsb edən ideyalar, məlumatlar, bilik və təcrübələr baxımından mübadilə yolu ilə təkmilləşdirilməsinin Tərəflər üçün faydalı olacağını hesab edərək;

Elektron hökumətin formalaşdırılması sahəsində tərəfdaşlığın, tədqiqat işlərinin, təcrübə mübadiləsinin və inkişaf məsələlərinin təşviq olunmasında və dəstəklənməsində hər iki ölkənin qarşılıqlı fayda və maraqlarını əsas götürərək,

Beynəlxalq arenada əməkdaşlıq münasibətlərini inkişaf etdirmək niyyəti ilə

aşağıdakı razılığa gəldilər:

MADDƏ 1

Tərəflər qarşılıqlı fayda əsasında, hər iki ölkənin milli qanunvericiliyinə, beynəlxalq hüququn normalarına və bu Anlaşma Memorandumunun müddəalarına uyğun olaraq ikitərəfli əməkdaşlıqlarını inkişaf etdirəcək və təkmilləşdirəcəklər.

MADDƏ 2

Tərəflər Elektron hökumətin formalaşdırılması sahəsində aşağıdakı ümumi əməkdaşlıq istiqamətlərini müəyyən edirlər:

a. Elektron hökumətin yaradılması, müşayiət edilməsi və inkişaf etdirilməsi və kadr təminatı;

b. Elektron imza xidməti;
c. Elektron hökumətin formalaşdırılması üçün zəruri olan kadr heyətinin yenidən hazırlanması;
d. Genişzolaqlı şəbəkə və e-xidmətlərin inkişaf etdirilməsi;
e. E-hökumət sahəsində standartlaşdırma və sertifikatlaşdırma;
f. İnformasiya təhlükəsizliyi;
g. Milli identifikasiya sistemi və açıq açar infrastrukturu;
h. Tərəflərin qarşılıqlı razılaşdığı digər sahələr.

MADDƏ 3

Bu Memorandum uyğun olaraq əməkdaşlıq tədbirləri aşağıdakı formalarda olacaqdır:

a. informasiya və kommunikasiya texnologiyaları siyasəti sahəsində əməkdaşlıq;
b. birgə layihələrə yardım etmək;
c. mütəxəssislərin, peşəkarların və nümayəndə heyətlərinin təcrübə mübadiləsi və qarşılıqlı işgüzar səfərlər;
d. bu Memorandumun 2-ci Maddəsində qeyd olunmuş sahələr üzrə informasiya və təcrübə mübadiləsi;
e. birgə texniki sərgilər, seminarlar və simpoziumların keçirilməsi;
f. əməkdaşlığın Tərəflər arasında razılaşdırılmış hər hansı digər formaları.

MADDƏ 4

Tərəflər bu Memorandumdan irəli gələn əməkdaşlıq tədbirlərinin inkişafına və bu Memorandum dair digər məsələlərin müzakirə olunması və həyata keçirilməsi üçün E-hökumət üzrə işçi qrup yaradacaqlar. İşçi qrup Tərəflərin təklif edəcəkləri nümayəndələrdən ibarət olacaq və tərəflərin razılaşdırdıqları qrafik əsasında əməkdaşlıq edəcəklər.

İşçi qrupun hər bir iclasından əvvəl Tərəflər İşçi qrupun tərkibini və müzakirə olunacaq məsələləri razılaşdıracaqlar.

Bu Memorandumdan irəli gələn məsələlərin həyata keçirilməsi üzrə Tərəflərin təyin etdikləri nümayəndələrin qarşılıqlı fəaliyyəti zamanı ingilis dili işçi dildir.

MADDƏ 5

Bu Memorandumun 2-ci, 3-cü və 4-cü maddələrində nəzərdə tutulan bütün əməkdaşlıq tədbirlərini hər bir ölkənin qanunvericiliyinə, Tərəflərin öhdəlik və funksiyalarına, eləcə də Tərəflərin imzaladıqları beynəlxalq konvensiya və razılaşmalara uyğun aparacaqlar.

Bu Memorandumun 2-ci, 3-cü və 4-cü maddələrində nəzərdə tutulan bütün əməkdaşlıq tədbirlərinin həyata keçirilməsi Tərəflərin maliyyə və digər resurslarının mövcudluğundan asılı olacaqdır. Əməkdaşlıq tədbirləri üzrə xərclər qarşılıqlı razılaşdırma şəklində Tərəflər arasında bölüşdürüləcəkdir.

MADDƏ 6

Tərəflərdən heç biri bu Memorandumdan irəli gələn əməkdaşlıq tədbirlərinin həyata keçirilməsi zamanı ötürülən hər hansı konfidensial informasiyanı, digər Tərəfin yazılı

icazə verdiyi hallar istisna olmaqla üçüncü Tərəfə açıqlamayacaqdır. Göstərilən müddəa hətta müddətin başa çatması və ya ləğv olunması nəticəsində Memorandum artıq qüvvədə olmadıqda belə etibarlı sayılacaqdır.

MADDƏ 7

Tərəflərin birgə qərarı ilə yazılı şəkildə bu Memoranduma düzəlişlər edilə bilər. Bu cür birgə qərarlar bu Memorandumun ayrılmaz hissəsi olacaq və qüvvəyə minməsi bu Memorandumun 9-cu Maddəsində qeyd edilmiş yolla həyata keçiriləcəkdir.

MADDƏ 8

Bu Memorandumun müddəalarının təfsiri və ya tətbiqində mübahisələr yarandığı təqdirdə Tərəflər onları məsləhətləşmələr yolu ilə həll edəcəkdir.

MADDƏ 9

Bu Memorandum imzalandığı tarixdən qüvvəyə minir və 5 (beş) il müddətinə bağlanılır . Əgər müvafiq beşillik müddətin başa çatmasına ən azı 6 (altı) ay qalmış Tərəflərdən biri digər Tərəfə onun qüvvəsini ləğv etmək niyyəti barədə yazılı bildiriş göndərməzsə, bu Memorandum avtomatik olaraq növbəti beşillik müddətinə uzadılır.

Bu Memoranduma xitam verilməsi inkişaf mərhələsində olan 2-ci və 3-cü maddələrdə qeyd olunmuş əməkdaşlıq tədbirlərinə təsir etməyəcəkdir.

Bu Memorandum Seul şəhərində 23 aprel 2007-ci il tarixində hər biri Azərbaycan, Koreya və İngilis dillərində olmaqla iki nüsxədə imzalanmışdır, bütün mətnlər eyni qüvvəyə malikdir.

Bu Memorandumun təfsirində fikir ayrılığı yarandığı təqdirdə Tərəflər ingilis dilində olan mətnə müraciət edəcəklər.

AZƏRBAYCAN RESPUBLİKASININ RABİTƏ VƏ İNFORMASİYA TEXNOLOGİYALARI NAZİRİ	KOREYA RESPUBLİKASININ İNFORMASİYA VƏ RABİTƏ NAZİRİ
ƏLİ ABBASOV	*RO CUN-HYONQ*

AZƏRBAYCAN RESPUBLİKASININ FÖVQƏLADƏ HALLAR NAZİRLİYİ VƏ KOREYA RESPUBLİKASININ FÖVQƏLADƏ HALLARIN İDARƏ OLUNMASI MİLLİ AGENTLİYİ ARASINDA FÖVQƏLADƏ HALLARIN İDARƏ OLUNMASI SAHƏSİNDƏ ƏMƏKDAŞLIQ HAQQINDA ANLAŞMA MEMORANDUMU

23 aprel 2007-ci il

Bundan sonra "Tərəflər" adlandırılacaq Azərbaycan Respublikasının Fövqəladə Hallar Nazirliyi və Koreya Respublikasının fövqəladə halların idarə olunması Milli Agentliyi,

təbii və texnogen mənşəli fövqəladə halların idarə olunmasında dəstək və qarşılıqlı əməkdaşlığın inkişaf etdirilməsində öz arzularını təsdiq edərək,

aşağıdakılar barədə razılığa gəldilər:

1. Hər iki ölkənin müvafiq qanunvericiliyinə uyğun olaraq, Tərəflər təbii və texnogen mənşəli fövqəladə halların idarə olunması sahəsində əməkdaşlıq edəcəklər.

2. Bu Anlaşma Memorandumu (bundan sonra "AM" adlandırılacaqdır) müharibə və ya kimyəvi, bioloji, radioloji və nüvə materialları ilə bağlı qəzalar nəticəsində törədilən fövqəladə halları əhatə etməyəcəkdir.

3. Bu Anlaşma Memorandumu (bundan sonra "AM" adlandırılacaqdır) heç bir beynəlxalq öhdəlik yaratmayacaqdır.

4. Bu AM çərçivəsində əməkdaşlıq fəaliyyətləri müvafiq fond və şəxsi heyətin mövcudluğundan asılıdır və aşağıdakıları əhatə edir:

a) fövqəladə halların idarə olunması üçün məlumat mübadiləsi;
b) fövqəladə halların idarə olunmasında axtarış-xilasetmə komandası və ekspertlərinin göndərilməsi və tədrisi;
c) erkən xəbərdarlıq sistemləri daxil olmaqla fövqəladə halların idarə olunmasının əsasının qoyulması və inkişaf etdirilməsi üzrə birgə tədqiqatlar və beynəlxalq təşkilatlarla əməkdaşlıq;
d) yanğınsöndürmə texnologiyalarının və məlumatların mübadiləsi;
e) axtarış-xilasetmə və fövqəladə tibbi xidmət üzrə əməliyyat təcrübəsinin mübadiləsi və gələcək təkmilləşdirmə üçün birgə tədqiqatlar;
f) fövqəladə hallara məruz qalmış insanlara yardımın göstərilməsi üçün təcrübə və bilik mübadiləsi; və
g) Tərəflər tərəfindən birgə qərara alına bilinən, öz səlahiyyətlərində olan digər başqa fövqəladə halların idarə olunması ilə bağlı fəaliyyətlər.

5. Bu Anlaşma Memorandumu imzalandığı gündən qüvvəyə minir. Hər hansı bir Tərəf ən azı altı (6) ay qabaq Anlaşma Memorandumuna xitam verilməsi ilə bağlı niyyətini digər Tərəfə yazılı şəkildə bildirməzsə, bu AM qüvvədə qalacaqdır.

Bu Anlaşma Memorandumu Seulda 23 aprel 2007-ci il tarixində Azərbaycan, Koreya və İngilis dillərində olmaqla imzalanmışdır. Bütün mətnlər bərabər autentikdir. Təfsirdə fikir ayrılığı yaranacağı təqdirdə, ingilis dilindəki mətn əsas götürüləcəkdir.

AZƏRBAYCAN RESPUBLİKASININ FÖVQƏLADƏ HALLAR NAZİRİ	KOREYA RESPUBLİKASI FÖVQƏLADƏ HALLAR İDARƏ OLUNMASI MİLLİ AGENTLİYİNİN RƏHBƏRİ
KƏMALƏDDİN HEYDƏROV	*MUN VON-KYONQ*

AZƏRBAYCAN RESPUBLİKASININ DÖVLƏT NEFT ŞİRKƏTİ İLƏ KOREYA RESPUBLİKASININ MİLLİ NEFT KORPORASİYASI ARASINDA ANLAŞMA MEMORANDUMU

23 aprel 2007-ci il

Azərbaycan Respublikası qanunları əsasında lazımi şəkildə təsis edilmiş və mövcud olan, Azərbaycan Respublikası, Bakı şəhəri, AZ 1000, Neftçilər prospekti 73 ünvanında qeydiyyatdan keçmiş AZƏRBAYCAN RESPUBLİKASI DÖVLƏT NEFT ŞİRKƏTİ ("ARDNŞ")

və

Koreya Respublikası qanunları əsasında lazımi şəkildə təsis edilmiş və mövcud olan, baş ofisi 1588-14, Gvanyang-dong, Dongan-gu, Anyang, Gyeonggi-do, 431-711, Koreа ünvanında yerləşən KOREYA MİLLİ NEFT KORPORASİYASI ("KMNK") arasında bağlanmışdır.

Yuxarıda adları çəkilən şirkətlər, onların müvafiq varisləri və təyin olunmuş nümayəndəlikləri (əgər varsa) mətndən asılı olaraq ayrılıqda "Tərəf" və ya birgə "Tərəflər" adlandırıla bilərlər.

NƏZƏRƏ ALARAQ Kİ,

ARDNŞ yerli və beynəlxalq neft və qaz sənayesində kəşfiyyat, işlənmə və hasilat biznesilə məşğul olur;

KMNK yerli və beynəlxalq neft və qaz sənayesində kəşfiyyat, işlənmə və hasilat biznesilə məşğul olur;

Tərəflər neft və qaz kəşfiyyatı, işlənməsi və hasilatı layihələrinin axtarışı, danışıqlar və zəmanəti işlərinə fəal cəlb olunmuşlar;

Tərəflər qarşılıqlı mənfəətli əməkdaşlığın sonrakı inkişafını təmin etmək niyyətindədirlər;

BUNUNLA TƏSDİQ EDİLİR Kİ, Tərəflər aşağıdakılar barədə razılığa gəlmişlər:

1. Əhatə dairəsi

1.1 KMNK Koreya və ya üçüncü ölkələrdə müxtəlif Layihələrdə olan şərik iştirakçıları ilə ARDNŞ-nin bu Layihələrdə iştirakı üçün danışıqlar aparacaq.

1.2 KMNK-nın Layihələrdə iştirakı barədə müsbət qərar qəbul olunduğu halda maraqlı tərəflər müvafiq Hasilatın Pay Bölgüsü Sazişlərinin müddəalarına və şərtlərinə əsaslanan danışıqlar aparacaq və sazişlər imzalayacaqlar.

1.3 KMNK Koreyada və/və ya üçüncü ölkələrdə müxtəlif layihələrdə ARDNŞ-in iştirakı üçün öz tərəfdaşları ilə danışıqlar aparmağa çalışacaqdır.

1.4 Tərəflər yeni biznes imkanlarının həyata keçirilməsi və bu cür biznes imkanlarının icra edilməsi üzrə təşəbbüs qrupunun formalaşdırılması müvafiq hesab edildiyi halda razılığa gələcək və ayrıca saziş imzalayacaqlar.

1.5 Buna görə Tərəflər işçi heyətin mübadiləsi və ezamiyyətini həyata keçirmək və təlim proqramları, eləcə də Tərəflərin təşviq edə biləcəkləri istənilən seminar və maarifləndirmə tədbirlərinin təşkil olunması üzrə əməkdaşlıq edəcəklər.

2. Məxfilik

Tərəflər hazırkı AM və onun tətbiqinə dair məlumatları ciddi məxfilikdə saxlamağa razılaşdılar.

3. Müddət

Hazırkı AM Tərəflər onu imzaladıqdan sonra qüvvədə minəcək və bir il qüvvədə qalacaqdır, sonra isə Tərəflərin qarşılıqlı razılığı ilə onun qüvvədə olma müddəti uzadıla bilər.

Bu Memorandum imzalandığı tarixdən qüvvəyə minir.

Seul şəhərində 23 aprel 2007-ci il tarixində, bütün mətnləri eyni hüquqi qüvvəyə malik olmaqla Azərbaycan və ingilis dillərində imzalanmışdır.

AZƏRBAYCAN RESPUBLİKASININ SƏNAYE VƏ ENERGETİKA NAZİRİ	KOREYA MİLLİ NEFT KORPORASİYASININ İCRAÇI DİREKTORU
NATİQ ƏLİYEV	*HVANQ DU-YUL*

BİRGƏ MƏTBUAT KONFRANSI

Aprelin 23-də Seulda, "Çonqvadе" sarayında sənədlərin imzalanma mərasimi başa çatdıqdan sonra Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Koreya Respublikasının Prezidenti Roh Mu-hyun birgə mətbuat konfransı keçirmişlər.

Dövlət başçıları bəyanatlarla çıxış etdilər.

Koreya Prezidenti Roh Mu-hyun Azərbaycan ilə fəal əməkdaşlığa üstünlük verdiklərini, iqtisadi sahədə əlaqələrin daha da genişləndirilməsinə, yeni texnologiyaların tətbiqi sahəsində əlaqələrin dərinləşdirilməsinə böyük maraq göstərdiklərini bildirdi. O dedi ki, beynəlxalq təşkilatlar çərçivəsində əməkdaşlıq yüksək səviyyədədir və bütün məsələlərdə Azərbaycanın tutduğu mövqeyi dəstəkləyirik. İqtisadi dirçəliş dövrünü yaşayan Azərbaycanda qeyri-neft sektorunda, o cümlədən nəqliyyat, kənd təsərrüfatı, energetika, informasiya texnologiyaları, humanitar və digər sahələrdə birgə layihələr həyata keçiririk.

Azərbaycan Prezidenti İlham Əliyev bəyanatında Cənubi Koreyaya dövlət səfərinin yüksək səviyyədə keçdiyini söylədi. Göstərilən qonaqpərvərliyə görə minnətdarlığını bildirən dövlətimizin başçısı imzalanan birgə bəyannamədə iqtisadi, siyasi, mədəni və digər sahələrdə əməkdaşlıq haqqında müddəaların əks olunduğunu xatırlatdı. Prezident İlham Əliyev Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin ədalətli həllində tutduğu mövqeyə görə Koreya Respublikasının Prezidentinə təşəkkürünü bildirdi və Azərbaycanın bu münaqişənin beynəlxalq hüquq normaları əsasında, ölkəmizin ərazi bütövlüyü çərçivəsində sülh yolu ilə həllinə tərəfdar olduğunu vurğuladı. Dövlətimizin başçısı iqtisadiyyatın inkişafında ölkəmizin əldə etdiyi uğurlardan, həyata keçirilən beynəlxalq enerji layihələrindən, infrastruktur proqramlarından, Azərbaycanda xarici sərmayədarlara yaradılan əlverişli şəraitdən və digər məsələlərdən bəhs etdi.

Sonra prezidentlər jurnalistlərin suallarına cavab verdilər.

Prezident İlham Əliyev enerji, informasiya texnologiyaları, infrastruktur sahəsində və digər layihələrdə Cənubi Koreyanın iş adamlarının iştirak edə bilməsi üçün Azərbaycanda hər cür şəraitin olduğunu vurğuladı və hər iki ölkənin iş adamlarının iştirakı ilə keçiriləcək biznes forumda konkret layihələrin müəyyənləşdiriləcəyini söylədi. Dövlətimizin başçısı Azərbaycanın neft və qaz sektoru barədə də geniş məlumat verdi.

Mətbuat konfransında ölkələrimiz arasında bütün sahələrdə əlaqələrin daha da genişləndirilməsinin zəruriliyi vurğulandı. İqtisadi cəhətdən dünyanın inkişaf etmiş ölkələrindən biri kimi, Cənubi Koreyanın hazırda iqtisadi inkişaf sürətinə görə dünyada lider olan Azərbaycanla yaxın perspektivdə konkret layihələrin həyata keçirilməsində əməkdaşlığından söhbət açıldı. Müasir texnologiyalara malik Koreya Respublikasının yüksək texnologiyaların tətbiqinin genişləndirilməsinə xüsusi əhəmiyyət verən Azərbaycanla bu sahədə əməkdaşlığının perspektivlərindən danışıldı və imzalanan sənədlər üzrə konkret işlərin görüləcəyi bildirildi.

Koreya Respublikasının Prezidenti Xəzər dənizinin Azərbaycan sektorunda yerləşən "İnam" yatağına maraq göstərdiklərini bildirdi və bununla bağlı danışıqların aparıldığını xatırlatdı. O bildirdi ki, Azərbaycanla ikitərəfli əlaqələrin daha da genişləndirilməsi üçün hökumət işçi qrupu yaratmışdır.

Prezident İlham Əliyev Azərbaycanın Koreya şirkətləri ilə əməkdaşlığa maraq göstərdiyini, gələcəkdə, əsasən energetika, nəqliyyat, kənd təsərrüfatı, informasiya texnologiyaları sahəsində əməkdaşlığın genişləndirilməsinə hazır olduğunu bildirdi. Dövlətimizin başçısı "İnam" yatağı ilə əlaqədar dedi ki, hazırda danışıqlar gedir və yəqin ki, müsbət nəticələr əldə olunacaqdır.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV DÜNYA TAEKVONDO FEDERASİYASININ PREZİDENTİNİ QƏBUL ETMİŞDİR

Azərbaycan Prezidenti İlham Əliyev aprelin 23-də onun üçün ayrılmış iqamətgahda – "Şilla" mehmanxanasında Dünya Taekvondo Federasiyasının prezidenti Çanq Von Çunu qəbul etmişdir.

Söhbət zamanı Azərbaycanda idmanın bütün sahələrinin, o cümlədən taekvondonun inkişaf etdiyi və yüksək nailiyyətlər qazanıldığı bildirildi, Azərbaycanda bu idman növünün inkişafına Dünya Taekvondo Federasiyası tərəfindən bundan sonra da lazım olan köməyin göstəriləcəyi vurğulandı.

Federasiyanın rəhbəri Prezident İlham Əliyevin Azərbaycanda idmana göstərdiyi diqqət və qayğını yüksək qiymətləndirdi və bir sıra beynəlxalq yarışların ölkəmizdə keçirilməsini müsbət hal kimi səciyyələndirdi.

ALİ QONAĞIN ŞƏRƏFİNƏ

Aprelin 23-də Koreya Respublikasının Prezidenti Roh Mu-hyunun və xanımı Kvon Yanq Sukun adından Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və xanımı Mehriban Əliyevanın şərəfinə dövlət naharı verilmişdir.

Prezidentlər naharda nitq söylədilər.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVƏ KYUNQ Hİ UNİVERSİTETİNİN FƏXRİ DOKTORU ADI VERİLMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev aprelin 24-də Kyunq Hi Universitetinə gəldi.

Dövlətimizin başçısını universitetin qarşısında bu ali məktəbin prezidenti İnvon Çou böyük hörmət və ehtiramla qarşıladı.

Əvvəlcə universitetin prezidenti, rektoru, professor və müəllim heyəti ilə görüş oldu. Məlumat verildi ki, 1949-cu ildə yaradılan özəl universitetin 3 tələbə şəhərciyi, 20 kolleci, ərazilərin idarə olunması, insan cəmiyyəti, kommunikasiya fakültələri var. 36 tədqiqat institutunda 2300 nəfər çalışır. Dünyada məşhur olan universitetdə 23 min tələbə təhsil alır. 29 min eksponatdan ibarət iki muzeyi vardır ki, bu da Asiyada ən böyük kolleksiya sayılır.

Sonra Azərbaycan Prezidenti İlham Əliyevə siyasi elmlər üzrə fəxri doktor adı verilməsi münasibətilə təntənəli mərasim keçirildi. Azərbaycan və Cənubi Koreyanın dövlət himnləri, habelə universitetin himni səsləndirildi.

Azərbaycan Prezidenti İlham Əliyevə fəxri doktor mantiyası, orden və medalı təqdim olundu.

Dövlətimizin başçısının tərcümeyi-halı oxundu və ona gül dəstəsi təqdim olundu.

Universitetin prezidenti İnvon Çou çıxış edərək bildirdi ki, bu ad Prezident İlham Əliyevə sülhün və təhlükəsizliyin qorunmasında, ölkəsinin inkişafında xidmətinə və dövlətçilik idarəetmə bacarığına görə verilir. Prezident İlham Əliyev fəaliyyəti dövründə böyük nüfuz qazanmış, məhz onun siyasəti nəticəsində Azərbaycan enerji sahəsində böyük uğurlar əldə etmiş və nəticədə bugünkü iqtisadi inkişaf başlanmışdır. Onun fəaliyyəti ilə bu universitet arasında da bir uyğunluq var: bu ali təhsil ocağı da yarandığı vaxtdan xalqın rifahı naminə fəaliyyət göstərir.

Prezident İlham Əliyev mərasimdə nitq söyləyərək dedi ki, Azərbaycan ilə Cənubi Koreya arasında əməkdaşlığa bundan sonra da töhfə verəcəkdir. "Təhsil gələcəkdir!" – deyən dövlətimizin başçısı bildirdi ki, indi Azərbaycanda təhsilə böyük diqqət var. Cənubi Koreya da öz inkişafına elm sayəsində nail olubdur. Azərbaycan da bu məqsədi qarşısına qoymuşdur. Azərbaycanlı tələbələrin xaricdə təhsil alması üçün Dövlət proqramının qəbul olunduğunu bildirən Prezident İlham Əliyev dedi ki, gənclərimizin Cənubi Koreyada da təhsil alması üçün müzakirələr aparılır. Azərbaycanda təhsilə böyük vəsait ayrılır, bu isə xalqın gələcəyinə qoyulan sərmayədir.

Dövlətimizin başçısı vurğuladı ki, Azərbaycan iqtisadi artıma görə dünyada liderdir, ölkəmizdə demokratik proseslər sürətlə gedir. Azərbaycanın zəngin neft-qaz ehtiyatları ölkəmizin dostları və tərəfdaşlarının enerji təhlükəsizliyini uzun illər təmin edəcəkdir. Regional məsələlərə toxunan Prezident İlham Əliyev dedi ki, ən böyük problem Ermənistanın Azərbaycan torpaqlarını işğal etməsi və onun acı nəticələridir. Torpaqlarımızda etnik təmizləmə siyasəti aparılıbdır. Azərbaycanın ərazi bütövlüyü bütün beynəlxalq birlik tərəfindən tanınır. Ölkəmiz öz torpaqlarını işğaldan azad edəcəkdir, Dağlıq Qarabağa beynəlxalq hüquq normalarına söykənən muxtariyyət statusu verilə bilər. Biz münaqişənin ədalətli həlli üçün güclü olmalıyıq və iqtisadiyyatımız, hərbi qüdrətimiz artır.

Sonra Dünya Teekvondo Federasiyasının prezidenti, universitetin Elmi şurasının üzvü Çanq Von Çu çıxış edərək, Azərbaycanda idmanın, o cümlədən teekvondunun inkişafına göstərilən diqqət və qayğının maraqla qarşılandığını, Prezident İlham Əliyevin bu universitetin fəxri doktoru adını daşımasından şərəf duyduqlarını söylədi.

SEULDA NƏQLİYYATIN HƏRƏKƏTİNİN İDARƏ EDİLMƏSİNİN İNTELLEKTUAL SİSTEMİ İLƏ TANIŞLIQ

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Koreya Respublikasına dövlət səfərinin ikinci günü – aprelin 24-də Seulun Nəqliyyat Əməliyyatları və İnformasiya Xidmətində (TOPİS) olmuşdur.

Paytaxtın vitse-meri Kim Hyun Kvon 12 milyon əhalisi olan Seulda nəqliyyatın idarə edilməsi üçün yaradılmış bu sistem barədə dövlətimizin başçısına ətraflı məlumat verdi. Bildirildi ki, şəhər nəqliyyatının intellektual idarəetmə sistemi olan TOPİS Seulda nəqliyyatın hərəkətinin idarə olunması, o cümlədən ictimai nəqliyyatın hərəkətinin tənzimlənməsi, gur saatlarda əlavə avtobusların cəlb edilməsi, tıxaclar yarandığı zaman müvafiq göstərişlərin verilməsi və alternativ yolların seçilməsi funksiyalarını yerinə yetirir. Həmçinin bu mərkəz vasitəsilə küçələrdə qanunsuz dayanmış avtomobillərin oradan aparılması təcili təmin olunur, baş verən qəzaların qeydə alınması və araşdırılması ilə bağlı məlumat toplanır.

Prezident İlham Əliyev bu intellektual idarəetmə sistemi ilə yaxından tanış oldu.

Dövlətimizin başçısı fəxri qonaqlar kitabını imzaladı, xatirə şəkli çəkdirdi.

Bakı şəhərində də analoji mərkəzin yaradılması nəzərdə tutulur və bu barədə Azərbaycanın Nəqliyyat Nazirliyi ilə Cənubi Koreyanın Tikinti və Nəqliyyat Nazirliyi arasında aprelin 23-də Seulda Anlaşma memorandumu imzalanmışdır. İlkin hesablamalara görə, dəyəri 50-55 milyon ABŞ dolları olan layihənin icrasına bu ilin ikinci yarısında başlamaq və 2009-cu ildə başa çatdırmaq nəzərdə tutulur. Bakı şəhərində hərəkətin tənzimlənməsi və idarə olunması üçün bütün məlumatlar bu mərkəzdə toplanacaq və internet, mobil telefon, televiziya kanalı və radio dalğaları vasitəsilə həm sərnişinlərə, həm də sürücülərə çatdırılacaqdır.

Dövlətimizin başçısı digər ölkələrdə də bu cür sistemin olduğunu, Bakı şəhərinin sosial-iqtisadi inkişafını və nəqliyyat vasitələrinin sayının artmasını nəzərə alaraq, paytaxtımızda belə sistemin yaradılmasının vacibliyini vurğuladı.

KYONBOKKUN SARAY KOMPLEKSİ İLƏ TANIŞLIQ XOŞ TƏƏSSÜRAT DOĞURDU

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və xanımı Mehriban Əliyeva aprelin 24-də Seulda Koreya memarlığının ən gözəl abidələrindən sayılan nəhəng Kyonbokkun sarayı kompleksində olmuşlar.

Dövlətimizin başçısını və xanımını sarayın müdiriyyəti böyük hörmətlə qarşıladı.

Prezident İlham Əliyev əvvəlcə sarayın fəxri qonaqlar kitabına ürək sözlərini yazdı:

"Mən bu gözəl saraya gəlməkdən və Koreya Respublikasının tarixi və mədəniyyətini daha yaxşı öyrənməkdən çox məmnunam. Mən bütün Koreya xalqına sülh və firavanlıq arzulayıram.

İlham Əliyev

Azərbaycan Respublikasının Prezidenti

24 aprel 2007-ci il."

Sonra dövlətimizin başçısı və xanımı sarayla yaxından tanış oldular. Məlumat verildi ki, bu saray 1394-cü ildə Li sülaləsinin (1392-1910-cu illər) banisi kral Txeçjonun vaxtında tikilmişdir. 330 müxtəlif ümumi binadan ibarət saray kompleksi 1593-cü ildə yaponlar tərəfindən dağıdılmışdır. 1868-ci ildə yenidən bərpa edilsə də, əvvəlki görkəmini qaytarmaq mümkün olmamışdır. 1950-53-cü illər müharibəsi zamanı yenidən dağıdılmışdır. 1990-cı ildə burada təmir-bərpa işlərinə başlanılmışdır. Əsas məqsəd saray kompleksinin əvvəlki görkəmini qaytarmaqdır. Sarayın əsas qapılarının təmiri isə 2009-cu ildə başa çatdırılacaqdır.

Saray kompleksi inzibati binalardan, çoxsaylı yaşayış evlərindən, parklardan ibarətdir. Burada süni göl də yaradılmışdır.

Prezident İlham Əliyev kralın xatirəsini əks etdirən lövhəyə, xarici qonaqların qəbul olunduğu yerə, iş və yataq otaqlarına, kralın həyat yoldaşı üçün tikilmiş iqamətgaha, 4 hektardan çox ərazini əhatə edən parklara və süni gölə baxdı, sarayın baş planı ilə tanış oldu.

Sarayla tanışlıqdan xoş təəssüratla ayrılan Prezident İlham Əliyevə kompleks barədə məlumat kitabları təqdim olundu.

AZƏRBAYCAN-CƏNUBİ KOREYA BİZNES FORUMU KEÇİRİLMİŞDİR

Aprelin 24-də Seulda Azərbaycan və Cənubi Koreya iş adamlarının biznes forumu keçirilmişdir. Azərbaycan Prezidenti İlham Əliyev forumda iştirak etmişdir.

Biznes forumda ölkəmizdən 40-dan çox, Cənubi Koreyadan isə 60-a yaxın iş adamı və aparıcı şirkətləri birləşdirən assosiasiyanın rəhbərləri iştirak etmişdir.

Forumun birinci hissəsində Azərbaycanın iqtisadi inkişaf naziri Heydər Babayev və Cənubi Koreyanın Ticarət və Sənaye Palatasının prezidenti Kim San Yeol çıxış etdilər. Onlar ölkələrimiz arasında iqtisadi əlaqələrin uğurla inkişaf etməsini məmnunluqla vurğulayaraq, bir sıra layihələrin həyata keçirildiyini və nəzərdə tutulduğunu, qarşılıqlı ticarət dövriyyəsinin həcminin 115 milyon dollardan çox olduğunu xatırlatdılar. Bildirildi ki, forum çərçivəsində bir sıra razılaşmalar əldə olunmuş, anlaşma memorandumları da imzalanmışdır. Bu memorandumlar Cənubi Koreya tərəfindən Bakıda kükək elektrik stansiyasının, gəmiqayırma zavodunun tikintisini nəzərdə tutur.

Nazirlər bildirdilər ki, biznes forumun nəticələri hər iki tərəf üçün faydalı olmuşdur.

Azərbaycan Prezidenti İlham Əliyev biznes forumda nitq söylədi. Azərbaycanın iqtisadi vəziyyəti haqqında məlumat verən dövlətimizin başçısı ölkəmizdə əlverişli investisiya

mühiti yaradıldığını bildirdi və Koreya iş adamlarını sıx əməkdaşlığa dəvət etdi. Prezident İlham Əliyev dedi ki, Cənubi Koreyanın şirkətləri üçün ölkəmizin qapısı açıqdır, onların sərmayələrini dəstəkləyirik, konkret müzakirə olunan layihələr var və onların ümumi dəyəri 1 milyard dollardan çoxdur. Azərbaycan Prezidenti Cənubi Koreyanın hökumət nümayəndələrindən və iş adamlarından ibarət böyük nümayəndə heyətini bu ilin yayında Bakıya səfərə dəvət etdi.

AZƏRBAYCAN PREZİDENTİ CƏNUBİ KOREYADA YENİ ŞƏHƏRLƏRİN SALINMASI LAYİHƏLƏRİNİ YÜKSƏK QİYMƏTLƏNDİRMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev aprelin 24-də Seuldan 50 kilometr aralıda yerləşən Panq Yo yeni şəhər informasiya mərkəzinə gəlmişdir.

Dövlətimizin başçısı İlham Əliyevi və xanımı Mehriban Əliyevanı mərkəzin rəhbərliyi böyük hörmət və ehtiramla qarşıladı.

Cənubi Koreya Torpaq Korporasiyasının prezidenti Ce Hyun Kim Azərbaycan Prezidentinə mərkəz barədə ətraflı məlumat verdi. Bildirildi ki, yeni şəhər informasiya mərkəzində bütün işlər korporasiya tərəfindən həyata keçirilir və idarə olunur. Ərazilərin səmərəli şəkildə inkişafı və idarəçiliyin təmin olunması üçün 1975-ci ildə yaradılan korporasiya Cənubi Koreyanın iqtisadi inkişafının təmin olunmasına, həyat şəraiti standartlarının yaxşılaşdırılmasına, ətraf mühitin qorunmasına çalışır. Torpaq, daşınmaz əmlak və tikinti üzrə ixtisaslaşmış 2200 nəfərlik peşəkar heyəti, 9 filialı olan korporasiyanın əmlakının dəyəri təxminən 14 milyard dollar, kapitalı isə 4 milyard dollardır.

Prezident İlham Əliyev və Azərbaycan nümayəndə heyətinin üzvləri şəhərsalma infrastrukturundan bəhs edən filmə baxdılar, yeni şəhərsalma layihələri və onların maketləri ilə yaxından tanış oldular.

Məlumat verildi ki, "Yeni şəhərlərin inkişafı" ilə bağlı ilk layihəyə 1990-cı ildən başlanmış, həmin mərhələdə 5 şəhərcik tikilmişdir. İkinci mərhələyə isə 2000-ci ildən başlanmış və daha 5 şəhərcik salınmışdır. Layihələrin əsas cəhəti müasir texnologiyaların tətbiqinə ətraf mühitin qorunmasına üstünlük verilməsidir. "Təmiz şəhər" devizi altında işlər görülür. Yeni yaşayış massivlərində 29 min mənzildə 88 min əhali yaşayacaq. Yeni şəhərlərin ərazisinin 38 faizi yaşıllıq olacaqdır. Koreyalı mütəxəssislər Azərbaycanda bu sahədə çalışmaq istədiklərini bildirdilər.

Prezident İlham Əliyev bu işləri yüksək qiymətləndirdi, korporasiyanın ölkəmizdə konkret iş görməsi üçün imkanların olduğunu bildirdi. O dedi ki, biz bu təcrübədən yararlanaraq, Azərbaycanda yeni şəhərsalma layihələri həyata keçirmək niyyətindəyik.

AZƏRBAYCAN PREZİDENTİ PUSAN ŞƏHƏRİNƏ GƏLMİŞDİR

Aprelin 24-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Seuldan Koreya Respublikasının ikinci böyük şəhəri olan Pusana gəlmişdir.

PUSAN ŞƏHƏRİNİN MERİ İLƏ GÖRÜŞ

Azərbaycan Prezidenti İlham Əliyev aprelin 24-də Pusan şəhərinin meri Hu Nam Çak ilə görüşmüşdür.

Ali qonağı bir daha salamlayaraq, onun bu şəhərə gəlişini yüksək qiymətləndirən mer Hu Nam Çak Azərbaycan Prezidentinin Koreya Respublikasına dövlət səfərinin xalqlarımızın, ölkələrimizin əməkdaşlığının, eləcə də iqtisadi əlaqələrin inkişafına xidmət etdiyini vurğuladı.

Göstərilən qonaqpərvərliyə görə təşəkkür edən Prezident İlham Əliyev dövlət səfəri çərçivəsində bu şəhərlə tanış olmağın zəruriliyini bildirdi, dövlətimizin başçısı iqtisadi cəhətdən inkişaf edən Pusanı Koreya Respublikasının tərəqqisinin bir nümunəsi kimi qiymətləndirdi. Azərbaycan Prezidenti dedi ki, qarşılıqlı əməkdaşlıq həm şəhərlərarası, həm də iqtisadi əlaqələrin genişlənməsi üçün faydalıdır.

ALİ QONAĞIN ŞƏRƏFİNƏ

Aprelin 24-də Pusan şəhərinin meri Hu Nam Çakın adından Azərbaycan Prezidenti İlham Əliyevin və xanımı Mehriban Əliyevanın şərəfinə ziyafət verilmişdir.

PUSAN ŞƏHƏRİNDƏ YENİ DƏNİZ LİMANI İLƏ TANIŞLIQ

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Koreya Respublikasına dövlət səfərinin üçüncü günü, aprelin 25-də təxminən 3,7 milyon əhalisi olan Pusan şəhərinin yeni dəniz limanında olmuşdur.

Dövlətimizin başçısını Koreya Respublikasının Dəniz İşləri və Balıqçılıq Nazirliyinin Pusan yeni dəniz limanı üzrə rəhbəri Kvak İn Sup və limanın rəisi Sonq Moon Hun böyük hörmət və ehtiramla qarşıladılar.

Prezident İlham Əliyevə məlumat verildi ki, Koreyanın ikinci böyük şəhəri olan Pusanın dərin limanları, mülayim havası onun dünyanın üçüncü böyük liman şəhərinə çevrilməsinə imkan yaratmışdır. Bu bölgənin zəngin tarixi şəhərin turizm və incəsənətinin inkşafına da təkan vermişdir.

Pusan limanı Koreya yarımadasının şərqində yerləşir və Asiya qitəsi ilə Sakit okeanı birləşdirən qapıdır. Cənubi Koreyanın ümumi dənizlə ixrac yükləri daşınmasının 40 faizi, konteyner yüklərinin 85 faizi və milli dəniz məhsullarının daşınmasının 40 faizi bu limanın payına düşür.

Bildirildi ki, bu limanın tərkibində Şimal, Cənub, Qamçeon və Dadepo limanları vardır. Şimal və Cənub limanları hər gün 125, Qamçeon və Dadepo limanları isə 34 gəmi qəbul edir. Bütövlükdə limanın anbarlarından 110 min, açıq havada isə 456 min ton yük saxlamaq mümkündür. Limanın 70 min tonluq konteyner terminalları var. İllik yük daşımalarının həcmi 91 milyon 40 min ton təşkil edir.

Azərbaycan Prezidenti İlham Əliyev limanı gəzdi, yüklərin qəbulu və məntəqələrə göndərilməsi qaydaları ilə tanış oldu. Dövlətimizin başçısı Azərbaycanda da müasir li-

manların tikilməsinə ehtiyac olduğunu vurğuladı, böyük təcrübəyə malik Cənubi Koreya şirkətlərinin Bakıda yeni limanın tikintisində iştirak etməsindən məmnunluğunu bildirdi.

STX KORPORASİYASI GƏMİQAYIRMA SAHƏSİNDƏ DÜNYADA LİDERLƏRDƏN BİRİDİR

Azərbaycan Prezidenti İlham Əliyev aprelin 25-də Pusan şəhərində STX korporasiyasının gəmiqayırma şirkətində olmuşdur.

Dövlətimizin başçısını şirkətin sədri Kan Duk Su hörmətlə qarşıladı. O, şirkətin fəaliyyəti barədə məlumat verərək bildirdi ki, STX Cənubi Koreyanın böyük səhmdar şirkətlərindən biridir və dörd törəmə müəssisəsi vardır. Əsas fəaliyyət istiqamətləri gəmiqayırma və energetika biznesidir. 1962-ci ildə yaradılmış bu müəssisənin ümumilikdə 4600 işçisi vardır. Son 40 il ərzində STX-nin nəzdində fəaliyyət göstərən "Shipbuilding" şirkəti 500-ə yaxın gəmi inşa etmişdir. Bu şirkət Cənubi Koreyanın gəmiqayırma sahəsində dünyada liderlərdən birinə çevrilməsində əsas rol oynamışdır. Burada əsasən, konteynerlər və mayeləşdirilmiş qaz daşımaq üçün gəmilər inşa edirlər. Şirkət gələcəkdə öz fəaliyyətini genişləndirərək, gəmi-bərələrin və avtomobil daşıyan gəmilərin inşasına başlamağı da planlaşdırır.

Prezident İlham Əliyev müəssisə ilə tanış oldu, ayrı-ayrı istehsal sahələrini gəzdi, yeni avadanlıq və texnologiyalar əsasında gəmilərin inşası prosesinə baxdı. Dövlətimizin başçısı ölkəmizin gəmiqayırma sahəsində STX korporasiyası ilə konkret əməkdaşlığının faydalı olacağını söylədi.

Aprelin 24-də Seulda keçirilmiş Azərbaycan-Cənubi Koreya biznes forumunda "Azərbaycan İnvestisiya Şirkəti" QSC və Koreyanın STX korporasiyası arasında imzalanmış anlaşma memorandumlarına əsasən, Azərbaycanda külək elektrik stansiyalarının tikintisi, Qaradağ rayonu ərazisində Xəzər gəmiqayırma zavodunun inşası və digər layihələrin həyata keçirilməsi nəzərdə tutulur.

SƏFƏR BAŞA ÇATDI

Aprelin 25-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Koreya Respublikasına dövlət səfəri başa çatmışdır.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV İSLAM KONFRANSI TƏŞKİLATININ BAŞ KATİBİ EKMƏLƏDDİN İHSANOĞLUNU QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev aprelin 26-da Prezident sarayında İslam Konfransı Təşkilatının Baş katibi Ekmələddin İhsanoğlunu qəbul etmişdir.

Bakıda "Dözümlülük və qarşılıqlı anlaşmanın inkişafında KİV-in rolu" mövzusunda beynəlxalq konfransda iştirak edən Ekmələddin İhsanoğlu bu tədbirin ölkəmizdə keçirilməsinin əhəmiyyətini vurğuladı və onun yüksək səviyyədə təşkil olunduğunu söylədi. Qonaq Azərbaycan Prezidentinin Koreya Respublikasına uğurla həyata keçirilmiş dövlət səfərini maraqla izlədiyini bildirdi. Ekmələddin İhsanoğlu İslam Konfransı Təşkilatı ilə Azərbaycan arasında əlaqələrin daim genişləndiyini və müvəffəqiyyətlə inkişaf etdiyini vurğuladı.

Prezident İlham Əliyev Azərbaycan ilə İslam Konfransı Təşkilatı arasında əməkdaşlığın uğurla davam etdirilməsindən məmnunluğunu ifadə etdi, ölkəmizin bu qurumla əlaqələrinin bundan sonra da genişlənəcəyinə əmin olduğunu bildirdi.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV İSESKO-NUN BAŞ DİREKTORUNU QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev aprelin 26-da Prezident sarayında İSESKO-nun Baş direktoru Əbdüləziz bin Osman əl-Tüveyrini qəbul etmişdir.

Azərbaycana yenidən səfərə gəlməsindən məmnunluğunu ifadə edən Əbdüləziz bin Osman əl-Tüveyri rəhbərlik etdiyi təşkilatın son aylar ərzindəki fəaliyyəti haqqında Prezident İlham Əliyevə məlumat verdi və bildirdi ki, İSESKO Azərbaycanla əlaqələrinə xüsusi önəm verir. Qonaq məmnunluqla vurğuladı ki, İSESKO-nun Heydər Əliyev Fondu ilə əlaqələri də yüksək səviyyədədir.

Ölkəmizlə İSESKO arasında münasibətləri yüksək qiymətləndirən dövlətimizin başçısı, bu təşkilatın fəaliyyətinin İslam dünyası üçün xüsusi önəmi olduğunu vurğuladı. Prezident İlham Əliyev cənab Əbdüləziz bin Osman əl-Tüveyrinin qısa dövr ərzində İSESKO-nun dünyada rolunun artırılmasına və təşkilatın gücləndirilməsinə nail olduğunu bildirdi.

Prezident İlham Əliyev Əbdüləziz bin Osman əl-Tüveyrini Azərbaycanın yüksək mükafatı – "Şöhrət" ordeni ilə təltif etdi.

İSESKO-nun baş direktoru onun fəaliyyətinə verilən yüksək qiymətə görə Prezident İlham Əliyevə dərin minnətdarlığını bildirdi.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV RUMİNİYANIN SABİQ PREZİDENTİ VƏ SOSİAL DEMOKRAT PARTİYASININ FƏXRİ SƏDRİ İON İLİYESKUNU QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev aprelin 26-da Prezident sarayında Rumıniyanın sabiq Prezidenti və Sosial Demokrat Partiyasının fəxri sədri İon İliyeskunu qəbul etmişdir.

Dövlətimizin başçısı İon İliyeskunun "Dözümlülüyün və qarşılıqlı anlaşmanın inkişafında KİV-in rolu" mövzusunda beynəlxalq konfransda iştirak etmək üçün ölkəmizə səfər etməsindən məmnun olduğunu bildirdi.

Cənab İon İliyesku bu beynəlxalq konfransın Bakı şəhərində keçirilməsinin böyük əhəmiyyət kəsb etdiyini vurğuladı və tədbirə dəvət olunmasına görə minnətdarlığını söylədi.

Görüşdə Azərbaycan-Rumıniya münasibətlərinin uğurla inkişaf etdiyi bildirildi.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV TÜRKİYƏ PARLAMENTİNİN KEÇMİŞ SƏDRİ HİKMƏT ÇƏTİNİ QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev aprelin 26-da Prezident sarayında Türkiyə parlamentinin keçmiş sədri Hikmət Çətini qəbul etmişdir.

"Dözümlülüyün və qarşılıqlı anlaşmanın inkişafında kütləvi informasiya vasitələrinin rolu" mövzusunda beynəlxalq konfransın Bakıda yüksək səviyyədə təşkil olunduğunu vurğulayan Hikmət Çətin belə mötəbər tədbirlərin Azərbaycanda keçirilməsini ölkəmizin beynəlxalq aləmdə qazandığı uğurların təzahürü kimi dəyərləndirdi.

Prezident İlham Əliyev ölkəmizdə bu səpkidə beynəlxalq konfransların müntəzəm olaraq keçirilməsinin böyük əhəmiyyət daşıdığını və Azərbaycanın dünyada mövqelərinin möhkəmlənməsində mühüm rolunu vurğuladı.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV BMT-NİN FİKİR VƏ SÖZ AZADLIĞI HÜQUQUNUN TƏŞVİQİ VƏ QORUNMASI ÜZRƏ XÜSUSİ MƏRUZƏÇİSİ AMBEYİ LİQABONU QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev aprelin 26-da Prezident sarayında BMT-nin fikir və söz azadlığı hüququnun təşviqi və qorunması üzrə xüsusi məruzəçisi Ambeyi Liqabonu qəbul etmişdir.

Ambeyi Liqabo Bakıda keçirilən "Dözümlülük və qarşılıqlı anlaşmanın inkişafında KİV-in rolu" mövzusunda beynəlxalq konfransa dəvət aldığına görə minnətdarlığını bildirdi və tədbirin əhəmiyyətini vurğuladı.

Görüşdə Azərbaycanda fikir və söz azadlığının təmin edilməsi sahəsində görülən tədbirlər, bu sahədə Azərbaycan ilə BMT arasındakı əməkdaşlığa dair fikir mübadiləsi aparıldı.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV GÖRKƏMLİ QAZAX ŞAİRİ, ALİM VƏ İCTİMAİ-SİYASİ XADİMİ OLJAS SÜLEYMENOVU QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev aprelin 27-də Prezident sarayında görkəmli qazax şairi, alim və ictimai-siyasi xadimi Oljas Süleymenovu qəbul etmişdir.

Azərbaycana səfərə gəlməsindən məmnunluğunu ifadə edən Oljas Süleymenov ölkəmizdə "Dözümlülüyün və qarşılıqlı anlaşmanın inkişafında kütləvi informasiya vasitələrinin rolu" mövzusunda beynəlxalq konfransın böyük uğurla keçdiyini bildirərək dedi ki, belə tədbirlərin Azərbaycanda təşkil olunması böyük əhəmiyyət daşıyır. Oljas Süleymenov Prezident İlham Əliyevin Koreya Respublikasına uğurla keçən səfərini maraqla izlədiyini qeyd etdi.

Ölkəmizdə bir sıra mötəbər tədbirlərin keçirildiyini vurğulayan dövlətimizin başçısı indiki konfransda müxtəlif ölkələrin siyasət və dövlət adamlarının, o cümlədən görkəmli ictimai-siyasi xadim Oljas Süleymenovun iştirak etməsini bu tədbirin əhəmiyyətinin göstəricisi olduğunu bildirdi.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV ATƏT-İN MƏTBUAT AZADLIĞI ÜZRƏ NÜMAYƏNDƏSİ MİKLOŞ HARAŞTİNİ QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev aprelin 27-də Prezident sarayında ATƏT-in mətbuat azadlığı üzrə nümayəndəsi Mikloş Haraştini qəbul etmişdir.

Mikloş Haraşti Azərbaycanda "Dözümlülüyün və qarşılıqlı anlaşmanın inkişafında kütləvi informasiya vasitələrinin rolu" mövzusunda beynəlxalq konfrans kimi mötəbər tədbirlərin keçirilməsinin mühüm əhəmiyyət daşıdığını vurğuladı.

Prezident İlham Əliyev bu səpkidə beynəlxalq əhəmiyyətli konfransların keçirilməsi üçün Azərbaycanda lazımi şəraitin mövcud olduğunu bildirdi.

Görüşdə Azərbaycanda kütləvi informasiya vasitələrinin fəaliyyəti, söz və mətbuat azadlığının təmin edilməsi sahəsində görülən işlər barədə fikir mübadiləsi aparıldı.

"AZƏRBAYCAN RESPUBLİKASINA QAYIDIŞ ŞƏHADƏTNAMƏSİNİN VERİLMƏSİ QAYDASI HAQQINDA ƏSASNAMƏNİN TƏSDİQ EDİLMƏSİ BARƏDƏ" AZƏRBAYCAN RESPUBLİKASI QANUNUNUN TƏTBİQ EDİLMƏSİ HAQQINDA AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN FƏRMANI

1. Azərbaycan Respublikasının Nazirlər Kabinetinə tapşırılsın ki, bir ay müddətində:

1.1. qüvvədə olan qanunvericilik aktlarının "Azərbaycan Respublikasına qayıdış şəhadətnaməsinin verilməsi qaydası haqqında Əsasnamənin təsdiq edilməsi barədə" Azərbaycan Respublikasının Qanununa uyğunlaşdırılmasına dair təkliflərini hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

1.2. Azərbaycan Respublikası Nazirlər Kabinetinin və müvafiq mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının həmin Qanuna uyğunlaşdırılmasını təmin etsin və bu barədə Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

1.3. həmin Qanunun pozulmasına görə məsuliyyət növlərini müəyyən edən qanunvericilik aktının layihəsini hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin.

1.4. Azərbaycan Respublikasına qayıdış şəhadətnaməsinin verilməsi qaydası haqqında Əsasnamənin 4-cü bəndində nəzərdə tutulmuş Azərbaycan Respublikasına qayıdış şəhadətnaməsinin blanklarının ciddi hesabat sənədi kimi uçotu qaydalarını müəyyən etsin, şəhadətnamə blanklarının spesifikasiyasını təsdiq etsin və bu barədə Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

1.5. öz səlahiyyətləri daxilində "Azərbaycan Respublikasına qayıdış şəhadətnaməsinin verilməsi qaydası haqqında Əsasnamənin təsdiq edilməsi barədə" Azərbaycan Respublikasının Qanunundan irəli gələn digər məsələləri həll etsin.

2. Müəyyən edilsin ki:

2.1. Azərbaycan Respublikasına qayıdış şəhadətnaməsinin verilməsi qaydası haqqında

Əsasnamənin 4-cü bəndinin ikinci və üçüncü cümlələrində nəzərdə tutulmuş "müvafiq icra hakimiyyəti orqanı"nın səlahiyyətlərini Azərbaycan Respublikasının Nazirlər Kabineti həyata keçirir;

2.2. həmin Əsasnamənin 5-ci bəndində və 10-cu bəndində (birinci halda) nəzərdə tutulmuş "müvafiq icra hakimiyyəti orqanı"nın səlahiyyətlərini Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi həyata keçirir;

2.3. həmin Əsasnamənin 10-cu bəndində (ikinci halda) və 11-ci bəndində nəzərdə tutulmuş "müvafiq icra hakimiyyəti orqanı"nın səlahiyyətlərini Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyi həyata keçirir;

2.4. həmin Əsasnamənin 13-cü bəndində nəzərdə tutulmuş "müvafiq icra hakimiyyəti orqanı"nın səlahiyyətlərini Azərbaycan Respublikasının Dövlət Miqrasiya Xidməti həyata keçirir;

2.5. Azərbaycan Respublikasının Dövlət Miqrasiya Xidməti fəaliyətə başlayanadək bu Fərmanın 2.4-cü bəndində onun səlahiyyətinə aid edilmiş vəzifələri Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyi həyata keçirir.

3. Bu Fərman dərc edildiyi gündən qüvvəyə minir.

İlham ƏLİYEV,

Azərbaycan Respublikasının Prezidenti.

Bakı şəhəri, 27 aprel 2007-ci il

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV İSLAM KONFRANSI TƏŞKİLATI GƏNCLƏR FORUMUNUN PREZİDENTİ ƏLİ SARIKAYANIN RƏHBƏRLİK ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİNİ QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev aprelin 27-də Prezident sarayında İslam Konfransı Təşkilatı Gənclər Forumunun prezidenti Əli Sarıkayanın rəhbərlik etdiyi nümayəndə heyətini qəbul etmişdir.

Əli Sarıkaya rəhbərlik etdiyi İslam Konfransı Təşkilatı Gənclər Forumuna Azərbaycan Prezidentinin daim böyük dəstək verdiyini vurğuladı. O, Forumun fəaliyyəti və gələcək planları barədə dövlətimizin başçısına məlumat verdi.

Yarandığı qısa müddət ərzində Forumun yaxşı nəticələr əldə etdiyini bildirən Prezident İlham Əliyev qurumun bundan sonra da uğurla fəaliyyət göstərəcəyinə ümidvar olduğunu qeyd etdi.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV ZƏMANƏMİZİN GÖRKƏMLİ MUSİQİÇİSİ MAESTRO MSTİSLAV ROSTROPOVİÇİN DƏFN MƏRASİMİNDƏ İŞTİRAK ETMİŞDİR

Azərbaycan Prezidenti İlham Əliyev aprelin 29-da Moskvada zəmanəmizin görkəmli musiqiçisi maestro Mstislav Rostropoviçin dəfn mərasimində iştirak etmişdir.

Azərbaycan dövlətinin başçısı xanımı Mehriban Əliyeva ilə birlikdə böyük musiqiçiyə

dua oxunması mərasiminin keçirildiyi Xilaskar İsa Məsih kilsəsinə gəldi. Prezident Mstislav Rostropoviçin xanımı Qalina Vişnevskayaya, doğmaları və yaxınlarına dərin hüznlə başsağlığı verdi.

Prezident İlham Əliyev və xanımı Mehriban Əliyeva mərhumun tabutu yanında dayanaraq onun unudulmaz xatirəsinə ehtiramlarını bildirdilər.

Böyük musiqiçinin xatirəsini yad etməyə gələn insan axınının ardı-arası kəsilmir. Xilaskar İsa Məsih kilsəsinə dua oxunması mərasiminə gələnlər arasında İspaniya kraliçası Sofiya, tanınmış incəsənət, siyasət, elm xadimləri vardır. Dünya musiqi tarixində silinməz iz qoymuş Mstislav Rostropoviç parlaq, hərtərəfli şəxsiyyət, əsl dünyamiqyaslı insan idi. Onun uçurulmuş Berlin divarı yanında violonçeldə ifası, habelə 1991-ci ilin avqustunda QKÇP əleyhinə etirazı məşhur musiqiçinin humanist mövqeyinin, onun despotizmlə barışmazlığının sübutudur.

Azərbaycanlıların yaddaşında bakılı Mstislav Rostropoviç Dost kimi qalmışdır. Azərbaycanın yaradıcı gənclərinə daim kömək etmiş, geniş xeyriyyəçilik fəaliyyəti ilə məşğul olmuş, uşaqların sağlamlığının qorunmasına yönəlmiş humanitar proqramları dəstəkləyən insanı məhz belə adlandırırlar. Prezident İlham Əliyev Qalina Vişnevskayaya ünvanladığı başsağlığı teleqramında qeyd etmişdir: "Mstislav Rostropoviç həqiqətən dünya vətəndaşı, görkəmli ictimai xadim, humanizmin və ümumbəşəri dəyərlərin ülvi amallarını həmişə və hər yerdə qoruyan ən yüksək mənəviyyata malik insan olmuşdur. O, bizim xatirəmizdə həmişə parlaq, qeyri-adi şəxsiyyət, gözəl, son dərəcə cəzbedici və xariqüladə bir insan kimi qalacaqdır. Bizim hamımıza ağır, əvəzsiz itki üz vermişdir".

Azərbaycan dövlətinin başçısı xanımı ilə birlikdə Mstislav Rostropoviçin Novodeviçye qəbiristanlığında dəfn mərasimində iştirak etdi. Onlar böyük musiqiçini son mənzilə yola salaraq məzarına torpaq tökdülər.

Prezident İlham Əliyev Rusiyanın birinci prezidenti Boris Yeltsinin Mstislav Rostropoviçin dəfn mərasimində iştirak edən xanımı Naina Yeltsinaya da başsağlığı verdi, görkəmli dövlət və siyasi xadimin məzarı üzərinə gül qoydu.

Azərbaycan dövlətinin başçısı və xanımı tanınmış jurnalist Artyom Borovikin də məzarı üzərinə gül düzdülər.

Azərbaycan Prezidenti İlham Əliyev həmin gün Vətənə yola düşdü.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV DAĞISTAN NÜMAYƏNDƏ HEYƏTİNİ QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev aprelin 30-da Prezident sarayında Rusiya Federasiyası Dağıstan Respublikasının Prezidenti Muxu Əliyevin başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.

Prezident İLHAM ƏLİYEV qonaqları salamlayaraq dedi:

Hörmətli Muxu Gimbatoviç!

Hörmətli qonaqlar!

Əziz dostlar!

Sizi Azərbaycanda səmimi qəlbdən salamlayıram, "Xoş gəlmisiniz!". Əminəm ki, ölkəmizə səfəriniz xalqlarımız arasında daha sıx münasibətlər olmasına xidmət edəcəkdir.

Biz Muxu Gimbatoviçlə çox dərin tarixi kökləri olan əməkdaşlığımızın bütün məsələləri barədə ətraflı fikir mübadiləsi apardıq. Bu gün, xalqlarımızın inkişafının indiki mərhələsində iqtisadi sahədə, təhlükəsizliyin möhkəmlənməsi məsələlərində, humanitar sahədə bu əməkdaşlıq bizə gərəkdir. Bütün istiqamətlərdə mövqelərimiz eynidir və bu, çox vacibdir.

Biz Dağıstanla dərin tarixi, çoxəsrlik ənənələri olan qardaşlığımıza sadiqik. Müstəqil dövlət kimi indi Azərbaycan Rusiya ilə mehriban qonşuluğa və dostluğa əsaslanan münasibətlərini çox səmərəli şəkildə qurur. Rusiyanın bir hissəsi olan Dağıstanın bizim qəlbimizdə xüsusi yeri var. Ona görə də bu gün qardaş Dağıstanın mötəbər nümayəndə heyətini, onun bütün rəhbərliyini görməyimə çox şadam və əminəm ki, ölkəmizə səfəriniz çox uğurlu olacaq, əməkdaşlığımız bundan sonra da fəal surətdə davam edəcəkdir.

Dağıstan Prezidenti MUXU ƏLİYEV səmimi qəbula görə Azərbaycan rəhbərinə təşəkkür edərək dedi:

Azərbaycana gəlmək dəvətinə görə Sizə ürəkdən təşəkkür etmək istərdim. Biz çox böyük məmnunluqla buraya gəldik.

İlk növbədə, demək istəyirəm ki, Dağıstanda Əliyevlər ailəsinə xüsusi münasibət bəsləyirlər. Böyük Vətən müharibəsinin getdiyi ən ağır və kəşməkəşli dövrdə, 1942-ci ildə Dağıstan Vilayət Partiya Komitəsinin birinci katibi seçilən və 1948-ci ilədək həmin vəzifədə işləyən Əziz Əliyevi Dağıstanda, – xüsusən yaşlı nəsil, – indiyədək xatırlayırlar. Demək lazımdır ki, o, heyrətamiz şəxsiyyət idi. Müharibə illəri, çox ağır dövr, Qafqazın işğal edilməsi üçün böyük təhlükə olmasına baxmayaraq, ölkə rəhbərliyinin qərarı ölçülüb-biçilmiş qərar idi. Vurğulamaq istəyirəm ki, o vaxtlar Dağıstanda fəal mədəni quruculuq gedirdi – ilk teatrlar, elmi mərkəzlər yaradılmışdı və bir çox digər işlər görülmüşdü. Bütün bunlar Əziz Əliyevin adı ilə bağlıdır. O, bizim məşhur mədəniyyət, ədəbiyyat, incəsənət xadimləri ilə dostluq edirdi.

Bu il Əziz Əliyevin doğumunun 110 ili tamam olur və mən münasibətlərimizdə xoş iz qoymuş olan belə gözəl övlad yetirmiş Azərbaycan xalqına təşəkkür etmək istəyirəm.

Görüşdə Azərbaycan Respublikası ilə Rusiya Federasiyasının Dağıstan Respublikası arasında əməkdaşlığın bütün spektri barədə ətraflı fikir mübadiləsi aparıldı.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV GÜRCÜSTANIN BAŞ PROKURORU ZURAB ADEİŞVİLİNİN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİNİ QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 1-də Prezident sarayında Gürcüstanın Baş prokuroru Zurab Adeişvilinin başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.

Prezident İlham Əliyev Azərbaycan-Gürcüstan münasibətlərinin bütün istiqamətlərdə

uğurla inkişaf etdiyini bildirdi və hər iki ölkənin hüquq mühafizə orqanları arasında əməkdaşlığın əlaqələrimizin daha da möhkəmlənməsində əhəmiyyətini vurğuladı.

Ölkələrimizin müxtəlif sahələrdə əlaqələrinin sürətlə inkişaf etdiyini deyən Zurab Adeişvili Gürcüstanla Azərbaycanın prokurorluq orqanları arasında əməkdaşlığın genişlənməsinin iki ölkənin əlaqələrinin möhkəmlənməsi işinə xidmət etdiyini bildirdi.

NATO İLƏ AZƏRBAYCAN ARASINDA ƏMƏKDAŞLIĞA DAİR FƏRDİ TƏRƏFDAŞLIĞIN ƏMƏLİYYAT PLANININ İCRASININ QİYMƏTLƏNDİRİLMƏSİ ÜZRƏ NÖVBƏTİ GÖRÜŞ KEÇİRİLMİŞDİR

Mayın 2-də Brüsseldə NATO-nun mənzil-qərargahında Şimali Atlantika alyansı ilə Azərbaycan arasında əməkdaşlığa dair Fərdi Tərəfdaşlığın Əməliyyat Planının icrasının qiymətləndirilməsi üzrə növbəti görüş keçirilmişdir.

Xarici işlər naziri Elmar Məmmədyarovun rəhbərlik etdiyi və Milli Təhlükəsizlik, Fövqəladə Hallar nazirliklərinin, Dövlət Sərhəd Xidmətinin, Daxili İşlər Nazirliyi Daxili Qoşunlarının yüksək səviyyəli təmsilçilərinin daxil olduğu nümayəndə heyətinin NATO-nun Şimali Atlantika Şurası çərçivəsində görüşü keçirilmişdir.

Elmar Məmmədyarov Azərbaycan Respublikası tərəfindən FTƏP-in yerinə yetirilməsi sahəsində görülən işlər və əldə olunan nailiyyətlər barədə iclas iştirakçılarını məlumatlandırmışdır.

Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli prosesinə toxunan nazir, problemin həllinin yalnız Azərbaycanın ərazi bütövlüyü çərçivəsində mümkünlüyünü vurğulamışdır.

Azərbaycan nümayəndə heyəti quruma üzv ölkələrin səfirlərini maraqlandıran suallara cavablandırmışdır.

Səfir çərçivəsində Azərbaycanın xarici siyasət idarəsinin başçısının NATO rəhbərliyi ilə görüşlərində ikitərəfli əməkdaşlığın daha da inkişaf etdirilməsi, FTƏP-in yerinə yetirilməsi, Dağlıq Qarabağ münaqişəsi, regionda təhlükəsizlik vəziyyəti və qarşılıqlı maraq doğuran digər məsələlər müzakirə olunmuşdur.

BRÜSSELDƏ AZƏRBAYCANIN AVROPA İTTİFAQI İLƏ ƏLAQƏLƏRİNƏ DAİR MÜZAKİRƏLƏR APARILMIŞDIR

Xarici İşlər naziri Elmar Məmmədyarov mayın 2-də Brüsseldə Avropa Komissiyasının xarici əlaqələr və Avropa qonşuluq siyasəti üzrə komissarı xanım Benita Ferrero-Valdner ilə görüşmüşdür.

Görüşdə tərəflər Avropa qonşuluq siyasəti çərçivəsində Azərbaycan üzrə Fəaliyyət planının icrasına, Avropa İttifaqı ilə Azərbaycan arasında cari münasibətlərə, regional proseslərə, Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinə, enerji təhlükəsizliyinə dair məsələləri müzakirə etmişlər.

BELARUS PREZİDENTİ ALEKSANDR LUKAŞENKO AZƏRBAYCANA RƏSMİ SƏFƏRİ

Mayın 1-də Belarus Respublikasının Prezidenti Aleksandr Lukaşenko Azərbaycana rəsmi səfərə gəlmişdir.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN VƏ BELARUS PREZİDENTİ ALEKSANDR LUKAŞENKONUN TƏKBƏTƏK GÖRÜŞÜ

Mayın 2-də Prezident sarayında Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və Belarus Respublikasının Prezidenti Aleksandr Lukaşenkonun təkbətək görüşü oldu.

Görüşdə Azərbaycan-Belarus əlaqələrinin bütün sahələrdə – siyasi, iqtisadi və mədəni sahələrdə uğurlu inkişaf etdiyi vurğulandı. Bildirildi ki, Belarus rəhbərinin ölkəmizə indiki səfəri bu münasibətlərin daha da genişlənməsinə təkan verəcəkdir. Dövlət başçıları Azərbaycan-Belarus əlaqələrinin bundan sonra da inkişaf edəcəyinə əmin olduqlarını bildirdilər.

DÖVLƏT BAŞÇILARININ GENİŞ TƏRKİBDƏ GÖRÜŞÜ

Mayın 2-də Prezident sarayında Azərbaycan Prezidenti İlham Əliyevin və Belarus Prezidenti Aleksandr Lukaşenkonun nümayəndə heyətlərinin iştirakı ilə geniş tərkibdə görüşü olmuşdur.

Prezident İLHAM ƏLİYEV görüşü açaraq dedi:

-Hörmətli Aleksandr Qriqoryeviç!

Hörmətli qonaqlar!

Sizi Azərbaycanda ürəkdən salamlamaq istəyirəm. Ölkəmizə xoş gəlmisiniz! Sizin səfərinizi səbirsizliklə gözləyirdik və bu səfəri ikitərəfli dostluq münasibətlərimizin inkişafının çox mühüm amili kimi qiymətləndiririk. Münasibətlərimiz xüsusən son vaxtlar çox dinamik inkişaf edir. Biz çox qısa bir müddətdə iqtisadi əməkdaşlığa, qarşılıqlı əlaqələrimizə dair çox mühüm layihələri müəyyən edə və artıq həyata keçirə bilmişik və indi çox sıx inteqrasiya yolu ilə inamla irəliləyirik.

Mən ölkənizə səfərimi və orada olduğum günləri böyük səmimiyyətlə xatırlayıram. İmzalanmış sənədlər, aparılmış danışıqlar münasibətlərimizə güclü təkan vermişdir. Ölkəmizə bugünkü səfəriniz, eləcə də Sizin ölkənizə mənim səfərim ikitərəfli münasibətlərimizin tarixində ilk səfərlərdir. Sevindirici haldır ki, Siz Azərbaycana böyük nümayəndə heyəti ilə gəlmisiniz. Nümayəndə heyətinin üzvlərinin mövcud məsələləri bizim nümayəndə heyətimizin üzvləri ilə öz səviyyələrində müzakirə etmək, qarşılıqlı əlaqələrin gələcək yollarını müəyyənləşdirmək imkanı olacaqdır.

Əməkdaşlığımızın gündəliyi çox genişdir. Gündəliyə siyasi qarşılıqlı əlaqələr, beynəlxalq təşkilatlarda birgə iştirak, çoxşaxəli və qarşılıqlı surətdə faydalı iqtisadi əməkdaşlıq məsələləri daxildir. Bu gün biz Sizinlə ikitərəfli münasibətlərlə bağlı məsələləri müzakirə edərkən yekdil fikirdə olduq ki, ölkələrimiz və iqtisadiyyatlarımız bir-birini

tamamlayırlar. Bu, ciddi tərəfdaşlıq münasibətlərinin inkişafı üçün çox yaxşı bazadır. Biz buna hazırıq, bunu istəyirik və bütün istiqamətlərdə gələcək əməkdaşlığa ümid bəsləyirik. Ümidvaram ki, mənim Belarusa səfərim kimi, Sizin də Azərbaycana səfəriniz uğurlu olacaq və ikitərəfli münasibətlərimizin inkişafında mühüm mərhələyə çevriləcəkdir.

Bir daha "Xoş gəlmisiniz!" deyirəm.

Sonra Prezident ALEKSANDR LUKAŞENKO çıxış edərək dedi:

-Hörmətli İlham Heydər oğlu!

Əziz dostlar!

Mən, ilk növbədə, mehribancasına qəbula görə, nümayəndə heyətimizə göstərilmiş diqqətə görə Sizə ürəkdən təşəkkür etmək istəyirəm. İlham Heydər oğlunun ölkəmizə rəsmi səfərindən ötən müddət ərzində biz çox işlər görmüşük. Bir çox mütəxəssislərimiz burada və sizin nümayəndə heyətləriniz də Belarusda olmuşlar. Onlar bədxahlarımızın piar kimi qiymətləndirdiyi bir çox layihələri gerçəkləşdirməyə başlamışlar. Lakin indi bu, piar deyil, çox qısa zaman kəsiyində təşkil edilmiş real istehsaldır.

Biz nəinki iki ölkənin prezidentləri arasında ən səmimi münasibətlər yaratmamışıq, artıq bilirəm ki, nazirlər də, iri şirkətlərin, müəssisələrin rəhbərləri də dostlaşmışlar. Yəni, bütün səviyyələrdə yaxşı şəxsi münasibətlər yaranmışdır ki, bu da nəinki bir-birini başa düşməyə, həm də yaxşı irəliləyişə kömək edir. Bir az əvvəl İlham Heydər oğlu ilə vurğuladıq ki, nə mənim, nə onun, nə də ölkələrimizin heç bir ölkə ilə belə səmərəli, belə intensiv münasibətləri olubdur.

Bir daha təsdiqləmək istəyirəm ki, əməkdaşlığımızın belə sürətini və ayrı-ayrı istiqamətlərini öz bildikləri kimi, bəzən də narazılıqla qarşılayan bədxahlarımız var. Bələləri var və biz onları tanıyırıq. Lakin biz Belarusda da, Azərbaycanda da bu dövrü çox dəyanətlə keçdik. Biz kiminsə ziddinə, zərərinə olaraq əməkdaşlıq etmirik, biz xalqlarımızın rifahı naminə əməkdaşlıq edirik, çünki təmas nöqtələrini və öz marağımızı tapmışıq. Marağımız heç də təkcə onda deyil ki, Azərbaycan özünün tərəqqisinə doğru gedən çox dinamik inkişaf edən ölkədir. Bu, sadəcə, gurultulu sözlər deyil, bunu hamı deyir. Sizin ölkəniz ümumi daxili məhsulun artımına görə keçən il dünyada birinci yeri tutmuşdur. Dünyada heç bir ölkədə belə artım yoxdur. Firavan ölkəyə çevrilmək üçün sizin hər şeyiniz var, biz bunu bilirik. Lakin məsələ təkcə bunda deyildir.

İndi xalqlarımız arasında yaxşı münasibətlər yaranmışdır. Belarusda yaşayan heç bir azərbaycanlı deməz ki, onun vəziyyəti pisdir. Heç biri. Bu yaxınlarda biz kütləvi informasiya vasitələrində Azərbaycan bəfləsi keçirdik. Televiziyada, radioda çoxlu verilişlər oldu, burada yaşayan azərbaycanlılar da, Belarusdakı azərbaycanlılar da danışdılar və heç biri demədi ki, ölkəmizdə onların vəziyyəti pisdir. Sizə burada da deməzlər ki, orada vəziyyətləri pisdir. Xüsusi ab-hava yaranmışdır, lakin əlbəttə, şəxsi əlaqələrin də əhəmiyyəti var. İlham Heydər oğlunun səfərindən sonra bütün səviyyələrdə yaxşı münasibətlərimiz yaranmışdır. Bu, əlaqələrimizin inkişafına kömək edir.

Bir daha vurğulayıram ki, biz kiminsə əleyhinə dostluq etmək niyyətində deyilik. Biz ancaq başqalarının da məmnun qalması və sevinməsi üçün dostluq edirik. Əgər bu, mümkündürsə, biz başqalarının da layihələrimizə qoşulmasına hazırıq. Ona görə də bu

səfər, həqiqətən, irəliyə doğru getməkdir. Bu gün imzalayacağımız əsas sənəd – dostluq haqqında müqavilə irəliyə doğru mühüm addım olacaqdır. Mən etimada və öhdəliklərin yerinə yetirilməsinə görə hamıya, ilk növbədə, Azərbaycan Prezidentinə çox minnətdaram.

SƏNƏDLƏRİN İMZALANMASI

Mayın 2-də Prezident sarayında, Azərbaycan Prezidenti İlham Əliyevin və Belarus Prezidenti Aleksandr Lukaşenkonun geniş tərkibdə görüşündən sonra Azərbaycan-Belarus sənədlərinin imzalanması mərasimi olmuşdur.

Azərbaycan Respublikası və Belarus Respublikası arasında dostluq və əməkdaşlıq haqqında müqaviləni Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Belarus Respublikasının Prezidenti Aleksandr Lukaşenko imzaladılar.

Azərbaycan Milli Elmlər Akademiyasının və Belarus Respublikası Milli Elmlər Akademiyasının 2007-2010-cu illər üçün əməkdaşlıq proqramını Azərbaycan tərəfdən Milli Elmlər Akademiyasının prezidenti Mahmud Kərimov, Belarus tərəfdən Milli Elmlər Akademiyası Rəyasət heyətinin sədri Mixail Myasnikoviç imzaladılar.

Azərbaycan Respublikasının Milli Bankı və Belarus Respublikasının Milli Bankı arasında əməkdaşlıq haqqında sazişi Azərbaycan tərəfdən Milli Bankın İdarə heyətinin sədri Elman Rüstəmov, Belarus tərəfdən Milli Bankın İdarə heyətinin sədri Pyotr Prokopoviç imzaladılar.

Azərbaycan Respublikasının Prezidenti yanında Qiymətli Kağızlar üzrə Dövlət Komitəsi və Belarus Respublikasının Maliyyə Nazirliyi arasında əməkdaşlıq haqqında sazişi Azərbaycan tərəfdən Prezidentin yanında Qiymətli Kağızlar üzrə Dövlət Komitəsinin sədri Gündüz Məmmədov, Belarus tərəfdən xarici işlər naziri Sergey Martınov imzaladılar.

Azərbaycan Respublikasının Dövlət Əmlakının İdarə Olunması üzrə Dövlət Komitəsi və Belarus Respublikasının Dövlət Əmlak Komitəsi arasında dövlət əmlakının idarə edilməsi və özəlləşdirmə sahəsində əməkdaşlıq haqqında sazişi Azərbaycan tərəfdən Dövlət Əmlakının İdarə Olunması üzrə Dövlət Komitəsinin sədri Kərəm Həsənov, Belarus tərəfdən xarici işlər naziri Sergey Martınov imzaladılar.

Azərbaycan Respublikasının Standartlaşdırma, Metrologiya və Patent üzrə Dövlət Agentliyi və Belarus Respublikasının Dövlət Standartlaşdırma Komitəsi arasında standartlaşdırma, metrologiya, uyğunluğun qiymətləndirilməsi və akkreditasiya sahəsində əməkdaşlıq haqqında sazişi Azərbaycan tərəfdən Standartlaşdırma, Metrologiya və Patent üzrə Dövlət Agentliyinin Baş direktoru Ramiz Həsənov, Belarus tərəfdən xarici işlər naziri Sergey Martınov imzaladılar.

Azərbaycan Respublikası Hökuməti və Belarus Respublikası Hökuməti arasında baytarlıq sahəsində əməkdaşlıq haqqında sazişi Azərbaycan tərəfdən kənd təsərrüfatı naziri İsmət Abasov, Belarus tərəfdən kənd təsərrüfatı və ərzaq naziri Leonid Rusak imzaladılar.

Azərbaycan Respublikası Hökuməti və Belarus Respublikası Hökuməti arasında bitki

karantini və mühafizəsi sahəsində əməkdaşlıq haqqında sazişi Azərbaycan tərəfdən kənd təsərrüfatı naziri İsmət Abasov, Belarus tərəfdən kənd təsərrüfatı və ərzaq naziri Leonid Rusak imzaladılar.

Azərbaycan Respublikası Hökuməti və Belarus Respublikası Hökuməti arasında məxfi məlumatların qarşılıqlı qorunması haqqında sazişi Azərbaycan tərəfdən milli təhlükəsizlik naziri Eldar Mahmudov, Belarus tərəfdən Dövlət Təhlükəsizliyi Komitəsi sədrinin müavini Nikolay Svorob imzaladılar.

Azərbaycan Respublikası Hökuməti və Belarus Respublikası Hökuməti arasında Azərbaycan Respublikasının ərazisində müvəqqəti işləyən Belarus Respublikası vətəndaşlarının və Belarus Respublikasının ərazisində müvəqqəti işləyən Azərbaycan Respublikası vətəndaşlarının əmək fəaliyyəti və sosial müdafiəsi haqqında sazişi Azərbaycan tərəfdən daxili işlər naziri Ramil Usubov, Belarus tərəfdən daxili işlər naziri Vladimir Naumov imzaladılar.

AZƏRBAYCAN RESPUBLİKASI VƏ BELARUS RESPUBLİKASI ARASINDA DOSTLUQ VƏ ƏMƏKDAŞLIQ HAQQINDA MÜQAVİLƏ

2 may 2007-ci il

Bundan sonra Ali Razılığa gələn Tərəflər adlandırılan Azərbaycan Respublikası və Belarus Respublikası,

beynəlxalq hüququn ümumtanınmış prinsip və normalarına, Birləşmiş Millətlər Təşkilatının Nizamnaməsinin məqsəd və prinsiplərinə, Helsinki Yekun Aktının və Avropada Təhlükəsizlik və Əməkdaşlıq Təşkilatının digər sənədlərinin müddəalarına sadiq olduqlarını təsdiq edərək,

onların xalqları arasında mövcud əlaqələrə, dostluq münasibətlərinə və qarşılıqlı hörmət ənənələrinə əsaslanaraq,

qarşılıqlı faydalı ikitərəfli əməkdaşlığın daha da genişləndirilməsinin iki dövlət xalqlarının əsl maraqlarına cavab verdiyindən, sülhə, sabitliyin və təhlükəsizliyin möhkəmlənməsinə xidmət etdiyindən çıxış edərək,

siyasi, iqtisadi, elmi-texniki, ekoloji, informasiya, humanitar və digər sahələrdə ikitərəfli əməkdaşlığa yeni keyfiyyət verilməsini və onun hüquqi bazasının möhkəmləndirilməsini arzu edərək,

aşağıdakılar barədə razılığa gəldilər:

MADDƏ 1

Ali Razılığa gələn Tərəflər öz qarşılıqlı münasibətlərində dövlət suverenliyi, ərazi bütövlüyü və sərhədlərin toxunulmazlığına hörmət, daxili işlərə qarışmamaq, iqtisadi və digər üsullarla təzyiq göstərilməsi də daxil olmaqla zor işlətməmək və zor işlətməklə hədələməmək, mübahisələrin sülh yolu ilə həll edilməsi, insan hüquqları və əsas azadlıqlarına hörtərəfli hörmət, beynəlxalq öhdəliklərin vicdanla yerinə yetirilməsi prinsiplərini, həmçinin beynəlxalq hüququn digər ümumtanınmış prinsip və normalarının yerinə yetirilməsini təmin edirlər.

MADDƏ 2

Ali Razılığa gələn Tərəflərlərin hər biri digər Ali Razılığa gələn Tərəfin suverenliyinə, müstəqilliyinə və ərazi bütövlüyünə qarşı yönələn hər hansı bir fəaliyyətdə və tədbirdə iştirakdan və dəstəkləməkdən çəkinir və onun ərazisinin digər Ali Razılığa gələn Tərəfin təhlükəsizlik maraqlarına ziyan vurulması üçün istifadə edilməsinə yol vermir.

MADDƏ 3

Ali Razılığa gələn Tərəflər təsdiq edirlər ki, ümumi təhlükəsizlik bölünməzdir, onlar bu sahədə tərəfdaşlığı ardıcıl həyata keçirəcəklər, ikitərəfli və çoxtərəfli əsasda sülhün, etimadın və təhlükəsizliyin möhkəmləndirilməsinə fəal kömək göstərəcəklər.

Ali Razılığa gələn Tərəflər silahların məhdudlaşdırılması və silahsızlaşdırma prosesinə, beynəlxalq sülhün və təhlükəsizliyin qorunub saxlanmasında Birləşmiş Millətlər Təşkilatının rolunun gücləndirilməsinə, Avropada kollektiv təhlükəsizlik sisteminin yaradılmasına, bütün dünyada etimad və təhlükəsizliyin möhkəmləndirilməsi üzrə tədbirlərin görülməsinə yardım edirlər.

Ali Razılığa gələn Tərəflər BMT-nin Nizamnaməsi və ATƏT-in sənədlərinə uyğun olaraq dövlətlərin suverenliyinə, ərazi bütövlüyünə və sərhədlərin toxunulmazlığına hörmət və riayət olunması əsasında münaqişələrin sülh yolu ilə nizamlanması məqsədilə fəaliyyət göstərəcəklər.

MADDƏ 4

Ali Razılığa gələn Tərəflər BMT və digər beynəlxalq təşkilatlar çərçivəsində əməkdaşlığı və təmasları genişləndirirlər, qarşılıqlı maraq kəsb edən məsələlər üzrə mövqelərinin razılaşdırılması üçün məsləhətləşmələr keçirirlər.

MADDƏ 5

Ali Razılığa gələn Tərəflər hər iki dövlətin xalqlarının yaxınlaşması üçün zəruri şəraitin təmin edilməsinə səy göstərərək, onların vətəndaşları, dövlət və ictimai təşkilat və birlikləri, yerli idarə və özünü idarə orqanları arasında əlaqələrin genişləndirilməsinə hərtərəfli kömək göstərirlər.

MADDƏ 6

Ali Razılığa gələn Tərəflər hər iki dövlətin parlamentləri arasında əlaqələri və əməkdaşlığı inkişaf etdirirlər.

MADDƏ 7

Ali Razılığa gələn Tərəflər qarşılıqlı faydalı ikitərəfli iqtisadi əməkdaşlığın inkişafı üçün əlverişli şəraiti təmin edirlər və beynəlxalq hüququn prinsip və normaları əsasında özlərinin iqtisadi və ticarət münasibətlərinin mexanizminin təkmilləşdirilməsi üzrə müvafiq tədbirlər görürlər.

Ali Razılığa gələn Tərəflər ikitərəfli sazişlər, onların beynəlxalq öhdəlikləri və milli qanunvericilikləri əsasında bir Ali Razılığa gələn Tərəfinin hüquqi və fiziki şəxslərinin digər Ali Razılığa gələn Tərəfinin ərazisində sahibkarlıq fəaliyyəti üçün əlverişli iqtisadi, maliyyə və hüquqi şəraitləri yaradırlar.

Hər bir Ali Razılığa gələn Tərəf öz ərazisində milli qanunvericiliklərinə uyğun olaraq digər Ali Razılığa gələn Tərəfin hüquqi və fiziki şəxslərinin mülkiyyət və əmlak hüququnun müdafiəsinə təminat verir.

MADDƏ 8

Ali Razılığa gələn Tərəflər tranzit və nəqliyyat kommunikasiyaları sahəsində əməkdaşlığı inkişaf etdirir və dərinləşdirirlər. Hər bir Ali Razılığa gələn Tərəf onun ərazisində yerləşən hava, dəniz və çay limanları, dəmir yolu və avtomobil şəbəkəsi və boru kəmərləri vasitəsi ilə digər Ali Razılığa gələn Tərəfin nəqliyyat əməliyyatlarının həyata keçirilməsi üçün əlverişli şəraiti yaradır və təmin edir.

Nəqliyyat və tranzit hərəkəti sahəsində əməkdaşlığın həyata keçirilməsinin şərtləri və qaydaları ayrıca sazişlər ilə müəyyən edilir.

MADDƏ 9

Ali Razılığa gələn Tərəflər rabitə sahəsində, o cümlədən onların arasında elektrorabitə və poçt rabitəsi xidmətlərinin keyfiyyətinin artırılması yolu ilə əməkdaşlığı inkişaf etdirirlər.

MADDƏ 10

Ali Razılığa gələn Tərəflər hərbi və hərbi-texniki əməkdaşlığı inkişaf etdirir, həmçinin ayrıca sazişlər əsasında hər iki dövlətin müdafiə idarələri arasında əlaqələri təşviq edirlər.

MADDƏ 11

Ali Razılığa gələn Tərəflər fundamental və tətbiqi elmlər sahəsində səmərəli əməkdaşlıq, qabaqcıl texnika və texnologiyaların birgə hazırlanması və tətbiqi, həmçinin alimlərin, elmi-araşdırma institutlarının, elmi-istehsal birliklərinin birbaşa əlaqələri və birgə təşəbbüslərinin inkişafı üçün şəraitin yaradılmasına kömək edirlər.

Ali Razılığa gələn Tərəflər bu məsələlər üzrə ayrıca sazişlər bağlayacaqlar.

MADDƏ 12

Ali Razılığa gələn Tərəflər təhsil sahəsində münasibətləri inkişaf etdirir və xüsusilə məktəblilərin, tələbələrin, aspirantların və təcrübə keçənlərin mübadiləsi yolu ilə müxtəlif tədris müəssisələri arasında əməkdaşlığı təşviq edirlər.

Bu məsələ üzrə ayrıca sazişlər bağlanacaqdır.

Ali Razılığa gələn Tərəflər təhsil, elmi dərəcə və elmi adlar haqqında sənədlərin tanınması haqqında xüsusi hökumətlərarası sazişinin bağlanmasının mümkünlüyünü öyrənəcəklər.

MADDƏ 13

Ali Razılığa gələn Tərəflər mədəniyyət sahəsində ikitərəfli əlaqələrin genişləndirilməsini dünya mədəni irsinin artırılması üçün zəruri şərt sayırlar. Bundan çıxış edərək, Ali Razılığa gələn Tərəflər yaradıcı heyətlər, mədəniyyət xadimləri arasında mübadilələrə şərait yaradırlar, həmçinin digər Ali Razılığa gələn Tərəfin vətəndaşları üçün öz vətən-

daşları ilə bərabər səviyyədə və eyni şərtlərlə mədəni sərvətlərdən, arxivlərdən, kitabxanalardan, kütləvi informasiya vasitələrindən istifadə etməyə geniş imkanı təmin edirlər.

MADDƏ 14

Ali Razılığa gələn Tərəflər bilavasitə və beynəlxalq təşkilatlar çərçivəsində hüquqların qorunması, əqli mülkiyyətin müdafiəsi və istifadəsi sahəsində əməkdaşlıq edirlər.

MADDƏ 15

Ali Razılığa gələn Tərəflər, qarşılıqlı maraqlar və öz imkanlarından çıxış edərək, ətraf mühitin qorunması və yaxşılaşdırılması, texnogen xarakterli qəzaların və təbii fəlakətlərin nəticələrinin aradan qaldırılması, təbiətdən ehtiyatlı istifadə, ekoloji cəhətdən təmiz istehsalat sahəsinin genişləndirilməsi, təbiəti qorumaq və təbiəti bərpa etmək üzrə yüksək səmərəli tədbirlərin həyata keçirilməsi sahəsində əməkdaşlığı inkişaf etdirirlər.

Bu məsələ üzrə ayrıca sazişlər bağlanacaqdır.

MADDƏ 16

Ali Razılığa gələn Tərəflər əhalinin sağlamlığının qorunmasının təmin olunması, tibb elminin və təcrübəsinin inkişafı üzrə birgə fəaliyyətin zəruriliyini etiraf edirlər.

Ali Razılığa gələn Tərəflər iştirakçı olduqları beynəlxalq müqavilələrə və milli qanunvericiliklərinə uyğun olaraq hər iki Ali Razılığa gələn Tərəflərin vətəndaşları üçün mövcud unikal və ixtisaslaşdırılmış tibbi və sanatoriya-istirahət müəssisələrindən istifadəni, tibbi yardımın alınmasını təmin edirlər.

MADDƏ 17

Ali Razılığa gələn Tərəflərdən hər biri onun ərazisində daimi yaşayan digər Ali Razılığa gələn Tərəfin vətəndaşlarına, həmçinin həmin dövlətin ərazisində yaşayan vətəndaşlığı olmayan şəxslərə, onların milli mənsubiyyətindən, dinindən və digər fərqlərdən asılı olmayaraq, mülki, siyasi, sosial, iqtisadi və mədəni hüquq və azadlıqlarına, insan hüquqları sahəsində ümumtanınmış beynəlxalq normalara və milli qanunvericiliyinə uyğun olaraq riayət olunmasına təminat verir.

MADDƏ 18

Ali Razılığa gələn Tərəflərdən hər biri Azərbaycan Respublikasında Belarus azlığına mənsub olan və Belarus Respublikasında Azərbaycan azlığına mənsub olan şəxslərin azad fərdi və ya kollektiv özünüifadə hüquqlarına, etnik, mədəni və dil xüsusiyyətlərinin qorunub saxlanılmasına təminat verir, onları heç bir zorakı assimilyasiya cəhdlərinə məruz qoymur.

Ali Razılığa gələn Tərəflər milli azlıqların qarşılıqlı münasibətlərinin tənzimlənməsi və mədəni inkişafının dəstəklənməsi üzrə iş təcrübəsi mübadiləsi sahəsində dövlət orqanları arasında əməkdaşlığı inkişaf etdirir.

Ali Razılığa gələn Tərəflərdən hər biri öz ərazisində milli, irqi, etnik və dini dözümsüzlük, düşmənçilik və ədavətə əsaslanan hər bir fəaliyyətin qarşısının alınması və aradan qaldırılması üçün zəruri, o cümlədən qanunverici tədbirlərin görülməsini öz öhdəsinə götürür.

MADDƏ 19

Ali Razılığa gələn Tərəflər cinayətkarlığa, o cümlədən mütəşəkkil cinayətkarlığa, korrupsiyaya, terrorizmə, qeyri-qanuni miqrasiyaya, insan alverinə, qanunsuz maliyyə əməliyyatlarına, narkotik və psixotrop maddələrin, kimyəvi-zəhərli maddələrin, silahların, partlayıcı maddələrin qeyri-qanuni dövriyyəsinə və qaçaqmalçılığa, mədəni sərvətlərin qanunsuz satışına və sərhəddən keçirilməsinə, hüquqazidd fəaliyyətdən əldə edilmiş gəlirlərin qanuniləşdirilməsinə, digər təhlükəli cinayət növlərinə qarşı mübarizə sahəsində əməkdaşlıq edirlər.

Ali Razılığa gələn Tərəflər bu sahədə təcrübə və operativ məlumat mübadiləsini həyata keçirirlər, bu istiqamətdə bilavasitə və beynəlxalq əməkdaşlıq çərçivəsində məsləhətləşmələr və birgə tədbirləri həyata keçirirlər.

Ali Razılığa gələn Tərəflər hüquqi məlumat mübadiləsi, hüquqi aktların hazırlanması və tətbiqi sahəsində əməkdaşlıq edirlər.

Ali Razılığa gələn Tərəflər bu məsələlərə dair ayrı-ayrı sazişləri bağlayacaqlar.

MADDƏ 20

Hazırkı Müqavilənin müddəaları Ali Razılığa gələn Tərəflərin iştirakçı olduqları digər beynəlxalq müqavilələrdən irəli gələn hüquq və öhdəliklərinə toxunmur.

MADDƏ 21

Hazırkı Müqavilənin təfsiri və tətbiqinə dair yaranan mübahisələr Ali Razılığa gələn Tərəflər arasında məsləhətləşmələr və danışıqlar yolu ilə həll edilir.

MADDƏ 22

Ali Razılığa gələn Tərəflərin qarşılıqlı razılığına əsasən hazırkı Müqaviləyə onun ayrılmaz hissəsi olacaq ayrıca protokollarla rəsmiləşdirilən əlavə və dəyişikliklər edilə bilər.

MADDƏ 23

Bu Müqavilə ratifikasiya olunmalıdır və ratifikasiya fərmanlarının mübadiləsi günü qüvvəyə minir.

Bu Müqavilə on il müddətinə bağlanılır. Ali Razılığa gələn Tərəflərdən biri digər Ali Razılığa gələn Tərəfə müvafiq müddətin başa çatmasından ən azı on iki ay əvvəl Müqavilənin qüvvəsinin ləğv edilməsi barədə yazılı şəkildə bildirmədiyi təqdirdə müqavilənin qüvvəsi avtomatik olaraq növbəti beş illik müddətlərə uzadılacaqdır.

Hazırkı Müqavilə BMT Nizamnaməsinin 102-ci maddəsinə uyğun olaraq Birləşmiş Millətlər Təşkilatında qeydiyyata alınacaqdır.

Hazırkı Müqavilə Bakı şəhərində 2 may 2007-ci il tarixində iki nüsxədə hər biri Azərbaycan, belarus və rus dillərində imzalanmışdır, bütün mətnlər eyni qüvvəyə malikdir.

Hazırkı Müqavilənin müddəalarının təfsiri zamanı fikir ayrılığı yarandığı təqdirdə, rus dilindəki mətndən istifadə ediləcəkdir.

AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ

İLHAM ƏLİYEV

BELARUS RESPUBLİKASININ PREZİDENTİ

ALEKSANDR LUKAŞENKO

AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ YANINDA QİYMƏTLİ KAĞIZLAR ÜZRƏ DÖVLƏT KOMİTƏSİ VƏ BELARUS RESPUBLİKASININ MALİYYƏ NAZİRLİYİ ARASINDA ƏMƏKDAŞLIQ HAQQINDA SAZİŞ

2 may 2007-ci il

Bundan sonra "Tərəflər" adlandırılan Azərbaycan Respublikasının Prezidenti yanında Qiymətli Kağızlar üzrə Dövlət Komitəsi və Belarus Respublikasının Maliyyə Nazirliyi,

Azərbaycan Respublikası və Belarus Respublikası arasında iqtisadi əməkdaşlığın genişləndirilməsi zəruriyyətini rəhbər tutaraq,

Milli qiymətli kağızlar bazarlarının fəaliyyəti barədə məlumat mübadiləsi üzrə ümumi maraqlarından çıxış edərək,

investorlar və emitentlərin müdafiəsi, qiymətli kağızlar bazarlarının effektiv inkişafı üçün şərait və imkanların yaradılması məqsədi ilə,

əməkdaşlıq və məsləhətləşmələr üçün qarşılıqlı maraqları təmin edən əməkdaşlığın əsasının yaradılmasına çalışaraq,

aşağıdakılar barədə razılığa gəldilər:

MADDƏ 1

Bu Sazişin məqsədi zəruri informasiya mübadiləsini, Tərəflərin hər birinin öhdəçiliyinin icra edilməsi ilə təmin edilən qarşılıqlı yardımın vahid sisteminin yaradılması, qiymətli kağızlar bazarında əməliyyatların aparılmasının şəffaflığının təmin olunması məqsədi ilə, Tərəflər arasında qarşılıqlı səmərəli əməkdaşlığın qurulmasından ibarətdir.

MADDƏ 2

Tərəflər aşağıdakı tədbirlərin həyata keçirilməsi üzrə razılaşdılar:

bir Tərəfin dövlətini təmsil edən emitentlərin qarşı Tərəfin dövlətinin ərazisində qiymətli kağızlarının yerləşdirilməsinin təmin edilməsi;

bir Tərəfin dövlətini təmsil edən investorlarının qarşı Tərəfin dövlətinin qiymətli kağızlar bazarında iştirakının təmin edilməsi;

Tərəflərin dövlətlərinin mərkəzi depozitarları arasında münasibətlərin qurulması və o cümlədən müxbir münasibətlərin yaradılması;

hər iki dövlətin fond birjaları arasında informasiya mübadiləsinin təşkili.

MADDƏ 3

Bu Sazişin yerinə yetirilməsi məqsədi ilə, Tərəflər əməkdaşlığı öz səlahiyyətləri çərçivəsində aşağıdakı formalarda həyata keçirə bilərlər:

qiymətli kağızlar bazarlarının vəziyyəti haqqında informasiya mübadiləsi;

qiymətli kağızlar bazarının iştirakçıları tərəfindən Tərəflərin dövlətlərinin qiymətli kağızlar haqqında qanunvericiliyinin tələblərinə riayət etməsi üzrə nəzarətin həyata keçirilməsi və Tərəflərin dövlətlərinin qiymətli kağızlar bazarlarında aşkar olunmuş hüquq pozuntularının aradan qaldırılması üzrə tədbirlərin görülməsi təcrübəsi üzrə informasiya mübadiləsi;

qiymətli kağızlar bazarının peşəkar iştirakçıları haqqında informasiya mübadiləsi;

nümayəndə heyətləri və mütəxəssislərin mübadiləsi, konfrans və qarşılıqlı məsləhətləşmələrin keçirilməsi;

qarşılıqlı maraq kəsb edən digər formalarda.

MADDƏ 4

Tərəflər milli qanunvericiliyə uyğun olaraq öz fəaliyyətləri və milli qiymətli kağızlar bazarlarının vəziyyəti haqqında aşağıdakı məlumatı bir birinə təqdim etmək öhdəliklərini götürürlər:

qiymətli kağızların emitentləri və qiymətli kağızlar bazarının peşəkar iştirakçılarının fəaliyyətinin tənzimlənməsi üzrə qəbul edilmiş və qüvvədən düşmüş normativ aktların siyahısı;

qiymətli kağızlar bazarının peşəkar iştirakçıları və qiymətli kağızlar bazarında lisenziya və razılıq əsasında fəaliyyət göstərən digər təşkilatların tərkibi haqqında məlumatlar;

qiymətli kağızlar bazarlarının vəziyyəti haqqında illik hesabatların mübadiləsi.

MADDƏ 5

Bu Saziş çərçivəsində əməkdaşlıq maraq göstərən Tərəfin yardım göstərilməsi haqqında sorğusu əsasında, və ya müvafiq yardımın qarşı Tərəfə maraq kəsb etdiyi hesab edildikdə, digər Tərəfin təşəbbüsü ilə həyata keçirilə bilər.

MADDƏ 6

Zəruriyyət yarandıqda Tərəflər yazılı sorğu əsasında öz dövlətlərinin digər dövlət orqanlarından məlumat əldə edilməsində yardım göstərirlər.

MADDƏ 7

Tərəflər arasında əməkdaşlıq bərabərlik, şəffaflıq, qarşılıqlı yardım və informasiyanın dolğunluğu prinsipləri əsasında həyata keçirilir.

Tərəflərin əməkdaşlığı təmənnasızlıq əsasında həyata keçirilir.

Bu Sazişə uyğun olaraq Tərəflərin yerinə yetirdiyi tədbirlər Tərəflərin dövlətlərinin qanunvericiliyinə tam uyğun olaraq həyata keçirir.

MADDƏ 8

Rəsmi ad və funksiyalar dəyişdirildikdə Tərəflər bir-birini diplomatik kanallarla dərhal məlumatlandırırlar.

MADDƏ 9

Tərəflər bu Sazişin müddəalarının tətbiqi zamanı yaranan mübahisələri qarşılıqlı məsləhətləşmələr və danışıqlar yolu ilə həll edəcəklər.

MADDƏ 10

Bu Saziş çərçivəsində Tərəflərdən birinin əldə etdiyi informasiya yalnız bu informasiyanı təqdim edən Tərəfin yazılı razılığı ilə üçüncü tərəfə ötürülə bilər.

Bu Saziş çərçivəsində əldə olunan informasiya Tərəflərin dövlətlərinin maraqlarına zidd istifadə edilə bilməz.

MADDƏ 11

Tərəflər əməkdaşlığı həyata keçirərkən rus dilindən istifadə edirlər.

MADDƏ 12

Hazırkı Sazişə onun ayrılmaz hissəsi olan və bu Sazişin 13-cü maddəsinə uyğun olaraq qüvvəyə minən ayrıca protokollarla rəsmiləşdirilən dəyişikliklər və əlavələr edilə bilər.

MADDƏ 13

Bu Saziş qeyri-müəyyən müddətə bağlanılır və Tərəflərin onun qüvvəyə minməsi üçün zəruri olan dövlətdaxili prosedurların yerinə yetirilməsi barədə Tərəflərin sonuncu yazılı bildirişinin diplomatik kanallar vasitəsi ilə alındığı tarixdən qüvvəyə minir.

Bu Saziş Tərəflərdən birinin Sazişə xitam verilməsi barədə yazılı bildirişinin alınmasından 30 gün sonra qüvvədən düşür.

Saziş Bakı şəhərində 2 may 2007-ci il tarixində iki əsl nüsxədə hər biri Azərbaycan və rus dillərində imzalanmışdır, bütün mətnlər eyni hüquqi qüvvəyə malikdir.

AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ YANINDA QİYMƏTLİ KAĞIZLAR ÜZRƏ DÖVLƏT KOMİTƏSİNİN SƏDRİ	BELARUS RESPUBLİKASININ XARİCİ İŞLƏR NAZİRİ
GÜNDÜZ MƏMMƏDOV	*SERGEY MARTINOV*

AZƏRBAYCAN RESPUBLİKASININ MİLLİ BANKI VƏ BELARUS RESPUBLİKASININ MİLLİ BANKI ARASINDA ƏMƏKDAŞLIQ HAQQINDA SAZİŞ

2 may 2007-ci il

Bundan sonra "Tərəflər" adlandırılan Azərbaycan Respublikasının Milli Bankı və Belarus Respublikasının Milli bankı iki dövlətin bank sistemləri arasında münasibətlərin daha da genişlənməsinə və möhkəmlənməsinə kömək göstərmək məqsədilə aşağıdakılar barədə razılığa gəldilər:

MADDƏ 1

Tərəflər Azərbaycan Respublikasının Milli Bankı və Belarus Respublikasının Milli bankı tərəfindən buraxılan yazıları və dövri nəşrləri, habelə ölkələrin pul-kredit siyasəti və bank sistemlərinin inkişaf problemləri haqqında informasiyanı mübadilə edirlər.

Aşağıdakı sahələrdə informasiya, tədqiqat və metodiki iş təcrübəsinin qarşılıqlı mübadiləsi həyata keçirilir:

makroiqtisadi təhlil və proqnozlaşdırma (modellərin qurulması);

pul təhlili (monetar təhlil) və proqnozlaşdırma;

maliyyə proqramlaşdırması;

maliyyə-bank bazarının monitorinqi və təhlili;

iqtisadiyyatın real sektorunun monitorinqi;

valyuta siyasətinin səmərəliliyi;

ödəniş sisteminin inkişafı;

bank nəzarətinin həyata keçirilməsi;

bank tədris metodikasının mahiyyəti.

Tərəflər iqtisadi və maliyyə-bank statistikasının əsas göstəriciləri üzrə müntəzəm statistik informasiya mübadiləsi keçirmək, habelə lazım gəldikdə bank və maliyyə fəaliyyətini tənzimləyən normativ hüquqi aktlar təqdim etmək barədə razılığa gəlmişlər.

MADDƏ 2

Tərəflər personalın peşə hazırlığı və tədrisi sahəsində aşağıdakı formalarda əməkdaşlıq etməyə razı olduqlarını bildirmişlər:

Tərəflərin mütəxəssislərinə onların tədris mərkəzləri və digər tədris strukturları tərəfindən keçirilən seminarlarda iştirak etmək imkanı vermək;

Tərəflərin mütəxəssislərinin iş təcrübəsi mübadiləsini keçirmək, onların peşə stajı keçmələrini təşkil etmək;

birgə seminarlar, dəyirmi masalar keçirmək;

Tərəflərin milli banklarının fəaliyyətinin aktual problemlərinə dair məsləhətləşmələr aparmaq üçün ekspertlər göndərmək;

bir Tərəfin mütəxəssislərini digər Tərəfin tədris mərkəzlərində ixtisaslaşdırılmış seminarlar keçirməyə göndərmək.

Bu maddədə göstərilən əməkdaşlıq formalarının həyata keçirilməsi zamanı yaranan xərcləri göndərən Tərəf ödəyir, bu şərtlə ki, Tərəflər arasında ayrı qayda razılaşdırılmasın.

MADDƏ 3

Tərəflər lazım gələrsə, bu Sazişi inkişaf etdirərək fəaliyyətin ayrı-ayrı istiqamətlərinə dair sazişlər bağlayacaqlar.

MADDƏ 4

Tərəflər meydana çıxan mübahisələri və fikir ayrılıqlarını qarşılıqlı danışıqlar və məsləhətləşmələr yolu ilə həll edirlər.

MADDƏ 5

Tərəflərin qarşılıqlı razılığına əsasən bu Sazişə onun ayrılmaz tərkib hissəsi olan və bu Sazişin 6-cı maddəsində göstərilmiş qaydada qüvvəyə minən ayrıca protokollar şəklində dəyişikliklər və əlavələr edilə bilər.

MADDƏ 6

Bu Saziş, Tərəflərin onun qüvvəyə minməsi üçün zəruri olan dövlətdaxili prosedurların yerinə yetirilməsi barədə sonuncu yazılı bildirişin diplomatik kanallar vasitəsi ilə alındığı tarixindən qüvvəyə minir.

Bu Saziş qeyri-müəyyən müddətə bağlanılır.

Tərəflərdən biri bu Sazişin qüvvəsinin ləğv etmək niyyəti barədə diplomatik kanallar vasitəsi ilə digər Tərəfə yazılı bildiriş təqdim etməyənədək Saziş qüvvədə qalır. Hazırkı Saziş belə bildirişin alındığı tarixdən 3 ay sonra qüvvədən düşür.

Saziş Bakı şəhərində 2 may 2007-ci il tarixində iki əsl nüsxədə, hər biri Azərbaycan və rus dillərində olmaqla imzalanmışdır, bütün mətnlər eyni hüquqi qüvvəyə malikdir.

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ BANKIN İDARƏ HEYƏTİNİN SƏDRİ	BELARUS RESPUBLİKASI MİLLİ BANKIN İDARƏ HEYƏTİNİN SƏDRİ
ELMAN RÜSTƏMOV	*PYOTR PROKOPOVİÇ*

AZƏRBAYCAN RESPUBLİKASININ DÖVLƏT ƏMLAKININ İDARƏ EDİLMƏSİ ÜZRƏ DÖVLƏT KOMİTƏSİ VƏ BELARUS RESPUBLİKASININ DÖVLƏT ƏMLAK KOMİTƏSİ ARASINDA DÖVLƏT ƏMLAKININ İDARƏ EDİLMƏSİ VƏ ÖZƏLLƏŞDİRİLMƏSİ SAHƏSİNDƏ ƏMƏKDAŞLIĞA DAİR SAZİŞ

2 may 2007-ci il

Bundan sonra "Tərəflər" adlandırılacaq Azərbaycan Respublikasının Dövlət Əmlakının İdarə Edilməsi üzrə Dövlət Komitəsi və Belarus Respublikasının Dövlət Əmlak Komitəsi,

Tərəflərin dövlətlərinin qanunvericiliyinin müəyyənləşdirdiyi səlahiyyətləri çərçivəsində qarşılıqlı faydalı əlaqələr yaratmağa çalışaraq,

dövlət əmlakının idarə edilməsi və özəlləşdirilməsi sahəsində geniş məlumat mübadiləsi əsasında hər iki ölkənin hüquqi və fiziki şəxslərinin dövlət əmlakının özəlləşdirilməsində qarşılıqlı iştirakı üçün əlverişli şəraitin yaradılmasına yardım göstərmək, habelə normativ bazanın qarşılıqlı olaraq təkmilləşdirilməsi niyyəti ilə,

aşağıdakılar barədə razılığa gəldilər:

MADDƏ 1

Dövlət əmlakının idarə edilməsi və özəlləşdirilməsi sahəsində əməkdaşlıq aşağıdakı istiqamətlərdə həyata keçiriləcəkdir:

Tərəflərin dövlətlərinin dövlət əmlakının idarə edilməsi və özəlləşdirilməsi sahəsində uçot və idarəetmə məsələləri ilə bağlı hazırlanmaqda olan və qüvvəyə minmiş normativ hüquqi aktları haqqında, habelə digər məlumat mübadiləsi;

dövlət əmlakının idarə edilməsi və özəlləşdirilməsi sahəsində qarşılıqlı maraq doğuran məlumatların kütləvi informasiya vasitələrində dərc etdirilməsi;

Tərəflərin məqsədəmüvafiq hesab edəcəyi digər əməkdaşlıq istiqamətləri.

MADDƏ 2

Bu Sazişin reallaşdırılması məqsədilə Tərəflər özəlləşdirmənin gedişatı, habelə səhmdar cəmiyyətlərinin səhmləri də daxil olmaqla, dövlət əmlakının satışı şərtləri və müddətləri haqqında informasiya mübadiləsi aparacaq, hər iki tərəfin investorlarının qarşılıqlı şəkildə özəlləşdirmə prosesinə cəlb edilməsi üzrə tədbirlər həyata keçirəcəklər.

Bu cür tədbirlərin təşkili və normativ hüquqi sənədlərin işlənib hazırlanması üzrə təcrübə mübadiləsi konfransların, seminarların, işgüzar görüşlərin keçirilməsi, kadr hazırlığı sahəsində birgə layihələrin həyata keçirilməsi, Tərəflərin mütəxəssisləri arasında birbaşa əlaqələrin yaradılması vasitəsilə həyata keçirilə bilər.

MADDƏ 3

Tərəflər bu Sazişlə üzərlərinə götürdükləri öhdəliklərin şərtsiz olaraq yerinə yetirilməsi üzrə onlardan asılı olan bütün tədbirlərin görülməsini və zərurət yarandıqda, Sazişin reallaşdırılması prosesində qarşıya çıxan fikir ayrılıqlarına birlikdə baxılmasını öhdələrinə götürürlər.

MADDƏ 4

Tərəflər əməkdaşlığın həyata keçirilməsi məqsədilə müvafiq təkliflərin hazırlanaraq razılaşdırılmaq üçün təqdim edilməsi və icrası ilə bağlı zəruri işlərin təmin edilməsi məqsədilə səlahiyyətli nümayəndələrini müəyyən edir və həmin şəxslərin əlaqə rekvizitləri barədə qarşılıqlı surətdə bir-birinə məlumat verirlər.

Tərəflərin nümayəndələri bu Sazişə və öz ölkələrinin milli qanunvericiliyinə uyğun olaraq öz səlahiyyətləri çərçivəsində bir-birinə yardım göstərəcəklər. Zəruri hallarda Tərəflərin səlahiyyətli nümayəndələri bu Sazişin yerinə yetirilməsi ilə bağlı olan məsələlərin müzakirəsi üçün görüşlər keçirəcəklər.

MADDƏ 5

Tərəflər konfidensial xarakter daşıyan informasiya, sənəd və digər məlumatları üçüncü şəxslərə təqdim etməyəcəklərinə dair öhdəlik götürürlər.

MADDƏ 6

Tərəflərin qarşılıqlı razılığı əsasında hazırkı Sazişə onun ayrılmaz hissəsi olan Sazişin

8-ji maddəsində nəzərdə tutulan qaydada qüvvəyə minən ayrıca protokollarla rəsmiləşdirilən dəyişikliklər və əlavələr edilə bilər.

MADDƏ 7

Bu Saziş Tərəflərin iştirakçısı olduqları beynəlxalq maddələrdən irəli gələn hüquq və öhdəliklərinə toxunmur.

MADDƏ 8

Bu Saziş, onun qüvvəyə minməsi üçün zəruri olan dövlətdaxili prosedurların yerinə yetirilməsi haqqında Tərəflərin diplomatik kanallar vasitəsilə sonuncu yazılı bildirişinin alındığı tarixdən qüvvəyə minir.

Bu Saziş beş il müddətinə bağlanılır və Tərəflərdən hər hansı biri Sazişin müddətinin başa çatmasına ən azı altı ay qalmış digər Tərəfə ona xitam vermək niyyəti barədə diplomatik kanallar vasitəsi ilə yazılı bildiriş təqdim etməzsə, Sazişin müddəti avtomatik olaraq növbəti beş illik müddətlərə uzadılcaqdır.

Bu Saziş Bakı şəhərində 2 may 2007-ci il tarixində iki əsl nüsxədə Azərbaycan, belarus və rus dillərində olmaqla imzalanmışdır, bütün mətnlər eyni qüvvəyə malikdir.

Hazırkı Sazişin müddəalarının təfsiri zamanı fikir ayrılığı yarandığı təqdirdə, rus dilindəki mətndən istifadə ediləcəkdir.

AZƏRBAYCAN RESPUBLİKASI DÖVLƏT ƏMLAKININ İDARƏ EDİLMƏSİ ÜZRƏ DÖVLƏT KOMİTƏSİNİN SƏDRİ	BELARUS RESPUBLİKASININ XARİCİ İŞLƏR NAZİRİ
KƏRƏM HƏSƏNOV	*SERGEY MARTINOV*

AZƏRBAYCAN RESPUBLİKASININ STANDARTLAŞDIRMA, METROLOGİYA VƏ PATENT ÜZRƏ DÖVLƏT AGENTLİYİ VƏ BELARUS RESPUBLİKASININ STANDARTLAŞDIRMA ÜZRƏ DÖVLƏT KOMİTƏSİ ARASINDA STANDARTLAŞDIRMA, METROLOGİYA, UYĞUNLUĞUN QİYMƏTLƏNDİRİLMƏSİ VƏ AKKREDİTASİYA SAHƏSİNDƏ ƏMƏKDAŞLIQ HAQQINDA SAZİŞ

2 may 2007-ci il

Bundan sonra "Tərəflər" adlandırılan Azərbaycan Respublikasının Standartlaşdırma, Metrologiya və Patent üzrə Dövlət Agentliyi və Belarus Respublikasının Standartlaşdırma üzrə Dövlət Komitəsi,

standartlaşdırma, metrologiya, uyğunluğun qiymətləndirilməsi və akkreditasiya sahəsində elmi və texniki əlaqələrin inkişafına qarşılıqlı marağı nəzərə alaraq,

hər iki Tərəfin iqtisadi və ticarət əlaqələrində texniki maneələrin aradan qaldırılmasına marağını rəhbər tutmaqla,

aşağıdakılar barədə razılığa gəldilər:

MADDƏ 1

Tərəflər bu Sazişin həyata keçirilməsi zamanı Azərbaycan Respublikasının qanunvericiliyini və Belarus Respublikasının qanunvericiliyini rəhbər tutacaqlar.

MADDƏ 2

Bu Saziş aşağıdakı fəaliyyət sahələrini əhatə edir:

standartlaşdırma,

metrologiya,

uyğunluğun qiymətləndirilməsi,

akkreditasiya.

MADDƏ 3

Tərəflərdən biri özünün üzv olduğu beynəlxalq təşkilatlara daxil olmağa və ya işində iştirak etməyə digərinə köməklik göstərməklə, Tərəflər standartlaşdırma, metrologiya, uyğunluğun qiymətləndirilməsi və akkreditasiya üzrə müxtəlif beynəlxalq təşkilatlarda əməkdaşlıq edəcəklər.

MADDƏ 4

Tərəflər standartlaşdırma və texniki normalaşdırma üzrə iş proqramlarının, eləcə də standartlaşdırma üzrə digər milli normativ - texniki sənədlərin mübadiləsini aparırlar.

Standartlar və standartlaşdırma üzrə digər normativ sənədlərlə mübadilə Tərəflər arasında razılaşdırılmış siyahıya əsasən aparılır.

MADDƏ 5

Tərəflər qarşılıqlı tanınma üçün şəraitin yaradılması məqsədilə məhsulların (xidmətlərin, işlərin) uyğunluğunun təsdiqlənməsi üzrə milli sistemlərin beynəlxalq tövsiyələrə əsasən harmonizasiyasına səy göstərəcəklər.

MADDƏ 6

Tərəflər İSO, İEC beynəlxalq standartları və Avropa normaları bazasında qurulmuş uyğunluğun təsdiqlənməsi və akkreditasiya üzrə milli sistemlər əsasında Azərbaycan Respublikası və Belarus Respublikasında istehsal olunmuş, qarşılıqlı gətirilən məhsullara Tərəf ölkələrin milli qanunvericiliyinə uyğun olaraq Azərbaycan Respublikası və Belarus Respublikasının milli akkreditasiya sistemlərində akkreditə olunmuş sertifikatlaşdırma orqanları tərəfindən verilən uyğunluq sertifikatlarının tanınmasına imkan yaradacaqlar.

Bu Saziş Azərbaycan Respublikası və Belarus Respublikasının qarşılıqlı göndərdiyi və beynəlxalq standartların və ya digər razılaşdırılmış normaların tələblərinə cavab verən, bu dövlətlərin ərazisində istehsal olunan məhsullara şamil edilir.

MADDƏ 7

Tərəflər uyğunluğun təsdiqlənməsi üzrə milli sistemlərdə uyğunluğu məcburi təsdiqlənməli məhsulların siyahısı, milli akkreditasiya sistemlərində akkreditə olunmuş sertifikatlaşdırma üzrə orqanlar haqqında məlumatların mübadiləsini aparırlar.

MADDƏ 8

Məhsul digər Tərəfin ərazisinə göndərildikdə Tərəflərin uyğunluğun təsdiqlənməsinin milli sistemlərində verilən uyğunluq sertifikatlarının tanınması aşağıdakı qaydada həyata keçirilir:

Azərbaycan Respublikası ərazisində – oxşar məhsulun sertifikatlaşdırılması üzrə orqanlarda Belarus sertifikatlarının Azərbaycan Respublikasının uyğunluğun təsdiqi üzrə milli sisteminin sertifikatlarına yenidən rəsmiləşdirilməsi yolu ilə;

Belarus Respublikası ərazisində – oxşar məhsulun sertifikatlaşdırılması üzrə orqanlarda Azərbaycan sertifikatlarının Belarus Respublikasının uyğunluğun təsdiqlənməsi üzrə milli sisteminin sertifikatlarına yenidən rəsmiləşdirilməsi yolu ilə.

MADDƏ 9

İxrac edilən sertifikatlaşdırılmış məhsulun təhlükəsizliyinə və keyfiyyətinə görə istehsalçı (satıcı) məsuliyyət daşıyır.

Tərəflərdən hər biri bu Sazişin şamil edildiyi idxal olunan sertifikatlaşdırılmış məhsulun seçmə yolu ilə yoxlanmasını həyata keçirmək hüququna malikdir. Tərəflər yoxlamaların nəticələri haqqında yazılı şəkildə bir-birini məlumatlandırırlar.

MADDƏ 10

Tərəflər ölçmə vasitələrinin sınaqlarının nəticələrinin, tipinin təsdiqinin, metroloji attestasiyasının, yoxlanışının və kalibrlənməsinin, eləcə də təsdiq edilmiş dövlət kəmiyyət vahidləri etalonlarının qarşılıqlı tanınması şərtlərini təmin edirlər.

MADDƏ 11

Tərəflər bu Sazişin şamil edildiyi məhsulun ixracı üzrə müqavilələrin icrası zamanı vurulan ziyana və ya məhsulun keyfiyyəti ilə bağlı hər hansı iddiaya görə maddi məsuliyyət daşımırlar.

MADDƏ 12

Tərəflər milli akkreditasiya sistemlərinin tanınması əsasında məhsulun bu sistemlərdə akkreditasiya edilmiş laboratoriyalarda aparılmış sınağının nəticələrinin tanınmasına imkan yaradacaqlar.

MADDƏ 13

Tərəflər sınaq laboratoriyalarının akkreditasiyasının keçirilməsi haqqında, milli sistemlər haqqında informasiya mübadiləsi aparırlar və onların akkreditasiyasında iştirak edə bilərlər.

MADDƏ 14

Bu Saziş aşağıdakı üsullarla həyata keçirilir:

kağız və elektron daşıyıcılarda informasiya mübadiləsi;

hər iki Tərəfin rəhbərlərinin görüşü;

əvvəlcədən razılaşdırılmış məsələlər üzrə təcrübə keçmək və məsləhətləşmələr aparmaq üçün mütəxəssislərin mübadiləsi;

qarşılıqlı maraq doğuran sahələr üzrə seminarlar, mühazirələr, konfranslar və sərgilər keçirmək üçün mütəxəssis mübadiləsi.

MADDƏ 15

Tərəflər bu Saziş çərçivəsində əldə olunan informasiyanın, görülən işlər haqqında məlumat və sənədlərin məxfiliyini təmin edəcəklər.

MADDƏ 16

Bu Sazişin həyata keçirilməsi və şərhi ilə bağlı bütün mübahisələr Tərəflər arasında danışıqlar yolu ilə həll ediləcəkdir.

MADDƏ 17

Tərəflərin qarşılıqlı razılığı ilə bu Sazişə onun ayrılmaz hissəsi olan və bu Sazişin 18-ci maddəsində nəzərdə tutulan qaydada qüvvəyə minən ayrıca protokollarla rəsmiləşdirilən dəyişikliklər və əlavələr edilə bilər.

MADDƏ 18

Bu Saziş imzalandığı gündən qüvvəyə minir, beş il müddətində qüvvədə olacaqdır və Tərəflərdən biri növbəti müddətin bitməsinə ən azı altı ay qalmış Sazişin ləğv edilməsinə dair öz niyyəti barədə digər Tərəfə yazılı bildiriş göndərməzsə bu Saziş avtomatik olaraq növbəti beş illik müddətə uzadılır.

Bu Saziş Bakı şəhərində 2 may 2007-ci il tarixində iki əsl nüsxədə, Azərbaycan və rus dillərində imzalanmışdır, bütün mətnlər eyni qüvvəyə malikdir.

AZƏRBAYCAN RESPUBLİKASI STANDARTLAŞDIRMA, METROLOGİYA VƏ PATENT ÜZRƏ DÖVLƏT AGENTLİYİNİN BAŞ DİREKTORU	BELARUS RESPUBLİKASININ XARİCİ İŞLƏR NAZİRİ
RAMİZ HƏSƏNOV	*SERGEY MARTINOV*

AZƏRBAYCAN MİLLİ ELMLƏR AKADEMİYASININ RPEZİDENTİ

M.KƏRİMOV

2 may 2007-ci il

BELARUS MİLLİ ELMLƏR AKADEMİYASININ RƏYASƏT HEYƏTİNİN SƏDRİ

M.MYASNİKOVİÇ

2 may 2007-ci il

AZƏRBAYCAN MİLLİ ELMLƏR AKADEMİYASI İLƏ BELARUS MİLLİ ELMLƏR AKADEMİYASI ARASINDA 2007-2010 İLLƏR ÜZRƏ ELMİ ƏMƏKDAŞLIQ PROQRAMI

Mövzunun adı	Belarus MEA təşkilatı	Azərbaycan MEA təşkilatı
1.Geoinformasiya və kartoqrafik sistemləri və kompleksləri	Birləşmiş informatika problemləri institutu	İnformasiya texnologiyaları institutu
2. İnformasiya təhlükəsizliyi	Birləşmiş informatika problemləri institutu	İnformasiya texnologiyaları institutu
3. Görüntülərin təhlili və tanınması	Birləşmiş informatika problemləri institutu	İnformasiya texnologiyaları institutu
4. Təbii və antropogen çirkləndiricilərin ətraf mühitə radiasiya-kimyəvi təsirinin qiymətləndirilməsi	Radiobiologiya institutu	Radiasiya problemləri institutu
5. Atmosferdə, hidrosferdə və torpaqlarda çirkləndirici maddələrin, həmçinin radionuklidlərin köçürülməsinin və transformasiyasının proqnoz modelinin işlənməsi	Ekologiya və təbii sərvətlərin istifadəsi problemləri institutu	Radiasiya problemləri institutu
6. Nazik təbəqəli günəş elementləri	Bərk cisimlər və yarımkeçiricilər fizikası üzrə Birləşmiş institutu	Fizika institutu
7. Günəş enerjisinin dəyişiciləri: elmi araşdırmalar və istifadə	Bərk cisimlər və yarımkeçiricilər fizikası üzrə Birləşmiş institutu	Fizika institutu
8. Nazik təbəqəli yarımkeçiricilərin alınmasının texnologiyası	Bərk cisimlər və yarımkeçiricilər fizikası üzrə Birləşmiş institutu	Fizika institutu
9. Sənaye müəssisələrinin tullantı qazlarının adsorb-katalitik üsulda təmizlənməsi		Fizika institutu Radiasiya problemləri institutu

10. Yüksəkeffektli və qənaətedici heliotexnologiyaların yaradılması		Fizika institutu Radiasiya problemləri institutu
11. Səhiyyə və veterinariya üçün lazer və maqnit-lazer terapevtik qurğular	B.İ. Stepanov adına fizika institutu	Fizika institutu
12. Lazerlərin fizikası və onların sənayedə və ekologiyada istifadəsi	B.İ. Stepanov adına fizika institutu	Fizika institutu
13. Mikro və optoelektron texnologiyaları əsasında ölçülər informasiyasının intellektual çeviriciləri	Elektronika institutu	Fizika institutu
14. Polimer əsasında aktiv və qeyri aktiv kompozit materiallar, o cümlədən tribotexniki, istiyə davamlı, küyizolasiyalı, frikselon, geyri frikselon, təbəqəli, zərbəyə davamlı, özüyağlanan, filterli və onların alınma texnologiyası	V.A. Belıy adına dəmirpolimer sistemlər üzrə mexanika institutu	Fizika institutu Riyaziyyat və mexanika institutu Radiasiya problemləri institutu
15. Antikorroziyalı və dağılmaya davamlı örtüklərin çəkilməsinin texnologiya və avadanlıqları	Birləşmiş maşınqayırma institutu	Fizika institutu Riyaziyyat və mexanika institutu Radiasiya problemləri institutu Kibernetika institutu
16. Avtomobil və traktorlar üçün idarəedici informasiya-diaqnostik və elektron xidmət sistemləri	Birləşmiş maşınqayırma institutu	Fizika institutu Riyaziyyat və mexanika institutu Radiasiya problemləri institutu Kibernetika institutu
17. Neft məhsullarının uçot sistemi	Tətbiqi fizika institutu	Fizika institutu
18. Qaz analizatorları üçün təzyiq, zərbə yüklənməsi, temperatur ötürücülərinin və sensor qurğularının istehsal texnologiyaları	Fiziki-texniki institutu	Fizika institutu Radiasiya problemləri institutu
19. Yüksək temperaturlu ifrat keçiricilərinin nazik örtüklərin alınma texnologiyaları	Fiziki-texniki institutu	Fizika institutu
20. Neft ötürücü sorbentlərin işlənib hazırlanması və modelləşdirilməsi	Ekologiya və təbii sərvətlərin istifadəsi problemləri institutu	Radiasiya problemləri institutu Polimer materiallar institutu

21. Çirkab sularının təmizlənməsi üçün ağır metallar sorbentlərinin texnoloji istehsal prosesləri	Ekologiya və təbii sərvətlərin istifadəsi problemləri institutu	Radiasiya problemləri institutu Polimer materiallar institutu
22. Yanar disper material tullantılarının istifadəsi ilə torf əsaslı kompozisiya yanacaqlarının istehsal texnologiyası	Ekologiya və təbii sərvətlərin istifadəsi problemləri institutu	Radiasiya problemləri institutu Polimer materiallar institutu
23. Xloridlerodların alınmasının texnologiyası və onların stereokimyalarının öyrənilməsi	Fiziki-orqanik kimyası institutu	Polimer materiallar institutu
24. Xloruqlerod deon və yüksək dinofillərin (anhidridlər və imidlər) əsasında adduklarin sintezi və stereokimyası	Fiziki-orqanik kimyası institutu	Polimer materiallar institutu
25. Fullerenlərin sintezi və funksionalizasiyası və onların əsasında yüksəktermostabil polimerlərin alınması	A.V.Lıkov adına İstilik və kütlə mübadiləsi institutu	Polimer materiallar institutu
26. Funksional dəyişilmiş karbo və heterosept polimerlərinin əsasında fotohəssaslı materialların (maddələrin) yaradılması	Yeni materialların kimyası institutu	Polimer materiallar institutu
27. Poliofinlər və müxtəlif mineral doldurucular əsasında yüksəkdayanıqlı kompozision materialların texnikada istifadə etmək üçün yaradılması	V.A. Belıy adına dəmirpolimer sistemlər üzrə mexanika institutu	Polimer materiallar institutu
28. Yeni quruducu sistemlərin və onun vasitəsi ilə yüksəknəmişli yapışkan-dağılan materialların qurudulmasının texnologiyası	Fiziki-orqanik institutuA.V.Lıkov adına İstilik və kütlə mübadiləsi institutu	Polimer materiallar institutu
29. Yüksək enerjili kombinə edilmiş quruducu sistemin yaradılması və onun vasitəsi ilə natrikarboksimetilselülozların yaradılmasının texnologiyası	Fiziki-orqanik kimyası institutu	Polimer materiallar institutu
30. Sürtkü yağlarının, yanacaqların və yağlayıcı-soyuducu mayelərin biozədələnmədən mühafizə edən viosid aşqarlarının sintezi və tədqiqi	Yeni materialların kimyası institutu	Aşqarlar kimyası institutu
31. Yüksək təsirli sürtkü kompozisiyaların, ekoloji təhlükəsiz yanacaqların və yağlayıcı-soyuducu mayelərin işlənib hazırlanması	Yeni materialların kimyası institutu	Aşqarlar kimyası institutu

DÖVLƏT BAŞÇILARININ BİRGƏ MƏTBUAT KONFRANSI

Mayın 2-də Prezident sarayında, sənədlərin imzalanması mərasimi başa çatdıqdan sonra Azərbaycan Prezidenti İlham Əliyevin və Belarus Prezidenti Aleksandr Lukaşenkonun birgə mətbuat konfransı keçirilmişdir.

Dövlət başçıları əvvəlcə bəyanatlarla çıxış etdilər.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN BƏYANATI

-Hörmətli Aleksandr Qriqoryeviç!

Hörmətli qonaqlar!

Xanımlar və cənablar!

Prezident başda olmaqla Azərbaycana rəsmi səfər edən Belarus Respublikasının nümayəndə heyətini bir daha ürəkdən salamlamaq istəyirəm. Bu gün biz bir çox sənədlər imzaladıq, onlar əməkdaşlığımızın inkişafı üçün yaxşı əsasdır. Əminəm ki, bu sənədlərdə nəzərdə tutulanların praktik həyatda yerinə yetirilməsi ölkələrimiz arasında çox fəal, qarşılıqlı surətdə faydalı əməkdaşlığa gətirib çıxaracaqdır.

Bu gün biz keçən ilin payızında mənim Belarusa rəsmi səfərim zamanı prezidentlər səviyyəsində nəzərdə tutduğumuz real, praktik işlərin ilk konturlarını görürük. O vaxt biz əməkdaşlığın əsas istiqamətlərini müəyyən etdik və fərəhli haldır ki, qısa müddətdə, yarım ildən bir qədər çox vaxt keçəndən sonra biz artıq əldə edilmiş razılaşmaların konkret nəticələrini görürük.

Artıq bu gün Azərbaycanda Belarus müəssisələrinin məhsulu istehsal olunur. Energetika, neft-qaz əməliyyatları, maşınqayırma, müdafiə sənayesi sahəsində fəal əməkdaşlığın konturları müəyyən edilir. Humanitar sahədə, hərbi-texniki sahədə əməkdaşlıq fəal gedir. Yəni, prezidentlərin müəyyən etdikləri çox qısa müddətdə yerinə yetirilir və bu, ölkələrimizin ikitərəfli əlaqələrə olduqca ciddi yanaşdığına sübutdur.

Biz bu əlaqələri tərəfdaşlığımız üçün çox mühüm hesab edirik. Belarus Prezidentinin və belə geniş tərkibli nümayəndə heyətinin Azərbaycana səfəri bu məsələlərə ölkələrimizin və rəhbərliyin necə əhəmiyyət verdiyini göstərir.

Bu gün biz ikitərəfli əməkdaşlıqla, siyasi qarşılıqlı münasibətlərlə, regional əməkdaşlıqla, iqtisadi əlaqələrlə bağlı məsələlərin çox geniş dairəsini müzakirə etdik. Əminik ki, müəyyən edəcəyimiz və nəzərdə tutacağımız məsələlərin hamısı yerinə yetiriləcəkdir. Artıq qısa müddətdə Belarusun Azərbaycanda, Azərbaycanın Belarusda səfirlikləri fəaliyyətə başlamışdır. Biz Minsk ilə Bakı arasında aviareyslər açılması haqqında razılığa gəldik və bu reyslər artıq həyata keçirilir. Az vaxtda Gəncə şəhərində traktorların və yük avtomobillərinin istehsalı təşkil edilmişdir. Bütün bunlar göstərir ki, götürdüyümüz sürət, həqiqətən, tarixi sürətdir. Heç bir ölkə ilə bizim qəbul etdiyimiz qərarların belə tez yerinə yetirilməsi müşahidə olunmayıbdır. Yenə də demək istəyirəm ki, bu, bir tərəfdən, qəbul olunmuş qərarlara ciddi yanaşdığımızı, digər tərəfdən, qarşılıqlı surətdə faydalı əməkdaşlığa böyük maraq göstərildiyini sübut edir. Əminəm ki, bu səfər və imzalanmış sazişlərdə nəzərdə tutulanların yerinə yetirilməsi nəticəsində ölkələrimizin

qarşılıqlı əlaqələri daha sıx olacaqdır. İqtisadiyyatlarımız bir-birini tamamlayır. Biz ciddi tərəfdaşlıq səviyyəsinə çıxırıq və buna çox şadıq.

Bir daha bütün nümayəndə heyətini salamlamaq, dəvətimi qəbul edib Azərbaycana gəldiyinə görə Belarus Prezidenti Aleksandr Qriqoryeviç Lukaşenkoya təşəkkür etmək istərdim. Gələcəkdə də fəal əməkdaşlığa ümid bəsləyirəm.

Diqqətinizə görə təşəkkür edirəm.

BELARUS PREZİDENTİ ALEKSANDR LUKAŞENKONUN BƏYANATI

-Sağ olun, hörmətli İlham Heydər oğlu!

Mən hələ gəncliyimdə Bakıya gəlməyi arzulayırdım, amma iş elə gətirdi ki, bir dəfə də burada olmamışdım. Bu şəhəri gördükdə ona heyran qaldım. Təsəvvür etməzdim ki, o, belədir, bura nəinki dərə-təpəli yerdir, həm də dağlıqdır. Dağ ətəklərində, təpələrin üstündə yerləşən şəhərləri çox sevirəm. Düzənlikdə böyümüş adam kimi, bu gün müşahidə etdiyimiz mənzərəni görmək mənə çox xoşdur. Dostum İlham Heydər oğluna dedim ki, bu, çox perspektivli şəhərdir, bənzərsiz gözəlliyi olan şəhərdir. Əgər sahil parkı ilə bağlı olan və haqqında mənə şəhər merinin və ölkə Prezidentinin danışdıqları layihələr həyata keçirilsə, bura Şərqdə, Cənubi Qafqazda insanların həyatı üçün çiçəklənən, gözəl bir yer olacaqdır. Bu şəhər bizim üçün kəşf oldu.

Burada olmaq, sizin səmimiliyinizi duymaq bizə çox xoşdur. Bunlar protokol sözləri deyildir. Dövlət başçısının səfərini hazırlayan şəxslər mənə məlumat verdilər: heç bir problem olmadı, bütün istiqamətlərdə adamlar köməyə gəlir və təklif edirdilər ki, buraya baxın, orada olun, bizi gözəl ölkənizlə tanış etməyə çalışırdılar. Biz də sizə eynilə bu cür yanaşırıq. Bu da ondan irəli gəlir ki, bu yaxınlaradək bir ölkədə yaşamış olan qardaş xalqlarımız arasında ənənəvi olaraq xoş münasibətlər yaranmışdır. Belarusda on minlərlə azərbaycanlı yaşayır, onlardan heç biri deməz ki, ikinci vətənində vəziyyəti pisdir. Onlar bizim azərbaycanlılarımızdır, özlərini çox yaxşı və rahat hiss edirlər. Ona görə əsas var – bu, xalqlarımız arasındakı qarşılıqlı münasibətlərdir. Bunu hökumətlərimizin üzvlərinin, – mən hələ prezidentləri demirəm, – yaxşı şəxsi münasibətləri də tamamlayır.

Sizin Prezidentinizlə biz özümüzü istənilən səviyyədə – beynəlxalq konfranslarda, simpoziumlarda, danışıqlarda, MDB-də tamamilə rahat hiss edirik. Biz, sadəcə olaraq, dostuq. Bizim müzakirə üçün qapalı mövzularımız yoxdur. Bir-birimizə tam etibar edirik. Bilirəm ki, Azərbaycan Prezidenti heç vaxt özünə xilaf çıxmaz, heç vaxt arxanca pis söz deməz. Heç vaxt belə şey olmayıb. Çox şadam ki, bu insan mənim yaxşı dostum olan Heydər Əliyevin ən yaxşı keyfiyyətlərini irsən özündə təcəssüm etdirir. Yaş fərqinə baxmayaraq, Heydər Əliyevlə çox dost idik, o, gənclik illərimdən mənim üçün həm hami-tərbiyəçi, həm də örnək idi. Bu, xüsusi hisslərdir, onlar məndə artıq çoxdan, həyatının hələ prezidentlikdən əvvəlki dövründən yaşayır. Bu, şəxsi məqamdır, lakin o, indiki vaxtda dövlətlərimiz arasında yaxşı münasibətlərin olmasına kömək edir.

Biz – Azərbaycan və Belarus Prezidentləri danışıqlar zamanı belə bir fikirlə razılaşdıq ki, münasibətlərimizin inkişaf sürəti, dinamikası, əsasən, bundan irəli gəlir və mən artıq rəsmi nümayəndə heyətlərinin görüşündə dedim ki, Azərbaycanla əməkdaşlıqda bizim

qapalı mövzularımız yoxdur. Əgər söz vermişiksə, vədimizə əməl edəcəyik. Bir ölkənin tərkibində yaşadığımız dövrlərdən bizdə yaxşı hisslər qalmışdır və bu, artıq təsdiq edilmişdir. Ona görə də, inanın ki, Siz Avropanın mərkəzində yaxşı dayaq, yaxşı, etibarlı dostlar tapmısınız. Biz isə əminik ki, iqtisadi, siyasi, diplomatik baxımdan burada, Cənubi Qafqazda çox yaxşı dayaq tapmışıq. Bu da əhəmiyyətlidir ki, bizim münasibətlərimiz hər cür vicdansız siyasətdən uzaqdır. Biz tamamilə əminik ki, əgər əməkdaşlıq ediriksə, – istər qaz üzrə, istər neft üzrə, istərsə də sənayedə, digər sahələrdə olsun, fərqi yoxdur, – bu, digər dövlətlərlə əməkdaşlıqda tez-tez olduğu kimi, heç bir siyasi təzyiqə, siyasi nəticələrə gətirib çıxarmayacaqdır. Bu da çox qiymətlidir.

Odur ki, irəliyə doğru getmək üçün bizim bütün əsaslarımız var və bunu etmək əzmindəyik. Mən iki ölkənin hökumət üzvlərinə baxıram, çox cavan, perspektivli, amma təcrübəli adamlardır. İndi regionlarda, ilk növbədə, dövlətlərimiz arasında mövcud olan problemləri başqaları yox, məhz biz həll etməliyik. Belarus tərəfi buna hazırdır. Səmimiyyətə görə, xeyirxahlığa görə çox sağ olun. Digər göstəricilər bunu daha da artıracaqdır.

***

Sonra Prezidentlər jurnalistlərin suallarına cavab verdilər.

-Hörmətli İlham Heydər oğlu, lütfən söyləyin, yanacaq-energetika kompleksində əməkdaşlığa dair Belarus Prezidenti ilə razılaşmanız oldumu? Əgər oldusa, onda bu istiqamətdə hansı perspektivlər var?

İLHAM ƏLİYEV: Bu istiqamətdə müvafiq qurumlarımız fəal işləyirlər. Ötən ilin oktyabrında mənim Belarusa səfərim zamanı onlara tapşırıqlar verilmişdi və o vaxtdan bəri bu mövzuda bir neçə mərhələdə məsləhətləşmələr aparılmışdır. Bizim tərəfimizdən və Belarus rəhbərliyi tərəfindən bu məsələyə ümumi yanaşma var. Biz bu istiqamətdə səmərəli əməkdaşlıq etmək istəyirik. Azərbaycan iri neft və qaz hasilatçısı olan ölkəyə çevrilir. Bu il neft hasilatının həcmi 43 milyon ton, gələn il 50 milyondan çox olacaqdır. Qaz hasilatı da yüksək sürətlə gedir və dediyim kimi, yaxın vaxtlarda Azərbaycan iri karbohidrogen ixracçısına çevriləcəkdir. Ona görə də biz nəqlin şaxələndirilməsi sahəsində əməkdaşlığa həmişə təbii ehtiyatlarımızdan daha səmərəli istifadə imkanları kimi baxmışıq.

Hazırda Azərbaycan nefti Avropa və dünya bazarlarına üç boru kəməri ilə daşınır. Neftin Avropaya Odessa-Brodı marşrutu ilə nəqlinin perspektivləri müzakirə olunur. Bildiyiniz kimi, biz bu layihəni siyasi baxımdan dəstəkləmişik və hazırda kommersiya xarakterli məsələlərin müzakirəsi gedir.

Ölkələrimiz arasında energetika sahəsində, yəni neft-qaz əməliyyatları sahəsində əməkdaşlıq haqqında Azərbaycanda siyasi qərarlar qəbul edilmişdir. Hazırda söz müvafiq qurumların mütəxəssislərinindir, onlar iqtisadi göstəriciləri, mümkün layihələrin kommersiya tərəfini hesablamalıdırlar. Əgər bu, iqtisadi baxımdan qarşılıqlı surətdə faydalı olsa, şübhəsiz ki, biz bu istiqamətdə fəal işə başlayacağıq.

Onu da bilirik ki, Belarus şirkətləri Azərbaycanın neft yataqlarına maraq göstərir. Biz onların marağını alqışlayırıq. Bilirəm ki, hazırda Belarus şirkətlərinin Azərbaycanın neft layihələrində iştirakı ilə bağlı müvafiq qurumlarımız səviyyəsində məsləhətləşmə-

lər aparılır. Biz öz tərəfimizdən bu məsələni tamamilə dəstəkləyirik və əminəm ki, o, danışıqlar çərçivəsində öz həllini tapa bilər.

Fürsətdən istifadə edib demək istəyirəm ki, artıq iqtisadiyyatın bir neçə sektorunu əhatə edən əməkdaşlığımıza olduqca hərtərəfli, çoxplanlı əməkdaşlıq kimi baxırıq. Yəqin ki, iqtisadiyyatın hələlik maraq dairəmizə düşməyən sektorları da gələcəkdə əhatə olunacaqdır. Buna ölkələrimizin rəhbərliklərinin böyük marağı, siyasi iradəsi və müvafiq qurumların birgə işləmək arzusu var. Ona görə də əminəm ki, iqtisadiyyat və energetika istiqamətlərində əməkdaşlığımız çox fəal və qarşılıqlı surətdə faydalı olacaqdır.

-Mənim sualım Belarus Respublikasının Prezidentinədir. Cənab Prezident, Sizin dediyiniz kimi, ölkələrimiz arasında münasibətlər müxtəlif istiqamətlərdə, xüsusilə, iqtisadi sahədə uğurla inkişaf edir. Ölkələrimiz arasında humanitar və mədəni əlaqələrin bundan sonra da genişləndirilməsi üçün hansı addımlar atıla bilər?

ALEKSANDR LUKAŞENKO: Zənnimcə, əməkdaşlığın bu sahəsində ümumiyyətlə heç bir problemimiz yoxdur. Mədəni mübadilələrə, dövlətlər arasında mədəniyyət sahəsində ənənəvi əməkdaşlığa gəldikdə isə, münasibətlərimizi heç zaman kəsməmişik. Əgər kütləvi informasiya vasitələrimiz burada və Belarusda xalqlarımız haqqında, – mənim Azərbaycana səfərim çərçivəsində olduğu kimi, – lazımınca söhbət açsalar, onda ümumiyyətlə heç bir problem olmayacaqdır. Zənnimcə, belaruslar səfərim ərəfəsindəki son həftədə KİV-lərdən Azərbaycan haqqında bütün əvvəlki illərlə müqayisədə daha çox məlumat almışlar. Bu, yəqin ki, jurnalistlərimizi – televiziya şirkətlərini, yazarları dövlət səviyyəsində qəbul etməyiniz sayəsində mümkün olmuşdur və onlar da sizin haqqınızda çox geniş məlumat vermişlər. Adamlarımız hiss etmişlər ki, xalqlarımız arasında əlaqə heç vaxt qırılmamışdır və bizi burada gözləyirlər. Bu isə əsas məsələdir və çox vacibdir. Zənnimcə, Azərbaycanda da münasibətlərimizi elə belə başa düşürlər.

Mədəniyyət sahəsinə gəldikdə isə, burada heç bir problem yoxdur. Humanitar əməkdaşlığın digər istiqamətlərində – elm, səhiyyə, təhsil sahələrində də problemlər yoxdur. Bir daha vurğulayıram ki, zəngin olduğumuz, fəxr edə bildiyimiz, sərvətimiz hesab etdiyimiz nə varsa, hamısını həm də Azərbaycanın sərvəti saya bilərsiniz. Yəqin ki, mədəni-humanitar sahə əməkdaşlığın ən asan sahəsidir. Biz həmişə düşünmüşük ki, iqtisadi əməkdaşlıq daha çətin olacaq və əslində də belədir. Lakin burada da yolu çox sürətlə qət etdik. Ona görə də mədəni və humanitar sahədə problem olmayacaq, üstəlik sabah Heydər Əliyev Fonduna gedəndə və Azərbaycanda Belarus sərgisinin açılışında da bu barədə danışacağıq. Qoy bu, əməkdaşlığımızın davamı olsun.

ALİ QONAĞIN ŞƏRƏFİNƏ

Mayın 2-də "Gülüstan" sarayında Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin adından Belarus Respublikasının Prezidenti Aleksandr Lukaşenkonun şərəfinə rəsmi qəbul təşkil olunmuşdur.

Dövlət başçıları qəbulda nitq söyləmişlər.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN NİTQİ

-Hörmətli Aleksandr Qriqoryeviç!

Hörmətli qonaqlar!

İcazə verin, sizi Azərbaycan torpağında bir daha səmimi qəlbdən salamlayım və aparılmış danışıqlardan dərin məmnunluğumu bildirim. Aleksandr Qriqoryeviçlə görüşümüzdə bizi maraqlandıran bütün məsələlər - siyasi qarşılıqlı əlaqələr, iqtisadi əməkdaşlıq, energetika, neft-qaz əməliyyatları sahəsində əməkdaşlıq, humanitar, hərbi-texniki əməkdaşlıq, yəni, son vaxtlar aşkar tərəqqi olan bütün istiqamətlər barədə çox geniş fikir mübadiləsi aparıldı.

Çox qısa müddətdə münasibətlərimizin tamamilə yeni səviyyəyə çıxması bizi olduqca sevindirir. Bu, çox etibarlı, çox güclü qarşılıqlı əlaqələr, tərəfdaşlıq, əməkdaşlıq səviyyəsidir. Biz belə əməkdaşlıq üçün zəruri olan hər şeyi qısa müddətdə təmin etdik. Bu gün biz bu barədə danışdıq, çox az vaxt ərzində Azərbaycanın Belarusda və Belarusun Azərbaycanda səfirlikləri açıldı. Ötən ilin oktyabrında biz Minskdə həmçinin razılığa gəldik və demək olar, dərhal sonra Bakı-Minsk aviareysi açıldı. Artıq bunun özü də fəal iqtisadi əməkdaşlığın mühüm elementidir. Razılaşmalardan yarım il sonra Azərbaycanda, Azərbaycan müəssisələrində Belarus zavodlarının məhsulu buraxılır, əmtəə dövriyyəsinin artırılmasına dair çox fəal dialoq gedir. Bütün bunlar praktik işlərin, ölkələrimizin rəhbərliyinin siyasi iradəsinin və əlbəttə ki, bu layihələrin tapşırıq verilmiş əlaqədar qurumlar, təşkilatlar tərəfindən fəal həyata keçirilməsinin nəticəsidir.

Belarus Prezidentinin Azərbaycana bugünkü səfəri də münasibətlərimizin inkişafında mühüm mərhələdir. Müstəqillik illəri ərzində ölkələrimiz dövlətin inkişafı, müstəqilliyin möhkəmlənməsi, iqtisadi potensialın möhkəmlənməsi üçün çox böyük yol keçmişdir. Müstəqil ölkələr kimi, Belarus və Azərbaycan bu gün də tərəqqi və inkişaf yolu ilə inamla irəliləyir. Biz sizin uğurlarınıza, nailiyyətlərinizə, ölkənizin dönmədən inkişafını və əhalinin firavanlığını təmin edən hər şeyə sevinirik. Eyni hal Azərbaycanda da baş verir. 1990-cı illərin ortalarının çox ağır böhranından çıxan iqtisadiyyatımız indi olduqca dinamik inkişaf edir. Son üç ildə iqtisadiyyatın artım sürətinə görə Azərbaycan dünyada inamla birinci yerdə gedir. İqtisadi artımımız 2005-ci ildə 26 faiz, 2006-cı ildə 35 faiz, 2007-ci ilin birinci rübündə isə 40 faiz olmuşdur. Bütün bunlar Azərbaycanın potensialının artdığını, iri regional layihələri, sərmayə layihələrini həyata keçirmək imkanlarını göstərir. Biz eyni halı Belarusda da müşahidə edirik.

Keçən ilin oktyabrında ölkənizə ilk rəsmi səfərim zamanı dövlətinizin inkişafını özüm öyani surətdə yoxlamağa çalışdım. Mən sənaye müəssisələrinə də getdim, şəhərlə tanış oldum və hər yerdə qayda-qanun, təmizlik, qaydaya salınmış istehsal, sahmanlı məişət və yüksək mədəniyyət gördüm.

Odur ki, əgər nailiyyətlərdən danışsaq, onda haqlı olaraq fəxr edə bilərik ki, Azərbaycan və Belarus müstəqil dövlətlər kimi formalaşmışlar. Qarşıda hələ çox problemlər var. Biz bir çox sosial problemləri – insanların həyat şəraitinin yaxşılaşması, rifahının yüksəlməsi ilə bağlı problemləri həll etməliyik. Lakin artıq bugünkü nailiyyətlər inamla deməyə imkan verir ki, biz qarşımızda duran bütün problemləri həll edəcəyik.

Azərbaycan böyük həcmdə neft və qaz hasil edən ölkəyə çevrilir, neft hasilatının səviy-

yəsi sürətlə artır. Neft hasilatı bu il 43 milyon tona çatacaq, gələcəkdə 50-60 milyon tonadək artıracağıq, qaz hasilatını da artıracağıq. Bizim çox böyük yataqlarımız var, indi onların işlənilməsinə başlamışıq. Bu yataqlar Azərbaycanın, dostlarımızın və tərəfdaşlarımızın enerji təhlükəsizliyini azı yüz il təmin edəcəkdir. Ona görə də əməkdaşlığın mümkün istiqamətlərini təhlil edərək, belə qənaətə gəlmişik ki, iqtisadiyyatın diqqətimizin mərkəzində olan, əslində, bütün istiqamətləri və sektorları ikitərəfli əlaqələr, ikitərəfli əməkdaşlıq üçün hazır və açıqdır.

Ölkəmizdə fəal iqtisadi islahatlarla yanaşı, güclü sosial siyasət də aparılır. Bununla da biz keçid dövrü islahatlarının ağırlığını azaltmağa çalışırıq və xalqın həyat və rifah səviyyəsinin yüksəlməsi üçün gələcəkdə bütün tədbirləri görəcəyik.

Nailiyyətlərlə yanaşı, problemlərimiz də var və onlardan ən başlıcası erməni silahlı qüvvələri tərəfindən Azərbaycan ərazisinin bir hissəsinin işğalının davam etməsidir. Dağlıq Qarabağda başlanmış separatizm Ermənistanın Azərbaycana qarşı təcavüzünə gətirib çıxardı, etnik təmizləmə siyasəti aparıldı, bu siyasət nəticəsində bir milyon azərbaycanlı öz torpağında qaçqın və məcburi köçkünə çevrildi. Ərazimizin 20 faizi bu gün də işğal altındadır. Bu, ölkəmiz üçün, regionumuz üçün ən böyük problemdir və ümumən, regionun gələcək sabit inkişafı üçün ən böyük təhlükədir. BMT Təhlükəsizlik Şurasının Ermənistan silahlı qüvvələrinin ərazimizdən dərhal və qeyd-şərtsiz çıxarılmasını tələb edən dörd qətnamə, digər çox nüfuzlu beynəlxalq təşkilatların müvafiq qətnamələr qəbul etməsinə baxmayaraq, münaqişə indiyədək həll olunmayıbdır. Bizim mövqeyimiz son dərəcə sadə və ədalətlidir, beynəlxalq hüququn prinsip və normalarına əsaslanır. Hər bir münaqişə kimlərinsə istəklərinin, arzularının və xam xəyallarının baş tutması üçün deyil, məhz mövcud hüquq normaları çərçivəsində həll edilməlidir. Beləliklə, hazırda erməni silahlı qüvvələrinin işğalı altında olan bütün yeddi rayon azad edilməli, qaçqınlar və məcburi köçkünlər öz tarixi yaşayış yerlərinə qayıtmalıdırlar. Eyni zamanda, Dağlıq Qarabağın inzibati sərhədi daxilində yaşamış on minlərlə azərbaycanlı öz tarixi torpağına – Dağlıq Qarabağa qayıtmalıdır. Bundan sonra Azərbaycanın tərkibində Dağlıq Qarabağın statusu danışıqlar yolu ilə müəyyən edilə bilər. Azərbaycanın ərazi bütövlüyünü bütün dünya, beynəlxalq təşkilatlar, BMT tanımışdır və buna görə də münaqişənin istənilən həlli yalnız və yalnız Azərbaycanın ərazi bütövlüyü çərçivəsində mümkündür.

Azərbaycan ya bu gün, ya sabah və ya 10 ildən sonra, yaxud da 100 ildən sonra Dağlıq Qarabağın Azərbaycandan ayrılmasını nəzərdə tutan həll variantı ilə heç zaman razılaşmayacaqdır. Bizim mövqeyimiz bu münaqişənin həlli ilə məşğul olan beynəlxalq qurumlara, təşkilatlara yaxşı məlumdur və onlar tərəfindən dəstəklənir.

Mən bu barədə ona görə danışıram ki, baş verənləri sizə aydın izah edim, çünki, təəssüflər olsun, bəzən siyasi maraqların, xaricdə müəyyən lobbi təşkilatlarının fəaliyyətinin xeyrinə tarix təhrif olunur. Lakin tarix olduğu kimi qalır. O, aydın şəkildə göstərir ki, indiki halda biz təcavüzə məruz qalmışıq və işğalçı qüvvələrin ərazimizdən dərhal çıxarılmasını tələb etməyə tam haqqımız var. İndi seçimi Ermənistan etməlidir: o, ya getdikcə qüdrətlənən Azərbaycan tərəfindən ədalətli qisas qorxusu altında yaşamalı, yaxud da regionda öz qonşuları ilə sülh şəraitində yaşamalıdır.

Əziz dostlar, mən bu gün bir daha sizi salamlamaq istəyirəm. Biz Aleksandr Qriqoryeviçin ölkəmizə səfərinə çox böyük əhəmiyyət veririk. Bizim çox mehriban şəxsi münasibətlərimiz var ki, bu da dövlətlər arasında münasibətlər üçün çox vacibdir. Aleksandr Qriqoryeviç, bu gün Siz Azərbaycana çox böyük nümayəndə heyəti ilə gəlmisiniz. Bunun özü də ikitərəfli münasibətlərimizə Sizin necə böyük əhəmiyyət verdiyinizi göstərir. Mən əminəm ki, bu gün hər iki tərəfdən danışıqlarda iştirak edən nümayəndə heyətinin üzvləri də öz səviyyələrində bizdən nümunə götürəcək və bizim kimi, onlar da dostluq və əməkdaşlıq edəcəklər.

Mən bu badəni Belarus Prezidenti Aleksandr Qriqoryeviç Lukaşenkonun sağlığına və bütün Belarus xalqının tərəqqisi şərəfinə qaldırmaq istəyirəm.

BELARUS PREZİDENTİ ALEKSANDR LUKAŞENKONUN NİTQİ

-Hörmətli cənab Prezident!

Hörmətli Mehriban xanım!

Hörmətli dostlar!

İcazə verin, bu gün hər yerdə qarşılaşdığımız səmimiyyətə, əsl dostluq ab-havasına görə İlham Heydər oğluna ürəkdən təşəkkürümü bildirim.

Dövlətlərimizin coğrafi cəhətdən uzaqlığına baxmayaraq, xalqlarımız onilliklər boyu sıx dostluq telləri ilə bağlıdırlar. Biz sizin gözəl ölkənizə çox böyük hörmət bəsləyirik. O, bu gün şəxsən mənim üçün daha gözəl oldu, çünki mən Azərbaycanı və onun paytaxtını öz gözlərimlə gördüm.

Təəssüf ki, müstəqilliyimizin birinci mərhələsində dövlətlərimiz tarixin ağır illərini yaşamalı oldular. Belarusda bu, sizdə baş vermiş qarşıdurmaya çevrilmədi. İlham Heydər oğlu, mən istərdim ki, Siz bunu biləsiniz, Siz isə Belarus xalqının qəlbinə bələdsiniz: bu hadisələrin bizim doğma Belarusdan min kilometrlərlə uzaqda baş verməsinə baxmayaraq, biz burada Sovet İttifaqı dövründə cərəyan edən prosesləri, faciəli hadisələri çox böyük qəlb ağrısı ilə izləyirdik. Minlərlə gəncin dəfn olunduğu xiyabanı ziyarət edərkən biz tarixinizin bu dövrünü yeni bir tərzdə, çox böyük ürək ağrısı ilə hiss etdik.

İlham Heydər oğlu, Sizə ən başlıcası bunu arzu edirəm ki, mehriban, istedadlı, tolerant xalqınız indiyədək üzləşdiyi bəlalardan uzaq olsun. Mən bunu ona görə deyirəm ki, ölkənizin qüdrətli olmasına baxmayaraq, dünyamızda başqalarının sərvətində gözü olan quzğunlar hələ kifayət qədərdir. Ölkə varlı olduqca, perspektivləri geniş olduqca, bu ərazidə yaşayan xalq bir o qədər etibarlı müdafiə edilməlidir. Bizim aramızda problemli məsələlərin olmadığını və Belarus ilə Azərbaycan arasında əməkdaşlıq üçün bağlı mövzuların olmadığını deyərək, bir daha vurğulayıram ki, əldə etdiyimiz bütün razılaşmalar, digər dövlətlər tərəfindən olan müxtəlif narazılıqlara, əngəllərə baxmayaraq, vaxtında yerinə yetiriləcəkdir. Biz suveren və müstəqil dövlətlərik, Belarus da, Azərbaycan da son illər öz suverenliyini və müstəqilliyini dəfələrlə sübut etmişdir.

Bir vaxtlar münasibətlərimizin kəsilməsinə, bir-birimizdən uzaqlaşmağımıza, ölkələrimiz arasında ticarət əlaqələrinin, əslində, pozulmasına baxmayaraq, bu gün sizin kimi, mən də sevinirəm ki, dövlətlərimiz arasında münasibətlər nizama düşür. Bu münasibətlərin əsasını, demək olar ki, qeyri-düzgün siyasətdən uzaq olan iqtisadiyyat təşkil edir.

Daha doğrusu, Sizinlə gəldiyimiz qənaətə görə, bizim iqtisadiyyatımız hər hansı siyasətdən uzaqdır, hərçənd, nəyinsə siyasətdən uzaq olmasını təsəvvür etmək çətindir. Lakin bizim iqtisadiyyatımız siyasiləşdirilməmişdir. Əgər siyasət varsa da o, bizim normal ticarət-iqtisadi münasibətlər yaradılması sahəsində əməkdaşlığımıza bənzəyir.

İlham Heydər oğlu, mən bilirəm ki, Belarusa səfərinizdən sonra biz Sizin qarşınızda bir sıra həssas məsələ qaldırdıq, çünki onlar digər dövlətlərin mənafelərinə, indiki halda bizə qardaş olan Rusiyanın mənafelərinə toxunurdu, xüsusilə bizə enerji daşıyıcılarının və s. göndərilməsi sahəsində. Bu, Rusiya Federasiyasının ənənəvi bazarına aid idi. Biz anlayırdıq ki, bu, Sizin üçün ona görə çətin məsələ deyildir ki, ölkənizin nəyisə çatışmır və yaxud siz bunu satmağa hazır deyilsiniz, ona görə ki, – *mən bir daha vurğulayıram*, – bu, bir çox dövlətlərin, ilk növbədə, Rusiya Federasiyasının mənafelərinə toxunurdu. Lakin biz Sizə minnətdarıq ki, Siz düzgün, səmimi, açıq, beynəlxalq münasibətlərdə qəbul olunduğu kimi, müstəqil, suveren dövlət kimi açıq-aydın dediniz: bəli, biz qardaş Belarus xalqı ilə əməkdaşlıq etməyə hazırıq, gəlib bütün sərvətlərimizdən beynəlxalq ticarət və beynəlxalq əməkdaşlıq prinsipləri əsasında istifadə edə bilərsiniz. Biz bunu xatırlayırıq və uzun müddət unutmayacağıq. Hələ heç bir dövlət digər dövlətlərin mənafelərinə toxunan həssas məsələlərə belə açıq-aydın cavab verməmişdir.

Beş il ərzində ölkələrimiz arasında əmtəə dövriyyəsi təxminən 5 dəfə artmışdır. Lakin 40 milyon dollar səviyyəsində əmtəə dövriyyəsi bizi təmin edə bilməz. Düşünürəm ki, biz əməkdaşlıq edərək, iqtisadiyyatlarımızın yüksəlişini nəzərə alaraq, 2-3 il ərzində əmtəə dövriyyəsini yarım milyard dollar səviyyəsinə qaldıra bilərik. Biz bu gün bir-birimizə daha yaxın olduq. Rusiya Federasiyası ilə aramızda baş verən ixtilaf bizi Azərbaycana məhsul göndərilməsi və Azərbaycandan məhsul alınması marşrutlarınadək əməkdaşlıq istiqamətinin konkret yollarını işləyib hazırlamağa məcbur etdi.

Bu, çox qiymətlidir və Azərbaycan mütəxəssislərinə minnətdarıq ki, İlham Heydər oğlu, Sizin göstərişinizlə onlar xahişimizə cavab verdilər, bizi hər vasitə ilə dəstəklədilər və kömək etdilər. Çox şadam ki, bu gün biz təkcə dövlətlərimizin deyil, bütün idarələrimizin də münasibətlərini normativ hüquqi baza üzərinə keçirməyə müvəffəq olduq. Bu, çox qiymətlidir. Burada olan iri təşkilat və idarə rəhbərlərinin hamısı Azərbaycanın oxşar qurumları ilə müqavilə və sazişlər imzalamışdır. Bu, çox yaxşıdır. Deyim ki, mən bilənə, bizdə 13 ildə hələ heç vaxt belə hal olmayıbdır. Çox yaxşı haldır ki, elmi müəssisələrdən tutmuş məhsul istehsal edən şirkətlərədək bilavasitə rəhbərlər birbaşa müqavilə və sazişlər imzalayırlar. Deməli, razılaşdırdığımız nə varsa, hamısı həyata keçiriləcəkdir. Müdrik bir Azərbaycan atalar sözündə deyildiyi kimi, "yol addım-addım qət edilər, dama-dama göl olar".

İlham Heydər oğlu, mən qəti əminəm ki, damla-damla doldurmaq əzmində olduğumuz həmin göl xalqlarımız arasındakı qarşılıqlı münasibətlər və dostluq kimi, saf və şəffaf olacaqdır.

Hörmətli dostlar!

Siz indicə öz Prezidentinizin dili ilə dediniz ki, ölkəmizdə baş verən hadisələrə sevinir və həyəcan keçirirsiniz. Bu, Belarus xalqının ruhuna uyğundur. Burada biz vaxtilə qardaş olan respublikanın, indi isə müstəqil, perspektivli, güclü dövlətin simasında özümüzə yeni, mehriban, *sınaqdan çıxmış dost tapdıq*.

Cənab Prezident, Sizi əmin etmək istəyirəm ki, vaxtilə Belarusun etdiyi kimi, Siz də öz seçiminizə heyfsilənməyəcəksiniz. Biz həmişə Sizin etibarlı dostlarınız olacağıq.

Bu gün mən, təbii ki, Sizin sağlığınıza badə qaldırıram, – hərçənd, çox cavan olan bir adamın sağlamlığından danışmaq yaxşı düşmür, – bu badəni Sizin xalqınızın şərəfinə, Belarus və Azərbaycan xalqları arasında dostluğun şərəfinə, uşaqlarınızın şərəfinə qaldırmaq istəyirəm, qoy gözəl uşaqlarınız Sizi həmişə sevindirsinlər, ailənizə nəinki qüssə-kədər, hətta pis ovqat da gətirməsinlər.

Sizin şərəfinizə, ailənizin şərəfinə, xalqınızın şərəfinə, dövlətinizin şərəfinə. İndən belə biz də Azərbaycanı müşahidə edəcək və onun bütün sahələrdə uğurlarına sevinəcəyik.

SƏFƏR BAŞA ÇATDI

Mayın 3-də Belarus Respublikasının Prezidenti Aleksandr Lukaşenkonun Azərbaycana rəsmi səfəri başa çatmışdır.

XARİCİ İŞLƏR NAZİRİNİN MƏRAKEŞ KRALLIĞINA RƏSMİ SƏFƏRİ

Cari ilin 2 may tarixində AR Xarici İşlər Naziri cənab E.Məmmədyarovun Mərakeş Krallığına rəsmi səfəri başlamışdır.

3 may tarixində Xarici İşlər Naziri Elmar Məmmədyarov Mərakeş Krallığının Xarici İşlər və əməkdaşlıq Naziri Məhəmməd Benaissa ilə görüşmüşdür. Nazir Elmar Məmmədyarov Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin Mərakeş Kralı və xalqına səmimi salamlarını çatdırmış və Prezidentin Kral VI Məhəmmədə ünvanlandığı dəvət məktubunu həmkarına təqdim etmişdir. Öz növbəsində M.Benaissa Kral VI Məhəmmədin salamlarının Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevə çatdırılmasını xahiş etmişdir.

Daha sonra nazir Elmar Məmmədyarov inkişaf etməkdə olan ikitərəfli münasibətlərə toxunaraq, Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin Mərakeş Kralını Azərbaycana dəvət etdiyini və yüksək səviyyəli səfərlərin ikitərəfli əlaqələri daha yüksək səviyyəyə qaldırılacağını əminliklə ifadə etmişdir.

Görüş zamanı iki ölkə arasında siyasi əlaqələrin yüksək səviyyədə olduğu qeyd olunmuş, habelə iqtisadi və humanitar sahələrdə əlaqələrin daha da genişləndirilməsi və bu əməkdaşlığın hüquq-müqavilə bazasının gücləndirilməsi yolları ətrafında fikir mübadiləsi aparılmışdır.

Görüş zamanı Nazir Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinə toxunaraq, Mərakeş tərəfindən Azərbaycana göstərilən daimi dəstəyə görə minnətdarlığını ifadə etmiş və Azərbaycanın da beynəlxalq təşkilatlar çərçivəsində dost Mərakeş Krallığını dəstəklədiyini bəyan edərək, ölkəmizin Qərbi Səhra probleminin həlli istiqamətində Mərakeş Krallığının səylərini və təkliflərini alqışladığını diqqətə çatdırmışdır.

M.Benaissa Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin sülh yolu həllinin tərəfdarı olduğunu bildirərək, ölkəsinin bundan sonra da Azərbaycanın mövqeyini bü-

tün müstəvilərdə dəstəkləyəcəyini bəyan etmişdir. Mərakeş Xİ naziri bir neçə həftə ərzində Mərakeş Səfirliyinin Bakıda fəaliyyətə başlayacağını diqqətə çatdırmışdır.

Görüşdə iki ölkə arasında səfirliklərin qarşılıqlı əsasda təsis edilməsinin ikitərəfli münasibətlərin inkişafına əvəzsiz təkan verdiyi vurğulanmışdır.

Azərbaycan Respublikasının Xİ Naziri cənab E. Məmmədyarov Respublikamızda həyata keçirilən islahatlar, neft və energetika sahəsində əldə olunmuş nailiyyətlər, habelə qeyri-neft sektoru və xüsusilə də turizm və kənd təsərrüfatı sahələrinin inkişafı istiqamətində görülən işlər barədə həmkarına ətraflı məlumat vermişdir.

Görüşün sonunda "Azərbaycan Respublikası Hökuməti və Mərakeş Krallığı Hökuməti arasında diplomatik, xidməti və xüsusi pasportlara malik olan vətəndaşların vizasız gediş gəlişi haqqında Saziş" və "Azərbaycan Respublikası Hökuməti və Mərakeş Krallığı Hökuməti arasında müştərək komissiyanın yaradılması haqqında Anlaşma Memorandumu" imzalanmışdır.

Həmin gün Mərakeşin Xarici İşlər və əməkdaşlıq Naziri adından AR Xİ Nazirinin şərəfinə şam ziyafəti verilmişdir.

Həmin gün E.Məmmədyarov İSESCO-nun yaradılmasının 25-ci ildönümündə iştirak etmiş və təşkilatın Baş Direktoru Əbdüləziz Əl-Tveyeri ilə görüşərək, Azərbaycan ilə İSESCO arasında əməkdaşlığın səviyyəsindən razılığını ifadə etmişdir. Ə.Əl-Tveyeri Azərbaycanın İKT və İKT qurumlarında səmərəli fəaliyyətini xüsusi olaraq qeyd etmiş və ölkəmizin bir çox ölkələr üçün nümunə olduğunu vurğulamışdır.

AZƏRBAYCAN RESPUBLİKASI HÖKUMƏTİ VƏ MƏRAKEŞ KRALLIĞI HÖKUMƏTİ ARASINDA İKİTƏRƏFLİ ƏMƏKDAŞLIQ ÜZRƏ BİRGƏ KOMİSSİYANIN TƏSİS EDİLMƏSİ HAQQINDA ANLAŞMA MEMORANDUMU

3 may 2007-ci il

Bundan sonra "Tərəflər" adlandırılacaq Azərbaycan Respublikası Hökuməti və Mərakeş Krallığı Hökuməti;

Tərəflərin maraqları çərçivəsində ikitərəfli əlaqə və əməkdaşlığı uzunmüddətlilik əsasında genişləndirməyi və inkişaf etdirməyi arzulayaraq,

Bərabərlik, qarşılıqlı faydalılıq və suverenliyə hörmət prinsipləri əsasında iki dövlət arasında ikitərəfli əməkdaşlığı gücləndirmək maraqlarını təsdiqləyərək,

İki dövlət arasında müxtəlif sahələrdə mövcud və gələcəkdə imzalanacaq Sazişləri nəzərə alaraq,

Onların dövlətlərində müvafiq qanun və qaydalara uyğun olaraq

aşağıdakılar barədə razılığa gəldilər:

MADDƏ 1

Tərəflər, aralarında bütün sahələrdəki əməkdaşlıq və məsləhətləşmələrə yardım edəcək Birgə Komissiya (bundan sonra "Komissiya" adlandırılacaq) təsis edirlər.

MADDƏ 2

Komissiya qeyd olunan əməkdaşlıq və məsləhətləşmələrin təşviq olunması üsul və vasitələrini nəzərdən keçirəcək və hazırkı Anlaşma Memorandumun və öz qərarlarının koordinasiya və icrasını təmin edəcək.

Bu məqsədlərə nail olmaq üçün Komissiya əsasən aşağıdakı məsələlərə baxacaqdır:

a) Hər iki Tərəfin maraqları çərçivəsində olan bütün sahələrdə ikitərəfli əməkdaşlığın həyata keçirilməsi üçün fəaliyyət istiqamətinin müəyyən edilməsi;
b) Hər iki hökumətə təqdim olunması məqsədilə təklif və iş planının hazırlanması;
c) İki dövlət arasında səfər, əlaqə və məlumat mübadiləsinin təşviq olunması;
d) Dövlətlər arasındakı Sazişlərin həyata keçirilməsinə nəzarət və onların həyata keçirilməsi zamanı meydana çıxa biləcək problemlərin həlli;
e) Əməkdaşlığı daha da təşviq etmək və həvəsləndirmək metod və formalarının müəyyən edilməsi və təkliflərin verilməsi;

MADDƏ 3

1. Tərəflər Komissiyanın həmsədrlərini və üzvlərini müəyyən edəcək və diplomatik kanallar vasitəsilə bir-birini məlumatlandıracaqlar.

2. Komissiya Tərəflərin razılığı ilə alternativ olaraq Bakıda və ya Rabatda görüşəcəklər. Komissiyanın hər görüşünün gündəliyi diplomatik kanallarla müzakirə olunacaq və açılış sessiyasında qəbul olunacaqdır.

3. Komissiyanın görüşünün nəticələri Tərəflərin razılığı ilə Protokol formasında tərtib olunacaqdır.

MADDƏ 4

Komissiya öz qayda və prosedurlarını müəyyən edəcək və qarşıya çıxan spesifik məsələlərlə məşğul olmaq məqsədilə müvafiq İşçi qruplar yaradacaqdır.

MADDƏ 5

İşçi qruplar Tərəflərin qarşılıqlı razılığı ilə görüşəcəklər və bu görüşlərə razılıq əsasında, rəsmi və ya qeyri-rəsmi ekspert və məsləhətçilər dəvət oluna bilərlər.

MADDƏ 6

Hazırkı Anlaşma Memorandumunun təfsiri və ya icrası ilə bağlı yaranan hər hansı mübahisə və ya ziddiyyət Tərəflər arasında məsləhətləşmələr və danışıqlar yolu ilə həll olunacaqdır.

MADDƏ 7

Tərəflərin qarşılıqlı yazılı razılığı ilə hazırkı Anlaşma Memorandumuna əlavə və dəyişikliklər edilə bilər. Belə əlavə və ya dəyişikliklər hazırkı Anlaşma Memorandumunun 8-ci maddəsinə uyğun olaraq qüvvəyə minəcək və onun ayrılmaz hissəsi olacaqdır.

MADDƏ 8

1. Bu Anlaşma Memorandumu, onun qüvvəyə minməsi üçün zəruri dövlətdaxili prosedurların yerinə yetirilməsi haqqında Tərəflərin diplomatik kanallar vasitəsilə sonuncu yazılı bildirişin alındığı tarixdən qüvvəyə minəcək.

2. Bu Anlaşma Memorandumu 5 (beş) il müddətinə bağlanılır və Tərəflərdən biri bu Anlaşma Memorandumunun qüvvədə olması müddətinin başa çatmasına ən azı 6 (altı) ay qalmış digər Tərəfə onun qüvvəsini ləğv etmək niyyəti barədə yazılı bildiriş təqdim etməzsə, Anlaşma Memorandumu avtomatik olaraq növbəti beş illik müddətlərə uzadılır.

3. Tərəflər başqa hal nəzərdə tutmayıblarsa, Bu Anlaşma Memorandumunun qüvvədən düşməsi onun şərtləri ilə davam etdirilən proqramlar bitənədək, onların icrası üçün əsas olacaqdır.

Yuxarıdakıların təsdiqi olaraq Hökumətləri tərəfindən müvafiq qaydada səlahiyyətləndirilmiş şəxslər bu Anlaşma Memorandumunu imzaladılar.

Hazırkı Anlaşma Memorandumu Rabat şəhərində 3 may 2007-ci il tarixində iki əsl nüsxədə Azərbaycan, ərəb və ingilis dillərində imzalanmışdır. Bütün mətnlər bərabər autentikdir. Anlaşma Memorandumunun təfsirində fikir ayrılığı yarandıqda ingilis dilindəki mətn üstünlük təşkil edəcək.

AZƏRBAYCAN RESPUBLİKASININ XARİCİ İŞLƏR NAZİRİ	MƏRAKEŞ KRALLIĞININ XARİCİ İŞLƏR VƏ ƏMƏKDAŞLIQ NAZİRİ
ELMAR MƏMMƏDYAROV	*MƏHƏMMƏD BENAİSSA*

AZƏRBAYCAN RESPUBLİKASI HÖKUMƏTİ VƏ MƏRAKEŞ KRALLIĞI HÖKUMƏTİ ARASINDA DİPLOMATİK, RƏSMİ, XİDMƏTİ VƏ XÜSUSİ PASPORTLARA MALİK VƏTƏNDAŞLARIN VİZASIZ GEDİŞ GƏLİŞİ HAQQINDA SAZİŞ

3 may 2007-ci il

Bundan sonra "Tərəflər" adlandırılan Azərbaycan Respublikası Hökuməti və Mərakeş Krallığı Hökuməti,

İki dövlət arasında dostluq münasibətlərini daha da inkişaf etdirmək niyyətilə,

Etibarlı diplomatik, rəsmi, xidməti və xüsusi pasportlara malik olan vətəndaşların iki dövlət arasında gediş-gəlişinin və yerdəyişməsinin asanlaşdırılması arzusunda olaraq,

aşağıdakılar barəsində razılığa gəldilər:

MADDƏ 1

1. Etibarlı diplomatik, rəsmi, xidməti və xüsusi pasportlara malik olan Azərbaycan Respublikası və Mərakeş Krallığı vətəndaşları, habelə adları onların pasportlarında qeyd olunan yetkinlik yaşına çatmamış şəxslər, digər Razılığa gələn Tərəfin dövlətinin ərazisinə 90 (doxsan) gün ərzində vizasız daxil ola, orada qala, oradan gedə və tranzit qaydada həmin ərazidən keçə bilərlər.

2. Tərəflərin dövlətlərinin vətəndaşlarının qalma müddətinin uzadılması, qəbul edən dövlətin səlahiyyətli orqanlarının icazəsindən asılı olaraq, göndərən dövlətin qəbul edən dövlətdəki səfirliyinin müraciəti əsasında həyata keçirilir.

MADDƏ 2

1. Bir dövlətin ərazisində diplomatik və ya konsulluq missiyalarında və ya beynəlxalq təşkilatlar yanında daimi nümayəndəliklərin üzvü olan, 1-ci maddədə etibarlı göstərilən pasportlara malik digər Tərəfin dövlətinin vətəndaşları digər Razılığa gələn Tərəflər ərazisinə viza tələblərindən azad şəkildə daxil ola və maksimum 90 (doxsan) gün ərzində orada qala bilər. Bu vaxt ərzində həmin şəxslər yerləşmə dövlətinin Xarici İşlər Nazirliyi ilə zəruri akkreditasiya prosedurunu tamamlamalıdırlar.

2. Bu Maddənin birinci bəndinin müddəaları həmçinin diplomatik, rəsmi, xidməti və xüsusi pasportlara malik olan şəxslərin yaxın ailə üzvlərinə münasibətdə, onlar özləri eyni pasportlardan istifadə etdikləri halda tətbiq edilir.

MADDƏ 3

Etibarlı diplomatik, rəsmi, xidməti və xüsusi pasportlara malik olan, hər iki Tərəfin vətəndaşları digər Tərəfin dövlətinin ərazisinə istənilən beynəlxalq sərhəd-buraxılış məntəqələrindən daxil ola və oradan çıxa bilərlər.

MADDƏ 4

Bir Tərəfin dövlətinin vətəndaşına məxsus diplomatik, rəsmi, xidməti və xüsusi pasportlar digər Tərəfin dövlətinin ərazisində itdikdə və ya korlandıqda, həmin pasportun sahibi digər Tərəfin Xarici İşlər Nazirliyini bu barədə məlumatlandırmalıdır və həmin şəxsə münasibətdə yeni səyahət sənədi tərtib olunacaqdır. Həmin səyahət sənədi ilə çıxış qəbul edən dövlətin Xarici İşlər Nazirliyinin müvafiq icazəsi ilə həyata keçirilir.

MADDƏ 5

Etibarlı diplomatik, rəsmi, xidməti və xüsusi pasportlara malik olan, bir Tərəfin dövlətinin vətəndaşları digər Tərəfin ərazisində qüvvədə olan qanunlara və qaydalara əməl etməlidirlər.

MADDƏ 6

Tərəflər milli təhlükəsizliyin təmin edilməsi, ictimai asayişin qorunması üçün və ya vətəndaşların sağlamlığına təhlükə olduqda bu Sazişin tətbiqini müvəqqəti, tamamilə və ya qismən dayandırmaq hüququnu özündə saxlayırlar. Tərəflər bu Sazişin tətbiqinin dayandırılması və onun yenidən qüvvəyə minməsi haqqında qərar barədə dərhal, 48 saatdan gec olmayaraq, diplomatik kanallar vasitəsilə bir-birini məlumatlandırırlar.

MADDƏ 7

Hər bir Tərəf digər Tərəfin "persona non grata" və ya arzu olunmaz şəxslərini öz dövlətinin ərazisinə qəbul etməkdən imtina etmək və ya həmin şəxslərin öz ərazisində qalmasını ləğv etmək hüququnu özündə saxlayır.

MADDƏ 8

1. Tərəflərin Xarici İşlər Nazirlikləri bu Sazişin qüvvəyə minməsindən sonra 30 gün müddətində diplomatik kanallar vasitəsilə Sazişin şamil edildiyi pasportların nümunələrini mübadilə edəcəklər.

2. Tərəflər dövriyyəyə yeni diplomatik, rəsmi, xidməti və xüsusi pasportlar buraxdıqları halda, onların qüvvəyə minməsindən ən azı 30 gün əvvəl onların Xarici İşlər Nazirlikləri diplomatik kanallar vasitəsilə bu pasportların nümunələrini mübadilə edirlər.

MADDƏ 9

Bu Sazişin müddəalarının yerinə yetirilməsi və tətbiq edilməsində yarana bilən hər hansı anlaşılmazlıq və mübahisə Tərəflər arasında danışıqlar və məsləhətləşmələr yolu ilə həll ediləcəkdir.

MADDƏ 10

Bu Sazişə hər hansı əlavə və dəyişikliklər Tərəflərin qarşılıqlı razılığı əsasında edilə bilər. Belə əlavə və dəyişikliklər bu Sazişin ayrılmaz hissəsi olan ayrı-ayrı protokollar formasında rəsmiləşdiriləcək və bu Sazişin 11-ci maddəsində nəzərdə tutulan qaydada qüvvəyə minəcəkdir.

MADDƏ 11

1. Bu Saziş qeyri-müəyyən müddətə bağlanılır və Tərəflərin nota mübadiləsi həyata keçirməsindən 30 gün sonra qüvvəyə minəcəkdir.

2. Tərəflərdən biri bu Sazişin qüvvəsini ləğv etmək niyyəti barədə istənilən vaxt digər Tərəfə diplomatik kanallarla yazılı şəkildə xəbər verə bilər. Saziş belə bildirişin alındığı tarixdən 6 (altı) ay sonra qüvvədən düşür.

Bu Saziş Rabat şəhərində 3 may 2007-ci ildə, iki əsl nüsxədə Azərbaycan, ərəb və ingilis dillərində imzalanmışdır və bütün mətnlər bərabər autentikdir.

Bu Sazişin təfsiri zamanı fikir ayrılığı yarandıqda ingilis dilindəki mətnə üstünlük veriləcəkdir.

AZƏRBAYCAN RESPUBLİKASININ XARİCİ İŞLƏR NAZİRİ	MƏRAKEŞ KRALLIĞININ XARİCİ İŞLƏR VƏ ƏMƏKDAŞLIQ NAZİRİ
ELMAR MƏMMƏDYAROV	*MƏHƏMMƏD BENAİSSA*

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV ALMANİYANIN LÜDVİQSHAFEN ŞƏHƏRİNİN NÜMAYƏNDƏ HEYƏTİNİ QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 4-də Prezident sarayında Almaniyanın Lüdviqshafen şəhərinin meri xanım Yeva Louzenin başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.

Dövlətimizin başçısı ölkələrimiz arasında ikitərəfli münasibətlərin uğurla inkişaf etdiyini vurğuladı. Son iki ilyarım ərzində iki dəfə Almaniyada rəsmi səfərdə olduğunu qeyd

edən Azərbaycan Prezidenti İlham Əliyev bu ilin fevral ayında sonuncu səfərini xatırlayaraq, bu səfər zamanı Almaniyanın Kansleri və eləcə də iş adamları ilə keçirdiyi müxtəlif səviyyəli görüşlərin əməkdaşlığımızın inkişafı baxımından əhəmiyyətli olduğunu bildirdi.

Dövlətimizin başçısı qardaşlaşmış şəhərlər olan Sumqayıt ilə Lüdviqshafen arasında əməkdaşlığın da ikitərəfli münasibətlərimizin inkişafına töhfələr verəcəyinə əminliyini söylədi.

Lüdviqshafen şəhərinin meri xanım Yeva Louze Azərbaycanla tanışlığın onlarda böyük təəssürat oyatdığını bildirdi, Sumqayıt şəhəri ilə əməkdaşlığa xüsusi önəm verdiklərini vurğuladı.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN MİSİRƏ RƏSMİ SƏFƏRİ

Mayın 6-da Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Misir Ərəb Respublikasına rəsmi səfərə gəlmişdir.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN VƏ MİSİR PREZİDENTİ HÜSNİ MÜBARƏKİN TƏKBƏTƏK GÖRÜŞÜ

Mayın 6-da Qahirədə, Misir dövləti başçısının sarayında Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və Misir Ərəb Respublikasının Prezidenti Hüsni Mübarəkin təkbətək görüşü olmuşdur.

Görüşdə ölkələrimiz arasında əlaqələrin müxtəlif sahələrdə uğurla inkişaf etdiyi bildirildi. Azərbaycan Prezidentinin bu səfərinin qarşılıqlı münasibətlərin daha da genişləndirilməsinə imkan yaradacağına əminlik vurğulandı.

Dövlət başçıları qarşılıqlı maraq doğuran məsələləri müzakirə etdilər.

AZƏRBAYCAN VƏ MİSİR PREZİDENTLƏRİNİN GENİŞ TƏRKİBDƏ GÖRÜŞÜ

Mayın 6-da Qahirədə Azərbaycan Prezidenti İlham Əliyevin və Misir Prezidenti Hüsni Mübarəkin nümayəndə heyətlərinin iştirakı ilə geniş tərkibdə görüşü keçirilmişdir.

Görüşdə Azərbaycanla Misir arasında ikitərəfli münasibətlərin, siyasi, iqtisadi və digər sahələrdə əməkdaşlığın uğurla inkişaf etdirildiyi vurğulandı. Tərəflər beynəlxalq təşkilatlar çərçivəsində əməkdaşlığın da yüksək səviyyədə olduğunu bildirdilər. Qeyd olundu ki, iqtisadi sahədə əlaqələrin genişləndirilməsi üçün böyük potensial var və bundan səmərəli istifadə edilməsi hər iki ölkə üçün zəruri və faydalıdır.

Görüşdə Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi məsələsinə də toxunuldu. Misir Prezidenti Hüsni Mübarək onun ölkəsinin Azərbaycanın ərazi bütövlüyünü dəstəklədiyini və münaqişənin beynəlxalq hüquq normaları çərçivəsində, sərhədlərin toxunulmazlığı prinsipi əsasında sülh yolu ilə ədalətli həllinə tərəfdar olduğunu xüsusi vurğuladı.

Prezident İlham Əliyev Misir Prezidenti Hüsni Mübarəki Azərbaycana rəsmi səfərə dəvət etdi.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV "ƏZHƏRİ ŞƏRİF" UNİVERSİTETİNİN REKTORU İLƏ GÖRÜŞMÜŞDÜR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 6-da Qahirədə məşhur "Əzhəri Şərif" Universitetinin inzibati binasında universitetin rektoru Şeyx Məhəmməd Tantavi ilə görüşmüşdür.

Şeyx Məhəmməd Tantavi Prezident İlham Əliyevi və onu müşayiət edən nümayəndə heyətini böyük hörmət və ehtiramla salamladı. Misir və Azərbaycanın əlaqələrinin tarixi kökləri olduğunu xatırladan rektor Azərbaycan Prezidentinin rəsmi səfərini yüksək qiymətləndirdi, bu səfərin elm, təhsil sahələrində də qarşılıqlı əməkdaşlığın inkişafına təkan verəcəyini söylədi.

Rektor bildirdi ki, hazırda universitetdə digər müsəlman ölkələrinin tələbələri ilə yanaşı, 76 azərbaycanlı gənc də təhsil alır. X əsrdə Əl-Əzhər məscidi nəzdində yaradılmış universitet sonralar fəaliyyətini genişləndirərək, elmi-dini mərkəzə çevrilmişdir. Hazırda onun nəzdində müxtəlif institutlar, akademiya, zəngin elmi kitabxana, xəstəxana, məscid, xeyriyyə idarələri və sair fəaliyyət göstərir. 1961-ci ildə universitetin strukturunda dəyişiklik edilmiş, ali elmi şura və islamşünaslıq akademiyası yaradılmışdır. Universitetdə müsəlman hüququ, ilahiyyat, ərəb dili, tibb və digər fakültələr vardır. Müsəlman dünyasının məşhur alimlərinin bir çoxu ali təhsillərini bu universitetdə almışlar. Əl-Əzhər hökumət tərəfindən maliyyələşdirilir, eyni zamanda, həm Misir, həm də digər müsəlman ölkələrinin şirkətləri ona vəsait ayırır.

Görüşün sonunda Azərbaycan Prezidenti İlham Əliyevə xatirə hədiyyəsi təqdim olundu.

PREZİDENT İLHAM ƏLİYEV AZƏRBAYCANIN MİSİRDƏKİ SƏFİRLİYİNİN YENİ BİNASININ AÇILIŞINDA İŞTİRAK ETMİŞDİR

Azərbaycan Prezidenti İlham Əliyev mayın 6-da Qahirədə ölkəmizin Misir Ərəb Respublikasındakı səfirliyinin yeni binasının açılış mərasimində iştirak etmişdir.

Səfirliyin əməkdaşları və Qahirədə yaşayan soydaşlarımız dövlətimizin başçısını və xanımını hərarətlə qarşıladılar.

Prezident İlham Əliyev və Misirin Baş naziri Əhməd Nazif "Azərbaycan Respublikasının səfirliyi" sözləri yazılmış lövhənin üzərindən ağ örtüyü götürdülər və açılışı bildirən lenti kəsdilər.

Prezident İlham Əliyevə və xanımı Mehriban Əliyevaya gül dəstələri təqdim olundu.

Azərbaycan Prezidenti və Misirin Baş naziri səfirliyin yeni binasında əməkdaşlar üçün yaradılmış şəraitlə tanış oldular, ayrı-ayrı otaqlara, konfrans salonuna baxdılar.

Məlumat verildi ki, Qahirənin ən gözəl rayonlarından olan bu ərazidə bir çox səfirliklər yerləşir.

Misir Ərəb Respublikası Azərbaycanın dövlət müstəqilliyini 1991-ci il dekabrın 26-da tanımış, 1992-ci il aprelin 11-də iki ölkə arasında diplomatik əlaqələr qurulmuşdur. Azərbaycanın Misirdəki səfirliyi 1994-cü ildən fəaliyyət göstərir.

Sonra təntənəli mərasim oldu. Mərasimdə çıxış edən Misirin Baş naziri Əhməd Nazif regionda fəal siyasət yürüdən ölkəsinin bir çox münaqişələrin həllində vasitəçi kimi çıxış etdiyini bildirdi. Ölkəsinin iqtisadi inkişafından danışan Baş nazir dedi ki, biz dost Azərbaycanla iqtisadi əlaqələrin dərinləşdirilməsində maraqlıyıq və iş adamlarımızı Misirə dəvət edirik.

Prezident İlham Əliyev çıxışında Qahirədə Azərbaycan səfirliyinin yeni binasının açılması münasibətilə diplomatlarımızı təbrik etdi, təkcə Misirlə deyil, digər islam ölkələri ilə də əlaqələrin genişləndirilməsinin Azərbaycanın xarici siyasətinin əsas istiqamətlərindən biri olduğunu vurğuladı. Misir Prezidentini və Baş naziri ölkəmizə səfərə dəvət etdiyini bildirən Prezident İlham Əliyev özünün indiki səfəri çərçivəsində imzalanacaq sənədlərin qarşılıqlı əməkdaşlığa yeni təkan verəcəyini söylədi.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN MİSİR XALQ MƏCLİSİNİN SƏDRİ ƏHMƏD FƏTHİ SÜRUR İLƏ GÖRÜŞÜ

Azərbaycan Prezidenti İlham Əliyev mayın 7-də Misir Ərəb Respublikasının parlamentinə – Xalq Məclisinə gəlmişdir.

Burada dövlətimizin başçısının şərəfinə fəxri qarovul düzülmüşdü. Prezident İlham Əliyevi Xalq Məclisinin sədri Fəthi Sürur böyük hörmət və ehtiramla qarşıladı.

Sonra Azərbaycan Prezidenti ilə Xalq Məclisinin sədri arasında görüş keçirildi. Əhməd Fəthi Sürur parlamentin üzvlərini Prezident İlham Əliyevə təqdim etdi. Misir parlamentinin sədri Azərbaycan Prezidentini Qahirədə görməkdən məmnunluğunu bildirərək, dövlətimizin başçısının səfərini yüksək qiymətləndirdi, ölkələrimiz arasında ikitərəfli əlaqələrin uğurla inkişaf etdiyini vurğuladı.

Görüşdə siyasi, iqtisadi, elm və digər sahələrdə əlaqələrimizin genişləndiyi, bununla yanaşı, parlamentlərarası əməkdaşlığın genişləndirilməsinin vacibliyi bildirildi.

Prezident İlham Əliyev Azərbaycanın əldə etdiyi iqtisadi uğurlardan, beynəlxalq əhəmiyyətli layihələrin həyata keçirilməsindən danışdı. Dövlətimizin başçısı Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinə də toxunaraq dedi ki, Ermənistan ölkəmizə qarşı işğalçılıq siyasəti həyata keçirərək, torpaqlarımızın bir hissəsini zəbt etmişdir.

Misir Xalq Məclisinin üzvləri görüşdə çıxış edərək, Ermənistanın işğalçı qüvvələrinin Azərbaycan ərazilərindən çıxarılmasının, bu problemin tezliklə həll olunmasının, qaçqın və məcburi köçkünlərin öz yurdlarına qayıtmasının zəruriliyini vurğuladılar.

Sonra Prezident İlham Əliyevə xüsusi medal təqdim olundu. Əhməd Fəthi Sürur dedi ki, bu qızıldan hazırlanmış medal Misir Xalq Məclisinin ali qonaqlarına təqdim edilir.

Medalın üzərində Azərbaycan Prezidenti İlham Əliyevin adı yazılmış, digər tərəfində isə Misir parlamenti binasının şəkli əks olunmuşdur.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN MİSİRİN BAŞ NAZİRİ ƏHMƏD NAZİF İLƏ GÖRÜŞÜ

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 7-də Misir Ərəb Respublikası Nazirlər Şurasının binasında Baş nazir Əhməd Nazif ilə təkbətək görüşmüşdür.

Söhbət zamanı ölkələrimiz arasında iqtisadi əməkdaşlığın inkişafından məmnunluq bildirildi, bu sahədə əlaqələrin daha da dərinləşdirilməsi üçün böyük potensialın olduğu vurğulandı. İqtisadi münasibətlərin daha da genişlənməsində Azərbaycan-Misir hökumətlərarası komissiyasının fəal rol oynayacağına əminlik ifadə edilən görüşdə bildirildi ki, Prezident İlham Əliyevin səfəri çərçivəsində imzalanacaq sənədlər bu işə öz töhfəsini verəcəkdir.

SƏNƏDLƏRİN İMZALANMASI

Mayın 7-də Qahirədə, Nazirlər Şurasının binasında Azərbaycan Prezidenti İlham Əliyevin və Misirin Baş naziri Əhməd Nazifin iştirakı ilə sənədlərin imzalanma mərasimi olmuşdur.

Azərbaycan Respublikası Hökuməti və Misir Ərəb Respublikası Hökuməti arasında idman sahəsində əməkdaşlıq haqqında sazişi Azərbaycan tərəfdən gənclər və idman naziri Azad Rəhimov, Misir tərəfdən Milli İdman Komitəsinin sədri Həsən Sakr imzaladılar.

Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi və Misir Ərəb Respublikasının Ədliyyə Nazirliyi arasında əməkdaşlıq haqqında sazişi Azərbaycan tərəfdən ədliyyə naziri Fikrət Məmmədov, Misir tərəfdən beynəlxalq əməkdaşlıq naziri xanım Faizə Əbülnəqa imzaladılar.

Azərbaycan Respublikasının Kənd Təsərrüfatı Nazirliyi və Misir Ərəb Respublikasının Kənd Təsərrüfatı və Torpaqların İstifadə Nazirliyi arasında əməkdaşlıq haqqında sazişi Azərbaycan tərəfdən iqtisadi inkişaf naziri Heydər Babayev, Misir tərəfdən beynəlxalq əməkdaşlıq naziri Faizə Əbülnəqa imzaladılar.

Azərbaycan poçt təşkilatı və Misir Milli poçt təşkilatı arasında beynəlxalq pul baratlarının mübadilə olunması üzrə sazişi iqtisadi inkişaf naziri Heydər Babayev və Misirin informasiya-kommunikasiya texnologiyaları naziri Tariq Kamal imzaladılar.

Azərbaycan Dövlət Teleqraf Agentliyi (AzərTAc) və Misirin Yaxın Şərq Agentliyi (MENA) arasında əməkdaşlıq sazişini AzərTAc-ın baş direktoru Aslan Aslanov və MENA-nın idarə heyətinin sədri və baş redaktoru Abdulla Həsən imzaladılar.

Azərbaycan Respublikası Hökuməti və Misir Ərəb Respublikası Hökuməti arasında turizm sahəsində əməkdaşlıq haqqında anlaşma memorandumunu Azərbaycan tərəfdən xarici işlər naziri Elmar Məmmədyarov, Misir tərəfdən turizm naziri Züheyr Qaranan imzaladılar.

Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyi və Misir Ərəb Respublikasının Daxili İşlər Nazirliyi arasında əməkdaşlıq haqqında anlaşma memorandumunu Azərbaycan tərəfdən daxili işlər naziri Ramil Usubov, Misir tərəfdən daxili işlər naziri Həbib əl-Ədli imzaladılar.

Azərbaycan Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyi və Misir Ərəb Respublikasının mineral ehtiyatlar qurumu arasında texniki əməkdaşlıq protokolunu Azərbaycan tərəfdən xarici işlər naziri Elmar Məmmədyarov, Misir tərəfdən neft naziri Sami Fəhmi imzaladılar.

Azərbaycan Respublikasının Abşeron icra hakimiyyəti və Misir Ərəb Respublikasının Qəlyubiyyə icra hakimiyyəti arasında anlaşma memorandumunu Azərbaycan tərəfdən ölkəmizin Qahirədəki səfiri Faiq Bağırov, Misir tərəfdən Qəlyubiyyə valisi Ədli Hüseyn imzaladılar.

Azərbaycan Respublikasının M.F.Axundov adına Milli Kitabxanası və Misir Ərəb Respublikasının İsgəndəriyyə kitabxanası arasında anlaşma memorandumunu Azərbaycan tərəfdən səfir Faiq Bağırov və Misir tərəfdən İsgəndəriyyə kitabxanasının idarə heyətinin sədri İsmayıl Sirəcəddin imzaladılar.

Azərbaycan Respublikasının Rabitə və İnformasiya Texnologiyaları Nazirliyi və Misir Ərəb Respublikasının İnformasiya-Kommunikasiya Texnologiyaları Nazirliyi arasında əməkdaşlıq haqqında anlaşma memorandumuna əlavə protokolu Azərbaycan tərəfdən iqtisadi inkişaf naziri Heydər Babayev, Misir tərəfdən informasiya-kommunukasiya texnologiyaları naziri Tariq Kamal imzaladılar.

Azərbaycan Respublikası Hökuməti və Misir Ərəb Respublikası Hökuməti arasında hava nəqliyyatı haqqında sazişə əlavə protokolu Azərbaycan tərəfdən "Azərbaycan Hava Yolları" Dövlət Konserninin baş direktoru Cahangir Əsgərov, Misir tərəfdən Mülki Aviasiya Təşkilatının sədri İhəb Sadiq imzaladılar.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN ƏRƏB DÖVLƏTLƏRİ CƏMİYYƏTİNİN BAŞ KATİBİ ƏMR MUSA İLƏ GÖRÜŞÜ

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 7-də Qahirədə Ərəb Dövlətləri Cəmiyyətinin (ƏDC) iqamətgahına gəlmişdir. ƏDC-nin baş katibi Əmr Musa dövlətimizin başçısını ehtiramla qarşıladı.

Regional hökumətlərarası təşkilat olan ƏDC 1945-ci ildə Qahirədə təsis edilmişdir. Hazırda ona 22 ərəb dövləti daxildir.

2005-ci ilin oktyabrın 15-də xarici işlər naziri Elmar Məmmədyarovun Misirə rəsmi səfəri zamanı Azərbaycan Respublikası və Ərəb Dövlətləri Cəmiyyəti arasında Anlaşma memorandumu imzalanmışdır. 2006-cı ildə ölkəmizin Misirdəki səfiri Faiq Bağırov Azərbaycan Respublikasının ƏDC yanında daimi müşahidəçisi təyin edilmişdir.

Prezident İlham Əliyevin baş katib Əmr Musa ilə təkbətək görüşündə Azərbaycan ilə ƏDC arasında əməkdaşlığın vəziyyəti, bu əlaqələrin genişləndirilməsi perspektivləri müzakirə olundu.

Bildirildi ki, Azərbaycan ƏDC ilə yaxşı əməkdaşlıq edir, təşkilata üzv ölkələrin 7-də səfirliyini açmışdır və gələcəkdə digər ölkələrdə də diplomatik nümayəndəliklər yaradılacaqdır.

Görüşdə regional məsələlərlə bağlı geniş fikir mübadiləsi aparıldı.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN MİSİRİN BEYNƏLXALQ ƏMƏKDAŞLIQ NAZİRİ İLƏ GÖRÜŞÜ

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 7-də Misirin əməkdaşlıq naziri, Misir-Azərbaycan birgə hökumətlərarası komissiyasının həmsədri xanım Faizə Əbülnəqa ilə görüşmüşdür.

Görüşdə ölkələrimiz arasında ikitərəfli münasibətlərin yüksək səviyyədə olduğu, iqtisadi və humanitar sahədə əlaqələrin daha da genişləndirilməsi üçün yaxşı potensialın mövcudluğu vurğulandı. Bildirildi ki, Azərbaycan Prezidentinin Misirə rəsmi səfəri, imzalanmış sənədlər və birgə hökumətlərarası komissiyanın fəaliyyətinin genişləndirilməsi gələcək əməkdaşlığın dərinləşməsinə müsbət təsir göstərəcəkdir.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN MİSİRİN MENA AGENTLİYİNƏ MÜSAHİBƏSİ

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 7-də, Qahirədə onun üçün ayrılmış iqamətgahda - "Qübbə sarayı"nda Misirin Yaxın Şərq Xəbərlər Agentliyinin (MENA) idarə heyətinin sədri və baş redaktoru Abdulla Həsənə müsahibə vermişdir.

-Zati-aliləri cənab Prezident, öncə Sizi salamlayıram. Azərbaycanla Misir arasında bütün sahələrdə əməkdaşlığın perspektivləri haqqında Sizin fikrinizi bilmək istərdik.

-Bu səfər çərçivəsində imzalanmış sənədlər bizim münasibətlərimizin gələcək perspektivlərini müəyyən edir. Dünən və bu gün keçirdiyim görüşlər – Prezident, Baş nazir, parlamentin sədri ilə və digər görüşlər bir daha onu göstərdi ki, bizim aramızda çox səmimi dostluq münasibətləri var və bu səfərdən sonra münasibətlərimiz daha da inkişaf edəcəkdir. Siyasi və iqtisadi əlaqələr, humanitar sahədə əlaqələr bizi qane edir və əminəm ki, gələcək əməkdaşlıq iki xalqı bir-birinə daha da yaxınlaşdıracaqdır.

-İmzalanan sənədlərdən biri də Azərbaycan ilə Misir arasında neft və qaz sahəsində əməkdaşlığa aid idi. Misirlə Azərbaycan arasında bu sahədə əlaqələrin qurulması və əməkdaşlıq yəqin ki, Misir üçün də çox həyati əhəmiyyət kəsb edir.

-Bu sahədə əməkdaşlıq üçün çox gözəl imkanlar var. Hər iki ölkə neft-qaz hasil və ixrac edən ölkələrdir. Gələn il Azərbaycandan dünya bazarlarına ildə 50 milyon ton xam neft ixrac olunacaqdır. Eyni zamanda, Azərbaycanda çox böyük, nəhəng qaz yataqları vardır ki, onların da istismarına artıq başlanmışdır. Ona görə yenə deyirəm, bu sahədə həm Misir, həm də Azərbaycan dünya enerji bazarının tənzimlənməsi üçün, təmin edilməsi üçün dünya miqyasında mühüm rol oynayırlar. Təbii ki, imzalanmış sənədlərin arasında bu sahəyə aid olanı da var. Bu sənədin icra olunması nəticəsində çox güclü əməkdaşlıq yarana bilər.

-Zati-alilərinizin dünən cənab Prezident Hüsni Mübarəklə olan görüşü barədə fikirlərini bizimlə bölüşməsini istərdik.

-Görüş çox səmimi keçdi. İki ölkə arasında mövcud olan dostluq, qardaşlıq münasibətləri bir daha öz təsdiqini tapdı. Əlbəttə, görüşün böyük hissəsi ikitərəfli münasibətlərin inkişafına və təhlilinə həsr edilmişdi. Eyni zamanda, regional məsələlər, Azərbaycanın

ərəb dünyası ilə əməkdaşlığı məsələləri müzakirə olundu. Onu da demək istəyirəm ki, həmin məsələlər bu gün Ərəb Dövlətləri Cəmiyyətindəki görüşdə də geniş şəkildə müzakirə olunmuşdur.

Əlbəttə, biz cənab Prezidentlə Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli ilə də bağlı fikir mübadiləsi apardıq. Misir və Azərbaycan bir-birinin ərazi bütövlüyünü dəstəkləyir. Misir dövləti bu məsələnin Azərbaycanın ərazi bütövlüyü çərçivəsində həll olunmasını bəyan etmişdir. Bir sözlə, mən bu görüşün nəticələrindən çox məmnunam. Öz növbəmdə, cənab Prezidenti Azərbaycana rəsmi səfərə dəvət etdim. Görüşdə gələcək əməkdaşlığımızın perspektivləri də müzakirə olundu.

-Ərəb dünyasını narahat edən və maraqlandıran ən əsas məsələlərdən biri Fələstin problemi, İsrail-ərəb münaqişəsidir. Bu barədə Sizin rəyinizi bilmək istərdik. Bu, bir növ siyasi sualdır.

-Bu məsələ ilə bağlı Azərbaycan dəfələrlə öz mövqeyini açıq, birmənalı şəkildə bildirmişdir. Həm İslam Konfransı Təşkilatı çərçivəsində, eyni zamanda, başqa formatda da birmənalı mövqeyimiz bəllidir. Fələstin-İsrail münaqişəsi tezliklə öz həllini tapmalıdır. Müstəqil Fələstin dövləti yaradılmalıdır və Fələstin xalqı, uzun illər böyük əziyyətlər çəkən xalq müstəqilliyə qovuşmalıdır. Bu mövqeyi biz təkcə İslam Konfransı Təşkilatı çərçivəsində deyil, eyni zamanda, digər beynəlxalq təşkilatlarda məsələ müzakirə olunanda da müdafiə edirik. Bu məsələ öz həllini taparsa, bütün Yaxın Şərqdə vəziyyət sabitliyə doğru sürətlə yaxşılaşacaqdır.

-Zati-aliləri, mən İraq məsələsinə toxunmaq istəyirəm. Bilirsiniz ki, İraqda hazırda əcnəbi qüvvələr var, qan tökülür. Bu məsələyə Sizin münasibətiniz necədir?

-Biz İraqın ərazi bütövlüyünü dəstəkləyirik. Əminik ki, İraq xalqı ölkəsinin ərazi bütövlüyünü saxlayacaq və möhkəmləndirəcəkdir. İraqda mövcud olan daxili çəkişmələr bizi çox narahat edir. Əlbəttə ki, İraqın vahid dövlət kimi fəaliyyətini davam etdirməsi həm İraq xalqı üçün lazımdır, həm də bütün bölgə üçün lazımdır.

O ki qaldı İraqda yerləşən xarici qüvvələrə, əlbəttə ki, onlar gec-tez İraqı tərk etməlidirlər. Əsas məsələ bundadır ki, onlar nə vaxt İraqdan çıxmalıdır. Mən hesab edirəm ki, əgər onlar İraqdan bu gün çıxarılarsa, orada vəziyyət daha da gərginləşə bilər. Eyni zamanda, onlar orada uzun müddət qala bilməzlər. Yəni bütün səylər ona yönəldilməlidir ki, İraqda güclü idarəçilik sistemi yaradılsın. İraqın dövlət hakimiyyəti bütün ölkəni əhatə etsin. Müharibə zamanı müəyyən dərəcədə pozulmuş dövlət idarəçilik sistemi bərpa olunsun, milli ordu və polis qüvvələri İraqda asayişi qoruya bilsinlər. Ondan sonra xarici silahlı qüvvələr İraqdan çıxmalıdır. Bizim bu məsələyə baxışlarımız bundan ibarətdir.

-Zati-aliləri, İranın nüvə proqramı ilə bağlı Sizin fikrinizi bilmək istərdik. Çünki bilirsiniz ki, İran uranın zənginləşdirilməsi işini davam etdirir. Amerika Birləşmiş Ştatları və digər dövlətlər tərəfindən İrana bir növ zərbə endirilməsi qorxusu var.

-Azərbaycan dövləti bu məsələ ilə bağlı öz mövqeyini dəfələrlə bildirmişdir və bu mövqe hər kəsə bəllidir. Biz hesab edirik ki, bu məsələ və bu mübahisələr yalnız və yalnız danışıqlar yolu ilə, sülh yolu ilə həll olunmalıdır. Əlavə gərginliyə gətirib çıxara biləcək hər hansı addımlar atılmamalıdır. Hər bir ölkə kimi, İran da öz nüvə texnologiyaları-

nı beynəlxalq qaydalar çərçivəsində inkişaf etdirə bilər. Bu məsələ ilə bilavasitə məşğul olan Beynəlxalq Atom Enerjisi Agentliyi fəaliyyət göstərir, o təşkilatın qaydalarına uyğun olan şəkildə inkişaf etdirə bilər.

Onu da bilirik ki, İranın nüvə proqramı bəzi ölkələri çox narahat edir. Bu da nəzərə alınmalıdır. Bütün bu məsələləri həll etmək üçün mütləq çox açıq, geniş, bütün maraqlı tərəflərin iştirakı ilə dialoq aparılması zəruridir. İran bizim üçün dost ölkədir. Bizim böyük sərhədimiz var. İstəyirik ki, İran xalqı sülh, təhlükəsizlik şəraitində yaşasın.

ABDULLA HƏSƏN: Cənab Prezident, çox sağ olun. Çox ətraflı cavablarınıza görə Sizə bir daha təşəkkür edirəm.

SƏFƏR BAŞA ÇATDI

Mayın 7-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Misir Ərəb Respublikasına rəsmi səfəri başa çatmışdır.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV TÜRKİYƏNİN KONSTİTUSİYA MƏHKƏMƏSİNİN SƏDRİ TÜLAY TUĞCUNUN RƏHBƏRLİK ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİNİ QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 10-da Prezident sarayında Türkiyənin Konstitusiya Məhkəməsinin sədri Tülay Tuğcunun rəhbərlik etdiyi nümayəndə heyətini qəbul etmişdir.

Dövlətimizin başçısı Azərbaycan ilə Türkiyə arasında münasibətlərin bütün sahələrdə yüksək səviyyədə olduğunu vurğuladı. Azərbaycan Konstitusiya Məhkəməsinin öz fəaliyyətinə nisbətən yeni başladığını bildirən Prezident İlham Əliyev bu sahədə Türkiyə Konstitusiya Məhkəməsi ilə təcrübə mübadiləsi və əməkdaşlığın ölkəmiz üçün faydalı olacağına əminliyini söylədi.

Tülay Tuğcu Azərbaycanda olmaqdan böyük məmnunluq hissi keçirdiyini vurğuladı. O dedi: "Biz ümummilli lider Heydər Əliyevin bir millət, iki dövlət kəlamını xatırlayırıq və bu düşüncə ilə buradayıq". Səfəri zamanı iki ölkənin Konstitusiya Məhkəmələri arasında əməkdaşlığa dair protokolun imzalanacağını qeyd edən qonaq bununla iki qurum arasında əlaqələrin daha da möhkəmlənəcəyini bildirdi.

AZƏRBAYCANIN XARİCİ İŞLƏR NAZİRİ AVROPA ŞURASI NAZİRLƏR KOMİTƏSİNİN İCLASINDA İŞTİRAK ETMİŞDİR

Xarici işlər naziri Elmar Məmmədyarov Avropa Şurası Nazirlər Komitəsinin 117-ci iclasında iştirak etmək üçün mayın 10-11-də Strasburqda işgüzar səfərdə olmuşdur.

Nazirlər Komitəsinin may ayının 10-da keçirilmiş iclası çərçivəsində xarici işlər naziri Avropa Şurasının insan hüquqları üzrə komissarı Tomas Hammarberq ilə görüşmüşdür. Nazir Azərbaycanda insan hüquqları sahəsində görülən işlər, aparılan islahatlar və həyata keçirilən tədbirlər barədə geniş məlumat vermişdir. Eyni zamanda, Azərbaycan hö-

kuməti ilə İnsan hüquqları üzrə komissarlıq arasında əməkdaşlığı yüksək qiymətləndirmişdir.

E.Məmmədyarov Azərbaycan ərazilərinin Ermənistan tərəfindən işğal altında saxlanıldığını, qaçqın və məcburi köçkünlərin öz doğma yerlərinə qayıtmaq hüququnun hələ də pozulduğunu komissarın diqqətinə çatdırmışdır. Bununla bağlı nazir komissarı öz fəaliyyətində Ermənistanın işğalçı siyasəti nəticəsində qaçqın və məcburi köçkün vəziyyətinə düşmüş insanların hüquqlarının bərpasına diqqət yetirməyə çağırmış, bu məsələnin vacibliyini vurğulamışdır.

Komissar Azərbaycana böyük diqqət yetirdiyini bildirmiş, ölkəyə səfər etmək və bunun nəticəsi kimi müvafiq tematik məruzəni hazırlamaq niyyətində olduğunu söyləmişdir.

Həmin gün xarici işlər naziri Avropa Şurası Nazirlər Komitəsinin AGO monitorinq qrupu ilə görüş keçirmişdir. Nazir Azərbaycan tərəfinin AGO qrupunun fəaliyyətini yüksək qiymətləndirdiyini bildirmiş, ölkəmizin AŞ qarşısında götürdüyü öhdəliklərin yerinə yetirilməsi istiqamətində görülən işlər barədə məlumat vermişdir.

AGO qrupu ilə görüşün əsas mövzusu Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi olmuşdur. Nazir münaqişənin həlli üçün aparılan danışıqlar barədə AGO qrupunu məlumatlandırmış və bildirmişdir ki, Ermənistan AŞ-yə layiqli üzv olmaq üçün Azərbaycanın işğal altındakı ərazilərini azad etməlidir.

AGO qrupunun üzvləri görüşə və verdiyi məlumata görə nazirə təşəkkür etmiş, yay aylarında Azərbaycana səfər etmək niyyətində olduqlarını bildirmişlər.

Səfər çərçivəsində Elmar Məmmədyarov Avropa Şurası ilə Avropa İttifaqı arasında münasibətlərə dair Lüksemburqun Baş naziri Jan-Klod Yunker tərəfindən hazırlanmış məruzənin davamı ilə məşğul olan yüksək vəzifəli qrupun qeyri-rəsmi görüşündə də iştirak etmişdir. Görüşdə bu qrupun tərtib etdiyi məruzəyə dair qeyri-rəsmi müzakirələr aparılmışdır.

Nazir Elmar Məmmədyarov mayın 11-də İsveçin Xarici İşlər Nazirliyində xarici münasibətlər üzrə dövlət katibi Frank Belfraqe ilə görüş keçirmişdir. Görüş zamanı İsveç ilə Azərbaycan arasında ikitərəfli münasibətlər və qarşılıqlı maraq doğuran məsələlər ətrafında fikir mübadiləsi aparılmışdır.

Həmin gün nazir Çernoqoriyanın Avropa Şurasına yeni üzv olması münasibətilə keçirilmiş mərasimdə də iştirak etmişdir.

Mayın 11-də E.Məmmədyarov AŞ Nazirlər Komitəsinin 117-ci rəsmi iclasında çıxış etmişdir. O, Avropa Şurasının insan hüquqlarının müdafiəsi sisteminin gücləndirilməsi, AŞ və Avropa İttifaqı arasında münasibətlər, Varşava zirvə toplantısında müəyyən olunmuş prioritetlərin həyata keçirilməsi, xüsusilə mədəniyyətlər və dinlərarası dialoqun inkişafı üçün Avropa Şurasının fəaliyyəti və Azərbaycanın bu istiqamətdə gördüyü işlər barədə danışmışdır. Nazir bu işlər sırasında "Dözümlülüyün və qarşılıqlı anlaşmanın inkişafında kütləvi informasiya vasitələrinin rolu" mövzusunda Bakıda keçirilmiş beynəlxalq konfransı da xatırlatmışdır.

E.Məmmədyarov AŞ ilə Aİ arasında Anlaşma memorandumunun hazırlanıb başa çatdırılmasını yüksək qiymətləndirmişdir. Bununla yanaşı, nazir Avropa Məhkəməsinin sə-

mərəliliyinin qorunub saxlanılmasının vacibliyini, İnsan Huquqları üzrə Komissarlığın gücləndirilməsi istiqamətində təcili tədbirlər görülməsinin zəruriliyini vurğulamışdır.

E.Məmmədyarov çıxışında Avropa qitəsində hələ də həll edilməmiş münaqişələrin mövcudluğundan narahatlığını ifadə etmişdir. O, Ermənistanın hələ də Azərbaycan ərazilərini işğal altında saxladığını və etnik təmizləməyə məruz qalmış bir milyon azərbaycanlının öz doğma yerlərinə qayıtmaq imkanından məhrum olduğunu xatırlatmışdır. Nazir bunu həm də AŞ-nin əsas dəyərlərini təşkil edən insan hüquqları, demokratiya və qanunun aliliyinin kobud şəkildə pozulması kimi qiymətləndirmişdir.

İclasın sonunda müvafiq sənəd qəbul edilmiş və orada nazirlər Avropa qitəsində həll olunmamış münaqişələrin mövcudluğundan bir daha narahatlığını ifadə etmişlər.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN POLŞAYA İŞGÜZAR SƏFƏRİ

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 11-də Polşa Respublikasına işgüzar səfərə gəlmişdir.

AZƏRBAYCAN, UKRAYNA VƏ GÜRCÜSTAN PREZİDENTLƏRİNİN ÜÇTƏRƏFLİ GÖRÜŞÜ

Mayın 11-də Krakov şəhərinin "Şeraton" mehmanxanasında Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev, Ukrayna Prezidenti Viktor Yuşşenko və Gürcüstan Prezidenti Mixail Saakaşvili arasında üçtərəfli görüş keçirilmişdir.

GUAM çərçivəsində əməkdaşlığın hazırkı vəziyyətindən danışan dövlət başçıları əlaqələrin daha da genişləndirilməsi və möhkəmləndirilməsinin vacibliyini, enerji və nəqliyyat sahələrində işbirliyi üçün geniş perspektivin olduğunu və bundan istifadənin zəruriliyini vurğuladılar.

Söhbət zamanı GUAM məkanında dondurulmuş münaqişələrə də toxunuldu və onların həlli ilə bağlı təşkilat çərçivəsində əməkdaşlığın daha genişləndirilməsinin vacibliyi bildirildi.

Görüşdə GUAM dövlət başçılarının Bakıda keçiriləcək qarşıdakı zirvə görüşü haqqında da söhbət getdi, qəbul ediləcək sənədlər və onlarda əksini tapacaq mühüm məsələlər barədə müzakirələr aparıldı.

Dövlət başçıları təşkilatın gələcək inkişaf yollarına, digər ölkələr və beynəlxalq təşkilatlarla əlaqələrə, GUAM çərçivəsində nəzərdə tutulan layihələrin həyata keçirilməsinə dair fikir mübadiləsi etdilər.

VAVEL QƏSRİNƏ GƏLİŞ VƏ ENERJİ SAMMİTİNİN AÇILIŞI

Mayın 11-də Azərbaycan Prezidenti İlham Əliyev, Gürcüstan Prezidenti Mixail Saakaşvili, Ukrayna Prezidenti Viktor Yuşşenko, habelə Qazaxıstanın energetika və mineral ehtiyatlar nazirinin müavini Lyazzət Kiinov Krakovun XVI əsrə aid məşhur Vavel qəsrinə gəldilər. Burada ali qonaqların şərəfinə fəxri qarovul dəstəsi düzülmüşdü. Fəxri qarovul dəstəsinin rəisi dövlət başçılarını salamladı. Prezidentlər və Qazaxıstan nümayəndəsi qəsrin qarşısında xatirə şəkli çəkdirdilər.

Sonra Azərbaycan, Gürcüstan, Ukrayna, Polşa və Litva prezidentlərinin, habelə Qazaxıstan nümayəndəsinin iştirakı ilə Vavel qəsrində Enerji sammitinin "Enerji təhlükəsizliyi" mövzusunda ilk iclası keçirildi. İclasda iştirakçı ölkələr arasında enerji sahəsində əməkdaşlığın hazırkı vəziyyəti və perspektivləri ilə bağlı məsələlər müzakirə edildi.

Sammitin ilk iclası başa çatdıqdan sonra iştirakçılar Vavel qəsri ilə tanış oldular. Məlumat verildi ki, Renessans dövrü memarlığının nümunəsi olan bu qəsr XVII əsrin ortalarına qədər Polşa kral larının əsas iqamətgahı idi. Hazırda muzey kimi istifadə olunur.

Dövlət başçıları qəsrin ayrı-ayrı otaqlarını gəzdilər.

Daha sonra sammit "Milli enerji sektorlarının inkişaf strategiyası və Mərkəzi Asiya-Cənubi Qafqaz-Mərkəzi Avropa nəqliyyat dəhlizi konsepsiyası" mövzusunda ikinci iclası keçirildi. Polşa Prezidenti Lex Kaçinski iclası açaraq, dövlət başçılarını və Qazaxıstan nümayəndəsini salamladı, bu sammitin əhəmiyyətindən danışdı.

Azərbaycan Prezidenti İlham Əliyev iclasda çıxış etdi. Dövlətimizin başçısı sammiti vacib beynəlxalq hadisə adlandıraraq dedi ki, bu gün bizim çox faydalı və açıq müzakirələrimiz oldu. Biz gələcək əməkdaşlıq məsələlərindən danışdıq və indi müzakirələrimizi davam etdiririk. Ölkələrimiz arasında tərəfdaşlığa söykənən əməkdaşlıq bizim üçün çox vacibdir. Prezident İlham Əliyev Azərbaycanın qlobal enerji proseslərində iştirakından, ölkəmizdə gedən sürətli iqtisadi inkişafdan, Azərbaycanın regionda artan rolundan danışdı. Bildirdi ki, iqtisadi imkanları daha da artan Azərbaycan qlobal enerji layihələrinin təşəbbüskarı və birbaşa iştirakçısıdır. Dövlətimizin başçısı Azərbaycanın Avropanın enerji təchizatçısı kimi böyük potensiala malik olduğunu vurğuladı və gələcəkdə bu sahədə imkanların artacağını bildirdi.

Sammitdə digər dövlət başçıları da çıxış etdilər.

SAMMİTİN YEKUNLARINA DAİR MƏTBUAT KONFRANSI

Mayın 11-də Krakovda Enerji sammiti başa çatdıqdan sonra yekunlara dair mətbuat konfransı keçirilmişdir.

Konfransda Azərbaycan Prezidenti İlham Əliyev, Polşa Prezidenti Lex Kaçinski, Ukrayna Prezidenti Viktor Yuşşenko, Gürcüstan Prezidenti Mixail Saakaşvili, Litva Prezidenti Valdas Adamkus, habelə Qazaxıstanın energetika və mineral ehtiyatlar nazirinin müavini Lyazzət Kiinov iştirak edirdilər.

Konfransı Polşa Prezidenti açaraq dedi ki, bu gün səmərəli şəkildə başa çatan sammitin yekunlarına dair Birgə rəsmi məlumat imzalanmışdır.

Litva Prezidenti çıxışında həmin sənəddə mühüm məsələlərin əksini tapdığını, əsasən, nəqliyyat infrastrukturunun inkişafı, neft və qazın Avropa və dünya bazarlarına nəqli, Baltik dənizi, Qara dəniz və Xəzər dənizi regionu ölkələrinin əməkdaşlığı, Avropaya inteqrasiya məsələlərini əhatə etdiyini bildirdi.

Sonra Polşa Prezidenti çıxış edərək, Birgə rəsmi məlumatda nəzərdə tutulan məsələlə-

rin ölkələrimiz arasında daha konkret layihələrin həyata keçirilməsinə imkan verəcəyini söylədi.

Gürcüstan Prezidenti Azərbaycanın enerji məsələsində tutduğu mövqeyi yüksək qiymətləndirdi və regionda Azərbaycan-Gürcüstan əməkdaşlığını nümunə gətirdi. O dedi ki, biz Xəzər neftinin Gürcüstan-Ukrayna-Polşa marşrutu ilə Avropaya nəqlində maraqlıyıq.

Ukrayna Prezidenti çıxışında hazırda dünyada enerji məsələlərinin ön planda olduğunu bildirdi və dost ölkələrin enerji təhlükəsizliyinin təmin edilməsində Azərbaycanın mövqeyini dəstəklədiklərini söylədi.

Azərbaycan Prezidenti İlham Əliyev mətbuat konfransında çıxış etdi.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN ÇIXIŞI

-Hörmətli xanımlar və cənablar!

İlk növbədə, mən səmimi qonaqpərvərliyə görə dostumuz Prezident Kaçinskiyə öz minnətdarlığımı bildirmək istəyirəm. Bu gün bizim çox dostluq mühitində keçən görüşümüz oldu. Bir neçə saat ərzində konstruktiv müzakirələr apardıq və bir çox məsələlərin nəzərdən keçirilməsinin və həyata keçirilməsi yollarının müəyyən edilməsinin vacibliyini vurğuladıq. Azərbaycanın bu zirvə görüşündə təmsil olunmuş hər bir ölkə ilə çox yaxşı ikitərəfli münasibətləri var.

Eyni zamanda, biz bu gün ilk dəfə olaraq, belə geniş formatda bir yerə toplaşmışıq. Bu, regional əməkdaşlığın artan əhəmiyyətinin aydın göstəricisidir. Hazırda Xəzər dənizi, Qafqaz, Qara dəniz və Baltik dənizi regionları birgə işləyir. Səmimi desəm, regionları bu qədər bir-birinə yaxın edən başqa təşəbbüs haqqında danışmaq belə mümkün deyildir.

Enerji və daşımalar Avropa və dünyanın siyasi gündəliyində duran əsas məsələlərdəndir. Hesab edirəm ki, əməkdaşlığımızın səmərəli və uğurlu olması regionlarımız arasında daha geniş əməkdaşlığın başlanğıc nöqtəsi olacaqdır. Azərbaycan böyük neft və qaz ehtiyatlarına malik olan ölkədir. Bizim ehtiyatlarımız gələn 100 il ərzində daxili tələbatımızın ödənilməsi üçün kifayətdir. Lakin biz bu gün regionun enerji təhlükəsizliyində daha vacib rol oynayırıq. Misal üçün, gələn il Azərbaycan gündə 1 milyon barrel neft hasil edəcəkdir. Biz böyük qaz yataqları aşkar etmişik və Azərbaycan qazı artıq qonşu ölkələrin bazarlarına ixrac olunur və oradan isə, Avropa bazarlarına nəql edilə bilər.

Müxtəlif neft və qaz boru kəmərlərinin çəkilməsinə milyardlarla dollar sərmayə qoyulubdur. Bu gün bizim neft və qazımızı Avropa və dünya bazarlarına çıxaran boru kəmərimiz var. Bu, təchizatın şaxələndirilməsi deməkdir. Eyni zamanda, biz istehlakçıları da başa düşürük, çünki onlar öz təchizat mənbələrini şaxələndirmək istəyirlər. Burada biz təchizatçı, tranzit və istehlakçı ölkələr arasında maraqların güclü şəkildə tarazlaşdırılmasına nail olduq.

Məqsədlərimizə nail olmaq üçün bütün tərəflər arasında yalnız müvəffəqiyyətli əməkdaşlıq və vahid komanda halında işləmək uğurlu enerji siyasətinin əsas elementləridir. Bu gün biz şaxələndirmənin səviyyəsini artırmaq üçün konkret layihələr üzərində işlə-

dik və bu, yalnız başlanğıcdır. Birgə rəsmi məlumat planlarımızı, nailiyyətlərimizi və gündəliyimizi aydın şəkildə əks etdirir. Əminəm ki, birgə əməkdaşlıq sayəsində biz öz məqsədlərimizə nail olacağıq. Mümkün qədər tez müddətdə işçi qrup öz işinə başlayacaqdır. İnanıram ki, Vilnüsdə keçiriləcək növbəti zirvə görüşündə biz əsas addımların ilkin proqramını əldə edəcəyik.

Bir daha demək istəyirəm ki, Azərbaycan öz tərəfdaşları ilə əməkdaşlığa çox böyük önəm verir. Xəzər dənizi-Qara dəniz-Baltik dənizi regionları bizim üçün vahid ümumi regiona çevrilir. Avropa İttifaqı ilə bu yaxınlarda imzaladığımız enerji məsələləri üzrə strateji tərəfdaşlığa dair anlaşma memorandumu nəzərə alınmaqla, həmin sənədlər planlarımıza əlavə təkan verir.

Mən bu görüşün nəticələri ilə bağlı bir daha öz məmnunluğumu qeyd edir, dostumuz Prezident Kaçinskiyə qonaqpərvərliyə görə və bütün dost prezidentlərə və nazir müavininə səmərəli əməkdaşlığa görə təşəkkürümü bildirmək istəyirəm.

Sağ olun.

* * *

Sonra çıxış edən Qazaxıstan nümayəndəsi ölkəsinin öz neftini müxtəlif marşrutlarla dünya bazarlarına çıxarmaq hüququna malik olduğunu bildirdi.

Sonra prezidentlər jurnalistlərin suallarına cavab verdilər.

-Təchizatlara aid zəmanətlər haqqında nə deyə bilərsiniz? Təchizata hər hansı zəmanət verilirmi? Qazaxıstan və Azərbaycan tərəfindən bu layihəyə aid təchizat sahəsində hər hansı zəmanət verilə bilərmi?

İkinci sualım da Prezident Əliyevədir. Boru kəmərinin tikintisi başa çatdırılarsa, Azərbaycan həmin vaxt kifayət qədər neft hasilatına malik olacaqmı?

İLHAM ƏLİYEV: Nəhəng neft yataqlarının işlənilməsi proqramımız ölkəmizin tələbatının tam ödənilməsinə əsaslanır. Giriş sözümdə dediyim kimi, gələn ildən etibarən Azərbaycanda neft hasilatının həcmi ildə 50 milyon ton təşkil edəcəkdir. Həmin neftin nəqli üçün bizim bir neçə boru kəmərimiz var. Əsas ixrac boru kəməri, gündə 1 milyon barrel neft buraxma qabiliyyətinə malik olan Bakı-Tbilisi-Ceyhan kəməridir. Bu o deməkdir ki, gələn il Bakı-Tbilisi-Ceyhan boru kəməri Azərbaycanın yataqlarından hasil edilən neftlə tam dolu olacaqdır. Gündə 1 milyon barrel neftin nəqlinin son həddi olmayacağını və hasilatın artırılması ilə bağlı planlarımızı nəzərə alsaq, müxtəlif istiqamətlərdə də nəql edilmək üçün əlavə həcm birmənalı şəkildə olacaqdır.

Əlbəttə ki, Bakı-Tbilisi-Ceyhan boru kəməri əlavə texniki tədbirlərin görülməsi yolu ilə genişləndirilə bilər. Biz boru kəmərinin buraxıcılıq qabiliyyətini müəyyən dərəcədə artıra bilərik. Eyni zamanda, təchizatın şaxələndirilməsi bizim üçün çox önəmlidir. Biz bunun üzərində işləyirik. Olduqca qısa müddət ərzində biz üç boru kəmərinə nail olmuşuq. Birincisi ilə neftimizin Qara dənizə, ikincisi ilə Aralıq dənizinə və üçüncüsü ilə qazımızın Avropa bazarlarına çıxarılması gündəliyimizin aydın göstəricisidir. Ona görə əminəm ki, Azərbaycanda hasil olunan neft bizim əməkdaşlığımıza xidmət edəcəkdir.

Eyni zamanda, bu gün zəmanətlər haqqında danışmaq bəlkə də hələ tez olardı. Bildiyiniz kimi, biz elə indicə işçi qrupunun yaradılması qərarına gəldik. Bizim bu gün çox ge-

niş müzakirələrimiz oldu. Bir neçə saat ərzində bir yerdə olduq. Odessa-Brodı-Plotsk-Qdansk boru kəməri haqqında olduqca maraqlı təqdimata baxdıq və məlumatı dinlədik. Bütün meyarları, layihənin kommersiya əsaslarını qiymətləndirdikdən sonra, təbii ki, biz öz planlarımız, nə vaxt və nə qədər nefti hasil edəcəyimiz barədə daha təfərrüatlı şəkildə danışacağıq.

Bu gün biz layihəyə verilən aydın siyasi dəstəyə malikik. Atılacaq ilk praktik addımlar artıq müəyyənləşdirilibdir. Biz şirkətin yaradılması barədə razılığa gəlmişik. Layihənin potensialını qiymətləndirməyə başlayırıq. Əminəm ki, müzakirələrimizin və məsləhətləşmələrimizin növbəti raundu zamanı biz bu istiqamətdə irəliyə doğru gedəcəyik.

Bundan əlavə, biz başa düşürük ki, Xəzərin şərq sahilindəki tərəfdaşlarımız üçün maraqlı olarsa, orada hasil edilən neft də bu boru kəməri üçün əlavə təchizat mənbəyi ola bilər.

Sağ olun.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN POLŞAYA İŞGÜZAR SƏFƏRİ BAŞA ÇATMIŞDIR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 12-də Polşaya işgüzar səfərini başa çatdıraraq, Tbilisiyə yola düşmüşdür.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN GÜRCÜSTANA SƏFƏRİ

Azərbaycan Prezidenti İlham Əliyev mayın 12-də Krakovdan Gürcüstana gəlmişdir. Həmin gün Tbilisinin tarixi məhəllələrindən biri olan Abanostubanidə, Heydər Əliyev parkında ulu öndərin büstünün təntənəli açılış mərasimi olmuşdur.

Azərbaycan Prezidenti İlham Əliyev və Gürcüstan Prezidenti Mixail Saakaşvili mərasimdə iştirak etmişlər.

2004-cü ildə Prezident İlham Əliyevin Gürcüstana səfəri zamanı bu parka ulu öndərin adı verilmişdir. Azərbaycanın xalq rəssamı, heykəltəraş Natiq Əliyev tərəfindən qranitdən hazırlanmış büstün və postamentin hündürlüyü dörd metrdir.

Parka toplaşan minlərlə tbilisili - gürcülər və azərbaycanlılar dövlət başçılarını hərarətli alqışlarla qarşıladılar.

Azərbaycan Prezidenti İlham Əliyev və Gürcüstan Prezidenti Mixail Saakaşvili büstün üzərindən ağ örtüyü götürdülər.

Dövlət başçıları mərasimdə nitq söylədilər.

GÜRCÜSTAN PREZİDENTİ MİXAİL SAAKAŞVİLİNİN NİTQİ

-Böyük dostumuz, sədaqətli müttəfiqimiz, qardaşım İlham Əliyevi Gürcüstanın tarixi ürəyinin mərkəzində – Tbilisidə Heydər Əliyevin abidəsinin açılışında salamlamaq istəyirəm.

Düşünürəm ki, bugünkü gün tarixi qardaşlığımızın, dostluğumuzun çox parlaq təsdiqi-

dir. Hərçənd ki, bizim çoxəsrlik dostluğumuzun sübuta ehtiyacı yoxdur. Azərbaycan, azərbaycanlılar Gürcüstanın həmişə sadiq dostları olmuşlar. Gürcüstanda yaşayan etnik azərbaycanlılar ölkəmizin vətəndaşlarıdır, öz mədəniyyətini, öz dilini, özgünlüyünü saxlayan və inkişaf etdirən bu insanlar, eyni zamanda, Vətənimizin, ölkəmizin, onun gələcəyinin ayrılmaz tərkib hissəsidirlər. Eləcə də Azərbaycan Gürcüstanın gələcək tərəqqisinin ayrılmaz tərkib hissəsidir.

Mən əvvəllər də demişəm: keçən il bizə verilən qaz və elektrik enerjisi eyni vaxtda hansısa, yumşaq desək, qəribə səbəblərə görə kəsiləndə, qışın bu ən soyuq çağında Azərbaycanın bizə qaz verməsini, öz istisini bizimlə bölüşməsini heç vaxt unutmayacağıq. Bu, heç də, sadəcə olaraq, ürəyin hərarətini bölüşmək deyildi. Azərbaycan öz evlərinin istisini, öz xəstəxanalarının istisini, öz ocaqlarının istisini, öz uşaq bağçalarının, öz məktəblərinin istisini bizimlə bölüşdü. Elə bu il də, Gürcüstanın qaz ala bilmədiyi vaxtda, bizim üçün qiymətləri keçən ildəkinə nisbətən dörd dəfə qaldırdıqları vaxtda da Azərbaycan yenə öz qazının bir hissəsini Gürcüstanla bölüşdü. Düşünürəm ki, belə hallar istənilən xalqın yaddaşında qalır.

Bəzən sual verirlər: Heydər Əliyev bu regionun tarixində hansı rolu oynamışdır? Düşünürəm ki, çox-çox mühüm rol oynamışdır. Çünki 1990-cı illərin əvvəllərində o, deyəndə ki, Azərbaycan dünya bazarlarına Gürcüstan vasitəsilə çıxmalıdır, bu təklifin kommersiya baxımından üstünlüyü çox da aşkar deyildi, sırf siyasi mənada isə bu, çox riskli idi. Lakin o, bu işi axıra çatdırdı. Bu alternativ olmasaydı, indi regionumuzun Avropaya verdiyi ümidlər də olmazdı - dünən biz, bir neçə Avropa ölkəsinin prezidentləri ilə enerji ehtiyatlarının ixracı üçün paralel yollar, imkanlar yaradılması haqqında razılığa gəldik.

Real olaraq, regionumuzun geosiyasəti məhz Heydər Əliyevin qərarından sonra dəyişdi. Eyni zamanda, o, müasir Azərbaycan dövlətinin banisi, müasir Azərbaycan millətinin atasıdır. Sıx birləşmiş Azərbaycan, dost Azərbaycan, uğurlu Azərbaycan isə Gürcüstanın özünün daxilində inteqrasiya və müvəffəqiyyətin, bizim ümumi gələcəyimizin rəhnidir. Bu gün strateji tərəfdaşlar olmaq həmişəlik strateji tərəfdaşlar olmaq deməkdir. Strateji tərəfdaşlıq məhz uzun müddət və həmişəlik tərəfdaşlıq deməkdir. Biz isə öz coğrafi mövqeyimizi nəzərə alaraq, belə olmağa borcluyuq. Biz birlikdə olmalıyıq, yeni dostlar tapmalıyıq. Lakin başlıcası odur ki, başa düşmüşük, bir dünyaya baxın: nə qədər parçalanma, nə qədər münaqişələr, nə qədər çəkişmələr, nə qədər həll edilməmiş problemlər var. Bizim xalqlarımız isə müdriklik göstərirlər. Mən hələ rəhbərləri demirəm, xalqlarımız bütün bu baş verənlərə qarışmamaq üçün müdriklik göstərirlər.

Gürcüstan-Azərbaycan münasibətlərinə düşmən olan kəs Azərbaycanın düşmənidir, Gürcüstanın düşmənidir. Çünki bizim gücümüz birlikdədir. Gürcüstan azərbaycanlıları Gürcüstan cəmiyyətinə inteqrasiya olurlar. Onlar gürcü dilini öyrənir, bu dildə danışırlar. Kim birliyin əleyhinədirsə, hamımızın əleyhinədir. Bax, burada, arxa tərəfdə Azərbaycan məktəbi var, orada azərbaycanlı uşaqlar təhsil alırlar. Onların simasında Gürcüstanın gələcək vətənpərvərləri yetişir.

Mən İlham Əliyevi bir daha salamlamaq istəyirəm. Bu, həqiqətən, hadisələrin sınağından çıxmış dostluq və qardaşlıqdır. Çox müxtəlif vədlər, çox müxtəlif təkliflər olub, aramızı vurmağa və bizi bir-birimizdən ayırmağa çalışmışlar. Amma bütün bunlar baş

tutmadı və baş tutmayacaqdır. Çünki biz birlikdə partikulyar, şəxsi kateqoriyalarla deyil, - hərçənd, bizim çox güclü şəxsi münasibətlərimiz var, – ilk növbədə, dövlət kateqoriyaları ilə düşünürük. Biz Gürcüstanı, Azərbaycanı bu gün, 2007-ci ildə görürük, biz Gürcüstanı, Azərbaycanı 2017-ci ildə görürük.

Əminəm ki, yaxın illərdə də, yaxın onilliklərdə də bu iki qardaş özünün daha yaxşı gələcəyini tapacaq və özlərinin birliyi ilə, müdrikliyi ilə, uğurları ilə, nümunələri ilə dünya işlərində daha mühüm rol oynayacaqdır.

Azərbaycan Prezidentinə bir daha dərin təşəkkürümüzü bildiririk.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN NİTQİ

- Əziz qardaşım Mixail, belə səmimi sözlərə görə çox sağ ol!

Bu gün mən böyük iftixar hissi keçirirəm ki, 15 il əvvəl müstəqillik qazanmış xalqlarımız və ölkələrimiz arasında çoxəsrlik münasibətlərin tarixində bizi daha da yaxınlaşdıran bir hadisə baş verir.

Bu gün gözəl bir yerdə, Tbilisinin mərkəzində biz Azərbaycanın ümummilli lideri Heydər Əliyevin büstünü açdıq. Mən, ilk növbədə, büstün qoyulması barədə qərar qəbul etdiyinə görə, bunun üçün Tbilisinin ən gözəl, yaraşıqlı, tarixi yerlərindən biri seçildiyinə görə qardaşım Mixailə təşəkkürümü bildirmək istəyirəm. Eyni zamanda, ulu öndərimizin xatirəsinə göstərilən ehtirama görə bütün gürcü xalqına təşəkkürümü bildirmək istəyirəm.

Bugünkü mərasim bizim birliyimizin rəmzidir, qardaşlığımızın rəmzidir. Onun rəmzidir ki, əvvəlki kimi, xalqlarımız bundan sonra hələ çox onilliklər və əsrlər bir yerdə olacaq, yaxın olacaq, bir-birinə kömək edəcək, indi olduğu kimi, bir-birinin uğurlarına sevinəcəklər.

Xatirimdədir, bu ilin fevralında burada, yaxınlıqda biz indiki kimi, ikimiz Heydər Əliyev adına sahil küçəsini açdıq. Bu gözəl çaym sahilində Heydər Əliyevin xatirəsinin əbədiləşdirilməsi barədə gürcü xalqının və şəxsən Prezidentin qəbul etdiyi bu qərar da çox mühüm idi.

Bu gün biz büstün açılışını qeyd edirik. Bir daha demək istəyirəm ki, bu, bizi çox ruhlandırır. Daha möhkəm əminlik yaradır ki, bizim dostluğumuz və qardaşlığımız çox onilliklər və əsrlər davam edəcəkdir.

Heydər Əliyev Azərbaycan xalqının tarixində, Azərbaycan dövlətçiliyinin tarixində çox böyük rol oynamışdır. Bizim tariximizdə, Gürcüstan ilə Azərbaycanın ümumi tarixində bir dövr də olmuşdur ki, biz Rusiya imperiyasının süqutu nəticəsində müstəqillik əldə etmişdik. Lakin, təəssüf ki, o, çox çəkmədi, təxminən 2 il oldu. Sonra biz müstəqilliyi itirdik. 1990-cı illərin əvvəllərində, artıq Sovet İttifaqının süqutu nəticəsində xalqlarımız yenidən müstəqil olmaq, öz taleyini müəyyən etmək, bütün məsələlərini özləri həll etmək və gələcək üçün planlar qurmaq kimi böyük xoşbəxtliyə qovuşdular. Ancaq bu müstəqillik də təhlükə qarşısında idi. Azərbaycanda da müstəqillik əldə edildikdən sonra iki il ərzində mənfi, qeyri-müəyyən istiqamətdə proseslər baş verirdi. Ümumi xaos, iqtisadi böhran, siyasi və hərbi böhran, vətəndaş müharibəsi, bir sözlə, Gürcüstanın da

bütün başına gələnlər. Əgər o zaman Azərbaycan xalqı müdriklik göstərib ölkənin idarə olunmasına Heydər Əliyevi dəvət etməsəydi, hələ məlumi deyil ki, hər şey nə ilə bitəcəkdi və biz müstəqilliyimizi və dövlətçiliyimizi qoruya biləcəkdikmi? O, nəinki müstəqilliyimizi qorudu, həm də Azərbaycana rəhbərlik etdiyi 10 il ərzində ölkəmizin gələcək uğurlu inkişafının təməlini və ciddi bazasını yaratdı. Bu gün bizim nəyimiz varsa, nəyə malikiksə, milli nailiyyətimiz kimi nə ilə fəxr ediriksə, məhz onun müdrikliyi, qətiyyəti, cəsarəti və qəbul olunan qərarların doğruluğuna əminliyi sayəsində əldə olunmuşdur. Bu gün Azərbaycan öz gücünə güvənən ölkədir, dövlət müstəqilliyi artıq sarsılmaz və əbədi olan ölkədir. Buna görə də Heydər Əliyev hər bir azərbaycanlının, xalqımızın hər bir vətənpərvərinin xatirəsində daim yaşayacaqdır.

Biz eyni münasibəti qardaş gürcü xalqından da gördük. İndi bu büstün açılışı bunun daha bir təsdiqidir. Heydər Əliyev Gürcüstanı çox sevirdi, gürcü xalqını çox sevirdi, gürcü xalqına həmişə böyük səmimiyyətlə, böyük hörmətlə yanaşırdı. O, 70-ci illərdə, 80-ci illərdə və artıq müstəqil Azərbaycanın Prezidenti kimi Gürcüstanda dəfələrlə olmuşdur. Ailədə söhbətlərində gürcü xalqından, gürcü mədəniyyətindən, gürcü xalqının tarixindən həmişə böyük məhəbbətlə danışırdı. Görünür, müəyyən dərəcədə, bəlkə də, hətta xeyli dərəcədə bu da böyük rol oynamışdır ki, bir çox əsrlər boyu aralarında heç vaxt müharibələr olmayan və həmişə sülh şəraitində yaşayan, – yeri gəlmişkən, bu, qonşular üçün heç də həmişə səciyyəvi hal deyildir, – xalqlarımız müstəqilliyə qovuşduqları dövrdə də keçmiş əlaqələri itirmədi, bir-birinə qarşı durmadılar. Əksinə, öz milli mənafelərinin müdafiəsi uğrunda da, indi təkcə bizim üçün, təkcə region üçün deyil, həm də, geniş mənada, qitə üçün mühüm rol oynayan layihələrin irəliədilməsi uğrunda da vahid orqanizm kimi, güclü regional qüvvə kimi çıxış etdilər.

Mixailin qeyd etdiyi kimi, dünən Polşa sammitində biz əsası məhz 1994-cü ildə qoyulan energetika sahəsində tərəfdaşlığımızın yeni mərhələsi haqqında müəyyən razılaşmalara nail olduq. O vaxt bu olmasaydı, indi nəinki qonşularımızın Gürcüstanın enerji müstəqilliyini təmin edə bilərdik, hətta özümüzü də təmin edə bilməzdik. Regionda nələr olacağını, Azərbaycanın başına nələr gələcəyini, onun bugünkü vəziyyətinin necə olacağını təsəvvür etmək çətin deyildir. Ona görə də bu məsələdə biz gürcüləri və azərbaycanlıları həmişə birləşdirmiş olan tarixi yaddaşa və bugünkü nailiyyətlərimizə arxalanmalıyıq. Gələcək fəaliyyətimizdə də biz bu nailiyyətlərə, bu uğurlara, bu qardaşlığa, bu qarşılıqlı dəstəyə əsaslanmalıyıq.

İndi, Gürcüstanın öz yüksəliş, hətta deyərdim, çiçəklənmə dövrünü yaşadığı, çox böyük dəyişikliklərin, siyasi və iqtisadi islahatların uğurla həyata keçirildiyi bir vaxtda, – insanlar da bunu görürlər, - biz daha da güclənirik. Siz nə qədər çox möhkəmlənsəniz, biz də bir o qədər çox möhkəmlənəcəyik. Ümumi tariximiz, qardaşlıq əlaqələrimizin keçmişi, bugünkü vəziyyəti və milli mənafelərimiz tələb edir ki, biz birlikdə olaq. Biz birlikdə böyük qüvvəyik. Buraya prezidentlər, onlar sözdə deyil, həqiqətən qardaşdırlar, arasındakı şəxsi münasibətləri də əlavə etsək, inkişafımızın çox nikbin, çox ümidverici mənzərəsi yaranar.

Əminəm ki, biz qarşımızda duran bütün məsələləri həll edəcəyik. Biz separatizmə son qoyacaq, etnik təmizləmələrdən əziyyət çəkmiş insanları öz ocaqlarına qaytaracaq, bütün ərazimiz üzərində milli suverenliyi bərpa edəcəyik. Bunun üçün biz güclü və birlik-

də olmalıyıq. Biz bunu edirik. Biz möhkəmlənirik və bir-birimizə daha da yaxınlaşırıq.

Bugünkü gün Azərbaycan xalqının yaddaşında uzun müddət, yəqin ki, həmişəlik qalacaqdır. Bu, bizim birliyimizin günüdür, Azərbaycana olduğu kimi, qardaş Gürcüstana da sədaqətlə xidmət etmiş böyük azərbaycanlının xatirə günüdür. Gələcək inkişafımızı müəyyənləşdirdiyimiz, regionun geosiyasi inkişaf strategiyasını müəyyənləşdirdiyimiz, Gürcüstan və Azərbaycanın Avropa və dünya işləri üçün əhəmiyyətinin artdığı gündür. Sərhədlərimizin hüdudları və ya həmvətənlərimizin sayı haqqında statistika məlumatını götürsək, biz ərazicə və əhalinin sayına görə kiçik ölkələrik, ancaq daha mühüm rol oynayırıq.

Bu proses gedir və davam edəcəkdir. Mən bu gözəl gündə bu qərara görə dostum və qardaşım Mixailə bir daha təşəkkür etmək, qardaşlığa, dəstəyə görə bütün gürcü xalqına təşəkkür etmək istəyirəm. Biz sizin dəstəyinizi həmişə hiss edirik. Bu gün Mixailin dediyi kimi, ağır vaxtda Azərbaycan sizin yanınızda olmuşdur, bunda qeyri-adi bir şey yoxdur, bu, normadır, belə də olmalıdır. Əgər biz dostuqsa, – biz isə dostuq, – həmişə bir olmalıyıq. Bir-birimizin uğurlarına sevinməliyik və dar gündə arxa-dayaq olmaq, kömək etmək və birlikdə irəliləmək üçün, hətta çağırılmasaq da, birinci gəlməliyik. Ölkələrimizin gələcəyi ancaq bu birlikdə mümkündür. Bu, mənim də, Mixailin də dərin inamıdır. Güclü dövlət, güclü alyans quruculuğu yolunda Gürcüstan və Azərbaycanın bütün vətəndaşlarına uğur arzulayıram, gələcəkdə inamla irəliləməyi arzulayıram. Bizim hələ çox-çox planlarımız var və biz onları birgə səylərlə həyata keçirəcəyik. Bir daha çox sağ olun.

SƏFƏR BAŞA ÇATMIŞDIR

Mayın 12-də Azərbaycan Prezidenti İlham Əliyevin Gürcüstana səfəri başa çatmışdır.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV BOLQARISTANIN ƏDLİYYƏ NAZİRİ GEORGİ PETKANOVUN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİNİ QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 15-də Prezident sarayında Bolqarıstanın ədliyyə naziri Georgi Petkanovun başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.

Azərbaycan-Bolqarıstan ikitərəfli münasibətlərinin dinamik surətdə inkişafından məmnun olduğunu qeyd edən dövlətimizin başçısı ölkələrimizin beynəlxalq təşkilatlar çərçivəsində də uğurla əməkdaşlıq etdiyini bildirdi. Azərbaycan Prezidenti hər iki ölkə başçılarının qarşılıqlı səfərlərinin əlaqələrimizin daha da möhkəmlənməsində xüsusi əhəmiyyətini vurğuladı. Dövlətimizin başçısı Bolqarıstanın ədliyyə nazirinin Bakıya səfərinin ölkələrimiz arasında münasibətlərin bundan sonra da inkişafına öz töhfəsini verəcəyinə əminliyini söylədi.

Bolqarıstanın Azərbaycanla müxtəlif sahələrdə əməkdaşlığa böyük maraq göstərdiyini qeyd edən Georgi Petkanov ümidvar olduğunu bildirdi ki, ölkələrimizin ədliyyə nazirlikləri arasında əlaqələrin genişlənməsi ikitərəfli münasibətlərimizin inkişafında da mühüm rol oynayacaqdır.

İSLAMABADDA İSLAM KONFRANSI TƏŞKİLATI XARİCİ İŞLƏR NAZİRLƏRİ ŞURASININ 34-CÜ SESSİYASI KEÇİRİLİR

Mayın 15-də Pakistanın paytaxtı İslamabadda İslam Konfransı Təşkilatı (İKT) Xarici İşlər Nazirləri Şurasının "Sülh sessiyası: tərəqqi və harmoniya" başlığı altında növbəti - 34-cü sessiyası işə başlamışdır.

Sessiyanın açılışında çıxış edən Azərbaycanın xarici işlər naziri Elmar Məmmədyarov Azərbaycanın şuraya sədrliyi dövründə görülmüş işlər haqqında məlumat vermişdir.

İKT Xarici İşlər Nazirləri Şurasına sədrlik Azərbaycandan Pakistana keçmişdir.

Xarici İşlər Nazirliyinin mətbuat mərkəzindən verilən məlumata görə, nazir Elmar Məmmədyarov Türkiyə, Misir, Pakistan, İran və Qazaxıstan nümayəndə heyətlərinin başçıları ilə görüşmüş, ikitərəfli münasibətləri, İKT çərçivəsində islahatları və qurumun yeni əsasnamə layihəsini müzakirə etmişdir.

Azərbaycan tərəfi sessiyada bir sıra təşəbbüslərlə çıxış etmişdir. Nazir E.Məmmədyarov qurumun Müsəlman Ölkələri Təşkilatı (Organization of Muslim Countries) kimi adlandırılmasını təklif etmişdir.

Sessiyada müsəlman ölkələrini narahat edən problemlər, o cümlədən Fələstin məsələsi, ərəb-İsrail münaqişəsi, İraq, Somali və Əfqanıstandakı vəziyyət, üzv ölkələr arasında iqtisadi, elm və təhsil, informasiya texnologiyaları, səhiyyə, mədəni və humanitar sahələrdə əməkdaşlığın genişləndirilməsi məsələləri müzakirə olunur.

PAKİSTAN PREZİDENTİ AZƏRBAYCANIN XARİCİ İŞLƏR NAZİRİNİ QƏBUL ETMİŞDİR

Mayın 15-də Prezident Sarayında Pakistanın Prezidenti Pərviz Müşərrəf Azərbaycanın Xarici İşlər Naziri Elmar Məmmədyarovu ayrılıqda qəbul etmişdir.

Nazir Elmar Məmmədyarov Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin səmimi salamlarını və Pakistan xalqı üçün sülh, əmin-amanlıq arzularını Prezident Pərviz Müşərrəfə yetirmiş, ölkəmizin başçısının qardaş Pakistanla əlaqələrə xüsusi əhəmiyyət verdiyini vurğulamışdır.

İKT üzv olan ölkələrdəki problemlər, münaqişələrin həlli yolları, Ermənistanın Azərbaycana təcavüzü və Dağlıq Qarabağ münaqişəsi ilə əlaqədar olaraq fikir mübadiləsi aparmışdır.

Nazir Elmar Məmmədyarov Sessiyada Prezident Pərviz Müşərrəfin nitqində müsəlman ölkələrinin inkişaf problemləri ilə əlaqədar tənqidi fikirlərinin çox əhəmiyyətli olduğunu qeyd etmiş, Pakistanın, eləcə də digər İKT ölkələrinin üzləşdiyi problemlərin birgə səylərlə həllinin vacibliyini bildirmişdir.

Nazir Elmar Məmmədyarov Pakistan Prezidenti Pərviz Müşərrəfin artıq dünyada çox populyar olan, ABŞ-da, Böyük Britaniyada və bir sıra digər ölkələrdə ən çox satılan kitablar sırasına düşən "Atəş Xəttində" kitabının Bakıda "Təhsil" nəşriyyatında Azərbaycan dilinə tərcümə edilərək çap edildiyini Prezidentə bildirmiş və kitabın nüsxələrini Prezident Pərviz Müşərrəfə təqdim etmişdir. Kitabın Azərbaycanda kitabxanalara, təd-

ris və elmi müəssisələrə, aid olan dövlət və özəl qurumlara göndəriləcəyini eyni zamanda yüksək səviyyədə təqdim ediləcəyini bildirən Nazir bu kitabın nəşrinin də Azərbaycanda Pakistana, onun prezidenti General Pərviz Müşərrəfin şəxsiyyətinə olan maraq və rəğbətin təzahürü olduğunu ifadə etmişdir.

Prezident Pərviz Müşərrəf xüsusi ehtiramını, dostluq və qardaşlıq duyğularını Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə yetirməyi xahiş etmiş, kitabın nəşri üçün təşəbbüs göstərən Azərbaycan Səfirliyinə, Təhsil nəşriyyatına dərin təşəkkürünü bildirmişdir.

AZƏRBAYCANIN XARİCİ İŞLƏR NAZİRİ İSLAMABADDA BİR NEÇƏ İKİTƏRƏFLİ GÖRÜŞLƏR KEÇİRMİŞDİR

İslam Konfransı Təşkilatı (İKT) Xarici İşlər Nazirləri Şurasının İslamabadda keçirilən 34-cü sessiyasında iştirak edən Azərbaycanın xarici işlər naziri Elmar Məmmədyarov mayın 16-da bir sıra ikitərəfli görüşlər keçirmişdir.

E.Məmmədyarovun Niger, Tunis, İran, Xorvatiya, Pakistandan olan həmkarları, habelə Kuba xarici işlər nazirinin 1-ci müavini ilə görüşlərində ikitərəfli əlaqələr, habelə beynəlxalq və regional səviyyədə əməkdaşlıq məsələləri müzakirə edilmişdir.

Bundan əlavə, nazir Elmar Məmmədyarova İslam Konfransı Təşkilatının (İKT) Dialoq və Əməkdaşlıq Uğrunda Gənclər Forumunun illik xüsusi mükafatı təqdim edilmişdir. Nazir bu mükafata İKT çərçivəsində gənclərin rolunun yüksəldilməsi, habelə İKT-nin nüfuzunun artırılması istiqamətindəki fəaliyyətinə görə layiq görülmüşdür.

İSLAMABADDA İSLAM KONFRANSI TƏŞKİLATI XARİCİ İŞLƏR NAZİRLƏRİNİN 34-CÜ SESSİYASI İŞİNİ YEKUNLAŞDIRMIŞDIR

Pakistanın paytaxtı İslamabadda İslam Konfransı Təşkilatı (İKT) Xarici İşlər Nazirlərinin 34-cü sessiyası mayın 17-də öz işinə yekun vurmuşdur.

Sülh və harmoniya mövzusuna həsr olunmuş toplantının sonunda Azərbaycanla bağlı üç qətnamə layihəsi qəbul edilmişdir. Bunlar Ermənistanın Azərbaycana təcavüzünü, işğal olunmuş torpaqlarımızda tarixi, mədəni abidələrin dağıdılmasını pisləyən və iqtisadi sahəni əhatə edən qətnamələrdir. İlk dəfə olaraq beynəlxalq təşkilatın qəbul etdiyi qətnamədə 1992-ci ildə erməni silahlı qüvvələri tərəfindən törədilmiş Xocalı faciəsinə siyasi qiymət verilmiş və dinc azərbaycanlı əhalisinin qətlə yetirilməsi kütləvi qırğın, soyqırımı kimi qiymətləndirilmişdir.

Görüşün yekununda qəbul olunmuş İslamabad Bəyannaməsində də Ermənistanın Azərbaycan torpaqlarını işğal etməsini pisləyən müddəa öz əksini tapmışdır. Sənəddə Ermənistandan işğal etdiyi Azərbaycan torpaqlarını qeyd-şərtsiz azad etməsi tələb olunur.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV "HESS KORPORASİYASI"NIN İDARƏ HEYƏTİNİN SƏDRİ VƏ BAŞ İCRAÇI RƏHBƏRİ CON HESSİN RƏHBƏRLİK ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİNİ QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 16-da Prezident sarayında "Hess Korporasiyası"nın idarə heyətinin sədri və baş icraçı rəhbəri Con Hessin rəhbərlik etdiyi nümayəndə heyətini qəbul etmişdir.

Con Hess rəhbərlik etdiyi korporasiyanın Azərbaycanda fəaliyyət göstərməsindən və ölkəmizin tərəfdaşı olmasından böyük məmnunluğunu ifadə etdi. Qonaq "Hess Korporasiyası"nın ölkəmizdə görəcəyi gələcək işlər barədə dövlətimizin başçısına məlumat verdi.

Prezident İlham Əliyev Azərbaycanda xarici şirkətlərin fəaliyyəti üçün olduqca əlverişli şəraitin yaradıldığını vurğuladı, ölkəmizin təşəbbüsü və iştirakı ilə həyata keçirilən qlobal enerji və nəqliyyat layihələrinin dünyanın enerji təhlükəsizliyi sistemində mühüm rol oynadığını bildirdi.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV NATO PARLAMENT ASSAMBLEYASI SƏDRİNİN MÜAVİNİ, RUMINIYA PARLAMENTİNİN NATO PA-DAKI NÜMAYƏNDƏ HEYƏTİNİN RƏHBƏRİ MİHAİL LUPOİNİN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİNİ QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 17-də Prezident sarayında NATO Parlament Assambleyası sədrinin müavini, Rumıniya parlamentinin NATO PA-dakı nümayəndə heyətinin rəhbəri Mihail Lupoinin başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.

Mihail Lupoi bildirdi ki, bir neçə gün öncə Rumıniya hökuməti Heydər Əliyev Fondunun Cənub-Şərqi Avropa üzrə nümayəndəliyinin rəsmi qeydiyyata alınmasının bəyənilməsi haqqında yekdilliklə qərar qəbul etmişdir.

Prezident İlham Əliyev Rumıniya hökumətinin belə bir qərar qəbul etməsini yüksək qiymətləndirdi.

Görüşdə Azərbaycan ilə Rumıniya arasında ikitərəfli münasibətlər, o cümlədən parlamentlərarası əlaqələr, habelə ölkəmizin NATO Parlament Assambleyası ilə əməkdaşlığı məsələləri ətrafında fikir mübadiləsi aparıldı.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN FRANSANIN "LA LETTRE DİPLOMATİQUE" JURNALINA MÜSAHİBƏSİ

Bu yaxınlarda Fransanın nüfuzlu "La Lettre Diplomatique" jurnalı Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev ilə geniş müsahibə dərc etmişdir.

-Cənab Prezident, bu il yanvarın 29-31-də Fransaya ilk dövlət səfəriniz baş tutdu. Səfərin gedişi ilə bağlı təəssüratlarınızı bölüşə və əldə olunmuş nəticələr barədə məlumat

verə bilərsinizmi? Sizin fikrinizcə, ATƏT-in Minsk qrupunun həmsədri kimi Fransa Dağlıq Qarabağla bağlı ölkənizlə Ermənistan arasında münaqişənin həllində vasitəçilik səylərini gücləndirmək iqtidarındadırmı?

-Qeyd edim ki, Prezident seçildikdən sonra mənim xaricə ilk rəsmi səfərim 2004-cü ilin yanvarında məhz Fransaya olmuşdur. Təsadüfi deyil ki, ümummilli lider Heydər Əliyev də dövlət başçısı kimi ilk rəsmi səfərini məhz Fransaya etmişdi. Bu, ölkəmizin Fransa ilə əlaqələrə verdiyi önəmin yaxşı göstəricisidir. Azərbaycan-Fransa ikitərəfli münasibətləri müxtəlif sahələrdə, o cümlədən siyasi, iqtisadi, mədəni və digər sahələrdə uğurla inkişaf etməkdədir. Ölkələrimiz arasında fəal siyasi dialoq mövcuddur. Müxtəlif səviyyələrdə qarşılıqlı səfərlər həyata keçirilir. Fransanın aparıcı şirkətləri uzun illərdir ki, ölkəmizin energetika sahəsində, habelə qeyri-neft sektorunda uğurla fəaliyyət göstərir.

Bu ilin yanvar ayında Fransaya dövlət səfərim də çox uğurlu keçdi. Səfər zamanı keçirdiyim görüşlər ölkələrimiz arasında bütün sahələrdə əməkdaşlığın daha da dərinləşdirilməsi baxımından olduqca əhəmiyyətli olmuşdur. Səfərin nəticəsi olaraq Birgə bəyannamə qəbul edilmiş, iki ölkə arasında iqtisadiyyat, humanitar, turizm, sosial sahələri əhatə edən doqquz sənəd imzalanmışdır. Fransa şirkətləri bir daha Azərbaycan iqtisadiyyatının inkişafına sərmayə qoyuluşunda çox maraqlı olduqlarını bildirdilər. Səfərin yekunlarında öz əksini tapan məqamlardan biri də Fransada Azərbaycan İlinin və Azərbaycanda Fransa İlinin keçirilməsinin qərara alınması olmuşdur.

Sualınızın ikinci hissəsinə gəlincə, bildirməliyəm ki, ATƏT-in Minsk Qrupunun həmsədrlərindən biri kimi Fransa Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli ilə bağlı danışıqlar prosesinə birbaşa cəlb olunmuşdur və bu prosesdə fəal iştirak edir. Fransa münaqişə ilə bağlı mövqeyini dəfələrlə ifadə etmişdir. Bu mövqe indiki dövlət səfərim zamanı qəbul edilmiş Birgə bəyannamədə də əks olunmuşdur. Orada deyilir ki, Fransa Azərbaycanın müstəqilliyini, suverenliyini və ərazi bütövlüyünü dəstəkləyir. Eyni zamanda keçirdiyim görüşlərdə də Fransa rəhbərliyi dəfələrlə qeyd etmişdir ki, Fransa Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin tez bir zamanda həllində çox maraqlıdır. Başda Prezident cənab Jak Şirak olmaqla, bütün səviyyələrdə Fransa rəsmiləri qeyd etdilər ki, Fransa bu münaqişənin həlli üçün bütün səylərini əsirgəməyəcəkdir.

-Avropa İttifaqı və Azərbaycan arasında təzəlikcə qəbul olunmuş fəaliyyət planı çərçivəsində ölkənizin və onun strukturlarının, xüsusən də iqtisadi inteqrasiya baxımından, Avropaya yaxınlaşmada hansı uğurlara nail olunmuşdur? Milli qanunvericiliyinizin Avropa İttifaqının qanunvericiliyinə yaxınlaşdırılması istiqamətində hansı tədbirlər görülmüşdür? Dağlıq Qarabağ münaqişəsinin həllinin tapılması üçün Avropa İttifaqından hansı dəstəyi gözləyirsiniz?

-Avropa İttifaqı ilə əməkdaşlığımız uğurla inkişaf edir və hazırda yeni mərhələyə qədəm qoymuşdur. Ölkəmizlə Avropa İttifaqı arasında "Yaxın qonşuluq siyasətinə dair fəaliyyət planı" çərçivəsində beşillik tədbirlər planı var. Bu sənəd əməkdaşlığımızın gələcəkdə bir neçə istiqamətlərdə daha geniş şəkildə həyata keçirilməsi üçün möhkəm əsas yaradır. Bu proseslər Azərbaycanın gələcək inkişafında mühüm rol oynayacaqdır. Qarşıdakı beş il ərzində yeni qonşuluq siyasətinin həyata keçirilməsi sayəsində meyarlarımız Avropa İttifaqının meyarlarına yaxınlaşdırılacaqdır. Bu istiqamətdə ölkəmiz tərəfindən fəal iş aparılır, o cümlədən milli qanunvericiliyin dünya və Avropa standartlarına uyğunlaşdırılması, beynəlxalq təşkilatlarla, həmçinin Avropa İttifaqı ilə sıx əməkdaşlığın hüquqi bazasının yaradılması istiqamətində konkret işlər həyata keçirilir. Biz Azərbaycanı müasir, demokratik, iqtisadi və siyasi baxımdan güclü və etibarlı tərəfdaş ölkəyə çevirmək əzmindəyik. Ümid edirəm ki, Avropa İttifaqının yeni qonşuluq siyasəti bu məqsədə nail olunması işinə öz töhfəsini verəcəkdir. Gələn beş il ərzində biz iqtisadi islahatları davam etdirəcək, regional əməkdaşlıq səviyyəsində, Azərbaycan-Avropa İttifaqı səviyyəsində əməkdaşlığımızı daha da genişləndirəcəyik. Biz siyasi islahatları davam etdirmək əzmindəyik. Azərbaycanda qanunun aliliyinin tam bərqərar olunması, demokratikləşmə prosesinin davam etdirilməsi bütün bu məqsədlərimizə çatmaqda bizə yardımçı olacaqdır.

Dağlıq Qarabağ münaqişəsinin həlli ilə bağlı suala gəldikdə, deməliyəm ki, digər beynəlxalq təşkilatlar kimi, Avropa İttifaqı da Azərbaycanın ərazi bütövlüyünü tanıyır. Avropa İttifaqının bu mövqeyi mənim keçən il Brüsselə səfərim zamanı bir daha ifadə olunmuşdur. Avropa Komissiyasının sədri Joze Manuel Barrozu bildirmişdir ki, Avropa İttifaqı Azərbaycanın ərazi bütövlüyünü, suverenliyini tam tanıyır və dəstəkləyir. Bu mövqe Avropa İttifaqı ilə "Yeni qonşuluq siyasətinə dair fəaliyyət planı"nda da öz əksini tapmışdır. Həmin sənəddə deyilir ki, Azərbaycanın müstəqilliyi, suverenliyi və ərazi bütövlüyü Avropada sülhün və sabitliyin qorunmasına öz töhfəsini verəcəkdir.

Lakin təəssüflər olsun ki, Ermənistan, bütün digər beynəlxalq təşkilatların mövqeyi kimi, Avropa İttifaqının da mövqeyinə məhəl qoymur. Ermənistan beynəlxalq hüququn bütün normaları və prinsiplərini pozur. Ermənistan öz qoşunlarının işğal edilmiş ərazilərdən qeyd-şərtsiz və dərhal çıxarılmasını tələb edən BMT Təhlükəsizlik Şurasının dörd qətnaməsinə məhəl qoymur. Ermənistanın Azərbaycana qarşı təcavüzü nəticəsində ölkəmizin ərazisinin 20 faizi işğal olunmuşdur. Ermənistan Dağlıq Qarabağ və onun ətrafında olan ərazilərdə etnik təmizləmə siyasəti həyata keçirmişdir. Bu siyasətin nəticəsində bir milyondan artıq soydaşımız qaçqın və məcburi köçkün vəziyyətinə düşmüşdür. Ermənilər Dağlıq Qarabağda heç bir beynəlxalq təşkilat tərəfindən tanınmayan, qanunsuz referendumlar keçirirlər. Belə mövqe beynəlxalq davranış, beynəlxalq hüquq normalarına tam ziddir. Avropa İttifaqı, Avropa Şurası, ATƏT-in Minsk qrupunun həmsədrləri olan ABŞ, Fransa, Rusiya, habelə Türkiyə bu yaxınlarda keçirilmiş qondarma referendumu pisləmişdir. Dağlıq Qarabağ Azərbaycanın tarixi ərazisidir. Azərbaycanın ərazi bütövlüyü BMT və bütün beynəlxalq birlik tərəfindən tanınmışdır. Buna görə də, münaqişə Azərbaycanın ərazi bütövlüyü çərçivəsində, Dağlıq Qarabağa yüksək özünüidarə və muxtariyyət statusu verilməklə həll olunmalıdır. Bir çox ölkələrdə milli azlıqlar yaşayır. Lakin milli azlıq olmaq o demək deyil ki, sənin hansısa ərazini ölkədən ayırmaq hüququn var. Təsəvvür edin ki, ermənilər dünyanın yaşadıqları bütün ölkələrində öz müqəddəratını təyin etməyə çalışsalar, nə baş verər? Neçə yeni erməni dövləti yarana bilər?! Ermənistan rəhbərliyi aydın başa düşməlidir ki, Azərbaycan ərazi bütövlüyü məsələsi ilə bağlı heç bir güzəştə getməyəcəkdir. Biz ümid edirik ki, Ermənistan rəhbərliyi tezliklə özündə güc taparaq, danışıqlarda konstruktiv mövqe tutacaq, işğalçı qüvvələri torpaqlarımızdan çıxaracaqdır. Əks təqdirdə, biz münaqişənin digər həll yolları üzərində düşünməli olacağıq. Bu gün Azərbaycan Ermənistandan çox güclüdür.

Eyni zamanda hesab edirəm ki, beynəlxalq təşkilatlar da münaqişənin həlli ilə bağlı daha fəal və qəti mövqe nümayiş etdirməlidir. Son genişlənmə prosesindən bəri Cənubi Qafqaz Avropanın qonşusuna çevrilmişdir. Zənnimcə, Avropa İttifaqı qonşuluğunda münaqişə ocaqlarının mövcudluğuna biganə qala bilməz. Belə ki, bu münaqişə ocaqları yalnız Cənubi Qafqaz regionu üçün deyil, bütünlükdə Avropa üçün, onun sabit iqtisadi inkişafı üçün təhlükə yaradır.

-Azərbaycan Gürcüstan, Ukrayna və Moldovanın daxil olduğu GUAM-ın üzvüdür. Qafqazda qonşuluq münasibətlərinin yaxşılaşdırılması üçün qurum daxilində birliyin və əməkdaşlığın genişləndirilməsini nəzərdə tutan bu təşkilatın addımlarını necə qiymətləndirirsiniz? Rusiya və Gürcüstan arasında münasibətlərin səviyyəsi necədir? Sizin fikrinizcə, bu yaxınlarda Türkmənistanda keçirilmiş prezident seçkiləri bu ölkə ilə siyasi, enerji, iqtisadi və mədəni sahədə geniş əməkdaşlığa perspektivlər açırmı?

-GUAM yarandığı dövrdən bəri bir neçə mərhələdən keçmişdir. Hazırda GUAM dəqiq fəaliyyət mexanizmi olan beynəlxalq bir təşkilata çevrilməkdədir. GUAM yaradılan zaman ölkələrimiz müstəqilliyini yenicə qazanmışdı və təbii ki, həmin illərdə mövcud olmuş problemlər ümumi xarakter daşıyırdı. Ötən 10 il ərzində təşkilata üzv olan dövlətlər müstəqilliyini möhkəmləndirmiş, demokratik təsisatların gücləndirilməsi, iqtisadi potensialın artırılması sahəsində böyük nailiyyətlər əldə etmişdir. Ölkələrimiz arasında müxtəlif sahələrdə, o cümlədən iqtisadi sahədə sıx əməkdaşlıq həyata keçirilir. Ölkələrimizin yerləşdiyi region son vaxtlar dünya işlərində getdikcə daha mühüm rol oynayır. GUAM ölkələri dünyada gedən iqtisadi, siyasi proseslərə real şəkildə inteqrasiya olunmağı arzulayır. Bu baxımdan ötən ilin may ayında Kiyevdə keçirilmiş sammitdə GUAM-ın Demokratiya və İqtisadi İnkişaf Uğrunda Təşkilata çevrilməsi məntiqi proses idi.

Bir məsələni də xüsusi vurğulamaq istərdim ki, GUAM-ın üzvü olan 4 ölkədən üçünün – Azərbaycan, Moldova və Gürcüstanın ərazi bütövlüyü təcavüzkar separatizm nəticəsində pozulmuşdur. Mühüm faktdır ki, keçən il təşkilatın üzvləri ərazilərində olan dondurulmuş münaqişələrlə bağlı vəziyyətin müzakirəsinin BMT Baş Məclisinin gündəliyinə salınmasına nail oldular. Bu, çox çətin məsələ idi və yalnız birgə səylərimiz nəticəsində mümkün oldu.

İnanıram ki, ölkələrimiz GUAM çərçivəsində əməkdaşlıqlarını dərinləşdirməklə iqtisadi, siyasi, demokratikləşmə və digər sahələrdə daha böyük uğurlar qazanacaq və xalqlarımız bu uğurlardan bəhrələnəcəkdir.

Rusiya ilə Gürcüstan arasındakı münasibətlərə gəlincə, hər ikisi bizimlə qonşu ölkələrdir və hər ikisi ilə yaxşı münasibətlərimiz var. Bu münasibətlər strateji tərəfdaşlıq münasibətləridir. Qonşu ölkələrlə münasibətlərimiz mehriban qonşuluq, qarşılıqlı hörmət prinsiplərinə əsaslanır. Azərbaycan heç bir başqa ölkənin daxili işlərinə qarışmır, digər dövlətlər arasında olan münasibətlərə müdaxilə etmir. Qeyd etməliyəm ki, ölkələr diqqətlərini öz problemləri üzərində cəmləşdirsələr, regionda, dünyada daha təhlükəsiz və sabit şərait təmin etmək olar.

Suallınızın üçüncü hissəsi ilə bağlı deyə bilərəm ki, Azərbaycan ilə Türkmənistan arasında ikitərəfli münasibətlərin daha da inkişaf etdirilməsi üçün yaxşı potensial vardır. Xalqlarımız arasında etnik, mədəni köklərin yaxınlığı əlaqələrimizin genişlənməsi üçün

möhkəm əsas yaradır. Biz Türkmənistan ilə əməkdaşlığın müxtəlif sahələrdə daha da inkişaf etdirilməsinə hazırıq. Türkmənistan rəhbərliyi də Azərbaycan ilə münasibətlərin daha da genişləndirilməsinə böyük maraq göstərir. Biz Türkmənistanın yeni seçilmiş Prezidenti ilə artıq bu sahədə konkret işlərin həyata keçirilməsi məsələlərini müzakirə etmiş və ümumi razılığa gəlmişik.

-Təhlükəsizlik sahəsində ölkənizin ABŞ-la yaxınlaşması, Xəzər dənizi də daxil olmaqla, neft və qaz kəmərlərinin qorunmasında özünü xüsusilə büruzə verir. Bu əməkdaşlığın ümumi əsaslarını və əhatə etdiyi aspektləri göstərə bilərsinizmi? Bu əməkdaşlıq daimi forma alacaqmı? Müdafiə imkanlarımızın möhkəmləndirilməsi və müasirləşdirilməsi daxil olmaqla, bu cür əməkdaşlıq başqa hansı tərəfdaşlarla inkişaf etdirilə bilər? Bu perspektivdə Rusiya Federasiyasına hansı yer ayrılmışdır?

-ABŞ ilə yaxın əməkdaşlıq, Avratlantik strukturlarına inteqrasiya Azərbaycanın strateji seçimidir. ABŞ ilə ikitərəfli əlaqələrimiz çox yüksək səviyyədədir. Ölkələrimiz müxtəlif sahələrdə, o cümlədən energetika, iqtisadiyyat, təhlükəsizlik, siyasət, cəmiyyətin demokratikləşməsi sahəsində sıx əməkdaşlıq edir. Biz ABŞ-ın Azərbaycanın enerji sektorunun inkişafında, təşəbbüskarı olduğumuz qlobal enerji layihələrinin reallaşmasında rolunu yüksək qiymətləndiririk. Antiterror əməliyyatları sahəsində də fəal əməkdaşlıq edirik. Biz Əfqanıstandakı koalisiya qüvvələrinə dərhal qoşulduq. Kosovoya əsgərlərimizi göndərdik. İraqda müharibə başlayanda biz oraya əsgərlərini göndərən ilk ölkələrdən biri olmuşuq. Bu bizim ABŞ ilə möhkəm tərəfdaşlığımızın aydın göstəricisi idi.

Ötən il ABŞ-a rəsmi səfərim, orada aparılmış danışıqlar ikitərəfli münasibətlərimizin inkişafı baxımından çox əhəmiyyətli olmuşdur.

Rusiya ilə münasibətlərə gəldikdə, deməliyəm ki, bu münasibətlər uğurla inkişaf edir və strateji tərəfdaşlıq xarakteri daşıyır. Müxtəlif sahələrdə, o cümlədən iqtisadi sahədə əməkdaşlığımız daim genişlənir. Digər qonşularla olduğu kimi, Azərbaycanın Rusiya ilə münasibətləri də mehriban qonşuluq, qarşılıqlı hörmət prinsiplərinə əsaslanır. Bir məqamı xüsusi vurğulamaq istəyirəm ki, xarici siyasətimizdə rəhbər tutduğumuz, amil təbii ki, Azərbaycanın dövlət maraqlarıdır. Bu mənada hər hansı bir ölkə ilə əməkdaşlığımız heç vaxt hansısa başqa bir ölkəyə qarşı yönəldilən əməkdaşlıq kimi qiymətləndirilə bilməz. Biz bütün ölkələrlə yaxın münasibətlər qurmağa, sıx əməkdaşlıq etməyə çalışırıq. Azərbaycan beynəlxalq münasibətlər sistemində etibarlı tərəfdaş olduğunu artıq sübut etmişdir.

-Xəzər dənizində sahilyanı dövlət və qonşunuz olan, böyük sayda azərbaycanlı yaşayan İranla münasibətlər sizin üçün vacibdir. Siz təsdiq etdiniz ki, ölkəniz İrana qarşı hərbi addımları dəstəkləməyəcək və ona münasibətdə sanksiyaların tərəfdarı deyilsiniz. İranın öz nüvə proqramını davam etmək qətiyyətində olduğu zaman, regionda hökm sürən vəziyyəti necə qiymətləndirərdiniz? Nüvə silahlanmasının davam etməsinin nüvə arsenallarının tənzimlənməsinə xidmət edən mexanizmlərin fəaliyyət qabiliyyətini şübhə altına almasından ehtiyat etmirsinizmi? Necə bilirsiniz, İran və ABŞ arasında gərginliyin azaldılması və dialoqun bərpası üçün hər hansı əhəmiyyətli yardım göstərə bilərsinizmi? Ümumi baxımdan isə milli dəniz ərazilərinin müəyyən edilməsi və Xəzərdə milli sektorların delimitasiyası ilə bağlı İranla və digər qonşu dövlətlərlə məsələ nə yerdədir?

-İranla çox yaxşı münasibətlərimiz, fəal iqtisadi əlaqələrimiz var. Qeyd etdiyiniz kimi, orada xeyli sayda azərbaycanlı yaşayır. Bizim İranla min kilometrdən artıq sərhədimiz vardır. Əlbəttə ki, bütün bu amillər nəzərə alınmaqla, biz İran ətrafında gedən prosesləri yaxından izləyirik. Orada vəziyyəti gərginləşdirəcək istənilən potensial addım, ümumilikdə, regional inkişafa böyük təsir göstərə bilər. Bu da öz növbəsində bizi narahat etməyə bilməz. Biz İranın nüvə proqramı ilə bağlı mövqeyimizi ifadə etmişik. Bu mövqe ondan ibarətdir ki, hər bir ölkə beynəlxalq hüquq normalarına uyğun olaraq, dinc məqsədlər üçün nüvə enerjisinə malik ola bilər. Hesab edirəm ki, bu istiqamətdə konstruktiv danışıqlar aparılmalı, bütün mübahisəli məsələlər dinc yolla, beynəlxalq hüquq normaları və prinsipləri əsasında həll olunmalıdır. Ümid edirik ki, məsələ ilə bağlı danışıqlar prosesində iştirak edən bütün tərəflər problemin həllinin dinc formatına sadiq qalacaqlar.

Xəzər dənizinin delimitasiyası məsələsinə gəlincə, deməliyəm ki, bu məsələdə Azərbaycan, Rusiya və Qazaxıstanın mövqeləri tam üst-üstə düşür. Bu mövqe beynəlxalq hüquq normalarına əsaslanır. Qeyd etdiyim dövlətlər arasında Xəzər dənizindən istifadə qaydalarının əsaslarını müəyyən edən sazişlər də imzalanmışdır. İran ilə müntəzəm danışıqlar aparılır və deyə bilərəm ki, mövqelərimizdə yaxınlaşma vardır. Hazırda sahilyanı dövlətlər Xəzərin hüquqi statusuna dair konvensiya layihəsi ətrafında müzakirələr aparır. İnanıram ki, ortada olan bütün məsələlər tezliklə tam həllini tapacaqdır.

-Beynəlxalq ictimaiyyət İraq münaqişəsinin inkişafını narahatlıqla izləyir. Azərbaycana və regiona bunun necə təsiri ola bilər? İraqda yaranmış vəziyyətdən çıxışı necə görürsünüz və xarici qoşunların ölkədən çıxarılmasının sabitliyin başlanmasına gətirib çıxara biləcəyinə inanırsınızmı?

-Qeyd etdiyim kimi, Azərbaycan əsgərləri hərbi əməliyyatların ilk günündən İraqda xidmət göstərməyə başlamışlar və bu xidmət indiyə kimi davam edir. Əlbəttə ki, İraqda baş verən hadisələr bütün beynəlxalq birliyi, o cümlədən beynəlxalq birliyin bir üzvü kimi bizi də narahat edir. Biz İraqda sülhün bərqərar olunmasını, zorakılığın, xalqın üzləşdiyi bu dəhşətli faciənin sona çatmasını istəyirik. Azərbaycan İraqda sülhün və təhlükəsizliyin bərpa olunması işi üçün əlindən gələni etməyə hazırdır.

-Qara dəniz və Xəzər dənizi regionunda dialoq və enerji əməkdaşlığı ilə bağlı hər hansı irəliləyiş əldə olunubmu? Əsas qonşu dövlətlərlə münasibətlərdə neft və qaz diplomatiyası sahəsində Azərbaycanın mövqeyi nədən ibarətdir? BTC-nin ən yüksək istismar səviyyəsinə çatdığı və Azərbaycan neftinin Avropa bazarlarına çıxarıldığı bir vaxtda neft və qaz kəmərlərinin tikilməsi sahəsində hansı yeni layihələriniz var? Asiyada, xüsusən də Çin və Hindistan kimi hazırkı və potensial müştərilərinizlə hansı münasibətləri inkişaf etdirmək niyyətindəsiniz?

-Demək olar ki, biz bütün enerji layihələrimizi başa çatdırmışıq. İki boru kəməri inşa edilmişdir - Bakı-Tbilisi-Ceyhan neft boru kəməri və Bakı-Tbilisi-Ərzurum qaz boru kəməri. Bakı-Tbilisi-Ceyhan boru kəməri vasitəsilə biz gündə təqribən bir milyon barrel neft ixrac edəcəyik. Bir trilyon kubmetr təbii qaz ehtiyatına malik olan nəhəng "Şahdəniz" yatağından hasil olunan qaz Bakı-Tbilisi-Ərzurum boru kəməri ilə Türkiyəyə və oradan Yunanıstan vasitəsilə Avropaya ixrac ediləcəkdir. Bundan əlavə, Azərbaycan nefti iki digər boru kəməri vasitəsilə Qara dənizə çıxarılır. Beləliklə, bizim neftimiz və

qazımızın artıq Avropa və dünya bazarlarına çıxışı var. Buna görə də yaxın perspektivdə əlavə boru kəmərlərinin inşasına ehtiyac görmürük. Lakin əgər gələcəkdə daha əlavə həcmdə neft hasil edilərsə və kommersiya baxımından zəruri hesab olunarsa, biz başqa istiqamətləri də nəzərdən keçirə bilərik. Biz bu fikirdəyik ki, alternativ marşrutlar nə qədər çox olsa, bir o qədər yaxşıdır. Buna görə də boru kəmərlərinin çoxluğu siyasəti Azərbaycan üçün və enerji ehtiyatlarımızdan, infrastrukturumuzdan gələcəkdə faydalanacaq tərəflər üçün ən yaxşı seçimdir.

Bakı-Tbilisi-Ceyhan boru kəməri bütünlükdə Xəzər dənizi və Qara dəniz regionunun ümumi inkişafı üçün böyük əhəmiyyət daşıyır. Bu gün Qara dəniz və Xəzər dənizi regionu müxtəlif sahələrdə əməkdaşlıq edir. Azərbaycanın birbaşa təşəbbüsü və iştirakı ilə tərəfdaşlarımız və qonşularımızın genişmiqyaslı iqtisadi və siyasi əməkdaşlıq layihələrinə cəlb edilməsinə imkan verən çox mühüm infrastruktur yaradılmışdır. Deməliyəm ki, Bakı-Tbilisi-Ceyhan boru kəməri, sadəcə olaraq, neftimizin xarici bazarlara nəql edilməsinə imkan verən dəhliz deyildir. Bu, regional əməkdaşlığa, sülh və sabitliyə, xalqların rifah halının yaxşılaşdırılmasına xidmət edən bir layihədir. Bu gün bizim apardığımız siyasət Xəzər dənizi regionundan kənara çıxır. Biz artıq regional əməkdaşlığın daha geniş mənada yeni elementlərini görürük.

Hazırda digər bir qlobal beynəlxalq layihə, Bakı-Tbilisi-Qars dəmir yolu layihəsi üzərində çalışırıq və bu sahədə konkret işlər görülmüşdür. Asiya ilə Avropanı Azərbaycan vasitəsilə birləşdirəcək dəmir yolu layihəsinin reallaşdırılması məqsədi ilə artıq Azərbaycan hökuməti tərəfindən böyük maliyyə vəsaiti ayrılmışdır. Biz ümid edirik ki, yaxın illərdə layihənin həyata keçirilməsi başa çatacaq və bunun nəticəsində yük və sərnişinlərin bu yol vasitəsilə qatarlarla Çindən Avropaya daşınması mümkün olacaqdır.

-Neft və qazdan əldə etdiyiniz gəlirlər 2006-cı ildə Azərbaycana təxminən 35 faiz artımla dünya iqtisadiyyatında ən yüksək göstəriciyə nail olmağa imkan verdi. Neftdən alınan gəlirlərdən necə istifadə etməyi planlaşdırırsınız? Neft Fondu ilə infrastrukturun və sosial vəziyyətin yaxşılaşdırılmasına yönəldilmiş sərmayələr arasında bölüşdürməni necə nəzərdə tutmusunuz? Azərbaycan əhalisinin bir hissəsinin yaşadığı yoxsulluğa qarşı mübarizə sahəsində tədbirlərin nəticələri barədə nə deyə bilərsiniz? İqtisadiyyatın şaxələndirilməsi üçün hansı tədbirlər görəcəksiniz və bundan nə gözləyirsiniz?

-1994-cü ildən həyata keçirilən layihələr yalnız 2005-ci ildən başlayaraq, ölkəmizə əhəmiyyətli dərəcədə neft gəlirləri gətirməyə başlamışdır. Biz qarşıdakı illərdə ölkəyə nəhəng neft gəlirlərinin axını ərəfəsindəyik. Sizin də qeyd etdiyiniz kimi, iqtisadiyyatımız böyük sürətlə artır. 2007-ci ilin dövlət büdcəsi təxminən 6,5 milyard dollar təşkil edir. Müqayisə üçün deyim ki, 2003-cü ildə bu rəqəm 1,5 milyard dollar olmuşdur. 2005-ci ildə ümumi daxili məhsul 26 faiz, 2006-cı ildə isə 34,5 faiz artmışdır. Xüsusi vurğulamaq istəyirəm ki, bu artım, sadəcə, neft sektorunun inkişafı sayəsində əldə edilməmişdir. Biz qeyri-neft sektorunun inkişafına da xüsusi önəm veririk. 2006-cı ildə qeyri-neft sektorunun ümumi daxili məhsuldakı payı 46,4 faiz təşkil etmişdir. Onu da deməliyəm ki, ümumi daxili məhsulda özəl sektorun payı 81 faizdir. Əlbəttə, biz indidən neftin hasilatı aşağı düşdükdən sonra nələrin baş verəcəyi barəsində düşünürük. Hazırda ölkəmizdə təhsil və elm sahəsinə böyük investisiyalar qoyulur. Müasir Azərbaycan naminə güclü intellektual potensialın yaradılması məqsədi ilə informasiya texnologiyaları-

na, iqtisadiyyatın qeyri-neft sektoruna investisiya qoyulması məsələsinə böyük diqqət yetiririk. Digər proqram sənayenin inkişafı ilə bağlıdır. Qeyd etdiyim kimi, qeyri-neft sektoruna investisiyaların cəlb edilməsi məsələsinə böyük önəm veririk. Xaricdən və Azərbaycandan qeyri-neft sektoruna sərmayələrin cəlb edilməsi məqsədi ilə kapitalı 100 milyon ABŞ dolları təşkil edən Dövlət İnvestisiya Şirkətini yaratmışıq.

Neft Fondunun yaradılması neft strategiyamızın mühüm elementlərindən biri olmuşdur. Biz neftdən gəlir əldə etməyə başlayan zaman dərhal Neft Fondu təsis etdik. Fondun fəaliyyəti şəffaflıq prinsipləri üzərində qurulmuşdur. Onun fəaliyyəti və gəlirləri haqqında məlumatlar müntəzəm olaraq dərc edilir. Neft Fondunun gəlirlərinin nə miqdarda və hansı sahələrə xərclənməsi barədə qərarın qəbul olunmasına parlament nəzarət edir. Fondda beynəlxalq audit həyata keçirilir və o, Dünya Bankı, Beynəlxalq Valyuta Fondu da daxil olmaqla, beynəlxalq maliyyə təşkilatları ilə yaxından əməkdaşlıq edir. Eyni zamanda, bildirmək istəyirəm ki, Azərbaycan Böyük Britaniyanın hasilat sənayesində şəffaflıq təşəbbüsünə qoşulan ilk ölkələrdən biri olmuşdur. Bu təşəbbüsə regionda tərkan verilməsi istiqamətində göstərdiyimiz fəaliyyət ABŞ və Böyük Britaniya tərəfindən yüksək qiymətləndirilmişdir.

O cümlədən, neft kimyası sənayesi prioritetlərimizdən biridir.

Böyük diqqət yetirdiyimiz sahələrdən biri də infrastrukturdur. İndi ölkənin bütün yerlərində böyük tikinti və yeni infrastrukturun yaradılması işləri gedir. Yeni yollar salınır, elektrik stansiyaları tikilir, su və qazpaylaşdırıcı sistemlər yeniləşdirilir, yeni xəstəxanalar, məktəblər və sair inşa edilir.

Əsas prioritetlərimizdən biri də kənd təsərrüfatının inkişafıdır. Azərbaycan əhalisinin əlli faizi kənd yerlərində yaşayır. Yaxşı potensialımız, torpağımız, iqlimimiz var. Fermer təsərrüfatlarının inkişafı üçün böyük miqdarda maliyyə vəsaiti ayrılır.

Azərbaycanda sosial sahənin inkişafına xüsusi diqqət ayrılır. 2007-ci il büdcəsində sosial sahə üçün ayrılmış xərclər 37,9 faiz, yəni 2,5 milyard dollar olmuşdur. Son üç il ərzində Azərbaycanda 520 min yeni iş yeri açılmışdır və bunun çoxu qeyri-neft sektorunda yaradılmışdır. Bu, əsasən, regionlarda baş vermişdir. Ölkədə əmək haqları, pensiyalar mütəmadi olaraq artırılır. Qeyd etmək istərdim ki, neft hasil edən bir ölkə olsaq da, biz çoxşaxəli iqtisadiyyatın olmasına böyük əhəmiyyət veririk. Bəzi neft hasil edən ölkələrin mənfi təcrübəsini təkrarlamaq istəmirik. Yəni, orada insanların bir qismi daha da zənginləşir, qalan hissəsi isə daha da kasıb vəziyyətə düşür. Ona görə biz neftdən gələn sərvəti insan kapitalına çevirmək istəyirik.

Yoxsulluğun azaldılması məsələsinə gəlincə, bu sahədə dövlət proqramı vardır. Bu proqram beynəlxalq maliyyə qurumları ilə birgə uğurla həyata keçirilir. Müvəffəqiyyətli iqtisadi siyasət nəticəsində ölkəmizdə yoxsulluğun səviyyəsi 2003-cü ildəki 49 faizdən 2006-cı ildə 20 faizə enmişdir. Biz gələn bir neçə il ərzində bunu daha da aşağı salacaq və ümumiyyətlə, yoxsulluğu aradan qaldıracağıq.

-Beynəlxalq maliyyə təsisatları kimi, Avropa İttifaqı da xarici sərmayələrin cəlb olunmasında sabit qaydaların və mülkiyyətə münasibətdə hörmət tələb edən açıq iqtisadiyyatın tərəfdarıdır. İşgüzar mühitin yaxşılaşdırılması proqramımız çərçivəsində korrupsiyaya qarşı mübarizə sahəsində ölkənizdə hansı tədbirlər görülüb? Özəlləşdirmə hazırda

əhatə etdiyindən əlavə, başqa sahələrə də şamil olunacaqmı? Ölkənizin Dünya Ticarət Təşkilatına üzv olması məsələsi ilə bağlı vəziyyət necədir?

-Korrupsiya bütün keçmiş sovet ölkələri üçün ciddi problemə çevrilmişdir. Bu, totalitar, qərarların inzibati qaydada qəbul edildiyi sistemdən miras qalmış bir məsələdir. Bununla yanaşı, deməliyəm ki, bu, dünyanın bir çox, hətta inkişaf etmiş ölkələrinin də üzləşdiyi problemdir. Hesab edirəm ki, bu sahədə inzibati vasitələrlə müsbət nəticələr əldə etmək mümkün deyildir. Fikrimcə, korrupsiya ilə güclü iqtisadi tədbirlər və mükəmməl qanunlar vasitəsilə mübarizə aparmaq lazımdır. Ölkəmizdə bu sahədə konkret işlər görülür. Parlament korrupsiya ilə mübarizəyə dair qanun qəbul etmişdir. Azərbaycan Respublikası Prokurorluğunun tərkibində korrupsiya ilə mübarizə üzrə xüsusi idarə yaradılmışdır. Qeyd etdiyim kimi, korrupsiya ilə mübarizədə iqtisadi vasitələr böyük önəm daşıyır. Bunun üçün insanların həyat səviyyəsini yüksəltməli, əmək haqlarını artırmalıyıq və güclü ictimai nəzarət təmin edilməlidir. Bildirdiyim kimi, bu istiqamətdə konkret tədbirlər görülür.

Siz özəlləşdirmə məsələsinə toxundunuz. Hesab edirəm ki, genişmiqyaslı özəlləşdirmə proqramının həyata keçirilməsi davam etdirilməlidir. Azərbaycan rəhbərliyi özəlləşdirmə məsələsinə böyük diqqət yetirir və bu proses çox uğurla gedir. Ölkəmizdə özəlləşdirmənin əsas fazası başa çatdırılmışdır. Dediyim kimi, hazırda Azərbaycanda ümumi daxili məhsulun 81 faizi özəl sektorun payına düşür. Özəlləşdirmənin sürətlə həyata keçirilməsi orta təbəqənin yaradılması, bürokratik aparatın ixtisar edilməsi və iqtisadiyyatın maksimum dərəcədə sərbəstləşdirilməsi sahəsində gördüyümüz işlər Azərbaycanın gələcəkdə də güclü iqtisadi inkişafı üçün möhkəm zəmin yaradır.

Dünya Ticarət Təşkilatına üzvlük məsələsinə gəlincə, demək istəyirəm ki, artıq üzvlüklə bağlı müvafiq sənədlər təşkilata təqdim edilmişdir və təşkilata daxil olmaq üçün ölkə daxilində zəruri olan bütün prosedurlar uğurla həyata keçirilməkdədir.

-Avropa İttifaqının və Avropa Şurasının əsas fəaliyyət istiqamətlərindən biri demokratiyanın, xüsusən də ədalətli və şəffaf seçki vasitələrinin gücləndirilməsidir. Sizin fikrinizcə, insan hüquqlarının müdafiəsi, fundamental azadlıqlar və hüquqi dövlət quruculuğu sahəsində hansı addımlar atılmalıdır? Azərbaycan dinə və xüsusən də İslama hansı yeri ayırır? İslam fanatizminin artmasını və Əl-Qaidə kimi radikal ekstremist qrupların beynəlxalq aləmə təhlükəsini necə qiymətləndirirsiniz?

-Biz ölkəmizdə demokratik inkişaf prosesinə böyük önəm veririk. Ümumiyyətlə, demokratikləşməyə, siyasi plüralizmə, qanunun aliliyinin təmin olunmasına gələcək inkişafımızın əsas amilləri kimi baxırıq. Ölkənin ümumi inkişafından danışdıqda, hansısa bir elementə üstün, digərinə isə az əhəmiyyət vermək olmaz. İqtisadi artım, siyasi inkişaf və demokratikləşmə prosesi paralel getməlidir. Yalnız bu halda uğur qazanmaq olar. İndi Azərbaycanda demokratik inkişaf istiqamətində böyük irəliləyişlərə nail olunmuşdur. Müasir cəmiyyət qurmaq, qanunun aliliyini və sosial ədalət prinsipini tam təmin etmək, insanlar üçün bərabər şərait yaratmaq və güclü iqtisadiyyat qurmaq qarşımızda duran əsas məqsədlərdəndir. Bu sahədə həyata keçirdiyimiz konkret işlər yaxın gələcəkdə həmin məqsədlərə nail olacağımıza əminlik yaradır.

Sualınızın ikinci hissəsi ilə bağlı deyə bilərəm ki, Azərbaycan dünyəvi ölkədir və ölkəmizin ali qanununa görə, din dövlətdən ayrıdır. Bununla yanaşı, İslam dini bizim tarixi-

mizin, keçmişimizin və hazırkı həyatımızın ayrılmaz bir hissəsidir. Biz öz dinimizə, eyni zamanda, ölkəmizdə mövcud olan bütün digər dinlərə böyük hörmətlə yanaşırıq. Bu gün fəxr hissi ilə deyə bilərik ki, Azərbaycanda yüksək dini tolerantlıq mövcuddur. Ölkəmizdə dini zəmində heç bir mübahisə yoxdur. Etnik və dini zəmində qarşıdurmaların baş verdiyi bugünkü dünyada bunu nadir vəziyyət adlandırmaq olar. Azərbaycan müxtəlif millətlərə və dinlərə mənsub olan insanların birgə yaşadığı ölkədir. Azərbaycan xalqının tarixi mentaliteti və hazırda ölkədə dini azadlığın təmin olunması sahəsində görülən işlər müxtəlif dini konfessiyaların mehribanlıq şəraitində, bir ailə kimi yaşaması üçün möhkəm əsas yaradır. Ölkəmizdə heç zaman dini fanatizm olmamışdır və olmayacaqdır. Biz hər cür fanatizmin və ekstremizmin əleyhinəyik. Hesab edirəm ki, bu sahədə Azərbaycanın müsbət təcrübəsindən istifadə oluna bilər.

Azərbaycan beynəlxalq terrorizmlə mübarizədə fəal iştirak edən ölkələrdən biridir. Lakin onu da bildirmək istəyirəm ki, terrorizmin, fanatizmin, radikal ekstremizmin İslam dini ilə bağlanması çox səhv və təhlükəli bir yanaşmadır. Azərbaycan özü uzun müddət erməni terrorçu təşkilatlarının terrorizminin qurbanı olmuşdur. Erməni terror təşkilatları tərəfindən Azərbaycanda həyata keçirilən vəhşi terror aktları nəticəsində xeyli sayda insanımız həlak olmuş və yaralanmışdır. Bir daha demək istəyirəm ki, terrorizmin və radikal ekstremizmin hər hansı bir din ilə bağlanmasına yol vermək olmaz.

-Sizin məqsədiniz iqtisadiyyatın şaxələndirilməsini gücləndirmək və tarazlı iqtisadi inkişafa nail olmaqdır. Bu perspektivdə, ölkənizdə Fransanın və onun şirkətlərinin rolunu necə dəyərləndirirsiniz? Fransada olduğunuz müddətdə enerji ilə bağlı sahələrlə yanaşı, ətraf mühit, bank, sığorta, yeyinti sənayesi, gömrük kimi sahələrdə əməkdaşlıq baxımından hər hansı irəliləyişə nail oldunuzmu? Sizin fikrinizcə, hər iki dövlətin marağında olan davamlı inkişaf və ətraf mühitin qorunması kimi sahələrdə əməkdaşlığı artırmaq olarmı?

-Azərbaycanın enerji sektorunda və qeyri-neft sektorunda Fransanın bir sıra aparıcı şirkətləri uğurla fəaliyyət göstərir. Demək olar ki, Fransaya hər səfərim zamanı bu ölkənin işgüzar dairələri ilə görüşlərim olur. Dövlət səfəri çərçivəsində də Fransanın nüfuzlu "Gaz de France", "VİNCİ", "BNP PARİBAS", "SOCIETE GENERALE" kimi şirkətlərinin, Lill şəhəri işgüzar dairələrinin nümayəndələri ilə görüşlərim olubdur. Bundan əlavə, bir sıra nüfuzlu Fransa şirkətlərinin nümayəndə heyətlərinin ölkəmizə xeyli sayda səfərləri zamanı mən onlarla görüşmüşəm. Hazırda qeyri-neft sektorunun inkişafı Azərbaycan iqtisadiyyatında prioritet məsələdir. Hesab edirəm ki, bu sahədə Fransa şirkətləri Azərbaycanda daha da fəal işləyə bilərlər.

Ətraf mühitlə bağlı məsələyə gəlincə, deyə bilərəm ki, bu sahədə bizə Sovet İttifaqından çox mənfi bir miras qalmışdır. Belə ki, o zamanlar ekologiya haqqında anlayış belə yox idi. Heç kim təbiətin vəziyyətinə fikir vermirdi. Hazırda bu sahəyə ölkəmizdə böyük diqqət yetirilir. Mənim tərəfimdən imzalanmış sərəncam əsasında ekologiya sahəsində proqram qəbul olunmuşdur. Biz bu proqram çərçivəsində gələn 5-10 il ərzində yüz milyonlarla dollar sərf edərək, Bakı ətrafında və digər yerlərdə neftlə çirklənmiş gölləri tamamilə təmizləyəcəyik. Fransa şirkətlərinin ətraf mühitin qorunması sahəsində xeyli təcrübəsi vardır. Bu mənada biz həmin istiqamətdə Fransanın şirkətləri, habelə müvafiq strukturları ilə əməkdaşlıq etməyə hazırıq.

-Azərbaycan ilə Fransa arasında mədəni və humanitar əlaqələrin perspektivləri barəsində nə deyə bilərsiniz?

-Azərbaycan ilə Fransa arasında mədəni və humanitar əlaqələr, digər sahələrdə olduğu kimi, uğurla inkişaf edir. Ölkələrimiz və xalqlarımız qədim və zəngin tarixə, mədəniyyətə malikdir. Ölkələrimizin mədəni sahədə əməkdaşlığı, sözsüz ki, xalqlarımızın bir-birinə daha da yaxınlaşması işinə xidmət edir. Qeyd etməliyəm ki, Fransaya dövlət səfərim zamanı Azərbaycanda Fransa İlinin, Fransada isə Azərbaycan İlinin keçirilməsi barədə qərarın qəbul edilməsi bu baxımdan çox önəmli hadisədir. Eyni zamanda, bu səfər zamanı elm, mədəniyyət və humanitar sahələri əhatə edən dörd sənəd imzalanmışdır. Əminəm ki, humanitar və mədəni sahələrdə əlaqələrimiz bundan sonra da genişlənəcəkdir.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV MACARISTANIN XARİCİ İŞLƏR NAZİRİ KİNQA GÖNTSİN RƏHBƏRLİK ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİNİ QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 18-də Prezident sarayında Macarıstanın xarici işlər naziri Gönts Kinqanın rəhbərlik etdiyi nümayəndə heyətini qəbul etmişdir.

Xanım Gönts Kinqa Macarıstan ilə Azərbaycan arasında əlaqələrin sürətlə inkişaf etdiyini vurğuladı. O, səfəri müddətində ölkəmizin müxtəlif strukturları ilə iqtisadiyyat, enerji, kənd təsərrüfatı və bir sıra digər sahələrdə gələcək əməkdaşlıq imkanlarını müzakirə edəcəyini söylədi. Azərbaycanın Avropa İttifaqının yaxın qonşusuna çevrildiyini vurğulayan qonaq yeni qonşuluq siyasətinin Aİ üçün böyük əhəmiyyət kəsb etdiyini bildirdi.

Prezident İlham Əliyev ölkəmizin Macarıstan ilə münasibətlərə böyük əhəmiyyət verdiyini və əlaqələrimizi müxtəlif sahələrdə daha da inkişaf etdirməkdə maraqlı olduğunu qeyd etdi. O, Azərbaycan ilə Avropa İttifaqı arasında əməkdaşlığın yeni mərhələyə qədəm qoyduğunu və ölkəmizin qurumun "yeni qonşuluq siyasəti"nə daxil olduğunu bildirdi. Azərbaycan ilə Avropa İttifaqı arasında enerji məsələləri üzrə strateji tərəfdaşlığa dair anlaşma memorandumunun da imzalandığını xatırladan Prezident İlham Əliyev bütün bunların əməkdaşlığın daha da genişləndirilməsi üçün yaxşı imkanlar yaratdığını vurğuladı.

AZƏRBAYCAN RESPUBLİKASININ İQTİSADİ İNKİŞAF NAZİRLİYİ VƏ MACARISTAN RESPUBLİKASININ İQTİSADİYYAT VƏ NƏQLİYYAT NAZİRLİYİ ARASINDA ƏMƏKDAŞLIQ HAQQINDA SAZİŞ

18 may 2007-ci il

Bundan sonra "Tərəflər" adlandırılan, Azərbaycan Respublikasının İqtisadi İnkişaf Nazirliyi və Macarıstan Respublikasının İqtisadiyyat və Nəqliyyat Nazirliyi,

- Tərəflər arasında uzunmüddətli ikitərəfli əlaqələrə əsaslanan iqtisadi əməkdaşlığı genişləndirməyi arzu edərək;

- innovasiya, tədqiqat, birgə istehsal və investisiyalar sahələrində iqtisadi, sənaye, texniki və texnoloji əməkdaşlığın yeni və qarşılıqlı faydalı formalarını inkişaf etdirmək və gücləndirmək niyyətini rəhbər tutaraq;
- ikitərəfli iqtisadi əlaqələrin vacibliyini etiraf edərək;
- öz ölkələrinin qanunvericiliyinə və beynəlxalq öhdəliklərinə müvafiq olaraq;
- aşağıdakılar barədə razılığa gəldilər:

MADDƏ 1

Tərəflər öz beynəlxalq öhdəliklərinə və milli qanunvericiliklərinə uyğun olaraq səlahiyyətləri çərçivəsində olan və qarşılıqlı maraq kəsb edən məsələlər üzrə əməkdaşlığı inkişaf etdirirlər.

MADDƏ 2

Nazirliklərarası əməkdaşlığın məqsədi Azərbaycan və Macarıstan arasında mövcud olan iqtisadi əlaqələrin dəstəklənməsi və əməkdaşlığın yeni istiqamətlərinin inkişaf etdirilməsidir.

MADDƏ 3

Tərəflər iqtisadi məsələlər üzrə məlumat və təcrübə mübadiləsini həyata keçirirlər və xüsusilə, aşağıda göstərilən sahələr üzrə investisiyalar, birgə istehsal, birgə tədqiqatları təşviq edirlər:

- kiçik və orta sahibkarlıq;
- investisiya siyasəti;
- sahibkarlığın inkişafı və tənzimlənməsi;
- energetika;
- sənaye;
- nəqliyyat və daşımalar;
- kommunikasiya və informasiya texnologiyaları;
- ikitərəfli maraq doğuran istənilən digər sahələr.

MADDƏ 4

Bu Sazişdə qeyd edilən məqsədlərə nail olmaq üçün Tərəflər, zərurət olduğu hallarda, öz təmsilçilərinin görüşlərini təşkil edəcəklər.

MADDƏ 5

Bu Sazişin məqsədlərinə nail olmaq üçün Tərəflər iş adamlarının görüşlərinin, həmçinin birgə konfrans və seminarların təşkilini təşviq edirlər.

MADDƏ 6

Tərəflər ümumi maraq kəsb edən proqram və layihələrin yaradılması və həyata keçirilməsi barədə bir-birini məlumatlandırırlar.

MADDƏ 7

Tərəflər bu Sazişlə əlaqədar bütün mübahisələri birbaşa danışıqlar vasitəsilə həll edəcəklər.

MADDƏ 8

Bu Saziş hər iki Tərəfin hər hansı beynəlxalq müqavilələrdən irəli gələn hüquq və öhdəliklərinin qüvvədə olmasına və ya icra edilməsinə təsir etmir.

MADDƏ 9

Tərəflərin qarşılıqlı razılığı ilə bu Sazişə dəyişikliklər edilə bilər. Belə dəyişikliklər bu Sazişin tərkib hissəsi olan ayrı-ayrı protokollar formasında edilə bilər və bu Sazişin 10-cu maddəsində nəzərdə tutulan qaydada qüvvəyə minəcəkdir.

MADDƏ 10

Bu Saziş Tərəflər arasında diplomatik Notaların mübadiləsindən sonra qüvvəyə minir və beş il müddətinə bağlanılır, və Tərəflərdən biri Sazişin müddətinin başa çatmasına ən azı altı ay qalmış diplomatik kanallar vasitəsilə digər Tərəfə Sazişin ləğv edilməsi niyyəti barədə yazılı bildiriş təqdim etməzsə, Sazişin qüvvəsi növbəti iki illik müddətlərə uzadılır.

Bu Sazişin ləğvi bu Sazişə müvafiq olaraq həyata keçirilən razılaşmaların və proqramların tam başa çatmasınadək onların hüquqi qüvvəsinə və davamiyyətinə təsir etməyəcəkdir.

Bu Saziş 18 may 2007-ci il tarixində Bakı şəhərində iki əsl nüsxədə Azərbaycan, macar və ingilis dillərində imzalanmışdır, bütün mətnlər eyni qüvvəyə malikdir. Bu Sazişin təfsiri zamanı fikir ayrılığı olduqda ingilis dilində olan mətnə istinad ediləcəkdir.

AZƏRBAYCAN RESPUBLİKASININ İQTİSADİ İNKİŞAF NAZİRİ	MACARISTAN RESPUBLİKASININ XARİCİ İŞLƏR NAZİRİ
HEYDƏR BABAYEV	*GÖNTS KİNQA*

AZƏRBAYCAN RESPUBLİKASI VƏ MACARISTAN RESPUBLİKASI ARASINDA SƏRMAYƏLƏRİN TƏŞVİQİ VƏ QARŞILIQLI QORUNMASI HAQQINDA SAZİŞ

18 may 2007-ci il

Bundan sonra "Razılığa gələn Tərəflər" adlandırılan Azərbaycan Respublikası və Macarıstan Respublikası,

hər iki Razılığa gələn Tərəfin qarşılıqlı faydası üçün iqtisadi əməkdaşlığı genişləndirməyi arzu edərək,

Razılığa gələn Tərəflərdən hər hansı birinin sərmayəçilərinin sərmayələri üçün digər Razılığa gələn Tərəfin ərazisində əlverişli şəraitin yaradılması və saxlanılması niyyətində olaraq, və

hazırkı Sazişə müvafiq olaraq, sərmayələrin təşviqi və qarşılıqlı qorunmasının bu sahədə işgüzar təşəbbüsün stimullaşdıracağını etiraf edərək,

aşağıdakılar barədə razılığa gəldilər:

MADDƏ 1
ANLAYIŞLAR

Bu Sazişin məqsədləri üçün:

1. "Sərmayə" termini bir Razılığa gələn Tərəfin sərmayəçisi tərəfindən digər Razılığa gələn Tərəfin qanunvericiliyinə müvafiq olaraq sonuncu Razılığa gələn Tərəfin ərazisində iqtisadi fəaliyyətlə əlaqədar sərmayə edilmiş əmlakın hər növü deməkdir və xüsusilə, lakin istisna olmamaqla aşıdakıları özündə ehtiva edir:
   a. daşınar və daşınmaz əmlak, habelə ipoteka, girov, əmlaka həbs qoyulması və oxşar hüquqlar kimi istənilən əmlak hüquqları;
   b. şirkətdə paylar, səhmlər və istiqrazlar və ya şirkətdə iştirakın hər hansı digər forması;
   c. pul vəsaiti və ya sərmayələrlə əlaqədar iqtisadi dəyərə malik istənilən növ fəaliyyətlə bağlı tələblər;
   d. sərmayələrlə bağlı olan əqli və sənaye mülkiyyəti hüquqları, o cümlədən müəlliflik hüququ, ticarət nişanı, patentlər, sənaye nümunələri, istehsalçılarının hüquqları, texniki proseslər, "nou-hau", ticarət sirləri, coğrafi göstəricilər, firma adları və işgüzar nüfuz;
   e. qanunla və ya müqavilə üzrə verilən hüquqlar və qanunvericiliyə müvafiq olaraq müəyyən edilmiş lisenziya və icazələr, o cümlədən təbii ehtiyatların kəşfiyyatı, hasilatı, işlənilməsi və istismar edilməsi üçün konsessiyalar.

Əmlakın sərmayə kimi qoyuluşu formasında hər hansı dəyişiklik onun sərmayə kimi xarakterinə təsir etməyəcəkdir, bu şərtlə ki, bu dəyişiklik ərazisində sərmayə qoyulmuş Razılığa gələn Tərəfin qanunvericiliyə müvafiq olaraq həyata keçirilir.

2. "Sərmayəçi" termini bir Razılığa gələn Tərəfin ərazisində sərmayə qoymuş digər Razılığa gələn Tərəfin hər hansı fiziki və ya hüquqi şəxsi deməkdir.
   a. "Fiziki şəxs" Razılığa gələn Tərəfin qanunlarına müvafiq olaraq onun vətəndaşlığına malik olan şəxs deməkdir.
   b. "Hüquqi şəxs" hər iki Razılığa gələn Tərəfə münasibətdə, bir Razılığa gələn Tərəfin qanunvericiliyinə müvafiq olaraq təsis olunmuş və ya yaradılmış və həmin Razılığa gələn Tərəfin ərazisində baş qərargahı olan və ya işgüzar fəaliyyətini əsasən həyata keçirən hər hansı bir qurum deməkdir. Macarıstan Respublikasına münasibətdə, bu termin həmçinin hüquqi şəxs statusuna malik olmayan, lakin, onun qanunvericiliyinə əsasən şirkət hesab olunan tam ortaqlığı və kommandit ortaqlığını özündə ehtiva edir.
3. "Gəlir" termini sərmayədən əldə edilən məbləğlər deməkdir və xüsusilə, lakin bununla məhdudlaşmayaraq, mənfəət, faiz, kapital artımı, dividentlər, royaltilər və qonorarları daxil edir.
4. "Ərazi" termini:

   a. Macarıstan Respublikasına münasibətdə: Macarıstan Respublikası tərəfindən beynəlxalq hüquqa uyğun olaraq üzərində suveren hüquqları və ya yurisdiksiyası həyata keçirilən ərazi;
   b. Azərbaycan Respublikasına münasibətdə: Xəzər dənizinin müvafiq sektoru da daxil olmaqla, üzərində Azərbaycan Respublikasının öz milli qanunvericiliyinə və beynəlxalq hüquqa uyğun olaraq suveren hüquqlarını və yurisdiksiyasını həyata keçirdiyi Azərbaycan Respublikasının ərazisi
5. "Sərbəst dönərli valyuta" termini beynəlxalq əməliyyatlarda ödəmələr üçün geniş miqyasda istifadə edilən və hər iki Razılığa gələn Tərəfin qanunvericiliyinə zidd olmamaq şərti ilə əsas beynəlxalq valyuta bazarlarında dəyişdirilən valyuta deməkdir.

MADDƏ 2
SƏRMAYƏLƏRİN TƏŞVİQİ VƏ QORUNMASI

1. Hər bir Razılığa gələn Tərəf digər Razılığa gələn Tərəfin sərmayəçilərinin sərmayələrini təşviq edəcək və onlar üçün əlverişli şərait yaradacaqdır və öz qanunvericiliyinə uyğun olaraq bu cür sərmayələri qəbul edəcəkdir.
2. Hər bir Razılığa gələn Tərəfin sərmayəçilərinin sərmayə və gəlirlərinə münasibətdə hər zaman ədalətli və bərabər rejim tətbiq ediləcəkdir və onların digər Razılığa gələn Tərəfin ərazisində tam və müdafiəsi və təhlükəsizliyi təmin ediləcəkdir.
3. Razılığa gələn Tərəf ətraf mühit, əmək və ya peşə sahiyyəsi və təhlükəsizliklə bağlı milli qanunvericiliyin tələblərini yumşaltma, yaxud əsas əmək standartlarını azaltma yoluyla sərmayələri təşviq etməyəcəkdir. Əgər Razılığa gələn Tərəf hesab etsə ki, digər Razılığa gələn Tərəf bu cür təşviqatı həyata keçirir, o digər Razılığa gələn Tərəflə məsləhətləşmələrin keçirilməsini xahiş edə bilər və hər iki Razılığa gələn Tərəf belə təşviqatın aradan qaldırılması məqsədilə məsləhətləşmələri həyata keçirəcəklər.
4. Razılığa gələn Tərəflərdən heç biri öz ərazisində digər Razılığa gələn Tərəfin sərmayəçilərinin sərmayələrinin idarə edilməsinə, saxlanmasına, istifadəsinə, onlardan faydalanmasına, əldə edilməsinə və ya satışına səbəbsiz, əsassız və ya ayrı-seçkilik yolu ilə qarışmayacaqdır.
5. Razılığa gələn Tərəflərdən heç biri digər Razılığa gələn Tərəfin sərmayəçilərinin sərmayələrinə münasibətdə materialların, istehsal vasitələrinin alınması, əməliyyatlar, daşınma, məhsulların marketinqi ilə əlaqədar olaraq məcburi tədbirlər və ya əsassız və ayrıseçkilik yaradan digər oxşar qaydalar tətbiq etməyəcəkdir.

MADDƏ 3
MİLLİ REJİM VƏ ƏN ƏLVERİŞLİ REJİM

1. Bir Razılığa gələn Tərəf öz ərazisində digər Razılığa gələn Tərəfin sərmayəçilərinin sərmayələrinə və gəlirlərinə öz sərmayəçilərinin və ya hər hansı üçüncü dövlətin sərmayəçilərinin sərmayələrinə və gəlirlərinə münasibətdə, bunlardan hansı daha əlverişlidirsə, tətbiq edilən rejimdən az əlverişli olmayan ədalətli və bərabər rejim tətbiq edəcəkdir.
2. Bir Razılığa gələn Tərəfin sərmayəçilərinə münasibətdə sərmayələrin idarə edilməsi, saxlanılması, istifadə edilməsi, onlardan faydalanması və satılması ilə əlaqə-

dar digər Razılığa gələn Tərəflə, sonuncu Razılığa gələn Tərəfin öz sərmayəçilərinə və ya hər hansı üçüncü dövlətin sərmayəçilərinə münasibətdə tətbiq etdiyi rejimdən (sərmayəçi üçün hansı daha əlverişlidirsə) az əlverişli olmayan ədalətli və bərabər rejim tətbiq ediləcəkdir.

3. Bu Sazişin milli rejim və ən əlverişli rejimlə bağlı müddəalarının Razılığa gələn Tərəfin gömrük, iqtisadi və ya valyuta birlikləri, ümumi bazar və yaxud sərbəst ticarət zonasının üzvü kimi öhdəliklərinə uyğun olaraq tətbiq etdiyi imtiyazlara aidiyyatı olmayacaqdır.
4. Razılığa gələn Tərəflər gömrük, iqtisadi və ya valyuta birlikləri, ümumi bazar və yaxud sərbəst ticarət zonası barədə beynəlxalq müqavilə və ya qarşılıqlı razılaşmalardan irəli gələn öhdəliklər də daxil olmaqla, belə gömrük, iqtisadi və ya maliyyə birlikləri, ümumi bazar və yaxud sərbəst ticarət zonasının üzvü kimi Razılığa gələn Tərəfin üzərinə götürdüyü öhdəliklərini qəbul (etiraf) edirlər.
5. Bu Maddədə nəzərdə tutulan şərtlər bir Razılığa gələn Tərəfin aşağıdakılardan irəli gələrək tətbiq edə biləcəyi hər hansı rejimin faydasını, imtiyazı və ya güzəşti digər Razılığa gələn Tərəfin sərmayəçilərinə və ya bu sərmayəçilərin sərmayələrinə və gəlirlərinə münasibətdə tətbiq etmək öhdəliyində olması kimi şərh edilməyəcəkdir.
   a. Razılığa gələn Tərəflərdən hər hansı birinin qoşulduğu və ya qoşula biləcəyi sərmayələrlə bağlı çoxtərəfli razılaşmalar
   b. vergitutmaya aid olan hər hansı beynəlxalq müqavilə və ya razılaşma.

MADDƏ 4
ZƏRƏRƏ GÖRƏ KOMPENSASİYA

Razılığa gələn Tərəflərdən hər hansı birinin sərmayəçilərinin sərmayələri və ya gəlirləri digər Razılığa gələn Tərəfin ərazisində baş verən müharibə, silahlı münaqişə, fövqəladə vəziyyət, üsyan, qiyam, iğtişaş və ya digər oxşar hadisələr nəticəsində zərər çəkəndə, həmin sərmayəçilərin sərmayələrinə münasibətdə restitusiya, əvəzin ödənilməsi, kompensasiya və ya hər hansı başqa ödənişlərlə bağlı, sonuncu Razılığa gələn Tərəfin öz sərmayəçilərinə və ya hər hansı üçüncü dövlətin sərmayəçilərinə tətbiq etdiyi rejimdən az əlverişli olmayan rejim tətbiq ediləcəkdir.

1. Bu Maddənin 1-ci bəndi nəzərə alınmaqla, bir Razılığa gələn Tərəfin sərmayəçilərinə münasibətdə, o, bu bənddə göstərilən hər hansı bir vəziyyətdə digər Razılığa gələn Tərəfin ərazisində aşağıdakılar nəticəsində ziyan çəkirsə:
   a. onun silahlı qüvvələri və ya hakimiyyət orqanları tərəfindən onların sərmayəsinin tam və ya qismən rekvizisiyası,
   b. onun silahlı qüvvələri və ya hakimiyyət orqanları tərəfindən onların sərmayəsinin tam və ya qismən, hərbi əməliyyat olmadan və ya vəziyyətin zəruriliyi tələb etmədiyi halda məhv edilməsi

digər Razılığa gələn Tərəf ədalətli, adekvat və effektiv kompensasiyanın ödənilməsini təmin edəcəkdir.

Kompensasiyaya zərərin baş verdiyi gündən ödənişin həyata keçirildiyi günədək hesablanan, məqbul kommersiya dərəcəsi üzrə faizlər də daxil olacaqdır.

MADDƏ 5
EKSPROPRİASİYA

Bir Razılığa gələn Tərəfin sərmayəçilərinin digər Razılığa gələn Tərəfin ərazisindəki sərmayələri və ya gəlirləri ictimai mənafenin tələb etdiyi hallar istisna olmaqla, milliləşdirməyə, ekspropriasiyaya və ya bərabər nəticə verə biləcək hər hansı digər tədbirlərə (bundan sonra "ekspropriasiya" adlanır) məruz qalmayacaq. Ekspropriasiya qanunvericiliyə tam uyğun şəkildə, ayrı-seçkiliyə yol verilmədən, dərhal, adekvat və effektiv kompensasiya ilə təmin ediləcəkdir. Bu cür kompensasiya, ekspropriasiyanın həyata keçirildiyi və ya ekspropriasiyanın gözlənildiyi ictimaiyyətə məlum olduğundan (hansı daha tez baş verərsə) bilavasitə əvvəlki vaxtda ekspropriasiya edilmiş sərmayənin bazar dəyərinə bərabər olacaqdır, ekspropriasiya tarixindən ödəniş tarixinə qədər məqbul kommersiya dərəcəsi üzrə faizləri daxil edəcəkdir, gecikdirilmədən həyata keçiriləcəkdir, effektiv realizə edilə (effektiv şəkildə pula çevrilə) və sərbəst dönərli valyutada sərbəst köçürüləcəkdir.

MADDƏ 6
KÖÇÜRMƏLƏR

1. Razılığa gələn Tərəflər sərmayələr və gəlirlərlə bağlı ödəmələrin sərbəst köçürülməsinə icazə verəcəklər. Köçürmələr sərbəst dönərli valyutada ərazisində sərmayə qoyulmuş Razılığa gələn Tərəfin qanunvericiliyinə uyğun olaraq, heç bir məhdudiyyət və əsassız ləngitmə olmadan həyata keçiriləcəklər. Belə köçürmələrə xüsusi halda, lakin bununla məhdudlaşayaraq:
   a. sərmayələrin saxlanması və ya artırılması üçün əsas və əlavə məbləğlər;
   b. bu Sazişin 1-ci maddəsinin 3-cü bəndində müəyyən edilən gəlirlər;
   c. royaltilər və lisenziya haqları və ya digər oxşar xərclərin ödənilməsi kimi sərmayə qoyuluşu ilə bağlı fəaliyyətdən yaranan xərclərin ödənilməsi üçün tələb olunan məbləğlər;
   d. borc sazişləri daxil olmaqla, kontraktlarla bağlı ödəmələr;
   e. sərmayələrin tam və ya qismən satışından və ya ləğvindən əldə edilmiş vəsaitlər;
   f. ərazisində sərmayə qoyulmuş Razılığa gələn Tərəfin qanunvericilinə müvafiq olaraq sərmayələrlə bağlı xarici dövlətlərdən cəlb edilmiş fiziki şəxslərin əmək haqqları və buna oxşar gəlirləri;
   g. bu Sazişin 4-cü və 5-ci maddələrinə uyğun olaraq ödənilməli olan kompensasiya,
   h. bu Sazişin 8-ci maddəsində göstərilən mübahisələrin həll edilməsindən irəli gələn ödəmələr

daxildir.

2. Köçürmələr ərazisində sərmayə qoyulmuş Razılığa gələn Tərəfin qüvvədə olan qanunvericiliyinə uyğun olaraq sərmayəçinin bütün müvafiq maliyyə öhdəliklərinin icrasından sonra həyata keçirilir.
3. Bu Sazişin məqsədləri üçün digər razılığın olmadığı təqdirdə, valyuta məzənnəsi köçürməni həyata keçirən maliyyə qurumu tərəfindən sərmayəni qəbul edən Razılı-

ğa gələn Tərəfin qanunvericiliyinə müvafiq olaraq elan edilmiş məzənnədir. Digər razılığın olmadığı təqdirdə belə məzənnə mövcud olmadıqda rəsmi məzənnə istifadə ediləcəkdir.

MADDƏ 7
SUBROQASİYA

1. Əgər Razılığa gələn Tərəf və ya onun təyin etdiyi təşkilat digər Razılığa gələn Tərəfin ərazisində sərmayə qoyuluşu ilə bağlı öz sərmayəçilərinə zəmanət və ya sığorta əsasında ödəmə həyata keçirərsə, sonuncu Razılığa gələn Tərəf:
   a. həmin ölkədə qanuna və ya hüquqi sövdələşməyə uyğun olaraq sərmayəçinin hər hansı hüquq və ya tələblərinin birinci Razılığa gələn Tərəfə və ya onun təyin etdiyi təşkilata keçməsini,

   eləcə də,

   b. birinci Razılığa gələn Tərəfin və ya onun təyin etdiyi təşkilatın, subroqasiya əsasında həmin sərmayəçinin hüquqlarını həyata keçirmək və tələblərini irəli sürmək hüququnda olmasını və sərmayə ilə əlaqədar öhdəlikləri öz üzərinə götürməsini tanıyacaqdır.
2. Subroqasiya olunmuş hüquqlar və tələblər sərmayəçinin ilkin hüquqlarından və tələblərindən artıq olmayacaqdır.

MADDƏ 8
RAZILIĞA GƏLƏN TƏRƏF İLƏ DİGƏR RAZILIĞA GƏLƏN TƏRƏFİN SƏRMAYƏÇİSİ ARASINDA SƏRMAYƏ MÜBAHİSƏLƏRİN HƏLL EDİLMƏSİ

1. Bir Razılığa gələn Tərəfin sərmayəçisi ilə digər Razılığa gələn Tərəf arasında həmin Razılığa gələn Tərəfin ərazisində sərmayə ilə bağlı yarana bilən hər hansı bir mübahisə, mübahisənin tərəfləri arasında danışıqların predmeti olacaqdır.
2. Əgər bir Razılığa gələn Tərəfin sərmayəçisi ilə digər Razılığa gələn Tərəf arasında hər hansı mübahisə yazılı bildiriş əsasında belə danışıqların tələb olunması tarixindən altı ay ərzində bu yolla həll edilə bilmərsə, sərmayəçi mübahisəni aşağıdakılara verilməsi seçiminə malikdir:
   a. ərazisində sərmayə qoyulmuş Razılığa gələn Tərəfin səlahiyyətli məhkəməsinə;
   b. 1965-ci il 18 mart tarixində Vaşinqtonda imzalanma üçün açıq elan edilmiş Dövlətlər və digər Dövlətlərin vətəndaşları arasında sərmayə mübahisələrinin həlli üzrə Konvensiya ilə əlaqədar olan Sərmayə Mübahisələrinin Tənzimlənməsi üzrə Beynəlxalq Mərkəzə, əgər hər iki Razılığa gələn Tərəf bu Konvensiyaya qoşulubsa; və ya
   c. Birləşmiş Millətlər Təşkilatının Beynəlxalq Ticarət Hüququ üzrə Komissiyasının ("UNCITRAL") Arbitraj Qaydalarına müvafiq olaraq təsis edilən "ad hok" arbitraj məhkəməsinə. Mübahisə tərəfləri bu Qaydaların dəyişdirilməsi üçün yazılı şəkildə razılığa gələ bilərlər.
3. Əgər mübahisə 2-ci bəndin a) - c) altbəndlərində göstərilmiş məhkəmələrdən birinə verilərsə, sərmayəçi mübahisənin tənzimlənməsi üçün 2-ci bəndin a) - c) altbəndlərində göstərilmiş digər vasitələrdən istifadə edə bilməz.
4. Sərmayəçi mübahisəni 1-ci bənddə müəyyən edildiyi kimi, 2-ci bəndə uyğun olaraq arbitraja o vaxt verə bilər ki, pozuntunu, itki və ya zərəri aşkar etdiyi və ya aşkar etməli olduğu vaxtdan üç ildən artıq vaxt keçməmiş olsun.
5. Məhkəmənin qərarı mübahisə tərəfləri üçün yekun və icbari olacaqdır və ərazisində sərmayə qoyulmuş və qərar aid olan Razılığa gələn Tərəfin qanunvericiliyinə uyğun qaydada qərarda göstərilən tarixə qədər icra ediləcəkdir.

MADDƏ 9
RAZILIĞA GƏLƏN TƏRƏFLƏR ARASINDA MÜBAHİSƏLƏRİN HƏLL EDİLMƏSİ

1. Bu Sazişin təfsiri və ya tətbiq edilməsi barədə Razılığa gələn Tərəflər arasında mübahisələr, əgər mümkündürsə, məsləhətləşmələr və danışıqlar vasitəsilə həll olunacaqdır.
2. Əgər mübahisə altı ay ərzində bu yolla həll edilə bilməzsə o, Razılığa gələn Tərəflərdən hər hansı birinin müraciəti əsasında bu maddənin müddəalarına uyğun olaraq üç üzvdən ibarət Arbitraj Məhkəməsinə təqdim olunacaqdır.
3. Arbitraj Məhkəməsi hər bir fərdi iş üçün aşağıdakı qaydada təsis olunacaqdır. Arbitraj haqqında müraciətin alındığı tarixdən etibarən iki ay ərzində hər bir Razılığa gələn Tərəf Məhkəmənin bir üzvünü təyin edəcəkdir. Sonra bu iki üzv Məhkəmənin Sədri (bundan sonra "Sədr" adlandırılacaq) kimi təyin olunacaq üçüncü dövlətin vətəndaşını seçəcəklər. Sədr digər iki üzvün təyin olunduğu tarixdən sonra üç ay ərzində təyin olunacaqdır.
4. Əgər bu maddənin 3-cü bəndində göstərilmiş müddət ərzində zəruri təyinatlar həyata keçirilməzsə, Beynəlxalq Məhkəmənin Sədrinə zəruri təyinatların həyata keçirilməsi üçün müraciət edilə bilər. Əgər Sədr Razılığa gələn Tərəflərdən hər hansı birinin vətəndaşıdırsa və ya hər hansı səbəbdən göstərilən funksiyanı yerinə yetirə bilmirsə, o halda Sədr müavininə bu təyinatları həyata keçirmək üçün müraciət ediləcəkdir. Əgər Sədr müavini Razılığa gələn Tərəflərdən hər hansı birinin vətəndaşıdırsa və ya hər hansı səbəbdən göstərilən funksiyanı yerinə yetirə bilmirsə, bu cür təyinatları həmin Məhkəmənin rütbədə növbəti üzvü həyata keçirəcəkdir.
5. Arbitraj Məhkəməsi öz qərarlarını səs çoxluğu ilə qəbul edəcəkdir.
6. Arbitraj Məhkəməsi öz qərarlarını qanunvericiliyə, bu Sazişin müddəalarına, habelə beynəlxalq hüququn ümumi qəbul edilmiş prinsiplərinə hörmət əsasında qəbul edəcəkdir.
7. Razılığa gələn Tərəflərin başqa qaydalar müəyyən etmədiyi hallarda, Arbitraj Məhkəməsi prosedurlarını özü müəyyən edəcəkdir.
8. Hər bir Razılığa gələn Tərəf özünün təyin etdiyi üzvün və özünün məhkəmə prosesində təmsil edilməsi xərclərini ödəyəcəkdir. Sədrin xərcləri və qalan xərclər Razılığa gələn Tərəflərlə bərabər hissədə ödəniləcəkdir. Məhkəmə, xərclərlə bağlı başqa qaydalar müəyyən edə bilər.
9. Məhkəmənin qərarı Razılığa gələn Tərəflər üçün yekun və məcburi olacaqdır.

MADDƏ 10
DİGƏR QAYDALARIN TƏTBİQ EDİLMƏSİ VƏ XÜSUSİ ÖHDƏLİKLƏR

Bu Sazişin heç bir müddəası Razılığa gələn Tərəflərin investorlarının Razılığa gələn Tərəflərin qoşulduğu mövcud və ya gələcəkdə mövcud olacaq hər hansı ikitərəfli və ya çoxtərəfli sazişin müəyyən etdiyi daha əlverişli şərtlərdən istifadə hüququnu məhdudlaşdırdığı kimi qəbul edilməyəcəkdir.

MADDƏ 11
SAZİŞİN TƏTBİQİ

Bu Saziş onun qüvvəyə minməsindən əvvəl eləcə də sonra bir Razılığa gələn Tərəfin ərazisində onun qanunvericiliyinə uyğun olaraq digər Razılığa gələn Tərəfin sərmayəçilərinin qoyduğu sərmayələrə tətbiq ediləcəkdir, lakin Sazişin qüvvəyə minməsindən əvvəl sərmayəyələrlə bağlı yaranmış və ya həll edilmiş mübahisələrə tətbiq edilməyəcəkdir.

MADDƏ 12
MƏSLƏHƏTLƏŞMƏLƏR

Razılığa gələn Tərəflərdən birinin xahişi əsasında digər Razılığa gələn Tərəf bu Sazişin təfsir və ya tətbiq edilməsi ilə bağlı məsləhətləşmələrin keçirilməsinə öz razılığını verir. Hər hansı Razılığa gələn Tərəfin xahişi əsasında bu Sazişlə əhatə olunan sərmayələrə təsir göstərə biləcək digər Razılığa gələn Tərəfin müəyyən etdiyi qanunlar, qaydalar, qərarlar, inzibati təcrübə və prosedurlar barədə məlumatın mübadiləsi təşkil ediləcəkdir.

MADDƏ 13
ÜMUMİ İSTİSNALAR

1. Bu Sazişin heç bir müddəası Razılığa gələn Tərəfin aşağıdakı kimi təhlükəsizlik məqsədləri üçün müvafiq tədbirlər görməsinin qarşısını aldığı kimi şərh edilməyəcəkdir:
   a. maliyyə institutlarının maliyyə məsuliyyətinin təhlükəsizliyi və bütövlüyünün qorunması; və b.

Razılığa gələn Tərəfin maliyyə sisteminin bütövlüyü və sabitliyinin təmin edilməsi.

2. (a) Bu Sazişin heç bir müddəası, Razılığa gələn Tərəfin tədiyyə balansında ciddi çətinliklərlə üzləşdiyi və ya belə təhlükənin mövcud olduğu halda həmin Razılığa gələn Tərəfin köçürmələrin məhdudlaşdırılması ilə bağlı tədbirlər görməsinin qarşısını aldığı kimi şərh edilməyəcəkdir, və bu məhdudlaşdırıcı tədbirlər "b" bəndinə müvafiq olacaqdır.

(b) "a" bəndində göstərilən tədbirlər ədalətli olacaq, zor gücünə və ya ayrıseçkilikli olmayacaqdır, qısa müddətli olacaq və tədiyyə balansı ilə bağlı yaranmış vəziyyətin aradan qaldırılması üçün zəruri olan hüdudlardan kənar çıxmayacaqdır. Bu maddə əsasında həmin tədbirləri görən Razılığa gələn Tərəf digər Razılığa gələn Tərəfi dərhal məlumatlandıracaqdır və mümkün olan kimi həmin tədbirlərin görülməsinin dayandırılması ilə bağlı vaxt cədvəlini təqdim edəcəkdir. Belə tədbirlərin görülməsi müvafiq Razılığa

gələn Tərəfin digər beynəlxalq öhdəliklərinə, o cümlədən ÜTT Sazişi və Beynəlxalq Valyuta Fondunun Sazişi əsasında öhdəliklərinə uyğun olacaqdır.

3. Bu Sazişin heç bir müddəası:
   a. Razılığa gələn Tərəfin onun başlıca təhlükəsizlik maraqlarının müdafiəsi üçün lazım bildiyi hər hansı tədbirlərin həyata keçirməsinin qarşısını alan kimi şərh edilməyəcəkdir:
      i. silah, hərbi sursat, qurğuların satışı və hərbi və digər təhlükəsizlik qurumun birbaşa və ya dolayısı təmin edilməsi üçün digər mallar, materiallar, xidmətlər və texnologiyaların satışı və sövdələşmələrlə əlaqədar olaraq görülən tədbirlər,
      ii. müharibə və beynəlxalq əlaqələrdə digər fövqəladə vəziyyətdə görülən tədbirlər,
      iii. nüvə silahlarının və digər nüvə partlayıcı qurğularının yayılmasının qarşısının alınması ilə bağlı milli siyasətin və ya beynəlxalq müqavilələrin icrası ilə bağlı tədbirlər; və ya
   b. Razılığa gələn Tərəfin beynəlxalq sülhün və təhlükəsizliyin qorunması haqqında Birləşmiş Millətlər Təşkilatının Xartiyası əsasında öhdəliklərin gözlənilməsi ilə bağlı tədbirlərin həyata keçirməsinin qarşısını alan kimi şərh edilməyəcəkdir.
4. Razılığa gələn Tərəf bu Sazişin şərtlərini digər Razılığa gələn Tərəfin sərmayəçisinə, yəni belə Razılığa gələn Tərəfin müəssisəsinə və belə sərmayəçilərin sərmayələrinə münasibətdə tətbiq etməkdən imtina edə bilər, əgər bu müəssisəyə sahiblik və ya nəzarət Razılığa gələn Tərəf olmayan tərəfin sərmayəçilərinə mənsubdur və əgər müəssisə qanunvericiliyinə uyğun olaraq təsis edilmiş Razılığa gələn Tərəfin ərazisində əhəmiyyətli işgüzar fəaliyyət həyata keçirmirsə.
5. Razılığa gələn Tərəf bu Sazişin şərtlərini digər Razılığa gələn Tərəfin sərmayəçisinə, yəni belə Razılığa gələn Tərəfin sərmayəsinə və belə sərmayəçinin sərmayələrinə münasibətdə tətbiq etməkdən imtina edə bilər, əgər bu sərmayəyə sahiblik və ya nəzarət Razılığa gələn Tərəf olmayan tərəfin sərmayəçilərinə mənsubdur, və əgər imtina edən Razılığa gələn Tərəf, Razılığa gələn Tərəf olmayan tərəfə münasibətdə elə tədbirlər həyata keçirir ki, bu tədbirlər investisiya ilə bağlı əməliyyatların həyata keçirilməsini qadağan edir, və ya bu Sazişin şərtləri sərmayəçilərin sərmayələrinə tətbiq edildikdə həmin tədbirlər pozulmuş olur.
6. Razılığa gələn Tərəfin bu Sazişdə qeyd edilən bütün tədbirləri onun Aİ-də üzvlüyündən irəli gələrək həmin Razılığa gələn Tərəfin ərazisində Aİ-nin qanunvericiliyinə müvafiq olaraq tətbiq edilən tədbirləri daxil edəcəkdir. "Tədiyyə balansında ciddi çətinliklər və ya belə təhlükənin mövcudluğu" ilə bağlı məqamlara həmçinin Razılığa gələn Tərəfin üzv olduğu iqtisadi və ya valyuta birliyində tədiyyə balansında ciddi çətinliklər və ya belə təhlükə daxildir.
7. Razılığa gələn Tərəfin başlıca təhlükəsizlik maraqlarına onun gömrük, iqtisadi və ya valyuta birliyində, ümumi bazarda və ya sərbəst ticarət zonasında üzvlüyündən irəli gələn maraqları və tədbirləri daxildir.

8. Maddə 8-ə müvafiq olaraq mübahisələrin həlli rejim, üstünlük və ya imtiyaz kimi qəbul edilməyəcəkdir.

MADDƏ 14
YEKUN ŞƏRTLƏR, QÜVVƏYƏ MİNMƏ, QÜVVƏDƏ OLMA, XİTAM VERİLMƏ VƏ DÜZƏLİŞLƏR

1. Bu Saziş Avropa İttifaqında üzvlükdən irəli gələn öhdəliklər nəzərə alınmaqla və bu öhdəliklər çərçivəsində tətbiq ediləcəkdir. Beləliklə, bu Sazişin şərtləri Macarıstanın Avropa İttifaqının yaranması əsaslanan müqavilələrdən, eləcə də Avropa İttifaqının birinci və ya ikinci hüququndan irəli gələn öhdəliklərini ləğv edən və ya digər yolla onlara mənfi təsir edən kimi tətbiq edilə və ya şərh edilə bilməz.
2. Razılığa gələn Tərəflər bu Sazişin qüvvəyə minməsi üçün zəruri olan dövlətdaxili prosedur tələblərinin yerinə yetirildiyi barədə bir-birini məlumatlandıracaqlar. Bu Saziş sonuncu bildirişin alındığı tarixdən altmış gün sonra qüvvəyə minəcəkdir.
3. Bu Saziş on il müddətində qüvvədə qalacaqdır və davam edən on illik dövrün bitməsinə ən azı bir il qalana qədər bir Razılığa gələn Tərəf digər Razılığa gələn Tərəfə yazılı şəkildə bu Sazişə xitam verilməsi barədə bildiriş göndərməyənə qədər, bundan sonra avtomatik olaraq növbəti onillik müddətlərə uzadılacaqdır.
4. Bu Sazişə xitam verilməsindən əvvəl qoyulmuş sərmayələrə münasibətdə bu Sazişin şərtləri xitam verilmə tarixindən on il müddətində qüvvədə qalacaqlar.
5. Bu Sazişə dəyişikliklər Razılığa gələn Tərəflərin yazılı razılaşması yolu ilə edilə bilər. Hər hansı dəyişiklik bu Sazişin tərkib hissəsi olacaq və hazırkı Sazişin qüvvəyə minməsi üçün tələb edilən prosedura uyğun qüvvəyə minəcəkdir.

BUNUN TƏSDİQİ OLARAQ, bunun üçün lazımi səlahiyyətlər almış aşağıda imza edənlər, hazırkı Sazişi imzaladılar.

Bakı şəhərində 18 may 2007-ci il tarixində Azərbaycan, macar və ingilis dillərində olmaqla iki əsl nüsxədə imzalanmışdır, bütün mətnlər bərabər autentikdir. Təfsirdə fikir ayrılığı olduqda, ingilis dilində olan mətn əsas götürüləcəkdir.

AZƏRBAYCAN RESPUBLİKASININ İQTİSADİ İNKİŞAF NAZİRİ	MACARISTAN RESPUBLİKASININ XARİCİ İŞLƏR NAZİRİ
HEYDƏR BABAYEV	*GÖNTS KİNQA*

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV RUSİYA FEDERASİYASININ XARİCİ İŞLƏR NAZİRİ SERGEY LAVROVU QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 21-də Prezident sarayında Rusiya Federasiyasının xarici işlər naziri Sergey Lavrovu qəbul etmişdir.

Dövlətimizin başçısı Rusiya Federasiyası xarici işlər nazirinin Azərbaycana səfərinin ölkələrimiz arasındakı əlaqələrin hazırkı vəziyyətini müzakirə etmək və əməkdaşlığımızın gələcək inkişaf istiqamətlərini müəyyənləşdirmək baxımından əhəmiyyətini vurğuladı. Azərbaycan-Rusiya münasibətlərinin bütün istiqamətlərində, o cümlədən siyasi, iqtisadi və humanitar sahələrdə uğurla inkişaf etdiyini bildirən Prezident İlham Əliyev bu münasibətlərin səviyyəsindən razılığını ifadə etdi. Dövlətimizin başçısı ölkələrimiz arasında münasibətlərin strateji xarakter daşıdığını və əlaqələrimizin daha da gücləndirilməsi üçün yaxşı imkanların olduğunu söylədi. O, əməkdaşlığımızın müxtəlif istiqamətlərdə daha da inkişaf etdirilməsinin zəruriliyini vurğuladı. Prezident İlham Əliyev Azərbaycan ilə Rusiya arasında mövcud olan yaxşı münasibətlərin regionun sabitliyi və inkişafında mühüm amil olduğunu və bu baxımdan Rusiyanın xarici işlər nazirinin ölkəmizə səfərinə böyük əhəmiyyət verdiyini bildirdi.

Azərbaycana yenidən səfər etməsindən məmnunluğunu söyləyən Sergey Lavrov Rusiya Federasiyasının Prezidenti Vladimir Putinin salamlarını Azərbaycanın dövlət başçısına çatdırdı. O, Rusiya Prezidenti Vladimir Putinin dövlət başçımızla keçirdiyi görüşləri məmnuniyyətlə xatırladığını bildirdi və bu görüşlər zamanı əldə edilmiş razılaşmaların uğurlu nəticələr verdiyini qeyd etdi. Ölkələrimizin müxtəlif sahələrdə əməkdaşlığını yüksək qiymətləndirən nazir Rusiyanın Azərbaycan ilə əlaqələrə böyük önəm verdiyini bildirdi. O, bu əlaqələrin gələcəkdə də hər iki xalqın mənafeləri naminə inkişaf edəcəyinə ümidvar olduğunu dedi.

Prezident İlham Əliyev Rusiya Prezidenti Vladimir Putinin salamlarına görə minnətdarlığını bildirdi və özünün də salamlarını ona çatdırmağı xahiş etdi.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV FRANSA-QAFQAZ DOSTLUQ QRUPUNUN SƏDRİ, SENATOR AMBRUAZ DÜPONUN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİNİ QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 21-də Prezident Sarayında Fransa-Qafqaz Dostluq Qrupunun sədri, senator Ambruaz Düponun başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.

Dövlətimizin başçısı Azərbaycan-Fransa münasibətlərinin bütün sahələrdə uğurla inkişaf etdiyini bildirdi. Ölkələrimiz arasında müxtəlif səviyyələrdə, o cümlədən parlamentlərarası əməkdaşlıq sahəsində əlaqələrin intensiv xarakter daşıdığını qeyd edən Prezident İlham Əliyev Fransa-Qafqaz Dostluq Qrupunun sədri, senator Ambruaz Düponun bu əlaqələrin genişlənməsində fəal rol oynadığını vurğuladı.

Prezident İlham Əliyev cənab Düponun ölkəmizə bu səfərinin əməkdaşlığımızın daha da inkişafı işinə öz töhfəsini verəcəyinə əminliyini ifadə etdi.

Azərbaycan-Fransa əməkdaşlığının sürətlə inkişaf etdiyini bildirən senator Prezident İlham Əliyevin Parisə dövlət səfərindən sonra ölkəmizə ilk səfərindən məmnun olduğunu söylədi. O, həmin səfərin Fransada böyük təəssürat yaratdığını və ikitərəfli münasibətlərin inkişafında yeni mərhələ açdığını qeyd etdi.

Sonra Fransanın ölkəmizdəki səfiri Bernar dü Şafo Azərbaycan Prezidenti İlham Əliyevin Parisə səfəri zamanı Jak Şirak tərəfindən ona təqdim edilən "Şərəf Legionunun Böyük Xaç" ordeninin diplomunu Fransa Prezidenti adından dövlətimizin başçısına təqdim etdi.

Prezident İlham Əliyev Jak Şiraka minnətdarlığını və salamlarını çatdırmağı qonaqdan xahiş etdi.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV ALMANİYANIN "VİNTERŞAL" SƏHMDAR CƏMİYYƏTİNİN İDARƏ HEYƏTİNİN SƏDRİ RAYNER SVİTSERLOTUN RƏHBƏRLİK ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİNİ QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 21-də Prezident sarayında Almaniyanın "Vinterşal" səhmdar cəmiyyətinin idarə heyətinin sədri Rayner Svitserlotun rəhbərlik etdiyi nümayəndə heyətini qəbul etmişdir.

Dövlətimizin başçısı son illərdə Azərbaycanda neft və qaz sənayesi sahəsində çox böyük uğurların əldə olunduğunu vurğuladı. Azərbaycanın dünyanın iri enerji şirkətləri ilə müvəffəqiyyətlə əməkdaşlıq etdiyini xatırladan Prezident İlham Əliyev ölkəmizdə xarici şirkətlərin fəaliyyəti üçün bütün şəraitin yaradıldığını bildirdi.

Ölkəmizin neft bumunu yaşadığını vurğulayan Rayner Svitserlot dedi: "Azərbaycan ilə Avropa arasında enerji sahəsində əməkdaşlıq və tərəfdaşlığın hazırkı səviyyəsi, habelə yaradılmış infrastrukturun inkişafı onu göstərir ki, Azərbaycanın bu istiqamətdə, o cümlədən Avropa ilə tərəfdaşlıq baxımından çox böyük perspektivləri var". Qonaq rəhbərlik etdiyi şirkətin gələcək planları barədə dövlətimizin başçısına məlumat verdi.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV TÜRKİYƏNİN SARIYER BƏLƏDİYYƏSİNİN SƏDRİ YUSUF TÜLÜNÜN RƏHBƏRLİK ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİNİ QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 22-də Prezident sarayında Türkiyənin Sarıyer bələdiyyəsinin sədri Yusuf Tülünün rəhbərlik etdiyi nümayəndə heyətini qəbul etmişdir.

Görüşdə Azərbaycan ilə Türkiyə arasında münasibətlərin bütün sahələrdə uğurla inkişaf etdiyi vurğulandı, qarşılıqlı səfərlərin əlaqələrimizin genişləndirilməsində mühüm rol oynadığı bildirildi, müxtəlif səviyyələrdə, o cümlədən iki ölkənin regionları və bələdiyyələri arasında əməkdaşlığın münasibətlərimizin daha da möhkəmləndirilməsi işinə mühüm töhfə verdiyi qeyd olundu.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV ABŞ DÖVLƏT KATİBİNİN İQTİSADİ VƏ TİCARƏT MƏSƏLƏLƏRİ ÜZRƏ XÜSUSİ NÜMAYƏNDƏSİ FRENK MERMUDUN RƏHBƏRLİK ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİNİ QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 23-də Prezident sarayında ABŞ dövlət katibinin iqtisadi və ticarət məsələləri üzrə xüsusi nümayəndəsi Frenk Mermudun rəhbərlik etdiyi nümayəndə heyətini qəbul etmişdir.

Prezident İlham Əliyev ilə yenidən görüşməkdən böyük məmnunluğunu ifadə edən Frenk Mermud Azərbaycana səfərdən əsas məqsədinin ölkələrimiz arasında iqtisadiyyat, o cümlədən kənd təsərrüfatı sahəsində əlaqələrin genişləndirilməsi olduğunu bildirdi. O, səfəri zamanı bir sıra uğurlu görüşlər keçirdiyini və onu müşayiət edən ABŞ-ın müxtəlif şirkətləri nümayəndələrinin kənd təsərrüfatı sahəsində əməkdaşlıq imkanlarını araşdırmaq üçün Azərbaycanın rayonlarında olduqlarını qeyd etdi. Qonaq kənd təsərrüfatı məhsullarının istehsalı ilə məşğul olan bir sıra müəssisələrə şəxsən baş çəkdiyini və burada gördüklərinin onda xoş təəssürat doğurduğunu söylədi.

Dövlətimizin başçısı Azərbaycan hökumətinin kənd təsərrüfatının inkişafına böyük önəm verdiyini və bu sahədə ABŞ ilə əməkdaşlığın genişləndirilməsindən razılığını bildirdi. Ölkəmizin əhalisinin təxminən yarısının kənd yerlərində yaşadığını qeyd edən Prezident İlham Əliyev bu sahənin inkişafının Azərbaycan üçün təkcə iqtisadi deyil, eyni zamanda, sosial əhəmiyyət daşıdığını vurğuladı. O, Azərbaycan ilə ABŞ arasında müxtəlif sahələrdə sıx əməkdaşlıq təcrübəsinin mövcud olduğunu xatırlatdı və bildirdi ki, bu təcrübədən kənd təsərrüfatı sahəsində də istifadə üçün yaxşı imkanlar vardır.

XARİCİ İŞLƏR NAZİRİ ELMAR MƏMMƏDYAROV TÜRKMƏNİSTANDA SƏFƏRDƏ OLMUŞDUR

Mayın 23-də xarici işlər nazir Elmar Məmmədyarov Türkmənistana rəsmi səfər etmişdir. Səfər zamanı nazirin Türkmənistan Prezidenti Qurbanqulu Berdiməhəmmədov ilə görüşündə ölkələrimiz arasında mövcud olan və geniş spektri əhatə edən məsələlər müzakirə edilmişdir. Xüsusi diqqət nəqliyyat və enerji məsələləri daxil olmaqla, iqtisadi və ticarət əlaqələrinə verilmişdir.

E.Məmmədyarov Türkmənistanın dövlət başçısına Azərbaycan Prezidenti İlham Əliyevin salamlarını və məktubunu çatdırmışdır.

Q.Berdiməhəmmədov Prezident İlham Əliyevə salamlarını çatdırmağı xahiş etmiş və Azərbaycan-Türkmənistan münasibətlərinin yeni, daha yüksək səviyyəyə qalxacağına ümidvar olduğunu bildirmişdir.

Nazir ikitərəfli əlaqələri daha da genişləndirmək üçün bir sıra təkliflər irəli sürmüş və xüsusilə hökumətlərarası komissiyanın yaradılmasının vacibliyini vurğulamışdır.

Prezident Q.Berdiməhəmmədov, öz növbəsində, komissiyanın yaradılması fikrini dəstəkləmiş və iqtisadi əməkdaşlığın genişləndirilməsinin digər sahələrdə də əlaqələrin inkişafına təkan verəcəyini vurğulamışdır. O, mədəniyyət, elm və təhsil sahəsində əlaqələrin genişləndirilməsi üçün bir sıra təkliflər vermişdir.

Nazir E.Məmmədyarovun Türkmənistanın xarici işlər naziri Rəşid Meredov ilə görüşündə də ikitərəfli, regional və Xəzər dənizində əməkdaşlıq məsələləri müzakirə olunmuşdur.

Tərəflər regional məsələlərə toxunaraq, qonşu dövlətlər ilə münasibətlər, nəqliyyat və enerji layihələri, beynəlxalq təşkilatlar çərçivəsində əməkdaşlıq, mövcud beynəlxalq və regional səviyyədə imkan və təhdidlər və digər məsələlər ətrafında müzakirələr aparmışlar.

E.Məmmədyarov Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi haqqında söz açaraq, danışıqların hazırkı vəziyyəti barəsində məlumat vermişdir. O demişdir ki, mü-

naqişənin beynəlxalq hüquq normaları və Azərbaycanın ərazi bütövlüyü çərçivəsində həllinin alternativi yoxdur.

Türkmənistan Prezidenti ilə danışığın davamı kimi nazir E.Məmmədyarov həmkarı R.Meredov ilə Xəzər dənizinin hüquqi statusuna dair fikir mübadiləsi aparmış, konkret əməkdaşlıq imkanlarını müzakirə etmişdir.

XİN rəhbərləri nazirliklərarası məsləhətləşmələrin mütəmadi keçirilməsi barədə razılığa gəlmişlər.

Ölkələrimiz arasında münasibətlərin daha da genişləndirilməsi istiqamətində mədəniyyət günlərinin, sərgilərin və mübadilələrin və digər tədbirlərun vacibliyi qeyd olunmuşdur.

Azərbaycan xarici siyasət idarəsinin rəhbəri türkmənistanlı həmkarını ölkəmizə səfərə dəvət etmişdir. R.Meredov dəvəti məmnunluqla qəbul etmiş və yaxın zamanlarda səfərin tarixinin diplomatik kanallarla müəyyən olunacağını bildirmişdir.

Səfər çərçivəsində E.Məmmədyarov Qıbçaqda əklil qoymuş, yerli KİV-ə müsahibə vermiş və Azərbaycanın Aşqabaddakı səfirliyinin əməkdaşları ilə görüşmüşdür.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV MOSKVA DÖVLƏT UNİVERSİTETİNİN REKTORU VİKTOR SADOVNİÇİNİ QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 24-də Prezident sarayında Moskva Dövlət Universitetinin rektoru Viktor Sadovniçini qəbul etmişdir.

Prezident İlham Əliyev Azərbaycan ilə Rusiya arasında humanitar sahədə əlaqələrin uğurla inkişaf etdiyini bildirdi. Dövlətimizin başçısı Moskva Dövlət Universiteti ilə Bakı Dövlət Universiteti arasında əməkdaşlığın bu əlaqələrin daha da genişləndirilməsi işinə öz töhfəsini verdiyini vurğuladı.

Viktor Sadovniçi ölkəmizə yenidən səfər etməkdən məmnunluğunu ifadə etdi. Xalqımızın ümummilli lideri ilə dəfələrlə görüşdüyünü xatırlayan qonaq Heydər Əliyevin hələ Sovet İttifaqı dövründə Moskvada yüksək dövlət vəzifəsində çalışarkən təhsilin inkişafına böyük diqqət və qayğı göstərdiyini xatırlatdı. Viktor Sadovniçi rəhbərlik etdiyi təhsil müəssisəsi ilə Bakı Dövlət Universiteti arasında səmərəli əməkdaşlığın bundan sonra da davam etdiriləcəyinə əmin olduğunu bildirdi.

AZƏRBAYCAN RESPUBLİKASININ MİLLİ TƏHLÜKƏSİZLİK KONSEPSİYASININ TƏSDİQ EDİLMƏSİ HAQQINDA AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI

Dünyada baş verən sürətli dəyişikliklər şəraitində ayrı-ayrı dövlətlər və bütövlükdə bəşəriyyət terrorçuluq, etnik separatizm və münaqişələr, transmilli mütəşəkkil cinayətkarlığın artması, kütləvi qırğın silahlarının yayılması, təbii ehtiyatların tükənməsi, əhalinin sayının durmadan çoxalması və kütləvi miqrasiyası, ətraf mühitin çirklənməsi və sair təhlükələrlə üzləşir.

Bu amillər hər bir dövlətin prioritetlərinin, təhlükəsizliyə qarşı risklərin müəyyənləşdirilməsini, həmin risklərin qabaqlanması və aradan qaldırılması üzrə adekvat tədbirlərin həyata keçirilməsini zəruri edir.

Azərbaycan Respublikasının müstəqilliyini, ərazi bütövlüyünü, konstitusiya quruluşunu, xalqın və ölkənin milli maraqlarını daxili və xarici təhdidlərdən qorumağa yönəlmiş siyasətin məqsəd, prinsip və yanaşmalarının müəyyən edilməsi məqsədi ilə qərara alıram:

1. Azərbaycan Respublikasının milli təhlükəsizlik konsepsiyası təsdiq edilsin (əlavə olunur).

2. Azərbaycan Respublikasının milli təhlükəsizliyini təmin edən orqanlar öz fəaliyyətində Azərbaycan Respublikasının milli təhlükəsizlik konsepsiyasının müddəalarını rəhbər tutsunlar.

3. Azərbaycan Respublikasının Nazirlər Kabinetinə tapşırılsın ki, Azərbaycan Respublikası milli təhlükəsizlik konsepsiyasının müddəalarının yerinə yetirilməsinə nəzarəti həyata keçirsin və bu barədə mütəmadi olaraq Azərbaycan Respublikasının Prezidentinə məlumat versin.

4. Azərbaycan Respublikası Prezidentinin 2004-cü il 17 sentyabr tarixli 394 nömrəli Sərəncamı ilə yaradılmış Azərbaycan Respublikasının milli təhlükəsizlik siyasəti sahəsində İşçi Qrupuna tapşırılsın ki:

4.1. üç ay müddətində Azərbaycan Respublikası hərbi doktrinasının layihəsini hazırlayıb Azərbaycan Respublikasının Milli Məclisinin təsdiqinə verilməsi üçün Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

4.2. 2007-2008-ci illər ərzində Azərbaycan Respublikasının milli təhlükəsizlik konsepsiyasında nəzərdə tutulmuş Azərbaycan Respublikasının xarici siyasət strategiyası, müdafiə doktrinası, iqtisadi konsepsiya, mədəniyyət, elm, təhsil, səhiyyə, nəqliyyat konsepsiyalarının layihələrini hazırlayaraq, təsdiq edilməsi üçün Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin.

5. Bu Sərəncam dərc edildiyi gündən qüvvəyə minir.

İlham Əliyev

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 23 may 2007-ci il.

AZƏRBAYCAN RESPUBLİKASININ MİLLİ TƏHLÜKƏSİZLİK KONSEPSİYASI

MÜNDƏRİCAT

Giriş ... 314

1. Təhlükəsizlik mühiti ... 314

2. Azərbaycan Respublikasının milli maraqları ... 315

3. Azərbaycan Respublikasının milli maraqlarına təhdidlər ... 316

3.1. Azərbaycan Respublikasının müstəqilliyi, suverenliyi, ərazi bütövlüyü və konstitusiya quruluşu əleyhinə qəsdlər ... 316

3.2. Qanunun aliliyinə nail olunması, ictimai asayişin qorunması və insan hüquq və əsas azadlıqlarının müdafiəsi sahəsində dövlət funksiyalarını yerinə yetirməyə qarşı fəaliyyət ... 316

3.3. Separatçılıq, etnik, siyasi və dini ekstremizm ... 317

3.4. Terrorçuluq və kütləvi qırğın silahlarının yayılması ... 317

3.5. Regional münaqişələr və transmilli mütəşəkkil cinayətkarlıq

3.6. Azərbaycan Respublikasının enerji infrastrukturuna qarşı fəaliyyət ... 317

3.7. Xarici siyasi, hərbi və ya iqtisadi asılılıq ... 317

3.8. İqtisadi qeyri-sabitlik ... 317

3.9. Peşəkar insan ehtiyatlarının çatışmazlığı ... 318

3.10. Regional hərbiləşdirmə ... 318

3.11. Ekoloji problemlər ... 318

4. Azərbaycan Respublikasının milli təhlükəsizlik siyasətinin əsasə istiqamətləri ... 319

4.1. Təhlükəsizliyin xarici siyasət vasitələri ilə təmin edilməsi ... 319

4.1.1. Azərbaycan Respublikasının ərazi bütövlüyünün bərpa olunması ... 319

4.1.2. Avropa və Avratlantik strukturlarına inteqrasiya ... 320

4.1.3. Beynəlxalq təhlükəsizliyə töhfə ... 321

4.1.4. Beynəlxalq təşkilatlarla əməkdaşlıq ... 321

4.1.5. Regional əməkdaşlıq və ikitərəfli münasibətlər ... 323

4.1.5.1. Region ölkələri ilə əməkdaşlıq ... 324

4.1.5.2. Qeyri-region ölkələri ilə əməkdaşlıq ... 325

4.2. Müdafiə qabiliyyətinin möhkəmləndirilməsi ... 326

4.3. Təhlükəsizliyin daxili siyasət vasitələri ilə təmin edilməsi ... 328

4.3.1. Demokratiyanın möhkəmləndirilməsi ... 328

4.3.2. Milli və dini tolerantlıq mühitinin qorunması ... 328

4.3.3. Elm, təhsil, mədəniyyət və mənəviyyatın qorunması ... 329

4.3.4. İqtisadi və sosial inkişaf ... 329

4.3.5. Daxili təhlükəsizliyin möhkəmləndirilməsi ... 330

4.3.6. Sərhəd təhlükəsizliyinin möhkəmləndirilməsi ... 330

4.3.7. Miqrasiya siyasəti ... 331

4.3.8. Enerji təhlükəsizliyi siyasəti ... 332

4.3.9. Nəqliyyat təhlükəsizliyi siyasəti ... 333

4.3.10. Fövqəladə idarəetmə, ətraf mühitin və əhalinin sağlamlığının mühafizəsi ... 333

4.3.11. İnformasiya təhlükəsizliyi siyasəti ... 334

Yekun müddəalar ... 335

GİRİŞ

Çoxəsrlik dövlətçilik tarixi keçmiş, 1918-ci ildə Şərqdə ilk demokratik respublika qurmuş və 1920-ci ildə müstəqilliyini itirmiş Azərbaycan Sovet İttifaqının süqutundan sonra, 1991-ci ildə öz dövlət müstəqilliyini bərpa etmişdir. Azərbaycan xalqı daha geniş demokratik dəyərlərə qovuşmaq imkanından istifadə edərək, özünün milli dövlətçilik ənənələrinə, tarixi və mədəni irsinə söykənən müasir demokratik hüquqi dövlət quruculuğu yolunu seçmişdir.

Müstəqilliyin ilk dövründə gənc respublika Ermənistan tərəfindən hərbi təcavüzə məruz qalmış, daxili qeyri-sabitlik, iqtisadi böhran, keçid dövrünün çətinlikləri və digər ciddi problemlərlə üzləşmişdir. Buna baxmayaraq, Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin rəhbərliyi ilə Azərbaycan Respublikası bütün çətinlikləri dəf edərək, düzgün strateji inkişaf yolunu müəyyən edərək, hazırda uğurla irəliləyən, regionda və dünyada öz mövqelərini möhkəmləndirən iqtisadi, siyasi və digər baxımlardan dinamik inkişaf edən müasir ölkəyə çevrilməkdədir. Belə ki, Azərbaycan Xəzər-Qafqaz məkanında regional əməkdaşlıq üçün olduqca mühüm, bir çox hallarda isə həlledici dövlət olub, xüsusən enerji və nəqliyyat layihələrinin həyata keçirilməsində əvəzsiz rol oynamaqdadır. Bu ümumi strategiyanın başlıca məqsədi Azərbaycan Respublikasının çiçəklənməsi, davamlı inkişafı və əhalinin rifahının təmin edilməsindən, eləcə də bütün regionda təhlükəsizlik və sabitliyin təmin olunmasına töhfə verməkdən ibarətdir.

Azərbaycan Respublikasının milli təhlükəsizlik konsepsiyası (bundan sonra Konsepsiya) dövlətin müstəqilliyini, ərazi bütövlüyünü və demokratik inkişaf yolunu, strateji seçimi kimi Avratlantik məkana inteqrasiyasını, bununla yanaşı tarazlaşdırılmış xarici siyasətinin çoxşaxəliliyini vurğulayan, Azərbaycan Respublikasında şəxsiyyət, cəmiyyət və dövləti xarici və daxili təhdidlərdən qorumağa yönəlmiş siyasət və tədbirlərin məqsəd, prinsip və yanaşmalarının məcmusudur.

1. TƏHLÜKƏSİZLİK MÜHİTİ

Azərbaycan Respublikasının təhlükəsizlik mühiti onun suverenliyi, ərazi bütövlüyü, sərhədlərinin toxunulmazlığı, milli maraqları, davamlı inkişafı, əhalisinin rifah və dəyərlərinin qorunmasına təsir edən amillərin məcmusudur.

Qərb və Şərq dünyalarının qovuşduğu coğrafi məkanda yerləşən Azərbaycan Respublikası bir çox sivilizasiyaların müsbət məqamlarını özündə cəmləşdirmişdir. Avropanın mütərəqqi dəyərlərini paylaşan və Avratlantik təhlükəsizlik arxitekturasının ayrılmaz bir halqası olan Azərbaycan Respublikası bu məkanın təhlükəsizliyinə öz töhfəsini verməkdədir. Eyni zamanda, islam dünyasının bir hissəsi kimi Azərbaycan Respublikası bu mədəniyyətin irs və təfəkküründə bölüşür.

Azərbaycan Respublikasının yerləşdiyi və hazırda qeyri-sabit olan region dostluq və əməkdaşlıq ruhlu regional və beynəlxalq tərəfdaşlarla birlikdə inkişaf üçün səmərəli istifadə oluna biləcək geniş potensiala və imkanlara malikdir. Azərbaycan Respublikasının zəngin təbii ehtiyatları ölkənin çiçəklənməsi və milli rifahın təmin olunması üçün perspektivlər açır, onu beynəlxalq əhəmiyyətli enerji mənbəyi və beynəlxalq enerji təchizatı şəbəkəsinin mühüm tərkib hissəsinə çevirir. Azərbaycan Respublikasının və tə-

rəfdaş ölkələrin iqtisadiyyatlarının inkişafına artıq töhfə verən beynəlxalq əhəmiyyətli nəqliyyat və kommunikasiya dəhlizlərinin inkişaf etdirilməsi, neft və qaz boru kəmərlərinin inşası region ölkələrinin əməkdaşlığının bariz nümunəsidir.

Ölkənin yerləşdiyi coğrafi şərait ona mühüm üstünlüklər verməklə yanaşı, eyni zamanda, onu bir sıra təhlükəsizlik problemləri ilə də üzləşdirir. Bu problemlərin ən ağır və bariz nümunəsi Azərbaycan Respublikasının qonşu Ermənistan tərəfindən hərbi təcavüzə məruz qalması və bunun nəticəsində ölkə ərazisinin bir hissəsinin işğal olunması və təxminən bir milyon azərbaycanlının məcburi köçkün və qaçqına çevrilməsidir. Təcavüz zamanı Azərbaycan Respublikasının vətəndaşlarına qarşı soyqırımı və terror aktları daxil olmaqla, sülhə və insanlığa qarşı ən ağır cinayətlər törədilmişdir və zəbt olunmuş ərazilərdə transsərhəd mütəşəkkil cinayətkar, o cümlədən beynəlxalq terrorçu qruplar tərəfindən qeyri-qanuni fəaliyyət həyata keçirilməkdədir. İndiki Ermənistan və Azərbaycan Respublikasının işğal olunmuş ərazilərində azərbaycanlılara məxsus tarixi, mədəni və arxeoloji abidələr kütləvi surətdə dağıdılmış, təbii sərvətlər talan edilmiş, ətraf mühitə ciddi ziyan vurulmuşdur. Azərbaycan Respublikasının məruz qaldığı bu təcavüz onun hazırkı təhlükəsizlik mühitində və milli təhlükəsizlik siyasətinin müəyyən edilməsində əsas amildir.

Eyni zamanda, Azərbaycan Respublikasının təhlükəsizlik mühiti üçün beynəlxalq terrorçuluq, qeyri-qanuni miqrasiya, transmilli mütəşəkkil cinayətkarlıq, insan alveri, narkotik vasitələrin qaçaqmalçılığı və kütləvi qırğın silahlarının yayılması kimi təhdidlərin mövcudluğu dövlət qarşısında müəyyən vəzifələr qoyur.

2. AZƏRBAYCAN RESPUBLİKASININ MİLLİ MARAQLARI

Azərbaycan Respublikasının milli maraqları Azərbaycan xalqının fundamental dəyər və məqsədlərini, habelə insan, cəmiyyət və dövlətin tərəqqisini təmin edən siyasi, iqtisadi, sosial və digər təlabatların məcmusundan ibarət olmaqla, aşağıdakılardır:

dövlətin müstəqilliyinin və ərazi bütövlüyünün qorunması, onun beynəlxalq səviyyədə tanınmış sərhədlərinin toxunulmazlığının təmin edilməsi;

Azərbaycan xalqının vahidliyinin qorunub saxlanılması, azərbaycançılıq ideyasının təşviqi;

vətəndaş cəmiyyətinin formalaşdırılması, insan hüquq və əsas azadlıqlarının təmin olunması;

demokratik və vətəndaş cəmiyyəti təsisatlarının inkişafı, qanunun aliliyi, asayişin təmini yolu ilə dövlətin funksiyalarının yerinə yetirilməsinin gücləndirilməsi, əhalinin təhlükəsizliyinin qorunması;

beynəlxalq öhdəlikləri yerinə yetirmək, qlobal və regional təhlükəsizlik və sabitliyə töhfə vermək üçün dəyərlərini bölüşdüyü beynəlxalq təşkilatlarla inteqrasiyaya yönəlmiş əməkdaşlığın inkişaf etdirilməsi;

bazar iqtisadiyyatının inkişafı, onun hüquqi əsaslarının təkmilləşdirilməsi, iqtisadi sabitliyin təmin olunması məqsədi ilə daxili və xarici sərmayələr üçün əlverişli şəraitin yaradılması;

təbii sərvətlərdən tam səmərəli istifadə edilməsi, davamlı iqtisadi inkişaf, ətraf mühitin qorunması, təhsil, elmi və texnoloji potensialın artırılması yolu ilə Azərbaycan xalqının gələcək inkişafının, əhalinin layiqli həyat səviyyəsinin və fiziki sağlamlığının təmin edilməsi;

dünya azərbaycanlılarının bölüşdüyü dəyərlərə əsaslanan milli özünəməxsusluğun və həmrəyliyin möhkəmləndirilməsi;

Azərbaycan xalqının mədəni-tarixi irsinin və mənəvi dəyərlərinin qorunması, eləcə də ümumbəşəri dəyərlərlə zənginləşdirilməsi, dilinin, özünüdərk, vətənpərvərlik və milli iftixar hissinin, intellektual potensialının inkişaf etdirilməsi.

3. AZƏRBAYCAN RESPUBLİKASININ MİLLİ TƏHLÜKƏSİZLİYİNƏ TƏHDİDLƏR

Azərbaycan Respublikasının milli təhlükəsizliyinin təmin edilməsində əsas vəzifələrdən biri onun milli təhlükəsizliyinə təhdidlərin aradan qaldırılması və ya nəzarətdə saxlanılmasıdır.

Azərbaycan Respublikasının milli təhlükəsizliyinə təhdidlər aşağıdakılardır:

3.1. Azərbaycan Respublikasının müstəqilliyi, suverenliyi, ərazi bütövlüyü və konstitusiya quruluşu əleyhinə qəsdlər

Beynəlxalq hüquqa uyğun olaraq hər bir dövlətin onun müstəqilliyi, suverenliyi, ərazi bütövlüyü və konstitusiya quruluşu əleyhinə yönəlmiş açıq və gizli fəaliyyətdən özünü qorumaq hüququ vardır. Azərbaycan Respublikasının suverenliyi və ərazi bütövlüyünə qarşı Ermənistanın təcavüzkar siyasəti bu cür fəaliyyətin bariz nümunəsidir.

Ölkənin sürətlə inkişaf edən iqtisadiyyatında aparılan islahatlara və əldə edilən mühüm nailiyyətlərə baxmayaraq, Ermənistanın Azərbaycan Respublikasına qarşı təcavüzü ciddi siyasi və sosial çətinliklər yaradır. Bu problem Azərbaycan Respublikasının milli maraqlarına qarşı ən ciddi təhdiddir və regiondan kənara da öz təsirini göstərməkdədir.

Münaqişənin tənzimlənməsinin nəticələrindən asılı olmayaraq, monoetnik dövlətçilik, etnik təmizləmə və ərazi ekspansionizminin Ermənistanın dövlət siyasətinin tərkib hissəsi kimi qalmasının iki ölkə arasında münasibətlərə gələcəkdə də mənfi təsir göstərəcəyi qaçılmazdır.

Bundan əlavə, bir sıra ekstremist ünsürlərin Azərbaycan Respublikasında etnik və dini zəmində əlavə çətinliklər yaratmaq cəhdləri də diqqət yetirilməli amillərdəndir.

3.2. Qanunun aliliyinə nail olunması, ictimai asayişin qorunması və insan hüquq və əsas azadlıqlarının müdafiəsi sahəsində dövlət funksiyalarını yerinə yetirməyə qarşı fəaliyyət

1990-cı illərin əvvəllərində bu problemin bir sıra aspektləri ilə üzləşmiş Azərbaycan Respublikasının demokratik dövlət quruluşu əleyhinə çalışan müəyyən daxili və xarici qüvvələrin dövlət funksiyalarının yerinə yetirilməsinə qarşı cəhdləri milli təhlükəsizliyə təhdid törədən mümkün fəaliyyətlər sırasındadır.

3.3. Separatçılıq, etnik, siyasi və dini ekstremizm

Separatçılıq, etnik, siyasi və dini ekstremizm özünün istənilən formasında dövlətin və cəmiyyətin fundamental əsaslarını sarsıtmaqla, ölkənin milli təhlükəsizliyinə ciddi təhlükə mənbəyi ola bilər.

3.4. Terrorçuluq və kütləvi qırğın silahlarının yayılması

Əsas terrorçu qrupların yerləşdiyi və kütləvi qırğın silahlarının yayılması problemlərinin olduğu bölgələrə yaxınlıq ölkə üçün potensial təhdid yaradır. Kütləvi qırğın silahları və ya onların istehsalat texnologiyalarının terrorçuluq məqsədi ilə əldə olunması ehtimalı bu təhdidləri daha da kəskinləşdirə bilər.

3.5. Regional münaqişələr və transmilli mütəşəkkil cinayətkarlıq

Azərbaycan Respublikası ərazisinin bir hissəsinin Ermənistan tərəfindən işğalının davam etməsi və qonşu dövlətlərdə həll edilməmiş münaqişələr nəticəsində əmələ gəlmiş "nəzarətsiz" ərazilərin mövcudluğu transmilli mütəşəkkil cinayətkarlığı və digər qeyri-qanuni fəaliyyətləri ölkənin və bütövlükdə regionun təhlükəsizliyinə əsas təhdidlərdən birinə çevirmişdir.

Region ölkələrində münaqişələrin alovlanması Azərbaycan Respublikasının milli təhlükəsizliyi üçün təhdid yaradır. Regiondakı münaqişələr Azərbaycan Respublikasının xarici iqtisadi münasibətlərinə ciddi ziyan vura, ölkəyə kütləvi qaçqın axını ilə nəticələnə və qeyri-qanuni silah alveri, insan alveri, narkotik vasitələrin qanunsuz dövriyyəsi və digər qeyri-qanuni fəaliyyətlər daxil olmaqla, transmilli cinayətkarlığı artıra bilər.

3.6. Azərbaycan Respublikasının enerji infrastrukturuna qarşı fəaliyyət

Enerji ehtiyatlarının işlənməsindən və tranzitindən əldə olunmuş gəlirlər Azərbaycan Respublikası iqtisadiyyatının əsasını təşkil edir. Bunu nəzərə alaraq, siyasi vasitələrə və ya infrastruktura fiziki zərər vurmaq yolu ilə sənayenin bu sahəsinin sıradan çıxarılmasına cəhdlər mümkün təhdidlər sırasındadır.

3.7. Xarici siyasi, hərbi və ya iqtisadi asılılıq

Azərbaycan Respublikası beynəlxalq aləmdə gedən inteqrasiya və əməkdaşlıq prosesləri çərçivəsində digər dövlətlərlə qarşılıqlı faydalı münasibətlərin qurulmasında maraqlıdır. Bununla belə, Azərbaycan Respublikasının beynəlxalq münasibətlərdə xarici siyasi, hərbi və ya iqtisadi asılılığa düşməsi onun milli maraqlarının təmin olunmasına təhdid yarada bilən amillərdəndir.

3.8. İqtisadi qeyri-sabitlik

Müstəqilliyin ilk illərində hərbi təcavüzə məruz qalma, bazar iqtisadiyyatına keçid və beynəlxalq iqtisadi sistemə inteqrasiya ilə bağlı çətinliklər nəticəsində Azərbaycan Respublikası ötən əsrin 90-cı illərinin birinci yarısında ciddi iqtisadi böhran keçirmişdir. Buna baxmayaraq, Azərbaycan Respublikası bazar iqtisadiyyatına keçməkdə israrlı olmuş, qapılarını xarici sərmayələrə açmış və xüsusilə energetika sektorunda böyük uğurlar əldə etmişdir. Bununla belə, sürətlə artan neft və qaz gəlirlərindən həddən artıq asılılıq makroiqtisadi tarazlığı poza və beləliklə, ölkəni potensial qlobal və regional iqtisadi böhranların təsirinə qarşı müdafiəsiz vəziyyətə sala bilər.

3.9. Peşəkar insan ehtiyatlarının çatışmazlığı

Təhsil sahəsi müstəqilliyin ilk illərindəki mürəkkəb sosial-iqtisadi vəziyyətlə bağlı – maliyyə çatışmazlığı və struktur problemləri daxil olmaqla – mənfi nəticələri bu gün də hiss edilən ciddi çətinliklərlə üzləşmişdir. Peşəkar milli işçi qüvvəsinin və idarəetmə sektorunun inkişafı üçün zəruri olan bütün səviyyələrdə təlim və tədrisin təmin edilməsinə qadir olan mütərəqqi təhsil sisteminin inkişafındakı və idarə edilməsindəki uğursuzluq Azərbaycan Respublikasının inkişafına uzaq perspektivdə mənfi təsir göstərə bilər.

3.10. Regional hərbiləşdirmə

Regionda silahların və silah sistemlərinin həddən artıq cəmləşməsi regional sabitliyə xələl gətirir. Bu, region ölkələri arasında hərbi tarazlığı poza bilər. Rasional milli təhlükəsizlik maraqlarından artıq hərbiləşmə, o cümlədən qeyri-effektiv nəzarət edilən xarici hərbi bazalar səhv qiymətləndirməyə və regional silahlanma yarışına səbəb ola bilər. Belə artan hərbiləşmənin digər aspekti ondan ibarətdir ki, bu, məhdud iqtisadi resursların sosial-iqtisadi inkişafdan yayınmasına və qarşılıqlı inamın pozulmasına gətirib çıxara bilər.

3.11. Ekoloji problemlər

Azərbaycan Respublikasındakı ekoloji problemlər Sovet İttifaqının enerji ehtiyatına olan tələbatının ödənilməsi məqsədi ilə əsasən Abşeron yarımadasında və Xəzər dənizində ekoloji nəticələr nəzərə alınmadan qeyri-təkmil üsullarla onilliklər ərzində aparılmış neft hasilatı ilə bağlıdır.

Bundan əlavə, Azərbaycan Respublikasının Ermənistan tərəfindən işğal olunmuş ərazilərində flora və faunanın kütləvi şəkildə məhv edilməsi, o cümlədən bu ərazilərdə törədilən genişmiqyaslı yanğınlar ölkə üçün ən böyük ekoloji problemlərdən birinə çevrilmişdir.

Azərbaycan Respublikasının şirin su ehtiyatlarının böyük həcminin qonşu ölkələrdə formalaşması və bu ölkələrin ərazilərində kimyəvi, radioaktiv və digər zərərli maddələrlə intensiv çirklənməyə məruz qalması əhalinin içməli su ilə təmin olunmasında problemlər yaradır. Bundan əlavə, Ermənistan ərazisində seysmik zonada yerləşən və texnoloji baxımdan köhnəlmiş Metsamor Atom Elektrik Stansiyası bütövlükdə region üçün təhlükə mənbəyidir.

Ətraf mühitin çirklənməsi, münbit torpaqların deqradasiyası, təbii resurslardan qeyri-rasional istifadə, sənaye və məişət tullantılarının tələb olunan səviyyədə emal olunmaması ciddi problem mənbəyidir.

Ekoloji problemlər iqtisadi və sosial həyata mənfi təsir göstərir, ictimai sağlamlığa, cəmiyyətin maddi sərvətinə və dövlətin müvafiq qurumlarının fəaliyyətinə ciddi maneələr yaradır.

4. AZƏRBAYCAN RESPUBLİKASININ MİLLİ TƏHLÜKƏSİZLİK SİYASƏTİNİN ƏSAS İSTİQAMƏTLƏRİ

Suveren dövlət kimi, Azərbaycan Respublikası daxili və xarici siyasət vasitələrindən istifadə edərək mövcud təhlükəsizlik mühitində təhdidlərin nəzarət altında saxlanılmasına və aradan qaldırılmasına, habelə ölkənin milli maraqlarının təmin edilməsinə yönəlmiş milli təhlükəsizlik siyasətini formalaşdırır və həyata keçirir.

Azərbaycan Respublikasının milli təhlükəsizlik siyasəti xarici və daxili təhlükəsizlik arasında mövcud ayırıcı xətləri əhatə edən və adekvat çoxfunksiyalı tədbirlər tələb edən təhdidlərin müxtəlif ölçülü xarakterini nəzərə alır.

4.1. Təhlükəsizliyin xarici siyasət vasitələri ilə təmin edilməsi

4.1.1. Azərbaycan Respublikasının ərazi bütövlüyünün bərpa olunması

Azərbaycan Respublikasının ərazisi vahiddir, toxunulmazdır və bölünməzdir. Beynəlxalq hüquqda təsbit olunmuş bütün vasitələrdən istifadə etməklə öz ərazi bütövlüyünü bərpa etmək Azərbaycan Respublikasının milli təhlükəsizlik siyasətinin ən ümdə vəzifəsidir.

Ərazilərin zəbt edilməsi və etnik təmizləmə ümumbəşəri dəyərlərə və Avropa dəyərlərinə, eləcə də sülh, demokratiya, sabitlik və regional əməkdaşlıq prinsip və ideyalarına ziddir.

Ermənistan-Azərbaycan münaqişəsinin həll olunması ilə əlaqədar Azərbaycan Respublikasının səyləri dövlətlərarası siyasi razılaşmanın əldə olunması ilə məhdudlaşmır və bu razılaşmaya nail olduqdan sonra iki xalq arasında davamlı, qarşılıqlı sülhün və anlaşmanın bərqərar olmasına yönələcəkdir.

Azərbaycan Respublikası ona qarşı təcavüzün və ərazisinin bir hissəsinin işğalının nəticələrini aradan qaldırmaq üçün münaqişənin ATƏT-in Minsk qrupu çərçivəsində sülh yolu ilə nizamlanmasının tərəfdarı olmaqda davam edir.

Münaqişənin nizamlanmasının hüquqi və siyasi əsasları Birləşmiş Millətlər Təşkilatı (BMT) Təhlükəsizlik Şurasının 1993-cü ildə qəbul etdiyi 822, 853, 874 və 884 saylı qətnamələrinə, həmçinin ATƏT-in, Avropa Şurasının müvafiq sənəd və qərarlarında əks olunmuş beynəlxalq hüququn norma və prinsiplərinə söykənir. Bu sənədlər Azərbaycan Respublikasının suverenliyini, ərazi bütövlüyünü və beynəlxalq aləmdə tanınmış sərhədlərinin toxunulmazlığını bir daha təsdiq etmişdir.

Münaqişə Azərbaycan Respublikasının işğal olunmuş bütün ərazilərindən Ermənistan silahlı qüvvələrinin çıxarılması, bu ərazilərdə Azərbaycan Respublikasının suveren hüquqlarının bərpa edilməsi, məcburi surətdə çıxarılmış azərbaycanlıların öz doğma yurd-yuvalarına qayıtması, Dağlıq Qarabağ bölgəsinin azərbaycanlı və erməni icmalarının dinc yanaşı yaşamasını və Azərbaycan Respublikasının tərkibində yüksək səviyyəli özünüidarəetməni təmin edən hüquqi statusun qanuni və demokratik proses çərçivəsində işlənib hazırlanması, ölkənin ümumi iqtisadi inkişafı, regional inteqrasiya çərçivəsində bu bölgənin kommunikasiyalarının bərpası və sosial-iqtisadi yüksəlişi üçün şəraitin yaradılması əsasında həll olunmalıdır.

Azərbaycan Respublikası Ermənistan tərəfindən işğal olunmuş ərazilərində beynəlxalq

hüququn norma və prinsiplərinin pozulması və həmin ərazilərdə qanunsuz fəaliyyətlə bağlı məsələləri daim diqqət mərkəzində saxlayır. Ermənistanın vaxtilə azərbaycanlılar yaşamış bölgələrində və Azərbaycan Respublikasının işğal olunmuş ərazilərində tarixi və mədəni irsin məhv edilməsi, azərbaycanlıların yaşayış məntəqələrinin simasının dəyişdirilməsi kimi faktların araşdırılması və buna müvafiq qiymət verilməsi üçün Azərbaycan Respublikası mövcud siyasi və hüquqi vasitələrdən istifadə edərək bundan sonra da lazımi tədbirlər görəcəkdir. İşğal olunmuş ərazilərdə qeyri-qanuni məskunlaşdırma və təbii sərvətlərin istismarı və mənimsənilməsi bu baxımdan xüsusi diqqət mərkəzində saxlanılacaqdır.

Ermənistan-Azərbaycan münaqişəsi ilə bağlı dövlət orqanlarının və vətəndaş cəmiyyətinin beynəlxalq səviyyədə və ölkə daxilində fəaliyyətlərinin və səylərinin uzlaşdırılması, Azərbaycan Respublikasına qarşı təcavüz və ərazisinin bir hissəsinin işğalı zamanı azərbaycanlılara qarşı törədilmiş soyqırımı, insanlıq əleyhinə və müharibə cinayətlərinin təqibi, "erməni problemi"nin hərtərəfli, dərindən tədqiqi, həqiqətlərin üzə çıxarılması və beynəlxalq ictimaiyyətin diqqətinə çatdırılması, münaqişəyə beynəlxalq səviyyədə hüquqi qiymət verilməsinin təmini məqsədi ilə kompleks işlərin görülməsi və sair istiqamətlərdə ardıcıl tədbirlər həyata keçirilməlidir.

4.1.2. Avropa və Avratlantik strukturlarına inteqrasiya

Azərbaycan Respublikası Avropa və Avratlantik siyasi, təhlükəsizlik, iqtisadi və digər strukturlarına inteqrasiya strateji məqsədini güdür. Azərbaycan Respublikası Avratlantik strukturları ilə tərəfdaşlığı bütövlükdə Avratlantik məkanında ümumi təhlükəsizliyə, iqtisadi inkişafa və demokratiyaya dəstək verəcək vasitə kimi görür. Azərbaycan Respublikası Avropa və Avratlantik məkanında qeyri-sabitliyin, münaqişələrin və təhdidlərin aradan qaldırılmasında NATO ilə birgə işləyir və təhlükəsizliyin bölünməzliyi prinsipinə zidd coğrafi və siyasi ayrı-seçkilik olmadan Avropada və yerləşdiyi regionda vahid təhlükəsizlik sisteminin qurulması yükünü bölüşmək əzmindədir. Azərbaycan Respublikası Avratlantik Tərəfdaşlıq Şurası və NATO-nun "Sülh naminə tərəfdaşlıq" Proqramı çərçivəsində NATO ilə mümkün olan tərəfdaşlıq vasitələrindən tam gücü ilə istifadə edir. Bu baxımdan Fərdi Tərəfdaşlıq üzrə Əməliyyat Planı NATO ilə əməkdaşlığın yaxın və orta perspektivdə daha da gücləndirilməsi yolunda mühüm bir vasitədir. Fərdi Tərəfdaşlıq üzrə Əməliyyat Planından Azərbaycan Respublikasının təhlükəsizlik sektorunun islahatlar yolu ilə NATO standartlarına yaxınlaşdırılması və siyasi dialoqun inkişaf etdirilməsi üçün bir mexanizm kimi bundan sonra da istifadə olunacaqdır. Avropa məkanına daha sıx inteqrasiyanın zəruriliyi mövqeyindən çıxış edən Azərbaycan Respublikası Avropa İttifaqı ilə çoxşaxəli qarşılıqlı əlaqələr yaratmışdır. Azərbaycan Respublikasının Avropa İttifaqı ilə münasibətləri "MDB Ölkələrinə Texniki Dəstək" (TACIS), "Avropa-Qafqaz-Asiya Nəqliyyat Dəhlizi" (TRACECA) və digər proqramlar çərçivəsində inkişaf etdirilir. Azərbaycan Respublikası ilə Avropa İttifaqı arasında 1999-cu ildən qüvvəyə minmiş Tərəfdaşlıq və Əməkdaşlıq Sazişi siyasi dialoq, demokratiyanın inkişafına kömək, eləcə də iqtisadi əməkdaşlıq və sərmayə qoyuluşu üçün əlverişli çərçivə yaradır. Azərbaycan Respublikasının 2004-cü ildə Avropa İttifaqının "Yeni Qonşuluq Siyasəti"nə daxil edilməsi və bu siyasət çərçivəsində 2006-cı ildə qəbul edilmiş Azərbaycan-Avropa İttifaqı Fəaliyyət Planının həyata keçirilməsi siyasi dialoq və siyasi, iqtisadi və institusional islahatlar sahəsində əməkdaşlığı daha da inkişaf

etdirərək keyfiyyətcə yeni mərhələyə keçid üçün zəmin yaradır.

Azərbaycan Respublikası ilə Avropa İttifaqı arasında 2006-cı ildə imzalanmış "Enerji sahəsində Strateji Tərəfdaşlıq haqqında" Anlaşma Memorandumu Avropa İttifaqının üzvü olan ölkələrin enerji mənbələri və nəqli yollarının çoxşaxəliliyinin təmin edilməsi, Azərbaycan Respublikasında enerji infrastrukturunun inkişafı və müasirləşdirilməsi, enerji resurslarından səmərəli istifadə olunması və tükənməz enerji mənbələrindən yararlanmasına öz töhfəsini verəcəkdir. Azərbaycan Respublikasının Avropa İttifaqı ilə daha yaxından əməkdaşlıq etməsi Qafqazda sabitliyə töhfə verəcək və Avropa dəyərlərinin yayılmasına kömək edəcəkdir.

4.1.3. Beynəlxalq təhlükəsizliyə töhfə

Azərbaycan Respublikası beynəlxalq sülhün və sabitliyin qorunub saxlanmasına yönəlmiş birgə tədbirlərdə iştirak etməklə, beynəlxalq və regional təhlükəsizliyə töhfə vermək üçün davamlı səylər göstərir.

2001-ci il 11 sentyabr hücumlarından sonra terrorçuluqla mübarizə beynəlxalq gündəliyin ən vacib məsələlərindən birinə çevrilmişdir. Beynəlxalq ictimaiyyətin terrorçuluğa qarşı mübarizəsini tam dəstəkləyən Azərbaycan Respublikası istənilən pərdə altında həyata keçirilən terror fəaliyyəti əleyhinə bir sıra mühüm addımlar atmışdır. Azərbaycan Respublikası beynəlxalq terrorçu təşkilatlara qarşı mübarizəni dəstəkləmək məqsədi ilə öz hava məkanını və hava limanlarını açıq elan etmişdir. Azərbaycan Respublikası, həmçinin qlobal və regional səviyyədə terrorçuluğa qarşı mübarizə məqsədi ilə qəbul edilmiş bütün konvensiyaların iştirakçısıdır.

Azərbaycan Respublikası ən həssas bölgələrdə vəziyyətin sabitləşməsinə çalışır. Azərbaycan sülhməramlıları Serbiyanın Kosovo əyalətində və Əfqanıstanda NATO-nun başçılığı ilə həyata keçirilən sülhməramlı əməliyyatlarda, İraqda beynəlxalq koalisiyanın tərkibində təhlükəsizliyin təmin olunmasında iştirak edirlər.

Azərbaycan Respublikası silahlara nəzarət və onların yayılmaması sahəsində müvafiq beynəlxalq müqavilələrin iştirakçısı kimi, beynəlxalq təhlükəsizliyin təmin olunmasına yönəlmiş səyləri tam dəstəkləyir. Beynəlxalq silahların yayılmaması rejiminin zəifləməsindən ciddi narahat olan Azərbaycan Respublikası adekvat nəzarətin tətbiqi üçün beynəlxalq ictimaiyyət və müvafiq təşkilatlarla əməkdaşlığını davam etdirəcəkdir.

Azərbaycan Respublikası onun Ermənistan tərəfindən işğal edilmiş ərazilərində silahlara nəzarət mexanizminin tətbiq olunmamasından narahatdır. Beynəlxalq nəzarətdən kənarda qalan bu ərazilərdə çoxlu silah və sursatın olması regional sülhə ciddi təhdidlər yaradır.

4.1.4. Beynəlxalq təşkilatlarla əməkdaşlıq

Azərbaycan Respublikasının beynəlxalq təşkilatların işində fəal iştirak etməsi onun təhlükəsizliyi və xarici siyasəti üçün mühüm əhəmiyyət kəsb edir. Miqyas və nüfuzundan asılı olmayaraq, universal və regional beynəlxalq təşkilatlar dünyada yaranan yeni təhdidlərlə mübarizədə getdikcə daha çox rol oynayırlar. Belə ki, beynəlxalq təşkilatlar təhdidlərin aradan qaldırılmasına və ya onların qarşısının alınmasına yardım etməklə yanaşı, Azərbaycan Respublikasının milli maraqlarının qlobal siyasətdə müdafiəsinə imkanlar yaradırlar. Eyni zamanda beynəlxalq təşkilatlar Azərbaycan Respublikasının

üzləşdiyi təhlükəsizlik problemlərinə tərəfdaş dövlətlərin diqqətini cəlb etmək üçün əlverişli forum rolunu oynayırlar.

Bu baxımdan, universal və regional beynəlxalq təşkilatların mövcudluğu, inkişafı və müasir dünyada baş verən dəyişikliklərə uyğunlaşması Azərbaycan Respublikası üçün əhəmiyyətlidir.

Azərbaycan Respublikası 1992-ci ildən üzvü olduğu BMT-nin beynəlxalq sülhün və təhlükəsizliyin bərqərar olmasında, davamlı inkişafın və demokratikləşmənin qorunub saxlanmasında əvəzsiz rol oynadığını qəbul edir. Azərbaycan Respublikasının BMT-yə göstərdiyi maraq Ermənistan-Azərbaycan münaqişəsinin həlli ilə məhdudlaşmır. Azərbaycan Respublikası BMT dəyərlərini bölüşərək insan hüquqları, iqtisadi və sosial sahələrdə həyata keçirilən müxtəlif proqramlar çərçivəsində BMT ilə əməkdaşlığı genişləndirir. Azərbaycan Respublikası beynəlxalq ictimaiyyətin BMT və digər qurumlar çərçivəsində terrorçuluğa qarşı mübarizəsinə töhfə verməkdədir. Azərbaycan Respublikası XXI əsrin problem və təhdidlərinə səmərəli cavab vermək üçün BMT-nin iş qabiliyyətinin artırılması məqsədi ilə, o cümlədən beynəlxalq hüquq sisteminin möhkəmləndirilməsi və qəbul edilmiş qərarların icrasının təmini istiqamətində bu təşkilat daxilində islahatların aparılmasını dəstəkləyir.

Azərbaycan Respublikasının 1992-ci ildən üzvü olduğu ATƏT Avropa qitəsinin bütün dövlətlərini əhatə edən və onlar arasında münasibətlərin və ümumi təhlükəsizliyin norma və prinsiplərini təsbit edən yeganə regional təşkilatdır. ATƏT-in Helsinki Yekun Aktı və digər sənədləri regionda sülhün və təhlükəsizliyin təmin edilməsi üçün prinsipial siyasi əsasdır.

Ermənistan-Azərbaycan münaqişəsinin həll edilməsində oynadığı rol baxımından ATƏT-lə əməkdaşlıq Azərbaycan Respublikasının xarici siyasətində xüsusi yer tutur. Bununla yanaşı, Azərbaycan Respublikası digər sahələrdə də ATƏT-lə əməkdaşlıq edir.

Azərbaycan Respublikası ATƏT-in yeni siyasi mühitdə oynadığı mühüm rolu nəzərə alaraq, təşkilatın səmərəliliyinin, xüsusən də onun prinsiplərinə riayət edilməsi istiqamətində bütün təşkilat üzvlərinin xoşməramlı niyyəti və fəal iştirakı şəraitində müvafiq islahatların aparılması yolu ilə onun rolunun artırılmasında maraqlıdır.

Azərbaycan Respublikasının Avropa Şurası ilə əməkdaşlığı Avropa xalqları ailəsinə inteqrasiyanı və Avropa standart və dəyərlərindən bəhrələnməni özündə ehtiva edir. Azərbaycan Respublikası 2001-ci ildən üzvü olduğu Avropa Şurası ilə əməkdaşlıq çərçivəsində öz milli qanunvericiliyinin Avropa standartlarına uyğunlaşdırılması istiqamətində tədbirlər görür. Ölkəmiz təşkilatın fundamental sənədlərindən olan "İnsan hüquq və əsas azadlıqlarının müdafiəsi haqqında" Avropa Konvensiyasını və onun müvafiq protokollarını 2001-ci il yanvarın 25-də imzalamış, 2001-ci il dekabrın 25-də isə ratifikasiya etmişdir.

İslam dünyasının tərkib hissəsi olan Azərbaycan Respublikası İslam Konfransı Təşkilatı (İKT) çərçivəsində fəaliyyətinə xüsusi diqqət yetirir. 1991-ci ildə İKT-yə üzv olduqdan sonra Azərbaycan Respublikası bu təşkilat çərçivəsində fəal iştirakçıya çevrilmişdir. İKT Ermənistanı təcavüzkar qismində tanıyan və pisləyən ilk beynəlxalq təşkilatdır. İKT-nin ölkəmiz üçün həyati əhəmiyyət kəsb edən bu məsələyə dair aydın və ədalətli mövqeyi Azərbaycan Respublikasının həmin təşkilatla münasibətlərinin yüksələn xətt üzrə inkişafına əlverişli zəmin yaratmışdır. Sivilizasiyalararası körpü rolunu oynayan Azərbaycan Respublikası Qərb və Şərq mədəniyyətlərindən bəhrələnməklə dövlətlər və xalqlar arasında dialoqa töhfə verməyə davam edəcəkdir.

Azərbaycan Respublikası Müstəqil Dövlətlər Birliyi (MDB) çərçivəsində əməkdaşlıq münasibətlərinin saxlanılmasında, MDB ölkələri ilə iqtisadi, siyasi, hüquqi və humanitar sahələrdə münasibətlərin ikitərəfli əsaslarda inkişaf etdirilməsində maraqlıdır.

Azərbaycan, Gürcüstan, Moldova və Ukraynanın üzv olduğu "Demokratiya və İqtisadi İnkişaf Naminə – GUAM" 1997-ci ildə yaradılmış, 2006-cı ildə isə beynəlxalq regional təşkilata çevrilmişdir. GUAM demokratiya, inkişaf və təhlükəsizlik sahələrində ümumi maraqlar əsasında tərəfdaş dövlətləri birləşdirir.

Azərbaycan Respublikası GUAM-ın üzvü olan dövlətlər üçün əhəmiyyət kəsb edən məsələlərdə, əsasən, ərazilərində mövcud münaqişələrin həll edilməsi və təcavüzkar separatizmlə mübarizə istiqamətində onların səylərinin birləşdirilməsi və vahid mövqedən çıxış edilməsinə xüsusi önəm verir.

GUAM üzvlərinin yerləşdiyi coğrafi məkan onların müasir geosiyasi və geoiqtisadi mövqeyi, xüsusilə enerji məsələləri və nəqliyyat dəhlizləri baxımından Avrasiya regionunda mühüm əhəmiyyət kəsb edir.

GUAM-ın demokratiya və iqtisadi inkişaf konsepsiyasının həyata keçirilməsi üzv ölkələrin inkişafına və beynəlxalq məkandakı roluna müsbət təsir göstərəcəkdir.

Azərbaycan Respublikasının xarici siyasətinin prioritetlərindən biri də Qara dəniz İqtisadi Əməkdaşlıq Təşkilatı (QİƏT) ilə əməkdaşlığıdır. 1992-ci ildə Qara dəniz İqtisadi Əməkdaşlığı formatı kimi yaranan və 1998-ci ildə beynəlxalq regional təşkilata çevrilən QİƏT Qara dəniz, Xəzər dənizi və Aralıq dənizini əhatə edən regional və subregional səviyyədə inteqrasiya proseslərinə və iqtisadi əməkdaşlığa yardım məqsədi daşıyır.

4.1.5. Regional əməkdaşlıq və ikitərəfli münasibətlər

Çoxşaxəli tarazlaşdırılmış xarici siyasət həyata keçirən Azərbaycan Respublikası bütün dövlətlərlə suverenliyə və ərazi bütövlüyünə hörmət, sərhədlərin toxunulmazlığı və daxili işlərə qarışmama kimi beynəlxalq hüququn hamılıqla qəbul edilmiş norma və prinsipləri əsasında dost münasibətlərin qurulmasında maraqlıdır və buna nail olmaq üçün səy göstərir. Azərbaycan Respublikası dünyanın əksər ölkələri ilə bələ münasibətlər qurmuşdur və onları inkişaf etdirməkdədir.

Azərbaycan Respublikası əməkdaşlıq etdiyi dövlətlərlə regional və beynəlxalq problemləri həll etmək istiqamətində birgə fəaliyyət göstərir. Regional təhlükəsizlik, terrorçuluqla mübarizə, kütləvi qırğın silahlarının yayılmaması və enerji təhlükəsizliyinin təmin olunması prioritet sahələr sırasındadır.

Regionda sülh və sabitliyə nail olmaq üçün Azərbaycan Respublikası bir sıra addımların atılmasını vacib hesab edir. İlk növbədə region kütləvi qırğın silahlarından azad məkan olmalıdır. Nüvə silahının yayılmaması sahəsində mövcud beynəlxalq hüquq normalarına uyğun regional münasibətlərin inkişafı həm regional, həm də beynəlxalq səviyyədə sabitliyin bərqərar edilməsi və möhkəmlənməsi üçün zəruri şərtlərdəndir. Regionda xa-

rici hərbi qüvvələrin olmaması regional təhlükəsizliyə töhfə verərdi. Regional təhlükəsizlik region ölkələrinin bir-birinin suverenliyini və ərazi bütövlüyünü tanıması, militarist və təcavüzkar siyasətdən çəkinməsi vasitəsi ilə yaradılmalıdır.

Azərbaycan Respublikası beynəlxalq hüququn hamılıqla qəbul edilmiş norma və prinsiplərinə, Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələrə və milli qanunvericiliyinə uyğun olaraq, eləcə də müvafiq xarici dövlətlərin qanunvericiliyi nəzərə alınmaqla, xaricdə yaşayan azərbaycanlıların hüquq və əsas azadlıqlarının təmin edilməsinə və onların milli özünəməxsusluğunun və dəyərlərinin qorunub saxlanılmasına kömək göstərməkdə davam edəcəkdir.

4.1.5.1. Region ölkələri ilə əməkdaşlıq

Azərbaycan Respublikası qonşu ölkələrlə hərtərəfli tərəfdaşlıq əlaqələrinin inkişaf etdirilməsinə böyük önəm verir. Bu ölkələrlə münasibətlərdə Azərbaycan Respublikası əsas problemlərin qarşılıqlı şəkildə və beynəlxalq hüquqa uyğun həllinin tərəfdarıdır. Azərbaycan Respublikası qonşu ölkələrlə sərhədlərin delimitasiyası və demarkasiyası məqsədi ilə aparılan danışıqların tezliklə başa çatdırılmasında maraqlıdır.

Separatçılığın, etnik, siyasi və dini ekstremizmdən qaynaqlanan risklərin zərərsizləşdirilməsində digər dövlətlərlə, xüsusən Azərbaycan Respublikası ilə qonşuluq təmaslarına malik ölkələrlə harmonik münasibətlərin qurulması mühüm əhəmiyyətə malikdir.

Azərbaycan Respublikası regionda sülhün və sabitliyin bərqərar olması üçün regional əməkdaşlığı əvəzolunmaz amil kimi qiymətləndirir. Eyni zamanda, Ermənistanın təcavüzkar siyasəti Cənubi Qafqazda hərtərəfli regional əməkdaşlıq yolunda əsas maneədir. Bu siyasətdən imtina etməyənədək Azərbaycan Respublikası Ermənistanla əməkdaşlığı mümkün hesab etmir.

Digər tərəfdən, Azərbaycan, Gürcüstan və Türkiyə arasında üçtərəfli strateji tərəfdaşlıq və genişlənən əməkdaşlıq regionda sabitlik amilinə çevrilmişdir. Bu əməkdaşlıq Qara dəniz və Xəzər dənizi regionlarının əhəmiyyətini artıran, Avropa və bütövlükdə qlobal enerji təhlükəsizliyinə töhfə verən Bakı-Supsa, Heydər Əliyev adına Bakı-Tbilisi-Ceyhan neft ixrac boru kəmərləri və Cənubi Qafqaz qaz boru kəməri (Bakı-Tbilisi-Ərzurum) kimi üç uğurlu enerji infrastrukturu layihəsi ilə Avropa üçün yeni həyati və təhlükəsiz enerji mənbəyinin əsasını qoydu.

Geostrateji cəhətdən önəmli olan "Bakı-Tbilisi-Qars dəmir yolu bağlantısı" layihəsinin həyata keçirilməsi regional əməkdaşlığın daha da sürətləndirilməsi və genişləndirilməsi istiqamətində mühüm bir addım olaraq, eyni zamanda yeni qlobal imkanlar yaradır.

Azərbaycan Respublikasının müstəqilliyini tanımış ilk dövlət olan və regionda sülh və sabitliyin bərqərar olunmasında müstəsna rol oynayan Türkiyə ilə bütün sahələrdə hərtərəfli münasibətlər son dərəcədə mühümdür. Etnik, mədəniyyət və dil baxımından bir-biri ilə sıx bağlı olan ölkələrimiz arasında qarşılıqlı münasibətlər strateji əməkdaşlıq səviyyəsində daha da genişlənməkdə və dərinləşməkdədir. Azərbaycan Respublikası və Türkiyənin trans-regional iqtisadi layihələrin gerçəkləşməsinə töhfələri, eləcə də Türkiyənin Ermənistan-Azərbaycan münaqişəsinin həllinə yönəldilmiş səyləri iki ölkənin mövqelərinin tam uyğunluğunu və onlar arasında əməkdaşlığın keyfiyyət səviyyəsini nümayiş etdirir.

Azərbaycan Respublikasının Gürcüstan ilə əməkdaşlığının və tərəfdaşlığının hərtərəfli inkişafı ölkəmiz üçün mühüm əhəmiyyət kəsb edən məsələlərdən biridir. İki dövlətin ümumi maraqlarının mövcudluğu, regiondakı enerji infrastrukturu və nəqliyyat layihələrinin həyata keçirilməsi, eləcə də qarşılıqlı maraq kəsb edən digər sahələr çərçivəsində Gürcüstan ilə sıx əməkdaşlıq edən Azərbaycan Respublikası ikitərəfli strateji tərəfdaşlıq münasibətlərini daha da inkişaf etdirməyə davam edəcəkdir.

Azərbaycan, Gürcüstan, Moldova və Ukraynanın "Demokratiya və İqtisadi İnkişaf Naminə – GUAM" çərçivəsində mövcud tərəfdaşlığı regional əməkdaşlığın digər bir nümunəsidir.

Ukrayna və Moldova ilə tərəfdaşlıq yalnız GUAM çərçivəsində deyil, eyni zamanda ikitərəfli əsaslarda siyasi, iqtisadi, humanitar və digər sahələrdə inkişaf etdirilir.

Azərbaycan ilə Rusiya arasında mövcud olan münasibətlər regionun sabitliyi və inkişafı üçün mühüm amildir. Azərbaycan Respublikası Rusiya Federasiyası ilə ikitərəfli əsaslarda, eləcə də Avropa regional təşkilatları, xüsusilə də MDB çərçivəsində çoxtərəfli əsaslarda siyasi, iqtisadi, humanitar, təhlükəsizliyin təmin edilməsi, cinayətkarlığa qarşı mübarizə və digər sahələrdə strateji tərəfdaşlıq və əməkdaşlıq edir.

Azərbaycan Respublikası Xəzəryanı ölkələrlə sülh və mehriban qonşuluq şəraitində yaşamaq və müxtəlif regional layihələrdə birgə iştirakda maraqlıdır. Azərbaycan Respublikası Xəzəryanı ölkələr olan Rusiya və Qazaxıstanla yaxın qonşuluq münasibətlərinə malikdir. Bu gün Azərbaycan neftinin Xəzər dənizindən Qara dəniz vasitəsilə Avropa bazarlarına daşınması marşrutlarından biri də Bakı-Novorossiysk boru kəməridir. Qazaxıstanla Azərbaycan Respublikası arasında isə Qazaxıstan neftinin Xəzər dənizi və Azərbaycan ərazisindən Bakı-Tbilisi-Ceyhan sistemi vasitəsilə beynəlxalq bazarlara nəql edilməsinə dəstək verilməsi və şərait yaradılması haqqında 2006-cı ildə müqavilə imzalanmışdır.

Bu üç Xəzəryanı ölkə artıq Xəzər dənizinin dibinin bölüşdürülməsi barədə razılığa gəlmişlər. Azərbaycan Respublikası yaxın qonşuları İran və Türkmənistan ilə də belə razılaşma əldə ediləcəyinə və yaxın gələcəkdə Xəzər dənizinin statusunun müəyyən olunacağına, Xəzər dənizindən yalnız sülh məqsədləri və sahilyanı dövlətlərin çiçəklənməsi üçün istifadə olunacağına inanır.

Azərbaycan Respublikası qonşu İranla münasibətlərinə böyük əhəmiyyət verir. Tarix və mədəniyyət sahələrində zəngin müştərək irsə malik iki ölkə arasında münasibətlər dövlətimizin xarici siyasətinin vacib istiqamətlərindən biridir. Azərbaycan Respublikası İranla siyasi, iqtisadi, mədəni və digər sahələr üzrə qarşılıqlı faydalı əlaqələrin inkişaf etdirilməsində maraqlıdır.

4.1.5.2. Qeyri-region ölkələri ilə əməkdaşlıq

Azərbaycan Respublikası region ölkələri ilə yanaşı, digər ölkələrlə də əməkdaşlıqda maraqlıdır. İlk növbədə Azərbaycan Respublikası strateji tərəfdaşı olan ABŞ ilə BMT və Avratlantik strukturlar çərçivəsində, antiterror koalisiyasında, beynəlxalq terrorizm, separatçılıq, kütləvi qırğın silahlarının yayılmasının qarşısının alınması, transmilli mütəşəkkil cinayətkarlıq, narkotik vasitələrin qanunsuz dövriyyəsi, korrupsiya, qanunsuz silah və insan alveri kimi qlobal çağırış və təhdidlərə qarşı mübarizə məsələlərində, iki-

tərəfli münasibətlər səviyyəsində isə siyasi, hərbi, iqtisadi, enerji təhlükəsizliyi sahələrində, ölkəmizdə demokratik islahatların aparılması istiqamətində əməkdaşlıq edir.

Avropa ölkələri ilə əməkdaşlığını ikitərəfli və çoxtərəfli əsaslarda quran Azərbaycan Respublikası Avropa iqtisadi və hüquqi məkanına inteqrasiyanın dərinləşməsində, birgə regional iqtisadi layihələrin həyata keçirilməsində maraqlıdır. Azərbaycan Respublikası xüsusilə Baltikyanı, Şərqi və Cənub-Şərqi Avropa ölkələri ilə siyasi, iqtisadi əməkdaşlığın genişləndirilməsini vacib hesab edir. Azərbaycan Avropada enerji mənbələrinin diversifikasiyası və enerji təhlükəsizliyinin təmin olunması siyasətinə öz töhfəsini verməklə bu istiqamətdə bir sıra mühüm addımlar atmışdır.

Mərkəzi və Orta Asiya dövlətləri ilə də münasibətlər Azərbaycan Respublikasının xarici siyasətində əhəmiyyətli yer tutur. Bu regionun ölkələri ilə mövcud ikitərəfli əlaqələrin daha da inkişaf etdirilməsinə xüsusi önəm verilir.

Azərbaycan Respublikası Uzaq Şərqin və Cənub-Şərqi Asiyanın qabaqcıl dövlətləri olan Çin, Koreya Respublikası və Yaponiya ilə qarşılıqlı faydalı əməkdaşlıqda maraqlıdır. Bu ölkələrin Azərbaycan Respublikasındakı iqtisadi layihələrə fəal qoşulması, "Avropa-Qafqaz-Asiya Nəqliyyat Dəhlizi" (TRACECA) layihəsinin gerçəkləşməsi ikitərəfli münasibətlərin zəngin potensialının inkişaf etdirilməsi üçün əlverişli zəmin yaratmışdır.

Cənub-Şərqi və Cənubi Asiyada yeni iqtisadi və siyasi güc mərkəzlərinin təşəkkülü Azərbaycan Respublikasının xarici siyasətinin bu istiqamətə marağının artmasına səbəb olmuşdur.

Azərbaycan Respublikasının Yaxın Şərq dövlətləri ilə münasibətləri də böyük potensiala malikdir və ölkəmiz bu dövlətlərlə ikitərəfli əlaqələrin inkişaf etdirilməsi istiqamətində səyləri davam etdirəcəkdir.

4.2. Müdafiə qabiliyyətinin möhkəmləndirilməsi

Azərbaycan Respublikasının müdafiə qabiliyyəti ölkənin milli maraqlarını təmin etmək üçün əsas amillərdən biridir.

Azərbaycan Respublikasının müdafiə siyasəti milli resurslara və mövcud təhlükəsizlik vəziyyətinə əsaslanan, demokratik nəzarət altında olan müdafiə qabiliyyətinin inkişaf etdirilməsinə və saxlanmasına əsaslanır. Azərbaycan Respublikasının Silahlı Qüvvələri ölkənin müdafiə qabiliyyətinin əsasını təşkil edir.

Azərbaycan Respublikasının milli müdafiə siyasətinin əsasını aşağıdakılar təşkil edir:

bütün ölkələrlə dinc yanaşı yaşama;

digər dövlətlərin suverenliyinə və müstəqilliyinə hörmət və onların daxili işlərinə qarışmama;

mövcud dövlət sərhədlərinin bütövlüyü və onların dəyişməzliyi;

beynəlxalq təhlükəsizliyin möhkəmləndirilməsi;

hərbi quruculuqda konkret qüvvələr nisbətini nəzərə almaqla zəruri müdafiə kifayətliliyi məfhumunun dəstəklənməsi.

Tarixi keçmişini, təhlükəsizlik vəziyyətini, demokratik dövlət quruculuğunun əsas və-

zifələrini və ərazisinin bir hissəsinin Ermənistan tərəfindən işğal olunması faktını nəzərə alan Azərbaycan Respublikasının apardığı milli müdafiə siyasətinin əsas məqsədləri aşağıdakılardan ibarətdir:

Azərbaycan Respublikasının müstəqilliyinin, suverenliyinin qorunması, ərazi bütövlüyünün bərpa edilməsi və bütün ərazilər üzərində nəzarətin təmin olunması;

xarici hərbi təcavüzün qarşısının alınması və dəf edilməsi üçün Azərbaycan Respublikası Silahlı Qüvvələrinin döyüşə və səfərbərliyə hazırlıq səviyyəsində saxlanılması;

NATO-nun "Sülh naminə tərəfdaşlıq" Proqramının müvafiq mexanizmlərində iştirakının davam etdirilməsi, NATO dövlətləri və digər tərəfdaş ölkələrlə qarşılıqlı faydalı əsaslara söykənən ikitərəfli və çoxtərəfli hərbi əməkdaşlığın həyata keçirilməsi;

Azərbaycan Respublikasının müdafiə sahəsində öz üzərinə götürdüyü beynəlxalq hüquq öhdəliklərinin yerinə yetirilməsi;

müvafiq tədbirlərin həyata keçirilməsi yolu ilə beynəlxalq təhlükəsizliyə töhfə.

Azərbaycan Respublikasının müdafiə siyasəti aşağıdakı prinsiplərə əsaslanır:

Azərbaycan Respublikasının Silahlı Qüvvələri və qanunvericilikdə nəzərdə tutulan başqa silahlı birləşmələrlə mərkəzləşdirilmiş rəhbərliyin vəhdəti və bu fəaliyyətə demokratik nəzarətin təmin olunması;

Azərbaycan Respublikasının təhlükəsizliyinin təmin olunması sisteminə qarşı hərbi təhdidlərin vaxtında aşkarlanması və qiymətləndirilməsi;

hərbi sahədə milli təhlükəsizliyin təmin olunması üçün qüvvə, vasitə və ehtiyatların zəruri kifayətliliyi, onların müvafiq planlaşdırılması və istifadəsi.

Hərbi sahədə milli təhlükəsizliyin etibarlı təmin edilməsi məqsədi ilə müdafiə sahəsində dövlətin praktiki fəaliyyəti mühüm hərbi vəzifələri, ehtimal olunan müharibə və hərbi münaqişələrin xüsusiyyət və məqsədinin qiymətləndirilməsi, mümkün təhlükənin miqyasını, ölkənin hərbi sahədə təhlükəsizliyinə təhdid olan hərbi və siyasi qüvvələrin və digər amillərin yerini, silahlı qüvvələrin təşkili prinsiplərini və mümkün təcavüzün qarşısını almağa hazırlıq yollarını müəyyən etməkdən ibarətdir.

Milli müdafiə siyasətinin mühüm elementlərindən biri iqtisadiyyat və müdafiə arasında optimal qarşılıqlı nisbətin bərqərar edilməsi və milli müdafiə sənayesinin inkişaf etdirilməsidir.

Ölkənin müdafiə qabiliyyətinin möhkəmləndirilməsi yolunda hərbi-siyasi və hərbi-texniki sahədə beynəlxalq əlaqələrin və əməkdaşlığın hər cür inkişafı müstəsna əhəmiyyət kəsb edir. Avratlantik məkanın təhlükəsizlik sisteminə inteqrasiya, NATO dövlətlərinin qüvvələri ilə qarşılıqlı uzlaşan hərbi əməliyyat qüvvələrinin yaradılması, böhranların aradan qaldırılması məqsədi ilə müvafiq beynəlxalq təşkilatların mandatı əsasında aparılan sülhməramlı cavab əməliyyatlarında iştirak etmək Azərbaycan Respublikasının müdafiə siyasətinin əsas istiqamətlərindən hesab olunur.

Ölkə ərazisinin və onun vətəndaşlarının tam müdafiəsi Azərbaycan Respublikası Konstitusiyasının tələbidir ki, bu da bütün vasitələrlə təmin olunmalıdır. Bu məqsədlə Azərbaycan Respublikasının Silahlı Qüvvələri və qanunvericilikdə nəzərdə tutulan başqa silahlı birləşmələr səlahiyyətləri daxilində öz vəzifələrini həyata keçirirlər.

Dövlətin Silahlı Qüvvələri və başqa silahlı birləşmələri Azərbaycan Respublikasının Konstitusiyasında, qanunlarında, digər normativ hüquqi aktlarda, beynəlxalq humanitar hüquq sahəsində tərəfdar çıxdığı beynəlxalq müqavilələrdə təsbit olunmuş hüquq və vəzifələri yerinə yetirir.

4.3. Təhlükəsizliyin daxili siyasət vasitələri ilə təmin edilməsi

4.3.1. Demokratiyanın möhkəmləndirilməsi

Azərbaycan Respublikası insan hüquq və əsas azadlıqlarının qorunmasına təminat kimi demokratik idarəetmə və vətəndaş cəmiyyətinin inkişaf etdirilməsini alternativsiz yol kimi seçmişdir.

Dövlət müstəqilliyinin bərpa olunmasından sonra ərazisinin bir hissəsinin qonşu Ermənistan tərəfindən davam edən işğalının mənfi təsirlərinə baxmayaraq, Azərbaycan Respublikası qanunvericilik sistemində və iqtisadi sistemdə mühüm islahatlar aparmışdır. Azərbaycan Respublikası vətəndaşlarının Azərbaycan Respublikasının Konstitusiya Məhkəməsinə, Avropa İnsan Hüquqları Məhkəməsinə və BMT-nin insan hüquqları üzrə müqavilə-nəzarət orqanlarına müraciət etmək hüququ təmin edilmişdir. İnsan hüquq və əsas azadlıqlarını qorumaq üçün Ombudsman təsisatı yaradılmış, məhkəmələrin müstəqilliyi təmin olunmuşdur. Bütün kütləvi informasiya vasitələri üzərində dövlət nəzarəti və senzura ləğv edilməklə söz azadlığını qoruyan müvafiq qanunvericilik tədbirləri görülmüşdür.

Eyni zamanda, davam edən demokratik islahatlar prosesi çərçivəsində ölkədə seçki praktikasının bundan sonra da inkişaf etdirilməsi, qanunların icrası mexanizmlərinin təkmilləşdirilməsi, dövlət idarələrində və bu idarələrə işəgötürmə ilə bağlı şəffaflığın yaradılması, yerli özünüidarə orqanlarının səlahiyyətlərinin aydın surətdə müəyyən olunması və onların yerli problemlərin həll edilməsində rolunun artırılması, habelə kütləvi informasiya vasitələrinin və qeyri-hökumət təşkilatlarının maddi-texniki bazasının möhkəmləndirilməsi hökumətin diqqət mərkəzində olan önəmli məsələlər sırasındadır.

Bütün təhlükəsizlik strukturları üzərində demokratik və mülki nəzarət, onların fəaliyyətinin şəffaflığı, korrupsiyaya qarşı səmərəli mübarizə, ümdə vəzifəsi xalqa xidmət olan yüksək vəzifəli şəxslərin məsuliyyətinin daha da artırılması və onların məsul olduğu sahələr üzrə fəaliyyətləri barədə Milli Məclis deputatlarının, kütləvi informasiya vasitələri ilə ictimaiyyətin məlumatlandırılması kimi məsələlər üzrə hökumət ardıcıl səylərini davam etdirəcəkdir.

Demokratik hüquqi dövlətin qanunun aliliyi, insan hüquq və əsas azadlıqları və sosial ədalət kimi fundamental əsaslarının təmin olunması müvafiq dövlət funksiyalarının yerinə yetirilməsi əleyhinə yönəlmiş fəaliyyətlərə qarşı mübarizəyə və milli maraqların həyata keçirilməsinə əhəmiyyətli dəstək verəcəkdir.

4.3.2. Milli və dini tolerantlıq mühitinin qorunması

Azərbaycan Respublikası həmişə müxtəlif millətlərin və dinlərin sülh şəraitində birgə yaşayışına nümunə olmuşdur. Azərbaycan dövləti cəmiyyətin maraqlarından irəli gələn rasional milli siyasət kursunu, dini tolerantlıq mühitinin qorunması və inkişafını, bütün vətəndaşların qanun qarşısında bərabərliyi və qanunun aliliyini, demokratik hüquq və

azadlıqların, həmçinin insanların bu hüquq və azadlıqlardan sərbəst istifadə imkanlarının təmin edilməsini müvafiq riskin real təhdidə çevrilməsinin qarşısının alınması və neytrallaşdırılmasının mühüm şərtləri qismində nəzərdən keçirir.

Hazırkı mərhələdə ölkədə bərqərar edilmiş milli və dini tolerantlıq mühitinin qorunması və inkişafı dövlət qarşısında duran başlıca vəzifələrdən hesab olunur. Azərbaycan dövlətinin milli siyasət kursu Konstitusiyanın əsas prinsiplərindən birinə əsaslanır: Azərbaycan Respublikası bütün ölkə vətəndaşlarının ümumi və bölünməz vətənidir.

4.3.3. Elm, təhsil, mədəniyyət siyasəti və mənəviyyatın qorunması

Elm, təhsil, mədəniyyət və mənəviyyatın qorunması siyasəti Azərbaycan xalqının mədəni irsinin, maddi və mənəvi dəyərlərinin mühafizəsinə, onun mədəni tələbatlarının ödənilməsi vasitələrinin və elmi-texniki potensialının daxili və xarici təhdidlərdən qorunmasına, mütərəqqi daxili və beynəlxalq inkişafdan bəhrələnməsinə yönəlmişdir.

Azərbaycan Respublikası ümumdünya mədəniyyətinin qloballaşması meyillərindən kənarda qalmamaq şərti ilə, milli mədəniyyətin özünəməxsusluğunu qoruyur və eyni zamanda dünyanın mədəni nailiyyətlərindən milli mədəniyyətin tərəqqisində istifadə üçün imkanlar yaradır.

Azərbaycan Respublikası beynəlxalq öhdəliklərinə uyğun olaraq öz ərazisində tarixi və mədəni abidələrin qorunmasını təmin edir.

Ölkənin davamlı inkişafı üçün adekvat sayda, yaxşı təhsil almış və təlim keçmiş peşəkar insan potensialını, həmçinin elmi-texniki tərəqqini təmin etmək zəruridir. Bu məqsədlə, Azərbaycan Respublikası elm və təhsil səviyyəsinin dünya standartlarına uyğunlaşdırılması, yeni texnologiyalardan istifadə üçün inkişaf etmiş ölkələrlə əməkdaşlıq əlaqələrini genişləndirir, beynəlxalq təcrübəni öyrənir və tətbiq edir. Azərbaycan Respublikası elmi potensialın qorunması və inkişafına dair dövlət siyasətinin uzunmüddətli proqramlarını hazırlayıb həyata keçirir.

4.3.4. İqtisadi və sosial inkişaf

Ölkənin iqtisadi inkişafının davamlı olması hökumətin iqtisadi siyasətinin təməl prinsipidir. Bu həm iqtisadi, həm də sosial ölçülərin bərabər səviyyədə nəzərə alınmasını tələb edən kompleks bir məsələdir. Ona görə də Azərbaycan Respublikası bu istiqamətlərin hər biri üzrə sinxron və əlaqələndirilmiş proqram həyata keçirmək niyyətindədir.

Azərbaycan Respublikasında inflyasiya tempinin məqbul səviyyədə saxlanılması və valyuta bazarında sabit və proqnozlaşdırıla bilən vəziyyət təmin edilmiş, strateji valyuta ehtiyatları əhəmiyyətli dərəcədə artmışdır. Dövlət idarəetmə sistemində struktur islahatları həyata keçirilmiş, müəssisələrin böyük qismi öz fəaliyyətlərini bazar iqtisadiyyatının tələblərinə uyğun olaraq səmərəli təşkil edə bilmişdir.

Sürətlə artan neft və qaz gəlirlərindən həddən artıq asılılıq nəticəsində yarana biləcək iqtisadi qeyri-sabitlik təhdidinin qarşısının alınması məqsədi ilə iqtisadi siyasət iqtisadi çoxşaxəliliyin təşviqinə yönəldilməlidir.

Sahibkarlıq fəaliyyətində mühüm inkişaf müşahidə olunmuş, iqtisadiyyatın liberallaşmasının dərinləşdirilməsi istiqamətində nailiyyətlər əldə edilmişdir. Artım tempi əhalinin rifah səviyyəsinin yüksəlməsi üçün görülən konkret tədbirlər, struktur-texnoloji

müasirləşmənin həyata keçirilməsi və ölkənin rəqabət üstünlükləri sayəsində təmin edilməlidir. Sosial-iqtisadi inkişafda yeni nailiyyətlərin əldə edilməsi həm də islahatların aparılmasına, özəlləşdirmə zamanı şəffaflığın təmin edilməsinə, iqtisadiyyatın müasirləşməsinə, sosial dəyişikliklərin keçirilməsinə kompleks yanaşmanın davam etdirilməsini tələb edir.

Həyata keçirilən regional iqtisadi siyasətin əsas məqsədi ölkəmizin bütün bölgələrinin mövcud potensialından səmərəli istifadə etməklə qeyri-neft sahələrinin inkişafına, istehsal müəssisələrinin fəaliyyətinin daha da genişləndirilməsinə, ixracyönlü məhsul istehsalının stimullaşdırılmasına, yerli sahibkarlığın inkişafı yolu ilə əhalinin həyat səviyyəsinin daha da yaxşılaşdırılmasına, məşğulluq səviyyəsinin, xüsusilə gənclərin faydalı əməklə məşğulluğunun artırılmasına və ölkə iqtisadiyyatının dinamik inkişafının təmin edilməsinə nail olmaqdır.

Azərbaycan Respublikasının uzunmüddətli dövrdə dayanıqlı və tarazlı inkişafının təmin edilməsində sərmayələrin cəlb edilməsi xüsusi rol oynayır. Sərmayələrin tələb olunan həcm və keyfiyyəti, ilk növbədə, özəl sərmayələrin dəstəyi nəticəsində təmin edilə bilər. Ona görə də əlverişli sərmayə mühitinin yaxşılaşdırılması qarşıda duran ən əsas vəzifələrdəndir. Bunun üçün şəxsi mülkiyyətin qorunması və korporativ idarəetmənin təkmilləşdirilməsinə, mülkiyyət formasından asılı olmayaraq bütün sərmayədarlar üçün daha əlverişli rəqabət mühitinin yaradılmasına, sərmayə fəaliyyətinin normativ hüquqi bazasının daha da təkmilləşdirilməsinə, sərmayə axınının qeyri-neft sektorunun və regionların inkişafına yönəldilməsinin stimullaşdırılmasına diqqət yetiriləcəkdir. Eyni zamanda, Azərbaycan şirkətlərinin xarici ölkələrdə fəaliyyəti və beynəlxalq layihələrdə iştirakı dəstəklənəcəkdir.

Həmçinin "Şərq-Qərb" və "Şimal-Cənub" nəqliyyat dəhlizində Azərbaycan Respublikasının tranzit ölkə kimi potensialının gücləndirilməsinə, müasir texnologiyaların ölkəmizə gətirilməsinə və informasiya-telekommunikasiya sistemlərinin inkişafına xüsusi önəm veriləcəkdir.

4.3.5. Daxili təhlükəsizliyin möhkəmləndirilməsi

Daxili təhlükəsizliyin təmin olunması dövlətin ən vacib vəzifələrindən biridir. Bu, həmçinin onun beynəlxalq risk və təhdidlərə cavab vermə qabiliyyətini gücləndirir.

Davamlı daxili təhlükəsizlik yalnız insan hüquq və əsas azadlıqlarına hörmət, vətəndaş cəmiyyətinin və sosial rifahın inkişafı vasitəsi ilə mümkündür. Azərbaycan Respublikasının müvafiq dövlət orqanları öz növbəsində ictimai asayişi qorumaq, cinayətkarlıq və korrupsiya ilə mübarizə aparmaqla, daxili təhlükəsizliyin təmin olunmasında məsuliyyət daşıyır. Bu sahədə hüquq mühafizə orqanlarının fəaliyyətinin səmərəliliyinin artırılması məqsədi ilə qanunvericilik və institusional islahatlar aparılır, praktiki tədbirlər görülür.

Milli təhlükəsizliyin ən vacib elementlərindən biri kimi kəşfiyyat və əks-kəşfiyyat dövlətin və onun vətəndaşlarının təhlükəsizliyinin təmin olunması baxımından mühüm əhəmiyyət kəsb edir.

4.3.6. Sərhəd təhlükəsizliyinin möhkəmləndirilməsi

Azərbaycan Respublikasının həssas coğrafi vəziyyəti onu beynəlxalq terrorçuluq, qeyri-qanuni miqrasiya, transmilli mütəşəkkil cinayətkarlıq, insan alveri, narkotik vasitələrin qaçaqmalçılığı və kütləvi qırğın silahlarının yayılması kimi bir sıra transsərhəd təhdidlər ilə üzləşdirir.

Ermənistan-Azərbaycan münaqişəsi nəticəsində Azərbaycan Respublikasının İran İslam Respublikası ilə 132 km və Ermənistanla 733 km uzunluğunda olan beynəlxalq sərhədləri Ermənistan tərəfindən zəbt olunmuşdur. Bu sərhədlərin nəzarətdən kənarda qalması yuxarıda sadalanan cinayətkarlıq üçün münbit şərait yaradır.

Transsərhəd təhdidlərin mövcudluğu ölkənin sərhəd təhlükəsizliyinə xüsusi diqqət yetirilməsini zəruri edir. Sərhəd təhlükəsizliyi siyasətinin effektiv həyata keçirilməsi üçün mərkəzi dövlət orqanı kimi Dövlət Sərhəd Xidməti yaradılmışdır. Ölkədə aparılan ümumi demokratik dövlət quruculuğu və xüsusən təhlükəsizlik sektorunun islahatı prosesi çərçivəsində sərhəd təhlükəsizliyinə konseptual olaraq yenidən baxılır və Dövlət Sərhəd Xidmətinin hərbi qurumdan hüquq mühafizə orqanına keçidi məqsədi ilə əsaslı struktur islahatları aparılır. NATO və digər xarici tərəfdaşlarla əməkdaşlıq şəraitində aparılan islahatlar nəticəsində effektiv sərhəd nəzarəti sistemi yaradılmaqla Silahlı Qüvvələrin və digər təhlükəsizlik strukturlarının sərhəd təhlükəsizliyi sahəsindəki mümkün dəstəkləyici rolu və fəaliyyətlərinin koordinasiyası mexanizmləri daha da təkmilləşdirilir.

Sərhəd təhlükəsizliyi məsələsi neft və qaz yataqlarının, nəqliyyat dəhlizlərinin təhlükəsizliyinin təmin olunmasında getdikcə daha çox əhəmiyyət kəsb etməkdədir.

Sərhəd təhlükəsizliyinin daha səmərəli təmin edilməsi üçün normativ hüquqi baza beynəlxalq standartlara uyğunlaşdırılır, idarəetmə sistemi təkmilləşdirilir və şəffaf büdcə sistemi yaradılır.

Azərbaycan Respublikası sərhəd təhlükəsizliyi sahəsində NATO, Avropa İttifaqı, Beynəlxalq Miqrasiya Təşkilatı, Atom Enerjisi üzrə Beynəlxalq Agentlik, Sərhəd Məsələləri üzrə Beynəlxalq Konfrans və digər beynəlxalq təşkilatlar çərçivəsində, habelə ikitərəfli və çoxtərəfli qaydada dövlətlərarası səviyyədə əməkdaşlığı genişləndirir.

Bu istiqamətdə islahatları daha da inkişaf etdirmək üçün havadan və dənizdə nəzarət, axtarış-xilasetmə, çeviklik imkanları müasirləşdirilir, təlim sistemi təkmilləşdirilir, quru sərhədlər və nəzarət məntəqələri müasir texniki avadanlıqlarla təmin olunur və peşəkar heyətə keçid sürətləndirilir.

Ermənistan-Azərbaycan münaqişəsi həll olunduqdan sonra sərhədlərin nəzarətdən kənarda qalmış hissəsinin Azərbaycan Respublikasının ümumi sərhəd təhlükəsizliyi sisteminə daxil edilməsi və həmin ərazilərdə ən müasir tələblərə uyğun təhlükəsizlik tədbirlərinin həyata keçirilməsi islahat və quruculuq prosesində müvafiq şəkildə nəzərə alınır.

4.3.7. Miqrasiya siyasəti

Son illərin təhlili göstərir ki, Azərbaycanda müşahidə olunan sürətli sosial-iqtisadi inkişaf, energetika və nəqliyyat sahələrində beynəlxalq kommunikasiyaların genişlənməsi, eyni zamanda ölkəmizin geosiyasi mövqeyi miqrasiya proseslərinin intensivləşməsinə gətirib çıxarmışdır. Bu da, öz növbəsində ölkənin inkişafı və təhlükəsizliyinin təmin edilməsi baxımından milli maraqlara uyğun miqrasiya siyasətinin həyata keçirilməsini,

onun əsasında miqrasiya proseslərinin tənzimlənməsi məsələlərinin təkmilləşdirilməsini şərtləndirir.

Azərbaycan Respublikasında miqrasiya sahəsində dövlət siyasətinin həyata keçirilməsi, qanunvericiliyin beynəlxalq normalara və müasir dövrün tələblərinə uyğun təkmilləşdirilməsi, milli təhlükəsizliyin və sabit sosial-iqtisadi, demoqrafik inkişafın təmin edilməsi, əmək ehtiyatlarından səmərəli istifadə edilməsi, ölkə ərazisində əhalinin mütənasib yerləşdirilməsi, miqrantların intellektual və əmək potensialından istifadə edilməsi, tənzimlənməyən miqrasiya proseslərinin mənfi təsirinin aradan qaldırılması, insan alveri də daxil olmaqla, qeyri-qanuni miqrasiyanın qarşısının alınması məqsədi ilə 2006-2008-ci illər üçün Azərbaycan Respublikasının Dövlət Miqrasiya Proqramı qəbul olunmuşdur.

Miqrasiya sahəsində dövlət siyasətinin həyata keçirilməsi, idarəetmə sisteminin inkişaf etdirilməsi, miqrasiya proseslərinin tənzimlənməsi və proqnozlaşdırılması, bu sahədə müvafiq dövlət orqanlarının fəaliyyətinin əlaqələndirilməsi məqsədi ilə Dövlət Miqrasiya Xidməti yaradılmışdır.

Ölkədə miqrasiya proseslərinin tənzimlənməsi mexanizmlərinin təkmilləşdirilməsi hazırda effektiv immiqrasiya siyasətinin formalaşdırılmasını, beynəlxalq əməkdaşlığın gücləndirilməsini, emiqrasiya proseslərinin nəzarətdə saxlanılmasını və vahid informasiya bazasının yaradılmasını zəruri edir.

4.3.8. Enerji təhlükəsizliyi siyasəti

Xəzər hövzəsinin Azərbaycan Respublikasına mənsub olan sektorunda yerləşən mövcud neft və qaz yataqlarının, habelə perspektivli strukturların işlənməsi, istismarı, müasir neft-qaz özüllərinin tikintisi və quraşdırılması, əsas neft və qaz ixrac boru kəmərlərinə, terminallarına olan təhdidlərin aşkar edilməsi, qiymətləndirilməsi və adekvat tədbirlərin görülməsi Azərbaycan Respublikasının milli təhlükəsizliyinin təmin edilməsinin ən mühüm fəaliyyət istiqamətlərindən biridir.

Heydər Əliyev adına Bakı-Tbilisi-Ceyhan əsas neft ixrac boru kəməri və Cənubi Qafqaz qaz boru kəməri Xəzər dənizi ilə Qara dəniz və Aralıq dənizi arasında enerji nəqlinin, Xəzəryanı ölkələrin geostrateji və iqtisadi maraqlarının təmin edən mühüm obyektlərin təhlükəsizliyinin qorunması və bununla əlaqədar artan risklərin idarə olunması və azaldılması Azərbaycan Respublikasının milli təhlükəsizliyinin ən vacib vəzifələrindəndir.

Heydər Əliyev adına Bakı-Tbilisi-Ceyhan əsas neft ixrac boru kəmərinin 2006-cı ildən istifadəyə verilməsi Azərbaycan neftini dünya bazarında mühüm amilə çevirmişdir. Azərbaycan neftini Türkiyənin Ceyhan limanına, qazını isə Türkiyənin Ərzurum qaz terminalına çıxaran kəmərlərin coğrafiyası müəyyən təhlükəsizlik riskləri yaradır.

Azərbaycan Respublikası enerji ehtiyatlarının istehsalı və nəqli ilə bağlı yaradılan və istismar olunan infrastrukturun təbii fəlakətlərə, texnogen xarakterli fövqəladə hadisələrə və təxribatlara məruz qalma ehtimalına qarşı kompleks tədbirlər həyata keçirir.

XXI əsrdə dünyada enerji daşıyıcıları ilə bağlı böhran gözlənildiyindən Azərbaycan Respublikasında alternativ enerji mənbələrindən istifadə edilməsi qərara alınmışdır. Küləkli və günəşli günlərin sayına görə ölkənin əlverişli şəraitə malik olduğunu nəzərə alaraq, Azərbaycanın enerjiyə olan ehtiyacının müəyyən hissəsi külək, dəniz, günəş, bi-

oküt lə, kiçik dağ suları və su elektrik stansiyaları hesabına təmin oluna bilər.

4.3.9. Nəqliyyat təhlükəsizliyi siyasəti

Azərbaycan Respublikasında zəngin enerji ehtiyatlarının olması iqtisadiyyatın əsaslı və sürətli inkişaf etməsinə müsbət təsir göstərən, lakin müxtəlif dövlətlərin regiondakı maraqlarını şərtləndirən və münasibətlərin gərginləşməsinə səbəb olan əsas amillərdən biridir.

Müstəqillik əldə edildikdən sonra Azərbaycan Respublikası öz enerji sektorunu daha da inkişaf etdirmiş və müxtəlif növ nəqliyyat şəbəkələri yaratmışdır. Bu nəqliyyat şəbəkələrinin təhlükəsizliyinin təmin edilməsi ölkə üçün əsas vəzifələrdən biridir.

Beynəlxalq nəqliyyat dəhlizlərinin və boru kəmərlərinin təhlükəsizliyini təmin etmək üçün Azərbaycan Respublikası aşağıdakı vəzifələri həyata keçirir:

nəqliyyatın və nəqliyyatda təhlükəsizliyin təmin edilməsi; nəqliyyat sistemində səfərbərlik hazırlığının təmin edilməsi; Avropa-Qafqaz-Asiya və Şimal-Cənub beynəlxalq nəqliyyat dəhlizlərinin fəaliyyətinin səmərəliliyinin və rəqabət qabiliyyətinin artırılması məqsədi ilə təhlükəsizlik tədbirlərinin gücləndirilməsi;

nəqliyyat infrastrukturlarının mühafizə sisteminin etibarlılığının təmin edilməsi; nəqliyyat infrastrukturlarının təhlükəsizliyinə kənardan təhdid yarada biləcək amillərin aşkarlanması və qarşısının alınması; nəqliyyat vasitələri və infrastrukturlarında, o cümlədən boru kəmərlərində terror aktlarının törədilməsində istifadə oluna biləcək vasitələrin dövriyyəsinin qadağan olunması və ya bu dövriyyəyə ciddi nəzarətin həyata keçirilməsi; nəqliyyat obyektlərinin tikintisi və istismarı zamanı sosial və ekoloji mühitə ziyan vurulmasının qarşısının alınması. Sözügedən vəzifələr Azərbaycan Respublikasının Silahlı Qüvvələri və digər təhlükəsizlik strukturlarının, habelə aidiyyəti dövlət qurumlarının fəaliyyətində öz əksini tapmalı və onların həyata keçirilməsi üçün adekvat imkanlar yaradılmalıdır.

4.3.10. Fövqəladə idarəetmə, ətraf mühitin və əhalinin sağlamlığının mühafizəsi

Ətraf mühitlə bağlı olan təbii fəlakətlər və insanların fəaliyyəti nəticəsində baş verən texnogen qəzalar əhalinin sağlamlığına, rifahına və əmlakına ziyan yetirməklə daxili təhlükəsizliyə zərər vura bilər. Bu mənada onlar ümumi təhlükəsizlik kontekstində nəzərdən keçirilməlidir.

Azərbaycan Respublikasında fövqəladə halların xəbərdar edilməsi və nəticələrinin aradan qaldırılması üzrə tədbirlərin hazırlanması və əlaqələndirilməsinə məsul olan ayrıca qurum – Fövqəladə Hallar Nazirliyi yaradılmışdır.

Azərbaycan Respublikası böhranların idarə olunması və fövqəladə halların qarşısının alınması üzrə tədbirlər planlarının hazırlanması ilə bağlı təcrübə qazanılması və informasiya mübadiləsi sahəsində bir sıra dövlətlərlə ikitərəfli əməkdaşlıq edir. Bu sahədə çoxtərəfli əməkdaşlıq isə NATO mexanizmləri vasitəsilə geniş inkişaf etdirilir və Azərbaycan Respublikası həmin imkandan fəal istifadəni davam etdirəcəkdir.

Azərbaycan Respublikası ekoloji problemlərə ciddi yanaşır və ona görə də bu sahədə yaranan və zərər vura bilən təhlükələrdən, risklərdən və təhdidlərdən xəbərdardır. Təbii və texnogen fəlakətlərə və böhran vəziyyətlərinə hazır olmaq və onların qarşısını al-

maq dövlət üçün əsas məsələlərdəndir.

Azərbaycan Respublikası ölkə əhalisinə, ərazisinə və iqtisadiyyatına radioaktiv, bakterioloji və kimyəvi vasitələrlə göstərilən zərərli təsirin qarşısının alınmasına yönəlmiş tədbirləri fəal surətdə həyata keçirir.

Strateji əhəmiyyətli dövlət obyektlərinin, o cümlədən neft və qaz hasilatı və emalı müəssisələrinin, terminalların, magistral boru kəmərlərinin, içməli su mənbələrinin, elektrik stansiyalarının, hidrotexniki qurğuların təbii fəlakətlərdən, texnogen qəzalardan və terror təhlükəsindən müdafiəsi dövlət üçün əsas vəzifələrdən biridir.

Coğrafi və geoloji şəraitin müxtəlifliyi nəzərə alınmaqla, ölkə ərazisinin təbii fövqəladə hallardan mühafizəsi ilə bağlı dağıntılara gətirib çıxara bilən amillərin, o cümlədən zəlzələlər, sellər, subasmalar, sürüşmələr və palçıq vulkanlarının törədə biləcəyi fəsadlar və onların nəticələrinin aradan qaldırılması yolları daim diqqət mərkəzindədir.

Bir neçə iqlim qurşağı ilə əhatə olunan Azərbaycan Respublikası ərazisindəki zəngin bitki və heyvanat aləminin qorunub-saxlanması zəruri şərtdir.

Ətraf mühitin çirklənməsinə səbəb olan mənbələrin ləğv olunmasına, Xəzər dənizinin ekoloji problemlərinin aradan qaldırılmasına, onun biomüxtəlifliyinin qorunması və bərpa olunmasına və bununla bağlı digər məsələlərə xüsusi diqqət yetirilir.

Ərzaq təhlükəsizliyinin təmin olunması üzrə bitki mühafizəsi vasitələrindən (pestisidlərdən və bioloji preparatlardan) istifadəyə nəzarət, karantin obyekti mənbələrinin vaxtında aşkar edilərək ləğv olunması vacib məsələlərdən biridir.

Əhalinin sağlamlığının qorunması üçün dərmanların keyfiyyətinə nəzarət mexanizmlərinin və saxta dərmanlara qarşı mübarizənin gücləndirilməsi zəruridir.

4.3.11. İnformasiya təhlükəsizliyi siyasəti

Azərbaycan Respublikasının informasiya təhlükəsizliyi siyasəti dövlət, ictimai və fərdi informasiya ehtiyatlarının qorunmasına, habelə informasiya sahəsində milli maraqların müdafiəsinə yönəlmiş tədbirlər kompleksinin həyata keçirilməsindən ibarətdir.

Azərbaycan Respublikasının informasiya sahəsində milli təhlükəsizliyinin təmin olunması üçün ölkədə informasiyanın, həmçinin dövlət informasiya ehtiyatlarının müdafiəsi sahəsində milli sistem və informasiya infrastrukturu inkişaf etdirilir və möhkəmləndirilir. Dövlət orqanları və vəzifəli şəxslər tərəfindən qərarların qəbul edilməsinin informasiya təminatının həyata keçirilməsi məqsədi ilə obyektiv və mühüm məlumatlar toplanılır.

Kəşfiyyat və əks-kəşfiyyat qabiliyyətinin uzlaşdırılması və səmərəliliyinin artırılması, habelə məxfi informasiyanın mühafizə olunmasının koordinasiyası milli təhlükəsizlik sektorunun bu sahəsində əsas məsələlərdəndir. Azərbaycan Respublikası öz milli kəşfiyyat və əks-kəşfiyyat qabiliyyətini artıracaq və dövlət sirrinə aid edilmiş məlumatların mühafizəsi ilə bağlı fəaliyyətin təkmilləşdirilməsini davam etdirəcəkdir.

İnformasiya təhlükəsizliyini tənzimləmək məqsədi ilə dövlət sirri təşkil edən məlumatların mühafizəsinin hüquqi mexanizmləri təkmilləşdirilir və informasiya azadlığı təmin olunur. Hüquqi və inzibati mexanizmlər vətəndaşların hüquqlarını və dövlət strukturlarının fəaliyyəti üzərində demokratik nəzarəti təmin edəcəkdir.

YEKUN MÜDDƏALAR

Azərbaycan Respublikasının strateji coğrafi mövqeyi onun Avratlantik məkandakı siyasi və iqtisadi proseslərdə olduqca mühüm rol oynamasını təmin etmişdir. Bu, regiondakı enerji və nəqliyyat layihələrinin həyata keçirilməsində özünü büruzə verməkdədir.

Azərbaycan Respublikasının təhlükəsizlik mühiti eyni zamanda hərbi münaqişələr, beynəlxalq terrorçuluq, transmilli mütəşəkkil cinayətkarlıq, qeyri-qanuni miqrasiya, insan alveri və narkotik vasitələrin qaçaqmalçılığı, kütləvi qırğın silahlarının yayılması kimi təhdidlərin mövcudluğu ilə səciyyələnir ki, bu da, ölkəni bir sıra təhlükəsizlik problemləri ilə üzləşdirir.

Bu Konsepsiya Azərbaycan Respublikasının milli təhlükəsizlik siyasətinin əsasını təşkil edir və dövlətin milli maraqlarının qorunması məqsədi ilə müvafiq dövlət strukturlarının üzərinə xüsusi vəzifələr qoyur və bu kontekstdə onların əlaqələndirilmiş fəaliyyətini zəruri edir.

Konsepsiya ölkənin daim dəyişən təhlükəsizlik mühitini, Azərbaycan Respublikasının milli maraqlarını və təhlükəsizlik siyasətinin əsas istiqamətlərini müəyyən edir.

Azərbaycan Respublikasının hökuməti bu Konsepsiyadan irəli gələn vəzifələri həyata keçirmək üçün müvafiq tədbirlər görəcəkdir.

Dövlətin daxili və xarici siyasətinə uyğun olaraq ölkənin təhlükəsizliyinin daha etibarlı təmin edilməsinə şərait yaradılması məqsədi ilə Konsepsiya müntəzəm qaydada yeniləşdirilə bilər.

Konsepsiya, həmçinin hərbi doktrina, xarici siyasət strategiyası, müdafiə icmalı, iqtisadi konsepsiya, mədəniyyət, elm, təhsil, səhiyyə və nəqliyyat strategiyaları da daxil olmaqla, dövlət fəaliyyətinin müxtəlif sahələri ilə bağlı daha müfəssəl sənədlərin hazırlanması üçün əsasdır.

Təhlükəsizlik sahəsində hazırlanacaq digər konseptual sənədlər ümumi ictimai konsensusu əks etdirməli, real olmalı və bu Konsepsiya ilə birlikdə, ölkədə demokratik, hüquqi dövlət, vətəndaş cəmiyyəti, demokratik nəzarət altında olan güclü və effektiv təhlükəsizlik sektoru quruculuğuna, davamlı iqtisadi və sosial tərəqqiyə kömək etməlidir.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV ATƏT-İN MİNSK QRUPUNUN FRANSALI HƏMSƏDRİ BERNAR FASYE VƏ RUSİYALI HƏMSƏDRİ YURİ MERZLYAKOVU QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 25-də Prezident Sarayında ATƏT-in Minsk qrupunun fransalı həmsədri Bernar Fasye və rusiyalı həmsədri Yuri Merzlyakovu qəbul etmişdir.

Görüş zamanı Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin nizama salınması ilə əlaqədar aparılan danışıqlar prosesinin hazırkı vəziyyəti ilə bağlı məsələlər müzakirə edilmişdir.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV İRANIN EKOLOGİYA KOMİTƏSİNİN SƏDRİ, İRAN PREZİDENTİNİN EKOLOGİYA MƏSƏLƏLƏRİ ÜZRƏ MÜAVİNİ, DOKTOR VAEZ CAVADİNİ QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 25-də Bakıda keçirilən Xəzərin dəniz mühitinin mühafizəsinə həsr olunmuş Birinci Bakı konfransında iştirak edən İran İslam Respublikasının ekologiya komitəsinin sədri, İran Prezidentinin ekologiya məsələləri üzrə müavini, xanım doktor Vaez Cavadini qəbul etmişdir.

Görüşdə ətraf mühitin mühafizəsi sahəsində Xəzəryanı dövlətlərin əməkdaşlığının vacibliyi qeyd olunmuşdur. Xəzərin dəniz mühitinin mühafizəsinə həsr olunmuş Birinci Bakı konfransının əlaqələrin daha da inkişaf etməsində böyük rol oynadığı vurğulanmış, eyni zamanda, Azərbaycan-İran ikitərəfli münasibətlərinin müxtəlif sahələrdə uğurla inkişaf etdiyi bildirilmişdir.

YALTADA MDB HÖKUMƏT BAŞÇILARI ŞURASININ NÖVBƏTİ İCLASI BAŞA ÇATMIŞDIR

Mayın 25-də Yaltanın Livadiya sarayında MDB Hökumət Başçıları Şurasının növbəti iclası işini başa çatdırmışdır. İclasda Azərbaycanın Baş naziri Artur Rasizadə iştirak edirdi.

İclasda MDB ölkələrinin iqtisadi, sosial siyasət, humanitar əməkdaşlıq, habelə MDB orqanlarının maliyyə təminatı sahələrində qarşılıqlı əlaqələri müzakirə olunmuşdur. Ukraynanın Baş naziri Viktor Yanukoviç gələn il üçün Şuranın sədri seçilmişdir.

Forumun yekunlarına əsasən, MDB-nin üzvü olan ölkələrin ümumi elektrik enerjisi bazarı, "quş qripi" xəstəliyinin Birlik ölkələri ərazisinə yayılmasının qabaqlanması. Dövlətlərarası Humanitar Əməkdaşlıq Fondunun işinin təşkili barədə bir sıra sazişlər imzalanmışdır.

İclasa sədrlik edən Tacikistanın Baş naziri Akil Akilov forumun yekunlarına dair mətbuat konfransında bildirmişdir ki, 2003-cü il Yalta zirvə görüşündə MDB liderləri qurumun 2010-cu ilədək strategiyasını hazırlamışdılar. Lakin MDB-nin fəaliyyətində müs-

bət meyillərlə yanaşı, çatışmazlıqlar da var. İslahatlar ləng gedir, lazımi fəallıq müşahidə olunmur.

Rusiya hökumətinin sədri Mixail Fradkov xüsusi vurğulamışdır ki, Azərbaycanın təşəbbüsü ilə humanitar əməkdaşlıq sahəsində saziş imzalanmışdır.

MDB Hökumət Başçıları Şurasının növbəti iclası Aşqabadda keçiriləcəkdir.

Azərbaycan nümayəndə heyəti mayın 25-də axşam vətənə qayıtmışdır.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV LUVR MUZEYİNİN DİREKTORU ANRİ LUARETİ QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 29-da Prezident sarayında Fransanın dünya şöhrətli Luvr muzeyinin direktoru Anri Luareti qəbul etmişdir.

Dövlətimizin başçısı dünyanın ən məşhur muzeylərindən olan Luvr muzeyinin direktorunun Azərbaycana səfərinin ölkəmizin mədəni həyatında əlamətdar hadisə olduğunu bildirdi. Luvr muzeyi ilə Azərbaycan muzeyləri arasında əməkdaşlığın genişləndirilməsinin əhəmiyyətindən danışan dövlətimizin başçısı cənab Luaretin ölkəmizə səfərinin Azərbaycanın mədəniyyət sahəsində beynəlxalq əməkdaşlığının daha da genişləndirilməsi işinə mühüm töhfə verəcəyinə əminliyini söylədi.

Anri Luaret Azərbaycana səfərindən məmnun qaldığını bildirdi. Rəhbərlik etdiyi muzeyin Azərbaycan muzeyləri ilə əməkdaşlıq imkanları və gələcək planlar barədə danışan qonaq bu yaxınlarda Luvr muzeyində açılacaq yeni ekspozisiyada Azərbaycanın mədəniyyət nümunələrinin təmsil edilməsində maraqlı olduğunu vurğuladı.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV ABŞ VİTSE-PREZİDENTİNİN MİLLİ TƏHLÜKƏSİZLİK MƏSƏLƏLƏRİ ÜZRƏ MÜŞAVİRİ COZEF VUDU QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 29-da Prezident sarayında ABŞ vitse-prezidentinin milli təhlükəsizlik məsələləri üzrə müşaviri Cozef Vudu qəbul etmişdir.

Görüşdə Azərbaycan-ABŞ münasibətlərinin müxtəlif sahələrdə uğurla inkişaf etdiyi vurğulandı, siyasi, iqtisadi, enerji, təhlükəsizlik məsələləri və demokratik inkişaf prosesləri ilə bağlı məsələlər ətrafında fikir mübadiləsi aparıldı.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV "SİEMENS" SƏHMDAR CƏMİYYƏTİNİN MƏRKƏZİ İDARƏ HEYƏTİNİN ÜZVÜ RUDİ LAMPREXTİ QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 31-də Prezident sarayında "SİEMENS" Səhmdar Cəmiyyətinin mərkəzi idarə heyətinin üzvü Rudi Lamprexti qəbul etmişdir.

Ölkəmizin müxtəlif sahələrdə uğurlu inkişafının təmin edilməsi məqsədi ilə bir çox layihələrin həyata keçirildiyini bildirən Prezident İlham Əliyev son illərdə bu istiqamətdə çox böyük işlərin görüldüyünü vurğuladı. Dövlətimizin başçısı hazırda qeyri-neft sektorunun inkişafının ölkəmiz üçün əsas prioritetlərdən biri olduğunu və xarici şirkətlərin bu sahədə iştirakı üçün Azərbaycanda bütün şəraitin yaradıldığını bildirdi.

Rudi Lamprext ölkəmizə hər səfəri zamanı burada baş verən böyük dəyişikliklərin şahidi olduğunu və Azərbaycanın iqtisadi inkişaf sürətinə görə çox yüksək göstəricilər əldə etdiyini vurğuladı. O, "SİEMENS" şirkətinin Azərbaycanla əməkdaşlığının gələcək perspektivləri barədə dövlətimizin başçısına məlumat verdi.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV "TRANSPARENCY İNTERNATİONAL" TƏŞKİLATININ SƏDRİ HÜGET LABELİ QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 31-də Prezident sarayında "Transparency International" təşkilatının sədri Hüget Labeli qəbul etmişdir.

Ölkəmizə "Korrupsiyaya qarşı mübarizə və keçid dövrü ölkələrində institusional islahatlar" mövzusunda Avropa və Mərkəzi Asiya ölkələri üzrə konfransda iştirak etmək üçün ilk dəfə səfər etdiyini bildirən Hüget Label tədbirin gözəl təşkilinə görə Azərbaycan hökumətinə təşəkkürünü çatdırdı. O, Azərbaycanda müxtəlif sahələrdə uğurlu islahatların həyata keçirildiyini və mühüm nəticələrin əldə olunduğunu bildirdi.

Dövlətimizin başçısı belə bir konfransın ölkəmizdə keçirilməsinin əhəmiyyətli hadisə olduğunu qeyd etdi və onun işinə uğurlar arzuladı. Prezident İlham Əliyev Azərbaycanda iqtisadiyyatın inkişafı, işsizliyin aradan qaldırılması, neft gəlirlərinin şəffaflığının təmin olunması, demokratik inkişaf və digər sahələrdə mühüm işlərin görüldüyünü vurğuladı və bu tədbirlərin bundan sonra da uğurla davam etdiriləcəyini bildirdi.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV "GLOBAL STEEL" ŞİRKƏTİNİN PREZİDENTİ PROMOD MİTTALI QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 31-də Prezident sarayında "Global Steel" şirkətinin prezidenti Promod Mittalı qəbul etmişdir.

Promod Mittal Azərbaycanda iqtisadiyyatın inkişafı sahəsində olduqca böyük nailiyyətlərin əldə edildiyini söylədi. Ölkəmizin iştirakı ilə həyata keçirilmiş qlobal enerji layihələrinin əhəmiyyətinə toxunan qonaq bu layihələrin Azərbaycanı iqtisadi cəhətdən daha da gücləndirəcəyini bildirdi.

Dövlətimizin başçısı Azərbaycan iqtisadiyyatının son illərdə yüksək sürətlə inkişaf etdiyini qeyd etdi. Gələcək illərdə neft və qaz çıxarılmasının daha da artması ilə ölkəmizin enerji daşıyıcılarının mühüm basilatçısı və ixracçısına çevriləcəyini bildirən Prezident İlham Əliyev bununla yanaşı, qeyri-neft sektorunun da inkişafına böyük diqqət verildiyini vurğuladı.

Görüşdə "Global Steel" şirkətinin Azərbaycan ilə gələcək əməkdaşlıq imkanları barədə fikir mübadiləsi aparıldı.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV ALMANİYANIN MAYNS ŞƏHƏR BƏLƏDİYYƏSİNİN BAŞÇISI JENS BEUTELİN RƏHBƏRLİK ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİNİ QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 31-də Prezident sarayında Almaniya Federativ Respublikası Reynland-Pfalts əyalətinin paytaxtı Mayns şəhər bələdiyyəsinin başçısı Jens Beutelin rəhbərlik etdiyi nümayəndə heyətini qəbul etmişdir.

Dövlətimizin başçısı nümayəndə heyətinin səfər zamanı Azərbaycanın müxtəlif regionlarına baş çəkməsinin ölkəmizlə daha yaxından tanış olmaq üçün yaxşı imkan yaratdığını bildirdi. Prezident İlham Əliyev Azərbaycan-Almaniya münasibətlərinin uğurla inkişaf etdiyini vurğuladı və iki ölkənin şəhər və regionları arasında əməkdaşlığın dərinləşdirilməsinin ikitərəfli əlaqələrin daha da gücləndirilməsi işinə mühüm töhfə verəcəyinə əminliyini ifadə etdi.

Jens Beutel Mayns şəhəri ilə Bakı şəhəri arasında uzun illər ərzində əməkdaşlığın mövcud olduğunu qeyd edərək, bu səfəri zamanı ölkəmizin digər regionları ilə də tanış olmaqdan məmnun qaldığını bildirdi. Qonaq səfərinin Azərbaycan ilə Almaniya arasında bir çox sahələrdə, o cümlədən mədəniyyət sahəsində əlaqələrin daha da genişləndirilməsinə kömək edəcəyinə ümidvar olduğunu söylədi.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV MDB YƏHUDİ İCMALARI FEDERASİYASININ PREZİDENTİ LEV LEVAYEVİN RƏHBƏRLİK ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİNİ QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 31-də Prezident sarayında MDB Yəhudi İcmaları Federasiyasının prezidenti Lev Levayevin rəhbərlik etdiyi nümayəndə heyətini qəbul etmişdir.

Görüşdə məmnunluqla vurğulandı ki, Azərbaycanda tarixən millətlərarası, konfessiyalararası münasibətlər qarşılıqlı hörmət və dostluq əsasında qurulmuşdur. Xüsusi qeyd olundu ki, ölkəmizdə milli-dini tolerantlıq yüksək səviyyədədir və bu müsbət ənənə uğurla davam etdirilir.

Prezident İlham Əliyev MDB Yəhudi İcmaları Federasiyası prezidentinin Azərbaycana səfərinin xalqlarımızın bir-birinə daha da yaxınlaşmasına töhfə verəcəyinə ümidvar olduğunu söylədi.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV POLŞANIN DAXİLİ İŞLƏR VƏ ADMİNİSTRASİYA NAZİRİ YANUŞ KAÇMAREKİN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİNİ QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyunun 1-də Prezident sarayında Polşanın daxili işlər və administrasiya naziri Yanuş Kaçmarekin başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.

Dövlətimizin başçısı Polşaya sonuncu səfərini və Prezident Lex Kaçinski ilə görüşlərini

məmnunluqla xatırladaraq bildirdi ki, ölkələrimiz arasında münasibətlər dostluq və anlaşma əsasında uğurla davam etdirilir. Qarşılıqlı səfərlərin əməkdaşlığımızın mühüm elementi olduğunu qeyd edən Prezident İlham Əliyev Azərbaycan və Polşanın müvafiq qurumları, o cümlədən hüquq mühafizə orqanları arasında əlaqələrin vacibliyini vurğuladı. Dövlətimizin başçısı dedi ki, ölkəmiz regional təhlükəsizliyin təmin olunması işində fəal iştirak edir və bu məsələlər Azərbaycan ilə Avropa İttifaqı arasında yeni qonşuluq siyasətinə dair fəaliyyət planı çərçivəsində 5 illik tədbirlər planında da öz əksini tapmışdır. Prezident İlham Əliyev Polşanın daxili işlər və administrasiya nazirinin Azərbaycana səfərinin ölkələrimiz arasında əldə olunmuş razılaşmaların təhlili və gələcək əməkdaşlıq istiqamətlərinin müəyyən edilməsi işinə töhfə verəcəyinə əminliyini bildirdi.

Azərbaycana səfərdən razı qaldığını deyən nazir Yanuş Kaçmarek Prezident İlham Əliyevin fəaliyyətini daim maraqla izlədiyini bildirdi. Polşanın və Azərbaycanın dövlət başçılarının keçirdikləri görüşlərdən böyük məmnunluq duyduğunu xüsusi vurğuladı. Yanuş Kaçmarek dövlətimizin başçısı İlham Əliyevə Prezident Lex Kaçinskinin salamlarını çatdırdı.

Prezident İlham Əliyev Polşa Prezidentinin salamlarına görə minnətdarlığını bildirdi və özünün də salamlarını ona çatdırmağı xahiş etdi.

AZƏRBAYCAN NÜMAYƏNDƏ HEYƏTİNİN ÜÇ ÜZVÜ MDB PA-NIN "SODRUJESTVO" ORDENİ İLƏ TƏLTİF OLUNMUŞDUR

Milli Məclisin sədri Oqtay Əsədovun başçılığı ilə parlament nümayəndə heyəti MDB Parlamentlərarası Assambleyanın növbəti iclasında iştirak etmək üçün mayın 30-da Rusiya Federasiyasının Sankt-Peterburq şəhərinə gəlmişdir.

Mayın 31-də Sankt-Peterburqun Tavriya sarayında MDB PA Şurasının 28-ci ümumi iclası öz işinə başlamışdır. İclası Rusiya Federasiyası Federasiya Şurası Federal Məclisinin sədri Sergey Mironov açaraq iştirakçıları bu qurumun 15 illik yubileyi münasibətilə təbrik etmiş və Assambleyanın fəaliyyəti barədə məlumat vermişdir.

İclasda Milli Məclisin sədri Oqtay Əsədov çıxış etmişdir. Oqtay Əsədov qeyd etmişdir ki, SSRİ dağıldıqdan sonra postsovet ölkələri arasında bütün əlaqələr qırılmışdır. Amma bu ölkələri iqtisadi, ticarət, mədəni və digər sahələrdə əlaqələndirə bilən bir quruma ehtiyac var idi. Belə bir qurum 15 ildir ki, fəaliyyət göstərən Müstəqil Dövlətlər Birliyidir. Bu birliyin ayrı-ayrı qurumları, o cümlədən Parlament Assambleyası da uğurla fəaliyyət göstərməkdədir.

Milli Məclisin sədri təşkilatın beynəlxalq miqyasdakı rolu, üzv ölkələrin həyatındakı mövqeyi, beynəlxalq proseslərə təsiri və digər məsələlər barədə fikirlərini söyləmişdir. Oqtay Əsədov Azərbaycan ilə MDB PA arasında əlaqələrin yüksək qarşılıqlı anlaşma şəraitində inkişafından danışmışdır. Təşkilata üzv ölkələrin ərazi bütövlüyü məsələsinə toxunan Oqtay Əsədov, bu qurum çərçivəsində bir ölkənin digərinə ərazi iddiasının, təcavüzünün yolverilməz olduğunu xüsusi vurğulamışdır. Qeyd etmişdir ki, bu cür hallar təşkilatın fəaliyyətinə kölgə salır və onun işinə mane olur. Milli Məclisin sədri bu hallara qarşı barışmaz mövqe nümayiş etdirməyin vacibliyini bildirmişdir.

Tədbirdə ölkəmiz üçün ən maraqlı məqamlardan biri Azərbaycan nümayəndə heyətinin üç üzvünün MDB PA-nın "Sodrujestvo" ordeni ilə təltif olunması olmuşdur. Azərbaycan parlamentinin deputatları Əli Hüseynov, Fəzail Ağamalı və Milli Məclisin İşlər müdiri Firudin Hacıyev MDB ölkələri arasında dostluq əlaqələrinin daha da möhkəmləndirilməsi istiqamətində göstərdikləri fəaliyyətə görə bu ali mükafata layiq görülmüşlər.

Tavriya sarayında MDB-yə üzv olan ölkələrin uşaqlarının əl işlərindən ibarət "Dünya uşaqların gözü ilə" adlı rəsm sərgisi təşkil olunmuşdur. Azərbaycan bu sərgidə fəal iştirak etmişdir.

İyunun 1-də Milli Məclisin sədri Oqtay Əsədov "Mədəniyyətlərarası və dinlərarası dialoq" mövzusunda Avropa əməkdaşlıq məsələlərinə dair beynəlxalq konfransda iştirak etmişdir. Azərbaycan parlament nümayəndə heyətinin üzvləri konfransın ayrı-ayrı bölmələrinin işində təmsil olunmuşlar.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV ATƏT-İN FƏALİYYƏTDƏ OLAN SƏDRİ, İSPANİYANIN XARİCİ İŞLƏR NAZİRİ MİGEL ANGEL MORATİNOS KUYAUBENİN RƏHBƏRLİK ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİNİ QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyunun 4-də Prezident sarayında ATƏT-in fəaliyyətdə olan hazırkı sədri, İspaniya Krallığının xarici işlər naziri Migel Angel Moratinos Kuyaubenin rəhbərlik etdiyi nümayəndə heyətini qəbul etmişdir.

Migel Angel Moratinos Kuyaube dövlətimizin başçısına müraciətlə dedi: Sizin qəbulunuzda olmaq mənim üçün böyük şərəfdir. ATƏT-in fəaliyyətdə olan sədri və İspaniya Krallığının xarici işlər naziri kimi Azərbaycana ilk dəfədir səfər edirəm. Bu gün Azərbaycan-İspaniya münasibətləri üçün tarixi bir gündür. Belə ki, tarixdə ilk dəfə olaraq İspaniyanın xarici işlər naziri Azərbaycana səfər edir. Bu ilk səfərdir, lakin sonuncu olmayacaqdır. Ölkənizə səfər etməkdən çox məmnunam.

Bu səfərim Azərbaycanda gedən böyük inkişaf dövrünə təsadüf edir. Ümid edirəm ki, bu səfər Azərbaycan və İspaniya üçün faydalı olacaqdır. Bununla yanaşı, ATƏT adından müəyyən məsələlərin həll edilməsi ilə bağlı səylərinizə, ölkənizin gələcəyi üçün vacib olan daxili siyasi proseslərə, iqtisadi islahatlara dəstək ola bilərik. Ümidvaram ki, azərbaycanlı dostlarımla faydalı görüşlər keçirəcəyəm.

Əminəm ki, bu səfərdən sonra ölkənizə yenidən gəlmək istəyim daha da artacaqdır.

Bildirmək istəyirəm ki, dünən İspaniya Kralı Zati-aliləri I Xuan Karlos ilə görüşmüşəm. O, səmimi salamlarını Sizə çatdırmağı və Sizi İspaniyaya səfərə dəvət etməyi məndən xahiş etdi. Beləcə biz iki ölkə arasında münasibətləri necə gücləndirə biləcəyimizi nəzərdən keçirə bilərik.

Prezident İlham Əliyev qonağa təşəkkür edərək dedi: Xahiş edirəm, mənim də ən səmimi salamlarımı Zati-aliləri I Xuan Karlosa çatdırasınız. Ümumiyyətlə, sizinlə həmfikirəm ki, ikitərəfli əlaqələrimizi daha da gücləndirməliyik. Siyasi, iqtisadi, mədəni sahələrdə əlaqələrimizi genişləndirmək üçün güclü potensialımız və yaxşı imkanlarımız vardır. Əminəm ki, ölkəmizə ilk səfəriniz bu istiqamətdə çox mühüm addım olacaqdır. Biz

İspaniya ilə ikitərəfli əlaqələrimizə böyük əhəmiyyət veririk.

Görüşdə Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli istiqamətində aparılan danışıqların hazırkı vəziyyəti və perspektivləri ilə bağlı fikir mübadiləsi aparıldı.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV ABŞ-IN TİCARƏT NAZİRİNİN MÜAVİNİ DAVİD SAMPSONUN RƏHBƏRLİK ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİNİ QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyunun 4-də Prezident sarayında ABŞ-ın ticarət nazirinin müavini David Sampsonun rəhbərlik etdiyi nümayəndə heyətini qəbul etmişdir.

Dövlətimizin başçısı Azərbaycan-ABŞ münasibətlərinin müxtəlif sahələrdə uğurla inkişaf etdiyini, bu səfərin iki ölkə arasında, xüsusilə iqtisadi sahədə, əməkdaşlıq məsələlərinin müzakirəsi üçün yaxşı imkan yaratdığını bildirdi. O, hazırda Azərbaycanda iqtisadiyyatın qeyri-neft sektoruna böyük diqqət yetirildiyini vurğulayaraq, əsasən, informasiya texnologiyaları, kənd təsərrüfatı, nəqliyyat sahələrinin inkişafı üçün bir çox layihələrin həyata keçirildiyini dedi. Prezident İlham Əliyev ABŞ şirkətlərinin ölkəmizin qeyri-neft sektorunda iştirakını alqışladığını bildirdi və bu baxımdan ABŞ-ın ticarət nazirinin müavininin ölkəmizə səfərinin uğurlu keçəcəyinə ümidvar olduğunu söylədi.

David Sampson ABŞ-ın ticarət naziri Karlos Qutyerresin salamlarını dövlətimizin başçısına çatdırdı. O dedi: "Biz Sizin ABŞ-la dostluğunuzu və ABŞ-ın terrorizm ilə mübarizədə səylərinə, habelə İraq, Əfqanıstan və Kosovoda həyata keçirilən əməliyyatlara göstərdiyiniz dəstəyi çox yüksək qiymətləndiririk. Bizim münasibətlərimiz çox önəmli strateji xarakter daşıyır. Ümid edirəm, bu səfərimlə ABŞ-ın biznes dairələrinə belə bir mesaj göndəriləcəkdir ki, biz Azərbaycanla iqtisadiyyat və ticarət əlaqələrini dərinləşdirmək və gücləndirməyin tərəfdarıyıq".

Səfəri zamanı Bakıda ABŞ Ticarət Palatasının nümayəndələri ilə görüş keçirdiyini deyən David Sampson ABŞ şirkətlərində Azərbaycanın potensialı ilə bağlı böyük nikbinliyin və burada fəaliyyət göstərməyə geniş marağın mövcudluğunu qeyd edərək, bunun dost və müttəfiq ölkələrin əməkdaşlığı üçün çox vacib amil olduğunu vurğuladı.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV NORVEÇİN DÖVLƏT KATİBİ, NEFT SƏNAYESİ VƏ ENERGETİKA NAZİRİNİN MÜAVİNİ XANIM ANİTA UTSETİN RƏHBƏRLİK ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİNİ QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyunun 5-də Prezident sarayında Norveçin dövlət katibi, neft sənayesi və energetika nazirinin müavini xanım Anita Utsetin rəhbərlik etdiyi nümayəndə heyətini qəbul etmişdir.

Görüşdə Azərbaycanla Norveç arasında energetika sahəsində qarşılıqlı surətdə faydalı əməkdaşlığın həyata keçirildiyi vurğulandı və bu əməkdaşlığın gələcəkdə də inkişaf etdiriləcəyinə əminlik ifadə olundu.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV MDB-NİN İCRAİYYƏ KOMİTƏSİNİN SƏDRİ – İCRAÇI KATİBİ VLADİMİR RUŞAYLONU QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyunun 5-də Prezident sarayında MDB-nin İcraiyyə Komitəsinin sədri – icraçı katibi Vladimir Ruşaylonu qəbul etmişdir.

Görüşdə MDB çərçivəsində əməkdaşlığın hazırkı vəziyyəti və perspektivləri ilə bağlı fikir mübadiləsi aparıldı.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV ABŞ-IN DÖVLƏT KATİBİNİN AVROPA VƏ AVRASİYA MƏSƏLƏLƏRİ ÜZRƏ MÜŞAVİRİ, ATƏT-İN MİNSK QRUPUNUN AMERİKALI HƏMSƏDRİ MƏTYU BRAYZƏNİN RƏHBƏRLİK ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİNİ QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyunun 5-də Prezident sarayında ABŞ-ın dövlət katibinin Avropa və Avrasiya məsələləri üzrə müşaviri, ATƏT-in Minsk qrupunun amerikalı həmsədri Mətyu Brayzənin rəhbərlik etdiyi nümayəndə heyətini qəbul etmişdir.

Görüşdə Azərbaycan-ABŞ ikitərəfli münasibətləri, enerji sahəsində əməkdaşlıq, Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli ilə bağlı aparılan danışıqlar və qarşılıqlı maraq doğuran digər məsələlər ətrafında fikir mübadiləsi aparıldı.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV GÜRCÜSTANIN ENERGETİKA NAZİRİ NİKA GİLAURİNİ QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyunun 5-də Prezident sarayında Gürcüstanın energetika naziri Nika Gilaurini qəbul etmişdir.

Görüşdə Azərbaycanla Gürcüstan arasında energetika sahəsində uğurlu əməkdaşlığın həyata keçirildiyi vurğulandı, bunun gələcəkdə də inkişaf etdiriləcəyinə əminlik ifadə olundu.

Nika Gilauri Gürcüstanın qaz təchizatı ilə bağlı Azərbaycanın göstərdiyi köməyin ölkəsində yüksək qiymətləndirildiyini qeyd etdi və bununla bağlı minnətdarlığını bildirdi.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV KÜVEYTİN XARİCİ NEFT TƏDQİQAT ŞİRKƏTİNİN SƏDRİ VƏ İDARƏETMƏ ÜZRƏ DİREKTORU BƏDR ƏL-XAŞTİNİ VƏ ABŞ-IN GFİ NEFT VƏ QAZ ŞİRKƏTİNİN PREZİDENTİ RİÇARD MAKDUQALI QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyunun 5-də Prezident sarayında Küveytin Xarici neft tədqiqat şirkətinin sədri və idarəetmə üzrə direktoru Bədr əl-Xaştini və ABŞ-ın GFİ neft və qaz şirkətinin prezidenti Riçard MakDuqalı qəbul etmişdir.

Dövlətimizin başçısı ölkəmizin neft və qaz sektorunda böyük nailiyyətlər qazandığını və Azərbaycan iqtisadiyyatının çox böyük sürətlə artdığını vurğuladı. Ölkəmizin xarici şirkətlərlə fəal əməkdaşlıq etdiyini söyləyən Prezident İlham Əliyev bu şirkətlərin fəaliyyəti üçün Azərbaycanda çox əlverişli şəraitin yaradıldığını bildirdi.

Bədr əl-Xəşti rəhbərlik etdiyi şirkətin ABŞ-ın GFİ neft və qaz şirkəti ilə birlikdə Azərbaycanın energetika sahəsinin inkişafında iştirak etməyə böyük maraq göstərdiyini bildirdi. O, dövlətimizin başçısına Küveytin Xarici neft tədqiqat şirkətinin fəaliyyəti və ölkəmizlə əməkdaşlıq istəyinin perspektivləri ilə bağlı məlumat verdi.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV ATƏT-İN MİNSK QRUPUNUN HƏMSƏDRLƏRİNİ VƏ ATƏT-İN FƏALİYYƏTDƏ OLAN SƏDRİNİN XÜSUSİ NÜMAYƏNDƏSİNİ QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyunun 6-da Prezident sarayında ATƏT-in Minsk qrupunun fransalı həmsədri Bernar Fasyeni, rusiyalı həmsədri Yuri Merzlyakovu, amerikalı həmsədri Mətyu Brayzəni və ATƏT-in fəaliyyətdə olan sədrinin xüsusi nümayəndəsi Anji Kaspşiki qəbul etmişdir.

Görüşdə Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həllinə dair aparılan danışıqlarla bağlı məsələlər müzakirə olunmuşdur.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV "CİTİGROUP"UN AVROPA REGİONU ÜZRƏ BAŞ İCRAÇI DİREKTORU UİNFRED BİŞOFUN RƏHBƏRLİK ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİNİ QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyunun 6-da Prezident sarayında "Citigroup"un Avropa regionu üzrə baş icraçı direktoru Uinfred Bişofun rəhbərlik etdiyi nümayəndə heyətini qəbul etmişdir.

Uinfred Bişof Azərbaycana ilk dəfə səfər etdiyini və bu səfərindən məmnun olduğunu bildirdi. O, xalqımızın ümummilli lideri Heydər Əliyev tərəfindən əsası qoyulmuş uğurlu siyasətin Prezident İlham Əliyevin rəhbərliyi altında bu gün də davam etdirildiyini vurğuladı.

Dövlətimizin başçısı son on ildə ölkəmizin bütün sahələrdə böyük nailiyyətlər əldə etdiyini dedi. Hazırda ümumi daxili məhsulda özəl sektorun payının 80 faiz olduğunu xatırladan Prezident İlham Əliyev Azərbaycan iqtisadiyyatının yüksək sürətlə inkişaf etdiyini bildirdi.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV BÖYÜK BRİTANİYA PARLAMENTİ İCMALAR PALATASININ NÜMAYƏNDƏ HEYƏTİNİ QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyunun 7-də Prezident sarayında Böyük Britaniya parlamenti İcmalar palatasının Xarici əlaqələr komitəsinin sədri Mayk Qeypsin rəhbərlik etdiyi parlament nümayəndə heyətini qəbul etmişdir.

Mayk Qeyps Azərbaycanda gedən inkişaf proseslərinin onlarda böyük maraq doğurduğunu qeyd etdi. O, Böyük Britaniya ilə Azərbaycan arasında münasibətlərin yüksək səviyyədə olduğunu vurğulayaraq, ölkələrimizin siyasi, iqtisadi, təhlükəsizlik və digər sahələrdə yaxından əməkdaşlıq etdiklərini bildirdi. Qonaq Azərbaycanın təşəbbüsü ilə regionda həyata keçirilmiş qlobal enerji layihələrində Böyük Britaniyanın bp şirkətinin iştirakından məmnun olduğunu vurğuladı.

Dövlətimizin başçısı Azərbaycan ilə Böyük Britaniya arasında müxtəlif səviyyələrdə intensiv dialoqun aparıldığını və bunun ikitərəfli münasibətlərin inkişafına dəyərli töhfə verdiyini bildirdi. O, Azərbaycanın neft strategiyasının həyata keçirilməyə başlandığı dövrdən Böyük Britaniyanın bp şirkətinin bu işdə çox fəal iştirak etdiyini vurğuladı. Prezident İlham Əliyev bu səfərin müxtəlif sahələrdə ikitərəfli əlaqələrin, o cümlədən parlamentlərarası əməkdaşlığın daha da genişləndirilməsi üçün faydalı olacağına əminliyini söylədi.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV "MİCROSOFT" ŞİRKƏTİNİN BAŞ VİTSE-PREZİDENTİ KREYQ MANDİNİN RƏHBƏRLİK ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİNİ QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyunun 7-də Prezident sarayında "Microsoft" şirkətinin baş vitse-prezidenti Kreyq Mandinin rəhbərlik etdiyi nümayəndə heyətini qəbul etmişdir.

Dövlətimizin başçısı "Microsoft" şirkətinin prezidenti Bill Qeyts və baş vitse-prezident Kreyq Mandi ilə İsveçrədə keçirdiyi görüşü xatırlatdı. Prezident İlham Əliyev səmərəli keçən bu görüş zamanı ölkəmizin "Microsoft" şirkəti ilə əməkdaşlığının konkret istiqamətlərinin müzakirə olunduğunu bildirdi. Dövlətimizin başçısı hazırda Azərbaycanda informasiya texnologiyaları sahəsinin inkişafına böyük diqqət verildiyini dedi və bu baxımdan "Microsoft" şirkəti ilə əlaqələrin genişləndirilməsinin faydalı olacağına əminliyini söylədi.

Kreyq Mandi "Microsoft" şirkətinin prezidenti Bill Qeytsin salamlarını Prezident İlham Əliyevə çatdırdı. Azərbaycana ilk dəfə səfər etdiyini deyən qonaq səfər çərçivəsində səmərəli görüşlər keçirdiyini bildirdi. O dedi: "Sizinlə keçirdiyimiz ilk görüş məndə və "Microsoft" şirkətinin prezidenti Bill Qeytsdə çox yaxşı təəssürat yaratmışdır. Görüş zamanı hiss etdik ki, Siz qlobal baxışlara malik liderssiniz. Görüşdə bildirmişdiniz ki, Siz enerjinin inkişafına söykənən cəmiyyətdən biliyə arxalanan cəmiyyətə keçməyi fikirləşirsiniz. Bu, ölkənizin gələcəyi baxımından çox önəmlidir".

Dövlətimizin başçısı Bill Qeytsin salamlarına görə təşəkkürünü bildirdi və onun da salamlarını "Microsoft" şirkətinin prezidentinə çatdırmağı xahiş etdi.

Görüşün sonunda Kreyq Mandi "Microsoft" şirkətinin Azərbaycan üzrə birinci məhsulu olan "Windows XP" proqramının Azərbaycan dilində versiyasının ilk diskini və Bill Qeytsin şəxsən dövlətimizin başçısına göndərdiyi kitabını Prezident İlham Əliyevə təqdim etdi.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV ƏFQANISTANIN DAXİLİ İŞLƏR NAZİRİ ZƏRAR ƏHMƏD MUQBİLİN RƏHBƏRLİK ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİNİ QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyunun 7-də Prezident sarayında Əfqanıstanın daxili işlər naziri Zərar Əhməd Muqbilin rəhbərlik etdiyi nümayəndə heyətini qəbul etmişdir.

Dövlətimizin başçısı Azərbaycanla Əfqanıstan arasında ikitərəfli münasibətlərin yaxşı inkişaf etdiyini bildirdi. Əfqanıstan Prezidentinin ölkəmizə səfərini xatırlayan Prezident İlham Əliyev əlaqələrimizin daha da inkişaf etdirilməsi ilə bağlı Əfqanıstanın dövlət başçısı ilə müxtəlif beynəlxalq tədbirlərdə də səmərəli görüşlər keçirdiyini qeyd etdi.

Azərbaycan Prezidenti bildirdi ki, qonağın ölkəmizə bu səfəri qarşılıqlı münasibətlərin, xüsusilə təhlükəsizlik sahəsində əlaqələrin müzakirəsi və gələcək əməkdaşlıq haqqında fikir mübadiləsi aparmaq üçün yaxşı imkanlar yaradır. Dövlətimizin başçısı bu baxımdan səfərin ikitərəfli münasibətlərimizin inkişafına töhfə verəcəyinə əminliyini söylədi.

Nazir Zərar Əhməd Muqbil Əfqanıstan Prezidentinin salamlarını dövlətimizin başçısına çatdırdı. Azərbaycanda sabitlik və əmin-amanlığın bərqərar olduğunu vurğulayan qonaq ölkəmizin Əfqanıstanda sülhün və sabitliyin təmin olunması işinə töhfə verdiyinə – Azərbaycan sülhməramlı qüvvələrinin Əfqanıstanda anti-terror fəaliyyətində iştirakına görə Prezident İlham Əliyevə minnətdarlığını ifadə etdi.

Dövlətimizin başçısı Əfqanıstan Prezidentinin salamlarına görə minnətdarlığını bildirdi və onun da salamlarını Əfqanıstanın dövlət başçısına çatdırmağı xahiş etdi.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV BƏHREYNİN XARİCİ İŞLƏR NAZİRİ XALİD BİN ƏHMƏD BİN AL XƏLİFƏNİN RƏHBƏRLİK ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİNİ QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyunun 8-də Prezident sarayında Bəhreyn Krallığının xarici işlər naziri Xalid bin Əhməd bin Al Xəlifənin rəhbərlik etdiyi nümayəndə heyətini qəbul etmişdir.

Dövlətimizin başçısı Azərbaycan ilə Bəhreyn arasında münasibətlərin uğurla inkişaf etdiyini bildirdi. Siyasi, iqtisadi, mədəni və digər sahələrdə əlaqələrimizin daha da genişləndirilməsinin zəruriliyinə toxunan Prezident İlham Əliyev iki ölkənin gələcək birgə əməkdaşlığı üçün yaxşı perspektivlərin olduğunu vurğuladı. Dövlətimizin başçısı bu səfərin ölkəmiz ilə Bəhreyn Krallığı arasında münasibətlərin bundan sonra da inkişaf etdirilməsinə töhfəsini verəcəyinə əminliyini söylədi.

Xalid bin Əhməd bin Al Xəlifə Bəhreynin Kralı, Şahzadəsi və Baş nazirinin salamlarını Prezident İlham Əliyevə çatdırdı. Azərbaycana ikinci dəfə səfər etdiyini bildirən qonaq ilk səfərindən ötən bir il ərzində ölkəmizdə böyük dəyişikliyin baş verməsinin şahidi olduğunu dedi. O, Bəhreyn Krallığı ilə Azərbaycan arasında bütün sahələrdə əlaqələrin genişləndiriləcəyinə ümidvar olduğunu bildirdi.

Dövlətimizin başçısı Bəhreynin Kralı, Şahzadəsi və Baş nazirinin salamlarına görə təşəkkürünü bildirdi və özünün də salamlarını Bəhreyn Krallığının rəhbərliyinə çatdırmağı xahiş etdi.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV KÜVEYT BAŞ NAZİRİNİN MÜAVİNİ, XARİCİ İŞLƏR NAZİRİ ŞEYX MƏHƏMMƏD ƏS-SALİM ƏS-SABAHIN RƏHBƏRLİK ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİNİ QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyunun 8-də Prezident sarayında Küveyt Dövləti Baş nazirinin müavini, xarici işlər naziri Şeyx Məhəmməd Əs-Salim Əs-Sabahın rəhbərlik etdiyi nümayəndə heyətini qəbul etmişdir.

Dövlətimizin başçısı Azərbaycan ilə Küveyt arasında münasibətlərin uğurla inkişaf etdiyini bildirdi. Hər iki ölkədə səfirliklərin fəaliyyət göstərdiyini qeyd edən Prezident İlham Əliyev bunun ikitərəfli əlaqələrimizin mühüm elementi olduğunu vurğuladı. O, Küveyt ilə bütün sahələrdə, o cümlədən beynəlxalq təşkilatlar çərçivəsində əməkdaşlığın daha da genişləndiriləcəyinə əminliyini söylədi.

Şeyx Məhəmməd Əs-Salim Əs-Sabah Küveyt Dövlətinin Əmiri, Şahzadəsi və Baş nazirinin salamlarını və Küveyt Dövlətinin Əmirinin Prezident İlham Əliyevi öz ölkəsində görmək istəyini dövlətimizin başçısına çatdırdı. O, Küveytin Azərbaycanda səfirliyinin açılmasının ölkəmizlə münasibətlərə verilən əhəmiyyətin mühüm göstəricisi olduğunu vurğuladı. Qonaq iki ölkə arasında fəal siyasi dialoqun və səmərəli əməkdaşlığın bundan sonra da davam etdiriləcəyinə ümidvar olduğunu bildirdi.

Dövlətimizin başçısı Küveyt Dövlətinin Əmiri, Şahzadəsi və Baş nazirinin salamlarına görə təşəkkürünü bildirdi və onun da salamlarını Küveytin rəhbərliyinə çatdırmağı xahiş etdi.

DAĞISTAN PREZİDENTİ MUXU ƏLİYEVİN VƏ AZƏRBAYCANIN BAŞ NAZİRİ ARTUR RASİZADƏNİN GÖRÜŞÜ

İyunun 7-də Mahaçqalada Dağıstan Prezidenti Muxu Əliyevin və Azərbaycanın Baş naziri Artur Rasizadənin görüşündə uzunmüddətli ikitərəfli əməkdaşlığın perspektivləri müzakirə olunmuşdur. Tərəflər Dağıstanla Azərbaycan arasında qarşılıqlı əlaqələrin dinamik inkişafından, dostluq münasibətlərinin möhkəmlənməsindən məmnun qaldıqlarını bildirdilər.

Dağıstan Prezidenti M.Əliyev dedi ki, Əziz Əliyevin yubileyinə həsr olunmuş təntənəli tədbirlər təkcə onun parlaq şəxsiyyətinə ehtiram əlaməti deyil, həm də Dağıstan və Azərbaycan xalqlarının tarixi yaxınlığının xatırladılması, respublikalarımızın dostluq münasibətlərinin təsdiqidir. M.Əliyev dedi: "Bizim ümumi tariximiz, mədəniyyətimiz var, ona görə də mehriban qonşuluq münasibətlərini möhkəmləndirməyi həyatın özü tələb edir". O vurğuladı ki, Dağıstan nümayəndə heyətinin bu yaxınlarda Azərbaycana səfəri zamanı Prezident İlham Əliyevlə ətraflı danışıqlar aparılmış, bir sıra mühüm sa-

zişlər imzalanmışdır. Əminəm ki, bu, qardaş xalqlarımızın layiqli oğlu Əziz Əliyevin xatirəsinə ən yaxşı ehtiram əlamətidir.

Dostluq münasibətlərinin bundan sonra da möhkəmləndirilməsinin zəruriliyi barədə Dağıstan Prezidentinin fikrinə şərik olan Baş nazir Artur Rasizadə Əziz Əliyevin xatirəsinə ehtirama görə Prezident İlham Əliyevin təbriklərini və minnətdarlığını çatdırdı. O dedi ki, Azərbaycan Dağıstanın da daxil olduğu Rusiya Federasiyasına əvvəlki tək etibarlı tərəfdaş kimi baxır.

Yaxın planlar barədə fikir mübadiləsi aparan tərəflər energetika, emal sənayesi, turizm və sair sahələrə dair konkret layihələr proqramının hazırlanmasının məqsədəuyğunluğunu vurğuladılar. Bu məqsədlə ikitərəfli komissiya yaradılacaqdır. A.Rasizadə bildirdi ki, Rusiya ilə Azərbaycan arasında qarşılıqlı surətdə faydalı əməkdaşlığa dair belə bir proqram var və çox güman ki, Dağıstan-Azərbaycan sazişi buna uyğun olaraq hazırlanacaqdır.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN SANKT-PETERBURQA SƏFƏRİ

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Müstəqil Dövlətlər Birliyinin üzvü olan ölkələrin dövlət başçılarının qeyri-rəsmi zirvə toplantısında iştirak etmək üçün iyunun 9-da Rusiyanın Sankt-Peterburq şəhərinə səfərə yola düşmüşdür.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN VƏ ERMƏNİSTAN PREZİDENTİ ROBERT KOÇARYANIN GÖRÜŞÜ

İyunun 9-da Sankt-Peterburqun "Konqreslər sarayı" dövlət kompleksinin "Baltik ulduzu" mehmanxanasında Azərbaycan Prezidenti İlham Əliyevin və Ermənistan Prezidenti Robert Koçaryanın görüşü keçirilmişdir.

Üç saat davam edən görüş başa çatdıqdan sonra Azərbaycanın xarici işlər naziri Elmar Məmmədyarov jurnalistlərə bildirmişdir ki, əvvəlcə prezidentlər təkbətək görüşmüşlər. Sonra ATƏT-in Minsk qrupunun həmsədrləri və xarici işlər nazirləri danışıqlara qatılmışlar.

Azərbaycanın xarici işlər naziri demişdir ki, tərəflər mövqelərini bildirmiş, başlıca prinsiplər müzakirə olunmuşdur. Biz həmin prinsiplər əsasında regionda uzunmüddətli sülhə nail olunması barədə razılığa gəlməyə hazırlaşırıq.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV MDB DÖVLƏT BAŞÇILARININ QEYRİ-RƏSMİ ZİRVƏ TOPLANTISINDA İŞTİRAK ETMİŞDİR

İyunun 10-da Sankt-Peterburqda MDB dövlət başçılarının qeyri-rəsmi zirvə toplantısı keçirilmişdir. Dövlət başçıları əvvəlcə Konstantinov sarayının Danışıqlar pavilyonu qarşısında xatirə şəkli çəkdirmişlər.

Rusiya Prezidenti Vladimir Putin Konstantinov sarayının Mərmər salonunda keçirilən zirvə görüşünü açaraq bildirmişdir ki, dövlət başçılarının budəfəki qeyri-rəsmi sammiti 11-ci Sankt-Peterburq Beynəlxalq iqtisadi forumu ilə eyni vaxta salınmışdır. O, forum kimi, zirvə toplantısının da iqtisadiyyat sahəsində inteqrasiya proseslərinin inkişafına həsr olunmasını arzu etmişdir.

MDB-də sədrlik edən Qazaxıstan Prezidenti Nursultan Nazarbayev qonaqpərvərliyə və zirvə toplantısının yaxşı təşkilinə görə Vladimir Putinə təşəkkürünü bildirmişdir.

O demişdir ki, MDB çərçivəsində əməkdaşlıq Birlik ölkələrinin xarici siyasətinin mühüm istiqamətlərindəndir. N.Nazarbayev vurğulamışdır ki, zirvə toplantısında MDB-də islahatlar aparılması, onun stukturunun, o cümlədən icra orqanlarının fəallaşdırılması məsələləri müzakirə olunacaqdır. Qazaxıstan Prezidenti bildirmişdir ki, onun ölkəsinin təklifi ilə xarici işlər nazirlərinin müavinləri səviyyəsində dövlətlərarası işçi qrupu yaradılmış və o, iyunun 1-dək MDB-nin gələcək inkişaf konsepsiyasının layihəsini hazırlamışdır.

Zirvə toplantısında MDB İcraiyyə Komitəsinin sədri Vladimir Ruşaylonun qrupun işi haqqında məruzəsi dinlənilmişdir.

MDB-yə sədrlik edən Qazaxıstan Prezidenti Nursultan Nazarbayev jurnalistlərə bildirmişdir ki, MDB-də islahatlar aparılması konsepsiyası Birlik ölkələri dövlət başçılarının bu il oktyabrın 5-6-da Düşənbədə keçiriləcək rəsmi zirvə toplantısında müzakirə olunacaqdır.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN VƏ TÜRKMƏNİSTAN PREZİDENTİ QURBANQULU BERDİMƏHƏMMƏDOVUN GÖRÜŞÜ

İyunun 10-da Sankt-Peterburqda, MDB-nin üzvü olan ölkələrin dövlət başçılarının qeyri-rəsmi sammiti başa çatdıqdan sonra Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və Türkmənistan Prezidenti Qurbanqulu Berdiməhəmmədovun görüşü keçirilmişdir.

Görüşdə ölkələrimiz və xalqlarımız arasında fəal əməkdaşlığın inkişaf perspektivləri müzakirə olundu. Bildirildi ki, Azərbaycan-Türkmənistan əlaqələrinin genişlənməsi ikitərəfli münasibətlərin yeni mərhələsinin başlanmasına təkan verəcəkdir. Dövlət başçıları vurğuladılar ki, qarşılıqlı əməkdaşlıq təkcə iqtisadi-ticarət sahəsində yox, digər sahələrdə də inkişaf etdirilməlidir.

AZƏRBAYCAN İLƏ İSRAİL ARASINDA ƏLAQƏLƏRİN İNKİŞAFI İLƏ BAĞLI MƏSƏLƏLƏR MÜZAKİRƏ OLUNMUŞDUR

İyunun 11-də Azərbaycanın xarici işlər naziri Elmar Məmmədyarov İsrail xarici işlər nazirinin birinci müavini Yossi Qal ilə görüşmüşdür.

Diplomat Y.Qal Azərbaycan ilə İsrail arasında əməkdaşlığın səviyyəsindən razılığını ifadə edərək, ikitərəfli əsasda bir sıra qarşılıqlı səfərlərin təşkil olunduğunu xatırlatmış, bu səfərlərin dostluq əlaqələrinin daha da möhkəmlənməsinə töhfə verdiyini bildirmiş-

dir. O, həmçinin ölkələrimiz arasında siyasi dialoqla yanaşı, iqtisadi əlaqələrin də inkişaf etdirilməsinin, ticarət dövriyyəsinin artırılmasının zəruriliyini vurğulamışdır.

Nazir E.Məmmədyarov da ölkələrimiz arasında ikitərəfli səviyyədə siyasi, iqtisadi, mədəni sahələrdə əldə olunmuş nailiyyətlərdən məmnun olduğunu bildirmişdir. Görüşdə beynəlxalq və regional əhəmiyyətli məsələlər ətrafında geniş fikir mübadiləsi aparılmışdır.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV YAPONİYANIN "NİKKEY" QƏZETİNİN MOSKVA BÜROSUNUN RƏHBƏRİ EYDZİ FURUKAVAYA MÜSAHİBƏ VERMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyunun 13-də Prezident sarayında Yaponiyanın "Nikkey" qəzetinin Moskva bürosunun rəhbəri Eydzi Furukavaya müsahibə vermişdir.

- Sizə bir sıra suallar vermək istərdim. İlk növbədə, bunlar enerji məsələləri ilə bağlı olacaqdır. Belə ki, Yaponiya şirkətləri də Azərbaycanın enerji sahəsindəki siyasətinə böyük maraq göstərirlər. Keçən il Azərbaycan, Gürcüstan və Türkiyəni birləşdirən neft boru kəməri istifadəyə verilmişdir. Avropanın enerji ilə təmin olunması sahəsindəki strategiyanız nədən ibarətdir?

– Neft və qaz strategiyamızı milli maraqlarımıza uyğun olaraq həyata keçiririk. Bizim nəhəng neft və qaz ehtiyatlarımız var. Təkcə "Azəri-Çıraq-Günəşli" yataqlarındakı xam neft ehtiyatlarımız 1,2 milyard tondan çoxdur. Hazırda bu yataqlardan neft hasil edirik və gələn il Azərbaycanda ümumi hasilat 50 milyon tondan artıq olacaqdır. Əlbəttə, bu nefti nəql etmək üçün boru kəmərlərinə ehtiyacımız var. Bizim 3 boru kəmərimiz var – ikisi Qara dənizə, biri isə Aralıq dənizinə çıxır. Beləliklə, biz hasilat və nəql problemlərimizi tamamilə həll etmişik. Qaz hasilatına gəlincə, bu yaxınlarda, "Şahdəniz" yatağında böyük qaz ehtiyatları kəşf etmişik. Digər yataqlardakı ehtiyatlar ilə birlikdə hazırda ölkəmizin qaz ehtiyatı ümumilikdə 1,5 trilyon kubmetr həcmində qiymətləndirilir. Bu qazı dünya bazarlarına nəql edəcək boru kəməri artıq fəaliyyət göstərir. Artıq Gürcüstanı qaz ilə təchiz edirik və texniki baxımdan bu boru kəməri ilə qaz Avropa bazarlarına da nəql edilə bilər.

– Neftiniz Novorossiysk vasitəsilə Rusiya ərazisindən keçməklə də nəql edilirdi. Boru kəmərləri ilə neftin nəqli məsələlərini necə həyata keçirirsiniz?

– 1997-ci ildə xarici şirkətlər konsorsiumu ilə neft hasilatına başlayan zaman, bu yeganə boru kəməri idi. Lakin bundan sonra daha 2 boru kəməri inşa edildi. Bunlardan biri Bakı-Supsa, digəri isə Bakı-Tbilisi-Ceyhan boru kəməridir. Beləliklə, bizim üç boru kəmərimiz var. Əlbəttə, biz onların hamısından istifadə edə bilərik. İstehlakçılar idxalın şaxələndirilməsi barədə fikirləşirlər. Biz isə ixracın şaxələndirilməsi barədə düşünürük. Biz bunu artıq həll etmişik. Əlbəttə, biz daha artıq iqtisadi fayda verən neft infrastrukturundan istifadəyə daha çox üstünlük verəcəyik.

- Siz iqtisadi fayda barəsində danışdınız, bu baxımdan hansı boru kəməri daha sərfəlidir?

– Əlbəttə, hazırda Aralıq dənizinə çıxışı olan Bakı-Tbilisi-Ceyhan boru kəməri. Belə ki, biz bu boru kəməri vasitəsilə gündə bir milyon barrel neft nəql edirik. Bu isə ildə 50 milyon ton deməkdir. Bundan başqa, bu boru kəməri bizə nefti bütün dünyaya satmağa imkan verir. Çünki Ceyhan limanından Azərbaycan nefti hər yerə – Asiyaya, Amerikaya satılır. İndi boru kəmərinin tam tutumunda fəaliyyət göstərməsinə çalışırıq və ehtimal ki, biz gələn il bu məqsədimizə nail olacağıq.

- Qaz ilə bağlı nə deyə bilərsiniz?

- Yuxarıda dediyim kimi, Azərbaycan artıq qazı ixrac edən ölkəyə çevrilmişdir. Qaz infrastrukturumuz yenicə yaradılmışdır. Bu yaxınlarda Türkiyəyə gedən çox müasir qaz boru kəmərini inşa etmişik. Azərbaycan qazı Türkiyə vasitəsilə Avropa İttifaqı bazarına da nəql edilə bilər. Bu kəmər Cənubi Qafqaz boru kəməri adlanır. Bundan başqa, biz bu yaxınlarda Nabukko layihəsində iştirak etməyə dəvət almışıq. Bu layihəyə Türkiyə, Bolqarıstan, Rumıniya, Avstriya, Macarıstan kimi ölkələr də cəlb olunacaqdır. Biz aldığımız dəvəti, təklifi nəzərdən keçiririk. Dediyim kimi, bizim nəhəng qaz ehtiyatlarımız var və gələcəkdə qonşu dövlətləri, Avropa dövlətlərini qaz ilə təchiz edə biləcəyik. Lakin bu nəhəng qaz ehtiyatlarından istifadə ilkin mərhələdədir. "Şahdəniz" yatağından qaz yalnız bu ildən hasil edilməyə başlanmışdır. Hasilatı artırmaq və onu bazarın tələbatlarına uyğun yüksək səviyyədə saxlamaq üçün bir neçə il lazım olacaqdır.

- Burada xarici şirkətlərlə əməkdaşlığın rolu nədən ibarətdir?

- Onların rolu çox mühümdür. Çünki onlar bizim əsas sərmayədarlardır. Onlar qaz və neftin hasilatına, boru kəmərlərinin inşasına sərmayə qoyublar. Yəni əsas sərmayə qoyuluşunu xarici şirkətlər həyata keçirmişdir, eyni zamanda, Azərbaycan Dövlət Neft Şirkəti də bu layihələrə böyük sərmayə qoyur. Beləliklə, bizim neft şirkəti ilə xarici enerji şirkətləri arasında yaxşı tərəfdaşlıq mövcuddur. Bu tərəfdaşlıq 1994-cü ildən başlamışdır və uzunmüddətlidir. Bu günə kimi geniş coğrafiyası olan xarici şirkətlərlə, o cümlədən Yaponiya şirkətləri ilə Azərbaycanda tərəfdaşlıq etməkdən çox məmnunuq.

- "Enerji millətçiliyi" adlandırılan meyillər haqqında nə düşünürsünüz? Bu sahədə Sizin həyata keçirdiyiniz siyasət nədən ibarətdir?

- Bizim siyasətimiz çox açıqdır, xarici şirkətlərlə olan sazişlərimizə sadiqik. Azərbaycanda xarici sərmayəçilər üçün çox əlverişli şərait vardır. Bütün əsas neft müqavilələri parlamentin müzakirəsindən keçir. Bundan sonra Prezident imzalayır və onlar qanun qüvvəsini alır. Burada heç bir dəyişiklik etmək olmaz. Sazişlərimiz imzalandıqdan sonra onların heç biri barəsində yenidən danışıqlar aparılmamışdır. Hesab edirəm ki, bu, xarici şirkətlərin bizə etimad və inamının artırılması baxımından çox önəmlidir. Strategiyamızı milli maraqlarımız üzərində qururuq. Bununla yanaşı, anlayırıq ki, Azərbaycana sərmayə qoyan xarici şirkətlər gəlir götürmək istəyirlər. Bu da təbiidir. Biz bu iki marağı uzlaşdırmalıyıdıq və bunu edə bilmişik. Azərbaycanda xarici şirkətlər tərəfindən hasil edilən neftin çox böyük hissəsi təzliklə məhz Azərbaycana məxsus olacaqdır. Beləliklə, Azərbaycan ilə xarici şirkətlər arasında gəlirlərin bölgüsü sürətlə Azərbaycanın xeyrinə dəyişəcəkdir.

- Xəzər dənizi ətrafında olan neft və qaz istehsal edən ölkələr ilə əməkdaşlığın genişləndirilməsi barədə nə düşünürsünüz? Boru kəmərinin Xəzər dənizindən keçməklə Qa-

zaxıstan və Türkmənistan ilə birləşdirilməsi imkanlarına dair fikirlər mövcuddur. Bu barədə nə deyə bilərsiniz?

- Qazaxıstanın Bakı-Tbilisi-Ceyhan boru kəmərinə qoşulmasına dair keçən il mənimlə Qazaxıstan Prezidenti arasında hökumətlərarası saziş imzalanmışdır. İndi biz Qazaxıstan hökuməti və Qazaxıstanda neft hasil edən və bu neftin sahibi olan xarici şirkətlərlə bu istiqamətdə çalışırıq. Bu proses çox uğurla inkişaf edir. Qazaxıstan ilə münasibətlərimiz dostluq xarakteri daşıyır. Biz Xəzərin şərq sahilində olan dostlarımız – istər Qazaxıstan, istərsə də Türkmənistan üçün infrastrukturumuzu istifadəyə verməyə hazırıq. Bizim neft və qazı Avropa və beynəlxalq bazarlara nəql etmək üçün bütün zəruri, müasir infrastrukturumuz var. Əgər Xəzərin şərq sahilində olan dost ölkələr tərəfindən Azərbaycanın infrastrukturuna qoşulmaq istəyi olarsa, biz bunu nəzərdən keçirə bilərik. Lakin bu qərar onlar tərəfindən verilməlidir.

- Bu möcüzə barədə nə düşünürsünüz? Mən çox təəccübləndim. İki il bundan öncə burada idim. Ölkənizdə həqiqi inkişaf var. Eyni zamanda, Gürcüstanda olmuşam, orada da çox işlər görülür. Siz Qafqazın iqtisadiyyatı, regionda inkişaf, inteqrasiya barədə nə fikirləşirsiniz?

- Gürcüstan ilə inteqrasiyamız çox yüksək səviyyədədir. Biz tərəfdaş, dostuq. Neft və qazın nəqli ilə bağlı nəhəng çoxmilli, çoxmilyardlıq layihələr həyata keçiririk. Tezliklə Azərbaycan, Türkiyə və Gürcüstandan keçəcək, Mərkəzi Asiya ölkələrini, ümumiyyətlə, Asiyanı Azərbaycan vasitəsilə Avropa ilə birləşdirəcək yeni dəmir yolunun inşasına başlayacağıq. Bütün bu layihələr yalnız bizim üçün deyil, bütün Avrasiya ölkələri üçün önəmlidir. Bunu biz həyata keçiririk, bu proseslərin təşəbbüskarı bizik. Yeri gəlmişkən deyim ki, dəmir yolu layihəsi üzrə bu günə kimi biz heç bir maliyyə qurumundan yardım almamışıq, bu işləri öz hesabımıza görürük. Bu sahədə əməkdaşlığımız çox müsbətdir. Cənubi Qafqazın digər ölkəsinə - Ermənistana gəldikdə, onunla heç bir əlaqəmiz yoxdur. Bunun da səbəbi Ermənistan silahlı qüvvələrinin Azərbaycan torpaqlarını işğal etməsi və azərbaycanlılara qarşı etnik təmizləmə siyasəti aparmasıdır ki, bunun da nəticəsində 1 milyondan artıq azərbaycanlı əziyyət çəkərək, qaçqın və məcburi köçkün vəziyyətinə düşmüşdür. Lakin Gürcüstan ilə tərəfdaşlığımız və əməkdaşlığımız çox uğurla həyata keçirilir. Bundan başqa, sizin də dediyiniz kimi, bizim iqtisadiyyatımız inkişaf edir. Siz bunu statistik rəqəmlərdən görə bilər, eyni zamanda, Bakıda və regionlarda özünüz bu inkişafın şahidi ola bilərsiniz. Son bir neçə il ərzində ölkəmizdə misli görünməmiş inkişaf var. Əminəm ki, bu yalnız başlanğıcdır. Bu güclü iqtisadiyyat, yalnız regional formatda deyil, eyni zamanda, Avrasiya məkanında əhəmiyyətli rol oynaya biləcək güclü ölkə qurmaq planlarımızın həyata keçirilməsinin başlanğıcıdır. Artıq ölkəmiz bu rolu oynamaqdadır.

- Siz Avrasiya əməkdaşlığından danışarkən bunda Rusiyanın roluna necə baxırsınız? Belə ki, bu əməkdaşlıq dəhlizi, sanki Rusiyanın Transsibir dəhlizi ilə rəqabət aparır.

- Biz heç zaman siyasətimizi rəqabət üzərində qurmuruq. Əksinə, biz daim əməkdaşlığın tərəfdarı kimi çıxış edirik. Azərbaycan rəqabət aparmaq üçün yer deyil. Mən bir neçə dəfə bunu bəyan etmişəm və əminəm ki, siyasətimizin açıqlığı, əməkdaşlığa hazırlığımız bizə uğur gətirir. Bütün bunları etmək bizim hüququmuzdur, təbii hüququmuzdur. Biz öz prioritetlərimiz, milli maraqlarımız barədə düşünürük. Bu isə region və Avrasiya miqyasında mühüm ölkəyə çevrilmək üçün enerji ehtiyatlarımızdan və coğrafi mövqeyimizdən səmərəli istifadəyə əsaslanır. Ona görə də neft və qaz kəmərlərimiz, dəmir yolu əlaqəsi kiməsə qarşı yönəlməmişdir, onlar kiminləsə rəqabət aparmaq üçün deyildir. Biz xalqımız, Azərbaycan üçün lazım olanı edirik.

- Neftlə bağlı son sualımı vermək istəyirəm. Avropada neft idxalının şaxələndirilməsinə böyük ehtiyac duyulur. İndi Azərbaycanın yeni boru kəməri vardır. Gələcəkdə bu tələbatı nə qədər ödəyə bilərsiniz?

- Dediyim kimi, biz neft hasilatını artırırıq. 2010-cu ilə kimi ildə 65 milyon ton neft hasil etməyə ümid edirik. Gələn il hasilat 50 milyon tondan artıq olacaqdır. Qaz ilə bağlı deyə bilərəm ki, gələn il hasilatımız təxminən 16 milyard kubmetrə çatacaq, sonra isə hər şey bazardan asılı olacaqdır. Siz qazı istehlakçılara satmalısınız, siz onu açıq bazara sata bilməzsiniz. Bu, tələbata, Avropa ölkələri ilə potensial sazişlərimizə uyğun olacaqdır. Biz artıq Avropa İttifaqı ilə enerji məsələləri üzrə strateji tərəfdaşlığa dair anlaşma memorandumu imzalamışıq. Bu, əməkdaşlıq üçün yaxşı əsasdır. Əgər Azərbaycan qazına əlavə tələbat olarsa, əlbəttə, bu tələbatı təmin etmək üçün hasilatı artıracağıq. Biz bundan fayda götürəcəyik, belə ki, daha çox qaz satacaq və daha çox maliyyə vəsaiti qazanacağıq. Eyni zamanda, bunu etməklə Avropa iqtisadiyyatına daha çox inteqrasiya edəcəyik ki, bu da xarici siyasətimizin məqsədlərindən biridir.

- Sizin iqtisadiyyatın inkişafı daha çox neft və qaz ehtiyatlarından asılıdır. İqtisadiyyatın şaxələndirilməsi barədə nə düşünürsünüz? Azərbaycanı hansı istiqamətdə inkişaf etdirmək fikrindəsiniz?

- Bu təbiidir, çünki neft və qaz hələ də Azərbaycan iqtisadiyyatının mühüm elementidir və bir çox illər mühüm elementi olaraq qalacaqdır. Lakin biz iqtisadiyyatın şaxələndirilməsi üzərində də çalışırıq – sənaye istehsalı, regionların inkişafı proqramı... Təxminən son 4 il ərzində 550 mindən artıq yeni iş yeri açılmışdır. Son üç il ərzində yoxsulluğun səviyyəsi 49 faizdən 20 faizə sahınmışdır. Tezliklə biz bu rəqəmi əhəmiyyətli dərəcədə aşağı salacağıq, ölkədə yoxsullar olmayacaqdır. Biz neft və qaz sektorunda, ümumiyyətlə, iqtisadi inkişafla bağlı şəffaflıq məsələlərində beynəlxalq təşkilatlarla fəal əməkdaşlıq edirik. İnfrastruktur sahəsinə böyük sərmayələr qoyuruq. Təkcə keçən il 5 elektrik stansiyası inşa etmişik. Biz regionlarda infrastrukturu təmin etmək məqsədi ilə avtomagistrallar, xəstəxanalar, məktəblər, yollar inşa edirik. Çünki neft, əsasən, burada – Abşeron yarımadasında, Xəzər dənizində hasil edilir. Regionlarda bizim neft iqtisadiyyatımız yoxdur. Ona görə də burada kənd təsərrüfatı istehsalını, özəl sektoru həvəsləndiririk. Sizə deyə bilərəm ki, keçən il ÜDM-də qeyri-neft sektorunun payı çox əhəmiyyətli olubdur, 12 faizdən çox idi. Ümumilikdə ÜDM-in artımı 35 faiz olmuşdur. Bu isə kifayət qədər yüksək rəqəmdir. Bu zaman nəzərə almaq lazımdır ki, son 10 ildə Azərbaycanda ÜDM-də ildə ən azı 10 faizlik artım olmuşdur. Biz neft amilindən, bu imkandan istifadə edərək, ölkəmizi inkişaf etdiririk. Hazırda informasiya texnologiyaları sahəsində böyük sərmayələr qoyuruq. Azərbaycana yeni texnologiyalar gətiririk və ölkəmizi müasirləşdirmək üçün dünyanın informasiya texnologiyaları sahəsindəki aparıcı şirkətləri ilə əməkdaşlıq edirik.

- İndi mən diplomatiya və təhlükəsizlik məsələləri barəsində sual vermək istəyirəm. Mən bu sualı verməliyəm, çünki bu məsələ indi diqqət mərkəzindədir, çox həssas mə-

sələdir. Əgər ABŞ və Rusiya ölkənizdəki radiolokasiya sistemindən istifadə ilə bağlı müraciət edirlərsə, bunun sizin üçün faydası və önəmi nədir?

- Bizim ABŞ və Rusiya ilə çox yaxşı münasibətlərimiz var və hər iki ölkə ilə müxtəlif sahələrdə əməkdaşlıq edirik. Buna görə də Rusiya Prezidenti Qəbələ radiolokasiya stansiyasından birgə istifadə məsələsi ilə bağlı mənə zəng edəndə, əlbəttə ki, mənim buna ilkin reaksiyam müsbət oldu. Belə ki, hesab etdim, bu, hər iki ölkə üçün yaxşı əməkdaşlıq ruhuna uyğun olacaqdır. Əgər bu, dünyada potensial təhlükələri azaltmağa, qlobal təhlükəsizliyə töhfə verməyə kömək edərsə, biz bunu etməyə hazırıq. Belə ki, eyni zamanda, biz regionumuzda təhlükəsizliyin və proqnozlaşdırıla bilən vəziyyətin təmin olunması ilə bağlı bir çox proqramlarda iştirak edirik. Rusiya ilə radiolokasiya sisteminin icarəyə verilməsi barədə sazişimiz 2002-ci ildə imzalanmışdır və bu sazişin qüvvəsi 2012-ci ildə bitir. Sazişin 4-cü bölməsində açıq şəkildə deyilir ki, bu radiolokasiya stansiyasından istifadə ilə bağlı Rusiyanın istənilən üçüncü tərəflə əlavə sazişi Azərbaycanla razılaşdırılmalıdır. Buna görə də Rusiya Prezidentinin mənə zəng etməsi və fikirlərimi soruşması təbii bir şeydir və mən dedim ki, məsələyə münasibətim müsbətdir. Əgər bu fikir həyata keçirilərsə, bu zaman istər Rusiya, istərsə də ABŞ-la çox ciddi və ətraflı müzakirələr aparmalıyıq. Azərbaycan dünyada qlobal təhlükəsizlik işinə töhfə vermək üçün bu işdə istər ikitərəfli, istərsə də üçtərəfli formatda iştirak etməyə hazırdır.

- Bu formatdan istifadədə hansısa bir fayda görürsünüzmü?

- Bilirsiniz, biz siyasətimizi qısa və uzunmüddətli məqsədlər üzərində qururuq. Mən bu imkandan dərhal istifadə etməklə hansısa fayda axtarmaq istəməzdim. Mən hər iki ölkə ilə uzunmüddətli strategiyaya baxmağı üstün tutardım. Yalnız onda Azərbaycan daha çox fayda qazanacaqdır. Başqa sözlə, biz bu imkandan, sadəcə, özümüzə nə isə bir şey əldə etmək üçün yararlanmaq fikrində deyilik. Biz regionda möhkəm mövqeyi olan ölkəyik. İqtisadi mövqeyimiz çox güclüdür, ölkədə siyasi sabitlik bərqərar olmuşdur. Bizim ən böyük problemimiz torpaqlarımızın işğal altında olmasıdır. Əminəm ki, diplomatik səylərlə və ya istənilən digər yolla biz bunu həll edəcəyik. Bir daha demək istəyirəm ki, radiolokasiya stansiyası ətrafındakı məsələyə münasibətimiz və müzakirələrimiz uzunmüddətli strateji maraqlarımıza əsaslanacaqdır.

- Bəs bu məsələdə İran amili barədə nə deyə bilərsiniz? İran bundan məyus ola bilərmi?

- Bizim İranla da yaxşı münasibətlərimiz vardır. Biz qonşuyuq, iqtisadi məsələlərdə güclü münasibətlərimiz var, siyasi, mədəni əlaqələrimiz çox müsbətdir. Buna görə hesab etmirəm ki, hər hansı bir problem olacaqdır. Bundan başqa, radiolokasiya stansiyasından istifadə barədə danışmaq hələ tezdir. İlk növbədə, ABŞ və Rusiya arasındakı danışıqların necə getdiyini görməliyik. Lakin əgər onlar uğurlu olarsa, onda görəcəyik. Lakin biz hesab etmirik ki, radiolokasiya sistemi ilə bağlı hər hansı əlavə infrastrukturun inkişafına ehtiyac var. Rusiya Prezidentinin mənə verdiyi təklif stansiyadan informasiyanın ötürülməsi ilə bağlı idi. Azərbaycan heç zaman öz dostları və qonşularının maraqlarına zərər gətirəcək addım atmayacaqdır.

- Bu o deməkdir ki, burada hər hansı müvafiq hərbi bazanın yerləşdirilməsi imkanı yoxdur?

- Xeyr, biz Azərbaycanda hər hansı hərbi bazanın yerləşdirilməsi məsələsini nəzərdən keçirmirik.

- Siz dost ölkələr ilə GUAM çərçivəsində əməkdaşlıq edirsiniz. Bu təşkilata böyük önəm verirsiniz. Çox ölkələr Avropa ilə inteqrasiyaya maraq göstərir. Bəzilərinin dediyi kimi, Avropa İttifaqına qoşulma NATO-ya üzvlüyə aparır. Bu məsələdə Azərbaycanın mövqeyi nədən ibarətdir?

- Mövqeyimiz real əsaslara söykənir. Biz NATO və Avropa İttifaqı ilə çox səmərəli əlaqələr qurmuşuq. NATO ilə "Fərdi tərəfdaşlığın fəaliyyət planı" çərçivəsində əməkdaşlıq edirik. Bu "Sülh naminə tərəfdaşlıq" proqramından sonra irəliyə doğru çox mühüm bir addımdır. Bizim konstruktiv əlaqələrimiz var. Misal üçün, əsgərlərimiz NATO qoşunları ilə birgə Əfqanıstanda və Kosovoda çiyin-çiyinə xidmət edirlər. Biz dünyada qlobal sülh və təhlükəsizlik işinə töhfə veririk. Artıq dediyim kimi, Avropa İttifaqı ilə enerji məsələləri üzrə strateji tərəfdaşlığa dair anlaşma memorandumu imzalamışıq. Bundan əlavə, keçən il Avropa İttifaqı ilə ölkəmiz arasında Yeni qonşuluq siyasəti çərçivəsində 5 illik tədbirlər planı imzalamışıq. Bu plan qarşıdakı 5 il ərzində bizə imkan verəcək ki, iqtisadi, sosial, siyasi həyat meyarlarımızı Avropa meyarlarına daha da yaxınlaşdıraq. Növbəti addımın nə olacağını görəcəyik. Əgər Avropa İttifaqı Azərbaycanın üzvlüyünü ciddi şəkildə nəzərdən keçirərsə, əlbəttə ki, biz bundan məmnun olacağıq. Lakin hesab edirəm ki, bu gün bu və ya digər təşkilata üzvlük məsələsini bəyan etmək tezdir. Nə Azərbaycan, nə də təşkilatlar buna hazırdır. Ona görə də biz bu elementdən siyasi məqsədlərlə istifadə etmirik, siyasətimizi real faktlar üzərində qururuq. Bu əməkdaşlığın gələcəyinin necə olacağını görəcəyik. Təşkilat buna hazır olmalıdır. Əgər davamlı olaraq təkrar etsək ki, biz üzv olmaq istəyirik, daim "qapını döysək" və heç bir cavab eşitməsək, bu, yaxşı nəticə verməz. Biz loyaqətlə, qürur hissi ilə və tərəfdaşlıq ruhunda hərəkət edirik. Əməkdaşlığımızın bugünkü səviyyəsi hər iki tərəf üçün qənaətbəxşdir və onun genişləndirilməsini davam etdiririk.

- Necə fikirləşirsiniz, Avropaya inteqrasiya sizə hansı fayda gətirir? Mən formal deyil, bütün istiqamətlərdə inteqrasiyanı nəzərdə tuturam.

- Biz Avropaya inteqrasiya siyasətini həyata keçiririk. Avropa Şurasının üzvüyük. Biz bunu könüllü şəkildə etmişik. Heç kəs bizi Avropa Şurasına üzv olmağa məcbur etməmişdi. Özümüz bunu etmişik. Çünki biz meyarlarımızın Avropa meyarlarına yaxın olmasını istəyirik. Avropa İttifaqının təcrübəsi dünyada ən səmərəli təcrübələrdən biridir. Siyasi inkişaf sistemi, iqtisadi inteqrasiya, güclü sosial müdafiə - biz bütün bunları Avropa İttifaqında görürük. Eyni zamanda, humanitar aspekt. Beləliklə, biz bundan faydalanmaq istəyirik. Hazırda biz artıq fiziki olaraq Avropaya qonşuyuq. Rumıniya və Bolqarıstan Avropa İttifaqının üzvü olduqdan sonra təşkilatın sərhədləri Qara dəniz sahillərinə çatmışdır. Deməli, biz artıq qonşuyuq. Biz yalnız coğrafi baxımdan deyil, mahiyyət baxımından da Avropaya yaxın olmaq istəyirik.

- GUAM-ın rolu barədə nə deyə bilərsiniz? Bu təşkilatın məqsədi nədən ibarətdir? GUAM necə inkişaf etdirilməlidir? Gələn həftə ölkənizdə GUAM-ın zirvə görüşü keçiriləcəkdir. Bu tədbirə yalnız GUAM-ın üzvü olan ölkələr deyil, başqa iştirakçılar da gələcəkdir.

- GUAM çox mühüm beynəlxalq təşkilata çevrilir. O, 10 il bundan qabaq çox çətin bir

siyasi vəziyyətdə yaradılmışdır. Lakin hesab edirəm ki, indi GUAM özünün ikinci, çox mühüm inkişaf mərhələsindədir. Üzv ölkələr bir-birləri ilə çox yaxındırlar. Bundan əlavə, biz hazırda çox mühüm enerji, nəqliyyat proqramları, siyasi dialoq, əməkdaşlıq üzrə proqramlar üzərində çalışırıq. Çox şadam ki, başqa dost ölkələr, Avropa İttifaqının üzvləri GUAM-a böyük maraq göstərirlər. Bu onu göstərir ki, GUAM artıq çox ciddi beynəlxalq təşkilata çevrilir. Biz BMT-də dondurulmuş münaqişələrə, separatçı hərəkatlara dair təşəbbüslər həyata keçirmişik. Regional əməkdaşlıq proqramlarına cəlb olunmuşuq. GUAM-a üzv olan ölkələr arasında möhkəm ikitərəfli əlaqələr vardır. Bu təşkilatın məqsədi əməkdaşlıq, inkişaf, demokratiya, iqtisadi müstəqillikdir və biz bunun tərəfdarıyıq. Biz bu təşkilatda mühüm rol oynamaqda davam edəcəyik. Əminəm ki, yaxın günlərdə keçiriləcək sammit bu istiqamətdə çox güclü addım olacaqdır.

- GUAM çərçivəsində sülhməramlı qüvvələrin yaradılmasına dair söhbətlər var. Bu, mümkündürmü?

- Bu məsələ müzakirə olunmaqdadır. Müzakirələrin nəticəsinin necə olacağını görəcəyik. Mən şəxsən hesab edirəm ki, bu mərhələdə biz fikrimizi əsasən iqtisadiyyat, enerji, nəqliyyat və inteqrasiya aspektləri üzərində cəmləşdirməliyik. Əlbəttə ki, gələcəkdə tərəfdaşlarımız ilə müzakirələrdə bu aspekt də olacaq və nə etməyin mümkün olacağını görəcəyik.

- İndi Dağlıq Qarabağ ilə bağlı sual vermək istəyirəm. Siz Ermənistan Prezidenti ilə görüşmüsünüz. Çoxları deyirdi ki, yeni addım var, məsələ həllə doğru gedir. Sizin gözləntiləriniz nədən ibarətdir? Məsələnin gələcək həllini necə görürsünüz?

- Bu, indiyə kimi çox qeyri-konstruktivlik, qeyri-səmimilik nümayiş etdirən və münaqişənin dinc yolla həllinin tapılmasına imkan verməyən Ermənistandan asılı olacaqdır. Dinc yolla nizamlamaya yalnız beynəlxalq hüquq əsasında nail olmaq mümkündür. Ərazi bütövlüyümüz bərpa olunmalıdır. Azərbaycanın ərazi bütövlüyü ATƏT-in Minsk qrupunun həmsədri olan ölkələr, BMT də daxil olmaqla, bütün beynəlxalq birlik tərəfindən tanınır. Bu, əsas prinsipdir. Ermənistanın işğalçı qüvvələri bütün işğal edilmiş ərazilərimizdən çıxarılmalıdır. Məcburi köçkünlərimiz öz torpaqlarına qaytarılmalıdır. Dağlıq Qarabağın gələcək statusunun nə olacağı barədə isə qərar veriləcək, bu məsələ danışıqlarda müzakirə olunacaqdır. Dünyada mövcud olan muxtar qurumların müsbət təcrübəsini araşdıracağıq. Biz dəfələrlə bildirmişik ki, Dağlıq Qarabağda yaşayan ermənilərə və oraya geri dönəcək azərbaycanlılara yüksək muxtariyyət statusu verməyə hazırıq. Beləliklə, bunlar əsas prinsiplərdir. Biz heç zaman Dağlıq Qarabağın ayrılması, müstəqilliyi ilə, 10, 20 və ya 100 ildən sonra Dağlıq Qarabağın Azərbaycandan ayrılmasına imkan verə biləcək hər hansı bir formula ilə razılaşmayacağıq. Dağlıq Qarabağda "referendum" barəsində möhtəkirlik edərək, orada 10 ildən sonra belə bir referendum keçiriləcəyini deyənlər yanılırlar. Bu insanlar ya danışıqların məzmunundan xəbərsizdirlər, yaxud da bundan xəbərləri var, lakin ictimai rəyi azdırmağa çalışırlar. Bu, heç zaman baş verməyəcəkdir. Nə baş verə bilər?! Dağlıq Qarabağda əhalinin təhlükəsizliyi sülhməramlı qüvvələr tərəfindən təmin olunacaq, Dağlıq Qarabağ Ermənistanla hazırda qeyri-qanuni istifadə edilən Azərbaycan ərazisi – Laçın dəhlizi vasitəsilə quru əlaqəsinə malik olacaq, qaçqın-köçkünlər geri qayıdacaq, sonra isə biz hüquqi statusun nə olacağına baxacağıq. Lakin bu status yalnız və yalnız Azərbaycanın ərazi bütövlüyü çərçivəsində, yüksək özünüidarə hüququ verilməklə müəyyənləşdiriləcəkdir.

- Son sualım demokratikləşmə ilə bağlıdır. İqtisadiyyatınızda güclü artım mövcuddur. Bəzən qərbdən ölkənizdə demokratikləşmə ilə bağlı tənqidlər səslənir. Ola bilsin ki, eyni zamanda, sosial strukturdakı gəlirlərdə fərqlər problemi də mövcuddur. Bu problemləri necə həll etmək fikrindəsiniz?

- Biz siyasi islahatlar ilə bağlı beynəlxalq təşkilatlarla əməkdaşlıq edirik və bu əməkdaşlıq çox konstruktivdir. Hesab edirəm ki, müstəqillik qazandıqdan sonrakı 15 il ərzində Azərbaycan demokratik inkişaf sahəsində çox böyük uğurlar qazanmışdır. Biz totalitar sistemdən açıq sistemə keçmişik. Burada bütün siyasi azadlıqlar, təsisatlar, siyasi partiyalar, mətbuat azadlığı, fikir və söz azadlığı mövcuddur. Biz Avropa Şurası kimi təşkilatlara üzv olmuşuq və siyasi islahatlarla bağlı öhdəliklər götürmüşük. Avropa İttifaqı ilə qonşuluq siyasəti çərçivəsində 5 illik tədbirlər planı imzalamışıq. Bu, bizim hədəfimiz, məqsədimizdir. Biz qanunun aliliyinin təmin olunduğu, yüksək səviyyədə şəffaflıq olan, hər bir insanın sülh və əmin-amanlıq şəraitində yaşadığı və bütün azadlıqlardan istifadə etdiyi cəmiyyət qururuq. Bütün bunlar bu gün baş verir. Əlbəttə ki, bizdən dünyanın inkişaf etmiş ölkələrinin malik olduğu siyasi inkişaf səviyyəsini tələb etmək çox ədalətsiz olardı. Belə ki, müstəqillik əldə edilməsindən çox az zaman, cəmi 15 il keçibdir.

Lakin çox böyük və əhəmiyyətli irəliləyiş var. Haqlı tənqidi biz qəbul edirik və onun üzərində çalışırıq. Haqsız olan və bəzi təşkilatların və ölkələrin Azərbaycan ilə bağlı maraqlarına söykənən tənqidləri qəbul etmirik. Biz bərabər hüquqlu tərəfdaşlığı qəbul edirik, münasibətlərimizi qarşılıqlı hörmət, qarşılıqlı inam, əməkdaşlıq üzərində qururuq və çox uğurla fəaliyyət göstəririk. Beləliklə, Azərbaycanda demokratik proseslərin səviyyəsi çox yüksəkdir.

Gəlirlər arasında fərq məsələsinə gəldikdə, biz bu fərqi azaltmağa çalışırıq. Hazırda bu proses gedir, daha çox insan zənginləşir, çoxları isə yoxsulluq vəziyyətindən çıxır. Proses bu cür gedir. Biz zənginlərlə yoxsullar arasındakı fərqi zənginlərin yoxsullaşması hesabına azaltmaq istəmirik, biz yoxsulların zənginləşməsini istəyirik. İqtisadi göstəricilərimiz, sənaye istehsalı, ÜDM-in artımı, yoxsulluq səviyyəsinin aşağı salınması, iş yerlərinin açılması, infrastruktur layihələri – hər şey Azərbaycan xalqının daha yaxşı yaşaması məqsədini daşıyır. Əgər insanların gəlirlərinin illik artımına baxsaq görərik ki, 2007-ci ilin birinci rübündə 2006-cı ilin birinci rübünə nisbətən 35,2 faiz artım olmuşdur. Bu, çox yüksək rəqəmdir. Qarşıdan gələn illərdə biz imkanlardan istifadə edərək güclü, hər bir insanın xoşbəxt və firavan yaşadığı ölkə quracağıq. Sağ olun.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV MƏŞHUR OPERA MÜĞƏNNİSİ, SSRİ XALQ ARTİSTİ YELENA OBRAZTSOVANI QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyunun 14-də Prezident sarayında məşhur opera müğənnisi, SSRİ xalq artisti Yelena Obraztsovanı qəbul etmişdir.

Tanınmış opera müğənnisi Yelena Obraztsova xalqımızın ümummilli lideri Heydər Əliyevlə bağlı xatirələrini böyük ehtiramla xatırladı. Uzun müddət Bakıya səfər etmədiyini

deyən müğənni indiki səfəri zamanı ölkəmizdə çox böyük inkişafın getdiyini, aparılan abadlıq işlərinin onda böyük heyranlıq doğurduğunu qeyd etdi.

Dövlətimizin başçısı Azərbaycanın iqtisadi inkişafı, tarixi abidələrimizin qorunması, bərpa edilməsi və mədəniyyətimizin inkişaf etdirilməsi sahəsində görülən işlərdən danışdı.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN VƏ GÜRCÜSTAN PREZİDENTİ MİXAİL SAAKAŞVİLİNİN GÖRÜŞÜ

İyunun 18-də Prezident sarayında Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və Gürcüstan Prezidenti Mixail Saakaşvilinin görüşü olmuşdur.

Dövlətimizin başçısı Gürcüstan rəhbərini Prezident sarayının önündə səmimiyyətlə qarşıladı.

Görüş zamanı dövlət başçıları iqtisadiyyat, energetika, nəqliyyat sahələrində Azərbaycan-Gürcüstan münasibətlərinin uğurla inkişafından razı qaldıqlarını bildirdilər. GUAM-ın artmaqda olan rolu və ikitərəfli münasibətlərin inkişafı baxımından əhəmiyyəti vurğulandı, həm bu regional qurum, həm də digər beynəlxalq təşkilatlar çərçivəsində əlaqələrin genişlənəcəyinə əminlik ifadə olundu.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN VƏ UKRAYNA PREZİDENTİ VİKTOR YUŞŞENKONUN GÖRÜŞÜ

İyunun 18-də Prezident sarayında Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və Ukrayna Prezidenti Viktor Yuşşenkonun görüşü olmuşdur.

Dövlətimizin başçısı Ukrayna rəhbərini Prezident sarayının önündə səmimiyyətlə qarşıladı. Görüş zamanı tərəflər Azərbaycan-Ukrayna əlaqələrinin dinamik inkişafından, iki ölkənin beynəlxalq təşkilatlar çərçivəsində əməkdaşlığının səviyyəsindən razı qaldıqlarını bildirdilər.

Azərbaycan və Ukrayna prezidentləri ölkələrimizin xalqlarının mənafelərinə xidmət edən GUAM-ın beynəlxalq siyasətdə rolunun getdikcə artdığını vurğuladılar.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN VƏ POLŞA PREZİDENTİ LEX KAÇİNSKİNİN GÖRÜŞÜ

İyunun 18-də Prezident sarayında Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və Polşa Prezidenti Lex Kaçinskinin görüşü olmuşdur.

Dövlətimizin başçısı Polşa rəhbərini Prezident sarayının önündə səmimiyyətlə qarşıladı.

Təkbətək görüş zamanı bütün sahələrdə uğurla inkişaf edən Azərbaycan-Polşa əlaqələrindən danışıldı, iki ölkə arasında qarşılıqlı surətdə faydalı əməkdaşlığın genişlənməsində GUAM-ın rolu vurğulandı.

Sonra geniş tərkibdə görüş keçirildi. Görüşdə çıxış edən Prezident İLHAM ƏLİYEV dedi:

-Hörmətli cənab Prezident! Sizi bir daha salamlayıram. Bizi maraqlandıran bir çox məsələlərə dair səmimi, konstruktiv diskussiyamız oldu və geniş tərkibdə görüşdə də ikitərəfli əlaqələr, uğurla inkişaf edən regional əməkdaşlıq məsələlərinə dair fikir mübadiləsi aparacağıq.

Çox minnətdarıq ki, Siz dəvətimizi qəbul etdiniz və inkişafının çox mühüm mərhələsini yaşayan təşkilatın - GUAM-ın zirvə görüşündə iştirak edirsiniz.

Mən Sizinlə belə intensiv dialoqu Azərbaycana rəsmi səfəriniz, uğurla keçən və yaxşı inkişaf edən Krakov energetika sammitində möhkəmlənmiş əlaqələrimizin davamı hesab edirəm. İkitərəfli münasibətlərin qarşılıqlı surətdə faydalı zəmində və mühüm layihələrin gerçəkləşdirilməsi əsasında inkişaf etdirilməsi baxımından biz çox nikbinik.

Xüsusilə mühümdür ki, Bakıya Sizin üçün belə əziz bir gündə – doğum gününüzdə gəlmisiniz. Mən Sizi bu gözəl gün münasibətilə səmimi qəlbdən təbrik etmək və Sizə Polşa xalqının rifahı, Avropanın rifahı naminə fəaliyyətinizdə uğurlar, ölkəyə uzun illər fəal rəhbərlik etməyinizi arzulamaq istəyirəm.

Polşa Prezidenti LEX KAÇİNSKİ dedi:

-Cənab Prezident, çox sağ olun. Mən, həqiqətən, buraya doğum günündə gəlmişəm. Azərbaycan və GUAM təşkilatı ilə qarşılıqlı münasibətlərə verdiyim əhəmiyyət mənim doğum günümdən daha önəmlidir. Bu əhəmiyyəti belə bir fakt da təsdiq edir ki, mən Bakıya, GUAM görüşünə Avropa İttifaqının çox vacib, mütəmadi olaraq mart, iyun və dekabrda keçirilən zirvə görüşünə iki gün qalmış gəlmişəm.

BAKIDA GUAM-POLŞA GÖRÜŞÜ KEÇİRİLMİŞDİR

İyunun 18-də Bakıda, Prezident sarayında GUAM-Polşa formatında görüş keçirilmişdir.

Azərbaycan Prezidenti İLHAM ƏLİYEV görüşü açaraq dedi:

-Mən hamınızı Azərbaycanda bir daha səmimi qəlbdən salamlayıram. Biz sizinlə ikitərəfli məsləhətləşmələr apardıq, münasibətlərimizin yeni formatında yığışmışıq. Polşa Prezidenti Lex Kaçinskini əziz qonaq kimi salamlamaq mənə çox xoşdur. Onun GUAM-ın zirvə görüşündə iştirakı bu hadisəyə xüsusi əhəmiyyət verir. Bu gün yeni GUAM-Polşa formatı çərçivəsində bizi birləşdirən, təkcə ölkələrimiz üçün deyil, həm də geniş mənada regional əməkdaşlıq baxımından qarşılıqlı maraq doğuran məsələləri müzakirə edəcəyik.

Bütövlükdə Avropa İttifaqı ölkələri prezidentlərinin GUAM zirvə toplantısında iştirakı təşkilata marağın, onun əhəmiyyətinin, ciddi beynəlxalq qurum kimi təşəkkülünün parlaq sübutudur. Biz bu yaxınlarda təxminən belə tərkibdə Krakovda görüşmüşdük, çox ətraflı diskussiya apardıq. Münasibətlərimizin gündəliyi çox genişdir və həm siyasi münasibətləri, həm iqtisadi inteqrasiyanı, həm nəqliyyat və energetika sahələrində qarşılıqlı fəaliyyət məsələlərini, həm də humanitar əməkdaşlığı əhatə edir. Başqa sözlə, ölkələrimizin həyatının bütün cəhətləri bu və ya digər dərəcədə bizim ikitərəfli və çoxtərəfli əlaqələrimizin mövzusudur.

Sizi bir daha ürəkdən salamlamaq və zirvə toplantısında iştirakınıza görə təşəkkürümü bildirmək istəyirəm. Ümidvaram ki, sabahkı gün də bugünkü kimi uğurlu olacaqdır.

Polşa Prezidenti LEX KAÇİNSKİ GUAM ölkələri dövlət başçılarının zirvə görüşünə dəvətə görə dərin minnətdarlığını bildirdi. O, Polşanın bu mötəbər tədbirdə təmsil olunmasını ölkəsinin, eləcə də Avropa İttifaqının GUAM çərçivəsində əməkdaşlığa verdiyi böyük əhəmiyyətin əyani nümunəsi kimi dəyərləndirdi.

Görüşdə GUAM-Polşa əməkdaşlığına dair ətraflı fikir mübadiləsi aparıldı.

Görüşün sonunda xatirə şəkli çəkdirildi.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN VƏ LİTVA PREZİDENTİ VALDAS ADAMKUSUN GÖRÜŞÜ

İyunun 18-də Prezident sarayında Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və Litva Prezidenti Valdas Adamkusun görüşü olmuşdur.

Azərbaycan Prezidenti Litva dövlətinin başçısını Prezident sarayının önündə səmimiyyətlə qarşıladı.

Görüş zamanı dövlət başçıları bildirdilər ki, Azərbaycan-Litva əlaqələri uğurla inkişaf edir. Litva Prezidenti vurğuladı ki, onun ölkəsi Avropa İttifaqı ilə danışıqlar prosesində Azərbaycanın mövqeyini daim dəstəkləyib və indi də dəstəkləyir.

Prezident İlham Əliyev bu dəstəyi yüksək qiymətləndirərək dedi ki, Avropa İttifaqının yeni qonşuluq siyasəti Proqramı çərçivəsində Azərbaycanda beşillik tədbirlər planının əməli şəkildə həyata keçirilməsinə başlanmışdır.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV BOLQARISTANIN VİTSE-PREZİDENTİNİ QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyunun 18-də Prezident sarayında Bolqarıstan Respublikasının vitse-prezidenti Angel Marini qəbul etmişdir.

Azərbaycan-Bolqarıstan əlaqələrinin uğurla inkişaf etdiyindən razılığını söyləyən dövlətimizin başçısı bildirdi ki, GUAM-ın Bakıda keçirilən zirvə görüşündə Bolqarıstan nümayəndə heyətinin iştirakı ikitərəfli münasibətlərin genişlənməsinə təkan verəcək, habelə dünyada GUAM-ın artmaqda olan əhəmiyyətinin təsdiqidir. Azərbaycan və Bolqarıstan rəhbərlərinin qarşılıqlı səfərləri, onların arasında yaranmış dostluq münasibətləri də dövlətlərimizin əlaqələrinin möhkəmlənməsi üçün yaxşı bazadır.

Bolqarıstanın vitse-prezidenti Angel Marin GUAM-ın Bakıdakı zirvə görüşündə ölkəsinin nümayəndə heyətinin iştirakından məmnun qaldığını bildirdi və Azərbaycan torpağında qonaqpərvərliklə qarşılandığını vurğuladı. O dedi ki, zirvə görüşündə Bolqarıstanın iştirakı regionun inkişafı ilə bağlı məsələlərdə GUAM-ın rolunun artdığını göstərir.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV MOLDOVANIN BAŞ NAZİRİNİ QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyunun 18-də Prezident sarayında Moldovanın Baş naziri Vasile Tarlevi qəbul etmişdir.

Görüş zamanı Azərbaycan-Moldova əlaqələrinin uğurla inkişaf etdiyi vurğulandı, GUAM çərçivəsində ikitərəfli əməkdaşlığın genişlənəcəyinə əminlik ifadə olundu.

Moldova hökumətinin başçısı Azərbaycanın iqtisadi uğurlarına, ölkəmizdə gedən genişmiqyaslı quruculuq işlərinə həqiqətən heyran qaldığını söylədi.

PREZİDENT İLHAM ƏLİYEV YAPONİYA XARİCİ İŞLƏR NAZİRİNİN MÜAVİNİNİ QƏBUL ETMİŞDİR

İyunun 18-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Prezident sarayında Yaponiya xarici işlər nazirinin müavini Mitodzi Yabunakanı qəbul etmişdir.

GUAM-ın Bakıda keçirilən zirvə görüşündə Yaponiyanın iştirakından məmnun qaldığını söyləyən diplomat bu beynəlxalq foruma dəvətə görə Prezident İlham Əliyevə minnətdarlığını bildirdi. O, Yaponiya-Azərbaycan münasibətlərinin bütün sahələrdə yüksək səviyyədə olduğunu vurğuladı.

Dövlətimizin başçısı Azərbaycanla Yaponiya arasında fəal inkişaf edən əlaqələrdən danışaraq, ikitərəfli əməkdaşlığın bundan sonra da genişlənəcəyinə əmin olduğunu bildirdi. Prezident İlham Əliyev dedi ki, GUAM-ın zirvə görüşündə Yaponiyanın iştirakı Azərbaycan-Yaponiya əməkdaşlığı imkanlarını genişləndirməyə imkan verəcəkdir.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN VƏ RUMINİYA PREZİDENTİ TRAYAN BESESKUNUN GÖRÜŞÜ

İyunun 19-da Azərbaycan Prezidenti İlham Əliyev GUAM-ın üzvü olan ölkələrin dövlət başçılarının Bakıda keçirilən zirvə görüşü çərçivəsində Rumıniya Prezidenti Trayan Besesku ilə görüşmüşdür.

Dövlət başçıları ölkələrimiz arasında ikitərəfli əlaqələrin uğurla inkişaf etdiyini vurğuladılar.

Prezident İlham Əliyev dedi ki, ölkəmiz bu sammit çərçivəsində ikitərəfli əlaqələrin inkişafına xüsusi diqqət yetirir. Bununla yanaşı, Avropa İttifaqı ilə əlaqələrin genişlənməsi də diqqət mərkəzindədir.

Prezident Trayan Besesku bildirdi ki, xalqlarımız və ölkələrimiz arasında mehriban dostluq münasibətləri var və Rumıniya Azərbaycanla əlaqələrin inkişafında maraqlıdır.

GUAM ÖLKƏLƏRİ DÖVLƏT BAŞÇILARININ ZİRVƏ GÖRÜŞÜNÜN AÇILIŞI

İyunun 19-da Bakıda, "Gülüstan" sarayında Demokratiya və İqtisadi İnkişaf Uğrunda Təşkilat - GUAM ölkələri dövlət başçılarının 2-ci zirvə görüşünün açılışı olmuşdur.

Azərbaycan Prezidenti İlham Əliyev Ukrayna Prezidenti Viktor Yuşenkonu, Polşa Prezidenti Lex Kaçinskini, Rumıniya Prezidenti Trayan Beseskunu, Litva Prezidenti Valdas Adamkusu, Gürcüstan Prezidenti Mixail Saakaşvilini, Bolqarıstanın vitse-prezidenti Angel Marini və Moldovanın Baş naziri Vasile Tarlevi səmimiyyətlə qarşıladı. Dövlət və

hökumət başçıları xatirə şəkili çəkdirdilər.

Görüşdə ABŞ, Latviya, Estoniya, Yaponiya nümayəndə heyətləri də istirak edirdilər.

Görüşü Azərbaycan Prezidenti İlham Əliyev açdı.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN NİTQİ

-Hörmətli cənab prezidentlər!

Hörmətli nümayəndə heyətlərinin başçıları!

Hörmətli qonaqlar, xanımlar və cənablar!

Mən sizin hamınızı Azərbaycanda ürəkdən salamlayıram. Ölkəmizə xoş gəlmisiniz!

Demokratiya və İqtisadi İnkişaf Uğrunda Təşkilatın - GUAM-ın Bakı zirvə görüşü çox önəmli hadisədir. Təşkilatımız son bir il ərzində çox sürətlə inkişaf edibdir, bütün strukturları artıq fəaliyyətdədir. Əminəm ki, bugünkü zirvə görüşü təşkilatımızın gələcək fəaliyyətinə də çox böyük töhfə verəcəkdir.

Bu fürsətdən istifadə edərək, son bir il ərzində GUAM-a sədrlik etmiş Ukraynaya və onun Prezidenti cənab Viktor Yuşşenkoya göstərdiyi fəaliyyətə, təşkilatın inkişafına və formalaşmasına verdiyi töhfəyə görə dərin minnətdarlığımı bildirmək istəyirəm. Bugünkü zirvə görüşündə bizimlə bərabər, dostlarımız, dost ölkələrin prezidentləri də iştirak edirlər. Mən onları xüsusi salamlamaq istəyirəm. Bu gün bizimlə bərabər olan Litva, Polşa, Rumıniya prezidentlərini, Bolqarıstanın vitse-prezidenti, Latviya, Estoniya, Amerika Birləşmiş Ştatlarının nümayəndə heyətlərinin başçılarını səmimiyyətlə salamlayıram. Bu, özlüyündə bir göstəricidir. Onu göstərir ki, GUAM təşkilatı qısa müddət ərzində çox ciddi beynəlxalq təşkilata çevrilmişdir. GUAM-ın məramı, məqsədləri, niyyətləri dost ölkələr üçün də maraqlıdır. Biz ortaq maraqlar üzərində işləyirik. GUAM dövlətlərinin ikitərəfli formatda gözəl münasibətləri, çoxtərəfli formatda münasibətləri, əlbəttə ki, təşkilatın güclənməsinə gətirib çıxarır.

Avropa İttifaqına üzv olan ölkələrin rəhbərlərinin bu gün bizimlə bərabər iştirakı, əlbəttə ki, təşkilatın gələcək fəaliyyəti üçün də çox böyük əhəmiyyət daşıyır. Əminəm ki, bu zirvə görüşü həm təşkilatın gələcək fəaliyyətinə, həm də ki, geniş mənada regional əməkdaşlıq məsələlərinə çox böyük töhfə verəcəkdir.

Bu gün biz artıq regional əməkdaşlığın yeni formatı haqqında söhbət aparırıq. Xəzər dənizi, Qara dəniz, Baltik dənizi regionlarının əməkdaşlığından söhbət gedir. Bizim iqtisadi əlaqələrimiz, siyasi niyyətlərimiz, güclü siyasi dialoqun mövcudluğu, bununla bərabər real, konkret proqramların, layihələrin mövcud olması, əlbəttə ki, bizi daha da birləşdirir. Regional əməkdaşlıq çərçivəsində Avrasiya qitəsində mühüm rola malik olan GUAM təşkilatı və dost ölkələrin bu təşkilata olan diqqəti, əlbəttə ki, bizim qarşımızda duran məqsədlərin həlli üçün çox gözəl şərait yaradır.

İqtisadi əməkdaşlıq sahəsində çox böyük imkanlar var. Deyə bilərəm ki, Azərbaycanda son illər ərzində iqtisadi artım çox sürətlə gedir. Biz son üç il ərzində iqtisadi artım baxımından dünyada birinciliyi saxlayırıq. 2005-ci ildə iqtisadiyyatımız 25 faiz, 2006-cı ildə 35 faiz, 2007-ci ilin beş ayında yenə də 35 faiz artmışdır. Şübhəsiz ki, bizim iqtisadi potensialımız gücləndikcə dost ölkələrlə iqtisadi əlaqələrimiz də möhkəmlənir. Siyasi müstəvidə çox gözəl münasibətlər var. Bir daha demək istəyirəm ki, bizimi təşkilatı birləşdirən siyasi məramlar da, məqsədlər də eynidir. Avratlantik strukturlarına inteqrasiya məsələləridir. Bu gün bizimlə bərabər həm Avropa İttifaqının, həm də NATO-nun üzvü olan ölkələrin rəhbərlərinin iştirakı, əlbəttə, inteqrasiya siyasətimizi daha da gücləndirir və əməkdaşlıq üçün yeni imkanlar açır.

Biz siyasi və iqtisadi əlaqələrlə bərabər, eyni zamanda, konkret layihələr üzərində də çalışırıq. Xüsusilə enerji, nəqliyyat və başqa sahələrdə. Azərbaycan çox önəmli neft-qaz hasil və ixrac edən ölkəyə çevrilir. Bizim çox böyük neft yataqlarımız var. Azərbaycan nefti artıq müxtəlif istiqamətlərlə dünya bazarlarına nəql edilir. Üç böyük neft kəmərinin fəaliyyəti Azərbaycan neftini həm Avropa, həm də dünya bazarlarına çıxarır. Dəqiqləşdirilmiş son məlumata görə, Azərbaycanda təkcə "Azəri-Çıraq-Günəşli" yataqlarında 1 milyard 200 milyon ton neft ehtiyatı vardır. Bu yataqlarda istismar işləri səmərə ilə davam etdirilir. Gələn il Azərbaycanda gündə azı 1 milyon barrel neft hasil ediləcəkdir. Bu, böyük göstəricidir. Gələcək illərdə biz bu rəqəmi artıracağıq.

Bakı-Supsa, Bakı-Novorossiysk, Bakı-Tbilisi-Ceyhan neft kəmərləri fəaliyyətdədir. Bu yaxınlarda Krakovda zirvə görüşündə Odessa-Brodı-Qdansk neft kəməri haqqında geniş fikir mübadiləsi aparılmışdır. Ölkələrimiz tərəfindən siyasi dəstək verilmişdir. Artıq qısa müddət ərzində işçi qrupların da fəaliyyəti başlanmışdır. Deyə bilərəm ki, fəaliyyət çox uğurludur. Əminəm ki, birgə səylər nəticəsində biz bu istiqamətdə də ixracın və bəzi ölkələr üçün idxalın şaxələndirilməsini təmin edəcəyik. Bununla bərabər, Azərbaycanda kəşf olunan nəhəng "Şahdəniz" yatağından və digər yataqlardan çıxarılacaq qaz da Avropa bazarı üçün böyük maraq kəsb edir.

Biz artıq bu sahədə böyük işlər görürük. Azərbaycanda hazırda istismarda olan mövcud yataqlarda qaz ehtiyatı 1,5 trilyon kubmetrdir. Bu, çox böyük rəqəmdir. Artıq Azərbaycan qazını Avropa bazarına çatdırmaq üçün ən müasir nəqliyyat infrastrukturu mövcuddur. Bakı-Tbilisi-Ərzurum qaz kəməri artıq fəaliyyətdədir. Azərbaycan bu ildən başlayaraq qaz ixrac edən ölkəyə çevrilibdir. Hazırda Gürcüstanın qaz bazarının təxminən 70-75 faizini Azərbaycan qazı təmin edir. Əminəm ki, bu ilin sonuna qədər Azərbaycan qazı Türkiyə və Yunanıstana nəql edilməyə başlayacaqdır. Beləliklə, Azərbaycan öz qaz potensialı ilə Avropa İttifaqının bazarına daxil olacaqdır. Bu, hələ işin ilkin mərhələsidir. Əminəm ki, qazın hasilatı Avropada mövcud olan tələbata uyğun şəkildə artırılacaq və Azərbaycan çox etibarlı enerji tərəfdaşı olacaqdır. Biz Avropa İttifaqı ilə enerji sahəsində strateji əməkdaşlıq haqqında ilkin Anlaşma memorandumu imzaladıq. Enerji sahəsində gələcək fəaliyyətimizi bu çərçivələrdə aparacağıq.

Nəqliyyat məsələləri də böyük əhəmiyyət daşıyır. Biz, demək olar ki, Xəzər dənizindən Avropaya və dünya bazarlarına enerji dəhlizlərini açdıq. Bu neft və qaz kəmərləri ilə artıq bu yolu reallığa çeviririk. Əlbəttə ki, bunun ardınca nəqliyyat infrastrukturu da inkişaf etməlidir. Türkiyə və Gürcüstanla birlikdə biz Avropanı Asiya ilə birləşdirəcək dəmir yolu layihəsi üzərində çalışırıq. Bu da çox böyük həm iqtisadi, həm geosiyasi əhəmiyyətə malik olan layihədir. Əminəm ki, biz Bakı-Tbilisi-Qars dəmir yolunun tikintisinə yaxın zamanlarda başlayacağıq. Bu dəmir yolu Avropanı Asiya ilə birləşdirəcəkdir. Bu dəhlizlə daşınacaq yüklər, əlbəttə ki, həm idxal edən, həm də ixrac edən ölkələrə iqtisadi cəhətdən də böyük səmərə gətirəcəkdir.

Bir sözlə, bizim fəaliyyətimiz müxtəlif müstəvilərdə – həm siyasi, həm iqtisadi, həm regional, həm nəqliyyat, həm də enerji sahələrində, yəni bütün istiqamətlərdə mövcuddur. Bütün istiqamətlərdə real proqramlar var. Bizim təkcə niyyətlərimiz deyil, eyni zamanda, konkret proqramlarımız, təşəbbüslərimiz var. Azərbaycan çox çətin geosiyasi vəziyyətdə öz neft strategiyasını uğurla həyata keçirərkən çox böyük uğurlara nail olubdur. Hazırda Azərbaycanın nefti və qazı Avropanın enerji təhlükəsizliyinin təmin edilməsi üçün öz rolunu oynamağa başlayıbdır.

Bizi GUAM ölkələri ilə birləşdirən təkcə tarixi bağlılığımız, siyasi baxışlarımız, ortaq maraqlarımız deyildir. Əfsuslar olsun ki, bizim ölkələrimiz üçün problem yaradan məsələlər də kifayət qədərdir.

Onların başlıcası GUAM-ın üç ölkəsində olan separatçı meyillər, separatçı hərəkətlərdir. Gürcüstanın, Moldovanın və Azərbaycanın ərazi bütövlüyü pozulubdur. Separatçı rejimlər qanunsuz fəaliyyət göstərərək, ölkələrimizə təcavüz edərək, hərbi təcavüzü həyata keçirərək, etnik təmizləmə siyasəti apararaq bizim torpaqlarımızın işğal altına düşməsinə nail ola biliblər. Biz çalışırıq ki, məsələni danışıqlar yolu ilə, sülh yolu ilə həll edək. Amma görürük ki, əgər biz güclü dövlət, güclü iqtisadiyyat, güclü hərbi potensial yaratmasaq, çətin ki, separatçı qüvvələr işğal etdikləri ərazilərdən öz xoşu ilə çıxsınlar. Ona görə biz səylərimizi birləşdiririk. Bu gün GUAM-ın dondurulmuş münaqişələrlə bağlı təşəbbüsü çox böyük əhəmiyyət kəsb edir. Bu, bizi birləşdirir. Çünki bütün bu separatçı, qanunsuz, kriminal rejimlərin mahiyyəti eynidir. Hər bir ölkədə – Gürcüstanda, Moldovada, Azərbaycanda separatizm baş vermişdir, etnik təmizləmə siyasəti baş vermişdir, ərazimizin işğal altına düşməsi baş vermişdir və milyonlarla insanlarımızın qaçqın-köçkün vəziyyətinə düşməsi baş vermişdir. Təbii ki, biz məsələnin həllini ancaq və ancaq beynəlxalq hüquq əsasında görürük. Ərazi bütövlüyümüzün bərpa olunması başlıca şərtdir. Avropanın ən gözəl təcrübəsindən istifadə edib yüksək statuslu muxtariyyət verilməsinə də razılıq verə bilərik. Münaqişələr öz həllini ancaq bu əsaslarda tapa bilər. Çox sevindirici haldır ki, GUAM təşkilatı bu məsələyə vahid yanaşma nümayiş etdirir. Dondurulmuş münaqişələrlə bağlı məsələnin Birləşmiş Millətlər Təşkilatında gündəliyə salınması, əlbəttə, bizim çox önəmli siyasi və diplomatik uğurumuzdur.

GUAM-ın indi yeni mərhələsi başlayır. Demokratiya və İqtisadi İnkişaf Uğrunda Təşkilat adında onun mahiyyəti göstərilir. Demokratiya, insan haqları, açıq cəmiyyətin yaradılması, qanunun aliliyi, beynəlxalq və Avropa strukturlarına inteqrasiya məsələləri, bununla bərabər iqtisadi islahatlar, iqtisadi potensialın gücləndirilməsi və insanların həyat səviyyəsinin yaxşılaşması. Azərbaycanda bu iki istiqamətdə paralel işlər görülür. Beləliklə, ölkəmiz müasirləşir, həm iqtisadi, həm siyasi cəhətdən Avropa ilə çox sürətlə inteqrasiya siyasəti aparır. Beləliklə, öz imkanlarını da artırır.

Əziz dostlar, mən bir daha sizi Azərbaycanda ürəkdən salamlamaq istəyirəm. Hər bir qonağa Azərbaycana gəldiyinə görə bir daha öz təşəkkürümü bildirmək istəyirəm. Mən şübhə etmirəm ki, GUAM-ın bugünkü zirvə görüşü həm təşkilatın fəaliyyətinə, həm də ki, bütövlükdə regionda gedən proseslərə çox ciddi və çox müsbət təsir göstərəcəkdir.

Diqqətinizə görə təşəkkür edirəm.

UKRAYNA PREZİDENTİ VİKTOR YUŞŞENKONUN ÇIXIŞI

-Çox hörmətli İlham Heydər oğlu!

Hörmətli prezident həmkarlarım, vitse-prezident, Baş nazir, bugünkü forumda iştirak edən beynəlxalq təşkilatların rəhbərləri!

Mən bugünkü çıxışımı səmimi qəbula və işimizin gözəl təşkilinə görə İlham Heydər oğluna təşəkkürlə başlamaq istərdim. Dünən biz ikitərəfli görüşlərdən ibarət çox gərgin gün keçirdik. Bu gün Demokratiya və İqtisadi İnkişaf Uğrunda Təşkilat - GUAM-ın zirvə görüşünün çoxsaylı qonaqlarını və iştirakçılarını salamlamağa səmimi qəlbdən şadam. Bizim istədiyimiz kimi, GUAM sürətlə formalaşan müasir beynəlxalq qurumdur. Bu yaxınlarda GUAM-ın yaranmasının 10 ili tamam olacaqdır. Bu dövr ərzində qurum dost dövlətlərin qeyri-rəsmi birliyindən yetkin beynəlxalq təşkilatadək böyük yol keçmişdir.

Mən fəxr edirəm ki, Ukrayna GUAM-a olduqca məsuliyyətli ildə başçılıq etmişdir. Biz bunu əsas tuturuq ki, GUAM suveren millətlərin ümumdemokratik dəyərlər və avrointeqrasiya səyləri ətrafında birləşməsinin mühüm regional nümunəsinə çevrilmişdir. O, bizim ümumi səylərimizi və bu gün regionlarımızda mövcud olan tələbləri birləşdirir. Təşkilatın inkişafının siyasi və iqtisadi tərəflərini dəqiq müəyyənləşdirərək bu gün demək olar ki, təşkilat təşəkkül tapmışdır, o, beynəlxalq əməkdaşlığın nəzərəçarpan amilinə çevrilmişdir. Mən dünya birliyinin GUAM-ın fəaliyyətinə və perspektivlərinə maraq göstərməsinə sevinirəm. Əlamətdar haldır ki, bugünkü zirvə görüşündə dünyanın müxtəlif ölkələrindən və beynəlxalq təşkilatların 30-a yaxın nümayəndə heyəti iştirak edir.

Eyni zamanda, mən Polşa, Litva, Rumıniya prezidentlərini, Bolqarıstanın, Estoniyanın, Amerika Birləşmiş Ştatlarının yüksək vəzifəli nümayəndələrini ayrıca salamlamaq və onlara ehtiramımı bildirmək istərdim. GUAM fəal sürətdə dost və tərəfdaş qazanır. Məno bunu qeyd etmək çox xoşdur ki, dünən biz GUAM-Polşa formatında ilk iclas keçirdik. Gələcəkdə eyni təkliflər Yaponiya və ABŞ-a da aid olacaq, transformasiyanı ölkələrimizin beynəlxalq təşkilatlarda birləşməsi başa çatdıracaqdır. Bu baxımdan mən baş katib, təcrübəli diplomat Valeri Çeçelaşvilinin mühüm söylərini vurğulamaq istəyirəm.

GUAM-ın hesabında bir sıra praktik nəticələr var. Xatırlatmaq istəyirəm ki, virtual mərkəz və terrorizm, mütəşəkkil cinayətkarlıq, insan alveri ilə mübarizə üzrə beynəlxalq informasiya-təhlil sistemi fəal işləyir. Biz ticarətə kömək layihəsinin gerçəkləşdirilməsi yolunda irəliləmişik, azad ticarət zonasının yaradılması üçün inamlı addımlar atılmışdır. Mən bu layihələri dəstəklədiyinə görə Amerika Birləşmiş Ştatlarının Prezidentinə minnətdarlığımı bildirmək istəyirəm. İqtisadi sahədə və nəqliyyat sahəsində birgə layihələrin hazırlanmasına başlanmışdır. Son iki zirvə görüşünü həmin məsələlərə həsr etmişik, çünki bunlar regionumuz üçün çox mühüm layihələrdir.

Hesab edirəm ki, hazırda ümumi səylərlə həyata keçirilməsi zəruri olan bir neçə vəzifə var. Birincisi, mükəmməl nəqliyyat dəhlizlərinin yaradılmasıdır. Böyük İpək Yolunu müasir şəkildə bərpa etmək üçün bütün imkanlarımız var. Əminəm ki, ölkələrimizin hökumətləri İliçevsk-Klaypeda dəmir yol marşrutunun və İliçevsk-Poti boru yolunun müntəzəm işləməsini təmin etmək üçün maksimum səy göstərəcəklər.

İkincisi, tranzit imkanlarımızı və energetika sahəsində qarşılıqlı əlaqəni möhkəmləndirmək lazımdır. Bu yaxınlarda Krakovda keçirilən energetika sammitində GUAM ölkələ-

ri - Azərbaycan, Gürcüstan və Ukrayna tərəfdaşlarımız olan Polşa və Litva ilə birlikdə enerji ehtiyatlarının hasilatı və tranzitinin vahid məkanını yaratmaq təşəbbüsünü irəli sürmüşlər. Bu məsələyə dair birgə işçi komissiya fəaliyyətə başlamışdır. Bu böyük layihəni həyata keçirmək üçün müvafiq işgüzar qurumlar, birgə müəssisələr yaradılır. Bu təklifin əsasını Avrasiya neft-nəqliyyat dəhlizi təşkil edir. Sistemin başlıca vəsiləsi artıq tikilmiş Odessa-Brodı neft kəməridir. Biz bu kəməri Polşa ərazisinə qədər uzadacağıq.

Üçüncü istiqamət. Biz Dünya Ticarət Təşkilatının qaydaları və normalarına əsaslanan azad ticarət zonası yaradılmasına başlamışıq. Bu, əslində, təşkilatımızın işinin əsas və praktik istiqamətlərindən biridir.

Dördüncü. Ölkələrimizə ağır irs – Abxaziya, Cənubi Osetiya, Dağlıq Qarabağ və Dnestryanıdakı kimi dondurulmuş münaqişələr qalmışdır. Ukrayna bu münaqişələrin sülh, siyasi yolla həllinin axtarılmasına gələcəkdə də hərtərəfli kömək göstərməkdə davam edəcəkdir. Bu münaqişələrin həlli mövzusunu BMT Baş Məclisinin geniş sessiyasında müzakirə etmək lazımdır. BMT Təhlükəsizlik Şurasının müvafiq qərar qəbul etməsi də gərəkdir. Ümidvaram ki, səylərimizin beynəlxalq miqyasda dəstəklənməsi bu problemi qəti şəkildə həll etməyə imkan verəcək, beləliklə də ümumavropa təhlükəsizliyini və sabitliyini möhkəmləndirəcəkdir.

Ümumilikdə GUAM regionda sabitliyin və inkişafın dayağı rolunu oynayır. Bu, bizim üzərimizə böyük məsuliyyət qoyur və siyasi, iqtisadi vəzifələrdən, mədəniyyətlərin dialoqu və turizmin inkişafından tutmuş terrorizmlə mübarizədə və digər təhlükəsizlik məsələlərində səmərəli əməkdaşlığadək məsələlərin geniş dairəsində fəal, əməli nəticələr əldə olunmasına yönəldilmiş fəaliyyəti davam etdirməyi tələb edir.

Əziz dostlar!

Biz GUAM-ın fəaliyyətinin birinci on illiyini layiqincə başa çatdırırıq. Qloballaşma prosesləri, regional təşkilatların səviyyəsinin artırılması meylləri yeni tələblər irəli sürür. Təşkilatımız inkişafının yeni mərhələsini açır. İstəyirəm ki, o, yeni nailiyyətlər gətirsin. Ümidvaram ki, bu işdə təşkilatımız mühüm rol oynayacaq, əldə olunmuş razılaşmaların yerinə yetirilməsinə nəzarət edəcək və yeni maraqlı fikirlər irəli sürəcəkdir.

Ən müxtəlif sahələrdə və ən müxtəlif səviyyələrdə uğurlu, konkret əməkdaşlıq layihələri GUAM-a müasir Avropa proseslərinə uyğunlaşan aparıcı regional təşkilat olmaq imkanı verəcəkdir.

Hörmətli dostlar!

Demokratiya və İqtisadi İnkişaf Uğrunda Təşkilat - GUAM-ın sədrliyinin Ukraynadan Azərbaycana keçməsini rəsmən bəyan etmək mənim üçün böyük şərəfdir. Əminəm ki, Azərbaycanın sədrliyi çox səmərəli olacaqdır. İlham Heydər oğluna və Azərbaycanın bütün rəhbərliyinə və xalqına bu yolda uğurlar və çoxlu nailiyyətlər arzulayıram.

* * *

İLHAM ƏLİYEV: Bu estafeti qəbul edərkən biz həm də üzərimizə böyük məsuliyyət götürürük. Ümidvaram ki, Azərbaycanın GUAM-da sədrliyi ərzində biz birgə səylərimizlə inteqrasiya və ölkələrimizin və tərəfdaşlığımızın möhkəmlənməsi yolunda daha da irəli gedəcəyik.

GÜRCÜSTAN PREZİDENTİ MİXAİL SAAKAŞVİLİNİN ÇIXIŞI

-Mən çox məmnunam ki, əvvəldən bir növ dövlət başçılarının görüş klubu kimi yaradılan, bir neçə il ərzində çox qeyri-müəyyən ümumi cizgilərə və statusa malik olan təşkilatımız fəaliyyət göstərən və konkret struktura və konkret məqsədlərə malik beynəlxalq təşkilata çevrilmişdir. Bu mənada GUAM hələ də dövlət başçılarının görüş klubu olaraq qalan MDB-dən çox ciddi şəkildə fərqlənir.

Düşünürəm ki, buna obyektiv proseslər kömək etmişdir. Bu məsələdə bizim - GUAM-ın üzvü olan bütün ölkələrin mənafelərinin üst-üstə düşməsi başlıca rol oynamışdır. Avropa İttifaqı ölkələrinin, xüsusilə əməkdaşlığımızın əhəmiyyətini, bu regionun əhəmiyyətini gözəl anlayan ölkələrin dəstəyi çox böyük rol oynayır.

Mən burada Avropa məkanında mənəvi dəyərlərin real liderinə çevrilmiş Polşa Prezidentini salamlamağa şadam. Maraqlı təkliflər irəli sürən və Qara dəniz ölkələrinin inteqrasiyası prosesini real surətdə başlamağa nail olmuş Rumıniya Prezidentini, Qara dəniz hövzəsində bizim üçün mühüm tərəfdaş ölkə olan Bolqarıstanın vitse-prezidentini, habelə bizim dostlarımızı, digər Baltikyanı dövlətlərlə birlikdə Avropa İttifaqında, NATO-da başlıca vəkilimiz olan, - buna görə ona minnətdarıq, - Litvanın Prezidentini, Estoniyanın gözəl siyasətçisi, bizim dostumuz Kristiina Oyulandı salamlamağa şadam. Zənnimcə, həqiqətən, maraqlı insanlar yığışmışlar. Həm də bunu da müşahidə etmək maraqlıdır ki, Yaponiya elan etmişdir ki, Şimal ölkələrindən tutmuş Laosa və Yaponiyayadək bütöv bir tərəqqi və sabitlik, demokratiya zonası var. GUAM bu tərəqqi və demokratiya xətlinin təməl daşıdır. Bunu qiymətləndirmək lazımdır, düşünürəm ki, bu, Yaponiya hökumətinin tamamilə yeni yanaşmasıdır və onun ardınca tamamilə konkret işlər gələcəkdir.

Deməliyik ki, biz, həqiqətən, bəlkə də digər təşkilatların öhdəsindən çox çətinliklə gəldiyi bəzi nəticələrə nail ola bilmişik. Ticarət müharibələrinin aparıldığı, embarqonun, demək olar, gündəlik hadisəyə çevrildiyi, viza rejiminin günbəgün daha çox sərtləşdirildiyi, bəzi ölkələr ümumiyyətlə bir-birinə viza vermir, hətta elə ölkələr var ki, sərhədlərin bəzi sahələri minalanmışdır, - MDB-nin fonunda GUAM ölkələrində azad ticarət rejimi real fəaliyyət göstərir. Biz ölkələrimiz arasında malların, xidmətlərin, insanların həqiqətən azad hərəkət etməsinə nail olmuşuq. Bu, Gürcüstan ilə Ukrayna arasında əmtəə dövriyyəsinin avtomatik olaraq ilbəil artmasında, GUAM-ın bəzi digər üzvləri ilə isə nəqliyyat əlaqələrinin intensivləşməsində özünü büruzə verir. İlham Heydər oğlu geosiyasi inqilabın bir hissəsi sayılan və əsas təşəbbüskarlarından biri Azərbaycan olan yeni dəmir yolundan artıq danışdı. Keçmiş Sovet İttifaqında hər şey elə qurulmuşdu ki, bütün respublikalar bir-biri ilə bilavasitə bağlı olmasınlar. Bütün neft kəmərləri, qaz kəmərləri, bütün dəmir yolları, hətta telefon xətləri konkret kanallarla, bir istiqamətdə gedirdi ki, məsələn, yaxın qonşu olan ölkələr kommunikasiyalar çəkə bilməsinlər.

Son iki-üç ildə bütün bunlar əsaslı surətdə dəyişir, neft kəməri işə salınmış, qaz kəməri işə salınmış və qazın real nəqlinə başlanmışdır. Azərbaycan özünün olduqca mürəkkəb şəraitinə baxmayaraq, Gürcüstanın qazla təchizatı məsələsini həll etdi. Ötən il Gürcüstanın bütün elektrik və qaz xətləri kəsiləndə, Azərbaycan Gürcüstanın tarixində ən soyuq qış fəslində xeyli dərəcədə öz əhalisinin hesabına elektrik enerjisini bizimlə bölüş-

dü. Bu, bir tərəfdən böyük emosional jest, digər tərəfdən, həmin yeni kommunikasiyaların və yeni xətlərin dərk edilməsi baxımından çox mühüm strateji addım idi.

Yeni dəmir yol sayəsində təkcə Xəzər regionu və Orta Asiyadan deyil, həm də Şimali Çindən, bütövlükdə Asiyadan mal daşımaq mümkün olacaqdır. Real geosiyasi inqilab göz qabağındadır. Bu baxımdan növbəti bir neçə il ölkələrimizin irəlilədilməsi üçün olduqca həlledici illər olacaqdır.

Bizi bağlayan digər siyasi məsələlərə gəldikdə isə, münaqişələr məsələsindən danışdıq. Zənnimcə, mürəkkəbliyinə baxmayaraq, bu sahədə də bəzi müsbət meyillər müşahidə olunur və təbii ki, biz qarşıdakı bir neçə ayda, yaxın perspektivdə baş verəcək hadisələr sarıdan çox ehtiyatlı olmalıyıq. Bir tərəfdən, tam şəkildə hiss edirik ki, Avropa ümumi tariximizin çox mühüm dövrünə, Avropa transformasiyasının olduqca həssas dövrünə yaxınlaşır. Hamımız çox ehtiyatlı olmalıyıq, çünki sərhədlər, ərazilərin bölüşdürülməsi və daxili dövlət quruculuğu məsələləri yenidən qalxır. Biz belə bir məsələdə yekdil olmalıyıq ki, Avropada heç bir bəhanə altında yeni Münxen, yeni Yalta və yeni Sudet olmayacaqdır. Çünki Avropa teatrının indiki bəzi simalarının məşğul olduqları sözçülük XX əsrin heç də yaxşı olmayan vaxtlarını çox xatırladır. Ona görə də bundan hər vəchlə uzaq olmalıyıq. Biz bundan birgə, Avropanın ötən əsrdə aldığı tarixi dərsləri nəzərə alaraq uzaq olacağıq. Bizə ərazilərin yenidən bölüşdürülməsinə əsaslanan XIX-XX əsrlər ruhunda qərarlar deyil, XXI əsrin qərarları lazımdır. XIX, XX və XXI əsrlər arasında əsas fərq demokratiyanın nailiyyətləri, inteqrasiyanın daha çox yayılmasıdır və bu, köhnə və dəbdə olan qərarlardan, yeni faciələrdən uzaq olmaq üçün başlıca vasitədir.

İrəliləyiş haqqında danışarkən, Cənubi Osetiyada baş verənlər üzərində dayanmaq istəyirəm. Cənubi Osetiya Gürcüstanın çox kiçik bir ərazisidir, lakin ötən əsrin 90-cı illərinin əvvəlində orada münaqişə olmuşdur. Qeyd etmək istəyirəm ki, 2004-cü ildə mən digər silahdaşlarımla birlikdə silahlı münaqişənin qarşısını almaq qərarına gəldim. Biz dözüm nümayiş etdirdik, danışmağa başladıq, təxribatlar müqabilində hər dəfə muxtariyyətin, inteqrasiyanın müxtəlif formalarından danışdıq, bu bölgənin nümayəndələrini Gürcüstan hakimiyyətinin müxtəlif qollarına real surətdə inteqrasiya etməyə başladıq. Silaha sarılaraq, Gürcüstanın mərkəzi hökumətinə qarşı döyüşən bütün rəhbərlik, əslində, hazırda sülh düşərgəsinə keçmişdir. Onlar Gürcüstanın tərkibində Cənubi Osetiyanın muxtariyyəti haqqında danışıqlar aparmaq qərarını elan etdilər. Bunlar qondarma Cənubi Osetiya hökumətinin sabiq baş naziri, sabiq müdafiə naziri, sabiq daxili işlər naziri və digər liderləridir. Postsovet məkanında misilsiz olan bu hadisə beynəlxalq qurumların getdikcə daha böyük dəstəyini qazanır. Getdikcə daha çox adam stereotiplərdən uzaqlaşır. Belə hallarda başlıcası stereotiplərdən uzaqlaşmaqdır. Təəssüf ki, stereotiplər təkcə birbaşa əlaqədar tərəflərə deyil, bəzi beynəlxalq təşkilatlara da sirayət etmişdir. Onlar hər şeyi sadələşdirməyi, ağ və qara rənglərə ayırmağı sevirlər. Bu, düzgün deyil, çünki belə hallarda çoxlu incə məqam var. Lakin biz, əslində, bütün tərəfləri razı salan dinc, sakit nizamasalma nümunəsi yaratmışıq. Əlbəttə, bu məsələdə Rusiya Federasiyasının konstruktiv roluna ümid bəsləyirik. Biz deyəndə ki, təxribatlar davam etməməlidir və sülh prosesinə paralel surətdə Cənubi Osetiyada separatçı hökumətin sabiq baş naziri Sanakoyev başda olmaqla, müvəqqəti administrasiya təşkil edilirsə, deməli, tamamilə yeni reallıq yaranır. Dünən bir-birinə atəş açan, indi isə müvəqqəti ad-



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Fransaya dövlət səfəri zamanı Yelisey sarayında rəsmi qarşılanma mərasimi. Paris, 29 yanvar 2007-ci il



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev, Gürcüstan Prezidenti Mixail Saakaşvili və Türkiyənin Baş naziri Rəcəb Tayyib Ərdoğan Azərbaycan – Gürcüstan – Türkiyə üçtərəfli regional əməkdaşlıq sammitində. Tbilisi, 9 yanvar 2007-ci il



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və Almaniya Kansleri Angela Merkelin birgə mətbuat konfransı. Berlin, 14 fevral 2007-ci il



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Rusiya Federasiyasının Prezidenti Vladimir Putin dünya şöhrətli musiqiçi və dirijor, maestro Mstislav Rostropoviçin 80 illiyi ilə bağlı yubiley tədbirində. Moskva, 27 mart 2007-ci il




Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və Tacikistanın prezidenti Emoməli Rəhmanovun görüşü. Düşənbə, 15 mart 200-ci il



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və Polşa Prezidenti Lex Kaçinskinin görüşü. Bakı, 30 mart 2007-ci il




Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Koreya Respublikasının Prezidenti Roh Mu-hyunun Birgə Bəyanat imzalayırlar. Seul, 23 aprel 2007-ci il



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və Misir Ərəb Respublikası Prezidenti Hüsni Mübarəkin təkbətək görüşü. Qahirə, 6 may 2007-ci il



Belarus Prezidenti Aleksandr Lukaşenkonun Azərbaycana səfəri zamanı Prezident sarayında rəsmi qarşılanma mərasimi. Bakı, 2 may 2007-ci il



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Polşada keçirilən Enerji sammitinin yekunlarına dair mətbuat konfransında. Krakov, 11 may 2007-ci il



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Gürcüstan Prezidenti Mixail Saakaşvili Heydər Əliyev parkında ulu öndərin büstünün təntənəli açılış mərasimində. Tbilisi, 12 may 2007-ci il



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Müstəqil Dövlətlər Birliyinin üzvü olan ölkələrin dövlət başçılarının qeyri-rəsmi zirvə toplantısında. Sankt-Peterburq, 10 may 2007-ci il



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Litva Prezidenti Vladas Asdamkusun görüşü,. Bakı, 18 iyun 2007-ci il



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Polşa Prezidenti Lex Kaçinskinin görüşü. Bakı, 18 iyun 2007-ci il



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Ukrayna Prezidenti Viktor Yuşşenkonun görüşü. Bakı, 18 iyun 2007-ci il



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Rumıniya Prezidenti Trayan Beseskunun görüşü. Bakı, 19 iyun 2007-ci il



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Türkiyə Prezidenti Əhməd Necdət Sezərin görüşü. İstanbul, 25 iyun 2007-ci il



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və Rusiya Federasiyasının Prezidenti Vladimir Putinin görüşü. Rostov, 30 iyun 2007-ci il



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və İordaniya Kralı II Abdullahın təkbətək görüşü. Əmman, 27 iyul 2007-ci il



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Tacikistan Respublikasının Prezidenti Emomeli Rəhmon Birgə Bəyanat imzalayırlar. Bakı, 13 avqust 2007-ci il



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və Qazaxıstan Prezidenti Nursultan Nazarbayevin görüşü. Astana, 7 avqust 2007-ci il



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və İran İslam Respublikasının Prezidenti Mahmud Əhmədinejadın birgə mətbuat konfransı. Bakı, 21 avqust 2007-ci il



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Qətər Dövlətinin Əmiri Şeyx Həmid bin Xəlifə Al Taninin təkbətək görüşü. Bakı, 28 avqust 2007-ci il



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Xorvatiya Respublikasının Prezidenti Stepan Mesiçin Birgə Bəyannamə imzalanma mərasimində. Bakı, 2 oktyabr 2007-ci il



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Litvanın Prezidenti Vladas Adamkus Birgə Bəyannamə imzalayırlar. Vilnüs, 13 sentyabr 2007-ci il



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Müstəqil Dövlətlər Birliyinin üzvü olan ölkələrin Dövlət Başçıları Şurasının iclası zamanı. Düşənbə, 5 oktyabr 2007-ci il



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev "Vilnüs enerji təhlükəsizliyi konfransı 2007: Məsul tərəfdaş üçün məsul energetika" mövzusunda beynəlxalq tədbirin yekunlarına dair mətbuat konfransında. Vilnüs, 10 oktyabr 2007-ci il



Türkiyə Respublikasının Prezidenti Abdullah Gülün Azərbaycana rəsmi səfəri zamanı Prezident sarayında rəsmi qarşılanma mərasimi. Bakı, 6 noyabr 2007-ci il



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Xəzəryanı ölkələrin dövlət başçılarının II zirvə toplantısında. Tehran, 16 oktyabr 2007-ci il



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Türkiyə ilə Yunanıstan arasında inşa olunmuş qaz kəmərinin təntənəli açılış mərasimində. Ədirnə, 18 noyabr 2007-ci il



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Fransa Respublikasının Prezidenti Nikola Sarkozinin görüşü. Paris, 20 noyabr 2007-ci il



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev, Türkiyə Prezidenti Abdullah Gül və Gürcüstan Prezidenti Mixail Saakaşvili Bakı – Tbilisi – Qars dəmir yolunun Gürcüstan hissəsinin təməlinin qoyulmasına həsr olunmuş mərasimdə. Tetri-Skaro, 21 noyabr 2007-ci il

ministrasiyada birlikdə işləyən insanlar real şəkildə bu administrasiyaya səs vermişlər. İnsanların bir hissəsi dünən onlara atəş açanlara səs vermişdir. Bu, çox mühümdür.

Təbii ki, paralel olaraq hər gün təxribatlar törədən adamlar da var. Onlara cavabımız fərdi olacaqdır. Əhalidən heç kəs heç nədən qorxmamalıdır. Kollektiv cavab, kollektiv məsuliyyət heç vaxt olmayacaq, onlar bizim vətəndaşlarımızdır. Necə ki, Gürcüstanın istənilən digər şəhərinin, yaxud kəndinin, istənilən digər qrupunun da kollektiv məsuliyyəti ola bilməz. Cənubi Osetiyada yaşayan bütün vətəndaşlar gürcü cəmiyyətinin inteqrasiya olunmuş mühüm tərkib hissəsidir. Son on ildə Gürcüstan tarixinin bir çox görkəmli xadimləri etnik osetinlər olmuşdur və biz heç kəsi etnik əlamətə görə bölməyə hazırlaşmırıq. Təbii ki, təxribatlara fərdi cavab veriləcəkdir. Əlbəttə, biz bəzi yerli xadimlərə konkret təxribatlara görə fərdi məsuliyyət daşıdığı barədə xəbərdarlıq etmişik və əgər onlar bu hərəkətlərini dayandırmasalar, həmin məsuliyyəti həyata keçirəcəyik. Bir daha təkrar edirəm ki, fərdi məsuliyyət olacaqdır. Biz hər şey edəcəyik ki, heç kəs zərər çəkməsin, insanlar sülh və əmin-amanlıq şəraitində yaşaya bilsinlər, Gürcüstanın demokratik təsisatlarında öz hüquqlarını reallaşdırsınlar.

Biz Cənubi Osetiyaya nəinki muxtariyyət verir, nəinki bu ərazinin qəti statusu haqqında danışıqlara başlayırıq, həm də Gürcüstanın bütün mərkəzi hakimiyyət orqanlarında həmin bölgənin nümayəndələri olan etnik osetinlər üçün, – şübhəsiz, təkcə etnik əlamətə görə yox, – yerlər saxlamışıq. Bütün əsas nazirliklərin müavinləri avtomatik surətdə həmin bölgədən təyin olunur, parlamentdə bu bölgə üçün təminatlı yerlər nəzərdə tutacağıq. Biz etnik qrupla birlikdə əhalisi bütövlükdə 40-45 min nəfərdən az olmayan bölgədən danışırıq. Onlara Gürcüstan dövləti çərçivəsində verilən beynəlxalq təminatlardan danışırıq. Bir sözlə, hesab edirəm, bu, ciddi tərəqqidir və biz buna sevinməliyik. Lakin biz təbii ki, sizin dəstəyinizə və Gürcüstanın bütün vətəndaşlarının hüquqlarını nəzərə almaqla, sülh və inteqrasiyasını möhkəmləndirmək istiqamətində atacağımız növbəti addımlarımızı başa düşəcəyinizə ümid bəsləyirik.

Zənnimcə, inteqrasiyamız bütövlükdə çox sürətlə gedir, uğurlarımız göz qabağındadır. İlham Heydər oğlu Azərbaycanın mühüm nailiyyətlərindən danışdı və biz buna ürəkdən sevinirik, çünki bütün bunlar bizə güc verir. Bu yaxınlarda Odessa-Brodı boru kəmərinin açılmasından, neftin Polşa və Ukrayna istiqamətlərində nəqli üçün ondan istifadə olunmasından danışdıq. Bu, Transxəzər qaz kəməri, yaxud Transxəzər neft və qaz nəqli qədər çox vacibdir. Bunlar xülya deyil, tamamilə real perspektivlər, tamamilə real imkanlardır. Mən bunu işə bələd olduğum, bir çox regional liderlərlə çoxsaylı məsləhətləşmələr apardığım üçün deyirəm. Gürcüstan bu baxımdan da nəticələr əldə etməyə çalışır. Gürcüstan ötən il Dünya Bankı üzrə bir nömrəli islahatçı olmuşdur. Bu il biznes aparmaq sahəsində dünyanın ilk 20 ölkəsi sırasına daxil olmaq ümidindəyik. Cəmi iki il əvvəl isə 137-ci yerdəydik. Heç bir ölkə öz tarixi ərzində birdən-birə 100 pillə irəliləməmişdir, biz isə ötən il bunu olduqca qısa müddətdə etdik. Avropa Yenidənqurma və İnkişaf Bankının məlumatına görə, Gürcüstan Avropada korrupsiyaya qurşanmamış üç ölkədən biridir. Dünya Bankının inkişaf indeksi üzrə biz keçid iqtisadiyyatlı ölkələr arasında korrupsiya ilə mübarizə sahəsində birinci yerdəyik. Yəni, demokratiya şəraitində korrupsiya ilə mübarizə aparmaq və qanunun aliliyini bərqərar etmək nəinki mümkündür, həm də lazımdır. Bizim halda bu, konkret iqtisadi nəticələr vermişdir. Gürcüstan büdcəsi son 3 ildə 8-9 dəfə artdı ki, bu da korrupsiyanın azalması deməkdir. Biz vergilə-

ri minimum 45-50 faiz azaltdıq və vergi yığımı bir neçə dəfə artdı. Eyni zamanda, ən iri iqtisadi tərəfdaşımızın 100 faiz qadağasına baxmayaraq, ötən il 10 faizlik artıma nail olduq. Proqnozlara görə, həmin göstərici bu il 13 faiz təşkil edir. Biz isə daha böyük artıma ümid bəsləyirik.

Təbii ki, bütün bunlar bizim aramızda olan əməkdaşlıq sayəsində mümkündür. Gürcüstan alternativ bazarlara çıxanda tezliklə vəziyyəti qiymətləndirdi, öz istehsalını şaxələndirə bildi. Ona görə də Gürcüstan 2 milyard avrodan çox birbaşa xarici sərmayə alır ki, bu da regionumuzda 5 milyonluq əhalisi olan ölkə üçün mütləq rekorddur. Bütün bunlar apardığımız islahatlar sayəsində mümkün olmuşdur.

Ona görə də siz Gürcüstanın timsalında etibarlı tərəfdaş, dost tapacaqsınız. Əminəm ki, GUAM-ın, -- bəzi daxili siyasi problemlərə baxmayaraq, Ukraynanın rəhbərliyi sayəsində Kiyevdə qurumun katibliyi fəaliyyətə başlamış, biz oraya ən yaxşı diplomatımızı göndərmişik, - nəinki perspektivi var, həm də fəal təşkilatdır. Bunu möhkəmləndirmək və dəstəkləmək lazımdır. Biz öz tərəfimizdən onu tam dəstəkləyəcəyik.

Mən bir daha Azərbaycanı təbrik etmək və zirvə görüşünün uğurla keçirilməsinə görə minnətdarlığımı bildirmək istəyirəm. Ümidvaram ki, GUAM Azərbaycanın rəhbərliyi altında real surətdə təsirli təşkilata çevriləcəkdir.

Çox sağ olun.

MOLDOVANIN BAŞ NAZİRİ VASİLE TARLEVİN ÇIXIŞI

-Hörmətli cənab Prezident,

Hörmətli nümayəndə heyətlərinin başçıları,

Xanımlar və cənablar!

İlk növbədə, regionumuz üçün bu mühüm tədbiri hazırladığınıza görə sizə təşəkkürümü bildirmək istəyirəm. İcazə verin, səmimi qəbula və zirvə görüşünün gözəl təşkilinə görə Azərbaycan Prezidentinə və onun komandasına ayrıca minnətdarlığımı ifadə edim.

Kiyev zirvə görüşünün nəticələri həm ümumilikdə GUAM, həm də təşkilatın üzvü olan ayrılıqda hər bir ölkə üçün çox mühümdür. GUAM-ın katibliyinin təsis edilməsi, baş katibin təyin olunması bu təşkilatın regional və beynəlxalq səviyyələrdə möhkəmlənməsinə yönəldilmiş qərarlardır. Biz buna doğru bir neçə il yol getmişik və indi GUAM beynəlxalq təşkilat kimi mövcuddur. Ölkələrimizin səmərəli iqtisadi və demokratik inkişafına kömək göstərən və bunu təmin edən sistemin yaradılması üçün əlimizdən gələni etməliyik.

Moldova müxtəlif regional təşkilatlarda və təşəbbüslərdə iştirak edir ki, bu da ölkəmizin Avropaya inteqrasiya yolunda irəliləməsinin əlavə mexanizmidir. Bu mənada Moldovanın GUAM-ın üzvü statusu Cənub-Qərbi Avropada sabitlik amilidir. Cənub-Qərbi Avropada əməkdaşlıq prosesi regionda mövqelərimizi möhkəmləndirir, iqtisadi və sosial inkişafa, demokratik prinsiplərin irəliləməsinə kömək göstərir, Avropa standartlarına və dəyərlərinə sadiqliyimizi təsdiq edir.

GUAM ölkələri Avropaya inteqrasiyanı fəaliyyətlərinin öncül istiqamətlərindən biri

olan etmişlər. Biz Avropa İttifaqının strukturları ilə işi, GUAM və Avropa İttifaqı arasında qarşılıqlı surətdə faydalı layihələrin, o cümlədən energetika, nəqliyyat və infrastruktur layihələrinin hazırlanmasını katibliyin fəaliyyətinin mühüm tərkib hissəsi hesab edirik.

Zənnimizcə, beynəlxalq təşkilatlarda, o cümlədən BMT-də, ATƏT-də, Avropa Şurasında nümayəndələrimizin fəaliyyətinin əlaqələndirilməsinə dair səylərimizi davam etdirmək lazımdır. Eyni zamanda, diqqəti digər dövlətlər və beynəlxalq təşkilatlarla əməkdaşlığın inkişafında cəmləşdirmək lazımdır. Ölkələrimizin ümumi maraq kəsb edən məsələlərlə bağlı birgə mövqelərini beynəlxalq təşkilatlar çərçivəsində razılaşdırmaq və hazırlamaq təcrübəsi davam etdirilməlidir. Mən təsdiq etmək istərdim ki, GUAM-ın üzvü olan ölkələr arasında heç bir, o cümlədən siyasi problem yoxdur. Moldova təşkilatın üzvü olan ölkələrlə münasibətlərini bundan sonra da həmin ruhda quracaqdır. Gürcüstan Prezidentinin Azərbaycan ilə əməkdaşlıq və sıx qarşılıqlı münasibətlərlə bağlı gətirdiyi misalı Moldova ilə Ukrayna arasında əlaqələrə də şamil etmək olar. Fürsətdən istifadə edərək, əməkdaşlığa və qarşılıqlı anlaşmaya görə Viktor Andreyeviçə şəxsən təşəkkürümü bildirim.

Birləşmiş Ştatlar və digər ölkələrlə, beynəlxalq təşkilatlarla əməkdaşlıq GUAM-ın inkişafının mühüm elementidir. Buna görə də ötən il Moldova hökuməti GUAM çərçivəsində terrorizmlə, mütəşəkkil cinayətkarlıqla, narkotiklərin qanunsuz dövriyyəsi ilə və digər ağır cinayətlərlə mübarizəyə dair milli virtual mərkəz yaratmağı qərara aldı. Moldova Daxili İşlər Nazirliyi yanında ixtisaslaşdırılmış müəssisələrarası qurum kimi bu virtual mərkəzin məqsədi Buxarestdə milli idarələr və mərkəzlərlə GUAM-ın analoji informasiya-təhlil mərkəzləri arasında transsərhəd cinayətkarlıqla mübarizə, habelə birgə əməliyyatlarda iştirakın və onların keçirilməsinin əlaqələndirilməsi sahəsində vahid sistemdə informasiya mübadiləsini təmin etməkdir.

Biz GUAM ilə Yaponiya arasında dinamik inkişaf edən əməkdaşlığı alqışlayır və Yaponiya tərəfinin konkret iqtisadi layihələrin hazırlanmasını və tətbiqini dəstəkləyəcəyinə ümid bəsləyirik.

Hörmətli cənablar! GUAM katibliyinin və baş katibinin işə başladığı indiki mərhələdə sözdən konkret fəaliyyətə keçməyin, yəni xalqlarımızın və dövlətlərimizin rifahı naminə, təkcə GUAM-ın üzvləri üçün deyil, ümumilikdə bütün region üçün konkret layihələrin gerçəkləşdirilməsinin vaxtı çatmışdır. Düşünürəm ki, ölkələrimizin potensialı çox yüksəkdir və indiyədək hələ tam istifadə olunmamışdır. Burada hamı üçün, o cümlədən Avropa İttifaqı, Amerika Birləşmiş Ştatları və inkişaf üzrə digər tərəfdaşlar üçün yer var.

Bu baxımdan, GUAM ölkələrində kommersiya münasibətlərinin və əmtəə dövriyyəsinin inkişafına kömək edəcək birgə ticarət evlərinin yaradılmasını təklif etmək istərdim. Moldova Bakıda, Tbilisidə, Kiyevdə və bir sıra digər şəhərlərdə ticarət evlərinin açılması ideyasını nəzərdən keçirməyə hazırdır. Eyni zamanda, Azərbaycan, Gürcüstan, Ukrayna bu layihə ilə maraqlanarsa, biz Kişinyovda ticarət evlərinin açılması barədə müvafiq qərarları nəzərdən keçirməyə və bu məsələ ilə bağlı danışıqlara başlamaq üçün Moldova Respublikasının GUAM ölkələrindəki səfirliklərinə müvafiq təlimatlar verməyə hazırıq.

Təklif etmək istədiyimiz layihələrdən biri GUAM ölkələrinin mədəniyyət festivalları-

nın, habelə ölkələrimizin gənclərinin festivallarının keçirilməsidir. Bizim regionun zəngin mədəni irsi vardır. Zənnimcə, GUAM-ın fəaliyyət göstərdiyi bütün illər ərzində mədəni mübadiləyə, ölkələrimizin vətəndaşlarına bir-birini daha yaxşı tanımaqda, dostluq münasibətlərini inkişaf etdirməkdə kömək edəcək bu cür tədbirləri heç vaxt keçirməmişik.

Bu baxımdan, ölkələrimizin ümumi inkişafının vacib istiqamətlərindən biri nəqliyyat infrastrukturudur. TRASEKA, QİƏT çərçivəsində həyata keçirilən, Qara dəniz ətrafında dairəvi yolun çəkilməsinə, habelə Avropa nəqliyyat dəhlizlərinə dair layihələr bu mühüm istiqamətin inkişafı üçün istifadə edilməlidir. İstərdik ki, növbəti zirvə toplantısınadək, bəlkə də bir az tez, masalarımızın üstündə GUAM-ın nəqliyyat yollarının xəritəsi olaydı.

Mən təsdiq etmək istərdim ki, GUAM-ın üzvü olan ölkələr arasında insanların, kapitalın və əmtəənin hərəkəti baxımından problem yoxdur, lakin düşünürəm ki, bu sahədə vəziyyəti daha da yaxşılaşdırmaq lazımdır. Moldova GUAM ölkələrinin təkcə GUAM məkanında deyil, digər ölkələrdə də nəqliyyat dəhlizlərinin, necə deyərlər, yaşıl dəhlizlərin yaxşılaşdırılması istiqamətində fəaliyyətini alqışlayacaqdır. Beləliklə, müəyyən istiqamətlərdə konkret layihələr həyata keçirməklə biz təşkilatımızı inkişaf etdirə, ümumi məqsədlərə nail ola bilərik.

Təhlükəsizliyin təmin edilməsi məqsədi ilə, – habelə enerji ehtiyatlarının Mərkəzi Asiya və Xəzər regionundan Avropa bazarlarına nəqli marşrutlarının şaxələndirilməsi yolu ilə, – səyləri artırmağın zəruriliyini vurğulayaraq, biz GUAM ölkələrinin tranzit potensialından, o cümlədən enerji daşıyıcılarının sabit daşınması üçün, maksimum istifadə olunması fikrini dəstəkləyirik. Təsdiq etmək istərdim ki, Moldova Nabukko layihəsinin tətbiqində maraqlıdır. Düşünürəm ki, Odessa-Brodı layihəsinin həyata keçirilməsi, istifadəyə verilməsi, səmərəli işləməsi kimi, bu da perspektivli layihədir. Enerji təhlükəsizliyinin təmin olunması məqsədi ilə səyləri artırmağın zəruriliyini bir daha vurğulayıram, çünki bu, çox vacibdir. Moldova bu problemlə üzləşmişdir: 2005-2006-cı illərdə bizdə nəinki sabitlik pozulmuşdu, biz enerji şantajına məruz qalmışdıq. Biz buna yol verməməliyik və gələcəkdə dövlətlərimizin suverenliyini, müstəqilliyini, ərazi bütövlüyünü möhkəmləndirmək üçün enerji təhlükəsizliyini təmin etmək vacibdir.

İki ildən artıqdır ki, dövlətlərimiz enerji təhlükəsizliyinin təmin olunması və enerji ehtiyatlarının tranziti, nəqli imkanlarının axtarılması istiqamətində işləyir. Bütün dünyada energetika məsələsinin bir nömrəli məsələ olduğunu nəzərə alaraq, ölkələrimizin energetika nazirliklərini bu istiqamətdə fəaliyyətlərini gücləndirməyə və onların qarşısında qoyulmuş vəzifələri qısa müddətdə yerinə yetirməyə çağırmaq istəyirəm. Moldova Novodnestrovsk (Ukrayna)-Beltsı (Moldova)-Suçava (Rumıniya) enerji nəqli xəttinin tikintisi və istifadəyə verilməsində maraqlıdır. Zənnimcə, bu, ölkələrimiz üçün, region üçün faydalıdır.

Mən iştirakçılara təşəkkürümü bildirmək istəyirəm. Polşa Prezidenti yaxşı təşəbbüs irəli sürdü. GUAM-Polşa formatında konstruktiv söhbətə görə ona şəxsən təşəkkürümü bildirmək istəyirəm və düşünürəm ki, bu, yalnız başlanğıcdır.

Yuxarıda dediklərimlə əlaqədar, mövcud işçi qruplarının fəaliyyətinin səmərəliliyini artırmağın vacibliyini vurğulamaq istəyirəm. Əminəm ki, onların fəaliyyəti konkret iş-

lər, həyata keçirilən layihələrə əsasən qiymətləndirilməlidir. Eyni zamanda, institusionallaşdırma prosesinin əvvəlində olduğumuza görə, biz yeni, qeyri-səmərəli qurumlar yaratmamalı, səylərimizi öncül istiqamətlərə və konkret nəticələrin əldə olunmasına yönəltməliyik.

Çıxışıma yekun vuraraq demək istərdim ki, qısamüddətli perspektivdə GUAM-ın əsas prioritetlərini necə gördüyümüzü dəqiq müəyyənləşdirə bilərəm: ölkələrimiz arasında iqtisadiyyat, ticarət, energetika, infrastruktur sahələrində əməkdaşlığın inkişafı, qarşılıqlı anlaşmaya nail olunması və GUAM ölkələrinin ərazilərində kənardan süni şəkildə yaradılan və indiyədək müəyyən vəsaitlərlə dəstəklənən və maliyyələşdirilən "dondurulmuş" münaqişələrin həllinə dair birgə fəaliyyətin dəstəklənməsi, Avropa İttifaqı, Amerika Birləşmiş Ştatları, Yaponiya, Polşa və başqa ölkələrlə, habelə digər maraqlı tərəfdaşlarla daha səmərəli əməkdaşlıq etmək.

GUAM-ın sədri qismində Azərbaycan Respublikasına uğurlar arzulayır və ümumi məqsədlərin həyata keçirilməsində özümüzə və tərəfdaşlarımıza müvəffəqiyyətlər diləyirəm.

POLŞA PREZİDENTİ LEX KAÇİNSKİNİN ÇIXIŞI

-Hörmətli cənab prezidentlər!

Hörmətli Baş nazir!

Hörmətli xanımlar və cənablar!

Mən hər şeydən əvvəl istərdim ki, bizi Bakıda çox qonaqpərvərliklə qarşıladıqlarına görə təşəkkürümü bildirim. Bu ölkəyə ikinci dəfədir səfər edirəm. Mən cənab Prezident Əliyevə və digər prezidentlərə, nümayəndə heyətlərinə təşəkkür etmək istəyirəm.

Polşa üçün bu təşkilatla əməkdaşlıq çox böyük əhəmiyyət kəsb edir. Belə ki, bu təşkilat artıq bir sıra müvəffəqiyyətlərə nail olmuşdur. Bu, Demokratiya və İqtisadi İnkişaf Uğrunda Təşkilat adlanır. Keçmişdə bir sıra illər ərzində bu regionda demokratiya mövcud olmamışdır. Amma hazırda onu yaratmaq mümkün olmuşdur və yaradılır. Bizim ölkəmiz isə bu regionda demokratiyanın bərqərar olmasında çox maraqlıdır.

Dünən GUAM-Polşa danışıqları keçirilmişdir. Bu, çox vacib bir təşəbbüs idi. Biz GUAM-a üzv olan bütün dövlətlərlə və bir təşkilat kimi GUAM-ın özü ilə əməkdaşlıq etmək istəyirik. Bu təşkilat artıq 10 ildir fəaliyyət göstərir. Cənab Saakaşvilinin bildirdiyi kimi, bu, əvvəllər qrup kimi yaradılmış, daha sonra isə siyasi bir quruma çevrilmişdir. Elə bir quruma ki, o, maraq doğurur, yəni dünyanın ABŞ, Yaponiya kimi güclü dövlətlərinin marağına səbəb olur. Eyni zamanda, Polşa və Litva kimi ölkələrin də marağına səbəb olur. Biz əksər hallarda Litva Prezidenti ilə birgə fəaliyyət göstəririk.

Burada enerji sahəsi ilə bağlı danışıldı və biz bu planı həyata keçirməyə başlayırıq. Bu məsələ əvvəllər bizə qeyri-real görünürdü. Amma indi artıq reallaşıbdır. Bu, bizi olduqca sevindirir.

Eyni zamanda, biz istərdik ki, boru kəməri Brodıdan Qdanska uzansın. Bizim tərəfimizdən bunu həyata keçirmək üçün hansısa xüsusi söylər lazım deyildir, yəni sadəcə, neft lazımdır. Neft isə bildiyiniz kimi, GUAM ərazisində, Azərbaycanda var. Əlbəttə, bunun

üçün Gürcüstana və Ukraynaya da ehtiyacımız vardır. Çünki bu nefti hansısa marşrutla aparıb çatdırmaq lazımdır. Ona görə də enerji layihələrinin çox böyük önəmi vardır. Xüsusilə müasir dünyada bu, çox böyük əhəmiyyət kəsb edir. Çünki enerji böhranı, enerji şantajları baş vermişdir və arzulayırıq ki, bunlar gələcəkdə bir daha baş verməsin.

Gələcəkdə bizi çox böyük perspektiv gözləyir. GUAM ölkələri bu perspektivi nəzərdən keçirir. Bu, NATO ilə, Avropa qurumları ilə əməkdaşlığa dair perspektivlərdir. Polşa, Litva və mənə elə gəlir, digər ölkələr də bu fikrə qoşular ki, onlar bu nöqteyi-nəzərdən Avropa İttifaqına üzv olan ölkələr arasında ən etibarlı tərəfdaşa çevrilmək istəyirlər və istiqamətverici rol oynayırlar. Biz bu səyləri dəstəkləyirik. Bizim təcrübəmiz də o qədər çox deyildir. Amma bu işdə ardıcıl olmaq, doğrudan da, müsbət nəticələr əldə etməyə gətirib çıxarır. Bir neçə ay ərzində hansısa bir nəticəni müşahidə etmək mümkün deyildir. Buna nail olunduğu zaman isə vəziyyət daha da yaxşılaşır.

GUAM ölkələri həm NATO, həm də Avropa İttifaqı üçün böyük əhəmiyyət kəsb edir. Çünki onlarda çox böyük enerji resursları vardır və bu resurslar Avropa İttifaqında ya yoxdur, yaxud da onların həcmi olduqca azdır. Mədəni baxımdan Avropa İttifaqının çox böyük əhəmiyyəti vardır. Hesab edirik ki, birləşən Avropa birgə dəyərlər məkanıdır, insan hüquqlarının, demokratiyanın bərqərar olduğu bir məkandır.

Əlbəttə, burada rəqabətin olması da vacibdir. İnteqrasiya daha çox mədəni tarazlıq yaradır. Ona görə Polşa bu istiqamətdə sizin etibarlı müttəfiqiniz və tərəf müqabilinizdir.

Mən təkrar etmək istəmirəm. Əlbəttə, enerji sahəsində fəaliyyət göstərmək, əməkdaşlıq etmək hamımız üçün çox maraqlıdır. Polşa həm alıcı, həm də tranzit əraziyə malik ölkə kimi bütün fəaliyyətlərdə olduqca maraqlıdır. Amma siyasi əməkdaşlıq da bizi olduqca çox maraqlandırır. Çünki son bir il yarım ərzində biz yüksək nailiyyətlər əldə etmişik və inanıram ki, növbəti görüşümüzə qədər bunların sayı çoxalacaqdır.

Cənab Prezident Əliyev, GUAM-ın sədri kimi, bu təşkilata sədrlik edən ölkə kimi Sizi bir daha təbrik etmək istəyirəm. Çünki mən GUAM-ın görüşlərində ilk dəfə deyil, iştirak edirəm. Burada bir sıra yeni təşəbbüslər səslənir. Əlbəttə, Avropada belə təşəbbüslərin sayı çoxdur. Mən onları burada səsləndirmək istəmirəm. Amma heç bir təşkilat sizin təşkilat kimi yüksək nəticə əldə edə bilməmişdir. Onlardan heç biri daimi katiblik yarada bilməmiş, belə dinamikaya malik olmamışdır. Ona görə hörmətli prezidentlər, sizin hamınıza müraciət edərək deyirəm ki, öz ölkələrinizlə qürur duya bilərsiniz. Sizə təşəkkür edirəm. Amma üzr istəyirəm ki, indi bu sammiti tərk etmək məcburiyyətində olacağam. Çünki bir neçə saatdan sonra Avropa İttifaqında çox vacib bir tədbir başlayır. Son hazırlıq işləri gedir.

Bizi yüksək qonaqpərvərliklə qarşıladığınıza və bu sammiti yüksək səviyyədə təşkil etdiyinizə görə bir daha dərin təşəkkürümü bildirirəm.

LİTVA PREZİDENTİ VALDAS ADAMKUSUN ÇIXIŞI

-Hörmətli cənab Prezident!

Hörmətli iştirakçılar!

Hörmətli xanımlar və cənablar!

İlk növbədə, mən hazırda GUAM-da sədrlik edən Azərbaycana və Prezident İlham Əliyevə bu zirvə görüşündə iştirak etmək barədə göndərdiyi dəvətə görə səmimi minnətdarlığımı bildirmək istəyirəm. GUAM-ın toplantılarının ənənəvi qonağı və iştirakçısı olmaqdan çox məmnunam və bundan böyük şərəf hissi duyuram.

Son bir neçə il ərzində GUAM-ın əhəmiyyəti və fəaliyyəti artmışdır və o, sözün əsl mənasında, mühüm regional məsələləri müzakirə etmək məqsədi ilə Qara dəniz və Xəzər dənizi regionlarının dörd ölkəsini birləşdirən təşkilata çevrilmişdir. Dinamik və sıx Avropa dialoqu yoluna verdiyimiz qəti üstünlük, eləcə də demokratiyanın möhkəmləndirilməsi və lazımi islahatların həyata keçirilməsi kimi məramlarımız bizi daha da sıx birləşdirmişdir.

Kişinyov zirvə görüşündən Bakıdakı zirvə görüşünə qədər ölkələriniz tərəfindən göstərilən davamlı və məqsədyönlü səylər artıq mənim qarşıma gördüyüm təzahürləri gətirir. 10 ildən də çox bundan əvvəl Baltikyanı dövlətlər üçtərəfli siyasi təsisatlar yaratmaq, azad ticarət zonası qurmaq və regional əməkdaşlığın digər mexanizmlərini formalaşdırmaq üçün irəli sürülmüş regional təşəbbüslərdən başlayaraq, NATO və Avropa İttifaqına aparan yola səfərə çıxmışdır.

Ona görə də nəinki prezidentlər, həm də müvafiq iqtisadiyyat, nəqliyyat və turizm nazirləri, eləcə də digər təsisatların rəhbərləri arasında dialoqun qurulmasına yönəlmiş fəal səylərinizi qeyd edərək, biz sadəcə, bu səylərə dəstək verə bilərik: gedəcəyimiz yol budur.

İndi dünya nəinki ölkələrimiz tərəfindən atılmış fərdi addımları görür. Biz bütün regiona təsir göstərən dondurulmuş münaqişələrin həlli yollarının axtarılmasında Birləşmiş Millətlər Təşkilatı çərçivəsində həyata keçirdiyiniz birgə xarici siyasət tədbirlərinizi böyük ümidlərlə alqışlayırıq.

İnanıram ki, bu təcrübə geniş şəkildə tətbiq olunaraq, Avropada təhlükəsizliyə və regional təhlükəsizliyə təsir göstərən digər məsələləri də əhatə edəcəkdir. GUAM-ın vacibliyi və dəyəri nəinki ölkələrinizin, həm də digərlərinin maraqlarına xidmət etmək imkanı ilə paralel olaraq, daha da artacaqdır.

GUAM-ın fəaliyyətini artırmaq üçün göstərdiyiniz dinamik səylər Qərb ictimaiyyətini, o cümlədən Avropa İttifaqını strateji baxımdan vacib Qara dəniz-Xəzər dənizi regionuna çıxış əldə etməyə sövqləndirmişdir. Yeni təşəbbüs olan "Qara dəniz işbirliyi" bu il Avropa İttifaqı səviyyəsində irəli sürülmüşdür. Bu əhəmiyyətli imkandan istifadə etmək GUAM üçün vacibdir.

Litva öz tərəfindən, əvvəllər olduğu kimi, yenə də Avropa İttifaqının GUAM-la daha sıx əməkdaşlığa açıq olmasına çalışacaqdır. Vizanın sadələşdirilməsi ilə bağlı sazişlər, Avropa İttifaqının artan maliyyə dəstəyi və azad ticarət razılaşmaları Avropanın sabitliyinə və rifahına verilən əhəmiyyəti yaxın vaxtlarda sadəcə artıracaqdır. Biz həmin prinsipləri Avropa İttifaqı daxilində təşviq etməliyik. Siz işləri bu sürətlə yerinə yetirsəniz və islahatlar yolunda fəaliyyətinizi qətiyyətlə davam etdirsəniz, əminəm ki, qarşımızda duran vəzifə daha asan olacaqdır.

Hörmətli xanımlar və cənablar!

Kiyevdə keçirilmiş GUAM zirvə görüşündə dediyim "GUAM ölkələrinin uğuru Litva-

nın uğurudur" sözlərini xatırlayaraq, mən çox məmnunam ki, siz ötən il ərzində bu qədər işlərin öhdəsindən gəlmisiniz. Eyni zamanda, hamımız tərəfindən əldə edilmiş nailiyyətləri, – davamlı əməkdaşlıq, Avropa İttifaqının regionda daha fəal rol oynaması və bu yaxınlarda Krakovda keçirilmiş enerji sammitində artıq konkret nəticələr vermiş regional enerji dialoqu, – görməkdən çox şadam.

Bakı zirvə görüşü gələcəkdə Odessa-Brodı-Plotsk-Qdansk boru kəməri layihəsinin həyata keçirilməsini müzakirə etmək üçün gözəl fürsətdir. Xəzər neftinin boru kəmərini davamlı təchizatı GUAM-ın Avropanın enerji təhlükəsizliyinə verə biləcəyi real və gözəçarpan töhfəsi ola bilər. Ümid edirəm ki, biz enerji təhlükəsizliyinə dair dialoqumuzu bu ilin oktyabrında Vilnüsdə davam etdirəcəyik.

İnanıram ki, belə xüsusi və açıq müzakirələr nəinki regionlarımızı, yəni Baltik dənizi, Qara dəniz və Xəzər dənizi ölkələrini birləşdirəcək, həm də Avropanın uzun müddət ərzində digərləri tərəfindən "inteqrasiya olunmuş" və idarə edilmiş bu hissəsində real inteqrasiyaya xidmət göstərmiş olacaqdır. Uğurlarımız bizi hələ də zəif və parçalanmış kimi görmək istəyənlərin xülyalarını puç edəcəkdir.

Demokratik və açıq vətəndaş cəmiyyətləri qurmaq məqsədi ilə etdiyiniz seçim postsovet məkanına çox güclü təsir göstərəcəkdir. Bu, təkcə onunla bağlı deyil ki, ölkələriniz Mərkəzi Asiya və Rusiya ilə təsisat və digər əlaqələrini hələ də saxlamaqdadır. Eyni zamanda, onunla bağlıdır ki, sizin Avropaya inteqrasiyanız indi həmin seçimdən məhrum olmuş Minsk, Moskva və digər yerlərdə yaşayanların ümidlərini də əks etdirir.

Demokratiya və İqtisadi İnkişaf Uğrunda Təşkilat olan GUAM əldə etdiyiniz təmaslar və ələtlər vasitəsilə həmin insanlara çıxışa malikdir. Mən bu xüsusi sahədə Avratlantik və GUAM dairələri arasında olduqca geniş əməkdaşlıq imkanlarını irəlicədən görürəm.

Əlbəttə, regiondakı demokratiya sizin açıq cəmiyyətə uğurla keçmək və bazar iqtisadiyyatı qurmaq məramlarınızdan faydalanacaqdır. Əminəm ki, sizin əlaqələndirilmiş səyləriniz, cari islahatlar və yeni təşəbbüsləriniz bizi məhz bu istiqamətə yönəldir. Sizin həqiqətən tarixi məramınızda ən böyük uğurlar arzulamaq istəyirəm. Çox sağ olun.

RUMİNİYA PREZİDENTİ TRAYAN BESESKUNUN ÇIXIŞI

- Hörmətli cənab Prezident,

Hörmətli xanımlar və cənablar!

Mən istərdim, GUAM təşkilatının zirvə görüşündə iştirak etdiyimə imkan yaratdığınıza görə Sizə təşəkkür edim. Həm Azərbaycan Prezidenti İlham Əliyev, həm də digər həmkarlarım Rumıniyaya dost ölkə kimi yanaşırlar. GUAM Rumıniya ilə əlbir fəaliyyət göstərməkdən, əlbəttə, bəhrələnə bilər, yəni biz müştərək bəhrə əldə edə bilərik. Artıq 10 ildir GUAM fəaliyyət göstərir və belə qərar qəbul olunmuşdur ki, səylər birləşdirilsin, təhlükəsizliklə, sülhlə bağlı problemlər birgə həll edilsin. Eyni zamanda, biz öhdəlik götürmüşük ki, qəbul edilmiş qərarlar nəticəsində yeni əməkdaşlıq üçün təzə sahələr açılacaqdır. Rumıniya ayrı-ayrı ölkələrlə və təşkilatlarla həm siyasi, həm də iqtisadi əlaqələr yaratmaqda maraqlı olduğunu bir daha bildirir.

GUAM-a üzv ölkələrin xüsusi əhəmiyyəti vardır. Onlar ya karbohidrogen hasilatçıları-

dır, yaxud da enerji daşıyıcılarını ərazisindən nəql edən ölkələrdir. Enerji mənbələri, hasilat və nəqliyyat potensialı yüksək olduğuna görə, bu ölkələr çox böyük əhəmiyyət kəsb edir. Enerji təhlükəsizliyi ilə bağlı siyasətin həyata keçirilməsi bizim üçün çox maraqlıdır. Biz Ukraynanın və Moldovanın enerji müqavilələrində müşahidəçi simasında iştirakını yüksək qiymətləndiririk. Bu, keçən il imzalanmış bir sənəddir. Sazişin şərtlərini həyata keçirən zaman biz sadiq şəkildə enerji bazarının fəaliyyət göstərməsinin təmin olunmasını nəzərdə tuturuq. İnanırıq ki, heç bir ayrı-seçkiliyə məruz qalmayacağıq. Bir format yaradılacaq ki, bunun da nəticəsində enerji daşıyıcıları təhlükəsiz şəkildə nəql olunacaq və bu sahəyə investisiya qoyulacaqdır.

Enerji infrastrukturunun inkişaf etdirilməsinin region üçün çox böyük əhəmiyyəti vardır. Çünki Xəzər regionu ölkələri ilə iqtisadi əməkdaşlığın inkişaf etdirilməsi Avropa İttifaqı ilə əlaqələrin də inkişafına çox təsir edir. Bunun nəticəsində enerji daşıyıcılarının Avropa bazarlarına çatdırılmasına marağı artır. Avropa İttifaqı bu işin formalaşdırılmasına xüsusi diqqət yetirmişdir ki, bu da enerji təhlükəsizliyinin gücləndirilməsinə yönəldilmiş layihələrdən biridir. Alternativ və bərpa olunan enerji mənbələrindən istifadə, enerjidən istifadəni səmərəli şəkildə həyata keçirmək, artan enerji tələbatının ödənilməsi və ətraf mühitə dəyən təsirin azaldılması ölkələrimizin gündəliyində duran ən əhəmiyyətli məsələlərdir.

Hörmətli xanımlar və cənablar!

Qonşu ölkə kimi Rumıniya, əlbəttə, Qafqazda və Qara dəniz hövzəsində mövcud olan dondurulmuş münaqişələrin həllində çox maraqlıdır. Çünki demokratiyanın gücləndirilməsi üçün və GUAM-ın üzvü olan ölkələrin inkişafını təmin etmək üçün bu, yeganə yoldur.

Eyni zamanda, Avropa İttifaqı və NATO ilə əlaqələrin genişləndirilməsi üçün bunun çox böyük əhəmiyyəti vardır. Rumıniya inanır ki, ölkədə sabitliyin, demokratiyanın bərqərar olması dövlətlərin ərazi bütövlüyünə, müstəqilliyinə, suverenliyinə hörmət edilməsi şəraitində həyata keçirilməlidir. Bunun üçün münaqişələrin həlli ilə bağlı ayrı-ayrı ölkələrlə fərdi şəkildə danışıqların aparılması zəruridir. Rumıniya beynəlxalq təşkilatlarla birgə, eyni zamanda, fərdi şəkildə dəstək göstərməyə hazırdır ki, bu münaqişələrin həlli mümkün olsun. Biz gələcəkdə ATƏT-in, Avropa İttifaqının, BMT-nin Moldova və Gürcüstanda sülhməramlı qüvvələrinin yerləşdirilməsini dəstəkləyirik.

Rumıniya dondurulmuş münaqişələrə dair BMT-də müzakirələrin keçirilməsi ilə bağlı GUAM ölkələrinin irəli sürdüyü təklifi dəstəkləmişdir. Biz inanırıq ki, inkişaf etmiş iqtisadiyyatla həmin münaqişələrin həllinə daha asan şəkildə nail olmaq mümkündür.

Eyni zamanda, biz bəzi digər təşəbbüsləri də diqqətlə müşahidə edirik. Bunlar beynəlxalq sazişlərin həyata keçirilməsi, məsələn, Avropada adi silahlı qüvvələrin həcminin məhdudlaşdırılması ilə əlaqədar təşəbbüslərdir. Rumıniya hesab edir ki, bu qüvvələr məhz müqavilələrin müddəalarına müvafiq olaraq formalaşdırılmalıdır. Rumıniya hesab edir ki, İstanbul sammitində götürülmüş öhdəliyə əməl olunmalıdır. Yəni Rusiya silahlı qüvvələri Moldovadan çıxarılmalıdır. Gələcəkdə hansı nəzarət sisteminin yaradılmasının zəruri olması, şəffaflığın təmin olunması məsələlərini nəzərdən keçirməliyik. Çünki həmin məsələlər beynəlxalq sabitliyə öz təsirini göstərir və bunları nəzərə alaraq, onlar nəzarət altında saxlanılmalıdır.

Hörmətli xanımlar və cənablar!

Bildirmək istəyirəm ki, biz Avropa İttifaqı çərçivəsində öz tərəfimizdən mütləq birləşdirilmiş səylər və tədbirlər həyata keçirməliyik ki, bu regionun inkişafına töhfəmizi verək. Əlbəttə, kifayət qədər çevik bir zəmin məhz Avropa İttifaqı çərçivəsində təklif olunur. Bu zəmin vacibdir ki, onun əsasında real nəticələr əldə oluna bilsin. Məhz bu real nəticələr bizim birgə həyata keçirəcəyimiz layihələrdən asılıdır. Eyni zamanda, başa düşürük ki, bu layihələr son məqsədimiz deyil, bunlar keçici xarakter və məqsəd daşıyan layihələrdir.

İnanırıq ki, gələcəkdə Xəzər dənizi hövzəsində olan ölkələr Avropa məkanında siyasətin yenidən nəzərdən keçirilməsi işinə böyük töhfə verəcək və lazımi əsas yaradacaqlar. Praktik olaraq bu gün əldə olan mexanizmlər Avropanın qonşuluq siyasəti çərçivəsində bizə təklif edilmişdir.

Hörmətli xanımlar və cənablar!

Əlbəttə, biz GUAM-ı dəstəkləyirik və onun daha da gücləndirilməsini istəyirik. Bu təşkilat çərçivəsində müxtəlif layihələrin həyata keçirilməsini dəstəkləyirik. Eyni zamanda inanırıq ki, texniki sahələr, digər əməkdaşlıq məsələləri bu təşkilat vasitəsilə tənzimlənməlidir. Biz diqqətimizi buna yönəldirik. GUAM çərçivəsində həmin funksiyaları və məsələləri, eləcə də təşkilat qarşısında duran məsələləri özümüz üçün kifayət qədər aydın şəkildə müəyyən etməliyik ki, gələcəkdə onların icrası mümkün olsun.

GUAM ölkələrinin qanunvericiliyinin uyğunlaşdırılmasının, eyni zamanda, onların arasında əlaqələrin bərqərar edilməsinin, bütün digər məsələlərin olduqca böyük əhəmiyyəti vardır.

Mən sözümün sonunda yenə də burada iştirakıma şərait yaradıldığına görə təşəkkür edirəm. Dəstəyimi bir daha ifadə edərək, Demokratiya və İqtisadi İnkişaf Uğrunda Təşkilat – GUAM-ın üzvü olan bütün ölkələrə müvəffəqiyyətlər arzu edirəm.

Cənab Prezident, çox sağ olun.

BOLQARISTANIN VİTSE-PREZİDENTİ ANGEL MARİNİN ÇIXIŞI

-Zati-aliləri cənab Prezident,

Xanımlar və cənablar!

İcazə verin, ilk növbədə, Bolqarıstan tərəfini bu mötəbər forumda iştirak etmək üçün dəvətə və səmimi qonaqpərvərliyə görə lütfkar ev sahibinə, Azərbaycan Respublikasının Prezidenti zati-alilləri cənab İlham Əliyevə təşəkkürümü bildirim.

Artıq bir ildən çoxdur ki, GUAM demokratiya və iqtisadi inkişaf uğrunda beynəlxalq təşkilat kimi fəaliyyət göstərir. Həyata keçirilən dəyişikliklər institusional baxımdan əməkdaşlığın inkişafına yeni təkan vermiş, həm GUAM çərçivəsində, həm də ümumiyyətlə regionda daha geniş qarşılıqlı əlaqələrin inkişafına imkan yaratmışdır.

Ötən dövr mənim ölkəm üçün mühüm olmuşdur. 2007-ci il yanvarın 1-də Bolqarıstan Avropa İttifaqının tamhüquqlu üzvü oldu, bununla da bolqar xalqının Avropa dəyərlərinə qoşulmaq yolunda çoxillik səylərinə yekun vuruldu.

Bolqarıstan indi artıq Avropa İttifaqında qərarlar qəbul edilməsi prosesinin bir hissəsidir və GUAM dövlətləri ilə ənənəvi səmimi dostluq münasibətləri olan bir ölkə kimi, Avropa mehriban qonşuluq siyasətinə qoşulmuş ölkələr arasında əməkdaşlığa daha fəal kömək göstərəcəkdir.

Bununla əlaqədar demək istərdim ki, Bolqarıstan Avropa İttifaqının məhz şərq qonşuları ilə münasibətlərin inkişafına xüsusi əhəmiyyət verir, Gürcüstan, Ukrayna, Azərbaycan və Moldova onların sırasındadır.

Bolqarıstan Avropa mehriban qonşuluq siyasətinin Qara dəniz düzəninin inkişafını diqqət mərkəzində saxlayır. Bolqarıstan və Rumıniya Avropa İttifaqına qəbul edilməndən sonra Qara dəniz təkcə bu iki ölkənin deyil, həm də Avropa İttifaqının özünün sərhədinə çevrildi. Son illər, demək olar, bütün diqqətini Avropa İttifaqına və NATO-ya üzv olmağa cəmləmiş ölkəm, xarici siyasətimizdə birinci dərəcəli əhəmiyyət kəsb edən Qara dəniz regionuna daha ciddi səylər yönəltməyə başlayır.

Bolqarıstan, Rumıniya və Yunanıstan Avropa İttifaqı çərçivəsində həm üzv dövlətlər, həm də region dövlətləri kimi, habelə Avropa İttifaqında Almaniyanın sədrliyi Qara dənizə yeni regional yanaşmanın işlənib hazırlanmasına əhəmiyyətli töhfələr vermişdir. Bu yanaşma Avropa Komissiyasının yeni kommunikasiyası vasitəsilə "Qara dəniz sinergiyası – əməkdaşlığın yeni regional təşəbbüsü" adını aldı. Bu təşəbbüs regionda Avropa İttifaqının siyasətinin əlaqələndirilməsinə və region ölkələri ilə daha sıx əməkdaşlığa yönəlmişdir. Bununla bağlı əmin olduğumu bildirmək istəyirəm ki, Avropa İttifaqının yeni yanaşması, regionun bütün ölkələri, o cümlədən GUAM ölkələri ilə daha fəal və məsuliyyətli dialoqun yaranması üçün əlavə imkanlar açacaqdır.

Diqqətinizi cəlb etmək istədiyim digər cəhət iqtisadi əməkdaşlıqdır. Konkret sahələr, məsələn, enerji ehtiyatlarının Mərkəzi Asiyadan və Xəzər regionundan Avropaya və dünya bazarlarına nəql olunmasında mühüm rolunu nəzərə alaraq, energetika böyük əhəmiyyət kəsb edir. Hesab edirəm ki, coğrafi mövqeyimiz bizim üçün - Qara dəniz və Xəzər regionu ölkələri üçün Şərq-Qərb istiqamətində enerji ehtiyatlarının daşınmasında kombinasiya etmək imkanı yaradan üstünlükdür.

Deyildiyi kimi, ənənəvi şəkildə Bolqarıstanın GUAM-ın üzvü olan hər bir ölkə ilə ayrılıqda çox yaxşı tərəfdaşlıq münasibətləri vardır. Bu mənada Bolqarıstanın əməkdaşlıq haqqında hökumətlərarası memorandumlar əsasında Ukraynanın, Gürcüstanın, Azərbaycanın və Moldovanın Avratlantik səylərinin dəstəklənməsinə verdiyi töhfəni qeyd etmək istərdim. Bolqarıstan tərəfinin demokratik inkişaf, Avropa İttifaqı və NATO strukturlarına inteqrasiya sahəsində qazandığı təcrübə ilə bölüşməyi davam etməyə hazır olmasını təsdiqləyirəm. Əmin olduğumuzu bildiririk ki, demokratiya prinsiplərinin, qanunun aliliyinin bərqərar olması prosesi və insan hüquqlarına əməl edilməsi, təşkilatımızın inkişafının ayrılmaz hissəsi olacaqdır.

Hörmətli xanımlar və cənablar.

Bir daha qeyd etmək istərdim ki, bizim anlayışımızda və ümumiyyətlə, regional aspektdə GUAM çərçivəsində əməkdaşlıq – konkret və praqmatik nəticələrə yönəlmiş təşəbbüs və layihələrin işlənib hazırlanması deməkdir. Özü də bu əməkdaşlıq Avropa və Avratlantik inteqrasiya strukturları ilə sıx qarşılıqlı əlaqədə həyata keçirilir.

Çıxışımın sonunda demokratik standartların bərqərar olması və ölkələrimizin iqtisadi tərəqqisi naminə fəaliyyətində GUAM-a gələcək uğurlar arzulamaq istərdim. Bu məqsədlərə çatmaq üçün sübut olunmuş yol, heç şübhəsiz, mehriban qonşuluq və fayda gətirən qarşılıqlı əməkdaşlıqdır. Bunlar Bolqarıstanın ardıcıl surətdə tərəfdar olduğu prinsiplərdir.

Diqqətinizə görə təşəkkür edirəm.

ESTONİYA PARLAMENTİ SƏDRİNİN MÜAVİNİ KRİSTİİNA OYULANDIN ÇIXIŞI

- Hörmətli Prezident İlham Əliyev,

Hörmətli dövlət və hökumət başçıları,

Parlament üzvləri,

Xanımlar və cənablar,

Əziz dostlar!

Demokratiya və İqtisadi İnkişaf Uğrunda Təşkilatın ikinci zirvə görüşü çərçivəsində təşkil olunmuş bu cür mühüm və yüksək səviyyəli məclisdə bir çox əməkdaşlıq tərəfdaşlarının və dostların qarşısında çıxış etməkdən çox məmnunam. İlk növbədə, Estoniya Prezidenti cənab Toomas Hendrik İlvesin ən səmimi salamlarını qəbul etməyinizi xahiş edirəm. İcazə verin, Bakıda GUAM-ın ikinci zirvə görüşündə iştirak etmək məqsədi ilə xoş dəvətinizə görə sizə öz minnətdarlığımı bildirim. İzn verin, Sizi əmin edim ki, həmin dəvət ən yüksək hörmət və ehtiramla qəbul edilmişdir.

Estoniya GUAM məkanında baş verən hadisələri böyük məmnunluq hissi ilə yaxından müşahidə edir. Baxmayaraq ki, GUAM ölkələri ilə əməkdaşlıq səviyyəsi fərqlidir, Estoniya bütün dörd dövlətlə qurulmuş münasibətləri yüksək dəyərləndirir. Bunun üçün bir çox səbəblər var. Ən vacibi isə ondan ibarətdir ki, biz hamımız – Estoniya və GUAM ölkələri fəaliyyətimizi eyni prinsiplər üzərində qururuq: demokratiya yolunu seçmək, qanunun aliliyini təmin etmək, bərabərlik və qarşılıqlı hörmət prinsipi, xalqlarımızın təhlükəsizliyini və rifahını möhkəmləndirmək üçün intensiv iqtisadi əməkdaşlığı inkişaf etdirmək arzusu. Buna görə də dostluq və anlaşma səviyyəsini müəyyən edən məsafə deyil, bölüşdüyümüz dəyərlərdir. Bununla belə, icazə verin, GUAM ölkələrinin Estoniyanın xarici və daxili siyasət seçiminə verdiyi dəstəyə görə Estoniyanın adından öz dərin təşəkkürümü bildirim.

Hörmətli xanımlar və cənablar!

GUAM ölkələrinin ümumi məqsədlərindən biri Avropaya inteqrasiyaya doğru addımların atılmasıdır. Estoniya 2004-cü ilin mayından Avropa İttifaqının üzvüdür. Bu məqsədi qarşımızda qoyarkən, on il əvvəl getdiyimiz yolun bizi haraya aparacağını belə təsəvvür etmirdik. Biz buna şübhəli, bir az tərəddüdlə yanaşırdıq və müəyyən vaxt keçdikdən sonra, hər şey birdən-birə tam aydın oldu ki, biz nə edirik və nə üçün edirik. Struktur dəyişikliklərinin və apardığımız iqtisadi və sosial islahatların, ən başlıcası ölkəmizə və xalqımıza xidmət etdiyini anladıq.

Bunu bildirməklə, mən xüsusi vurğulamaq istəyirəm ki, Estoniya GUAM ölkələrinin Avropa ilə bağlı niyyətlərini bölüşür, xalqımızın rifahı naminə, o cümlədən güclü və inkişaf etmiş iqtisadiyyatın qurulması və beləliklə, ölkələrinizin suverenliyinin möhkəmləndirilməsi üçün aparılan islahatları tamamilə dəstəkləyir. Estoniya özünün imkanları və bacarığı səviyyəsində bu işlərdə sizə dost əlini uzatmağa hazırdır.

Bu baxımdan, Avropa İttifaqına yaxın olan ölkələrdə daha böyük iqtisadi inkişaf, sabitlik və daha yaxşı idarəçiliyi təşviq etmək məqsədi ilə tərtib olunmuş Avropa qonşuluq siyasəti yaxşı çərçivə hesab olunur. İslahatlar kimi çətin yolda qonşularına yardım etmək və Avropa İttifaqının hüdudlarından kənarda sabitlik və ümumi dəyərlər məkanını yaratmaq bizim qarşılıqlı marağımızdır. Beləliklə, Avropa qonşuluq siyasəti Avropa vətəndaşları, eləcə də tərəfdaş ölkələrin vətəndaşları üçün təhlükəsizlik və rifah siyasətidir. Buna görə də Estoniya Avropa qonşuluq siyasətinin bütün aspektlərdə daha da möhkəmləndirilməsini, o cümlədən bu siyasət çərçivəsində parlament əməkdaşlığını dəstəkləyir.

Bununla belə, demək istəyirəm ki, Avropa qonşuluq siyasəti Avropa İttifaqının xarici siyasətinin əsas prioriteti olaraq qalır. Bunun Avropa İttifaqının genişləndirilməsi prosesindən və siyasətindən fərqli olmasına baxmayaraq, o, Avropanın qonşularının İttifaq ilə sazişin müvafiq müddəaları əsasında münasibətlərinin hər hansı mümkün gələcək inkişafını istisna etmir. Avropa qonşuluq siyasətində iştirak Avropa İttifaqı ilə əməkdaşlığın möhkəmləndirilməsi üçün olduqca vacibdir. Bu baxımdan, GUAM ölkələri ilə əməkdaşlıq çox əhəmiyyətlidir. Təbii ki, güc tərəfdaşlıqdadır və o, səyləri gücləndirməyə və islahatları daha qətiyyətlə aparmağa xidmət edir. Üfüqləri açıb, səyahətə çıxmağa imkan yaradır.

Sonda icazə verin, səyahətə çıxdığımız gəminin GUAM ölkələrinin birgə uğurlu rəhbərliyi altında istənilən sahilə çatmasını arzulayım.

Qoy sizin hər zaman açıq-aydın planlarınız və üfüqləriniz olsun!

Qoy hər zaman bu yolda dostlarınız yanınızda olsun və sizi dəstəkləsin!

LATVİYANIN İQTİSADİYYAT NAZİRİ YURİ STRODSUN ÇIXIŞI

-Hörmətli cənab prezidentlər,

Nümayəndə heyətlərinin başçıları,

Hörmətli xanımlar və cənablar!

Demokratiya və İqtisadi İnkişaf Uğrunda Təşkilat – GUAM-ın ikinci zirvə görüşünün bugünkü geniş iclasında çıxış etmək mənim üçün böyük şərəfdir. Dövlət nümayəndələrinin belə yüksək səviyyədə təmsil edilməsi fəal dövlətlərarası əlaqələrin ölkələrimiz üçün zəruri olmasını aydın göstərir. İqtisadi dialoqumuzun inkişaf perspektivlərindən danışarkən, qeyd etmək istəyirəm ki, Azərbaycan, Gürcüstan, Moldova və Ukrayna digər region ölkələri ilə ikitərəfli münasibətlər, istər Latviya Avropa İttifaqına daxil olmazdan əvvəl və istərsə də sonra bizim xarici iqtisadi siyasətimizin mühüm hissəsini təşkil edir.

Bu gün Latviya və GUAM ölkələri arasında iqtisadi münasibətlər xüsusilə intensiv inkişaf edir. 2005-ci ildə Latviya ilə Gürcüstan arasında iqtisadi əlaqələrə dair müqavilə, 2006-cı ildə isə Latviya ilə Azərbaycan, həmçinin Latviya və Ukrayna arasında müqavilələr qüvvəyə minmişdir. Ümidvaram ki, yaxın vaxtlarda Latviya ilə Moldova arasında iqtisadi və sənaye əlaqələrinə dair müqavilə qüvvəyə minəcəkdir. Bu il həmin müqavilələr çərçivəsində Latviya-Azərbaycan, Latviya-Ukrayna hökumətlərarası komissiyalarının iclasları keçirilmişdir. Latviya-Gürcüstan hökumətlərarası komissiyasının iclası da planlaşdırılır, ümid edirəm ki, yaxın gələcəkdə Latviya-Moldova komissiyasının iclası da baş tutacaqdır.

Bildiyiniz kimi, Latviyanın GUAM ölkələri ilə əlaqələrinin möhkəmlənməsi baxımından müsbət hadisələr dövlətimizin 2004-cü ildə Avropa İttifaqına daxil olmasından sonra baş vermişdir. Latviyanın Avropa İttifaqına üzv olması ölkələrimiz arasında qarşılıqlı fayda və uğur gətirən əməkdaşlığın imkanlarını genişləndirmişdir. Bunu mal dövriyyəsi, qarşılıqlı investisiya və əməkdaşlıq layihələrinin statistik göstəriciləri təsdiq edir. Lakin fikrimcə, sıx əlaqələrin bu dərəcədə mütərəqqi meyli Avropa İttifaqının Azərbaycan, Gürcüstan, Moldova və Ukrayna ilə tərəfdaşlıq əlaqələrinin inkişafında maraqlı olması ilə də şərtlənir.

Latviya GUAM-ın üzvü olan ölkələrin hökumətlərinin iqtisadiyyatın, siyasətin müxtəlif sahələrində həyata keçirdiyi islahatları yüksək dəyərləndirir. Öz tərəfimizdən biz islahatların aparılması və beynəlxalq təşkilatlara inteqrasiya sahəsində kömək göstərməyə və təcrübəmizi bölüşməyə hazırıq. Biz Azərbaycan və Ukraynanın dünya ticarətinin genişlənməsində ən səmərəli vasitə, həmçinin uğurlu beynəlxalq münasibətlərin zəminindən biri olan Dünya Ticarət Təşkilatına daxil olmaq səylərini də fəal surətdə dəstəkləyirik. Latviya hər zaman azad bazara və onun təminatı kimi ticarət münasibətlərinin liberallaşdırılmasına tərəfdar olmuşdur.

Qeyd etmək istəyərdim ki, ölkələrimiz arasında ikitərəfli iqtisadi münasibətlərin bir çox sahələrdə inkişaf potensialı vardır. Məsələn, nəqliyyat, tranzit, logistika, energetika, sənaye və turizm sahələrində. Baltik dənizi və GUAM ölkələri regionu demokratiya və azad iqtisadi inkişaf dəyərlərinə sadiq olan tərəfdaş ölkələrlə əməkdaşlığı genişləndirmək və dərinləşdirmək istiqamətində böyük üstünlüklər verən strateji coğrafi mövqeyə malikdir. Bu coğrafi mövqedən ağılla istifadə edilməsi, ölkələrimizin iqtisadiyyatının inkişafında həlledici amillərdən birinə çevrilə bilər. Qloballaşma prosesində tərəfdaşlığın regional səviyyədə genişləndirilməsinə xüsusi diqqət yetirmək lazımdır. Bunun uğurlu inkişafı beynəlxalq siyasi və iqtisadi sahədə dövlətlərin sabitliyinin təminatı olacaqdır. Əminəm ki, GUAM-ın zirvə görüşü ölkələrimizə qarşılıqlı münasibətlərin yeni perspektivlərini müzakirə etməyə kömək edəcəkdir. Zirvə görüşündə iştirak edən bütün üzv ölkələrə səmimi qəlbdən səmərəli əməkdaşlıq arzulayıram və xüsusilə də qonaqpərvərliyə görə Azərbaycana minnətdarlığımı bildirir, uğur və firavanlıq diləyirəm.

Diqqətinizə görə sağ olun.

ABŞ DÖVLƏT KATİBİ MÜAVİNİNİN KÖMƏKÇİSİ DEVİD KREYMERİN ÇIXIŞI

-Hörmətli Prezident Əliyev!

Bugünkü görüşün xeyirxah ev sahibi kimi Sizə və Azərbaycan hökumətinə olduqca minnətdaram. 2006-cı ildə Kiyev sammitində olduğu kimi, 2007-ci ildə də GUAM-ın zirvə görüşündə Birləşmiş Ştatları təmsil etməkdən məmnunam və şərəf hissi duyuram.

Yarandığı gündən GUAM-ı dəstəkləmiş Birləşmiş Ştatlar üçün GUAM-ın inkişaf etmiş təşkilata çevrilməsini və burada, masa arxasında bu qədər sayda ölkələrin olmasını görmək çox əlamətdardır.

İcazə verin, Birləşmiş Ştatların Prezidenti Corc Buşun təbriklərini və ən xoş arzularını Sizə çatdırım və dövlət katibi xanım Kondoliza Raysın məktubunu oxuyum:

"Zati-aliləri, Demokratiya və İqtisadi İnkişaf Uğrunda Təşkilat – GUAM-ın 2007-ci ildəki zirvə görüşündə iştirak etmək məqsədi ilə Bakıya toplaşanlara salamlarımı çatdırıram.

GUAM müsbət və maraqlı dəyişikliklər keçməkdədir. Sadəcə, bir il bundan əvvəl regional təşkilat olan GUAM tamhüquqlu beynəlxalq təşkilata çevrilməkdədir. Bu il GUAM-ın birinci baş katibi Valeri Çeçelaşvili bu vəzifəyə təyin olundu və onun katibliyi artıq fəaliyyətə başlayıbdır. Bu cür mühüm addım gələn illər ərzində daha böyük nailiyyətlər əldə etməyə imkan yaradacaqdır.

ABŞ-GUAM Çərçivə proqramı əsasında Birləşmiş Ştatlar və GUAM ticarət və nəqliyyat, regional hüquq mühafizə sahələrində əməkdaşlığı genişləndirirlər. Biz demokratiyanı, iqtisadi inkişafı və regional əməkdaşlığı inkişaf etdirmək məqsədi ilə GUAM-ın katibliyi vasitəsilə bu tərəfdaşlığın inkişafını davam etdirməliyik.

Mən sədrliyi dövründə həmin nailiyyətlərin əldə edilməsində göstərdiyi rəhbərliyinə görə Ukrayna hökumətinə təbriklərimi çatdırıram. Biz Azərbaycan hökumətinin GUAM-da sədrliyini üzərinə götürdüyü bir vaxtda onunla əlavə uğurlar əldə etməyi ürəkdən arzulayırıq.

On xoş arzularla, GUAM-ın 2007-ci ildəki zirvə görüşünün uğurlu olmasını diləyərək, səmimiyyətlə,

Kondoliza Rays".

***

İLHAM ƏLİYEV: Cənab Kreymer, sağ olun. Xahiş edirəm, bu cür xoş məktuba görə xanım dövlət katibinə ümumi minnətdarlığımızı çatdırasınız. Bu, bizim üçün və təşkilatımız üçün çox vacibdir. Biz GUAM-ABŞ formatında güclü tərəfdaşlığın davam etdirilməsini ürəkdən arzulayırıq.

İndi isə sözü GUAM-ın baş katibi Valeri Çeçelaşviliyə vermək istəyirəm.

Bu gün Latviya və GUAM ölkələri arasında iqtisadi münasibətlər xüsusilə intensiv inkişaf edir. 2005-ci ildə Latviya ilə Gürcüstan arasında iqtisadi əlaqələrə dair müqavilə, 2006-cı ildə isə Latviya ilə Azərbaycan, həmçinin Latviya və Ukrayna arasında müqavilələr qüvvəyə minmişdir. Ümidvaram ki, yaxın vaxtlarda Latviya ilə Moldova arasında iqtisadi və sənaye əlaqələrinə dair müqavilə qüvvəyə minəcəkdir. Bu il həmin müqavilələr çərçivəsində Latviya-Azərbaycan, Latviya-Ukrayna hökumətlərarası komissiyalarının iclasları keçirilmişdir. Latviya-Gürcüstan hökumətlərarası komissiyasının iclası da planlaşdırılır, ümid edirəm ki, yaxın gələcəkdə Latviya-Moldova komissiyasının iclası da baş tutacaqdır.

Bildiyiniz kimi, Latviyanın GUAM ölkələri ilə əlaqələrinin möhkəmlənməsi baxımından müsbət hadisələr dövlətimizin 2004-cü ildə Avropa İttifaqına daxil olmasından sonra baş vermişdir. Latviyanın Avropa İttifaqına üzv olması ölkələrimiz arasında qarşılıqlı fayda və uğur gətirən əməkdaşlığın imkanlarını genişləndirmişdir. Bunu mal dövriyyəsi, qarşılıqlı investisiya və əməkdaşlıq layihələrinin statistik göstəriciləri təsdiq edir. Lakin fikrimcə, sıx əlaqələrin bu dərəcədə mütərəqqi meyli Avropa İttifaqının Azərbaycan, Gürcüstan, Moldova və Ukrayna ilə tərəfdaşlıq əlaqələrinin inkişafında maraqlı olması ilə də şərtlənir.

Latviya GUAM-ın üzvü olan ölkələrin hökumətlərinin iqtisadiyyatın, siyasətin müxtəlif sahələrində həyata keçirdiyi islahatları yüksək dəyərləndirir. Öz tərəfimizdən biz islahatların aparılması və beynəlxalq təşkilatlara inteqrasiya sahəsində kömək göstərməyə və təcrübəmizi bölüşməyə hazırıq. Biz Azərbaycan və Ukraynanın dünya ticarətinin genişlənməsində ən səmərəli vasitə, həmçinin uğurlu beynəlxalq münasibətlərin zəminindən biri olan Dünya Ticarət Təşkilatına daxil olmaq səylərini də fəal surətdə dəstəkləyirik. Latviya hər zaman azad bazara və onun təminatı kimi ticarət münasibətlərinin liberallaşdırılmasına tərəfdar olmuşdur.

Qeyd etmək istəyərdim ki, ölkələrimiz arasında ikitərəfli iqtisadi münasibətlərin bir çox sahələrdə inkişaf potensialı vardır. Məsələn, nəqliyyat, tranzit, logistika, energetika, sənaye və turizm sahələrində. Baltik dənizi və GUAM ölkələri regionu demokratiya və azad iqtisadi inkişaf dəyərlərinə sadiq olan tərəfdaş ölkələrlə əməkdaşlığı genişləndirmək və dərinləşdirmək istiqamətində böyük üstünlüklər verən strateji coğrafi mövqeyə malikdir. Bu coğrafi mövqedən ağılla istifadə edilməsi, ölkələrimizin iqtisadiyyatının inkişafında həlledici amillərdən birinə çevrilə bilər. Qloballaşma prosesində tərəfdaşlığın regional səviyyədə genişləndirilməsinə xüsusi diqqət yetirmək lazımdır. Bunun uğurlu inkişafı beynəlxalq siyasi və iqtisadi səhnədə dövlətlərin sabitliyinin təminatı olacaqdır. Əminəm ki, GUAM-ın zirvə görüşü ölkələrimizə qarşılıqlı münasibətlərin yeni perspektivlərini müzakirə etməyə kömək edəcəkdir. Zirvə görüşündə iştirak edən bütün üzv ölkələrə səmimi qəlbdən səmərəli əməkdaşlıq arzulayıram və xüsusilə də qonaqpərvərliyə görə Azərbaycana minnətdarlığımı bildirir, uğur və firavanlıq diləyirəm.

Diqqətinizə görə sağ olun.

ABŞ DÖVLƏT KATİBİ MÜAVİNİNİN KÖMƏKÇİSİ DEVİD KREYMERİN ÇIXIŞI

-Hörmətli Prezident Əliyev!

Bugünkü görüşün xeyirxah ev sahibi kimi Sizə və Azərbaycan hökumətinə olduqca minnətdaram. 2006-cı ildə Kiyev sammitində olduğu kimi, 2007-ci ildə də GUAM-ın zirvə görüşündə Birləşmiş Ştatları təmsil etməkdən məmnunam və şərəf hissi duyuram.

Yarandığı gündən GUAM-ı dəstəkləmiş Birləşmiş Ştatlar üçün GUAM-ın inkişaf etmiş təşkilata çevrilməsini və burada, masa arxasında bu qədər sayda ölkələrin olmasını görmək çox əlamətdardır.

İcazə verin, Birləşmiş Ştatların Prezidenti Corc Buşun təbriklərini və ən xoş arzularını Sizə çatdırım və dövlət katibi xanım Kondoliza Raysın məktubunu oxuyum:

"Zati-aliləri, Demokratiya və İqtisadi İnkişaf Uğrunda Təşkilat – GUAM-ın 2007-ci ildəki zirvə görüşündə iştirak etmək məqsədi ilə Bakıya toplaşanlara salamlarımı çatdırıram.

GUAM müsbət və maraqlı dəyişikliklər keçməkdədir. Sadəcə, bir il bundan əvvəl regional təşkilat olan GUAM tamhüquqlu beynəlxalq təşkilata çevrilməkdədir. Bu il GUAM-ın birinci baş katibi Valeri Çeçelaşvili bu vəzifəyə təyin olundu və onun katibliyi artıq fəaliyyətə başlayıbdır. Bu cür mühüm addım gələn illər ərzində daha böyük nailiyyətlər əldə etməyə imkan yaradacaqdır.

ABŞ-GUAM Çərçivə proqramı əsasında Birləşmiş Ştatlar və GUAM ticarət və nəqliyyat, regional hüquq mühafizə sahələrində əməkdaşlığı genişləndirirlər. Biz demokratiyanı, iqtisadi inkişafı və regional əməkdaşlığı inkişaf etdirmək məqsədi ilə GUAM-ın katibliyi vasitəsilə bu tərəfdaşlığın inkişafını davam etdirməliyik.

Mən sədrliyi dövründə həmin nailiyyətlərin əldə edilməsində göstərdiyi rəhbərliyinə görə Ukrayna hökumətinə təbriklərimi çatdırıram. Biz Azərbaycan hökumətinin GUAM-da sədrliyini üzərinə götürdüyü bir vaxtda onunla əlavə uğurlar əldə etməyi ürəkdən arzulayırıq.

Ən xoş arzularla, GUAM-ın 2007-ci ildəki zirvə görüşünün uğurlu olmasını diləyərək, səmimiyyətlə,

Kondoliza Rays".

***

İLHAM ƏLİYEV: Cənab Kreymer, sağ olun. Xahiş edirəm, bu cür xoş məktuba görə xanım dövlət katibinə ümumi minnətdarlığımızı çatdırasınız. Bu, bizim üçün və təşkilatımız üçün çox vacibdir. Biz GUAM-ABŞ formatında güclü tərəfdaşlığın davam etdirilməsini ürəkdən arzulayırıq.

İndi isə sözü GUAM-ın baş katibi Valeri Çeçelaşviliyə vermək istəyirəm.

GUAM-IN BAŞ KATİBİ VALERİ ÇEÇELAŞVİLİNİN ÇIXIŞI

-Zati-aliləri cənab sədr,

Zati-aliləri hörmətli nümayəndə heyətləri başçıları,

Xanımlar və cənablar!

İlk növbədə, icazə verin, forum iştirakçıları və qonaqlarının gözəl Bakı şəhərində ənənəvi qonaqpərvərliklə qarşılanmasına və Bakı zirvə görüşünün əla təşkilinə görə minnətdarlıq dolu sözlərə qoşulum.

Dövlət başçılarının Bakı zirvə görüşünün, sadəcə, sədrliyin Ukraynadan Azərbaycana keçməsi məqsədi daşımadığı barədə bu gün burada dəfələrlə səslənən tezislərlə tamamilə şərikəm. Son iki gün ərzində razılaşdırılmış sənədləri nəzərə alaraq, cəsarətlə demək olar ki, biz əməkdaşlığın keyfiyyətcə yeni mərhələsinə qədəm qoyuruq.

Dövlət başçılarının Kiyev zirvə görüşündən sonra Ukraynanın sədrlik etdiyi dövrdə təşkilatda əməkdaşlıq sistemləşdirilmiş və GUAM-ın institusional quruculuğu, əslində, başa çatmışdır. Fürsətdən istifadə edib göstərilmiş etimada görə üzv dövlətlərin nümayəndə heyətlərinə minnətdarlığımı bildirmək istəyirəm. Əmin edirəm ki, katiblikdəki həmkarlarımla birlikdə qurumun məqsəd və vəzifələrini həyata keçirmək üçün mümkün olan hər şeyi edəcəyəm.

Nümayəndə heyətlərinin başçıları bir neçə dəqiqə sonra Bakı Bəyannaməsini imzalayacaqlar. Bəyannamədə Kiyev zirvə görüşündən keçən müddət ərzində GUAM çərçivəsində əməkdaşlığa siyasi qiymət verilir və növbəti gələn il üçün qarşılıqlı əlaqələrin perspektivləri müəyyənləşdirilir. Sənəd GUAM regionunun inkişaf perspektivlərinin ümumi mənzərəsini formalaşdırır və GUAM regionunda ümumi inteqrasiya və təhlükəsizlik məkanını formalaşdırmaq üçün üzv dövlətlərin potensialından tam mənada istifadə etmək zərurətini vurğulayır. Bu, zirvə görüşünün əsas ideyasıdır. İmzalanmaq üçün hazırlanmış bütün sənədlər ona xidmət edir və Azərbaycanın sədrlik proqramı da ona istiqamətlənmişdir.

Nümayəndə heyətləri başçılarının öz çıxışlarında ifadə etdikləri məqsədləri əsas tutaraq, katibliyin fəaliyyəti yaxın bir il ərzində aşağıdakı başlıca istiqamətlərə yönəldiləcəkdir: azad ticarət zonasının, dolğun şəkildə fəaliyyəti mütəşəkkil, o cümlədən transmilli cinayətkarlıqla mübarizənin sərtləşdirilməsi, mədəni, humanitar əməkdaşlığın fəallaşdırılması, ilk növbədə, enerji nəqli sahəsində regional layihələrin reallaşdırılması və bununla əlaqədar GUAM-ın tərəfdaşları, ilk növbədə, ABŞ, Yaponiya və Polşa, bütövlükdə Avropa İttifaqı ilə əməkdaşlığın genişləndirilməsi.

Təbii ki, təşkilatın fəaliyyətinin ən mühüm xarici istiqaməti GUAM-ın üzvü olan ölkələrin və bütövlükdə qurumun siyasətinə, o cümlədən münaqişələrin dinc yolla həlli problemi üzrə siyasətinə beynəlxalq birliyin, ilk növbədə, Avropa birliyinin dəstəyini birləşdirməkdir. Bu baxımdan, "GUAM məkanında uzun sürən münaqişələr haqqında" maddənin GUAM-ın təşəbbüsü ilə BMT Baş Məclisinin gündəliyinə salınması qurumun aşkar uğuru və onun artmaqda olan beynəlxalq nüfuzunun və hörmətinin etiraf edilməsi deməkdir. Katibliyin fəaliyyəti də bütün bu işlərə istiqamətlənəcəkdir.

Çıxışımın sonunda icazə verin, fəal və təşəbbüskar sədrliyə görə Ukrayna Prezidentinə

bir daha minnətdarlığımı bildirim və Azərbaycan Prezidentini əmin edim ki, Azərbaycanın dolğun və təsirli proqramının uğurla həyata keçirilməsi üçün katibliyin bütün imkanları səfərbər olunacaqdır.

Cənab sədr, çox sağ olun.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN YEKUN NİTQİ

- Çıxışlarınıza görə çox sağ olun. Beləliklə, görüşümüz sona çatır. Mən sonda diskussiyamıza yekun vurmaq istərdim. GUAM zirvə görüşünün belə geniş tərkibdə keçirilməsi faktından bir daha dərin məmnunluğumu ifadə etmək istərdim. Bir daha demək istəyirəm ki, bu, 10 il əvvəl yaradılmış, ancaq indi, deyərdim ki, özünün ikinci həyatını yaşayan təşkilatımız üçün çox vacibdir. O zaman, 1997-ci ildə GUAM-ın üzvü olan ölkələr dövlətçiliyinin ilkin təşəkkül mərhələsini yaşayırdı. Sovet İttifaqının süqutu nəticəsində ölkələrimiz müstəqillik əldə etmişdi. Müstəqilliyin ilk illəri bütün ölkələr üçün həm iqtisadi, həm siyasi baxımdan çox ağır keçirdi. Əlbəttə, Azərbaycanın, Gürcüstanın və Moldovanın məruz qaldığı təcavüz ölkələrimizin vəziyyətini daha da ağırlaşdırmışdı. Bizim müstəqilliyimiz öz əlimizdə idi və bu gün biz fəxrlə deyə bilərik ki, bütün çətinliklərə, bütün maneələrə, bəzən təzyiqlərə ləyaqətlə tab gətirdik. Bu gün demək olar ki, müstəqilliyimizdən 15 il ötəndən sonra biz ayaq üstə möhkəm dayanmış, müstəqil dövlət olmuş, Avropada, dünyada yerimizi və rolumuzu tapmışıq. Əminəm ki, bu gün biz GUAM təşkilatında birləşərək əməkdaşlıq, Avrasiya qitəsində demokratik proseslərin inkişafı, siyasi sistemin təkmilləşdirilməsi və Avropa strukturlarına inteqrasiya işində mühüm rol oynamışıq və bundan sonra da oynayacağıq. Çox sevindirici haldır ki, GUAM-ın əməkdaşlıq formatı genişlənir. Uzun illər boyu ənənəvi olaraq bu, GUAM-ABŞ formatı idi. Biz Amerika Birləşmiş Ştatları hökumətinin təşkilatımızın fəaliyyətinə dəstəyini daim hiss etmişik. Bu gün biz coğrafiyanı genişləndiririk. Artıq qeyd olundu ki, dünən təşkilatın GUAM-Polşa, GUAM-Yaponiya görüşləri kimi yeni formatları keçirilmişdir. Bu, bir tərəfdən Avropa İttifaqı, digər tərəfdən isə dünyanın aparıcı iqtisadiyyatlarından biri, Asiya qitəsidir. Təşkilatımızın coğrafiyası genişlənir. Dost ölkələrin prezidentlərinin və Avropa İttifaqının üzvü olan dövlətlərin rəhbərliyinin iştirakı - bütün bunlar çox mühüm elementlərdir. Öz strukturunu və aparatını bu yaxınlarda formalaşdırmış bir təşkilat üçün bu, çox böyük uğurdur.

Dünən biz GUAM ölkələrinin prezidentləri ilə təşkilatın indiki vəziyyəti, onun gələcəyi barədə fikir mübadiləsi apararkən hamı belə bir ümumi rəy söylədi ki, bizim aramızda nəinki bu təşkilat daxilində heç bir problemimiz yoxdur, əksinə, GUAM-ın üzvü olan ölkələr arasında çox konstruktiv, dostcasına, açıq münasibətlər yaranmışdır. Həm ikitərəfli, həm çoxtərəfli problemlərin, gərginliyin mövcud olduğu müxtəlif beynəlxalq təşkilatlarda buna heç də həmişə rast gəlinmir. Bizim təşkilat bundan azaddır. Bu, çox böyük müsbət haldır. Əminəm ki, belə möhkəm təməl, belə möhkəm zəmin üzərində, belə beynəlxalq dəstəklə biz qarşıya qoyulan məqsədlərə nail ola biləcəyik. Müstəqilliyimizi möhkəmləndirə, iqtisadiyyatı möhkəmləndirə, ölkələrimizin meyarlarını dünyanın inkişaf etmiş ölkələrinin meyarlarına yaxınlaşdıra biləcəyik. İndi biz burada, Qafqazda Avropa İttifaqının Cənubi Qafqaz ölkələri üçün yeni qonşuluq proqramı çərçivəsində fəaliyyət göstəririk. Bu, bizə qarşıdan gələn beş il ərzində bütün istiqamətlərdə –

siyasi islahatlar, demokratik proseslər, sosial məsələlərin həlli, əhalinin rifah halının yüksəldilməsi, yoxsulluğun azaldılması və sair baxımdan meyarlarımızı Avropa İttifaqının meyarlarına yaxınlaşdırmağa imkan verəcəkdir.

Odur ki, bugünkü zirvə görüşünün əhəmiyyəti çox böyükdür. Təşkilatın fəaliyyəti sırf coğrafi çərçivədən artıq çıxmışdır. Dediyimiz kimi, biz Xəzər dənizi, Qara dəniz və Baltik regionunun ciddi, real, siyasi, iqtisadi inteqrasiyası layihələri üzərində işləyirik. Biz həm də Xəzərin o biri tayında, dənizin şərq sahillərində yerləşən ölkələrlə də fəal əməkdaşlıq edirik. Əlbəttə ki, coğrafi cəhət bundan sonra da mühüm rol oynayacaqdır. Energetika, nəqliyyat, siyasi inteqrasiya - bütün bunlar təşkilatı çox dinamik, real edir, onun üçün böyük imkanlar açır. Əlbəttə, biz məqsədlərimizə nail olmaq üçün bütün bunlardan istifadə edəcəyik. Məqsədlərimiz isə sadə və təbiidir. Biz insanların firavan, təhlükəsiz, azad yaşayacağı və azad müstəqil ölkədə həyatın bütün gözəlliklərindən həzz alacağı müasir dövlət qurmaq istəyirik.

Bizim ölkələrimiz - GUAM-ın üzvləri çoxəsrlik tarixi boyu digər dövlətlərin tərkibində olmuşlar. Ona görə də bizim üçün azad, müstəqil olmaq ən yüksək sərvət, ən böyük dəyərdir və biz öz gündəlik fəaliyyətimizlə bunu möhkəmləndirmək üçün hər şeyi etməliyik. Bu gün zirvə görüşünün yekunlarına əsasən, təşkilatın ümumi istiqamətini və gələcək inkişafını, niyyətlərimizi müəyyənləşdirən Bakı Bəyannaməsi qəbul ediləcəkdir. Bu, bizi narahat edən problemlərin dəqiq əksini tapdığı, ümumi yanaşmaların göstərildiyi çox ciddi sənəddir. Əlbəttə, əminəm ki, Bakı Bəyannaməsi və onun siyasi komponenti yaxın il üçün fəaliyyətimizdə çox vacib istiqamət olacaqdır. GUAM-ın sədri olan ölkə kimi Azərbaycan qarşıdakı ildə təşkilatımızı daha da möhkəmləndirməyimiz üçün öz tərəfindən mümkün olan hər şeyi edəcəkdir.

Bu gün bizi narahat edən, bizi yaxınlaşdıran məsələləri müzakirə etdik. Bütün iştirakçıların çıxışlarında gələcəyimizin tam anlaşılması, onu necə görməsi öz əksini tapmışdır. Əlbəttə, qonaqlarımızın, xüsusilə Avropa İttifaqının üzvü olan ölkələrin prezidentlərinin diqqətini həll edilməmiş, "dondurulmuş" münaqişələrə bir daha cəlb etmək istərdim. Onlar "dondurulmuş" adlanır, lakin "dondurulmamışdır". Bu barışıq çox kövrəkdir və istənilən an pozula bilər. Biz bu məsələnin sülh yolu ilə həllinə çalışırıq. Lakin təəssüf ki, separatçı rejimlərin və onların havadarlarının bu münaqişələri həll etmək arzularını görmürük. Əksinə, biz Gürcüstan, Moldova və Azərbaycanın tarixi torpaqlarını zorla qoparmaq və işğal faktını de-yure təsbit etmək cəhdlərini görürük. Ölkələrimiz və xalqlarımız ərazilərimizin bir hissəsinin qoparılması ilə heç vaxt razılaşmayacaqlar. Ölkələrimizin beynəlxalq aləmdə tanınmış sərhədləri heç vaxt dəyişdirilməyəcəkdir. Dünya birliyi Abxaziya, Cənubi Osetiya, Dnestryanı bölgə və Dağlıq Qarabağdakı kriminal rejimləri heç vaxt tanımayacaqdır. Biz konstruktiv yanaşma təklif edirik, dünyadakı müsbət təcrübədən istifadə olunmaqla ən yüksək özünüidarəyə malik muxtariyyət verilməsini, ölkələrimizin iştirak etdiyi inteqrasiya proseslərinə qoşulmağı təklif edirik. Təəssüf ki, biz adekvat reaksiya görmürük. Ona görə də Avropa İttifaqı-Cənubi Qafqaz "Yeni qonşuluq" proqramının həyata keçirilməsində də məhz bu cəhətə diqqəti cəlb etmək çox mühüm olardı. İlk növbədə ona görə ki, bu, ən böyük təhlükədir, Qafqazda qeyri-sabitlik təhlükəsidir. Bu – separatizm, tanınmamış kriminal rejimlər Avropanın bədənində qara ləkələrdir, burada qanunsuz əməliyyatlar aparılır, heç bir beynəlxalq

monitorinq yoxdur, real şəkildə mövcud olan, lakin rəsmən sanki olmayan qanunsuz silahlı qruplaşmalar fəaliyyət göstərirlər.

Bizim çox böyük planlarımız, artıq böyük nəticələrimiz vardır. Biz Avrasiya qitəsi üçün çox mühüm transregional enerji və nəqliyyat layihələri həyata keçiririk. Biz onları təhlükəsizlik şəraitində həyata keçirməliyik. Bu, hər bir dövlətin inkişafının başlıca amilidir. İndiki halda isə təhlükə mövcuddur – separatçı rejimlərdən və onların havadarlarından gələn təhlükə. Ona görə də mən dostlarımıza, tərəfdaşlarımıza müraciət etmək istərdim. Ölkələrimizin ərazi bütövlüyünün bərpa edilməsi məsələsində biz daim onların dəstəyini hiss etmişik. Bir də onunla bağlı müraciət etmək istərdim ki, bu cəhət, bizim bu narahatlığımız nəzərə alınsın və Avropa ölkələri, bizim digər tərəfdaşlarımız bundan sonra da məsələnin həllinə kömək etsinlər, bəlkə də hətta daha cəsarətli, daha birmənalı şəkildə kömək etsinlər. İşğalçı – işğalçı adlandırılmalıdır. İşğalçıya havadarlıq edən ifşa olunmalıdır. Qeyri-qanuni hərəkətlər pislənməlidir. Yalnız bu halda məsələni həll etmək olar, çünki əgər qeyri-qanuni hərəkətə yol verən açıq məzəmmət edilmirsə, pislənmirsə, onda həmin cəzasızlıq digərini doğuracaqdır. Bu, qarşısıalınmaz proses olacaqdır.

Mən zirvə görüşünün bütün iştirakçılarına bir daha təşəkkürümü bildirmək istəyirəm. Çox şadam ki, bu iki gün ərzində Azərbaycan belə mühüm beynəlxalq hadisənin məkanına çevrildi. Dəvəti qəbul edib ölkəmizə gəldiklərinə görə prezident dostlarımın hamısına, bütün qonaqlara təşəkkür etmək istəyirəm. Ümidvaram ki, bu iki gün məsələlərin həlli baxımından, faydalı, habelə, sadəcə, insani ünsiyyət mənasında xoş oldu. Zirvə görüşündə iştirak edən nümayəndə heyətlərinin başçıları ilə bizi çox yaxın, dostluq əlaqələri bağlayır və bunun özü də inteqrasiya proseslərinin inkişafı üçün əhəmiyyətlidir. Ona görə də bir daha hamıya təşəkkür etmək, ən xoş arzularımı bildirmək istəyirəm. Gələcəkdə səmərəli əməkdaşlıq ümidləri ilə diqqətinizə görə təşəkkür edirəm.

GUAM-IN BAKI ZİRVƏ GÖRÜŞÜNDƏ ƏMƏKDAŞLIĞA DAİR SƏNƏDLƏR İMZALANMIŞDIR

İyunun 19-da Demokratiya və İqtisadi İnkişaf Uğrunda Təşkilat – GUAM ölkələri dövlət başçılarının Bakıda keçirilən 2-ci zirvə görüşü çərçivəsində müxtəlif sahələrdə əməkdaşlığa dair bir neçə sənəd imzalanmışdır.

GUAM-ın imtiyazları və immunitetlərinə dair sazişi Azərbaycan, Gürcüstan və Ukraynanın xarici işlər nazirləri Elmar Məmmədyarov, Gela Bejuaşvili, Arseni Yatsenyuk, Moldova adından isə xarici işlər və Avropa inteqrasiyası nazirinin müavini Valeri Ustalov imzaladılar.

GUAM-ın üzvü olan ölkələrin hökumətləri arasında yüklərin beynəlxalq multimodal daşınması haqqında sazişi Ukraynanın xarici işlər naziri Arseni Yatsenyuk, Azərbaycanın nəqliyyat naziri Ziya Məmmədov, Gürcüstanın iqtisadi inkişaf nazirinin müavini Kaxa Damenya və Moldovanın xarici işlər və Avropa inteqrasiyası nazirinin müavini Valeri Ustalov, GUAM ölkələrinin 2007-2010-cu illərdə mədəniyyət sahəsində əməkdaşlığı haqqında protokolu Azərbaycanın mədəniyyət və turizm naziri Əbülfəs Qarayev, Ukraynanın xarici işlər naziri Arseni Yatsenyuk, Gürcüstanın mədəni abidələrin

qorunması və idman naziri Georgi Qabaşvili və Moldovanın xarici işlər və Avropa inteqrasiyası nazirinin müavini Valeri Ustalov imzaladılar.

Azərbaycanın fövqəladə hallar naziri Kəmaləddin Heydərov, Gürcüstanın energetika naziri Nika Gilauri, Ukraynanın xarici işlər naziri Arseni Yatsenyuk, Moldovanın xarici işlər və Avropa inteqrasiyası nazirinin müavini Valeri Ustalov Nüvə və radiasiya təhlükəsizliyi məsələlərində qarşılıqlı yardıma dair memorandumu imzaladılar.

GUAM-IN ÜZVÜ OLAN ÖLKƏLƏRİN DÖVLƏT VƏ HÖKUMƏT BAŞÇILARININ BİRGƏ MƏTBUAT KONFRANSI

İyunun 19-da sənədlərin imzalanmasından sonra "Gülüstan" sarayında GUAM-ın üzvü olan ölkələrin dövlət və hökumət başçılarının birgə mətbuat konfransı keçirilmişdir. Mətbuat konfransında Azərbaycan Prezidenti İlham Əliyev, Ukrayna Prezidenti Viktor Yuşşenko, Gürcüstan Prezidenti Mixail Saakaşvili və Moldovanın Baş naziri Vasile Tarlev iştirak edirdilər.

Azərbaycan Prezidenti İLHAM ƏLİYEV mətbuat konfransında bəyanatla çıxış etmişdir:

-Hörmətli xanımlar və cənablar!

Hörmətli mətbuat nümayəndələri!

GUAM-ın Bakıda keçirilən zirvə görüşü bu gün işini başa çatdırmışdır. Biz dünən və bu gün ərzində görülən işlərin yekunlarından çox razıyıq. GUAM təşkilatı gənc olsa da, çox dinamikdir, çox fəaldır, özünün dirçəliş, mən deyərdim ki, tərəqqi dövrünü yaşayır. Dostlarımızın - Avropa İttifaqının üzvü olan ölkələrin prezidentlərinin və rəhbərlərinin iştirakı təşkilatımızın nüfuzunu artırır.

Təşkilatda çox yaxşı ab-hava, çox yaxşı vəziyyət var, prezidentlər arasında dialoq, şəxsi münasibətlər yüksək səviyyədədir. Biz həm siyasi, həm də iqtisadi müstəvilərdə, həm enerji ehtiyatlarının nəqlinin şaxələndirilməsi baxımından, həm də nəqliyyat məsələlərində əməkdaşlıq edirik. Bizi ərazi bütövlüyünün pozulması ilə əlaqədar ölkələrimizin üzləşdikləri problemlər birləşdirir. Başqa sözlə, ümumi maraqlarımız, ümumi yanaşmalarımız, ümumi baş xəttimiz var. Təbii ki, belə şəraitdə təşkilat dinamik, çox fəal olur və çox mühüm məsələləri həll edə bilər.

Bizim çox yaxşı siyasi niyyətlərimiz, habelə yerinə yetirilməsi ölkələrimizin həm siyasi, həm iqtisadi maraqlarını təmin edən böyük konkret layihələr, proqramlar zərfimiz var.

Mən bilirəm ki, bu gün siz bizim həm salonda keçirilən görüşümüzdə, həm də mətbuat mərkəzində olmusunuz, hamı eşitdi, ona görə də orada baş verənlər barədə danışmağa heç bir ehtiyac yoxdur. Sadəcə olaraq, mən bu mühüm beynəlxalq hadisəyə bir daha öz münasibətimi bildirmək istərdim.

Bu gün GUAM artıq ciddi beynəlxalq təşkilatdır. Düşünürəm ki, o, regional statusdan çıxmışdır, gələcəkdə bütün Avrasiya qitəsində mühüm rol oynayacaq ciddi beynəlxalq quruma çevrilir. Diqqətinizə görə təşəkkür edirəm.

Sonra jurnalistlərin suallarına cavablar verildi.

SUAL: (İnter-TV, Ukrayna). Mənim sualım zirvə görüşünün ev sahibi cənab Əliyevədir. İpək yolunun enerji baxımından bərpası ilə əlaqədar Odessa-Brodı boru kəməri ilə nəqli üçün Azərbaycan neftinin qiyməti razılaşdırılmışdırmı? Əgər razılaşdırılmışsa, bu, hansı məbləğdir? Kəmərin işə düşməsi üçün Azərbaycan neftindən nə zaman istifadə oluna bilər? Qazaxıstan neftindən istifadə etmədən keçinmək mümkün olacaqmı?

İLHAM ƏLİYEV: Qiymətə gəldikdə, onu bazar müəyyənləşdirir. Təbii ki, neft ticarəti ilə bağlı bütün hallarda hamı üçün eyni olan bazar mexanizmi mövcuddur. Şübhəsiz ki, bu məsələ həm bizim ikitərəfli görüşlərimiz çərçivəsində, həm də dünən Polşa-GUAM formatında görüşdə, habelə bu yaxınlarda keçirilən layihənin dəstəklənməsi haqqında siyasi qərarın qəbul olunduğu, dərhal işçi qrupunun yaradıldığı, – həmin işçi qrupu bu ayın əvvəlində ilk işgüzar iclasını keçirmişdir, – Krakov zirvə görüşündə müzakirə edilmişdir. Biz ümid edirik ki, payızda Litvada keçirilməsi planlaşdırılan növbəti zirvə görüşündə gündəliklə bağlı işçi qrupunun konkret tövsiyələrini alacağıq.

Başqa sözlə, biz bu məsələyə əməli baxımdan yanaşmalı və addımları: bir nömrəli addım, iki nömrəli, üç nömrəli addımı müəyyən etməli və onları həyata keçirməliyik.

Bir daha demək istəyirəm ki, ölkələrimizin ciddi siyasi təşəbbüsləri var, mövcud resurslarımız var. Azərbaycan artıq iri neft hasilatçısına çevrilir. Mən bu gün rəqəmləri misal gətirdim. Gələn il hasilat minimum 50 milyon ton olacaq, 2010-cu ilədək, zərurət olarsa, Azərbaycanda neft hasilatını 60 milyon tona çatdırmaq imkanımız vardır. Bakı-Tbilisi-Ceyhan boru kəməri artıq gələn il tam qüvvəsi ilə işləyəcəkdir. Azərbaycan neftini Qara dəniz hövzəsinə nəql edən iki boru kəməri də var, Odessa-Brodı-Qdansk gələcəkdə məhz Qara dənizdən "qidalanacaqdır".

Ehtiyatlara gəldikdə isə, Azərbaycanda onlar kifayət qədərdir. Son məlumatlara görə, "Azəri-Çıraq-Günəşli" yataqlarında 1,2 milyard ton ehtiyat var. Əlbəttə, tələbat olarsa, bizə nə qədər lazımdırsa, o qədər neft hasil edə bilərik.

Üçüncü ölkələrin neftinin Odessa-Brodı layihəsinə cəlb olunmasına gəldikdə isə bu, onların suveren hüququdur. Biz yalnız özümüzün mövcud infrastrukturumuzu təqdim edə bilərik və buna həmişə çox konstruktiv yanaşmışıq. Hazırda Azərbaycanın neft və qaz nəqli üçün infrastrukturu keçmiş sovet məkanında ən müasir infrastrukturdur, çünki bizim neft, qaz kəmərlərimiz bu il və ötən il istifadəyə verilmişdir. Xəzərin şərq sahillərindəki dostlarımızın layihəyə qoşulmaq arzusu olarsa, biz onların istifadə etməsi üçün öz infrastrukturumuzu tam təqdim edə bilərik.

SUAL: (Alaniya TV, Gürcüstan) GUAM beynəlxalq təşkilatından münaqişələrin həlli mexanizmi kimi necə istifadə oluna bilər? Sual bütün prezidentlərədir.

İLHAM ƏLİYEV: Münaqişələrin həlli regionumuzda uzunmüddətli təhlükəsizlik sistemi yaradılmasının ən mühüm elementidir. Bunlar süni şəkildə yaradılmış münaqişələr, süni şəkildə yaradılmış qurumlardır. Bu gün biz bu barədə yetərincə ətraflı danışdıq, mən təkrar etmək istəmirəm. Nizamasalma mexanizmləri yalnız və yalnız beynəlxalq hüquq normalarına əsaslanmalıdır. Heç bir digər yanaşma ola bilməz. Əgər bu, baş verərsə, hər yerdə zəncirvari reaksiyaya səbəb olacaqdır. Bütün dünyada qəbul edilən əra-

zi bütövlüyü məsələsinə məxsusi yanaşma ola bilməz. Gürcüstanın, Moldovanın və Azərbaycanın ərazi bütövlüyü bütün dünya birliyi tərəfindən tanınmışdır.

Biz BMT-yə ərazi bütövlüyünə malik dövlətlər kimi daxil olmuşuq. O separatçı hərəkatlar ki, mövcud idi, onlar heç kim tərəfindən tanınmamışdır və heç vaxt heç kim tərəfindən tanınmayacaqdır. Mən tez-tez deyirəm ki, ölkələrimizin ən çox iqtisadi və siyasi çətinliklərlə üzləşdiyi dövrdə əgər bu qeyri-leqal, kriminal rejimlərin müstəqilliyi tanınmadısa, onlar indən belə, ölkələrimizin artıq sabit inkişaf yoluna çıxdığı və bütün Avrasiya məkanında çox mühüm rol oynadığı bir vaxtda da heç zaman tanınmayacaqdır.

Təşkilat kimi GUAM-ın nizamasalma mexanizmi yoxdur. Lakin GUAM getdikcə böyük siyasi nüfuz qazanan təşkilatdır, bu məsələdə, ölkələrimizin ərazi bütövlüyünün bərpası məsələsində, onların işğalına son qoyulması və separatizmin kökünün kəsilməsində dəqiq mövqeyi var, yəni ölkələrimizdəki bütün milli azlıqlar, – bizim ölkələr isə çoxmillətlidir, – sülh, əmin-amanlıq şəraitində Avropada və bütün dünyada mövcud olan normal təcrübə, muxtariyyət təcrübəsi çərçivəsində yaşasınlar. Bu, məsələnin yeganə həlli ola bilər.

Buna görə indiki halda GUAM-ın rolu bu təşkilatın, şübhəsiz ki, artan siyasi nüfuzu, habelə iqtisadiyyatımızın yüksəlişi ilə müəyyən edilir. Biz isə təşkilatımız çərçivəsində həm iqtisadi, həm enerji baxımından çox fəal inteqrasiya edirik, əmtəə dövriyyəsi, potensial artır. Biz nə qədər güclü olsaq, qanunsuz, kriminal separatçı rejimlərin öhdəsindən bir o qədər asan gələrik.

VİKTOR YUŞŞENKO: Əlavə etmək istəyərdim. Ümumiyyətlə, söhbətin Dnestryanı bölgə, yaxud Dağlıq Qarabağ və ya Cənubi Osetiya münaqişəsindən getməsindən asılı olmayaraq, münaqişənin həlli formulu beynəlxalq hüquq çərçivəsindədir. Hər şeydən əvvəl, bu, ərazi bütövlüyünün tanınmasıdır. Bu prinsiplə bağlı diskussiya yoxdur. Geniş muxtariyyət. Bu prinsiplə də bağlı diskussiya yoxdur. Buna bənzər münaqişələrin həllində beynəlxalq hüquq, beynəlxalq ənənə bu prinsiplərdən ibarətdir. Başqa alternativ olmayacaqdır. Əlbəttə, GUAM ölkələrinə aid olan bu üç münaqişənin həllində bu yolla gediləcəkdir.

Bu prinsipin mümkün qədər tez başa düşülməsini və hər bir konkret halda lazımi qədər dərindən həyata keçirilməsini təmin etmək üçün əsas yaradan siyasi komponentin olması çox zəruridir. Fikrimcə, burada bir faktor kimi, siyasi dialoqun, siyasi komponentin rolu, – o cümlədən də GUAM çərçivəsində, - çox böyükdür. Bizim bu gün və hər bir zirvə görüşündə bu problemlə məşğul olmağımız bir daha onu göstərir ki, biz bütün münaqişə tərəflərinə, ictimaiyyətə problemin həllinin yeganə mümkün yolu barədə dolğun bilgilər verməliyik. Qoy, heç kim məsələnin digər üsullarla, hansısa model əsasında həll edilməsi barədə fərsiz ideyalarla yaşamasın. Ona görə mən bu planda apardığımız siyasi dialoqu yüksək dəyərləndirirəm. Biz bu dialoqu aparırıq, o cümlədən vasitələr axtarılması səviyyəsində. Məsələn, söhbətlərin mövzularından biri GUAM ölkələrinin sülhməramlı taburunun formalaşdırılması barədə idi. Heç şübhəsiz, əgər buna müvafiq dəstək olarsa, əgər belə siyasi qərar qəbul edilərsə, əgər bizim diskussiya müsbət nəticələnərsə, bu qüvvələr ya ATƏT-in yaxud da Birləşmiş Millətlər Təşkilatının mandatı çərçivəsində fəaliyyət göstərəcəkdir.

Biz məsələnin həllinin başqa yollarını da axtaracağıq. Lakin mən Ukrayna adından həm

dostlarımıza, həm də GUAM-ın üzvü olan dost dövlətlərə demək istəyirəm ki, bu, GUAM-ın inkişaf strategiyasında bizim üçün ən vacib məsələlərdən biridir. Əlbəttə ki, bu gün "dondurulmuş" adlandırdığımız münaqişələrdə sabitlik üçün böyük təhlükə vardır. Ona görə də bu, mahiyyət etibarilə bir nömrəli, ən vacib məsələ kimi həmişə GUAM-ın gündəliyində olacaqdır.

VASİLE TARLEV: Mən təsdiqləmək istəyirəm ki, GUAM-ın üzvü olan dövlətlər arasında heç bir fikir ayrılığı yoxdur. GUAM çərçivəsində müzakirə olunan bütün məsələlərdə bizdə yekdillik vardır. Bizim vahid məqsədimiz və məsələlərin həlli üçün, o cümlədən "dondurulmuş" münaqişələr üzrə vahid reseptimiz vardır. Mən təəssüf edirəm ki, Moldova da "dondurulmuş" adlanan münaqişələrin mövcud olduğu ölkələrin siyahısındadır. Tanrı heç kimə ərazisində belə münaqişələrin olmasını göstərməsin. Bunlar süni surətdə yaradılmış, xaricdən dəstəklənən münaqişələrdir. Yaxşıdır ki, indi bütün dünya terrorçuluqla mübarizə aparır. Əgər biz terrorçuluğun, – onun növlərindən biri də separatçılıqdır, – maliyyə mənbələri ilə mübarizə aparmasaq, bu yolda çox şeyə nail ola bilməyəcəyik. Bunlar "qara ləkələr", bütün ölkələrin, o cümlədən də Avropanın bədənində olan yaralardır və düşünürəm ki, bu mənada GUAM-ın da təsir göstərmək imkanları vardır.

İlk nəticə budur ki, biz "dondurulmuş" münaqişələr məsələsinin Birləşmiş Millətlər Təşkilatının gündəliyinə salınmasına nail olmuşuq. İkincisi – GUAM ciddi beynəlxalq təşkilata çevrilir, tərəfdaşlarımız ildən-ilə artır. Məhz münaqişələrin beynəlmiləlləşməsi insanlara kömək edir ki, söhbətin nədən getdiyini və bu problemlərin necə həll edilməli olduğunu başa düşsünlər. Biz "dondurulmuş" münaqişələrin həll olunmasının tərəfdarıyıq, lakin dialoq yolu ilə, sülh yolu ilə. Əminəm, hamı başa düşəcək ki, gec-tez bu məsələ həll olunacaqdır. Nə qədər tez olsa, bir o qədər yaxşıdır.

MİXAİL SAAKAŞVİLİ: Mən, sözsüz ki, dostlarımızın bütün dedikləri ilə razıyam. Sadəcə olaraq, demək istəyirəm ki, indi bu dörd xitabət kürsüsündə təmsil edilən ölkələrin hamısı, habelə Avropa İttifaqının üzv ölkələrindən olan dostlarımız - hamımız birlikdə 60 milyon insanı digər müttəfiqlərimiz və dostlarımızla birlikdə isə 130-140 milyondan artıq insanı təmsil edirik. Bu dörd ölkə prinsip etibarilə bizim hamımızın əlaqələndirdiyi siyasi, iqtisadi, hərbi və digər potensialına görə olduqca böyük qüvvədir. Sərhədlərlə oynamaq lazım deyildir, illüziyalarla oynamaq lazım deyil, insanları aldatmaq lazım deyildir.

Cənubi Osetiya televiziyası tərəfindən konkret sual verildi. Bu gün yalnız tamamilə axmaq bir adam inana bilər və tamamilə vicdansız bir adam insanlara sübut etməyə çalışar ki, Cənubi Osetiyanı götürüb başqa bir yerə aparmaq olar. Bu, min illər boyu olmayıb və heç vaxt da olmayacaqdır. Onlar, bizim insanlar, bizim vətəndaşlardır. Biz onları sevirik və son min illərdə olduğu kimi, gələcək min illərdə də onlarla sülh və dostluq şəraitində yaşamağa ümid bəsləyirik. Hazırda Gürcüstan çox dinamik inkişaf edir. Biz az qala Sxinvaliyə qədər avtoban tikirik. Çox yaxşı yolla 50 dəqiqəyə Sxinvalidən Tbilisiyə gəlib çatmaq mümkün olacaqdır. Gürcüstanda yüksək iqtisadi artım vardır. Osetinlər çox gözəl gördülər ki, onlar gürcü dövlət hakimiyyətinin bütün səviyyələrində təmsil ediliblər, onları hər yerdə alqışlayırlar, kiçik vəzifələrdən başlayaraq bütün yollar üzlərinə açıqdır. Bəziləri sübut etməyə çalışırlar ki, indi Gürcüstan Prezidenti osetindir. Mən bu-

na etiraz etmirəm, soyad bəlkə də osetin soyadıdır. Ona görə də bütün yollar onlar üçün açıqdır. Hesab edirəm ki, bu çox qısa zamanın məsələsidir. Saniyəölçən hamı üçün qoşulubdur. Biz bu məsələni həll edəcəyik. Orada heç bir "dondurulmuş" münaqişə yoxdur. Düzünü desək, orada insanlar arasında heç bir münaqişə yoxdur və demək olar ki, heç vaxt olmayıbdır. Kriminal keçmişi və kriminal indisi olan bir neçə həddini aşmış konkret yerli adamın cəzalandırılmalı konkret cinayət əməlləri vardır.

Yoldaş Kokoyevə xəbərdarlıq etmək istəyirəm. Onun orada vaxtı bitir. Biz Dmitri Sanakoyev hökuməti ilə muxtariyyət və müvəqqəti administrasiya haqqında danışıqlara başlayırıq. Biz osetinlərə Gürcüstanda bütün vaxtlarda arzu etdikləri hər şeyi verəcəyik. Bu yaxın bir neçə ayın məsələsidir. O zaman bu məsələ bitəcəkdir.

Bu məsələni sülh yolu ilə və tezliklə həll etmək üçün Gürcüstanın bütün imkanları vardır. Bunu sonsuzluğa qədər təxirə salmaq fikrimiz yoxdur, çünki hər bir səbrin hüdudu vardır. Biz osetinləri sevirik. İnteqrasiya prosesini uzun müddət və böyük səbrlə keçirməyə həmişə hazırıq. Orada hökumət işləməyə başlayıbdır. Hamı görməlidir ki, etnik gürcülər, – halbuki, artıq dediyim kimi, bunun mənim üçün sırf şərti mənası var,- hələ dünən onlara güllə atan insanlara səs veriblər. Bu dəqiq sübut edir ki, eyni cəmiyyətdə birlikdə yaşamaq və birlikdə inteqrasiya olunmaq problemi qətiyyən yoxdur. Biz bunu bütün dünyaya göstəririk.

Stereotiplərlə düşünmək lazım deyildir. Gürcüstan və bizim vətəndaşlar, etnik osetinlər, – onlar bizim vətəndaşlardır, bizim kimi gürcülərdir, – hamıya sübut edəcək ki, münaqişəni necə həll etmək lazımdır. Düşünürəm ki, bu, burada təmsil edilən bütün ölkələr üçün yaxşı nümunə olacaqdır.

SUAL: (Moldova TV) Sual Moldovanın Baş nazirinədir. Cənab Tarlev, yaxın vaxtlarda Moldova GUAM-ın hansı birgə iqtisadi və enerji layihələrində bilavasitə iştirak edəcəkdir?

VASİLE TARLEV: Suala görə sağ olun. Qısa desək, bütün layihələrdə. Konkret olaraq isə, biz Nabukko qaz kəmərinin tikintisində və Odessa-Brodı neft kəmərinin isifadəyə verilməsində maraqlıyıq. Biz elektrik enerjisinin tranzit idxalına və təkrar ixracına, habelə bəzi başqa layihələrə maraq göstəririk. Enerji təhlükəsizliyi bütün dövlətlərin, o cümlədən də Moldovanın suverenliyinin, müstəqilliyinin və ərazi bütövlüyünün çox mühüm elementidir.

SUAL: (Space TV, Azərbaycan) Sual Ukrayna Prezidenti cənab Viktor Yuşşenkoyadır. Bakı-Tbilisi-Qars dəmir yolu layihəsinin həyata keçirilməsi bütun GUAM ölkələri arasında iqtisadi əlaqələrin genişlənməsinə necə kömək edə bilər? Eyni zamanda, Ukrayna bu layihədən hansı konkret fayda əldə edə bilər?

VİKTOR YUŞŞENKO: GUAM çərçivəsində biz bunu əsas tuturuq ki, yaxın vaxtlarda bu təşkilatın himayəsi altında bir sıra original layihələrin, o cümlədən sizin indicə dediyiniz layihənin həyata keçirilməsi təmin olunacaqdır. Biz bunu əsas tuturuq ki, Ukraynanın imkanlarından istifadə etməyə, onları reallaşdırmağa imkan verən digər layihələr kimi, Gürcüstan, Türkiyə istiqamətində dəmir yolu layihəsi də Ukrayna üçün maraqlıdır. Hər şeydən əvvəl, tikinti üzrə, bu layihələrin həyata keçirilməsində lazım olan avadanlıq, metal və digər malların təchiz edilməsi baxımından.

Daha sonra biz bu layihələrin bir hissəsinin inkişafını onların bərə vasitəsilə Kerçə qədər davam etdirilməsində görürük. Beləliklə, regionumuzda yeni nəqliyyat alternativi yaratmaq olar. Qeyd etmək vacibdir ki, hazırda bu məsələ artıq kifayət qədər dərindən işlənmişdir. Qafqazın dəmir yol layihələrinin genişlənməsinə xidmət edən bərə keçidinin bir hissəsinin tikilməsini təmin edən işçi qrup yaradılmışdır. Ümid edirik ki, 2008-ci ildə regionun nəqliyyat imkanlarının kompleks şəkildə istifadəsini təmin edəcək ikinci bərə xəttini işə salacağıq.

ZİRVƏ GÖRÜŞÜ İŞTİRAKÇILARININ ŞƏRƏFİNƏ

İyunun 18-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin adından GUAM dövlət başçıları zirvə görüşü iştirakçılarının şərəfinə ziyafət verilmişdir.

Ziyafətdə çıxış edən Prezident İlham Əliyev dövlət başçılarını və digər qonaqları salamlayaraq, onlara zirvə görüşündə iştirak etmək barədə dəvəti qəbul etdiklərinə və Azərbaycan paytaxtına gəldiklərinə görə minnətdarlığını bildirdi. Azərbaycan Prezidenti GUAM çərçivəsində əməkdaşlığın, inteqrasiya proseslərinin vacibliyini vurğuladı, zirvə görüşündə təmsil olunan ölkələrin xalqlarına sülh, tərəqqi və firavanlıq arzuladı

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV ÜMUMRUSİYA DÖVLƏT TELERADİO ŞİRKƏTİNİN BAŞ DİREKTORU OLEQ DOBRODEYEVİ QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyunun 20-də Prezident sarayında Ümumrusiya Dövlət Televiziya və Radio Verilişləri Şirkətinin baş direktoru Oleq Dobrodeyevi qəbul etmişdir.

Oleq Dobrodeyev Bakıya səfərində ilk olaraq, Azərbaycanın ümummilli lideri Heydər Əliyevin və akademik Zərifə xanım Əliyevanın məzarlarını ziyarət etdiyini dedi. O, ölkəmizə səfəri zamanı böyük inkişafın, genişmiqyaslı tikinti və quruculuq işlərinin şahidi olduğunu bildirdi. Qonaq həmçinin ölkəmizdə rus dilinə hörmətlə yanaşıldığını da məmnunluqla qeyd etdi.

Azərbaycanın sürətli iqtisadi inkişafından danışan dövlətimizin başçısı ölkəmizdə müasir tikintilərlə yanaşı, tarixi memarlıq abidələrinin də əsaslı bərpa və təmir olunduğunu bildirdi. Prezident İlham Əliyev Azərbaycanda mədəniyyətin və informasiya texnologiyalarının inkişafına böyük diqqət göstərildiyini vurğuladı.

Oleq Dobrodeyev rəhbərlik etdiyi şirkətin ümummilli lider Heydər Əliyev haqqında indiyədək yayımladığı filmlərin videoyazılarını Prezident İlham Əliyevə təqdim etdi.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV AMERİKA BİRLƏŞMİŞ ŞTATLARININ LOS-ANCELES DAİRƏSİNİN ŞERİFİ LEROY BAKANI QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyunun 20-də Prezident sarayında Amerika Birləşmiş Ştatlarının Los-Anceles dairəsinin şerifi Leroy Bakanı qəbul etmişdir.

Görüşdə Azərbaycanla Amerika Birləşmiş Ştatlarının müxtəlif regionları, habelə Kaliforniyanın hüquq mühafizə orqanları arasında əməkdaşlığın genişləndirilməsinin vacibliyi vurğulandı.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV GÜRCÜSTANIN KVEMO-KARTLİ REGİONUNUN QUBERNATORU ZURAB MELİKİŞVİLİNİN RƏHBƏRLİK ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİNİ QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyunun 21-də Prezident sarayında Gürcüstanın Kvemo-Kartli regionunun qubernatoru Zurab Melikişvilinin rəhbərlik etdiyi nümayəndə heyətini qəbul etmişdir.

Görüşdə Azərbaycan ilə Gürcüstan arasında münasibətlərin bütün sahələrdə uğurla inkişaf etdiyi vurğulandı, iki ölkənin müxtəlif regionlarının əməkdaşlığının əlaqələrimizin daha da genişləndirilməsinə öz töhfəsini verdiyi bildirildi və bu səfərin münasibətlərimizin bundan sonra da inkişafına xidmət göstərəcəyinə əminlik ifadə olundu.

AZƏRBAYCANIN XARİCİ İŞLƏR NAZİRİ İRAN PARLAMENTİNİN SƏDRİ İLƏ GÖRÜŞMÜŞDÜR

İranın İslam Şurası Məclisinin sədri Qulaməli Həddad Adel iyunun 21-də Tehranda səfərdə olan Azərbaycanın xarici işlər naziri Elmar Məmmədyarovun başçılıq etdiyi nümayəndə heyəti ilə görüşmüşdür.

Azərbaycanın nümayəndə heyətini səmimiyyətlə salamlayan Qulaməli Həddad Adel demişdir ki, İran Dağlıq Qarabağ münaqişəsinin Azərbycanın ərazi bütövlüyü çərçivəsində həllinin tərəfdarıdır və ölkələrimiz arasında münasibətlərin daha da inkişafında maraqlıdır. Parlamentin sədri azərbaycanlı həmkarı Oqtay Əsədovun dəvəti ilə ölkəmizə səfər edəcəyini bildirmişdir.

E.Məmmədyarov dövlətlərimiz arasında heç bir siyasi problemin olmadığını diqqətə çatdıraraq demişdir ki, regionda sülhün və əmin-amanlığın tərəfdarı olan Azərbaycanın qanunları ölkə ərazisində digər bir dövlətin hərbi qüvvələrinin yerləşdirilməsini qadağan edir. Azərbaycan öz ərazisindən üçüncü dövlətə qarşı istifadə edilməsinə heç vaxt imkan verməyəcək.

Azərbaycanın İrandakı səfiri Abbasəli Həsənovun və digər rəsmi şəxslərin iştirak etdikləri görüşdə qarşılıqlı maraq doğuran məsələlər müzakirə edilmişdir.

İRAN PREZİDENTİ AZƏRBAYCANIN XARİCİ İŞLƏR NAZİRİNİ QƏBUL ETMİŞDİR

İran İslam Respublikasının Prezidenti Mahmud Əhmədinejad iyunun 21-də Tehranda səfərdə olan Azərbaycanın xarici işlər naziri Elmar Məmmədyarovun başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.

Xəzəryanı ölkələrin xarici işlər nazirlərinin Tehran toplantısında iştirak edən nümayəndə heyətini səmimi salamlayan Prezident Mahmud Əhmədinejad Azərbaycan xalqına sülh, əmin-amanlıq və rifah arzulamışdır.

E.Məmmədyarov iki gün ərzində İran rəsmiləri ilə keçirilmiş ikitərəfli görüşlərin faydalı və səmərəli olduğunu qeyd etmiş, həmin görüşlərdə ölkələrimiz arasında münasibətlərin inkişaf perspektivlərinin müzakirə olunduğunu vurğulamışdır.

Görüşdə Azərbaycan Respublikasının İİR-dəki səfiri Abbasəli Həsənov iştirak etmişdir.

İRAN ERMƏNİSTAN-AZƏRBAYCAN, DAĞLIQ QARABAĞ MÜNAQİŞƏSİNİN AZƏRBAYCANIN ƏRAZİ BÜTÖVLÜYÜ ÇƏRÇİVƏSİNDƏ HƏLLİNİ DƏSTƏKLƏYİR

Azərbaycanın xarici işlər naziri Elmar Məmmədyarov Tehranda səfərdə olarkən iranlı həmkarı Məniçehr Mottəki ilə görüşmüşdür.

Görüşdə ikitərəfli, regional və beynəlxalq məsələlər muzakirə olunmuş, ölkələrimizin münasibətlərinin daha yüksək səviyyəyə qaldırılmasına dair fikir mübadiləsi aparılmışdır.

Tərəflər diqqəti ikitərəfli iqtisadi əməkdaşlığın genişləndirilməsinə yönəltmiş, bir sıra birgə layihələr haqqında danışmışlar.

Nazirlər nəqliyyat sahəsində əməkdaşlıq perspektivlərini müzakirə edərək, xüsusi ilə Orta Asiya ölkələrində çıxarılan təbii qazın İran vasitəsi ilə Azərbaycana nəql olunması, İranın Bakı-Tbilisi-Ceyhan kəmərinə qoşulma imkanları, Şimal-Cənub nəqliyyat dəhlizi, Naxçıvan-Biləsuvar, Culfa-Culfa və Astara-Astara layihələri haqqında fikir mübadiləsi aparmışlar.

Regional məsələlərə toxunan nazirlər bölgədə sülhün və sabitliyin bərqərar olunmasının vacibliyini qeyd etmişlər.

M.Mottəki E.Məmmədyarovun Qəbələ RLS ilə bağlı Rusiyanın təşəbbüsünə dair mövqeyi ilə maraqlanmışdır. Azərbaycan rəsmisi demişdir ki, Qəbələ RLS Azərbaycanın mülkiyyətidir və yalnız Azərbaycanın razılığı olduğu təqdirdə hansısa ölkənin istifadəsinə verilə bilər. O vurğulamışdır ki, Qəbələ RLS ilə bağlı Azərbaycan-Rusiya-ABŞ əməkdaşlığı baş tutsa bu, region üçün sabitlik amili ola bilər.

Nazir E.Məmmədyarov Ermənistanın Azərbaycan ərazilərini işğal etməsi barədə geniş söhbət açmış, bunun regional sabitlik üçün ciddi təhlükə olduğunu vurğulamışdır. O, iranlı həmkarını münaqişənin həllinə dair aparılan danışıqlar prosesi haqqında məlumatlandırmışdır.

M.Mottəki demişdir ki, onun ölkəsi Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin Azərbaycanın ərazi bütövlüyü çərçivəsində həllini dəstəkləyir.

İran rəsmisi Əfqanıstan və İraqdakı vəziyyət haqqında söhbət açmışdır. Nazirlər, həmçinin Yaxın Şərqdəki vəziyyəti və Fələstindəki son hadisələri müzakirə etmişlər.

İran diplomatı E.Məmmədyarovun İslam Konfransı Təşkilatı Xarici İşlər Nazirləri Şurasında sədr kimi fəaliyyətini yüksək qiymətləndirmişdir.

Görüşdən sonra nazirlər mətbuat konfransı keçirmişlər.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV ABŞ-IN KEMBRİC ENERJİ TƏDQİQAT ASSOSİASİYASININ SƏDRİ DENİEL YERGİNİN RƏHBƏRLİK ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİNİ QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyunun 22-də Prezident sarayında ABŞ-ın Kembric Enerji Tədqiqat Assosiasiyasının sədri Deniel Yerginin rəhbərlik etdiyi nümayəndə heyətini qəbul etmişdir.

Dövlətimizin başçısı Deniel Yergin ilə bu ilin əvvəlində Davosda keçirdiyi görüşü xatırladı. Son illər ərzində Azərbaycanda siyasi, iqtisadi və digər sahələrdə böyük inkişafın olduğunu qeyd edən Prezident İlham Əliyev bu səfərin ölkəmizlə daha yaxından tanışlıq üçün yaxşı imkan yaradacağına əminliyini söylədi.

Deniel Yergin Azərbaycana ilk dəfə səfər etdiyini və bundan dərin məmnunluq hissi keçirdiyini dedi. O, Azərbaycanın rolunun dünyada getdikcə artdığını vurğuladı. Səfəri çərçivəsində dünyanın ən nəhəng neft terminallarından olan Səngəçal terminalına baş çəkdiyini deyən qonaq Bakı-Tbilisi-Ceyhan kimi mühüm enerji layihəsinin başlanğıc məntəqəsini görməyin dərin təəssürat doğurduğunu bildirdi.

"BİR SƏFİRİN MANİFESTİ" – DİPLOMAT HAFİZ PAŞAYEVİN BAKI SLAVYAN UNİVERSİTETİNDƏ TƏQDİM OLUNAN YENİ KİTABI BELƏ ADLANIR

İyunun 22-də Bakı Slavyan Universitetində Azərbaycanın xarici işlər nazirinin müavini, Diplomatik Akademiyanın rektoru professor Hafiz Paşayevin "Bir səfirin manifesti" kitabının təqdimat mərasimi keçirilmişdir.

Universitetin rektoru, AMEA-nın müxbir üzvü professor Kamal Abdullayev mərasimi açaraq, diplomat Hafiz Paşayevin yeni əsərinin ictimai-siyasi əhəmiyyətindən danışmış, onu mühüm tədqiqat işi adlandırmışdır. "Bu kitab Azərbaycanı dünyaya bir az da yaxınlaşdırır", – deyən K.Abdullayev qeyd etmişdir ki, "Bir səfirin manifesti" Azərbaycan diplomatiyasının ilk kövrək addımlarının əks-sədasıdır. Əsərin dil və üslub xüsusiyyətlərinə nəzər salan rektor, H.Paşayevin yazı tərzini görkəmli yazıçı və alim Mir Cəlalın üslubu ilə müqayisə etmiş və yenicə çapdan çıxmış nəşrin diplomatların stolüstü kitabına çevriləcəyinə əminliyini vurğulamışdır.

Universitetin rus ədəbiyyatı və tədrisi metodikası kafedrasının müdiri professor M.Qocayev "Bir səfirin manifesti"nin uzun illərin müşahidəsi və təcrübəsi əsasında meydana gəldiyini söyləyərək demişdir ki, 14 il xaricdə fəal diplomat işi ilə məşğul olan müəllif yeni əsərində zəmanəmizin siyasi ab-havasını məharətlə qələmə almışdır. Uzun müddət ABŞ-da Azərbaycanın səlahiyyətli və fövqəladə səfiri işləmiş müəllifin ixtisasca fizik olduğunu xatırladan natiq, H.Paşayevin yeni əsərində həm fizik, həm diplomat, həm də yazıçı üslubunun vəhdətini xüsusi qeyd etmişdir. Ali məktəbin beynəlxalq münasibətlər fakültəsinin IV kurs tələbəsi İ.Əmirov əsərdə müəllifin səmimiyyətini, müstəqillik illərində ölkəmizin diplomatiyasını xüsusi baxış bucağından işıqlandırdığını qeyd edərək, əsərin təkcə peşəkar diplomatlarda deyil, həm də geniş oxucu kütləsində ciddi maraq doğuracağını vurğulamışdır.

BSU-nun beynəlxalq əlaqələr üzrə prorektoru S.Qafarova, avropaşünaslıq kafedrasının müdiri professor E.Nəcəfov, beynəlxalq münasibətlər kafedrasının müdiri dosent O.Əliyev və filologiya fakültəsinin III kurs tələbəsi S.Hüseynov "Bir səfirin manifesti" kitabının elmi-praktik əhəmiyyətindən, hətta bir dərslik kimi istifadəsinin vacibliyindən danışmışlar.

Universitetdə fəaliyyət göstərən mərkəzlər haqqında məlumat verən rektor Kamal Abdullayev, BSU-nun əməkdaşlıq etdiyi xarici ölkələrin ali məktəblərində Azərbaycanşünaslıq ixtisasının açılması ilə bağlı müəyyən perspektivlərin olduğunu söyləmiş və H.Paşayevə yeni kitabından həmin mərkəzlərdə tədris vəsaiti kimi istifadəsi üçün əsərin yunan, polyak və s. dillərə tərcümə olunmasını təklif etmişdir.

Sonda xarici işlər nazirinin müavini, Diplomatik Akademiyanın rektoru Hafiz Paşayev "Bir səfirin manifesti"nin yaranmasının tarixindən söhbət açaraq, ilk sənədli əsərinin "Yoxuşla mübarizə" adı altında Nyu-Yorkda çap edildiyini söyləmişdir. Müəllif həmin əsərinin sırf işgüzar sənədlər əsasında yazıldığını, "Bir səfirin manifesti" kitabında isə real faktlarla yanaşı, öz daxili hissləri və düşüncələrinin də əks olunduğunu bildirmişdir. Sonra o, auditoriyanın çoxsaylı suallarına cavab vermişdir.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV İSTANBULA GƏLMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Qara Dəniz İqtisadi Əməkdaşlıq Təşkilatına üzv ölkələrin dövlət başçılarının XV zirvə görüşündə iştirak etmək üçün iyunun 24-də İstanbula gəlmişdir.

Atatürk beynəlxalq hava limanında dövlətimizin başçısını İstanbul valisi Müəmmər Gülər, şəhər bələdiyyəsinin başqanı Qədir Topbaş və digər rəsmi şəxslər qarşılamışlar.

QARA DƏNİZ İQTİSADİ ƏMƏKDAŞLIQ TƏŞKİLATININ ZİRVƏ GÖRÜŞÜ

İyunun 25-də İstanbulun Çırağan sarayında Qara Dəniz İqtisadi Əməkdaşlıq Təşkilatına (QİƏT) üzv olan ölkələrin dövlət və hökumət başçılarının qurumun 15 illiyinə həsr edilmiş zirvə görüşü keçirilmişdir.

Zirvə görüşündə təşkilatın üzvü olan 12 ölkənin və müşahidəçi statusuna malik 13 ölkənin təmsilçiləri – Azərbaycan Prezidenti İlham Əliyev, Türkiyə Prezidenti Əhməd Necdət Sezər, Rusiya Prezidenti Vladimir Putin, Ukrayna Prezidenti Viktor Yuşşenko, Rumıniya Prezidenti Trayan Besesku, Moldova Prezidenti Vladimir Voronin, Bolqarıstan Prezidenti Georgi Pırvanov, Serbiya Prezidenti Boris Tadiç, Gürcüstan Prezidenti Mixail Saakaşvili, Yunanıstanın Baş naziri Konstantinos Karamanlis, Albaniyanın Baş naziri Sali Berişa, Slovakiyanın, Ermənistanın xarici işlər nazirləri, habelə ABŞ-ın, BMT-nin, Avropa İttifaqının, ATƏT-in, Dünya Bankının, Dünya Ticarət Təşkilatının nümayəndələri iştirak edirdilər.

Zirvə görüşünü Türkiyənin və xarici ölkələrin 489 mətbuat nümayəndəsi işıqlandırırdı.

Xatırladaq ki, mənzil qərargahı İstanbulda yerləşən QİƏT 1992-ci ilin iyulunda yaradılmışdır. QİƏT-in inkişaf strategiyası 1995-ci ilin iyununda Buxarestdə və 1998-ci ilin

iyununda Yaltada keçirilən zirvə görüşlərində müəyyənləşdirilmişdir. Yaltada təşkilatın nizamnaməsi qəbul olunmuşdur.

Təşkilata sədrlik ildə iki dəfə rotasiya yolu ilə dəyişir. Bu ilin mayından oktyabrınadək QİƏT-in sədri Türkiyədir.

Türkiyə Prezidenti Əhməd Necdət Sezər zirvə görüşünü açaraq iştirakçıları salamladı, QİƏT-in ötən 15 ildə keçdiyi yolu xatırlatdı. O, təşkilatın məram və məqsədlərinə uyğun fəaliyyət göstərdiyini, əsas məqsədin iqtisadi işbirliyinin genişləndirilməsi, üzv ölkələr arasında dialoqun gücləndirilməsi, bölgədə təhlükəsizliyin və sabitliyin qorunması, habelə azad bazar iqtisadiyyatına keçən ölkələri dəstəkləmək olduğunu bildirdi.

Azərbaycan Prezidenti İlham Əliyev zirvə görüşündə çıxış etdi.

QARA DƏNİZ İQTİSADİ ƏMƏKDAŞLIQ TƏŞKİLATININ ÜZVÜ OLAN ÖLKƏLƏRİN DÖVLƏT VƏ HÖKUMƏT BAŞÇILARININ ZİRVƏ GÖRÜŞÜNDƏ AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN ÇIXIŞI

- Xanımlar və cənablar!

İlk növbədə, mən istərdim ki, zirvə görüşünün yüksək səviyyədə təşkil olunmasına və bizə göstərilən qonaqpərvərliyə görə Türkiyə dövlətinə və şəxsən Türkiyə Cümhurbaşqanı Əhməd Necdət Sezərə dərin minnətdarlığımı bildirim. 15 ildir ki, biz bir təşkilatda fəaliyyət göstəririk. Təşkilatın bu 15 il ərzindəki fəaliyyəti çox müsbətdir. Bu illər ərzində ölkələrimiz bir-biri ilə sıx əməkdaşlıq etməyə başlamışdır və bu əməkdaşlığın praktik nəticələri də görünməkdədir. 15 il bundan əvvəl təşkilata üzv olan ölkələrin yarısı cəmi bir ildən az bir müddətdə müstəqil ölkələr kimi yaşayırdı, o cümlədən Azərbaycan da.

Sovet İttifaqının dağılması nəticəsində müstəqillik əldə etmiş Azərbaycan cəmi bir neçə ay idi müstəqil ölkə kimi yaşayırdı. Əlbəttə ki, o illərlə bugünkü vəziyyət arasında çox böyük fərq var. Bu illər ərzində ölkəmiz çətin, ancaq şərəfli yol keçmişdir. Demək olar ki, 1990-cı illərin ortalarında üzləşdiyimiz problemlərin tam əksəriyyəti artıq arxada qalmışdır. Ölkəmiz dünyada özünə layiq yeri tuta bilmişdir. Aparılan çox ciddi siyasi və iqtisadi islahatlar ölkəmizin hərtərəfli inkişafına gətirib çıxarmışdır. Son üç il ərzində Azərbaycanda ümumi daxili məhsul 96 faiz artmışdır və əlbəttə ki, bu, bizim iqtisadi imkanlarımızı çox gücləndirir. Biz regional əməkdaşlıq məsələlərinə çox böyük diqqət göstəririk, bəzi hallarda çox böyük layihələrin təşəbbüskarıyıq. Bütövlükdə Xəzər dənizi-Qara dəniz əməkdaşlıq məsələlərində də Azərbaycan çox fəal rol oynayır. Bizim artıq real, konkret nəticələrimiz var, layihələrimiz var və bu layihələr hər bir iştirakçı ölkənin xeyrinədir. Azərbaycanın çox zəngin enerji resursları həm ölkəmizi gücləndirir, həm də regional əməkdaşlıqda çox mühüm rol oynayır. Tikilib istifadəyə verilmiş neft kəmərləri üç istiqamətdə Azərbaycan neftini dünya və Avropa bazarlarına çıxarır. Onlardan ikisi Qara dənizə, biri isə Aralıq dənizinə çıxır və biz bu məsələlərdə tərəfdaşlarımızla - Gürcüstan, Rusiya və Türkiyə ilə çox sıx əməkdaşlıq edirik. Gələn ildən başlayaraq, Azərbaycanda gündə 1 milyon barrel neft hasilatı gözlənilir və bu rəqəm artacaqdır. Azərbaycan bu ildən başlayaraq, qaz ixrac edən ölkəyə çevrilir. Artıq bu sahədə də böyük işlər görülüb, müvafiq nəqliyyat infrastrukturu, boru kəmərləri mövcuddur. Biz de-

mək olar ki, öz enerji problemlərimizi uğurla həll etmişik və indi enerji siyasətimizin növbəti mərhələsindəyik. Mən şübhə etmirəm ki, gələcəkdə regional əməkdaşlıq müstəvisində həm nəqliyyat, həm də enerji sektorundakı təşəbbüslərimiz daha da böyük uğurlara gətirib çıxaracaqdır.

Bizim artıq nəqliyyat sektorunda da gözəl nəticələrimiz var. Bu yaxınlarda tikintisinə başlanacaq Bakı-Tbilisi-Qars dəmir yolu da böyük regional əhəmiyyətə malikdir. Avropanı Asiya ilə birləşdirəcək bu dəmir yolu ilə daşınacaq yüklərin həcmi kəskin şəkildə artacaq və bütövlükdə bütün dost ölkələr üçün yeni imkanlar yaradacaqdır. Bu məsələyə də biz çox ciddi şəkildə yanaşırıq və artıq Azərbaycan ərazisindən keçən enerji dəhlizləri nəqliyyat dəhlizlərinin yaradılmasına da gözəl zəmin yaradır.

Bütün bunlar həm regional əməkdaşlıq əlaqələrinin nəticələridir, həm də ki, bütövlükdə təşkilata üzv olan ölkələrin inkişafının təzahürüdür. Bir daha demək istəyirəm, təşkilata üzv olan ölkələrin yarısı ancaq 90-cı illərin əvvəllərində öz dövlət müstəqilliyini bərpa etmişdi və bu illər ərzində həqiqətən tarixi, uğurlu və şanlı yol keçmişdir.

Bununla bərabər, bizi narahat edən problemlər, məsələlər də var. O cümlədən həll olunmamış münaqişələr. Ermənistanın Azərbaycana etdiyi hərbi təcavüz nəticəsində ölkəmizin, torpaqlarımızın 20 faizi hələ də işğal altındadır. Bu işğal və etnik təmizləmə siyasəti nəticəsində 1 milyondan artıq azərbaycanlı öz doğma torpağında qaçqın-köçkün vəziyyətinə düşmüşdür. Bu, böyük ədalətsizlikdir, beynəlxalq hüquq normalarının pozulmasıdır. Birləşmiş Millətlər Təşkilatı Təhlükəsizlik Şurasının bu məsələyə dair 4 qətnaməsi icra olunmamış qalır. O qətnamələrdə işğalçı qüvvələrin çıxarılması nəzərdə tutulurdu. Beləliklə, məsələnin həll olunmaması bölgədə gərginliyin artmasına gətirib çıxarır. Bölgədə sülh bərqərar olunmur. Müvəqqəti atəşkəs mövcuddur, o da ki, çox həssasdır. Mən düşünürəm ki, Ermənistanda başa düşməlidirlər ki, biz artıq orta əsrlərdə yox, XXI əsrdə yaşayırıq və XXI əsrin əlamətləri hər bir ölkə üçün əsas olmalıdır. Biz istəyirik ki, bölgədə sülh olsun. Biz istəyirik ki, beynəlxalq hüquq normaları təmin edilsin. Hər bir işğalçı bilməlidir ki, bu işğalın sonu olmayacaqdır. Bu işğalın sonu ya sülh müqaviləsidir, ya da qaçılmaz məğlubiyyətdir. Mən bu fürsətdən istifadə edib dövlət və hökumət başçılarının diqqətini bir daha bu məsələyə çəkmək istəyirəm. Çünki bu məsələnin həll olunmaması həm bizim üçün, həm bütün region üçün, həm də regionda yaranan və güclənən əməkdaşlıq üçün çox böyük təhlükə mənbəyidir. Biz hesab edirik ki, məsələ yalnız və yalnız beynəlxalq hüquq əsasında öz həllini tapa bilər. Azərbaycanın ərazi bütövlüyü qeyd-şərtsiz bərpa olunmalıdır, 1 milyondan artıq soydaşımız, on ildən artıq oziyyət çəkən soydaşlarımız öz doğma torpaqlarına qayıtmalıdırlar. Bu, onların hüququdur. Dağlıq Qarabağın gələcək statusuna gəldikdə isə, dünyada, o cümlədən Avropada kifayət qədər müsbət muxtariyyət nümunələri var və əlbəttə ki, bu müsbət nümunələr bizim bölgədə də tətbiq olunmalıdır. Əgər hər bir milli azlıq yaşadığı ölkədə öz müqəddəratını təyin etmək istəyərsə, təsəvvür etmək çətin deyil ki, dünyada nə qədər yeni dövlətlər yaranacaqdır. Azlıq olmaq o demək deyil ki, yaşadığı ölkənin bir hissəsini qoparıb başqa ölkəyə birləşdirmək mümkün olsun. Bu, qətiyyən belə deyil və beynəlxalq hüquq normaları və sadəcə olaraq, normal davranış qaydaları buna yol vermir. Mən ümid edirəm ki, gələcəkdə məsələlərin həlli və bütövlükdə həll olunmamış münaqişələrin həlli öz yerini tutacaq və bölgəyə əmin-amanlıq, uzunmüddətli sülh və əməkdaşlıq gələcəkdir.

Əziz həmkarlar, sizin hamınızı bu gözəl yubiley münasibətilə bir daha təbrik etmək istəyirəm. Əmin olduğumu bildirmək istəyirəm ki, bundan sonrakı illərdə də bizim təşkilatımız çox fəal işləyəcək, bölgədə və regionda yeni-yeni layihələr öz həllini tapacaqdır.

Diqqətinizə görə təşəkkür edirəm.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN VƏ TÜRKİYƏ PREZİDENTİ ƏHMƏD NECDƏT SEZƏRİN GÖRÜŞÜ

İyunun 25-də İstanbulun Çırağan sarayında Azərbaycan Prezidenti İlham Əliyevin və Türkiyə Prezidenti Əhməd Necdət Sezərin görüşü olmuşdur.

Prezidentlər dost və qardaş ölkələrimiz arasında münasibətlərin davamlı inkişafından məmnunluqlarını bildirdilər, bu əməkdaşlığın gələcəkdə də genişlənəcəyinə və möhkəmlənəcəyinə əminliklərini söylədilər.

Dövlət başçıları Qara Dəniz İqtisadi Əməkdaşlıq Təşkilatının 15-ci zirvə görüşünün əhəmiyyətini, ölkələrimiz və xalqlarımız üçün faydalı olan münasibətlərin inkişafında QİƏT-in rolunun böyük olduğunu vurğuladılar.

Tərəflər Azərbaycanla Türkiyə arasında ikitərəfli münasibətlərə, regional əməkdaşlığa və qarşılıqlı maraq doğuran bir sıra məsələlərə dair fikir mübadiləsi apardılar.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN VƏ TÜRKİYƏNİN BAŞ NAZİRİ RƏCƏB TAYYİB ƏRDOĞANIN GÖRÜŞÜ

İyunun 25-də İstanbulda, Çırağan sarayında Azərbaycan Prezidenti İlham Əliyevin və Türkiyənin Baş naziri Rəcəb Tayyib Ərdoğanın görüşü olmuşdur.

Görüşdə Azərbaycanla Türkiyə arasında dostluq və qardaşlıq münasibətlərinin uğurla inkişaf etdiyi vurğulandı. Bildirildi ki, ölkələrimiz arasında siyasi, iqtisadi və bütün başqa sahələrdə əlaqələr dinamik inkişaf edir. Qlobal layihələr - Bakı-Tbilisi-Ceyhan neft, Bakı-Tbilisi-Ərzurum qaz və Bakı-Tbilisi-Qars dəmir yolu layihələri bölgədə sülhün və təhlükəsizliyin təmin olunmasına öz töhfəsini verir. Bu layihələrin xalqlarımızın rifahının yaxşılaşdırılması baxımından da böyük əhəmiyyəti vardır.

Görüşdə ölkələrimizin QİƏT çərçivəsində də uğurlu əməkdaşlıq etdiyi vurğulandı.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN YUNİSEF-İN İCRAÇI DİREKTORU XANIM ANN VENEMAN İLƏ GÖRÜŞÜ

Azərbaycan Prezidenti İlham Əliyev iyunun 25-də İstanbulun Çırağan sarayında YUNİSEF-in icraçı direktoru xanım Ann Veneman ilə görüşmüşdür.

Görüşdə ölkəmizdə həyata keçirilən iqtisadi və sosial inkişaf proqramları diqqət mərkəzində oldu.

Xanım Ann Veneman Azərbaycanda ailə və uşaq problemlərinin həllinə göstərilən diq-

qəti, təhsil və idman, habelə yoxsulluğun azaldılması, məşğulluq probleminin həlli sahəsində görülən işləri qiymətləndirdi.

Prezident İlham Əliyev xanım Ann Venemanı ölkəmizə səfərə dəvət etdi. Dəvət məmnunluqla qəbul olundu.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN ALBANİYANIN BAŞ NAZİRİ SALİ BERİŞA İLƏ GÖRÜŞÜ

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyunun 25-də İstanbulun Çırağan sarayında Albaniyanın Baş naziri Sali Berişa ilə görüşmüşdür.

Görüşdə ölkələrimiz arasında ikitərəfli münasibətlərin dərinləşdirilməsi üçün potensialın olduğu və əlaqələrimizin bundan sonra genişlənəcəyinə əminlik vurğulandı.

İSTANBULDA QİƏT ÖLKƏLƏRİ XARİCİ İŞLƏR NAZİRLƏRİNİN GÖRÜŞÜ KEÇİRİLMİŞDİR

İyunun 25-də günün birinci yarısında İstanbulun Çırağan sarayında Qara Dəniz İqtisadi Əməkdaşlıq Təşkilatının üzvü olan ölkələrin dövlət və hökumət başçılarının 15-ci zirvə görüşü çərçivəsində xarici işlər nazirlərinin xüsusi görüşü keçirilmişdir.

Görüşü Türkiyənin xarici işlər naziri Abdullah Gül açdı. O dedi ki, Türkiyə 2007-ci il mayın 1-dən bu təşkilatda sədrlik edir. QİƏT fəaliyyətini gücləndirmiş, bütün tərəflərin maraqlarına uyğun işbirliyi qurulmuşdur. Ticarət sahəsində bəzi maneələrin aradan qaldırılması ilə əlaqələr daha da genişlənəcək, yeni layihələrin icrası nəticəsində yeni imkanlar açılacaqdır.

Nazirlər qloballaşan dünyada beynəlxalq əməkdaşlığın böyük əhəmiyyətini, Qara dənizin çirkləndirilməsinə qarşı tədbirlər görülməsinin zəruriliyini vurğuladılar. Bildirildi ki, bu ilin iyul ayında Qara dəniz idman oyunları təşkil olunacaq, bütün istiqamətlərdə ayrı-ayrı mövzular üzrə seminarlar, konfranslar keçiriləcək, mövcud problemlərin həlli ilə bağlı müzakirələr aparılacaqdır.

Xarici işlər nazirləri QİƏT-in Avropa İttifaqı və digər beynəlxalq təşkilatlarla əməkdaşlığının genişləndirilməsinin vacibliyini də bildirdilər.

Azərbaycanın xarici işlər naziri Elmar Məmmədyarov çıxışında görüşün yüksək səviyyədə təşkilinə görə təşəkkür etdi, ötən müddət ərzində bir çox sahələrdə mühüm işlərin görüldüyünü, maliyyə, ticarət, nəqliyyat, enerji və digər sahələrdə ikitərəfli və çoxtərəfli əməkdaşlığın faydalı olduğunu vurğuladı. O dedi ki, bu cür əlaqələr Qara dəniz hövzəsi və geniş mənada Avropa İttifaqı ölkələri ilə münasibətlərin dərinləşməsinə şərait yaradır, regional layihələrin reallaşmasına öz təsirini göstərir.

Elmar Məmmədyarov bölgədəki təhdidlərdən də danışdı, regional əməkdaşlığa mane olan münaqişələrin həllinin vacibliyini söylədi.

İSTANBULDA "ŞƏRQ QƏRBLƏ QARŞILAŞIR: ENERJİ TƏHLÜKƏSİZLİYİNDƏ YENİ HÜDUDLAR" MÖVZUSUNDA 10-CU İLLİK KONFRANS KEÇİRİLMİŞDİR

İyunun 26-da İstanbulun "Ceylan İnterkontinental" mehmanxanasında "Şərqlə Qərb qarşılaşır: enerji təhlükəsizliyində yeni hüdudlar" mövzusunda 10-cu illik konfrans keçirilmişdir.

Konfransda Azərbaycan Prezidenti İlham Əliyev, Türkiyə Prezidenti Əhməd Necdət Sezər, Ukrayna Prezidenti Viktor Yuşşenko, Gürcüstan Prezidenti Mixail Saakaşvili, habelə ABŞ-ın, Böyük Britaniyanın, Almaniyanın, eləcə də Avropa İttifaqının, OPEK-in və digər beynəlxalq təşkilatların nümayəndələri iştirak etmişlər.

Xatırladaq ki, əsasən, Cənubi Qafqazda enerji təhlükəsizliyi məsələlərinə həsr olunmuş ilk beynəlxalq konfransın (1997-ci il) həmin vaxt təşəbbüsçüsü Azərbaycan Dövlət Neft Şirkətinin vitse-prezidenti vəzifəsində çalışan İlham Əliyev olmuşdur və o, konfransın əsas məruzəçisi idi.

Konfransı ABŞ-ın Kembric Araşdırmalar Qrupunun (CERA) sədri Deniel Yergin açaraq, dövlət başçılarını salamladı. O bildirdi ki, hazırda enerji təhlükəsizliyi məsələsi dünyanın diqqət mərkəzində olan əsas məsələdir və bu baxımdan yeni iqtisadi əməkdaşlıq mərhələsi başlayır.

Konfransın açılışında "Tekfen" orkestrinin ifasında musiqi səsləndi. Bu orkestr Qara dəniz hövzəsində yerləşən 23 ölkənin musiqiçilərini birləşdirir.

Xarici İşlər üzrə İqtisadi Qrupun (DEİK) fəxri üzvü və "Tekfen Holdinq" şirkətlər qrupunun sədri Nihat Gökyigid Bakı-Tbilisi-Ceyhan neft kəmərinin "Əsrin layihəsi" olduğunu bildirərək dedi ki, Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin iradəsi sayəsində Bakı-Tbilisi-Ceyhan layihəsi gerçəkləşdi, indi yeni layihələrə ehtiyac var.

Qara Dəniz İqtisadi Əməkdaşlıq Təşkilatına üzv ölkələrin dövlət və hökumət başçılarının zirvə görüşünün təşkilatın həyatında mühüm hadisə olduğunu söyləyən DEİK-in prezidenti, Türkiyə Sənaye, Ticarət və Birjalar Palatasının sədri Rifat Hisarciklioğlu bunu həm də regionda enerji təhlükəsizliyinin təmin olunmasına şərait yaradan amil kimi qiymətləndirdi.

Türkiyənin energetika və təbii ehtiyatlar naziri Hilmi Gülər çıxışında diqqəti boru xətlərinin müxtəlifliyinə çəkərək bildirdi ki, Türkiyə və onun yerləşdiyi region boru xətlərinin kəsişmə nöqtəsidir. O, Bakı-Tbilisi-Ceyhanın əhəmiyyətindən danışaraq vurğuladı ki, Bakı-Tbilisi-Ceyhan layihəsini əfsanədən reallığa çevirən Heydər Əliyevin tarixi xidmətləri nəzərə alınaraq, Ceyhan limanına onun adı verilmişdir. Bu ayın sonunadək Ceyhanda 193-cü tanker neftlə yüklənəcəkdir. Gələn ay isə "Şahdəniz" qazı Türkiyə vasitəsilə Yunanıstana, oradan İtaliyaya göndəriləcəkdir.

Nazir bildirdi ki, "Şahdəniz" qazına Balkan ölkələri də maraq göstərir. Lakin bununla bağlı Azərbaycan ilə məsləhətləşmələrin aparılması lazımdır.

OPEK Konfransının prezidenti, Birləşmiş Ərəb Əmirliklərinin energetika naziri Məhəmməd bin Zayen Al Hamili çıxışında dedi ki, OPEK dünya ölkələrinin neftə olan tələbatının ödənilməsi kimi mühüm işini davam etdirir və bu qurum dünyada enerji

təhlükəsizliyinin təmin olunması ilə bağlı bütün təşəbbüsləri dəstəkləməyə hazırdır.

"Bugünkü konfrans həm də ötən on ilə nəzər salmaq baxımından çox əhəmiyyətlidir", - deyən Ukrayna Prezidenti Viktor Yuşşenko və Gürcüstan Prezidenti Mixail Saakaşvili yeni neft-qaz boru xətlərindən, onların təhlükəsizliyindən söhbət açdılar, ümumi yeni layihələrə qoşulacaqlarını bildirdilər, eyni zamanda, Türkiyənin enerji terminalı və dəhlizlər proqramını dost ölkələrlə birlikdə gerçəkləşdirəcəyini vurğuladılar.

Dövlət başçıları Avropa və dünyanın enerji təhlükəsizliyində Azərbaycanın oynadığı rolu yüksək qiymətləndirdilər. M.Saakaşvili çətin vəziyyətə düşən Gürcüstana göstərdiyi köməyə görə Prezident İlham Əliyevə minnətdarlığını bildirdi.

Yeni iqtisadi şərtlərin yerinə yetirilməsi üçün daha fəal çalışmağın, beynəlxalq və regional əməkdaşlığa üstünlük verməyin zəruriliyi vurğulandı.

Sonra konfransın aparıcısı Deniel Yergin Azərbaycan Prezidentinə söz verərək dedi:

-Mən konfransın 10-cu ildönümünə həsr olunmuş bu tədbirdə demək istəyirəm ki, Prezident İlham Əliyev belə məsələlərin müzakirəsində uzun illərdir iştirak edir. O, bu mövzular üzrə əvvəlki konfranslarda da çıxış etmişdir. Ötən cümə günü biz Bakıda fikir və ideyaların bu gün hamımızın gördüyü reallığa çevrilməsi haqqında danışdıq və enerjinin gələcəyi ilə bağlı hazırkı fikirlərimiz və ideyalarımız üçün yeni reallığın yaradılmasının zəruri olduğunu qeyd etdik. İndi isə mən Azərbaycan Respublikasının Prezidenti zati-alilləri cənab İlham Əliyevi çıxışa dəvət edirəm.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN ÇIXIŞI

-Hörmətli cənab prezidentlər!

Hörmətli xanımlar və cənablar!

İlk növbədə, mən son iki gün ərzində hamımızın duyduğu qonaqpərvərliyə görə Prezident Sezərə minnətdarlığımızı bildirmək istəyirəm. Biz dünən Qara Dəniz İqtisadi Əməkdaşlıq Təşkilatının sammitində birgə iştirak etdik. Bu gün isə biz bu cür vacib konfransda iştirak etmək üçün buraya toplaşmışıq. Hesab edirəm, bu iki tədbir bir-biri ilə bağlıdır. Çünki gördüyümüz bütün işlər və planlaşdırdığımız bütün məsələlər regional əməkdaşlığa, xalqlarımızın və dövlətlərimizin rifahına xidmət edir.

Mən, eyni zamanda, burada bütün prezidentləri, rəsmi şəxsləri və dostlarımızı salamlamaq istəyirəm. Biz bu gün nailiyyətlərimizi nəzərdən keçiririk və eyni zamanda, gələcəyə nəzər salırıq ki, hələ nəyə nail olmalıyıq. Mən keçmişdə prosesin başlanğıcına nəzər salaraq, 1990-cı illərin ortalarında baş vermiş iki mühüm hadisəyə diqqətinizi cəlb etmək istərdim. 1994-cü ilin sentyabr ayı və 1996-cı ilin iyun ayı. 1994-cü ildə "Əsrin müqaviləsi" imzalandı və bu, ümummilli liderimiz Heydər Əliyevin neft strategiyasının başlanğıcı idi. 1996-cı ilin iyun ayında regionun enerji təhlükəsizliyi sahəsində olduqca mühüm rol oynayan və nəticədə Avropanın enerji təhlükəsizliyində daha vacib rol oynayacaq "Şahdəniz" qaz yatağının işlənilməsinə dair müqavilə imzalandı. Həmin vaxtdan etibarən biz nəyə nail olduq?! Bütün bunlar çox çətin geosiyasi şəraitdə Azərbaycanın ümummilli liderinin cəsarətli, müdrik qərarlarının nəticələri idi.

Bu gün Azərbaycan 1990-cı illərin əvvəllərində olduğundan tamamilə fərqli vəziyyət-

dədir. Həmin vaxt bizim çoxsaylı iqtisadi və sosial problemlərimiz var idi. Siyasi sabitlik hələ təmin olunmamışdı. Azərbaycan sərmayələr üçün çox riskli ölkə hesab edilirdi. Bizimlə işləmək üçün xarici şirkətləri cəlb etməli, Azərbaycanın etibarlı tərəfdaş və dost olmasını nümayiş etdirməli idik. Ölkəmiz xarici sərmayələri qorumalı idi. Mən bu gün böyük məmnunluq hissi ilə qeyd edirəm ki, biz qarşımıza qoyduğumuz bütün məqsədlərə birgə səylər, Azərbaycanın rəhbərliyinin qətiyyəti və sadiqliyi, bu gün müzakirə etdiyimiz bütün layihələrdə əsas sərmayədarlar olan xarici neft şirkətləri ilə möhkəm tərəfdaşlıq nəticəsində nail olduq. Biz bunlara beynəlxalq maliyyə qurumlarının dəstəyi, ABŞ hökumətinin çox güclü dəstəyi və bütün regional ölkələrin iştirakı ilə nail olduq. Bu dəstək olmadan bu gün danışdığımız layihələrdən heç biri həyata keçirilə bilməzdi. Bu, regional əməkdaşlığın çox yaxşı nümunəsidir, tərəfdaşlığımızın və dostluğumuzun çox müsbət misalıdır.

Bu gün mənim dostum Mixail çətin qış şəraiti və Gürcüstan ilə Azərbaycan arasındakı əməkdaşlıq haqqında danışdı. O, tamamilə haqlıdır. Biz başqa cür addım ata bilməzdik. Çünki qonşumuzun və tərəfdaşımızın təhlükəsizliyi bizim təhlükəsizliyimizdir. Biz dostuq və tərəfdaşıq, bir-birimizə kömək etməliyik və dəstək verməliyik.

Dünənki görüş zamanı mən xatırlatdım ki, QİƏT-ə üzv olan 12 dövlət arasında 6-sı bu təşkilatın yaradılmasından bir neçə ay öncə öz müstəqilliyini qazanmışdı. Biz müstəqil dövlət kimi yaşamağa qadir olduğumuzu sübuta yetirməliydik. Müstəqilliyimizi qorumalı və onu möhkəmləndirməli idik. Böyük siyasi və iqtisadi çətinliklərə, bəzən sosial problemlərə, vətəndaş müharibəsinə, xaricdən təcavüzə baxmayaraq, 15 illik müddət ərzində ölkələrimiz öz müstəqilliyini möhkəmləndirə bildi və bir çox uğurlar qazandı. O cümlədən, çox gözəl perspektivlərə malik olan ölkələrə çevrildi.

Bu gün isə enerji təhlükəsizliyi nəinki region, həm də bütün dünya üçün ümumi təhlükəsizlik məsələsinə çevrilir. Təsadüfi deyil ki, bu gün biz enerji məsələsi haqqında təhlükəsizlik çərçivəsində danışırıq. Mən bunu tamamilə düzgün hesab edirəm. Çünki bir çox işlər, nəinki iqtisadi, o cümlədən siyasi inkişaf artıq enerji gündəliyindən asılıdır. Azərbaycan böyük enerji resurslarına malik olan ölkədir və artıq bu baxımdan mühüm rol oynayır.

Yeri gəlmişkən, dünyada sənaye üsulu ilə ilk neft XIX əsrdə Azərbaycanda hasil olunmuşdur. Dəniz yataqlarından da ilk neft Azərbaycanda çıxarılmışdır və bu, XX əsrin ortalarında baş vermişdir. Bu gün Azərbaycan yenidən enerji təhlükəsizliyi və təchizatın şaxələndirilməsində olduqca vacib rol oynayır. Biz bütün mühüm daşıma layihələrini həyata keçirmişik. Bu gün təqdimat zamanı nümayiş etdirilmiş, Bakıdan başlayan və müxtəlif istiqamətlərə gedən bütün boru kəmərləri istismar olunur. Azərbaycanda üç boru kəməri var. Onlardan ikisi Qara dənizə, biri isə Aralıq dənizinə çıxır. Türkiyəyə çəkilmiş qaz boru kəməri mövcuddur. Həmin boru kəmərləri müasirdir. Ona görə də biz təchizatımızı şaxələndirə bildik.

Cari hasilat və sərmayələrin qoyulmasından əlavə, neft strategiyamızın vacib aspektlərindən biri də çoxlu kəmərlərin çəkilməsi siyasətidir. Keçmişdə, 1990-cı illərin ortalarında biz enerji təchizatının şaxələndirilməsi barədə çox eşitmişdik. Ölkəmiz təchizatın şaxələndirilməsinə qadir olmaq üçün strategiyasını planlaşdırdı. Bu gün isə bizim neftimiz müxtəlif istiqamətlərdə ixrac olunur. Azərbaycanda neft hasilatının həcmi artmaqdadır. Gələn il bu, gündə 1 milyon barrelə bərabər olacaqdır. 2008-ci ildən sonrakı müddət ərzində hasilat daha da artacaqdır. Biz istismar etdiyimiz bütün boru kəmərlərini doldura biləcəyik.

Bakı-Tbilisi-Ceyhan haqqında şayiələr hamımızın yadındadır. Yataqlarımızda nefti hasil etməyə başlayarkən Azərbaycanda neftin kifayət dərəcədə olmaması, Azərbaycanın oyun oynadığı haqqında yayılan şayiələr hamımızın yadındadır. Müqavilələrimizə qarşı təzyiq və müqavimət xatirimizdədir. Biz bu yaxınlara qədər eşidirdik ki, bir çox hallarda üçüncü tərəfin nefti olmadan Bakı-Tbilisi-Ceyhan tam gücü ilə işləməyəcəkdir. Bu boru xətti artıq gələn ildən tam gücü ilə işləyəcəkdir. Son məlumatlara əsasən, hazırda nefti hasil etdiyimiz "Azəri-Çıraq-Günəşli" yataqlarında 9 milyard barrel neft var. Bu, bizim üçün gələcək onilliklərə kifayət edəcəkdir. Başqa sözlə desək, biz bu gün mühüm daşıma layihələrini artıq həyata keçirmişik. Biz artıq neftin nəqli ilə bağlı, hansı növbəti addımların atılması ilə bağlı müxtəlif planlar üzərində işləyirik.

Biz Odessa-Brodı boru kəməri barədə geniş müzakirələr aparırıq. Bunu ukraynalı və gürcüstanlı həmkarlarımızla müzakirə edirik və bu yaxınlarda Bakıda və Krakovda daha geniş şəkildə nəzərdən keçirmişik. Biz bunun üzərində işləyirik və birgə işçi qrupu yaratmışıq. Əminəm ki, onlar yaxşı təkliflərlə çıxış edəcəklər. Mən fərəh hissi ilə sizə deyə bilərəm ki, qarşıya qoyduğumuz bütün layihələri həyata keçirmişik. Biz heç bir səhv addım atmamışıq və vahid heyət kimi işləyirik. Bu, uğurumuzun əsas meyarıdır.

Biz bu gün Avropa bazarının qaz təchizatı haqqında yenidən danışdıq və yenə də Azərbaycan qazı xatırlandı. Söhbət "Şahdəniz" qazından gedir. Artıq o, Gürcüstan bazarına çıxarılıb, bu yaxınlarda Türkiyəyə və daha sonra Avropa ölkələrinə çatdırılacaqdır. "Şahdəniz" qaz yatağında nəhəng qaz ehtiyatları – 1,3 trilyon kubmetr qaz var.

Bu gün Azərbaycanda mövcud olan digər yataqlarda bizim, ən azı, 300 milyard kubmetr qaz ehtiyatımız var. Bu, gələn 150 il ərzində bizim daxili tələbatımız üçün kifayət olacaqdır. Lakin, əlbəttə, biz onu ixrac etməyi də planlaşdırırıq. Bizim artıq müasir nəqletmə qurğularımız var və qazımız dostlarımızın bazarlarına çıxarılacaqdır. Əlbəttə, biz qaz layihələrimizi başlayanda, Avropa bazarı bizim üçün prioritet hesab edilmirdi. Eynilə, bizim qazımız da Avropa İttifaqının gündəliyində durmurdu. Bu gün isə, vəziyyət dəyişibdir. İndi tələbat artmaqdadır və biz həmin tələbatı ödəməyə hazır olmalıyıq. Bu səbəbdən biz ötən ilin noyabr ayında Avropa İttifaqı ilə Azərbaycan arasında enerji məsələləri üzrə strateji tərəfdaşlığa dair Anlaşma memorandumu imzalamışıq. Eyni zamanda, Birləşmiş Ştatlar ilə Azərbaycan arasında enerji təhlükəsizliyi sahəsində əməkdaşlığa dair sənəd imzalanıbdır. Bunlar gələcək əməkdaşlıq və fəaliyyət üçün yaxşı çərçivədir. Azərbaycandakı neft və qaz xalqımızın və dövlətimizin rifahına xidmət edəcəkdir. Biz qeyri-neft sektoruna böyük sərmayələr qoyuruq, qeyri-neft məhsullarının istehsalını artırırıq.

Azərbaycanda son üç il ərzində ən dinamik iqtisadi artım müşahidə olunubdur. İqtisadiyyatımız son üç ildə dünyada ən böyük sürətlə inkişaf edən iqtisadiyyatdır və demək olar ki, bu, 100 faiz, yəni iki dəfə artacaqdır. Eyni vəziyyəti sənaye istehsalı sahəsində də görürük. Gələn üç il ərzində buradakı həcm iki dəfə artacaqdır. Bu, bizə insan kapitalına - təhsilə, səhiyyəyə, infrastruktura, regional inkişafa sərmayə qoymaq imkanı yaradır.

Biz şəffaflıq məsələsi üzərində beynəlxalq təşkilatlarla çox fəal işləyirik. Bu, xüsusən də neft hasil edən ölkələrdə çox vacibdir. Mən böyük məmnunluq və fərəh hissi ilə demək istəyirəm ki, bu gün, iyunun 26-da Azərbaycan Dövlət Neft Fondu yüksək səviyyəli şəffaflığa görə Vyanada Birləşmiş Millətlər Təşkilatının mükafatını alır.

Bunlar yeni siyasətimizin elementləridir. Biz ölkəmizi müasirləşdiririk, onu dünya iqtisadiyyatına inteqrasiya edirik, regional miqyasda çox fəalıq. Regionumuzdakı dostlarımızla və digər ölkələr ilə tərəfdaşlıqda çox açıq və səmimiyik. Bu, uğurun əsasıdır.

Bu gün isə başladığımız anlara nəzər salsaq, təbii ki, biz görərik ki, olduqca böyük nailiyyətlər qazanılmışdır. Əlbəttə, bu, artıq əfsanə deyil, reallıqdır. Həmin reallıq həmçinin digər ölkələri bizim nümunəmizi nəzərdən keçirməyə, bunun mümkünlüyünü görməyə sövq edə bilər. Siyasi iradə, siyasi müdriklik, cəsarət, möhkəm tərəfdaşlıq və ölkənin milli maraqlarına qəti sadiqlik olduğu təqdirdə, hər şeyə nail olmaq mümkündür. Bizim nümunəmiz, Türkiyə, Gürcüstan, Ukrayna, Azərbaycan və bu prosesdə iştirak edən digər ölkələr dediklərimin aydın göstəricisidir.

Əminəm ki, gələn illərdə biz uğurlu enerji əməkdaşlığımızı davam etdirəcəyik. Dörd neft və qaz boru kəmərini çəkməklə, Azərbaycan bu mərhələdə qarşıya qoyulmuş bütün proqramları yerinə yetirib və hazırda biz yeni istiqamətlərdə işləyirik. Biz indi Xəzər dənizi-Qara dəniz-Baltik dənizi arasında regional əməkdaşlıq üzərində çalışırıq. Digər ölkələrin və həmin ölkələrdən olan şirkətlərin marağı olarsa, onlar tərəfindən istifadə edilə biləcək kifayət dərəcədə müasir infrastrukturumuz var. Biz Enerji Xartiyasını imzalamışıq. Beləliklə, əgər belə bir tələbat olarsa, biz tranzit ölkəyə çevrilməyə çox açığıq.

Başqa sözlə, biz bugünkü nailiyyəti enerji strategiyamızın, sadəcə, birinci mərhələsi kimi qəbul edirik. Mən Sizə deyə bilərəm ki, bu cür inkişaf regiondakı geosiyasi vəziyyəti artıq dəyişir. Bu gün regionu Bakı-Tbilisi-Ceyhan və Cənubi Qafqaz boru kəmərləri olmadan təsəvvür etmək çox çətindir. Bu əfsanə reallığa çevrildi. Əminəm ki, bundan sonra bir daha əfsanələr olmayacaq və işlədiyimiz hər bir layihəni həyata keçirəcəyik, çünki biz vahid heyət, tərəfdaşlar kimi işləyirik. Bugünkü konfrans və dünənki Qara dəniz sammiti bu cür vacib strateji qərarların sübutudur.

Çox sağ olun.

* * *

Türkiyə Prezidenti Əhməd Necdət Sezər çıxışında millətlərin rifahına beynəlxalq əməkdaşlıq nəticəsində nail olmağın mümkünlüyünü vurğuladı, müasir iqtisadiyyatın inkişafının enerji daşıyıcıları ilə bağlı olduğunu söylədi. O dedi ki, enerji daşıyıcılarının Avropa bazarlarına təhlükəsiz nəqli üçün tranzit ölkələrin üzərinə böyük vəzifələr düşür. İndi alternativ enerji mənbələrinin tapılması, boru xətlərinin şaxələndirilməsi zərurəti yaranmışdır.

Qardaş ölkənin Prezidenti BTC-nin beynəlxalq əməkdaşlığa nümunə olduğunu diqqətə çatdırdı, nəzərdə tutulan layihələrin dost ölkələrlə reallaşdırılacağını vurğuladı. O dedi ki, neft və qaz boru xətlərinin Türkiyə ərazisindən keçməsi həm Bosfor boğazındakı gərginliyi azaldacaq, həm də Ceyhanı önəmli limana çevirəcəkdir.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV AZƏRBAYCAN VƏ ERMƏNİSTANIN BİR QRUP ZİYALISINI QƏBUL ETMİŞDİR

Azərbaycan və Ermənistanın Rusiya Federasiyasındakı səfirlərinin təşəbbüsü ilə Azərbaycan və Ermənistanın bir qrup ziyalısı ATƏT-in xətti ilə iyunun 28-də Xankəndidə, Şuşada olmuş, buradan Ermənistana gedərək, Prezident Robert Koçaryan ilə görüşmüşlər.

Həmin gün qrupun üzvləri İrəvandan Bakıya gəlmiş və Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin qəbulunda olmuşlar.

Qrupa Ermənistanın Rusiya Federasiyasındakı Fövqəladə və Səlahiyyətli səfiri, Ermənistanın əməkdar incəsənət xadimi, professor Armen Smbatyan, İrəvan Dövlət Konservatoriyasının rektoru, professor Serqey Saracyan, Ermənistanın Milli Elmlər Akademiyasının prezidenti, akademik Radik Martirosyan, Ermənistanın xalq artisti, Rus Dram Teatrının bədii rəhbəri, professor Aleksandr Qriqoryan, Ermənistanın Respublika xəstəxanasının terapiya şöbəsinin müdiri Lyudmila Qriqoryan, Azərbaycanın Rusiya Federasiyasındakı Fövqəladə və Səlahiyyətli səfiri, Azərbaycanın xalq artisti, professor Polad Bülbül oğlu, Bakı Musiqi Akademiyasının rektoru, SSRİ-nin xalq artisti, professor Fərhad Bədəlbəyli, Bakı Slavyan Universitetinin rektoru, professor, Azərbaycan Milli Elmlər Akademiyasının müxbir üzvü, əməkdar elm xadimi Kamal Abdullayev, Azərbaycan Teatr Xadimləri İttifaqının sədri, Azərbaycanın xalq artisti, professor Azər Paşa Nemətov, Azərbaycanın əməkdar mühəndisi, iş adamı İlham Fətəliyev daxil idilər.

Görüş zamanı dövlətimizin başçısı Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi ilə bağlı ölkəmizin mövqeyini bir daha bəyan edərək vurğulamışdır ki, bu münaqişə yalnız və yalnız Azərbaycanın ərazi bütövlüyü və sərhədlərimizin toxunulmazlığı prinsipləri əsasında Dağlıq Qarabağa yüksək muxtariyyət verilməklə həll edilə bilər.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN VƏ RUSİYA PREZİDENTİ VLADİMİR PUTİNİN GÖRÜŞÜ

İyunun 30-da, Rostov ippodromunda cıdır başa çatdıqdan sonra Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və Rusiya Federasiyasının Prezidenti Vladimir Putinin görüşü olmuşdur.

Rusiyanın dövlət başçısı onun dəvətini qəbul edib Rostova gəldiyinə görə Azərbaycan Prezidentinə təşəkkürünü bildirərək dedi ki, qarşılıqlı maraq doğuran məsələləri, o cümlədən ikitərəfli münasibətləri, bütün region üçün çox həssas olan bəzi beynəlxalq problemləri müzakirə etmək imkanının yaranmasına şaddır.

Prezident İlham Əliyev dəvətə görə təşəkkür edərək dedi:

- Mən buraya böyük məmnuniyyətlə gəldim, bir neçə saat birlikdə olduq və söhbət etmək imkanımız oldu, maraqlı yarışları izlədik. Əlbəttə ki, bu, görüşmək, çox dinamik və səmərəli şəkildə inkişaf edən ikitərəfli əlaqələrimizə, habelə regional məsələlərə dair fikir mübadiləsi aparmaq üçün yaxşı imkandır. Bu məsələlərə yanaşmamız, bu məsələlər barədə mövqeyimiz eynidir. Biz münasibətlərimizi strateji tərəfdaşlıq kimi səciyyələndiririk və bu tərəfdaşlığa sadiqik. Rusiyaya həmişə məmnuniyyətlə gəlirəm, mən əvvəllər Rostovda heç vaxt olmamışdım, şəhərə tamaşa etmək, Rusiyanın bu hissəsini də görmək çox maraqlı idi.

Rusiya Prezidenti vurğuladı ki, biz Azərbaycanda iqtisadi artımın sürətinin təsiri altındayıq, neçə ildir ki, artım 34-35 faizdir, bu, sadəcə, heyrətləndiricidir.

Prezident Putin bildirdi ki, Azərbaycanda da zəngin olan enerji daşıyıcılarının qiymətinin qalxması haqqında nə istəsən danışmaq olar, lakin hər halda, bu artımın səbəbi başqadır, şübhəsiz ki, bu, ölkə hökumətinin apardığı düşünülmüş iqtisadi siyasətdir.

Azərbaycan Prezidenti bu fikrə şərik çıxaraq vurğuladı ki, bu, həqiqətən belədir. Son üç il ərzində iqtisadiyyatımızın artımı 96 faiz olmuşdur. Əlbəttə, bunda həm neft, həm də qeyri-neft amilləri rol oynayır.

Prezident İlham Əliyev Azərbaycan ilə Rusiya arasında qarşılıqlı iqtisadi əlaqələrdən danışarkən əmtəə dövriyyəsinin artmasını vurğulayaraq dedi:

- Son üç il ərzində biz bunu, əslində, üçqat artırmışıq, bu, ölkələrimizin potensialını, habelə münasibətlərimizin yaxınlığını göstərir. Çünki, adətən, biznes yaxşı siyasi bazanın olduğu yerdə səmərəli əməkdaşlıq qurur, ölkələrimiz arasında isə bu var. Biz münasibətlərimizin bütün istiqamətlərdə möhkəmlənəcəyinə ümid edirik.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV ABŞ KONQRESİNİN NÜMAYƏNDƏ HEYƏTİNİ QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyulun 3-də Prezident sarayında ABŞ Konqresinin Nümayəndələr palatasının Nəzarət və hökumət islahatları komitəsinin Milli təhlükəsizlik və xarici əlaqələr üzrə alt komitəsinin sədri Con Tierninin rəhbərlik etdiyi nümayəndə heyətini qəbul etmişdir.

Ölkəmizə ilk dəfə səfər etdiyini deyən Con Tierni Azərbaycanda böyük quruculuq işlərinin aparılmasının şahidi olduğunu söylədi. Qonaq Prezident İlham Əliyevin keçən il ABŞ-a rəsmi səfərinin iki ölkə arasında münasibətlərin daha da inkişaf etdirilməsinə mühüm töhfə verdiyini və əlaqələrimizin bundan sonra da genişlənəcəyinə ümidvar olduğunu vurğuladı.

Prezident İlham Əliyev Azərbaycan ilə ABŞ arasında müxtəlif sahələrdə münasibətlərin, o cümlədən parlamentlərarası əlaqələrin uğurla inkişaf etdiyini bildirdi. Dövlətimizin başçısı Azərbaycanın son dövrlərdə bütün istiqamətlərdə, o cümlədən iqtisadi sahədə böyük nailiyyətlər qazandığını və ölkəmizdə mühüm inkişaf proseslərinin getdiyini vurğuladı. Azərbaycan Prezidenti ölkələrimiz arasında əməkdaşlığın daha da genişlənəcəyinə və möhkəmlənəcəyinə əminliyini söylədi.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV AVROPA ŞURASI NAZİRLƏR KOMİTƏSİNİN "AQO" MONİTORİNQ QRUPUNUN NÜMAYƏNDƏ HEYƏTİNİ QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyulun 5-də Prezident sarayında Avropa Şurası Nazirlər Komitəsinin "Aqo" monitorinq qrupunun nümayəndə heyətini qəbul etmişdir.

Dövlətimizin başçısı bu səfərin ölkəmizdə gedən inkişaf prosesləri, həyata keçirilən islahatlar və Avropa Şurası ilə əməkdaşlığımızın gələcək istiqamətləri barədə müzakirə-

lərin aparılması üçün yaxşı imkan yaratdığını qeyd etdi. Azərbaycanın artıq yeddi ilə yaxın bir müddətdə Avropa Şurasının üzvü olduğunu deyən Prezident İlham Əliyev bu dövr ərzində ölkəmizdə iqtisadi və siyasi sahələrdə böyük nailiyyətlərin əldə olunduğunu bildirdi. O, keçən il Avropa İttifaqı ilə qonşuluğa dair beş illik proqramın imzalandığını xatırlatdı və bunun Azərbaycanın Avropaya daha sıx inteqrasiya etməsi baxımından mühüm addım olduğunu vurğuladı. "Aqo" monitorinq qrupunun rəhbəri Per Syöqren dövlətimizin başçısı ilə Avropa Şurası-Azərbaycan əməkdaşlığına dair müzakirə aparmaqdan məmnunluqlarını ifadə etdi.

Görüşdə Azərbaycan ilə Avropa Şurası arasında əməkdaşlığın hazırkı vəziyyətinə və gələcək perspektivlərinə dair fikir mübadiləsi aparıldı.

AŞPA AZƏRBAYCANDA TƏHSİL VƏ İNNOVASİYALAR SAHƏSİNDƏ HƏYATA KEÇİRİLƏN LAYİHƏLƏRİ YÜKSƏK QİYMƏTLƏNDİRİR

İyulun 9-da Azərbaycanın Baş naziri Artur Rasizadə Avropa Şurası Parlament Assambleyasının sədri Rene van der Lindenlə görüşmüşdür.

Azərbaycan hökumətinin başçısı bildirdi ki, AŞPA-nın sədrinin regiona səfəri respublikanın ictimai-siyasi həyatda əlamətdar hadisədir. Bakıda aparılan danışlar bu qurumla əməkdaşlığın genişləndirilməsinə təkan verəcəkdir. Artur Rasizadə Yerevanda keçirilən mətbuat konfransında qondarma "Dağlıq Qarabağ Respublikası"nda keçirilən seçkiləri bu Avropa qurumunun tanımayacağını bəyan edən AŞPA sədrinin mövqeyini yüksək qiymətləndirdi.

Azərbaycan iqtisadiyyatının uğurlarından, regionda gerçəkləşdirilən qlobal nəqliyyat və enerji layihələrindən danışan Baş nazir bildirdi ki, avqust aymda Bakı-Tbilisi-Qars dəmir yolunun tikintisinə başlanacaqdır.

Azərbaycan hökumətinin başçısı vurğuladı ki, Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi ölkəmiz üçün başlıca problem olaraq qalır. Azərbaycan rəhbərliyinin münaqişənin sülh yolu ilə həllinə tərəfdar olmasına baxmayaraq, o, Ermənistan tərəfinin qeyri-konstruktiv mövqeyi ucbatından həll edilmir.

AŞPA-nın sədri təhsil və innovasiyalar sahəsində həyata keçiriləcək layihələrin Azərbaycanda müsbət nəticələr verəcəyini bildirdi. Azərbaycanın beynəlxalq aləmdə müsbət imicindən danışan Rene van der Linden ictimai-siyasi həyatın bütün sahələrində Avropa standartlarına riayət edilməsinin vacibliyini vurğuladı.

DİPLOMATİK XİDMƏT ƏMƏKDAŞLARININ TƏCRÜBƏ KEÇMƏ VƏ TƏYİN OLUNMA QAYDALARI

1. Bu Qaydalar "Diplomatik Xidmət haqqında" Azərbaycan Respublikası Qanununun 7-ci bəndinə və Azərbaycan Respublikası Xarici İşlər Nazirliyi haqqında Əsasnamənin 8.23, 8.24 və 13.8-ci bəndlərinə uyğun olaraq Azərbaycan Respublikasının diplomatik nümayəndəlikləri və konsulluqlarına konsulluq məsələlərinin həyata keçirilməsi həvalə olunacaq diplomatik xidmət əməkdaşlarının təcrübə keçmə və təyin olunmasını tənzim edir.

2. Təcrübə, əməkdaşın Azərbaycan Respublikasının diplomatik nümayəndəlikləri və konsulluqlarında konsulluq funksiyalarının həyata keçirilməsi üçün lazımi bilik və təcrübəsinin təkmilləşdirilməsi məqsədilə keçirilir.

3. Təcrübə müddəti bir qayda olaraq 4 (dörd) ay müəyyən edilir. Təcrübə müddəti əməkdaşın vəzifə səlahiyyətlərini icra etdiyi iş vaxtından ibarətdir.

4. Əməkdaşın təcrübə keçməsinə rəhbərliyi Xarici İşlər Nazirliyi Konsulluq İdarəsinin rəisinin təyin etdiyi təcrübə rəhbəri tərəfindən həyata keçirilir.

5. Təcrübə keçən əməkdaş Konsulluq İdarəsinə müvəqqəti təhkim edilir.

6. Təcrübə müddətində əməkdaş işlədiyi Xarici İşlər Nazirliyinin struktur bölməsinin işini davam etdirir.

7. Təcrübə rəhbəri əməkdaş tərəfindən öyrənilməsi nəzərdə tutulan nəzəri və praktiki məsələlər üzrə onun hazırlığı nəzərə alınmaqla onun üçün fərdi proqram tərtib edir.

8. Təcrübə müddətinin iki ayı Konsulluq İdarəsinin müvafiq şöbə və sektorlarında, qalan hissəsi isə təcrübə keçən əməkdaşlar üçün müəyyən olunmuş fərdi proqrama uyğun olaraq Azərbaycan Respublikasının aşağıda qeyd olunan müvafiq dövlət orqanlarında keçirilir:

notariat hərəkətlərinin aparılması qaydalarının öyrənilməsi üçün Azərbaycan Respublikası Ədliyyə Nazirliyinin müvafiq notariat kontorunda;

vətəndaşlıq vəziyyəti aktlarının dövlət qeydiyyatının aparılması qaydalarının öyrənilməsi üçün Azərbaycan Respublikası Ədliyyə Nazirliyinin müvafiq vətəndaşlıq vəziyyəti aktlarının dövlət qeydiyyatı idarəsində;

ümumvətəndaş pasportların verilməsi və onlara xüsusi qeydlərin edilməsi məsələlərinin öyrənilməsi üçün Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin Pasport-Qeydiyyat İdarəsində;

xarici ölkələrdə işləyən, daimi və müvəqqəti yaşayan, həmçinin müvəqqəti olan Azərbaycan Respublikası vətəndaşlarının uçotunun aparılmasını öyrənilməsi üçün Azərbaycan Respublikası Dövlət Statistika Komitəsində;

Azərbaycan Respublikasının vətəndaşı olan uşağın övladlığa götürməyə arzu edən əcnəbilərin və vətəndaşlığı olmayan şəxslərin uçotunun aparılmasını öyrənilməsi üçün Azərbaycan Respublikasının Qadın, Ailə və Uşaq Problemləri üzrə Dövlət Komitəsində;

dövlət xətti ilə xarici ölkələrdə təhsil alan tələbələrlə işin təşkili üçün Azərbaycan Respublikası Təhsil Nazirliyində;

Azərbaycan Respublikası bayrağı altında üzən gəmilərin və Azərbaycan Respublikasının vətəndaşları olan ekipaj üzvlərinin qarşılaşdıqları problemlərin aradan qaldırılması istiqamətində müvafiq funksiyaların həyata keçirilməsini öyrənilməsi üçün Azərbaycan Dövlət Xəzər Dəniz Gəmiçiliyində;

xarici ölkələrdə yaşayan vətəndaşlarımızın pensiya hüquqlarının təminatları ilə bağlı funksiyaların həyata keçirilməsi ilə bağlı məsələlərin öyrənilməsi üçün Azərbaycan Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyində və Dövlət Sosial Müdafiə Fondunda;

xarici ölkələrdə yaşayan Azərbaycan Respublikasının vətəndaşlarının və soydaşlarımızın hüquq və mənafelərinin qorunmasını təşkil edilməsini öyrənilməsi üçün Azərbaycan Respublikası Vəkillər Kollegiyasında;

təyin olunması nəzərdə tutulan ölkənin xüsusiyyətlərini nəzərə alaraq digər aidiyyəti dövlət orqanlarında və təşkilatlarda.

9. Əməkdaşın təcrübə keçdiyi Azərbaycan Respublikasının müvafiq dövlət orqanlarından rəylər alınır.

10. Təcrübə rəhbəri təcrübə keçən diplomatik xidmət əməkdaşının Xarici İşlər Nazirliyinin və aidiyyəti nazirlik və təşkilatların fəaliyyət istiqamətlərinə dair metodik vəsaitlər və zəruri hüquq ədəbiyyatı tövsiyə etməlidir. Təcrübə keçən əməkdaş təcrübə müddətində Azərbaycan Respublikası qanunvericiliyini, Azərbaycan Respublikası Xarici İşlər Nazirliyi üzrə əmr, göstəriş və təlimatları, habelə digər normativ xarakterli sənədləri öyrənməyə və düzgün tətbiq etməyə borcludur.

11. Təcrübə keçən əməkdaş tərəfindən hər ay təcrübə rəhbərinə yazılı hesabat təqdim edilir.

12. Təcrübə müddəti başa çatdıqdan sonra Konsulluq İdarəsi Azərbaycan Respublikasının müvafiq dövlət orqanlarından alınmış rəyləri əlavə olunmaqla Xarici İşlər Nazirinə əməkdaşın nəzəri və peşə hazırlığı barədə yekun rəy təqdim edir.

12. Diplomatik xidmət əməkdaşının Azərbaycan Respublikasının diplomatik nümayəndəlik və konsulluqlarına konsulluq məsələləri üzrə məsul vəzifəyə uzunmüddətli cəlb olunması məsələsinə Konsulluq İdarəsinin yekun rəyi nəzərə alınmaqla baxılır.

13. Təcrübə keçmə ilə əlaqədar digər məsələlər Azərbaycan Respublikası "Diplomatik Xidmət haqqında" Qanununu, "Azərbaycan Respublikası Xarici İşlər Nazirliyi haqqında Əsasnamə" və Azərbaycan Respublikası Xarici İşlər Nazirliyinin digər normativ sənədləri ilə nizama salınır.

Azərbaycan Respublikası Xarici İşlər nazirinin 16 iyul, 2007-ci il tarixli 994 nömrəli əmri ilə təsdiq edilmişdir.

BEYNƏLXALQ TƏŞKİLATLAR ÖZ TORPAQLARINDAN DİDƏRGİN DÜŞMÜŞ İNSANLARIN HÜQUQLARININ MÜDAFİƏSİ ÜÇÜN SƏYLƏRİNİ ARTIRMALIDIRLAR

Xarici İşlər naziri Elmar Məmmədyarov iyulun 17-də "Human Rights Watch" təşkilatının icraçı direktoru Kenet Ros ilə görüşmüşdür.

Görüşdə Azərbaycanda davam edən demokratikləşmə prosesi, təşkilat ilə Azərbaycan hökuməti, QHT-lər və insan haqlarının müdafiəsi sahəsində fəaliyyət göstərən qurumlar arasında əməkdaşlığın inkişaf perspektivləri müzakirə edilmişdir.

İnsan haqlarının qorunması istiqamətində aparılan işlər barədə qonağa məlumat verən nazir E.Məmmədyarov, Azərbaycanın müstəqilliyini bərpa etdikdən sonra nail olduğu uğurlardan və qarşıda duran vəzifələrdən söz açmışdır.

Nazir, Avropa və Avratlantik strukturlara inteqrasiya kursunun Azərbaycanın xarici si-

yasətinin prioritet sahələrindən olduğunu qeyd etmiş və ölkəmizin bu istiqamətdə inamla irəlilədiyini diqqətə çatdırmışdır.

Beynəlxalq təşkilatlar çərçivəsində insan hüquqlarının müdafiəsi məsələlərində Azərbaycanın səmərəli əməkdaşlığını qeyd edən K.Rot, ölkə qanunvericiliyində aparılmış islahatları yüksək qiymətləndirmiş və bu sahədə səylərin davam etdirilməsinin zəruriliyini vurğulamışdır.

E.Məmmədyarov Ermənistanın ölkəmizə qarşı işğalçılıq və etnik təmizləmə siyasəti nəticəsində bir milyona yaxın soydaşımızın qaçqın və məcburi köçkün vəziyyətinə düşdüyünü qonağın diqqətinə çatdırmışdır. O, bu münaqişənin tezliklə həll edilməsinin vacib olduğunu bildirərək, öz torpaqlarından didərgin düşmüş insanların hüquqlarının müdafiə edilməsi üçün beynəlxalq təşkilatlar tərəfindən bu istiqamətdə səylərin artırılmasının vacibliyini vurğulamışdır.

Görüşdə qarşılıqlı maraq doğuran digər məsələlər ətrafında fikir mübadiləsi aparılmışdır.

AZƏRBAYCAN RESPUBLİKASI XARİCİ İŞLƏR NAZİRLİYİNİN BƏYANATI

Ermənistan Respublikasının kütləvi informasiya vasitələrində yayılmış məlumatlara əsasən, Azərbaycan Respublikasının Dağlıq Qarabağ bölgəsində 19 iyul 2007-ci il tarixində qondarma "prezident seçkiləri"nin keçirilməsi hazırlanmaqdadır.

Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi bununla bağlı bir daha təkrar edir ki, Azərbaycanın işğal olunmuş ərazilərindəki tanınmamış separatçı rejim azərbaycanlı əhalinin etnik təmizlənməsi əsasında Ermənistan tərəfindən təşkil olunmuş qanunsuz qurumdan başqa bir şey deyildir. Qondarma "seçkilər" Ermənistanın qəsbkarlıq siyasətini ört-basdır məqsədi ilə keçirilir və Azərbaycanın ərazilərinin davam etməkdə olan işğalının nəticələrinin möhkəmləndirilməsinə yönəlmişdir.

Bu kimi "seçkilər"in keçirilməsi Azərbaycan Respublikasının Konstitusiyasının müvafiq müddəalarını və beynəlxalq hüququn norma və prinsiplərini kobud şəkildə pozaraq, heç bir hüquqi qüvvəyə malik deyildir. Eyni zamanda, sözügedən "seçkilər" Dağlıq Qarabağın əzəli azərbaycanlı əhalisi olmadan aparılır.

Azərbaycan Respublikasının Dağlıq Qarabağ bölgəsində keçirilən hər hansı seçkilər yalnız o vaxt ədalətli və azad qiymətləndirilə bilər ki, oradan qovulmuş azərbaycanlı əhali həmin seçkilərin keçirilməsində bütünlüklə, birbaşa və bərabər şəkildə bölgənin erməni əhalisi ilə birlikdə qanuni və demokratik seçkilərdə iştirak etsinlər. Bu cür seçkilərin keçirilməsi yalnız erməni işğalçı qüvvələrinin çıxarılmasından, bölgədə həyatın normallaşdırılmasından, Dağlıq Qarabağın erməni və azərbaycanlı icmaları arasında dialoq və əməkdaşlığın bərpası üçün zəruri şəraitin yaradılmasından sonra mümkün olacaqdır. Bu addımlar Azərbaycanın tərkibində Dağlıq Qarabağ əhalisi üçün muxtariyyət modelinin işlənib hazırlanması üçün imkanlar açacaqdır.

Azərbaycan Respublikası erməni tərəfini özünün heç bir perspektiv vəd etməyən qanunsuz addımlarından ibarət olan pozuculuq fəaliyyətini dayandırmağa və bunun əvəzinə xoş məram nümayiş etdirmək və münaqişənin beynəlxalq hüququn norma və prinsipləri əsasında tez və davamlı həllini tapmaq məqsədi ilə, danışıqlar prosesində konstruktiv mövqe tutmağa çağırır.

AZƏRBAYCAN RESPUBLİKASI XARİCİ İŞLƏR NAZİRLİYİNİN BƏYANATI

Azərbaycan Respublikası beynəlxalq ictimaiyyətin 2007-ci il iyulun 19-da Azərbaycan Respublikasının işğal olunmuş ərazilərində keçirilmiş belə adlanan "prezident seçkiləri" ilə əlaqədar aydın şəkildə ifadə edilmiş prinsipial və birmənalı mövqeyini alqışlayır. Azərbaycanın ərazi bütövlüyünə dəyişilməz hörmətini yenidən ifadə edərək və bu qeyri-qanuni "seçkiləri" rədd edərək, beynəlxalq ictimaiyyət azərbaycanlı məcburi köçkünlərin əzabları hesabına siyasi kapital əldə etməyə çalışanlara aydın siqnal vermişdir. Azərbaycan qeyri-qanuni "seçkilərin" davam edən sülh prosesinə mənfi təsiri ilə əlaqədar öz beynəlxalq tərəfdaşlarının narahatlığını bölüşür.

Ermənistan Respublikası tərəfindən onun anneksiya siyasətini və Azərbaycan ərazilərinin işğalını ört-basdır etmək üçün növbəti cəhdi tam və qaçılmaz uğursuzluqla nəticələndi. Öz əməlləri ilə Ermənistan tərəfi öz ictimaiyyətindən başqa heç kəsi aldatmır. Beynəlxalq ictimaiyyət Azərbaycanın işğal olunmuş ərazilərindəki vəziyyətdən yaxşı xəbərdardır.

Azərbaycan Respublikası erməni tərəfinin yeritməyə çalışdığı baş vermiş fakt əsasında həlli heç zaman qəbul etməyəcəkdir. Azərbaycanın Dağlıq Qarabağ bölgəsi və onun ətrafındakı münaqişə yalnız Azərbaycanın ərazi bütövlüyünə hörmət və beynəlxalq səviyyədə tanınmış sərhədlərinin toxunulmazlığı və Dağlıq Qarabağ bölgəsində Azərbaycanın tərkibində erməni və azərbaycanlı icmaların demokratiya və çiçəklənmənin faydalarından tam və bərabər şəkildə yararlanaraq dinc yanaşı yaşayışı əsasında həll oluna bilər.

Azərbaycan erməni tərəfinin Sankt-Peterburqda ATƏT-in Minsk qrupunun həmsədrlərinin müvafiq təkliflərini qəbul etməkdə uğursuzluğa uğradıqdan sonra öz yanaşmasını nəzərdən keçirəcəyini və konstruktiv kurs seçəcəyini gözləyir.

Azərbaycan bir daha erməni tərəfini öz destruktiv siyasətlərini dayandırmağa və dəyərli vaxtını israf etmək əvəzinə, münaqişənin tez və davamlı həllini tapmaq məqsədi ilə xoş inamla danışıqlar aparmağa çağırır.

ERMƏNİSTAN RƏHBƏRLİYİ DAĞLIQ QARABAĞ MÜNAQİŞƏSİNİN TEZLİKLƏ HƏLLİ ÜÇÜN SİYASİ İRADƏ NÜMAYİŞ ETDİRMƏLİDİR

Xarici İşlər naziri Elmar Məmmədyarov iyulun 20-də ölkəmizdə səfərdə olan Avropa İttifaqının (Aİ) Cənubi Qafqaz üzrə xüsusi nümayəndəsi Peter Semnebinin başçılıq etdiyi nümayəndə heyəti ilə görüşmüşdür.

Nazir E.Məmmədyarov Avropa və Avratlantika strukturlarına inteqrasiya kursunun Azərbaycanın xarici siyasətinin prioritet istiqamətlərindən olduğunu qeyd edərək, ölkəmizin bütün beynəlxalq təşkilatlarla, o cümlədən Avropa İttifaqı ilə münasibətlərin genişləndirilməsində maraqlı olduğunu vurğulamışdır.

Bakıda keçirdiyi görüşlərin hər iki tərəf üçün səmərəli olduğunu qeyd edən P.Semnebi, səfərinin Azərbaycanda qarşıdan gələn Milli Mətbuat gününə təsadüf etdiyini söyləmişdir. O, Azərbaycan ilə Aİ arasında qarşılıqlı şəkildə faydalı inkişaf edən əməkdaşlıqdan söz açaraq, mətbuat nümayəndələrinin peşəkarlığının artırılması üçün müvafiq kurs

və seminarların təşkili barədə Azərbaycan hökumətinin təşəbbüsünü yüksək qiymətləndirmişdir. Diplomat təmsil etdiyi təşkilatın bu istiqamətdə də Azərbaycanla sıx əməkdaşlıqda maraqlı olduğunu diqqətə çatdırmışdır.

Tərəflər Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həllinə yönəlmiş danışıqlar prosesi, regionda enerji təhlükəsizliyi və bu sahədə əməkdaşlığın genişləndirilməsi məsələləri ətrafında müzakirələr aparmışlar.

Nazir E.Məmmədyarov Avropanın bir hissəsi olmaq istəyən Ermənistanın ölkəmizə qarşı apardığı işğalçılıq və etnik təmizləmə siyasətinin yolverilməz olduğunu diqqətə çatdıraraq, Dağlıq Qarabağ münaqişəsinin beynəlxalq hüququn norma və prinsipləri əsasında, Azərbaycanın ərazi bütövlüyü çərçivəsində həllinin vacibliyini vurğulamışdır. O, münaqişənin tezliklə həlli, qaçqın və məcburi köçkünlərin doğma torpaqlarına qaytarılması və regionda təhlükəsizliyin möhkəmləndirilməsi üçün Ermənistan rəhbərliyinin siyasi iradə nümayiş etdirməsinin zəruriliyini qeyd etmişdir.

Görüşdə qarşılıqlı maraq doğuran digər məsələlər ətrafında da fikir mübadiləsi aparılmışdır.

AŞQABADDA XƏZƏR DƏNİZİNİN HÜQUQİ STATUSUNA DAİR AZƏRBAYCAN VƏ TÜRKMƏNİSTAN TƏRƏFİ ARASINDA DANIŞIQLARIN NÖVBƏTİ RAUNDU BAŞA ÇATMIŞDIR

İyulun 20-də Aşqabadda Xəzər dənizinin hüquqi statusuna dair Azərbaycan və Türkmənistan tərəfi arasında danışıqların növbəti raundu başa çatmışdır.

Danışıqlardan əvvəl Azərbaycan nümayəndə heyətinin rəhbəri, xarici işlər nazirinin müavini Xələf Xələfovun Türkmənistanın xarici işlər naziri Rəşid Meredov ilə görüşündə Azərbaycan-Türkmənistan münasibətlərinin əsas aspektləri ətraflı müzakirə olunmuşdur.

Qeyd edilmişdir ki, ölkələrimizin prezidentləri arasında yaranmış dialoq, xüsusilə də Sankt-Peterburqda keçirilmiş görüş və danışıqlar, bu çərçivədə əldə olunmuş razılaşmalar ikitərəfli münasibətlərin fəallaşmasına təkan vermişdir. Azərbaycan-Türkmənistan hökumətlərarası iqtisadi əməkdaşlıq komissiyasının yaradılması ölkələrimizin iqtisadi, sosial, humanitar əlaqələrinin digər istiqamətlərinin inkişafı üçün yaxşı zəmin yaratmışdır.

Türkmənistan tərəfi ikitərəfli əlaqələrin fəal mərhələyə qədəm qoyduğunu, həmçinin yaxın zamanlarda Türkmənistanın Bakıda səfirliyinin açılacağını bildirmişdir. Habelə qeyd edilmişdir ki, ölkələrimiz arasında mövcud mədəni və humanitar əlaqələr bütövlükdə münasibətlərin hərtərəfli inkişafına xidmət etmişdir.

Xəzər dənizinin statusu üzrə danışıqlarda hüquqi məsələlər müzakirə olunmuş, eyni zamanda bölgü ilə əlaqədar aspektlər ətrafında geniş fikir mübadiləsi və mövqelərin tutuşdurulması aparılmışdır. Hüquqi statusun konkret elementlərinə dair müzakirələrin davam etdirilməsi məqsədəmüvafiq hesab olunmuşdur. Növbəti görüşün sentyabrda Bakıda keçirilməsi təklif edilmişdir.

AZƏRBAYCAN VƏ RUSİYA TELEVİZİYA VƏ RADİO VERİLİŞLƏRİNİN QARŞILIQLI YAYIMLANMASINA DAİR RAZILIĞA GƏLMİŞLƏR

İyulun 23-də Xarici İşlər Nazirliyində Azərbaycan Respublikası və Rusiya Federasiyasının nümayəndə heyətləri arasında Azərbaycan və Rusiya teleradio yayım təşkilatlarının verilişlərinin hər iki ölkə ərazisində yayımlanmasına dair danışıqlar keçirilmişdir.

Xarici işlər nazirinin müavini Xələf Xələfovun rəhbərlik etdiyi Azərbaycan nümayəndə heyətinin tərkibinə Xarici İşlər, Rabitə və İnformasiya Texnologiyaları nazirliklərinin, "Azərbaycan Televiziya və Radio Verilişləri" Qapalı Səhmdar Cəmiyyətinin, Milli Televiziya və Radio Şurasının təmsilçiləri daxil olmuşlar.

Rusiyanın mədəniyyət və kommunikasiyalar nazirinin birinci müavini Leonid Nadirovun rəhbərlik etdiyi nümayəndə heyəti isə Rusiyanın Xarici İşlər, Mədəniyyət və Kommunikasiyalar nazirliklərinin, "Birinci kanal" Qapalı Səhmdar Cəmiyyətinin, "RTR" Qapalı Səhmdar Cəmiyyətinin əməkdaşlarından ibarət olmuşdur. Həmçinin görüşdə Rusiya Federasiyasının Azərbaycandakı səfiri Vasili İstratov iştirak etmişdir.

Görüşdə "Rusiya Federasiyası Hökuməti və Azərbaycan Respublikası Hökuməti arasında Rusiya Federasiyasının teleradio yayım təşkilatlarının Azərbaycan Respublikası ərazisində və Azərbaycan Respublikasının teleradio yayım təşkilatlarının Rusiya Federasiyası ərazisində verilişlərinin yayımlanmasının qaydaları və şərtləri haqqında Saziş" layihəsi razılaşdırılmışdır.

Eyni zamanda, yayım üzrə xidmətlərin göstərilməsi haqqında texniki müqavilə layihəsinin ekspertlər səviyyəsində müzakirəsinin davam etdirilməsinə dair razılıq əldə olunmuşdur.

DİPLOMATİK NÜMAYƏNDƏLİK VƏ KONSULLUQLARDA ÇALIŞAN MÜHASİBLƏRİN BİRİNCİ MÜŞAVİRƏSİ KEÇİRİLMİŞDİR

Cari ilin iyul ayının 23-25 tarixlərində Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyində Azərbaycan Respublikasının diplomatik nümayəndəlik və konsulluqlarında çalışan mühasiblərin birinci müşavirəsi keçirilmişdir.

Müşavirədə 2004-2006-cı illər ərzində Azərbaycan Respublikasının diplomatik nümayəndəlik və konsulluqlarında aparılmış təftişlərin nəticələri, 2006-cı ilin illik hesabatları təhlil olunmuş, 2008-ci və sonrakı 3 il üçün büdcə layihələri müzakirə olunmuş, tövsiyələr verilmişdir. Eyni zamanda, mühasibat uçotunun beynəlxalq standartlara keçidi haqqında məruzə dinlənilmişdir.

Müşavirədə həmçinin Maliyyə Nazirliyinin, Vergilər Nazirliyinin və Dövlət Əmlakının İdarə Edilməsi üzrə Dövlət Komitəsinin məsul əməkdaşları da iştirak etmişlər.

Tədbir zamanı iştirakçılar tərəfindən verilən suallar cavablandırılmış, Azərbaycan Respublikasının diplomatik nümayəndəlik və konsulluqlarında qarşıya çıxan bəzi problemlərin aradan qaldırılması yolları müzakirə olunmuşdur.

Müşavirənin sonunda müvafiq Qərar yekdilliklə qəbul olunmuş və imzalanmışdır.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV RUSİYA FEDERASİYASI XARİCİ İŞLƏR NAZİRİNİN MÜAVİNİ SERGEY KİSLYAKIN RƏHBƏRLİK ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİNİ QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyulun 26-da Prezident sarayında Rusiya Federasiyası xarici işlər nazirinin müavini Sergey Kislyakın rəhbərlik etdiyi nümayəndə heyətini qəbul etmişdir.

Sergey Kislyak ölkəmizə səfərinin Rusiya ilə Azərbaycan arasında müxtəlif sahələrdə münasibətlər ətrafında müzakirələrin aparılması üçün yaxşı imkan yaratdığını qeyd etdi. Qonaq Rusiyanın Azərbaycana dost və strateji tərəfdaş kimi baxdığını bildirdi. O, iki ölkənin prezidentləri arasında keçirilən görüşlərin əlaqələrimizin daha da gücləndirilməsinə xüsusi təkan verdiyini vurğuladı.

Dövlətimizin başçısı bu yaxınlarda Rusiya Federasiyasının Prezidenti Vladimir Putin ilə keçirdiyi görüşü məmnuniyyətlə xatırlayaraq, bu görüş zamanı ikitərəfli münasibətlər, regionda vəziyyət və digər məsələlər ətrafında geniş müzakirələrin aparıldığını qeyd etdi. Prezident İlham Əliyev ölkələrimiz arasında münasibətlərin səmimi, etibarlı və möhkəm xarakter daşıdığını bildirdi və əlaqələrimizin inkişafından məmnunluğunu ifadə etdi. O, Azərbaycan ilə Rusiya arasında bütün sahələrdə əməkdaşlığın bundan sonra da genişlənəcəyini vurğuladı.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV İORDANİYA KRALI DİVANININ SİYASİ XƏBƏRLƏR ÜZRƏ BAŞ MÜXBİRİ, İORDANİYA TELEVİZİYA VƏ RADİO KORPORASİYASININ BAŞ REDAKTORU VƏ PRODÜSERİ İMAN AKOURA MÜSAHİBƏ VERMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyulun 27-də Prezident sarayında İordaniya Kralı Divanının siyasi xəbərlər üzrə baş müxbiri, İordaniya Televiziya və Radio Korporasiyasının baş redaktoru və prodüseri İman Akoura müsahibə vermişdir.

Dövlətimizin başçısı Azərbaycan ilə İordaniya arasında siyasi, iqtisadi və digər sahələrdə münasibətlərin hazırkı vəziyyəti, ikitərəfli əlaqələrin gələcək inkişafı, regional təhlükəsizlik, İordaniyaya qarşıdakı rəsmi səfəri və bu səfərin əməkdaşlığımızın müxtəlif sahələrdə daha da genişlənməsinə töhfəsi və digər məsələlərlə bağlı suallara cavab vermişdir.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN İORDANİYAYA RƏSMİ SƏFƏRİ

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyulun 29-da İordaniya Haşimilər Krallığına rəsmi səfərə gəlmişdir.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN VƏ İORDANİYA KRALI II ABDULLAHIN TƏKBƏTƏK GÖRÜŞÜ

İyulun 29-da Bəsman sarayında Azərbaycan Prezidenti İlham Əliyevin və İordaniya Kralı II Abdullahın təkbətək görüşü olmuşdur.

Görüşdə ikitərəfli əlaqələrin müxtəlif sahələrdə uğurla inkişaf etdiyi vurğulandı, qarşılıqlı səfərlərin əhəmiyyəti qeyd olundu. Azərbaycan Prezidentinin bu ölkəyə rəsmi səfərinin əlaqələrimizin daha da güclənməsi işinə xidmət edəcəyi bildirildi. Dövlət başçıları iki ölkə arasında əməkdaşlığın bundan sonra da genişlənəcəyinə əminliklərini ifadə etdilər.

SƏNƏDLƏRİN İMZALANMA MƏRASİMİ

İyulun 29-da Bəsman sarayında Azərbaycan Prezidenti İlham Əliyevin və İordaniya Kralı II Abdullahın iştirakı ilə sənədlərin imzalanma mərasimi olmuşdur.

"2007-2009-cu illər üçün Azərbaycan Respublikası Hökuməti və İordaniya Haşimilər Krallığı Hökuməti arasında təhsil, elm, mədəniyyət və incəsənət, gənclər və idman, səhiyyə və media sahələrində əməkdaşlıq üzrə icradici proqram"ı Azərbaycan tərəfindən xarici işlər naziri Elmar Məmmədyarov, İordaniya tərəfindən planlaşdırma və beynəlxalq əməkdaşlıq naziri xanım Süheyr əl-Əli imzaladılar.

"Bakı Şəhəri İcra Hakimiyyəti və Böyük Əmman bələdiyyəsi arasında dostluq və əməkdaşlıq haqqında protokol"u Bakı Şəhəri İcra Hakimiyyətinin başçısı Hacıbala Abutalıbov və Böyük Əmman bələdiyyəsinin meri Ömər əl- Məəni imzaladılar.

"Azərbaycan Respublikası Hökuməti və İordaniya Haşimilər Krallığı Hökuməti arasında ticarət, iqtisadi və texniki əməkdaşlıq üzrə hökumətlərarası komissiya haqqında protokol"u Azərbaycan tərəfindən iqtisadi inkişaf naziri Heydər Babayev, İordaniya tərəfindən sənaye və ticarət naziri Salim Xəzaaleh imzaladılar.

"Azərbaycan-İordaniya İşgüzar Şurasının təsis olunmasına dair saziş"i Azərbaycan tərəfindən iqtisadi inkişaf naziri Heydər Babayev, İordaniya tərəfindən İordaniya İş Adamları Assosiasiyası sədrinin müavini Tabit əl- Tahir imzaladılar.

AZƏRBAYCAN PREZİDENTİNİN ŞƏRƏFİNƏ RƏSMİ NAHAR

İyulun 29-da Bəsman sarayında İordaniya Kralı əlahəzrət II Abdullahın adından Azərbaycan Prezidenti İlham Əliyevin şərəfinə rəsmi nahar verilmişdir.

Rəsmi naharda söhbət zamanı Kral II Abdullah ölkələrimiz arasında əlaqələrin uğurla inkişaf etdiyini vurğuladı, Azərbaycan Prezidenti İlham Əliyevin Əmmana rəsmi səfərinin qarşılıqlı əməkdaşlığın inkişafına yeni təkan verəcəyini söylədi. O dedi ki, bu səfərdən sonra əlaqələrimiz daha da genişlənəcək və bunun üçün böyük potensial vardır.

Prezident İlham Əliyev Azərbaycan və İordaniya arasında siyasi və digər sahələrdə əlaqələrin uğurla inkişaf etdiyini bildirdi. Dövlətimizin başçısı dedi ki, iqtisadi münasibətlərin səviyyəsinin daha da yüksəldilməsi zəruridir. Bu səfər qarşılıqlı əlaqələrimizdə

yeni sahələrin müəyyənləşdirilməsi və yeni perspektivlərin açılması üçün çox əhəmiyyətli olacaqdır.

Prezident İlham Əliyev ölkəmizdə gedən iqtisadi inkişaf proseslərindən danışdı və Azərbaycanın bölgədə rolunun getdikcə artdığını vurğuladı. Dövlətimizin başçısı dedi ki, Azərbaycan Asiya ilə Avropa arasında iqtisadi dəhliz rolunu oynayır və bu, İordaniya üçün də faydalı və əhəmiyyətlidir. İordaniya bu imkandan istifadə edə bilər.

Söhbət zamanı turizm, mədəniyyət və digər sahələrdə də əməkdaşlığın genişləndirilməsi üçün böyük imkanların olduğu vurğulandı.

ƏMMAN ŞƏHƏR MERİYASINDA GÖRÜŞ

Iyulun 29-da Azərbaycan Prezidenti İlham Əliyev Əmman şəhər meriyasına gəlmişdir.

Dövlətimizin başçısını binanın önündə paytaxtın meri Ömər əl-Məəni böyük hörmət və ehtiramla qarşıladı. Ömər əl-Məəni şəhərdə gedən tikinti, quruculuq və abadlıq işləri, eləcə də paytaxtın problemləri və digər məsələlər barədə Azərbaycan Prezidentinə məlumat verdi.

***

Görüşdən sonra şəhər meriyasının binasında paytaxtın əsas küçələrindən birinə "Heydər Əliyev prospekti" adının verilməsi münasibətilə mərasim keçirildi.

Əmmanın şərq hissəsində yeni salınmış Bədr rayonunda uzunluğu 6,5 kilometr olan əsas mərkəzi küçə bundan sonra xalqımızın ümummilli liderinin xatirəsinə "Heydər Əliyev prospekti" adlanacaqdır.

Ümumiyyətlə, Əmman şəhərinin sahəsi 1700 kvadratkilometrə çatmışdır ki, bu da Moskvanın sahəsindən 600 kvadratkilometrdən də çoxdur.

Mərasimi Əmman şəhərinin meri Ömər əl-Məəni açdı.

ƏMMAN BƏLƏDİYYƏSİNİN BAŞÇISI ÖMƏR ƏL-MƏƏNİNİN ÇIXIŞI

- Zati-aliləri,

Hörmətli qonaqlar,

Xanımlar və cənablar!

Mən bu gün hörmətli qonağımızı, Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevi salamlamaqdan olduqca məmnunam. Ölkəmiz mədəniyyətlərin qovuşuğunda yerləşir və sərmayələr ilə bilikər sahəsində regional mərkəzə çevrilmişdir. Paytaxt şəhərimiz isə, dünya xəritəsində çoxəsrlik tarixi, dini köklərə və ənənələrə malik bir şəhər kimi tanınır. Regionumuzun ən inkişaf edən ölkəsi olan İordaniya öz vətəndaşlarının rifahı üçün çalışır. Şəhərimizin bələdiyyəsi mədəni dəyərləri və tarixi irsini qoruyub saxlayaraq, əhaliyə keyfiyyətli xidmətlər göstərməkdədir. Qarşımızda qoyduğumuz ən əsas məqsəd şəhər sakinləri üçün münasib həyat şəraitini təmin etməkdən ibarətdir. Paytaxt əhalisinin rifahının yüksəlməsi bizim üçün ümdə məsələdir. Biz həyata keçirdiyimiz layihələrdə ictimaiyyətin iştirakını təmin etməyə çalışırıq. Bu işlərə, əsa-

sən, gəncləri cəlb edirik, çünki onlar şəhərimizin gələcəyidir. Onlar Əmman şəhərinin gələcək inkişaf planlarının tərtibinə töhfə verirlər. Biz həmçinin ətraf mühit, mədəni irsin qorunması, nəqliyyat və infrastrukturun inkişafı, sərmayə qoyuluşu və şəhər əhalisinin artması ilə bağlı yaranan məsələləri həll edirik.

Bələdiyyəmiz hər kəsin iştirakına açıq olan şəffaf şəhərsalma planının formalaşması prosesinə sadiqdir. Dövlət sektorunun və özəl sektorun tələbatları şəffaf formada nəzərə alınır. "Əmman şəhəri inkişaf edən canlı orqanizm kimi" şüarını rəhbər tutaraq, şəhərin inkişafı və şəhərsalma planlarının həyata keçirilməsi qarşımızda duran mürəkkəb məsələlərdir. Əmman öz xüsusiyyəti ilə seçilən şəhərdir.

Ölkəmizi və paytaxtımızı xüsusi səciyyələndirən amil İordaniya xalqıdır. Ölkəmizə pənah gətirmiş ailələr, dostlarımız və qonşularımız müxtəlif dini və mədəni köklərə malik şəxslərdir. Məhz bu amil ölkəmizi və Əmmanı xüsusi məkana çevirir. Sivilizasiyanın qədim tarixi, paytaxt şəhərimizin formalaşması, çoxmədəniyyətlilik, müxtəliflik vətənimizə xas meyarlardır.

Ümid edirik ki, bugünkü tarixi səfər çərçivəsində Bakı ilə Əmman arasında imzalanmış sənəd nəticəsində təcrübə mübadiləsi edərək, xalqlarımızın rifahına daha yaxından xidmət göstərəcəyik.

Mən eyni zamanda, məmnunluqla məlumat verirəm ki, Əmman şəhərinin əsas küçələrindən birinə Azərbaycanın keçmiş Prezidenti Heydər Əliyevin adı verilmişdir. Allah ona rəhmət eləsin!

Cənab Prezident!

Hörmətli qonaqlar!

Mən sizi bir daha Əmman bələdiyyəsində salamlayır, diqqətinizə görə minnətdarlığımı bildirirəm.

***

Sonra Əmman şəhərinin tarixi və bu günü, eləcə də ulu öndərin adı verilmiş prospektlə bağlı film göstərildi.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN ÇIXIŞI

- Əziz dostlar!

İlk növbədə, mənə və nümayəndə heyətimizin üzvlərinə göstərilmiş və gözəl ölkənizə səfərimizin lap əvvəlindən hiss etdiyimiz səmimi qonaqpərvərliyə görə Əmman bələdiyyəsinə minnətdarlığımı bildirmək istəyirəm.

Bu gün Böyük Əmman Şəhər Şurasında biz qədim Əmman şəhərinin tarixinə və hazırkı inkişafına həsr olunmuş maraqlı təqdimatla tanış olduq. Ölkənizin inkişafı və müasirləşdirilməsində İordaniya xalqının əldə etdiyi nailiyyətlər gözəl Əmman şəhərinin bugünkü inkişafında da əks olunmuşdur.

Bu gün Ammanın küçələrinin birinə Heydər Əliyevin adının verilməsi bizim hamımız üçün çox böyük şərəfdir. Mən şəhər bələdiyyəsinin rəhbərliyinə, onun bütün üzvlərinə və cənab merə bu qərarın qəbul edilməsinə görə minnətdarlığımı bildirmək istəyirəm.

Bu, ikitərəfli əlaqələrimizin olduqca mühüm elementidir və ulu öndərimizin xatirəsinə ən böyük hörmət əlamətidir.

Heydər Əliyev müasir Azərbaycanın banisidir. Azərbaycan müstəqilliyini qazandıqdan sonra, ölkəmiz çox ağır vəziyyətdə idi. Ölkədə siyasi böhran, iqtisadi tənəzzül, vətəndaş müharibəsi baş verdi. Biz Ermənistanın təcavüzü və torpaqlarımızın işğalı ilə üzləşdik və gənc suveren ölkənin müstəqilliyi sual altında idi. Xalq ümummilli liderinə müraciət edərək, bu problemləri həll etmək məqsədi ilə onu dəvət etdi. Heydər Əliyev hələ sovet vaxtlarında, yəni 1970-ci illərdə Azərbaycana rəhbərlik etmişdir. O vaxt Heydər Əliyev ölkənin sənayeləşdirilməsi prosesində çox mühüm rol oynamışdır. Daha sonra, o, Sovetlər Birliyində Siyasi Büronun aparıcı üzvlərindən biri olmuşdur. Heydər Əliyev Sovet İttifaqının Nazirlər Soveti sədrinin birinci müavini vəzifəsində çalışmışdır. Sonrakı bir neçə il təcrid şəraitində yaşamışdır. Azərbaycanın 1990-cı ildə sovet ordusunun təcavüzündən əziyyət çəkdiyi bir vaxt, o, ictimaiyyət qarşısında bu təcavüzü pislədi. Sovet dövlətinin Azərbaycan xalqına qarşı yeritdiyi və günahsız insanların kütləvi qırğını ilə nəticələnmiş siyasətə etiraz əlaməti olaraq, uzun illər üzvü olduğu Kommunist Partiyasını tərk etdi.

Bu hadisələrdən sonra, onun doğma şəhəri Naxçıvanda olan soydaşları onu oraya dəvət etdilər. O, 1990-cı illərin əvvəlində, ən çətin illərdə, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sədri seçildi və Naxçıvanın Ermənistanın təcavüzündən qorunmasında olduqca mühüm rol oynamışdır. Həmin vaxt, Ermənistanın işğalçı qüvvələri tarixi torpaqlarımızı – Dağlıq Qarabağı və digər yeddi rayonu zəbt etməyə başlamışdı. Naxçıvan Azərbaycanın ərazisindən aralı yerləşən və Ermənistan tərəfindən əhatə olunan məkandır. Onun Azərbaycanla birbaşa əlaqəsi yoxdur. Ona görə Azərbaycanın həmin ərazisinin bir hissəsini işğaldan qorumaq o qədər də asan iş deyildi. Amma o, Naxçıvan camaatı ilə birlikdə bunun öhdəsindən gəldi. 1993-cü ildə, Azərbaycanın bir müstəqil ölkə kimi gələcək mövcudluğu sual altında olan bir vaxtda, xalq onu ölkəyə rəhbərlik etməyə dəvət etdi.

1993-cü ildən 2003-cü ilə qədər çəkən dövr sabitlik, iqtisadi inkişaf, iqtisadi artım, beynəlxalq səviyyədə fəaliyyət dövrü oldu. Bu gün isə ölkəmiz beynəlxalq birliyin çox vacib üzvüdür. Azərbaycan iqtisadiyyatı dalbadal üçüncü ildir dünyada ən sürətlə inkişaf edən iqtisadiyyatdır. Bu gün əldə etdiyimiz nailiyyətlər – iqtisadi inkişaf, sosial problemlərin həlli, beynəlxalq birliyə fəal inteqrasiya ümummilli liderimizin fəaliyyəti sayəsində mümkün olmuşdur. O, müasir Azərbaycanın əsasını qoydu və biz bu gün onun siyasətini bütün sahələrdə davam etdiririk. Biz çox fərəhlənirik ki, bu gün onun başladığı işləri həyata keçiririk və beləliklə, ölkənin müasirləşdirilməsi davam etdirilir.

Ölkələrimizin tarixində bir çox oxşarlıqlar var. Hər iki ölkənin liderləri - Kral Hüseyn bin Tələl və Heydər Əliyev ölkələrimizin və xalqlarımızın inkişafında müstəsna rol oynamışlar. Onların xatirəsi xalqlarımızın ürəyində yaşayır. Bu gün dostluğumuz davam edir. İordaniya və Azərbaycanın rəhbərləri dostluq, qardaşlıq ənənəsini davam etdirirlər.

Qardaşım Kral Abdullah ötən il Azərbaycana rəsmi səfər etmişdir. Bu gün, mən İordaniyada səfərdəyəm. Biz ölkələrimiz arasında bir çox sənədlər imzaladıq. Onların digər hissəsi sabah imzalanacaq və əməkdaşlığımızın bir çox sahələrini əhatə edəcəkdir.

Əminəm ki, gələcək inkişaf dövründə xalqlarımız arasında daha çox təmasların şahidi olacağıq. Onlar bir-birini daha yaxından tanıyacaqlar. İqtisadi layihələrimiz qarşılıqlı rifaha xidmət edəcəkdir və ölkələrimiz arasında siyasi əlaqələr daha da möhkəmlənəcəkdir.

Mən, eyni zamanda, bəyan etmək istəyirəm ki, bu yaxınlarda Bakı şəhərinin mərkəzi küçələrindən birinə Kral Hüseyn bin Tələlin adı verilmişdir. Allah ona rəhmət eləsin! Bu, həm də dostluq və qardaşlıq əlamətidir. Onun xatirəsinə və ölkənizin inkişafına, regionda sülh və sabitliyin bərqərar olmasına verdiyi töhfəsinə hörmət əlamətidir.

Mən bizə göstərilmiş səmimi qonaqpərvərliyə görə bir daha hamıya minnətdarlığımı bildirmək istəyirəm. Əmman şəhərinin küçəsinə Heydər Əliyevin adının verilməsinə görə Azərbaycan xalqı adından təşəkkürümü ifadə edirəm, bütün İordaniya xalqına sülh, çiçəklənmə və gələcəkdə uğurlar diləyirəm. Sağ olun.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVƏ İORDANİYA UNİVERSİTETİNİN FƏXRİ DOKTORU ADI VERİLMİŞDİR

Iyulun 29-da Əmmanda Azərbaycan Prezidenti İlham Əliyevə İordaniya Universitetinin siyasi elmlər üzrə Fəxri doktoru adı verilməsi münasibətilə mərasim keçirilmişdir.

Dövlətimizin başçısı əvvəlcə universitetin Elmi Şurasının üzvləri ilə görüşdü, burada ali məktəbin Fəxri doktoru mantiyasını geyindi.

Azərbaycanın və İordaniyanın dövlət himnləri səsləndirildi.

Universitetin rektoru, professor HANİ DUMOR mərasimi açaraq dedi:

-Zati-aliləri Azərbaycan Respublikasının Prezidenti İlham Heydər oğlu Əliyev!

Hörmətli mərasim iştirakçıları!

İordaniya Universiteti bu gün xoş bir hadisəni bayram təntənəsi ilə qeyd edir. Bu gün biz akademik bir şəxsiyyət və dövlət xadimi olan Azərbaycan Respublikasının Prezidenti zati-alilərı cənab İlham Əliyevə fəxri doktor adı verməkdən şərəf duyuruq. Fəxri doktor adının verilməsi ilə bu nüfuzlu şəxsiyyət, eyni zamanda, bizim universitetin pedaqoji kollektivinin üzvü olur.

Zati-alilərı cənab Prezident, İordaniya Universiteti bu gün Sizə siyasi elmlər sahəsində Fəxri doktor adı verməklə sonsuz sevinc hissləri keçirir. Bu, Sizin siyasət və xalqınıza xidmət sahəsində göstərdiyiniz fəaliyyətin nəticəsi də sayılmalıdır.

Mən indi Sizə bu dərəcənin verilməsi haqqında qərarın mətnini oxuyuram.

Zati-alilərı cənab İlham Əliyev beynəlxalq əlaqələr və onun tarixinin öyrənilməsində həm bakalavr, həm də magistr dərəcələrində yüksək nailiyyətlər əldə etmişdir. Sonradan o, tarix sahəsində elmi dərəcə alaraq, ali məktəbdə kadr hazırlığı ilə məşğul olmuş və mühazirələr oxumuşdur. O, həmçinin öz bilik və bacarığı ilə bir sıra sahələrə müvəffəqiyyətlə rəhbərlik etməklə orada istehsalın və keyfiyyətin yüksək dərəcədə artmasına nail olmuşdur.

Cənab İlham Əliyev sənaye, xüsusilə neft sənayesi siyasəti sahəsində apardığı uğurlu tədqiqatları işdə müvəffəqiyyətlə həyata keçirmiş və bu sahədə onun strategiyası xüsu-

si uğur qazanmışdır. O, parlamentin deputatı kimi fəaliyyət göstərdiyi illərdə ölkə üçün, öz seçiciləri üçün həyati əhəmiyyət kəsb edən məsələlərin həllinə, o cümlədən Avropa ilə və bizimlə olan əlaqələrə əvəzsiz töhfələr vermişdir.

Azərbaycan Milli Olimpiya Komitəsinin prezidenti kimi fəaliyyəti dövründə cənab İlham Əliyev idmanın Olimpiya növlərinin və bir çox başqa sahələrinin inkişafında da xüsusi xidmətlər göstərmişdir və ölkə idmanını beynəlxalq səviyyədə tanıtmağa nail olmuşdur.

Azərbaycan Respublikasının Baş naziri kimi o, üzərinə qoyulmuş vəzifənin öhdəsindən yüksək diplomatik bacarığı və xüsusi idarəçilik qabiliyyəti ilə müvəffəqiyyətlə gəlmişdir.

Yeni Azərbaycan Partiyasına rəhbərliyi dövründə cənab İlham Əliyev yüksək təşkilatçılıq məharəti ilə partiyanın fəaliyyətinin daha da təkmilləşdirilməsi və onun Azərbaycanın siyasi həyatındakı rolunun möhkəmləndirilməsində müstəsna rol oynamışdır.

Azərbaycanın Avropa Şurası Parlament Assambleyasındakı nümayəndə heyətinin başçısı kimi o, öz yüksək siyasi bacarığını bir daha nümayiş etdirmişdir.

Azərbaycan Respublikasının Baş naziri və sonradan ölkənin Prezidenti kimi cənab İlham Əliyev Azərbaycanın inkişafı və iqtisadi intibahında, ölkənin taleyüklü problemlərinin həllində, o cümlədən beynəlxalq və regional əlaqələrinin möhkəmləndirilməsində müstəsna rol oynamışdır. Bütün bunlarla yanaşı, xalqlar arasında qarşılıqlı anlaşmaya və sivilizasiyalararası dialoqa dərindən inanan, dünyada və regionda sülhün bərqərar olmasına xüsusi önəm verən bir şəxsiyyət kimi cənab İlham Əliyev bir çox milli və beynəlxalq komissiyalara inamla başçılıq etmişdir. O, ingilis, rus, fransız və türk dillərini mükəmməl bilir. Bir çox beynəlxalq təşkilatlar tərəfindən yüksək mükafatlar, orden və medallarla təltif edilmiş, dünyanın bir sıra tanınmış universitetlərinin, o cümlədən bizim universitetin Fəxri doktoru seçilmişdir.

Zati-aliləri İlham Heydər oğlu Əliyevin parlaq siyasi və akademik fəaliyyətini yüksək qiymətləndirərək, İordaniya Universiteti onu siyasi elmlər sahəsində Fəxri doktor seçməkdən şərəf duyur.

Mənə verilmiş səlahiyyət çərçivəsində icazə verin, İlham Heydər oğlu Əliyevə Fəxri doktor diplomunu təqdim edim.

(Rektor Fəxri doktor diplomunu və digər nişanələri dövlətimizin başçısına təqdim etdi).

Əziz mərasim iştirakçıları, sözü əlahəzrət Kral II Abdullah ibn Hüseynin və İordaniyanın ali qonağı zati-aliləri cənab İlham Əliyevə verirəm.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN NİTQİ

- Əziz dostlar!

Hörmətli xanımlar və cənablar!

İlk növbədə, bu gün həyatımda mühüm hadisə hesab etdiyim bu toplantıya gəldiyinizə görə hamınıza minnətdarlığımı bildirmək istəyirəm. Mən universitetinizin Fəxri doktoru dərəcəsini almaqdan çox məmnunam və böyük şərəf hissi duyuram.

Universitetiniz regionun aparıcı təhsil mərkəzlərindən biridir. Buna görə də bu cür yüksək dərəcəyə layiq görülmək böyük şərəfdir. Mən sizi əmin etmək istəyirəm ki, gələcəkdə İordaniya ilə Azərbaycan arasında dostluq və qardaşlıq əlaqələrinin inkişafına verdiyim töhfəni davam etdirəcəyəm.

Bu gün mənim ölkənizə ilk rəsmi səfərimin birinci günüdür. Əminəm ki, bu səfər münasibətlərimizin inkişafında mühüm mərhələ olacaqdır. Ötən il əlahəzrət Kral II Abdullah Azərbaycana rəsmi səfər etmişdir. Bizim çox mühüm danışıqlarımız, fikir mübadiləmiz və müzakirələrimiz olmuşdur. Bu səfər olduqca intensiv dialoqun davamıdır. Səfər zamanı ikitərəfli əlaqələrimizin möhkəm bünövrəsini qoyan bir çox sənədlər imzalanmışdır. Həmin sənədlər birgə fəaliyyətimizin bütün sahələrini əhatə edir. Ümid edirik ki, əla siyasi münasibətlərlə yanaşı, bizim yaxın gələcəkdə gözəçarpan iqtisadi işlərimiz də olacaqdır. Müxtəlif iqtisadi sahələrdə birgə layihələrimiz həyata keçiriləcəkdir. Biz işbirliyini qurmaq məqsədi ilə özəl sektoru həvəsləndirəcəyik. Əlbəttə, bütün bu addımlar münasibətlərimizin gələcək inkişafına töhfə verəcəkdir.

Dövlət rəhbərlərinin qarşılıqlı rəsmi səfərləri ölkələrimiz arasında əlaqələrin inkişafına aydın şəkildə verdiyimiz əhəmiyyətdən xəbər verən çox vacib hadisələrdir. Bu əhəmiyyətin digər vacib elementi Azərbaycanın İordaniyada və İordaniyanın Azərbaycanda səfirliklərinin açılmasıdır. Bütün bunlar həm də ikitərəfli əlaqələrin mühüm elementləridir. Ölkələrimizdə nümayəndəliklərin tam həcmdə olması əməkdaşlıq üçün yeni imkanların araşdırılmasında bizə yardım edəcəkdir. Həmin əməkdaşlıq çox geniş ola bilər. Əminəm ki, bu gün imzalanmış sənədlər və apardığımız danışıqlar gələcək əməkdaşlıq üçün çox yaxşı zəmin yaradacaqdır. Bunlar siyasi, iqtisadi inkişaf, humanitar, təhsil, səhiyyə, informasiya texnologiyaları və bir çox digər sahələrə aiddir. Qarşımızda eyni gündəlik var: ölkələrimizin müasirləşdirilməsi, xalqın həyat tərzinin yaxşılaşdırılması, mövcud olan sosial problemlərin həlli, iqtisadi inkişaf. Bütün bu məsələlər həm İordaniya, həm də Azərbaycan hökumətlərinin gündəlik diqqət mərkəzindədir.

Biz bir-birimizə kömək üçün qardaşlığın və dostluğun yaratdığı əlverişli imkanlardan istifadə etməliyik. Biz inkişaf sahəsində qarşılıqlı kömək göstəririk, dəstəyimizi davam etdiririk və xalqlarımız üçün daha yaxşı həyat səviyyəsi yaradırıq.

Biz İordaniyanın və əlahəzrət Kral II Abdullahın Orta Şərqdə sülh və sabitliyin qurulması istiqamətində göstərdiyi səyləri yüksək qiymətləndiririk. Bizim ölkəmizdə də bu cür problem var. Biz də regionumuzda sülh və təhlükəsizliyin bərqərar olunmasına çalışırıq. Əfsuslar olsun ki, uzun illər boyu biz buna nail ola bilməmişik. Azərbaycan müstəqilliyini qazandıqdan sonrakı ilk illərdə iqtisadi problemlər və sosial çətinliklərlə yanaşı, Ermənistan tərəfindən təcavüzə məruz qalmışdır. Hazırda ərazimizin 20 faizi Ermənistanın işğalı altındadır. Azərbaycanlılara qarşı etnik təmizləmə siyasəti nəticəsində, indi səkkiz milyon yarım əhalimizin bir milyonu qaçqın və məcburi köçkün vəziyyətində yaşayır.

Biz bu münaqişəni dinc yolla həll etməyə çalışırıq, lakin əfsuslar ki, Ermənistanın qeyri-konstruktiv mövqeyi səbəbindən, buna nail ola bilməmişik. BMT-nin Təhlükəsizlik Şurası işğalçı qüvvələrin Azərbaycanın zəbt olunmuş torpaqlarından dərhal çıxarılmasını tələb edən dörd qətnamə qəbul etmişdir. Onlar əməl olunmamış qalır. İslam Konfransı Təşkilatı eyni məzmunlu qətnamələri qəbul edibdir. Daha sonra, Avropa Şurası və di-

gər beynəlxalq təşkilatlar eyni addımı atıbdır. Lakin əfsuslar olsun ki, bunlar da yerinə yetirilməyibdir. Biz həmin təcavüzə və bu cür ədalətsiz vəziyyətə son qoymaq məqsədi ilə sülh danışıqlarını və bu sahədə səylərimizi davam etdiririk. Biz hər bir ölkənin ərazi bütövlüyünə hörmətlə yanaşırıq və Azərbaycanın da ərazi bütövlüyünə beynəlxalq ictimaiyyət, Birləşmiş Millətlər Təşkilatı və bütün ölkələr hörmətlə yanaşır. Buna görə də bizim ərazi bütövlüyümüz bərpa edilməlidir, qaçqın və məcburi köçkünlər öz doğma yurd-yuvalarına qayıtmaq hüququna malik olmalıdır. Bundan sonra isə, Qafqazda sülh bərqərar ola bilər.

Bu əsas problemdən başqa, biz bu gün və gələcəkdə qarşımızda hər hansı ciddi maneə görmürük. İqtisadiyyatımız çox uğurla inkişaf edir. Artıq növbəti üçüncü ildir ki, Azərbaycan dünyada ən yüksək sürətlə inkişaf edən iqtisadiyyata malikdir. Son üç il ərzində biz ümumi daxili məhsul istehsalını iki dəfə artıra bildik. Əlbəttə, bu, bizə ölkəni inkişaf etdirmək üçün əlavə imkanlar açır. Yəni, infrastrukturu, sənayeni və təbii ki, humanitar sahəni inkişaf etdirmək imkanı yaradır. Biz təhsilə çox böyük diqqət yetiririk. Azərbaycanda son illərdə mindən artıq yeni məktəb tikilmişdir. Eyni zamanda, İordaniyada olduğu kimi, informasiya texnologiyalarına olduqca böyük diqqət veririk və bu sahədə regional mərkəzə çevrilməyə çalışırıq. Səhiyyə və digər humanitar sahələr planlarımıza daxildir. Əlbəttə, regional inkişaf, Azərbaycan regionlarının inkişafı bizim üçün əsas prioritetdir.

Bunlara nail olmaq üçün daxildə sülh və sabitlik olmalıdır. Biz buna nail olmuşuq. Lakin həmin sülh və sabitlik hüdudlarımızdan kənarda da olmalıdır. Azərbaycan regional əməkdaşlığın və təhlükəsizliyin qurulması, o cümlədən regional proseslərin proqnozlaşdırılması sahəsində vacib rol oynayır. Biz Xəzər və Qafqazın sülh və sabitlik regionuna çevrilməsi üçün əlimizdən gələni edəcəyik. Ölkəmizdə bir çox mühüm, nəhəng enerji layihələrinin təşəbbüskarı olmuşuq və hazırda onlar region ölkələrini əhatə edir. Biz nəinki özümüz və regionumuz üçün, o cümlədən daha geniş miqyasda mühüm enerji daşıyıcıları hasilatçısına çevrilirik. Malların daşınması üçün münasib yolların yaradılması məqsədi ilə regionumuzdakı qonşularımızla daşınma infrastrukturu üzərində işləyirik.

Bir sözlə, ölkə daxilində və xaricində apardığımız işlər daha yaxşı iqtisadi vəziyyətin təmin olunmasına yönəlib, çünki Azərbaycanda baş verən bütün mühüm hadisələr həmin xüsusi məqsədə xidmət edir. Biz yoxsulluğu aradan qaldırırıq. Yeri gəlmişkən, bu sahədə əldə etdiyimiz gözəçarpan uğur ondan ibarətdir ki, Azərbaycanda yoxsulluq həddindən aşağıda yaşayan insanların sayı 20 faizə qədər azalmışdır. Halbuki üç il bundan əvvəl, onların sayı 50 faiz təşkil edirdi. 20 faiz də çoxdur, biz bunu daha da azaltmalıyıq. Yoxsulluğu aradan qaldırmaq, insanların özünü xoşbəxt hiss etdiyi cəmiyyət qurmaq üçün biz iqtisadi məsələlərə diqqətimizi artırmalıyıq. İqtisadi potensial gücü təmin edir. Biz güclənməliyik. Bir müstəqil ölkə kimi tariximizin cəmi 15 ilini yaşamışıq və həmin illər asan olmayıbdır. Biz yalnız indi bütün əsas iqtisadi və sosial çətinlikləri həll edə bilmişik və inkişaf, tərəqqi yoluna qədəm qoyuruq.

Beynəlxalq təşkilatların fəal üzvü olaraq, biz regional təhlükəsizlik və sabitlik işinə töhfəmizi davam etdiririk. Biz İordaniya ilə nəinki ikitərəfli çərçivədə, həm də beynəlxalq təşkilatlarda əməkdaşlıq edirik. Misal üçün, BMT-də biz hər zaman bir-birimizə dəstək

veririk. İslam Konfransı Təşkilatı daxilində biz həmişə bir-birimizi dəstəkləyirik. İslam həmrəyliyi məsələsinə çox böyük önəm veririk.

Ötən il, İKT-nin nazirləri səviyyəsində iki mühüm tədbiri Bakıda keçirdik.

İndiki mərhələdə sivilizasiyalararası dialoq haqqında danışmaq çox vacibdir. Lakin bəzən biz müxtəlif hadisələri görürük. Təcridolunmanı müşahidə edirik, dinimizə, adət-ənənələrimizə və keçmişimizə olduqca ədalətsiz yanaşmanın şahidi oluruq. Biz bu məsələləri həll etməliyik. Keçmişimizə, ənənələrimizə hörmətlə yanaşaraq və milli mənsubiyyətimizi qoruyaraq, müvəffəqiyyətlər əldə etməliyik və insanlara cari inkişafdan faydalanmanı təmin edən müasir cəmiyyəti qurmalıyıq. Eyni zamanda, biz öz tarixi irsimizə, dini köklərimizə, milli özünəməxsusluğumuza çox bağlıyıq. Azərbaycan uzun illər, onilliklər və əsrlər boyu dövlətçiliyindən məhrum olmuşdur. Biz digər imperiyaların və ölkələrin bir hissəsi idik. Məhz nə səbəbə görə biz milli özünəməxsusluğumuzu qoruyub saxlaya bildik? Azərbaycan hissəsi olduğu digər ölkələrin tərkibində niyə assimilyasiya olunmadı? Bu, yalnız tarixi irsimiz, tarixi köklərimiz, adət-ənənələrimiz, milli bayramlarımız, dilimiz və ədəbiyyatımız, poeziyamız sayəsində mümkün olmuşdur. Bütün bunlar özünəməxsusluğumuzu qorumağa imkan yaratdı və bu gün biz müstəqil ölkə kimi inkişaf edirik. Etnik, dini mənsubiyyətindən asılı olmayaraq, bütün Azərbaycanın hər bir vətəndaşı eyni hüquqlara malikdir. Azərbaycandakı dözümlülük inkişafımızın əsas, vacib meyarlarından biridir.

15 illik müstəqilliyimiz dövründə biz tariximizin ən çətin anlarını da yaşadıq. Bəzən Azərbaycanın dövlətçiliyinin taleyi sual altında idi. Hazırda, qarşımızda açıq üfüqlər var. Biz diqqətimizi inkişafa, iqtisadi potensiala, regional əməkdaşlığa, dostlarımız və qonşularımızla siyasi münasibətlərə yetiririk. Bu baxımdan, İordaniya ilə Azərbaycan arasında əlaqələr bizim üçün çox önəmlidir. Bizim aramızda bir çox oxşarlıqlar da var. Ölkələrimizin sahəsi, demək olar ki, eynidir. Eyni sözləri əhalinin sayı haqqında da demək mümkündür. Hər iki ölkə rəhbərlərinin yaşı da eynidir. Qardaşım Kral Abdullah ilə yaş fərqimiz yalnız bir aydır. Qarşımızda duran gündəlik də eynidir: xalqlarımızın rifahını necə yüksəltmək, iqtisadiyyatı necə möhkəmləndirmək və regionda sülhü necə bərqərar etmək. Bu, bizi birləşdirir. Əminəm ki, ölkələrimiz arasında sıx tərəfdaşlıq Xəzər və Qafqaz, habelə Orta Şərq regionlarındakı işlərə də öz təsirini göstərəcəkdir.

Hörmətli dostlar!.

Mənə universitetinizin Fəxri doktoru adının verilməsi kimi şərəfə görə sizə bir daha minnətdarlığımı bildirirəm. Əminəm ki, gələn illər ərzində daha çox əməkdaşlığımız, görüşlərimiz, nümayəndə heyətlərinin mübadiləsi olacaq və dövlətlərimiz, xalqlarımız bir-birinə daha yaxın olacaqdır.

Mən qədim İordaniya xalqına çiçəklənmə, uğurlar, sülh və xoşbəxtlik arzulayıram.

Çox sağ olun.

* * *

Universitetin rektoru Hani Dumor Azərbaycan Prezidenti İlham Əliyevə təşəkkür edərək dedi:

- Zati-aliləri cənab Prezident, bu yüksək səviyyəli nitqinizə və İordaniya Haşimilər Krallığının ünvanına söylədiyiniz səmimi qardaşlıq sözlərinə, əlahəzrət Kralımız

II Abdullah ibn Hüseyn ilə olan qardaşlıq və dostluğunuzla bağlı söylədiyiniz fikirlərə görə Sizə dərin təşəkkürümü bildirirəm.

İordaniya Universiteti özünün fakültələri və potensialı ilə Sizin ölkənizlə əməkdaşlıq etməyə və Azərbaycanın xidmətində durmağa hazırdır. Mən öz adımdan, Elmi Şuranın üzvləri və tədris heyətinin adından Sizə dərin məzmunlu nitqinizə görə bir daha təşəkkür edirəm. Bu görüş bizim xatirələrimizdə əbədi iz qoyacaqdır.

***

Mərasim başa çatdıqdan sonra dövlətimizin başçısı universitetin professor-müəllim heyəti ilə, eləcə də Əmmanda yaşayan azərbaycanlılarla görüşüb söhbət etdi.

Azərbaycan Prezidenti İlham Əliyev universitet binasının qarşısında Elmi Şuranın üzvləri ilə xatirə şəkli çəkdirdi.

SƏFƏR BAŞA ÇATDI

İyulun 30-da Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin İordaniya Haşimilər Krallığına rəsmi səfəri başa çatmışdır.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV ABŞ DÖVLƏT KATİBİNİN AVROPA VƏ MƏRKƏZİ ASİYA MƏSƏLƏLƏRİ ÜZRƏ MÜŞAVİRİ MƏTYU BRAYZANI QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev avqustun 2-də Prezident sarayında ABŞ dövlət katibinin Avropa və Mərkəzi Asiya məsələləri üzrə müşaviri Mətyu Brayzanı qəbul etmişdir.

Görüşdə Azərbaycan ilə ABŞ arasında enerji sahəsində əməkdaşlığın hazırkı vəziyyəti və perspektivləri ilə bağlı məsələlər müzakirə olunmuşdur.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV YUNANISTANIN İNKİŞAF NAZİRİ DİMİTRİS SİUFASIN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİNİ QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev avqustun 2-də Prezident sarayında Yunanıstanın inkişaf naziri Dimitris Siufasın başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.

Prezident İlham Əliyev Azərbaycan-Yunanıstan ikitərəfli münasibətlərinin siyasi və iqtisadi sahələrdə genişləndirilməsinin zəruriliyini vurğuladı. Dövlətimizin başçısı Yunanıstanın inkişaf nazirinin Azərbaycana səfərinin ikitərəfli, eləcə də regional əməkdaşlığın inkişafına öz töhfəsini verəcəyinə ümidvar olduğunu bildirdi.

Dimitris Siufas Azərbaycan Prezidentinə Yunanıstanın dövlət başçısı Karolos Papulyasın və Baş nazir Konstantinos Karamanlisin salamlarını çatdırdı. Yunanıstanın inkişaf naziri Dimitris Siufas Bakıya səfəri zamanı ölkələrimiz arasında enerji sahəsində çox

mühüm, tarixi razılaşmanın imzalandığını bildirərək qeyd etdi ki, bu sazişə Azərbaycan-Yunanıstan münasibətlərində yeni imkanlar açacaqdır.

Prezident İlham Əliyev Yunanıstan Prezidenti Karolos Papulyasın və Baş nazir Konstantinos Karamanlisin salamlarına görə minnətdarlığını bildirdi və onun da salamlarını Yunanıstanın dövlət başçısına və Baş nazirinə çatdırmağı xahiş etdi.

XARİCİ İŞLƏR NAZİRİ ELMAR MƏMMƏDYAROV İLƏ ABŞ DÖVLƏT KATİBİNİN MÜAVİNLƏRİ BARRİ LOVENKRON VƏ DAN FRİD ARASINDA VİDEOKONFRANS OLMUŞDUR

Avqustun 3-də xarici işlər naziri Elmar Məmmədyarov ilə ABŞ dövlət katibinin demokratiya, insan haqları və əmək üzrə müavini Barri Lovenkron və dövlət katibinin Avropa və Avrasiya məsələləri üzrə müavini Dan Frid arasında videokonfrans olmuşdur.

Söhbət zamanı Azərbaycan və ABŞ arasında siyasi, təhlükəsizlik, enerji məsələlərinin daxil olduğu ikitərəfli münasibətlər geniş müzakirə olunmuş, eləcə də demokratiya və insan haqları məsələləri ətrafında fikir mübadiləsi aparılmışdır. Konstruktiv şəkildə keçən müzakirələrdə, habelə, Azərbaycan Diplomatik Akademiyası ilə əməkdaşlığın vacibliyi qeyd olunmuş və konkret təkliflər nəzərdən keçirilmişdir.

Tərəflər belə müzakirələrin bundan sonra da davam etdirilməsi ilə bağlı razılığa gəlmişlər.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN QAZAXISTANA RƏSMİ SƏFƏRİ

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev avqustun 7-də Qazaxıstan Respublikasına ikigünlük rəsmi səfərə yola düşmüşdür.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN VƏ QAZAXISTAN PREZİDENTİ NURSULTAN NAZARBAYEVİN TƏKBƏTƏK GÖRÜŞÜ

Avqustun 7-də Qazaxıstan Prezidentinin sarayında Azərbaycan Prezidenti İlham Əliyevin və Qazaxıstan Prezidenti Nursultan Nazarbayevin təkbətək görüşü olmuşdur.

Dövlət başçıları ölkələrimiz arasında münasibətlərin müxtəlif sahələrdə uğurla inkişafından, strateji əməkdaşlığın səviyyəsindən məmnunluqlarını bildirdilər.

Görüşdə prezidentlərin qarşılıqlı səfərlərinin Azərbaycan-Qazaxıstan əlaqələrinin daha da genişlənməsi işinə xidmət edəcəyinə əminlik vurğulandı və qarşılıqlı maraq doğuran məsələlər müzakirə olundu.

GENİŞ TƏRKİBDƏ GÖRÜŞ

Avqustun 7-də Qazaxıstan Prezidentinin iqamətgahında Azərbaycan Prezidenti İlham Əliyevin və Qazaxıstan Prezidenti Nursultan Nazarbayevin nümayəndə heyətlərinin iştirakı ilə geniş tərkibdə görüşü keçirilmişdir.

Prezident NURSULTAN NAZARBAYEV görüşü açaraq dedi:

- Hörmətli İlham Heydər oğlu!

Əziz azərbaycanlı dostlar!

Mən Azərbaycan nümayəndə heyətini Qazaxıstanda, bizim yeni paytaxtımız Astanada salamlamağa şadam. Biz Azərbaycan Prezidenti ilə indi çox ətraflı danışıqlar apardıq, nəqliyyat, ticarət sahələri, ilk növbədə, hər iki tərəfi maraqlandıran sahələrlə, o cümlədən enerji ehtiyatlarının Xəzər vasitəsilə nəqli istiqamətində ikitərəfli münasibətlərimizə dair bütün məsələlərlə bağlı fikir mübadiləsi apardıq. Azərbaycan bizim üçün tranzit ərazi kimi çox maraqlıdır, əvvəllər razılaşdığımız kimi, Bakı-Tbilisi-Ceyhan layihəsində iştirak edirik, gələcəkdə isə qaz layihələri, Azərbaycandan və Gürcüstandan keçəcək dəmir yolu marşrutu var. Hər iki ölkə bütün istiqamətlərdə əməkdaşlığa – birgə müəssisələr yaratmağa, iki tərəfin aktivlərinin alınmasında iştirak etməyə, ticarət əlaqələrini inkişaf etdirməyə hazırdır. Biz siyasi, regional, beynəlxalq məsələləri müzakirə etdik.

Qazaxıstan ilə Azərbaycan arasında nə iqtisadi, nə də siyasi sahələrdə heç bir problem yoxdur. İki qardaş xalqın münasibətləri həmişə etimada, bir-birinə hörmətə əsaslanır. Düşünürəm ki, hazırkı səfər, nümayəndə heyətlərinin dünən və bu gün apardıqları danışıqlar, imzalanmış sənədlər ölkələrimiz arasında əmtəə dövriyyəsinin artırılması, ən əsası isə, xalqlarımızın və dövlətlərimizin yaxınlaşması üçün yeni əlverişli şərait yaradacaqdır.

Azərbaycan Prezidenti İLHAM ƏLİYEV qardaş Qazaxıstana rəsmi səfərə dəvətə görə Nursultan Nazarbayevə təşəkkür edərək dedi:

- Bu, son 3 ildə mənim Sizin ölkənizə ikinci rəsmi səfərimdir və bunun özü münasibətlərimizin dostluq və qardaşlıq xarakteri daşıdığını göstərir. Ölkələrimiz arasında ənənəvi olaraq çox sıx qarşılıqlı əlaqə var. Hazırkı mərhələdə bu münasibətlər məhz Sizin dediyiniz istiqamətlərdə yeni forma alır. Biz fəal qarşılıqlı fəaliyyətə, iqtisadi inteqrasiyaya meyilliyik. Birgə hökumətlərarası komissiyanın fəaliyyəti də bu məqsədə xidmət edir ki, diqqəti bizi birləşdirən qlobal layihələrə cəmləşdirək, habelə qarşılıqlı maraq doğuran yeni sahələr axtaraq.

Bizi birləşdirən nəqliyyat, enerji layihələri, əlbəttə ki, münasibətlərimizin gündəliyinin birinci sırasındadır və Azərbaycan öz tərəfindən Qazaxıstanın enerji ehtiyatlarının və yüklərinin bizim ərazimizdən sərbəst və maneəsiz daşınması üçün hər şey etməyə hazırdır. Bizdə neftin və qazın Avropa və dünya bazarlarına nəqli üçün müasir infrastruktur yaradılmışdır. Eyni zamanda, müasir dəmir yolu infrastrukturu yaradılır və bütün bunlar Qazaxıstanın maraqlarına da xidmət edə bilər.

Ölkələrimiz iqtisadi yüksəliş, dinamizm, regional inteqrasiya ilə fərqlənir və əlbəttə ki, Qazaxıstanın son illər, Sizin rəhbərliyiniz illərində qazandığı uğurlar bizi çox sevindirir. Bu, Astananın dəyişən simasından da görünür. Mən burada sonuncu dəfə iki il əvvəl olmuşam və deyə bilərəm ki, olduqca çoxlu dəyişikliklər vardır, müasir şəhər tikilir. Mən həm də bilirəm ki, bütün vilayət mərkəzlərində oxşar proseslər gedir. Bizim çox sıx siyasi əlaqələrimiz vardır. Sizin dediyiniz kimi, ölkələrimiz arasında heç bir problem yoxdur. Əksinə, tam qarşılıqlı anlaşma, siyasi dəstək mövcuddur və əlbəttə ki, bütün bunlar

birlikdə münasibətlərimiz üçün nadir format yaradır. Bu, həm birgə tarix, həm birgə köklər, həm də iki ölkənin müstəqil inkişaf dövründə tam dəyərli və çox səmərəli dövlətə çevrilməsidir. Bu, həm də neft-qaz, enerji və nəqliyyat və digər layihələrdir ki, onlar Qazaxıstanın və Azərbaycanın regional miqyasda əhəmiyyətini artırır və ölkələrimizin inkişafı üçün əlavə şərait yaradır.

Qonaqpərvərliyə görə bir daha öz adımdan və bütün nümayəndə heyəti adından Sizə təşəkkür etmək istəyirəm, yenidən qardaş Qazaxıstan torpağında olmaq bizim üçün çox xoşdur. Mən həm də fürsətdən istifadə edərək, Sizin üçün istənilən münasib vaxtda Sizi Azərbaycana daha bir rəsmi səfərə dəvət etmək istərdim.

SƏNƏDLƏRİN İMZALANMA MƏRASİMİ

Avqustun 7-də Qazaxıstan Prezidentinin sarayında Azərbaycan ilə Qazaxıstan arasında sənədlərin imzalanma mərasimi olmuşdur.

"Azərbaycan Respublikası və Qazaxıstan Respublikası arasında azadlıqdan məhrum edilmiş şəxslərin cəzalarının qalan hissəsini çəkmək üçün verilməsi haqqında müqaviləyə dəyişikliklər edilməsi barədə protokol"u Azərbaycan tərəfindən Baş prokuror Zakir Qaraləv, Qazaxıstan tərəfindən Baş prokuror Rəşid Tusupbekov imzaladılar.

"Azərbaycan Respublikası Hökuməti və Qazaxıstan Respublikası Hökuməti arasında müdafiə sahəsində sənaye müəssisələrinin istehsalat və elmi-texniki kooperasiyası sahəsində əməkdaşlıq haqqında saziş"i Azərbaycan Respublikasının iqtisadi inkişaf naziri Heydər Babayev, Qazaxıstan Respublikasının sənaye və ticarət naziri Qalım Orazbakov imzaladılar.

"Azərbaycan Respublikasının Prezidenti yanında Qiymətli Kağızlar üzrə Dövlət Komitəsi və Qazaxıstan Respublikasının Maliyyə Bazarının və Maliyyə Təşkilatlarının Tənzimlənməsi və Nəzarəti üzrə Agentliyi arasında anlaşma memorandumu"nu Azərbaycan tərəfindən Komitənin sədri Gündüz Məmmədov və Qazaxıstan tərəfindən Agentliyin sədr müavini Qani Uzbekov imzaladılar.

"Azərbaycan Televiziya və Radio Verilişləri" Qapalı Səhmdar Cəmiyyəti və "Qazaxıstan Televiziya və Radio Korporasiyası" Səhmdar Cəmiyyəti arasında əməkdaşlıq haqqında saziş"i Azərbaycan tərəfindən AzTV-nin sədri Arif Alışanov və Qazaxıstan tərəfindən korporasiya sədrinin müavini Dauren Abduxamitov imzaladılar.

"AZƏRBAYCAN TELEVİZİYA VƏ RADİO VERİLİŞLƏRİ" QAPALI SƏHMDAR CƏMİYYƏTİ VƏ QAZAXISTAN TELEVİZİYA VƏ RADİO ŞİRKƏTİ ARASINDA ƏMƏKDAŞLIQ SAZİŞİ

7 avqust 2007-ci il

Azərbaycan Televiziya və Radio verilişləri Qapalı Səhmdar Cəmiyyəti və Qazaxıstan Televiziya və Radio Şirkəti gələcəkdə tərəflər adlananlar,

Azərbaycan və Qazaxıstan ərazilərində televiziya və radio proqramlarının yayımlanması üçün əlverişli şərait yaradılmasına dair qarşılıqlı marağı rəhbər tutaraq, Azərbaycan

və Qazaxıstan xalqları arasında tarixən yaranan sosial-mədəni və elmi əlaqələrin inkişaf etdirilməsində telеradio yayımının ümumsiyasi əhəmiyyətinə əsaslanaraq,

Tərəflər arasında dostluq və işgüzar əlaqələrin möhkəmlənməsinə böyük əhəmiyyət verərək,

Telеradio yayım sahəsində əməkdaşlığın inkişaf etdirilməsi məqsədilə, aşağıdakılara uyğun razılığa gəliblər:

MADDƏ 1

Tərəflər öz dövlətlərinin, xalqlarının iqtisadi, mədəni və sosial inkişafını, qazandıqları nailiyyətləri əks etdirən sənədli və xronikal proqramların, habelə musiqi, elmi-populyar verilişlərin mübadiləsini həyata keçirəcək, o cümlədən öz ölkələrinin milli bayramlarını və əlamətdar hadisələrini işıqlandıracaqlar.

Tərəflərin heç biri əldə olunan materialları üçüncü tərəfə vermək və ya satmaq hüququna malik deyildir. Tərəflər bu Sazişə əsasən aldıqları proqramlardan, yaxud informasiya və arxiv materiallardan yalnız özləri istifadə edə bilərlər.

Materialı alan tərəf proqramda dəyişiklik və ya ixtisar edərsə, bu halda proqramın mahiyyətinə, məzmununa xələl gəlməməli və təhrif olunmamalıdır.

Telеradioməhsul əvəzi ödənilmədən verilə bilər və yaxud haqqı hər bir konkret halda razılaşmaya uyğun ödənilə bilər. Proqramın və materialların göndərilməsi haqqını onları alan tərəf ödəyir.

MADDƏ 2

Saziş çərçivəsində göndərilən proqramların müəlliflik hüququnun qorunmasını müəlliflik hüququ sahəsindəki milli və beynəlxalq qanunvericilik tələblərini nəzərə almaqla göndərən Tərəf təmin edir. Əgər proqramı alan müəlliflik mülkiyyəti hüququna görə müəyyən vergi ödəməyə borcludursa, proqramı göndərən bu barədə alan tərəfi əvvəlcədən xəbərdar edir və yalnız müəlliflik hüquqları ilə əlaqədar bütün vergilərin ödənilməsinə razılıq aldıqdan sonra proqramı göndərir.

MADDƏ 3

Tərəflər, qarşılıqlı razılaşmaya əsasən öz işçilərini digər tərəfin struktur bölmələrinə ezamiyyətə göndərəcək və belə səfərlərin təşkilində bir-birinə kömək göstərəcəklər.

Göndərən tərəf nümayəndə heyətinin tərkibi və işçilərin tutduğu vəzifə barədə qəbul edən tərəfi vaxtında xəbərdar etməlidir ki, digər tərəf görüşün təşkili üçün lazımi tədbirləri görə bilsin.

Qarşılayan tərəf xidməti ezamiyyətdə olan işçilərə aldıqları jurnalist tapşırıqlarının və çəkilişlərin yerinə yetirilməsində lazımi kömək (informasiya verilməsi təşkilatı və texniki xidmət) göstərir.

Əlavə razılaşma olmadığı halda nəqliyyat və yaşayış xərcləri də daxil olmaqla səfərlə bağlı bütün xərcləri əməkdaşları göndərən tərəf ödəyir.

Tərəflər göstərilən xidmətlərə görə bir-birinə hesab təqdim edirlər. Xidmətlərin dəyəri və ödəniş müddəti hər iki tərəfin razılaşdırdığı standartlara uyğun olaraq əvvəlcədən müəyyənləşdirilir.

MADDƏ 4

Tərəflər Böyük Vətən müharibəsində Qələbə gününə həsr olunmuş materiallar da daxil olmaqla müxtəlif mövzulu audio-video məhsulların birgə istehsalı və mübadiləsi, "Vitebskdə Slavyan bazarı" beynəlxalq incəsənət festivalı tədbirlərinin birgə işıqlandırılması layihələrinin və onları maraqlandıran digər layihələrin hazırlanması və həyata keçirilməsi sahəsində əməkdaşlığı inkişaf etdirəcəklər.

Tərəflər müştərək proqramların hazırlanmasında hər bir konkret proqramın mövzusunu, məzmununu, davamiyyət müddətini, iştirakçıların sayını, proqramın dəyərini və s. öncədən razılaşdırırlar.

Tərəflər, həmçinin öz mövqelərini əlaqələndirəcək və bir tərəfin beynəlxalq təşkilatlar çərçivəsində (Avropa Yayım Birliyi və s.) irəli sürdüyü təşəbbüslərin həyata keçirilməsi məqsədilə birgə fəaliyyətlərini müəyyən olunmuş qaydada razılaşdıracaqlar.

MADDƏ 5

Tərəflər mövcud Sazişə uyğun olaraq qarşılıqlı surətdə mütəxəssisləri tədrisə və təkmilləşməyə cəlb edə bilər. Tədrisin təşkilinin konkret məsələləri ayrı-ayrı protokollarla nizamlanır.

MADDƏ 6

Tərəflər televiziya və radionun inkişafı üçün əhəmiyyətli olan informasiyaların, o cümlədən sorğuların və tədqiqatların nəticələrinin, idarəetmə, hüquqi baza, proqram cədvəllərinin tərtibi, texniki problemlər və s. haqqında informasiyaların ötürülməsini, və ya mübadiləsini öhdəyə götürürlər.

MADDƏ 7

Mövcud Saziş çərçivəsində əməkdaşlığı bilavasitə tərəflər və yaxud onların müvəkkilləri – konkret tədbirləri, müddətləri, maliyyə və digər şərtləri nəzərə alan ayrı-ayrı fəaliyyət istiqamətləri üzrə əməkdaşlıq haqda birgə protokollar imzalaya bilən struktur bölmələri həyata keçirirlər.

MADDƏ 8

Tərəflər mövcud Saziş əsasında əməkdaşlığın həyata keçirilməsində rus dilindən istifadə edirlər.

MADDƏ 9

Mövcud Sazişin anlaşılması və ya onun müddəalarının tətbiqi ilə əlaqədar fikir ayrılığı məsləhətləşmələr və danışıqlar yolu ilə həll edilir.

MADDƏ 10

Bu Saziş imzalandığı gündən qüvvəyə minir və beş il müddətində etibarlıdır. Əgər tərəflərdən biri həmin müddətin bitməyinə altı ay qalmış Sazişin fəaliyyətini dayandırmaq niyyətini digər tərəfə yazılı formada bildirməsə, Saziş avtomatik olaraq daha beş il müddətində qüvvədə qalır.

Hər iki tərəfin razılığı ilə mövcud sazişə əlavə və dəyişikliklər edilə bilər.

Bu Saziş hər biri 2 nüsxədən ibarət olmaqla, azərbaycan və rus dillərində 7 avqust 2007-ci il tarixində Astana şəhərində imzalanmışdır. Bütün nüsxələr eyni hüquqi qüvvəyə malikdir. Hər hansı bir mübahisəli məsələnin həllində rus dilindəki nüsxə əsas götürülür.

"AZƏRBAYCAN TELEVİZİYA VƏ RADİO VERİLİŞLƏRİ" QAPALI RADİO ŞİRKƏTİ SƏHMDAR CƏMİYYƏTİNİN SƏDRİ	"QAZAXISTAN TELEVİZİYA VƏ RADİO KORPORASİYASI" SƏHMDAR CƏMİYYƏTİNİN SƏDR MÜAVİNİ
ARİF ALIŞANOV	*DAUREN ABDUXAMİTOV*

BİRGƏ MƏTBUAT KONFRANSI

Avqustun 7-də, geniş tərkibdə görüşdən sonra dövlət başçıları Qazaxıstan Prezidentinin sarayında birgə mətbuat konfransı keçirmişlər.

Prezidentlər mətbuat nümayəndələri qarşısında bəyanatlarla çıxış etdilər.

PREZİDENT NURSULTAN NAZARBAYEVİN BƏYANATI

-Hörmətli cənab Prezident!

Hörmətli xanımlar və cənablar!

Bu gün mənim dəvətimlə rəsmi səfərə gələn Azərbaycan Prezidenti İlham Əliyevi böyük məmnuniyyətlə salamladım. Ölkələrimiz arasındakı münasibətlər yüksələn xətlə, dinamik şəkildə inkişaf edir. Hökumətlərarası komissiya yaradılmışdır, nazirlərimizin, müxtəlif strukturların rəhbərlərinin səfərləri, əslində, mütəmadi xarakter almışdır. Qazaxıstanın Baş naziri Kərim Məsimov bu ilin aprelində Bakıda olmuşdur. Azərbaycanın müvafiq nazirlik və idarələrinin rəhbərləri daim Qazaxıstana gəlir və biz ölkələrimiz arasında bir çox mühüm, qarşılıqlı surətdə faydalı məsələləri həll edirik.

Biz Xəzər dənizi vasitəsilə qonşuyuq, qardaş ölkələrik və qarşılıqlı münasibətlərimizdə həll olunmamış heç bir problem yoxdur. Bir-birimizə qarşı marağımız çox böyükdür. Qazaxıstan istəyir ki, Xəzər və Qafqaz dəhlizi vasitəsilə Qara dənizə və Avropaya təkcə neft və qaz deyil, həm də quru yüklər çıxarsın. Bu il Bakıda taxıl terminalı tikmişik. Bu, Qazaxıstan taxılını dünya bazarlarına çıxarmağa imkan verəcəkdir.

Biz razılığa gəlmişik ki, nazirlik və idarələrimiz, müvafiq şirkətlərimiz, əlbəttə, energetika sahəsində, habelə Qazaxıstanın qərb bölgələrinə meyvə-tərəvəz göndərilməsi, iritonnajlı neft tankerlərinin tikintisi, – Bakıda bu sahədə mütəxəssislər var, – istiqamətində birgə qarşılıqlı faydalı işə qoşulsunlar. Azərbaycanın neft, qaz maşınqayırması sahəsində böyük təcrübəsi var. Yəni bütün istiqamətlərdə, o cümlədən qarşılıqlı mədəni münasibətlər sahəsində mövcud məsələləri müzakirə etdik.

Bu gün nazirlik və idarələrimiz münasibətlərimizi yeni zirvəyə qaldıran 5 sənəd imzaladılar. Ticarətin 300 milyon dollar həcmi bizi təmin etmir və mən əminəm ki, hökumətlərarası komissiyanın nəzərdə tutulan planları həyata keçirməsi yaxın vaxtlarda ticarəti

genişləndirəcəkdir. Biz onun həcmini ilk vaxtlarda 1 milyard ABŞ dollarına çatdırmaq vəzifəsini qarşıya qoymuşuq. Əminəm ki, gələcəkdə bu rəqəm dəfələrlə çox olacaqdır, çünki bu nəqliyyat dəhlizi Qazaxıstan üçün olduqca vacibdir. Lakin Qazaxıstan da Orta Asiya, Çin, Rusiyanın şərq hissəsi, Ural və Sibir istiqamətində Azərbaycan üçün tranzit ərazidir.

Danışıqlarımız tam qarşılıqlı anlaşma, etimad şəraitində keçmişdir və əminəm ki, ölkələrimiz arasında dostluq, qardaşlıq və əməkdaşlıq münasibətləri möhkəmlənəcəkdir.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN BƏYANATI

- Hörmətli cənab Prezident!

Hörmətli mətbuat nümayəndələri!

İlk növbədə, mən Prezident Nursultan Nazarbayevə məni Qazaxıstana rəsmi səfərə dəvət etdiyinə görə öz minnətdarlığımı bildirmək istəyirəm. Bu, son üç ildə mənim Qazaxıstana ikinci rəsmi səfərimdir. Bu, özlüyündə onu göstərir ki, bizim aramızda mövcud olan münasibətlər çox yüksək səviyyədədir. Bunun üçün çox ciddi baza - ümumi tariximiz, xalqlarımızın birliyi və yaxınlığı vardır. Çox vacibdir ki, ölkələrimizin müstəqil dövlətlər kimi təşəkkülü dövründə bizi bağlayan cəhətləri nəinki itirmədik, əksinə, artırdıq. Həm siyasi, həm iqtisadi, həm də humanitar sahələrdə biz çox işgüzar şəraitdə əməkdaşlıq edirik və qarşımızda duran bütün vəzifələr öz həllini tapır.

Xüsusilə bu gün biz energetika, iqtisadiyyat, nəqliyyat məsələləri üzərində dayandıq, geniş fikir mübadiləsi aparılmışdır. Eyni zamanda, ikitərəfli siyasi əlaqələr, regional məsələlər müzakirə olundu. Bizim baxışlarımızda çox böyük oxşarlıq vardır. Biz çox istəyirik ki, iki dost, qardaş ölkə ikitərəfli münasibətləri tam şəkildə, böyük səmərə ilə daha da irəliyə aparsın və həm ölkələrimiz, həm də region üçün əhəmiyyətli olan layihələr tezliklə öz həllini tapsın.

Mən öz növbəmdə, Prezident Nursultan Nazarbayevi Azərbaycana rəsmi səfərə dəvət etmişəm və əminəm ki, o səfər çərçivəsində ikitərəfli münasibətlər daha yüksək pilləyə qalxacaqdır.

Hazırda Qazaxıstan və Azərbaycan regionun daha dinamik inkişaf edən iki dövlətidir, ölkələrimiz qarşısında duran vəzifələri uğurla həyata keçirir, habelə regional miqyasda öz aralarında aktiv qarşılıqlı fəaliyyət göstərirlər. Bu gün biz Nursultan Abişeviç ilə bir çox məsələlərə dair danışıqlar apardıq. Bütün məsələlər üzrə fikirlərimiz tam uyğun gəlir, qarşılıqlı surətdə faydalı iqtisadi, enerji və nəqliyyat layihələrini fəal irəlilətməyə hazırlıq vardır. Mən bu gün bildirdim ki, Azərbaycan Qazaxıstan tərəfinə öz nəqliyyat və enerji infrastrukturundan tam istifadə etmək imkanı verir və biz Qazaxıstanın karbohidrogen ehtiyatlarının Azərbaycan ərazisi ilə Avropa və dünya bazarlarına nəqli sahəsində birgə işləməyə, habelə yüklərin daşınması baxımından əməkdaşlıq etməyə hazırıq. İndi ölkəmiz Azərbaycanın neftini və qazını Avropa və dünya bazarlarına çatdıran ən müasir nəqliyyat infrastrukturuna malikdir. Azərbaycan, Gürcüstan və Türkiyə arasında dəmir yolunun istifadəyə verilməsi yüklərimizin Avropaya daşınmasına imkan verəcəkdir. Əlbəttə, iqtisadiyyatı, sənayesi sürətlə inkişaf edən Qazaxıstan da bu nəqliy-

yat yolundan istifadə edə bilər. Başqa sözlə, biz bütün istiqamətlərdə çox səmərəli, məhsuldar əməkdaşlığa hazırıq.

Bu gün imzalanan sənədlər çox geniş sahəni, o cümlədən neft-qaz sahəsini əhatə edir. Nursultan Abişeviç ilə ötən il Almatıda keçirilən görüşümüz zamanı Qazaxıstanın Bakı-Tbilisi-Ceyhan boru kəmərinə qoşulması barədə hökumətlərarası müqavilə imzalandı. İndi Qazaxıstanda da və Azərbaycanda da həmin tarixi müqavilənin həyata keçirilməsinə dair fəal əməli iş aparılır. Biz birgə fəaliyyətə qətiyyətlə hazırıq və əminik ki, bu səfərin nəticələri müzakirə olunan məsələlərin əməli tərəfində çox tezliklə özünü göstərəcəkdir. Gözəl ölkənizdə nümayəndə heyətimizə göstərilən qonaqpərvərliyə görə Prezidentə və bütün qazaxıstanlı qardaşlarımıza bir daha təşəkkürümü bildirmək istəyirəm.

Diqqətinizə görə təşəkkür edirəm.

***

Sonra Azərbaycan və Qazaxıstan prezidentləri jurnalistlərin suallarına cavab verdilər.

-Mənim sualım cənab Nazarbayevədir. Cənab Prezident, Azərbaycan və Qazaxıstan beynəlxalq təşkilatlarda çox fəal iştirak edirlər. Bu baxımdan səylərin əlaqələndirilməsinin perspektivi necədir?

NURSULTAN NAZARBAYEV: Bu, həm iqtisadi, həm də siyasi baxımdan çox mühüm məsələdir. Çünki regional və beynəlxalq siyasətə vahid baxışlarımız var, təbii ki, biz Birləşmiş Millətlər Təşkilatında, ATƏT-də fəal əməkdaşlıq edirik. Biz Qazaxıstanın təşəbbüsü ilə yaradılan Asiyada etimad tədbirlərinə dair müşavirəni dəstəklədiyinə görə Azərbaycana minnətdarıq. Düşünürəm ki, beynəlxalq baxımdan bizim xarici siyasət idarələrimiz həmişə vahid mövqedən çıxış edirlər. Əgər siz konkret nəyi isə nəzərdə tuturdunuzsa?..

JURNALİST: Xeyr, ümumiyyətlə.

NURSULTAN NAZARBAYEV: Bizim heç bir beynəlxalq məsələdə fikir ayrılığımız yoxdur. 2009-cu ildə ATƏT-in sədrliyinə namizədliyimizi dəstəklədiyinə görə Azərbaycana çox minnətdarıq. Biz də Azərbaycanın hər hansı məsələsinə və təşəbbüsünə heç vaxt mane olmamışıq. Zənnimcə, Bakıda Xəzəryanı dövlətlər üzrə komitənin yaradılması barədə təklif vardır. Biz bunu da dəstəkləyirik.

-Mənim sualım cənab Əliyevədir. Lütfən deyin, bu gün bildirildi ki, yaxın vaxtlarda siz iki dövlət arasında əmtəə dövriyyəsini 1 milyard dollara çatdıracaqsınız. İlk növbədə hansı sahələr hesabına? Yaxın vaxtlarda Qazaxıstan yüklərinin, nefti və qazının Azərbaycandan nəqlinin genişləndirilməsinə dair hansı razılaşmalar var?

İLHAM ƏLİYEV: Bu gün biz Nursultan Abişeviç ilə söhbətimiz zamanı bir tərəfdən məmnuniyyətlə vurğuladıq ki, ölkələrimiz arasında əmtəə dövriyyəsi iki dəfə artmışdır, lakin digər tərəfdən təəssüflə bildirdik ki, o, cəmi 300 milyon dollar civarındadır. Bu isə əlbəttə, ölkələrimizin potensialına cavab vermir. Həm Qazaxıstan, həm də Azərbaycan keçmiş sovet məkanında ən dinamik inkişaf edən iqtisadiyyata malikdir. Bu, həm makroiqtisadi göstəricilərdən, həm də zahirən görünür. Şəhərlərimizin simasına baxmaq kifayətdir. Əlbəttə, bizə toxunur ki, belə güclü iqtisadi potensialımız, prezi-

dentlərin bir-birinə olduqca etibarlı şəxsi münasibəti, yüksək səviyyəli siyasi qarşılıqlı fəaliyyət olduğu halda, ölkələrimiz arasında əmtəə dövriyyəsi cəmi 300 milyon dollar təşkil edir. Buna görə də belə bir fikir ifadə olunmuşdur ki, bu göstəricini 1 milyard dollara çatdırmaq lazımdır. Mən Nursultan Abişeviçə təşəkkür edirəm ki, o, bu rəqəmi dedi. Adətən, biz sadəcə olaraq deyəndə ki, artırmaq lazımdır, işlər çox sürətlə getmir. Konkret məqsəd qoyulanda biz bu məqsədə doğru daha sürətlə gedəcəyik. Əlbəttə, burada çox şey bizim hələlik uğurla işləyən hökumətlərarası komissiyanın fəaliyyətindən asılıdır. O, yəqin ki, yeni fəaliyyət sahələri axtaracaqdır. Biznes qurumlarının fəallığından da çox şey asılıdır. Həm Qazaxıstanda, həm də Azərbaycanda iqtisadiyyatın böyük bir hissəsi, mütləq əksəriyyəti özəl sektorda formalaşır. Bizdə bu, 80 faizdən çoxdur. Buna görə də biz öz tərəfimizdən kömək edəcəyik ki, özəl qurumlar həm Qazaxıstanda, həm də Azərbaycanda daha fəal şəkildə və inamla sərmayə qoysunlar. Əlbəttə ki, Qazaxıstanın enerji ehtiyatlarının Azərbaycan ərazisi ilə nəqli, quru yüklərinin daşınması, habelə kənd təsərrüfatı sahəsində, informasiya texnologiyaları sahəsində əməkdaşlığa dair hökumətlər və dövlətlər səviyyəsində həyata keçirilən qlobal layihələr, – bildiyiniz kimi, Bakıda taxıl terminalı artıq uğurla fəaliyyət göstərir, Qazaxıstanın qərbində tərəvəz terminalı yaradılmasına dair işlər gedir, – başqa sözlə, bütün bunlar əmtəə dövriyyəsini bir milyard dollara çatdırmağa real əsas verir. Lakin düşünürəm ki, bu, son həddi deyildir, gələcəkdə biz onu artıracağıq.

Neft-qaz əməliyyatlarına gəldikdə isə, bir daha vurğulamaq istərdim ki, regional əməkdaşlığa, habelə, – bunun da əhəmiyyəti az deyil, – Xəzər dənizinin delimitasiyası prosesinin başa çatdırılmasının zəruriliyinə dair baxışlarımız tam uyğun gəlir. Qazaxıstan və Azərbaycan müvafiq sazişi bir neçə il əvvəl imzalamışlar. Ölkələrimiz Rusiya ilə də sazişlə bağlanmışlar. Bu ikitərəfli sazişlər delimitasiya məsələlərinin beştərəfli həlli üçün yaxşı zəmin ola bilər. Bir daha təkrar edirəm ki, energetika sahəsində də biz tam açığıq. Biz bu gün bunu ətraflı müzakirə etdik. Çox əhəmiyyətlidir ki, biz həm xaricdə aktivlərin alınması, habelə mövcud terminallardan birgə istifadə ilə bağlı fəaliyyətimizi əlaqələndirəcək, gələcəkdə isə regionumuzda yeni istehsal obyektlərinin, neft-qaz sahəsində fəaliyyətin gücləndirilməsinə yönəldilən istehsal obyektlərinin yaradılması sahəsində əməkdaşlıq edəcəyik.

BİRGƏ BƏYANNAMƏSİ

7 avqust 2007-ci il

Bundan sonra "Tərəflər" adlanan Qazaxıstan Respublikası və Azərbaycan Respublikası,

Qazaxıstan Respublikası ilə Azərbaycan Respublikası arasında ənənəvi dostluq münasibətlərini və hərtərəfli münasibətləri inkişaf etdirmək əzmində olduqlarını ifadə edərək,

Qazaxıstan ilə Azərbaycan arasındakı əməkdaşlığın Avrasiyada sülhün və sabitliyin möhkəmlənməsinə kömək etdiyini vurğulayaraq,

2005-ci il mayın 24-də imzalanmış Qazaxıstan Respublikası ilə Azərbaycan Respublikası arasında strateji tərəfdaşlıq və müttəfiqlik münasibətləri haqqında müqavilənin əhəmiyyətini nəzərə alaraq,

İkitərəfli siyasi dialoqun və beynəlxalq və regional təşkilatlar çərçivəsində əməkdaşlığın əhəmiyyətini vurğulayaraq,

Qarşılıqlı maraq doğuran aktual beynəlxalq və regional məsələlərə dair oxşar mövqeləri bölüşərək,

Qlobal enerji təhlükəsizliyinin təmin olunmasında iki ölkənin mühüm rolunu nəzərə alaraq,

İki dövlətin mövcud potensialına uyğun olaraq siyasi, ticarət-iqtisadi, humanitar və mədəni əlaqələri möhkəmləndirməyin zəruriliyini qeyd edərək,

aşağıdakıları bəyan etmişlər:

İki ölkə arasında strateji tərəfdaşlıq münasibətlərini dərinləşdirmək məqsədi ilə Tərəflər dialoqun davam etdirilməsinin və hökumətlər, parlamentlər və vətəndaş cəmiyyətləri səviyyəsində mübadilələrin genişləndirilməsinin mühüm əhəmiyyətini qeyd edirlər.

Tərəflər qanunun aliliyi, demokratiya, insan hüquqlarının müdafiəsi və bazar iqtisadiyyatı prinsipləri əsasında ikitərəfli münasibətləri möhkəmləndirmək əzmində olduqlarını vurğulayırlar.

Tərəflər iki ölkə arasında ticarət-iqtisadi, elmi-texniki, mədəni və humanitar əməkdaşlığı genişləndirmək səylərində qətiyyətlidirlər.

Tərəflər iqtisadi əməkdaşlıq üzrə hökumətlərarası komissiyanın fəaliyyətini ikitərəfli iqtisadi münasibətlərin inkişafı üçün mühüm əlaqələndirici mexanizm və əldə olunmuş razılaşmaların həyata keçirilməsinin səmərəli vasitəsi hesab edirlər.

Tərəflər energetika sahəsində və yüngül sənayedə, habelə qeyri-neft sektorunun digər sahələrində iki ölkənin müəssisələri arasında qarşılıqlı surətdə faydalı əməkdaşlığı təşviq etməyə hazırdırlar.

Avropa-Qafqaz-Asiya nəqliyyat dəhlizinin bir hissəsi olan Bakı-Tbilisi-Ceyhan boru kəmərinin istismara verilməsinin əhəmiyyətini vurğulayaraq, Tərəflər əmin olduqlarını bildirmişlər ki, onlar qlobal enerji təhlükəsizliyinə töhfə verəcək və region ölkələrinin sabit iqtisadi inkişafına xidmət edəcəklər.

Tərəflər Şərq-Qərb nəqliyyat dəhlizinin uğurla fəaliyyət göstərməsində, Xəzər dənizi vasitəsilə birgə nəqliyyat və enerji layihələrinin reallaşdırılmasında qarşılıqlı fəaliyyətin, Qazaxıstan mallarının Azərbaycan ərazisi vasitəsilə və Azərbaycan mallarının Qazaxıstan ərazisi vasitəsilə fasiləsiz tranzitinin təmin edilməsinin, əlverişli qarşılıqlı sərmayə mühiti formalaşdırılmasının əhəmiyyətini təsdiq edirlər.

Tərəflər Avropa ilə Asiya arasında nəqliyyat-kommunikasiya əlaqələrinin inkişaf etdirilməsini və yük daşımalarının genişləndirilməsini regional əməkdaşlığın prioritet vəzifəsi hesab edirlər.

BMT Təhlükəsizlik Şurasının müvafiq qətnamələrini, ATƏT-in Lissabon zirvə görüşünün üç prinsipini bütünlüklə dəstəkləyərək, Tərəflər Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin beynəlxalq hüququn hamılıqla qəbul edilmiş prinsipləri və normaları, dövlətlərin suverenliyi, ərazi bütövlüyü və sərhədlərinin toxunulmazlığı əsasında dinc vasitələrlə həll edilməsinin vacibliyini qeyd edirlər.

Tərəflər Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin tezliklə sülh yolu ilə həlli məqsədi ilə ATƏT-in Minsk qrupu tərəfindən səmərəli və qətiyyətli tədbirlər görülməsinin mühümlüyünü vurğulayırlar.

Tərəflər beynəlxalq təhlükəsizliyə və sabitliyə qorxu törədən hədələri, o cümlədən beynəlxalq terrorizmi, ekstremizmin bütün formalarını, narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının gizli yolla dövriyyəsini, transmilli mütəşəkkil cinayətkarlığı, qanunsuz silah və insan alverini, kütləvi qırğın silahının yayılmasını pisləyir və onlara qarşı mübarizədə beynəlxalq səylərin birləşdirilməsinin zəruriliyinə tərəfdardırlar.

Tərəflər BMT və onun ixtisaslaşdırılmış strukturları çərçivəsində, habelə müxtəlif beynəlxalq və regional təşkilatlarda əməkdaşlığı davam etdirmək niyyətlərini təsdiqləyir və beynəlxalq münaqişələrin həllində BMT-nin rolunun gücləndirilməsinin vacibliyini qeyd edirlər.

Tərəflər Xəzər regionunun sülh, sabitlik, mehriban qonşuluq və əməkdaşlıq zonasına çevrilməsinə hərtərəfli kömək göstərəcəklər.

Tərəflər Xəzər dənizinin dibinin bölünməsi haqqında Azərbaycan, Qazaxıstan və Rusiya arasında imzalanmış ikitərəfli və çoxtərəfli sazişlərə xüsusi əhəmiyyət verir və onları Xəzər dənizinin hüquqi statusunun müəyyənləşdirilməsi prosesinə fundamental töhfə hesab edir və bu istiqamətdə birgə səyləri davam etdirməyə sadiq olduqlarını bəyan edirlər.

Tərəflər Xəzər dənizinin hüquqi statusunun müəyyənləşdirilməsinə dair danışıqlar çərçivəsində konstruktiv dialoqun zəruri olduğunu bildirirlər. Bu baxımdan Tərəflər Xəzəryanı dövlətlərin xarici işlər nazirlərinin müavinləri çərçivəsində Xüsusi işçi qrupunun fəaliyyətini müsbət qiymətləndirirlər.

Ali və yüksək səviyyələrdə görüşlərin müsbət rolunu məmnunluqla vurğulayan Tərəflər regional və qlobal təhlükəsizliyin möhkəmləndirilməsinə yönəldilmiş siyasi və iqtisadi məsləhətləşmələrin, dialoqların keçirilməsini, qarşılıqlı maraq doğuran bütün başqa məsələlərə dair fikir mübadiləsini bundan sonra da dəstəkləyəcəklər.

Tərəflər əmin olduqlarını bildirmişlər ki, bu Birgə Bəyannamə Qazaxıstan Respublikası ilə Azərbaycan Respublikası arasında münasibətlərin intensivləşməsinə və hərtərəfli inkişafına xidmət edəcəkdir.

Astana şəhəri, 7 avqust 2007-ci il

AZƏRBAYCAN PREZİDENTİNİN ŞƏRƏFİNƏ

Avqustun 7-də Qazaxıstan Respublikasının Prezidenti Nursultan Nazarbayevin adından Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin şərəfinə rəsmi qəbul təşkil olunmuşdur.

Dövlət başçıları ziyafətdə nitq söyləmişlər.

QAZAXISTAN PREZİDENTİ NURSULTAN NAZARBAYEVİN NİTQİ

-Hörmətli İlham Heydər oğlu!

Xanımlar və cənablar!

Sizi qonaqpərvər Qazaxıstan torpağında ürəkdən salamlamağıma şadam!

Mən bu gün bir daha təəssüf edirəm ki, böyük dostum Heydər Əliyev bizimlə birlikdə deyildir. Mən Azərbaycan xalqının böyük, öz həyatını müstəqil və firavan Azərbaycan qurulmasına həsr etmiş oğluna həmişə dərin hörmət və səmimi rəğbət hissləri bəsləmişəm. Qazaxıstan xalqı onun ölkələrimiz arasında qardaşlıq münasibətlərinin inkişafına verdiyi töhfəni yüksək qiymətləndirir.

Bizim dostluq və etibarlı tərəfdaşlığın parlaq nümunələri ilə dolu olan ümumi tariximiz var. İnsanlarımızın mənşəcə və mənəvi baxımdan yaxınlığı müstəqillik əldə edildikdən sonra nəinki qorunub saxlanılmış, həm də möhkəmlənmişdir.

Bu gün keçirilən və məsələlərin geniş dairəsini müzakirə etdiyimiz görüşün səmərəliliyini vurğulamaq istəyirəm. Danışıqlarımız etimad ruhunda keçdi və Qazaxıstan ilə Azərbaycan arasında müxtəlif sahələrdə əməkdaşlığın daha da inkişaf etdirilməsinə yönəlmişdi.

Regional və beynəlxalq siyasətə dair bir çox məsələlərdə mövqelərimizin oxşarlığını vurğulamaq xoşdur. Bu, Müstəqil Dövlətlər Birliyi ilə bağlı məsələlərə, çoxtərəfli inteqrasiya, dünyada sabitlik və təhlükəsizliyin möhkəmləndirilməsi proseslərinə aiddir.

Ölkələrimizin öz inkişafının dinamik mərhələsini yaşamasının Qazaxıstan-Azərbaycan münasibətlərini möhkəmləndirmək üçün böyük əhəmiyyəti var. Qazaxıstanda da, Azərbaycanda da əsas sosial-iqtisadi göstəricilərin sürətli artımı müşahidə olunur. Bu, əməkdaşlığımızın bir çox sahələrdə möhkəmləndirilməsinə, iqtisadiyyatda və sosial sahədə aparılan islahatlara dair təcrübə mübadiləsinə olan qarşılıqlı marağı əhəmiyyətli dərəcədə genişləndirir.

Bizim qarşımızda kooperasiyanın səmərəli modellərini işləyib hazırlamaq, əməkdaşlığın, o cümlədən energetika və nəqliyyat sektorlarında işbirliyinin yeni imkanlarını müəyyən etmək, mal dövriyyəsinin strukturunu şaxələndirmək vəzifəsi durur. Əminəm ki, bu gün ikitərəfli sənədlərin imzalanması, habelə İlham Heydər oğlu ilə görüşümüzdə əldə olunmuş razılaşmaların həyata keçirilməsi buna kömək edəcəkdir.

Azərbaycan məsəlində deyilir: "Söz danışıqdan keçər". Əminəm ki, ölkələrimiz arasında olan qarşılıqlı anlaşmanın yüksək səviyyəsi, xalqlarımız arasındakı qardaşlıq və mənəvi yaxınlıq hissləri qarşılıqlı surətdə faydalı ticarət-iqtisadi və mədəni-humanitar əməkdaşlığın daha da möhkəmlənməsinə təkan verəcəkdir.

Xanımlar və cənablar!

Mən Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin şərəfinə badə qaldırıram!

Xalqlarımız arasındakı əbədi və sarsılmaz dostluğun şərəfinə!

Qazaxıstanın və Azərbaycanın daha da tərəqqisi, firavanlığı və mehriban qonşuluğu şərəfinə!

Əlavə etmək istərdim ki, Azərbaycan iqtisadiyyatının çox böyük yüksəlişini, təkcə regionda deyil, həm də dünyada mühüm dövlətə çevrilən Azərbaycanın tərəqqisini biz Qazaxıstanda çox böyük fərəhlə müşahidə edirik.

Astananın qurulmasında lap əvvəldən Heydər Əlirza oğlunun əhəmiyyətli rolu olmuşdur. O, burada dəfələrlə olmuşdur və biz dəvət edəndə, tədbirlər keçirəndə heç vaxt imtina etməmişdir. Azərbaycanın bugünkü gününün arzusunda olan bu insan belə idi. Düşünürəm ki, İlham Heydər oğlu bu gün atasının işini davam etdirməklə yanaşı, özü də Azərbaycanı inkişaf və tərəqqi yolu ilə irəliyə aparan Prezident və rəhbərdir. Bu, dost və qardaş ölkə kimi Qazaxıstanı çox sevindirir. Biz ölkələrimizin və xalqlarımızın gələcəyini birgə qurmağa hazırıq.

İcazə verin, badələri Azərbaycan Prezidentinin, habelə qardaş Azərbaycan xalqının sağlığına, xalqlarımızın və dövlətlərimizin dostluğu şərəfinə qaldırım!

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN NİTQİ

- Hörmətli cənab Prezident!

Hörmətli xanımlar və cənablar!

İlk növbədə, cənab Prezident, Qazaxıstan torpağında mənə və nümayəndə heyətinə göstərdiyiniz səmimi qonaqpərvərliyə görə dərin minnətdarlığımı bildirmək istəyirəm.

Bu gün biz ikitərəfli əməkdaşlıqla, bir sıra regional və beynəlxalq məsələlərlə bağlı geniş və səmərəli fikir mübadiləsi, danışıqlar apardıq. Əminəm ki, bütün bunlar, həmçinin imzalanmış sənədlər əməkdaşlığımızın gələcək inkişafına öz töhfəsini verəcəkdir.

Bu səfər mənim üç il ərzində Qazaxıstana ikinci rəsmi səfərimdir. Bu, onu göstərir ki, bizim aramızdakı çox intensiv və səmərəli dialoq daha da genişlənir.

Qazaxıstanla Azərbaycan arasındakı münasibətlərin dərin tarixi kökləri vardır. Xalqlarımızı bir-birinə uzun əsrlər ərzində təşəkkül tapmış münasibətlər bağlayır. Humanitar sahədə əməkdaşlığımız mühüm əhəmiyyət kəsb edir. Ölkələrimiz müstəqillik əldə etdikdən sonra təməli ümummilli lider Heydər Əliyev tərəfindən və Sizin, cənab Prezident, tərəfinizdən qoyulmuş dostluq və əməkdaşlıq son illər ərzində daha da möhkəmlənibdir.

Birgə səylərimiz, qarşılıqlı səfərlər, hökumətlərarası birgə komissiyanın fəaliyyəti əməkdaşlığımızın genişlənməsinə və əmtəə dövriyyəsinin 2 dəfə artmasına şərait yaratmışdır.

Beynəlxalq və regional təşkilatlar çərçivəsində sıx əlaqələrimiz var. Bu əməkdaşlıq münasibətlərimizin daha da möhkəmlənməsi, ümumi problemlərimizin birgə səylərlə aradan qaldırılması baxımından xüsusilə əhəmiyyətlidir.

Azərbaycanın ən ağrılı problemi olan Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi hələ də həll olunmamış qalmaqdadır. Ermənistanın hərbi təcavüzü nəticəsində Azərbaycan ərazisinin 20 faizi işğal olunmuş, ölkədə bir milyondan çox qaçqın və məcburi köçkün yaranmışdır. Ermənistanın işğal etdiyi Azərbaycan ərazilərində etnik təmizləmə siyasəti aparılmış, qədim mədəniyyət abidələri məhv edilmiş, məktəblər, mu-

zeylər, məscidlər dağıdılmış, müsəlman məzarlıqları təhqir olunmuş, dünya və İslam sivilizasiyasının nadir inciləri yer üzündən silinmişdir.

Eyni zamanda, Dağlıq Qarabağ bölgəsinin və işğal edilmiş digər ərazilərin nəzarətsiz silahlarla doldurulması, radioaktiv tullantıların basdırılması, təbii sərvətlərin talanması, narkotik vasitələrin istehsalı, terrorçu dəstələrin və qanunsuz silahlı birləşmələrin hazırlanması ciddi narahatlıq doğurur.

Dünya birliyi və beynəlxalq təşkilatlar Dağlıq Qarabağda bir qədər əvvəl keçirilmiş qondarma "seçkiləri" qətiyyətlə pisləyərək, münaqişənin beynəlxalq hüquq normalarına uyğun, Azərbaycanın ərazi bütövlüyü çərçivəsində ədalətli həllinin vacibliyini bir daha vurğulayırlar.

Azərbaycan, öz növbəsində, regionda sabitliyin və təhlükəsizliyin möhkəmlənməsinə, iqtisadi inkişafa və inteqrasiyaya təkan verəcək böyük beynəlxalq layihələr həyata keçirir. Bakı-Tbilisi-Ceyhan neft kəməri, Bakı-Tbilisi-Ərzurum qaz kəməri, Bakı-Tbilisi-Qars dəmir yolu layihələri bütün regionun yeni inkişaf mərhələsini formalaşdırır.

Neft-qaz və nəqliyyat sektorlarında əməkdaşlığımız ölkələrimiz arasında və regional işbirliyi üçün böyük əhəmiyyət kəsb edir. Neftin Qazaxıstan Respublikasından Xəzər dənizi və Bakı-Tbilisi-Ceyhan vasitəsilə beynəlxalq bazarlara nəql edilməsi haqqında keçən il Almatı şəhərində Azərbaycan ilə Qazaxıstan arasında imzalanmış müqavilə enerji sahəsində möhkəm tərəfdaşlığımızın yeni mərhələsini açdı. Biz bu sahədə səylərimizi birləşdirib, siyasətimizi əlaqələndirməklə ölkələrimizin iqtisadi maraqlarını daha da dolğun şəkildə təmin edə bilərik.

Qazaxıstanın Bakı-Tbilisi-Ceyhan neft kəmərinə qoşulması, tərəfdaşlığımızın parlaq nümunəsi kimi tarixi əhəmiyyət daşıyaraq, həm qarşılıqlı mənafelərimizin təmin edilməsi, həm də beynəlxalq aləmdə mövqelərimizin güclənməsi baxımından çox önəmlidir.

Mən Qazaxıstan ilə Azərbaycan arasında münasibətlərin bütün sahələrdə inkişaf etməsinin, genişlənməsinin tərəfdarıyam və inanıram ki, dost və qardaş ölkənizə səfərim, Sizinlə görüşümüz, apardığımız fikir mübadiləsi bu münasibətləri daha yüksək səviyyəyə qaldıracaqdır.

Hörmətli Nursultan Abişeviç,

Mən ilk növbədə, Azərbaycanın böyük oğlu Heydər Əliyevin xatirəsinə ehtirama görə Sizə təşəkkürümü bildirmək istərdim. Bu gün söhbətimiz zamanı Siz görüşlərinizi xatırladınız, öz çıxışımızda bu barədə danışdınız. Azərbaycanda bu, bizim üçün çox xoşdur. Bu, bizim qəlblərimizi riqqətə gətirir. Sizin Heydər Əliyev ilə şəxsi dostluğunuz ölkələrimizin bugünkü münasibətlərinin əsasını qoymuşdur. Sizin nüfuzunuz, münasibətləriniz, islahatlara meyilliliyiniz, sizin milli mənafeləri qorumağınız - bütün bunlar sizi birləşdirir, yaxınlaşdırırdı. Yəqin buna görə də bu gün keçmiş sovet məkanında Qazaxıstan və Azərbaycan daha dinamik, sakit, sabit inkişaf edən, islahatların aparıldığı, hakimiyyətin böyük nüfuza malik olduğu, xalq üçün işlədiyi və ölkələrimizin inkişaf etməsi, dünyada layiqli yer tutması, suverenliyini möhkəmləndirməsi, müstəqil siyasət yeritməyə qadir olması üçün hər şeyi etdiyi dövlətlərdir.

Azərbaycan xalqının Heydər Əliyevlə vidalaşdığı, Azərbaycan üçün hüznlü günlərdə

Sizin dostunuzla vidalaşmaq üçün Bakıya gəlməyinizi, dostunuza, Azərbaycan xalqına ehtiramınızı bildirməyinizi, qəlbinizin dərinliyindən gələn hisslərinizi, İnsana xas hissləri nümayiş etdirməyinizi biz hamımız xatırlayırıq və heç zaman unutmayacağıq.

Bu gün Qazaxıstanın necə inkişaf etdiyini, necə uğurlar qazandığını, dünya səhnəsində hansı yeri tutduğunu, ən əsası isə, ölkənizdə necə böyük nüfuza malik olduğunuzu, Qazaxıstanda necə sevildiyinizi görəndə bir daha seçdiyiniz yolun düzgünlüyünə əmin olursan. Bütün bunlar göz qabağındadır və hər hansı sözdən yaxşıdır. Sadəcə olaraq, Qazaxıstana gəlmək və buradakı həyatı görmək lazımdır.

Türk dünyasının görkəmli xadimlərindən biri, nüfuzlu dövlət xadimi kimi Sizə Azərbaycanda böyük hörmət bəsləyir, Sizi ölkəmizin dostu kimi sevirlər.

Mən Qazaxıstana rəsmi səfərə dəvətə görə, qonaqpərvərliyə görə Sizə bir daha təşəkkürümü bildirmək, şəxsən Sizə uzun ömür və əla iş arzulayıram. Arzulayıram ki, planlarınızın hamısını şəxsən özünüz həyata keçirəsiniz, – mən bilirəm ki, Siz planları onilliklər üçün nəzərdə tutursunuz, – 20-30 ildən sonra özünüz Qazaxıstanın necə çiçəklənən dövlətə çevrildiyinin şahidi olasınız.

Sizin sağlığınıza!

PREZİDENT İLHAM ƏLİYEVİN QAZAXISTANIN BAŞ NAZİRİ KƏRİM MƏSİMOV İLƏ GÖRÜŞÜ

Azərbaycan Prezidenti İlham Əliyev avqustun 8-də onun üçün ayrılmış iqamətgahda – "Rixos President-Astana" mehmanxanasında Qazaxıstanın Baş naziri Kərim Məsimov ilə görüşmüşdür.

Baş nazir Azərbaycan Prezidentinin Qazaxıstana rəsmi səfərini yüksək qiymətləndirdi, demək olar ki, proqramda nəzərdə tutulan bütün məsələlərin öz həllini tapdığını bildirdi.

Prezident İlham Əliyev avqustun 7-də keçirilən görüşdə və danışıqlarda ölkələrimiz arasında ikitərəfli münasibətlərə, birgə enerji planlarına dair aparılmış geniş müzakirələri xatırlatdı. Dövlətimizin başçısı dedi ki, biz iqtisadi inteqrasiyaya üstünlük veririk və bu, çox vacibdir.

Regional əməkdaşlıq dinamik inkişaf edir. Görüləcək işlərlə bağlı müvafiq strukturların rəhbərlərinə konkret tapşırıqlar verilmişdir. Azərbaycan Prezidenti vurğuladı ki, ümumən keçirilən görüşlər nikbin əhval-ruhiyyə yaradır.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN QAZAXISTAN SENATININ SƏDRİ QASIMCOMƏRD TOKAYEV İLƏ GÖRÜŞÜ

Azərbaycan Prezidenti İlham Əliyev avqustun 8-də onun üçün ayrılmış iqamətgahda Qazaxıstan Respublikası Senatının sədri Qasımcomərd Tokayev ilə görüşmüşdür.

Görüşdə parlamentlərarası əlaqələr, Azərbaycan və Qazaxıstanda gedən demokratik inkişaf prosesləri və aparılan islahatlar barədə fikir mübadiləsi edildi. Ölkələrimizdə iqtisadi inkişafın təmin edilməsi üçün möhkəm qanunvericilik bazası olmasının böyük rolu

vurğulandı. Görüşdə deputat qruplarının qarşılıqlı səfərlərinin əhəmiyyətinə də toxunuldu.

Prezident İlham Əliyev ölkəmizin Milli Məclisində Azərbaycan-Qazaxıstan parlamentlərarası əlaqələr üzrə işçi qrupunun fəaliyyət göstərdiyini bildirdi.

SƏFƏR BAŞA ÇATDI

Avqustun 8-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Qazaxıstana rəsmi səfəri başa çatmışdır.

TACİKİSTAN PREZİDENTİ EMOMƏLİ RƏHMONUN AZƏRBAYCANA RƏSMİ SƏFƏRİ

Avqustun 13-də Tacikistan Prezidenti Emoməli Rəhmon Azərbaycana ikigünlük rəsmi səfərə gəlmişdir.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN VƏ TACİKİSTAN PREZİDENTİ EMOMƏLİ RƏHMONUN TƏKBƏTƏK GÖRÜŞÜ

Avqustun 13-də Prezident sarayında rəsmi qarşılanma mərasimindən sonra Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və Tacikistan Respublikasının Prezidenti Emoməli Rəhmonun təkbətək görüşü oldu.

Görüşdə ikitərəfli münasibətlərin uğurla inkişaf etdiyi vurğulandı, qarşılıqlı rəsmi səfərlərin mühüm əhəmiyyət daşıdığı diqqətə çatdırıldı. Ölkələrimiz arasında iqtisadi əlaqələrin genişləndirilməsi üçün potensial imkanlardan tam istifadə edilməsinin zəruriliyi bildirildi. Bu baxımdan müxtəlif səviyyələrdə qarşılıqlı səfərlərin intensivləşdirilməsinin vacibliyi qeyd edildi.

Görüşdə qarşılıqlı maraq doğuran bir sıra məsələlər müzakirə olundu.

DÖVLƏT BAŞÇILARININ GENİŞ TƏRKİBDƏ GÖRÜŞÜ

Avqustun 13-də Prezident sarayında Azərbaycan Prezidenti İlham Əliyevin və Tacikistan Prezidenti Emoməli Rəhmonun nümayəndə heyətlərinin iştirakı ilə geniş tərkibdə görüşü olmuşdur.

Prezident İLHAM ƏLİYEV görüşü açaraq dedi:

-Hörmətli Emoməli Şərifoviç!

Hörmətli qonaqlar!

Sizi Azərbaycanda ürəkdən salamlamaq istəyirəm. Biz çox şadıq ki, Tacikistan Prezidenti Azərbaycana rəsmi səfərə gəlmişdir. Bu, bizim ölkəyə Sizin ilk rəsmi səfərinizdir və mənim bildiyimə görə, ilk dəfədir ki, Azərbaycana gəlmisiniz. Ümidvaram ki, bu səfər həm məzmunca, həm də forma etibarilə çox uğurlu olacaqdır.

Biz ölkələrimizin ikitərəfli əlaqələrinə böyük əhəmiyyət veririk. Bu ilin baharında mən

Sizin ölkədə rəsmi səfərdə olmuşam. Bu gün Siz Azərbaycandasınız. Bu, ölkələrimiz arasında fəal siyasi münasibətlərin nümayişidir.

Bu gün biz təkbətək görüşdə qarşılıqlı siyasi və iqtisadi əlaqələrin çox mühüm məsələlərini müzakirə etdik və müvafiq qurumlara artıq konkret tapşırıqlar verdik ki, ən qısa müddətdə inteqrasiya xarakterli ciddi iqtisadi layihələrə başlayaq. Əlbəttə, bu, həm əmtəə dövriyyəsinin artmasına, həm də ölkələrimiz arasında daha sıx inteqrasiyaya kömək edəcəkdir.

Biz yaxın vaxtlarda, ən qısa müddətdə Sizin ölkədə Azərbaycanın səfirliyini açacağıq, bu da bizim əlaqələrə nə dərəcədə əhəmiyyət verməyimizin ciddi indikatorudur.

Ümidvaram ki, ölkəmizdə olmağınız Sizin yadınızda qalacaq, faydalı və xoş olacaqdır. Biz həm də regional xarakterli bütün məsələlər üzrə gələcək səmərəli qarşılıqlı əlaqələrə, ikitərəfli siyasi və iqtisadi münasibətlərə, regionda təhlükəsizlik sisteminin möhkəmlənəcəyinə ümid edirik. Bizdə bütün sahələrdə tam qarşılıqlı anlaşma var.

Bir daha xoş gəlmisiniz.

Sonra Prezident EMOMƏLİ RƏHMON çıxış edərək dedi:

-Hörmətli İlham Heydər oğlu!

Dost Azərbaycana səfərə dəvət etdiyinizə və bizi hərarətlə və səmimi qəbul etdiyinizə görə Sizə təşəkkür edirəm. Biz Tacikistan dövlətinin başçısının Azərbaycan Respublikasına ilk rəsmi səfərinə böyük əhəmiyyət veririk və əminik ki, bu səfər Tacikistan-Azərbaycan əməkdaşlığının bütün kompleksinin inkişafına güclü təkan verəcəkdir. Tacikistan bunu əsas götürür ki, qloballaşma proseslərinin, müxtəlif ölkələrin qarşılıqlı əlaqələrinin intensivləşdiyi dövrdə bizim birgə səylərimiz həyatın bütün sahələrində əlaqələrin hərtərəfli inkişafına yönəldilməlidir. Hörmətli İlham Heydər oğlu, Sizin ölkəmizə səfərinizdən sonra çoxəsrlik zəngin ənənələri olan iki dövlət arasında münasibətlər keyfiyyətcə yeni səviyyəyə çatdırılmışdır.

Daha sonra görüşdə qarşılıqlı maraq doğuran bir sıra məsələlər barədə ətraflı fikir mübadiləsi aparıldı.

SƏNƏDLƏRİN İMZALANMASI

Avqustun 13-də Prezident sarayında Azərbaycan Prezidenti İlham Əliyevin və Tacikistan Prezidenti Emoməli Rəhmonun geniş tərkibdə görüşündən sonra Azərbaycan-Tacikistan sənədlərinin imzalanması mərasimi olmuşdur.

Azərbaycan Respublikası və Tacikistan Respublikası arasında Birgə Bəyannaməni Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Tacikistan Respublikasının Prezidenti Emoməli Rəhmon imzaladılar.

Azərbaycan Respublikası Dövlət Statistika Komitəsi və Tacikistan Respublikası Dövlət Statistika Komitəsi arasında statistika sahəsində əməkdaşlıq haqqında sazişi Azərbaycan tərəfdən Dövlət Statistika Komitəsinin sədri Arif Vəliyev, Tacikistan tərəfdən Dövlət Statistika Komitəsinin sədri Mirqand Şabozov imzaladılar.

"Det.Al Metal DMCC" və "TALCO management Ltd" şirkətləri arasında çoxtərəfli

əməkdaşlıq proqramı haqqında çərçivə sazişini Azərbaycan tərəfdən Dövlət Əmlakının İdarə Edilməsi üzrə Dövlət Komitəsinin sədri Kərəm Həsənov, Tacikistan tərəfdən iqtisadi inkişaf və ticarət naziri Qulomjon Bobozadə imzaladılar.

Azərbaycan Respublikası Ədliyyə Nazirliyi ilə Tacikistan Respublikası Ədliyyə Nazirliyi arasında əməkdaşlıq haqqında sazişi Azərbaycan tərəfdən xarici işlər naziri Elmar Məmmədyarov, Tacikistan tərəfdən ədliyyə naziri Baxtiyor Xudoyarov imzaladılar.

Azərbaycan Respublikasının Hökuməti ilə Tacikistan Respublikasının Hökuməti arasında elm, texnika və texnologiya sahəsində əməkdaşlıq haqqında sazişi Azərbaycan tərəfdən Milli Elmlər Akademiyasının prezidenti Mahmud Kərimov, Tacikistan tərəfdən Tacikistan Respublikası Elmlər Akademiyasının prezidenti Mamadşo İlolov imzaladılar.

Azərbaycan Respublikasının Hökuməti ilə Tacikistan Respublikasının Hökuməti arasında rabitə və informasiyalaşdırma sahəsində əməkdaşlıq haqqında sazişi Azərbaycan tərəfdən rabitə və informasiya texnologiyaları naziri Əli Abbasov, Tacikistan tərəfdən nəqliyyat və kommunikasiyalar naziri Əbdürəhim Aşur imzaladılar.

Azərbaycan Respublikasının Hökuməti ilə Tacikistan Respublikasının Hökuməti arasında təhsil sahəsində əməkdaşlıq haqqında sazişi Azərbaycan tərəfdən təhsil naziri Misir Mərdanov, Tacikistan tərəfdən xarici işlər naziri Xamroxon Zaripi imzaladılar.

Azərbaycan Respublikası ilə Tacikistan Respublikası arasında ikiqat vergitutmanın aradan qaldırılması, gəlir və kapitala görə vergilərin ödənilməsindən yayınma hallarının qarşısının alınması barədə sazişi Azərbaycan tərəfdən xarici işlər naziri Elmar Məmmədyarov, Tacikistan tərəfdən maliyyə naziri Səfərəli Nacmuddinov imzaladılar.

Azərbaycan Respublikasının Hökuməti ilə Tacikistan Respublikasının Hökuməti arasında azad ticarət haqqında sazişi Azərbaycan tərəfdən iqtisadi inkişaf naziri Heydər Babayev, Tacikistan tərəfdən iqtisadi inkişaf və ticarət naziri Qulomjon Bobozadə imzaladılar.

DÖVLƏT BAŞÇILARININ BİRGƏ MƏTBUAT KONFRANSI

Avqustun 13-də Prezident sarayında sənədlərin imzalanması mərasimi başa çatdıqdan sonra Azərbaycan Prezidenti İlham Əliyevin və Tacikistan Prezidenti Emomәli Rəhmonun birgə mətbuat konfransı keçirilmişdir.

Dövlət başçıları əvvəlcə bəyanatlarla çıxış etdilər

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN BƏYANATI

-Hörmətli Emomәli Şərifoviç!

Hörmətli qonaqlar!

Prezident Emomәli Şərifoviç başda olmaqla qardaş Tacikistanın nümayəndə heyətini bir daha ürəkdən salamlamaq istəyirəm.

Bu gün biz qarşılıqlı maraq doğuran məsələlər barədə çox ətraflı fikir mübadiləsi apardıq. İqtisadi inteqrasiya çərçivəsində öz fəaliyyətimizi razılaşdırdıq, regional əməkdaş-

lıq, regional təhlükəsizlik məsələlərini, təbii ki, ikitərəfli münasibətləri, Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli problemini müzakirə etdik. Böyük məmnunluqla deməliyəm ki, müzakirə etdiyimiz bütün məsələlər barədə bizim baxışlarımız və münasibətlərimiz üst-üstə düşür.

Ölkələrimiz arasında səmərəli, dinamik əməkdaşlıq mərhələsi başlanır. Xalqlarımız ta qədimdən bir-birinə böyük rəğbət bəsləmiş, bir-birinə can atmışlar. Bizdə ümumi cəhətlər, bizi birləşdirən cəhətlər çoxdur. Ölkələrimizin müstəqil dövlətlər kimi təşəkkül tapdığı illər ərzində həm Tacikistan, həm də Azərbaycan çox böyük tərəqqiyə nail olmuşdur. Biz müstəqilliyimizi möhkəmlətmişik, çox təsirli idarəetmə mexanizmi yaratmışıq, iqtisadi proseslərin inkişafına çox diqqət yetiririk. Əlbəttə biz belə hesab edirik ki, müştərək iqtisadi layihələrlə bir-birimizi gücləndirmək üçün böyük potensial vardır.

Bu gün biz ikitərəfli iqtisadi münasibətlərin inkişafına ciddi təkan verəcək bir neçə konkret layihəni müzakirə etdik. Ümidvaram ki, bu gün razılığa gəldiyimiz məsələlərin əməli nəticələrini ən yaxın vaxtda görəcəyik.

Bu il baharda mən Tacikistana ilk rəsmi səfər etdim, yayda isə Emomәli Şərifoviç Azərbaycana ilk rəsmi səfərə gəlib. Bu, bizim münasibətlərimizin dinamizmini əyani şəkildə nümayiş etdirir. Ümidvarıq ki, Tacikistanın və Azərbaycanın bütün strukturları iqtisadi inteqrasiya, qarşılıqlı əlaqələr istiqamətində səmərəli iş aparacaqlar ki, işimizin əməli nəticələrini mümkün qədər tezliklə görək.

Biz beynəlxalq təşkilatlarda da fəal əməkdaşlıq edirik, bütün məsələlərdə daim bir-birimizi dəstəkləyirik, bizim çox möhkəm siyasi münasibətlərimiz vardır. Bu gün bizim görüşümüzdə demişəm, bir daha demək istəyirəm ki, Tacikistanda Azərbaycanın səfirliyinin açılması barədə qərar bizim ikitərəfli əməkdaşlığa verdiyimiz əhəmiyyətin mühüm indikatorudur. Ümidvaram ki, yaxın vaxtlarda bizim səfirlik öz işinə başlayacaqdır.

Əminəm ki, yaradılması barədə bu gün razılığa gəldiyimiz birgə hökumətlərarası komissiya iqtisadi inteqrasiyanın yeni prioritetlərini müəyyən etmək üçün yaxşı bir forma olacaqdır. Ölkələrimizin iqtisadiyyatı dinamik inkişaf edir, potensial artır, müştərək nəqliyyat infrastrukturundan istifadə edilməsi imkanları çox ümidvericidir. Buna görə də komissiya iqtisadi əməkdaşlığın praktiki aspektləri üzərində, konkret layihələr üzərində işləməli, hər iki dövlətin biznes strukturları üçün əlverişli şərait yaratmalıdır.

Biz qəti əminik ki, razılığa gəldiyimiz bütün məsələlər həyata keçiriləcəkdir. İqtisadi inteqrasiya, ölkələrimiz arasında qarşılıqlı siyasi əlaqələr, qlobal təhlükələrə – terrorizmə, narkotrafikə qarşı birgə mübarizə, regionda təhlükəsizlik sisteminin möhkəmləndirilməsi - bütün bunlar müasir həyatın elə aspektləridir ki, orada həm Tacikistan, həm də Azərbaycan mühüm rol oynayır və bizim regionda sülhün möhkəmlənməsinə, təhlükənin azalmasına layiqli töhfə verirlər. Mən çox şadam ki, bu gün Emomәli Şərifoviç bizim ölkəmizə təşrif gətirmişdir. Bu, onun Azərbaycana ilk səfəridir. Biz hər ikimiz bu ünsiyyəti eyni dərəcədə səmərəli şəkildə davam etdirmək arzusundayıq. Biz beynəlxalq forumlarda tez-tez görüşmüşük və görüşürük, ikitərəfli səfərlər - ikitərəfli münasibətlərin ən mühüm elementidir. Biz bu sıx əməkdaşlığı davam etdirəcəyik, xüsusən ona görə ki, bizim aramızda çox yaxın və etimadlı dostluq münasibətləri yaranmışdır.

Mən bu səfərin həyata keçirilməsi faktının özündən də, səfərin necə keçməsindən, mə-

sələləri necə operativ həll etməyimizdən də məmnun olduğumu bildirmək istəyirəm. Emomәli Şərifoviçi bizim ölkədə salamlamaq bir insan kimi mənə çox xoşdur.

Diqqətinizə görə təşəkkür edirəm.

TACİKİSTAN PREZİDENTİ EMOMƏLİ RƏHMONUN BƏYANATI

-Hörmətli kütləvi informasiya vasitələrinin nümayəndələri!

Bu gün Tacikistan Respublikası dövlət nümayəndə heyətinin Azərbaycana ilk rəsmi səfəri çərçivəsində həm ikitərəfli, həm də regional və beynəlxalq xarakterli məsələlərin geniş spektri üzrə konstruktiv və maraqlı fikir mübadiləsi oldu. Biz ölkələrimiz arasında əməkdaşlıq sahələrinin axtarışına və daha da inkişaf etdirilməsinə yönəlmiş daimi siyasi dialoqumuzu davam etdirdik.

Heç şübhəsiz, bizim müntəzəm siyasi əlaqələrimiz gələcəkdə də davam edəcəkdir. Bu gün biz razılığa gəldik ki, təkcə rəsmi səviyyədə deyil, zəruri hesab etdiyimiz hallarda qeyri-rəsmi, işçi şəraitdə də görüşəcəyik. 10-12 sənəd, saziş və ya bəyanat qəbul etmək vacib deyil. Sadəcə olaraq, əyləşib söhbət etməyə, xüsusən ticari-iqtisadi əməkdaşlıq sahəsində inteqrasiya məsələlərini həll etmək üçün vaxt tapmaq olar. Axı, məsafə o qədər də böyük deyil - təyyarə ilə cəmi iki saat uçmaq lazımdır.

Ölkələrimizin ikitərəfli münasibətlərinin inkişafı bütövlükdə müsbət dinamikaya malikdir. Mart ayında Azərbaycan Respublikasının Prezidenti İlham Heydər oğlu Əliyevin Tacikistana səfərindən sonra bu münasibətlər zəruri təkan almışdır. Tərəflər əmtəə dövriyyəsini artırmaq, müştərək iqtisadi layihələri həyata keçirmək, bütün istiqamətlərdə sıx əməkdaşlığı tənzimləmək üçün mövcud imkanlardan daha dolğun istifadə etməyi qərara almışlar. Mən deyərdim ki, bu ilin birinci yarısında əmtəə dövriyyəsinin bir neçə faiz azalmasına baxmayaraq, o, artacaqdır. Bu gün biz xüsusən, əlvan metallurgiya, neftin və qazın hasilatı və emalı, başqa istiqamətlər üzrə uzunmüddətli iqtisadi əməkdaşlıq barədə razılığa gəldik. Buna görə də proqnozlaşdırırıq ki, yaxın 5 ildə ticari-iqtisadi əməkdaşlıq səviyyəsini 700 milyon dollardan artıq səviyyəyə çatdıra bilərik.

Biz humanitar sahədə əməkdaşlığı inkişaf etdirməyin tərəfdarı olduğumuzu bildirdik. Bütün bu məsələlər yaxın vaxtlarda işə başlayacaq hökumətlərarası komissiyanın əməli fəaliyyətinin predmeti olacaqdır. Bu gün müqavilə-hüquqi bazanın təkmilləşdirilməsinə və möhkəmlənməsinə yönəlmiş bir sıra sənədlər imzalandı. Bu bazanın əsasını Düşənbədə imzalanmış dostluq və əməkdaşlıq haqqında müqavilə təşkil edir.

Tacikistan-Azərbaycan danışıqlarının gedişində biz başqa məsələlərə də toxunduq. Birləşmiş Millətlər Təşkilatı, Avropada Təhlükəsizlik və Əməkdaşlıq Təşkilatı, Müstəqil Dövlətlər Birliyi və digər beynəlxalq və regional birliklər çərçivəsində qarşılıqlı fəaliyyətin problemlərini və perspektivlərini müzakirə etdik.

Biz öz regionlarımızdakı vəziyyəti də müzakirə etdik və demək istəyirəm ki, həm Cənubi Qafqazda, həm də Mərkəzi Asiyada və onların ətrafında regional sabitliyə təhlükə və meydan oxunmasının hələ də davam etməsi barədə fikirlərimiz üst-üstə düşür. Tacikistan müharibənin bütün dəhşətlərindən keçmiş bir ölkə kimi bütün mövcud münaqişələrin, o cümlədən Dağlıq Qarabağ münaqişəsinin də sülh yolu ilə tənzimlənməsi prinsiplərinə sadiqdir.

Sevindirici haldır ki, aşkar çətinliklərə baxmayaraq, münaqişə tərəfləri də dialoqu davam etdirmək əzmindədirlər. ATƏT-in Minsk qrupunun həmsədrlərinin xüsusi nümayəndələri təsisatının yaradılması, heç şübhəsiz, danışıqlar prosesinin intensivləşdirilməsinə şərait yaradacaqdır. Minsk qrupunun sonuncu bəyanatı da nikbinliyə əsas verir. Bununla belə, son söz iki ölkənin və onların liderlərinindir.

Onların hər ikisinə bələd olduğuma görə əminəm ki, Cənubi Qafqazda sülhün və sabitliyin qorunub saxlanması üçün nə lazımdırsa edəcəklər. Bu, planetimizin bu mühüm regionunda yaşayan bütün xalqların mənafeyinə uyğundur.

İran ətrafında gərginlik barəsində onu demək istəyirəm ki, dili və mədəniyyəti bizimlə bağlı olan bu ölkənin taleyinə biganə qala bilmərik. Biz əminik ki, yalnız siyasi-diplomatik vasitələrdən istifadə etməklə bütün ağrılı məsələləri həll etmək mümkündür.

Bütövlükdə demək istəyirəm ki, biz səfərin gedişindən, baş tutmuş dialoqdan razıyıq. Bu dialoqla iki dost ölkə – Tacikistan və Azərbaycan bizim münasibətləri keyfiyyətcə daha yüksək səviyyəyə çatdırmaq üçün bütün mövcud potensialdan istifadə etmək əzmində olduqlarını təsdiqlədi.

Mən möhtərəm İlham Heydər oğlunu bu il oktyabrın əvvəlində MDB Dövlət Başçıları Şurasının iclasında iştirak etmək üçün Düşənbəyə işgüzar səfərə dəvət etdim. Fikrimcə bu, qısa müddətdə bir daha görüşmək, iki qardaş ölkə arasında iqtisadi əməkdaşlığı inkişaf etdirməyə imkan verən bu gün imzalanmış sanballı sazişlərin – hüquqi bazanın həyata keçirilməsinin gedişini müzakirə etmək üçün yaxşı fürsətdir.

Sağ olun.

***

Sonra dövlət başçıları jurnalistlərin suallarına cavab verdilər.

- Mənim sualım Azərbaycan Respublikasının Prezidentinədir. Bu gün Tacikistan həm yaxın, həm də uzaq xaricdəki sərmayədarların çox böyük marağına səbəb olan investisiya layihələrinin geniş spektrini təklif edir. İqtisadi baxımdan Azərbaycanın çox böyük potensialını nəzərə alaraq, Siz hidroenergetika, filizçıxarma, neft-qaz və başqa sahələrdə bu cür layihələrin həyata keçirilməsində iştirak etmək niyyətindəsinizmi?

İLHAM ƏLİYEV: Biz bu məsələni bu gün Emomәli Şərifoviçlə söhbətimiz zamanı müzakirə etdik. Biz qəti qərara almışıq ki, Tacikistandakı investisiya layihələrində fəal iştirak edək. Bu gün biz qərara aldıq ki, Azərbaycan Neft Şirkətinin bir qrup mütəxəssisi sizin ölkədə neft-qaz əməliyyatları aparmağın mümkünlüyünü öyrənmək üçün lap yaxın vaxtlarda Tacikistana səfər etsin.

Azərbaycanın bu sahədə xarici şirkətlərlə əməkdaşlıq təcrübəsi zəngindir. Onun öz təcrübəsi də var, axı, Azərbaycan neftin vətənidir. Sənaye üsulu ilə neftçıxarma, eləcə də dənizdəki yataqlardan neft hasil edilməsi ilk dəfə bizim ölkədə başlanmışdır. Bu gün biz neft-qaz hasilatını artırırıq, neft və qaz çıxaran iri ölkəyə çevrilirik. Sizin ölkənizdə investisiya layihələri həyata keçirmək üçün bizim maliyyə imkanlarımız da var, xalis texniki imkanlarımız da, ən başlıcası - kommersiya marağımız da.

İqtisadiyyatın başqa sahələrinə gəldikdə isə, biz bilirik ki, Tacikistanda cəlbedici layihələr çoxdur və əminəm ki, məhz yaradılacaq müştərək iqtisadi əməkdaşlıq komissiya-

sı çərçivəsində hansı konkret sahələrə sərmayə qoymaq məsələləri ətraflı işlənib hazırlanacaq və müzakirə ediləcəkdir. Bir daha demək istəyirəm ki, məsələnin maliyyə tərəfi bizim üçün problem deyil. Bizim kifayət qədər maliyyə vəsaitimiz var. Biz beynəlxalq maliyyə təsisatları ilə də çox fəal iş aparırıq. Azərbaycanın kredit reytinqi artmaqdadır. Buna görə də biz prinsip etibarilə investisiya layihələri üçün sanballı vəsait cəlb edə bilərik.

Fikrimcə, bu sahədə fəaliyyətin ilk nəticələri yaxın vaxtlarda görünəcəkdir.

- Mənim sualım Tacikistan Prezidentinədir. Hörmətli cənab Prezident, Sizin fikrinizcə, bu səfəriniz Azərbaycan ilə Tacikistan arasında siyasi əlaqələrin inkişafında nə kimi rol oynayacaqdır?

EMOMƏLİ RƏHMON: Bizim ölkələrimiz bir sıra beynəlxalq və regional təşkilatların - BMT, ATƏT, İKT, MDB, İƏT təşkilatlarının, eləcə də beynəlxalq maliyyə təsisatlarının üzvüdür. İqtisadi inkişafın yenicə sürətləndiyi vaxtları yaxşı xatırlayıram, o vaxt Azərbaycanla biz praktiki olaraq eyni vəziyyətdə idik. Burada çoxsaylı layihələr həyata keçirilirdi, sonra biz onları öyrənirdik, həmin layihələr beynəlxalq maliyyə təsisatları tərəfindən də öyrənilir, sonra Tacikistanda həyata keçirilirdi.

İndi vəziyyət tamam başqadır. Azərbaycanın iqtisadi inkişaf səviyyəsi bizi sevindirir. ÜDM-in hər il 36 faiz artması çox yaxşı göstəricidir. Mən bu ilin birinci yarısında Azərbaycanın iqtisadi inkişafının yekunlarını diqqətlə öyrənmişəm. Bu, gələcəkdə ölkəmizə investisiyalar cəlb edilməsi üçün yaxşı imkanlar yaradır. Tacikistanda layihələrin həyata keçirilməsi perspektivləri barədə sual verdilər. Hörmətli İlham Heydər oğlu ilə biz elə indicə razılaşdıq ki, sabah bizim tapşırıqlar üzrə konkret sazişlər imzalansın. Bizim razılaşmalar yaxın 5 ildə əmtəə dövriyyəsinin həcmini artıraraq, təxminən 500 milyon dollara çatdırmağa imkan verir. Əlvan metallurgiyanın inkişafı sahəsində sirr deyildir ki, Gəncə gil-torpaq kombinatından Tacikistana, Tacik Alüminium Şirkətinə hər il 300 min tondan çox gil-torpaq göndərilir. Perspektivdə biz gil-torpaqdan əlavə Tacikistan iqtisadiyyatının ehtiyacı olan başqa malları da idxal edəcəyik. Tacikistandan Azərbaycana alüminium istehsalı üçün 50 min tondan çox komponent göndəriləcəkdir.

Neft-qaz sənayesi üzrə bizim xahişimizlə yaxın vaxtlarda sizin mütəxəssislərin bizə gəlməsi barədə tapşırıq verilmişdir. Hələ keçmiş Sovet İttifaqı dövründə dərin neft və qaz yataqlarında geoloji kəşfiyyat işləri aparılmışdır. Azərbaycanlı mütəxəssislərin təcrübəsi barədə İlham Heydər oğlunun indicə dedikləri bizim üçün, bu məhsula kəskin ehtiyacı olan bir ölkə üçün həmin sahənin inkişaf perspektivlərini öyrənmək baxımından yaxşı imkanlar yaradacaqdır.

Siyasi əlaqələrin bizə nə verməsi məsələsinə gəldikdə isə, qeyd etmək istəyirəm ki, qısa müddətdə iki rəsmi səfər baş tutmuşdur. Bu, mənim suveren dövlətin başçısı kimi, bir vətəndaş kimi, Azərbaycana ilk rəsmi səfərimdir. Bu, mənim çoxdankı arzum idi. Mən biz taciklərə çox yaxın olan bu qədim xalqın tarixi və mədəniyyəti barədə çox oxumuşam. Nizamini təkcə Azərbaycanda deyil, Tacikistanda da sevirlər, bəlkə də Azərbaycandakından daha çox sevirlər. Bu, bizim mədəniyyətlərimizin, ənənələrimizin, adətlərimizin yaxınlığıdır. Ölkələrimiz arasında məsafə də çox böyük deyil, təyyarə ilə iki saatlıq yoldur. Müasir dünyada məsafələrin heç bir rolu yoxdur.

Əlaqələrə gəldikdə, biz dəfələrlə görüşmüşük. Mən İlham Heydər oğluna böyük hörmət bəsləyirəm. Nə üçün? Rəhmətlik Heydər Əliyevlə bizim yaxşı münasibətlərimiz var idi. Axı, Heydər Əlirza oğlu Siyasi Büronun üzvü olduğu dövrdə Tacikistanın hidroenergetikasının inkişafı üçün çox iş görmüş, Tacikistan Respublikasının inkişafına çox kömək etmişdir. Mənim fikrimcə, indi biz ölkələrimiz və xalqlarımız arasında bu səmimi dostluq münasibətlərini bərpa edəcəyik. Bizim heç bir siyasi problem və ya siyasi ambisiyalarımız yoxdur. Biz insanların, əmtəələrin, xidmətlərin, kapitalın sərbəst hərəkəti üçün şərait yaratmalıyıq. Əgər bizə investisiyalar hansısa uzaq bir dövlətdən deyil, Azərbaycandan daxil olsa, bunun nəyi pisdir? Üstəlik, bizim ümumi cəhətlərimiz çoxdur. Bu, müzakirələr, məsləhətləşmələr aparmaq, qlobal və regional məsələlər və problemlər barədə öz milli mənafelərimizə uyğun olaraq bir-birimizi məlumatlandırmaq üçün imkan verir. Problemlər isə çoxdur - ekstremizmə, beynəlxalq terrorizmə, transmilli mütəşəkkil cinayətkarlığa, narkotrafikə qarşı mübarizə – bütün bunlar hamını - böyük və kiçik, qonşu və ya uzaq ölkələri narahat edən qlobal problemlərdir.

Beynəlxalq münasibətlər barədə biz hər birimizi maraqlandıran, narahat edən məsələlərə dair beynəlxalq təşkilatlar və forumlar çərçivəsində məsləhətləşəcəyik. Bir-birimizin təşəbbüslərini dəstəkləyəcəyik. Bunu nə üçün də etməyək? Azərbaycan Tacikistanın 1993-cü ilin İçməli Su İli elan edilməsi barədə təşəbbüsünü, sonra isə Həyat Üçün Su Dekadası barədə təşəbbüsünü Birləşmiş Millətlər Təşkilatında dəstəklədi. Məgər bu pisdir?

Mənim fikrimcə, bu səfər bütün istiqamətlərdə ikitərəfli əməkdaşlığın inkişafına güclü təkan verəcəkdir.

HEYDƏR ƏLİYEV FONDU İLƏ TANIŞLIQ

Tacikistan Prezidenti Emomәli Rəhmon avqustun 13-də Heydər Əliyev Fondunda olmuşdur.

Azərbaycan Prezidenti İlham Əliyev Tacikistan dövlətinin başçısını burada səmimiyyətlə qarşıladı. Qonaqlar əvvəlcə kinozalda Fondun fəaliyyətindən, həyata keçirdiyi layihələrdən söhbət açan sənədli filmə baxdılar.

Sonra Tacikistan Prezidentinə Azərbaycan xalqının ümummilli liderinin xatirəsinə ehtiram əlaməti olaraq yaradılmış Fondun fəaliyyəti barədə məlumat verildi. Bildirildi ki, Fondun əsas məqsədi Prezident Heydər Əliyevin zəngin irsini öyrənmək və təbliğ etməkdən, onun Azərbaycanın sosial-iqtisadi, mədəni tərəqqisinə yönəlmiş genişmiqyaslı fəaliyyəti barədə gələcək nəsillərdə, ölkəmizin qonaqlarında əyani təsəvvür yaratmaqdan, dahi şəxsiyyətin müəllifi olduğu regional layihələrin həyata keçirilməsini dəstəkləməkdən, Azərbaycan mədəniyyəti və tarixinin geniş təbliği ilə əlaqədar aparılan işlərə kömək göstərməkdən ibarətdir.

Prezident İlham Əliyev Tacikistan rəhbərinə ümummilli liderimizin şəxsi arxivindən götürülmüş və onun fəaliyyətinin ayrı-ayrı dövrlərini əhatə edən eksponatlar barədə ətraflı məlumat verdi.

Tacikistan Prezidenti Emomәli Rəhmon fenomen şəxsiyyət Heydər Əliyevin həyatının ən müxtəlif məqamlarını əks etdirən və Azərbaycan tarixinin bütöv bir dövrü barədə ge-

niş təsəvvür yaradan çoxlu sənədlərlə, ulu öndərimiz haqqında kitablarla, dünyanın nüfuzlu siyasi, elm, mədəniyyət və incəsənət xadimlərinin, dövlət və hökumət rəhbərlərinin müstəqil Azərbaycan dövlətinin memarı və qurucusu haqqında fikirləri ilə tanış oldu, onların ümummilli liderimizlə müxtəlif görüşlərdə birgə çəkdirdikləri fotoşəkillərə böyük maraqla baxdı.

Prezidentlər Bakı-Tbilisi-Ceyhan neft kəmərinin maketinə də baxdılar. Tacikistan Prezidenti Fondun xatirə kitabına ürək sözlərini yazdı, ümummilli lider Heydər Əliyevin şəxsiyyətinə dərin hörmətini, ulu öndərin tacik xalqına göstərdiyi qayğını, onun Tacikistanda daim xatırlandığını bildirdi, Azərbaycan dövlətinin tərəqqisi naminə dəyərli fəaliyyətində Fonda uğurlar arzuladı.

Tacikistan dövlətinin başçısına xatirə hədiyyələri təqdim edildi.

Prezident Emomәli Rəhmon da Fonda hədiyyə bağışladı.

Azərbaycan və Tacikistan prezidentləri Fondun eyvanından Bakının mənzərəsini seyr etdilər.

Ali qonaq Fonddan zəngin təəssüratla ayrıldığını söylədi.

ALİ QONAĞIN ŞƏRƏFİNƏ

Avqustun 13-də "Güllüstan" sarayında Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin adından Tacikistan Respublikasının Prezidenti Emomәli Rəhmonun şərəfinə rəsmi qəbul təşkil edilmişdir.

Dövlət başçıları qəbulda nitq söylədilər.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN NİTQİ

-Hörmətli Emomәli Şərifoviç!

Hörmətli qonaqlar!

Əziz dostlar!

Tacikistan Prezidentinin Azərbaycana rəsmi səfərinin ilk günü başa çatır. Artıq bu gün demək olar ki, bu səfər çox uğurlu olmuşdur. Biz bu səfəri ölkələrimiz arasında bir qədər əvvəl başlanmış fəal dialoqun davamı hesab edirik.

Məlum olduğu kimi, bu ilin mart ayında mən Tacikistana ilk rəsmi səfər etmişəm və indi Tacikistan Prezidenti bizim ölkəmizə təşrif gətirmişdir. Bu gün biz geniş fikir mübadiləsi etdik, iqtisadi sahədə gələcək inteqrasiya işində böyük əhəmiyyət daşıyan məsələlərə dair danışıqlar apardıq, qarşılıqlı siyasi əlaqələr məsələlərini, təbii ki, ikitərəfli münasibətlərin geniş spektrini, regional problemləri müzakirə etdik və bu nəticəyə gəldik ki, bu gün bizim münasibətlərə xas olan dinamizm çox qısa müddətdə bütün sahələrdə qarşılıqlı faydalı əməkdaşlıqda xeyli irəliləməyə imkan verəcəkdir.

Biz bu il Tacikistanda Azərbaycan Mədəniyyəti Günləri keçirməyi planlaşdırırıq, həmçinin Tacikistanın incəsənət ustalarını bizim ölkədə məmnuniyyətlə qəbul edəcəyik. Əminəm ki, yaxın vaxtlarda ikitərəfli əlaqələr məsələlərinin bütün spektrini nəzərdən

keçirəcək birgə hökumətlərarası komissiya yaradılacaqdır. Yaxın vaxtlarda Azərbaycanın Tacikistanda səfirliyi işə başlayacaqdır. Bütün bu elementlər əməkdaşlığımızı çox səmərəli və çox geniş kontekstdə həyata keçirməyə imkan verəcəkdir.

Biz Tacikistanı özümüzə dost, qardaş dövlət hesab edirik. Xalqlarımız arasında çoxəsrlik dostluq və qardaşlıq münasibətləri ənənələri mövcuddur və biz bu ənənələri qoruyub saxlayır, artırırıq, davam etdirmək əzmindəyik.

Biz beynəlxalq təşkilatlar çərçivəsində ölkələrimizin qarşılıqlı əlaqələrindən çox razıyıq, biz həmişə bir-birimizi dəstəkləyirik, bir-birimizin səsinə səs verir, onun tərəfində çıxış edirik. Bu da bizim münasibətlərin dostluq xarakterini vurğulayır.

Biz əminik ki, əlaqələrimizin gələcək yüksələn inkişafı dövlətlərimizin inkişafına da, regionda təhlükəsizlik sisteminin möhkəmlənməsinə də şərait yaradacaqdır. Həm Tacikistan, həm də Azərbaycan beynəlxalq terrorizmə, narkotrafikə qarşı mübarizədə çox mühüm ölkələrdir. Biz öz regionumuzda risklərin azaldılmasına yönəlmiş müxtəlif layihələrdə fəal iştirak edirik.

Hər iki ölkə müstəqil dövlət kimi təşəkkül dövründə vətəndaş müharibəsinin çox ağır nəticələri ilə üzləşmişdir. Təəssüf ki, bizdə müharibə hələ başa çatmamışdır. Azərbaycan torpaqları – ölkəmizin ərazisinin 20 faizi hələ də Ermənistanın işğalı altında qalmaqdadır. Ermənistan rəhbərliyi tərəfindən azərbaycanlılara qarşı aparılmış etnik təmizləmə siyasəti nəticəsində bir milyondan çox azərbaycanlı hələ də qaçqın və məcburi köçkün vəziyyətində yaşayır. Birləşmiş Millətlər Təşkilatı Təhlükəsizlik Şurasının erməni işğalçı qüvvələrinin bizim ərazilərdən dərhal və qeyd-şərtsiz çıxarılmasını tələb edən dörd qətnaməsi təəssüf ki, hələ də yerinə yetirilməmiş qalır. Azərbaycana qarşı işğala və təcavüzə son qoyulmasını tələb edən Avropa Şurasının, İslam Konfransı Təşkilatının və digər nüfuzlu beynəlxalq təşkilatların qətnamələri də təəssüf ki, kağız üzərində qalır.

Biz hələ ki, danışıqlar prosesini davam etdirmək niyyətindəyik. Hesab edirik ki, danışıqlar prosesinin potensialı tükənməmişdir, lakin bununla yanaşı iqtisadiyyatımızın möhkəmləndirilməsi üzərində fəal iş aparırıq. Son illərdə Azərbaycanda iqtisadiyyatın coşğun inkişafı bizə iqtisadi və siyasi xarakterli məsələləri həll etməyə, ölkəmizin müdafiə qabiliyyətini möhkəmlətməyə imkan verir. Son dövrlərdə bundan ötrü çox işlər görülmüşdür.

Beləliklə, hesab edirəm ki, biz Azərbaycan torpaqlarının işğaldan azad ediləcəyi günü yaxınlaşdıra bilərik, o gün isə hökmən gələcəkdir. Tarixi həqiqət və ədalət, həmçinin beynəlxalq hüquq zəfər çalacaqdır. Bunun üçün biz güclü olmalıyıq, bunun üçün biz öz dostlarımız və tərəfdaşlarımızla uzunmüddətli qarşılıqlı siyasi və iqtisadi əlaqələrə inteqrasiya etməliyik. Bunun üçün biz irimiqyaslı enerji və nəqliyyat layihələrində iştirak edirik və bu layihələrin təşəbbüsçüsüyük.

Bu gün Emomәli Şərifoviçlə biz neft-qaz sahəsində, alüminium sənayesində əməkdaşlıq məsələlərini müzakirə etdik. Biz Tacikistana Bakı-Tbilisi-Qars dəmir yolunun layihəsi barədə də məlumat verdik. Bu yol da tacik xalqının, tacik dövlətinin mənafeləri naminə xidmət edə bilər. Biz bütün layihələrimizdə açığıq, tacik qardaşlarımızla mükəmməl qarşılıqlı əlaqələr üçün öz infrastrukturumuzu, bütün imkanlarımızı təqdim etməyə hazırıq.

Bu mühüm, deyərdim ki, dövlətlərimiz arasındakı münasibətlərdə tarixi gündə onu da söyləmək istəyirəm ki, mən Emoməli Şərifoviçi şəxsən salamlamağa çox şadam. Bu, onun Azərbaycana ilk səfəridir. Mart ayında mənim Tacikistana səfərim də ilk səfər idi. Biz razılığa gəldik ki, münasibətlərimizin dinamizmi zəifləməməlidir. Biz qarşılıqlı səfərləri müxtəlif formatda davam etdirmək barədə razılığa gəldik. Əlbəttə, ölkələrimiz arasında, ölkələrimizin rəhbərləri arasında və bu gün burada iştirak edən nazirlik və idarə rəhbərləri arasında ünsiyyət daha fəal olmalıdır. Biz buna çalışırıq və bugünkü səfər çox böyük nikbinlik hissi oyadır.

Mən bu badəni Tacikistan Prezidenti, mənim dostum Emoməli Şərifoviç Rəhmonun sağlığına, Tacikistan nümayəndə heyətinin bütün üzvlərinin sağlığına, tacik və Azərbaycan xalqları arasında dostluq şərəfinə qaldırmaq istəyirəm!

TACİKİSTAN PREZİDENTİ EMOMƏLİ RƏHMONUN NİTQİ

-Hörmətli İlham Heydər oğlu!

Əziz dostlar!

İcazə verin, Tacikistan Respublikası nümayəndə heyəti adından bizim mehriban ev sahiblərinə səmimi, həqiqətən qardaşcasına qonaqpərvərliyə görə bir daha səmimi minnətdarlığımı bildirim.

Biz bir-birinə rəğbət hissləri bəsləyən ölkələrimizin və xalqlarımızın qarşılıqlı münasibətləri sahəsində toplanmış təcrübəni çox qiymətli hesab edirik və bu münasibətləri bizim gələcək nəsillər üçün qoruyub saxlamaq və genişləndirmək əzmindəyik.

Sevindirici haldır ki, bu gün ölkələrimizin müstəqil inkişaf etdiyi yeni şəraitdə xalqlarımız arasında qarşılıqlı dostluq, rəğbət və etimad ənənələri öz əhəmiyyətini itirməmişdir və keyfiyyətcə yeni əsasda məntiqi davamını tapmışdır.

Fürsətdən istifadə edib bildirmək istəyirəm ki, Tacikistan iki ölkə xalqlarının rifahı naminə əməkdaşlıq sahələrinin genişləndirilməsi və dərinləşdirilməsi üçün bundan sonra da bütün zəruri səylərini sərf edəcəkdir.

Bizim münasibətlər kompleksinin bugünkü müzakirəsi hər iki tərəfin qarşılıqlı etimadının yüksək səviyyəsinə və praktiki olaraq bütün istiqamətlərdə əməkdaşlığı keyfiyyətcə yaxşılaşdırmağa hazır olmasına dəlalət edir. Biz əminik ki, bu birgə səylər ikitərəfli münasibətlərə güclü təkan verəcək və dövlətlərimizin əsas mənafelərinə uyğun olan qarşılıqlı faydalı əməkdaşlıq üçün geniş üfüqlər açacaqdır.

Əziz dostlar, böyük məmnuniyyətlə mənim dostum, Azərbaycan Respublikasının Prezidenti möhtərəm İlham Heydər oğlunun və bütün azərbaycanlı dostlarımızın sağlığına və onların uğurları şərəfinə badə qaldırmaq istəyirəm.

Bərəkətli Azərbaycan torpağında sülh və firavanlıq şərəfinə!

Tacikistan və Azərbaycan arasında dostluq münasibətlərinin, qarşılıqlı faydalı əməkdaşlığın və tərəfdaşlığın inkişafı və dərinləşməsi şərəfinə!

Xalqlarımızın xoşbəxtliyi və əmin-amanlığı şərəfinə!

TACİKİSTAN PREZİDENTİ AZƏRBAYCANIN BAŞ NAZİRİ İLƏ GÖRÜŞMÜŞDÜR

Avqustun 14-də Tacikistan Prezidenti Emoməli Rəhmon onun üçün ayrılmış iqamətgahda - "Ulduz" sarayında Azərbaycanın Baş naziri Artur Rasizadə ilə görüşmüşdür.

Tacikistan dövlətinin başçısı səfərinin gedişindən, Azərbaycan Prezidenti İlham Əliyevlə danışıqlarından razı qaldığını bildirərək qeyd etmişdir ki, bütün bunlar iki ölkə arasında münasibətlərin dərinləşməsinə, müştərək qarşılıqlı faydalı iqtisadi layihələrin həyata keçirilməsinə, əmtəə dövriyyəsinin artmasına yeni təkan verəcəkdir.

Azərbaycanın Baş naziri iqtisadi sahədə ikitərəfli əlaqələrin fəallaşdırılmasının zəruri olmasını vurğulayaraq bildirmişdir ki, bu, hər iki dövlətin mənafelərinə xidmət edir.

Görüşdə qarşılıqlı maraq doğuran məsələlər barədə fikir mübadiləsi aparılmışdır.

AZƏRBAYCAN-TACİKİSTAN ƏLAQƏLƏRİNİN İNKİŞAFINA PARLAMENTLƏR LAYİQLİ TÖHFƏ VERİR

Tacikistan Prezidenti Emoməli Rəhmon avqustun 14-də Milli Məclisdə olmuşdur.

Ali qonaq və nümayəndə heyətinin üzvləri əvvəlcə Milli Məclisin iclas zalında oldular, yaradılmış iş şəraiti ilə maraqlandılar. Prezident Emoməli Rəhmon iclas zalının müasir standartlara uyğun qurulduğunu qeyd etdi.

Sonra Tacikistan dövlətinin başçısı və nümayəndə heyətinin üzvləri parlamentdə "Heydər Əliyev xatirə zalı" ilə tanış oldular, buradakı eksponatlarla yaxından maraqlandılar.

Tacikistan Prezidenti Emoməli Rəhmon muzeyin xatirə kitabına ürək sözlərini yazdı.

Daha sonra Azərbaycan Respublikası Milli Məclisinin sədri Oqtay Əsədov Tacikistan Prezidenti Emoməli Rəhmon ilə görüşdü.

Qonağı səmimiyyətlə salamlayan O.Əsədov dedi ki, ölkələrimiz arasında dostluq münasibətlərinin, iqtisadi-siyasi əlaqələrin genişlənməsində və möhkəmlənməsində prezidentlərin səfərlərinin xüsusi rolu vardır. Cari ilin martında Azərbaycan Prezidenti İlham Əliyevin Tacikistana rəsmi səfəri zamanı imzalanmış sənədlər ölkələrimiz arasında çoxşaxəli əlaqələrin daha da genişlənməsi üçün hüquqi baza yaratmışdır.

Tacikistan Prezidenti Emoməli Rəhmonun Bakıya indiki səfəri çərçivəsində imzalanmış sənədlərin səmərəli əməkdaşlıq üçün yaxşı zəmin yaratdığını vurğulayan Milli Məclis sədri, hər iki tərəfin bu əlaqələrin inkişafına diqqət yetirdiyini bildirdi.

Oqtay Əsədov ölkələrimiz arasında münasibətlərin inkişafında parlamentlərin roluna toxunaraq, Milli Məclisdə Azərbaycan-Tacikistan dostluq qrupunun fəaliyyət göstərdiyini diqqətə çatdırdı, deputatların qarşılıqlı səfərlərinin əhəmiyyətini vurğuladı. Milli Məclis sədri ölkələrimiz arasında münasibətlərin inkişafına parlamentlərin də layiqli töhfə verdiyini söylədi.

Respublikamızın dinamik iqtisadi inkişafı, ölkəmizin təşəbbüsü və rəhbərliyi ilə həyata keçirilən irimiqyaslı regional enerji və nəqliyyat layihələri haqqında məlumat verən

Oqtay Əsədov, Azərbaycan ilə Tacikistan arasında iqtisadi-ticarət əlaqələrinin inkişafı üçün böyük potensial olduğunu diqqətə çatdırdı.

Milli Məclis sədri ali qonağa Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi barədə ətraflı məlumat verdi, problemin yalnız beynəlxalq hüququn norma və prinsipləri çərçivəsində həllinin vacibliyini vurğuladı. O, Azərbaycanın ərazi bütövlüyünü daim dəstəklədiyinə görə Tacikistan tərəfinə minnətdarlığını bildirdi.

Tacikistanda Azərbaycan ilə əlaqələrin dərinləşməsinə həmişə xüsusi diqqət yetirildiyini vurğulayan Prezident Emoməli Rəhmon, Azərbaycan Prezidenti İlham Əliyevin bu ilin martında Tacikistana rəsmi səfərinin münasibətlərin inkişafına güclü təkan verdiyini dedi.

Ölkəmizdə gedən nəhəng quruculuq işlərinə, dinamik inkişafa, yüksəlişə heyranlığını bildirən Tacikistan Prezidenti Azərbaycan dövlətinin başında çox nüfuzlu və peşəkar siyasi xadimin dayandığını vurğuladı.

Tacikistan ilə Azərbaycanın beynəlxalq təşkilatlar çərçivəsində də uğurlu əməkdaşlıq etdiyini diqqətə çatdıran Emoməli Rəhmon, bir çox məsələlərdə ölkələrimizin mövqelərinin üst-üstə düşdüyünü söylədi, dost və qardaş dövlətlərimizin bütün sahələrdə əlaqələrinin inkişaf edəcəyinə ümidvar olduğunu bildirdi.

SƏFƏR BAŞA ÇATDI

Avqustun 14-də Tacikistan Respublikasının Prezidenti Emoməli Rəhmonun Azərbaycana rəsmi səfəri başa çatmışdır.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV YAPONİYANIN XARİCİ İŞLƏR NAZİRİNİN MÜAVİNİ MİDORİ MATSUŞİMANIN RƏHBƏRLİK ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİNİ QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev avqustun 16-da Prezident sarayında Yaponiyanın Xarici işlər nazirinin müavini Midori Matsuşimanın rəhbərlik etdiyi nümayəndə heyətini qəbul etmişdir.

Midori Matsuşima səfəri çərçivəsində Azərbaycanın ümummilli lideri Heydər Əliyevin məzarını ziyarət etdiyini və ölkəmizdə ümummilli liderin xatirəsinə dərin ehtiramın şahidi olduğunu bildirdi. Qonaq Prezident İlham Əliyevin keçən ilin mart ayında Yaponiyaya rəsmi səfərinin ölkələrimiz arasında əlaqələrin daha da inkişaf etdirilməsində mühüm rol oynadığını vurğuladı.

Dövlətimizin başçısı Azərbaycanın bugünkü inkişafında xalqımızın ümummilli lideri Heydər Əliyevin müstəsna rolu olduğunu bildirdi və məhz onun rəhbərliyi altında 90-cı illərin ortalarında həyata keçirilməyə başlamış siyasi və iqtisadi islahatların ölkəmizin sürətli inkişafını təmin etdiyini vurğuladı. Azərbaycan-Yaponiya münasibətlərində də yeni inkişaf mərhələsinin ümummilli lider Heydər Əliyevin Yaponiyaya rəsmi səfəri ilə başlandığını deyən Prezident İlham Əliyev bu siyasətin bu gün də uğurla davam etdirildiyini bildirdi.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV İSRAİLİN BAŞ NAZİRİNİN MÜAVİNİ, STRATEJİ PLANLAŞDIRMA NAZİRİ AVİQDOR LİBERMANIN RƏHBƏRLİK ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİNİ QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev avqustun 16-da Prezident sarayında İsrailin Baş nazirinin müavini, Strateji planlaşdırma naziri Aviqdor Libermanın rəhbərlik etdiyi nümayəndə heyətini qəbul etmişdir.

Dövlətimizin başçısı nümayəndə heyətinin Bakıdakı və Azərbaycanın digər bölgələrindəki görüşlərinin səmərəli keçəcəyinə ümidvar olduğunu bildirdi. Prezident İlham Əliyev Azərbaycanda siyasi, iqtisadi və digər sahələrdə əldə edilən uğurlar barədə danışdı.

Aviqdor Liberman Azərbaycana ilk səfərini və bu səfər zamanı ümummilli lider Heydər Əliyev ilə keçirdiyi görüşü məmnuniyyətlə xatırladı. O, səfərindən keçən on il ərzində ölkəmizdə çox böyük dəyişikliklərin və inkişafın şahidi olduğunu bildirdi və aparılan quruculuq işlərinin onda böyük təəssürat yaratdığını vurğuladı.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV ŞRİ-LANKANIN İXRACATIN İNKİŞAFI VƏ BEYNƏLXALQ TİCARƏT NAZİRİ CORC PEİRİSİN RƏHBƏRLİK ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİNİ QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev avqustun 17-də Prezident sarayında Şri-Lankanın İxracatın inkişafı və beynəlxalq ticarət naziri Corc Peirisin rəhbərlik etdiyi nümayəndə heyətini qəbul etmişdir.

Corc Peiris ölkəmizə ilk dəfə səfər etdiyini bildirdi və səfər zamanı onlara göstərilən qonaqpərvərliyə görə Azərbaycan hökumətinə təşəkkürünü çatdırdı. Qonaq artıq Azərbaycanın bir sıra hökumət qurumlarında səmərəli görüşlər keçirdiyini dedi və ölkəsinin Azərbaycan ilə iqtisadiyyat, o cümlədən energetika sahəsində əlaqələrin inkişaf etdirilməsində maraqlı olduğunu qeyd etdi.

Dövlətimizin başçısı bu səfərin Azərbaycan ilə Şri-Lanka arasında iqtisadi sahədə əməkdaşlığın genişləndirilməsinə töhfə verəcəyinə əminliyini vurğuladı.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV ALMANİYANIN KEÇMİŞ DÖVLƏT KATİBİ, ALMANİYA-AZƏRBAYCAN FORUMUNUN SƏDRİ OTTO HAUZERİN RƏHBƏRLİK ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİNİ QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev avqustun 20-də Prezident sarayında Almaniya Federativ Respublikasının keçmiş dövlət katibi, Almaniya-Azərbaycan forumunun sədri Otto Hauzerin rəhbərlik etdiyi nümayəndə heyətini qəbul etmişdir.

Dövlətimizin başçısı Otto Hauzer ilə Almaniyaya səfəri çərçivəsində görüşünü və onunla apardığı fikir mübadiləsini məmnuniyyətlə xatırladı. Prezident İlham Əliyev ümumiyyətlə Almaniyaya rəsmi səfərindən və bu səfər zamanı keçirdiyi danışıqlardan

razı qaldığını bildirdi. Azərbaycan ilə Almaniya arasında münasibətlərin uğurla inkişaf etdiyini qeyd edən dövlətimizin başçısı Almaniya nümayəndə heyətinin ölkəmizə bu səfərinin əməkdaşlığımızın daha da genişləndirilməsinə öz töhfəsini verəcəyinə ümidvar olduğunu bildirdi.

Otto Hauzer dövlət başçımızın Almaniyaya rəsmi səfərinin uğurla keçdiyini və səfər zamanı Prezident İlham Əliyevin Azərbaycanın regionda oynadığı liderlik rolu barədə verdiyi məlumatların onlarda böyük maraq yaratdığını vurğuladı. O, Almaniyanın Azərbaycan ilə müxtəlif sahələrdə, o cümlədən iqtisadiyyat və energetika sahəsində əlaqələrin daha da genişləndirilməsində maraqlı olduğunu qeyd etdi. Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinə toxunan qonaq bu münaqişənin sülh yolu ilə ədalətli və Azərbaycanın ərazi bütövlüyü çərçivəsində həll olunacağına ümidvar olduğunu bildirdi.

İRAN PREZİDENTİ MAHMUD ƏHMƏDİNEJADIN AZƏRBAYCANA RƏSMİ SƏFƏRİ

Avqustun 21-də İran İslam Respublikasının Prezidenti Mahmud Əhmədinejad Azərbaycana rəsmi səfərə gəlmişdir.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN VƏ İRAN PREZİDENTİ MAHMUD ƏHMƏDİNEJADIN TƏKBƏTƏK GÖRÜŞÜ

Avqustun 21-də Prezident sarayında Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və İran İslam Respublikasının Prezidenti Mahmud Əhmədinejadın təkbətək görüşü oldu.

Görüşdə ölkələrimiz arasında ikitərəfli münasibətlərin siyasi, iqtisadi və mədəni sahələrdə uğurla inkişaf etdiyi vurğulandı.

Dövlət başçıları indiki səfərin əhəmiyyətinə toxunaraq bildirdilər ki, bu, əlaqələrimizin daha da genişlənməsi işinə xidmət edəcəkdir.

Görüşdə Azərbaycan-İran əməkdaşlığının gələcəkdə də genişlənəcəyinə əminlik vurğulandı.

DÖVLƏT BAŞÇILARININ GENİŞ TƏRKİBDƏ GÖRÜŞÜ

Avqustun 21-də Prezident sarayında Azərbaycan Prezidenti İlham Əliyevin və İran Prezidenti Mahmud Əhmədinejadın nümayəndə heyətlərinin iştirakı ilə geniş tərkibdə görüşü olmuşdur.

Prezident İLHAM ƏLİYEV görüşü açaraq dedi:

- Hörmətli cənab Prezident!

Hörmətli qonaqlar!

Mən sizi Azərbaycanda ürəkdən salamlayıram, xoş gəlmisiniz!

Biz sizin Azərbaycana səfərinizə çox böyük əhəmiyyət veririk. Əminik ki, bu səfərdən

sonra ikitərəfli münasibətlər daha da yüksək pilləyə qalxacaqdır və iki dost, qardaş xalqlar bir-birinə daha da yaxın olacaqlar.

Bizim münasibətlərimiz çox sahələri əhatə edir. Bu əlaqələr bütün sahələrdə – siyasi, iqtisadi, mədəni sahələrdə güclənir, genişlənir, yeni imkanlar açılır və beləliklə, İran ilə Azərbaycan bir-birinə daha yaxın olurlar.

Biz indi təkbətək görüşdə çox geniş fikir mübadiləsi apardıq, çox səmərəli işlədik və bir daha gördük ki, bizim aramızda dostluq, mehribanlıq münasibətləri çox güclüdür, bütün məsələlərə biz vahid mövqedən yanaşırıq. Ümid edirəm ki, bugünkü görüşlər, imzalanacaq sənədlər və aparılacaq danışıqlar əlbəttə, mövcud məsələlərin həlli üçün çox gözəl imkan yaradacaqdır.

Siz İran İslam Respublikasının Prezidenti kimi bu günə qədər Azərbaycanda iki dəfə işgüzar səfərdə olmusunuz. Amma bu, birinci rəsmi səfərdir. Bunun xüsusi əhəmiyyəti var. Mən bir daha sizi Azərbaycanda ürəkdən salamlayıram. Xoş gəlmisiniz!

Sonra İran Prezidenti MAHMUD ƏHMƏDİNEJAD çıxış edərək dedi:

- Bismillahir-rəhmanir-rəhim!

Mən də çox sevinirəm, xoşhalam və İlahiyə şükür edirəm ki, Sizi, dost və qardaş Azərbaycan xalqını ziyarət etmək fürsətinə nail olmuşam. Sizin də qeyd etdiyiniz kimi, biz eyni mədəniyyətə, dinə və müştərək tarixə əsaslanan iki qardaş ölkələrik. Allahın lütfi ilə bizim çox dərin qardaşlıq əlaqələrimiz vardır. Azərbaycan Respublikasının müstəqilliyinin əvvəlindən indiyədək bu əlaqələr get-gedə dərinləşməkdədir. Bu əlaqələrin inkişafı Azərbaycan Respublikasının və İran İslam Respublikasının inkişafıdır. İranın inkişafı Azərbaycanın inkişafı sayıla bilər. Onun üçün biz həm Azərbaycanın müstəqilliyindən, inkişafından və həm də təhlükəsizliyindən çox məmnunuq.

Biz həm regionda, həm də beynəlxalq səviyyədə qarşılıqlı əlaqələrimizin inkişafı istiqamətində müştərək mənafelərimizə uyğun əməkdaşlıq edirik. Çox şükürlər olsun ki, bütün sahələrdə əlaqələrimizin inkişafı yaxşı səviyyədədir. Amma bizim potensial imkanlarımız da çoxdur. Bu potensial imkanlardan səmərəli istifadə edilməsi hər iki ölkənin mənafeyinə uyğundur. Mən bir daha təkidlə qeyd etmək istəyirəm ki, dost və qardaş Azərbaycan Respublikası ilə bizim əlaqələrimizə heç bir məhdudiyyət yaratmaq haqqında düşünmürük.

Daha sonra görüşdə qarşılıqlı maraq doğuran bir sıra məsələlər barədə fikir mübadiləsi aparıldı.

SƏNƏDLƏRİN İMZALANMASI

Avqustun 21-də Prezident sarayında Azərbaycan Prezidenti İlham Əliyevin və İran Prezidenti Mahmud Əhmədinejadın geniş tərkibdə görüşündən sonra Azərbaycan-İran sənədlərinin imzalanması mərasimi olmuşdur.

Azərbaycan Respublikası və İran İslam Respublikası arasında Birgə Bəyanatı Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və İran İslam Respublikasının Prezidenti Mahmud Əlımədinejad imzaladılar.

Azərbaycan Respublikasının Nəqliyyat Nazirliyi və İran İslam Respublikasının Yol və Nəqliyyat Nazirliyi arasında "Bakı-Naxçıvan-Bakı" müntəzəm avtobus marşrutunun açılması haqqında anlaşma memorandumunu Azərbaycan tərəfdən nəqliyyat naziri Ziya Məmmədov, İran tərəfdən xarici işlər naziri Mənüçehr Mottəki imzaladılar.

Azərbaycan Respublikası Hökuməti və İran İslam Respublikası Hökuməti arasında Culfa (Azərbaycan)-Culfa (İran) avtomobil körpüsünün inşa edilməsi haqqında memorandumu Azərbaycan tərəfdən nəqliyyat naziri Ziya Məmmədov, İran tərəfdən xarici işlər naziri Mənüçehr Mottəki imzaladılar.

Azərbaycan Respublikası Hökuməti və İran İslam Respublikası Hökuməti arasında Ordubad və Marazad su elektrik stansiyalarının tikintisinə dair anlaşma memorandumunu Azərbaycan tərəfdən sənaye və energetika naziri Natiq Əliyev, İran tərəfdən energetika nazirinin müavini Musa Zərgər imzaladılar.

Azərbaycan Respublikası Hökuməti və İran İslam Respublikası Hökuməti arasında Şahtaxtı və Poldəşt sərhəd keçid məntəqələrinə beynəlxalq status verilməsi haqqında memorandumu Azərbaycan tərəfdən xarici işlər naziri Elmar Məmmədyarov, İran tərəfdən xarici işlər naziri Mənüçehr Mottəki imzaladılar.

DÖVLƏT BAŞÇILARININ BİRGƏ MƏTBUAT KONFRANSI

Avqustun 21-də Prezident sarayında sənədlərin imzalanması mərasimi başa çatdıqdan sonra Azərbaycan Prezidenti İlham Əliyevin və İran Prezidenti Mahmud Əhmədinejadın birgə mətbuat konfransı keçirilmişdir.

Dövlət başçıları əvvəlcə bəyanatlarla çıxış etdilər.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN BƏYANATI

-Hörmətli cənab Prezident!

Hörmətli qonaqlar!

Mən sizi Azərbaycanda bir daha ürəkdən salamlayıram, xoş gəlmisiniz!

Bu gün İran İslam Respublikasının Prezidenti cənab Mahmud Əhmədinejad Azərbaycana ilk rəsmi səfərini edir. Bundan əvvəl hörmətli Prezident Azərbaycanda işgüzar səfərlərdə olmuşdur. Amma ilk rəsmi səfər əlbəttə ki, xüsusi əhəmiyyət daşıyır. Biz bu səfərə çox böyük əhəmiyyət veririk. Mən əminəm ki, səfər və onun nəticələri iki dost və qardaş ölkənin gələcək birgə fəaliyyətində çox böyük rol oynayacaqdır. Bizim aramızda münasibətlər çox yüksək səviyyədədir, çox səmimidir.

Biz bu gün söhbət əsnasında həm təkbətək görüşdə, eyni zamanda nümayəndə heyətlərinin iştirakı ilə görüşdə çox geniş fikir mübadiləsi aparmışıq. İkitərəfli münasibətlər təhlil olundu, biz birgə layihələrimiz haqqında söhbət apardıq. Bölgədə vəziyyət, regional əməkdaşlıq məsələləri, bölgədə təhlükəsizlik tədbirlərinin gücləndirilməsi məsələləri geniş müzakirə olundu.

Bu müzakirələr və aparılan danışıqlar bir daha göstərir ki, bizim ölkələrimiz bir-birinə

çox yaxındır. Biz çox səmərəli əməkdaşlıq edirik və bu günə qədər aramızda imzalanmış bütün sənədlər həyatda öz əksini tapır. Bu da çox vacibdir ki, imzalanmış sənədlər kağız üzərində qalmır, onlar həyatda öz əksini tapır, reallığa çevrilir. Bu onu göstərir ki, doğrudan da qarşılıqlı ticarətin inkişafı, qarşılıqlı əlaqələrin möhkəmlənməsi üçün çox böyük imkanlar və qarşılıqlı maraq var.

Bu gün isə imzalanmış sənədlər bizim müştərək inkişafımızın yeni mərhələsini müəyyən edəcəkdir. Konkret layihələr icra olunacaqdır. Bununla bərabər, prezidentlər tərəfindən imzalanmış Birgə Bəyanat çox geniş və müfəssəl bir sənəddir. Orada ikitərəfli münasibətləri ehtiva edən bütün prinsiplər öz həllini tapmışdır və əminəm ki, gələcək əməkdaşlıq üçün çox böyük zəmin olacaqdır.

Xüsusilə demək istəyirəm ki, Birgə Bəyanatda Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ məsələsinə dair bənd mövcuddur və İran İslam Respublikası Azərbaycanın mövqeyini birmənalı şəkildə bir daha dəstəklədi, münaqişənin beynəlxalq hüquq normaları əsasında həll olunmasının vacibliyi və Azərbaycanın ərazi bütövlüyü çərçivəsində həll olunması vurğulandı.

Azərbaycan dövlət müstəqilliyini bərpa etdikdən sonra ilk günlərdən Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinə dair İranın mövqeyi birmənalı olubdur və biz bu dəstəyi daim hiss etmişik, bu gün də bunu hiss edirik. Şübhəsiz ki, məsələnin həlli üçün bu mövqe xüsusi rola malikdir.

Bütün başqa sahələrdə qarşılıqlı maraqların təmin olunması üçün lazımi tədbirlər görülür. Biz beynəlxalq təşkilatlarda çox səmərəli fəaliyyət göstəririk, istər Birləşmiş Millətlər Təşkilatı, istər İslam Konfransı Təşkilatı və digər təşkilatlarda bir-birimizi dəstəkləyirik. Eyni zamanda, regional məsələlərdə çox fəal iştirak edirik. Energetika, nəqliyyat, humanitar sahələrdə – bütün bu sahələrdə bizim əməkdaşlığımız çox uğurludur və bizi qane edir. Şübhə etmirəm ki, hörmətli cənab Prezidentin Azərbaycana rəsmi səfərindən sonra bu münasibətlər yeni pilləyə qalxacaq, bizim aramızda çox dərin tarixi köklərə əsaslanan münasibətlər daha da inkişaf edəcəkdir.

Mən hesab edirəm ki, həm ikitərəfli münasibətlərin inkişafı üçün, həm də regional əməkdaşlığın inkişafı üçün bu səfərin çox böyük əhəmiyyəti var.

İstəyirəm, cənab Prezidenti və ölkəmizə gəlmiş İran nümayəndə heyətini Azərbaycanda bir daha salamlayım, "Xoş gəlmisiniz" deyim və sizə fəaliyyətinizdə uğurlar diləyim.

Təşəkkür edirəm.

İRAN PREZİDENTİ MAHMUD ƏHMƏDİNEJADIN BƏYANATI

-Bismillahir-rəhmanir-rəhim!

Mən çox xoşhalam və təşəkkür edirəm ki, bizə belə bir fürsəti yaratdılar. Mən Azərbaycan Respublikasının möhtərəm Prezidenti, yaxın dostum cənab İlham Əliyevin dəvəti əsasında qardaş və dost ölkəni ziyarət edirəm.

Azərbaycan və İran xalqları müştərək tarix, din və sivilizasiyaya sahibdirlər. Azərbaycanın istiqlaliyyətinin əvvəlindən bizim davamlı və günbəgün genişlənən əlaqələrimiz

olubdur. İran İslam Respublikasının dost Azərbaycan ilə əlaqələrini genişləndirməsi üçün qəti siyasəti və möhkəm iradəsi vardır. Allaha şükürlər olsun ki, bizim əlaqələrimiz çox yaxşı səviyyədədir. Amma hər iki tərəf etiraf edir ki, əlaqələrimizin genişlənməsi, indiki vəziyyətdən daha yüksək səviyyəyə çatması üçün bizim potensialımız və gücümüz vardır. Bu günə qədər bizim aramızda müxtəlif sazişlər, sənədlər imzalanıb və icra olunubdur.

Bu gün də mühüm sazişlər və sənədlər imzalandı. Bunların hər biri qardaşlıq əlaqələrinin genişləndirilməsi üçün mühüm addımdır. Biz müzakirələrimizdə regional və beynəlxalq məsələlər barədə danışıqlar apardıq. Müzakirələr göstərdi ki, bizim düşüncələrimiz, mövqelərimiz bir-birinə çox yaxındır və müştərəkdir. Biz istəyirik ki, siyasi, iqtisadi və bütün sahələrdə əlaqələrimiz genişlənsin və güclənsin.

Bundan əlavə, neft, qaz, energetika, neft kimyası, ticarət, nəqliyyat, mühəndis mübadiləsi sahələrində və ixracatda əlaqələrin inkişafı üçün potensial imkanlar çoxdur. Ekspertlər bu barədə araşdırmalar aparırlar və bunların həyata keçirilməsi üçün səylə çalışırlar.

Bizim mövqeyimiz belədir ki, ölkələr arasında münaqişələr və problemlər gərək ədalət, qanun çərçivəsində və danışıqlar əsasında həll olunmalıdır. Bəziləri çalışırlar ki, münaqişə yaratsınlar. Münaqişələrin həllində zorakılıq və kobud metodlardan istifadə edirlər. Onlar sülh, sabitlik və əmin-amanlıq istiqamətində hərəkət etmirlər. Biz Azərbaycanın mövqeyini ədalət məntiqi və prinsipi əsasında dəstəkləyirik və deyirik ki, bu münaqişə danışıqlar yolu ilə və ədalət prinsipi çərçivəsində həll olunmalıdır.

Biz regional və beynəlxalq məsələlər barəsində danışıqlar apardıq. Bizim çox məsələlərdə mövqeyimiz oxşardır. Mən cənab Prezident İlham Əliyevi Xəzəryanı ölkələrin zirvə toplantısında iştirak etmək üçün İran İslam Respublikasına dəvət etdim. Ümid edirik ki, bu zirvə toplantısı Xəzəryanı ölkələrin müştərək maraqlarının təmin olunmasında böyük rol oynayacaq, məsələlərin həllinə və Xəzəryanı ölkələrin potensialından düzgün istifadə olunmasına təkan verəcəkdir.

Mən bəyan edirəm ki, İran İslam Respublikası Azərbaycan Respublikasının inkişafını qətiyyətlə dəstəkləyir. Biz istəyirik ki, qonşu ölkə – Azərbaycan daha sürətlə inkişaf etsin. Biz buna çox maraqlıyıq. Əlaqələrin genişləndirilməsi və möhkəmləndirilməsində hər iki tərəfin iradəsi ciddidir.

Mən cənab İlham Əliyevə təşəkkür edirəm ki, bizi dəvət etdi və çox mehribanlıqla qarşıladılar. Bir daha bəyan edirəm ki, biz yaxın dostuq, xalqlarımızın dostluğunun rəmzi və nümayəndəsiyik. Biz gərək fəaliyyətimizi və gücümüzü xalqlarımızın yaxınlığına yönəldək.

Bizi mehribanlıqla qarşılamağınıza və göstərilən qonaqpərvərliyə görə təşəkkür edirəm. Qeyd edirəm ki, cənab İlham Əliyevin Tehrana və mənim Bakıya səfərim iki ölkə arasındakı dostluğun inkişafına təkan verəcək və regionda sülhə, sabitliyə və təhlükəsizliyə xidmət edəcəkdir.

* * *

Sonra Azərbaycan və İran prezidentləri jurnalistlərin suallarına cavab verdilər.

-Mənim sualım Azərbaycan Prezidentinədir. Cənab Prezident, iki ölkə arasında indiki əlaqələrin və münasibətlərin səviyyəsi necədir və Siz xüsusilə neft və enerji sahəsində münasibətlərin daha da genişləndirilməsi üçün nə təklif edirsiniz?

İLHAM ƏLİYEV: Biz ikitərəfli münasibətlərdən çox razıyıq. Bu münasibətlər bayaq qeyd olunduğu kimi, dərin, tarixi, mədəni, dini köklər əsasında qurulur. Bugünkü münasibətlərin səviyyəsi çox yüksək qiymətləndirilir. Halbuki, iqtisadi sahədə potensialdan tam şəkildə istifadə edilmir. Biz hesab edirik ki, qarşılıqlı ticarəti kəskin şəkildə artıra bilərik. Düzdür, 2007-ci ildə qarşılıqlı ticarətin həcmi təxminən 60-70 faiz artmışdır. Bu, çox böyük irəliləyişdir. Amma potensial bundan da böyükdür və bu gün konkret layihələr geniş şəkildə müzakirə olunmuşdur.

Bu gün imzalanmış sənədlər icra olunduqda əlavə imkanlar yaradacaq və əlbəttə ki, biznes aləminin fəaliyyəti, müştərək komissiyanın fəaliyyəti və investisiya şirkətlərinin öz aralarında yaranan münasibətləri ikitərəfli iqtisadi əlaqələrin inkişafı üçün çox gözəl imkan yaradacaqdır.

Siyasi əlaqələrə gəldikdə, bu əlaqələr də çox yüksək səviyyədədir.

Bizim aramızda bütün məsələlərdə tam anlaşma var. Biz bir-birimizi dəstəkləyirik, bir-birimizin mövqeyini müdafiə edirik. Belə də olmalıdır. İki qonşu, dost, qardaş xalqlar, əsrlər boyu bir yerdə yaşamış xalqlar əlbəttə, indiki şəraitdə də bir-birinə daim dəstək olmalı, bir-birinə daim diqqət göstərməlidirlər.

Energetika sahəsində artıq kifayət qədər böyük həcmdə işlər görülür. İmişli-Parsabad elektrik xətlərinin birləşməsi bizə imkan verəcək ki, il ərzində 700 meqavat gücündə elektrik enerjisi mübadiləsi aparılsın. Hörmətli Prezident Mahmud Əhmədinejad təxminən iki il bundan əvvəl Naxçıvana gəlmişdi və biz orada İrandan Naxçıvana təbii qazın verilməsini bərabər qeyd etdik, qaz məşəlini birlikdə yandırdıq. Beləliklə, Ermənistan Naxçıvanı mühasirəyə aldığına görə, 13 il fasilədən sonra naxçıvanlılar təbii qazla təmin olundular. İndi o layihənin ikinci mərhələsi icra olunur və belə olan halda Naxçıvan tam şəkildə qazla təmin oluna bilər.

Digər layihələr mövcuddur, o cümlədən neft-qaz sahəsində qarşılıqlı ticarətin təşviq olunması və müştərək layihələrin həyata keçirilməsi, xarici bazarlara birgə çıxış və bu sahədə əməkdaşlığın dərinləşməsi - bütün bunlar həm ölkələrimiz üçün lazımdır, həm də regional əməkdaşlığa da çox güclü təkan verəcək və regional təhlükəsizliyə də öz töhfəsini verəcəkdir.

Biz əməkdaşlıq edirik. Biz bir-birimizi dəstəkləyirik. Biz istəyirik ki, bölgədə sülh olsun, əmin-amanlıq olsun, xalqlarımız yaxşı yaşasınlar, rifah olsun və insanlar normal şəraitdə yaşasınlar. Bunu etmək üçün əlbəttə ki, biz səylərimizi birləşdirməliyik. Bunu etmək üçün bütün sahələrdə – siyasi, iqtisadi, mədəni, humanitar sahələrdə daha da fəal işləməliyik və belə bir niyyət var. Bu gün aparılan danışıqlar zamanı bir daha hiss olundu ki, bu qarşılıqlı niyyət çox güclüdür və bizə imkan verəcək ki, istənilən məsələni tezliklə həll edək.

-Mənim sualım İran Prezidentinədir. Cənab Prezident, iki ölkə arasında, xalqlarımız arasında möhkəm bağlılıq var. Məhz bu baxımdan iki ölkə arasında humanitar sahədə əməkdaşlığın konkret perspektivlərini necə görürsünüz?

MAHMUD ƏHMƏDİNEJAD: Mən sizə təşəkkür edirəm. Cənab Prezident iki ölkənin müştərək mövqeyini bəyan etdi. Bu gün bizim əlaqələrimiz, xüsusilə siyasi sahədə əlaqələrimiz çox yaxşı səviyyədədir və çalışırıq ki, həm siyasi sahədə, həm də iqtisadi sahədə əlaqələrimizi və əməkdaşlığımızı daha da yüksək səviyyəyə qaldıraq. Bizim nöqteyi-nəzərlərimiz çox oxşardır və müştərəkdir. Bizim hər ikimiz müstəqilliyə, insanların izzətinə, kəramətinə və şərafətinə, eləcə də sülh, əmin-amanlıq və təhlükəsizliyə, bütün xalqlara ehtiram və hörmətlə yanaşırıq. Biz qanunun adil və bərabər şəkildə icrasını istəyirik. Biz düşünürük ki, bütün xalqların rifah, azadlıq, əmin-amanlıq şəraitində yaşamasına və bərabər hüquqlara malik olmasına haqları vardır. Biz bu ideyalara qarşı zorakılıq metodundan istifadə edilməsini pisləyirik və onlarla müxalifətdəyik. Biz hesab edirik ki, gərək bütün xalqlar, dövlətlər qanun və ədalət əsasında bir-biriləri ilə dostluq əlaqələri qursunlar.

Bizim ölkələr arasındakı mədəniyyət, insani, humanitar, elm və təhsil sahələrində əlaqələrimiz çoxdan başlanıbdır. Bizim ciddi iradəmiz vardır ki, bu əməkdaşlığımızı yüksək səviyyəyə qaldıraq. Elmi, mədəni təcrübələrimizi bir-birimizlə mübadilə edək. Bizim təcrübə mübadiləmiz xalqlarımızın xeyrinədir. Biz bütün xalqların hüquqlarını, bütün insanların hüquqlarını bütün sahələrdə ehtiva edirik. Beynəlxalq təşkilatlarda bizim mövqeyimiz çox aydın və müştərək mövqedir. Bizim xalqların mədəniyyətinin və hüquqlarının qorunması sahəsində mövqeyimiz çox aydındır. Düşünürəm ki, bizim tutduğumuz mövqe çox yaxşıdır.

Uzunmüddətli əlaqələrimiz möhkəm əsaslar üzərində qurulubdur və inşallah, bu əsasların üzərində yeni binalar tikiləcəkdir. Mən yaxşı dostum cənab İlham Əliyevə və onun əməkdaşlarına bir daha təşəkkür edirəm və buradan oziz, hörmətli, imanlı, vəfalı və qonaqpərvər Azərbaycan xalqına səmimi salamlarımı çatdırıram. Onlara cansağlığı, Azərbaycan dövlətinə inkişaf, günbəgün artan izzət, şərafət və başucalığı diləyirəm.

HEYDƏR ƏLİYEV FONDU İLƏ TANIŞLIQ

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və İran İslam Respublikasının Prezidenti Mahmud Əhmədinejad avqustun 21-də Heydər Əliyev Fondunda olmuşlar.

İran Prezidentinə ulu öndər Heydər Əliyevin xatirəsinə ehtiram əlaməti olaraq yaradılan Fondun fəaliyyəti barədə ətraflı məlumat verildi. Qeyd edildi ki, Fondun əsas məqsədi ümummilli liderin zəngin irsinin öyrənilməsi, təbliğ edilməsi, ulu öndərin Azərbaycanın sosial-iqtisadi, mədəni tərəqqisinə yönələn genişmiqyaslı fəaliyyəti barədə gələcək nəsillərdə əyani təsəvvür yaratmaqdır.

Qonaqları Fonddakı eksponatlarla tanış edən Prezident İlham Əliyev, ulu öndər Heydər Əliyevin fəaliyyətinin müxtəlif dövrləri haqda ətraflı məlumat verdi.

İran Prezidenti ümummilli lider Heydər Əliyevin həyatının ən müxtəlif məqamlarını əks etdirən və Azərbaycan tarixinin bütöv bir dövrü barədə geniş təsəvvür yaradan sənədlərlə tanış oldu. Ekspozisiyada milli liderin beynəlxalq miqyaslı tədbirlərdəki çıxışları, kənd əməkçiləri ilə görüşləri, neft strategiyası əks olunmuşdur.

Ulu öndərin hərbi kadrların yetişdirilməsinə diqqətindən, mədəniyyət, incəsənət, idmana göstərdiyi qayğıdan danışıldı. Qonaqlar ulu öndərin müxtəlif ölkələrin liderləri ilə

görüşlərini əks etdirən fotoşəkillərə böyük maraqla baxdılar.

Prezident Mahmud Əhmədinejad Heydər Əliyev Fondunun xatirə kitabına ürək sözlərini yazdı.

İranın dövlət başçısına xatirə hədiyyəsi təqdim edildi.

Sonra Azərbaycan Prezidenti İlham Əliyev və İran Prezidenti Mahmud Əhmədinejad piyada dənizkənarı Milli parka gəldilər. Azərbaycanın dövlət başçısı dost ölkənin Prezidentinə ənənəvi üslubu saxlamaqla, Bakının ən müasir standartlar səviyyəsində inkişafı üçün həyata keçirilən kompleks tədbirlərdən söhbət açdı.

İran Prezidenti Azərbaycan paytaxtının qısa müddətdə tanınmaz dərəcədə dəyişdiyini, Bakının böyük tikinti, quruculuq meydanına çevrildiyini söylədi. Paytaxt sakinləri dövlət başçılarını böyük səmimiyyətlə qarşıladılar.

Prezident İlham Əliyev və Prezident Mahmud Əhmədinejad Bakının yaraşığı olan musiqili fəvvarəni seyr etdilər.

Dənizkənarı Milli parkla tanışlıq İran Prezidenti Mahmud Əhmədinejadda zəngin təəssürat doğurdu.

ALİ QONAĞIN ŞƏRƏFİNƏ

Avqustun 21-də "Gülüstan" sarayında Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin adından İran İslam Respublikasının Prezidenti Mahmud Əhmədinejadın şərəfinə rəsmi ziyafət təşkil edilmişdir.

Dövlət başçıları ziyafətdə nitq söylədilər.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN NİTQİ

-Hörmətli cənab Prezident!

Hörmətli qonaqlar!

Oziz dostlar!

Mən sizi bir daha ürəkdən salamlayıram. Azərbaycana xoş gəlmisiniz!

Bu gün İran İslam Respublikasının Prezidenti Mahmud Əhmədinejadın Azərbaycana ilk rəsmi səfəridir. Bu səfərin çox böyük əhəmiyyəti var. Baxmayaraq ki, hörmətli Prezident, mənim dostum Azərbaycanda dəfələrlə olubdur, rəsmi səfər xüsusi əhəmiyyətə malikdir. Əminəm ki, bu səfər və onun nəticələri ikitərəfli münasibətlərin inkişafı üçün çox mühüm rol oynayacaqdır.

Bu gün biz maraq doğuran bütün məsələləri çox səmimi, işgüzar şəraitdə müzakirə etdik. İkitərəfli münasibətlər geniş təhlil edildi və gələcək inkişaf perspektivləri müəyyən olundu. Regional əməkdaşlığa dair geniş fikir mübadiləsi aparılmışdır. Bölgədə təhlükəsizlik tədbirlərinin gücləndirilməsi məsələləri müzakirə olunmuşdur. Deyə bilərəm ki, bütün məsələlərdə bizim mövqeyimiz üst-üstə düşür, çox yaxındır. Biz bundan sonra da çalışacağıq ki, birgə səylərimizlə həm regional əməkdaşlığı inkişaf etdirək, həm ikitərəfli münasibətləri yeni elementlərlə zənginləşdirək, həm də bölgədə

təhlükəsizlik tədbirlərinin güclənməsi üçün əlimizdən gələni edək. Buna böyük ehtiyac var.

Bizim aramızda olan münasibətlər çox dərin tarixi köklərə əsaslanır. Bizim birgə tariximiz, milli-mənəvi dəyərlərimiz, dinimiz əsrlər boyu bizim xalqlarımızı birləşdirib. Bizim xalqlarımız həmişə, əsrlər boyu birgə yaşamış, bir yerdə olmuşlar. Azərbaycan dövlət müstəqilliyini bərpa etdikdən sonra əlbəttə ki, bu münasibətlər yeni mərhələyə qalxdı. Bu gün 15 illik tarixə nəzər salaraq deyə bilərik ki, İranla Azərbaycan bütün dövrlərdə bir-birini müdafiə etmiş, mövqelərini dəstəkləmiş, beynəlxalq təşkilatlarda vahid mövqedən çıxış etmiş, bir-birinin mövqeyini müdafiə etmişdir. Bu səmimi dostluq, qardaşlıq münasibətləri bu gün də davam edir və güclənir. Səfərin isə bu münasibətlərin gələcək inkişafında çox böyük rolu vardır.

Bizim siyasi əlaqələrimiz çox yüksək səviyyədədir və əminəm ki, səfər və onun nəticələri bu münasibətləri yeni pilləyə qaldıracaqdır. İqtisadi sahədə çox gözəl imkanlar var və artıq əməli, praktiki işlər də öz həllini tapır. Bizim münasibətlərimizi fərqləndirən cəhət ondan ibarətdir ki, qəbul edilmiş qərarlar, imzalanmış sənədlər həyatda öz əksini tapır. Uzun illər ərzində, on ildən artıq müddət ərzində təbii qaza həsrət qalmış naxçıvanlılar məhz İran tərəfindən mübadilə yolu ilə verilən qazın imkanlarından istifadə edirlər. Bu, Naxçıvanın iqtisadi potensialına böyük dəstəkdir. İnsanların həyat səviyyəsini yaxşılaşdıran çox önəmli amildir.

Elektrik xətlərinin birləşməsi nəticəsində elektrik xətlərimiz vahid tənzimləmə sistemində fəaliyyət göstərir. Bizim aramızda çox fəal ticarət əlaqələri vardır. Son bir il ərzində iqtisadi əlaqələrin inkişafı nəticəsində ticarət dövriyyəsi təxminən 60-70 faiz artmışdır. Biz bilirik ki, imkanlar daha da böyükdür. Bu imkanları aşkarlamaq, onlardan istifadə etmək gələcək illər üçün əsas prioritet məsələlər olacaqdır. Hökumətlərarası birgə komissiyanın uğurlu fəaliyyəti və bu fəaliyyət nəticəsində əlavə imkanların üzə çıxması bizim münasibətlərimizi böyük dərəcədə zənginləşdirir.

İqtisadi, energetika, mədəni, humanitar, siyasi əlaqələr sahəsində bizim aramızda çox gözəl münasibətlər vardır. Bu səfərin önəmliyi məhz ondadır ki, həmin münasibətlərə bir daha qiymət verildi, keçilən tarixi yol təhlil olundu və ən önəmlisi, gələcək inkişaf haqqında fikir mübadiləsi aparıldı və əməkdaşlığın perspektivləri müəyyən edildi. Əminəm ki, bu gün imzalanmış sənədlər yaxın zamanlarda həyatda öz əksini tapacaqdır.

Bu gün imzalanmış Birgə Bəyanat çox əsaslı sənəddir. Orada bütün məsələlər öz həllini tapır. Azərbaycanı narahat edən, bölgə üçün ən böyük təhlükə mənbəyi olan Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli istiqamətləri də orada müəyyən olunubdur. İran dövləti bütün dövrlərdə Azərbaycanın haqq işini dəstəkləmiş, həmişə bizim mövqeyimizi müdafiə etmişdir və məsələnin, Ermənistan-Azərbaycan münaqişəsinin yalnız və yalnız Azərbaycanın ərazi bütövlüyü çərçivəsində, beynəlxalq hüquq və normalar əsasında, Birləşmiş Millətlər Təşkilatı Təhlükəsizlik Şurasının dörd qətnaməsi əsasında həll olunmasını vurğulamışdır. Bu mövqe Birgə Bəyanatda bir daha öz əksini tapıbdır. Mən buna görə şəxsən dostum cənab Prezidentə öz minnətdarlığımı bildirmək istəyirəm.

Mən ümid edirəm ki, bizim aramızda güclənən, genişlənən əməkdaşlıq gələcək illərdə daha da inkişaf edəcək, bizim xalqlarımız hələ çox işlər görəcəklər və birgə səylərlə

həm ikitərəfli münasibətlərin inkişafına, həm də bölgədə sülhün, əmin-amanlığın bərqərar olunmasına öz töhfələrini verəcəklər.

Mən bu gün əziz dostum cənab Prezidenti Bakıda səmimi qəlbdən bir daha salamlayıram və qardaş İran xalqına sülh, əmin-amanlıq və tərəqqi arzulayıram.

Sağ olun.

İRAN PREZİDENTİ MAHMUD ƏHMƏDİNEJADIN NİTQİ

-Bismillahir-rəhmanir-rəhim!

Ey Allah, imam Zaman ağanın zühurunu tezliklə yetir. Böyük Allaha şükür edirəm, belə bir fürsəti bizə qismət etdi ki, qəlib Azərbaycan Respublikasında öz qardaşlarımızı bir daha ziyarət etdik, keçmiş, yaxın və zəngin tarixi əlaqələrimizə bir daha nəzər yetirdik.

Qardaşım və dostum cənab Prezident İlham Əliyevin dediyi kimi, xalqlarımızın qardaşlıq, dostluq kökləri tarixən çox dərin və uzunmüddətlidir. Min illərdir xalqlarımız öz mədəniyyətləri, etiqadları və müştərək dinləri ilə bir yerdə yaşayıblar, həmişə sülh, qardaşlıq və dostluq carçısı olublar və bəşəriyyətə belə mesaj veriblər. Bu gün də dostluq əlaqələri, davamlı əlaqələr, xüsusilə Azərbaycan Respublikasının istiqlaliyyətindən sonra xalqlarımızın əlaqələri günbəgün genişlənir. Mənim Azərbaycanda olmağım qardaşlıq əsasında qurulan əlaqələrimizin daha bir göstəricisidir, ölkələrimizin müxtəlif sahələrdə geniş əlaqələr qurmasına olan istəkdir.

Azərbaycanın sürətli inkişafı İran xalqını şad edən məsələdir və bizim xalqımız həmişə özünü Azərbaycan xalqının sevincinə şərik bilir. Biz inanırıq ki, Azərbaycan xalqı da İran xalqının inkişafından həmişə xoşhaldır. Xalqlarımızın inkişafı, gücü, qüdrəti ölkələrimizin marağına, mənafeyinə, regional təhlükəsizliyə və sabitliyə xidmət edir. Mənim qardaşım cənab Prezident İlham Əliyevlə çox səmərəli danışıqlar apardıq və ikitərəfli əlaqələrin genişlənməsi potensialını, neft, müştərək investisiya, neft kimyası, ticarət sahələrinə dair məsələləri müzakirə etdik. Bütün potensial imkanlar araşdırıldı. Müştərək, regional və beynəlxalq səviyyəli məsələlərə baxışlarımız üst-üstə düşür və biz bu əməkdaşlığı daha da genişləndirmək əzmindəyik.

Əvvəllər də ölkələrimiz arasında mühüm sazişlər və sənədlər imzalanmışdır və bunların çoxu icra olunmuşdur. Bu gün imzalanan sənədlər də, sazişlər də Allahın köməyi ilə həyata keçiriləcəkdir.

Mən İran xalqının dostluq salamlarını Sizə gətirmişəm. Bizim fikrimiz və amalımız budur ki, ölkələrimizin əlaqələri və əməkdaşlığı başqa xalqlara, regionda olan digər xalqlara nümunə olsun. Xalqlarımızın və dövlətlərimizin regionda sülhün və sabitliyin təmin olunmasında böyük rolu vardır. Biz Azərbaycan xalqına hörmət edərək, Azərbaycan xalqının izzətindən, mədəniyyətindən məmnunluq duyuruq. Azərbaycanın haqq işini müdafiə edirik. Biz inkişaf istiqamətində həmişə Azərbaycan xalqının yanında olacağıq.

Qardaşım cənab Prezident İlham Əliyev ilə mənim dostluq münasibətlərim əməkdaşlığımız üçün böyük imkanlar açır. Sərmayədarlar və sahibkarlar, ölkələrimizin xeyrini və yaxşılığını istəyənlər üçün potensial imkanlar mövcuddur. İkitərəfli əlaqələrimizin genişlənməsi üçün geniş imkanlar, potensiallar və zəminlər vardır. Mən uğurlu danışıqla-

ra, səmərəli müzakirələrə görə təşəkkür edirəm. Mühüm sazişlərin imzalanmasına görə də cənab İlham Əliyevə və istəkli Azərbaycan dövlətinə və xalqına təşəkkür edirəm.

Əminəm ki, mənim bu səfərim və yaxın zamanda qardaşım cənab Prezident İlham Əliyevin Tehrana səfəri xalqlarımızın əlaqələrinin daha da genişlənməsinə, onların inkişafına xidmət edəcəkdir.

Böyük və müqəddəs Allahdan əziz Azərbaycan xalqına cansağlığı, şadlıq, inkişaf, izzət, başucalığı diləyirəm. İnanıram ki, Allahın köməyi ilə gələcək bizlərindir, insani baxışlarındır. Gələcək həmişə bizim qardaşlıq və dostluq əsasında qurulan əlaqələrindir. Ümid edirəm ki, inşallah, qardaşım cənab Prezident İlham Əliyevi tezliklə Tehranda görəcəyəm.

SƏFƏR BAŞA ÇATDI

Avqustun 22-də İran İslam Respublikasının Prezidenti Mahmud Əhmədinejadın Azərbaycan Respublikasına rəsmi səfəri başa çatmışdır.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV BP QRUPUNUN KƏŞFİYYAT VƏ HASİLAT İŞLƏRİ ÜZRƏ BAŞ İCRAÇI DİREKTORU ENDİ İNQLİSİ QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev avqustun 22-də Prezident sarayında BP qrupunun kəşfiyyat və hasilat işləri üzrə baş icraçı direktoru Endi İnqlisi qəbul etmişdir.

Endi İnqlis cari ilin iyulunda Şahdəniz yatağından hasil edilən qazın ixracına başlanmasının çox önəmli hadisə olduğunu qeyd etdi. O, bu mühüm nailiyyət nəticəsində Azərbaycanın beynəlxalq qaz təchizatçılarından birinə çevrildiyini vurğuladı. Qonaq BP şirkətinin ölkəmizdə həyata keçirdiyi layihələrin hazırkı vəziyyəti barədə Prezident İlham Əliyevə məlumat verdi.

Dövlətimizin başçısı Şahdəniz yatağı qazının ixracının böyük hadisə olduğunu vurğuladı. O, Azərbaycanın təşəbbüsü və birbaşa iştirakı ilə həyata keçirilən qlobal enerji layihələrinin region və dünya üçün mühüm əhəmiyyət kəsb etdiyini bildirdi. Prezident İlham Əliyev Azərbaycan ilə BP arasında uğurlu əməkdaşlığın bundan sonra da davam etdiriləcəyinə əminliyini vurğuladı.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV BUNDESTAQIN DEPUTATI, AŞPA-NIN MONİTORİNQ KOMİTƏSİNİN SƏDRİ EDUARD LİNTNERİ QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev avqustun 22-də Prezident sarayında Bundestaqın deputatı, Avropa Şurası Parlament Assambleyasının Monitorinq Komitəsinin sədri Eduard Lintneri qəbul etmişdir.

Görüşdə Azərbaycan-Almaniya ikitərəfli münasibətləri, parlamentlərarası və beynəlxalq təşkilatlar çərçivəsində əməkdaşlığa dair fikir mübadiləsi aparılmışdır.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV QARA DƏNİZ TƏŞƏBBÜS QRUPUNUN ÜZVLƏRİNİ QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev avqustun 24-də Prezident sarayında Qara Dəniz Təşəbbüs qrupunun üzvlərini qəbul etmişdir.

Dövlətimizin başçısı bu səfərin Qara Dəniz Təşəbbüs qrupunun üzvlərinə ölkəmizdə gedən inkişaf prosesləri ilə yaxından tanış olmaq və regional səviyyədə əməkdaşlığın perspektivlərini qiymətləndirmək üçün yaxşı imkanlar yaratdığını bildirdi. Prezident İlham Əliyev həyata keçirilmiş bir çox əhəmiyyətli layihələrin Qara dəniz ilə Xəzər dənizini bir-birinə birləşdirdiyini nəzərə çarpdırdı və Azərbaycanın bu iki region arasında mühüm körpü rolunu oynadığını vurğuladı.

"The Global Panel Foundation" təşkilatının sədri Mark Ellenboqen Qara Dəniz Təşəbbüsü qrupunun sədrlik etdiyi təşkilatın qurumlarından biri olduğunu bildirərək onun fəaliyyəti barədə Prezident İlham Əliyevə məlumat verdi. Qonaq ölkəmizdə olduqları müddətdə artıq bir sıra nazirlik və komitələrdə səmərəli görüşlər keçirdiklərini söylədi.

AZƏRBAYCAN RESPUBLİKASI DİPLOMATİK XİDMƏT ORQANLARI ƏMƏKDAŞLARININ PEŞƏ BAYRAMI GÜNÜNÜN TƏSİS EDİLMƏSİ HAQQINDA AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI

Müsəlman dünyasında ilk Demokratik Respublikanın yaradılmasında və müasir dövrdə müstəqil Azərbaycan dövlətinin qurulması prosesində milli diplomatiyanın rolunu nəzərə alaraq və 1919-cu ilin iyul ayının 9-da Azərbaycan Cümhuriyyəti Xarici İşlər Nazirliyinin katibliyinə dair müvəqqəti təlimatın qəbul edildiyini əsas tutaraq qərara alıram:

1. Hər il 9 iyul Azərbaycan Respublikası diplomatik xidmət orqanları əməkdaşlarının peşə bayramı kimi qeyd edilsin.

2. Bu Sərəncam imzalandığı gündən qüvvəyə minir.

İlham Əliyev

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 24 avqust 2007-ci il.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV CƏNUBİ KOREYANIN TİCARƏT, SƏNAYE VƏ ENERGETİKA NAZİRİNİN MÜAVİNİ Lİ ÇJE HUNUN RƏHBƏRLİK ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİNİ QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev avqustun 27-də Prezident sarayında Cənubi Koreyanın ticarət, sənaye və energetika nazirinin müavini Li Çje Hunun rəhbərlik etdiyi nümayəndə heyətini qəbul etmişdir.

Azərbaycan Prezidenti iki ölkənin dövlət başçılarının qarşılıqlı səfərləri zamanı ikitə-

rəfli əlaqələrimizin genişləndirilməsinə dair səmərəli fikir mübadiləsinin aparıldığını və bu səfərlərin nəticəsi olaraq hazırda Azərbaycan ilə Cənubi Koreya arasında əməkdaşlığın çox fəal mərhələsinə başlandığını bildirdi. O, siyasət, iqtisadiyyat, energetika və digər sahələrdə əlaqələrin daha da inkişaf etdirilməsi üçün qarşılıqlı marağın olduğunu və əməkdaşlığımızın getdikcə daha geniş sahələri əhatə etdiyini məmnuniyyətlə vurğuladı. Prezident İlham Əliyev Cənubi Koreya nümayəndə heyətinin Azərbaycana bu səfərinin ölkələrimiz arasında bütün sahələrdə, o cümlədən iqtisadiyyat sahəsində əlaqələrin genişlənməsinə töhfə verəcəyinə əminliyini ifadə etdi.

Li Çje Hun Cənubi Koreya Prezidenti Roh Mu-hyunun salamlarını Prezident İlham Əliyevə çatdıraraq dedi: "Cənubi Koreya Prezidenti Sizin Azərbaycana çox uğurlu rəhbərliyiniz sayəsində yüksək iqtisadi artımın əldə olunması ilə bağlı öz ehtiramını ifadə edir". Qonaq qeyd etdi ki, Cənubi Koreya Prezidenti ölkəsi ilə Azərbaycan arasındakı səmərəli əməkdaşlığın daha geniş sahələri əhatə etməsini arzulayır. Prezident İlham Əliyevin Cənubi Koreyaya səfəri çərçivəsində rəsmi ziyafət zamanı etdiyi çıxışın onda dərin təəssürat yaratdığını qeyd edən qonaq Azərbaycan Prezidentinin ölkəsini iqtisadi inkişaf yolu ilə irəliyə doğru aparmaq qətiyyətini gördüklərini vurğuladı.

Sonda Li Çje Hun Cənubi Koreya Prezidenti Roh Mu-hyunun məktubunu dövlətimizin başçısına çatdırdı.

Prezident İlham Əliyev Cənubi Koreya Prezidenti Roh Mu-hyunun salamlarına və məktubuna görə minnətdarlığını bildirdi və onun da salamlarını Cənubi Koreyanın dövlət başçısına çatdırmağı xahiş etdi.

AZƏRBAYCANIN XARİCİ İŞLƏR NAZİRİNİN BATUMİYƏ SƏFƏRİ

Azərbaycan Respublikasının xarici işlər naziri Elmar Məmmədyarov avqustun 26-da Batumiyə ikigünlük işgüzar səfərə gəlmişdir.

Səfərin ilk günü E.Məmmədyarov gürcüstanlı həmkarı Qela Bejuaşvili ilə birlikdə Gürcüstan-Türkiyə sərhədindəki Sarı gömrük məntəqəsində və Qonio kompleksində olmuşdur. Avqustun 27-də E.Məmmədyarov və Qela Bejuaşvili Batumi neft terminalında olmuşlar.

Sonra nazirlərin bağlı qapı arxasında görüşü keçirilmişdir. İlkin məlumata görə, nazirlər neftin nəqli, GUAM çərçivəsində gələcək əməkdaşlıq, regionda infrastrukturun genişləndirilməsi, ölkələrimiz arasında ticarət-iqtisadi əlaqələr, gömrük xidmətlərinin əsas prinsipləri və onun şəffaflığı və s. məsələləri müzakirə etmişlər.

E.Məmmədyarov münasibətlərin hər iki tərəf üçün məqbul olduğunu, əksər məsələlərdə mövqelərinin üst-üstə düşdüyünü vurğulamış, gürcüstanlı həmkarı ilə müzakirə etdiyi məsələlərdə qarşılıqlı razılığa gəlindiyini bildirmişdir. E.Məmmədyarov Batumidə ilk dəfə olduğunu və indi onun görməli yerlərini ziyarət edəcəyini demişdir.

XARİCİ İŞLƏR NAZİRİ ACARİYADA YAŞAYAN AZƏRBAYCAN İCMASININ NÜMAYƏNDƏLƏRİ İLƏ GÖRÜŞMÜŞDÜR

Xarici işlər naziri Elmar Məmmədyarovun avqustun 26-dan Gürcüstana başlamış səfəri davam etməkdədir.

Xarici İşlər Nazirliyinin mətbuat katibi Xəzər İbrahim avqustun 27-də jurnalistlər üçün brifinqdə bildirmişdir ki, nazir E.Məmmədyarov səfər çərçivəsində Acariyanın Batumi şəhərində Gürcüstan xarici işlər naziri Qela Bejuaşvili ilə qeyri-formal görüş keçirəcəkdir. Görüşdə Azərbaycan-Gürcüstan ikitərəfli münasibətlərinin bütün aspektləri, GUAM çərçivəsində əməkdaşlıq və BMT Baş Məclisinin növbəti sessiyasının gündəliyinə daxil edilmiş məsələlər müzakirə olunacaqdır.

Avqustun 27-də E.Məmmədyarov Batumidəki neft terminallarla tanışlıqdan sonra Acariyada yaşayan Azərbaycan icmasının nümayəndələri ilə görüşmüşdür.

QƏTƏR DÖVLƏTİNİN ƏMİRİ ŞEYX HƏMƏD BİN XƏLİFƏ AL TANİNİN AZƏRBAYCANA RƏSMİ SƏFƏRİ

Avqustun 28-də Qətər Dövlətinin Əmiri Şeyx Həməd bin Xəlifə Al Tani Azərbaycana rəsmi səfərə gəlmişdir.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN VƏ QƏTƏR DÖVLƏTİNİN ƏMİRİ ŞEYX HƏMƏD BİN XƏLİFƏ AL TANİNİN TƏKBƏTƏK GÖRÜŞÜ

Avqustun 28-də Prezident sarayında Azərbaycan Prezidenti İlham Əliyev ilə Qətər Dövlətinin Əmiri Şeyx Həməd bin Xəlifə Al Taninin təkbətək görüşü olmuşdur.

Görüşdə Azərbaycanla Qətər arasında münasibətlərin uğurla inkişaf etdiyi vurğulandı. Prezident İlham Əliyev Qətərə rəsmi səfərini xatırlatdı, həmin səfərin iki ölkə arasında əməkdaşlığın inkişafına təkan verdiyini bildirdi.

Dövlətimizin başçısı Qətərdə Azərbaycanın səfirliyinin fəaliyyətə başlayacağını söylədi, qarşılıqlı əməkdaşlığın genişləndirilməsi üçün bir sıra layihələrin mövcudluğunu diqqətə çatdırdı.

Prezident İlham Əliyev Azərbaycanla Qətər arasında siyasi münasibətlərin çox yüksək səviyyədə olduğunu vurğuladı, ölkələrimizin beynəlxalq təşkilatlarda bir-birini dəstəklədiyini bildirdi.

Qətərin Əmiri Şeyx Həməd bin Xəlifə Al Tani də ölkəsinin BMT-də Azərbaycanı dəstəklədiyini vurğuladı. İki dövlət arasında münasibətlərin əla səviyyədə olduğunu bildirən Əmir tezliklə Azərbaycanda Qətərin səfirliyinin fəaliyyətə başlayacağını söylədi.

Prezident İlham Əliyev iki ölkə arasında bir sıra sahələrdə, o cümlədən neft-qaz sənayesində əməkdaşlığın genişləndirilməsi üçün böyük imkanlar olduğunu, Azərbaycanın mühüm neft və qaz ixracatçılarından birinə çevrildiyini vurğuladı. Qətərin də bu baxımdan dünyada öncül yerlərdən birini tutduğunu deyən dövlətimizin başçısı qarşılıqlı surətdə faydalı iqtisadi və investisiya layihələrinin reallaşdırılması üçün hərtərəfli poten-

sial imkanlar olduğunu bildirdi. Görüşdə qarşılıqlı maraq doğuran bir sıra məsələlər barədə fikir mübadiləsi aparıldı.

SƏNƏDLƏRİN İMZALANMA MƏRASİMİ

Avqustun 28-də Prezident sarayında Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və Qətər Dövlətinin Əmiri Şeyx Həməd bin Xəlifə Al Taninin iştirakı ilə sənədlərin imzalanma mərasimi olmuşdur.

Azərbaycan Respublikasının Ticarət və Sənaye Palatası ilə Qətərin Ticarət və Sənaye Palatası arasında Müştərək Biznes Şurasının (MBŞ) təsis edilməsi barədə sazişi və palatalar arasında anlaşma memorandumunu Azərbaycanın Ticarət və Sənaye Palatasının prezidenti Süleyman Tatlıyev və Qətərin maliyyə naziri Yusif Hüseyn Kamal imzaladılar.

Azərbaycan Respublikası hökuməti və Qətər Dövləti hökuməti arasında hava daşımalarına dair sazişi "Azərbaycan Hava Yolları" Dövlət Konserninin baş direktoru Cahangir Əsgərov və Qətərin maliyyə naziri Yusif Hüseyn Kamal imzaladılar.

Azərbaycan Respublikası hökuməti və Qətər Dövləti hökuməti arasında gəlirlərə görə vergilərə münasibətdə ikiqat vergitutmanın aradan qaldırılması və vergidən yayınmanın qarşısının alınması haqqında sazişi Azərbaycanın vergilər naziri Fazil Məmmədov və Qətərin maliyyə naziri Yusif Hüseyn Kamal imzaladılar.

Azərbaycan Respublikası hökuməti və Qətər Dövləti hökuməti arasında investisiyaların təşviqi və qarşılıqlı qorunması haqqında sazişi Azərbaycanın iqtisadi inkişaf naziri Heydər Babayev və Qətərin maliyyə naziri Yusif Hüseyn Kamal imzaladılar.

SƏFƏR BAŞA ÇATDI

Avqustun 28-də Qətər Dövlətinin Əmiri Şeyx Həməd bin Xəlifə Al Taninin Azərbaycana rəsmi səfəri başa çatmışdır.

AZƏRBAYCAN RESPUBLİKASI XARİCİ İŞLƏR NAZİRLİYİNİN MƏTBUAT MƏRKƏZİ QUBADLI RAYONUNUN İŞĞALININ NÖVBƏTİ İLDÖNÜMÜ İLƏ BAĞLI BƏYANAT YAYMIŞDIR

Xarici İşlər Nazirliyinin mətbuat mərkəzi Qubadlı rayonunun işğalının növbəti ildönümü ilə əlaqədar bəyanat yaymışdır. Bəyanatda deyilir ki, 1993-cü il avqustun 31-də Qubadlı rayonu Ermənistan tərəfindən işğal edilmişdir. Ermənistan hərbi birləşmələrinin rayonu işğal etməsi nəticəsində 31.364 nəfər Azərbaycan vətəndaşı doğma yurd-yuvasından didərgin düşməyə məcbur olmuşdur.

İşğaldan sonra BMT Təhlükəsizlik Şurası tərəfindən qəbul olunmuş 874 saylı qətnamədə zəbt olunmuş torpaqlardan qoşunların dərhal çıxarılması tələbi bu qurumun və beynəlxalq təşkilatların digər qətnamələri kimi Ermənistan tərəfindən yerinə yetirilməmiş qalır. Qətnamə "...işğal olunmuş ərazilərdən silahlı qüvvələrin çıxarılmasını" tələb edir.

Azərbaycan ərazi bütövlüyünün bərpa olunması yolunda beynəlxalq hüquq çərçivəsində bütün imkanlardan istifadə edəcəkdir.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV RUSİYA FEDERASİYASI HÖKUMƏTİ APARATININ RƏHBƏRİ - HÖKUMƏT SƏDRİNİN MÜAVİNİ SERGEY NARIŞKİNİ QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev avqustun 31-də Prezident sarayında Rusiya Federasiyası hökuməti Aparatının rəhbəri – hökumət sədrinin müavini Sergey Narışkini qəbul etmişdir.

Dövlətimizin başçısı Rusiya ilə Azərbaycan arasında siyasi və iqtisadi əlaqələrin dinamik inkişaf etdiyini, Rusiya Federasiyası hökuməti sədrinin müavininin ölkəmizə ilk səfərinin də əməkdaşlığın gələcək inkişafına xidmət edəcəyinə əminliyini bildirdi. Prezident İlham Əliyev iqtisadi sahədə daha sıx inteqrasiyaya nail olunması üçün hökumətlərarası komissiyanın fəal işləyəcəyinə ümidvar olduğunu söylədi.

Prezident İlham Əliyev dedi: "İndi biz əmtəə dövriyyəsinin səviyyəsinə görə çox yüksək həddəyik. Son illərin dinamikası da çox müsbətdir, müştərək layihələrə böyük maraq göstərilir. Bütün bunlar məhz bizim münasibətlərimizin çox möhkəm siyasi bazasına əsaslanır.

Biz qonşuyuq və bu da ikitərəfli münasibətlər üçün mühüm amildir. Digər tərəfdən də ikitərəfli formatlı məsələlərin geniş spektri. Təbii ki, bu, ikitərəfli formatın çərçivələrindən kənara çıxır, regional problemləri, regional təhlükəsizliyin möhkəmləndirilməsi, regional əməkdaşlıq məsələlərini də əhatə edir. Bu baxımdan Rusiyanın və Azərbaycanın Qafqaz regionundakı fəaliyyətindən çox şey asılıdır. Bir sözlə, biz fəal təmasları davam etdirmək əzmindəyik və əminəm ki, bu baxımdan sizin səfəriniz çox mühüm rol oynayacaqdır".

Bakıya ilk dəfə səfər etməsindən və Azərbaycan Prezidenti ilə görüşündən məmnunluğunu bildirən Rusiya Federasiyası hökuməti sədrinin müavini Sergey Narışkin Azərbaycan xalqının ümummilli liderinin məzarını ziyarət etdiyini bildirərək dedi ki, Heydər Əliyevin əziz xatirəsi Rusiyada daim ehtiramla yad olunur. O, hökumətlərarası komissiyanın Rusiya tərəfindən yeni təyin olunmuş həmsədri kimi Rusiya-Azərbaycan münasibətlərinə töhfə verəcəyini söylədi.

Sergey Narışkin may ayında azərbaycanlı həmkarları ilə Rusiya paytaxtında keçirdikləri görüş və müzakirə edilən məsələlər barədə Azərbaycan Prezidentinə məlumat verdi və bildirdi ki, komissiyanın növbəti iclası da noyabrın ortalarında Moskvada olacaqdır.

AZƏRBAYCAN VƏ RUSİYA XARİCİ İŞLƏR NAZİRLƏRİ ARASINDA MƏSLƏHƏTLƏŞMƏLƏR PLANI RAZILAŞDIRILMIŞDIR

Avqustun 31-də xarici işlər naziri Elmar Məmmədyarov Rusiya Federasiyası xarici işlər nazirinin müavini Qriqori Karasin ilə görüşmüşdür.

Görüşdə BMT Baş Məclisinin növbəti sessiyasında müzakirə olunacaq məsələlər, ha-

belə Xəzəryanı ölkələrin növbəti sammiti ilə bağlı fikir mübadiləsi aparılmışdır.

Ermənistan-Azərbaycan. Dağlıq Qarabağ münaqişəsi haqqında söhbət açarkən E.Məmmədyarov münaqişənin yalnız Azərbaycanın ərazi bütövlüyü çərçivəsində həllinin mümkünlüyünü vurğulamışdır. Nazir demişdir ki, regionda sülh və əmin-amanlığın bərqərar olması bütün bölgə üçün əhəmiyyətlidir.

Görüşdə Azərbaycan və Rusiya XİN-ləri arasında cari ilin ikinci yarısı və 2008-ci il üçün məsləhətləşmələr planı razılaşdırılmışdır.

Həmin planda Azərbaycan Diplomatik Akademiyasının Moskva Beynəlxalq Münasibətlər İnstitutu və Rusiya Diplomatiya Akademiyası ilə əməkdaşlığı da nəzərdə tutulmuşdur.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV LİTVANIN "VERSLO ZİNİOS"/"BUSİNESS NEWS" QƏZETİNİN VƏ "VERSLO KLASE"/"BUSİNESS CLASS" JURNALININ MÜXBİRLƏRİNƏ MÜSAHİBƏ VERMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 3-də Prezident sarayında Litvanın "Verslo zinios"/"Business news" qəzetinin və "Verslo klase"/"Business class" jurnalının müxbirləri Ritas Staselisə və V.İvanovasa müsahibə vermişdir.

-Bizə məlumdur ki, Siz Litvaya gələcəksiniz və təxminən bir həftədən sonra biz Sizi Vilnüsdə görəcəyik. Siz bu səfərə nə kimi ümidlər bəsləyirsiniz?

- Ölkələrimiz arasında çox yaxşı münasibətlər yaranır. Biz bir sıra istiqamətlərdə əməkdaşlıq edirik və son vaxtlar əməkdaşlığımız kifayət qədər intensiv xarakter daşıyır. Bunu demək kifayətdir ki, keçən il sizin ölkənin Prezidenti cənab Valdas Adamkus Azərbaycanda rəsmi səfərdə olmuşdur. Bu, Litva Prezidentinin Azərbaycana ilk rəsmi səfəri idi. Sonra, bir neçə ay bundan əvvəl GUAM-ın zirvə toplantısında Prezident Adamkus da bizim qonaqlar arasında idi və ikitərəfli münasibətlərlə bağlı məsələləri onunla bir daha müzakirə etməyə imkanımız oldu.

Biz hər iki ölkədə diplomatik nümayəndəliklər yaradırıq. Litva səfiri artıq burada işləyir, lap yaxın vaxtlarda bizim səfirlik açılacaqdır. Yəni, bu amillər iqtisadi inteqrasiyaya, siyasi proseslərə və daha geniş kontekstdə regional problemlərə qarşılıqlı marağın və daha sıx əməkdaşlıq üçün imkanların mövcud olmasına dəlalət edir. Buna görə də sizin ölkənizə mənim səfər etməyim bizim bu cür intensiv əlaqələrimizin təbii yekunudur.

-Təxminən bir aydan sonra Vilnüsdə energetika sammiti keçiriləcəkdir. Siz həmin sammitin işində iştirak etməyə hazırlaşırsınızmı?

-Bəli, mən artıq Prezident Valdas Adamkusdan dəvət almışam və həmin sammitdə məmnuniyyətlə iştirak edəcəyəm. Mən Polşada keçirilmiş birinci sammitdə də iştirak etmişəm. Orada iştirakçıların dairəsi daha məhdud idi. Bildiyimə görə, bu dəfə Prezident Adamkus çoxsaylı xarici qonaqları, dövlət rəhbərlərini və hökumət başçılarını dəvət edir. Əlbəttə, dünya bazarlarına, o cümlədən Avropa bazarlarına enerji ehtiyatları göndərən mühüm bir ölkə kimi Azərbaycan bu proseslərdə fəal iştirak edir.

Biz öz energetika siyasətimizi milli mənafelərimizə əsaslanmaqla, eləcə də bizə dost ölkələrlə tərəfdaşlıq ruhunda həyata keçiririk. Əminəm ki, bu zirvə görüşü də regionun enerji təhlükəsizliyinin möhkəmləndirilməsində mühüm mərhələ olacaqdır.

-Cənab Prezident, Siz özünüz deyirsiniz ki, bu, artıq ikinci zirvə görüşüdür. Şəxsən Siz bu prosesə, onun Cənub-Şərqi Avropaya, Azərbaycana, Qafqaz regionu ölkələrinə real xeyir gətirə biləcəyinə inanırsınızmı?

-1990-cı illərin ortalarında biz özümüzün fəal energetika siyasətinə başlayanda skeptiklər - müxtəlif ölkələrdə bizim uğurumuza inanmayan insanlar, təşkilatlar, dairələr lap çox idi. Xəzər dənizinin Azərbaycan sektorunun ehtiyatları çox zəngindir. Lakin Xəzər qapalı məkandır. Bizim dünya bazarlarına çıxışımız yoxdur. Məbləği milyard dollarlarla ölçülən çox böyük, ilk növbədə xarici investisiyaların cəlb edilməsi, neft və qaz boru kəmərlərinin tikintisi çoxlarına qeyri-real görünürdü. Amma biz buna inanırdıq. Nəticədə indi elə vəziyyət yaranmışdır ki, Azərbaycan özünün bütün enerji problemlərini artıq həll etmişdir.

Biz planlaşdırdığımız işlərin hamısını həyata keçirmişik. Neft və qaz hasilatına on milyardlarla dollar cəlb etmişik. İndi Azərbaycan gündə təqribən 1 milyon barrel neft çıxarır. Bu, Əsas ixrac boru kəmərinin gücünə də müvafiqdir. Biz ehtiyatlarının həcmi bir trilyon kubmetrdən çox olan ən iri "Şahdəniz" qaz yatağında hasilata başlamışıq. Bütövlükdə isə, bizdə təkcə 2-3 yatağın təsdiqlənmiş qaz ehtiyatlarının həcmi 1,5 trilyon kubmetrə bərabərdir. Azərbaycandan Gürcüstana, Türkiyəyə qaz kəməri çəkilmişdir, gələcəkdə o, Avropaya çıxacaqdır. Bütün bunlar reallıqdır. Bir daha demək istəyirəm ki, biz öz ölkəmizlə bağlı bütün məsələlərimizi həll etmişik. Bizim üç ölkəyə – Türkiyəyə, Gürcüstana, Rusiyaya gedən üç neft kəmərimiz, bir qaz kəmərimiz, çox böyük neft və qaz ehtiyatlarımız, güclü neft və neft-qaz infrastrukturumuz vardır.

Hazırda biz Krakovda keçirilmiş birinci energetika sammiti çərçivəsində də əməkdaşlıq edirik və əminəm ki, oktyabrda bu məsələ Litvada müzakirə olunacaqdır. Energetika məsələlərinin daha geniş kontekstində əməkdaşlıq edirik. Ötən ilin noyabrında energetika sahəsində Avropa İttifaqı ilə strateji tərəfdaşlıq haqqında Memorandum və Amerika Birləşmiş Ştatları ilə analoji sənəd imzalamışıq. Ümidvaram ki, artıq bu il Avropa İttifaqı bazarlarında Azərbaycan qazı olacaqdır. Bildiyiniz kimi, neft-qaz kəmərlərinin müxtəlif yeni layihələri bizim ölkəmizlə bağlıdır. Əgər söhbət NABUCCO layihəsindən gedirsə, əvvəlcədən bu planlaşdırılmasa da, indi həmin layihə Azərbaycanla bağlıdır. Əgər Türkiyə, Yunanıstan, İtaliya qaz kəmərindən danışsaq, o da Azərbaycanla bağlıdır. Odessa-Brodı neft kəmərindən danışsaq, yenə Azərbaycanla bağlıdır. Beləliklə, biz öz milli mənafelərimizə uyğun şəkildə, regionda tərəfdaşlarımız haqqında öz anlayışımıza müvafiq olaraq konstruktiv əməkdaşlıq edirik.

-Cənab Prezident, Siz deyirsiniz ki, ölkənizin problemlərinin əksəriyyəti və yaxud hamısı həll edilmişdir. Belə bir vaxtda Azərbaycanın energetika müstəqilliyi ölkənin siyasi müstəqilliyi üçün nə kimi imkanlar yaradır?

-Bilirsiniz ki, bütün bu amilləri bir-birindən ayırmaq mümkün deyildir. Onlar hamısı bir-birilə əlaqəlidir, xüsusən SSRİ-nin dağılması nəticəsində öz müstəqilliyini bərpa etmiş ölkələrdə. Siyasi müstəqillik, ilk növbədə, iqtisadi müstəqilliyə əsaslanır. Siz bunu da çox gözəl bilirsiniz. Biz sizinlə bir dövlətdə yaşayırdıq. Həmin dövlət parçalananda

hər bir ölkə öz suverenliyini qoruyub saxlamaq, onu möhkəmlətmək üçün yollar axtarırdı. Təbii ki, iqtisadi amillər olmadan buna nail olmaq mümkün deyildi. Lakin indiki mərhələdə iqtisadiyyat energetika ilə də çox sıx bağlıdır. Buna görə də energetika təhlükəsizliyi, energetika müstəqilliyi, əslində, elə ölkənin müstəqilliyi deməkdir. Təbii ki, biz enerji resursları idxalından asılı olan ölkələrin narahatlığını başa düşürük. Müəyyən vaxta qədər biz də qazın bir hissəsini idxal edirdik. Lakin indi özümüzü tamamilə təmin edirik. Biz Gürcüstanın qaza tələbatının təxminən 75 faizini təmin edirik, Türkiyə, Yunanıstan və başqa ölkələrin bazarlarına da çıxırıq.

-Keçən il Siz Brüsseldən qayıdanda yolüstü Moskvaya getdiniz. Hətta Rusiya Prezidenti Vladimir Putin də Sizi uğurlu səfər münasibətilə təbrik etmişdi. Deyə bilərsinizmi, "uğur" dedikdə, o, nəyi nəzərdə tuturdu?

-Bilirsinizmi, Rusiya ilə bizim çox konstruktiv münasibətlərimiz vardır və biz bir-birimizin uğurlarına sevinirik. Biz qonşuyuq, bizi bir-birimizə bağlayan amillər çoxdur və energetika məsələləri ölkələrimiz arasında diskussiya mövzusu deyildir. Biz bir-birimizdən asılı olmayan ölkələrik və bununla fəxr edirik, ona görə də münasibətlərimizi ancaq milli mənafelərimiz əsasında, mehriban qonşuluq və əməkdaşlıq ruhunda qururuq.

-Keçən il Azərbaycan Rusiya qazının idxalından ilk dəfə imtina etmişdir. Bu münasibətlər gələcəkdə necə olacaq və Azərbaycan hansısa şərtlər daxilində Rusiyadan qaz alacaqmı və Novorossiyskə neft satacaqmı?

-Rusiyadan qaz alınması ilə bağlı vəziyyət 2001-ci ilin əvvəlindən yaranmışdır. O vaxta qədər biz Rusiyadan qaz almırdıq. 2001-ci ildə bu əməkdaşlıq başlandı və o, qarşılıqlı surətdə sərfəli idi. Əvvələn, o vaxt Azərbaycan MDB-nin üzvləri arasında yeganə ölkə idi ki, qazın haqqını nağd pulla, gecikdirmədən və heç bir borc yaranmadan ödəyirdi. İkincisi, alınan qazın həcmi hər il artırdı – biz 1 milyard kubmetrdən başlayaraq 4,5 milyard kubmetrə çatmışdıq. Bizim üçün sərfəlisi o idi ki, həmin qazı elektrik stansiyalarına göndərir, bununla da mazuta qənaət edirdik, xam nefti emal edərək mazuta çevirmir, onu Bakı-Novorossiysk boru kəməri vasitəsilə ixrac edirdik. Beləliklə də boru kəməri dolurdu. Biz bu əməkdaşlıqdan razı idik. Bu, necə deyərlər, yaxşı iqtisadi layihə idi.

Lakin Rusiya qazının qiyməti tədricən artmağa başladı: biz əməkdaşlığa başlayanda 1000 kubmetr qazın qiyməti 48 dollar olduğu halda, əvvəlcə bu qiymət iki dəfədən çox artırılaraq 110 dollara çatdırıldı. Yeri gəlmişkən, inişil qışda biz çox böyük problemlərlə üzləşmişdik. Çünki yanvarın 1-dən etibarən Azərbaycana qaz göndərilməsi dayandırılmışdı, biz isə öz energetika balansımızda hər hansı ehtiyat nəzərdə tutmamışdıq. Bununla belə, biz vəziyyətdən çıxdıq. Lakin bizim üçün qazın qiyməti artırılaraq 235 dollara çatdırılanda, hesab etdik ki, bu qiymət lap çoxdur və Rusiya qazından imtina etdik.

Əlbəttə, biz də başa düşürdük, Rusiya tərəfinin də məlumatı vardı ki, bu halda bizim neftin Rusiya boru kəməri ilə nəql edilməsi əhəmiyyətli dərəcədə azalacaqdır, çünki bu neft emal edilmək üçün bizim özümüzə lazım olacaqdı. Belə də oldu. Eyni zamanda, biz qaz hasilatının artırılması üzrə çox geniş proqram işləyib hazırladıq, bir neçə yüz milyon dollar sərmayə qoyduq. İndi, Rusiya qazından imtina edəndən 8 ay sonra deyə bilərik ki, biz nəinki özümüzü qazla təmin etmişik, hətta qaz anbarlarımızı tamamilə doldurmuşuq və üstəlik, artıq dediyim kimi, Gürcüstanı, Türkiyəni də qazla təchiz edirik, Yunanıstanla memorandum imzalamışıq. Ümidvaram ki, gələn il qaz hasilatının həcmini ən azı 17-18 milyard kubmetr səviyyəsinə çatdıracağıq. Bu, o ölkədir ki, hələ 2006-cı ildə Rusiyadan 4,5 milyard kubmetr qaz satın almışdı.

-Necə bilirsiniz, energetika məsələləri sahəsində Rusiya ilə ünsiyyət təcrübənizə əsasən, Rusiya ilə yaxşı münasibətlərə malik olmaq üçün müəyyən meylin olduğunu nəzərə almaqla, Avropa İttifaqına prinsip etibarilə alternativlər lazımdırmı, yoxsa enerji resurslarının alınması üçün alternativ yollar axtarmaq lazım deyil?

-Yəqin ki, bu suala Avropa İttifaqının nümayəndələri daha yaxşı cavab verər. O ki qaldı bizə, qaz layihələrimizi başlayanda Avropanı bizim qaz üçün bazar kimi nəzərdən keçirmirdik. O vaxt vəziyyət, ümumiyyətlə, başqa idi. Hətta Türkiyə bazarı da müəyyən suallar doğurardu ki, o, Azərbaycandan 6 milyard kubmetr qaz qəbul edə biləcəkmi? Çünki 1990-cı illərin axırı - 2000-ci illərin əvvəli Türkiyədə müəyyən iqtisadi çətinliklər dövrü idi. Ona görə də biz qaz hasilatına dair öz iş proqramımızı məhz Türkiyə bazarını əsas götürməklə planlaşdırırdıq. Biz hətta Gürcüstanı da bazar kimi nəzərdən keçirmirdik, çünki Gürcüstan Rusiyadan sabit şəkildə qaz alırdı, bizdən isə qazın yalnız müəyyən hissəsini tranzit kimi almalı idi.

Lakin sonradan vəziyyət dəyişdi. Rusiyadan Ukraynaya, Gürcüstana qaz satışı barədə diskussiyalar yarandı. Biz Avropa İttifaqı tərəfindən layihələrimizə böyük maraq göstərildiyini hiss etdik və təbii ki, qaz hasilatını necə artıra biləcəyimiz barədə düşünməyə başladıq. Biz, ilk növbədə, özümüzü təmin etməli idik, lakin digər tərəfdən, qonşu ölkələrin bazarı da bizim üçün cəlbedici idi. Təbii ki, yaxşı qarşılıqlı şərtlər olduqda, bu, iqtisadiyyatımıza ciddi töhfə ola bilərdi və biz əlavə vəsait əldə edərdik.

Deməliyəm ki, hətta bu gün də biz özümüzü kiməsə alternativ hesab etmirik. Ümumiyyətlə, prinsip etibarilə biz heç kimlə rəqabət aparmırıq. Biz nə ediriksə, yalnız ölkəmizin inkişafını təmin etmək naminə edirik. Bizə Aralıq dənizinə çıxan neft kəməri lazım idi və onu tikdik. İndi başqaları kimi, həmin kəmər də çox yaxşı fəaliyyət göstərir. Bizə qaz kəməri lazım idi, onu inşa etdik. Yəni, bunlar rəqabət aparmaq arzusu deyildir. Biz bütövlükdə səylərimizi, əsasən, Azərbaycanın daxili işləri ilə əlaqədar məsələlər üzərində cəmləşdiririk. Biz hansısa başqa ölkələrin işlərinə qarışmırıq, bizim xarici siyasətimiz milli mənafelərimizin təmin edilməsinə yönəlmişdir. Biz hansısa sahədə kiminləsə rəqabət aparmağa hazırlaşmırıq. Biz özümüzü təmin edən ölkəyik, iqtisadiyyatımız son 3 ildə, demək olar ki, yüz faiz artmışdır, yəni iqtisadiyyat hər il orta hesabla 30 faiz artır. Biz özümüzü neft və qazla təmin etmişik, yəni prinsip etibarilə bizə daha heç nə lazım deyildir.

Lakin bir daha deyirəm, Avropa İttifaqı ilə, Avropa İttifaqı ölkələri ilə, qonşularımızla münasibətlər, əlavə enerji ehtiyatları mənbələrinin zəruri olmasını başa düşməyimiz bizi bu sahədə daha sıx əməkdaşlığa sövq edir.

-Mümkündürsə, ruh yüksəkliyi doğuran iki layihə barədə bir qədər danışın. Bunlar Bakı-Tbilisi-Ceyhan neft kəməri və Bakı-Tbilisi-Ərzurum qaz kəməri layihələridir. Televiziya üç nəfəri tez-tez göstərirdi: Sizin mərhum atanız Heydər Əliyevi, Eduard Şevardnadzeni və Süleyman Dəmirəli. Bu layihələrin ideyası onlardan hansına məxsus idi və bütün bunlar necə həyata keçirilirdi?

-Bu energetika layihələrinin uğuru məhz Azərbaycan, Türkiyə və Gürcüstan arasında energetika siyasətinə dair səylərin sıx əlaqələndirilməsi sayəsində mümkün olmuşdur. Həmin layihələrin işlənilməsinə, onları həyata keçirməyin mümkün olmasına bu üç dövlətin liderləri çox böyük töhfə vermişlər. Bu, çox böyük siyasi müdriklik, böyük cəsarət tələb edirdi və bunun necə risklərlə müşayiət olunması da aydın idi. Mən sizə belə bir misal gətirə bilərəm: 1994-cü il sentyabrın 20-də Azərbaycanda bütün energetika layihələrinin əsası olan "Əsrin müqaviləsi" imzalandı. Bundan bir neçə gün sonra Azərbaycanda silahlı dövlət çevrilişi cəhdi oldu. Yəni, biz öz taleyimizdə Azərbaycanın müstəqil energetika siyasəti və bütövlükdə müstəqil siyasət yeritmək, öz suverenliyimizi qorumaq arzusu ilə əlaqədar çox çətinliklərlə üzləşmişik. Beləliklə, hər üç ölkə və onların liderləri bu layihələrə çox böyük töhfə vermişlər.

Lakin təbii ki, bütün bu layihələr Azərbaycandan başlanır. Bu, Azərbaycanın neftidir və xarici şirkətlərin cəlb edilməsi, müqavilənin bağlanması, Bakı-Tbilisi-Ceyhan boru kəməri marşrutunun seçilməsi və sonrakı layihələrin təşəbbüsü, əlbəttə, Heydər Əliyevə məxsus idi. Təsadüfi deyil ki, indi Bakı-Tbilisi-Ceyhan neft kəməri, eləcə də Ceyhandakı neft terminalı Heydər Əliyevin adını daşıyır. Bunlar bizim layihələrdir, onların təşəbbüsçüsü biz olmuşuq və çox şadıq ki, məhz üç ölkənin birgə səyləri belə uğura gətirib çıxarmışdır.

Sonra, 1996-cı ildə "Şahdəniz" layihəsi imzalandı, Ərzuruma qaz kəməri çəkildi. İndi biz ölkələrimizi və bununla da Avropa ilə Asiyanı birləşdirməli olan Bakı-Tbilisi-Qars dəmir yolunun layihəsi üzərində işləyirik. Beləliklə, biz üç ölkə arasında nadir regional əməkdaşlıq nümunələrini göstəririk, bu ölkələr artıq regiondakı siyasi prosesləri də bir çox cəhətdən qabaqcadan müəyyənləşdirir.

- Ümid etmək olarmı ki, Gürcüstan, Azərbaycan və Türkiyənin əməkdaşlığı regionda siyasi və iqtisadi sabitliyin əsası ola bilər?

-Sözsüz. Bizim əməkdaşlığımız və layihələrimiz artıq regional çərçivələrdən kənara çıxmışdır. İndi, Şərqi Avropa, keçmiş SSRİ, Mərkəzi Asiya ölkələrində bizim layihələrə böyük maraq olduğunu görəndə, öz seçimimizin düzgünlüyünə daha çox əmin oluruq. Axı Xəzər və Qara dəniz regionları, bu iki region indi çox fəal şəkildə inteqrasiya edir. Avropa İttifaqı artıq bizim sərhədlərə yaxınlaşmışdır. Bolqarıstan, Rumıniya - bunlar Qara dəniz hövzəsi ölkələridir. Deməli, biz artıq Avropa İttifaqı ilə qonşu olmuşuq. Eyni zamanda, Xəzərin şərq sahilindəki tərəfdaşlarımızla münasibətlərimiz inkişaf edir. Yəni 1994-cü ildə Bakıda, Azərbaycanda Heydər Əliyevin təşəbbüsü ilə başlanmış işlər bu gün artıq qitə miqyası almışdır və söz yoxdur ki, gələcəkdə regionun geosiyasi konfiqurasiyasında, siyasi proseslərin və inteqrasiyanın inkişafında çox mühüm rol oynayacaqdır.

-Bir siyasətçi və Azərbaycanın Prezidenti kimi, lütfən bir məsələ barədə fikrinizi deyin: artıq neçə illərdir ki, Xəzər dənizinin dibi ilə çəkiləcək boru kəmərindən söhbət gedir. Nə üçün o, hələ də yoxdur? Buna pul çatışmır, siyasi əzmkarlıq, əməkdaşlıq çatışmır, yoxsa nə isə başqa səbəb var?

-Bəli, siz haqlısınız. Bu mövzu 1990-cı illərin axırlarında çox fəal müzakirə olunurdu. Hətta tədqiqatlar aparılır, texniki layihələr hazırlanırdı, sonra fasilə yarandı. Lakin yaxın keçmişdə bu mövzu yenidən müzakirə olunmağa başladı. Mən bu barədə bir söz de-

məyə çətinlik çəkirəm, çünki bütün bu illər ərzində biz öz yataqlarımızın işlənilməsi, öz neft və qazımız üçün boru kəmərlərinin tikintisi ilə məşğul olmuşuq. Xəzərin dibi ilə çəkiləcək borunun şərqdən qərbə doğru gedəcəyi aydındır, lakin bu boru Azərbaycan neftinin nəql edilməsi üçün deyil. Təbii ki, bu vəziyyətdə Azərbaycan heç bir təşəbbüs göstərmirdi. Müzakirə edilən bu layihədə Xəzərin şərqindən enerji ehtiyatlarının bizim ərazidən keçməklə nəql olunması nəzərdə tutulurdu. Bizim ölkəmiz Enerji Xartiyasını imzalamışdır və əgər hər hansı tranzit yollar ölkəmizin ərazisindən keçərsə, biz, əlbəttə, həmin yolların fəal işləməsinə şərait yaradacağıq. Lakin biz bu layihələrə təşəbbüs göstərməyə hazırlaşmırıq və bunu heç vaxt etməmişik. Yeri gəlmişkən, fürsətdən istifadə edib demək istəyirəm, bəzən mətbuatda bildirilir ki, Azərbaycan Transxəzər neft-qaz kəmərləri çəkilməsinin təşəbbüskarıdır. Bu, belə deyildir. Biz təşəbbüsçü deyilik. Biz bu prosesin iştirakçısıyıq. Bu məsələyə dair bizimlə Qazaxıstan arasında hökumətlərarası saziş bağlanmışdır. Əgər neft hasilatçıları, bu neftin və qazın sahibi olan ölkələr və şirkətlər həmin nefti və qazı Azərbaycandan keçməklə nəql etmək istəsələr, biz, əlbəttə, öz imkanlarımızı təqdim edəcəyik.

- Daha bir mövzu barədə. Onun Sizdən ötrü ağrılı olduğunu bilirəm, lakin həmin mövzuya toxunmaya bilmərəm. Mən Ermənistan, Qarabağ mövzusunu nəzərdə tuturam. Bu ilin yayında Sizin iki bəyanatınızı oxumuşam. Əvvəlcə bildik ki, Azərbaycan 2016-cı ilin Olimpiya Oyunlarının təşkil edilməsi üçün ərizə vermişdir, bundan təqribən bir ay sonra isə Siz bəyanat vermişdiniz ki, Qarabağ ətrafında danışıqlar sonsuz davam edə bilməz. Mənim fikrimcə, bu iki bəyanat bir-birini istisna edir. Amma hər halda, Qarabağ məsələsi necə inkişaf edəcək? Sizdən ötrü nə daha çox əhəmiyyətlidir - Olimpiada, yoxsa Qarabağ?

- Sözsüz ki, Azərbaycandan ötrü ən əsas məsələ ərazi bütövlüyünün bərpa edilməsidir. Biz də maksimum konstruktivlik göstərməklə, danışıqlar yolu ilə buna nail olmağa çalışırıq. Razılaşın ki, 10 ildən artıq müddətdə Ermənistan tərəfinin konstruktivlik nümayiş etdirmədiyini görə-görə, danışıqlar prosesinin uğurla nəticələnəcəyini səbirlə gözləmək bizim münaqişəni dinc yolla həll etməyə tərəfdar olmağımızın göstəricisidir. Lakin digər tərəfdən, sizin dediyiniz kimi, mən dəfələrlə bəyan etmişəm ki, bizim səbrimiz hüdudsuz deyildir. Danışıqlar prosesinin öz çərçivəsi, o cümlədən zaman çərçivəsi olmalıdır. Əgər biz 100 faiz əmin olsaq ki, danışıqlar heç bir nəticə verməyəcək, beynəlxalq hüquq normalarına əsaslanaraq, öz ərazi bütövlüyümüzü hərbi vasitələr də daxil olmaqla, istənilən yollarla bərpa etməyə tam haqqımız var və biz bunu gizlətmirik. Biz buna hazır olmalıyıq və hazırlaşırıq. Axı belə ədalətsizliyə daha dözmək mümkün deyil: etnik təmizləmə siyasətinin həyata keçirilməsi nəticəsində Dağlıq Qarabağdan və ona bitişik yeddi rayondan, Ermənistandan bütün azərbaycanlılar qovulmuşlar. Ərazilərimizin 20 faizi işğal altındadır, Ermənistan qoşunlarının çıxarılması barədə BMT Təhlükəsizlik Şurasının 4 qətnaməsinə əməl edilmir, Avropa Şurasının qətnamələrinə əməl edilmir. Ermənistan danışıqlar prosesində vasitəçiləri aldatmağa çalışır, - indi bu, artıq hamıya aydındır, - öz rəhbərliyinin bəzi şəxsi siyasi ambisiyaları naminə prosesi uzadır. Hərçənd prosesi uzatmaq onların xeyrinə deyildir.

2003-cü ilin axırlarında mən danışıqlar prosesinə qoşulanda bizim aramızda az-çox paritet vardısa, bu gün o yoxdur. İndi biz müdafiə işlərinə Ermənistanın bütün ölkəyə sərf etdiyi qədər vəsait sərf edirik. Bu, reallıqdır. İqtisadiyyatın həcminə görə də Azərbay-

cani və Ermənistanı müqayisə etmək mümkün deyildir. Bu il bizdə iqtisadiyyatın həcminin təqribən 25-30 milyard dollar olacağı gözlənilir, Ermənistanda isə bu göstərici çətin ki, 4-5 milyard dollardan çox olsun. Yəni, onlar bizimlə yarışa bilməzlər. Biz öz iqtisadi potensialımızı ilbəil artıracağıq. Dünya Bankının hesablamalarına görə, yaxın 20 ildə Azərbaycan təkcə neft satışından 200 milyard dollardan çox gəlir əldə edəcəkdir. Dağlıq Qarabağ problemindən başqa bizim, əslində, ciddi problemlərimizin olmadığını nəzərə alsaq, – sosial məsələlər həll edilir, yoxsulluğun və işsizliyin kökünü kəsirik, – biz torpaqlarımızı geri qaytarmaq üçün nə lazımdırsa edəcəyik. Ermənistanda, sadəcə olaraq, başa düşməlidirlər ki, onlar Azərbaycan möhkəmləndikcə yaranacaq nəticələri öz üzərlərində hiss etməkdənsə, özlərinə məxsus olmayan torpaqlardan xoşluqla çıxıb getsələr yaxşıdır.

Beləliklə, sizin dediyiniz iki tezis bir-birini istisna etmir. 2016-cı ilə hələ çox vaxt var. Ümidvaram ki, o vaxta qədər münaqişə ya sülh yolu ilə, yaxud da başqa şəkildə həll ediləcəkdir, çünki Azərbaycan xalqı bu ədalətsizliklə və bu vəziyyətlə heç vaxt barışmayacaqdır.

- Cənab Prezident, Siz zaman çərçivəsindən danışdınız. Siz bu barədə qərara gəlmisinizmi? Azərbaycan tərəfinin fikrincə, möhlət nə vaxt başa çatacaq?

- Bilirsinizmi, əlbəttə, zaman çərçivələri barədə mənim öz təsəvvürüm var, lakin indi bu haqda açıq danışmaq istəməzdim. Bu, son dərəcə əhəmiyyətli məsələ olsa da, daha vacibi prosesin mahiyyətidir. Biz 2004-cü ildən bəri müəyyən tənzimləmə mexanizmləri nəzərdə tutan Praqa prosesi deyilən prosesdəyik. Bu vaxta qədər bütün başqa variantlar dönə-dönə yoxlanılmış, lakin heç bir nəticə verməmişdir. Əgər Praqa formatı da uğursuz olarsa, onda prinsip etibarilə daha heç nə barədə danışmağa dəyməz. Onda danışıqlar aparmaq üçün mövzu qalmır. Biz isə yalnız görüntü yaratmaq xatirinə danışıqlar aparmayacağıq, bu, bizə lazım deyildir. Ona görə də biz danışıqları konstruktiv məcrada aparırıq. Biz ümid edirik ki, hələ hər şey itirilməyib və beynəlxalq miqyasda tanınmış bütün normalara müvafiq həlli tapmaq olar. Eyni zamanda, biz iqtisadiyyatı möhkəmləndiririk, ordumuzu möhkəmləndiririk. Təbii ki, bir daha demək istəyirəm, zaman heç də Ermənistanın xeyrinə işləmir, əksinə. İnanın ki, bu dəfə onlara heç bir xarici yardım kömək etməyəcəkdir.

- Lütfən deyin, Sizin fikrinizcə, Minsk qrupu tənzimləmə strukturu kimi öz siyasi potensialını tükətmişdir, ya yox?

- Xeyr, mən belə deyə bilmərəm. Nəticə olmadığına baxmayaraq, mən Minsk qrupu və onun həmsədrləri barədə heç bir pis fikir söyləyə bilmərəm. Onlar çox yaradıcı şəkildə işləyir, həqiqətən mövqeləri yaxınlaşdırmağa çalışırlar. Çox fəal işləyir, tez-tez səfərlər edir, çox çətinliklə razılaşdırıla biləcək bəndləri razılaşdırmağa çalışırlar. Buna görə də mən indi onların fəaliyyətinə tənqidi şəkildə yanaşmazdım. Düzdür, Minsk qrupunun fəaliyyətinin başlanğıc mərhələlərində Azərbaycanın ona qarşı çox böyük iradları vardı. Lakin indiki mərhələdə, onlar artıq mövcud prinsiplər əsasında mövqeləri bir növ yaxınlaşdırmağa cəhd göstərdikləri bir vaxtda, mənim fikrimcə, onların fəaliyyətini dəstəkləmək lazımdır. İndiki halda əgər Ermənistan tərəfi konstruktivlik nümayiş etdirərsə, sağlam düşüncənin səsinə və Minsk qrupunun təkliflərinə qulaq asarsa, münaqişə həll oluna bilər.

- Bu mövzuda axırıncı sual. Kosovo problemi ilə əlaqədar Ahtisaari modeli müzakirə edilirdi. Bütün bunların nə ilə başa çatacağı məlum deyil, lakin Kosovo problemi nə isə təhlükəli presedentdir. Sizin fikrinizcə, Qarabağ üçün və Qafqaz problemi üçün presedent nə ola bilər?

- Bilirsinizmi, biz bu məsələyə sakit yanaşırıq, çünki Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli ilə ATƏT, həmsədrlərin şəxsində Minsk qrupu məşğul olur. Bütün həmsədr ölkələrin rəsmi mövqeyi Azərbaycanın ərazi bütövlüyünün qeyd-şərtsiz bərpa edilməsindən ibarətdir. Bütün dünya birliyi də Dağlıq Qarabağın Azərbaycandan ayrılmasının mümkünlüyü ideyasının özünü, yaxud gələcəkdə nə vaxtsa Dağlıq Qarabağın müstəqil statusunun mümkünlüyünü qəbul etmir. Yəni, bu məsələ ümumiyyətlə müzakirə edilmir. Dağlıq Qarabağda keçirilmiş qondarma referenduma beynəlxalq ictimaiyyətin reaksiyası buna parlaq misaldır. Onu nə ATƏT tanımışdır, nə onun Minsk qrupu, nə Avropa İttifaqı, nə də Avropa Şurası. Heç kim tanınamışdır.

Erməni separatçıları və onların əlaltıları dünya ictimai fikrinin nəzərində özlərini bir daha rüsvay etdilər. Buna görə də Kosovo probleminin tənzimlənməsinin nə ilə nəticələnəcəyindən asılı olmayaraq, bu, Dağlıq Qarabağ münaqişəsinin həllinə heç bir şəkildə təsir göstərməyəcəkdir. Bu münaqişə yalnız ərazi bütövlüyünün bərpa edilməsi, bütün qaçqın-köçkünlərin, – onların sayı isə bir milyondan çoxdur, – daimi yaşayış yerlərinə qaytarılması, Dağlıq Qarabağdan da qovulmuş azərbaycanlıların oraya qaytarılması, bu gün Dağlıq Qarabağda yaşayanlara və oraya qayıdacaq şəxslərə geniş muxtariyyət verilməsi yolu ilə tənzimlənə bilər. Bu, sivilizasiyalı yanaşmadır. Bu, hüquqi normalara, normal insan davranışına əsaslanan yanaşmadır.

Ermənistan tərəfi XXI əsr üçün yox, daha çox orta əsrlər üçün səciyyəvi olan mövqelərdən çıxış edir. Biz isə XXI əsrdə yaşayırıq. Onlar sivilizasiyalı dünyanın bir hissəsi olmaq istəyirlər. Hər halda, bunu boyan edirlər. Lakin bu siyasətlə onlar buna necə nail olacaqlar? Ona görə də mən burada əlaqə görmürəm və bunu əsas götürürəm ki, Azərbaycanın ərazi bütövlüyü istənilən şəraitdə bərpa ediləcəkdir. Əlbəttə, istərdik ki, bu, sülh yolu ilə olsun. Heç kəs yeni qurbanlar və zoraklıq istəmir. Lakin eyni zamanda, belə vəziyyətlə də barışmaq olmaz.

MÜXBİR: Müsahibə üçün çox sağ olun.

AZƏRBAYCANIN XARİCİ İŞLƏR NAZİRİ BRÜSSELDƏ SƏFƏRDƏDİR

Sentyabrın 3-də Xarici İşlər Nazirliyində (XİN) jurnalistlər üçün növbəti həftəlik brifinq keçirilmişdir.

XİN mətbuat mərkəzinin rəhbəri Xəzər İbrahim ötən həftə dövlətimizin xarici siyasi həyatında baş vermiş əhəmiyyətli hadisələrdən və gerçəkləşdirilmiş səfərlərdən danışaraq nazir Elmar Məmmədyarovun hazırda Brüsseldə Avropa İttifaqının yeni qonşuluq siyasəti ilə bağlı konfransında iştirak etdiyini bildirmiş və burada keçirdiyi ikitərəfli görüşlər haqqında ətraflı məlumat vermişdir.

Bildirilmişdir ki, E.Məmmədyarov sentyabrın 2-də Polşa və Litvanın xarici işlər nazirləri ilə görüşmüşdür. Ayın 3-də isə Azərbaycanın xarici işlər naziri estoniyalı və çexiyalı həmkarları ilə, habelə Avropa Komissiyasının xarici əlaqələr və Avropa qonşuluq si-

yasəti üzrə komissarı xanım Benita Ferrero Valdner və ATƏT-in Minsk qrupunun həmsədrləri ilə danışıqlar aparmışdır.

X.İbrahim bu həftə XİN rəhbərliyi tərəfindən reallaşdırılacaq səfərlər haqqında danışaraq jurnalistlərin suallarını cavablandırmışdır.

AZƏRBAYCANIN XARİCİ İŞLƏR NAZİRİ BRÜSSELDƏ KEÇİRİLƏN BEYNƏLXALQ KONFRANSDA ÇIXIŞ ETMİŞDİR

Brüsseldə işgüzar səfərdə olan xarici işlər naziri Elmar Məmmədyarov sentyabrın 3-də Avropa Komissiyasının təşəbbüsü ilə keçirilən "Birlikdə işləyərək - Avropa Qonşuluq Siyasətini gücləndirək" adlı beynəlxalq konfransda çıxış edərək, Azərbaycanın Avropa Qonşuluq Siyasətini (AQS) yüksək qiymətləndirdiyini və bu çərçivədə əməkdaşlığın gücləndirilməsinin vacibliyini vurğulamışdır.

E.Məmmədyarov Avropa İttifaqı (Aİ)-Azərbaycan fəaliyyət planının ölkəmizdə həyata keçirilən islahatlar strategiyasına daxil olduğunu qeyd edərək, Qonşuluq Siyasətinin daha da təkmilləşdirilməsinə dair təkliflərini bildirmişdir.

Brüsselə səfəri çərçivəsində E.Məmmədyarov Avropa Komissiyasının xarici əlaqələr və Avropa Qonşuluq Siyasəti üzrə komissarı xanım Benita Ferrero Valdner ilə görüşmüşdür. Görüşdə Aİ ilə Azərbaycanın əməkdaşlığının hazırkı vəziyyəti müzakirə edilmiş və ikitərəfli münasibətlərin inkişafına dair fikir mübadiləsi aparılmışdır.

E.Məmmədyarov Çexiya və Estoniyanın xarici işlər nazirləri ilə də ikitərəfli görüşlər keçirmişdir.

Sentyabrın 3-də E.Məmmədyarov ATƏT-in Minsk qrupunun rusiyalı və fransalı həmsədrləri ilə də görüşmüşdür. Görüşdə Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli ilə bağlı aparılan danışıqların hazırkı durumu və tənzimlənmə prosesinin əsas prinsipləri müzakirə edilmiş, həmçinin həmsədrlərin bölgəyə sentyabrın ortalarında gözlənilən növbəti səfərinin tarixləri nəzərdən keçirilmişdir.

AZƏRBAYCANIN XARİCİ İŞLƏR NAZİRİ NATO-NUN MƏNZİL-QƏRARGAHINDA OLMUŞDUR

Xarici işlər naziri Elmar Məmmədyarov sentyabrın 4-də Brüsselə işgüzar səfəri çərçivəsində NATO-nun mənzil-qərargahında olmuşdur.

Səfər çərçivəsində E.Məmmədyarov NATO baş katibinin Cənubi Qafqaz və Orta Asiya üzrə xüsusi nümayəndəsi Robert Simmonsla görüşmüşdür.

Görüşdə ikitərəfli əməkdaşlığın daha da inkişaf etdirilməsi, fərdi tərəfdaşlıq üzrə əməliyyat planının yerinə yetirilməsi, Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi, regionda ümumi təhlükəsizliyin vəziyyəti və qarşılıqlı maraq doğuran digər məsələlər müzakirə olunmuşdur.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV CƏNUBİ KOREYANIN "GS E&S" ŞİRKƏTİNİN NÜMAYƏNDƏ HEYƏTİNİ QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 5-də Prezident sarayında Cənubi Koreyanın "GS E&S" şirkətinin nümayəndə heyətini qəbul etmişdir.

Dövlətimizin başçısı Qaradağ rayonunun Ələt qəsəbəsində inşa olunacaq yeni dəniz limanı ilə bağlı məsələlərin müzakirə olunduğu görüşü açaraq dedi: "Beləliklə, təqdimata başlaya bilərik. Artıq xeyli vaxtdır ki, bu layihə müzakirə olunur. Biz şəhərin mərkəzindəki dəniz limanını oradan köçürməyi planlaşdırırıq. O, yeni, daha geniş sahəyə köçürüləcəkdir. Mən çox şadam ki, "GS E&S" şirkəti bu cür gözəl layihə hazırlamışdır. Ümid edirəm ki, layihənin həyata keçirilməsi çox qısa müddətdə başa çatdırılacaqdır. Nəqliyyat və daşıma imkanlarımızın genişləndirilməsi bizim üçün əhəmiyyətlidir. Ölkəmiz vasitəsilə bir çox mallar daşınır. Azərbaycanı Avropa ilə birləşdirəcək yeni dəmir yolu xətti istifadəyə veriləndə daşınan yüklərin həcmi gözəçarpan dərəcədə artacaqdır. Bundan əlavə, bu limanın başqa yerə köçürülməsinin məqsədlərindən biri də Dənizkənarı Milli parkın genişləndirilməsidir. Biz buna qısa müddət ərzində nail olmalıyıq. Gəlin, hazırlanmış materiala baxaq". Sonra layihənin kompyuter qrafikası ilə hazırlanmış variantı nümayiş etdirildi.

Şirkətin vitse-prezidenti Azərbaycanda həyata keçirmək istədikləri layihənin əhəmiyyətindən danışarkən, özlərinin bu sahədəki təcrübəsindən də bəhs etdi. Bildirildi ki, şirkət artıq bir neçə ildir ki, dünyanın bir çox ölkələrində bu tipli layihələrin icrasında yaxından iştirak edir. Hazırda dünyanın 28 ölkəsində şirkətin nümayəndəlikləri fəaliyyət göstərir və 6 min peşəkar mühəndis heyəti çalışır. Şirkətin layihələri beynəlxalq standartlara uyğundur. Ələt qəsəbəsində inşa olunacaq yeni dəniz limanı həm kommersiya, həm istehsalat, həm də daşıma əməliyyatlarının həyata keçirilməsi baxımından böyük əhəmiyyətə malikdir. Bu layihə ekoloji cəhətdən də yüksək tələblərə cavab verir.

Ölkəmizin layihənin icrasına cəlb olunmuş müvafiq qurumlarının rəhbərləri də öz təkliflərini verdilər. Bildirildi ki, layihə bir çox özəlliklərinə görə diqqəti cəlb edir. Bu, ilk növbədə, Azərbaycanda gəmiçiliyin inkişafına öz töhfəsini verəcəkdir. Bundan əlavə, ölkəmizin sənaye potensialının gücləndirilməsində də bu layihənin öz rolu var. Ələt qəsəbəsinin olduğu ərazidə öz imkanlarına görə dünyada məşhur olan Səngəçal neft terminalı yerləşir. Orada yeni elektrik stansiyası da tikilir. Bütün bunlar nəzərə alınmaqla, dəniz limanının tikilməsi Ələt qəsəbəsinin inkişafında yeni mərhələ olacaqdır. Layihənin icrası həm də Qaradağ rayonunun sosial-iqtisadi tərəqqisinə, xüsusilə də Azərbaycanın xarici iqtisadi əlaqələrinin inkişafına öz töhfəsini verəcəkdir. Layihənin icrası nəticəsində yüzlərlə yeni iş yerləri açılacaqdır. Əvvəlkindən fərqli olaraq, yeni liman daha böyük ərazidə yerləşəcək və yüksək beynəlxalq standartlara cavab verəcəkdir. Köhnə limanın fəaliyyətini dayandırması ilə Dənizkənarı Milli parkın ərazisi genişləndiriləcək, burada ekoloji vəziyyət yaxşılaşacaq, geniş abadlıq-quruculuq işləri aparılacaq, paytaxt sakinlərinin istirahətinin daha yaxşı təşkili üçün hər cür şərait yaradılacaqdır.

Prezident İlham Əliyev Cənubi Koreya ilə Azərbaycan arasında qarşılıqlı səfərlərin əhəmiyyətini bir daha vurğuladı, bildirdi ki, siyasi və iqtisadi sahədə əməkdaşlıq əlaqələri inkişaf edir. Bu ilin aprelində Cənubi Koreyaya dövlət səfərini xatırladan Prezident

İlham Əliyev həmin vaxtdan ikitərəfli əməkdaşlıq əlaqələrinin yeni mərhələyə daxil olduğunu dedi. Dövlətimizin başçısı bildirdi ki, Ələt qəsəbəsində yeni dəniz limanının inşası Koreya-Azərbaycan iqtisadi əlaqələrinin inkişafına öz töhfəsini verəcəkdir.

Dövlətimizin başçısı layihənin icrası, işlərin yüksək səviyyədə yerinə yetirilməsi ilə bağlı tapşırıq və tövsiyələrini verdi.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV AVROPA ŞURASININ İNSAN HÜQUQLARI ÜZRƏ KOMİSSARI TOMAS HAMMARBERQİN RƏHBƏRLİK ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİNİ QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 5-də Prezident sarayında Avropa Şurasının insan hüquqları üzrə komissarı Tomas Hammarberqin rəhbərlik etdiyi nümayəndə heyətini qəbul etmişdir.

Tomas Hammarberq Azərbaycana səfərinin uğurla keçdiyini bildirərək, səfəri çərçivəsində ölkəmizin müxtəlif nazirliklərində çox səmimi və səmərəli müzakirələr apardığını qeyd etdi.

Dövlətimizin başçısı bu səfərin Azərbaycanda gedən demokratikləşmə prosesləri ilə yaxından tanış olmaq üçün yaxşı imkan yaratdığını bildirdi.

Görüşdə Azərbaycan ilə Avropa Şurası əməkdaşlığına dair fikir mübadiləsi aparıldı.

XORVATİYA DAĞLIQ QARABAĞ MÜNAQİŞƏSİNİN AZƏRBAYCANIN ƏRAZİ BÜTÖVLÜYÜ ÇƏRÇİVƏSİNDƏ HƏLLİNİN TƏRƏFDARIDIR

Xarici işlər naziri E.Məmmədyarov sentyabrın 5-də Xorvatiyaya rəsmi səfərə getmişdir.

E.Məmmədyarovun xorvatiyalı həmkarı xanım Kolinda Qrabar-Kitaroviç ilə təkbətək və geniş tərkibdə görüşü olmuşdur. Görüşdə 4 saziş layihəsi nəzərdən keçirilmiş, ikitərəfli, regional və beynəlxalq məsələlər müzakirə olunmuşdur. Xorvatiya rəsmisi ölkələrimizin siyasi münasibətlərinin yüksək səviyyəsinin iqtisadi əlaqələr ilə də gücləndirilməsinin vacibliyini söyləmişdir. Nazir E.Məmmədyarov isə həm də humanitar əlaqələrin vacibliyini diqqətə çatdırmışdır. Tərəflər Diplomatik Akademiyalar arasında əməkdaşlığın yollarını müzakirə etmişlər.

Nazirlərin keçirdiyi mətbuat konfransında Xorvatiya diplomatı Azərbaycanın ərazi bütövlüyünü tanıdığını bildirmiş və Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin Azərbaycanın ərazi bütövlüyü çərçivəsində sülh yolu ilə həll olunmasını dəstəklədiyini qeyd etmişdir.

Həmin gün nazir E.Məmmədyarov Xorvatiya Prezidenti Stepan Mesiç ilə görüşmüşdür. Görüşdə Balkanlarda vəziyyət, iqtisadi və siyasi məsələlər müzakirə olunmuş, ölkələrimizin Avropa İttifaqı və NATO ilə əlaqələri üzrə təcrübəsinin öyrənilməsinin əhəmiyyəti barədə fikir mübadiləsi aparılmışdır.

XARİCİ İŞLƏR NAZİRİNİN MÜAVİNİ İRAQIN TÜRKMƏN NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞMÜŞDÜR

Sentyabrın 5-də Xarici İşlər nazirinin müavini Xələf Xələfov İraqın Türkmən nümayəndə heyəti ilə görüşmüşdür.

Nazir müavini İraqda mövcud qeyri-sabitliyin, silahlı qarşıdurmanın Azərbaycanda narahatlıq doğurduğunu bildirmişdir. Qeyd etmişdir ki, ölkəmiz İraqda sabitlik və təhlükəsizliyin bərqərar olması üçün səylər göstərərək sülhməramlı qüvvələrini bölgəyə göndərmişdir.

X.Xələfov ölkəmizin bu regionda cərəyan edən proseslərə diqqət yetirdiyini bildirərək, İraq türkmənləri ilə tarixi, mədəni əlaqələrin, habelə din, dil, adət-ənənə birliyinin mövcudluğunu vurğulamışdır.

Natiq Azərbaycanın türkmənlərin İraq dövləti daxilində digər etniklərlə birgə bərabər hüquqlara malik olmaqla, sülh, əmin-amanlıq şəraitində yaşamasında və rifah halının yaxşılaşmasında maraqlı olduğunu nəzərə çarpdıraraq, qardaş xalqın taleyinə biganə qalmadığını bildirmişdir.

Nazir müavini ölkəmizin İordaniyadakı səfirinin həm də İraqda akkreditə olunduğunu və yaxın zamanda öz etimadnamələrini İraq hökumətinə təqdim edəcəyini, bundan sonra əlaqələrin inkişafı üçün daha geniş imkanların yaranacağını bildirmişdir.

İraqın Türkmən nümayəndə heyətinin üzvləri Azərbaycanın müstəqil dövlət kimi qüdrətlənməsindən, beynəlxalq aləmdə nüfuzunun artmasından məmnunluqlarını ifadə edərək, xalqlarımız arasında oxşar xüsusiyyətlərin əhəmiyyətini önə çəkmiş, bu tarixi əlaqələrin davam etdirilməsinin vacibliyini vurğulamışlar.

Qonaqlar hazırda üzləşdikləri çətinliklərin aradan qaldırılmasında qardaş xalqların hər cür dəstəyinə ehtiyac duyduqlarını bildirərək, təhsil, səhiyyə, humanitar sahədə əməkdaşlığın həyata keçirilməsinin vacibliyini qeyd etmişlər.

Görüşdə qarşılıqlı maraq doğuran digər məsələlər ətrafında da fikir mübadiləsi aparılmışdır.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV MDB-NİN İCRAİYYƏ KOMİTƏSİNİN SƏDRİ VLADİMİR RUŞAYLONU QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 6-da Prezident sarayında MDB-nin İcraiyyə Komitəsinin sədri Vladimir Ruşaylonu qəbul etmişdir.

Vladimir Ruşaylo MDB Daxili İşlər Nazirləri Şurasının Bakıdakı iclasının yüksək səviyyədə təşkil olunduğunu vurğuladı.

Dövlətimizin başçısı iclasın Azərbaycanda keçirilməsinin əhəmiyyətini qeyd edərək, bu tədbirin MDB-nin üzvü olan ölkələrin hüquq mühafizə orqanları arasında əməkdaşlığın daha da genişləndirilməsi işinə xidmət etdiyini bildirdi.

Görüşdə MDB çərçivəsində əməkdaşlığa dair fikir mübadiləsi aparıldı.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV GÖRKƏMLİ ALİM VƏ İCTİMAİ XADİM CAVAD HEYƏTİ QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 6-da Prezident sarayında məşhur soydaşımız, görkəmli alim və ictimai xadim, İranda nəşr olunan "Varlıq" jurnalının baş redaktoru, Fransa Beynəlxalq Cərrahlar Akademiyasının üzvü, Bakı Dövlət Universitetinin və Azərbaycan Tibb Universitetinin fəxri doktoru Cavad Heyəti qəbul etmişdir.

Doktor Cavad Heyət Bakıya növbəti səfərindən, Azərbaycan Prezidenti ilə yenidən görüşməsindən böyük məmnunluq duyduğunu bildirdi və ölkəmizin sürətli inkişafının, tərəqqisinin şahidi olduğunu söylədi.

Ümummilli lider Heydər Əliyev ilə görüşlərini həmişə məhəbbətlə xatırladığını deyən doktor Cavad Heyət onun siyasətinin bu gün də uğurla davam etdirilməsinin əhəmiyyətini vurğuladı.

Prezident İlham Əliyev doktor Cavad Heyətin çoxşaxəli fəaliyyətini yüksək qiymətləndirdi və ona möhkəm cansağlığı, gələcək işlərində uğurlar dilədi.

AZƏRBAYCAN PARLAMENTİ NÜMAYƏNDƏ HEYƏTİNİN KOREYA RESPUBLİKASINA RƏSMİ SƏFƏRİ

Milli Məclisin sədri Oqtay Əsədovun başçılıq etdiyi nümayəndə heyəti 4-6 sentyabr tarixlərində Koreya Respublikasında rəsmi səfərdə olmuşdur.

Milli Məclisin sədri Oqtay Əsədovu elə həmin gün Koreya Respublikasının Prezidenti Roh Mu-hyun qəbul etmişdir.

Azərbaycan parlament nümayəndə heyətini səmimi qarşılayan Koreya Respublikasının Prezidenti son vaxtlar ölkələrimiz arasında intensiv inkişaf edən əlaqələri yüksək qiymətləndirmiş, respublikamızla siyasi, iqtisadi, mədəni və digər sahələrdə əməkdaşlığa böyük önəm verdiklərini diqqətə çatdırmışdır. Prezident bölgənin lider dövlətinə çevrilmiş Azərbaycana dünyanın böyük maraq göstərdiyini bildirmişdir. Ötən ilin mayında ölkəmizə səfəri ilə bağlı təəssüratlarını bölüşən Prezident Roh Mu-hyun bu ilin aprelində Azərbaycan Prezidenti İlham Əliyevin Koreya Respublikasına rəsmi səfərinin ikitərəfli münasibətlərin inkişafında yeni səhifələr açdığını söyləmişdir.

Səmimi qəbula görə Koreya dövlətinin başçısına minnətdarlığını bildirən Oqtay Əsədov Prezident İlham Əliyevin salamlarını və xoş arzularını Prezident Roh Mu-hyuna çatdırmışdır. Koreya Respublikası Prezidentinin Azərbaycana rəsmi səfəri çərçivəsində Milli Məclisdə keçirdiyi görüşü yada salan spiker O.Əsədov, dövlətlərimizin başçılarının səyləri nəticəsində ölkələrimiz arasında dostluq və əməkdaşlıq münasibətlərinin genişlənməsi istiqamətində mühüm addımlar atıldığını söyləmişdir. Qeyd edilmişdir ki, siyasi, iqtisadi, energetika, nəqliyyat, ticarət və mədəniyyət sahələrində əlaqələrimizin intensivləşməsi dövlətlərimiz və xalqlarımız üçün faydalı olacaqdır. Ölkələrimiz arasında iqtisadi əməkdaşlıq üzrə komissiya fəaliyyət göstərir. Azərbaycan-Koreya biznes forumları müntəzəm xarakter almağa başlamışdır.

Görüşdə Milli Məclisin sədri onu da qeyd etmişdir ki, 2006-cı ildə ölkələrimiz arasında ticarət dövriyyəsinin həcmi təqribən 110 milyon ABŞ dolları təşkil etmişdir. Cari ilin altı ayında isə bu rəqəm 157 milyon ABŞ dollarından çox olmuşdur. Koreyanın bir sıra şirkətləri Azərbaycanda uğurla fəaliyyət göstərir. Bu yaxınlarda Koreya Respublikasının Milli Neft Korporasiyası Xəzər dənizinin Azərbaycan sektorunda yerləşən "İnam" neft yatağının işlənilməsi Sazişində 20 faizlik paya sahib olmuşdur.

Koreya Respublikasının Prezidenti ilə görüşdə ölkəmizin iqtisadi inkişafı, bölgədəki mövqeyi, Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi və digər məsələlər ətrafında fikir mübadiləsi aparılmışdır.

Sentyabrın 4-də Milli Məclisin sədri Oqtay Əsədov Koreya Respublikası Milli Assambleyasının sədri Lim Çae-Çunq ilə də görüşmüşdür.

Azərbaycan parlamentinin nümayəndə heyəti ilə görüşdən məmnunluğunu bildirən Koreya Respublikası parlamentinin rəhbəri bu səfərin əhəmiyyətini yüksək dəyərləndirmişdir. Lim Çae-Çunq qeyd etmişdir ki, ölkələrimiz arasında münasibətlərin qədim tarixi kökləri vardır. Son vaxtlar bu əlaqələr daha intensiv xarakter almışdır. Dövlətlərimizin başçılarının qarşılıqlı səfərləri əməkdaşlıq əlaqələrimizin dərinləşməsinə yeni impuls vermiş, perspektivləri müəyyənləşdirmişdir. Ölkəmizin iqtisadi inkişaf templəri barədə ətraflı məlumata malik olduğunu vurğulayan Lim Çae-Çunq bu inkişafın daha sürətlə davam edəcəyinə və Azərbaycanın dünya birliyində layiqli yer tutacağına inamını bildirmişdir. O Azərbaycanın bölgədə çox vacib rola malik olduğunu, respublikamızla hər sahədə təcrübə mübadiləsi aparmağın əhəmiyyətini qeyd etmişdir.

Parlamentlərarası əlaqələrə toxunan Koreya Respublikası Milli Assambleyasının sədri bu səfərin ölkələrimizin qanunverici orqanları arasındakı münasibətlərin dərinləşməsinə xüsusi töhfə verəcəyinə əmin olduğunu bildirmişdir.

Görüşdə onu Koreyaya rəsmi dəvət etdiyinə görə Lim Çae-Çunqa təşəkkürünü bildirən Oqtay Əsədov, Azərbaycan parlamentinin sədri kimi Şərqi Asiya regionuna, o cümlədən Koreya Respublikasına ilk rəsmi səfəri olduğunu diqqətə çatdırmışdır. Qeyd etmişdir ki, Koreya və Azərbaycan dövlətləri qarşılıqlı dostluq və əməkdaşlıq əlaqələrinin genişlənməsinə böyük əhəmiyyət verirlər. Ölkələrimiz arasında əməkdaşlığa dair indiyədək imzalanmış 35 sənəd ikitərəfli münasibətlərin inkişafına zəruri hüquqi təməl yaratmışdır. Koreya ilə Azərbaycan arasında əlaqələr bütün sahələrdə, o cümlədən ticarət-iqtisadi, energetika, nəqliyyat və digər sahələrdə sürətlə inkişaf edir. Azərbaycanın xarici investisiyalar üçün açıq olduğunu deyən Milli Məclisin sədri, bir sıra Koreya şirkətlərinin ölkəmizdə uğurlu fəaliyyət göstərdiyini və onlar üçün hər cür şərait yaradıldığını nəzərə çatdırmışdır.

Görüşdə parlamentlərarası əlaqələrin inkişaf perspektivlərindən geniş bəhs olunmuş, Azərbaycan və Koreya parlamentlərində dostluq qruplarının fəaliyyəti yüksək qiymətləndirilmiş, bu fəaliyyətin daha da intensivləşdirilməsinin vacibliyi qeyd olunmuşdur.

Milli Məclisin sədri koreyalı həmkarına Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi barədə də ətraflı məlumat vermiş, Ermənistanın təcavüzkar siyasətinin təkcə Azərbaycanın deyil, bütün regionun inkişafına əngəl törətdiyini bildirmişdir.

Söhbətdə Azərbaycanın haqq işinin tezliklə qələbə çalacağına inam ifadə olunmuşdur.

Sonra qarşılıqlı maraq doğuran bir sıra məsələlər ətrafında fikir mübadiləsi aparılmışdır. Oqtay Əsədov koreyalı həmkarını Azərbaycana səfərə dəvət etmişdir.

Elə həmin gün Azərbaycan parlamentinin nümayəndə heyəti Koreya Elektrik Enerjisi Korporasiyasında olmuşdur.

Korporasiyanın prezidenti Li Von-Qul rəhbərlik etdiyi müəssisə barədə ətraflı məlumat vermiş və ölkəmizlə iş birliyi qurmaqda maraqlı olduqlarını söyləmişdir. İki il öncə nazir müavini işlədiyi dövrdə 70 nəfərlik heyətlə Azərbaycana səfər etdiklərini və böyük iqtisadi yüksəlişin şahidi olduqlarını bildirmişdir. Hazırda isə təmsil etdiyi şirkətin Azərbaycanda 700 meqavatt gücündə elektrik stansiyasının tikilməsinə dair İqtisadi İnkişaf Nazirliyi ilə memorandum imzaladığını diqqətə çatdırmışdır. Bildirmişdir ki, Azərbaycanla Koreya arasında bütün sahələrdə olduğu kimi, energetika sahəsində də sıx əməkdaşlığa və təcrübə mübadiləsinə geniş imkanlar vardır.

Milli Məclisin sədri Oqtay Əsədov yaxın vaxtlarda həmin layihənin gerçəkləşəcəyinə ümidvar olduğunu bildirmişdir. O, Koreya-Azərbaycan əlaqələrinin çoxşaxəli inkişafını yüksək qiymətləndirmiş və Azərbaycan parlamentinin hər sahədə əməkdaşlığı dəstəklədiyini söyləmişdir.

Görüşdə ikitərəfli iqtisadi münasibətlərlə bağlı bir sıra məsələlər ətrafında fikir mübadiləsi aparılmışdır.

Milli Məclisin sədri Oqtay Əsədovun Koreya Respublikasına rəsmi səfəri çərçivəsində növbəti görüşü sentyabrın 5-də bu ölkənin Xarici İşlər və Xarici Ticarət Nazirliyində olmuşdur.

Azərbaycan parlamenti nümayəndə heyətinin Koreya Respublikasına səfərinin əhəmiyyətini yüksək qiymətləndirən nazir müavini Ço Canq-Pyo Milli Məclisin sədri Oqtay Əsədovla görüşdən məmnunluğunu bildirmişdir. Qeyd etmişdir ki, Koreyada Azərbaycana böyük maraq vardır və ölkəmizdə gedən iqtisadi yüksəlişi yaxından izləyirik. İnanırıq ki, təbii sərvətlərindən səmərəli istifadə edən Azərbaycan gündən-günə tərəqqi edərək dünyanın qabaqcıl ölkələri sırasında addımlayacaqdır. Nazir müavini demişdir ki, müşahidələrimiz bizə belə qənaətə gəlməyə əsas verir və Azərbaycanda həyata keçirilən daxili və xarici siyasəti bəyənirik.

Milli Məclisin sədri Oqtay Əsədov Azərbaycan parlamenti nümayəndə heyətinin bu ölkədə keçirdiyi görüşlərdən və aparılan danışıqlardan razılığını bildirmiş, qarşılıqlı səfərlərin ölkələrimiz arasında dostluq və əməkdaşlıq münasibətlərini dərinləşdirəcəyinə əminliyini ifadə etmişdir. Hazırki səfərin də ikitərəfli əlaqələrin inkişafında xüsusi rol oynayacağını qeyd edən Oqtay Əsədov, Azərbaycan ilə Koreyanın bir çox sahələrdə olduğu kimi, diplomatik sahədə də əməkdaşlığının inkişaf etdiyini vurğulamışdır.

İqtisadi əlaqələrə toxunan O.Əsədov bildirmişdir ki, Azərbaycan xarici sərmayədarlar üçün açıq ölkədir, burada hökumət tərəfindən həyata keçirilən "açıq qapı" siyasəti məhz xarici investisiyaların gəlməsinə şərait yaratmaq məqsədi daşıyır. Xarici investorların hüquq və mənafelərinin qorunması, mülkiyyətin toxunulmazlığının təmin edilməsi, yerli və xarici sahibkarlara eyni iş şəraitinin yaradılması, əldə edilmiş mənfəətdən maneəsiz istifadə olunması ilə bağlı Azərbaycan parlamentində mühüm qanunlar qəbul edilmişdir. Oqtay Əsədov siyasi, iqtisadi, mədəni və digər sahələrdə əməkdaşlığın in-

tensivləşdirilməsinin, parlamentlərarası əlaqələrin daha da inkişaf etdirilməsinin vacibliyini vurğulamışdır.

Görüşdə tərəfləri maraqlandıran məsələlər ətrafında fikir mübadiləsi aparılmışdır. Səfər çərçivəsində Azərbaycan parlamenti nümayəndə heyəti bir sıra şirkətlərin işi ilə maraqlanmış, qazla da işləyən "Nyu-İnçoen" Elektrik Stansiyasında və Seul Şəhər Nəqliyyatının İdarə Olunması Mərkəzində olmuş, bu şirkətlərin fəaliyyəti barədə qonaqlara ətraflı məlumat verilmişdir.

Seuldan təxminən 30 kilometr kənarda yerləşən "Nyu-İnçoen" dünyada bənzəri olmayan stansiyalardan biridir. Stansiyanın gücü 1800 meqavattdır. Stansiyanın yerləşdiyi ərazidə ekologiyanın qorunmasına xüsusi önəm verilir.

Koreya paytaxtında avtomobil nəqliyyatı ilə bağlı bütün sistemin idarə olunmasını özündə cəmləşdirən mərkəz isə Seulun çox vacib strukturlarından biridir. Şirkəti şəhərin nəqliyyat sisteminin "düşünən beyini" adlandırırlar.

Nümayəndə heyətimiz hər iki şirkətin fəaliyyəti ilə bağlı fikir mübadiləsi aparmışdır.

Milli Məclisin sədri Oqtay Əsədovun başçılığı ilə Azərbaycan parlamenti nümayəndə heyəti Koreya Respublikasına rəsmi səfərin sonuncu günü - sentyabrın 6-da bir neçə görüşlər keçirmişdir.

Azərbaycan parlamenti nümayəndə heyəti ölkəmizin Koreya Respublikasındakı səfirliyində olmuşdur. Milli Məclisin sədri Oqtay Əsədov səfirliyin əməkdaşlarının qayğı və problemləri ilə maraqlanmış, tövsiyələrini vermişdir. O.Əsədov Azərbaycanla Koreya arasındakı ikitərəfli əlaqələrin daha da inkişaf etdirilməsi üçün diplomatik münasibətlərin intensivləşdirilməsinin və səfirliyin bu işdə daha fəal mövqe tutmasının vacibliyini bildirmişdir.

Azərbaycan parlamenti nümayəndə heyəti Koreyanın Ticarət-İnvestisiya Təşviqi Agentliyində də olmuşdur. Agentliyin fəaliyyəti barədə qonaqlara ətraflı məlumat verilmiş və qurumun Azərbaycanda İxracın və İnvestisiyaların Təşviqi Fondu ilə əməkdaşlıq etdiyi bildirilmişdir.

Sentyabrın 6-da Milli Məclisin sədri Oqtay Əsədovun başçılığı ilə parlament nümayəndə heyətinin Koreyaya rəsmi səfəri başa çatmışdır.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV BEYNƏLXALQ ENERJİ AGENTLİYİNİN İCRAÇI DİREKTORUNUN MÜAVİNİ UİLYAM RAMSEYİN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİNİ QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 11-də Prezident sarayında Beynəlxalq Enerji Agentliyinin icraçı direktorunun müavini Uilyam Ramseyin başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.

Görüşdə son zamanlar Azərbaycanın təşəbbüsü və iştirakı ilə həyata keçirilən qlobal enerji layihələri, Xəzər hövzəsi regionunda enerji təhlükəsizliyinin bəzi aspektləri, Azərbaycanın beynəlxalq enerji əməkdaşlığındakı rolu və gələcək perspektivləri müzakirə olunmuşdur.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV DÜNYA BANKININ AVROPA VƏ MƏRKƏZİ ASİYA REGİONU ÜZRƏ DAVAMLI İNKİŞAF SEKTORUNUN DİREKTORU PETER TOMSONUN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİNİ QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 11-də Prezident sarayında Dünya Bankının Avropa və Mərkəzi Asiya regionu üzrə Davamlı inkişaf sektorunun direktoru Peter Tomsonun başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.

Azərbaycanın Dünya Bankı ilə uğurlu əməkdaşlıq etməsinə böyük əhəmiyyət verdiyini deyən dövlətimizin başçısı bu əməkdaşlığın ölkəmizin ümumi inkişafındakı rolunu xüsusi qeyd etdi.

Prezident İlham Əliyev ölkəmizdə iqtisadi inkişafın sürətlə getdiyini vurğulayaraq, bu sahədə çoxlu yeni planların olduğunu da məmnunluqla bildirdi.

Azərbaycanda iqtisadi sahədə əldə olunan nailiyyətlərin Dünya Bankı tərəfindən maraqla izlənildiyini deyən qonaq ölkəmizlə əməkdaşlığın bundan sonra da uğurla inkişaf edəcəyinə ümidvar olduğunu bildirdi.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV İRAN-AZƏRBAYCAN DOSTLUQ QRUPUNUN SƏDRİ ƏHƏD QƏZAİNİN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİNİ QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 12-də Prezident sarayında İran-Azərbaycan Dostluq qrupunun sədri Əhəd Qəzainin başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.

Əhəd Qəzai ölkələrimiz arasında əlaqələrin müxtəlif sahələrdə inkişaf etdiyini bildirdi və qeyd etdi ki, İran parlamentində fəaliyyət göstərən İran-Azərbaycan Dostluq qrupu parlamentlərarası əməkdaşlığın genişlənməsinə öz töhfəsini verir. Qonaq İran Prezidenti Mahmud Əhmədinejadın Azərbaycana sonuncu səfərinin uğurla keçdiyini və bu səfərin ölkəsində böyük maraqla izlənildiyini dedi.

Prezident İlham Əliyev Azərbaycan-İran ikitərəfli münasibətlərin uğurla inkişaf etdiyini bildirdi. O, İran Prezidenti Mahmud Əhmədinejadın Azərbaycana səfərinin əlaqələrimizin daha da genişlənməsi baxımından əhəmiyyətini vurğuladı. Dövlətimizin başçısı qeyd etdi ki, İran-Azərbaycan Dostluq qrupu sədrinin ölkəmizə bu səfəri parlamentlərarası əməkdaşlığımızın daha da inkişafına xidmət edəcəkdir.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV AVROPA İTTİFAQININ CƏNUBİ QAFQAZ PARLAMENTLƏRARASI ƏMƏKDAŞLIQ KOMİTƏSİNİN HƏMSƏDRİ XANIM MARİ ANN İSLER BEQƏNİN RƏHBƏRLİK ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİNİ QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 12-də Prezident sarayında Avropa İttifaqının Cənubi Qafqaz Parlamentlərarası Əməkdaşlıq Komitəsinin həmsədri xanım Mari Ann İsler Beqənin rəhbərlik etdiyi nümayəndə heyətini qəbul etmişdir.

Görüşdə Azərbaycan-Avropa İttifaqı əlaqələri, parlamentlərarası əməkdaşlıq məsələlərinin müxtəlif sahələrinə dair fikir mübadiləsi aparılmışdır.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN LİTVAYA RƏSMİ SƏFƏRİ

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 13-də Litvaya rəsmi səfərə gəlmişdir.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN VƏ LİTVA PREZİDENTİ VALDAS ADAMKUSUN TƏKBƏTƏK GÖRÜŞÜ

Sentyabrın 13-də Litva Prezidentinin sarayında Azərbaycan Prezidenti İlham Əliyevin və Litva Prezidenti Valdas Adamkusun təkbətək görüşü olmuşdur.

Dövlət başçıları Litva-Azərbaycan əlaqələrinin bütün sahələrdə uğurla inkişafını qeyd edərək, münasibətlərin genişlənməsində iki ölkənin prezidentlərinin qarşılıqlı səfərlərinin mühüm rolunu vurğuladılar.

Azərbaycanla Litva arasında Avropa və Şimali Atlantika strukturlarına inteqrasiya sahəsində əlverişli əməkdaşlıq yarandığı, iqtisadi layihələrin reallaşdırılmasında qarşılıqlı marağın olduğu bildirildi.

Görüşdə qarşılıqlı maraq doğuran bir sıra məsələlər müzakirə edildi.

DÖVLƏT BAŞÇILARININ GENİŞ TƏRKİBDƏ GÖRÜŞÜ

Sentyabrın 13-də, Azərbaycan və Litva prezidentlərinin təkbətək görüşündən sonra dövlət başçılarının nümayəndə heyətlərinin iştirakı ilə geniş tərkibdə görüşü keçirilmişdir.

Görüşdə ikitərəfli əlaqələrin, o cümlədən energetika sahəsində əməkdaşlığın genişləndirilməsi məsələlərinə dair ətraflı fikir mübadiləsi aparıldı.

Litva Prezidenti Valdas Adamkus Azərbaycan Prezidenti İlham Əliyevin Vilnüsə ilk rəsmi səfərini yüksək qiymətləndirərək dedi ki, ölkələrimiz arasında münasibətlər qısa müddətdə intensiv inkişaf etməyə başlamışdır. Ölkələrimiz arasında hansısa fikir ayrılığı yoxdur.

Litva rəhbəri vurğuladı ki, budəfəki dialoq oktyabr ayında Vilnüsdə keçiriləcək və Azərbaycanın dövlət başçısının da iştirak edəcəyi energetika sammitində davam etdiriləcəkdir.

Azərbaycan Prezidenti İlham Əliyev Litva Respublikasına ilk rəsmi səfərinin gedişində göstərilən qonaqpərvərliyə görə təşəkkürünü bildirərək dedi ki, biz Litva ilə münasibətlərə böyük əhəmiyyət veririk və bu münasibətlər son vaxtlar xeyli inkişaf etmişdir. Litva və Azərbaycan vahid mövqelərdən çıxış edirlər, ölkələrimiz arasında heç bir problem yoxdur və əlaqələrimiz yüksələn xətlə inkişaf edəcəkdir. Avratlantik strukturları ilə Azərbaycanın münasibətləri yüksək səviyyədədir. Litva Avratlantik strukturlarına inteqrasiyada Azərbaycanı dəstəkləyir və bizə kömək edir.

Görüşdə iki ölkə arasında iqtisadi əlaqələrin inkişaf etdirilməsi üçün siyasi iradənin olduğu vurğulandı, eyni zamanda bildirildi ki, bu əlaqələr, o cümlədən ticarət dövriyyəsinin həcmi tərəflərin mövcud potensialına uyğun gəlmir. Bu baxımdan səfər çərçivəsində keçiriləcək biznes forumunun əhəmiyyətli olacağı bildirildi. Səfirliklərin fəaliyyətə başlanması da iqtisadi əlaqələrin genişlənməsində müsbət rol oynayacaqdır.

SƏNƏDLƏRİN İMZALANMASI MƏRASİMİ

Sentyabrın 13-də, dövlət başçılarının geniş tərkibdə görüşü başa çatdıqdan sonra Azərbaycan Prezidenti İlham Əliyevin və Litva Prezidenti Valdas Adamkusun iştirakı ilə rəsmi sənədlərin imzalanma mərasimi olmuşdur.

Azərbaycan Prezidenti İlham Əliyev və Litva Prezidenti Valdas Adamkus Azərbaycan Respublikası və Litva Respublikası arasında tərəfdaşlıq münasibətlərinin inkişafı haqqında Birgə Bəyannamə imzaladılar.

Azərbaycan Respublikası Hökuməti ilə Litva Respublikası Hökuməti arasında mədəniyyət sahəsində əməkdaşlıq haqqında sazişi Azərbaycan tərəfdən mədəniyyət və turizm naziri Əbülfəs Qarayev, Litva tərəfdən mədəniyyət naziri Yonas Yuças imzaladılar.

Azərbaycan Respublikası Hökuməti və Litva Respublikası Hökuməti arasında informasiya və kommunikasiya texnologiyaları sahəsində əməkdaşlıq haqqında sazişi Azərbaycan tərəfdən xarici işlər naziri Elmar Məmmədyarov, Litva xarici işlər naziri Pyatras Vaytekunas imzaladılar.

Azərbaycan Respublikası Hökuməti və Litva Respublikası Hökuməti arasında turizm sahəsində əməkdaşlıq haqqında sazişi Azərbaycan tərəfdən mədəniyyət və turizm naziri Əbülfəs Qarayev, Litva tərəfdən xarici işlər naziri Pyatras Vaytekunas imzaladılar.

Azərbaycan Respublikasının Vergilər Nazirliyi və Litva Respublikasının Maliyyə Nazirliyi yanında Dövlət Vergi Müfəttişliyi arasında vergi məsələləri üzrə informasiya mübadiləsi haqqında sazişi Azərbaycan vergilər naziri Fazil Məmmədov, Litva tərəfdən Dövlət Vergi Müfəttişliyinin sədri Modestas Kaselyauskas imzaladılar.

AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN VƏ LİTVA RESPUBLİKASI PREZİDENTİNİN TƏRƏFDAŞLIQ MÜNASİBƏTLƏRİNİN İNKİŞAFI HAQQINDA BİRGƏ BƏYANNAMƏSİ

13 sentyabr 2007-ci il

Azərbaycan Respublikasının Prezidenti və Litva Respublikasının Prezidenti,

Azərbaycan Respublikasının Prezidenti Zati-Aliləri cənab İlham Əliyevin Litvaya 2007-ci ilin 13 sentyabrında həyata keçirilən tarixi səfərinin iki ölkə arasında ikitərəfli əlaqələrin dərinləşməsinə və dostluğun daha da genişlənməsinə töhfə verəcəyinə əminlik ifadə edərək,

Azərbaycan və Litva strateji tərəfdaşlığını gücləndirmək niyyətində olaraq və hər iki ölkənin regional və beynəlxalq səviyyədə rollarının əhəmiyyətini vurğulayaraq,

Azərbaycan-Litva siyasi, iqtisadi, hərbi və mədəni əlaqələrinin güclənməsinin və inkişafının hər iki dövlət, Baltik-Qara dəniz-Qafqaz regionu və bütün Avropa üçün əhəmiyyətini vurğulayaraq,

Müxtəlif beynəlxalq və regional təşkilatlar və qurumlar çərçivəsində iki ölkə arasında əməkdaşlığın əhəmiyyətini vurğulayaraq,

İki ölkə arasında iqtisadi əməkdaşlığın genişləndirilməsi prosesində Azərbaycan - Litva ticarət mübadiləsinin artırılması və diversifikasiyasının aparıcı faktor kimi əhəmiyyətini qeyd edərək,

Hər iki ölkədə səfirliklərin açılmasını alqışlayaraq,

2006-cı ilin iyun ayında imzalanmış Prezidentlərin Birgə Bəyannaməsində əks olunmuş əməkdaşlıq məqsədlərini təsdiq edərək,

bəyan edirlər:

- strateji tərəfdaşlığı gücləndirmək, siyasi və iqtisadi məsləhətləşmələri davam etdirmək məqsədilə, regional və qlobal təhlükəsizliyi gücləndirməyə yönəlmiş dialoqu canlandırmaq;

- ikitərəfli əlaqələrin təşviqinin təmin edilməsi üçün mövcud hüquqi çərçivəni genişləndirmək;

- BMT Nizamnaməsinin prinsiplərini, BMT-nin Təhlükəsizlik Şurasının müvafiq qətnamələrini və ATƏT-in Lissabon Sammitində qəbul edilmiş üç prinsipi tam dəstəkləyərək və onları rəhbər tutaraq, Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin beynəlxalq hüququn hamılıqla tanınmış prinsip və normaları əsasında, xüsusilə dövlətlərin suverenliyi, ərazi bütövlüyü və sərhədlərinin toxunulmazlığı prinsipləri əsasında sülh yolu ilə həll edilməsinin vacibliyini vurğulayırlar;

- Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin sülh yolu ilə həll edilməsi istiqamətində ATƏT çərçivəsində davam edən səyləri, həmçinin Minsk Qrupunun fəaliyyətinə istinad edərək bu istiqamətdə daha təsirli və qətiyyətli addımlar atılmasının əhəmiyyətini qeyd edirlər;

- BMT, ATƏT və digər beynəlxalq təşkilatlar çərçivəsində qarşılıqlı əməkdaşlığın səmərəliliyini artırmaq üçün səyləri davam etdirəcəklər. BMT-nin islahatlarına uyğun olaraq, beynəlxalq məsələlərdə təşkilatın səmərəliliyini və yeni çağırış və təhdidlərin qarşısında potensialından istifadəni artırmaqla, diqqət onun mərkəzi rolunun gücləndirilməsinə yönəldilməlidir;

- Avro-Atlantik Tərəfdaşlıq Şurası, NATO-nun "Sülh Naminə Tərəfdaşlıq" Proqramı, NATO-nun "Sülh Naminə Tərəfdaşlıq" Etimad Fondu və Azərbaycanın təqdim etdiyi "Fərdi Tərəfdaşlıq üzrə fəaliyyət planı" çərçivəsində sıx əməkdaşlığı və təcrübə mübadiləsini dəstəkləyirlər;

- Cənubi Qafqazda stabilliyi və təhlükəsizliyi artırmaq məqsədilə, hərbi və hərbi-texniki sahələrdə əməkdaşlıq etmək və ayrıca sazişlər əsasında hər iki dövlətin müvafiq qurumları arasında əlaqələrin inkişaf etdirilməsinə yardım göstərmək;

- ticarəti və iqtisadi əməkdaşlığı təşviq etmək və investisiyaların təşviqi də daxil olmaqla bütün növ biznes fəaliyyətləri üçün əlverişli hüquqi, institusional və digər şəraitləri

təmin etmək;

- enerji təhlükəsizliyinin vacibliyini vurğulayır və bununla əlaqədar Xəzər dənizi regionunun enerji ehtiyatlarının Avropanın enerji tələbatının təmin edilməsində artan və müsbət təsirinin hər iki tərəfin strateji maraqlarında olan rolunu qeyd edirlər;

- Avropa İttifaqı ilə Xəzər regionu arasında enerji əməkdaşlığı sahəsində əlaqələrin möhkəmləndirmək;

- Bakı-Tbilisi-Ceyhan və Bakı-Tbilisi-Ərzurum neft və qaz boru kəmərlərinin işə düşməsinin qlobal enerji təhlükəsizliyinə töhfə verəcəklərinə və region ölkələrinin davamlı iqtisadi inkişafına xidmət edəcəyinə inamlarını ifadə edirlər;

- Avropanın neft təchizatında mühüm rol oynayacaq Odessa-Brodı-Plodsk-Qdansk neft kəməri layihəsində iştirakın əhəmiyyətini vurğulayırlar;

- Avropa-Qafqaz-Asiya (TRASEKA) nəqliyyat dəhlizinin və VİKİNQ layihəsinin inkişafı naminə nəqliyyat və yük daşımaları istiqamətində həm regional, həm də ikitərəfli formatda əməkdaşlığı gücləndirmək. Bu layihələr Baltik, Xəzər və Qara dəniz regionlarında və ətrafda iqtisadi inkişaf, təhlükəsizlik və stabilliyinə mühüm töhfə verəcək;

- ətraf mühitin mühafizəsi sahəsində əməkdaşlıq etmək;

- gənclər və tələbələr mübadiləsi, kütləvi informasiya vasitələri və ümumilikdə cəmiyyətlər arasında əlaqələri genişləndirməklə mədəniyyət, elm, təhsil, səhiyyə və sosial müdafiə, insanlar arasında əlaqələrin artırılmasında əməkdaşlıq etmək;

- Azərbaycan və Litva dillərinin öyrənilməsinə və ədəbiyyatının yayılmasına, habelə elm, ədəbiyyat və incəsənət xadimləri arasında təmasların inkişaf etdirilməsində əməkdaşlıq etmək.

- dinlər və sivilizasiyalar arasında dialoqa şərait yaratmaq, həmçinin harmoniya, anlaşma, bir-birini yaxşı tanımaq və insan istedadının inkişafı üçün hər iki ölkədə mövcud olan Xristianlıq, İslam və digər mədəniyyətlər və dinlər arasında əlaqələri və anlaşmanı genişləndirmək.

Prezidentlər, Azərbaycan Respublikasının Avropa İttifaqına yaxınlaşmasında Avropa Qonşuluq Siyasətinin müsbət təsirini məmnuniyyətlə qeyd etdilər və Avropa Qonşuluq Siyasətinin Cənubi Qafqazda sabitlik və təhlükəsizliyin bərpa olunmasına töhfə verəcəyini vurğuladılar. Tərəflər, belə bir vahid mövqedən çıxış edirlər ki, Fəaliyyət Planının müddəalarının həyata keçirilməsi Azərbaycan Respublikası ilə Aİ-nin üzv dövlətləri arasında fəal əməkdaşlığa əsaslanmalıdır. Azərbaycan Respublikası Fəaliyyət Planının həyata keçirilməsində Litva Respublikasının Azərbaycan Respublikasına yardım etməyə hazır olduğunu alqışladı.

Vilnüs şəhərində, 13 sentyabr 2007-ci il tarixində, iki əsl nüsxədə İngilis dilində imzalanmışdır.

AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ	LİTVA RESPUBLİKASININ PREZİDENTİ
İLHAM ƏLİYEV	*VALDAS ADAMKUS*

AZƏRBAYCAN RESPUBLİKASI HÖKUMƏTİ VƏ LİTVA RESPUBLİKASI HÖKUMƏTİ ARASINDA MƏDƏNİYYƏT SAHƏSİNDƏ ƏMƏKDAŞLIQ HAQQINDA SAZİŞ

13 sentyabr 2007-ci il

Bundan sonra "Razılığa gələn Tərəflər" adlandırılan, Azərbaycan Respublikası Hökuməti və Litva Respublikası Hökuməti,

dostluq münasibətləri və mədəniyyət sahəsində gələcək əməkdaşlığı inkişaf etdirmək və gücləndirmək arzusunda olaraq,

mədəniyyət sahəsində əməkdaşlığın xalqlar arasındakı dostluğun və daha yaxşı anlaşmanın inkişafına kömək etdiyinə inanaraq,

aşağıdakılar barədə razılığa gəldilər:

MADDƏ 1

Razılığa gələn Tərəflər musiqi, teatr, kinematoqrafiya, rəssamlıq, kitabxana elmi və muzey elmi, tarixi və mədəni irs obyektlərinin mühafizəsi, həvəskar incəsənət, sənətkarlıq və digər mədəni fəaliyyət sahələrində mübadilələr və əməkdaşlığın inkişafı üçün əlverişli şərait yaradacaqlar.

MADDƏ 2

Razılığa gələn Tərəflər öz səlahiyyətləri daxilində və ikitərəfli layihələr əsasında teatr və musiqi ifaçı qruplarının qastrol və tamaşalarını, incəsənət obyektləri və muzey eksponatları sərgilərinin mübadiləsini, peşəkar və həvəskar incəsənət sahələrində festival, müsabiqə, konfrans, seminar və digər tədbirlərin təşkilini dəstəkləyəcəklər.

MADDƏ 3

Razılığa gələn Tərəflər öz səlahiyyətləri daxilində teatrlar, konsertlərin təşkili ilə məşğul olan təşkilatlar, mədəni irsin mühafizəsi üzrə təsisatlar, kitabxanalar, habelə digər mədəniyyət və incəsənət təsisatları arasında birbaşa əməkdaşlığı dəstəkləyəcəklər.

MADDƏ 4

Razılığa gələn Tərəflər yaradıcı birliklər, eləcə də mədəniyyət və incəsənət sahələrində fəaliyyət göstərən şəxslər arasında qarşılıqlı əlaqələrin inkişafına yardım göstərəcəklər.

MADDƏ 5

Razılığa gələn Tərəflər öz səlahiyyətləri daxilində mədəniyyət və incəsənət mütəxəssislərinin tanışlıq səfərlərini dəstəkləyəcəklər.

Razılığa gələn Tərəflər öz səlahiyyətləri daxilində digər ölkələrin mədəniyyət və incəsənət mütəxəssislərini hər iki ölkə tərəfindən təşkil olunmuş konqres, konfrans, festivallarda, habelə digər milli və beynəlxalq tədbirlərdə iştirak etmək üçün dəvət edəcəklər.

MADDƏ 6

Razılığa gələn Tərəflər hər iki ölkənin muzey və kitabxanalarında nümayiş etdirilən dəyərli mədəniyyət əşyaları ehtiyatlarına sənədlər, kitabxanalararası mübadilə, elektron kataloq və elektronik kitabxanalar vasitəsilə keçid üçün əlverişli imkanlar yaratmağı qarşılarına məqsəd qoyacaqlar.

MADDƏ 7

Razılığa gələn Tərəflər qeyri-qanuni ixrac olunmuş rəssamlıq əsərləri, daşına bilən qiymətli mədəniyyət əşyaları və antikvar əşyaların qaytarılmasında əməkdaşlıq edəcəklər.

MADDƏ 8

Razılığa gələn Tərəflər iki ölkə arasında kinematoqrafiya sahəsində, habelə film və digər vizual məhsulların mübadiləsi, festivallarda iştirak, reklam materialları, jurnal və bu sahədəki digər nəşrlərin mübadiləsində əməkdaşlığı dəstəkləyəcəklər.

MADDƏ 9

Razılığa gələn Tərəflər mədəniyyət və incəsənət sahələrində tədqiqatla bağlı məlumatların mübadiləsini aparacaq, habelə elmi mübadilələri və digər növ əməkdaşlığı dəstəkləyəcəklər.

MADDƏ 10

Razılığa gələn Tərəflər əqli mülkiyyət sahəsində, xüsusilə müəlliflik hüququnun və digər əlaqəli hüquqların qorunması və həyata keçirilməsi sahəsində əməkdaşlıq edəcəklər.

MADDƏ 11

Bu Saziş onun qüvvəyə minməsi üçün zəruri olan dövlətdaxili prosedurların yerinə yetirilməsi barədə Razılığa gələn Tərəflərin diplomatik kanallar vasitəsilə sonuncu yazılı bildirişin alındığı tarixdən qüvvəyə minir.

Bu Saziş, beş il müddətinə bağlanılır və Razılığa gələn Tərəflərdən biri bu Sazişin müddətinin bitməsinə ən azı altı ay qalmış onu ləğv etmək niyyəti barədə diplomatik kanallar vasitəsilə yazılı şəkildə digər Razılığa gələn Tərəfə məlumat verməzsə, onun qüvvəsi avtomatik olaraq növbəti beş illik müddətlərə uzadılacaqdır.

Razılığa gələn Tərəflərin qarşılıqlı razılığı ilə hazırkı Sazişə düzəliş və əlavələr edilə bilər. Belə əlavələr və dəyişikliklər bu Sazişin ayrılmaz hissəsi olan və bu Sazişin hazırkı maddəsinin 1-ci bəndində nəzərdə tutulan qaydada qüvvəyə minən ayrıca protokollar formasında rəsmiləşdiriləcək.

Razılığa gələn Tərəflər, başqa qayda barədə razılaşmadıqları təqdirdə, bu Sazişin xitam olunması onun qüvvədə olduğu müddət ərzində başlanmış lakin onun xitam olunmasına qədər başa çatmamış proqramların və layihələrin həyata keçirilməsinə təsir etməyəcəkdir.

Bu Saziş Vilnüs şəhərində 13 sentyabr 2007-ci il tarixində, Azərbaycan, Litva və İngilis dillərində iki nüsxədə imzalanmışdır və bütün mətnlər bərabər autentikdir.

Bu Sazişin təfsiri zamanı hər hansı fikir ayrılığı yarandığı təqdirdə ingilis dilindəki mətndən istifadə ediləcəkdir.

AZƏRBAYCAN RESPUBLİKASININ MƏDƏNİYYƏT VƏ TURİZM NAZİRİ	LİTVA RESPUBLİKASININ MƏDƏNİYYƏT NAZİRİ
ƏBÜLFƏS QARAYEV	*YONAS YUÇAS*

AZƏRBAYCAN RESPUBLİKASI VERGİLƏR NAZİRLİYİ VƏ LİTVA RESPUBLİKASI MALİYYƏ NAZİRLİYİ YANINDA DÖVLƏT VERGİ MÜFƏTTİŞLİYİ ARASINDA VERGİTUTMA MƏSƏLƏLƏRİ ÜZRƏ MƏLUMAT MÜBADİLƏSİ HAQQINDA SAZİŞ

13 sentyabr 2007-ci il

Bundan sonra "Tərəflər" adlandırılan Azərbaycan Respublikası Vergilər Nazirliyi və Litva Respublikasının Maliyyə Nazirliyi yanında Dövlət Vergi Müfəttişliyi Azərbaycan Respublikası Hökuməti ilə Litva Respublikası Hökuməti arasında gəlirlərə və əmlaka görə vergilərə münasibətdə ikiqat vergitutmanın aradan qaldırılması və vergitutmadan yayınmanın qarşısının alınması haqqında 02.04.2004-cü il tarixli Konvensiyanın (bundan sonra Konvensiya) 27-ci maddəsini ("İnformasiya mübadiləsi") və ümumilikdə Konvensiyanın müddəalarını rəhbər tutaraq,

Tərəflərin dövlətlərinin vergi qanunvericiliyinə əməl olunması məsələləri üzrə beynəlxalq əməkdaşlığın və qarşılıqlı yardımın mühümlüyünü nəzərə alaraq,

bu məqsədlə bir-birinə mümkün qədər daha geniş yardım göstərməyi arzulayaraq,

aşağıdakılar barədə razılığa gəldilər:

MADDƏ 1
ƏSAS ANLAYIŞLAR

Bu Sazişdə müvafiq olaraq Konvensiyanın əsas anlayışları tətbiq edilir.

MADDƏ 2
YARDIM GÖSTƏRİLMƏSİNİN FORMASI VƏ DİLLƏRİ

Tərəflər aşağıdakı formalarda bir-birinə yardım göstərirlər:

- yardım barədə sorğu;
- müntəzəm yardım;
- təşəbbüslü (spontan) yardım;
- eyni vaxtlı vergi yoxlamaları.

Yardım göstərilməsinin rəsmi dili ingilis dilidir. Tərəflər məlumatı ingilis dilinə tərcüməsi əlavə edilməklə Tərəflərin dövlət dilində təqdim etməyə hüquqları var.

MADDƏ 3
YARDIM BARƏDƏ SORĞU

Yardım barədə sorğu yazılı şəkildə poçt əlaqəsindən istifadə edilməklə aparılır. Yardım

barədə sorğunun və ya təqdim edilmiş məlumatın həqiqiliyi ilə bağlı şübhələr yarandıqda. Tərəflər baxılması üçün müvafiq materiallar əlavə olunmaqla həqiqiliyin təsdiq edilməsi üçün bir-birinə yazılı formada müraciət edə bilərlər.

Yardım barədə sorğuya aşağıdakılar daxil edilməlidir:

- sorğu edən vergi orqanının adı;
- sorğu edilən vergi orqanının adı;
- sorğunun səbəbi və məqsədi;
- barəsində sorğu edilən vergi ödəyicisinin adı və qeydiyyat məlumatları;
- baxılan dövr üzrə konkret vergi növləri və büdcəyə ödənilən digər məcburi ödənişlər göstərilməklə, sorğunun və onunla bağlı hüquqi şəraitin məğzinin qısa şərhi.

Sorğu edilən vergi orqanının alınmış yardım barədə sorğu üzrə əlavə məlumat tələb etmək hüququ vardır.

Sorğu edilən vergi orqanı sorğunun icrasını təmin etmək məqsədilə səlahiyyətləri çərçivəsində bütün zəruri tədbirləri həyata keçirir və sorğunu mümkün qədər qısa müddətdə icra etməyə səy göstərir.

Sorğu edilən vergi orqanı sorğunu onun alındığı gündən 90 gün ərzində icra edir.

Sorğu edən vergi orqanı sorğunun müəyyən müddət ərzində icra edilməsi ilə bağlı xahişlə müraciət edirsə, sorğu edilən vergi orqanı sorğunun həmin müddətdə icra edilməsi üçün səy göstərir.

Sorğu edilən vergi orqanı sorğunu icra edə bilmədikdə və ya göstərilən müddətdə icra edə bilmədikdə və ya tam icra edə bilmədikdə, sorğu edən vergi orqana bu barədə dərhal məlumat verməli və sorğunun icrasının mümkün olmamasının səbəblərini, maneələrin mahiyyətini və ya imtinanın səbəblərini göstərməlidir.

MADDƏ 4
MÜNTƏZƏM YARDIM

Müntəzəm yardım vergitutma sahəsində xüsusi sorğu olmadan qarşılıqlı əsasda rəsmi məlumat mübadiləsini bildirir və Tərəflər belə yardımı öz milli qanunvericiliklərinə müvafiq olaraq hər il yazılı və (və ya) elektron formada həyata keçirirlər.

Müntəzəm məlumat mübadiləsinə razılığa gələn dövlətin rezidentlərinin digər razılığa gələn dövlətdə yaxud digər razılığa gələn dövlətdən əldə olunan gəlirləri barədə qarşılıqlı məlumat mübadiləsi aid edilir.

Müntəzəm surətdə mübadilə edilən məlumatların siyahısı və müddətləri vaxtaşırı olaraq Tərəflər arasında yazışma yolu ilə razılaşdırılır.

MADDƏ 5
TƏŞƏBBÜSLÜ (SPONTAN) YARDIM

Təşəbbüslü (spontan) yardım Tərəflərin adi inzibati təcrübəsi gedişatında əldə etdiyi və digər Tərəf üçün maraq kəsb edən hər hansı məlumata münasibətdə şəxsi təşəbbüs əsasında təqdim olunan məlumatı bildirir.

MADDƏ 6
EYNİ VAXTLI VERGİ YOXLAMALARI

Tərəflər, məlumat mübadiləsində və vergidən yayınma hallarının araşdırılmasında daha yüksək effektivliyə nail olmaq üçün keçirilmə qaydaları razılaşma əsasında müəyyən edilən eyni vaxtlı vergi yoxlamaları apara bilərlər.

MADDƏ 7
DİGƏR YARDIM

Tərəflərdən hər biri qanunvericilikdə edilmiş və Tərəfin dövlətinin Konvensiya ilə bağlı öhdəliklərinə, həmçinin bu razılığa gələn dövlətin rezidentinin razılığa gələn digər dövlətdəki öhdəliklərinə toxuna biləcək dəyişikliklər barədə digər Tərəfi məlumatlandıracaq.

Zəruri olduğu halda Tərəflər hüquqi və fiziki şəxslərin vergitutma üçün razılığa gələn digər dövlətdə tələb olunan sənədlərinin surətlərini təsdiq edir.

MADDƏ 8
YARDIM GÖSTƏRİLMƏSİNDƏN İMTİNA

Əgər sorğu edilən vergi orqanı yardımın göstərilməsinin onun dövlətinin müstəqilliyinə, təhlükəsizliyinə, dövlət siyasətinə və ya onun dövlətinin digər əhəmiyyətli maraqlarına xələl gətirə, yaxud sənaye, ticarət və ya peşə sirlərinin pozulmasına səbəb ola biləcəyini hesab edirsə, yardım göstərilmir yaxud müvafiq şərtlər və tələblər gözlənilməklə həyata keçirilir.

Sorğu edilən vergi orqanı yardım göstərə bilmədiyi halda belə imtinanın səbəbləri barədə dərhal sorğu edən vergi orqanını xəbərdar edir.

Yardım göstərilməsi istintaq prosesinə və ya məhkəmə araşdırılmasına təsir edə biləcəyi halda sorğu edilən vergi orqanı tərəfindən yardım göstərilməsi təxirə salına bilər.

MADDƏ 9
MƏXFİLİYİN QORUNMASI

Tərəflərin aldıqları məlumat yalnız Konvensiyanın 27-ci maddəsində ("İnformasiya mübadiləsi") nəzərdə tutulan qaydada istifadə olunur və açıqlanır.

MADDƏ 10
MALİYYƏLƏŞMƏ QAYDALARI

Hər bir konkret hal üzrə xərclərin maliyyələşdirilməsində başqa şərtlər razılaşdırılmadığı halda, Tərəflər bu Sazişin tətbiqi ilə bağlı bütün xərcləri müstəqil şəkildə çəkirlər.

MADDƏ 11
DİGƏR BEYNƏLXALQ SAZİŞLƏR VƏ RAZILAŞMALAR

Bu Sazişdəki normalar Tərəflərin milli qanunvericilik aktları çərçivəsində tətbiq olunur və Tərəflərin, onların dövlətlərinin iştirakçısı olduqları digər beynəlxalq müqavilələrdən irəli gələn hüquq və öhdəliklərinə toxunmur.

MADDƏ 12
MÜBAHİSƏLİ MƏSƏLƏLƏRİN HƏLLİ

Tərəflər bu Sazişin şərhi və ya tətbiqi zamanı ortaya çıxa bilən mübahisəli məsələlərin tənzimlənməsində qarşılıqlı razılıq əldə etməyə çalışacaqlar. Bu Sazişin müddəalarının təfsiri və ya tətbiqi üzrə mübahisələr yarandığı halda, Tərəflər onları danışıqlar və məsləhətləşmələr yolu ilə həll edəcəklər.

MADDƏ 13
ƏLAVƏ VƏ DƏYİŞİKLİKLƏR

Tərəflərin qarşılıqlı yazılı razılığı əsasında bu Sazişə onun ayrılmaz hissəsi olan və 14-cü maddəsində nəzərdə tutulan qaydada qüvvəyə minən protokollarla rəsmiləşdirilən əlavə və dəyişikliklər edilə bilər.

MADDƏ 14
SAZİŞİN QÜVVƏYƏ MİNMƏSİ VƏ QÜVVƏDƏN DÜŞMƏSİ

Bu Saziş Tərəflərin onun qüvvəyə minməsi üçün zəruri olan dövlətdaxili prosedurların yerinə yetirilməsi barədə diplomatik kanallarla sonuncu yazılı bildiriş aldığı gündən qüvvəyə minir.

Bu Saziş 5 il müddətinə bağlanılır. Əgər Tərəflərdən heç biri bu Sazişin qüvvədən düşməsinə ən azı 6 (altı) ay qalmış, Sazişin qüvvəsinə xitam vermək haqqında niyyəti barədə yazılı bildiriş təqdim etmədikdə, Sazişin qüvvəsi avtomatik olaraq növbəti beş illik müddətlərə uzadılacaqdır.

Vilnüs şəhərində, 2007-ci ilin sentyabr ayının 13-cü günündə hər biri Azərbaycan, litva və rus dillərində olmaqla iki nüsxədə imzalanmışdır, bütün mətnlər eyni qüvvəyə malikdir.

Bu Sazişin təfsirində və tətbiqində fikir ayrılığı yarandığı təqdirdə, Tərəflər rus dilində olan mətndən istifadə edəcəklər.

AZƏRBAYCAN RESPUBLİKASININ VERGİLƏR NAZİRİ	LİTVA RESPUBLİKASI DÖVLƏT VERGİ MÜFƏTTİŞLİYİNİN SƏDRİ
FAZİL MƏMMƏDOV	*MODESTAS KASELYAUSKAS*

AZƏRBAYCAN RESPUBLİKASI HÖKUMƏTİ VƏ LİTVA RESPUBLİKASI HÖKUMƏTİ ARASINDA TURİZM SAHƏSİNDƏ ƏMƏKDAŞLIQ HAQQINDA SAZİŞ

13 sentyabr 2007-ci il

Bundan sonra "Tərəflər" adlandırılan Azərbaycan Respublikası Hökuməti və Litva Respublikası Hökuməti,

turizm sahəsində sıx və uzunmüddətli əməkdaşlığın qurulmasında qarşılıqlı marağı etiraf edərək,

bu sahədə hər iki ölkə, o cümlədən onların milli turizm təşkilatları arasında əlaqələrin inkişaf etdirilməsini arzulayaraq,

aşağıdakılar barədə razılığa gəldilər:

MADDƏ 1

Tərəflər hər iki xalqın həyatı, tarixi və mədəniyyəti ilə tanış olmaq məqsədilə Azərbaycan Respublikası və Litva Respublikası arasında turizm mübadiləsinin genişləndirilməsinə kömək edəcəklər.

Belə əməkdaşlıq Tərəflərin normativ hüquqi aktlarına və bu Sazişin müddəalarına uyğun olaraq həyata keçiriləcəkdir.

MADDƏ 2

Tərəflər turizm üzrə dövlət idarəetmə qurumları və turizm təşkilatları, o cümlədən beynəlxalq və daxili turizmin inkişafında iştirak edən digər təşkilatları arasında daha sıx əməkdaşlığı dəstəkləyəcəklər.

MADDƏ 3

Tərəflər turizmin inkişafı haqqında məlumat, çap məhsulları, filmlər ilə mübadiləni təşviq edəcək, reklam kampaniyalarının, konfransların və seminarların keçirilməsinə, sərgilərin və yarmarkaların təşkilinə yardım edəcəklər.

Tərəflər bu məqsədlə özəl turizm şirkətlərinin yaradılmasına kömək edə bilərlər.

MADDƏ 4

Tərəflər turizm sektorunun təhsil, hazırlıq, mütəxəssis, personal və tələbələrin mübadiləsi sahəsində əməkdaşlığı təşviq edəcəklər. Tərəflər turizmin inkişafı üzrə müxtəlif tədqiqatların və layihələrin həyata keçirilməsində həm ictimai, həm də özəl təşkilatlara yardım edəcəklər.

MADDƏ 5

Tərəflər turizm üzrə öz dövlət idarəetmə qurumları vasitəsilə turizm fəaliyyətinə aid qanunvericilik barədə və beynəlxalq turizm təşkilatlarında fəaliyyətləri haqqında məlumat mübadiləsi aparacaqlar.

MADDƏ 6

Tərəflər qarşılıqlı razılıq əsasında bu Sazişin daha səmərəli həyata keçirilməsi məqsədi ilə turizm sahəsində ikitərəfli əməkdaşlığın inkişaf etdirilməsinə dair birgə təkliflərin, proqramların və qərarların həyata keçirilməsi üçün tərkibinə hər iki ölkənin turizm üzrə mütəxəssislərinin daxil olacağı Birgə Komissiya yarada bilərlər.

Komissiya ildə bir dəfə növbə ilə Azərbaycan Respublikasında və Litva Respublikasında iclas keçirəcəkdir.

MADDƏ 7

Tərəflər bu Sazişin həyata keçirilməsi üzrə məsul dövlət orqanlarının aşağıdakıların olduğu barədə razılığa gəldilər:

Azərbaycan Respublikası tərəfindən – Azərbaycan Respublikasının Mədəniyyət və Turizm Nazirliyi,

Litva Respublikası tərəfindən – Litva Respublikasının Təsərrüfat Nazirliyi yanında Turizm üzrə Dövlət Departamenti.

MADDƏ 8

Bu Saziş Tərəflərin iştirakçısı olduqları digər beynəlxalq müqavilələrdən irəli gələn hüquq və öhdəliklərinə toxunmur.

MADDƏ 9

Tərəflərin qarşılıqlı razılığı əsasında bu Sazişə onun ayrılmaz hissəsi olan və bu Sazişin 11-ci maddəsində müəyyən edilən qaydada qüvvəyə minən ayrıca protokollarla rəsmiləşdirilən dəyişikliklər və əlavələr edilə bilər.

MADDƏ 10

Bu Sazişin tətbiqi zamanı yaranan mübahisəli məsələlər Tərəflərin qarşılıqlı razılığı əsasında məsləhətləşmələr və danışıqlar yolu ilə həll ediləcəkdir.

MADDƏ 11

Bu Saziş onun qüvvəyə minməsi üçün zəruri olan dövlətdaxili prosedurların yerinə yetirilməsi barədə Tərəflərin diplomatik kanallar vasitəsilə sonuncu yazılı bildirişin alındığı tarixdən qüvvəyə minir.

Bu Saziş, beş il müddətinə bağlanılır və Tərəflərdən biri bu Sazişin müddətinin bitməsinə ən azı altı ay qalmış onu ləğv etmək niyyəti barədə yazılı şəkildə digər Tərəfə məlumat verməzsə, onun qüvvəsi avtomatik olaraq növbəti beş illik müddətlərə uzadılacaqdır.

Tərəflər digər məsələ barədə razılaşmadıqları halda, bu Sazişin qüvvəsinin dayandırılması onun qüvvədə olduğu müddətdə bağlana biləcək proqram və layihələrin yerinə yetirilməsinə təsir göstərməyəcəkdir.

Saziş Vilnüs şəhərində 13 sentyabr 2007-ci ildə iki əsl nüsxədə Azərbaycan, Litva və İngilis dillərində imzalanmışdır, bütün mətnlər bərabər autentikdir.

Hazırkı Sazişin təfsiri və tətbiqi zamanı fikir ayrılığı olduğu təqdirdə, rus dilindəki mətnə üstünlük veriləcəkdir.

AZƏRBAYCAN RESPUBLİKASININ MƏDƏNİYYƏT VƏ TURİZM NAZİRİ	LİTVA RESPUBLİKASININ XARİCİ İŞLƏR NAZİRİ
ƏBÜLFƏS QARAYEV	*PYATRAS VAYTEKUNAS*

AZƏRBAYCAN RESPUBLİKASI HÖKUMƏTİ VƏ LİTVA RESPUBLİKASI HÖKUMƏTİ ARASINDA İNFORMASİYA VƏ KOMMUNİKASİYA TEXNOLOGİYALARI SAHƏSİNDƏ ƏMƏKDAŞLIQ HAQQINDA SAZİŞ

13 sentyabr 2007-ci il

Azərbaycan Respublikası Hökuməti və Litva Respublikası Hökuməti (bundan sonra "Tərəflər" adlandırılacaq),

Hər iki ölkənin sosial və iqtisadi inkişafı çərçivəsində informasiya və kommunikasiya texnologiyaları sahəsində qarşılıqlı faydalı əməkdaşlığı inkişaf etdirmək və möhkəmləndirməyi arzu edərək;

Hər bir müvafiq ölkədə ictimaiyyət üçün səmərəli və dayanıqlı xidmətlərin yerinə yetirilməsi ilə əlaqədar eyni məqsəd və maraqları bölüşərək;

İnformasiya və kommunikasiya texnologiyaları sahəsində aparılan əməkdaşlığın hazırkı səviyyəsi və ümumi maraq kəsb edən ideyalar, məlumatlar, bilik və təcrübələr baxımından mübadiləsi yolu ilə təkmilləşdirilməsinin Tərəflər üçün faydalı olacağını hesab edərək;

İnformasiya və kommunikasiya texnologiyaları sahəsində Tərəflər arasında kommersiya əlaqələrinin möhkəmləndirilməsində mövcud olan potensialı və mövcud imkanlardan tam istifadə etmək üçün ehtiyacı dərk edərək;

Tərəflər informasiya və kommunikasiya texnologiyaları sahəsində sərmayələri, birgə müəssisələri, ümumi maraqları, texnoloji inkişafı və ticarəti inkişaf etdirmək arzusunda olduqlarını nəzərə alaraq:

aşağıdakılar barədə razılığa gəldilər;

MADDƏ 1

Tərəflər qarşılıqlı fayda əsasında, öz milli qanunvericilikləri və beynəlxalq hüququn müvafiq norma və prinsiplərinə və bu Sazişin müddəalarına uyğun olaraq informasiya və kommunikasiya texnologiyaları sahəsində öz iqtisadi, sənaye, elmi və texniki əməkdaşlıqlarını inkişaf etdirəcək və təkmilləşdirəcəklər.

MADDƏ 2

Tərəflər arasında informasiya və kommunikasiya texnologiyaları (İKT) sahəsində əməkdaşlıq aşağıdakıları əhatə edir:

Telekommunikasiyanın tənzimlənməsi ilə əlaqədar təcrübənin öyrənilməsi;

E-hökumət və E-imzanın tətbiqi sahəsində əməkdaşlıq;

İnformasiya və kommunikasiya texnologiyaları sahəsinə sərmayə qoyuluşlarının təşviq etdirilməsi;

Qarşılıqlı məqbul şərtlərlə informasiya və kommunikasiya texnologiyaları sahəsində birgə müəssisələrin yaradılmasının təşviq etdirilməsi;

Birgə təlim kursları, seminar, konfrans, forum və sərgilərin təşkili;

Beynəlxalq təşkilatlarda (ÜPİ və BTİ kimi) hər iki ölkənin milli maraqları üst-üstə düş-

düyü təqdirdə bir-birini dəstəkləməsi;

Sərbəst tənzimləmə şəraitində beynəlxalq telefon danışıq tariflərinə yenidən baxılmasının mütəxəssislər səviyyəsində müzakirə edilməsi və hər iki ölkənin mövcud tranzit telefon trafiki mübadiləsi imkanlarından səmərəli istifadə edilməsi;

Hər iki Tərəfin nümayəndə heyətlərinin təcrübə mübadiləsi məqsədilə qarşılıqlı səfərlərinin təşkili;

Qarşılıqlı razılaşma əsasında digər məsələlər.

MADDƏ 3

Tərəflər İKT sahəsində görülmüş işlərin daha da təkmilləşdirilməsi, əməkdaşlığın inkişaf etdirilməsi, yeni texnologiyaların tətbiq edilməsi və birgə müəssisələrin yaradılması məqsədi ilə aidiyyəti orqanlarını, təşkilat və müəssisələrini bu sahədə sıx əlaqələrin və məlumat mübadiləsinin təkmilləşdirilməsi, eləcə də xüsusi proqramların və layihələrin yerinə yetirilməsi sahəsində əməkdaşlığı təşviq edəcəklər.

Tərəflər kəndlərdə telekommunikasiyanın inkişaf etdirilməsi, rəqəmsallara keçidin təmin edilməsi və İKT bazarında istehlakçı hüquqlarının tənzimlənməsi sahəsində təcrübənin tətbiqi üçün hər iki tərəfin mütəxəssislərinin birgə iş aparmasını təmin edəcəklər.

MADDƏ 4

Bu Sazişin müddəaları Tərəflərin iştirakçısı olduqları digər beynəlxalq sazişlərdən irəli gələn hüquq və öhdəliklərinə toxunmur.

MADDƏ 5

Tərəflər əməkdaşlıq çərçivəsində mübadilə etdikləri konfidensial informasiyanın öz milli qanunvericiliklərinə uyğun surətdə qorunması üçün zəruri tədbirlər görmək, həmçinin belə informasiyanı təqdim etmiş Tərəfin yazılı icazəsi olmadan bu informasiyanı üçüncü tərəfə aşkarlamamaq və yaymamaq öhdəliyini daşıyırlar. Bu müddəa hazırkı Saziş qüvvədən düşdükdən sonra da qüvvədə qalır.

MADDƏ 6

Tərəflər bu Sazişin müddəalarının təfsiri və ya tətbiqi zamanı mübahisələr yarandığı təqdirdə, onları danışıqlar və məsləhətləşmələr yolu ilə həll edəcəklər.

MADDƏ 7

Bu Sazişin həyata keçirilməsi üzrə fəaliyyətin əlaqələndirilməsinə görə məsul səlahiyyətli orqanlar:

Azərbaycan Respublikası Hökuməti adından – Azərbaycan Respublikasının Rabitə və İnformasiya Texnologiyaları Nazirliyi;

Litva Respublikası Hökuməti adından - Litva Respublikasının Nəqliyyat və Rabitə Nazirliyidir.

Bu Sazişdən irəli gələn məsələlərin həyata keçirilməsi üzrə səlahiyyətli orqanların qarşılıqlı fəaliyyəti zamanı işçi dil qismində ingilis dilindən istifadə ediləcəkdir.

Tərəflər əməkdaşlığın xüsusiyyətlərindən asılı olaraq, bu Sazişin həyata keçirilməsi üzrə fəaliyyətin əlaqələndirilməsinə görə məsul olan digər dövlət hakimiyyəti orqanlarını təyin edə bilər və bu barədə onlar diplomatik kanallar vasitəsilə bir-birini məlumatlandıracaqlar.

MADDƏ 8

Tərəflərin qarşılıqlı razılığı əsasında bu Sazişə əlavə və dəyişikliklər edilə bilər. Belə əlavə və dəyişikliklər bu Sazişin ayrılmaz hissəsi olan və bu Sazişin 9-cu maddəsində nəzərdə tutulan qaydada qüvvəyə minən protokollarla rəsmiləşdiriləcək.

MADDƏ 9

Bu Saziş, onun qüvvəyə minməsi üçün zəruri olan dövlətdaxili prosedurların yerinə yetirilməsi barədə Tərəflərin sonuncu yazılı bildirişinin alındığı tarixdən qüvvəyə minir.

Bu Saziş iki il müddətinə bağlanılır. Tərəflərdən biri bu Sazişin müddətinin bitməsinə altı ay qalmış onu ləğv etmək niyyəti barədə yazılı şəkildə digər Tərəfə məlumat verməzsə, onun hüquqi qüvvəsi avtomatik olaraq növbəti 2 il müddətlərinə uzadılacaqdır.

Bu Saziş Vilnüs şəhərində 13 sentyabr 2007-ci il tarixində hər biri Azərbaycan, Litva və ingilis dillərində olmaqla iki nüsxədə imzalanmışdır, bütün mətnlər bərabər autentikdir. Təfsir zamanı fikir ayrılığı yarandıqda, ingilis dilindəki mətndən istifadə ediləcəkdir.

AZƏRBAYCAN RESPUBLİKASININ XARİCİ İŞLƏR NAZİRİ	LİTVA RESPUBLİKASININ XARİCİ İŞLƏR NAZİRİ
ELMAR MƏMMƏDYAROV	*PYATRAS VAYTEKUNAS*

BİRGƏ MƏTBUAT KONFRANSI

Sentyabrın 13-də, rəsmi sənədlərin imzalanmasından sonra dövlət başçıları Litva Prezidentinin sarayında birgə mətbuat konfransı keçirmişlər.

LİTVA PREZİDENTİ VALDAS ADAMKUSUN BƏYANATI

-Hörmətli cənab Prezident!

Sizi Litvada görməkdən olduqca məmnunam. Xüsusi olaraq mən bildirmək istəyirəm ki, ölkələrimiz arasındakı bu cür intensiv əməkdaşlıq nəinki Litvada, həm də beynəlxalq miqyasda müşahidə olunur.

Qısa müddət ərzində bir neçə dəfə görüşlərimiz olmuş və regional siyasətə aid məsələləri nəzərdən keçirmişik. Biz enerji məsələlərini müzakirə etdik ki, bunlar da bizim üçün böyük əhəmiyyət daşıyır. Bizim ilkin görüşlərimiz zamanı ölkənizin bu sahədəki imkanları haqqında danışmışdıq. Bilirik ki, ölkənizin enerji ehtiyatları böyükdür və regiondakı bu siyasətin ümumi strategiyasına ölkənizin hansı yolla, necə töhfə verəcəyini müzakirə etdik. Beləliklə, biz artıq danışıqlarımızı kifayət qədər realist bir məcraya salmışıq. İndi isə biz artıq buna beynəlxalq şəbəkəni qoşuruq. Bununla Sizin regionunuz Avropaya daha da yaxınlaşır.

Mən xüsusi vurğulamaq istəyirəm ki, xalqlarımız arasında nəinki enerji və iqtisadi sahə-

lərdə əməkdaşlıq mövcuddur, eyni zamanda, bu, beynəlxalq səviyyədə də çox gözəçarpan dərəcədə artmışdır. Avropa İttifaqı və NATO ilə əməkdaşlıq sahəsində əlaqələr böyük əhəmiyyət kəsb edir. Biz bu məsələləri Sizinlə müzakirə etdik və Azərbaycanın beynəlxalq qurumlara qoşulmasında Litva hər zaman mümkün olan dərəcədə yardım göstərəcək və biz öz təcrübəmizi sizinlə bölüşməyə hazırıq.

Bu gün çox mühüm hadisə odur ki, əməkdaşlıq haqqında beş saziş imzalandı. Onlar iqtisadi və mədəni məsələlərə aiddir. Mən Sizə bir daha minnətdarlığımı bildirirəm və olduqca məmnunam ki, bizim mövqelərimiz üst-üstə düşür. Hətta razılıq olmayan məsələni tapmaq da çətindir, münasibətlərimizdə bütün məsələlər üzrə mövqelərimiz eynidir, heç bir mübahisəli məsələ yoxdur. Biz bilirik ki, gələn ay Vilnüsdə enerji sammiti keçiriləcək və Sizin iştirakınızı səbirsizliklə gözləyəcəyik.

Biz çox şadıq ki, bu gün Sizinlə bir çox iş adamlarından ibarət böyük nümayəndə heyəti gəlibdir. Onlar da həmkarları ilə müzakirələr aparacaqlar.

Bir daha xoş gəlmisiniz!

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN BƏYANATI

-Hörmətli cənab Prezident!

Hörmətli xanımlar və cənablar!

İlk növbədə, cənab Prezident, mənə və nümayəndə heyətinə göstərdiyiniz qonaqpərvərliyə görə Sizə dərin minnətdarlığımı bildirmək istəyirəm. Bu mənim Litvaya ilk rəsmi səfərimdir. Biz bu səfərə çox böyük əhəmiyyət veririk. Son illər ərzində iki ölkə arasında münasibətlər çox sürətlə inkişaf edir. Biz Sizinlə son bir il ərzində bir neçə dəfə görüşmüş, müxtəlif məsələləri – həm ikitərəfli münasibətlərin inkişafını, həm də regional məsələləri, Avropa İttifaqı ilə Azərbaycan arasında münasibətləri müzakirə etmişik. Biz müzakirə olunan bütün məsələlərə vahid mövqedən yanaşırıq.

Biz bu gün Sizinlə söhbət əsnasında çox çalışırdıq ki, hansısa problem yaradan məsələləri tapaq, amma xoşbəxtlikdən, buna müvəffəq olmadıq. Əminəm ki, gələcəkdə də bizim aramızda münasibətlər ancaq və ancaq yüksələn xətlə davam edəcəkdir. Biz çox güclü tərəfdaşlıq etmək niyyətindəyik. Bu gün bu tərəfdaşlığın əsas konturları müəyyən olunubdur. Avropa İttifaqı-Azərbaycan münasibətlərində biz Litvanın və cənab Prezident, şəxsən Sizin dəstəyinizi həmişə hiss etmişik. Azərbaycanın Avratlantik inteqrasiya arzularının həyata keçirilməsində də biz Litvanın mövqeyinə həmişə söykənirik. Bilirik ki, həm Avropa İttifaqında, həm də NATO-da Siz ölkəmizi dəstəkləyirsiniz və məhz bunun nəticəsində NATO ilə Azərbaycan arasında münasibətlər çox yüksək pilləyə qalxıbdır. Biz artıq fərdi tərəfdaşlıq planının icrası ilə məşğuluq. Avropa İttifaqı ilə Azərbaycan arasında münasibətlər isə hazırda "Yeni qonşuluq siyasəti" proqramı çərçivəsində həll olunur. Bununla bərabər, keçən ilin sonunda Avropa İttifaqı ilə Azərbaycan arasında enerji sahəsində strateji tərəfdaşlıq haqqında memorandum imzalanmışdır. İndiki zəmanədə bizim bölgəmizdə və Avropa qitəsində enerji məsələləri gündəliyin ön planına çıxır. Əlbəttə ki, neft-qaz hasil edən ölkə kimi Azərbaycan enerji təhlükəsizliyinə öz töhfəsini verir və bundan sonra da verəcəkdir. Bu gün biz Sizinlə bu məsələləri çox geniş şəkildə təhlil və müzakirə etdik, gələcək əməkdaşlıq perspektivlərini də müəyyən etmişik.

Fürsətdən istifadə edərək, məni Vilnüsdə keçiriləcək energetika sammitinə dəvət etdiyinizə görə Sizə minnətdarlığımı bildirmək istəyirəm. Gələn ayda da böyük məmnuniyyətlə Sizin gözəl ölkənizə səfər edəcəyəm. Şübhə etmirəm ki, Vilnüs sammiti bütün bu vaxta qədər bu məsələlərlə bağlı müzakirələrimizə, məsələlərin həllinə çox böyük dəstək olacaqdır.

Azərbaycan öz siyasətini çox açıq şəkildə aparır. Bizim Avratlantik inteqrasiya arzularımız çox açıq şəkildə bəyan olunur. Bu sahədə ölkəmiz artıq böyük uğurlar əldə edibdir. Bizim ölkə kimi, sizin ölkəniz də vaxtilə bir ölkədə, bir ittifaqda yaşamışdır. Sizin uğurunuz, qısa müddət ərzində həm NATO-ya, həm Avropa İttifaqına üzv olmağınız bizə imkan verir ki, təcrübənizi dərindən öyrənək və öz proqramlarımızı buna uyğun şəkildə müəyyən edək.

Bizim aramızda iqtisadi əlaqələr genişlənir. Bu gün və keçən il Sizin Azərbaycana səfəriniz zamanı imzalanmış sənədlər, demək olar ki, əməkdaşlığın bütün sahələrini əhatə edir. Artıq Litvanın Azərbaycanda, Azərbaycanın isə Litvada səfirlikləri də təsis olunmuşdur. Bu da qarşılıqlı marağın təzahürüdür və onu göstərir ki, biz ikitərəfli münasibətlərin inkişafına çox böyük diqqət veririk. Əminəm ki, səfirliklər iki ölkənin daha da yaxınlaşmasına öz töhfələrini verəcəklər.

Bu gün başqa məsələlərlə yanaşı, Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi də müzakirə edilmişdir. Bizim imzaladığımız Birgə Bəyannamədə həm Litvanın, həm Azərbaycanın mövqeləri əks olunmuşdur. Ədalətli, beynəlxalq hüquq normalarına söykənmiş mövqeyə görə mən Azərbaycan dövləti tərəfindən Sizə bir daha təşəkkür etmək istəyirəm. Əminəm ki, geniş beynəlxalq diqqətin nəticəsində, beynəlxalq hüquq normalarının bərpası nəticəsində bu münaqişə Azərbaycanın ərazi bütövlüyü çərçivəsində öz həllini tapa bilər.

Hörmətli cənab Prezident, məni ölkənizə dəvət etdiyinizə və göstərilən diqqətə görə Sizə bir daha öz minnətdarlığımı bildirmək istəyirəm. Əminəm ki, bu səfər və gələcək əməkdaşlığımız ölkələrimizi daha da yaxınlaşdıracaqdır. Bizim aramızda əməkdaşlıq daha da yüksək pilləyə qalxacaqdır.

Təşəkkür edirəm.

* * *

Sonra dövlət başçıları jurnalistlərin suallarına cavab verdilər.

SUAL: Mənim sualım hər iki dövlət başçısınadır. Həm Azərbaycanın, həm də Litvanın strateji coğrafi mövqeyini nəzərə almaqla nəqliyyat və tranzit imkanlarından qarşılıqlı istifadə perspektivlərini necə görürsünüz?

İLHAM ƏLİYEV: Bizim əməkdaşlığımız müxtəlif sahələri əhatə edir. Əlbəttə ki, nəqliyyat məsələlərinə də böyük diqqət veririk. Bütövlükdə bu gün Xəzər dənizi, Qara dəniz, Baltik dənizi əməkdaşlığı yeni pilləyə qalxır. Azərbaycanın iştirak etdiyi transmilli layihələrdə – istər enerji, istərsə də nəqliyyat layihələrində, əlbəttə ki, bu bölgənin birləşməsi və regional əməkdaşlığın artması məsələləri də öz həllini tapır.

Dəmir yolunun tikintisi Azərbaycanı Avropa ilə birləşdirəcəkdir. Bildiyiniz kimi, yaxın vaxtlarda biz Bakı-Tbilisi-Qars dəmir yolunun tikintisinə başlayacağıq. Bu tikinti başa çatandan sonra Azərbaycan vasitəsilə Asiyanı Avropa ilə birləşdirən yeni dəmir yolu, Yeni İpək yolu olacaqdır.

Nəqliyyat məsələləri, adətən, enerji məsələləri ilə bağlı olur. Bu sahədə də böyük perspektivlər var. Enerji daşıyıcılarının nəqli məsələləri gündəlikdə mühüm yer tutur. Neft-qaz hasil və ixrac edən çox mühüm ölkə kimi Azərbaycan əlbəttə ki, nəqliyyat infrastrukturunun möhkəmlənməsinə də çox böyük diqqət göstərir. Bu yaxınlarda Azərbaycanda yeni böyük nəqliyyat infrastrukturu layihələri öz həllini tapacaq, yeni dəniz limanı tikiləcəkdir. Yeri gəlmişkən demək istəyirəm ki, sabah mən Klaypeda şəhərinə səfər edəcək və orada nəqliyyat infrastrukturu ilə, limanla tanış olacağam. Bu sahədə əməkdaşlıq üçün çox böyük imkanlar var və biz bu imkanları nəzərdən keçiririk.

VALDAS ADAMKUS: Sadəcə, bunu əlavə edə bilərəm ki, cənab Prezidentin dediyi kimi, mən də məmnunam ki, Prezident Əliyev sabah Klaypedaya səfər edəcək və bu imkanlardan necə istifadə edildiyini şəxsən özü görəcəkdir.

Bakı-Odessa-Brodı-Qdansk layihəsi təbii ki, bir neçə ildən sonra baş tutacaqdır. Həmin strateji xəttin tikintisinə başlanılacaq, kəmər nefti Litvaya çatdıracaqdır. Lakin biz bu məsələyə realist baxımdan yanaşmalıyıq.

SUAL: Sualım Azərbaycan Prezidentinədir. Cənab Prezident, Azərbaycanın Odessa-Brodı-Qdansk boru kəmərinin çəkilməsində gələcək iştirakı ilə bağlı Litva tərəfinə hər hansı zəmanət verdinizmi? Həmin boru kəməri ilə hansı həcmdə Azərbaycan nefti nəql oluna bilər?

İkinci sualım isə Litva Prezidentinədir. Bilirik ki, Azərbaycan nə NATO-nun, nə Avropa İttifaqının üzvüdür. Litva Dağlıq Qarabağ probleminin həllində iştirak etmir. Deyə bilərsinizmi, Litva bu məsələdə Azərbaycana necə yardım edə bilər?

İLHAM ƏLİYEV: Krakovda keçirilmiş son enerji sammitində həmin məsələlər müzakirə edildi. Bundan başqa, Odessa-Brodı-Qdansk boru kəməri layihəsi bir neçə il ərzində nəzərdən keçirilmişdir. Azərbaycanda hasilatın cari həcmi yeni variantlar və nəqliyyat yolları üzərində düşünməyə imkan yaradır. Azərbaycan hazırda gündə 1 milyon barrel nefti hasil edir və bu, mövcud olan Bakı-Tbilisi-Ceyhan boru kəmərinin buraxıcılıq qabiliyyətinə tam bərabərdir. Biz hasilatın artımını planlaşdırırıq. Bu səbəbdən də yeni bazarlar bizim üçün çox cəlbedicidir. Hazırda Azərbaycan neftini nəql etmək üçün bizim üç boru kəmərimiz var: onlardan ikisi Qara dənizə, biri isə Aralıq dənizinə çıxır. Əlbəttə, Ukrayna, Polşa və Baltikyanı ölkələrin bazarları bizim üçün olduqca cəlbedicidir. Krakovdakı ötən zirvə görüşü zamanı biz gələn ay keçiriləcək növbəti sammit üçün ideya və təkliflərin hazırlanması ilə məşğul olacaq işçi qrupunun yaradılması barədə razılığa gəldik. Hesab edirəm ki, geniş müzakirələr zamanı bizim iqtisadi ölçülər haqqında artıq hazır ideyalarımız olacaqdır. Biz bu layihəyə olduqca güclü siyasi dəstəyi veririk. Lakin eyni zamanda, biz çox əlverişli iqtisadi mühit yaratmalıyıq ki, Azərbaycan neftinin həmin boru kəməri vasitəsilə nəqli faydalı olsun. Bu, mümkündür. Mütəxəssislərimiz həmin nəqliyyat yolunun imkanlarını lazımi dərəcədə nəzərdən keçirirlər. Əminəm ki, gələn aylar və görüşlər ərzində bizim bu məsələ ilə bağlı daha çox ideyalarımız olacaqdır. Bu gün həmin marşrutla nəql olunacaq Azərbaycan neftinin həcmi haqqında bir

söz demək çətindir. Bir daha qeyd edirəm ki, bizim hasilatı artırmağa potensialımız var. Lakin biz onu o vaxt artıra bilərik ki, nefti nəql etməyə imkanlarımız da olsun. Ölkəmiz hər tərəfdən quru sərhədləri ilə əhatə olunub, yəni bizim dəniz yolu ilə beynəlxalq bazarlara çıxışımız yoxdur.

Əgər münasib daşıma təklifi olarsa, əlbəttə ki, biz onda hasilatı artıracağıq. Bu hasilat tərəfdaşlarımızın ehtiyaclarını ödəyəcək və Baltik dənizi bazarlarına çıxış əldə etmək imkanı yaradacaqdır.

VALDAS ADAMKUS: Dağlıq Qarabağa aid sual verilmişdir. Mənə belə gəlir ki, bu məsələ hazırda kiçik və böyük dövlətlərin diqqət mərkəzindədir. Səylər göstərilir ki, bu münaqişə aradan qaldırılsın və regionda sabitlik bərqərar olunsun. İndi Avropa İttifaqı, NATO və digər beynəlxalq təşkilatlarda bu məsələnin həllinə diqqət yetirirlər. Biz bu məsələ haqqında kifayət qədər danışdıq. Əgər beynəlxalq tərkibdə bizim vasitəçiliyimizə ehtiyac olarsa, bu rolu üzərimizə götürməyə hazırıq və vasitəçi kimi fəaliyyət göstərə bilərik. Bu, Dağlıq Qarabağ məsələsinə aiddir. Biz bu gün Azərbaycan Prezidenti cənab İlham Əliyevlə bu barədə danışdıq. Azərbaycan Respublikası bu məsələnin prinsipial şəkildə həllinə sadiqdir və biz erməni tərəfindən onların cavabını gözləyirik.

Neftlə bağlı sualınıza gəldikdə, Prezident çox aydın və düzgün formada cavab verdi ki, neftin nəqli məsələsi nəzərdən keçirilə bilər və artıq Azərbaycan buna hazırdır. Azərbaycan bunu edərsə, Avropaya daha da yaxınlaşacaqdır. Təbii ki, Litva regiona xam neftin nəql olunacağı marşrutlara qoşulmağa çalışacaqdır.

AZƏRBAYCAN-LİTVA BİZNES FORUMU

Sentyabrın 13-də Vilnüsdə Azərbaycan Prezidenti İlham Əliyevin və Litva Prezidenti Valdas Adamkusun iştirakı ilə Azərbaycan-Litva biznes forumu keçirilmişdir. Forumun işində Azərbaycanın 50-dək və Litvanın 100-ə yaxın şirkətinin nümayəndələri iştirak edirdi. Forumun təşkilatçıları Azərbaycanda İxracın və İnvestisiyaların Təşviqi Fondu (AZPROMO), Azərbaycanın İqtisadi İnkişaf Nazirliyi və Litva Sahibkarlar Konfederasiyası idi.

Açılış mərasimində çıxış edən Litva Sahibkarlar Konfederasiyasının prezidenti Bronislovas Lubis iki ölkənin işgüzar adamları arasında əlaqələrin genişləndirilməsinin zəruriliyini qeyd etdi, bildirdi ki, bu prosesdə Litvadakı Azərbaycan diasporu da mühüm rol oynamalıdır. O dedi ki, qarşılıqlı surətdə faydalı əlaqələrin əhatə dairəsi genişdir, Litva Azərbaycana mebel, yeyinti və toxuculuq sənayesi məhsulları satmaqda maraqlıdır. Bundan əlavə, Rusiya və Avropa limanlarından fərqli olaraq, Klaypeda dəniz limanının daha sərfəli və daha aşağı tarifləri, Litvadakı neftayırma zavodlarının imkanları da Azərbaycanı cəlb edə bilərdi.

Sonra dövlət başçıları forumda çıxış etdilər.

LİTVA PREZİDENTİ VALDAS ADAMKUSUN ÇIXIŞI

-Hörmətli cənab Prezident!

Azərbaycan nümayəndə heyətinin üzvləri və biznes forumunun iştirakçıları!

İlk növbədə, Azərbaycan Prezidentinə və onu müşayiət edən böyük nümayəndə heyətinə, iş adamlarına Litvaya səfər etdiklərinə görə minnətdarlığımı bildirmək istəyirəm. Bu səfər sübut edir ki, ümumi məqsəd və maraqlar bizi biri-birimizə daha yaxın edir. Son bir neçə ildə iki dövlət arasında həm işgüzar ünsiyyət var, həm də eyni məqsədlərə nail olmaq üçün çox sıx əməkdaşlıq mövcuddur.

Bu gün Azərbaycan Prezidenti ilə söhbət zamanı biz həm beynəlxalq məsələləri, həm işgüzar münasibətlərin genişləndirilməsi, həm də mədəniyyət sahəsində əməkdaşlığın intensivləşdirilməsi üçün real imkanları nəzərdən keçirdik. İfadə olunan fikir və planlar çox aydın və çox konkretdir, çünki Azərbaycan öz enerji ehtiyatlarını təkcə Litvaya deyil, ümumiyyətlə, bütün Avropa İttifaqının bazarına çıxarmaq arzusundadır.

Əlbəttə, şərt o deyil ki, bu iş sabah və ya o biri gün reallaşsın - belə məsələlərdə 5 və hətta 10 il böyük müddət deyildir. Lakin bu məsələlərin hamısı çox vacibdir. Aydındır ki, Azərbaycan ümumavropa bazarına çıxmaqla Litvaya da çıxış əldə edəcəkdir. Mən həm də məmnun olduğumu bildirmək istəyirəm ki, Prezident İlham Əliyev Klaypedaya da gedəcəkdir. Bu, daha sıx əməkdaşlıq, işgüzar adamların ünsiyyəti və birbaşa əlaqələrin yaranması üçün yol açacaqdır. Bu da, öz növbəsində ölkəmizin həyatı və inkişafı üçün vacib olan enerji daşıyıcıları ilə təmin olunmağımıza kömək edər.

Lakin biz təkcə bu məsələləri müzakirə etməmişik. Mədəni və elmi əməkdaşlığın da genişlənməsinin vaxtı çatmışdır.

Bu forumun iştirakçılarını bir daha təbrik edirəm, qonaqlarımıza hörmət və ehtiramımı bildirmək istəyirəm. Əminliklə deyə bilərəm ki, bir neçə il bundan öncə başlanan bu əməkdaşlığın möhkəm təməli var və gələcəyə inamla baxmaq olar. Bu forumda hamınıza uğurlar arzulayıram!

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN ÇIXIŞI

-Hörmətli cənab Prezident!

Hörmətli xanımlar və cənablar!

Cənab Prezident, bütün nümayəndə heyətimizin üzvlərinə göstərilən qonaqpərvərliyə görə Sizə bir daha təşəkkürümü bildirmək istəyirəm. Bu gün bizim aramızda çox geniş fikir mübadiləsi aparılmışdır. Bütün məsələlər – həm ikitərəfli əməkdaşlıq məsələləri, iqtisadi məsələlər, həm də regional məsələlər mehribanlıq şəraitində müzakirə olunmuşdur. Bizim aramızda siyasi dialoq son illər ərzində çox sürətlə inkişaf edir. İkitərəfli görüşlərimiz, qarşılıqlı rəsmi səfərlər, beynəlxalq konfranslardakı əməkdaşlığımız Litvanı Azərbaycanla daha da sıx birləşdirir. Biz buna çox sevinirik. Biz ikitərəfli münasibətlərə çox böyük əhəmiyyət veririk. Bu əhəmiyyətin təzahürüdür ki, qısa müddət ərzində hər iki ölkədə səfirliklərimiz işə başlayıbdır. Bizim siyasətçilərimiz, parlament üzvləri, iş adamları bir araya gəlirlər, müzakirələr aparır, gələcək perspektivlər haqqında öz fikirlərini söyləyirlər.

Siyasi əlaqələr güclü olduqda, əlbəttə ki, bütün başqa sahələrdə də işlər sürətlə getməlidir. Siyasi münasibətlər bütün başqa münasibətlərə güclü təkan verir. Biz çox istəyirik ki, iqtisadi əlaqələr siyasi əlaqələrin səviyyəsinə qalxsın. Hələlik bu, belə deyildir. Bu-

nun da müəyyən təbii səbəbləri var. Ancaq əminəm ki, keçirilən biznes forumun nəticələri iqtisadi əlaqələrin güclənməsinə çox böyük təkan verəcəkdir. Bunu etmək üçün çox böyük potensial var. Hər iki ölkənin iqtisadi uğurları göz qabağındadır. Hər iki ölkədə çox əsaslı və ciddi, cəsarətli iqtisadi islahatlar həyata keçirilib və indi də davam etdirilir.

Bizim iqtisadiyyatımız şaxələnib, özəl sektorun xüsusi çəkisi kəskin şəkildə artıbdır. Sovet ittifaqı dağılanda həm Litvada, həm də Azərbaycanda özəl sektor, faktiki olaraq, mövcud deyildi. İndi Azərbaycan iqtisadiyyatının tam əksəriyyəti – 81 faizi özəl sektordadır. Bu, bizim üçün çox böyük nəticədir, çox böyük nailiyyətdir. İqtisadi islahatların həyata keçirilməsi, iqtisadiyyatın liberallaşması, dünya iqtisadiyyatına inteqrasiya, Avropa İttifaqı ilə əlaqələrin, o cümlədən iqtisadi əlaqələrin inkişafı bizə imkan verir ki, iqtisadi islahatlarda çox böyük nailiyyətlər əldə edək.

Azərbaycan qədim neft diyarıdır, neft ölkəsidir. Dünyada sənaye üsulu ilə neft ilk dəfə Azərbaycanda hasil edilmişdir. Dəniz neft yataqlarından da neft ilk dəfə Azərbaycanda çıxarılmışdır. Bu gün Azərbaycan nefti müstəqil ölkəmizin inkişafına xidmət göstərir. Biz neft strategiyasını elə həyata keçiririk ki, Azərbaycanın maraqları tam şəkildə təmin olunsun. Azərbaycandan dünya bazarlarına çıxan üç neft və bir qaz kəməri çəkilib və onlar fəaliyyət göstərir. Biz bu gün Prezident Adamkusla enerji sahəsində əməkdaşlıq haqqında çox geniş fikir mübadiləsi aparmışıq. Əminəm ki, gələn ay Vilnüsdə keçiriləcək energetika sammitinin də bu baxımdan çox önəmli rolu olacaqdır. Azərbaycan neft-qaz hasilatını artıraraq, həm özünü enerji resursları ilə tam şəkildə təmin edir, həm də Avropa və dünya üçün çox etibarlı tərəfdaşa çevrilibdir. Bu sahədə bizim siyasətimiz tam açıqdır və bütün bu vaxta qədər gördüyümüz işlər öz səmərəsini veribdir. Elə bir layihə olmayıb ki, biz onu icra etmək istəyək, amma buna nail ola bilməyək. Yəni bizim artıq çox gözəl təcrübəmiz var. Biz istəyirik ki, bu sahədə səylərimizi birləşdirək və bundan sonra Litva ilə Azərbaycan arasında enerji sahəsində əməkdaşlıq münasibətləri yeni səviyyəyə qalxsın. Bunun üçün imkanlar var. Əminəm ki, Azərbaycanda neft-qaz hasilatı artdıqca, biz Baltik dənizi bazarlarına da çıxacağıq. Mövcud infrastruktur və gələcək infrastruktur layihələrinin həyata keçirilməsi bu imkanları yaradacaqdır.

Siyasi iradə var, siyasi niyyətlər var. Avropa İttifaqı ilə Azərbaycan arasında keçən ilin sonunda enerji sahəsində strateji əməkdaşlıq haqqında memorandum imzalanmışdır. Bu da münasibətlərin çox gözəl çərçivəsidir. Bir sözlə, biz bu məsələyə çox ciddi yanaşırıq və əminəm ki, birgə səylərlə istəyimizə nail olacağıq.

Bugünkü forumda Azərbaycandan qeyri-neft sektorunu təmsil edən iş adamları iştirak edirlər. Bu bizim üçün çox vacibdir, çünki istəyirik ki, iqtisadiyyatımız neft-qaz amilindən asılı olmasın. Neft amilindən asılılıq bizə imkan verməyəcək ki, iqtisadiyyatımız çoxsahəli şəkildə inkişaf etsin. Məhz buna görə, qeyri-neft sektorunun inkişafı, investisiyaların təşviqi, xarici investorlar üçün çox gözəl mühitin yaradılması, investisiyaların qorunması və şəffaflıq bizim üçün prioritet məsələlərdir. Biz görürük ki, Azərbaycanda qeyri-neft iqtisadiyyatı ildən-ilə çox sürətlə artır. Son üç il yarım ərzində ölkəmizdə təxminən 600 min yeni iş yeri yaranmışdır ki, onların da mütləq əksəriyyəti qeyri-neft sektorunda açılmışdır. Azərbaycanda yeni müəssisələr, dünya səviyyəli şirkətlər yaranır. Biz özəl sektoru dəstəkləyirik, hər il dövlət tərəfindən ona çox əlverişli və güzəştli kreditlər verilir. Həm də Dövlət İnvestisiya Şirkətinin xətti ilə Azərbaycana yüz milyon

dollar həcmində investisiya qoyuluşu nəzərdə tutulubdur. Fürsətdən istifadə edib Litva iş adamlarını bu imkanları nəzərdən keçirməyə dəvət edirəm. Çünki Dövlət İnvestisiya Şirkəti xarici investorlarla birlikdə, Azərbaycan üçün lazım olan və iqtisadi cəhətdən səmərəli olan layihələr üzərində işləyəcəkdir.

Mən ümid edirəm ki, bugünkü biznes forumu və iş adamları arasında yaranan əlaqələr imkan verəcəkdir ki, yaxın zamanlarda bizim aramızda ticarət dövriyyəsi də artsın. İndiki səviyyə, əlbəttə ki, bizi qane edə bilməz.

Hər iki ölkənin potensialı daha böyükdür. Biz, gərək sadəcə olaraq, mümkün olan imkanları birgə təhlil edək, birgə fəaliyyət planı hazırlayaq. Orada əlbəttə ki, dövlət orqanları, müvafiq nazirliklər və əlbəttə ki, iş adamları öz üzərinə düşən vəzifələri icra etməlidir, çünki bizim iqtisadiyyatımız bazar iqtisadiyyatıdır. Bazar münasibətləri yeganə uğurlu prinsipdir ki, ən inkişaf etmiş ölkələrin iqtisadiyyatı bu prinsiplə idarə olunur.

Əziz dostlar, mən sizin gözəl ölkənizdə olmağımdan öz məmnunluğumu bir daha ifadə etmək istəyirəm. Şübhə etmirəm ki, bu səfərin nəticələri, imzalanmış sənədlərin icrası bizim ölkələri daha da sıx birləşdirəcək, o cümlədən iqtisadi sahədə əməkdaşlıq çox yüksək zirvələrə qalxacaqdır.

Diqqətinizə görə təşəkkür edirəm.

LİTVADA FƏALİYYƏT GÖSTƏRƏN AZƏRBAYCAN CƏMİYYƏTLƏRİNİN NÜMAYƏNDƏLƏRİ İLƏ GÖRÜŞ

Sentyabrın 13-də Prezident İlham Əliyev Litvada fəaliyyət göstərən Azərbaycan cəmiyyətlərinin nümayəndələri ilə görüşmüşdür.

Diaspor nümayəndələri fəaliyyətləri və apardığı təşkilatlanma işləri barədə Prezidentə məlumat verdilər. Dövlətimizin başçısı diaspor quruculuğu istiqamətində görülən işlərdən danışdı və bildirdi ki, Azərbaycan dövləti xaricdə yaşayan soydaşlarımızla əlaqələrin güclənməsinə xüsusi diqqət göstərir və bu sahədə işlər bundan sonra da davam etdiriləcəkdir.

Prezident İLHAM ƏLİYEV dedi:

- Yəqin ki, bilirsiniz, bu gün burada Litva-Azərbaycan biznes forumu öz işinə başlayıbdır. Burada yerli həmkarları ilə iş qurmaq üçün Bakıdan çoxlu iş adamları gəliblər. Əlbəttə ki, mən çox istərdim ki, burada yaşayan azərbaycanlılar bu işlərdə çox fəal iştirak etsinlər. İndi Azərbaycanda iqtisadi vəziyyət yaxşılaşır, çoxlu özəl şirkətlər yaranır, onların imkanları artır. Ümumiyyətlə, ölkənin maddi imkanları artır. Biz hesab edirik ki, Azərbaycan şirkətləri buraya investisiya qoymalıdır. Buna böyük maraq var. Siz də, burada yaşayan azərbaycanlılar da bu işlərdə iştirak etməlisiniz. Artıq səfirlik də var. Azərbaycanın rəsmi nümayəndəliyi var. Bu da ikitərəfli münasibətlər üçün çox vacib amildir. Yəni ki, hərtərəfli münasibətlərin inkişafı bizə lazımdır. Bizim aramızda çoxlu sənədlər imzalanıbdır. Siz bu gün turizm haqqında söhbət açırsınız. O cümlədən turizm sahəsində əməkdaşlıq haqqında bu gün sənəd imzalanıbdır. Yəqin ki, gələn il həm burada, həm də Bakıda mədəniyyət günləri keçiriləcəkdir. Çox əhatəli Birgə Bəyannamə imzalanmışdır.

Litva Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi ilə bağlı Azərbaycanın mövqeyini tam dəstəkləyir və bu, Bəyannamədə öz əksini tapmışdır. Yəni biz müttəfiqik və Prezident Adamkusla mənim aramda imzalanmış Bəyannamədə göstərilir ki, bizim münasibətlərimiz strateji tərəfdaşlıq münasibətləridir. Burada yaşayan azərbaycanlılar bu münasibətlərə öz töhfəsini verməlidirlər. Siz həm buranın vətəndaşlarısınız, həm də azərbaycanlısınız, yəni bu işlərdə siz də çox fəal iştirak etməlisiniz. Demək olar ki, biz müstəqillik əldə edəndən bəri son bir neçə il ərzində münasibətlər belə sürətlə inkişaf edir və yeni imkanlar yaranır.

Xaricdə yaşayan azərbaycanlılar bizim səfirlərimizdir, ictimai əsaslarla işləyirlər. Həm Azərbaycanı möhkəmləndirirlər, həm də ki, qüdrətlənən Azərbaycana arxalanırlar, söykənirlər. Azərbaycan dövləti nə qədər güclü olsa, sizin buradakı imkanlarınız da bir o qədər genişlənəcəkdir. Xüsusilə indiki şəraitdə ki, Azərbaycan biznesi Litvaya gəlir və burada böyük işlər görmək niyyətindədir. Mən sizi bu işlərə fəal qoşulmağa dəvət edirəm. Bilirəm ki, siz çox fəalsınız. Burada çoxdan Azərbaycan qurumları, cəmiyyətləri fəaliyyət göstərir. Demək olar ki, hər bir ölkədə Azərbaycan təşkilatları fəaliyyət göstərir. Bu, bizim gücümüzü artırır. Siz burada nə qədər zəngin olsanız, siyasi sahədə, iqtisadi sahədə cəmiyyətə nə qədər sıx inteqrasiya etsəniz, o qədər də Azərbaycanın da maraqları təmin olunacaqdır.

Bu işlərdə sizə uğurlar arzulayıram. Həmişə Azərbaycan dövlətinə arxalana bilərsiniz.

MAHİR HƏMZƏYEV (Azərbaycan Cəmiyyətinin sədri): Damarında azərbaycanlı qanı olan hər bir insanın ürəyi vətənlə döyünür. Siz bu gəlişinizlə Litva dövləti ilə Qarabağ haqqında da danışıqlar apardınız. Litva dövləti bu problemə necə baxır? Bizi bu işdə dəstəkləyirlərmi?

İLHAM ƏLİYEV: Bəli, tam şəkildə dəstəkləyirlər. Bunu biz həm bugünkü görüşdə eşitdik və ən əsası, indi mən deyəcəyəm və mətbuatda dərc olunacaq, mənimlə Prezident Adamkus arasında imzalanmış siyasi Bəyannamədə bu məsələ birmənalı şəkildə öz ifadəsini tapmışdır. Litva Azərbaycanın suverenliyini, ərazi bütövlüyünü tanıyır və məsələnin, münaqişənin ancaq Azərbaycanın ərazi bütövlüyü çərçivəsində həllini mümkün sayır. Bu, təkcə Litva dövlətinin mövqeyi deyildir. Bilirsiniz ki, Litva Avropa İttifaqının üzvüdür və Avropa İttifaqının vahid xarici siyasət konturları artıq müəyyən olunubdur. Avropa İttifaqının mövqeyi bundan ibarətdir, Birləşmiş Millətlər Təşkilatının mövqeyi bundan ibarətdir. Bütün mütərəqqi dünyanın mövqeyi bundan ibarətdir ki, bu məsələ ədalətli, ərazi bütövlüyü çərçivəsində həll olunsun. Biz nə qədər çox dəstək alsaq, gücümüz o qədər də artır. Ancaq o da həqiqətdir ki, bu məsələni gərək biz özümüz həll edək. Özümüz, İqtisadi qüdrəti artırmaqla, hərbi gücü artırmaqla, qüvvələrimizi səfərbər etməklə və bütün azərbaycanlıları bir araya yığmaqla. Əgər bütün azərbaycanlılar bir araya gəlsələr, vahid bir qüvvə kimi çıxış etsələr, məsələ daha da asanlıqla öz həllini tapar. Amma, ilk növbədə, bu, bizim işimizdir. Biz də bunu həll edəcəyik. Mən buna şübhə etmirəm. Əlbəttə ki, Litva-Azərbaycan münasibətlərində bu amil həmişə mövcuddur. Biz Litvanın mövqeyini bəyənirik.

Bir halda ki, birlikdən söhbət gedir, artıq burada səfirlik də var. Səfirlik dövlətin rəsmi nümayəndəliyidir, Prezidentin birbaşa elçisidir, nümayəndəsidir. Səfirlik də gərək bütün diaspor təşkilatlarında olan münasibətləri tənzimləsin və xahiş edirəm, siz də öz fə-

aliyyətinizi səfirliklə razılaşdırın. Səfirliyə Xarici İşlər Nazirliyindən göstərişlər verilib ki, biz burada siyasəti belə dolğun şəkildə, birlik əsasında aparaq. Heç bir ayrı-seçkilik olmamalıdır. Nairə xanım da təcrübəli siyasətçidir. Uzun illər ərzində Avropa Şurası Parlament Assambleyasında Milli Məclisin nümayəndəsi olubdur. Xahiş edirəm ki, burada bu işləri razılaşdırın. Mən gələn ay buraya, energetika sammitinə gələcəyəm.

AZƏRBAYCAN PREZİDENTİNİN ŞƏRƏFİNƏ

Sentyabrın 13-də Litva Prezidenti Valdas Adamkusun və xanımı Alma Adamkienenin adından Azərbaycan Prezidenti İlham Əliyevin və xanımı Mehriban Əliyevanın şərəfinə rəsmi ziyafət verilmişdir. Rəsmi ziyafətdən əvvəl dövlətimizin başçısı və xanımı Prezident sarayının fəxri qonaqlar kitabına ürək sözlərini yazdılar. Sonra xatirə şəkli çəkdirildi.

Dövlət başçıları ziyafətdə nitq söylədilər.

LİTVA PREZİDENTİ VALDAS ADAMKUSUN NİTQİ

- Zati-aliləri Prezident İlham Əliyev!

Hörmətli xanım Mehriban Əliyeva!

Hörmətli nümayəndə heyəti üzvləri!

Mən xanımım Alma ilə birlikdə Sizi ölkəmizdə qəbul edib, xalqlarımızın dostluğu naminə qapını üzünüzə daha geniş açа bildiyimiz üçün çox məmnunuq. Yüz ildən artıq tarixi kökləri olan və bu gün yeni əlaqə formaları, yeni təşəbbüslər sayəsində daha da möhkəmlənən bu dostluğu mən olduqca yüksək qiymətləndirirəm.

Hörmətli cənab Prezident,

Sizin bu səfəriniz tarixi səfərdir. Azərbaycanın dövlət başçısının Litvaya bu ilk rəsmi səfəri dinamik surətdə inkişaf edən yaxın tərəfdaşlıq əlaqələrimizin genişlənməsinə, şübhəsiz ki, yeni təkan verəcəkdir.

Keçən il Azərbaycana rəsmi səfərimi və bu ilin iyun ayında GUAM ölkələrinin Bakıda keçirilmiş zirvə görüşündə iştirakımı böyük məmnuniyyətlə xatırlayıram. Əldə etdiyiniz iqtisadi uğurlar, xalqınızın zəhmətkeşliyi, ölkənizin mədəniyyəti və təbiətinin gözəlliyi məni məftun etdi. Mən füsunkar ölkənizə valeh olmuş ilk litvalı deyiləm. Litva ədəbiyyatının klassiki və Bakı Universitetinin müəllimi Vintsas Kreve-Mitskyaviçyus təxminən 100 il bundan əvvəl yazdığı "Azəristan ölkəsi" adlı əsərində ölkənizin gözəlliyini tərənnüm etmiş, litvalıları xalqınızın mədəniyyəti, mifologiyası və əfsanələri ilə tanış etmişdir. Vintsas Kreve-Mitskyaviçyus bu gözəl əsəri yazan dövrdə bir çox litvalılar müstəqil Azərbaycan Cümhuriyyətinin quruculuq işlərində və ölkənizin ictimai-siyasi həyatında yaxından iştirak edirdilər. XX əsrdə baş verən tarixi itkilərin Litva və Azərbaycanda da ötüb keçməsinə baxmayaraq, bu çətinliklər bizim azadlıq eşqimizi söndürə bilmədi. İstiqlal eşqi həmin coşmokeşli əsrin sonunda xalqlarımızı dirçəlişə gətirib çatdırdı və müstəqillik uğrunda mübarizə şəklində üzə çıxdı. Bu mübarizədə Azərbaycan xalqının və Litva Azərbaycanlıları Cəmiyyətinin bizə verdiyi dəstəyi heç vaxt unutmarıq.

Ölkələrimiz arasındakı münasibətlərin son illərdə intibah dövrünü yaşadığını və xalqlarımız arasında getdikcə daha yaxın əlaqələrin yaranmasını görəndə, bir-birimizi daha yaxşı tanıyıb, daha da yaxın olmaq səylərimizi müşahidə etdikdə ürəkdən sevinirəm. Sevindirici haldır ki, son bir il ərzində dörd mədəniyyət layihəsini həyata keçirməyə nail olmuşuq. Keçən ilin payızında Azərbaycanda Litva rəssamlarının sərgisi təşkil edilmişdi. Bu ilin baharında isə Litva tamaşaçıları Azərbaycan kino ustalarının yaradıcılığı ilə tanış olmaq imkanı əldə edə biliblər. Litva şifahi xalq ədəbiyyatının ən qədim və ən gözəl nümunələrindən biri olan "Su ilanları kraliçası Eqle" nağılı və yazıçı Vintsas Kreve-Mitskyaviçyusun Şərq mövzusunda yaratdığı gözəl əsərlərin bir qismi ən yaxın vaxtda Azərbaycan dilində çap ediləcəkdir. Xalqlarımız arasındakı qarşılıqlı əlaqələrin inkişaf etdirilməsi üçün Litvadakı Azərbaycan diasporu çox səylər göstərir, fəal mədəni və akademik fəaliyyəti bu işi daha da şövqləndirir. Sizin ölkənizin qədim tarixi və milli-mənəvi sərvətləri ilə litvalıları bu cür tanış etmək cəhdləri, eyni zamanda, bizim ölkəmizin də mədəniyyətini mənəvi cəhətdən zənginləşdirir.

Hörmətli cənab Prezident!

2007-ci il əlaqələrimizin intensivliyi və yeni imkanların yaradılması baxımından xalqlarımızın əməkdaşlığı tarixində müstəsna yer tutur. Belə ki, biz Bakıda səfirliyimizi açdıq. Bir həftə bundan əvvəl isə mən Sizin səfirinizin etimadnaməsini qəbul etdim. Yüksək səviyyədə qarşılıqlı rəsmi səfərlərimiz oldu. Odur ki, bu il əlaqələrimizdə sürətli irəliləyiş ilidir. Bizim vəzifəmiz isə, bu sürəti qoruyub saxlamaqdır. Çalışmalıyıq ki, bu cür fəal siyasi əlaqələr nəticəsində yaranmış imkanlar genişlənsin, ölkələrimiz və xalqlarımız arasında konkret iqtisadi və mədəni əməkdaşlıq layihələri ilə zənginləşsin.

Baltik və Qafqaz regionlarını, ölkələrimizin əhalisini bir-biri ilə yalnız sıx nəqliyyat və energetika şəbəkələri ilə birləşdirdikdən sonra biz tarixin müəyyən etdiyi vəzifəni yerinə yetirmiş olarıq. Krakovda başladığımız və gələn ay Vilnüsdə davam etdirəcəyimiz regional energetika dialoqu ölkələrimizin təhlükəsizliyini möhkəmləndirir və ticarət əlaqələrimizi inamla aparmaq üçün əlverişli şərait yaradır. Litva ilə Azərbaycan arasındakı yaxın tərəfdaşlıq münasibətləri Avropanı Asiya ilə birləşdirən yolları bərpa etmək üçün nadir bir imkan açır. Mən bunu deyəndə, ilk növbədə, İpək yolunun bərpasını və onun Litvadan keçib Baltik dənizinə çıxan hissəsini nəzərdə tuturam. "Kəhrəba qolu" adlanan bu qol, Klaypeda limanını Qara dəniz ilə birləşdirən "Vikinq" dəmir yolunun timsalında artıq fəaliyyət göstərir.

Sizin nümayəndə heyətinizin tərkibində iş adamlarından ibarət böyük bir dəstəni görmək mənim üçün xoşdur. İnanıram ki, bu səfəriniz ticarət əlaqələrimizə və qarşılıqlı investiya qoymaq işinə təkan verəcəkdir. Eləcə də, inanıram ki, bizim əlaqələrin gələcəyi ticarət sahəsində istifadə edilməmiş imkanlarımızda əks olunubdur. Litva özünün tarixi əlaqələri və gözəl siyasi münasibətləri sayəsində ölkənizin iş adamları üçün yarım milyard istehlakçısı olan Avropa İttifaqı bazarına çıxışı təmin edə bilər.

Hörmətli cənab Prezident!

Ölkələrimizin tərəfdaşlıq əlaqələri təkcə bir-birinə uyğun gələn maraqlara yox, həm də gələcəyimizin oxşarlığına əsaslanır. Azərbaycanın Avropa İttifaqı ilə daha yaxın əlaqələr qurmaq istədiyi bir dövrdə Litva Azərbaycanın Brüsseldə sadiq dostu olaraq qalır. Biz gələcəkdə də Avropadakı tərəfdaşlarımızı Azərbaycan ilə ən yaxın əlaqələr saxla-

maq üçün həvəsləndirəcəyik. Axı, Avropa Azərbaycana nə qədər yaxın olarsa, qapısını bir o qədər Sizin ölkənizin üzünə açar və bunun sayəsində hamımız daha təhlükəsiz və daha firavan olarıq.

Sizin bu səfəriniz zamanı Litva və Azərbaycan arasında mədəniyyət və turizm sahəsində əməkdaşlıq barədə imzalanmış sazişlər, şübhə etmirəm ki, xalqlarımızın daha da yaxınlaşmasına və daha dərin qarşılıqlı anlaşmaya xidmət edəcəkdir.

Hörmətli cənab Prezident!

Sizin bu səfəriniz xalqlarımızı əməkdaşlığın daha yeni formalarını axtarmağa sövq edir. Ümidvaram ki, bu səfəriniz əsnasında tələbə və gənclərin qarşılıqlı mübadiləsi barədə irəli sürülmüş ideya ən yaxın vaxtda öz həllini tapacaqdır.

Xanımlar və cənablar!

Badələrinizi Prezident İlham Əliyevin və xanımı Mehriban Əliyevanın sağlığına, Azərbaycan xalqının firavanlığı naminə, xalqlarımızın azadlığı, dostluğu və tərəqqisi şərəfinə qaldırmağa dəvət edirəm!

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN NİTQİ

-Hörmətli cənab Prezident!

Hörmətli xanım Alma Adamkiene!

Xanımlar və cənablar!

İlk növbədə, cənab Prezident, məni ölkənizə rəsmi səfərə dəvət etdiyinizə görə Sizə təşəkkür edirik. Litva torpağında mənə və nümayəndə heyətinə göstərdiyiniz səmimi qonaqpərvərliyə görə dərin minnətdarlığımı bildirmək istəyirəm.

Bu, son bir il ərzində bizim dördüncü görüşümüzdür. Azərbaycana 2006-cı ildə rəsmi səfərinizdən sonra 2007-ci ildə Krakov enerji sammiti çərçivəsində və Bakıda GUAM ölkələri dövlət başçılarının sammiti zamanı görüşmüşük. İndi isə mənim Litva Respublikasına ilk rəsmi səfərimdir.

Litva və Azərbaycan xalqları arasındakı əlaqələr sabit və genişdir. Ötən əsrin əvvəllərində Bakıda yaşayan litvalılar Azərbaycanın ictimai həyatında fəal rol oynamışlar. Litva ədəbiyyatının klassiki, Azərbaycanda dərc olunmuş əsərlərin müəllifi Vintsas Kreve-Mitskyaviçyus o dövrdə Bakı Universitetinin professoru olmuş, Azərbaycan Xalq Cümhuriyyətinin quruculuğu işlərində fəal çalışmış və Litvanın Azərbaycandakı ilk konsulu işləmişdir. Həmin dövrdə xalqlarımız arasında ədəbi-mədəni əlaqələr də genişlənmişdir. Azərbaycan xalqının məşhur qəhrəmanlıq dastanı "Kitabi- Dədə Qorqud", dahi Azərbaycan şairi Nizaminin və digər görkəmli simaların əsərləri Litva dilinə, görkəmli Litva ədiblərinin əsərləri Azərbaycan dilinə tərcümə edilmişdir.

Sovet İttifaqının süqutu ərəfəsində milli azadlıq hərəkatının önündə getmiş Litva və Azərbaycan xalqlarının həmrəyliyi, Bakı və Vilnüs faciələri xalqlarımızın azadlıq mübarizəsinin parlaq qəhrəmanlıq səhifələrindəndir.

Xalqlarımızın yenidən müstəqillik əldə etməsi hər iki ölkə arasında tarixi əlaqələri keyfiyyətcə yeni mərhələyə yüksəltmiş, müntəzəm diplomatik əlaqələr yaradılmış, səfir-

liklər təsis olunmuş, siyasi-iqtisadi, mədəni və digər sahələrdə əməkdaşlığa dair müqavilə və sazişlər imzalanmışdır.

Məmnuniyyətlə qeyd etmək istəyirəm ki, ölkələrimiz arasındakı ikitərəfli münasibətlərin səviyyəsi yüksəkdir. Ötən il Azərbaycana rəsmi səfəriniz, səfər zamanı apardığımız danışıqlar, imzalanmış sənədlər əlaqələrimizin inkişafı üçün perspektivlər açmışdır.

Ölkələrimiz beynəlxalq terrorizmin, nüvə silahlarının yayılması və digər müasir çağırış və təhlükələrə qarşı mübarizə sahəsində uğurlu əməkdaşlıq edir. Beynəlxalq və regional təşkilatlar, o cümlədən Avropa İttifaqının "Yeni qonşuluq siyasəti" proqramı və NATO-nun "Fərdi tərəfdaşlığın fəaliyyət planı" çərçivəsində sıx əlaqələrimiz məmnunluq doğurur. GUAM-ın Bakı sammitində digər həmkarlarınızla birgə iştirakınız bu təşkilata beynəlxalq dəstəyin təzahürüdür. Bu, Baltik dənizi, Qara dəniz və Xəzər dənizi regionu ölkələrinin Avropaya inteqrasiyasına, eləcə də Avropa İttifaqı ilə Azərbaycan arasında siyasi, iqtisadi, enerji və digər sahələrdə tərəfdaşlıqda mühüm rol oynayacaq və daha geniş məkanda əməkdaşlığımız üçün yeni üfüqlər açacaqdır. Biz Litvanın Avropa İttifaqının enerji siyasətinə həsr olunmuş sammitinə ev sahibliyi etmək niyyətini alqışlayırıq. Əminəm ki, sammitdə Krakovda aparılan səmərəli danışıqların davam etdirilməsi və qarşılıqlı surətdə faydalı əməkdaşlığın yeni yollarının müəyyənləşdirilməsi prosesinə öz töhfəsini verəcəkdir.

Mən Azərbaycanın, eləcə də regionun ən aktual problemlərindən biri olan Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin beynəlxalq hüquqi normaları və prinsiplərinə uyğun şəkildə, Azərbaycanın ərazi bütövlüyü çərçivəsində həlli məsələsində Litvanın və cənab Prezident, şəxsən Sizin ədalətli və əsaslandırılmış mövqeyinizi yüksək qiymətləndirirəm.

Cənab Prezident!

İcazə verin, mənə və nümayəndə heyətinə göstərdiyiniz qonaqpərvərliyə görə Sizə bir daha öz minnətdarlığımı bildirim və bu badəni Sizin sağlığınıza, xanımınız Alma Adamkienenin sağlığına, Litva xalqının xoşbəxtliyi və rifahı şərəfinə qaldırım.

KLAYPEDA DÖVLƏT DƏNİZ LİMANI İLƏ TANIŞLIQ

Litvada rəsmi səfərdə olan Azərbaycan Prezidenti İlham Əliyev sentyabrın 14-də Palanqa şəhərinə gəlmişdir.

Azərbaycan dövlətinin başçısını hava limanında şəhərin meri Alvidas Kirstukas qarşıladı.

Sonra avtomaşın korteji Klaypedaya yola düşdü. Azərbaycan Prezidenti İlham Əliyevi Klaypedada şəhərin meri Rimantas Taraskyaviçus, Dövlət Dəniz Limanı Administrasiyasının və Dəniz Limanları Assosiasiyasının rəhbərləri səmimiyyətlə qarşıladılar.

Azərbaycan Prezidenti Klaypeda dövlət dəniz limanının fəaliyyəti ilə tanış oldu. Limanın inzibati binasında görüş zamanı dövlətimizin başçısına Baltik dənizinin bu donmayan limanı barədə məlumat verildi. Bildirildi ki, Litvanın mühüm nəqliyyat mərkəzi olan bu limanda Şərqdən Qərbə və daha sonra Cənub-Şərqi Asiyaya və Amerika qitəsinə gedən mühüm dəniz yolları və dəmir yol xətləri qovuşur.

Klaypeda limanı çoxfunksiyalı limandır. Burada gəmi təmiri və gəmiqayırma şirkəti,

karqo-biznes sahəsində servis xidməti fəaliyyət göstərir. Limandakı 19 iri kranın köməyi ilə hər il təqribən 30 milyon ton yük emal edilir.

Prezident İlham Əliyev və Azərbaycanın nümayəndə heyətinin üzvləri limanın ərazisini gəzdilər, "Klaypedos nafta" şirkətinin neft terminalında oldular.

Dövlətimizin başçısı limanın fəxri qonaqlar kitabına ürək sözlərini yazdı.

PREZİDENTLƏR İLHAM ƏLİYEV VƏ VALDAS ADAMKUS AZƏRBAYCAN DÖVLƏTİ BAŞÇISININ RƏSMİ SƏFƏRİNİN YEKUNLARINA DAİR MƏTBUAT ÜÇÜN BƏYANATLARLA ÇIXIŞ ETMİŞLƏR

Sentyabrın 14-də Azərbaycan Prezidenti İlham Əliyev Klaypeda dövlət dəniz limanı ilə tanış olduqdan sonra Palanqaya qayıtmışdır.

"Palanqa" hotelində Litva Prezidenti Valdas Adamkusun və xanımı Alma Adamkienenin adından Azərbaycan Prezidenti İlham Əliyevin və xanımı Mehriban Əliyevanın şərəfinə lanç verildi.

Daha sonra prezidentlər İlham Əliyev və Valdas Adamkus mətbuat üçün bəyanatlarla çıxış etdilər.

LİTVA PREZİDENTİ VALDAS ADAMKUSUN BƏYANATI

-Cənab Prezident!

Çox qısaca onu demək istəyirəm ki, burada bizimlə görüşdüyünüzə görə Sizə olduqca minnətdarıq. Zənnimcə, biz nəinki bəzi beynəlxalq siyasi məsələləri, eləcə də, ən vacibi isə, iqtisadi münasibətləri şəxsən nəzərdən keçirmək imkanını əldə etdik. Ölkənizdə gözəl iqtisadi inkişaf gedir. Hesab edirəm ki, əldə etdiyiniz nailiyyətlər bu sahədə işlərin davam etdirilməsində bizim üçün nümunədir.

Mən eyni zamanda bildirmək istəyirəm ki, bizim klassik yazarımız, cəmiyyətinizin görkəmli üzvü olmuş Vintsas Kreve-Mitskyaviçyusun anadan olmasının 125-ci ildönümü münasibətilə Bakı şəhərində xatirə lövhəsinin açılmasına verdiyiniz razılığa görə Sizə olduqca minnətdaram. Bu, bizim nəinki siyasi və beynəlxalq sahələrdə əlaqələrimizi, həm də xalqlarımız arasında mədəni sahədə münasibətlərimizi möhkəmləndirəcəkdir.

Mən qısa, lakin gələcək əməkdaşlığımız üçün çox geniş perspektivlər açan səfərinizə görə Sizə bir daha öz təşəkkürümü bildirirəm.

Sağ olun.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN BƏYANATI

- Çox sağ olun, cənab Prezident!

Gözəl ölkənizə səfərim zamanı mənə və nümayəndə heyətimizə göstərilmiş qonaqpərvərliyə görə Sizə dərin minnətdarlığımı bildirmək istəyirəm.

Biz ikitərəfli münasibətlərə aid bir çox məsələləri əhatə etdik, siyasi, iqtisadi və mədə-

ni sahələrdə, o cümlədən enerji sahəsində əməkdaşlığımızın gələcək perspektivlərini təfərrüatı ilə müzakirə etdik. Bu gün mən Klaypeda limanına səfər etmək və ölkənin malik olduğu böyük infrastruktur avadanlığını görmək imkanına malik oldum. Bu, yükdaşımaları sahəsində yeni perspektivlər açır. Bütün bu sahələrdə biz uğurla əməkdaşlıq edə və ölkələrimizin qarşılıqlı fayda götürməsinə töhfə verə bilərik.

Siyasi münasibətlərimiz çox yüksək səviyyədədir. Buna çox səbəblər var, o cümlədən rəsmi səfərlərin mübadiləsi. Əminəm ki, mənim Litvaya səfərimdən sonra rəsmilərimiz, nazirlərimiz və parlament üzvlərimiz daha çox səfərlər edəcəklər. Biz mədəniyyət işçilərindən ibarət nümayəndə heyətlərinin mübadiləsi barədə razılığa gəldik. Bütün bunlar bizim əməkdaşlığı daha da zənginləşdirəcək.

Əlbəttə ki, xalqlarımız mövcud olan qarşılıqlı irsimizi qorumalıdır. Bugünkü razılığımıza uyğun olaraq, Litvanın tanınmış dövlət xadimi Kreve-Mitskyaviçyusun anadan olmasının 125-ci ildönümü münasibətilə Bakı şəhərində vaxtilə onun yaşadığı binaya xatirə lövhəsi vurulacaqdır. Bu, ölkələrimiz arasında səmimiliyə və tarixi münasibətlərimizə dəlalət edən işarədir. Bu gün iki müstəqil ölkə – Litva və Azərbaycan uğurla inkişaf edir. Son illər ərzində əldə etdiyiniz iqtisadi göstəricilərə və səfər etdiyim Vilnüs, Klaypeda, Palanqa kimi şəhərlərə nəzər salsaq kifayətdir. Əminəm ki, ölkənin digər yerləri də həmin üç şəhər kimi gözəldir. Biz burada olduqca yüksək inkişafı, mədəniyyəti gördük. Burada əsl Avropanı hiss etdik. Biz çox şadıq ki, ölkəniz öz köklərinə, Avropa ailəsinə qayıdır. Siz Avratlantik strukturlarına tam inteqrasiya olmusunuz və Azərbaycan kimi ölkələrin atdığı addımları dəstəkləyirsiniz. Biz Avropa İttifaqı və NATO ilə həyata keçirdiyimiz proqramlara verdiyiniz dəstəyi çox yüksək qiymətləndiririk. Bu, bizim ölkə üçün və Xəzər-Qara-Baltik dənizləri regionunda ümumi əməkdaşlıq üçün çox dəyərli və vacibdir. Bu əməkdaşlıq artıq görünür. Hesab edirəm ki, ikitərəfli münasibətlərimiz həmin geniş beynəlxalq tərəfdaşlığa ciddi şəkildə töhfə verir.

Əfsuslar olsun ki, biz artıq yola düşməliyik. Lakin bildiyiniz kimi, biz bir aydan sonra yenidən ölkənizə qayıdacağıq və Vilnüs enerji sammitində iştirak edəcəyik. Bu, çox vacib beynəlxalq tədbir olacaqdır. Gələcəkdə bizim burada və Bakıda çox təmaslarımız olacaq və tərəfdaşlığımız uğurla davam etdiriləcəkdir.

Səmimiliyinizə, qonaqpərvərliyinizə görə bir daha minnətdaram və mən Sizə və bütün Litva xalqına uğurlar və rifah arzulayıram.

SƏFƏR BAŞA ÇATDI

Sentyabrın 14-də Prezident İlham Əliyevin Litvaya rəsmi səfəri başa çatdı.

AZƏRBAYCANDA TOLERANTLIQ TARİXİ NAİLİYYƏTDİR VƏ HÖKUMƏT BU DƏYƏRLƏRİ QORUYUR

Xarici İşlər Nazirliyinin müavini Xələf Xələfov sentyabrın 14-də Avropa Şurasının (AŞ) milli azlıqların müdafiəsi haqqında Çərçivə Konvensiyası üzrə Məşvərətçi Komitənin nümayəndələri ilə görüşmüşdür.

X.Xələfov Azərbaycanın AŞ ilə dialoqa önəm verdiyini diqqətə çatdıraraq bu məslə-

hətləşmələrdə prioritet kimi insan hüquqları və demokratikləşmənin əsas götürüldüyünü vurğulamışdır.

Nazir müavini demişdir ki, Azərbaycanda tolerantlıq tarixi nailiyyətdir və hökumət bu dəyərin qorunması istiqamətində məqsədyönlü fəaliyyət göstərir.

Komitə üzvləri səfərin təşkilinə görə dərin minnətdarlıqlarını bildirərək, dövlət rəsmiləri ilə keçirdikləri görüşlərdən məmnunluqlarını ifadə etmişlər.

Qonaqlar səfərdən əsas məqsədin ölkədə milli azlıqların hüquqlarının qorunmasının vəziyyətini öyrənmək və bu sahədə Azərbaycanın təcrübəsindən yararlanmaq olduğunu nəzərə çarpdırmışlar.

Tərəflər Konvensiyanın müddəalarının yerinə yetirilməsi istiqamətində qarşılıqlı dialoqun davam etdirilməsi barədə razılığa gəlmişlər.

XARİCİ İŞLƏR NAZİRLİYİNDƏ GÖRÜŞ

Xarici İşlər Nazirlinin müavini Xələf Xələfov sentyabrın 14-də Əfqanıstanın xarici işlər nazirinin müavini Məhəmməd Kəbir Fərahi ilə görüşmüşdür.

Dövlətlərimiz arasında səmərəli dialoqun yaradılmasından məmnunluğunu ifadə edən X.Xələfov Əfqanıstan prezidenti Həmid Kərzainin ölkəmizə səfərinin münasibətlərin genişləndirilməsi istiqamətində mühüm addım olduğunu bildirmişdir.

X.Xələfov narkotik maddələrin qeyri-qanuni dövriyyəsi, beynəlxalq terrorizm və insan qaçaqmalçılığı ilə mübarizədə Azərbaycan-Əfqanıstan əməkdaşlığının vacibliyini vurğulamışdır. Nazir müavini qonağa dövlətimizin həyata keçirdiyi regional və beynəlxalq layihələr haqqında ətraflı məlumat vermişdir.

Ölkəmizdə qeyri-neft sektorunun inkişafı sahəsində görülən işlərdən söhbət açan X.Xələfov demişdir ki, bu tədbirlər nəticəsində Azərbaycan regionda öz mövqeyini daha da möhkəmləndirmiş və lider ölkəyə çevrilmişdir.

Məhəmməd Kəbir Fərahi səmimi qəbula görə təşəkkürünü bildirərək, ölkəsinin Azərbaycan ilə ikitərəfli əməkdaşlığın genişləndirilməsində maraqlı olduğunu nəzərə çarpdırmışdır.

Qonaq Əfqanıstan hökumətinin siyasi, iqtisadi və mədəni sahələrdə həyata keçirdiyi tədbirlər haqqında ətraflı məlumat verərək Azərbaycanın həm dövlət, həm də özəl şirkətlərini Əfqanıstan iqtisadiyyatının yenidən qurulmasında fəal iştirak etməyə çağırmışdır.

Ölkəsində mövcud çoxsaylı problemləri xatırladan Əfqanıstan rəsmisi dövlətinin Azərbaycanın əldə etdiyi təcrübədən istifadə etmək niyyətində olduğunu bildirmişdir.

Məhəmməd Kəbir Fərahi dövlətlərimiz arasında mədəni və humanitar sahələrdə əməkdaşlığın möhkəmləndirilməsi üçün geniş potensialın mövcudluğunu qeyd edərək, Azərbaycan-Əfqanıstan hökumətlərarası komissiyasının yaradılmasının zəruriliyini nəzərə çarpdırmışdır.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV ATƏT-İN MİNSK QRUPUNUN HƏMSƏDRLƏRİNİ VƏ ATƏT-İN HAZIRKI SƏDRİNİN XÜSUSİ NÜMAYƏNDƏSİNİ QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 18-də Prezident sarayında ATƏT-in Minsk qrupunun həmsədrləri Bernar Fasyeni (Fransa), Yuri Merzlyakovu (Rusiya), Mətyu Brayzəni (ABŞ) və ATƏT-in hazırkı sədrinin xüsusi nümayəndəsi Anji Kaspşiki qəbul etmişdir.

Görüş zamanı Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin nizama salınması ilə əlaqədar aparılan danışıqlar prosesinin hazırkı vəziyyəti ilə bağlı məsələlər müzakirə edilmişdir.

MOSKVADA AZƏRBAYCAN DİPLOMATİK AKADEMİYASI İLƏ MDBMİ ARASINDA ƏMƏKDAŞLIQ HAQQINDA SAZİŞ İMZALANMIŞDIR

Azərbaycan Diplomatik Akademiyası və RF XİN yanında (Moskva Dövlət Beynəlxalq Münasibətlər İnstitutu (Universiteti) MDBMİ (U) – diplomatik kadrların hazırlanması və təcrübə mübadiləsi sahəsində hərtərəfli əməkdaşlıq edəcəklər.

Azərbaycan xarici işlər nazirinin müavini, Diplomatik Akademiyanın rektoru, professor Hafiz Paşayev və MDBMİ-nin rektoru Anatoli Torkunov sentyabrın 18-də MDBMİ-nin binasında bu barədə saziş imzalamışlar.

İmzalanma mərasimində Azərbaycanın RF-dəki səfiri Polad Bülbüloğlu, MDBMİ-nin Azərbaycan klubunun prezidenti, Heydər Əliyev Fondunun Rusiyadakı nümayəndəsi Leyla Əliyeva, bu ali məktəbin müəllim və tələbələri iştirak etmişdir.

Anatoli Torkunov demişdir ki, o, Azərbaycan Prezidenti İlham Əliyevin dəvəti ilə ölkəmizdə səfərdə olmuş və iki tədris müəssisəsi arasında gələcək əməkdaşlıq barədə azərbaycanlı həmkarı ilə ilkin danışıqlar da Bakıda aparılmışdır. Azərbaycan Diplomatik Akademiya yeni yaradılmasına baxmayaraq, fəal inkişaf etməkdə olan və gələcəyə istiqamət götürmüş tədris müəssisəsidir. Biz onunla çox sıx əməkdaşlıq etməkdə maraqlıyıq.

Rektor daha sonra demişdir: Azərbaycanla əlaqələrimiz sözün bütün mənalarında dərin xarakter daşıyır. Burada azərbaycanlı tələbələr oxuyurlar, Azərbaycan dili öyrənilir... Bizim ali məktəbin ən möhtərəm və hörmətli fəxri doktorlarından ikisi Azərbaycandandır. Onlardan biri təəssüf ki, artıq dünyasını dəyişmiş Heydər Əliyeviç Əliyev, digəri Azərbaycanın indiki Prezidenti, vaxtilə MDBMİ-nin tələbəsi, daha sonra müəllimi olmuş, bütün həyatı bizim universitetlə bağlı olan İlham Əliyevdir. Ona görə də mən deyərdim ki, Azərbaycanla bizim məxsusi münasibətlərimiz var və biz Azərbaycan Diplomatik Akademiya ilə sıx əməkdaşlıq edəcəyik".

Hafiz Paşayev bildirmişdir ki, MDBMİ-nin rektoru bizim akademiyanın ilk qonaqlarından biri olmuş, onun azərbaycanlı tələbələr və respublika ictimaiyyəti qarşısında çıxışı çox böyük maraqla qarşılanmışdır. H.Paşayev MDBMİ-nin təhsil sistemində əhəmiyyətindən söhbət açaraq xatırlatmışdır ki, vaxtilə hər bir gənc, o cümlədən o, özü də bu nüfuzlu ali məktəbdə oxumağa can atırdı və burada təhsil almaq xüsusi imtiyaz sayılırdı.

Bu gün biz burada azərbaycanlı tələbələrə verilən təhsilin bəhrələrini görürük. Siz qeyd etdiniz ki, Azərbaycanın indiki Prezidenti MDBMİ-nin məzunudur. Mən də bilirəm ki, o, MDBMİ-nin bayrağını uca, yüksək tutur. Onun sizin ali məktəbdəki çıxışını mən görmüşəm. Müasir Azərbaycanı onun necə təqdim etməsi sizin unversitetdə hələ də xatırlanır.

Səfir Polad Bülbüloğlu çıxışında MDBMİ-nin rektoruna ölkəmizə səmimi münasibətinə görə təşəkkür edərək bildirmişdir ki, bu sazişin imzalanması ixtisaslı kadrlar hazırlanması üçün çox gərəkli təşəbbüsdür. Azərbaycanda ixtisaslı kadrların çatışmaması hiss olunur, ancaq indi Diplomatik Akademiya yaradılmışdır və o, bu məsələni həll edəcəkdir.

Sonra Hafiz Paşayev MDBMİ-nin tələbələri qarşısında çıxış edərək Azərbaycan Respublikasının ABŞ-da səfiri işlədiyi dövrdəki fəaliyyəti, ölkəmizlə ABŞ arasında strateji tərəfdaşlıq səviyyəsinə çatmış ikitərəfli münasibətlər barədə söhbət açmış, Diplomatik Akademiyanın fəaliyyətinin prioritet istiqamətlərindən danışmışdır. O xüsusi vurğulamışdır ki, kadr hazırlığı məsələsi sürətlə inkişaf edən və regionda lider olan ölkəmizin gələcəyi üçün çox vacib və əhəmiyyətli məsələdir. Rektor demişdir: "Neft strategiyasının müsbət təcrübəsi və Azərbaycan iqtisadiyyatının şaxələndirilməsi siyasəti yüksək hazırlıqlı kadrlar tələb edir. Bizim planlarımıza bütün region və daha geniş ərazi üçün tədqiqat qrupları yaratmaq məsələsi də daxildir, çünki Azərbaycanın geosiyasi mövqeyi müasir dövrün ən aktual məsələlərinə qoşulmağı tələb edir. Buna görə də biz akademiyamızı təkcə diplomatlar üçün deyil, həm də geniş ohatəli mütəxəssislər üçün məktəb kimi təsəvvür edirik. Bu məqsədə nail olmaq üçün biz ABŞ-ın, Avropanın, başqa ölkələrin müxtəlif aparıcı ali məktəbləri ilə fəal əməkdaşlıq edir, qısamüddətli kurslar təşkil edir, dünyanın bir sıra ölkələri üçün təhsil mərkəzinə çevriləcəyinə əmin olduğumuz akademiyaya tanınmış alimləri və diplomatları dəvət edirik".

Daha sonra H.Paşayev MDBMİ-nin tələbələrinin suallarına cavab vermişdir. O, Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi və Azərbaycan haqqında obyektiv informasiyanın bütün dünyaya çatdırılmasının vacibliyi məsələsinə xüsusi diqqət yetirmişdir. Bildirmişdir ki, 14 il bundan əvvəl səfir vəzifəsində yenicə işə başladığı vaxtlarda ABŞ-da ölkəmiz barəsində nəinki az məlumata malik idilər, hətta olan informasiya da tamamilə təhrif edilmişdi. Diplomat demişdir: "ABŞ-dakı erməni diasporu Azərbaycan ilə ABŞ arasında münasibətlərdə mühüm amildir. Buna baxmayaraq, ölkəmiz barəsində mifi addım-addım puç etmişik. Mən Azərbaycan-Amerika münasibətlərinin necə inkişaf etməsinin canlı şahidiyəm və Azərbaycanda bu münasibətlərin səviyyəsindən razıdırlar. Münasibətlərimiz strateji tərəfdaşlıq səviyyəsinə yüksəlmişdir və biz bu yolu çox sürətlə keçmişik. Doktor Zbiqnev Bjezinski 1998-ci ildə demişdi: "Siz bu qısa müddətdə gördüyünüz işlərlə fəxr edə bilərsiniz". Bu gün mən inamla deyə bilərəm ki, ABŞ-da Azərbaycan haqqında kifayət qədər informasiya vardır və heç bir qüvvə ABŞ ilə bizim münasibətlərimizi korlaya bilməz".

Hafiz Paşayev özünün "Bir səfirin manifesti" adlı kitabının avtoqraflı nüsxələrini tələbələrə paylamışdır. MDBMİ-nin rəhbərliyi isə onların köməyi ilə nəşr edilmiş üçcildlik "Böyük diplomatlar haqqında" kitabını və daha bir neçə seçmə yeni kitabı azərbaycanlı diplomata təqdim etmişdir.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV İTALİYA PARLAMENTİ DEPUTATLAR PALATASININ XARİCİ İŞLƏR DAİMİ KOMİSSİYASININ SƏDRİ UMBERTO RANİERİNİN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİNİ QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 20-də Prezident sarayında İtaliya Respublikası Parlamenti Deputatlar Palatasının Xarici İşlər daimi komissiyasının sədri Umberto Ranierinin başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.

Dövlətimizin başçısı Azərbaycanla İtaliya arasında ikitərəfli münasibətlərin bütün sahələrdə uğurla inkişaf etdiyini bildirdi. Siyasi əlaqələrin yaxşı səviyyədə olduğunu qeyd edən Prezident İlham Əliyev ölkələrimiz arasında ticarət dövriyyəsinin ildən-ilə artdığını müsbət hal kimi dəyərləndirdi. İkitərəfli münasibətlərdə parlamentlərarası əlaqələrin böyük önəm daşıdığını vurğulayan dövlətimizin başçısı əmin olduğunu bildirdi ki, İtaliya nümayəndə heyətinin ölkəmizə bu səfəri əlaqələrimizin daha da inkişaf etdirilməsi işinə öz töhfəsini verəcəkdir.

Cənab Umberto Ranieri Azərbaycan-İtaliya münasibətlərinin uğurla inkişaf etdiyini vurğulayaraq dedi: "İtaliya ticarət sahəsində Azərbaycanın bir nömrəli tərəfdaşıdır, strateji əhəmiyyət daşıyan energetika sahəsində olduğu kimi, əməkdaşlığımızın iqtisadi, mədəni və digər sahələrdə daha da inkişaf etdirilməsi üçün yaxşı imkanlar var. Biz eyni zamanda, bir dövlət başçısı kimi Sizin ölkənizdə davamlı demokratik inkişaf, o cümlədən iqtisadi artım, çox gözəçarpan iqtisadi göstəricilər ilə bağlı səylərinizi yüksək qiymətləndiririk".

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV AVSTRİYANIN İQTİSADİYYAT VƏ ƏMƏK NAZİRİ MARTİN BARTENŞTAYNIN RƏHBƏRLİK ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİNİ QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 20-də Prezident sarayında Avstriyanın iqtisadiyyat və əmək naziri Martin Bartenştaynın rəhbərlik etdiyi nümayəndə heyətini qəbul etmişdir.

Dövlətimizin başçısı Azərbaycan ilə Avstriya arasında iqtisadi əlaqələrin geniş sahələri əhatə etdiyini, bir sıra Avstriya şirkətlərinin ölkəmizdə uğurla fəaliyyət göstərdiyini qeyd etdi. Prezident İlham Əliyev bu səfərin iki ölkə arasında əlaqələrin bundan sonra da genişləndirilməsinə xidmət edəcəyinə əminliyini ifadə etdi.

Martin Bartenştayn Azərbaycana səfəri çərçivəsində artıq bir sıra səmərəli görüşlər keçirdiyini bildirdi. Qonaq səfər zamanı imzalanacaq sənədlərin ikitərəfli əməkdaşlığımızın daha da inkişaf etdirilməsi üçün yaxşı imkanlar yaradacağını qeyd etdi.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV BÖYÜK BRİTANİYANIN ENERGETİKA ÜZRƏ DÖVLƏT NAZİRİ MALKOLM UİKSİN RƏHBƏRLİK ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİNİ QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 21-də Prezident sarayında Böyük Britaniyanın energetika üzrə dövlət naziri Malkolm Uiksin rəhbərlik etdiyi nümayəndə heyətini qəbul etmişdir.

Görüşdə Azərbaycan ilə Böyük Britaniya arasında iqtisadi, o cümlədən energetika sahəsində əməkdaşlığın uğurla inkişaf etdirildiyi bildirildi. Azərbaycanın təşəbbüsü və birbaşa iştirakı ilə həyata keçirilən qlobal neft və qaz layihələrinin reallaşdırılması işində ölkələrimizin uzun illər səmərəli əməkdaşlıq etdiyi vurğulandı, bu əməkdaşlığın gələcəkdə də davam etdiriləcəyinə əminlik ifadə olundu.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV POLŞA PREZİDENTİ DƏFTƏRXANASININ RƏHBƏRİ VƏZİFƏSİNİ İCRA EDƏN, DÖVLƏT KATİBİ ROBERT DRABANI QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 21-də Prezident sarayında Polşa Prezidenti Dəftərxanasının rəhbəri vəzifəsini icra edən, dövlət katibi Robert Drabanı qəbul etmişdir.

Robert Draba səmimi qəbula görə Prezident İlham Əliyevə təşəkkür edərək dedi: "Polşa Prezidenti hesab edir ki, Azərbaycan ilə əlaqələrimiz çox yaxşı səviyyədədir və biz münasibətlərimizin daha da inkişaf etdirilməsini istəyirik". Qonaq Azərbaycanın ölkəsi üçün strateji tərəfdaş olduğunu vurğuladı. Azərbaycanın dövlət başçısını Polşa Prezidentinin adından öz ölkəsinə rəsmi səfərə dəvət edən Robert Draba bu səfərin ikitərəfli əlaqələri daha da yüksək səviyyəyə qaldırmaq üçün növbəti addım olacağını bildirdi. Sonra Robert Draba Polşa Prezidenti Lex Kaçinskinin məktubunu Prezident İlham Əliyevə təqdim etdi.

Dövlətimizin başçısı məktuba və Polşaya rəsmi səfərə dəvətə görə Prezident Lex Kaçinskiyə təşəkkürünü çatdırmağı xahiş etdi. O, Polşa Prezidenti ilə keçirdiyi görüşləri məmnuniyyətlə xatırlayaraq, qarşılıqlı səfər və görüşlərin iki ölkə arasında əlaqələrin daha da möhkəmləndirilməsi baxımından mühüm rol oynadığını vurğuladı. Prezident İlham Əliyev Azərbaycan ilə Polşa arasında ikitərəfli münasibətlərin müxtəlif sahələrdə inkişafının, eyni zamanda, ölkəmizin Avropa İttifaqı ilə əlaqələrinin daha da genişləndirilməsi üçün əhəmiyyətli olduğunu bildirdi.

XARİCİ İŞLƏR NAZİRLİYİNƏ MÜSABİQƏ ÜSULU İLƏ İŞƏ QƏBUL OLMUŞ GƏNCLƏR DİPLOMATİK TƏLİMLƏRDƏ İŞTİRAK EDƏCƏKLƏR

Sentyabrın 24-də Xarici İşlər naziri Elmar Məmmədyarov nazirliyin Diplomatik Akademiyasının ilk tələbələri ilə görüşmüşdür.

Tanışlıq məqsədi daşıyan görüşdə E.Məmmədyarov Azərbaycanın xarici siyasətinin prioritet istiqamətləri haqqında danışmış, gələcək diplomatlara tövsiyələrini vermişdir.

Xarici İşlər Nazirliyinə bu il imtahan üsulu ilə işə qəbul olmuş 25 gənc beş ay müddətində nazirliyin bölmələrində təcrübə keçməklə yanaşı, Diplomatik Akademiyanın təşkil etdiyi kurslarda iştirak edirlər. Kursların ilk iki ayında tələbələr intensiv Azərbaycan və ingilis dili dərslərində iştirak etmiş, tarix və mədəniyyət mövzularında müxtəlif mühazirələr dinləmiş, ölkəmizin regionlarına səfər etmişlər.

Kursların ikinci mərhələsində tələbələr beş gün XİN-də tanışlıq həftəsində iştirak edirlər. Gələn həftədən başlayaraq onlar Azərbaycan Diplomatik Akademiyasının Türkiyə Xarici İşlər Nazirliyi, Avropa Kolleci, Fletçer Diplomatiya və Hüquq Məktəbi, Vyana Diplomatik Akademiyası ilə birgə keçirəcəyi müxtəlif mövzularda diplomatik təlimlərdə iştirak edəcəklər.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN RUMİNİYAYA İŞGÜZAR SƏFƏRİ

Sentyabrın 24-də Azərbaycan Prezidenti İlham Əliyev Rumıniyaya işgüzar səfərə gəlmişdir.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN RUMİNİYA PREZİDENTİ TRAYAN BESESKU İLƏ GÖRÜŞÜ

Sentyabrın 24-də Buxarestdə, "Lak-2" iqamətgahında Azərbaycan Prezidenti İlham Əliyevin və Rumıniya Prezidenti Trayan Beseskunun görüşü olmuşdur.

Görüş zamanı Azərbaycan-Rumıniya əməkdaşlığının uğurlu inkişafı, qarşılıqlı surətdə faydalı iqtisadi əlaqələrin genişləndirilməsi məsələləri müzakirə edildi. Hər iki ölkənin beynəlxalq təşkilatlarda, o cümlədən Avratlantik strukturlarında bir-birinin mövqelərini qarşılıqlı dəstəkləməsi qeyd olundu. Dövlət başçıları bir məqamı xüsusi vurğuladılar ki, Buxarestdə Heydər Əliyev Fondunun nümayəndəliyinin və Azərbaycanın ümummilli liderinin adını daşıyan parkın açılması iki ölkənin xalqları arasında əlaqələrin möhkəmlənməsinə xidmət edir. Söhbət zamanı qarşılıqlı səfərlərin əhəmiyyəti də vurğulandı.

BUXARESTDƏ HEYDƏR ƏLİYEV ADINA XİYABANIN RƏSMİ AÇILIŞ MƏRASİMİ

Sentyabrın 24-də Buxarestdə Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin adını daşıyan xiyabanın rəsmi açılış mərasimi olmuşdur. Azərbaycan Prezidenti İlham Əliyev, Rumıniya Prezidenti Trayan Besesku və onların xanımları mərasimdə iştirak edirdilər.

Parkın girəcəyində Azərbaycan Prezidenti İlham Əliyevi, Rumınya Prezidenti Trayan Beseskunu və onların xanımlarını Buxarestin ikinci sektorunun meri Nekulai Ontanu və Rumıniya-Azərbaycan Dostluq Cəmiyyətinin sədri İoan Pop de Popa qarşıladılar.

Rumıniya paytaxtının türk və tatar diasporunun nümayəndələri Heydər Əliyevin Buxarestdə büstünün qoyulmasını və onun adını daşıyan xiyabanın açılışını əlamətdar hadisə adlandırdılar.

Mərasimdə çıxış edən Buxarestin ikinci sektorunun meri Nekulai Ontanu paytaxtın mərkəzində Heydər Əliyev xiyabanının açılışını iki ölkə və xalqlarımız arasında yüksək səviyyədə münasibətlərin daha bir bariz nümunəsi kimi dəyərləndirdi. Rumıniya-Azərbaycan əlaqələrinin inkişafına Prezident İlham Əliyevin verdiyi silsilə töhfələri yüksək qiymətləndirən mer rumın xalqının dərin minnətdarlıq hisslərini Azərbaycanın dövlət başçısına yetirdi. O, Azərbaycan-Rumıniya əməkdaşlığının möhkəmlənməsində iki ölkə prezidentlərinin şəxsi dostluğunun da həlledici rol oynadığını vurğuladı.

Nekulai Ontanu daha sonra dedi:

- Zati-aliləri cənab prezidentlər Trayan Besesku və İlham Əliyev, hörmətli xanımlar Mariya Besesku və Mehriban Əliyeva, biz sevinirik ki, bu gün sizləri modern bir mühitdə qarşılayırıq. Elə bir mühit ki, o, Avropa standartlarına uyğun olaraq yaradılmışdır. Burada təbii gözəlliyə malik olan işlər görülmüşdür, fəvvarələr qurulmuşdur və insanların istirahət etməsi, gəzməsi üçün xüsusi yerlər ayrılmışdır, uşaqlar üçün oyun meydançaları yaradılmışdır. Bütün bu işlər Rumıniya və Azərbaycan arasındakı xüsusi dostluq münasibətləri sayəsində mümkün olmuşdur. Eyni zamanda bu, ikinci sektorun meriyası üçün bir xüsusi hadisəyə çevrilmişdir. Fürsətdən istifadə edərək, bir daha zati-aliləri cənab Prezident Trayan Beseskuya və zati-aliləri cənab Prezident İlham Əliyevə hörmətimi, dərin ehtiramımı çatdırmaq, habelə sevinc hisslərimi bildirmək istəyirəm ki, onlar bu gün bizim üçün mühüm olan bir tədbirdə bizimlə, ikinci sektorun ictimaiyyəti ilə birlikdədirlər. Ali qonaqların burada olması, Tei parkında Heydər Əliyev xiyabanının açılışında onların iştirakı bizi xüsusilə şərəfləndirir. Sizə təşəkkür edirəm.

RUMİNİYA-AZƏRBAYCAN DOSTLUQ CƏMİYYƏTİNİN SƏDRİ İOAN POP DE POPANIN ÇIXIŞI

-Zati-aliləri cənab İlham Əliyev!

Zati-aliləri cənab Trayan Besesku!

Əziz dostlar!

İlk növbədə, icazənizlə, Azərbaycan Respublikasının Prezidenti zati-aliləri cənab İlham Əliyevi və Rumıniya Prezidenti zati-aliləri Trayan Beseskunu bu parkda görməkdən məmnunluğumu bildirim və Rumıniya-Azərbaycan dostluq münasibətlərinin inkişafı üçün əlamətdar bir tədbirdə iştirakınıza görə hər birinizə öz minnətdarlığımı çatdırım. Sizin hər birinizin burada iştirakının ikitərəfli əlaqələrin inkişafı baxımından böyük əhəmiyyəti vardır.

Mən Azərbaycan xalqının ümummilli lideri dünya şöhrətli siyasətçi, dahi şəxsiyyət Heydər Əliyevin büstünün 2004-cü ilin oktyabr ayında açılış mərasimini böyük məmnunluqla xatırlayıram. O zaman da bu park çox gözəl idi, amma qısa bir müddət keçdikdən sonra bura Rumıniyanın ən gözəl parkı oldu. Bu gün gördüyünüz bu gözəllik yaradıldı.

Heydər Əliyev Rumıniyanın dostu idi. İki ölkə arasında mövcud olan strateji tərəfdaşlıq əlaqələrinin təməlinin qoyulmasında Heydər Əliyevin xüsusi, danılmaz xidmətləri olmuşdur. Rumıniyada Heydər Əliyevin büstünün ucaldılması, onun adını daşıyan xiyabanın açılması bu dahi şəxsiyyətə hörmət və ehtiramın təzahürüdür. Eyni zamanda, bu gözəl parkı Rumıniya sakinlərinin istifadəsinə verdiklərinə və məşhur rumın bəstəkarı Corce Eneskunun Bakı şəhərində büstünün ucaldılmasına görə şəxsən Azərbaycan Prezidentinə dərin minnətdarlığımı bildirirəm. Çünki bu xeyirxah təşəbbüs və nəcib əməllər cənab İlham Əliyevə məxsusdur.

Bu gün Azərbaycanın qazandığı nailiyyətlər, iki ölkə arasında daimi qarşılıqlı dəstək və dostluq əlaqələrinin ildən-ilə möhkəmlənməsi bizi sevindirir. Mən 2003-cü ildə Azərbaycanda Prezident seçkiləri ərəfəsində Rumıniya və Avropa kütləvi informasiya vasitələrində səsləndirdiyim fikirləri böyük məmnuniyyətlə xatırlatmaq istərdim: "Sağlam məntiq onu diktə edir ki, özünün gələcək taleyini düşünən, dərk edən, səsvermə hüququna malik olan hər bir Azərbaycan vətəndaşı Heydər Əliyev siyasətinin, siyasi xəttinin ən etibarlı davamçısına, ölkənin Avropaya inamlı inteqrasiyası, tərəqqi və demokratiya yolu ilə inkişafının təminatçısına, İlham Əliyevə səs verəcək, dövlətin idarəçilik sükanını ona etibar edəcəkdir".

Mən şadam ki, bu fikirlərimdə haqlı olmuşam. Sevindirici haldır ki, cənab İlham Əliyev Prezident seçildikdən sonra üç dəfə Rumıniyada səfərdə olmuş, cənab Trayan Besesku da prezidentliyi dövründə iki dəfə Bakını ziyarət etmişdir. Bu cür hallar beynəlxalq münasibətlərdə xüsusi əhəmiyyət kəsb edir. Rumıniya və Azərbaycan arasında səfərlərin intensivliyi, dostluq və səmimilik göz önündədir. Biz xalqlarımızın və prezidentlərimizin bu dostluq münasibətlərindən qürur duyuruq.

Bu gözəl xiyabanın açılması münasibətilə zati-aliləri cənab prezidentləri və xalqlarımızı təbrik edirəm.

Diqqətinizə görə minnətdaram.

RUMİNİYA PREZİDENTİ TRAYAN BESESKUNUN ÇIXIŞI

- Cənab Prezident Əliyev!

Xanım Əliyeva!

Cənab mer və Rumıniya-Azərbaycan Dostluq Cəmiyyətinin sədri!

İcazə verin, mən öz sevinc hisslərimi ifadə edim ki, bu gün belə bir gözəl formada bizim ölkələrimiz – Rumıniya və Azərbaycan arasındakı münasibətlərin yüksək səviyyəsini bir daha qeyd edirik.

Keçən il mən Bakıya səfər edərkən biz orada dahi rumın bəstəkarı Corce Eneskunun heykəlinin açılışını keçirdik. Bu hadisə ilə Azərbaycan xalqı bir daha göstərdi ki, o, rumın xalqının mədəni dəyərlərini, mədəniyyətini qəbul edir və sevir.

Bu gün Buxarestdə Heydər Əliyev Fondunun yerli nümayəndəliyi açılır. Eləcə də burada Heydər Əliyevin adını daşıyan xiyabanın açılışını keçiririk. Bu isə rumın xalqının Azərbaycanın tarixinə, eləcə də Azərbaycan xalqına artıq 15 il bundan əvvəl böyük bir azadlıq verən ümummilli liderinə olan hörmət hissinin təzahürüdür.

Heydər Əliyev Azərbaycanın bir qəhrəmanı, Rumıniyanın isə dostu idi. Bizim yaxşı yadımızdadır ki, hələ o çətin vaxtlarda Heydər Əliyev Azərbaycanın müstəqillik qazanma-

sına imkan yaratdı, onun Sovet İttifaqından yaxa qurtarmasına şərait yaratdı. Həmin o çətin vaxtlarda azadlıq uğrunda nümayiş etdirilən cəsarət eynilə Rumıniyada da baş verən hadisələrlə paralellik təşkil edirdi. Çünki həmin vaxtlarda, yəni, bir qədər əvvəl, 1989-cu ildə Rumıniyada da inqilab baş verməkdə idi.

Bakı və Buxarest arasındakı diplomatik əlaqələrin qurulmasından cəmi 15 il vaxt keçir. Amma bu qısa müddətdə ikitərəfli əlaqələrin səviyyəsinə baxdıqda, onların çox sürətlə inkişaf etdiyini və səmərəli olduğunu görürük.

Mən əminəm, Rumıniyanın və Azərbaycanın xarici siyasətində iki mühüm amil olub ki, onlar ikitərəfli əlaqələrin bu cür sürətlə inkişaf etməsinə imkan veribdir. Birincisi, ona görə ki, həm Rumıniya, həm də Azərbaycan Xəzər dənizi və Qara dəniz regionunun burada yaşayan xalqlar üçün bir təhlükəsizlik zonasına, bölgəsinə çevrilməsinə səy göstərir. İkinci cəhət isə ondan ibarətdir ki, həm Rumıniya, həm də Azərbaycan Xəzər dənizi və Qara dəniz regionunda müxtəlif mədəniyyətlərə məxsus olan xalqların bir-biri ilə anlaşması və sülh şəraitində yaşaması üçün dialoq yolunu tapmalıdır və tapacaqlar. Çünki Rumıniya da və Azərbaycan da beynəlxalq hüququn prinsiplərinə, onların pozulmamasına xüsusi əhəmiyyət verirlər. Bunu deyərkən mən ölkələrin sərhədlərinin pozulmaması və ərazi bütövlüyü məsələlərini nəzərdə tuturam. Bu elementlər, bu amillər yalnız ümumi məsələlərdən bir neçəsidir ki, hazırda Rumıniya və Azərbaycan arasında əlaqələrin daha da inkişaf etməsinə şərait yaradır. Bu amillər sayəsində bir tərəfdən, iqtisadi, siyasi əlaqələr, digər tərəfdən siyasi xadimlər arasında bir-birinə olan inam ölkələr arasındakı münasibətlərin daha da inkişafına səbəb olur. Bu baxımdan, cənab Prezident, mən Sizə dərin təşəkkürümü bildirirəm.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN ÇIXIŞI

Hörmətli cənab Prezident!

Hörmətli xanım Besesku!

Əziz dostlar, xanımlar və cənablar!

Bu gün Rumıniya-Azərbaycan münasibətlərinin tarixində çox əlamətdar bir gündür. Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin adını daşıyan xiyabanın açılışına toplaşmışıq. Bu münasibətlə mən sizin hamınızı ürəkdən təbrik edirəm.

Müasir Azərbaycan dövlətinin qurucusu Heydər Əliyev öz həyatını doğma xalqına xidmətə həsr etmişdir. Əsrlər boyu müstəqillik həsrətində olmuş Azərbaycan xalqı müstəqillik qazandıqdan sonra çox böyük çətinliklərlə üzləşmişdi. Heydər Əliyevin rəhbərliyi altında Azərbaycan öz dövlət müstəqilliyini möhkəmləndirdi, onu əbədi, dönməz etdi və bu gün Azərbaycan çox sürətlə inkişaf edən ölkədir.

Rumıniya-Azərbaycan münasibətlərinin inkişafında da Heydər Əliyevin çox böyük rolu olmuşdur. O, Rumıniyaya və rumın xalqına həmişə böyük hörmət və məhəbbətlə yanaşırdı. Hazırda bizim əlaqələrimiz daha da sürətlə inkişaf edir və Rumıniya-Azərbaycan tərəfdaşlığı həm iki ölkənin inkişafına, həm də bölgədə gedən müsbət proseslərə öz təsirini göstərməkdədir.

Mən bu gün hörmətli Prezident Beseskunun dəvətini qəbul edib yenidən Rumıniya torpağında səfərdəyəm. Bu imkan bizə yeni üfüqlər açacaqdır. Biz bu gün cənab Prezidentlə ikitərəfli münasibətləri təhlil etdik, gələcək inkişaf perspektivlərini müzakirə etdik və bir daha əmin olduq ki, xalqlarımız bir-birinə çox yaxındır, ölkələrimiz çox sıx əməkdaşlıq edir və hər birimiz bu əməkdaşlığın inkişafı üçün bundan sonra da öz səylərimizi göstərəcəyik.

Rumıniya Azərbaycanın müstəqilliyini tanıyan ikinci ölkə olmuşdur. Müstəqillik dövründə biz həmişə Rumıniyanın dəstəyini hiss etmişik, bu gün də bunu hiss edirik. Azərbaycanın Avratlantik strukturlarına inteqrasiya meyillərini Rumıniya dövləti və şəxsən Prezident Besesku həmişə dəstəkləmişdir və bu dəstəyi biz bu gün də hiss edirik. Regional əməkdaşlıq işlərində Rumıniya çox fəal rol oynayır və bu, bizi daha da birləşdirir.

Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli işində və postsovet məkanındakı başqa oxşar münaqişələrin həlli məsələlərində Rumıniyanın birmənalı mövqeyi var. O da ondan ibarətdir ki, beynəlxalq hüquq normalarına əməl edilməli ölkələrin ərazi bütövlüyü bərpa olunmalıdır.

Amma bizi təkcə siyasi maraqlar, yaxud da ki, iqtisadi əməkdaşlıq layihələri birləşdirmir. Bizi eyni zamanda, humanitar məsələlər birləşdirir. Xalqlarımızın görkəmli şəxsiyyətlərinə hörmətimiz, ehtiramımız birləşdirir. Çox əlamətdar hadisədir ki, Rumıniya torpağında Böyük azərbaycanlı Heydər Əliyevin, Azərbaycan torpağında isə Böyük rumın Corce Eneskunun abidələri ucaldılmışdır.

Mən Rumıniya-Azərbaycan münasibətlərinin perspektivlərinə çox böyük nikbinliklə baxıram. Biz son iki il ərzində Prezident Besesku ilə beş dəfə görüşmüşük və bu görüşlər çox səmimi şəkildə keçir. Növbəti planlarımız da var və mən şübhə etmirəm ki, bizim dövlətlərimiz qarşıda duran bütün vəzifələri çiyin-çiyinə yerinə yetirəcək və əməkdaşlıq daha da möhkəmlənəcəkdir.

Mən bu parka üçüncü dəfədir gəlirəm və hər dəfə burada yeniliklər görürəm. Park daha da gözəlləşir, daha da abadlaşır və bu, çox sevindirici haldır. Burada şəhərin, bu sektorun sakinləri üçün də çox gözəl şərait yaradılıbdır. Bu parkın bərpasında və Heydər Əliyev xiyabanının yaradılmasında əməyi olan bütün insanlara öz dərin minnətdarlığımı bildirmək istəyirəm. Xüsusilə Prezident Beseskuya və Buxarest şəhərinin ikinci sektorunun meriyə və bütün dost rumın xalqına bu münasibətə, bu hörmətə, ulu öndərin xatirəsinə verilən bu qiymətə görə öz dərin minnətdarlığımı bildirmək istəyirəm.

Təşəkkür edirəm.

BUXARESTDƏ HEYDƏR ƏLİYEV FONDUNUN NÜMAYƏNDƏLİYİNİN AÇILIŞI OLMUŞDUR

Sentyabrın 24-də Azərbaycan Prezidenti İlham Əliyev və Rumıniya Prezidenti Trayan Besesku öz xanımları ilə birlikdə Buxarestin mərkəzində Heydər Əliyev Fondunun nümayəndəliyinin açılış mərasimində iştirak etmişlər.

Dövlətimizin başçısına məlumat verildi ki, Heydər Əliyev Fondunun Rumıniya nümayəndəliyinin açılması ilə bağlı müvafiq sənədlər toplusu Rumıniyanın Elmi Tədqiqatlar Agentliyi, Elmlər Akademiyasının Rəyasət heyəti, səhiyyə, xarici işlər,

ədliyyə, mədəniyyət və təhsil Nazirliklərinin, Baş nazirin müavininin imzaları ilə təsdiq olunduqdan sonra Nazirlər Kabinetinin tam tərkibli iclasında müzakirə edilərək, baş nazirin sərəncamı ilə müvafiq qərar qəbul olunmuşdur. Qərar Rumıniyanın rəsmi dövlət bülletenində çap edildikdən və Rumıniya Ali Məhkəməsinin qərarı ilə təsdiq olunduqdan sonra qüvvəyə minmişdir.

Nümayəndəliyin humanitar fəaliyyəti ölkə ictimaiyyəti tərəfindən dəstəklənmişdir. Məsələn, nümayəndəlik ahıllar evlərindən birini hamiliyə götürmüşdür. Nümayəndəliyin Buxarestin mərkəzində yerləşən binası XX əsrin əvvəlində tikilmiş memarlıq abidəsidir.

Azərbaycan və Rumıniya prezidentləri nümayəndəliyin açılışını bildirən rəmzi lenti kəsdilər.

Dövlət başçıları Fondun nümayəndəliyi ilə tanış oldular və Fəxri qonaqlar kitabına ürək sözlərini yazdılar.

Sonra Azərbaycan Prezidenti İlham Əliyev və Rumıniya Prezidenti Trayan Besesku nümayəndəliyin həyətində ağac əkdilər.

Renomed Form tibb mərkəzinin rəhbəri Dayan Babesku həmin mərkəzin nəzdində fəaliyyət göstərən, Krayova şəhərində yerləşən dializ və nevrologiya klinikasına Heydər Əliyevin adının verilməsi barədə qərarın surətini Azərbaycan Prezidentinə təqdim etdi.

PLOYEŞTİ RUMİNİYANIN NEFT PAYTAXTIDIR

Rumıniyada işgüzar səfərdə olan Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 25-də bu ölkənin neft paytaxtı kimi tanınmış Ployeşti şəhərinə gəlmişdir.

Prezident əvvəlcə Ployeşti Saat muzeyində oldu, burada professor Nikolayc Simakinin topladığı ekspozisiyaya tamaşa etdi. 2 min eksponatı olan bu muzey 1963-cü ildə açılmışdır. Hazırda burada 500 eksponat nümayiş etdirilir. Onların arasında qədim günəş, qum və su saatları, eləcə də Rumıniya kralı I Karola, Rusiya imperatoru II Aleksandra, Rumıniyanın tanınmış mədəniyyət xadimlərinə məxsus olmuş saatlar var.

Dövlətimizin başçısı Ployeştidə əsası 1959-cu ildə qoyulmuş Neft Muzeyində də oldu. Prezident İlham Əliyevə Rumıniyada 1857-ci ildən başlanmış neftçıxarma və neft emalı sənayesinin tarixi, rumın alimlərinin bu sahədəki uğurları barədə məlumat verildi. Xatırladaq ki, bu muzey Almaniya, Avstriya, İsveç və Polşanın müvafiq muzeyləri ilə yanaşı, Avropa neft muzeyləri şəbəkəsinə daxildir.

Azərbaycan Prezidenti ekspozisiya ilə tanışlıqdan sonra muzeyin Fəxri qonaqlar kitabına ürək sözlərini yazdı.

Prezident İlham Əliyev həmin gün Ployeşti Neft və Qaz Universitetində də oldu. Universitetin prorektoru Mixay Dimitraşku Azərbaycan Prezidentinə bu ali məktəbin fəaliyyəti barədə məlumat verdi. Bildirildi ki, burada təhsil prosesi Avropa ali təhsil standartlarına uyğundur. M.Dimitraşku 2004-cü ildən bu universitetin fəxri doktoru olan Prezident İlham Əliyevə informatika laboratoriyasının yenidən qurulması və universitetin üç tələbəsinə Heydər Əliyev adına təqaüd verilməsi təşəbbüsünə görə təşəkkürünü bildirdi.

Azərbaycan Prezidenti neft-qaz elmləri sahəsində Avropanın aparıcı təhsil müəssisələrindən və tədqiqat mərkəzlərindən biri kimi tanınmış bu universitetin fəxri doktoru olmasına görə qürur duyduğunu söylədi. O dedi ki, Azərbaycanla Rumıniyanı birləşdirən cəhətlər çoxdur. Məsələn, sənaye üsulu ilə neft çıxarılması dünyada ilk dəfə 1847-ci ildə Azərbaycanda, on il sonra - 1857-ci ildə isə Rumıniyada başlanmışdır.

Prezident İlham Əliyev energetika sahəsində Azərbaycan-Rumıniya əlaqələrindən söhbət açaraq, Xəzər neftinin Avropa bazarlarına ixrac marşrutlarının çoxvariantlı olmasını təmin etmək üçün bu əməkdaşlığın genişləndirilməsinin zəruriliyini vurğuladı.

Azərbaycan Prezidenti universitetin auditoriyalarına baş çəkdi, hollda sərgiyə qoyulmuş faydalı qazıntı nümunələrinə, Azərbaycan dövləti başçısının təşəbbüsü ilə yenidən qurulmuş və ən müasir təhsil avadanlıqları ilə təchiz olunmuş informatika laboratoriyasına baxdı.

Universitetin Heydər Əliyev adına təqaüd alan tələbələri Azərbaycan Prezidentinə təşəkkür etdilər.

Prezident İlham Əliyev universitetin Fəxri qonaqlar kitabına ürək sözlərini yazdı, tələbələrlə xatirə şəkli çəkdirdi.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV PLOYEŞTİ NEFT VƏ QAZ UNİVERSİTETİNDƏ OLMUŞDUR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Rumıniyaya işgüzar səfərinin ikinci günü, sentyabrın 25-də Ployeşti Neft və Qaz Universitetində olmuşdur.

Xatırladaq ki, 2004-cü ilin oktyabrında Rumıniyaya rəsmi səfəri zamanı Prezident İlham Əliyevə universitetin fəxri doktoru adı verilmişdir.

Universitetin prorektoru Mixay Dimitraşku Azərbaycan Prezidentinə məlumat verdi ki, bu təhsil ocağı Avropa təhsilinin modernləşdirilməsində yaxından iştirak edir. Universitet Rumıniyanın sosial-iqtisadi sahələri üçün mütəxəssislər hazırlayır. Burada ali təhsilin bakalavr və magistr pilləkəni üzrə tədris prosesi Avropada məşhur olan Kredit Sistemi üzrə həyata keçirilir. Universitetdə yüksək səviyyəli elmi araşdırmalar aparılır. Təhsil ocağında 5 fakültədə 13 min tələbə təhsil alır.

İki beynəlxalq səviyyəli təhsil proqramının tətbiq olunduğu universitetin bu proqramlar üzrə 18 buraxılışı olmuşdur. Təhsil ocağının diplomları Fransa, İsveçrə və digər Avropa ölkələrində tanınır.

Azərbaycan Prezidenti İlham Əliyev dedi: "Mən bu universitet haqqında, əlbəttə ki, ətraflı bilgilərə malikəm. Bilirəm ki, Ployeşti Neft və Qaz Universiteti Avropa qitəsində bu sahədə aparıcı təhsil ocaqlarından biridir. Universitetin böyük tarixi və çox böyük nailiyyətləri var. Burada elmi tədqiqat məsələlərinə böyük diqqət göstərilir, tələbələrin təhsilinə, hərtərəfli yanaşılır.

Bizim aramızda da münasibətlər çox yaxşıdır, həm ölkələrarası, həm də ki, müxtəlif sə-

viyyələrdə, o cümlədən təhsil səviyyəsində əlaqələr genişlənir. Çox fəxr edirəm ki, artıq üçüncü ildir ki, mən Ployeşti Neft və Qaz Universitetinin fəxri doktoru adını daşıyıram. Burada müxtəlif sahələrdə fərqlənmiş tələbələr Heydər Əliyev təqaüdünə layiq görülürlər.

Mən bu gün Neft Muzeyi ilə də tanış oldum və bir daha gördüm ki, Rumıniyanın nə qədər zəngin neft sənayesi olmuşdur. Keçmişdə də olub və bu gün də vardır. Ölkələrimiz arasında çox böyük oxşarlıq var. 1857-ci ildə Rumıniyada sənaye üsulu ilə ilk neft hasil edilibdir, ondan 10 il qabaq isə Azərbaycanda, Bakıda.

İndi isə biz – Rumıniya-Azərbaycan, iki ölkə enerji sahəsində çox uğurlu əməkdaşlıq edirik. Xəzər dənizinin neft-qaz ehtiyatlarının dünya bazarlarına çıxarılması işində bizim əməkdaşlığımıza böyük ehtiyac var və əminəm ki, bu əməkdaşlığımız uğurlu olacaqdır.

Bir daha demək istəyirəm ki, universitet haqqında mən çox eşitmişəm. Amma öz gözümlə görməyim də faydalı olacaqdır".

Sonra dövlətimizin başçısı universitetin auditoriyalarına baş çəkdi, foyedə nümayiş etdirilən faydalı qazıntı nümunələrinə, Azərbaycan Prezidentinin təşəbbüsü ilə yenidən qurulmuş və ən müasir avadanlıqla təchiz olunmuş informatika laboratoriyasına baxdı.

Universitetin Heydər Əliyev adına təqaüd alan tələbələri Azərbaycan Prezidentinə təşəkkür etdilər.

Prezident İlham Əliyev universitetin Fəxri qonaqlar kitabına ürək sözlərini yazdı, tələbələrlə xatirə şəkli çəkdirdi.

SƏFƏR BAŞA ÇATDI

Sentyabrın 25-də Azərbaycan Prezidenti İlham Əliyevin Rumıniyaya işgüzar səfəri başa çatdı.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV KALİFORNİYA SENATI VƏ ASSAMBLEYASININ NÜMAYƏNDƏ HEYƏTİNİ QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 26-da Prezident sarayında Kaliforniya senatı və assambleyasının nümayəndə heyətini qəbul etmişdir.

Azərbaycan-ABŞ ikitərəfli münasibətlərinin yüksək səviyyədə olduğunu vurğulayan Prezident İlham Əliyev ölkələrimizin siyasi, iqtisadi, regional təhlükəsizlik, energetika sahələrində uğurlu əməkdaşlıq etdiyini bildirdi.

Dövlətimizin başçısı ABŞ hökumətinin Azərbaycanın neft strategiyasını həyata keçirdiyi ilk vaxtlardan, ölkəmizin təşəbbüskarı və fəal iştirakçısı olduğu qlobal enerji layihələrinin reallaşması işinə daim dəstək verdiyini vurğuladı.

Prezident İlham Əliyev bu səfərin Azərbaycan haqqında dolğun məlumatın alınması baxımından əhəmiyyətini qeyd edərək dedi ki, Kaliforniya senatı və assambleyası nümayəndə heyətinin səfəri ölkələrimiz arasında əlaqələrin daha da genişlənməsi işinə xidmət göstərəcəkdir.

Kaliforniya senatının səhiyyə komitəsinin sədri xanım Şeyla Kuel rəhbərlik etdiyi nümayəndə heyətinin ölkəmizə səfərinin yüksək səviyyədə keçdiyini söyləyərək əminliyini vurğuladı ki, bu günlər ərzində Azərbaycan haqqında əldə etdikləri həqiqətlərdən ikitərəfli münasibətlərimizin bütün sahələrində səmərəli istifadə olunacaqdır.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV GÜRCÜSTANIN BAŞ NAZİRİ ZURAB NOĞAİDELİNİ QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 27-də Prezident sarayında Gürcüstanın Baş naziri Zurab Noğaidelini qəbul etmişdir.

Görüş zamanı ölkələrimiz arasında ikitərəfli münasibətlərin müxtəlif sahələrdə uğurla inkişaf etdiyi vurğulanmış və əməkdaşlığımızın bundan sonra da genişlənəcəyinə əminlik ifadə edilmişdir.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV "ŞEVRON" KORPORASİYASININ İDARƏ HEYƏTİNİN SƏDRİ VƏ BAŞ İCRAÇI DİREKTORU DEVİD OREYLİN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİNİ QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 27-də Prezident sarayında "Şevron" Korporasiyasının idarə heyətinin sədri və baş icraçı direktoru Devid Oreylin başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.

Dövlətimizin başçısı Azərbaycanın "Şevron" şirkəti ilə uzun illər səmərəli əməkdaşlıq etdiyini bildirdi və şirkətin idarə heyətinin növbəti toplantısının ölkəmizdə keçirilməsini əlaqələrimizin yaxşı göstəricisi kimi dəyərləndirdi. Prezident İlham Əliyev "Şevron" şirkəti ilə uğurlu əməkdaşlığın gələcəkdə də davam etdiriləcəyinə əminliyini ifadə etdi.

Devid Oreyl təmsil etdiyi şirkətin Azərbaycanı mühüm ölkə hesab etdiyini bildirdi və əməkdaşlığın daha da inkişaf etdirilməsi üçün geniş imkanların olduğunu vurğuladı.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV HİNDİSTANIN YERLİ ÖZÜNÜİDARƏ, GƏNCLƏR VƏ İDMAN, ŞİMAL-ŞƏRQ REGİONU NAZİRİ MANİ ŞANKAR AİYARI QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 27-də Prezident sarayında Hindistanın Yerli Özünüidarə, Gənclər və İdman, Şimal-Şərq regionu naziri Mani Şankar Aiyarı qəbul etmişdir.

Görüşdə Azərbaycan-Hindıstan münasibətlərinin müxtəlif sahələrdə uğurla inkişaf etdiyi bildirildi, ikitərəfli əməkdaşlığın daha da genişləndirilməsi perspektivləri ilə bağlı fikir mübadiləsi aparıldı.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV NOBEL MÜKAFATI LAUREATLARI JORES ALFYOROVU, İVAR QİAVERİNİ VƏ YÜKSƏK TEXNOLOGİYALAR ÜZRƏ ALİM YOŞİKAZU NAKAYAMANI QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 27-də Prezident sarayında Nobel mükafatı laureatları Jores Alfyorovu, İvar Qiaverini və yüksək texnologiyalar üzrə alim Yoşikazu Nakayamanı qəbul etmişdir.

Qonaqlar ölkəmizdə böyük inkişafın şahidi olduqlarını bildirdilər və Azərbaycanda keçirilən "Materialşünaslıq və informasiya elmləri yüksək texnologiyalarda" mövzusunda birinci beynəlxalq konfransın işində iştirak etmələrindən məmnunluqlarını ifadə etdilər.

İlk belə beynəlxalq konfransın ölkəmizdə keçirilməsinin əhəmiyyətini vurğulayan dövlətimizin başçısı Nobel mükafatı laureatlarının, görkəmli elm xadimlərinin ölkəmizə gəlməsini Azərbaycan elminin beynəlxalq əlaqələrinin genişlənməsi işinə töhfə verəcəyini bildirdi.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV TÜRKİYƏNİN MƏDƏNİYYƏT VƏ TURİZM NAZİRİ ƏRTOĞRUL GÜNAYIN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİNİ QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 28-də Prezident sarayında Türkiyənin mədəniyyət və turizm naziri Ərtoğrul Günaym başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.

Dövlətimizin başçısı Azərbaycanla Türkiyə arasında ikitərəfli münasibətlərin bütün sahələrdə uğurla inkişaf etdiyini bildirdi. Prezident İlham Əliyev dost və qardaş Azərbaycan və Türkiyə xalqlarının qədim tarixi və mədəni köklərə malik olduğunu qeyd edərək, mədəniyyət sahəsində əlaqələrimizin daha da möhkəmləndirilməsinin vacibliyini vurğuladı.

Turizm sahəsində Türkiyənin böyük təcrübəyə malik olduğunu vurğulayan dövlətimizin başçısı Azərbaycanda da zəngin turizm potensialının olduğunu və bu istiqamətdə mühüm işlərin görüldüyünü bildirdi.

Türkiyənin mədəniyyət və turizm naziri Ərtoğrul Günay Türkiyə Cümhuriyyətinin Prezidenti Abdullah Gülün salamlarını dövlətimizin başçısına çatdırdı.

O, mədəniyyət və turizm naziri kimi Azərbaycana ilk dəfə səfər etməsindən məmnun olduğunu dedi və Türkiyənin Azərbaycanla bütün sahələrdə, o cümlədən mədəniyyət və turizm sahəsində əməkdaşlığın daha da genişləndirilməsinə böyük önəm verdiyini vurğuladı.

Prezident İlham Əliyev Türkiyə Prezidenti Abdullah Gülün salamlarına görə minnətdarlığını bildirdi və onun da salamlarını Türkiyənin dövlət başçısına çatdırmağı qonaqdan xahiş etdi.

XƏZƏR DƏNİZİNİN ORTA XƏTT KOORDİNATLARI ÜZRƏ EKSPERTLƏR QRUPUNUN NÖVBƏTİ GÖRÜŞÜ KEÇİRİLMİŞDİR

Sentyabrın 25-27-də Bakıda Xəzər dənizinin orta xətt koordinatları üzrə ekspertlər qrupunun növbəti görüşü keçirilmişdir.

Xarici İşlər Nazirliyinin mətbuat xidmətindən bildirmişlər ki, ekspertlər qrupuna Azərbaycan tərəfdən xarici işlər nazirinin müavini Xələf Xələfov və Türkmənistan tərəfdən xarici işlər nazirinin müavini Xoşgəldi Babayev rəhbərlik etmişlər.

Görüşdə Xəzər dənizinin hüquqi statusuna aid məsələlərin müzakirəsi davam etdirilmiş, iki dövlət arasında dəniz dibinin orta xətt koordinatlarının müəyyən edilməsi ilə əlaqədar geniş fikir mübadiləsi aparılmış, orta xəttin qurulması elementləri üzrə müvafiq normativ-hüquqi sənədlər araşdırılmışdır. Tərəflərin mövqeyinin yaxınlaşdırılmasına yönəlmiş ümumi yanaşmalar müəyyən edilmişdir.

Tərəflər növbəti görüşün cari ildə Aşqabad şəhərində keçirilməsi barədə razılığa gəlmişlər.

Görüşün dəqiq tarixi diplomatik kanallar vasitəsilə razılaşdırılacaqdır.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV NATO BAŞ KATİBİNİN CƏNUBİ QAFQAZ VƏ ORTA ASİYA ÜZRƏ XÜSUSİ NÜMAYƏNDƏSİ ROBERT SİMMONSUN RƏHBƏRLİK ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİNİ QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 28-də Prezident sarayında NATO Baş katibinin Cənubi Qafqaz və Orta Asiya üzrə xüsusi nümayəndəsi Robert Simmonsun rəhbərlik etdiyi nümayəndə heyətini qəbul etmişdir.

Robert Simmons NATO-nun Baş katibi Yaap de Hoop Sxefferin salamlarını dövlətimizin başçısına çatdırdı.

Prezident İlham Əliyev Yaap de Hoop Sxefferin salamlarına görə minnətdarlığını bildirdi və özünün də salamlarını NATO-nun Baş katibinə çatdırmağı xahiş etdi.

Görüşdə Azərbaycan-NATO əməkdaşlığının hazırkı səviyyəsi və gələcək perspektivlərinə dair fikir mübadiləsi aparıldı.

AZƏRBAYCANIN XARİCİ İŞLƏR NAZİRİNİN NYU-YORKA İŞGÜZAR SƏFƏRİ

Birləşmiş Ştatlar GUAM dövlətlərinin ərazi bütövlüyünü tanıyır və bu ölkələrdə mövcud münaqişələrin dinc yolla həll edilməsinin tərəfdarıdır. Bu bəyanat sentyabrın 27-də Nyu-Yorkda keçirilən GUAM-ABŞ görüşündən sonra qəbul edilən birgə sənəddə əksini tapmışdır. Görüş zamanı ikitərəfli əməkdaşlığı möhkəmləndirəcək bir sıra digər məsələlər də müzakirə olunmuşdur. O cümlədən, regional nəqliyyatı və iqtisadiyyatı inkişaf etdirəcək layihələr üzrə tərəfdaşlığın genişlənməsi nəzərdən keçirilmişdir. Qərara alınmışdır ki, GUAM dövlətlərinin milli əlaqələndiriciləri ilin sonuna qədər Vaşinqtona

səfər edərək, ABŞ tərəfi ilə müzakirələri daha ətraflı şəkildə davam etdirsinlər. GUAM ölkələrinin xarici işlər nazirləri ilə görüşdə ABŞ tərəfini dövlət katibinin Avropa və Avrasiya üzrə müavini Daniel Frid təmsil etmişdir.

Nyu-Yorkda GUAM ölkələrinin xarici işlər nazirləri də müzakirələr aparmışlar. Tərəflər üzv dövlətlər arasında əlaqələrin möhkəmlənməsi üçün qarşılıqlı mədəniyyət günlərinin, idman tədbirlərinin keçirilməsi haqda razılığa gəlmişlər. BMT Baş Məclisinin 62-ci sessiyasının gündəliyində duran "GUAM ərazisində davam edən münaqişələr və onların beynəlxalq sülh, təhlükəsizlik və inkişafa təsiri" barədə məsələ ilə bağlı BMT-dəki daimi nümayəndəliklərə tapşırılmışdır ki, BMT-nin üzvü olan dövlətlərin nümayəndə heyətləri ilə işi davam etdirərək, onları hazırlanmış qətnamə layihəsi ilə tanış etsinlər və sənədin səs çoxluğu ilə qəbul olunmasına zəmin yaratsınlar.

Elmar Məmmədyarovun AzərTAc-a bildirdiyinə görə, hazırda GUAM dövlətləri məsələnin BMT Baş Məclisinin sessiyasında müzakirəyə çıxarılması vaxtını müəyyənləşdirmək üçün məsləhətləşmələri davam etdirir. GUAM ölkələrinin xarici işlər nazirləri ATƏT-in Nazirlər Şurasının noyabrda keçiriləcək görüşündə iştirak edərkən məsələyə bir daha qayıdacaqlar.

Sentyabrın 27-də keçirilən GUAM-Polşa görüşündə isə tərəflər Polşanın xarici işlər naziri xanım Anna Fotiqa ilə Avropa İttifaqı və GUAM təşkilatı arasında əməkdaşlığın genişlənməsini müzakirə etmişlər.

BMT Baş Məclisinin 62-ci sessiyasının ümumi müzakirələrində iştirak etmək üçün Nyu-Yorkda olan Azərbaycanın xarici işlər naziri Elmar Məmmədyarov səfər çərçivəsində bir sıra ikitərəfli görüşlər də keçirmişdir. Rumıniya, Slovakiya, Albaniya, Türkiyə, Sloveniya, Serbiya və İtaliyadan olan həmkarları ilə görüşlərdə ölkələrimiz arasında yaxın münasibətlərin qurulmasına, Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsindəki hazırkı vəziyyətə toxunulmuşdur.

Meksika xarici işlər nazirinin müavini ilə görüşdə isə, bu ölkədə Azərbaycanın diplomatik nümayəndəliyinin açılması məsələsi müzakirə olunmuşdur. Meksika tərəfi Azərbaycanın belə niyyətinə görə ölkəmizə minnətdarlığını bildirərək, Elmar Məmmədyarovu Meksikaya dəvət etmişdir. Söhbət zamanı Mexiko şəhərində diplomatik nümayəndəliyimizin açılması ikitərəfli münasibətlərin inkişafına təkan verəcək addım kimi qiymətləndirilmişdir.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV YORK HERSOQU ENDRYUNU QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 1-də Böyük Britaniyanın "British Midland" aviaşirkətinin Azərbaycanda fəaliyyətə başlaması ilə əlaqədar ölkəmizə gəlmiş York hersoqu Endryunu qəbul etmişdir.

Görüş zamanı ölkələrimiz arasında əlaqələrin bütün sahələrdə, o cümlədən iqtisadi sahədə uğurla inkişaf etdiyi qeyd olunmuş, "British Midland" aviaşirkətinin Azərbaycanda fəaliyyətə başlamasının bu əlaqələrin daha da genişlənməsi işinə xidmət edəcəyinə əminlik vurğulanmışdır.

XORVATİYA PREZİDENTİ STEPAN MESİÇİN AZƏRBAYCANA RƏSMİ SƏFƏRİ

Oktyabrın 2-də Xorvatiya Respublikasının Prezidenti Stepan Mesiç Azərbaycana rəsmi səfərə gəlmişdir.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN VƏ XORVATİYA PREZİDENTİ STEPAN MESİÇİN TƏKBƏTƏK GÖRÜŞÜ

Oktyabrın 2-də Prezident sarayında rəsmi qarşılanma mərasimindən sonra Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və Xorvatiya Respublikasının Prezidenti Stepan Mesiçin təkbətək görüşü olmuşdur.

Görüşdə ölkələrimiz arasında ikitərəfli əlaqələrin müxtəlif sahələrdə uğurla inkişaf etdiyi vurğulandı, iqtisadi əməkdaşlığın genişlənməsi üçün yaxşı potensialın mövcud olduğu bildirildi.

Prezidentlər əminliklə vurğuladılar ki, ölkələrimizin iqtisadi və digər sahələrdə əlaqələri bundan sonra da genişlənəcəkdir. Azərbaycan və Xorvatiya beynəlxalq təşkilatlar çərçivəsində də əməkdaşlıq edir.

DÖVLƏT BAŞÇILARININ GENİŞ TƏRKİBDƏ GÖRÜŞÜ

Oktyabrın 2-də Prezident sarayında Azərbaycan Prezidenti İlham Əliyevin və Xorvatiya Prezidenti Stepan Mesiçin nümayəndə heyətlərinin iştirakı ilə geniş tərkibdə görüşü olmuşdur.

Prezident İLHAM ƏLİYEV görüşü açaraq dedi:

- Hörmətli cənab Prezident!

Hörmətli qonaqlar, mən sizin hamınızı Azərbaycanda ürəkdən salamlayıram. Ölkəmizə xoş gəlmisiniz. Mən əminəm ki, Sizin səfəriniz və burada aparılacaq danışıqlar, imzalanacaq sənədlər bizim aramızda olan münasibətləri daha da yüksək pilləyə qaldıracaqdır.

Ölkələrimiz arasında siyasi əlaqələr çox sürətlə inkişaf edir. Mən iki il bundan əvvəl Sizin ölkənizə səfərimi xatırlayıram və o səfərdən sonra müxtəlif səviyyələrdə əlaqələr xeyli dərəcədə genişlənmişdir.

Sizin səfəriniz çərçivəsində həm yeni sənədlər imzalanacaq, eyni zamanda, sabah iş adamlarının biznes forumu keçiriləcəkdir. O da öz növbəsində iqtisadi əlaqələrin inkişafı üçün çox önəmli bir vasitə olacaqdır. Bir sözlə, mən əminəm ki, Sizin səfəriniz çox uğurlu olacaq və səfərdən sonra əlaqələrimiz daha da sürətlə irəliyə gedəcəkdir.

Sonra Xorvatiya Prezidenti STEPAN MESİÇ çıxış edərək dedi:

- Cənab Prezident, çox sağ olun.

Biz təkbətək görüşdə çox mövzuları müzakirə etdik. İndi isə bu məsələlər barədə daha geniş müzakirələr aparmaq imkanı qazandıq. Hər iki tərəfin çox böyük potensialı var və eyni zamanda, əməkdaşlıq üçün siyasi iradə də var. Lakin bu günə qədər hər iki ölkə arasında iqtisadi təmaslar o qədər də çox olmamışdır.

Siz tamamilə düzgün qeyd etdiniz ki, nümayəndə heyətlərimiz arasında uğurlu və intensiv danışıqlar aparılacaq və təbii ki, fikir mübadiləsi hər iki tərəfin keçirəcəyi biznes forumu çərçivəsində davam etdiriləcəkdir.

SƏNƏDLƏRİN İMZALANMASI

Oktyabrın 2-də Prezident sarayında, Azərbaycan Prezidenti İlham Əliyevin və Xorvatiya Prezidenti Stepan Mesiçin geniş tərkibdə görüşündən sonra dövlət başçılarının iştirakı ilə Azərbaycan-Xorvatiya sənədlərinin imzalanma mərasimi olmuşdur.

Azərbaycan Respublikası və Xorvatiya Respublikası arasında Birgə Bəyannaməni Azərbaycan Prezidenti İlham Əliyev və Xorvatiya Prezidenti Stepan Mesiç imzaladılar.

Azərbaycanın Ticarət və Sənaye Palatası və Xorvatiyanın İqtisadiyyat Palatası arasında sazişi Azərbaycan tərəfdən Ticarət və Sənaye Palatasının prezidenti Süleyman Tatlıyev, Xorvatiya tərəfdən İqtisadiyyat Palatasının prezidenti Nadan Vidoşeviç imzaladılar.

Azərbaycan Respublikası Xarici İşlər Nazirliyi yanında Diplomatik Akademiya ilə Xorvatiya Respublikası Xarici İşlər və Avropa İnteqrasiyası Nazirliyinin Diplomatik Akademiyası arasında əməkdaşlıq haqqında sazişi Azərbaycan tərəfdən Xarici İşlər Nazirliyi yanında Diplomatik Akademiyanın rektoru Hafiz Paşayev, Xorvatiya tərəfdən Xarici İşlər və Avropa İnteqrasiyası Nazirliyinin dövlət katibi Zeljko Kuperşak imzaladılar.

Azərbaycan Respublikasının İqtisadi İnkişaf Nazirliyi və Xorvatiya Respublikasının İqtisadiyyat, Əmək və Sahibkarlıq Nazirliyi arasında əməkdaşlıq haqqında memorandumu, habelə Azərbaycan Respublikası Hökuməti və Xorvatiya Respublikası Hökuməti arasında investisiyaların təşviqi və qarşılıqlı qorunması haqqında sazişi Azərbaycan tərəfdən iqtisadi inkişaf naziri Heydər Babayev, Xorvatiya tərəfdən Xarici İşlər və Avropa İnteqrasiyası Nazirliyinin dövlət katibi Zeljko Kuperşak imzaladılar.

DÖVLƏT BAŞÇILARININ BİRGƏ MƏTBUAT KONFRANSI

Oktyabrın 2-də Prezident sarayında, sənədlərin imzalanması mərasimi başa çatdıqdan sonra Azərbaycan Prezidenti İlham Əliyevin və Xorvatiya Prezidenti Stepan Mesiçin birgə mətbuat konfransı keçirilmişdir.

Dövlət başçıları əvvəlcə bəyanatlarla çıxış etdilər.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN BƏYANATI

- Hörmətli cənab Prezident!

Hörmətli qonaqlar!

Xanımlar və cənablar!

Bu gün Xorvatiyanın Prezidenti cənab Mesiçin Azərbaycana ilk rəsmi səfəridir və deyə bilərəm ki, səfərin yekunları çox uğurludur. Bu gün biz çox geniş fikir mübadiləsi apardıq. İkitərəfli münasibətlər geniş təhlil edildi. Gələcək əməkdaşlığımızın perspektivləri müəyyən olundu. Bildiyiniz kimi, iki il bundan əvvəl mən Xorvatiyaya rəsmi səfər etmişdim və o səfərdən sonra keçən dövr ərzində bizim aramızda həm siyasi, həm də iqtisadi əlaqələr inkişaf etməkdədir. Bu gün həm ikitərəfli münasibətlər, regional vəziyyət geniş şəkildə müzakirə olundu. Beynəlxalq məsələlərə diqqət yetirildi. Bildiyiniz kimi, sabah Xorvatiya-Azərbaycan biznes forumu keçiriləcək və əminəm ki, forumun yekunları da uğurlu olacaq və bizim aramızda iqtisadi əməkdaşlıq daha da sürətlə artacaqdır. Bunu deməyə böyük əsas var. İqtisadi potensial hər iki ölkədə artmaqdadır. İqtisadi islahatlar uğurla davam etdirilir. Qarşılıqlı maraq doğuran iqtisadi məsələlər kifayət qədər çoxdur. Mən əminəm ki, sabah keçiriləcək tədbirdə iqtisadi əməkdaşlığın yeni sahələri üzə çıxacaqdır. Biz bunda maraqlıyıq. Hesab edirik ki, çox fəal siyasi dialoqun aparılması ilə bərabər, iqtisadi əlaqələr də inkişaf etməlidir. Əlbəttə ki, forumda Xorvatiyanın potensialı Azərbaycan biznesmenləri üçün, Azərbaycanın potensialı Xorvatiya biznesmenləri üçün təqdim olunacaqdır.

Bu gün imzalanmış sənədlər də ölkələrimiz arasında münasibətlərin inkişafı üçün böyük əhəmiyyət kəsb edir. Həm iqtisadi sazişlər, həm də ki, Birgə bəyannamə. Bəyannamədə bizim siyasi niyyətlərimiz ifadə edilir. İkitərəfli münasibətlər, bizim beynəlxalq təşkilatlarda əməkdaşlığımız əks olunur. Xorvatiya və Azərbaycan Avratlantik strukturlarına inteqrasiya siyasətini uğurla aparır. Eyni zamanda, bölgənin ən böyük təhlükə mənbəyi olan Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli yolları da müştərək bəyannamədə göstərilmiş və münaqişənin ölkələrin ərazi bütövlüyü, sərhədlərin toxunulmazlığı çərçivəsində həll olunması vurğulanmışdır. Hesab edirəm ki, bu, çox önəmli məsələdir, ikitərəfli münasibətlərimizin çox vacib elementidir və əlbəttə ki, gələcək birgə fəaliyyətimizdə Bəyannamədə əks olunan bütün müddəaları həyata keçirəcəyik.

Mən demək istəyirəm ki, ikitərəfli münasibətlərin çox gözəl perspektivləri var. Bizim ölkələrimiz yeni müstəqil dövlətlərdir. Hər ikisi vaxtilə başqa ölkələrin tərkibində olmuşdur və sadəcə, 15 ildən bir az çox müddət ərzində biz müstəqil ölkələr kimi yaşayırıq, inkişaf edirik. Artıq bütün dünya görür ki, müstəqil ölkələr kimi biz böyük uğurlar əldə edə bilmişik. Bu müddət ərzində münasibətlərimiz inkişaf edibdir. Ancaq ən sürətli inkişaf son bir neçə il ərzində olmuşdur və dövlət başçılarının qarşılıqlı səfərləri bunun əyani sübutudur. Aramızda imzalanmış sənədlər, aparılan danışıqlar və əməkdaşlığımızın gələcəyi deməyə əsas verir ki, iki ölkə öz aralarında münasibətlərin inkişafında bundan sonra da əməli söylər göstərəcəkdir. Mən bir daha hörmətli Prezident Mesiçi və nümayəndə heyətini Azərbaycanda salamlayıram və əmin olduğumu bildirmək istəyirəm ki, səfər çox uğurlu olacaq və bizim qonaqlarımız öz vətəninə ən xoş təəssüratlarla qayıdacaqlar.

Sağ olun.

XORVATİYA PREZİDENTİ STEPAN MESİÇİN BƏYANATI

- Prezident Əliyevlə və onun əməkdaşları ilə danışıqlarımız indicə başa çatdı. Mən istər ölkələrimiz arasında ikitərəfli münasibətlərin inkişaf perspektivləri məsələsinə dair, istərsə də hər iki dövlət üçün maraq doğuran geniş formatlı beynəlxalq münasibətlər məsələlərinə dair fikir mübadiləsi apardığımız dostluq və səmimiyyət şəraitindən məmnun qaldım.

Bu mənim Azərbaycan Respublikasına ilk rəsmi səfərimdir, lakin əslində, Prezident Əliyev və mən iki il bundan əvvəl, cənab Prezidentin Zaqrebə səfərinin gedişində əsası qoyulmuş danışıqları bu gün yalnız davam etdirdik. Prezident Əliyevin səfəri ölkələrimizin qarşılıqlı münasibətləri inkişaf etdirməyə hazır olmaları barədə müəyyən mənada işarə idisə, mənim Bakıya səfərim təkcə Xorvatiyanın deyil, həm də Azərbaycanın bu qarşılıqlı münasibətlərin daha da yaxşılaşdırılmasına yeni, güclü təkan vermək arzusunu nümayiş etdirməlidir. Biz ümumi fikirdəyik ki, belə demək olarsa, ikitərəfli münasibətlərin genişlənməsinin açarı iqtisadi əməkdaşlıqdır. Biz hər ikimiz razılaşırıq ki, indiki məqamda iqtisadi əməkdaşlıq lazımi səviyyədə deyil, məsələyə hər iki ölkənin obyektiv mövcud imkanları və maraqları baxımından yanaşdıqda isə, bu əməkdaşlıq qənaətbəxş deyildir. Məhz buna görə də mənimlə birlikdə Xorvatiyanın aparıcı şirkətlərinin nümayəndələri də gəlmişlər. Onlar iqtisadi forumda öz azərbaycanlı həmkarları ilə iqtisadiyyat sahəsində daha yaxşı, daha geniş və daha çoxşaxəli əməkdaşlıq imkanlarını müzakirə edəcəklər.

Mənə xoşdur ki, bu səfərim həm də Xorvatiya-Azərbaycan tərəfdaşlıq münasibətlərinin genişlənməsi üçün zəruri tədbir olan hüquqi çərçivələri genişləndirəcək dövlətlərarası saziş imzalanması üçün bir fürsətdir.

Bizim ölkələrimizin münasibətlərində açıq qalan və ya həll edilməmiş məsələlər yoxdur. Biz razılaşdıq ki, ölkələrimizin əməkdaşlığı tam hüquq bərabərliyi və qarşılıqlı mənafelərin təmin edilməsi çərçivəsində həyata keçirilir. Biz həmçinin ümumi fikrə gəldik ki, çoxtərəfli münasibətlər baxımından, ilk növbədə, BMT çərçivəsində əməkdaşlıq üçün imkan vardır. Bununla əlaqədar bəri başdan deyirəm ki, Xorvatiya Respublikası BMT-nin yaşadığımız dünyanın çağırışlarının öhdəsindən daha yaxşı gələ bilməsi üçün əsaslı dəyişikliklər tələb olunduğunu başa düşərək, bu təşkilatda islahatlar aparılması prosesini tamamilə dəstəkləyir. Biz ölkələrimizin yerləşdiyi regionlarda vəziyyəti də müzakirə etdik. Öz regionlarımızda vəziyyətin sabitləşdirilməsinə konstruktiv töhfəmizi verməyə hazırıq və fikirlərimiz tamamilə üst-üstə düşür ki, gələcəkdə qarşılaşa biləcəyimiz potensial böhranlarla yanaşı, açıq qalan məsələlər və böhran ocaqları mövcuddur, bunları dinc yollarla, danışıqlar vasitəsilə, beynəlxalq hüquqa və BMT-nin Nizamnaməsində təsbit olunmuş prinsiplərə, eləcə də BMT-nin, digər beynəlxalq idarə və təşkilatların mühüm qətnamələrində nəzərdə tutulan müddəalara əsaslanmaqla tənzimləmək lazımdır.

Bu prinsipial mövqe həm regionlardakı vəziyyətə, həm də beynəlxalq aləmdəki şəraitə münasibətdə düzgün mövqedir.

Bu gün burada olduğuma görə şadam və hesab edirəm ki, danışıqlarımız faydalı olmuşdur. Arzum budur ki, bizim qarşılıqlı münasibətlərimiz hər iki ölkənin xeyrinə, bu ölkələrin yerləşdiyi regionların xeyrinə, bütövlükdə beynəlxalq birliyin xeyrinə daha da inkişaf etsin. Bütün səviyyələrdə əlaqələrimizin davam etdirilməsini zəruri sayıram. Prezident Əliyevi isə onun özü üçün münasib hesab etdiyi vaxtda Xorvatiyaya səfərə dəvət etmək istərdim. Sağ olun!

* * *

Sonra prezidentlər jurnalistlərin suallarına cavab verdilər.

- Mənim sualım Xorvatiya Prezidentinədir. Cənab Prezident, ölkələrimiz arasında iqtisadi əməkdaşlığın konkret hansı sahələrdə perspektivləri var?

STEPAN MESİÇ: Danışıqlar zamanı mən qeyd etdim ki, bizim üçün Azərbaycanla əməkdaşlıq çox vacibdir. Söhbət ondan ibarətdir ki, bütün Avropada ən yüksək iqtisadi artıma malik olan ölkənizlə əməkdaşlıq istənilən bir ölkə üçün, o cümlədən Xorvatiya üçün maraqlıdır. Azərbaycan bu gün böyük potensiala malikdir. Eyni zamanda, Xorvatiyanın da elə potensialları var ki, bunlar Azərbaycan üçün maraqlı ola bilər. Biz əməkdaşlığımızın konkret imkanları haqqında danışdıq. Əczaçılıq, tikinti, neft və qaz ehtiyatlarının işlənilməsi, gəmiqayırma sahələrinə toxunduq. Bir sözlə, maraq doğuran çox sahələr var və biz o sahələrdə əməkdaşlıq edə bilərik. Prezident Əliyevin Xorvatiyaya səfərindən və mənim bu səfərimdən sonra əməkdaşlığı genişləndirirık. Bizim siyasi iradəmiz real əməkdaşlıq formasını almalıdır.

- Mənim sualım Azərbaycan Prezidentinədir. Cənab Prezident, ölkələrimiz arasındakı fəal siyasi dialoq Xəzər hövzəsi ilə bağlı əməkdaşlığa hansı töhfəni verəcək? Çox sağ olun.

İLHAM ƏLİYEV: Bu barədə biz bu gün Prezident Mesiçlə geniş fikir mübadiləsi apardıq. Hazırda Avropanın enerji təhlükəsizliyinin təmin olunmasında Xəzər dənizinin rolu artmaqdadır və Xəzəryanı ölkə kimi Azərbaycan bu sahədə öz töhfəsini verir. Bildiyiniz kimi, keçən ilin sonunda Avropa İttifaqı ilə Azərbaycan arasında enerji məsələləri üzrə strateji tərəfdaşlığa dair memorandum imzalanmışdır. Bununla yanaşı, Azərbaycan Avropa İttifaqının Yeni qonşuluq siyasətinə qoşulmuşdur. İndi biz öz neft-qaz resurslarımızı yeni tikilmiş neft və qaz kəmərləri vasitəsilə dünya bazarlarına çatdırırıq, artıq Gürcüstan və Türkiyə bazarlarını Azərbaycan qazı ilə təmin edirik. Bizim planlarımızda qaz hasilatını artırmaq və onu Avropanın başqa ölkələrinə çatdırmaq durur. Bu baxımdan Mərkəzi Avropa ölkələri ilə əməkdaşlığımız bizim üçün yeni imkanlar açır. Eyni zamanda, Balkan yarımadasında yerləşən ölkələrlə bu sahədə əməkdaşlıq mümkündür və bu, qarşılıqlı maraqlar əsasında qurulmalıdır. Azərbaycanın çox böyük və zəngin neft-qaz yataqları vardır. Azərbaycan öz neft-qaz strategiyasını uğurla icra edir, qarşıda duran bütün vəzifələr həyatda öz əksini tapıbdır. Üç neft kəməri, bir qaz kəməri Azərbaycan neftini və qazını müxtəlif yollarla dünya bazarlarına çatdırır. Əminəm ki, gələcək əməkdaşlıq perspektivləri daha da geniş olacaqdır. İndi Xəzər dənizi və Qara dəniz hövzələri arasında çox ciddi enerji dialoqu aparılır. Nəqliyyat infrastrukturu yeniləşir. Şübhəsiz ki, Adriatik dənizi sahillərində yerləşən ölkələr də bu dialoqa fəal şəkildə qoşula bilər. Bizim buna marağımız var və bu sahədə əməkdaşlığın praktik məqamları, əlbəttə ki, çox ciddi araşdırılmalıdır. Burada həm siyasi, həm də iqtisadi məsələlər öyrənilməlidir.

Sağ olun.

HEYDƏR ƏLİYEV FONDU İLƏ TANIŞLIQ

Xorvatiya Prezidenti Stepan Mesiç oktyabrın 2-də Heydər Əliyev Fondunda olmuşdur.

Azərbaycan Prezidenti İlham Əliyev Xorvatiya dövlətinin başçısını burada səmimiyyətlə qarşıladı.

Ölkəmizin rəhbəri Xorvatiya Prezidentinə ümummilli liderimizin şəxsi arxivindən gö-

türülmüş və onun fəaliyyətinin ayrı-ayrı dövrlərini əhatə edən eksponatlar barədə ətraflı məlumat verdi.

Xorvatiya Prezidenti Stepan Mesiç fenomen şəxsiyyət Heydər Əliyevin həyatının ən müxtəlif məqamlarını əks etdirən və Azərbaycan tarixinin bütöv bir dövrü barədə geniş təsəvvür yaradan çoxlu sənədlərlə, ulu öndərimiz haqqında kitablarla, dünyanın nüfuzlu siyasi, elm, mədəniyyət və incəsənət xadimlərinin, dövlət və hökumət rəhbərlərinin müstəqil Azərbaycan dövlətinin memarı və qurucusu haqqında fikirləri ilə tanış oldu, onların ümummilli liderimizlə müxtəlif görüşlərdə birgə çəkdirdikləri fotoşəkillərə böyük maraqla baxdı.

Prezidentlər Bakı-Tbilisi-Ceyhan neft kəmərinin maketinə də baxdılar. Xorvatiya Prezidenti Stepan Mesiç Fondun xatirə kitabına ürək sözlərini yazdı, görkəmli siyasi xadim Heydər Əliyevin şəxsiyyətinə dərin hörmətini ifadə etdi, Azərbaycan dövlətinin tərəqqisi naminə dəyərli fəaliyyətində Fonda uğurlar arzuladı.

Xorvatiya dövlətinin başçısına xatirə hədiyyələri təqdim edildi.

Ali qonaq Fonddan zəngin təəssürat aldığını söylədi.

MİLLİ MƏCLİSDƏ GÖRÜŞ

Xorvatiya Respublikasının Prezidenti Stepan Mesiç oktyabrın 2-də Milli Məclisə gəlmişdir.

Parlamentin binası önündə Xorvatiya dövlətinin başçısını Milli Məclisin sədri Oqtay Əsədov və digər rəsmi şəxslər qarşıladılar.

Xorvatiyanın Prezidenti əvvəlcə Milli Məclisin iclas salonuna baxdı, parlamentin binasındakı Heydər Əliyev Xatirə muzeyi ilə tanış oldu.

Görüşdə Oqtay Əsədov vurğuladı ki, Azərbaycan Xorvatiya ilə əlaqələrin inkişafında maraqlıdır. Hazırda əlaqələrimiz yüksələn xətt üzrə inkişaf edir və bu sahədə dövlət başçılarının qarşılıqlı səfərləri mühüm rol oynayır. İnanırıq ki, Sizin bu səfəriniz münasibətlərimizin genişlənməsinə təkan verəcəkdir.

O.Əsədov ölkələrimiz arasında əməkdaşlığın inkişafında parlamentlərin rolunu da vurğuladı, Milli Məclisdə Xorvatiya parlamenti ilə dostluq qrupunun fəaliyyət göstərdiyini xatırlatdı, parlamentlərarası əlaqələrin inkişafının və qarşılıqlı təcrübə mübadiləsinin vacibliyini bildirdi.

Milli Məclisin sədri Azərbaycanın regionda həyata keçirilən bir sıra layihələrin təşəbbüsçüsü və iştirakçısı olmasından, həmin layihələrin regional və beynəlxalq baxımdan əhəmiyyətindən söhbət açdı.

Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin səbəbləri, acı nəticələri barədə məlumat verən O.Əsədov dedi ki, biz problemin beynəlxalq hüquq normaları və prinsiplərinə əsaslanaraq, ölkəmizin ərazi bütövlüyü təmin olunmaqla sülh yolu ilə həllinə tərəfdarıq. Milli Məclisin sədri Xorvatiyanın bu məsələdə Azərbaycanın ədalətli mövqeyini dəstəkləyəcəyinə ümidvar olduğunu söylədi.

Prezident Stepan Mesiç Azərbaycana səfərindən məmnun qaldığını bildirdi. Azərbaycan Prezidenti ilə çox səmərəli görüşlər keçirdiyini vurğulayan ali qonaq dedi ki, bu görüşlərdən sonra ölkələrimiz arasında siyasi, iqtisadi, mədəni və digər sahələrdə əməkdaşlığın genişlənəcəyinə xüsusi əminlik yaranmışdır.

Bir vaxtlar özünün də parlament sədri olduğunu xatırladan Prezident Stepan Mesiç qarşılıqlı əlaqələrin inkişafında parlamentlərin üzərinə böyük işlər düşdüyünü bildirdi.

ALİ QONAĞIN ŞƏRƏFİNƏ

Oktyabrın 2-də "Gülüstan" sarayında Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin adından Xorvatiya Respublikasının Prezidenti Stepan Mesiçin şərəfinə rəsmi qəbul təşkil edilmişdir.

Dövlət başçıları qəbulda nitq söylədilər.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN NİTQİ

- Hörmətli cənab Prezident!

Xanımlar və cənablar!

Cənab Prezident, ilk növbədə, Sizi və rəhbərlik etdiyiniz nümayəndə heyətini Azərbaycanda bir daha səmimiyyətlə salamlayır və "Xoş gəlmisiniz!" deyirəm.

Xorvatiya və Azərbaycan dövlət müstəqilliyini qazandıqdan sonra bu, Xorvatiya Prezidentinin Azərbaycana ilk rəsmi səfəridir. İnanıram ki, Sizin səfəriniz ölkələrimiz arasında əlaqələrin inkişafında mühüm rol oynayacaqdır.

Biz bu gün ikitərəfli münasibətlərimizin bir çox aspektlərini nəzərdən keçirdik. Ümid edirəm ki, bundan sonra bizim münasibətlərimiz bütün sahələrdə daha sürətlə inkişaf edəcəkdir. İmzalanmış sənədlər, iki ölkənin iş adamlarının keçirəcəkləri biznes forumu əməkdaşlığımızın inkişafına və genişlənməsinə öz töhfəsini verəcəkdir.

Xorvatiya-Azərbaycan əlaqələrinin tarixi öton əsrlərdən başlayır. XV-XVI əsrlərdə Azərbaycanın Ağqoyunlular və Səfəvilər dövlətlərinin Xorvatiya ilə ticarət və diplomatik əlaqələr yaratması haqqında məlumatlar vardır. 1878-ci ildə görkəmli Azərbaycan şairi Mirzə Şəfi Vazehin şeirləri xorvat dilinə tərcümə olunmuşdur. Tanınmış xorvat şairləri İvan Kovaçiçin, Stanislav Novakın, Qustav Kirlesin və başqalarının əsərləri müxtəlif vaxtlarda Azərbaycan dilində nəşr edilmişdir.

Azərbaycan xalqının övladları İkinci Dünya müharibəsi illərində Xorvatiyada faşizmə qarşı mübarizədə fəal iştirak etmişlər. Azərbaycanın milli qəhrəmanı Mehdi Hüseynzadə Balkan yarımadasının, o cümlədən Xorvatiyanın faşizmdən azad olunmasında əfsanəvi igidliklər göstərərək həlak olmuşdur.

Regional və beynəlxalq siyasətə dair bir çox məsələlərdə, Avropa İttifaqı və NATO ilə əməkdaşlıq, beynəlxalq terrorizmə qarşı mübarizə, yaşadığımız regionlarda sabitliyin, təhlükəsizliyin möhkəmləndirilməsi məsələlərində mövqelərimiz üst-üstə düşür.

Energetika, enerji resurslarının nəqli, turizm, ekologiya, kənd təsərrüfatı, nəqliyyat, kommunikasiya, yol və infrastruktur obyektlərinin tikintisi, gəmiqayırma, kimya səna-

yesi və digər sahələrdə əməkdaşlığımızın yaxşı perspektivləri var.

Azərbaycan eyni zamanda regionda təhlükəsizliyin, sabitliyin, inkişafın və beynəlxalq əməkdaşlığın dayağıdır. Lakin artıq iyirmi ilə yaxındır ki, Azərbaycan Respublikası Ermənistanın hərbi təcavüzünə məruz qalmışdır. Bu təcavüz və etnik təmizləmə siyasəti nəticəsində torpaqlarımızın 20 faizi işğal edilmiş, ölkədə bir milyondan çox qaçqın və məcburi köçkün yaranmışdır. Dünya birliyi və beynəlxalq təşkilatlar münaqişənin beynəlxalq hüququn norma və prinsiplərinə uyğun, Azərbaycanın ərazi bütövlüyü çərçivəsində ədalətli şəkildə nizama salınmasını dəstəkləyir. Bununla bağlı BMT Təhlükəsizlik Şurasının, ATƏT-in, Avropa Şurasının və digər beynəlxalq təşkilatların müvafiq qərar və qətnamələri var. Biz münaqişənin bu qərar və qətnamələrə uyğun, ölkəmizin ərazi bütövlüyü çərçivəsində ədalətli şəkildə nizama salınmasını tələb edirik və heç şübhə yoxdur ki, buna nail olacağıq.

Hörmətli cənab Prezident!

Xorvatiyanın son illərdə əldə etdiyi uğurlar, ölkənizin və xalqınızın rifahı və tərəqqisi naminə göstərdiyiniz fəaliyyət bizdə məmnunluq doğurur. Bütün bunlar iqtisadi və sosial inkişafa, demokratik prinsiplərin möhkəmlənməsinə kömək göstərir, Avropa standartlarına və dəyərlərinə sadiqliyinizi bir daha təsdiq edir.

Azərbaycana rəsmi səfər etməyinizdən məmnun olduğunu bir daha ifadə edir, Sizə cansağlığı, ölkənizə və xalqınıza daim inkişaf və uğurlar arzulayıram.

Bu badəni Sizin şərəfinizə, Xorvatiya ilə Azərbaycan arasında səmimi dostluq və faydalı əməkdaşlıq əlaqələrinin inkişafının şərəfinə qaldırıram!

XORVATİYA PREZİDENTİ STEPAN MESİÇİN NİTQİ

- Çox hörmətli cənab Prezident Əliyev!

Hörmətli Azərbaycan Respublikasının nümayəndələri!

Xanımlar və cənablar!

İlk növbədə, icazə verin, mənə və nümayəndə heyətimin üzvlərinə göstərilmiş səmimi qonaqpərvərliyə görə öz minnətdarlığımı bildirim. Bakıya gəldiyimiz anlardan özümüzü dostların əhatəsində hiss edirik və deməliyəm ki, bu cür dostluq mühiti bu gün axşam qeyri-rəsmi şəraitdə davam etdirəcəyimiz danışıqlarımızın uğurlu olmasına zəmin yaradır.

Azərbaycana səfər edən Xorvatiya Respublikasının ilk Prezidenti olmaq şərəfinin mənim qismətimə düşməsindən son dərəcə məmnunam. Bugünkü rəsmi danışıqlardan sonra mətbuat üçün verdiyim bəyanatda dediyim kimi, cənab Prezident Əliyev, ikitərəfli münasibətləri inkişaf etdirməyə hazır olduğunuza dəlalət edən ilk işarəni iki il bundan əvvəl Zaqrebə etdiyiniz səfərlə məhz Siz verdiniz.

Mən isə öz növbəmdə, bu səfərimlə Xorvatiya Respublikasının Azərbaycan-Xorvatiya münasibətlərinin inkişafı prosesinin davam etdirilməsinə, onların hər iki ölkənin rifahı naminə yeni səviyyəyə qaldırılmasına, təkmilləşdirilməsinə və genişləndirilməsinə olan möhkəm istəyini və əzmini bildirmək istəyirəm.

Ölkələrimizin zəngin və köşməköşli tarixində təmas nöqtələri və hətta, oxşarlıq da var

Bu, qurduğumuz əməkdaşlığın bünövrəsinin bir hissəsini təşkil edir. Lakin həmin əməkdaşlığın əsl və möhkəm bünövrəsi obyektiv şəkildə mövcud olan imkanlar, heç də tükənməmiş potensial, hər iki dövlətin maraqlarına cavab vermək məqsədi ilə tərəfdaşlıq və bərabər hüquqlu əməkdaşlıq münasibətlərinin qurulmasına hər iki tərəfin iradəsinin olmasıdır.

Müstəqilliyin qazanılması prosesinin gedişində Xorvatiya zorla cəlb olunduğu qanlı müharibədən keçmişdir. Həmin müharibənin nəticələrini biz bu gün də hiss edirik. Lakin məhz həmin təcrübə sayəsində sülh və əməkdaşlıq bizim xarici siyasətimizin əsas məqsədinə çevrilmişdir. Çox şadam ki, deyə bilərəm: bu cür konsepsiya Xorvatiya vətəndaşlarının tam əksəriyyəti tərəfindən bəyənilir və qəbul olunur.

Biz regionumuzda son müharibələr zamanı törədilmiş cinayətlərə görə dəqiq məsuliyyət tələb edirik, lakin biz bunu sırf fərdi əsasda müəyyən edirik. Biz kollektiv məsuliyyəti ən qəti şəkildə rədd edirik və tam əminik ki, bu konsepsiya indi və təbii ki, gələcəkdə xalqlar və dövlətlər arasında qurulmalı olan əlaqələr üçün fəlakətlidir.

Avropa İttifaqına qoşulmaq barədə danışıqlar aparmağımıza baxmayaraq, biz Avropa İttifaqına üzv olmayan ölkələrlə, habelə dünyanın digər hissəsindəki dövlətlərlə əməkdaşlığa açığıq. Biz Avropa dövlətiyik, lakin maraqlarımız Avropanın hüdudlarının qurtardığı yerlə məhdudlaşmır.

Beynəlxalq terrorçuluğa qarşı mübarizənin, o cümlədən terrorçuluğu yaradan şəraitlərin aradan qaldırılmasının qətiyyətli tərəfdarıyıq, lakin bununla belə, mübahisələrin, hətta uzun illər ərzində həlli yollarının araşdırılması yolu ilə də olsa, dinclikdə aradan qaldırılmasını dəstəkləyirik.

Biz iqlim dəyişiklikləri və qlobal istiləşmə problemlərinin həllinin başlanmasını alqışlayırıq, ancaq eyni zamanda, azad bazar şəraitində enerji təhlükəsizliyinin təmin edilməsinin zəruriliyini bildiririk. Bu sahədə tarazlıq təmin edilməlidir, çünki enerji resurslarına nə qədər ehtiyacımız olsa da, bir o qədər də bəşəriyyətin sağ qalmasının əsasını təşkil edən təbii ətraf mühitin dəstəklənməsi və qorunub saxlanmasına ehtiyacımız vardır. Biz bütün bu məsələlərdə əməkdaşlıq edə bilərik və əminəm ki, bu cür işbirliyinə doğru aparan düzgün yoldayıq.

Mən Prezident Əliyevin uğurları və möhkəm cansağlığı şərəfinə, dost Azərbaycanın və onun vətəndaşlarının tərəqqisi şərəfinə, Azərbaycan-Xorvatiya münasibətlərinin inkişafı şərəfinə, sülh, təhlükəsizlik və sabitliyin hökm sürdüyü dünyanın şərəfinə badə qaldırıram.

Sağ olun.

AZƏRBAYCAN-XORVATİYA BİZNES FORUMU

Oktyabrın 3-də Bakıda, "Excelsior" mehmanxanasında Azərbaycan və Xorvatiya iş adamlarının biznes forumu keçirilmişdir.

Forum iştirakçıları Azərbaycan Prezidenti İlham Əliyevi və Xorvatiya Prezidenti Stepan Mesiçi alqışlarla qarşıladılar.

Azərbaycanın iqtisadi inkişaf naziri Heydər Babayev forumu açaraq, ali qonaqları və iş

adamlarını salamladı. O məlumat verdi ki, nazirliyin dəstəyi ilə Azərbaycanda İxracın və İnvestisiyaların Təşviqi Fondu və Xorvatiyanın İqtisadi Palatası tərəfindən təşkil olunan bu forum ölkələrimiz arasında işgüzar əməkdaşlığın möhkəmləndirilməsinə və genişləndirilməsinə kömək edəcəkdir. Forumda Azərbaycan və Xorvatiyanın sosial-iqtisadi vəziyyəti, investisiya mühiti, ticarət və biznes imkanları barədə çıxış və təqdimatlar olacaq, ikitərəfli görüşlər zamanı aparıcı iş adamları əməkdaşlıq perspektivlərini müzakirə edəcəklər. Nazir xüsusi vurğuladı ki, hər iki ölkə prezidentinin forumda iştirakı Azərbaycanla Xorvatiya arasında iqtisadi əməkdaşlığın inkişafına ən yüksək səviyyədə verilən dəstəkdir.

Azərbaycan və Xorvatiya prezidentləri forumun açılışında çıxış etdilər.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN ÇIXIŞI

-Hörmətli cənab Prezident!

Hörmətli qonaqlar, xanımlar və cənablar!

Bu gün Xorvatiya Prezidenti cənab Mesiçin Azərbaycana rəsmi səfərinin ikinci günüdür və deyə bilərəm ki, biz dünən çox geniş müzakirələr apardıq, ikitərəfli münasibətlərin bütün aspektlərini təhlil etdik. Bizim aramızda güclü siyasi dialoq mövcuddur. İki il bundan əvvəl mən Xorvatiyaya rəsmi səfər etmişdim. O vaxt mənimlə bərabər Azərbaycandan iş adamları da getmişdilər və ilkin biznes əlaqələri məhz onda yaranmışdır. Son iki il ərzində müxtəlif sahələrdə əlaqələrimizdə canlanma müşahidə olunur. Amma mən hesab edirəm ki, iqtisadi sahədə daha da böyük işlər görmək mümkündür.

Bizim aramızda siyasi cəhətdən heç bir fikir ayrılığı yoxdur, əksinə, biz dost ölkələrik və həm ikitərəfli formatda, həm də beynəlxalq təşkilatlarda bir-birimizi dəstəkləyən ölkələrik. Bunun əsasında çox güclü iqtisadi əlaqələrin yaranması mümkündür və biz bunu arzulayırıq.

Mən çox şadam ki, Prezident Mesiçlə bərabər Azərbaycana Xorvatiyadan iş adamlarından ibarət böyük bir nümayəndə heyəti də gəlmişdir. Əminəm ki, burada onlar yerli həmkarları ilə müştərək iqtisadi işlərin aparılması üçün zəruri tədbirlər görəcəklər. Mən ümid edirəm ki, bu forumdan sonra bizim aramızda çox güclü iqtisadi əlaqələr yaranacaq və iş adamlarımız hər iki ölkənin artan iqtisadi potensialından istifadə edəcəklər.

Əfsuslar olsun, hələ ki, ölkələrimizdə bir-birimiz haqqında kifayət qədər məlumat yoxdur. Biz bu yaxınlarda qərar qəbul etmişik ki, Xorvatiyada Azərbaycanın səfirliyi açılsın və əminəm ki, səfirlik işə başlayandan sonra ölkələrimizin potensialı daha da dolğun şəkildə təqdim olunacaqdır. Azərbaycanda son illər ərzində iqtisadi artım çox sürətlə gedir. Deyə bilərəm ki, iqtisadiyyatımız son üç il ərzində dünyada analoqu olmayan sürətlə artır. Üç il ərzində ümumi daxili məhsulun artımı 96 faiz olmuşdur və bu proseslər davam edir. İqtisadiyyatın həcminin artması ilə bərabər, sənaye istehsalı da artır, yeni iş yerləri açılır, böyük infrastruktur layihələri həyata keçirilir.

Mən dünən Prezident Mesiçə bildirdim ki, gələn ilin büdcəsində təkcə dövlət xətti ilə, dövlət investisiyalarının həcmi ən azı 3 milyard dollar təşkil edəcəkdir. Artıq Azərbaycanda yerli investisiyalar həcm baxımından artıq xarici investisiyalardan daha böyükdür. Bu onu göstərir ki, Azərbaycanda həm xarici investorlar üçün, həm də yerli şirkətlər üçün çox gözəl biznes mühiti var. İqtisadiyyatımız tam liberallaşıbdır. Ölkəmizdə müşahidə olunan inkişaf hər sahədə özünü büruzə verir və Azərbaycanda artıq uzun illərdir ki, çox gözəl investisiya mühiti yaradılmışdır. Məhz buna görə adambaşına düşən birbaşa xarici investisiyaların həcminə görə Azərbaycan bölgədə lider ölkədir.

Biz artıq etibarlı tərəfdaş kimi özümüzü dünyanın ən böyük şirkətlərinə təqdim edə bilmişik. Azərbaycanda xarici investisiyaların qorunması siyasəti gələcəkdə də davam etdiriləcəkdir. İmzalanan hər bir saziş, hər bir müqavilə icra olunur, onlara heç bir dəyişiklik edilmir və ən böyük əhəmiyyət kəsb edən starteji müqavilələr hətta parlamentin ratifikasiyasından keçərək, prezident tərəfindən qanun kimi imzalanır. Beləliklə, xarici investorlarda tam zəmanət var ki, razılaşdırılmış şərtlərə heç kim heç vaxt müdaxilə etməyəcəkdir.

Biz hesab edirik ki, iqtisadi sahədəki əməkdaşlığımız bir neçə istiqamətdə gedə bilər. Birinci növbədə, əlbəttə, biz çox şad olardıq ki, Xorvatiyadan Azərbaycana sərmayə qoyulsun. Xüsusilə də nəzərə alsaq ki, indi bütün sahələrə sərmayə qoymaq üçün imkanlar yaxşıdır və Azərbaycana sərmayə qoymaq çox gəlirli bir işdir. İkinci istiqamət ondan ibarət ola bilər ki, Xorvatiyanın tanınmış şirkətləri Azərbaycanda müxtəlif işlərdə podratçı kimi iştirak edə bilərlər. Yenə də demək istəyirəm ki, gələn il Azərbaycanda çox böyük işlər görüləcəkdir: böyük infrastruktur layihələri, yol tikintisi, kəmərlərin tikintisi, digər infrastruktur layihələri. Xorvatiya şirkətləri bu layihələrdə fəal iştirak edə bilərlər. Eyni zamanda, Azərbaycanda müştərək müəssisələrin yaradılması da mümkündür.

Biz Xorvatiyanın sənaye potensialının imkanlarından daha da səmərəli istifadə etməliyik. Azərbaycana lazım olan mallar, o cümlədən, Xorvatiyadan da alına bilər. Biz bilirik ki, Xorvatiyada çox inkişaf etmiş gəmiqayırma sənayesi var. Nəzərə alsaq ki, Azərbaycan ərazisi ilə yükdaşımalar ildən-ilə artır və biz gələn il Bakıda yeni Beynəlxalq dəniz limanının tikintisinə başlayacağıq, Azərbaycanın yeni tankerlərin və yük gəmilərinin alınmasına böyük ehtiyacı var.

Xorvatiyada əczaçılıq sənayesi çox inkişaf etmişdir. Biz hələ bunu Sovet İttifaqının vaxtından bilirik. Bilirik ki, bu sahə son illər ərzində çox inkişaf edib və Azərbaycanda bunun üçün çox cəlbedici bazar var. Həm ticarət aparmaq mümkündür, həm də müştərək istehsal da təşkil etmək olar. Başqa sahələr də var. Turizm baxımından Xorvatiya çox gözəl ölkədir. Mən bunu bir daha iki il bundan əvvəl gördüm və Prezident Mesiçin qonaqpərvərliyini hiss etdim. Biz həm Zaqrebdə görüşdük, ondan sonra Brioni adasında olduq və Xorvatiyanın nadir turizm imkanlarını seyr etdik. Bu sahə də cəlbedici ola bilər kənd təsərrüfatı, emal sənayesi. Yəni bir sözlə, biz istənilən sahədə əməkdaşlığa hazırıq, bunun tərəfdarıyıq.

Bizim ölkələrimiz arasında çox böyük oxşarlıq var. Ölkələrimiz vaxtilə başqa dövlətlərin tərkibində olmuşdur. Biz müstəqilliyimizi də təxminən eyni vaxtda qazandıq, bərpa etdik və müstəqillik dövründə siyasi və iqtisadi islahatların aparılması nəticəsində çox böyük uğurlara nail olduq. İndi Xorvatiya NATO ilə üzvlük haqqında danışıqların son mərhələsindədir. Avropa İttifaqı ilə də həmçinin. Azərbaycanın Avratlantik strukturla-

rına inteqrasiya siyasəti də uğurla gedir. Yəni, həm iqtisadi, həm siyasi, həm də tarixi nöqteyi-nəzərdən bizi birləşdirən amillər çoxdur. Mən arzu edirəm ki, bu biznes forumunun nəticələri çox uğurlu olsun. Bu forumdan sonra bizim iqtisadi əlaqələrimiz daha da möhkəmlənsin və hər iki tərəf bundan fayda, səmərə götürsün.

Mən forum iştirakçılarını salamlayıram, forumun işinə uğurlar diləyirəm.

Sağ olun.

XORVATİYA PREZİDENTİ STEPAN MESİÇİN ÇIXIŞI

- Hörmətli cənab Prezident!

Hörmətli xanımlar və cənablar!

İcazə verin, sizin hamınızı burada salamlayım. Mən olduqca şadam ki, bu gün burada, iqtisadi forumda sizinlə görüşmək imkanımız oldu. Burada çox sayda iş adamları toplaşıb və onların müəyyən hissəsini Xorvatiyanın iş adamları təşkil edir. Ən mühümü isə odur ki, Prezident Əliyev bu tədbirdə bizimlə birlikdə iştirak edir. Mən onun çıxışına diqqətlə qulaq asdım, o, Xorvatiya-Azərbaycan iqtisadi əməkdaşlığına dair, demək olar ki, bütün maraqlı məqamları vurğuladı.

O ki qaldı ikitərəfli münasibətlərimizin inkişafına, biz buna lazımi diqqəti yetiririk. Biz bu əməkdaşlığı fəallaşdırırıq. İstəyirik ki, bu əməkdaşlığı gücləndirək və BMT vasitəsilə bunu daha yüksək səviyyəyə qaldıraq. Biz bu gün cəmiyyətimizin bütün sahələrində bu əməkdaşlığı inkişaf etdirmək arzusundayıq. Sadəcə, hesab edirəm ki, biz təkcə dövlət-hökumət səviyyəsində səfər mübadiləsi ilə kifayətlənməməli, digər təmasları da axtarmalıyıq. Misal üçün, bizim iki səfərimizdən sonra Prezident Əliyevlə qurduğumuz şəxsi dostluq münasibətləri bunun üçün yaxşı bir əsasdır. İstəyirik ki, bizim parlamentlər, nazirliklər arasında əməkdaşlıq baş tutsun. Ən əsası isə, istəyirik ki, bizim işgüzar dairələr əməkdaşlıq etsin.

Bir sözlə, bu məntiqi bir əlaqədir ki, bizim ölkələrimizin vətəndaşları da bir-birini tanısınlar. Prezident Əliyevin qeyd etdiyi kimi, Xorvatiya turizm ölkəsidir. Biz sözün əsl mənasında qonaqpərvər millətik, sizin turistlərinizi də qəbul etməyə hazırıq. İstəyirik ki, bizim də turizm təşkilatları sizin təşkilatlarla əməkdaşlıq etsin. Çünki biz Azərbaycanda gördüyümüzü, təbii ki, öz vətəndaşlarımıza tövsiyə edə bilərik. Yaxşı olardı ki, bizim turistlər də Azərbaycanı ziyarət etsinlər. Hesab edirəm ki, biz turizm sahəsində böyük nailiyyətlər əldə edə bilərik. Xorvatiya vasitəsilə Azərbaycan və onun iqtisadiyyatı nəinki bizim bazarımıza, eyni zamanda, qonşularımızın bazarına da çıxış əldə edə bilər.

Bildiyiniz kimi, biz keçmiş Yuqoslaviyanın bir hissəsi olmuşuq. Yuqoslaviya dağıldıqdan sonra orada olan bütün respublikalar müstəqilliyini qazandı. Amma əfsuslar olsun ki, Çexiya və Slovakiyada olduğu kimi, bizdə bütün işlər o qədər də hamar getmədi. Çünki onlar sülh yolu ilə ayrıldılar. Biz isə öz ərazilərimizi hərbi yolla qorumalı idik, ordumuzu qurmalı idik. Müharibə başa çatdı, digərləri kimi, biz də çox böyük itkilər verdik, amma sərhədlərimiz bir millimetr də dəyişmədi. Hərbi müdaxilə nəticəsində dağıntılara baxmayaraq, biz öz ölkəmizin ərazisində bərpa işlərini apara bildik, çox işlər

gördük. Biz sənayemizin yeni imkanlarını yaratdıq. Ən vacibi isə ondan ibarətdir ki, biz öz yeni mütəxəssislərimizi öyrətdik. Ona görə də biz indi digər ölkələrlə uğurlu əməkdaşlıq apara bilərik.

Prezident Əliyev burada qeyd etdi ki, biz Avropa İttifaqı ilə danışıqlar aparırıq. Bu, təbii faktdır. Biz istəyirik Avropa İttifaqının üzvünə çevrilək. Əslində, bu, əsrin bir hadisəsi olardı. Biz 2010-cu ildə Avropa İttifaqına üzv ola bilərik. Danışıqlar hazırda çox uğurla gedir. Amma bu, qapalı dairə deyil, Avropa birləşməlidir. İndi Avropa sözün əsl mənasında birləşməkdədir. Bir vaxt gözəl bir gün gələcək və bütün sərhədlər açılacaq, Avropa böyük bir vahid məkana çevriləcəkdir. Onda müharibə hər hansı bir münaqişənin həlli vasitəsinə, alətinə çevrilməyəcəkdir. Avropa digər regionlara da yaxınlaşmalıdır, oradakı münaqişələr də bu yolla aradan qalxa bilər, ölkələr daha uğurla əməkdaşlıq edə bilər. Avropada tarixdə baş vermiş müharibələr, o cümlədən Avropanın sərhədlərindən kənarlarında olmuş münaqişələr və toqquşmalar hər zaman ya enerji resurslarına və ya xüsusda ərzaq məhsullarına görə aparılırdı. Ərzaq məhsulları və energetika təbii ki, vacib bir məsələdir. Amma bununla təcavüzü əsaslandırmaq olmaz. Təcavüzkar deyir ki, mən öz milli azlığımı müdafiə edirəm və digər ölkəyə hücum edir. Amma bu, sadəcə, bir səbəb kimi gətirilir. Əslində, bu, digər ərazini tutmaq üçündür. Hitler də o vaxt digər ölkələrin ərazilərini elə keçirəndə bunu onunla əsaslandırırdı ki, misal üçün, guya Dunay almanlarını və yaxud da pomor almanlarını qoruyur. Yaxud, sadəcə, bir səbəb kimi gətirilir ki, Miloşeviç Serbiyanın ərazilərini hərbi vasitə ilə genişləndirmək fikrinə düşəndə, yəni Bosniya və Hersoqovinanı ələ keçirməklə deyirdi ki, oradakı serbləri qoruyur. Amma serbləri qorumaq lazım deyildi, onların xorvatlar kimi eyni hüquqları vardı. Onlar Xorvatiya Respublikasının bərabərhüquqlu vətəndaşları idi. Bu, bizim üçün çox baha başa gəldi. Eyni zamanda, serblər üçün də belə oldu. Çünki, yekunda sərhədlər dəyişilmədi. Biz çalışdıq ki, bu problemləri danışıqlar yolu ilə həll edək. Amma yekunda məcbur olduq hərbi vasitələrə əl ataq.

İndi biz ümumi regionda yaxşı əməkdaşlıq aparırıq, mən bunu xüsusilə qeyd etmək istəyirəm. Biz istəyirik ki, müharibə zamanı törədilmiş bütün cinayətlərə görə konkret insanlar məsuliyyət daşısınlar. Bu cinayətlər xalqların adına yazılmalı deyil.

Biz bu gün əməkdaşlığımızı davam etdiririk. Baxmayaraq ki, çox ağır, qanlı müharibə getmişdir, yüzlərlə müəssisəmiz Serbiyada işləyir. Onların da firmaları Xorvatiyada fəaliyyət göstərir. Biz hökumət, işgüzar dairələr səviyyəsində qarşılıqlı səfərlər edirik. Onların turistləri Xorvatiyaya gəlir. Praktik olaraq, münasibətlərimizi normal məcraya gətirmişik. İndi bizim keçmiş Yuqoslaviyanın digər ölkələri ilə çox yaxşı əməkdaşlığımız var. Eyni zamanda, digər qonşu ölkələrlə də əməkdaşlıq edirik.

Azərbaycana gəldikdə, yaxşı olardı ki, Azərbaycan Xorvatiya vasitəsilə digər bazarlara çıxış əldə etsin. Siz öz işgüzar təmaslarımızı ölkəmiz vasitəsilə genişləndirə bilərsiniz. Həm sizin ölkəniz, həm də bizim ölkəmiz yüksələn xətlə inkişaf edir. Mənə çox böyük təəssürat bağışlayır ki, sizin ölkə iqtisadi baxımdan göstəricilərinə görə, ötən ilin göstəricilərinə görə ən uğurlu dövlət hesab edilir. Hesab edirəm ki, əməkdaşlıq üçün müəyyən bir təşkilat, baza yaradılmalıdır ki, bunun əsasında bizim ümumi iqtisadiyyatlarımız inkişaf etsin.

Düzünü deyim, mən hər şeyi görə bilmədim. Amma gördüklərimi deyirəm ki, bütün şə-

hər yeniləşir, yeni obyektlər tikilir. Bu şəhərə 3-4 ildən sonra gələn şəxs sizin şəhərinizi çətin ki, tanısın. Biz Azərbaycanın və Xorvatiyanın inkişaf sürətini nəzərə alsaq, özümüz bir neçə ildən sonra ölkələrimizi tanıya bilməyəcəyik. Bütün bunlara çox böyük vəsait lazımdır. Biz inkişaf etməliyik, şərtləri formalaşdırmalıyıq, biliklərimizi təkmilləşdirməliyik, infrastrukturumuzu inkişaf etdirməliyik. Təbii ki, bu sahələrdə əməkdaşlıq edə bilərik. 2010-cu ildə biz avtomobil yollarımızın sonuncu kilometrlərini çəkəcəyik. Beləliklə, bizim bütün şəhərlərimiz bir-biri ilə avtomobil yolları ilə bağlanacaqdır. Bu, turizm üçün olduqca vacibdir. Amma avtomobil yolunu çəkərək, infrastrukturu quraraq çox güclü inşaat firmaları formalaşdırmışıq. Onlar sizin firmalarınızla əməkdaşlıq edə bilər. Biz birgə müəssisələr yarada bilərik. Bizim böyük təcrübəmiz var, yaxşı Avropa avadanlığımız var. Biz dünyada tanınmış bir çox şirkətlərlə – Mavritaniya, Misir, Əlcəzair, Liviya, Albaniya kimi ölkələrdə neft və qaz yataqlarının işlənilməsi sahəsində işləyən şirkətlərlə əməkdaşlıq edirik. Şirkətlərimiz həmin ölkələrdə özlərini uğurlu tərəfdaş kimi göstəribdir.

Bizim öz enerji resurslarımız yoxdur. Təbii ki, biz bu baxımdan digər ölkələrdən asılıyıq. Ona görə biz digər ölkələrdən, o cümlədən sizin ölkənizdən, Azərbaycandan enerji məhsullarının idxalında maraqlıyıq. Təbii ki, Avropanın bir yox, bir çox enerji təchizatı mənbəyi olmalıdır ki, biz enerji təhlükəsizliyimizi təmin edək. Yalnız bu yolla gedərək, biz güclü iqtisadiyyatı qura bilərik.

Cənab Prezident burada bizim sənayemizin digər sahələrini də qeyd etdi. Bunları yenidən xatırlatmağa ehtiyac yoxdur. Bizim əczaçılıq sənayemiz çox yaxşı inkişaf edibdir. Burada yeni zavodlar tikə bilərik. Onda bir çox dərmanların xaricdən idxalından asılı olmayacaqsınız. Biz Astanada iki böyük xəstəxana tikirik. Belə xəstəxananı burada da tikə, bu sahədə əməkdaşlıq edə bilərik. Eyni zamanda, kənd təsərrüfatı və emal sahəsində işbirliyi qurmaq olar. Bütün bunlar sizdən və işgüzar dairələrdən asılı olacaqdır. Siz bir-birinizi yaxşı tanımalısınız. Bilirsiniz, riyaziyyat hamı üçün eynidir. Özünüz hesablaya bilərsiniz ki, sizin üçün nə faydalıdır, nə yox, hansı sahədə əməkdaşlıq edə bilərsiniz, hansı sahədə isə əməkdaşlıq etməyəcəksiniz. Siz işgüzar dairələrsiniz. İşgüzar dairələr hər zaman yeni təmasların qurulmasına imkanlar tapacaqlar və bunlar həm sizin firmanız üçün, həm sizin rəhbərliyiniz altında işləyənlər üçün maraqlı olacaqdır. Bu, bütövlükdə ölkəniz üçün vacibdir. Biz iqtisadiyyatdan tutmuş hərbi sənaye kompleksinə qədər bütün sahələrdə işləyə bilərik.

Biz ərazi baxımından bir-birimizdən o qədər də çox fərqlənmirik. Ona görə bizim əməkdaşlıq imkanlarımız daha çoxdur. Biz keçmişdə daha böyük ölkələrin daxilində idik, indi isə müstəqil ölkələrik və biz öz potensialımıza əsaslanırıq. Bu, bizi bir-birimizə yaxınlaşdırır, birləşdirir və bir-birimizə bələdçi rolunu oynayır. Ona görə mən işinizdə sizə böyük uğurlar arzulamaq istəyirəm. İstəyirik ki, gələn bu cür görüş Xorvatiyada baş tutsun. Çünki yaxşı olardı ki, belə bir forum Xorvatiyada da təşkil olunsun, deyərdim ki, daha geniş tərkibdə baş tutsun.

Mən Prezident Əliyevi Xorvatiyaya dəvət etdim. O, Xorvatiyada artıq olub, amma mən hesab edirəm ki, belə səfərlər daha tez-tez baş tutmalıdır. Xorvatiya dost ölkədir, Azərbaycanla münasibətlərin inkişafında maraqlıdır.

Çox sağ olun və sizə böyük müvəffəqiyyətlər arzulayıram.

XORVATİYA PREZİDENTİ STEPAN MESİÇ BAKI DÖVLƏT UNİVERSİTETİNİN TƏLƏBƏ VƏ MÜƏLLİMLƏRİ QARŞISINDA ÇIXIŞ ETMİŞDİR

Oktyabrın 3-də Bakı Dövlət Universitetində Xorvatiya Prezidenti Stepan Mesiçin bu ali məktəbin tələbə və müəllimləri ilə görüşü olmuşdur.

Universitetdə Xorvatiya Prezidentini səmimi qarşıladılar, tələbələr ali qonağa gül dəstələri təqdim etdilər.

Xorvatiya dövlətinin başçısı universitetdə fəaliyyət göstərən Heydər Əliyev Muzeyinin ekspozisiyası ilə tanış oldu, Fəxri qonaqlar kitabına ürək sözlərini yazdı.

BDU-nun rektoru, AMEA-nın müxbir üzvü, Milli Məclisin deputatı Abel Məhərrəmov görüşü açaraq, Prezident Stepan Mesiçin həyat və fəaliyyətinin əsas mərhələlərindən danışdı. Ali qonağa Şərqdə ilk dünyəvi ali məktəb olan Bakı Dövlət Universitetinin yaradılması tarixi barədə məlumat verildi. Bildirildi ki, hazırda BDU-nun 16 fakültəsində 18 mindən çox tələbə təhsil alır. Onların təqribən 1300 nəfəri dünyanın 20 xarici ölkəsinin nümayəndələridir. Universitetdə 1300-dən çox müəllim, o cümlədən 300 nəfərə yaxın elmlər doktoru, professor, Milli Məclisin 14 deputatı çalışır.

Rektor universitetin geniş beynəlxalq əlaqələrindən danışarkən, Xorvatiya Prezidentindən Azərbaycanın bu ali məktəbi ilə Xorvatiyanın universitetləri arasında əlaqələrin yaradılmasında kömək göstərməsini xahiş etdi.

Abel Məhərrəmov çıxışında Azərbaycanın əsas problemi olan Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinə də toxundu. O, ümidvar olduğunu bildirdi ki, Xorvatiya bu münaqişənin həllinin yeganə yolunu beynəlxalq hüququn prinsipləri əsasında ölkəmizin ərazi bütövlüyünün bərpa olunmasında görən Azərbaycanın haqlı mövqeyini beynəlxalq təşkilatlarda dəstəkləyəcəkdir.

Sonra Prezident Stepan Mesiç Xorvatiya dövlətçiliyinin formalaşması tarixi və müasir Xorvatiyanın xarici siyasət prioritetləri barədə məruzə ilə çıxış etdi.

Xorvatiya rəhbəri ölkəsinin Avratlantik strukturlarına inteqrasiyaya yönəlmiş siyasi xətti barədə danışarkən dedi ki, Xorvatiya ona dost ölkələrin bu istiqamətdə səylərini dəstəkləyəcəkdir. Xorvatiya bütün sahələrdə Azərbaycanla faydalı ikitərəfli əməkdaşlığın inkişafında maraqlıdır.

Xorvatiya Prezidenti beynəlxalq həyatın aktual problemləri, o cümlədən qlobal istiləşmə barədə öz ölkəsinin mövqeyini açıqladı.

Sonra Stepan Mesiç tələbələrin suallarına cavab verdi.

BDU-nun rektoru Abel Məhərrəmov görüşdən xatirə olaraq, ali qonağa hədiyyə təqdim etdi.

XORVATİYA PREZİDENTİ STEPAN MESİÇİN VƏ AZƏRBAYCANIN BAŞ NAZİRİ ARTUR RASİZADƏNİN BİRGƏ İŞGÜZAR NAHARI

Xorvatiya Prezidenti Stepan Mesiç və Azərbaycanın Baş naziri Artur Rasizadə oktyabrın 3-də "Ulduz" dövlət iqamətgahında birgə işgüzar nahar etmişlər.

Süfrə arxasında səmimi söhbət zamanı ölkələrimiz arasında münasibətlərin, o cümlədən iqtisadi sahədə əməkdaşlığın perspektivləri barədə fikir mübadiləsi olmuşdur.

SƏFƏR BAŞA ÇATDI

Oktyabrın 3-də Xorvatiya Respublikasının Prezidenti Stepan Mesiçin Azərbaycan Respublikasına rəsmi səfəri başa çatmışdır.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV QARA DƏNİZ VƏ XƏZƏR DƏNİZİ SAHİBKARLAR KONFEDERASİYALARI BİRLİYİNİN VƏ TÜRK SƏNAYEÇİLƏRİ VƏ İŞ ADAMLARI BİRLİYİNİN PREZİDENTİ ARZUXAN DOĞANI, MƏRMƏRƏ QRUPU VƏQFİNİN SƏDRİ AKKAN SUVERİ VƏ ATA HOLDİNQİN BAŞ DİREKTORU ƏHMƏD ERENTOKU QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 2-də Prezident sarayında Qara Dəniz və Xəzər Dənizi Sahibkarlar Konfederasiyaları Birliyinin və Türk Sənayeçiləri və İş Adamları Birliyinin prezidenti Arzuxan Doğanı, Mərmərə qrupu vəqfinin sədri Akkan Suveri və ATA Holdinqin baş direktoru Əhməd Erentoku qəbul etmişdir.

Azərbaycan Prezidenti ölkəmizdə "Qara dəniz və Xəzər dənizi regionunda regional birbaşa xarici investisiyalar" mövzusunda beynəlxalq konfransın keçirilməsinin böyük əhəmiyyətə malik olduğunu qeyd etdi və konfrans iştirakçılarına təbrik məktubu ünvanladığını bildirdi. Prezident İlham Əliyev belə tədbirlərin regional əməkdaşlıq məsələlərinə dəyərli töhfə verdiyini dedi.

Arzuxan Doğan bu konfransın keçirilməsini yüksək qiymətləndirdiklərini qeyd etdi. O, konfransın istər bütövlükdə region üçün, istərsə də Azərbaycan-Türkiyə əlaqələrinin inkişafı baxımından əhəmiyyətli olacağını vurğuladı.

AZƏRBAYCANIN XARİCİ İŞLƏR NAZİRİ NYU-YORKDA İŞGÜZAR SƏFƏRDƏDİR

BMT Baş Məclisinin 62-ci sessiyasının ümumi debatlarında iştirak etmək üçün Nyu-Yorka gələn Azərbaycanın xarici işlər naziri Elmar Məmmədyarovun ABŞ-a işgüzar səfəri davam edir.

Nazir oktyabrın 1-də Ukrayna, Monqolustan, Uruqvay və Kosta-Rikadan olan həmkarları ilə görüşlər keçirmişdir.

Azərbaycan ilə Uruqvayın Xarici İşlər nazirlikləri arasında əməkdaşlığın yaradılması haqda anlaşma memorandumu imzalanmışdır.

Nazir Elmar Məmmədyarov bildirmişdir ki, bu yaxınlarda Argentinada açılacaq Azərbaycanın diplomatik nümayəndəliyinin fəaliyyəti Uruqvayı da əhatə edəcəkdir. Azərbaycan üçün Uruqvay həm də MERKOSUR ticarət təşkilatının baş qərargahı kimi də maraq doğurur. Elmar Məmmədyarov uruqvaylı həmkarı Reynala Qarqanoya bölgəmizdə mövcud vəziyyət, Xəzər hövzəsində Azərbaycanın həyata keçirdiyi nəhəng

enerji layihələri, Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi haqda məlumat vermişdir.

Uruqvaylı nazir azərbaycanlı həmkarını ölkəsinə rəsmi səfərə dəvət etmişdir. Elmar Məmmədyarov oktyabrın 1-də BMT televiziyasına müsahibə vermişdir. Müsahibədə nazir Azərbaycanda gedən siyasi və demokratik islahatlar, ölkəmizin sürətlə inkişaf edən iqtisadiyyatında qeyri-neft sektorunun prioritetə çevrilməsi, vətəndaş cəmiyyətinin qurulması barədə məlumat vermiş, Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi ilə bağlı sualları cavablandırmışdır.

Həmin gün Elmar Məmmədyarov BMT-nin binasında keçirilən Demokratiyalar İcması Nazirlərinin əlaqələndirici iclasında iştirak etmişdir. İclasda təşkilatın noyabrda Malidə keçiriləcək xarici işlər nazirlərinin 4-cü toplantısına hazırlıq məsələləri müzakirə olunmuşdur.

AZƏRBAYCAN XARİCİ İŞLƏR NAZİRİ BMT BAŞ MƏCLİSİNİN 62-Cİ SESSİYASINDA İKİTƏRƏFLİ GÖRÜŞLƏR KEÇİRMİŞDİR

Xarici İşlər Nazirliyində keçirilən mətbuat konfransında nazirliyin mətbuat xidmətinin rəhbəri Xəzər İbrahim bildirmişdir ki, BMT Baş Məclisinin 62-ci sessiyasında iştirak etmək üçün Nyu-Yorkda səfərdə olan xarici işlər naziri Elmar Məmmədyarov Slovakiya, Sloveniya, Rumıniya, Albaniya, Türkiyə, Serbiya, Çexiya, Norveç, İslandiya, Kosta-Rika, Uruqvay və Monqolustanın xarici işlər nazirləri ilə ikitərəfli görüşlər keçirmişdir. O, İtaliya və Meksika xarici işlər nazirlərinin müavinləri ilə də görüşmüşdür.

Bildirilmişdir ki, Azərbaycan xarici siyasət idarəsi başçısının Avstriyanın Baş naziri ilə də görüşü nəzərdə tutulmuşdur.

Oktyabrın 3-də Azərbaycanın xarici işlər naziri Elmar Məmmədyarovun BMT Baş Məclisinin 62-ci sessiyasında çıxışı gözlənilir.

Həmin gün E.Məmmədyarov ABŞ dövlət katibinin müavini N.Bers, habelə yəhudi icmasının nümayəndələri ilə də görüşəcəkdir.

AZƏRBAYCAN XARİCİ İŞLƏR NAZİRİNİN NYU-YORKA SƏFƏRİ DAVAM EDİR

Xarici işlər naziri Elmar Məmmədyarov BMT Baş Məclisinin 62-ci sessiyası çərçivəsində Nyu-Yorkda İslam Konfransı Təşkilatı-Avropa İttifaqı-Azərbaycan üçtərəfli görüşündə iştirak etmişdir.

İSLAM KONFRANSI TƏŞKİLATININ ÜZVÜ OLAN DÖVLƏTLƏR BMT BAŞ MƏCLİSİNDƏ MÜZAKİRƏLƏR ZAMANI AZƏRBAYCANLA HƏMRƏYLİK NÜMAYİŞ ETDİRƏCƏKLƏR

Oktyabrın 2-də İslam Konfransı Təşkilatı xarici işlər nazirlərinin Nyu-Yorkda keçirilən əlaqələndirici iclasında İKT-nin baş katibi Ekmələddin İhsanoğlu təşkilatın üzv dövlətlərini BMT-nin Baş Məclisində səsvermələrdə Azərbaycanın ərazi bütövlüyünü dəs-

təkləməyə çağırmışdır. O, məsələ ilə bağlı bu ilin may ayında İKT xarici işlər nazirlərinin İslamabaddakı konfransında qəbul edilən qətnaməni xatırladaraq vurğulamışdır ki, Azərbaycan ərazilərinin Ermənistan tərəfindən işğalına və təcavüzünə son qoymaq üçün İKT-nin üzvü olan dövlətlər təsirli siyasi və iqtisadi tədbirlərdən istifadə etməlidilər.

BMT baş katibinin xüsusi nümayəndəsinin iştirakı ilə keçirilən İKT xarici işlər nazirlərinin əlaqələndirici iclasının qəbul etdiyi son rəsmi sənəd İslam dünyasını narahat edən bir sıra məsələlərlə yanaşı, təşkilatın Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinə rəsmi münasibətini də əks etdirmişdir. Sənəddə qeyd olunmuşdur ki, beynəlxalq qanunlar və BMT-nin əsas prinsiplərini kobud şəkildə pozan Ermənistanın Azərbaycana qarşı davamlı işğalı pislənilir. İKT üzvləri Azərbaycan hökumətinin sülh prosesinə maneələri, o cümlədən ərazilərin coğrafi, mədəni və demoqrafik cəhətlərdən süni şəkildə dəyişdirilməsi, burada qanunsuz iqtisadi fəaliyyətin aparılması və təbii ehtiyatların qanunsuz şəkildə işlənilməsini aradan qaldırmaq səylərinə dəstək ifadə etmişlər.

* * *

Oktyabrın 2-də Nyu-Yorka işgüzar səfəri çərçivəsində Azərbaycanın xarici işlər naziri Elmar Məmmədyarov Avstriyanın Avropa İttifaqı və beynəlxalq məsələlər üzrə dövlət katibi Hans Uinklerlə ikitərəfli görüş keçirmişdir.

Həmin gün nazir "Amerikanın səsi" radiostansiyasına müsahibə vermişdir.

AZƏRBAYCANIN XARİCİ İŞLƏR NAZİRİ BMT BAŞ MƏCLİSİNİN SESSİYASINDA BƏYANATLA ÇIXIŞ ETMİŞDİR

Azərbaycanın xarici işlər naziri Elmar Məmmədyarov oktyabrın 3-də BMT Baş Məclisinin 62-ci sessiyasının ümumi müzakirələrində bəyanatla çıxış etmişdir. Nazir Baş Məclisin sessiyasının gündəliyindəki prioritet məsələləri, o cümlədən BMT qərarlarının qlobal problemlərin həllinə təsirini artırmaq məqsədi ilə təşkilatdaxili islahatların zəruriliyi, dünyada insan haqlarının qorunması, dinlərarası və mədəniyyətlərarası anlaşmanın gücləndirilməsinin vacibliyi məsələlərini Azərbaycan hökumətinin dəstəklədiyini bildirmişdir.

Çıxışın əsas hissəsi sessiyanın gündəliyində duran və Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinə birbaşa aidiyyəti olan 16-cı və 20-ci bəndlərə həsr olunmuşdur. Hazırda GUAM təşkilatında sədrlik edən ölkənin nümayəndəsi kimi Elmar Məmmədyarov bildirmişdir ki, Azərbaycan, Gürcüstan və Moldova ərazilərində davam edən və bölgənin sabitliyinə, inkişafına təhlükə yaradan münaqişələr eyni köklərdən qaynaqlanır. Bu münaqişələrin hər biri təcavüzkar separatizmdən başlanıb, mülki əhalinin etnik təmizlənməsi ilə müşayiət edilib və adı çəkilən ölkələrin suverenliyi və ərazi bütövlüyünün pozulması ilə nəticələnmişdir. Elmar Məmmədyarov demişdir ki, Azərbaycan GUAM-dakı həmkarları ilə birgə bu münaqişələrin ölkələrin ərazi bütövlüyü və beynəlxalq hüquq prinsipləri əsasında həll edilməsi üçün Baş Məclisdə formal müzakirələrə başlayacaq və BMT-nin üzv dövlətlərinin dəstəyinə nail olmağa çalışacaqdır.

Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin ağır nəticələrini xatırladan nazir demişdir ki, 1992-ci ildən başlayaraq ATƏT-in Minsk qrupu çərçivəsində axtarılan həll yolu tapılmamışdır. Zaman ötdükcə, təmas xəttini müşahidə etmək cəhdləri çətinləşir. Ermənistan rəhbərliyi isə təcavüzün nəticələrindən sui-istifadə edərək işğal olunmuş torpaqlarda Azərbaycanın tarixi-mədəni irsinə aid hər bir şeyi dağıdır və qanunsuz fəaliyyətlə məşğul olur. BMT bunlara göz yummamalıdır.

Azərbaycan nazir çıxışında erməni xalqına da müraciət etmiş, onu bölgədə sülhü və sabitliyi pozan qeyri-konstruktiv siyasətin Ermənistanın uzunmüddətli inkişafı üçün təhlükəsi və dağıdıcı təsiri haqqında düşünməyə çağırmışdır. Elmar Məmmədyarov demişdir: "Mən əminəm ki, Azərbaycan öz suverenliyi və ərazi bütövlüyünü bərpa edəcəkdir. Bu, yalnız vaxt məsələsidir". Azərbaycan diplomatı BMT-nin üzv dövlətlərinə Baş Məclisin ötən sessiyasında "Azərbaycanın işğal edilmiş ərazilərində vəziyyət" adlı qətnamənin səsverməsində nümayiş etdirdikləri konsensusa görə minnətdarlığını bildirmişdir.

Nazir Məmmədyarov oktyabrın 3-də Nyu-Yorka işgüzar səfərini ABŞ dövlət katibinin siyasi məsələlər üzrə müavini Nikolas Börnslə, habelə Amerika yəhudi icmasının nümayəndələri ilə keçirdiyi görüşlərlə başa çatdırmışdır.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV LİTVANIN MİLLİ MÜDAFİƏ NAZİRİ YUOZAS OLEKASIN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİNİ QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 3-də Prezident sarayında Litvanın milli müdafiə naziri Yuozas Olekasın başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.

Litvanın milli müdafiə naziri Yuozas Olekas Litva Prezidentinin salamlarını dövlətimizin başçısına çatdırdı.

Qonaq sentyabr ayında Azərbaycan Prezidenti İlham Əliyevin Litvaya rəsmi səfərinin uğurlu keçdiyini vurğulayaraq dövlətimizin başçısının Vilnüsə bu yaxınlarda gözlənilən işgüzar səfərinin də əlaqələrimizin genişləndirilməsi işinə xidmət edəcəyini qeyd etdi.

Dövlətimizin başçısı Azərbaycanla Litva arasında ikitərəfli münasibətlərin bütün sahələrdə uğurla inkişaf etdiyini bildirdi.

Prezident İlham Əliyev ötən ay Litvaya rəsmi səfərini məmnunluqla xatırlayaraq, səfər zamanı keçirilən görüşlərin və aparılan danışıqların əməkdaşlığımızın daha da möhkəmləndirilməsi baxımından əhəmiyyətli olduğunu vurğuladı. O, Litvanın milli müdafiə nazirinin ölkəmizə bu səfərinin də ikitərəfli münasibətlərimizin daha da inkişaf etdirilməsi işinə töhfə verəcəyinə əminliyini ifadə etdi. Dövlətimizin başçısı Litva Prezidentinin salamlarına görə minnətdarlığını bildirdi və onun da salamlarını Litvanın dövlət başçısına çatdırmağı qonaqdan xahiş etdi.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV MOSKVA MERİNİN BİRİNCİ MÜAVİNİ, AZƏRBAYCAN-MOSKVA HÖKUMƏTLƏRARASI İQTİSADİ KOMİSSİYANIN HƏMSƏDRİ LYUDMİLA ŞVETSOVANIN RƏHBƏRLİK ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİNİ QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 3-də Prezident sarayında Moskva merinin birinci müavini, Azərbaycan ilə Moskva hökuməti arasında hökumətlərarası iqtisadi komissiyanın həmsədri Lyudmila Şvetsovanın rəhbərlik etdiyi nümayəndə heyətini qəbul etmişdir.

Dövlətimizin başçısı Azərbaycanda Moskvanın mədəniyyət günlərinin və Azərbaycan-Moskva hökumətlərarası iqtisadi komissiyanın iclasının keçirilməsinin əhəmiyyətinə toxundu və bu tədbirlərin Azərbaycan ilə Rusiya arasında əlaqələrin daha da möhkəmlənməsinə xidmət göstərdiyini bildirdi.

Lyudmila Şvetsova Moskva meri Yuri Lujkovun salamlarını Prezident İlham Əliyevə çatdırdı. 1997-ci ildən Azərbaycan ilə Moskva hökuməti arasında əməkdaşlıq haqqında müqavilənin olduğunu qeyd edən qonaq ölkəmiz ilə əlaqələrin inkişafına önəm verdiklərini söylədi.

MİLLİ MƏCLİSİN SƏDRİ STRASBURQDA İŞGÜZAR GÖRÜŞLƏR KEÇİRİR

Avropa Şurası Parlament Assambleyasının dəvəti ilə Milli Məclisin sədri Oqtay Əsədovun başçılıq etdiyi nümayəndə heyəti oktyabrın 3-də Strasburqa işgüzar səfərə gəlmişdir.

Həmin gün Oqtay Əsədov Avropa Şurası Parlament Assambleyasının sədri Rene Van der Lindenlə, qurumun baş katibi Mateo Sorinasla, siyasi qrupların rəhbərlərindən Luis Mariya de Puiq, Luk Van der Brand, Matyaş Eörsi, Mixail Margelov və Tin Koksla görüşmüşdür.

Görüşlərdə AŞPA ilə Azərbaycan arasında əməkdaşlığın inkişaf etdiyi xüsusi vurğulanmış, Cənubi Qafqaz bölgəsində ölkəmizin aparıcı rolundan bəhs olunmuş, Azərbaycan Prezidenti İlham Əliyevin rəhbərliyi altında respublikamızda uğurla həyata keçirilən islahatlar diqqətə çatdırılmış, Azərbaycanda iqtisadiyyatın sürətlə inkişaf etdiyi, Avropa Şurası dəyərlərindən bəhrələnildiyi, Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin sülh yolu ilə aradan qaldırılması istiqamətində ATƏT-in Minsk qrupunun səyləri barədə danışılmışdır.

Oktyabrın 4-də Avropa Şurasının iqamətgahında Oqtay Əsədov Nazirlər Komitəsinin AQO monitorinq qrupunun rəhbəri Per Syöqen və Venesiya Komissiyasının katibi Canni Bukikkio ilə görüşmüşdür.

Görüşdə son zamanlar Azərbaycan parlamentində görülən işlər yüksək qiymətləndirilmiş və deputatların fəaliyyəti üçün gözəl şərait yaradıldığı qeyd olunmuş, qarşılıqlı əməkdaşlığın daha da möhkəmləndirilməsi istiqamətində hər iki tərəfin fəaliyyətinin sürətləndirilməsinin vacibliyi vurğulanmışdır.

Azərbaycanda qarşıdan gələn prezident seçkiləri ilə bağlı bir sıra məsələlər ətrafında

geniş fikir mübadiləsi aparılmış, ölkəmizdə məhkəmə-hüquq sistemində aparılan islahatlarla əlaqədar müzakirələrdə Azərbaycanda yeni məhkəmə sisteminin yaradılması yüksək qiymətləndirilmişdir.

Seçki Məcəlləsinə nəzərdə tutulan dəyişikliklərlə əlaqədar Venesiya Komissiyası tərəfindən irəli sürülmüş müəyyən təkliflərlə bağlı görülən işlər müsbət qiymətləndirilmiş və qeyd edilmişdir ki, Venesiya Komissiyası ilə Azərbaycanda yaradılmış komissiyanın birgə fəaliyyəti nəticəsində uğurlu nəticələr əldə edilmişdir.

Avropa Şurasının baş katibi Terri Devisin Milli Məclisin sədri Oqtay Əsədovla görüşündə qurumla Azərbaycan arasında əməkdaşlığın inkişafı razılıq hissi ilə qeyd edilmişdir. Tərəflər mövcud əlaqələrin gələcəkdə hansı istiqamətlərdə aparılması, Avropa Şurasının ayrı-ayrı strukturları ilə Azərbaycan arasında əməkdaşlığın daha da möhkəmləndirilməsi və perspektivləri barədə fikir mübadiləsi aparmışlar. Görüşdə qarşıdan gələn prezident seçkilərinə toxunulmuş və seçkilərin demokratik şəraitdə keçiriləcəyinə əminlik bildirilmişdir.

Oqtay Əsədov Prezident İlham Əliyevin uğurlu siyasəti nəticəsində Azərbaycanda iqtisadiyyatın sürətlə inkişaf etdiyini, beynəlxalq aləmdə nüfuzunun getdikcə artdığını, insanların rifah halının yüksəldiyini, demokratik islahatlara geniş meydan verildiyini diqqətə çatdırmışdır.

Terri Devis əhalinin sosial vəziyyətinin yaxşılaşdırılması istiqamətində gördüyü işlərə görə Azərbaycan Prezidenti İlham Əliyevə dərin minnətdarlığını xüsusi vurğulamış, Avropa Şurası ilə Azərbaycan arasında əlaqələrin daha da inkişaf edəcəyinə ümidvar olduğunu bəyan etmişdir.

Milli Məclisin sədri Azərbaycanın Avropa Şurası yanında daimi nümayəndəliyində olmuşdur. Nümayəndəliyin rəhbəri Arif Məmmədov parlamentin sədri Oqtay Əsədova görülmüş işlər barədə məlumat vermişdir.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN TACİKİSTANA SƏFƏRİ

Prezident İlham Əliyev oktyabrın 5-də MDB Dövlət Başçıları Şurasının iclasında iştirak etmək üçün Düşənbəyə gəlmişdir.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN VƏ TACİKİSTAN PREZİDENTİ EMOMƏLİ RƏHMONUN TƏKBƏTƏK GÖRÜŞÜ

Oktyabrın 5-də Düşənbədə hökumət iqamətgahında Azərbaycan Prezidenti İlham Əliyevin və Tacikistan Prezidenti Emoməli Rəhmonun təkbətək görüşü olmuşdur.

Dövlət başçıları qarşılıqlı səfərlərin ikitərəfli əlaqələrin inkişafı və əldə edilmiş razılaşmaların reallaşdırılması üçün böyük əhəmiyyətini vurğuladılar, Azərbaycan və Tacikistan arasında bütün sahələrdə əməkdaşlığın perspektivlərini, regional qarşılıqlı fəaliyyət məsələlərini müzakirə etdilər.

Görüşdə qarşılıqlı maraq doğuran digər məsələlər də müzakirə olundu.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV MDB-NİN DÖVLƏT BAŞÇILARI ŞURASININ İCLASINDA İŞTİRAK ETMİŞDİR

Oktyabrın 5-də Azərbaycan Prezidenti İlham Əliyev Müstəqil Dövlətlər Birliyinin üzvü olan ölkələrin Dövlət Başçıları Şurasının Düşənbədə keçirilən iclasında iştirak etmişdir.

Ukrayna dövlətinin başçısı Viktor Yuşşenkodan başqa MDB-nin üzvü olan bütün ölkələrin prezidentlərinin iştirak etdiyi iclasın gündəliyinə 20 məsələ daxil idi.

Gündəliyin əsas bəndi MDB-nin gələcək inkişafı haqqında Konsepsiya və onun həyata keçirilməsinə dair Əsas Tədbirlər planı idi. Konsepsiyanın layihəsi Dövlət Başçıları Şurasının 2006-cı il 28 noyabr və Xarici İşlər Nazirləri Şurasının 2007-ci il 5 yanvar tarixli qərarlarına müvafiq olaraq yaradılmış işçi qrup tərəfindən işlənib hazırlanmışdır. Konsepsiyaya görə, Birlik üçün birinci dərəcəli məsələ iqtisadi əməkdaşlıq - tammiqyaslı azad ticarət rejiminin tətbiq edilməsi, müəssisələr arasında istehsal kooperasiyası əlaqələrinin genişləndirilməsi, kənd təsərrüfatı məhsullarının ümumi bazarının inkişafı, nəqliyyat, energetika və başqa sahələrdə qarşılıqlı fəaliyyət məsələləridir. Siyasi və parlamentlərarası əlaqələrin inkişaf etdirilməsi, humanitar sahədə, miqrasiya siyasətində, təhlükəsizlik məsələlərində əməkdaşlığın inkişaf etdirilməsi tədbirləri də nəzərdə tutulmuşdur.

MDB dövlətlərinin razılaşdırılmış miqrasiya siyasətinə dair təkliflər Düşənbə zirvə toplantısının əsas məsələsi oldu. Hazırda miqrasiya sahəsində əməkdaşlıq məsələləri ilə Birliyin sahəvi əməkdaşlıq üzrə iki orqanı - Əmək, Miqrasiya və Əhalinin Sosial Müdafiəsi üzrə Məşvərət Şurası və MDB-nin üzvü olan dövlətlərin qanunsuz miqrasiyaya qarşı mübarizədə əməkdaşlığı haqqında Sazişin iştirakçısı olan dövlətlərin Birgə Komissiyası məşğul olur. Ona görə də MDB ölkələrinin qarşılıqlı əlaqələri prosesinə bir sıra düzəlişlər etmək zərurəti ilə bağlı razılaşdırılmış miqrasiya siyasətinə dair təkliflər hazırlamaq üçün qrup yaradılmışdı.

"Kohi Somon" sarayında keçən zirvə toplantısı başlanmazdan əvvəl dövlət başçıları xatirə şəkli çəkdirdilər.

Zirvə toplantısı dövlət başçılarının məhdud tərkibdə görüşü ilə açıldı.

* * *

Sonra iclas öz işini geniş tərkibdə davam etdirdi. Geniş tərkibdə iclasın açılışında çıxış edən Tacikistan Prezidenti Emoməli Rəhmon zirvə görüşünün iştirakçılarını salamladı və əmin olduğunu bildirdi ki, aparılan müzakirələr və əldə edilmiş razılaşmalar MDB-nin fəaliyyəti üçün yeni platforma yaradacaq. Birlik xalqlarının rifahına xidmət edəcəkdir.

MDB-nin sədri, Qazaxıstan Prezidenti Nursultan Nazarbayev Tacikistan rəhbərliyinin qonaqpərvərliyinə və sammitin işinin yaxşı təşkilinə görə təşəkkürünü bildirdi. O, Emomәli Rəhmonu doğum günü – zirvə toplantısının iş günü ilə eyni vaxta düşmüş 55 yaşının tamam olması münasibətilə təbrik etdi və bildirdi ki, Tacikistan dövlətinin başçısı MDB-nin inkişafında xidmətlərinə görə Birliyin yüksək mükafatına - Fəxri nişana layiq görülmüşdür.

Nursultan Nazarbayev iclas iştirakçılarına MDB-nin üzvü olan dövlətlərin başçıları tərəfindən məhdud tərkibdə müzakirə edilmiş məsələlər, zirvə toplantısının müzakirəsinə çıxarılmış sənədlər - MDB-nin gələcək inkişaf konsepsiyası və onun reallaşdırılmasına dair əsas tədbirlər planı, eləcə də MDB dövlətlərinin razılaşdırılmış miqrasiya siyasəti proqramı barədə məlumat verdi. Qazaxıstan Prezidenti MDB-nin işinin yeni - "Bir il, bir mövzu" formatı barədə təşəbbüs irəli sürdü. O, 2008-ci ilin MDB-nin Tranzit-nəqliyyat potensialının inkişafı ili elan olunmasını təklif etdi.

MDB İcraiyyə Komitəsinin sədri - icraçı katib Vladimir Ruşayło bildirdi ki, MDB ölkələrinin bəziləri müzakirə olunmuş bir sıra məsələlərə dair təkliflər vermişdir. Məsələn, Azərbaycan tərəfi Razılaşdırılmış miqrasiya siyasəti proqramı barədə xüsusi rəy bildirmişdir.

İclasda təşkilati məsələlərə də baxıldı.

Dövlət başçıları sammitin sənədlərini – Razılaşdırılmış miqrasiya siyasəti haqqında Bəyannaməni və MDB-nin gələcək inkişaf konsepsiyasını qəbul etdilər. Bəyannamədə vurğulanır ki, MDB ölkələri "MDB-nin üzvü olan dövlətlərin vətəndaşlarının etnik, dil, mədəni və dini özgünlüyünü dəstəkləmək, onlarda yaşadıqları ölkənin qanunvericiliyinə, dilinə və mədəniyyətinə hörmət münasibəti formalaşmasına şərait yaratmaq" niyyətindədirlər. Tərəflər həmçinin "əmək miqrasiyası proseslərinin qaydaya salınması və tənzimlənməsi məsələləri sahəsində əməkdaşlığı dərinləşdirmək, üzv dövlətlərin vətəndaşlarının qarşılıqlı səfərləri üçün əlverişli şərait təmin edilməsinə çalışmaq" əzmindədirlər.

Sənədin digər iki bəndində deyilir ki, MDB ölkələri "qanunsuz miqrasiyanın qarşısının alınmasına və belə hallara yol verilməməsinə yönəlmiş tədbirlər həyata keçirəcək, qanunsuz miqrasiyanın qarşısının alınması, aşkar olunması və ona son qoyulması məsələlərində bir-birinə kömək edəcək, miqrasiya sahəsində qanunvericiliyin yaxınlaşdırılması, miqrasiya proqramlarının işlənib hazırlanması və onların praktik şəkildə reallaşdırılması məsələlərində əməkdaşlığa çalışacaqlar".

Zirvə toplantısı başa çatandan sonra keçirilmiş mətbuat konfransında MDB-nin sədri Nursultan Nazarbayev dedi ki, MDB Dövlət Başçıları Şurasının növbəti iclası 2008-ci ilin sentyabr ayında Bişkekdə keçiriləcəkdir. O bildirdi ki, MDB-də sədrlik Qırğızıstana keçir. Nursultan Nazarbayev MDB İcraiyyə Komitəsinin sədri Vladimir Ruşayloya bu vəzifədə səmərəli fəaliyyətinə görə təşəkkür etdi. Eyni zamanda dedi ki, V.Ruşaylonun səlahiyyət müddətinin başa çatması ilə əlaqədar, indən belə bu vəzifəni Rusiya Xarici Kəşfiyyat Xidmətinin indiki rəhbəri Sergey Lebedev tutacaqdır.

Elə həmin gün Tacikistan Prezidenti Emomәli Rəhmonun adından MDB-nin üzvü olan ölkələrin dövlət başçılarının şərəfinə rəsmi ziyafət verildi.

SƏFƏR BAŞA ÇATDI

Oktyabrın 5-də Azərbaycan Prezidenti İlham Əliyevin Tacikistana səfəri başa çatmışdır.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV İSVEÇRƏNİN ƏTRAF MÜHİT, NƏQLİYYAT, ENERGETİKA VƏ RABİTƏ ÜZRƏ FEDERAL DEPARTAMENTİNİN RƏHBƏRİ, NAZİR MORİTZ LEUNBERQERİN RƏHBƏRLİK ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİNİ QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 8-də Prezident sarayında İsveçrənin Ətraf Mühit, Nəqliyyat, Energetika və Rabitə üzrə Federal departamentinin rəhbəri, nazir Moritz Leunberqerin rəhbərlik etdiyi nümayəndə heyətini qəbul etmişdir.

Görüşdə Azərbaycan-İsveçrə ikitərəfli münasibətlərinin uğurla inkişaf etdiyi vurğulanmış, bu səfərin ölkələrimiz arasında əlaqələrin o cümlədən nəqliyyat, ətraf mühit və energetika sahələrində əməkdaşlığın daha da genişləndirilməsi işinə xidmət etdiyi qeyd edilmişdir.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV QAZAXISTANIN MÜDAFİƏ NAZİRİ DANİAL AXMETOVU QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 9-da Prezident sarayında Qazaxıstanın müdafiə naziri Danial Axmetovu qəbul etmişdir.

Görüşdə Azərbaycan-Qazaxıstan ikitərəfli əlaqələrinin uğurla inkişaf etdiyi vurğulandı. Qarşılıqlı səfərlərin əhəmiyyəti qeyd edilərək, Qazaxıstan müdafiə nazirinin səfərinin ölkələrimizin müdafiə nazirlikləri arasında əməkdaşlığın daha da genişləndirilməsinə xidmət edəcəyi bildirildi.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN LİTVAYA İŞGÜZAR SƏFƏRİ

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev "Vilnüs enerji təhlükəsizliyi konfransı 2007: Məsul tərəfdaşlar üçün məsul energetika" mövzusunda beynəlxalq tədbirdə iştirak etmək üçün oktyabrın 10-da Litva paytaxtına işgüzar səfərə yola düşmüşdür.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV GUAM-IN ÜZVÜ OLAN ÖLKƏLƏRİN DÖVLƏT BAŞÇILARININ BU TƏŞKİLATIN YARADILMASININ 10 İLLİYİNƏ HƏSR OLUNMUŞ GÖRÜŞÜNDƏ İŞTİRAK ETMİŞDİR

Oktyabrın 10-da Azərbaycan Prezidenti İlham Əliyev GUAM-ın üzvü olan ölkələrin dövlət başçılarının bu təşkilatın 10 illiyinə həsr olunmuş zirvə görüşündə iştirak etmişdir.

GUAM-da sədrlik edən Azərbaycan Prezidenti Demokratiya və İqtisadi İnkişaf Uğrunda Təşkilatın üzvü olan ölkələrin dövlət başçılarını Ukrayna Prezidenti Viktor Yuşenkonu, Gürcüstan Prezidenti Mixail Saakaşvilini, habelə Litva Prezidenti Valdas Adamkusu, Latviya Prezidenti Valdis Zatlersi, Moldovanın Litvadakı müvəqqəti işlər vəkili Ion Siomini, ABŞ-ın energetika nazirinin müavini Kleyton Selli Vilnüsdə hökumət qonaq evinin binası önündə səmimiyyətlə qarşıladı.

Prezident İlham Əliyev zirvə görüşünü açdı.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN GİRİŞ NİTQİ

- Hörmətli cənab prezidentlər,

Əziz dostlar,

İlk növbədə, mən GUAM ölkələrinin dövlət başçıları üçün Litvada görüşmək və təşkilatın on illiyini qeyd etmək məqsədi ilə yaratdığı imkana görə Prezident Valdas Adamkusa minnətdarlığımı bildirmək istəyirəm. Eyni zamanda, bütün qonaqlarımıza, GUAM-ı dəstəkləyənlərə, xüsusən də görüşdə ilk dəfə iştirak edən Latviya Prezidentinə öz təşəkkürümü bildirirəm.

10 il bundan əvvəl GUAM yaradıldığı vaxt üzv ölkələr müstəqilliyin, demək olar ki, başlanğıc mərhələsində idilər. Bu gün isə, 10 il ərzində ölkələrimiz arasında fəal tərəfdaşlıq və əməkdaşlıqdan sonra biz aydın şəkildə deyə bilərik ki, GUAM öz aralarında ikitərəfli və çoxtərəfli səviyyədə güclü əməkdaşlıq edən ölkələrdən ibarət mühüm beynəlxalq təşkilata çevrilmişdir. Bu təşkilat öz strukturlarını olduqca fəal şəkildə inkişaf etdirir. Bu gün biz beynəlxalq təşkilat kimi fəaliyyət göstərmək məqsədi ilə bütün lazımi elementlərə malikik. Avropa İttifaqı bizə böyük dəstək verir. Aİ-nin üzvü olan ölkələrin prezidentləri sammitimizdə tez-tez iştirak edən qonaqlardır.

Bizim GUAM-Birləşmiş Ştatlar, GUAM-Yaponiya, GUAM-Polşa formatı kimi çox faydalı işbirliyimiz var. Bütün bunlar təşkilatımıza verilən güclü dəstəkdir. Biz eyni fikirləri və dəyərləri bölüşürük. Bunlar Avratlantik strukturlarına inteqrasiya, ölkələrimizdə demokratiyanın inkişaf etdirilməsi, iqtisadi inkişaf və əməkdaşlıqdan ibarətdir. Əminəm ki, üzv ölkələrin davamlı birgə səyləri, dostlarımız və tərəfdaşlarımızın güclü dəstəyi sayəsində qarşıya qoyduğumuz bütün məqsədlərə nail olacağıq.

Bu gün biz ikitərəfli ticarət, iqtisadi inkişaf, siyasi islahatlar və əməkdaşlıq, daşınma kimi məsələlər üzərində çalışırıq. Bu məsələlərin hamısı beynəlxalq strukturların gündəliyində əsas yer tutur.

Qeyd etdiyim kimi, bizim ümumi məqsədlərimiz və ideyalarımız var. Amma əfsuslar olsun ki, bizim ümumi problemlərimiz də mövcuddur. Üzv ölkələrin üçündə həll olunmamış münaqişələr var: Dağlıq Qarabağ, Abxaziya, Cənubi Osetiya və Dnestryanı bölgə. Bunlar ölkələrimizin xalqlarına qarşı aparılmış təcavüzkar separatizm, etnik təmizləmə siyasətinin nəticəsidir. Bu aspektdə səylərimizi birləşdirərək, biz beynəlxalq hüququn prinsipləri, ölkələrimizin ərazi bütövlüyü prinsipi əsasında həmin münaqişələri dinc yolla həll etməyə ümid edirik.

Ümid edirik ki, geniş beynəlxalq dəstək, Birləşmiş Millətlər Təşkilatı və tərəfdaşlarımız qeyd etdiyim prinsiplər əsasında münaqişələrin sülh yolu ilə həllinə töhfə verəcəkdir. Həmin münaqişələrin eyni səbəbləri və nəticələri var: separatizm, etnik təmizləmə, milyonlarla qaçqın və ərazi bütövlüyünün pozulması.

Lakin əminəm ki, tərəfdaşlığımızı artırmaqla və iqtisadiyyatlarımızı gücləndirməklə, eləcə də Avratlantik strukturlarına çox fəal şəkildə inteqrasiya etməklə ölkələrimiz həmin çətin münaqişələrin həllinə nail olacaq, o cümlədən siyasi və iqtisadi inkişafımızı uğurla davam etdirə biləcəkdir.

Mən üzv ölkələrin bütün xalqlarını təşkilatın 10 illiyi münasibətilə bir daha təbrik etmək istəyirəm və məmnunluq hissi ilə qeyd edirəm ki, ötən 10 il ərzində GUAM inkişaf etdi və beynəlxalq səviyyədə tanınan təşkilata çevrilə bildi. Bu gün həmin təşkilat "Demokratiya və İqtisadi İnkişaf Uğrunda Təşkilat" adlanır, məqsədlərimiz və planlarımızı aydın şəkildə nümayiş etdirir.

Mən sizi bir daha təbrik edir, GUAM-ı dəstəkləyənlərə və bu gün keçirilən sammitin ev sahibinə minnətdarlığımı bildirirəm. Bu gün çox nadir bir hadisə baş verir: mən Prezident Adamkusu Litvada qəbul edirəm. Bəlkə də, bu, analoqu olmayan diplomatik hadisədir, lakin, eyni zamanda, görüşümüzün nə qədər yaxın olduğunu aydın şəkildə göstərir və ölkələrimiz arasında dostluq ilə tərəfdaşlığın hər hansı formallığının və hüdudlarının olmadığını nümayiş etdirir.

Ümidvaram ki, bu tərəfdaşlıq davam edəcəkdir.

* * *

Sammitdə Gürcüstan Prezidenti Mixail Saakaşvili, Ukrayna Prezidenti Viktor Yuşşenko, Litva Prezidenti Valdas Adamkus, Moldovanın Litvadakı müvəqqəti işlər vəkili İon Siorni də çıxış etmişdir.

Prezident Viktor Yuşşenko GUAM-ın başqa dövlətlərlə əməkdaşlığından bəhs edərək bildirdi ki, Ukrayna Baltikyanı ölkələrə elektrik enerjisi satmaq niyyətindədir. O, öz ölkəsinin GUAM məkanında münaqişələrin həllinə görə məsuliyyət hiss etdiyini vurğulayaraq, bu istiqamətdə görülən tədbirlər barədə məlumat verdi.

Litva Prezidenti Valdas Adamkus Avratlantik inteqrasiya məsələsində GUAM ölkələri arasında əməkdaşlığın səviyyəsini yüksək qiymətləndirdi. Litva dövlətinin başçısı onu da vurğuladı ki, son vaxtlar Vilnüs müasir dövrün qlobal problemlərinə, o cümlədən enerji təhlükəsizliyi məsələsinə həsr edilmiş irimiqyaslı beynəlxalq tədbirlərin keçirildiyi yerə çevrilmişdir.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN YEKUN NİTQİ

- İlk növbədə, mən söylərimizin daha da möhkəmləndirilməsi, eləcə də beynəlxalq təşkilatlarla və GUAM-a güclü dəstək verən ölkələrlə əməkdaşlığın gücləndirilməsi baxımından vacib olan maraqlı ideya və bəyanatlara görə bütün natiqlərə təşəkkürümü bildirmək istəyirəm.

Bu gün çıxış edən bir sıra tərəflərin artıq qeyd etdiyi kimi, GUAM 10 il ərzində ciddi beynəlxalq təşkilata çevrilmişdir. Beynəlxalq təşkilat beynəlxalq münasibətlər, əməkdaşlıq və regional təhlükəsizlik kimi sahələrə müəyyən töhfə verəcək bir qurumdur. Eyni zamanda, bu təşkilat beynəlxalq ictimaiyyət tərəfindən tanınır. GUAM çərçivəsində biz həmin məqsədlərə nail olduq. Biz beynəlxalq ictimaiyyət və tərəfdaşlarımız tərəfindən tanınırıq.

Eyni zamanda, təşkilatımız regional əməkdaşlığa böyük töhfə verir. Bu gün burada qeyd edildi ki, Xəzər-Qara dəniz-Baltik dənizi regionu, xüsusən də, GUAM-ın fəaliyyəti sayəsində bir-birinə daha da yaxınlaşır. Prezident Adamkus ən ilk vaxtlardan işimizə böyük dəstək vermişdir. Baltikyanı digər ölkənin başçısı, Latviya Prezidenti, Avropa İttifaqına üzv olan Rumıniyanın Prezidenti Besesku, Polşanın Prezidenti Kaçinski isə Bakıda iyunda keçirilmiş zirvə görüşünün qonaqları idilər. Bakı sammiti və Bəyannaməsi əməkdaşlığımız üçün yeni perspektivlər açan, irəliyə doğru atılan çox mühüm addım oldu.

Biz təşkilatımız daxilində tərəfdaş və dost kimi işləyirik. Ölkələrimiz arasında çox yaxşı ikitərəfli münasibətlər var. Artıq qeyd etdiyim kimi, bu gün ən vacibi isə ondan ibarətdir ki, məqsədlərimiz, ideyalarımız və gələcək üçün baxışlarımız üst-üstə düşür.

Biz artıq enerji təchizatının şaxələndirilməsi prosesinə töhfə veririk. Hasilatçı və istehlakçılar üçün təchizatın şaxələndirilməsi çox vacibdir. Təşkilatımızda hasilatçı və istehlakçılar var və biz vahid heyət kimi işləyirik. Belə hallar dünyada heç də həmişə olmur.

Başqa sözlə desək, artıq təşkilatımız təhlükəsizlik, sabitlik, əməkdaşlıq, ticarət münasibətləri, enerji tərəfdaşlığı, daşınma sahələrində mühüm rol oynaya bilər. Biz enerji dəhlizini açmışıq, indi isə, Xəzər dənizi regionundan Qara dəniz və Baltik dənizi regionuna doğru daşıma dəhlizini açmaqdayıq.

Bu baxımdan, hesab edirəm və əminəm, siz də bu fikirlə razısınız ki, GUAM-ın çox parlaq gələcəyi var. Əminəm ki, Avropa İttifaqı ilə yanaşı, digər tərəfdaşlarımız ilə də əməkdaşlığımız daha da artacaqdır. Prezident Adamkusun qeyd etdiyi kimi, Avropa İttifaqı GUAM ilə daha fəal tərəfdaşlıq etməyi nəzərdən keçirir və bu, bizə əlavə güc verir.

Mən ev sahibi olan Litva tərəfinə və bütün iştirakçılara bir daha minnətdarlığımı bildirmək istəyirəm. Bizə etimad göstərən, təşkilatımızın gələcəyinə inanan tərəflərin hamısına təşəkkür edirəm. Əminəm ki, bu tərəfdaşlıq genişlənəcəkdir. Bu gün bizim təşkilatımızın daxilində güclü təşkilati quruluş var. Bizim tərəfdaşlarımız və güclü dəstək verənlərimiz, o cümlədən gələcək işlərimiz barədə aydın baxışlarımız var.

Zirvə görüşünün bütün iştirakçılarına minnətdarlığımı bildirmək istəyirəm və sizin ölkələrinizə, xalqlarınıza uğurlar arzulayıram. Əminəm ki, gələcək tərəfdaşlığımız bugünkü kimi uğurlu olacaqdır.

Nəhayət, sonda mən GUAM-ın Vilnüs zirvə görüşünün Birgə Bəyanatının qəbul olunmasını təklif edirəm. Bəyanatın layihəsi sizin qarşınızdadır. Əgər hər hansı şərhləriniz və ya qeydiniz varsa, onları bildirə bilərsiniz. Onun mətni əvvəlcədən razılaşdırılıb və zənnimcə, tam aydındır. Belə olan halda, icazənizlə, mən bu bəyanatı qəbul olunmuş kimi hesab edirəm.

Çox sağ olun.

GUAM-IN VİLNÜS ZİRVƏ TOPLANTISININ BƏYANATI

Biz, Azərbaycan Respublikası, Gürcüstan, Moldova Respublikası və Ukrayna Prezidentləri tərəfdaş ölkələr Latviya, Litva, Polşa və Birləşmiş Ştatların rəhbərləri ilə birlikdə bu gün GUAM-ın yaradılmasının 10 illiyini qeyd etmək üçün toplaşmışıq. 1997-ci

il oktyabrın 10-da dövlətlərimizin başçıları bizim əməkdaşlıq və inteqrasiya prosesimizi formalaşdırdılar. Bu uzaqgörən addım ölkələrimizin üzləşdiyi çətinlik və təhdidlərin oxşarlığı və mövcud problemlərin səmərəli həlli yollarının axtarılmasında yanaşmaların ümumiliyi ilə müəyyən olunmuşdur.

Oxşar mövqeyə malik dövlətlərin təbii və könüllü birliyi olan GUAM-ın müxtəlif sınaqlardan uğurla keçməsini və öz fəaliyyət qabiliyyətini və münasibliyini təsdiqlədiyini bəyan etməkdən şərəf duyuruq. GUAM-ın üzvü olan dövlətlər arasında ticarət dövriyyəsinin artması onun səmərəliliyinin sübutudur. Bu 10 il ərzində bizim Qrup demokratiya və iqtisadi inkişafa sadiq olan, tam hüquqlu beynəlxalq təşkilata çevrilmişdir. Bizim Təşkilat "GUAM+" formatından səmərəli istifadə etməklə tərəfdaş dövlətlər və digər beynəlxalq orqanlarla bir çox sahələrdə möhkəm əməkdaşlıq və qarşılıqlı faydalı əlaqələr yaratmışdır. Biz istənilən Avropa, yaxud Asiya dövləti və ya təşkilatı ilə GUAM-ın prinsipləri və dəyərlərinə əsaslanan fəal çoxtərəfli əməkdaşlıq üçün açığıq.

GUAM-ın gələcək fəaliyyətini planlaşdırarkən beynəlxalq təhlükəsizlik, sabitlik və sülhə ən səmərəli və fəal tərzdə töhfə verməyi ciddi şəkildə qət etdiyimizi bir daha bildiririk. Təbii nəqliyyat dəhlizi kimi Avropa və Asiyanı əlaqələndirən GUAM iqtisadi inkişaf və regional inteqrasiyada daha əhəmiyyətli rol oynamağa davam edəcək, bununla da qitələri birləşdirəcəkdir. GUAM müxtəlif mədəni, etnik və dini qrupların nümayəndələrini birləşdirərək, maarifləndirmə və anlaşma vasitəsilə mühüm proses olan sivilizasiyalar arasında qarşılıqlı hörmətə əsaslanan dialoqu təşviq edir.

Narahatlıqla qeyd edirik ki, öz həllini tapmamış bir çox problemlər dövlətlərimizin inkişaf və inteqrasiya prosesini çətinləşdirir. Bu problemlər sırasına Azərbaycan Respublikası, Gürcüstan və Moldova Respublikası ərazilərindəki həll olunmamış münaqişələr də daxildir. Bu baxımdan biz bu münaqişələrin suverenlik, ərazi bütövlüyü və hamılıqla tanınmış dövlət sərhədlərinin toxunulmazlığı əsasında sülh yolu ilə həlli yollarının axtarılmasına tərəfdar olduğumuzu bir daha təsdiq edirik. Biz inanırıq ki, regionda təcavüzkar millətçilik, silahlı separatizm və parçalanmanın sonu yoxdur. Belə ki, onlar GUAM-ın əsasını təşkil edən demokratiya, qanunun aliliyi və insan hüquqları prinsiplərinə tamamilə ziddir.

Bu münasibətlə biz beynəlxalq ictimaiyyəti dövlətlərimizin tammiqyaslı inkişafına əngəl törədən maneələri aradan qaldıracaq, GUAM regionunda vəziyyətin yaxşılaşdırılmasında konstruktiv rol oynayacaq GUAM dövlətlərinin səylərini və GUAM əməkdaşlığının məqsədlərini dəstəkləməyə çağırırıq.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN VƏ UKRAYNA PREZİDENTİ VİKTOR YUŞŞENKONUN GÖRÜŞÜ

Oktyabrın 10-da Vilnüsdə Azərbaycan Prezidenti İlham Əliyevin və Ukrayna Prezidenti Viktor Yuşşenkonun görüşü olmuşdur.

Görüşdə bildirildi ki, Azərbaycan-Ukrayna əlaqələri bütün sahələrdə uğurla inkişaf edir, iki ölkə beynəlxalq təşkilatlar, o cümlədən GUAM çərçivəsində fəal əməkdaşlıq aparır.

Dövlət başçıları GUAM-ın Vilnüsdə keçirilmiş yubiley sammitinin ikitərəfli və çoxtərəfli əlaqələrin genişləndirilməsi üçün əhəmiyyətini vurğuladılar, qarşılıqlı surətdə faydalı əməkdaşlığın daha da dərinləşəcəyinə əmin olduqlarını söylədilər.

VİLNÜS ENERJİ TƏHLÜKƏSİZLİYİ KONFRANSI

Oktyabrın 10-da Azərbaycan Prezidenti İlham Əliyev Vilnüsdə energetika sahəsində təhlükəsizlik məsələlərinə həsr edilmiş "Məsul tərəfdaşlar üçün məsul energetika" mövzusunda konfransın işində iştirak etmişdir.

Litvanın Xarici İşlər Nazirliyi, Strateji Araşdırmalar Mərkəzi və ABŞ-ın Hadson İnstitutu tərəfindən təşkil edilmiş ikigünlük konfransda energetika sahəsində beynəlxalq təhlükəsizlik problemləri və Avropa İttifaqının energetika sahəsində xarici siyasətinin əsas istiqamətləri ilə bağlı məsələlər müzakirə edilmişdir. Forum iştirakçıları energetika sahəsində Transatlantik dialoq, Aİ-nin Rusiya, Xəzər dənizi və Qara dəniz regionları ilə energetika sahəsində əməkdaşlığı, Baltikyanı ölkələrin enerji strategiyasının inkişafı məsələlərini də nəzərdən keçirmişlər. Konfrans çərçivəsində energetika müəssisələri təmsilçilərinin və ekspert-energetiklərin iştirakı ilə "Enerji təhlükəsizliyi: satış, tələbat və şaxələndirmə" mövzusunda xüsusi beynəlxalq forum da keçirilmişdir.

Konfransın işinin ilk günü başa çatandan sonra Azərbaycan Prezidenti İlham Əliyev, Ukrayna Prezidenti Viktor Yuşşenko, Gürcüstan Prezidenti Mixail Saakaşvili, Litva Prezidenti Valdas Adamkus, Polşa Prezidenti Lex Kaçinski və Qazaxıstanın energetika və mineral ehtiyatlar naziri Sauat Mınbayevin iştirakı ilə çoxtərəfli sənədlər imzalandı.

Energetika sahəsində əməkdaşlıq haqqında müqaviləni Azərbaycan, Gürcüstan, Litva, Polşa və Ukraynanın energetika nazirləri imzaladılar. "Sarmatiya" dövlətlərarası məhdud məsuliyyətli cəmiyyətinin yaradılması barədə müqaviləni Azərbaycan, Litva, Gürcüstan, Polşa və Ukrayna neft şirkətlərinin rəhbərləri imzaladılar.

Sonra Azərbaycan Prezidenti İlham Əliyev Vilnüsdə 2007-ci il oktyabrın 10-da keçirilmiş enerji təhlükəsizliyi konfransı barədə prezidentlərin Kommunikesini oxudu.

Daha sonra dövlət başçıları mətbuat konfransı keçirərək, KİV nümayəndələri qarşısında bəyanatlarla çıxış etdilər.

Litva Prezidenti Valdas Adamkus imzalanan sazişləri enerji sahəsində irəliyə doğru tarixi addım kimi qiymətləndirdi. Gürcüstan Prezidenti Mixail Saakaşvili, Polşa Prezidenti Lex Kaçinski, Ukrayna Prezidenti Viktor Yuşşenko və Qazaxıstanın energetika və mineral ehtiyatlar naziri Sauat Mınbayev konfransda müzakirə olunan məsələlərin və imzalanan sazişlərin əhəmiyyətindən, Odessa-Brodı-Plotsk-Qdansk neft kəmərinin Xəzər regionundan enerji daşıyıcılarının Avropaya nəql edilməsində, bu yolla da enerji təhlükəsizliyinin təmin olunmasında rolundan danışdılar. Dövlət başçıları GUAM sammitinin və enerji təhlükəsizliyinə dair konfransın keçirilməsi üçün yaradılan şəraitə görə Litva Prezidentinə minnətdarlıqlarını bildirdilər.

PREZİDENTLƏRİN KOMMUNİKESİ

2007-ci il oktyabr ayının 10-da Azərbaycan Respublikası, Gürcüstan, Litva Respublikası, Polşa Respublikası və Ukraynanın prezidentləri, o cümlədən Qazaxıstan Prezidentinin Xüsusi nümayəndəsi prezidentlərin 2007-ci il may ayının 11-də Krakov şəhərində enerji əməkdaşlığı iclası zamanı, yaradılmış Hökumətlərarası işçi qrupunun fəaliyyətinin nəticələrinə yekun vurmaq məqsədi ilə Vilnüs enerji təhlükəsizliyi konfransında görüşdülər.

Krakov görüşündə iştirakçılar dövlət və şirkətlərin Xəzər dənizi neftinin Avropa və dünya bazarlarına çıxarılması məqsədi ilə dəhlizin yaradılmasına dair layihədə (Odessa-Brodı-Plotsk-Qdansk layihəsi) iştirakını tənzimləyəcək hökumətlərarası sazişin hazırlanmasına başlayaraq, əməkdaşlığın gücləndirilməsi barədə razılığa gəldilər. Prezidentlər həmçinin ümumi enerji layihələri hazırlayacaq konsorsiumun təsis edilməsini dəstəklədilər. Bu konsorsium hər bir ölkənin müvafiq şirkətindən yaradılacaqdır.

Vilnüsdə prezidentlər Hökumətlərarası işçi qrupunun Qdansk və Tbilisidə keçirilən, habelə müvafiq milli şirkətlərin nümayəndələrinin Yuzefov və Batumidə keçirdiyi iclasların nəticələrini alqışladılar. Hökumətlərarası işçi qrupunun işi, habelə müvafiq milli şirkətlərin nümayəndələrinin iclasları Vilnüs enerji təhlükəsizliyi konfransının birinci hissəsinin nəticələri üçün zəmin yaratdı.

Prezidentlər Azərbaycan Respublikası, Gürcüstan, Litva Respublikası, Polşa Respublikası və Ukraynanın müvafiq nazirlərinin xam neft və təbii qaz üçün yeni nəqliyyat dəhlizi yaratmaq məqsədi ilə enerji sektorunda gələcək əməkdaşlığın əsası kimi sazişin imzalamasını alqışladılar.

İclasın iştirakçıları karbohidrogen ehtiyatlarının daşınması üçün dəhlizin hazırlanması məqsədi ilə təsis ediləcək yeni konsorsiumun milli şirkətlərdən təşkil olunması zərurəti barədə mövqelərini bildirdilər. Yeni konsorsiumun – Sarmatiyanın əsas məqsədi Azərbaycan Respublikası, Gürcüstan, Ukrayna və Polşa Respublikasından keçməklə Xəzər dənizindən Avropa bazarlarına və beynəlxalq bazarlara gedən daşınma sistemlərinin reallaşdırılmasının mümkünlüyünü təhlil etməkdir.

Prezidentlər ölkələr arasında enerji əməkdaşlığının daha da genişləndirilməsinə dair iradələrini bir daha təsdiq edirlər.

Prezidentlər Krakov forumunda iştirak edən ölkələrin növbəti iclasının gələn il Ukraynanın Kiyev şəhərində keçirilməsi barədə razılığa gəldilər.

Azərbaycan Respublikasının Prezidenti zati-aliləri İlham Əliyev

Gürcüstanın Prezidenti zati-aliləri Mixail Saakaşvili

Litva Respublikasının Prezidenti zati-aliləri Valdas Adamkus

Polşa Respublikasının Prezidenti zati-aliləri Lex Kaçinski

Ukraynanın Prezidenti zati-aliləri Viktor Yuşşenko

Qazaxıstan Respublikasının energetika və mineral ehtiyatlar naziri cənab Sauat Mınbayev.

PREZİDENT İLHAM ƏLİYEV ENERJİ TƏHLÜKƏSİZLİYİNƏ DAİR BEYNƏLXALQ KONFRANSDA ÇIXIŞ ETMİŞDİR

Oktyabrın 11-də "Vilnüs enerji təhlükəsizliyi konfransı 2007: Məsul tərəfdaşlar üçün məsul energetika" mövzusunda beynəlxalq konfrans öz işini davam etdirmişdir.

Konfransda Azərbaycan, Litva, Ukrayna, Polşa, Rumıniya prezidentləri, Avropa İttifaqının, ABŞ-ın və bəzi başqa ölkələrin yüksək vəzifəli nümayəndələri iştirak edirdilər. Dövlətimizin başçısını Litva və Polşa prezidentləri Valdas Adamkus və Lex Kaçinski qarşıladılar.

İclasa sədrlik edən Litvanın Baş naziri Gediminas Kirkilas dövlət başçılarını salamladı və konfransın uğurlu olacağına əminliyini bildirdi.

Litva Prezidenti Valdas Adamkus "Avropa İttifaqının energetika sahəsində xarici siyasətinin inkişafına dair təkliflər" mövzusunda məruzə ilə çıxış etdi. O dedi ki, Vilnüs konfransında Avropa və dünya siyasətinin prioritet məsələləri müzakirə olunur, müasir dövrün energetika problemlərinin, o cümlədən enerji resurslarının ixracçılarından asılılıq, vasitəçilərin şübhəli xidmətləri, qlobal istiləşmə problemi kimi məsələlərin həlli axtarılır.

"Qlobal problemlərin qlobal həllərə ehtiyacı var" - deyən Valdas Adamkus bildirdi ki, Litva razılaşdırılmış energetika siyasəti sahəsində region ölkələri ilə, o cümlədən Rusiya ilə də əməkdaşlıq etmək niyyətindədir, bu ölkənin rəhbərliyinə konfransın işində iştirak etmək üçün dəvət göndərilmişdir.

Polşa Prezidenti Lex Kaçinski Xəzər dənizi, Qara dəniz və Baltik regionu ölkələri arasında əməkdaşlığın genişləndirilməsinə dair təkliflərlə çıxış etdi.

Avropa Komissiyasının sədri Joze Manuel Barrozunun konfrans iştirakçılarına videomüraciəti təqdim olundu.

Sonra ümumi iclasda sədrlik edən Litvanın Baş naziri Azərbaycan Prezidenti İlham Əliyevə söz verdi.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN ÇIXIŞI

- Sağ olun, cənab sədr!

Hörmətli dövlət başçıları,

Hörmətli nümayəndə heyətlərinin rəhbərləri.

İlk növbədə, mən bu cür vacib beynəlxalq tədbiri ölkəsində keçirdiyinə görə və konfransımızı yüksək səviyyədə təşkil etdiyinə görə Prezident Adamkusa minnətdarlığımı bildirmək istəyirəm.

Bu konfrans hamımız - istehlakçı və hasilatçılar, o cümlədən gələcəyini Avropaya inteqrasiyada görən tərəflər üçün böyük əhəmiyyət kəsb edir. Azərbaycan öz enerji strategiyasının həyata keçirilməsinə enerji təhlükəsizliyi məsələlərinin Avropa bazarı üçün bu dərəcədə vacib olmasından bir çox illər əvvəl başlamışdır. 1994-cü ildə biz əsas neft şirkətlərini Xəzərin Azərbaycan sektoruna gəlməyə və sərmayə qoymağa dəvət etdik.

Bunu etməklə, biz Xəzər dənizini və onun resurslarını beynəlxalq əməkdaşlıq üçün açdıq və bütün vəzifələrimizi yerinə yetirdik.

Hazırda neft və qaz hasilatını artırırıq və karbohidrogen ehtiyatlarımızı müxtəlif bazarlara çıxarmaq məqsədi ilə bir neçə boru kəmərlərini çəkmişik. Nisbətən qısa müddət ərzində Azərbaycanda neft hasilatının gündəlik həcmi təqribən 1 milyon barrelə çatmışdır və gələn illərdə onun səviyyəsi artırıla bilər. Biz dörd boru kəmərini çəkmişik. Üç neft kəməri Azərbaycan neftini Qara dəniz və Aralıq dənizi sahillərinə nəql edir. Qaz kəməri isə Azərbaycan qazını qonşu ölkələrin və Avropanın bazarlarına çıxarmağa imkan verir. Ölkəmizdə olduqca əlverişli biznes mühitini yaratmaq, çoxmilyardlı transmilli layihələrin həyata keçirilməsində bizə yardım etmək üçün beynəlxalq maliyyə təsisatlarını dəvət etmək məqsədi ilə on milyardlarla dollar birbaşa xarici sərmayə cəlb etmişik.

Bir daha qeyd etmək istəyirəm, enerji siyasətimizi və layihələrin həyata keçirilməsini başlayanda, həmin vaxt Avropa İttifaqının bazarı bizim üçün uzaq olan məsələ idi. Biz diqqəti əsasən qonşu bazarlara, qonşu ölkələrə yönəldirdik. Lakin əsas enerji layihəmiz reallığa çevrildiyi bir vaxtda gördük ki, Avropaya, Avropa İttifaqına alternativ təchizat lazımdır.

Hasilatçı ölkə kimi, biz artıq həmin məqsədə nail olmuşuq. Bizim enerji resurslarımızın şaxələndirilmiş nəqletmə yolları var. Qeyd etdiyim kimi, bu, müxtəlif istiqamətdə dörd boru kəməri ilə həyata keçirilir. İstehlakçıların təchizat yollarının şaxələndirilməsinə duyduğu ehtiyacı da aydın şəkildə başa düşürük, çünki belə olarsa, enerji təhlükəsizliyi artır və bazarda daha ədalətli qiymətlər təmin edilir.

Bu baxımdan, Avropa İttifaqının üzvü olan ölkələrlə ikitərəfli səviyyədə əməkdaşlığı və ümumilikdə, Avropa İttifaqı ilə işbirliyimizi yüksək qiymətləndiririk. Ötən il biz Avropa İttifaqı ilə Enerji məsələləri üzrə strateji tərəfdaşlığa dair memorandum imzalamışıq. Hesab edirəm ki, bu sənəd bütün gələcək birgə işləri əhatə edəcəkdir.

Azərbaycan nəhəng neft və qaz ehtiyatlarına malikdir. Hazırda təsdiq edilmiş neft ehtiyatlarımız, ən azı, 15 milyard barrel səviyyəsindədir. Bu yaxınlarda Azərbaycan həm də qaz ixrac edən ölkəyə çevrilmişdir. Biz artıq Gürcüstan və Türkiyə bazarlarına qaz ixrac edirik. Hesab edirəm ki, yaxın vaxtlarda, Azərbaycan qazı Avropa İttifaqının bazarına da çıxarılacaqdır.

Azərbaycanın təsdiq edilmiş qaz ehtiyatları, ən azı, 2 trilyon kubmetrə bərabərdir və bu, bizim daxili tələbatımız üçün azı 150 ilə kifayətdir. Hasilat apardığımız yataqlardan danışdığımı nəzərə alaraq bildirirəm ki, bizim bir çox digər neft və qaz yataqlarımız da var və əminəm ki, gələcəkdə onlar da işlənilcəkdir. Bunlar nəhəng ehtiyatlardır.

Hazırda Azərbaycan Avropa İttifaqının "Yeni qonşuluq siyasəti"ndə iştirak edən ölkədir. Biz Avropaya inteqrasiyanı xarici siyasətimizin prioriteti hesab edirik. Bundan əlavə, qeyd etdiyim kimi, bizim çox yaxşı enerji əməkdaşlıq çərçivəmiz var. Ehtiyatlarımız və boru kəmərlərimiz mövcuddur. Digər tərəfdən isə, Avropada artan tələbatlar var. Bütün bu elementləri bir-birilə uyğunlaşdıraraq, biz olduqca güclü tərəfdaşlığımızı qura bilərik.

Deyə bilərəm ki, bu gün enerji tərəfdaşlığımız sürətlə inkişaf edir. Biz Vilnüs enerji konfransını keçirdik. Bu, 2007-ci ilin may ayında Krakovda keçirilmiş sammitin davamı

idi. Alternativ enerji təchizatı yollarını təmin etmək məqsədi ilə mühüm sazişlər imzalamışıq. Odessa-Brodı-Plotsk-Qdansk boru kəməri mühüm enerji layihəsi kimi bizim üçün vacibdir. Bu layihə Azərbaycana öz neftini nəinki Qara dəniz və Aralıq dənizinə, həm də Baltik dənizi bazarına çıxarmaq imkanını verəcəkdir. Bu layihə, eyni zamanda, regional tərəfdaşlıq işinə də töhfə verir. Xəzər-Qara dəniz-Baltik dənizi regionundakı tərəfdaşlığı biz gələcək əməkdaşlığın, ölkəmizin Avropa strukturlarına fəal inteqrasiyasının, Azərbaycan xalqının inkişaf və rifahının çox mühüm aləti kimi dəyərləndiririk.

Neftimizi, yəni "qara qızılı" insan kapitalına çevirə bildik. Siyasi və iqtisadi islahatlar sahəsində fəal siyasət və enerji siyasəti nəticəsində biz son üç il ərzində iqtisadi artımı 96 faiz səviyyəsinə qaldıra bildik. Həmin dövr ərzində, əsasən, iqtisadi islahatlar siyasəti və enerji strategiyası sayəsində biz dünyada iqtisadiyyatı ən sürətlə inkişaf edən ölkə olmuşuq.

Bu gün biz müxtəlif yeni variantları nəzərdən keçiririk. Qeyd etdiyim kimi, bu yaxınlarda Azərbaycan mühüm qaz hasilatçısına və ixrac edən ölkəyə çevrilmişdir. Biz qonşularımız - Gürcüstan və Türkiyə, eləcə də Yunanıstan və digər ölkələr ilə danışıqlar aparırıq. "Nabukko" layihəsində iştirak etmək imkanlarını lazımınca nəzərdən keçiririk. Həmin layihə Azərbaycana öz enerji resurslarından daha geniş istifadə imkanı yaradacaq və Avropaya alternativ enerji təchizatını təmin edəcək. Yeri gəlmişkən, bildirmək istəyirəm ki, Xəzər regionu Avropa İttifaqı üçün yeganə yeni alternativ potensial qaz təchizatçısıdır, çünki bütün digər təchizat mənbələri artıq istifadə olunur. Düzdür, Avropaya ənənəvi təchizat yolları ilə nəql olunan enerji daşıyıcılarının hasilat həcmi artmaqdadır, lakin yeni alternativ variant yalnız Xəzər regionu sayılır.

Biz bu yolu yaradırıq. Bu, yeni enerji dəhlizidir. Gələcəkdə olduqca uğurlu əməkdaşlığa nail olmaq üçün biz Avropa İttifaqı ilə sıx əlaqələndirmə işi aparmalıyıq.

Çox məmnunam ki, Prezident Adamkus, Prezident Kaçinski və cənab Barrozu öz çıxışlarında Avropa üçün vahid enerji siyasətinin vacibliyini vurğuladılar. Bu, nəinki Avropa İttifaqının üzvü olan dövlətlər, həm də hasilatçılar üçün əhəmiyyətlidir. Hasilatçılar həmçinin gələcəyi və bazarları görməlidirlər. Qaz bazarı neft bazarından tamamilə fərqlidir. O, müxtəlif bazarlarla bağlıdır. Ona görə enerji proqramımızı, qaz hasilatını artırmaq məqsədi ilə böyük sərmayələr proqramını planlaşdırmaq üçün biz Avropa İttifaqının tələbatlarını və onun hasilatımıza necə təsir göstərəcəyini bilməliyik.

Bu gün ilk addım kimi Avropa İttifaqı ilə Azərbaycan arasında Enerji məsələləri üzrə strateji tərəfdaşlığa dair memorandum vacib başlanğıcdır. Lakin hesab edirəm ki, biz bu prosesi uğurla və ardıcıl şəkildə davam etdirməliyik və müəyyən mərhələlərdə daha vacib uzunmüddətli sazişlərə qoşula bilərik. Belə olan halda, istehlakçılar da, hasilatçılar da hər ikisi məmnun qalacaqdır.

Biz qəti şəkildə inanırıq ki, yalnız və yalnız istehlakçı və hasilatçıların ümumi maraqları fayda gətirə bilər. Enerji daşıyıcıları neft və qaz toqquşma və ya hər hansı digər məsələ yox, əməkdaşlıq və dostluğun vasitələri olmalıdır. Bizim timsalımızda Azərbaycan Avropa İttifaqının dostudur. Ölkəmiz özünün Avropaya inteqrasiya siyasətinə sadiqdir. Artıq mövcud infrastruktura və böyük neft-qaz yataqlarına malikdir. Ölkəmiz açıq ürəklə yaxından işləməyə hazırdır.

Mən bu təşəbbüsə görə Prezident Adamkusa və Prezident Kaçinskiyə bir daha minnətdaram. Bu gün səhər buraya gəlmiş Prezident Beseskuya təşəkkür edirəm. O, özünün sıx iş cədvəlinə baxmayaraq, hər zaman bizi dəstəkləyir. Prosesə verdikləri dəstəklərinə görə, bütün digər prezidentlərə və nümayəndə heyətlərinin başçılarına minnətdaram və konfransın işinə uğurlar arzulayıram.

Çox sağ olun.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN BƏYANATI

- Cənab Prezident, ilk növbədə, Vilnüsdə enerji konfransını təşkil etdiyinizə görə, Sizə minnətdarlığımı bildirmək istəyirəm. Tədbir çox uğurlu oldu. Bu, cari ilin may ayında Krakovda ölkələrimiz arasında başlanmış çox fəal əməkdaşlığın davamı oldu. Ötən vaxt ərzində nazirlərimiz, müvafiq struktur və şirkətlərimiz əməkdaşlıq prosesinin sürətləndirilməsi məqsədi ilə bir-birilə çox fəal işləmişlər.

Bu gün keçirilmiş konfrans zamanı biz gələcək addımlarımızı, əməkdaşlığımızı müzakirə etdik və gələcək üçün qarşıya qoyduğumuz bütün vəzifələrin öhdəsindən gəlmək barədə yekdil fikirdə olduq.

Mən əlavə etmək istəyirəm ki, bu gün gələcək regional inkişafın olduqca mühüm başlanğıcıdır. Xəzər-Qara dəniz-Baltik dənizi regionu əməkdaşlığın olduqca vacib mərhələsinə qədəm qoyur. Üzərində işlədiyimiz enerji dəhlizi və bu gün imzaladığımız sənədlər əməkdaşlığımız üçün yeni perspektivlər açacaqdır.

Xəzər-Qara dəniz-Baltik dənizi regionunda səylərin səfərbər olunması ölkələrimiz və xalqlarımız arasında daha çox proqnozlaşdırma, əməkdaşlıq, qarşılıqlı yardım və dostluqla, eləcə də iqtisadi rifah və inkişafla nəticələnəcəkdir. Eyni zamanda, bu, daha sıx inteqrasiyamıza töhfə verəcəkdir.

Çox məmnunuq ki, Avropa İttifaqının üzvü olan ölkələr, xüsusən də, Litva və Polşa bütün bu layihələrdə fəal iştirak edir. Biz hazırkı inkişafı Avropa İttifaqı ilə Azərbaycan arasında geniş enerji əməkdaşlığının elementi hesab edirik.

Ötən ilin noyabrında biz Avropa İttifaqı ilə Azərbaycan arasında Enerji məsələləri üzrə strateji tərəfdaşlığa dair memorandum imzalamışıq. Bu gün isə biz həmin fəaliyyətin praktik baxımdan həyata keçirilməsini görürük.

Azərbaycan zəngin neft tarixi və ənənələri ilə tanınan ölkədir. Azərbaycan Xəzər dənizini xarici sərmayədarlar üçün açıq elan etmişdir. Son on il ərzində biz Xəzər dənizindəki yataqlara on milyardlarla dollar sərmayə cəlb etmişik. Azərbaycanda neft hasilatı artır, gələn il 55 milyon tondan çox olacaqdır.

Azərbaycan neftini üç istiqamətdə nəql edən boru kəmərlərimiz var, ikisi Qara dənizə, biri isə Aralıq dənizinə çıxır. Azərbaycan qazının qonşu ölkələrə - Gürcüstan və Türkiyəyə, daha sonra isə Avropa bazarına çıxışını təmin edən boru kəmərimiz var.

Başqa sözlə desək, Azərbaycan qarşısına qoyduğu bütün vəzifələri - böyük həcmdə neft və qaz hasil etmək, əvvəllər ümumiyyətlə mövcud olmayan yeni daşınma yollarını açmaq, Xəzər dənizini neft kəmərləri vasitəsilə Qara dəniz və Aralıq dənizi ilə birləşdirmək və Xəzərin enerji resurslarını Avropa bazarlarına çıxarmaq vəzifələrini çox qısa

müddət ərzində yerinə yetirdi. Hazırda bu, reallıqdır. İndi biz əməkdaşlığımızı genişləndirəcək əlavə layihələr üzərində işləyirik. Odessa-Brodı-Plotsk-Qdansk layihəsinə bu gün çox güclü siyasi dəstək verildi və bizim artıq həyata keçiriləcək praktik elementlərimiz var.

Əminəm ki, gələn il Ukraynada keçiriləcək növbəti görüşdə bizim yeni nailiyyətlərimiz olacaqdır. Tərəfdaşlığımız artacaq, qarşılıqlı münasibətlər inkişaf edəcəkdir. İşbirliyimiz yalnız və yalnız sülhə, təhlükəsizliyə, sabitliyə və xalqlarımızın, ölkələrimizin rifahına doğru aparır.

Mən bu gün qəbul olunmuş qərarları yüksək dəyərləndirirəm. Bu, cari ilin may ayında Krakovda razılaşdırılmış məsələlərə bizim birmənalı sadiqliyimizi nümayiş etdirir. Ümidvaram ki, gələcəkdə bu əməkdaşlıq uğurla davam edəcək və ölkələrimizin ümumi işlərdə daha geniş iştirakına zəmin yaradacaqdır.

Mən bu cür mühüm görüşü təşkil etdiyinə görə Prezident Adamkusa bir daha minnətdarlığımı bildirirəm. Eyni zamanda, demək istəyirəm ki, bu gün biz GUAM-ın onilliyini qeyd etdik. Ola bilsin ki, bu tədbirin burada, Vilnüsdə keçirilməsi həm də rəmzi xarakter daşıyır. Mən həm də bu layihə ilə bağlı təşəbbüsünə və fəaliyyətinə görə Prezident Kaçinskiyə təşəkkür edirəm. Belə tarixi, mühüm nailiyyət münasibətilə hamını təbrik edirəm.

Sağ olun.

XARİCİ İŞLƏR NAZİRLİYİNİN BƏYANATI

ABŞ Nümayəndələr palatasının Xarici Əlaqələr Komitəsi Osmanlı imperiyasında işğalçı qüvvələrlə əməkdaşlıq edən erməni əhalisinin bir hissəsinin köçürülməsi ilə bağlı 1915-ci ildə baş vermiş hadisələrin "soyqırım" kimi adlandırılması haqqında 106 nömrəli qətnamə layihəsini qəbul etmişdir.

Azərbaycanın Xarici İşlər Nazirliyi səhv və qərəzli qərarı qəti şəkildə pisləyir və onu regional və qlobal proseslər üçün mənfi hal hesab edir.

Azərbaycan dünyanın bu hissəsində Birinci dünya müharibəsi zamanı baş vermiş faciələrə dair arxiv sənədlərinin öyrənilməsi haqqında Türkiyənin çağırışını dəstəkləyir.

Azərbaycan özü Ermənistan tərəfindən etnik təmizləməyə məruz qalmışdır və buna bariz nümunə yüzlərlə qadın, uşaq və qocanın qətli ilə nəticələnən Xocalı soyqırımıdır. Eyni zamanda, Ermənistan tərəfindən həyata keçirilən çoxsaylı terror aktlarının və ərazilərinin işğalının qurbanı olan bir ölkə kimi Azərbaycan erməni diasporu və hökumətinin öz cinayətlərini aqressiv təbliğatla necə gizlətdiyinə yaxşı bələddir.

Azərbaycan XİN ABŞ Konqresinin qərəzsizliyinin və etnik lobbilərin təzyiqi altında olmadığının nümayiş etdirilməsi üçün ABŞ Nümayəndələr palatasını təkidlə 106 nömrəli qətnaməni qəbul etməkdən çəkinməyə çağırır.

Bakı şəhəri, 12 oktyabr 2007-ci il

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV ALMANİYA BUNDESTAQININ ALMANİYA-CƏNUBİ QAFQAZ PARLAMENTLƏRARASI QRUPUNUN ÜZVLƏRİNİ QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 15-də Prezident sarayında Almaniya Bundestaqının Almaniya-Cənubi Qafqaz parlamentlərarası qrupunun üzvlərini qəbul etmişdir.

Dövlətimizin başçısı Azərbaycan ilə Almaniya arasında siyasi və iqtisadi sahədə əməkdaşlığın uğurla həyata keçirildiyini vurğulayaraq dedi: "Ümid edirəm ki, sizin səfəriniz ölkələrimiz arasında müxtəlif sahələrdə əməkdaşlığın daha da inkişaf etməsinə, habelə Azərbaycan ilə Avropa İttifaqı arasında tərəfdaşlığın daha da genişlənməsinə öz töhfəsini verəcəkdir". Gələn il Almaniyada Azərbaycan İlinin keçiriləcəyini xatırladan Prezident İlham Əliyev bunun ölkəmiz haqqında Almaniyada daha dolğun məlumatın yayılması üçün yaxşı imkan yaradacağına əminliyini söylədi.

Almaniya-Cənubi Qafqaz parlamentlərarası qrupunun rəhbəri Şteffen Rayxe rəhbərlik etdiyi nümayəndə heyəti üzvlərinin artıq bir neçə dəfə ölkəmizdə səfərdə olduqlarını bildirdi. Qonaq Azərbaycan ilə əlaqələrin səviyyəsindən razılıqlarını ifadə etdi və gələn il Almaniyada Azərbaycan İlinin keçirilməsinin ölkələrimiz arasında əlaqələrin bundan sonra da inkişaf etdirilməsi baxımından mühüm hadisə olacağını vurğuladı.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN İRANA SƏFƏRİ

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Xəzəryanı ölkələrin dövlət başçılarının II zirvə toplantısında iştirak etmək üçün oktyabrın 16-da İrana səfərə gəlmişdir.

TEHRANDA XƏZƏRYANI DÖVLƏT BAŞÇILARININ İKİNCİ ZİRVƏ TOPLANTISI İŞƏ BAŞLAMIŞDIR

Oktyabrın 16-da Tehranda, "Sədabad" sarayının "Hafiziyyə" korpusunda Xəzəryanı dövlət başçılarının ikinci zirvə toplantısı işə başlamışdır.

Toplantıda Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev, İran İslam Respublikasının Prezidenti Mahmud Əhmədinejad, Rusiya Federasiyasının Prezidenti Vladimir Putin, Qazaxıstan Respublikasının Prezidenti Nursultan Nazarbayev və Türkmənistanın Prezidenti Qurbanqulu Berdiməhəmmədov iştirak edirdilər.

Əvvəlcə Qurandan ayə oxundu.

Toplantını İran Prezidenti Mahmud Əhmədinejad açaraq, dövlət başçılarını salamladı. 2002-ci ildə keçirilmiş birinci zirvə görüşündən ötən dövrdə dünyasını dəyişmiş Azərbaycan Prezidenti Heydər Əliyevin və Türkmənistan Prezidenti Saparmurad Niyazovun xatirələrinin yad olunmasını təklif etdi.

İlk zirvə görüşündən keçən müddətdə sahilyanı dövlətlər arasında aparılmış danışıqların faydalı olduğunu vurğulayan İran Prezidenti dedi ki, xalqlarımız bu danışıqların bəhrəsini gözləyirlər. Ötən illər ərzində bir çox məsələlər barədə tam razılıq əldə olunmuş-

dur, lakin Xəzərin statusu ilə bağlı mühüm məqamlar haqqında danışıqlar davam edir.

Danışıqların və məsləhətləşmələrin nəticələrinin getdikcə nikbinlik doğurduğunu vurğulayan Prezident Əhmədinejad əvvəlcədən müəyyən olunmuş qrafik əsasında dövlət başçılarının və xarici işlər nazirlərinin görüşlərinin müntəzəm keçirilməsini təklif etdi.

Azərbaycan Prezidenti İlham Əliyev zirvə toplantısında çıxış etdi.

AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ İLHAM ƏLİYEVİN ÇIXIŞI

- Hörmətli cənab Prezident Mahmud Əhmədinejad!

Hörmətli dövlət başçıları!

Əziz dostlar!

Mən sizin hamınızı Xəzəryanı dövlətlərin başçılarının zirvə görüşünün keçirilməsi münasibətilə ürəkdən salamlayır və zirvə görüşünün işinə uğurlar arzulayıram. Bizə göstərilən qonaqpərvərliyə və zirvə görüşünün yüksək səviyyədə təşkilinə görə İran İslam Respublikasının Prezidenti cənab Mahmud Əhmədinejada minnətdarlığımı bildirirəm.

Xəzəryanı dövlətlərin başçılarının 2002-ci ildə Aşqabadda keçirilmiş ilk zirvə görüşü ölkələrimizin həyatında mühüm hadisə olmuşdur. Bu görüş Xəzər dənizinin hüquqi statusunun müəyyən edilməsinə dair bir çox prinsipial məsələlər üzrə fikir mübadiləsi aparmağa imkan vermişdir.

Ötən müddət ərzində Xəzəryanı dövlətlərin xarici işlər nazirlərinin müavinləri formatında ekspert qrupları səmərəli iş aparmışlar. Xarici işlər nazirləri, dövlət başçıları səviyyəsində ikitərəfli əsasda bir çox görüşlər keçirilmişdir. Hesab edirəm ki, Xəzər dənizinin hüquqi statusu kimi mühüm məsələnin müzakirəsi və bu barədə qərar qəbul olunması üçün xeyli təcrübə toplanmış və yaxşı şərait yaranmışdır.

Ümidvaram ki, hazırda toplaşdığımız Tehran görüşü bu mühüm məsələ ilə bağlı qarşıda duran məsələlərin həlli naminə bütün səy və imkanların birləşməsinə, mövqelərin daha da yaxınlaşmasına, ciddi nəticələr əldə edilməsinə imkan verəcəkdir.

Qeyd etmək lazımdır ki, Xəzər dənizinin hüquqi statusunun müəyyənləşməsi yalnız region dövlətlərinin inkişafı və çiçəklənməsi, dövlətlərarası münasibətlərin möhkəmlənməsi baxımından deyil, eyni zamanda onun biomüxtəlifliyinin, flora və fauna zənginliyinin qorunub saxlanması, ekoloji durumunun yaxşılaşdırılması baxımından da çox vacibdir.

Xəzər dənizi yerləşdiyi mövqeyə görə bütövlükdə region üçün xüsusi əhəmiyyət kəsb edir. Heç şübhə yoxdur ki, regionun gələcək inkişafı baxımından Xəzərin statusunun müəyyənləşməsi istiqamətində anlaşma və razılığın əldə edilməsi Xəzər regionunda qarşılıqlı etimadı, sülhü və təhlükəsizliyi daha da möhkəmləndirəcək, daha sıx əməkdaşlığa zəmin yaradacaqdır.

Xəzərdə əməkdaşlığın ümumi prinsiplərinin formalaşması istiqamətində mühüm addımlar hələ ötən əsrin ortalarından etibarən atılmışdır. Qarşılıqlı razılaşmaya uyğun olaraq, Xəzər dənizi orta xətt prinsipi əsasında müttəfiq respublikalar arasında sektorlara

bölünmüşdür. Xəzər dənizinin sektorlara bölünməklə istifadə edilməsi sahilyanı ölkələr arasındakı müqavilə təcrübəsində istifadə olunmuşdur.

Ötən əsrin 40-cı illərindən başlayaraq, Xəzər dənizindəki bütün neft və qaz yataqlarının kəşfiyyatı və istismarı Azərbaycan neftçiləri tərəfindən həyata keçirilmişdir. Xəzər dənizində sənaye üsulu ilə neft və qaz hasilatına Azərbaycan 1949-cu ildə başlamışdır.

Son illərdə Xəzəryanı dövlətlər Xəzər dənizində təşəkkül tapmış praktikanı davam etdirərək, müvafiq ekoloji, iqtisadi, elmi-texniki tədbirlər həyata keçirirlər. Lakin Xəzər dənizinin nadir xarakterinin qorunub saxlanması zərurəti daha səmərəli tədbirlər görülməsini tələb edir.

Biz Xəzərin hüquqi statusunun müəyyənləşdirilməsi ilə bağlı məsələləri daim diqqət mərkəzində saxlayırıq. Bu baxımdan Azərbaycan, Rusiya və Qazaxıstan arasında dənizin dibinin bölünməsinə dair imzalanmış sazişlərə böyük əhəmiyyət veririk. Bu sazişlər ümumi razılaşmaların əldə olunmasının təməlini qoyaraq, Xəzərin hüquqi statusunun mühüm tərkib hissəsini təşkil edir.

Xəzərin əsrlərdən bəri dostluq və əməkdaşlıq dənizi olduğunu nəzərə alaraq, ondan yalnız dinc məqsədlərlə istifadə olunmasını, hüquqi status çərçivəsində silahsızlaşdırma və təhlükəsizlik prinsiplərinin müəyyən edilməsini, eyni zamanda, digər dənizlərə və dünya okeanına çıxışı olmayan sahilyanı ölkələrin gəmilərinə ümumi razılaşmalar çərçivəsində azad tranzit imkanlarının saxlanmasını vacib hesab edirəm.

Azərbaycan Xəzər dənizinin bioloji ehtiyatlarının və ətraf mühitinin qorunmasının vacibliyini vurğulayaraq, Xəzərin bioloji müxtəlifliyinin, təbii ehtiyatlarının istifadəsi və çoxaldılması məqsədi ilə ekoloji problemlərin həllində də əməkdaşlığın genişləndirilməsinin tərəfdarıdır.

Bu istiqamətdə "Xəzər dənizinin dəniz ətraf mühitinin mühafizəsi haqqında Çərçivə Konvensiyası"nın imzalanmasını, qüvvəyə minməsini və Birinci Tərəflər konfransının cari ilin may ayında Bakı şəhərində keçirilməsini alqışlayıram.

Azərbaycan "Xəzər dənizinin dəniz ətraf mühitinin mühafizəsi haqqında Çərçivə Konvensiyası"nın Katibliyinin Bakıda yerləşməsinə hazır olduğunu bəyan edir.

Azərbaycan etibarlı qonşu və tərəfdaşdır. Biz bunu dəfələrlə nümayiş etdirmişik. Qonşu ölkələrlə dostluq və əməkdaşlıq əlaqələrinin daim inkişafı və genişlənməsi bizim xarici siyasət xəttimizin əsas istiqamətlərindən biridir.

İnanıram ki, Tehran zirvə görüşü və burada qəbul edəcəyimiz Bəyannamə Xəzəryanı dövlətlərin əməkdaşlığını bütün sahələrdə daha da inkişaf etdirmək, regionumuzda sabitliyi və sülhü təmin etmək işində mühüm dönüş mərhələsi olacaqdır və Xəzər sülh, dostluq və əməkdaşlıq dənizinə çevriləcəkdir. Diqqətinizə görə təşəkkür edirəm.

* * *

Daha sonra söz Qazaxıstan Prezidenti Nursultan Nazarbayevə verildi. O dedi ki, bu toplantı əməkdaşlıq üçün yeni mərhələ açır. Qarşılıqlı etimad, səmərəli əməkdaşlıq, möhkəm iradə nümayiş etdirmək üçün bütün tərəflərin marağına uyğun şəkildə Xəzərin hüquqi statusunun müəyyənləşdirilməsinə nail olunmalıdır. Eyni zamanda Xəzərin ekoloji problemlərinin həllinə, balıq ovuna və digər sahələrə dair beştərəfli sazişlərin imzalan-

masına və mövcud sənədlərə yenidən baxılmasına zərurət yaranmışdır. N.Nazarbayev xüsusi vurğuladı ki, vaxtilə İran ilə SSRİ arasında müqaviləyə əsasən Xəzər dənizi bölünsə də, hazırda beş müstəqil dövlət var. İndiyədək nərə balığı ovu ilə bağlı İran tərəfinə 45 faiz, Rusiya tərəfinə 27 faiz, Azərbaycan, Qazaxıstan və Türkmənistana isə birlikdə cəmi 28 faiz kvota ayrılır. Bu isə bir növ ədalətsizlik yaradır. Qazaxıstan Prezidenti Xəzərdə təhlükəsizliyin qorunması üçün beş dövlətin iştirakı ilə hərbi qüvvələrin yaradılmasına da ehtiyac olduğunu bildirdi.

Sonra Rusiya Prezidenti Vladimir Putin çıxış etdi. Rusiyanın bu formatda dialoqun daimi əsasda davam etdirilməsinə həmişə tərəfdar olduğunu bildirən Prezident V.Putin zirvə görüşündə qəbul ediləcək yekun Bəyannaməsinin böyük əhəmiyyəti olacağını vurğuladı. O dedi ki, bu formatda görüşlər Xəzərin problemlərinin həllinə nail olacağımıza ümid verir və ən əsası isə, bu, səmərəli əməkdaşlığın və tərəfdaşlığın inkişafı üçün yeni imkanlar açacaqdır. Rusiya Xəzər dənizinin bizi ayırmasının deyil, birləşdirməsinin tərəfdarıdır. Rusiya Prezidenti xüsusi vurğuladı ki, Xəzərin ekologiyasının qorunması ilə bağlı onun fikirləri Azərbaycan Prezidentinin fikirləri ilə tam üst-üstə düşür və bu mövqeyi dəstəkləyir.

Türkmənistan Prezidenti Qurbanqulu Berdiməhəmmədov çıxışında sammitin əhəmiyyətini vurğulayaraq, Xəzər dənizinin sektorlara bölünməsinin, gələcəkdə bütün sahələri əhatə edəcək sənədlərin hazırlanmasının bütün tərəflər üçün əhəmiyyətli olacağını bildirdi.

* * *

Xəzəryanı ölkələrin dövlət başçılarının ikinci zirvə toplantısının açılış mərasimi başa çatdıqdan sonra prezidentlər birgə fotoşəkil çəkdirdilər.

Sonra zirvə toplantısı qapalı iclasla davam etdirildi.

Qapalı iclas başa çatdıqdan sonra Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev, İran İslam Respublikasının Prezidenti Mahmud Əhmədinejad, Rusiya Federasiyasının Prezidenti Vladimir Putin, Qazaxıstan Respublikasının Prezidenti Nursultan Nazarbayev, Türkmənistanın Prezidenti Qurbanqulu Berdiməhəmmədov 25 bənddən ibarət Tehran Bəyannaməsini imzaladılar.

Bildirildi ki, 2002-ci ildə Aşqabadda birinci zirvə toplantısında heç bir sənəd qəbul edilməmişdi. Tehran görüşündə ilk sənəd qəbul olunur ki, bu da əməkdaşlığın genişləndirilməsi üçün böyük əhəmiyyət daşıyacaqdır.

Sonra İran, Qazaxıstan və Türkmənistan arasında dəmir yolu xəttinin tikilməsinə dair razılaşma sənədi imzalandı. Bu sənədi hər üç ölkənin prezidentləri imzaladılar.

Daha sonra prezidentlərin iştirakı ilə mətbuat konfransı oldu.

Konfransı İran İslam Respublikasının Prezidenti Mahmud Əhmədinejad açdı. O, zirvə toplantısının yekunundan danışaraq bildirdi ki, əməkdaşlığımız üçün çox böyük əhəmiyyəti olan bu sənədin ilk dəfə beş ölkənin prezidentləri tərəfindən imzalanması qonşu dövlətlər arasında qarşılıqlı əlaqələri daha da genişləndirəcəkdir. M.Əhmədinejad dedi ki, gələn ilin yayında Rusiyada Xəzəryanı ölkələrin iqtisadi əməkdaşlığına dair konfrans keçiriləcəkdir. Konfransa qədər təşkilati məsələlər və iqtisadi xarakter daşı-

yan sənədlər üzərində iş gedəcəkdir.

Azərbaycan Prezidenti İlham Əliyevin təklifi ilə Xəzəryanı ölkələrin dövlət başçılarının üçüncü zirvə toplantısının gələn ilin oktyabrında Bakıda keçirilməsi qərara alınmışdır. O vaxta qədər Xəzər dənizində gəmilərin milli bayraqlar altında üzməsi haqqında sənəd hazırlanacaqdır.

İran Prezidenti bildirdi ki, indən belə ildə iki dəfə – altı aydan bir Xəzəryanı ölkələrin xarici işlər nazirlərinin, ildə bir dəfə isə dövlət başçılarının görüşləri keçiriləcəkdir.

İran Prezidenti aparılan səmərəli müzakirələrə görə dövlət başçılarına təşəkkürünü bildirdi və dedi ki, onlar bu görüşün təşkilində mühüm rol oynamışlar. Xəzər dənizi güclü əməkdaşlıq, sülh, əmin-amanlıq məqsədləri üçün istifadə olunmalıdır.

M.Əhmədinejad İranın nüvə proqramı barədə də danışaraq dedi ki, biz bu işləri MAQATE ilə əməkdaşlıqda həyata keçiririk.

Sonra prezidentlər jurnalistlərin suallarına cavab verdilər.

Prezident İlham Əliyev zirvə görüşünün yüksək səviyyədə təşkilinə görə İran Prezidentinə təşəkkür edərək dedi ki, müzakirələr anlaşma şəraitində keçdi. İmzalanan Bəyannamədə hər bir məsələ öz əksini tapmışdır və Azərbaycan "Şimal-Cənub" dəhlizinə böyük maraq göstərir.

Digər prezidentlər də bu sənədin əhəmiyyətindən danışaraq, gələcəkdə Xəzər dənizindən təhlükəsizlik və iqtisadi əməkdaşlıq üçün istifadənin zəruriliyini vurğuladılar, Tehran Bəyannaməsinin məsələlərin konsensus əsasında həllində baza rolunu oynayacağını bildirdilər.

Mətbuat konfransından sonra İran Prezidenti Mahmud Əhmədinejadın adından dövlət başçılarının şərəfinə rəsmi nahar verildi.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN VƏ İRAN PREZİDENTİ MAHMUD ƏHMƏDİNEJADIN GÖRÜŞÜ

Oktyabrın 16-da Tehranda Xəzəryanı ölkələrin dövlət başçılarının ikinci zirvə toplantısı çərçivəsində Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və İran İslam Respublikasının Prezidenti Mahmud Əhmədinejadın görüşü olmuşdur.

Prezidentlər siyasi, iqtisadi və digər sahələrdə əlaqələrin hər iki tərəfin mənafeyinə uyğun şəkildə uğurla inkişaf etdiyini vurğuladılar. Bildirildi ki, əlaqələr həm də regional əməkdaşlığın genişlənməsinə xidmət edir. Xəzəryanı ölkələrin dövlət başçılarının zirvə toplantısı sahilyanı dövlətlər arasında əlaqələri genişləndirməklə yanaşı, bölgədə əməkdaşlığa da töhfə verir.

Dövlət başçıları Azərbaycan və İran prezidentlərinin qarşılıqlı səfərlərinin əhəmiyyətinə toxunaraq, bunun münasibətlərin daha da möhkəmlənməsində rolunu vurğuladılar, ikitərəfli əlaqələrin gələcəkdə də genişlənəcəyinə əminliklərini bildirdilər.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN VƏ İRANIN ALİ RƏHBƏRİ SEYİD ƏLİ XAMENEİNİN GÖRÜŞÜ

Oktyabrın 16-da Tehranda Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və İran İslam Respublikasının ali rəhbəri Seyid Əli Xamenеinin görüşü olmuşdur.

Söhbət zamanı ölkələrimiz arasında müxtəlif sahələrdə əlaqələrin uğurla inkişaf etdiyi vurğulandı.

Seyid Əli Xamenei xalqımızın ümummilli lideri Heydər Əliyev ilə görüşlərini məmnunluqla xatırladı. O, zirvə toplantısının uğurla keçdiyini, ikitərəfli və regional əməkdaşlıq üçün faydalı olduğunu söylədi.

Görüşdə ölkələrimiz arasında əməkdaşlığın bundan sonra da inkişaf edəcəyinə əminlik vurğulandı.

LÜKSEMBURQDA AZƏRBAYCAN-Aİ ƏMƏKDAŞLIQ ŞURASININ İCLASI KEÇİRİLİR

Oktayabrın 16-da Lüksemburqda Azərbaycan-Avropa İttifaqı Əməkdaşlıq Şurasının növbəti iclası keçirilir.

İclasın gündəliyinə əsasən üç məsələ daxildir: Avropa qonşuluq siyasəti çərçivəsində əməkdaşlığın perspektivləri, o cümlədən Azərbaycanla Avropa İttifaqı arasında Əməkdaşlıq planının həyata keçirilməsi; insan hüquqları və demokratikləşmə; energetika və nəqliyyat sahəsində əməkdaşlıq məsələləri.

Azərbaycan nümayəndə heyətinə xarici işlər nazirinin müavini Mahmud Məmmədquliyev başçılıq edir.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV BEYNƏLXALQ FUTBOL ASSOSİASİYALARI FEDERASİYASININ PREZİDENTİ YOZEF BLATTERİ VƏ AVROPA FUTBOL ASSOSİASİYALARI İTTİFAQININ PREZİDENTİ MİŞEL PLATİNİNİ QƏBUL ETMİŞDİR

Azərbaycan Prezidenti İlham Əliyev oktyabrın 17-də Naxçıvan Muxtar Respublikasının Ali Məclisinin binasında Beynəlxalq Futbol Assosiasiyaları Federasiyasının (FİFA) prezidenti Yozef Blatteri və Avropa Futbol Assosiasiyaları İttifaqının (UEFA) prezidenti Mişel Platinini qəbul etmişdir.

Ölkəmizə səfərindən məmnunluğunu bildirən Yozef Blatter Azərbaycanda idmanın sürətlə inkişaf etdiyini söylədi. O, Azərbaycan dövlətinin idmanın inkişafına olan qayğısını, Milli Olimpiya Komitəsinin prezidenti və ölkənin rəhbəri kimi İlham Əliyevin idmana böyük diqqət göstərdiyini xüsusi vurğuladı və dedi ki, Azərbaycan beynəlxalq idman aləmində mövqeyini möhkəmləndirir.

Prezident İlham Əliyev xoş sözlərə görə təşəkkür edərək, ölkəmizdə idmana xüsusi diqqət göstərildiyini, gələcək nəslin sağlam böyüməsi üçün idmanın böyük əhəmiyyəti olduğunu bildirdi. Dövlətimizin başçısı dedi ki, Azərbaycanda iqtisadi tərəqqinin əldə

olunması idmanın inkişafına təkan verir, idmançılarımız uğurlar qazanır. Sizin Azərbaycana səfəriniz və görüşləriniz ölkəmizin idman sahəsində beynəlxalq əlaqələrinin daha da genişlənməsinə xidmət edir.

Prezident İlham Əliyev Yozef Blatterə dünyada futbolun inkişafındakı xidmətlərinə görə fəxri diplom, Mişel Platiniyə "Şöhrət" ordeni təqdim etdi.

Yozef Blatter isə Azərbaycan Prezidenti İlham Əliyevə FİFA-nın xatirə nişanını təqdim etdi.

Qonaqlar bu yüksək diqqətə görə Prezident İlham Əliyevə dərin minnətdarlıqlarını bildirdilər.

ATƏT-İN MİNSK QRUPUNUN HƏMSƏDRLƏRİ REGİONA SƏFƏR EDƏCƏKLƏR

YUNESKO-nun Baş Konfransında iştirak edən Azərbaycanın xarici işlər naziri Elmar Məmmədyarov oktyabrın 17-də Parisdə ATƏT-in Minsk qrupunun fransalı və rusiyalı həmsədrləri ilə görüşmüşdür.

Xarici İşlər Nazirliyinin mətbuat xidmətindən bildirmişlər ki, görüşdə Minsk qrupunun həmsədrlərinin oktyabrın sonunda regiona nəzərdə tutulan səfərlərinə dair fikir mübadiləsi aparılmışdır.

AZƏRBAYCANIN XARİCİ İŞLƏR NAZİRİ ELMAR MƏMMƏDYAROV FRANSADA SƏFƏRDƏDİR

Xarici işlər naziri Elmar Məmmədyarov Fransaya səfəri çərçivəsində oktyabrın 18-də YUNESKO-nun Baş Konfransında çıxış etmişdir.

E.Məmmədyarov çıxışında Azərbaycanda tarixi köklərə malik dini və etnik müxtəliflik və tolerantlıqdan söz açmış, bunun dünyanın digər ölkələri üçün nümunə ola biləcəyini qeyd etmişdir. Nazir bu baxımdan Azərbaycanın birinci xanımı, YUNESKO-nun və İSESKO-nun xoşməramlı səfiri Mehriban Əliyevanın başçılıq etdiyi Heydər Əliyev Fondu və Rio-de-Janeyronun Latın Akademiyasının ötən il Bakıda keçirdikləri Qərb və İslam arasında dialoq mövzusunda konfransın əhəmiyyətini xüsusi vurğulanmışdır.

Azərbaycanın xarici siyasət idarəsinin başçısı ölkəmizdə son illərdə təhsil sahəsində aparılan islahatlardan, həyata keçirilən proqramlardan danışmış, bu sahəyə YUNESKO-nun və Heydər Əliyev Fondunun dəstəyini qeyd etmişdir.

Nazir çıxışında Azərbaycanın mədəni irsinə Ermənistanın təcavüzü və Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi zamanı dəymiş böyük zərər haqqında məlumat vermiş, YUNESKO-nun bu məsələyə xüsusi diqqət yetirməsinin vacibliyini vurğulamışdır.

E.Məmmədyarov, həmçinin Avstriyanın xarici işlər naziri, İSESKO-nun baş direktoru, YUNESKO-nun baş direktorunun müavini ilə görüşmüşdür.

AZƏRBAYCANIN XARİCİ İŞLƏR NAZİRİ PARİSDƏ İŞGÜZAR GÖRÜŞLƏR KEÇİRMİŞDİR

Parisdə YUNESKO-nun 34-cü Baş Konfransının işində iştirak edən xarici işlər naziri Elmar Məmmədyarov işgüzar görüşlər keçirmişdir.

YUNESKO-nun baş direktoru Koişiro Matsuura ilə Azərbaycanın xarici işlər naziri Elmar Məmmədyarovun görüşündə Heydər Əliyev Fondunun prezidenti, YUNESKO-nun xoşməramlı səfiri Mehriban xanım Əliyevanın səyləri sayəsində qurumla ölkəmiz arasında sıx əməkdaşlığın yarandığı və inkişaf etdiyi, təhsil sahəsində birgə layihələrin həyata keçirildiyi xüsusi vurğulanmışdır.

Görüşdə YUNESKO ilə Azərbaycan arasında əməkdaşlığın perspektivləri və 2008-ci ildə Bakıda keçiriləcək Avropa və Qafqaz regionu üzrə altıncı Beynəlxalq konfrans ilə bağlı fikir mübadiləsi aparılmışdır.

Elmar Məmmədyarov Parisə səfəri çərçivəsində YUNESKO-nun baş direktorunun mədəniyyət üzrə müavini xanım Fransuaz Riviyerlə, Avstriyanın Avropa və xarici işlər naziri Hans Vinklerlə, İSESKO-nun baş direktoru Əbdüləziz ibn Osman əl-Tüveyri və Seneqalın mədəniyyət və tarixi irs naziri Biram Diuf ilə görüşmüşdür.

Görüşlərdə mədəniyyət sahəsində ölkələrarası əməkdaşlığın inkişafı məsələləri müzakirə edilmişdir.

AZƏRBAYCAN TOLERANTLIĞA VƏ ETNİK QRUPLARA MÜNASİBƏTƏ GÖRƏ BÜTÜN DÜNYAYA NÜMUNƏ OLA BİLƏR

Bu fikri YUNESKO-nun 34-cü Baş Konfransında Azərbaycanın xarici işlər naziri Elmar Məmmədyarov səsləndirmişdir.

Quruma üzv olan 193 ölkədən 2 min nümayəndənin iştirak etdiyi və ümumi siyasət üzrə müzakirəyə həsr olunmuş konfransın nümayəndə heyəti başçılarının iştirakı ilə keçirilmiş plenar yığıncağında məruzəçilər ölkələrində elm, təhsil, mədəniyyət və kommunikasiya ilə bağlı görülmüş işlərdən danışmış, mətbuat azadlığı, dopinqə və yoxsulluğa qarşı mübarizə, təhsildə islahatlar, əməkdaşlıq sahəsində yeni strateji layihələrin hazırlanması və digər məsələlərdən bəhs etmişlər.

Yığıncaqda Azərbaycanın YUNESKO üzrə Milli Komissiyasının sədri, xarici işlər naziri Elmar Məmmədyarov çıxış etmişdir. Nazir çıxışının əvvəlində ölkəmizin ən qədim mədəni abidələrindən biri olan Qobustanın bu yaxınlarda Dünya İrs Siyahısına daxil edildiyini məmnunluq hissi ilə xatırlatmış, 2006-cı ildə qeyri-maddi irsin qorunmasına dair Konvensiyanın qüvvəyə minməsinin mühüm hadisə olduğunu və Azərbaycanın bu Konvensiyanı artıq ratifikasiya etdiyini, muğamın YUNESKO-nun şah əsərləri siyahısına daxil edildiyini diqqətə çatdırmışdır.

Son vaxtlar mədəniyyətlərarası və dinlərarası dialoqun mühüm əhəmiyyət daşıdığını qeyd edən E.Məmmədyarov, tolerantlıq və dini məsələlərin həllinin Azərbaycanın əldə etdiyi mühüm nailiyyətlərdən biri olduğunu bildirmişdir.

Əsrlər boyu Azərbaycanda çoxlu etnik qrupların yaşadığına və müxtəlif dinlərin möv-

cudluğuna toxunan nazir, bu sahələrdə tolerantlığın xalqımızın gündəlik həyatının bir hissəsi olduğunu, bütün milli azlıqlara, onların mədəniyyət və dinlərinə həmişə hörmətlə yanaşıldığını qeyd etmişdir. Nazir göstərmişdir ki, sivilizasiyaların inkişafı baxımından Şərqlə Qərb arasında körpü rolunu oynayan Azərbaycanın etnik qruplara və müxtəlif dinlərə münasibətdə göstərdiyi tolerantlıq bütün dünyaya nümunə ola bilər.

Ölkəmizlə YUNESKO arasında əməkdaşlıq məsələlərinə toxunan nazir, Azərbaycanın birinci xanımı, YUNESKO-nun xoşməramlı səfiri Mehriban Əliyevanın rəhbərlik etdiyi Heydər Əliyev Fondunun səyləri nəticəsində təşkilatla Azərbaycan arasında sıx əməkdaşlıq əlaqələrinin yarandığını və inkişaf etdiyini xüsusi vurğulamışdır. Fondun təşəbbüsü sayəsində təhsil və mədəniyyət məsələlərini əhatə edən beynəlxalq konfranslar keçirilmiş, ölkədə bir çox tarixi abidələr, o cümlədən kilsə və məscidlər, yəhudi sinaqoqu tamamilə bərpa edilmişdir. Mehriban xanım Əliyevanın təşəbbüsü ilə keçirilmiş tədbirlər xalqlar, mədəniyyətlər və dinlərarası qarşılıqlı anlaşmaya öz dəyərli töhfəsini vermişdir. Bu istiqamətdə işlər davam etdirilməkdədir.

E.Məmmədyarov demişdir ki, Azərbaycan tolerantlıq, dini problemlər və digər məsələlərin həlli sahəsində əməkdaşlıq əlaqələrinin mərkəzi hesab edilən YUNESKO-nun rolunu daim yüksək qiymətləndirir. Hamıya məlumdur ki, təşkilatın əsas fəaliyyətlərindən biri təhsillə bağlıdır. Azərbaycanın yüksək sürətli iqtisadi inkişafı təhsil sahəsində genişmiqyaslı islahatların həyata keçirilməsinə münbit şərait yaratmışdır. Heydər Əliyev Fondunun təşəbbüsü ilə ölkəmizdə 200-dən artıq yeni tipli məktəblər istifadəyə verilmiş və müasir avadanlıqlarla təchiz edilmişdir. Hətta uqar kəndlərdə belə müasir tipli təhsil ocaqları inşa edilmişdir. Fond beynəlxalq təşkilatla birlikdə təhsil sahəsində yeni layihələrin həyata keçirilməsini davam etdirir.

Nazir bildirmişdir ki, qurumun "Hamı üçün təhsil" proqramı savadsızlığın aradan qaldırılmasında mühüm rol oynayır. YUNESKO-nun baş direktoru Koişiro Matsuuranın səyi və xoşməramlı səfir Mehriban xanım Əliyevanın təşəbbüsü ilə bu proqramın Azərbaycanda həyata keçirilməsi üçün mühüm işlər görülməkdədir. 2008-ci ildə bu proqramla bağlı ölkəmizdə Avropa və Qafqaz regionu üzrə altıncı beynəlxalq konfransın keçirilməsi planlaşdırılmışdır. Azərbaycan XİN-in başçısı qeyd etmişdir ki, dünya mədəniyyətinə öz töhfələrini vermiş ölkəmizdə mədəni irsin qorunmasına xüsusi qayğı ilə yanaşılır. Amma təəssüflər olsun ki, xalqımızın əsrlər boyu yaratdığı və qoruyub saxladığı tarixi və mədəniyyət abidələrinə Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi nəticəsində ciddi zərər dəymişdir. Ermənilər işğal etdikləri ərazilərdə Azərbaycan xalqına məxsus dünya əhəmiyyətli abidə və şah əsərləri, habelə minlərlə mədəniyyət və incəsənət ocağını tamamilə məhv etmişlər. Vaxtilə indiki Ermənistanda yaşamış əhalinin əksəriyyəti azərbaycanlılardan ibarət olmuşdur. Etnik təmizləmə siyasəti aparan ermənilər azərbaycanlıları tarix boyu yaşadıqları ata-baba ocaqlarından silah gücünə zorla qovmuş və xalqımıza məxsus mədəniyyət abidələrini yandıraraq məhv etmişlər.

Sonda nazir Azərbaycanın tarixi abidələrinin tamamilə məhv edilməsinin qarşısını almaq üçün YUNESKO-nu əməli kömək göstərməyə çağırmışdır.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV AVROPA İTTİFAQININ CƏNUBİ QAFQAZ ÜZRƏ XÜSUSİ NÜMAYƏNDƏSİ PİTER SEMNEBİNİN RƏHBƏRLİK ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİNİ QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 18-də Prezident sarayında Avropa İttifaqının Cənubi Qafqaz üzrə xüsusi nümayəndəsi Piter Semnebinin rəhbərlik etdiyi nümayəndə heyətini qəbul etmişdir.

Görüşdə Azərbaycan ilə Avropa İttifaqı arasında əməkdaşlığın hazırkı səviyyəsinə və gələcək perspektivlərinə dair fikir mübadiləsi aparılmışdır.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV TACİKİSTANIN MƏDƏNİYYƏT NAZİRİ MİRZOŞOXRUX ASRAROVUN RƏHBƏRLİK ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİNİ QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 18-də Prezident sarayında Tacikistanın mədəniyyət naziri Mirzoşoxrux Asrorovun rəhbərlik etdiyi nümayəndə heyətini qəbul etmişdir.

Dövlətimizin başçısı bu yaxınlarda Tacikistana səfərini məmnunluqla xatırlatdı. Azərbaycan və Tacikistan prezidentlərinin qarşılıqlı səfərlər zamanı mədəniyyət günlərinin keçirilməsi barədə razılığa gəldiklərini deyən Prezident İlham Əliyev ölkəmizdə Tacikistanın mədəniyyət günlərinin başlanmasının iki ölkə arasında əlaqələrin daha da inkişaf etdirilməsi baxımından böyük əhəmiyyət kəsb etdiyini bildirdi.

Mirzoşoxrux Asrorov ölkəmizə səfəri çərçivəsində iki ölkə rəhbərinin irəli sürdükləri təşəbbüslərin və əldə etdikləri razılıqların həyata keçirilməsi barədə Azərbaycanın mədəniyyət və turizm naziri ilə müzakirələr apardığını bildirdi. O, Azərbaycanda Tacikistanın mədəniyyət günlərinin təşkilinin ölkələrimiz arasında əməkdaşlığın daha da genişləndirilməsinə xidmət etdiyini vurğuladı.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV ATƏT-İN BAŞ KATİBİ MARK PERRİN DE BRİŞAMBONU QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 19-da Prezident sarayında ATƏT-in Baş katibi Mark Perrin de Brişambonu qəbul etmişdir.

Görüşdə Azərbaycan ilə ATƏT arasında əməkdaşlığın müxtəlif sahələrinə dair fikir mübadiləsi aparılmışdır.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV İORDANİYA KRALININ ORTA ASİYA VƏ AZƏRBAYCAN ÜZRƏ XÜSUSİ ELÇİSİ ABDULLA VUREYKƏTİ QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 22-də Prezident sarayında İordaniya Kralının Orta Asiya və Azərbaycan üzrə xüsusi elçisi Abdulla Vureykəti qəbul etmişdir.

Prezident İlham Əliyev Azərbaycan ilə İordaniya arasında ikitərəfli münasibətlərin uğurla inkişaf etdiyini və iki ölkə rəhbərinin qarşılıqlı səfərlərinin bu münasibətlərin genişləndirilməsi işində xüsusi rol oynadığını vurğuladı. İordaniyaya rəsmi səfərini məmnuniyyətlə xatırladan dövlətimizin başçısı Kral II Abdulla ilə görüşləri zamanı çox səmərəli müzakirələr aparıldığını və gələcək əməkdaşlığımızın perspektivlərinin müəyyən edildiyini bildirdi. Prezident İlham Əliyev İordaniya Kralı ilə ölkələrimiz arasında birgə biznes forumun keçirilməsi barədə də razılığa gəldiklərini dedi və əminliklə qeyd etdi ki, belə tədbirlərin keçirilməsi ikitərəfli əlaqələrimizin daha da inkişafı işinə xidmət göstərəcəkdir.

Abdulla Vureykət İordaniya Kralı II Abdullanın salamlarını və Azərbaycanın Müstəqillik günü münasibətilə təbriklərini Prezident İlham Əliyevə çatdıraraq dedi: Zati-aliləri Kral Abdulla Sizi özünün yaxın dostu və qardaşı hesab edir. Ölkələrimiz arasında əlaqələrin uğurla inkişaf etdiyini qeyd edən qonaq yaxın gələcəkdə Əmman-Bakı birbaşa hava yolunun açılması istiqamətində işlərin görüldüyünü bildirdi.

Prezident İlham Əliyev İordaniya Kralının salamlarına görə təşəkkür etdi və onun da salamlarını İordaniyanın dövlət başçısına çatdırmağı xahiş etdi.

AZƏRBAYCAN İLƏ KÜVEYT ARASINDA SİYASİ SAHƏDƏ ƏLAQƏLƏR YÜKSƏK SƏVİYYƏDƏDİR

Xarici İşlər naziri Elmar Məmmədyarov oktyabrın 22-də Küveyt Dövləti Milli Məclisinin Küveyt-Azərbaycan parlamentlərarası dostluq qrupunun üzvləri ilə görüşmüşdür.

Azərbaycan ilə Küveyt arasında əməkdaşlığın yüksək səviyyədə qurulduğunu, parlamentlərarası əlaqələrin də bunun davamı olduğunu bildirən qonaqlar səfərlərindən məqsədin ikitərəfli münasibətlərin inkişaf perspektivlərini öyrənmək niyyətini güddüyünü vurğulamışlar. Nümayəndə heyətinin üzvləri Küveyt maliyyə qurumlarının Azərbaycana sərmayə qoymaq imkanlarından danışmışlar.

Nazir E.Məmmədyarov qarşılıqlı səfərlərin əhəmiyyətinə toxunmuş, siyasi sahədə əlaqələrin yüksək səviyyədə olduğunu diqqətə çatdırmışdır. O, iqtisadi, mədəni sahələrdə də əlaqələrin genişləndirilməsinin zəruriliyini vurğulamışdır.

E.Məmmədyarov Azərbaycan və Küveyt tarixində işğal faktını xatırlatmış, Küveytin öz ərazi bütövlüyünü xalqının iradəsi və beynəlxalq ictimaiyyətin dəstəyi ilə bərpa etdiyi kimi, Azərbaycanın da işğal olunmuş ərazilərini geri qaytaracağını diqqətə çatdırmışdır.

E.Məmmədyarov Azərbaycanın əldə etdiyi iqtisadi uğurlar, ümumi daxili məhsulun (ÜDM) yüksək templə artımı, ölkəmizin həyata keçirdiyi enerji layihələri, qeyri-neft sektorunun inkişafına dair görülən işlər, mövcud investisiya mühitinin əlverişliliyi barədə geniş məlumat vermişdir.

Tərəflər, həmçinin qarşılıqlı şəkildə mədəniyyət günlərinin keçirilməsi və birbaşa hava əlaqəsinin yaradılmasının vacibliyini qeyd etmişlər.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV "SAFARİ" BEYNƏLXALQ OVÇULUQ KLUBUNUN PREZİDENTİ DENİS ANDERSONU QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 23-də Prezident sarayında "Safari" beynəlxalq ovçuluq klubunun prezidenti Denis Andersonu qəbul etmişdir.

Dövlətimizin başçısı Bakı, habelə Azərbaycanın gözəl təbiətə malik olan rayonları ilə tanışlığın Denis Andersonda ölkəmiz haqqında xoş təəssürat yaradacağına əminliyini söylədi.

Denis Anderson Azərbaycana ilk dəfə səfər etdiyini və səfəri çərçivəsində artıq Bakı şəhərinin mədəni-tarixi yerləri ilə tanış olduğunu, eyni zamanda, ölkəmizin digər rayonlarına səfər etməyi planlaşdırdığını dedi. O, "Safari" beynəlxalq ovçuluq klubunun ömürlük üzvlüyünə dair nişanı Prezident İlham Əliyevə təqdim etdi.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV LİTVA SEYMİNİN XARİCİ MƏSƏLƏLƏR DAİMİ KOMİTƏSİNİN SƏDRİ YUSTİNAS KAROSASIN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİNİ QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 23-də Prezident sarayında Litva Seyminin Xarici məsələlər daimi komitəsinin sədri Yustinas Karosasın başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.

Prezident İlham Əliyev Azərbaycan-Litva münasibətlərinin çox uğurla inkişaf etdiyini bildirdi. Litvaya sonuncu səfərlərinin müvəffəqiyyətlə keçdiyini məmnunluqla xatırladan dövlətimizin başçısı ölkələrimiz arasında əlaqələrin daha da genişlənməsi baxımından qarşılıqlı səfərlərin əhəmiyyətini vurğuladı. Azərbaycan Prezidenti ümidvar olduğunu bildirdi ki, Litva Seyminin nümayəndələrinin bu səfəri ölkələrimizin parlamentlərarası əməkdaşlığının daha da inkişafına xidmət edəcəkdir.

Qarşılıqlı səfərləri əlaqələrimizin intensivləşməsinin göstəricisi kimi qiymətləndirən Yustinas Karosas Bakıya səfəri zamanı ölkələrimizin qanunverici orqanları arasında münasibətlərin daha da genişləndirilməsi istiqamətində müzakirələr aparılacağını bildirdi. Qonaq ölkəsinin Azərbaycanın Avropaya inteqrasiyasına və yeni qonşuluq siyasəti çərçivəsində Azərbaycanla əlaqələrə böyük əhəmiyyət verdiyini vurğuladı.

Sonda Litva Seyminin Xarici məsələlər daimi komitəsinin sədri Yustinas Karosas Litva Prezidenti Valdas Adamkusun məktubunu Prezident İlham Əliyevə təqdim etdi.

XARİCİ İŞLƏR NAZİRLİYİNDƏ GÖRÜŞ

Xarici İşlər naziri Elmar Məmmədyarov oktyabrın 25-də ölkəmizdə səfərdə olan Misir-Azərbaycan parlamentlərarası dostluq qrupunun üzvləri ilə görüşmüşdür.

Misirli parlamentarilər səfərdən əsas məqsədin ölkələrimiz arasında siyasi, iqtisadi və humanitar sahələrdə əməkdaşlığın daha da genişləndirilməsi imkanlarını araşdırmaq

olduğunu bildirmişlər. Azərbaycan Prezidentinin cari ilin mayında Misirə səfərinin böyük əhəmiyyətini vurğulayan qonaqlar, Abşeronda "Misir bağı"nın, Misirin Qəlyubiyyə əyalətində isə "Azərbaycan bağı"nın açılması barədə qərarları müsbət qarşılamışlar.

Nazir E.Məmmədyarov ölkələrimiz arasında tarixi əlaqələrin müasir əməkdaşlıq üçün geniş zəmin yaratdığını bildirmiş, beynəlxalq təşkilatlar çərçivəsində əməkdaşlığı vurğulamışdır. Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi haqqında məlumat verən nazir, Misirin Azərbaycanın ərazi bütövlüyünün bərpasına dəstəyini yüksək qiymətləndirmişdir.

Qonaqlar Dağlıq Qarabağ münaqişəsində Azərbaycanın haqlı mövqeyini müdafiə etdiklərini, BMT, İslam Konfransı Təşkilatı və digər qurumların dəstəyi ilə Azərbaycanın işğal olunmuş ərazilərdə legitim hüquqlarını bərpa edəcəyinə əmin olduqlarını bildirmişlər.

Eyni zamanda, qonaqlar Şarm-əl Şeyx, İsgəndəriyyə və ya hər hansı başqa şəhərdə Azərbaycanın konsulluğunun açılmasını təklif edərək, bunun ölkələrimiz arasında iqtisadi və turizm əlaqələrinin də genişlənməsinə şərait yaradacağını söyləmişlər.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV ATƏT-İN MİNSK QRUPUNUN HƏMSƏDRLƏRİNİ QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 26-da Prezident sarayında ATƏT-in Minsk qrupunun fransalı həmsədri Bernar Fasyeni, rusiyalı həmsədri Yuri Merzlyakovu, amerikalı həmsədri Mətyu Brayzəni və ATƏT-in hazırkı sədrinin xüsusi nümayəndəsi Anji Kaspşiki qəbul etmişdir.

Görüşdə Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həllinə dair aparılan danışıqlarla bağlı məsələlər müzakirə edilmişdir.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV LİTVANIN SOSİAL MÜDAFİƏ VƏ ƏMƏK NAZİRİ VİLİYA BLİNKYAVİÇYUTENİN RƏHBƏRLİK ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİNİ QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 26-da Prezident sarayında Litvanın sosial müdafiə və əmək naziri Viliya Blinkyaviçyutenin rəhbərlik etdiyi nümayəndə heyətini qəbul etmişdir.

Dövlətimizin başçısı son zamanlar iki ölkə arasında müxtəlif səviyyələrdə əlaqələrin intensivləşməsindən məmnunluğunu söylədi, bunun bütün sahələr üzrə əməkdaşlığımızın daha sıx əlaqələndirilməsinə xidmət etdiyini bildirdi. Prezident İlham Əliyev Azərbaycan və Litva gəncləri arasında da əlaqələrin genişləndirilməsinin əhəmiyyətini vurğuladı.

Viliya Blinkyaviçyute ölkələrimiz arasında çox fəal əməkdaşlığın həyata keçirildiyini dedi.

Azərbaycan Prezidentinin bir ay ərzində iki dəfə Litvaya səfər etməsinin əhəmiyyətini

vurğulayan nazir bunun ikitərəfli münasibətlərimizin inkişafına xüsusi təkan verdiyini bildirdi.

O, iki ölkə gəncləri arasında da əlaqələrin qurulması və inkişaf etdirilməsinin Litva ilə Azərbaycan arasında əməkdaşlığın daha da möhkəmlənməsinə töhfə verəcəyinə əminliyini söylədi.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV BP QRUPUNUN KƏŞFİYYAT VƏ HASİLAT İŞLƏRİ ÜZRƏ BAŞ İCRAÇI DİREKTORU ENDRÜ İNQLİSİ QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 29-da Prezident sarayında bp qrupunun kəşfiyyat və hasilat işləri üzrə baş icraçı direktoru Endrü İnqlisi qəbul etmişdir.

Endrü İnqlis təmsil etdiyi şirkət ilə Azərbaycan arasında əməkdaşlığın uğurla həyata keçirildiyini bildirdi. O, "Şahdəniz" yatağında görülən işlər barədə dövlətimizin başçısına məlumat verərək, bu layihə üzrə hasilatın Azərbaycanın gələcək iqtisadi inkişafında mühüm rol oynayacağını dedi.

Prezident İlham Əliyev uzun illər ərzində Azərbaycan ilə bp şirkəti arasında uğurlu əməkdaşlığın bundan sonra da müvəffəqiyyətlə davam etdiriləcəyinə əminliyini vurğuladı. "Şahdəniz" yatağında görülən işlərdən məmnunluğunu bildirdi.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV ESTONİYANIN XARİCİ İŞLƏR NAZİRİ URMAS PAETİN RƏHBƏRLİK ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİNİ QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 29-da Prezident sarayında Estoniyanın xarici işlər naziri Urmas Paetin rəhbərlik etdiyi nümayəndə heyətini qəbul etmişdir.

Dövlətimizin başçısı bu səfərin ikitərəfli münasibətlərimizin inkişafına dair müzakirələrin aparılması üçün yaxşı imkan yaratdığını bildirdi. O, siyasi və iqtisadi sahələrdə əlaqələrimizin daha da fəallaşdırılmasının zəruri olduğunu dedi. Prezident İlham Əliyev Estoniya nümayəndə heyətinin Azərbaycana səfərinin ölkələrimiz arasında əlaqələrin gələcək inkişafı istiqamətində mühüm addım olacağına ümid etdiyini bildirdi.

Urmas Paet Azərbaycana ilk dəfə səfər etməsindən məmnunluğunu söylədi və səfərinin səmərəli olacağına əminliyini bildirdi. Nazir Estoniya ilə Azərbaycan arasında siyasi münasibətlərin yaxşı səviyyədə olduğunu, bununla yanaşı bu sahədə əlaqələrimizin daha da intensivləşdirilməsinin vacibliyini qeyd etdi. Urmas Paet səfər zamanı onu estoniyalı iş adamlarının böyük bir qrupunun müşayiət etdiyini bildirdi, səfərinin məqsədinin müxtəlif sahələrdə əməkdaşlığımızın inkişafına töhfə vermək olduğunu vurğuladı.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV İRANIN VİTSE-PREZİDENTİ, MİLLİ GƏNCLƏR TƏŞKİLATININ SƏDRİ HÖCCƏTÜLİSLAM ƏLİ ƏKBƏRİNİN RƏHBƏRLİK ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİNİ QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 30-da Prezident sarayında İran İslam Respublikasının vitse-prezidenti, Milli Gənclər Təşkilatının sədri höccətülislam Əli Əkbərinin rəhbərlik etdiyi nümayəndə heyətini qəbul etmişdir.

Prezident İlham Əliyev Azərbaycanla İran arasında bütün sahələrdə münasibətlərin uğurla inkişaf etdiyini vurğuladı və hər iki ölkənin gənclər siyasəti istiqamətində də əməkdaşlığın inkişafının zəruriliyini qeyd etdi. Dövlətimizin başçısı əmin olduğunu bildirdi ki, İran nümayəndə heyətinin ölkəmizdə keçiriləcək "Gənclər Sivilizasiyaların Alyansı uğrunda" Beynəlxalq təşəbbüs, nəsillərarası yüksək səviyyəli konfransda iştirakı tədbirə öz töhfəsini verəcəkdir. Prezident İlham Əliyev qarşılıqlı səfərlərin əlaqələrimizin daha da genişləndirilməsi baxımından əhəmiyyətini vurğuladı.

Höccətülislam Əli Əkbəri ölkələrimiz arasında dostluq münasibətlərinin uğurla inkişaf etdiyini bildirdi. Azərbaycanda səfərdə olmasından və Bakıda keçiriləcək konfransda iştirak etməsindən məmnunluğunu ifadə edən qonaq belə yüksək səviyyəli beynəlxalq tədbirlərin reallaşmasına göstərdiyi diqqətə görə Prezident İlham Əliyevə minnətdarlıq etdi.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV AVROPA YENİDƏNQURMA VƏ İNKİŞAF BANKININ BİRİNCİ VİTSE-PREZİDENTİ VAREL FRİMANIN RƏHBƏRLİK ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİNİ QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 31-də Prezident sarayında Avropa Yenidənqurma və İnkişaf Bankının birinci vitse-prezidenti Varel Frimanın rəhbərlik etdiyi nümayəndə heyətini qəbul etmişdir.

Dövlətimizin başçısı Avropa Yenidənqurma və İnkişaf Bankı ilə tərəfdaşlığın səviyyəsindən məmnunluğunu ifadə etdi. Bankın prezidenti ilə keçirdiyi görüşləri xatırladan Prezident İlham Əliyev dedi: "Bizim Azərbaycanda və başqa ölkələrdə keçirilmiş beynəlxalq tədbirlər çərçivəsində çox görüşlərimiz olmuşdur. Bu görüşlər zamanı səmərəli müzakirələr aparılmış və bu müzakirələrin nəticəsi olaraq ölkəmizdə praktik layihələr həyata keçirilmişdir". Dövlətimizin başçısı ölkəmiz ilə Avropa Yenidənqurma və İnkişaf Bankı arasında əməkdaşlığın bundan sonra da genişlənəcəyinə ümidvar olduğunu bildirdi.

Varel Friman Avropa Yenidənqurma və İnkişaf Bankının prezidenti Jan Lemyerin salamlarını Prezident İlham Əliyevə çatdırdı. O, təmsil etdiyi qurum ilə Azərbaycan arasında əməkdaşlığın uğurla həyata keçirildiyini qeyd etdi. Varel Friman Avropa Yenidənqurma və İnkişaf Bankının məqsədinin Azərbaycan ilə tərəfdaşlığı davam etdirmək və ölkədə gedən çox mühüm dəyişikliklərə və inkişaf proseslərinə dəstək vermək olduğunu vurğuladı.

AZƏRBAYCAN DİPLOMATİK AKADEMİYASI İLƏ NORVEÇ XARİCİ İŞLƏR NAZİRLİYİ ARASINDA ƏMƏKDAŞLIQ HAQQINDA SAZİŞ İMZALANMIŞDIR

Oktyabrın 31-də Xarici İşlər Nazirliyinin (XİN) Diplomatik Akademiyası ilə Norveç Krallığının Xarici İşlər Nazirliyi arasında əməkdaşlıq haqqında saziş imzalanmışdır.

Sənədi xarici işlər nazirinin müavini, akademiyanın rektoru Hafiz Paşayev və Norveçin ölkəmizdəki səfiri Yon Ramberq imzalamışlar.

Sazişə əsasən, tərəflər iki əsas proqram həyata keçirəcəklər. Birinci proqram aşağı və orta səviyyəli 60 diplomat üçün nəzərdə tutulmuş dörd moduldan ibarətdir. Hazırda birinci modul - nitq və hesabatların hazırlanması mövzusunda təlimlər keçirilir. Digər modullar üzrə təlimlər Avropa İttifaqı, sülh araşdırmaları və skandinaviyaşünaslıq mövzularında aparılacaqdır. Proqram 2008-ci ilin mayınadək davam edəcəkdir.

İkinci proqram isə XİN-in və digər dövlət qurumlarının rəhbər şəxsləri üçün nəzərdə tutulmuşdur. Dörd moduldan ibarət "Liderlik qabiliyyətinin artırılması" proqramının ilk üç modulu Bakıda, sonuncusu isə Norveçdə keçiriləcəkdir.

Norveçin Azərbaycandakı səfiri Yon Ramberq təmsil etdiyi ölkənin Diplomatik Akademiya tərəfindən tərəfdaş seçilməsindən məmnun olduğunu bildirmişdir.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV İSESKO-NUN BAŞ DİREKTORU ƏBDÜLƏZİZ BİN OSMAN ƏL-TÜVEYCRİNİ QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev noyabrın 1-də Prezident sarayında İSESKO-nun baş direktoru Əbdüləziz bin Osman əl-Tüveycrini qəbul etmişdir.

Əbdüləziz bin Osman əl-Tüveycri Azərbaycan Respublikasının İSESKO-nun fəaliyyətinə göstərdiyi dəstəyə görə Prezident İlham Əliyevə minnətdarlığını bildirdi. O, ölkəmiz ilə rəhbərlik etdiyi təşkilat arasında münasibətlərin nümunəvi xarakter daşıdığını vurğuladı.

Dövlətimizin başçısı İSESKO ilə əlaqələrin səviyyəsindən məmnunluğunu ifadə etdi. "Gənclər sivilizasiyaların alyansı naminə" beynəlxalq konfransın əhəmiyyətinə toxunan Prezident İlham Əliyev İSESKO-nun baş direktorunun bu tədbirdə iştirakını yüksək qiymətləndirdi.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV PORTUQALİYANIN SABİQ PREZİDENTİ, BMT BAŞ KATİBİNİN SİVİLİZASİYALARIN İTTİFAQINDA YÜKSƏK NÜMAYƏNDƏSİ JORJ DE SAMPAYONU QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev noyabrın 1-də Prezident sarayında Portuqaliyanın sabiq prezidenti, BMT baş katibinin Sivilizasiyaların İttifaqında yüksək nümayəndəsi Jorj de Sampayonu qəbul etmişdir.

Dövlətimizin başçısı "Gənclər sivilizasiyaların alyansı naminə" beynəlxalq konfransın

Bakı şəhərində keçirilməsinin əhəmiyyətini vurğuladı və BMT baş katibinin nümayəndəsinin bu tədbirdə iştirakını yüksək qiymətləndirdi.

Jorj de Sampayo Prezident İlham Əliyev ilə keçən il İstanbulda olmuş görüşünü məmnuniyyətlə xatırladı.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV İSLAM KONFRANSI GƏNCLƏR FORUMUNUN NÜMAYƏNDƏ HEYƏTİNİ QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev noyabrın 1-də Prezident sarayında İslam Konfransı Gənclər Forumunun nümayəndə heyətini qəbul etmişdir.

Dövlətimizin başçısı Bakıda "Gənclər sivilizasiyaların alyansı naminə" beynəlxalq konfransın uğurla keçməsindən məmnunluğunu ifadə etdi. Prezident İlham Əliyev konfransın əhatə etdiyi mövzunun və edilən çıxışların əhəmiyyətinə toxundu.

Forumun idarə heyətinin sədri Əli Sarıqaya "Gənclər sivilizasiyaların alyansı naminə" beynəlxalq konfransın Azərbaycanda keçirilməsinin böyük önəm kəsb etdiyini bildirdi. O, Prezident İlham Əliyevin İslam Konfransı Gənclər Forumunun fəaliyyətinə dəstəyinin Forumun əldə etdiyi uğurlarda xüsusi əhəmiyyət daşıdığını vurğuladı.

ÇEXİYA AZƏRBAYCAN İLƏ ƏLAQƏLƏRİN İNKİŞAFINDA MARAQLIDIR

Noyabrın 1-də xarici işlər naziri Elmar Məmmədyarov Bakıda səfərdə olan Çexiya xarici işlər nazirinin müavini Tomaş Poyar ilə görüşmüşdür.

Qonaq demişdir ki, Azərbaycana səfərdən məqsəd ikitərəfli əlaqələrin yeni müstəviyə qaldırılması, əlaqələrin möhkəmlənməsi üçün hüquqi-normativ bazanın təkmilləşdirilməsi, birbaşa hava əlaqələrinin bərpası, viza rejiminin sadələşdirilməsi, iqtisadi əməkdaşlıq üzrə birgə komissiyanın yaradılması barədə fikir mübadiləsi aparmaq, əməkdaşlığın perspektivlərini öyrənməkdir.

E.Məmmədyarov qarşılıqlı səfərlərin vacibliyindən danışmış, Azərbaycanın ikitərəfli əlaqələrin inkişafına böyük əhəmiyyət verdiyini, əməkdaşlıq üçün hüquqi-normativ bazanın möhkəmləndirilməsi fikri ilə razılaşdığını bildirmişdir. Nazir demişdir ki, qarşılıqlı münasibətlərdə iqtisadi, enerji məsələləri ilə yanaşı, ticarət dövriyyəsinin artırılması, qeyri-neft sektorunun inkişafı, mədəni-humanitar sahələrdə əlaqələrin dərinləşdirilməsi olduqca vacibdir.

Çexiyanın Avropa İttifaqında sədrliyi dövründə Avropa Qonşuluq Siyasətinin şərq istiqamətini prioritet saymasını müsbət hal kimi qiymətləndirən E.Məmmədyarov Avropa İttifaqında "GUAM dostları" qrupunun yaradılması ideyasının irəli sürüldüyünü diqqətə çatdırmışdır.

Qonaq ölkəsində Azərbaycana böyük maraq olduğunu, siyasi əlaqələrlə yanaşı, iş adamları arasında qarşılıqlı ünsiyyətin qurulmasının vacibliyini qeyd etmişdir.

LATVİYA AZƏRBAYCANLA ƏMƏKDAŞLIĞIN İNKİŞAFINA BÖYÜK ÖNƏM VERİR

Noyabrın 1-də Azərbaycanın xarici işlər naziri Elmar Məmmədyarov Latviya Dövlət Katibinin müavini Edqars Skuya ilə görüşmüşdür.

XİN-in mətbuat xidmətindən bildirmişlər ki, Edqars Skuya ölkəsinin Azərbaycanla əməkdaşlığın inkişafına böyük önəm verdiyini bildirmiş, qarşılıqlı səfərlərin əhəmiyyətindən danışmışdır. O demişdir ki, ölkələrimiz arasında iqtisadi əlaqələrin, ticarət dövriyyəsinin xeyli genişlənməsi hazırkı durumda qarşıya yeni prioritetlər qoyur.

Bildirilmişdir ki, Latviya Azərbaycanın Avratlantik strukturlara inteqrasiyasını, Avropa İttifaqında "GUAM dostları" qrupunun yaradılması və bu tərəfdaşlığı inkişaf etdirmək üçün birgə layihələrin həyata keçirilməsini tam dəstəkləyir.

E.Məmmədyarov qloballaşma dövründə sivilizasiyalararası dialoqun vacibliyini, beynəlxalq müstəvidə yaranmış yeni təhdidlərə qarşı birgə əməkdaşlığın əhəmiyyətini vurğulamış, Azərbaycanın bu baxımdan beynəlxalq əməkdaşlıqda fəal iştirak etdiyini bildirmişdir.

Baltikyanı ölkələr, o cümlədən Latviya ilə əlaqələrin genişləndiyini deyən nazir, Azərbaycanın həm tranzit ölkə, həm də enerji daşıyıcılarının əlavə təchizatçısı kimi region üçün vacibliyini qeyd etmişdir. Xarici siyasət idarəsinin başçısı ikitərəfli münasibətlərdə geniş potensialın olduğunu, humanitar, parlamentlərarası əməkdaşlığın daha da inkişaf etdirilməsinin əhəmiyyətindən danışmışdır.

Görüşdə qarşılıqlı maraq doğuran məsələlər ətrafında geniş fikir mübadiləsi aparılmışdır.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV İSVEÇRƏ KONFEDERASİYASI MİLLİ ŞURASININ SƏDRİ KRİSTİN EGERSZEGİ-OBRİSTİ QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev noyabrın 2-də Prezident sarayında İsveçrə Konfederasiyası Milli Şurasının sədri Kristin Egerszegi-Obristi qəbul etmişdir.

Kristin Egerszegi-Obrist Prezident İlham Əliyev ilə görüşməkdən məmnun olduğunu bildirdi. O, bu səfərin İsveçrədə Azərbaycan haqqında daha geniş məlumatın əldə olunması baxımından əhəmiyyətini vurğuladı.

Dövlətimizin başçısı bu il Davosa səfəri zamanı İsveçrənin Prezidenti ilə görüşdüyünü və görüş zamanı səmərəli müzakirələr apardıqlarını qeyd etdi. Prezident İlham Əliyev Azərbaycan ilə İsveçrə arasında müxtəlif sahələrdə ikitərəfli münasibətlərin inkişaf etdirilməsi üçün yaxşı imkanların olduğunu bildirdi.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV LİXTENŞTEYNİN ƏTRAF MÜHİT, KƏND VƏ MEŞƏ TƏSƏRRÜFATI NAZİRİ HÜQO KVADERERİ QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev noyabrın 2-də Prezident sarayında Lixtenşteynin ətraf mühit, kənd və meşə təsərrüfatı naziri Hüqo Kvadereri qəbul etmişdir.

Hüqo Kvaderer ölkəmizə səfərindən məmnunluğunu ifadə etdi və səfər çərçivəsində Azərbaycanın rayonlarına baş çəkdiyini bildirdi. O, ölkəsinin Azərbaycan ilə əlaqələrin inkişafında maraqlı olduğunu qeyd etdi.

Lixtenşteynin nümayəndə heyətinin Azərbaycana ilk dəfə səfər etdiyini bildirən Prezident İlham Əliyev bu səfərin iki ölkə arasında səmərəli əməkdaşlığa təkan verəcəyinə ümidvar olduğunu vurğuladı.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV ABŞ DÖVLƏT KATİBİNİN AVROPA VƏ AVRASİYA MƏSƏLƏLƏRİ ÜZRƏ MÜAVİNİ DANİEL FRİDİ QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev noyabrın 3-də Prezident sarayında ABŞ dövlət katibinin Avropa və Avrasiya məsələləri üzrə müavini Daniel Fridi qəbul etmişdir.

Dövlətimizin başçısı bu səfərin ölkələrimiz arasında əlaqələrin, regionda vəziyyətin və digər qarşılıqlı maraq doğuran mühüm məsələlərin müzakirə olunması üçün yaxşı imkan yaratdığını qeyd etdi. Prezident İlham Əliyev Azərbaycan-ABŞ ikitərəfli münasibətlərinin müxtəlif sahələrdə uğurla inkişaf etdiyini vurğuladı.

Daniel Frid yenidən ölkəmizə səfər etməsindən məmnun olduğunu bildirərək dedi: "Azərbaycan ABŞ və region üçün mühüm ölkədir". O, ölkəsinin Azərbaycanı güclü, azad, dünyanın mürəkkəb bölgəsində öz seçdiyi yol ilə irəliləyən bir ölkə kimi görməkdə maraqlı olduğunu bildirdi.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV ABŞ-IN "SÜLH KORPUSU" TƏŞKİLATININ DİREKTORU RONALD TŞETTERİN RƏHBƏRLİK ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİNİ QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev noyabrın 5-də Prezident sarayında ABŞ-ın "Sülh korpusu" təşkilatının direktoru Ronald Tşetterin rəhbərlik etdiyi nümayəndə heyətini qəbul etmişdir.

Ronald Tşetter Azərbaycana səfəri çərçivəsində Xaçmaz, Siyəzən və Şamaxı rayonlarında olduqlarını bildirdi. Ölkəmizdə fəaliyyətə 2003-cü ildən ingilis dilinin tədrisi ilə başladıqlarını deyən qonaq hazırda iqtisadi inkişaf, kiçik sahibkarlıq və gənclər proqramlarının həyata keçirilməsində iştirak etdiklərini dedi. R.Tşetter rəhbərlik etdiyi təşkilatın gələcək fəaliyyət planları barədə Prezident İlham Əliyevə məlumat verdi.

Dövlətimizin başçısı təşkilatın fəaliyyətinin Azərbaycanda geniş əhatə dairəsinə malik olmasını yaxşı hal kimi qiymətləndirdi. Prezident İlham Əliyev "Sülh korpusu" təşkilatının bundan sonra da ölkəmizdə uğurla fəaliyyət göstərəcəyinə ümidvar olduğunu bildirdi.

TÜRKİYƏ RESPUBLİKASININ PREZİDENTİ ABDULLAH GÜLÜN AZƏRBAYCANA RƏSMİ SƏFƏRİ

Noyabrın 6-da Türkiyə Respublikasının Prezidenti Abdullah Gül Azərbaycana üçgünlük rəsmi səfərə gəlmişdir.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN VƏ TÜRKİYƏ PREZİDENTİ ABDULLAH GÜLÜN TƏKBƏTƏK GÖRÜŞÜ

Noyabrın 6-da Prezident sarayında rəsmi qarşılanma mərasimindən sonra Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və Türkiyə Respublikasının Prezidenti Abdullah Gülün təkbətək görüşü olmuşdur.

Görüşdə Azərbaycan ilə Türkiyə arasında dost və qardaş münasibətlərin bütün sahələrdə uğurla inkişaf etdiyi, ölkələrimizin beynəlxalq təşkilatlar çərçivəsində əməkdaşlığının daim genişləndiyi vurğulandı. Azərbaycan və Türkiyə tərəfindən həyata keçirilən qlobal enerji layihələrinin ölkələrimiz və xalqlarımızın rifah halının daha da yaxşılaşdırılması, habelə bölgədə sülh və sabitliyin təmin olunmasına xidmət edəcəyi bildirildi.

Dövlət başçıları ikitərəfli münasibətlərə, regional və beynəlxalq məsələlərə dair fikir mübadiləsi apardılar.

DÖVLƏT BAŞÇILARININ GENİŞ TƏRKİBDƏ GÖRÜŞÜ

Noyabrın 6-da Prezident sarayında Azərbaycan Prezidenti İlham Əliyevin və Türkiyə Prezidenti Abdullah Gülün nümayəndə heyətlərinin iştirakı ilə geniş tərkibdə görüşü olmuşdur.

Prezident İLHAM ƏLİYEV görüşü açaraq dedi:

- Hörmətli cənab Prezident!

Hörmətli qonaqlar!

Mən sizi Azərbaycanda ürəkdən salamlayıram, xoş gəlmisiniz!

Sizin Azərbaycana rəsmi səfərinizə çox böyük əhəmiyyət veririk. Mən əminəm ki, bu səfər və onun nəticələri iki ölkə arasında mövcud olan dostluq, qardaşlıq münasibətlərinin inkişafında çox böyük rol oynayacaqdır. Biz çox şadıq ki, Cümhurbaşqanı kimi Siz ilk rəsmi səfərinizi Azərbaycana etmisiniz. Bu bizi çox məmnun edir və bir daha onu göstərir ki, bizim münasibətlərimiz qardaşlıq, dostluq münasibətləridir və Türkiyə ilə Azərbaycan həmişə olduğu kimi, bundan sonra da ən yaxın müttəfiqlər kimi öz aralarında olan münasibətlərin bütün sahələrinin inkişafında fəal çalışacaqlar.

Bu gün biz Sizinlə həmişə olduğu kimi, çox geniş söhbət apardıq və ikitərəfli münasibətlərin bütün aspektləri müzakirə olundu. Əminəm ki, səfəriniz və səfər çərçivəsində aparılan danışıqlar, imzalanacaq sənədlər həm siyasi, həm iqtisadi, həm də bütün başqa sahələrdə əlaqələrimizi daha da yüksək pilləyə qaldıracaqdır. Doğma vətəninizə bir daha xoş gəlmisiniz. Əminəm ki, səfəriniz çox uğurlu keçəcəkdir.

Sonra Türkiyə Prezidenti ABDULLAH GÜL çıxış edərək dedi:

-Hörmətli Cümhurbaşqanı!

Hörmətli nazirlər!

Hörmətli dostlar!

Bu gün Azərbaycanda, Bakıda olmaqdan böyük bir sevinc və məmnuniyyət duyuram. Buraya nazir dostlarım və çox sayda türk iş adamı ilə bərabər gəlmişik. Azərbaycanın böyük öndəri rəhmətlik Heydər Əliyevin dediyi kimi "Biz bir millət, iki dövlətik", yəni, biz ayrı bir qardaş dövlətə gəlmişik. Bakını, Azərbaycanı biz belə görürük.

Müstəqilliyə qovuşduğunuzdan bu günədək əlaqələrimiz, işbirliyimiz çox yüksək səviyyəyə çatmışdır. Bu səfərimin müstəqilliyinizin ildönümünə təsadüf etməsi də çox önəmlidir. Bu müddət ərzində Azərbaycanın çox böyük yol qət etdiyinin şahidi olanlardan biriyəm. Buraya hər gəlişimdə Bakının necə dəyişdiyini, Azərbaycanın necə dəyişdiyini gözlərimizlə görməkdən bir qürur və məmnunluq duyuruq. Əminəm ki, bu səfərimiz də əlaqələrimizə yeni rəng qatacaqdır. Həm iki ölkənin əlaqələrinin, həm də bölgəmizin məsələlərinin müzakirəsi baxımından önəmli bir fürsət olacaqdır.

Cümhurbaşqanı seçildikdən sonra məni təbrik etdiniz və səfərə dəvət etdiniz. Mən də bu dəvəti qəbul edərək, ilk səfərimi Azərbaycana etməkdən məmnun oluram. Bunun əlaqələrimizin sadəcə sözdə deyil, dostluğumuzun sadəcə dildə deyil, qəlbimizdə və içimizdə olduğunu göstərmək baxımından da bir nümunə olduğunu düşünürəm. Bizə göstərdiyiniz səmimiyyətə görə çox təşəkkür edirəm.

SƏNƏDLƏRİN İMZALANMA MƏRASİMİ

Noyabrın 6-da Prezident sarayında Azərbaycan Prezidenti İlham Əliyevin və Türkiyə Prezidenti Abdullah Gülün geniş tərkibdə görüşündən sonra Azərbaycan-Türkiyə sənədlərinin imzalanması mərasimi olmuşdur.

Azərbaycan Prezidenti İlham Əliyev və Türkiyə Prezidenti Abdullah Gül strateji tərəfdaşlıq haqqında Birgə Bəyannaməni imzaladılar.

"Azərbaycan Respublikası Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi və Türkiyə Respublikası Qadın və Ailə Məsələləri üzrə Dövlət Nazirliyi arasında əməkdaşlıq haqqında memorandum"u Azərbaycan tərəfdən Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin sədri Hicran Hüseynova, Türkiyə tərəfdən dövlət naziri xanım Nimet Çubukçu, "Azərbaycan Respublikası Hökuməti və Türkiyə Respublikası Hökuməti arasında gənclərlə iş və idman sahəsində əməkdaşlıq haqqında saziş"i Azərbaycan tərəfdən xarici işlər naziri Elmar Məmmədyarov, Türkiyə tərəfdən dövlət naziri Nimet Çubukçu imzaladılar. "Azərbaycan Respublikası Hökuməti və Türkiyə Respublikası Hökuməti arasında tərəfdaşlıq və əməkdaşlıq haqqında saziş"i və "Azərbaycan Respublikası ilə Türkiyə Respublikası arasında uzunmüddətli ticarət və iqtisadi əməkdaşlıq proqramı və İcra planı"nı Azərbaycan tərəfdən Baş nazirin müavini Abid Şərifov, Türkiyə tərəfdən dövlət naziri Kürşat Tüzmən imzaladılar.

DÖVLƏT BAŞÇILARININ BİRGƏ MƏTBUAT KONFRANSI

Noyabrın 6-da Prezident sarayında sənədlərin imzalanması mərasimi başa çatdıqdan sonra Azərbaycan Prezidenti İlham Əliyevin və Türkiyə Prezidenti Abdullah Gülün birgə mətbuat konfransı keçirilmişdir.

Dövlət başçıları əvvəlcə bəyanatlarla çıxış etdilər.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN BƏYANATI

- Hörmətli cənab Prezident, əziz qardaşım!

Hörmətli qonaqlar!

Hörmətli xanımlar və cənablar!

Mən Türkiyə Cümhuriyyətinin Cümhurbaşqanı, əziz qardaşım Abdullah Gülü Azərbaycanda bir daha ürəkdən salamlayıram, "Azərbaycana xoş gəlmisiniz!" deyirəm!

Biz bu gün çox geniş fikir mübadiləsi, çox geniş danışıqlar apardıq və bir daha gördük ki, Türkiyə və Azərbaycan arasında mövcud olan dostluq, qardaşlıq əlaqələri ən yüksək zirvədədir. Cənab Prezident, biz çox məmnunuq və çox şadıq ki, Siz ilk rəsmi səfərinizi Azərbaycana edirsiniz. Bunun çox böyük mənası var. Bu bir daha onu göstərir ki, bizim ölkələrimiz bir-birinə nə qədər bağlıdır. Bizim aramızda həm siyasi, həm iqtisadi, həm də mədəni sahələrdə – bütün sahələrdə çox yüksək əməkdaşlıq səviyyəsi vardır. Biz ikitərəfli münasibətlərin inkişafı, siyasi əlaqələrin möhkəmləndirilməsi üçün lazımi tədbirləri görürük. Bölgədə gedən proseslərə vahid mövqedən yanaşırıq, bu da çox vacibdir. Çünki bizim bölgəmizdə baş verən hadisələr ölkələrimiz üçün böyük əhəmiyyət kəsb edir. Bizim vahid mövqeyimiz ölkələrimizi gücləndirir və xarici siyasətdə mövcud olan koordinasiya, əlbəttə ki, Türkiyə və Azərbaycan arasındakı əlaqələri də möhkəmləndirir.

İqtisadi sahədə böyük nəticələr vardır. Ancaq əminəm ki, gələcəkdə daha da böyük nəticələr əldə olunacaqdır. Sabah keçiriləcək Türkiyə-Azərbaycan biznes forumunun bu işdə çox böyük rolu vardır. Mən bilirəm ki, Sizinlə bərabər Azərbaycana çox böyük iş adamı heyəti gəlmişdir. Bu da bizi çox sevindirir. Çünki bu, imkan verəcək ki, gələcək illərdə iş adamları arasında əməkdaşlığı daha da irəliyə aparaq və iqtisadi layihələrin həyata keçirilməsi ölkələrimizə böyük fayda gətirəcəkdir.

Bizim aramızda energetika sahəsində çox gözəl əməkdaşlıq var və bunun çox gözəl nəticələri vardır. Biz birlikdə tarixi layihələri həyata keçirmişik. Neft-qaz layihələrinin həyata keçirilməsi çox böyük nailiyyətdir və Azərbaycanın müstəqilliyini möhkəmləndirən amildir, ölkəmizin bundan sonra da uzun illər uğurlu inkişafının təminatçısıdır. Bu işlərdə Türkiyə və Azərbaycan rəhbərliklərinin, hökumətlərinin birgə fəaliyyəti bizə imkan verir ki, çox çətin anlarda qarşıda duran bütün vəzifələri şərəflə icra edək.

Mən əminəm ki, gələcək illərdə bizim əməkdaşlığımız ancaq və ancaq artacaqdır. Xalqlarımız arasında olan qardaşlıq münasibətləri, dövlətlərimiz arasında əlaqələr və türk dünyasının iki böyük şəxsiyyətinin bizə vəsiyyət etdiyi siyasət bunu deməyə əsas verir. Böyük öndər Mustafa Kamal Atatürk demişdir ki, "Azərbaycanın kədəri bizim kədərimizdir, Azərbaycanın sevinci bizim sevincimizdir". Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyev demişdir ki, "Türkiyə-Azərbaycan bir millət, iki dövlətdir". Bu kəlamlar bizim gələcək əməkdaşlığımızın çərçivələrini müəyyən edir. Mən şübhə etmirəm ki, ölkələrimiz bu bölgədə gedən proseslərə gələcəkdə daha da böyük təsir göstərəcəkdir.

Azərbaycan son 16 il ərzində müstəqil ölkə kimi inkişaf etmişdir. Dünyada və bölgədə özünəməxsus yerini tuta bilmişdir. Artıq Azərbaycanın təşəbbüsü ilə həyata keçirilən layihələr və atılan addımlar bölgədə sülhə, təhlükəsizliyə, əməkdaşlığın inkişafına öz mühüm töhfəsini verir. Türkiyə bizim ən böyük müttəfiqimizdir, ən böyük dostumuzdur və Azərbaycan həmişə Türkiyə Cümhuriyyətinin dəstəyinə arxalanaraq, öz dövlət müstəqilliyini möhkəmləndiribdir. Bu gün Azərbaycanın dövlət müstəqilliyi sarsılmazdır, əbədidir və dönməzdir.

Biz xalqlarımızın və ölkələrimizin üzləşdiyi bütün məsələlərdə bir-birimizə dəstəyimizi davam etdiririk. Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həllində Türkiyənin rolu çox müsbətdir. Həmişə Azərbaycanın haqlı mövqeyini, ədalətli mövqeyini dəstəkləmişdir və işğalçı qüvvələrin Azərbaycan torpaqlarından çıxarılması üçün öz səylərini göstərmişdir. Biz bu gün də bu dəstəyi hiss edirik və bu, bizə əlavə güc verir. Eyni zamanda, Azərbaycan da bütün dövrlərdə Türkiyənin haqq işini dəstəkləmişdir. Biz erməni lobbisinin və Ermənistanın Türkiyəyə qarşı əsassız ittihamlarını qətiyyətlə pisləyirik.

Bu yaxınlarda Amerika Konqresinin Xarici əlaqələr komitəsində keçirilən müzakirələrə və qəbul edilmiş ədalətsiz qərara biz öz etirazımızı bildirmişik və bu gün də bunu bildiririk. Hesab edirik ki, Türkiyəyə qarşı əsassız ittihamlara son qoyulmalıdır. Bunların nə tarixi əsası, nə də siyasi əhəmiyyəti var. Bütün başqa məsələlərdə, Kipr məsələsində, Şimali Kiprin təcridolunma vəziyyətindən çıxarılması işində Azərbaycan öz dəstəyini göstərmişdir və göstərəcəkdir. Bu məsələ ədalətli şəkildə həll olunmalıdır. Birləşmiş Millətlər Təşkilatının təklifləri əsasında öz həllini tapmalıdır.

Biz Türkiyənin terrora qarşı mübarizəsini, PKK terrorçu təşkilatına qarşı bütün əməliyyatlarını dəstəkləyirik və həmişə Türkiyənin yanında olacağıq. Bu, bizim mövqeyimizdir. Bu mövqe qardaşlıq duyğuları əsasında formalaşıbdır. Bununla bərabər, indiki zamanda Türkiyə və Azərbaycan, iki qardaş müstəqil ölkə bir-birini dəstəkləməklə həm də hər biri öz ölkəsini dəstəkləmiş olur. Bölgədə sülhün, təhlükəsizliyin bərqərar olunmasını təmin edir. Bizim işimiz haqq işidir və bütün işlərdə ədalətin tərəfdarıyıq, normal davranışın, bölgədə sülhün tərəfdarıyıq. Biz sülhsevər siyasət aparırıq, ancaq eyni zamanda, bizə qarşı edilən bütün hərəkətlərə öz cavabımızı verəcəyik.

Bu səfər çərçivəsində aparılan danışıqlar, imzalanan sənədlər və sabah davam etdiriləcək məsləhətləşmələr, əlbəttə ki, ölkələrimizi bir-birinə daha da yaxın edəcəkdir. Biz bunu arzulayırıq. Biz istəyirik ki, Türkiyə-Azərbaycan dostluğu, qardaşlığı bundan sonra da inkişaf etsin, xalqlarımız üçün yeni imkanlar açsın. Həm iqtisadi sahədə, həm mə-

dəni sahədə – bütün sahələrdə bizim aramızda olan əlaqələr güclənsin, xalqlarımız bir-birinə daha da yaxın olsunlar. Cənab Prezident, Sizi Azərbaycanda bir qardaş kimi, dost kimi salamlayırıq. Mən deyə bilərəm ki, bu gün bütün Azərbaycan xalqının duyğularını ifadə edirəm və Sizə gələcək fəaliyyətinizdə uğurlar arzulayıram.

Təşəkkür edirəm.

TÜRKİYƏ PREZİDENTİ ABDULLAH GÜLÜN BƏYANATI

- Hörmətli Prezident, möhtərəm qardaşım!

Hörmətli mətbuat nümayəndələri!

Burada olan bütün seçilmiş qonaqları və mətbuat mənsublarını ən səmimi duyğularla salamlayıram.

Əvvəlcə, dost və qardaş Azərbaycanda olmaqdan məmnun olduğumu qarşınızda bir daha təkrarlamaq istəyirəm. Şimali Kipr Türk Cümhuriyyətindən sonra bu ilk xarici səfərim zamanı mənə və nümayəndə heyətinə göstərilən münasibətə və qonaqsevərliyə görə ürəkdən dərin təşəkkürümü bildirirəm. Bu günə qədər Azərbaycana bütün səfərlərimizdə olduğu kimi, bizlər özümüzü evimizdəki kimi hiss edirik.

Bu ziyarətim, bildiyiniz kimi, iki ölkə arasındakı əbədi qardaşlığın tarixi inkişafında yeni çığır açan son 16 ilin hər baxımdan dəyərləndirilərək, gələcəyə yönəlmiş planlarımızın icrası baxımından böyük bir fürsətdir.

Bu gün apardığımız son dərəcə yararlı müzakirələrdə, siyasi və iqtisadi sahələr başda olmaqla, əlaqələrimizdə bütün sahələri hərtərəfli şəkildə müzakirə etdik. Hər sahədə müsbət olan əlaqələrimizin imkanlarını dəyərləndirdik.

Görüşümüzdə ikitərəfli əlaqələrimizlə bərabər, regional və hərtərəfli aktual mövzular üzərində də fikir mübadiləsi apardıq.

Cənubi Qafqazda sülhün bərqərar olması və qorunması, bölgə ölkələri arasındakı problemlərin sülh yolu ilə və beynəlxalq hüquq normaları çərçivəsində həll edilməsi məsələlərində ölkələrimizin eyni fikirdə olduğunu bir daha məmnuniyyətlə gördük.

Dağlıq Qarabağ münaqişəsi başda olmaqla, Cənubi Qafqaz bölgəsindəki bütün problemlərin sülh yolu ilə çözülməsi üçün birgə ata biləcəyimiz addımları da nəzərdən keçirdik. Dağlıq Qarabağ probleminin Azərbaycanın ərazi bütövlüyü çərçivəsində, beynəlxalq hüquqa uyğun sülh yolu ilə aradan qaldırılmasını arzulayırıq.

Cənubi Qafqazda daimi sülhün yaradılması, qorunması üçün Türkiyənin əlindən gələni etməyə hazır olduğunu bir daha vurğulamaq istəyirəm. Türkiyə və Azərbaycan Cənubi Qafqazda sülh, sabitlik, rifah və işbirliyinin yaradılması sahəsində eyni fikirləri bölüşürlər.

Şimali Kipr Türk Cümhuriyyətinin təcriddən qurtarması və bu ölkəyə qarşı cəzanın aradan qaldırılması baxımından qardaş Azərbaycanın bu günə qədər verdiyi dəstəyə görə təşəkkür edirəm. Kipr türklərinin haqlı mübarizələrinə Azərbaycanın dəstəyini bundan sonra da əsirgəməyəcəyinə olan inamım böyükdür.

Ölkələrimiz arasındakı iqtisadi və ticari əlaqələrin sürətlə inkişafından məmnuniyyət

duyuruq. Məqsədimiz ardıcıl olaraq artan və 1 milyard dolları keçən xarici ticarət dövriyyəsinin həcminin gələcəkdə 3 milyard dolları keçməsini təmin etməkdir. Türkiyə ticarət əlaqələri və sərmayələr yolu ilə Azərbaycanın iqtisadi inkişafında daha yaxından iştirak etməyə hazırdır. İki ölkə arasındakı iqtisadi və ticarət əlaqələrinin inkişaf etdirilməsi üçün istər birgə iqtisadi komissiyanın toplantılarının, istərsə də əməkdaşlıq mexanizmlərinin daha davamlı şəkildə işə salınmasının yararlı olacağına inanırıq.

Azərbaycanın Dünya Ticarət Təşkilatına daxil olmasının ikitərəfli iqtisadi əlaqələrimizin inkişafına və Azərbaycanın dünya iqtisadiyyatına inteqrasiyasına yardım göstərəcəyinə inanırıq. Bu məqsədlə Azərbaycanın Dünya Ticarət Təşkilatına üzvlük məsələsini dəstəkləyirik.

Uzunmüddətli ticarət və iqtisadi əməkdaşlıq Proqramının və İcra planı anlaşmasının reallaşdırılması böyük önəm daşıyır. Bu anlaşmanın həyata keçirilməsini müəyyənləşdirəcək İcra planının bu səfərim zamanı imzalanması bu sahədə atılmış önəmli bir addımdır. Bakı-Tbilisi-Ceyhan və Bakı-Tbilisi-Ərzurum enerji layihələrindən sonra qarşıdakı günlərdə təməlqoyma mərasimini gerçəkləşdirməyi planlaşdırdığımız Bakı-Tbilisi-Qars dəmir yolu xətti layihəsini də qısa müddətdə tamamlamağı nəzərdə tuturuq. Məqsədimiz üçtərəfli işbirliyini daha da irəliyə aparmaq, üç ölkəni əhatə edəcək ortaq bir iqtisadi dəhliz yaratmaqdır.

Sonuncu dəfə Bakıda iki ölkənin əlaqədar qurumları arasında keçirilən ikitərəfli görüşlərdə Azərbaycan tərəfinə layihəsi təqdim edilmiş ticarət sahəsində müqavilənin imzalanması bu sahədə ilk addım olacaqdır.

Ölkələrimizin yüksək səviyyədə iştirakı ilə 2006-cı il iyulun 13-də rəsmi açılışı gerçəkləşdirilən və dünyanın ikinci ən uzun neft boru xətti olan Bakı-Tbilisi-Ceyhan kəməri və Bakı-Tbilisi-Ərzurum təbii qaz kəməri ölkələrimiz arasındakı strateji işbirliyinin çox önəmli göstəricisidir. Ölkələrimiz arasında bu cür böyük və strateji layihələrin artacağına ümid edirəm. Belə böyük layihələr Azərbaycanın iqtisadi rifahı ilə yanaşı, ölkələrimizin enerji təhlükəsizliyinə də böyük kömək göstərəcəkdir. Bu çərçivədə bundan sonra əsas diqqəti Xəzər təbii qaz layihəsinə verəcəyimizə və bu məqsədlə türkmən qardaşlarımızı daha çox işbirliyinə təşviq edəcəyimizə inanıram.

Türkiyə ilə Azərbaycan arasındakı əlaqələrin daha da inkişaf etməsinin birbaşa bəşəri əlaqələrin sıxlaşması ilə bağlı olduğunu düşünürəm. Bu məqsədlə Azərbaycan vətəndaşlarına turist səfərləri üçün qoyduğumuz biraylıq viza rejimini aradan qaldırdıq.

İqtisadi əlaqələrimizin önəmli istiqamətlərindən biri də daşımalardır. Bu baxımdan ucuz, tez və təhlükəsiz nəqliyyatın təsis edilməsi çox önəmlidir. Azərbaycanda iki minə qədər türk şirkəti tərəfindən qoyulan sərmayələrin həcmi 2,5 milyard dolları ötmüşdür. Azərbaycandakı xarici sərmayələr arasında türk firmaları enerji sektorundan kənar sahələrdə birinci yeri tutur. Azərbaycana qoyulan sərmayələrimiz enerji sektoru ilə birlikdə təqribən 5 milyard dollar həcmindədir. Türk şirkətləri 50 minə yaxın Azərbaycan vətəndaşına iş imkanı qazandırmışdır. Şirkətlərimizin Azərbaycanda daha uğurlu fəaliyyət göstərmələri digər tanınmış türk firmalarının da Azərbaycana sərmayə qoymağa istiqamətləndirilməsi baxımından təşviqedici olacaqdır.

Azərbaycanın iqtisadi inkişaf yönündə atdığı addımları və xarici sərmayəçilərə daha əlverişli bir şərait yaratmaq məqsədi ilə gördüyü tədbirləri böyük bir təqdirlə izləyirik. Türk firmalarının Azərbaycanın inkişafına kömək göstərməyə və nəzərdə tutulan sərmayə layihələrini həyata keçirməyə hazır və istəkli olduqlarını xüsusilə bildirmək istəyirəm.

Dəyərli mətbuat nümayəndələri!

Azərbaycan firmalarının da eyni şəkildə Türkiyədə sərmayə qoyduqlarını görməkdən böyük məmnunluq duyuruq. Xüsusilə böyük şirkətlərin Türkiyədəki sərmayələri, doğrudan da, bizi məmnun edir. "Petkim"in özəlləşdirilməsində Azərbaycanın göstərdiyi uğur bütün türk xalqı tərəfindən də böyük təqdirlə qarşılanmışdır. Qarşımızda çox böyük layihələr var. Xüsusilə, Ceyhanda nəzərdə tutulan neftayırma ilə bağlı layihələr bunların başında durur. Azərbaycanın böyük neft şirkətinin bu işlərə maraq göstərdiyini görməkdən böyük məmnuniyyət duyuram. Burada tikiləcək müəssisələrin bütün Aralıq dənizi bölgəsinə və dünyaya xidmət edəcəyini düşünsək, bunların nə qədər böyük məsələlər olduğunu görəcəyik.

Vaxtilə bəzilərinin röya kimi düşündüyü, gerçəkləşəkmi dediyi böyük layihələrin necə gerçəkləşdiyini hamımız bilirik. O zaman bunlar müzakirə olunarkən etiraz edənlər vardı. İndi bu layihələr fəaliyyət göstərir və hər kəs bunu ürəkdən istəyir. İndi buna bənzər yeni layihələrin gerçəkləşdirilməsi zamanıdır. Bunların da həyata keçiriləcəyinə, baş tutacağına inamım böyükdür. Bu sahədə Azərbaycanın və Türkiyənin siyasi iradələri tam açıqdır. Belə səfərlərimiz, bu gün dəyərli Cümhurbaşqanı, hörmətli qardaşımla birlikdə keçirdiyimiz görüşlər bunların isbatıdır. İnanıram ki, qarşıdakı illərdə bu gün bəzilərinin baş tutacaqmı dediyi layihələrin də gerçəkləşəcəyini, açılışlarını keçirəcəyimizi görəcəyik.

Əlaqələrimiz təkcə iqtisadi sahədə deyildir. Mədəni sahədə də çox böyük əlaqələrimiz vardır. Biz ayrı-ayrı dövlətdə yaşayırıq, amma bir millətik. Bu, getdikcə daha çox anlaşılır. Bunun üçün mədəniyyət, təhsil sahəsindəki fəaliyyətlərə hər iki ölkə çox böyük önəm verir. İnanıram ki, bölgədəki digər ölkələr də, bu millətin bir parçası olan digər dövlətlər də eyni münasibəti göstərəcəklər. Türkdilli ölkələrin dövlət başçılarının zirvə toplantısı ötən il Türkiyədə keçirilmişdir. İndi növbə Azərbaycanındır. Hörmətli Cümhurbaşqanı, dəyərli qardaşım İlham Əliyevin rəhbərliyi ilə bu toplantının Azərbaycanda keçiriləcəyinə inanıram. Qısa bir vaxtdan sonra burada bütün türk dünyasını maraqlandıran toplantı, türk xalqlarının qurultayı keçiriləcəkdir. Azərbaycan ev sahibliyi edəcəkdir, bundan qürur duyuruq.

Hörmətli mətbuat nümayəndələri!

Bu görüşdən sonra proqramın digər hissələrinə keçəcəyik. Bu çərçivədə hər iki ölkəni yaxından maraqlandıran məsələlərlə bağlı təmaslarımızı müxtəlif görüşlərimizdə davam etdirəcəyik. Proqramımın Bakı bölümündən sonra gözəl ölkənizin Gəncə şəhərini də ziyarət edəcəyimdən böyük məmnunluq və həyəcan hissi keçirirəm. Gəncənin tarixi mədəniyyət mərkəzi olduğunu çox yaxşı bilirəm. Bununla əlaqədar çox şeylər oxumuşam. Gedib orada canlı görməkdən isə xüsusi məmnunluq duyacağam.

Məmnuniyyətimin başqa bir səbəbi də ilk dəfə Cümhurbaşqanının Bakıdan kənara, Azərbaycanın başqa şəhərinə getməsidir. Bildiyiniz kimi, heyətimiz böyükdür. Heyətimizdə nazir dostlarımın və dövlət nazirləri ilə yanaşı, Türkiyədən gələn çox dəyərli

mətbuat nümayəndələri, iş adamları vardır. Onlarla birlikdə Gəncəyə edəcəyimiz bu səfərə də çox böyük önəm verirəm.

Dəyərli qardaşım, hörmətli Cümhurbaşqanının nümayəndə heyətimizə, Türkiyəyə, bizə göstərdiyi bu yaxın münasibətə və qonaqpərvərliyə görə bir daha təşəkkür edirəm. Bu vəsilə ilə bütün azərbaycanlı qardaşlarımıza türk qardaşlarının salamlarını və sevgilərini çatdırıram.

* * *

Sonra dövlət başçıları jurnalistlərin suallarına cavab verdilər.

-Hörmətli Prezident, Siz burada görüşlər keçirərkən bu gün Avropa İttifaqının məruzəsi açıqlandı. Əslində, onda gözləmədiyimiz maddələr yoxdur. Fəaliyyətin sürətləndirilməsi istənilir, hərbinin demokratiyaya təsirinə diqqət çəkilir və limanların açılması mövzuları bir daha xatırladılır, müzakirələrin davam etdirilməsi ilə bağlı tövsiyədən də bəhs olunur. Siz bu məruzəni neçə dəyərləndirirsiniz?

ABDULLAH GÜL: Məruzənin detallarının burada dəyərləndirilməsini istəmirəm. Onsuz da bunu nazirlik açıqlayacaqdır. Birincisi, burada söyləmək istədiyim mövzu budur ki, Türkiyə müzakirə müddətinə çox ciddi yer verir, bunu müvəffəqiyyətlə sona çatdırmaq əzmindədir. Bu müddət içində, təbii ki, Türkiyə bəzi fəaliyyətlər göstərəcəkdir. Bunlar nədir desəniz, bildiyiniz kimi, bunlar siyasi meyarların yerinə yetirilməsidir. Əslində, siyasi meyarları yerinə yetirdiyimiz üçün əsas müzakirələr başlanmışdır. Amma hələ görməyimiz lazım olan bəzi işlərimiz vardır. Türkiyə onsuz da bunu bilir. Bilavasitə islahat müddəti Türkiyədə güclü bir şəkildə davam edəcəkdir. Buna heç kimin şübhəsi olmasın. Bunlar türk xalqının mənafeyinə uyğun olduğu üçün ediləcəkdir.

İkincisi, Avropa Birliyinin irəliyə sürdüyü şərtlərdir. Bununla əlaqədar çox əhatəli proqramlar açıqlanmışdır, bir çox qanunlar, qərarlar nəşr edilir, yayılır. Bu mövzuda müvəffəqiyyətimiz göz qabağındadır. Üçüncüsü, görülən işləri Avropa ictimiyyətinə ən yaxşı şəkildə açıqlamaqdır. Bu müddət çox uzun bir müddətdir. Görülən hər bir iş türk xalqının xeyrinə olduğu üçün görülür. Bunu xüsusilə vurğulayıram. Amma bəzi mövzular var ki, onların bu müddətə aidiyyəti yoxdur. Həmin məruzədəki siz dediyiniz məsələlərin həll olunması üçün Avropa Birliyi də üzərinə düşən işləri görməlidir, verdiyi sözləri yerinə yetirməsi vacibdir.

-Sualım hər iki prezidentədir. Cənab prezidentlər, bir çox hallarda dünyada xalqlarımız, dövlətlərimiz əleyhinə yalan təbliğatın qarşısının alınmasında türk və Azərbaycan diasporlarının fəaliyyətinin daha yaxından əlaqələndirilməsi üçün daha hansı işlərin görülməsi vacibdir?

ABDULLAH GÜL: Bu mövzuda, sadəcə, hökumətlərin üzərinə vəzifə düşmür. Türkiyəyə gələn Azərbaycanın hörmətli mətbuat nümayəndələrinə verdiyim müsahibədə də onlara dedim. Bu məsələdə qeyri-hökumət təşkilatlarının universitet müəllimlərinin, mədəniyyət, elm adamlarının üzərinə çox iş düşür. Bəzən rəsmiyyətin anlatdığı çox faydalı olmaz. Amma qeyri-hökumət təşkilatlarının fəaliyyət göstərmələri çox inandırıcı və faydalı olur. Mətbuat nümayəndələrinin, ziyalıların, intellekt sahiblərinin, tarixçilərin fəaliyyəti çox faydalı olur. Bu baxımdan hər kəs buna diqqət yetirməlidir. Sadəcə, öz insanlarımızı məlumatlandırmaq kifayət etməz. Öz-özümüzə təbliğat aparmaqla

məşğul olmamalıyıq. Bunları Avropa, Amerika, ərəb, bütün dünya ictimaiyyətinə anlatmağımız lazımdır. Bunlar edilmədikcə, təəssüf ki, bizim mövqeyimiz zəif olur. Yəni Brüsseldə, Strasburqda, Vaşinqtonda, Qahirədə, hər yerdə anlatmaq lazımdır. Bu işdə hər kəsin səfərbər olması lazımdır.

İLHAM ƏLİYEV: Biz bu sahəyə böyük diqqət göstəririk və bildiyiniz kimi, son müddət ərzində Türkiyə və Azərbaycan diaspor təşkilatları öz fəaliyyətlərini birləşdirmişlər. Buna çox böyük ehtiyac var. Çünki dünyada həm Türkiyədən, həm də Azərbaycandan olan kifayət qədər çox insanlar var. Bizim problemimiz ondadır ki, dünyada güclü erməni lobbisi Türkiyə və Azərbaycana qarşı fəaliyyət göstərir. Erməni lobbisi, demək olar ki, dünyanın bütün aparıcı ölkələrində mövcuddur. Onların çox böyük imkanları var. Onların təsiri altında kifayət qədər çox siyasətçilər var, parlament üzvləri, nazirlər var. Bir çox hallarda Türkiyə və Azərbaycana qarşı əsassız ittihamların təməlində məhz erməni lobbisi, onun maliyyə imkanları və onun tərəfindən idarə olunan riyakar siyasətçilərin fəaliyyəti dayanır. Bu, reallıqdır, gerçəklikdir. Buna hazır olmalıyıq və bu əsassız ittihamlara cavabımız bizim birgə fəaliyyətimiz, təbliğat işlərimiz və Türkiyə, Azərbaycan həqiqətlərini dünya birliyinə çatdırmağımızdır. Biz bu sahəyə Azərbaycanda həm elmi tədqiqatlar işində, həm də təbliğat işində çox böyük diqqət göstəririk. Erməni təbliğatından fərqli olaraq, bu sahədəki fəaliyyətimiz uydurma faktlar əsasında deyil, reallıq əsasında qurulubdur. Haqq-ədalət bizim tərəfimizdədir.

Erməni təşkilatlarının, lobbisinin səyləri nəticəsində dünyanın bir neçə ölkəsinin parlamentlərində Türkiyəyə qarşı əsassız qərarlar çıxarılıbdır. Bütün bu qərarlar tarixi faktların təhrifi üzərində qurulubdur. Bu, böyük erməni yalanıdır ki, biz bununla üzləşmişik. Bizim üçün, əlbəttə ki, bu məsələdə dönüş yaratmaq, həqiqəti çatdırmaq çox vacib məsələdir. Bəzi hallarda Türkiyə və Azərbaycan haqqında dünya mətbuatında gedən yazılar tamamilə yanlış, yalan faktlar əsasında və qərəzli məlumatlardır. Bunun arxasında da bir çox hallarda erməni diasporu, Ermənistan və bizə düşmənçilik edən dünya ermənilyi dayanıbdır. Biz buna hazır olmalıyıq, diaspor təşkilatlarının fəaliyyətini gücləndirməliyik. Azərbaycanda bu sahədə işlər görülür. Bilirəm ki, Türkiyədə də işlər görülür. Həm qeyri-hökumət təşkilatları, həm dövlət qurumları, həm də bütün vətənpərvər insanlar bu məsələ ilə ciddi məşğul olmalıdırlar.

Biz bu yaxınlarda Bakıda Türkiyə-Azərbaycan diaspor təşkilatlarının qurultayını keçirməklə bir daha bu səylərin birləşməsi üçün öz fəaliyyətimizi ortaya qoyduq. Bu səylər birləşdirilməlidir. Bütün ölkələrdə diasporlar təşkilatlanmalıdır. Dövlət və qeyri-hökumət təşkilatları onların fəaliyyətinə öz dəstəyini verməlidir. Yenə də deyirəm, haqq-ədalət bizim tərəfimizdədir. Sadəcə olaraq, biz birgə fəaliyyətimizlə, fəal işlərimizlə bu həqiqəti dünya birliyinin nəzərinə çatdırmalıyıq.

-Hörmətli Prezident, bugünkü görüşünüzdə, xüsusən də hörmətli İlham Əliyevlə təkbətək görüşünüzdə sərhəddən kənar əməliyyatlar və terrorla mübarizə gündəliyə gəldimi?

Hörmətli Baş nazirin Amerika səfərindən əvvəl Türkiyə sözün bitdiyi yerdə idi. Bəs indi haradadır? Buşdan gələn mesajlar Türkiyəni məmnun etdimi?

ABDULLAH GÜL: Təbii ki, görüşümüzdə bu mövzuda danışdıq. Hörmətli Prezident terrorla bağlı fikrini və Türkiyənin terrorla mübarizəsinə verdiyi dəstəyi ifadə etdi. Bun-

dan başqa, son hadisələrlə əlaqədar məndən daha çox məlumat öyrənmək istədilər. Bunları müzakirə etdik. Bu mövzu açıqdır. Türkiyədə bütün qurumlar arasında birlik vardır və necə hərəkət ediləcəyi aydındır.

Hörmətli Baş nazir dünən Amerika Birləşmiş Ştatlarının rəhbərliyi ilə görüşündə Türkiyənin qərarını onlara bildirmişdir. ABŞ-ın bir məsuliyyəti vardır. İraqı işğal edən bir ölkə olaraq, İraqdakı bütün terror təşkilatları ilə mübarizə aparmaq məsuliyyəti vardır. İraqın bir bölgəsində terrorla mübarizə aparıb, başqa bir bölgəsində terror təşkilatı ilə mübarizə etməsə, təzada düşər. Yəni bu, Türkiyəyə kömək etmək məqsədi ilə deyil, öz məsuliyyətidir. Türkiyənin nə edəcəyi, necə davranacağı məlumdur və müəyyən edilmişdir. Hörmətli Baş nazir də məhz belə hərəkət etmişdir.

-Mənim sualım hər iki Prezidentədir. Cənab Prezident Abdullah Gül, cənab Prezident İlham Əliyev, siz hər ikiniz Avropa Şurası Parlament Assambleyasında nümayəndə heyətində fəaliyyət göstərmisiniz. Bu baxımdan beynəlxalq təşkilatlarda işlə bağlı böyük təcrübəniz var. Azərbaycan və Türkiyə beynəlxalq təşkilatlar çərçivəsində sıx əməkdaşlıq edir. Bilmək istərdim, bu əməkdaşlığın gələcəyini necə görürsünüz?

İLHAM ƏLİYEV: Biz, əlbəttə ki, bütün beynəlxalq təşkilatlarda çox güclü əməkdaşlıq edirik. Üzvü olduğumuz bütün təşkilatlarda bir-birimizi dəstəkləyirik. Birləşmiş Millətlər Təşkilatında, İslam Konfransı Təşkilatında, Avropa Şurasında, İqtisadi Əməkdaşlıq Təşkilatında və başqa təşkilatlarda. Türkiyə və Azərbaycanın iştirak etdiyi təşkilatlar kifayət qədər çoxdur. Onlarda əməkdaşlığımız, əlbəttə ki, təşkilatda bizim rolumuzu artırır. Hər bir ölkə könüllü şəkildə bu və ya digər təşkilata üzv olur. O təşkilata üzv olmaqla, əlbəttə ki, həm öz siyasi iradəsini ortaya qoyur, həm də burada müəyyən maraqlar da var.

Türkiyə və Azərbaycan, siz də qeyd etdiniz, Avropa Şurası kimi mühüm Avropa təşkilatının üzvüdür. Bu üzvlük, əlbəttə ki, ölkələrimizdə islahatların daha da sürətlə getməsini təmin edir. Azərbaycan Avropa Şurasına üzv olandan sonra ölkəmizdə siyasi islahatlar çox sürətlə getməyə başlamışdır. Azərbaycanda çoxlu qanunlar qəbul edilmişdir. Qanunvericilik bazası Avropa qanunvericilik bazasına yaxınlaşmışdır, bəzi hallarda ona uyğunlaşmışdır. Bu, bizim Avropa strukturlarına inteqrasiya siyasətimizin əlamətidir. Biz çalışırıq ki, bu təşkilatda daha da fəal rol oynayaq. Eyni zamanda, öz mövqelərimizi müdafiə edək. Bəzi hallarda bizi tənqid edənlər o tənqidi yanlış faktlar əsasında ortaya qoyurlar. Bu da var və öz maraqlarımızı müdafiə etməliyik. Biz üzv olduğumuz təşkilatlarda, təbii ki, bundan sonra da vahid mövqedən çıxış edəcəyik.

Mən xatırlayıram ki, Azərbaycan Avropa Şurasına üzv olanda, biz orada qruplararası ilk görüşümüzü türk həmkarlarımızla keçirmişdik və Türkiyə, Azərbaycan nümayəndə heyətləri bizə aid olan bütün məsələlərdə vahid mövqedən çıxış etmişdi, bir-birimizi dəstəkləmişdik. Bir-birimizin sənədlərinə qol qoymuşduq və səsvermədə, çıxışlarda bir-birimizi dəstəkləmişdik. Bu, çox böyük əhəmiyyət daşıyan məsələdir.

Onu da deyə bilərəm ki, 2005-ci ilin əvvəlində Avropa Şurasında, Siyasi Komitədə Ermənistan-Azərbaycan münaqişəsi müzakirə olunanda məhz Türkiyə Cümhuriyyətinin nümayəndəsi, Avropa Şurası Parlament Assambleyasının üzvü və onun mövqeyi bu məsələdə ədalətli qərarın çıxarılmasında çox mühüm rol oynamışdır. Yəni bu dəstəyi, bu qarşılıqlı yardımları biz bütün təşkilatlarda görürük və edirik. Bundan sonra da edəcəyik.

ABDULLAH GÜL: Azərbaycanın Avropa Şurasına üzvlüyü çox önəmlidir. Mən o illərdə Avropa Şurasında Türkiyə nümayəndə heyətinə daxil idim, millət vəkili idim və o vaxtı çox yaxşı bilirəm. Bu üzvlüyə əngəl olmaq istəyənlər də var idi. Biz o zaman buna qarşı çox əmək sərf etmişdik. Azərbaycan Avropa Şurasına üzv olanda Azərbaycanın ulu öndəri Heydər Əliyevin orada söylədiyi nitqin şahidi olmuşam. Bildiyiniz kimi, Avropa Şurası Avropada demokratik standartları, insan haqlarını, hüququn üstünlüyünü müəyyən edən bir qurumdur və böyük bir məktəb şəklindədir.

Azərbaycanın buraya öz istəyi ilə üzv olması onun tutduğu istiqaməti göstərir. Təbii ki, hər şey bir gecədə, bir ildə olmur. Bunlar bir müddətdir, bir məsafədir. İslahat müddəti dediyimiz məsələ bir gecəlik deyildir. Bunlar müddətə, zamana bağlı olan məsələlərdir. Amma Azərbaycanın tutduğu bu istiqamət ölkədə demokratiyanı getdikcə gücləndirdi, hüquqi cəhətdən formalaşdırdı. Biz bundan böyük məmnuniyyət duyuruq. Çünki ölkələr təkcə iqtisadiyyatı, ordusu ilə güclü olmurlar. Güclü idarəetmə sistemi, hüquqi, demokratik təsisatları ilə də güclü hala gəlirlər. Bu mənada Azərbaycanın bu müddət ərzində keçdiyi yolu, həyata keçirdiyi islahatları təqdirlə izləyirik və gələcəyinin çox parlaq olduğuna inanırıq.

Bir az əvvəl mənə verilən sual da, fikir verirsinizsə, Türkiyədəki siyasi meyarlar və islahat müddəti barədə idi. Bu mövzularda özümüzə güvənəcəyimizin olması lazımdır. Biz Türkiyə olaraq uzun illərdir Avropa Şurasının üzvüyük. Avropa Birliyi ilə tam üzvlük müzakirələrinə başladıq. Amma hələ islahatlarla bağlı çatışmazlığın olduğunu söyləyirik. Bunlar normal haldır. Əsas istiqamət, siyasi iradə çox önəmlidir. Mən Azərbaycanda bu siyasi iradənin olduğunu görürəm. Çünki Azərbaycan Avropa Şurasına ürəkdən istəyərək daxil olmuşdur. Hörmətli Cümhurbaşqanının, dəyərli qardaşımın xaricdə çox böyük təcrübəsi vardır. Amma adı çəkilən mövzular zamanla bağlı məsələlərdir. Bunlar bir günlük, bir aylıq, bir illik məsələlər deyildir. İnanıram ki, Azərbaycan qarşıdakı illərdə hər baxımdan daha da güclü olacaqdır.

Azərbaycan Qafqazın parlayan bir ulduzudur. Hər kəs hər il ötdükcə buradakı dəyişiklikləri görəcəkdir. Mən Bakıya hər gəlişimdə burada böyük dəyişikliklər görürəm. Bəlkə də bunu Azərbaycanda yaşayanlar müqayisə etməyə bilər. Uşaq evdə böyüyərkən hiss etməzsiniz, ancaq uzaq yerdən qohumlar gələndə uşağın böyüməsini hiss edərlər.

Siz beş il sonra Türkiyəyə gələndə böyük dəyişiklikləri görəcəksiniz. Buraya da hər gəlişimizdə həm iqtisadi, həm də demokratik dəyişiklikləri - bütün bunları görürük. İnanıram ki, Azərbaycan üçün gələcək daha parlaq, daha yaxşı olacaqdır.

TÜRKİYƏ PREZİDENTİ ABDULLAH GÜL HEYDƏR ƏLİYEV FONDUNDA OLMUŞDUR

Türkiyə Prezidenti Abdullah Gül noyabrın 6-da Heydər Əliyev Fondunda olmuşdur.

Azərbaycan Prezidenti İlham Əliyev və Fondun prezidenti YUNESKO-nun və İSESKO-nun xoşməramlı səfiri, Milli Məclisin deputatı Mehriban xanım Əliyeva Türkiyənin dövlət başçısını və onun xanımı Hayrünnisa Gülü böyük səmimiyyətlə qarşıladılar.

Prezident İlham Əliyev ali qonağa Azərbaycan xalqının ümummilli liderinin xatirəsinə

yaradılmış Fondun məqsədləri, ulu öndərin şəxsi arxivindən götürülmüş və onun fəaliyyətinin ayrı-ayrı dövrlərini əhatə edən eksponatlar barədə ətraflı məlumat verdi.

Türkiyə dövlətinin başçısı fenomen şəxsiyyət Heydər Əliyevin həyatının ən müxtəlif məqamlarını əks etdirən və Azərbaycan tarixinin bütöv bir dövrü barədə geniş təsəvvür yaradan çoxlu sənədlərlə, dünyanın tanınmış siyasi xadimlərinin bəxş etdikləri hədiyyələrlə, ulu öndərimiz haqqında kitablarla, dünyanın nüfuzlu elm, mədəniyyət və incəsənət xadimlərinin Azərbaycan dövlətinin qurucusu haqqında fikirləri ilə tanış oldu, müxtəlif ölkələrin liderləri ilə görüşlərdə çəkilmiş şəkillərə maraqla baxdı. Türk dünyasının böyük oğlu Heydər Əliyevin qardaş ölkəyə səfərlərini, eləcə də, Türkiyə Cümhuriyyətinin dövlət və hökumət rəhbərlərinin Azərbaycana səfərlərini, birgə görüşləri əks etdirən fotolar qonaqlarda xüsusi maraq doğurdu.

Prezident Abdullah Gül fondla tanışlıqdan sonra Xatirə kitabına ürək sözlərini yazdı.

Qardaş ölkənin Prezidentinə Heydər Əliyev Fondunun hədiyyəsi təqdim olundu. Prezident Abdullah Gül isə Azərbaycan Prezidentinə və xanımı Mehriban Əliyevaya xüsusi hədiyyəsini təqdim etdi.

Dövlət başçıları və xanımları birgə şəkil çəkdirdilər.

Ali qonaq Fonddan xoş və zəngin təəssüratla ayrıldığını bildirdi.

ALİ QONAĞIN ŞƏRƏFİNƏ

Noyabrın 6-da "Gülüstan" sarayında Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və xanımı Mehriban Əliyevanın adından Türkiyə Respublikasının Prezidenti Abdullah Gülün və xanımı Hayrünnisa Gülün şərəfinə rəsmi ziyafət təşkil edilmişdir.

Dövlət başçıları ziyafətdə nitq söylədilər.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN NİTQİ

-Hörmətli cənab Prezident, əziz qardaşım!

Hörmətli Hayrünnisa xanım!

Hörmətli qonaqlar!

Hörmətli xanımlar və cənablar!

Mən bu gün qardaşım, Türkiyə Cümhuriyyətinin Cümhurbaşqanı hörmətli Abdullah Gülü Azərbaycanda bir daha səmimiyyətlə salamlayıram, "Xoş gəlmisiniz!".

Biz çox şadıq ki, Siz Cümhurbaşqanı kimi ilk rəsmi səfərinizi Azərbaycana edirsiniz. Bu, bir daha onu göstərir ki, bizim aramızda olan dostluq, qardaşlıq münasibətləri ən yüksək zirvədədir. Biz bu səfərə çox böyük əhəmiyyət veririk. Çox şadıq ki, Siz yenidən Azərbaycandasınız, amma indi Cümhurbaşqanı kimi ölkəmizə səfər edirsiniz. Bu gün apardığımız danışıqlar, söhbətlər bir daha onu göstərir ki, bizim münasibətlərimiz sürətlə inkişaf edir, bütün sahələri əhatə edir. Münasibətlərin gələcəyi də çox parlaqdır, çox ümidvericidir.

Bizim xalqlarımız əsrlər boyu bir yerdə olmuşdur, bir-birinə dəstək olmuşdur, bir yerdə

yaşamışdır. Ancaq Azərbaycan öz dövlət müstəqilliyini bərpa edəndən sonra, təbii ki, bu münasibətlər yeni pilləyə qalxmışdır. Müstəqilliyimizin ilk illərindən Türkiyənin qayğısını, dəstəyini hiss edirik. Xüsusilə müstəqilliyimizin ilk illərində bu dəstək bizim üçün çox vacib idi, bəzi hallarda həlledici idi.

Son 16 il ərzində Türkiyə-Azərbaycan münasibətləri daim inkişaf etmişdir və bu gün bir daha demək istəyirəm ki, bizim aramızda olan əlaqələrin, bəlkə də, dünyada analoqu yoxdur. Mən dünyada ikinci belə ölkələr tanımıram ki, həm etnik mənsubiyyət baxımından, həm tarixi köklər baxımından, həm də xalqlararası dostluq, qardaşlıq baxımından və siyasi maraqlar baxımından bir-birinə bu qədər yaxın olsun. Bu, bizim gücümüzdür. Bu, bizi birləşdirir. Mən əminəm ki, bu gün apardığımız danışıqlar, imzalanmış sənədlər gələcək əməkdaşlığımız üçün perspektivlər, yeni üfüqlər açır. Əməkdaşlığın yeni sahələri açılacaqdır.

Mən çox şadam ki, Sizinlə bərabər bu gün Azərbaycana böyük nümayəndə heyəti gəlmişdir. Eyni zamanda, iş adamlarından ibarət böyük nümayəndə heyəti gəlmişdir. Sabah keçiriləcək Türkiyə-Azərbaycan biznes forumu iqtisadi və ticarət əlaqələrinin inkişafında mühüm addım olacaqdır. Bu sahələri inkişaf etdirmək üçün istənilən imkanlar var. Bu gün Türkiyə ilə Azərbaycan çox dinamik inkişaf edən ölkələrdir. İqtisadi baxımdan ölkələrimiz ən çətin, böhranlı anlarını geridə qoyub və bu gün iqtisadi cəhətdən sürətlə inkişaf edir.

Türkiyədən Azərbaycana qoyulan sərmayələr, burada Türkiyə iş adamlarının fəaliyyəti bizi çox sevindirir. Bizim aramızda olan iqtisadi münasibətlərdə yenilik ondan ibarətdir ki, artıq Azərbaycan şirkətləri Türkiyə iqtisadiyyatına böyük həcmdə sərmayələr qoyulmasına başlamışdır. Mən bilirəm ki, bu addımlar Türkiyə dövləti və hökuməti tərəfindən dəstəklənir. Əminəm ki, biz qarşılıqlı yatırımlarla, qarşılıqlı ticarətin inkişafı ilə bir-birimizin gücünü daha da artıracağıq.

Biz ölkələrimiz üçün, bölgə üçün və dünya üçün əhəmiyyətli layihələri uğurla icra edirik. Bakı-Tbilisi-Ceyhan neft kəmərinin işə düşməsi xalqlarımızın tarixi nailiyyətidir. Ondan sonra Bakı-Tbilisi-Ərzurum qaz kəmərinin istismara verilməsi bundan az əhəmiyyət daşımır. Bu layihələr ölkələrimizin uzunmüddətli siyasi və iqtisadi maraqlarını təmin edəcək, bizim aramızda olan işbirliyini daha da gücləndirəcəkdir və bütün bölgə, dünya üçün yeni enerji mənbəyinin üzə çıxması deməkdir.

Azərbaycan Avropanın enerji təhlükəsizliyi məsələlərində fəal iştirak edir. Biz bu işləri Türkiyə ilə bərabər görürük. Bu nəhəng layihələri yalnız və yalnız birgə səylərlə icra edə bilərik. Burada Türkiyə-Azərbaycan işbirliyi, dostluğu, qardaşlığı real nəticələrə gətirib çıxarıbdır. Bu, bizim istəyimizdir, niyyətimizdir. Mən əminəm ki, bu böyük transmilli layihələr uzun illər bundan sonra da ölkələrimizin inkişafına öz töhfəsini verəcəkdir.

Bunların ardınca yeni layihələr üzə çıxır. Biz indi nəqliyyat infrastrukturunun birləşməsi ilə məşğuluq. Bu da Türkiyə və Azərbaycanın təşəbbüsü ilə həll olunan məsələdir. Tarixi İpək yolunun bərpası, Azərbaycanın Türkiyə ilə dəmir yolu ilə birləşməsi, eyni zamanda, Türkiyənin Orta Asiya ilə birləşməsi, Orta Asiyanın Avropa ilə birləşməsi həm iqtisadi, həm də siyasi layihələrdir. Eyni zamanda, bu layihələr türkdilli dövlətlər

arasında olan əməkdaşlığı daha da möhkəmləndirəcəkdir. Buna da çox böyük ehtiyac var. Biz bu əməkdaşlığa çox böyük ümidlərlə baxırıq.

Keçən il Antalyada türkdilli ölkələrin dövlət başçılarının zirvə görüşünün uğurlu keçməsi belə deməyə əsas verir. Gələn il isə bu zirvə görüşü Azərbaycanda keçiriləcəkdir. Biz diaspor təşkilatlarının fəaliyyətini gücləndirməklə birgə tədbirlər keçiririk. Türkiyə və Azərbaycan diaspor təşkilatlarının qurultayı keçirilmişdir. Bir neçə gündən sonra Bakıda Türkiyə və Azərbaycan cəmiyyətlərinin və qurumlarının qardaşlıq, əməkdaşlıq və işbirliyi qurultayı keçiriləcəkdir. Bütün bu amillər həm ölkələrimizdə yaşayan insanları, həm də xaricdə yaşayan soydaşlarımızı birləşdirir və bizim gücümüzü artırır. Biz isə güclənməliyik, öz mövqelərimizi müdafiə etməliyik. Bizim işimiz haqq işidir. İstər Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həllində, istər Kipr probleminin ədalətli və Birləşmiş Millətlər Təşkilatı planı çərçivəsində həllində, istərsə də Türkiyənin terrora qarşı mübarizədə, PKK terrorçu təşkilatına qarşı aparılan əməliyyatlarda - bütün bu işlərdə haqq-ədalət bizim tərəfimizdədir. Sadəcə olaraq, biz öz siyasətimizi elə aparmalıyıq ki, milli maraqlarımızı müdafiə edək, bizə qarşı edilən əsassız ittihamları rədd edək. Biz də bunu edirik.

Xüsusilə bu yaxınlarda Amerika Konqresinin Xarici əlaqələr komitəsində çıxarılmış ədalətsiz qərarı biz qətiyyətlə pisləyirik. Biz bunu açıq şəkildə bəyan etmişik və mən bir daha demək istəyirəm ki, erməni lobbisinin, Ermənistanın təxribatçı fəaliyyəti nəticəsində dünyada bizə qarşı – Azərbaycana və Türkiyəyə qarşı böyük kampaniya aparılır. Bu kampaniya bizi ləkələmək, tarixi həqiqətləri təhrif etmək və beynəlxalq ictimai rəyi çaşdırmaqdan ibarətdir. Biz buna hazırıq və bundan sonra da birgə səylərlə bütün yalançı təbliğatı ifşa etməliyik, haqq-ədaləti bərpa etməliyik. Əminəm ki, birgə səylərimiz, Türkiyə və Azərbaycan dövlətlərinin güclənməsi bütün bu məsələlərdə bizə yardımçı olacaqdır.

Biz gələcəyə çox böyük nikbinliklə baxırıq. Artıq 16 ildir müstəqil dövlətlər kimi bütün beynəlxalq aləmdə, təşkilatlarda bir-birimizi dəstəkləyirik. Bu dəstək mütəmadi xarakter daşıyır. Biz hər an bilirik ki, bütün təşəbbüslərimiz türk qardaşlarımız tərəfindən dəstəklənəcəkdir. Eyni zamanda, biz var gücümüzlə Türkiyənin təşəbbüslərini dəstəkləyirik və bundan sonra da dəstəkləyəcəyik. Bizi birləşdirən tarixi köklər, etnik mənsubiyyət, ortaq maraqlarımız, siyasi və iqtisadi maraqlarımız və regional əməkdaşlıq məsələləridir. Bütün bu sahələrdə biz yalnız və yalnız gözəl nəticələri görürük. Əminəm ki, gələcək illərdə Türkiyə-Azərbaycan birliyi, qardaşlığı daha da möhkəmlənəcək, qarşıda duran bütün çətin məsələlər öz həllini tapacaq və gələcəkdə həm bölgədə, həm də dünyada bizim təsir imkanlarımız daha da artacaqdır. Bunu etmək üçün işbirliyi, qardaşlıq əlaqələri, qarşılıqlı səfərlər davam etməlidir, mütəmadi xarakter daşımalıdır.

Mən bu gün əziz qardaşım Prezident Abdullah Gülü Bakıda çox böyük səmimiyyətlə bir daha alqışlayıram, onu salamlayıram. Azərbaycan xalqının ən əziz duyğularını ona və bütün Türkiyə dövlətinə, türk qardaşlarımıza çatdırıram.

Mən bütün türk xalqına uğurlar, xoşbəxtlik, rifah, çiçəklənmə arzu edirəm!

Sağ olun.

TÜRKİYƏ PREZİDENTİ ABDULLAH GÜLÜN NİTQİ

-Hörmətli Cümhurbaşqanı, əziz qardaşım!

Möhtərəm xanım əfəndi!

Dəyərli qonaqlar!

Bu gün Bakıya gəlməkdən, sizlərlə birabər olmaqdan hiss etdiyim məmnuniyyəti ifadə etmək istəyirəm. Prezident seçildikdən sonra xaricə ilk ziyarəti Azərbaycana etməyim aramızdakı dostluq və qardaşlığın yalnız sözdə, dildə olmadığını, qəlbimizdə nə qədər dərin yer tutduğunu göstərir.

Hər gəlişimdə Azərbaycanın dəyişdiyini görməkdən qürur duyuram. İqtisadi cəhətdən getdikcə zənginləşən, hər baxımdan güclənən, böyük layihələri gerçəkləşdirən, sadəcə bölgənin deyil, dünyanın diqqətini çəkən bir ölkə olmaq yolunda Azərbaycan çox böyük məsafə qət etmişdir. Bu ziyarətimin Azərbaycanın müstəqilliyinin 16-cı ildönümünə təsadüf etməsi də xüsusi məna daşıyır. Bu 16 il içərisində çox böyük məsafələrin qət edildiyi, inkişafın təmin olunduğu göz qabağındadır. Keçmiş illərlə müqayisədə bu inkişafın nə qədər böyük olduğunu, əminəm ki, hər kəs görəcəkdir.

Türkiyə ilə Azərbaycan arasındakı əlaqələr ən yaxşı şəkildə Azərbaycanın böyük öndəri, rəhmətlik Heydər Əliyev tərəfindən ifadə edilmişdir: "Biz bir millət, iki dövlətik!". Bu birlik bundan daha gözəl şəkildə ifadə edilə bilməzdi. Biz, həqiqətən də, bir millət, iki dövlətik. Əslində, iki dövlətdən daha böyüyük. Bütün bölgəmizdə, ətrafımızda başqa dövlətlər də vardır, amma hamımız eyni millətdənik. Bu gün dünyada ayrı dövlət kimi yaşayırıq, amma əməkdaşlıq etmək, qardaşlığımızı, dostluğumuzu, cəsarətimizi göstərmək mümkündür. Bu əməkdaşlıq həm siyasi, həm iqtisadi, həm də mədəni sahədə mümkündür.

Böyük bir məmnunluq hissi ilə demək istəyirəm ki, çox böyük layihələr həyata keçirilmişdir. Xatırlayırsınız, bu layihələr əvvəllər bəziləri tərəfindən xəyal, röya kimi görünürdü. Amma bunların açılışını hamımız birlikdə etdik. İnanıram ki, gələcəkdə çox böyük layihələri gerçəkləşdirəcəyik. Bakı-Tbilisi-Ceyhan boru xətti uzunluğuna görə dünyanın ikinci böyük boru kəməridir. Artıq Qafqazın, Azərbaycanın neft ilə yanaşı, Orta Asiyanın da neft Aralıq dənizindən bütün dünyaya çatdırılacaqdır.

Keçən il hörmətli İlham Əliyev və hörmətli Nursultan Nazarbayev Qazaxıstanda müqavilə imzaladılar. Ondan sonra Qazaxıstanın neft bu boru xətti ilə Aralıq dənizinə çatdırılacaqdır. Bakı-Tbilisi-Ərzurum təbii qaz kəməri layihəsi də tamamlanmışdır.

Bunlara əlavə olaraq, başqa bir nəqliyyat xətti Bakı-Tbilisi-Qars dəmir yolu layihəsidir. Uzun illərdir bu barədə danışılırdı, hətta unudulma halına gəlmişdi. Artıq "bu, həyata keçirilməyəcək" deyildiyi bir zamanda təkrar gündəmə gəlmişdir, təməli atılmışdır. İnşallah, bu layihənin də başa çatdırılmasını hamımız bir yerdə görəcəyik. O vaxt sadəcə Qazaxıstandan deyil, Çindən də gələn mallar Azərbaycan-Gürcüstan-Türkiyə üzərindən keçəcəkdir. Bununla da İstanbul boğazından keçməklə Asiya ilə Avropanı birləşdirən layihə tamamlanacaq və ondan sonra Çindən gələn qatarlar Avropanın sonuna qədər gedə biləcəkdir.

Bütün bu böyük layihələri hamımız bir yerdə həyata keçiririk. Bu böyük layihələrin iki

təməl lokomotivi Türkiyə və Azərbaycandır. İnanıram ki, buna böyük layihələr, böyük əməkdaşlıq və işbirliyi layihələri əlavə olunacaqdır. Bütün bu sahə böyük bir iqtisadi, ticari sahə halına gələcəkdir.

Hörmətli Əliyevə təşəkkür edirəm, burada dedi, bəzi iş adamlarımız buradadırlar. Bu gün 140 böyük iş adamı ilə gəlmişəm. Bir qismi buradadır. Onlar da çox yaxşı bilirlər ki, Sizin yaratdığınız imkan sayəsində buranı öz evləri, öz vətənləri gördükləri üçün böyük sərmayələr qoyur, böyük işlər görürlər. İndi böyük məmnuniyyətlə deyirəm ki, azərbaycanlı təşəbbüskar iş adamları və Azərbaycanın böyük şirkətləri də artıq Türkiyəyə sərmayə qoymağa başlamışlar. Bildiyiniz kimi, Türkiyənin ən böyük neft-kimya təsisləri ndən olan "Petkim" azərbaycanlılar tərəfindən özəlləşdiriləcəkdir. Bu, bizə böyük qürur verir. İnanıram ki, qarşıdakı illərdə Ceyhanda, Aralıq dənizinin ətrafında çox böyük neftayırma müəssisələri yaradılacaqdır. Bunlara Azərbaycan şirkətləri şərik olacaqdır. Bütün bunların hamısı bizim gələcəyimizin parlaq olduğunu göstərir.

Siyasi sahədə Türkiyə ilə Azərbaycan bir-birini daim dəstəkləmişdir. Azərbaycanın ərazi bütövlüyü Türkiyə üçün çox önəmlidir. Bu, Azərbaycan üçün nədirsə, Türkiyə üçün də elədir. Bu səbəbdən onu da demək istəyirəm ki, azəri türklərinin qan axan yarası sağalmayınca Türkiyə heç vaxt rahat yaşamayacaqdır. Bununla da, əminəm ki, Dağlıq Qarabağ problemi ilə bağlı nə demək istədiyimi anlayacaqsınız. Ən qısa müddətdə bu yaranın sağalmasını və bu məsələnin bitməsini arzu edirik. Dünya bir milyona yaxın azərbaycanlı qaçqının, köçkünün halını görmək istəmir. Amma bunu bütün dünyaya anlatmaq hamımızın borcudur. Mən hər fürsətdə bundan bəhs edirəm və bunun unudulmamasının vacibliyini hər kəsə anladıram.

Dəyərli dostlar, gələn il çox önəmli bir hadisənin, Nuru paşanın rəhbərliyi ilə Qafqaz İslam ordusunun erməni və bolşeviklərin işğalına məruz qalan Bakını azad etməsinin 90-cı ildönümüdür. Bunun önəmi gələcək nəsillərə, gənclərə ən yaxşı şəkildə anladılacaqdır. Çünki tarix elmi və tarix şüuru çox önəmlidir. Bütün nəsillərə, xüsusən gənclərə bunun anladılması əhəmiyyətlidir və bu ildönümünün yüksək səviyyədə keçiriləcəyinə əminəm.

Mədəni sahədə də biz bir-birimizə o qədər bağlıyıq ki, budur, mən türkcə danışıram, siz də türkcə danışırsınız və bir-birimizi başa düşürük. Televiziya verilişlərimiz hər iki ölkədə maraqla izlənilir. Tələbə proqramları çərçivəsində yüzlərlə, minlərlə şagird, tələbə həm Türkiyədə, həm də Azərbaycanda təhsil alır. Burada türk məktəbləri azərbaycanlı qardaşlarımızın təhsilinə yüksək səviyyədə xidmət edir. Universitetlər arasında da yaxşı əməkdaşlıq vardır. Bunların hamısından qürur duyuram.

Ötən il Antalyada keçirdiyimiz türkdilli ölkələrin dövlət başçılarının növbəti zirvə toplantısını hörmətli Əliyevin rəhbərliyi ilə Azərbaycanda keçirəcəyik. Az bir müddətdən sonra türk cəmiyyətlərinin qurultayı keçiriləcək, dünyanın hər tərəfindən, bütün türk dünyasından, Baltikyanı ölkələrdən, Avropadan, Orta Şərqdən - hər yerdən buraya insanlar gələcək, qardaşlarımız gələcəklər. Bütün bunlar bizim sağlam tellərlə bir-birimizə bağlı olduğumuzu bildirən ən yaxşı göstəricidir.

Mən çıxışımı böyük Azərbaycan şairi Bəxtiyar Vahabzadənin sözləri ilə bitirmək istəyirəm:

Bir ağacın iki qolu,

Bir anamın iki oğlu,

O da ulu, bu da ulu,

Azərbaycan-Türkiyə!

Yaşasın Azərbaycan-Türkiyə qardaşlığı!

AZƏRBAYCAN-TÜRKİYƏ BİZNES FORUMU

Noyabrın 7-də Bakı Biznes Mərkəzində Azərbaycan və Türkiyə iş adamlarının biznes forumu keçirilmişdir.

Forum iştirakçıları Azərbaycan Prezidenti İlham Əliyevi və Türkiyə Prezidenti Abdullah Gülü alqışlarla qarşıladılar.

Azərbaycanın iqtisadi inkişaf naziri Heydər Babayev forumu açaraq, ali qonaqları və iş adamlarını salamladı. O, məlumat verdi ki, nazirliyin dəstəyi ilə Azərbaycanda İxracın və İnvestisiyaların Təşviqi Fondu və Türkiyənin Ticarət və Sənaye Palataları Birliyi tərəfindən təşkil olunan bu forum ölkələrimiz arasında işgüzar əməkdaşlığın möhkəmlənməsi və genişlənməsinə kömək edəcəkdir. Nazir xüsusi vurğuladı ki, hər iki ölkə prezidentinin forumda iştirakı Azərbaycanla Türkiyə arasında iqtisadi əməkdaşlığın inkişafına ən yüksək səviyyədə verilən dəstəkdir.

Azərbaycanla Türkiyə arasında əməkdaşlıq əlaqələrinin yüksək səviyyədə olduğunu vurğulayan H.Babayev hazırda respublikamızda 400-dən artıq türk şirkətinin fəaliyyət göstərdiyini, bu şirkətlərdə 5 min Türkiyə, 50 mindən çox Azərbaycan vətəndaşının çalışdığını bildirdi. Xatırlatdı ki, 1995-ci ildən 2006-cı ilədək Türkiyə şirkətləri Azərbaycanın qeyri-neft sektoruna 838,8 milyon ABŞ dolları həcmində sərmayə qoymuş, ölkəmizdə 1,5 milyard dollardan artıq irihəcmli podrat işləri görmüşdür. 2006-cı ildə Azərbaycanla Türkiyə arasında ticarət dövriyyəsinin həcmi 773 milyon dollar, 2007-ci ilin yarım ili ərzində isə 550 milyon dollar təşkil etmişdir.

Türkiyə tərəfdən 200, Azərbaycan tərəfdən isə 250-dən çox rəsmi şəxslərin və iş adamlarının iştirak etdiyi biznes forumunun son dövrdə iki dövlət arasında keçirilən ən böyük iqtisadi tədbir olduğu vurğulandı. Bildirildi ki, forumda Azərbaycan və Türkiyənin sosial-iqtisadi vəziyyəti, sərmayə mühiti, ticarət və biznes imkanları barədə çıxış və təqdimatlar olacaq, ikitərəfli görüşlər zamanı iş adamları əməkdaşlıq perspektivlərini müzakirə edəcəklər.

Forumda çıxış edən Türkiyə Ticarət və Sənaye Palatalar Birliyinin sədri RİFAT HİSARCIKLIOĞLU dost və qardaş ölkələr arasında iqtisadi əlaqələrin inkişaf etdirilməsinə Türkiyə tərəfinin xüsusi önəm verdiyini söyləyərək dedi ki, Prezident Abdullah Gülün səfəri çərçivəsində iş adamlarından ibarət böyük bir heyətin gəlməsi bunu bir daha sübut edir.

O vurğuladı ki, Prezident İlham Əliyevin rəhbərliyi altında həyata keçirilən iqtisadi islahatlar nəticəsində Azərbaycan mühüm uğurlar qazanmış, Qafqaz regionunun lider dövlətinə çevrilmişdir. Bu inkişaf sayəsində indi Azərbaycan iqtisadi və ticarət sahəsində

Türkiyənin ən yaxın tərəfdaşlarından biridir.

Türkiyənin son illərdəki iqtisadi uğurlarından danışan qonaq bildirdi ki, ölkənin xarici ticarət dövriyyəsinin həcmi 221 milyard dolları keçmişdir. Bu nailiyyətlər iqtisadi baxımdan Türkiyəni dünyanın 17-ci, Avropanın isə 6-cı dövlətinə çevirmişdir. Türkiyə tərəfi bu potensialı azərbaycanlı qardaşları ilə paylaşmağa hazırdır.

Azərbaycan və Türkiyə prezidentləri forumun açılışında çıxış etdilər.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN ÇIXIŞI

-Hörmətli cənab Prezident, əziz qardaşım!

Hörmətli xanımlar və cənablar!

Mən Türkiyədən gəlmiş bütün dostlarımızı Azərbaycanda bir daha ürəkdən salamlayıram. Çox şadam ki, bu gün Türkiyə və Azərbaycanın iş adamları bir araya gəlirlər və əminəm ki, biznes forumunun çox gözəl nəticələri olacaqdır.

Bütövlükdə, bizim aramızda olan münasibətlər onu göstərir ki, bütün sahələrdə, o cümlədən iqtisadi sahədə əlaqələrimiz inkişaf etməkdədir. Bu əlaqələrin çox böyük tarixi var və son 16 il ərzində, Azərbaycan öz dövlət müstəqilliyini bərpa edəndən sonra bizim ən yaxın müttəfiqimiz Türkiyə olmuşdur. Bu gün də belədir. O cümlədən iqtisadi sahədə ən çox ticarət əlaqələrimiz olan ölkə Türkiyədir. Mən əminəm ki, gələcək illərdə bu gözəl meyil davam edəcək və hər iki ölkənin artan iqtisadi imkanları, o cümlədən iş adamlarının birgə fəaliyyətinə yeni zəmin yaradacaqdır.

Bu günlər biz böyük məmnuniyyət hissi ilə Türkiyə Prezidentini Azərbaycanda qarşılayırıq, salamlayırıq. Biz çox şadıq ki, hörmətli Prezident öz ilk rəsmi səfərini Azərbaycana edir. Bu, bizim dostluğumuzun, qardaşlığımızın nə qədər möhkəm olduğunu bir daha göstərir. Biz hesab edirik ki, bu səfər və onun nəticələri uzunmüddətli inkişaf perspektivlərini müəyyən edəcək, siyasi, iqtisadi, mədəni və başqa sahələrdə əlaqələrin inkişafında öz müsbət rolunu oynayacaqdır. Dünən imzalanmış sənədlər, o cümlədən iqtisadi sahəyə aid sənədlər, əlbəttə, bu sahədə olan gələcək inkişaf perspektivlərini xeyli dərəcədə müəyyən edir.

Son illər ərzində aparılan siyasi və iqtisadi islahatlar nəticəsində Azərbaycan iqtisadi cəhətdən çox sürətlə inkişaf edir. Biz müstəqilliyimizin ilk illərində çox böyük çətinliklərlə üzləşmişdik. Azərbaycanda, demək olar ki, böhran vəziyyəti yaranmışdı. Bu, həm siyasi, həm də iqtisadi böhran idi. Ölkə iqtisadiyyatı, demək olar ki, iflic vəziyyətinə düşmüşdü. İqtisadi tənəzzül ölkəmizin inkişafına imkan vermirdi, böyük müəssisələr öz fəaliyyətini dayandırmışdı. Beləliklə, Azərbaycanın gələcək inkişaf perspektivləri qeyri-müəyyən idi. Bu vəziyyət 1990-cı illərin əvvəllərində mövcud idi. Ancaq 1993-cü ildən sonra, Azərbaycan xalqı öz milli liderini dəvət etdikdən sonra vəziyyət tədricən sabitləşdi. İqtisadiyyatda və siyasi sahədə yaşanan çətinliklər 1993-cü ildən 1996-cı ilə qədər artıq azalmağa başladı.

1996-cı ildən 2004-cü ilə qədər Azərbaycanın iqtisadiyyatı sürətlə inkişaf etməyə başlamışdır. O illərdə iqtisadiyyatın orta artım dinamikası təxminən on faiz təşkil edirdi və bu bizə imkan verdi ki, Azərbaycan iqtisadi cəhətdən inkişaf etməyə başlasın. Əlbəttə

ki, aparılan hər bir islahat öz nəticələrini dərhal vermir. Bu nəticələri görmək üçün müəyyən bir dövr lazımdır. Hər bir ciddi, köklü islahat bunu tələb edir. Xüsusilə bir ictimai-siyasi quruluşdan digər ictimai-siyasi quruluşa keçən ölkələrdə bu, özünü daha da qabarıq şəkildə göstərir.

Azərbaycan 1991-ci ilə qədər Sovet İttifaqının tərkibində idi, biz müstəqil deyildik. O cümlədən iqtisadi sahədə də kommunist ölkələrinə xas olan prinsiplər mövcud idi. Yəni Azərbaycanda bazar iqtisadiyyatı mövcud deyildi. İqtisadiyyat, demək olar ki, 100 faiz dövlət sektorunda yaranırdı. Əlbəttə ki, keçid dövrü o qədər də asan olmamışdır. İslahatların ilk illərində böyük çətinliklərlə üzləşmişdik. Ancaq o illərdə başlanmış və bu gün davam etdirilən siyasi və iqtisadi islahatlar çox gözəl nəticələrə gətirib çıxarmışdır. 2004-cü ildən ölkə iqtisadiyyatı çox yüksək sürətlə inkişaf etməyə başlamışdır. 2005-ci ildə Azərbaycan iqtisadiyyatı 26 faiz, 2006-cı ildə 35 faiz, 2007-ci ilin 9 ayında isə 27 faiz artmışdır. Yəni, bir sözlə, biz üç il ərzində iqtisadi potensialımızı, demək olar ki, iki dəfəyə yaxın artırmışıq. Əlbəttə ki, bu, ölkəyə əlavə imkanlar yaradır. Bizim böyük investisiya layihələrimiz var. Ölkə iqtisadiyyatı inkişaf etdikcə, sənayenin inkişafı da görünməkdədir. Keçən il Azərbaycanda sənaye istehsalı 35 faiz artmışdır, bu ilin 9 ayında artım 27 faizdir. Yəni, bu onu göstərir ki, iqtisadi artım yerli istehsalın yaranmasına gətirib çıxarır.

Biz regional inkişaf proqramını uğurla icra edirik və son 4 il ərzində Azərbaycanda 610 min yeni iş yeri açılmışdır ki, bunun da 430 mini daimi iş yerləridir. İş yerlərinin açılması, eyni zamanda, işsizliyin aradan qaldırılmasına xidmət göstərir. Bununla bərabər, Azərbaycanda yeni istehsallar yaranır, yəni biz idxaldan asılılığımızı azaldırıq və idxalı əvəzləyən yerli istehsalın yaranmasına çalışırıq. İndi Azərbaycanın bölgələrində iqtisadiyyatın qeyri-neft sektoru çox sürətlə inkişaf edir. Bizim məqsədimiz məhz bundan ibarətdir, qeyri-neft sektorunun inkişafı ilə çox ciddi məşğuluq və bu bizə imkan verəcək ki, ölkə iqtisadiyyatı çoxşaxəli şəkildə inkişaf etsin. Təkcə neft-qaz amilindən asılı olmasın.

Amma, şübhəsiz ki, bu gün və bundan sonrakı illərdə enerji sektoru Azərbaycan iqtisadiyyatını inkişaf etdirən əsas sahə olacaqdır. Azərbaycan öz enerji layihələrini uğurla həyata keçirir, qarşıda duran bütün vəzifələr icra olunubdur. Xəzər dənizinin dibindən çox böyük həcmdə neft-qaz hasil edilir. Bu il Azərbaycanda neft hasilatı təxminən 43-45 milyon ton arasında olacaqdır. Gələn il 50 milyon ton, ondan da çox olacaqdır. Yəni Azərbaycanda gündə 1 milyon barrel neft çıxarılacaqdır. Eyni zamanda, qaz hasilatı da artırılır. Gələn il Azərbaycanda həm "Şahdəniz" qaz yatağından, həm də başqa yataqlardan təxminən 16-18 milyard kubmetr qaz hasilatı gözləyirik. Bildiyiniz kimi, bu qazın bir hissəsi Türkiyəyə, Gürcüstana ixrac olunacaq və ondan sonra Türkiyədən Avropa bazarlarına çatdırılacaqdır. Bu, bizim iqtisadiyyatımız üçün çox önəmli bir amildir və bizə əlavə inam verir.

Azərbaycanın valyuta ehtiyatları indi 7 milyard dollar səviyyəsindədir və gələcək illərdə, əlbəttə ki, bu, kəskin şəkildə artacaqdır. Dünya Bankının apardığı hesablamalara görə, növbəti 20 ildə ancaq neft müqavilələrindən Azərbaycana 200 milyard dollar vəsait daxil olacaqdır. Onlar bunu hesablayanda neftin qiymətini 50 dollar səviyyəsində götürmüşdülər. Yəni bu, ölkəmizin qarşısında çox böyük imkanlar açır.

Biz indi ölkəmizin müasirləşməsi – siyasi islahatların, iqtisadi islahatların, infrastruktur layihələrinin həyata keçirilməsi ilə məşğuluq. Yəni buna çox böyük ehtiyac vardır. İnvestisiya üçün də Azərbaycan çox əlverişli bir ölkədir. Burada çox gözəl sərmayə mühiti var. Biz adambaşına düşən birbaşa xarici sərmayələrin həcminə görə keçmiş sovet məkanında qabaqcıl yerlərdəyik. Son 10-12 il ərzində ölkə iqtisadiyyatına 40 milyard dollar sərmayə qoyulubdur. Bu il 8 milyard dollar qoyulacaqdır. Çox müsbət hal ondan ibarətdir ki, indi daxili sərmayələr xarici sərmayələri üstələyir. Bu o deməkdir ki, daxili imkanlar artır. Yerli firmalar, şirkətlər öz sərmayələrini Azərbaycana qoyurlar. Dövlət sərmayə proqramı da çox genişdir. Gələn il ancaq dövlət xətti ilə Azərbaycanda həyata keçirilən müxtəlif layihələrə 3 milyard dollardan çox vəsait qoyulacaqdır. Yollar, su kəmərləri, qaz xətləri, kommunikasiyalar, infrastruktur layihələri, elektrik stansiyaları, yəni bütün infrastruktur ölkəmizin hərtərəfli inkişafına lazımdır və biz buna nail olmuşuq.

Dövlət xərcləri də artmaqdadır. Son 4 il ərzində Azərbaycanın dövlət büdcəsi təxminən 10 dəfə artıbdır. 2003-cü ildə haradasa 1,3-1,5 milyard dollar səviyyəsində idi. 2008-ci ilin icmal büdcəsi 12 milyard dollar təşkil edəcəkdir. Yəni 8,5 milyon əhalisi olan ölkə üçün bu, kifayət qədər yaxşı bir göstəricidir. Ən əsası isə, bu bizə imkan verəcək ki, həm sərmayələr qoyulsun, həm infrastruktur yeniləşsin, həm də insanların həyat səviyyəsi yaxşılaşsın. Bizim islahatlarımızın əsl məqsədi məhz bundadır ki, Azərbaycan xalqı yaxşı yaşasın, rifah içində yaşasın, işsizlik, yoxsulluq aradan qaldırılsın.

Çox sevindirici hal ondan ibarətdir ki, Azərbaycanda neftdən əldə edilmiş gəlirlər cəmiyyətdə bərabər şəkildə bölünür. Biz buna şəffaflıqla nail olmuşuq. Bu yaxınlarda Birləşmiş Millətlər Təşkilatı Azərbaycan Dövlət Neft Fondunu məhz şəffaflığın təmin olunmasına görə çox böyük mükafatla mükafatlandırıbdır. Azərbaycanda neftdən gələn gəlirlər insanların həyat səviyyəsinin yaxşılaşmasına sərf olunur. Bəzi hallarda neftlə zəngin olan ölkələrdə təbəqələşmə prosesi sürətlə gedir. Yəni varlılar daha da varlanır, yoxsullar daha da müflisləşir, kasıblaşır. Ancaq Azərbaycanda belə deyildir. Əgər 2003-cü ildə yoxsulluq səviyyəsində yaşayanlar 49 faiz idisə, 2007-ci ilin əvvəlinə bu, 20 faizə düşübdür. Mən əminəm ki, 2007-ci ilin yekunlarına görə daha da aşağı düşəcəkdir. Yəni məqsəd yoxsulluğu, işsizliyi tam aradan qaldırmaq, güclü iqtisadiyyat yaratmaq, qeyri-neft sektoru yaratmaq, özəl sektora yardım göstərmək və beləliklə, Azərbaycanın uzunmüddətli, dayanıqlı, neft-qaz qiymətlərindən asılı olmayan inkişafını təmin etməkdir.

Onu da demək istəyirəm ki, bu illər ərzində aparılan islahatlar nəticəsində özəl sektorun inkişafına böyük diqqət verilir və indi özəl sektorun ümumi daxili məhsuldakı payı 80 faizdən yuxarıdır. 1991-ci ildə 0 faiz, 2007-ci ildə 80-81 faiz! Yəni Azərbaycanda çox geniş özəlləşdirmə proqramı həyata keçirilmişdir. İqtisadiyyatımız liberallaşır. İndi olavə tədbirlər nəticəsində Azərbaycanda biznes qurmaq üçün daha da əlverişli şərait olacaqdır. Biz qeydiyyat məsələlərini sadələşdiririk, Azərbaycanda biznes yaratmaq istəyən şirkətlər vahid pəncərə prinsipi əsasında çox qısa bir müddətdə bütün icazələri, qeydiyyatları ala biləcəklər.

Bütün bunlar, əlbəttə ki, ölkənin siyasi çəkisini də artırır, bölgədəki rolunu artırır. Bölgədə, Cənubi Qafqazda gedən proseslər Azərbaycanın iştirakı ilə, bir çox hallarda təşəbbüsləri ilə həyata keçirilir. Biz böyük transmilli enerji layihələrinin təşəbbüskarı olmuşuq. Türkiyə və Gürcüstanla bərabər bu layihələri həyata keçirməklə ölkələrimizin birləşməsinə nail olmuşuq. İqtisadi və siyasi sahədə bütün geosiyasi vəziyyətin dəyişdirilməsinə nail olmuşuq.

Bu gün Azərbaycanı Türkiyə ilə birləşdirən neft, qaz kəmərləri, bu yaxınlarda başlanacaq dəmir yolu layihəsi – bütün bunlar, əlbəttə ki, bizim aramızda olan dostluq, qardaşlıq münasibətlərini daha da gücləndirir. Biz də bunu çox istəyirik. İstəyirik ki, daha da birləşək, bütün sahələrdə sıx əməkdaşlıq olsun, o cümlədən biznes aləmi də bir-biri ilə yaxşı əlaqələr qursun. Bu da var. Bu gün səslənən çıxışlarda göstərildi ki, Azərbaycanda nə qədər türk şirkəti var. Minlərlə Azərbaycan vətəndaşı bu şirkətlərdə çalışır.

Biz Türkiyənin uğurlarına çox sevinirik. Bu gün Rifat bəyin çıxışında eşitdim ki, Türkiyə Avropanın 6-cı iqtisadiyyatıdır. Dünyada 17-cidir. Yəni bu, böyük bir qüvvədir. Bu, bizi də gücləndirir. Siz həm iqtisadi, həm də siyasi cəhətdən nə qədər güclü olsanız, o qədər də Azərbaycanın gücü artacaqdır. Biz bu qarşılıqlı imkanlardan istifadə etməliyik, qarşılıqlı ticarəti, biznesi daha da irəliyə aparmalıyıq. Bütün mümkün olan layihələrdə birgə fəaliyyət göstərməliyik.

Dünən danışıqlar zamanı mən qeyd etdim ki, Azərbaycanda həm maliyyə həcmi, həm də texniki parametr baxımından ən böyük layihələri türk firmaları icra edirlər. Hava limanları, xəstəxanalar, yollar, su kəmərləri – yəni bütün böyük layihələrin icraçıları türk şirkətləridir. Biz onların fəaliyyətindən çox razıyıq. Onlar bəzi hallarda investor kimi, bəzi hallarda podratçı kimi çıxış edirlər. Gələcəkdə bu imkanlar daha da artacaqdır. Çünki bir tərəfdən, Azərbaycan daha xarici maliyyə qurumlarının kreditlərindən asılı vəziyyətdə deyil, biz özümüz bəzi layihələri maliyyələşdiririk və qonşu ölkələrə kreditlər veririk. Digər tərəfdən, yaranan əlavə imkanlar, əlbəttə, türk şirkətləri üçün də yeni fürsət açacaqdır.

Biz hörmətli cənab Prezidentlə dünən bir məsələyə də böyük məmnuniyyətlə toxunduq. Bu, bizim münasibətlərimizdə bir yenilikdir. Artıq Azərbaycan firmaları Türkiyə iqtisadiyyatına investisiya qoyur. Biz bunu alqışlayırıq. Deyə bilərəm ki, indi Azərbaycan şirkətləri, xüsusilə enerji şirkətləri kifayət qədər böyük maliyyə imkanlarına malikdir və onların xaricdə əsas sərmayə məkanı məhz Türkiyədir. Biz bunu çox alqışlayırıq. Mən əminəm ki, gələcəkdə qarşılıqlı yatırımlar daha da böyük həcmdə qoyulacaqdır. Bu, həm ölkələrimizi birləşdirəcək, həm də iş adamları üçün yeni imkanlar yaradacaqdır.

Mən sizin hamınızı bir daha ürəkdən salamlayıram. Bu biznes forumuna çox böyük diqqət göstərirəm. Bilirəm ki, biznes forum zamanı müxtəlif sazişlər bağlanacaqdır, iki ölkənin imkanları, qanunvericilik bazası, biznes imkanları təhlil ediləcəkdir ki, hələ Azərbaycanda fəaliyyət göstərməyən türk şirkətləri də buraya gəlsinlər. Azərbaycan sizin vətəninizdir. Biz bir millətik, iki dövlətik və bizim gücümüz birlikdədir.

Əziz qardaşlar, dostlar, sizi bir daha ürəkdən salamlayıram və fəaliyyətinizdə uğurlar diləyirəm. Sağ olun.

TÜRKİYƏ PREZİDENTİ ABDULLAH GÜLÜN ÇIXIŞI

- Dəyərli qardaşım, hörmətli Prezident İlham Əliyev!

Hörmətli nazirlər!

Hörmətli iş adamları, dostlar!

Sözlərimə bu gün Azərbaycanda sizlərlə bərabər olmaqdan çox məmnunluq duyduğumu ifadə etməklə başlamaq istəyirəm. Dünəndən bu günə qədər bizə göstərilən qonaqpərvərliyə görə çox təşəkkür edirəm.

Sizin dediyiniz kimi, bu, mənim Şimali Kipr Türk Cümhuriyyətindən sonra xaricə etdiyim ilk rəsmi səfərimdir. Bu səfəri Azərbaycana etməyim dostluğa, qardaşlığa, əlaqələrimizə verdiyim əhəmiyyəti göstərir. Sağ olun, Siz məni təbrik etdiyiniz zaman dəvət etmişdiniz. Bu dəvəti bu şəkildə icra etmək, həqiqətən də, məni çox məmnun edir.

Bu səfərə sadəcə nazir dostlarım, dövlət əhəmiyyətli bürokratlarla gəlmədim. Bu səfərin başqa bir xüsusiyyəti də Türkiyənin seçilmiş iş adamları ilə birlikdə – Türkiyə Ticarət və Sənaye Palataları Birliyinin təşkilatçılığı ilə hər sektoru təmsil edən, iş görmək istəyən, yaxud şərik iş görməyi düşünən bir çox bacarıqlı iş adamları ilə bərabər gəldik.

Bu gün azəri iş adamları ilə birlikdə onların toplantısına qatılmaq Sizi nə qədər çox məmnun etdisə, məni də o qədər məmnun edir və həyəcanlandırır. Bir az əvvəl Birliyin sədrinin çıxışını ikimiz də çox diqqətlə izlədik. Potensialı açıq şəkildə ortaya qoydu. Əslində, son illər Türkiyə həqiqətən çox böyük işlər gördü. Bir az əvvəl söylədiyiniz kimi, Avropanın 6-cı iqtisadiyyatı olmuş, xarici ticarətin həcmi təqribən 220 milyard dollardır, ixrac 100 milyard dolları keçir. Bu ixracda çox önəmli olan bəzi məqamları qeyd etmək istərdim. Məsələn, avtomobil ixracı 20 milyard dolları, dəmir-polad ixracı 12 milyard dolları keçmişdir. Keçmişdə olduğu kimi, ixrac sadəcə, kənd təsərrüfatı və yüngül sənaye məhsulları deyil, daha fərqli məhsullar istehsal edilməyə başlandı, Avropa və Amerika bazarlarına ixrac olundu.

Təbii ki, biz nə qədər çox güclənsək, siz də o qədər çox qürurlanarsınız. Siz də nə qədər çox güclənsəniz, inkişaf etsəniz, biz də o qədər qürurlanarıq. Azərbaycandakı inkişafı mən gözlərimlə görürəm. Çünki buraya daha əvvəl də müxtəlif səbəblərlə – xarici işlər naziri kimi, başqa işlərlə əlaqədar gəldim. İndi Prezident olaraq gəlirəm və inanın ki, bunu görmək bizi çox qürurlandırır.

Keçən il bu salonda toplantı keçirdik. Siz o vaxt bizə yemək verdiniz. Bu salonun ətrafında belə inşaat işləri getmirdi. Bu körpülər, yollar, binalar yox idi. Bir ildən bəhs edirəm. Hər dəfə gələndə Bakının nə qədər dəyişdiyini, inkişaf etdiyini görmək, inanın, bizi çox sevindirir. Anadoluda hər hansı bir şəhərə gedib oradakı inkişafı gördükdə nə qədər seviniriksə, hansı hissiyyatı keçiririksə, burada da eyni hissiyyatı keçiririk. Buna görə başda zati-aliniz olmaqla, əməyi keçən hər kəsi təbrik edirəm.

Aramızda çox böyük layihələr həyata keçirilir. Bunların əsasında dostluq, bərabərlik və qardaşlıq var. Türkiyənin qurucusu, böyük öndər Atatürkün "Azərbaycanın kədəri, Türkiyənin kədəri, Azərbaycanın sevinci, bizim sevincimizdir" dediyi kimi, Azərbaycanın ulu öndəri Heydər Əliyevin də "Biz bir millət, iki dövlətik" müdrik kəlamı, əslində, hər şeyin təməlini qoymuşdur. İndi biz buna uyğun gedirik, daha böyük uğurlar qazanmağa

çalışırıq. Sadəcə dostluq və qardaşlıq duyğularından başqa, böyük layihələr həyata keçiririk və xalqlarımızın mənafeyinə uyğun böyük işlər görürük.

Dünəndən bəri bir neçə dəfə demişik, amma dəyərli olduğu üçün təkrarlayırıq. Bakı-Tbilisi-Ceyhan, Bakı-Tbilisi-Ərzurum neft və qaz, Bakı-Tbilisi-Qars dəmir yolu layihələri əvvəllər xəyal, röya kimi görünən, bəzilərinin "Olmaz!" deyərək, əngəlləməyə çalışdıqları layihələrdir. Bütün bunlar bu gün artıq funksiyasını yerinə yetirir, uğurla işləyir. Azərbaycanın nefti Aralıq dənizinə gedir, hətta Qazaxıstan da buna qoşulur. Dəyərli qardaşım keçən il Qazaxıstana getdi, hörmətli Nazarbayevlə bu müqaviləni bağladılar. Artıq Orta Asiyanın nefti Aralıq dənizi vasitəsilə bütün dünyaya çatdırılacaqdır. Bütün bunlar həyata keçdi.

İndi yeni-yeni böyük layihələrin axtarışında olmaq lazımdır. İnşallah, bunlar da həyata keçəcəkdir. İnanıram ki, qısa müddətdə Aralıq dənizi sahilində böyük neftayırma müəssisələrinin yaradılmasında Azərbaycan da iştirak edəcək, buradan bütün dünya bazarlarına çıxış əldə edəcəkdir. Eyni şəkildə, Qara dənizi Aralıq dənizi ilə birləşdirən layihələrin həyata keçiriləcəyinə əminəm.

Təbii, bizi sevindirən bir məsələ də budur ki, təkcə türk iş adamları Azərbaycanda fəaliyyət göstərmirlər, artıq Azərbaycanın böyük şirkətləri də Türkiyədə fəaliyyətə, özlərini göstərməyə başlamışlar. Son özəlləşdirmələrdə Azərbaycan şirkətlərinin uğurları, böyük neft kimyası müəssisələrində "biz də varıq" demələri, inanın ki, Türkiyə üçün böyük bir qürur mənbəyi olmuşdur. Eyni şəkildə, neftayırma layihələrində də Azərbaycanın yer alacağına inanıram. Bunun üçün birlikdə çalışırıq.

Azərbaycanda türk iş adamlarının müvəffəqiyyəti hər kəsə məlumdur. Türk iş adamlarına güvəndiyiniz, onlara bu fürsəti verdiyiniz üçün ölkəm, dövlətim və bütün vətəndaşlarım adından Sizə bir daha təşəkkür edirəm. Təbii, Siz onlara etimad göstərməsəniz, bu müvəffəqiyyətə nail ola bilməzlər. Azərbaycanda böyük inkişaf var, xüsusən infrastruktur sahəsində bir çox layihələr tamamlanmışdır. Yeniləri davam etməkdədir. Bunları yaxından müşahidə edirik. Siz də buna çox yaxından nəzarət edirsiniz. Bunlar hamımız üçün qürur mənbəyidir.

Müasir dövrdə dövlət və hökumətlərin üzərinə düşən vəzifələr iş dünyasında əməkdaşlığın zəminini, hüquqi sənədləri, iqtisadi müqavilələri yaratmaqdır. Bütün bunları gördükdən sonra yollar, dəmir yolları çəkməkdir. Ondan sonra şirkətlər səmərəli fəaliyyət göstərərək, ölkələri bir-biri ilə yaxşı formada birləşdirəcəklər. Bu istiqamətdə də önəmli addımlar atılmışdır. Dünən imzaladığımız uzunmüddətli ticarət və iqtisadi əməkdaşlıq proqramı və planı, qısa müddətdə içərisində imzalanacaq digər ticarət müqavilələri bunlara imkan verəcək və inanıram ki, bu bölgədə böyük müştərək iqtisadi zona yaradılacaqdır. Təbii ki, buna Qafqazdakı digər ölkələr də qatıla bilər. Necə ki, Gürcüstan iştirak edir və bu böyük layihələrdən pay alır. Burada sülh və əmin-amanlıq olduqdan, torpaq işğallarına son qoyulduqdan sonra başqa dövlətlər də bu layihələrdə iştirak edə bilər.

Biz hamımız bu bölgədə sabitlik və təhlükəsizlik, bir-birinə qarşılıqlı hörmət olmasını və hər bir ölkənin ərazi bütövlüyünə hörmət edilməsini, iqtisadi yüksəlişin, rifahın bütün bölgəyə yayılmasını istəyirik. Bu baxımdan başqa fikrimiz yoxdur. Amma təbii ki,

torpaq güclə işğal edilirsə, bu qədər qaçqın, köçkün ən çətin şəraitdə yaşayırsa, bunlara da göz yuma bilmərik.

Hörmətli Prezident, dəyərli qardaşım!

Hörmətli dostlar!

Biz yolunuzu açmaq üçün buradayıq. Siz də dürüst çalışaraq, özünüzü isbat edəcəksiniz. 16 il içərisində Azərbaycanın inkişafı böyük təqdirlə izlənilir. Bu inkişaf sadəcə, iqtisadi sahədə deyil, başqa sahələrdə də mövcuddur. Öz hərbi hissələrini sağlam şəkildə qurması, ordusunun, iqtisadiyyatın güclənməsi, Avropa Şurasının üzvü olan Azərbaycanda demokratiyanın günbəgün dərinləşməsi və güclənməsi Azərbaycanı Qafqazda parlayan bir ulduza çevirmiş, dünyanın diqqətini çəkməyə başlamışdır. Bütün bu uğurlarda Türkiyə əvvəldən hər zaman Azərbaycanın yanında olmuşdur. Türkiyə böyük mübarizələrdə Azərbaycanın yanında olmuşdur və buna davam edəcəkdir. Bunu bütün dünya bələ bilməlidir və bilir. Bu birlik iki ölkə arasında olan çox səmimi əlaqələrdən irəli gəlir. Bu, eyni millətin iki dövlətinin əlaqələridir. Ona görə də çox özəl, strateji əlaqələrdir və getdikcə daha çox güclənəcəkdir.

Hökumətlərimizin, hər iki dövlətin siyasi iradəsi olduqca açıqdır. Bu toplantını bunun üçün, sizi təşviq etmək üçün edirik. Sizlər nə qədər çox uğur qazansanız, böyük layihələri ortaq şəkildə həyata keçirsəniz, biz o qədər məmnun oluruq. İnanıram ki, önümüzdəki illər yeni-yeni böyük layihələrin, arzuların gerçəkləşdiyi illər olacaqdır. Buna tam inanıram.

Mən bu vəsilə ilə bizə göstərdikləri qonaqpərvərliyə və dostluğa görə dəyərli qardaşıma bir daha təşəkkür edirəm. Özümüzü öz evimizdəki kimi hiss edirik. Əslində, öz evimiz, öz yurdumuzdur. Bizim atalarımız buralardan gəlmişlər.

Sabah Gəncəyə gedəcəyəm. Türkiyənin dövlət adamının Bakıdan kənarda yerləşən başqa şəhərə ilk dəfə getməsi, Gəncəyə getməyim mənə xüsusi qürur verir. Orada ortaq tariximizi yaşadan çoxlu nişanələr, böyük xatirələr vardır. Bu xatirələri gedib yerində görmək mənə bir həyəcan verir.

Sizə bir daha müvəffəqiyyətlər diləyirəm. Azərbaycanın gələcəyinə olan inamımı təkrarlayıram. Türkiyə-Azərbaycan qardaşlığının, dostluğunun dərin kökü, çox əbədi olduğunu və gələcəyinin də çox parlaq olduğunu bir daha vurğulamaq istəyirəm.

Hamınıza müvəffəqiyyətlər diləyirəm.

MİLLİ MƏCLİSDƏ GÖRÜŞ

Türkiyə Respublikasının Prezidenti Abdullah Gül noyabrın 7-də Milli Məclisə gəlmişdir.

Ali qonağı parlamentin binası önündə Milli Məclisin sədri Oqtay Əsədov, sədrin birinci müavini Ziyafət Əsgərov, müavinlər Bahar Muradova, Valeh Ələsgərov, Milli Məclis Aparatının rəhbəri Səfa Mirzəyev və digər rəsmi şəxslər qarşıladılar.

Prezident Abdullah Gül və nümayəndə heyətinin üzvləri parlament binasında Heydər Əliyev Xatirə muzeyi ilə tanış oldular. Qonaqlara muzey barədə ətraflı məlumat verildi.

Sonra Milli Məclisin sədri Oqtay Əsədov və Türkiyə Prezidenti Abdullah Gül arasında görüş keçirildi.

Ali qonağı və onu müşayiət edən nümayəndə heyətini səmimiyyətlə salamlayan Oqtay Əsədov dost ölkənin dövlət başçısı Abdullah Gülü Türkiyənin 11-ci Prezidenti seçilməsi münasibətilə təbrik etdi və gələcək fəaliyyətində ona uğurlar arzuladı.

Milli Məclisin sədri dedi ki, eyni köklə, tarixə, mədəniyyətə malik olan Türkiyə ilə Azərbaycan arasında əlaqələr sürətlə inkişaf edir. Ümummilli liderimiz Heydər Əliyevin dediyi kimi, biz bir millət, iki dövlətik. Böyük inkişaf yolu keçmiş Türkiyə indi Avropanın ən nüfuzlu və qüdrətli dövlətlərindən biridir. Azərbaycan bundan qürur duyur. İki qardaş ölkə arasında əlaqələr Sovet İttifaqı dövründə də olmuşdur. Amma Azərbaycan müstəqilliyini ikinci dəfə bərpa etdikdən sonra münasibətlərimiz daha da inkişaf etmiş, strateji tərəfdaşlıq səviyyəsinə yüksəlmişdir.

İqtisadi əlaqələrdən, türkiyəli iş adamlarının Azərbaycan iqtisadiyyatına böyük həcmdə sərmayə qoymasından danışan Oqtay Əsədov Azərbaycan və Türkiyənin beynəlxalq əhəmiyyətli layihələrin təşəbbüskarı və iştirakçısı olduğunu xatırlatdı. O dedi ki, Bakı-Tbilisi-Ceyhan, Bakı-Tbilisi-Ərzurum neft və qaz kəmərləri, Bakı-Tbilisi-Qars dəmir yolu layihəsi Avropa üçün də böyük önəm daşıyır.

Parlamentlərarası əlaqələrdən söhbət açan sədr Milli Məclisdə dünyanın 70-dən çox ölkəsi ilə dostluq qrupunun fəaliyyət göstərdiyini və bunlardan ən böyüyünün məhz Azərbaycan-Türkiyə parlamentlərarası dostluq qrupu olduğunu söylədi. O bildirdi ki, Türkiyənin Dağlıq Qarabağ münaqişəsi ilə bağlı mövqeyini, Azərbaycanın ərazi bütövlüyünü daim dəstəkləməsini xalqımız yüksək qiymətləndirir. Azərbaycan da Şimali Kipr məsələsində və PKK ilə mübarizədə Türkiyənin mövqelərini müdafiə edir və daim onun yanındadır.

Türkiyə Prezidenti Abdullah Gül dövlət başçısı kimi ilk rəsmi səfərini Azərbaycana etməsini ölkələrimiz arasındakı dostluq əlaqələrinə verdiyi önəmin bariz nümunəsi kimi səciyyələndirdi. O, Azərbaycana hər gəlişində müşahidə etdiyi dinamik inkişafdan, müsbət dəyişikliklərdən qürur duyduğunu və Azərbaycanın güclü iqtisadiyyata, orduya malik olmasından sevindiyini söylədi.

İki qardaş ölkə arasında münasibətlərin daha da möhkəmləndirilməsi üçün siyasi iradənin olduğunu vurğulayan Prezident Abdullah Gül dedi ki, Türkiyə Böyük Millət Məclisində və Azərbaycanın Milli Məclisində fəaliyyət göstərən dostluq qrupları bu iradədən səmərəli bəhrələnməlidir.

* * *

Sonra Türkiyə Prezidenti Abdullah Gül Milli Məclisin deputatları ilə görüşdü.

Azərbaycan parlamentinin deputatları ali qonağı alqışlarla qarşıladılar.

Görüşü Milli Məclisin sədri Oqtay Əsədov açaraq dedi:

-Hörmətli Milli Məclis üzvləri!

Əziz qonaqlar!

Hörmətli xanımlar və cənablar!

Türkiyə Respublikasının yeni seçilmiş on birinci Prezidenti Abdullah Gül ilk rəsmi səfərini Azərbaycana etmişdir. Dünən Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin söylədiyi kimi, Türkiyə-Azərbaycan əlaqələri, dostluğu və qardaşlığının dünyada analoqu yoxdur. Bu münasibətlərin bariz nümunəsi kimi, Türkiyə Respublikasının yeni Prezidenti ilk səfərini Azərbaycana etmişdir. Biz çox şadıq ki, möhtərəm Prezident Abdullah Gül parlamentlərarası əlaqələrin inkişafına böyük önəm verərək, səfərin ikinci günü Milli Məclisə təşrif buyurmuşdur.

Zati-aliləri, bizim deputatlarımız və mən Sizin dəyərli fikirlərinizi bölüşməyinizdən çox şərəf duyardıq.

İndi isə icazə verin, sözü Türkiyə Respublikasının Prezidenti zati-aliləri cənab Abdullah Gülə verim. Cənab Prezident, buyurun.

TÜRKİYƏ PREZİDENTİ ABDULLAH GÜLÜN ÇIXIŞI

-Hörmətli sədr!

Möhtərəm millət vəkilləri!

Azərbaycan xalqının Milli Məclisinin yüksək kürsüsündən sizlərə xitab etməkdən böyük şərəf duyuram. Mənə göstərdiyiniz bu məhəbbətə görə hamınıza çox təşəkkür edirəm.

Aramızda əvvəllər Avropa Şurasındakı və xarici işlər naziri kimi fəaliyyətim zamanı bərabər çalışdığım və tanıdığım bir çox millət vəkili dostum vardır. İndi onları görürəm və bundan böyük məmnunluq duyur, özümü evimdəki, öz Məclisimizdəki kimi hiss edirəm.

Azərbaycan ilə Türkiyə arasında əlaqələrin siyasi, iqtisadi, diplomatik, enerji, ticarət, təhsil, mədəniyyət, elm və informasiya kimi çoxsahəli və zəngin bir təməli mövcuddur. Bütün bu əlaqələrin ən önəmli faydası isə iki ölkə arasındakı kök, dil və inanc birliyidir. Əlaqələrimizi başqa ölkələrlə münasibətlərdən fərqləndirən və onlara xüsusi xarakter verən məhz budur. Dünyada eyni kökdən olduğu halda, fərqli dildə danışan, eyni dildə danışdığı halda, fərqli soydan olan bir çox ölkə vardır. Bizə üstünlük gətirən, əlaqələrimizi sözün əsl mənasında qardaşlıq səviyyəsinə çıxaran, kimsənin etiraz edə bilmədiyi məhz bu birlikdir. Yəni eyni kökdən, dildən olmağımızdır.

Hörmətli millət vəkilləri, əlaqələrimizdən danışarkən işlətdiyimiz "qardaş" kəlməsi üzərində bir az dayanmaq istəyirəm. Bu qardaşlıq duyğusunu bu şəkildə görürük ki, azəri türkünün canı yandığı zaman, bizim də canımız yanar, o ağladıqda, biz də ağlayarıq. O xoşbəxt olduqda, biz də xoşbəxt oluruq. Bu, elə bir səmimi duyğudur ki, beynəlxalq əlaqələri təsvir etmək üçün işlədilən mənafe, mənfəət və güc müvazinəti kimi düşüncələr onu anlamaq üçün kifayət etməz. Qardaşlıqda mənfəət olmaz, düşmənçilik olmaz. Biz istəyirik ki, ölkəmizin varlığı azəri türkünə güvənc versin.

Hörmətli sədr!

Dəyərli millət vəkilləri!

Bu gün yaşanan rifah və əmin-amanlığın ancaq demokratik üsullarla təmin edilə biləcə-

yi barədə bir yekdillik vardır. Demokratikləşmə davamlı mükəmməlləşmə zamanıdır. Demokratiya özgünlüklə on yaxşı uzlaşan siyasi sistem olaraq qəbul edilməkdədir. Bu mövzuda mərhum Cümhurbaşqanı Heydər Əliyev "Azərbaycanın yolu demokratiya yoludur" deyərək, mövqeyini ən qəti şəkildə ortaya qoymuşdur. Bu mənada Azərbaycanın demokratiyanı gücləndirmək və insan haqları standartlarını yüksəltmək üçün səmimi fəaliyyət içərisində olduğunu görürük. Bu fəaliyyətin davamlı olmasını qətiyyətlə dəstəkləyirik. Xüsusilə bütün dünyanın yaxından izləyəcəyi gələn il keçiriləcək prezident seçkiləri Azərbaycan demokratiyasının inkişafı və kamilləşməsi baxımından xüsusi önəm daşıyacaqdır.

Hörmətli sədr!

Möhtərəm millət vəkilləri!

Əlaqələrimizin genişləndirilməsi üçün böyük potensial vardır. Bizim vəzifəmiz, çətin də olsa, hər sahədə işbirliyi üçün daim çalışmaqdır. Əzminizin qarşısında duracaq güc yoxdur.

Rəsmi açılışı keçən il olan, bəzilərinin gerçəkləşdirilməsinin imkansız hesab etdiyi, xəyal adlandırdığı dünyanın ən uzun ikinci boru xətti – Bakı-Tbilisi-Ceyhan neft kəməri sayəsində Azərbaycan nefti artıq Türkiyə ərazisi vasitəsilə dünya bazarlarına çatdırılır. Qazaxıstanın da bu layihəyə qatılması ilə Bakı-Tbilisi-Ceyhan boru xətti regional işbirliyinin ən gözəl misalı kimi daha güclü bir şəkildə ortaya çıxmışdır və dünyada getdikcə daha çox diqqət çəkməkdədir.

Bakı-Tbilisi-Ərzurum təbii qaz boru xətti layihəsi də Xəzər dənizinin təbii qaz ehtiyatlarının Türkiyə ərazisi ilə beynəlxalq bazara çatdırılmasına yol açılmışdır. Müvəffəqiyyətlə gerçəkləşdirilən bu iki layihə bizi strateji işbirliyimizin gələcəyi üçün daha da cəsarətləndirən nəticələrdir. Qarşıdakı zamanda çərçivə sazişi bu il Tbilisidə imzalanan Bakı-Tbilisi-Qars dəmir yolu xəttinin təməlinin qoyulmasını izləyəcəyik.

Adı çəkilən layihələr Xəzər dənizi hövzəsindən kənarda, Orta Asiya ölkələrinin, hətta Çinin Qərblə əlaqəsi baxımından önəmli işləri yerinə yetirməklə yanaşı, digər tərəfdən də Türkiyə, Azərbaycan və Gürcüstanı sağlam şəkildə bir-birinə bağlamaqdadır. Digər bölgə ölkələrinin də bu əməkdaşlıqda yer alması üçün onların gözlənilən addımlar atacaqlarına ümid edirəm. Bütün bu layihələr istər bölgədə sülhə, sabitliyə, istərsə də qlobal enerji təhlükəsizliyinə böyük töhfə verməkdədir.

Bölgədə atılan mühüm addımları izləməklə keçinən və adıçəkilən layihələrdən kənarda qalmağa vərdiş edənlər xətalarının əziyyətinin nə qədər ağır olduğunu qarşıdakı illərdə anlayacaqlar. Sürətlə qloballaşan dünyada bu cür regional inteqrasiya proseslərindən kənarda qalmaqla sabit bir dövlət imici yaratmaq mümkün deyildir.

Dəyərli millət vəkilləri, bölgəmiz barədə danışarkən ortaq qonşumuz olan Ermənistan haqqında da bəzi düşüncələrimi sizlərlə bölüşmək istəyirəm. Bilirsiniz ki, Türkiyə Ermənistan Respublikasını 1991-ci il dekabrın 16-da tanımışdır. Bundan başqa, Türkiyə Ermənistanı Qara dənizdə sahili olmadığı halda, Qara Dəniz İqtisadi Əməkdaşlıq Təşkilatına dəvət etmişdir. Buna baxmayaraq, Türkiyə ilə Ermənistan arasında diplomatik əlaqələrin yaradılmasını əngəlləyən məsələlər ortaya çıxmışdır. Ancaq vəziyyətin bugünkü nöqtəyə çatmasında Türkiyənin cavabdeh olmasını düşünmürəm. Bu vəziyyət-

dən məmnun olduğumuzu söyləyə bilmərəm. Çünki bölgəmizin sabitliyi baxımından regiondakı bütün ölkələrin bir-biri ilə ikitərəfli və çoxtərəfli səviyyədə yaxşı qonşuluq əlaqələri saxlamasının gərəkli olduğuna inanıram.

Bir qonşusu Türkiyəyə qarşı düşmənçilik davranışı içində bulunmasının, digər tərəfdən də, digər qonşusu Azərbaycanın torpaqlarını işğal altında saxlamasının səbəbkarının Ermənistan olduğunu artıq bütün dünya görməlidir. Biz Cənubi Qafqaz bölgəsinin sülh və sabitliyi üçün təməli beynəlxalq hüquq normaları olan ərazi bütövlüyünə, anlaşmalarla tanınmış sərhədlərin dəyişməzliyi və toxunulmazlığına hörmət edilməsini, münaqişələrin sülh yolu ilə çözümünə sadiqlik göstərilməsini əsas qəbul edirik. Dağlıq Qarabağ probleminin Azərbaycanın ərazi bütövlüyü əsasında sülh yolu ilə çözümü üçün lazım olan köməyi və dəstəyi bundan sonra da verəcəyik.

Bundan başqa, Ermənistanın saxta iddiasına gəlincə, tarixin araşdırılmasını tarixçilərin öhdəsinə verilməsinin zəruriliyi barədə fikrimizdə heç bir dəyişiklik olmadığını, yazılmış tarixin birlikdə araşdırılması üçün müştərək tarix komissiyasının yaradılması haqqında təklifimizin hələ də keçərli olacağını bir daha vurğulamaq istəyirəm.

Ermənistan 1915-ci il hadisələrinin şərhinin başqa ölkələrin parlamentlərində müzakirəsini davam etdirdikcə, Türkiyə ilə Ermənistan arasındakı əlaqələrin normallaşdırılması ilə bağlı heç bir inkişaf gözlənilməməlidir.

Burada bir məsələni xüsusilə vurğulamaq istərdim. Bölgəmizdəki çoxtərəfli enerji, rabitə, nəqliyyat layihələri Cənubi Qafqazdakı iki ölkə – Azərbaycan və Gürcüstan ilə Türkiyə arasında sağlam təməllərə söykənən güclü bir müştərək dəhliz yaratmaqdadır. Belə bir sülh və əməkdaşlıq ruhunda hərəkət edilməsinin xalqlara nə kimi qazanc gətirdiyini ümidvararm ki, Ermənistan xalqı da görür. Bölgədəki layihələrin sülh, əməkdaşlıq, sabitlik və yaxşı qonşuluq əlaqələrinə hörmət edən digər ölkələrə də açıq olduğunu Ermənistan rəhbərləri də başa düşməlidirlər.

Hörmətli millət vəkilləri, cəmi on altı il əvvəl nə Sovetlər Birliyinin dağılacağı, nə Azərbaycanın yenidən müstəqilliyinə qovuşacağı, nə də Bakı-Tbilisi-Ceyhan, Bakı-Tbilisi-Ərzurum və Bakı-Tbilisi-Qars kimi iri layihələrin imzalanması ağıla gəlmirdi. Bütün bunlar bir xəyal, yuxu kimi görünürdü. Amma bu gün yerləşdiyimiz bölgə yeni bir coğrafi həqiqətin məhək daşını təşkil edən bir vəziyyətə gəlmişdir. Bu yeni coğrafi həqiqət Avrasiya geosiyasətidir.

Xəzər hövzəsi Avrasiyanın məhək daşını təşkil edən, Qərblə Şərqi bir-biri ilə qovuşduran və bu qovuşmada tarixi İpək yolunu günümüzün çağdaş layihələri ilə zənginləşdirərək gerçəklik halına gətirən xüsusiyyətə malikdir. Yaşadığımız yüzilliyə öz imzasını atan Avrasiyadır. Türkiyə ilə Azərbaycan bu bölgənin tam mərkəzində yerləşən, Qərblə Şərqi bir-biri ilə qovuşduran bu önəmli layihələri həyata keçirən ölkələr olaraq, Avrasiya geosiyasətinin əsasını təşkil edir.

Türkiyə Avropa Birliyinə üzvlük məsələsinin müzakirəsini davam etdirir. Ölkəmiz Avropa Birliyinə üzv olduqdan sonra Cənubi Qafqaz bölgəsi də Avropa ilə qonşu olacaqdır. Bölgəmizdə enerji, rabitə və nəqliyyat sahələrində həyata keçirilən layihələrin ölkələrimiz arasında yaratdığı ortaq məxrəc Avropa Birliyinin Cənubi Qafqazda həyata keçirdiyi Avropa Qonşuluq siyasəti ilə uyğundur. Bizim sadəcə, bu layihələrlə deyil,

eyni zamanda, zəngin insan resursları ilə də Qərblə Şərqin bütövləşməsində önəmli bir rol oynamaq imkanımız vardır. Bu nöqteyi-nəzərdən Qərb ilə Şərq arasında bu əməkdaşlıq platformasının türk dilində danışan xalqların yaşadığı ərazinin hamısını əhatə edəcəyinə və faydalı olacağına inanıram.

Qarşımızdakı dövr – enerji, nəqliyyat və rabitə sahəsindəki layihələrin genişlənməsi, yayılması Qərb ilə Şərqin bir-birinə bağlanmasında bir dönüş yaradacaqdır. Məsələn, Bakı-Tbilisi-Qars dəmir yolu layihəsi İstanbulda Mərmərə dənizinin altından keçməklə Avropa ilə Asiya qitələrini birləşdirəcək "Marmaray" layihəsi ilə birləşdikdə, Çindən Avropaya qədər davamlı bir nəqliyyat dəhlizi yaradılacaqdır. Eyni şəkildə, Azərbaycan ilə Türkmənistan arasında Xəzərdən keçəcək təbii qaz boru xətti layihəsi gerçəkləşəndə, Xəzər hövzəsi Şərq-Qərb enerji dəhlizinin ən önəmli tranzit mərkəzinə çevriləcəkdir. Bunların həyata keçirilməsi asan deyildir. Bunlar bizim Avrasiya baxışımızın təməl daşlarıdır. Bu baxış türk dünyasının da ortaq baxışıdır.

Hörmətli sədr!

Hörmətli millət vəkilləri!

Azərbaycanın günbəgün güclənməsi bizə səmimi bir sevinc verir və azəri türklərinə olan inamımızı, güvənimizi daha da artırır. Əlaqələrimizin 16-cı ildönümünə təsadüf edən, bu dövrdə hər baxımdan tarixi önəm daşıyan və müştərək gələcəyimizə işıq tutacaq bu səfərimizin nəticəsi əsasən budur. Həm azərbaycanlı qardaşlarımızın parlaq gələcəyinə, həm də iki ölkə və xalq arasındakı qardaşlığın bölgəmizin, hətta daha geniş bir coğrafiyanın parlaq gələcəyinə təsir göstərəcəyinə inamımız daha da güclənməkdədir. Bizləri, uca millətimizi tanımayanların xəyal edə bilmədikləri bu ortaq hədəflərə birlikdə nail olacağıq.

Əbədi Türkiyə-Azərbaycan qardaşlığı uğrunda bu günə qədər alın təri tökənlərin, bu yolda çox zərər görən, hər şeyini, hətta həyatını belə itirməkdən çəkinməyənlərin ümidlərinin puça çıxmadığını birlikdə göstərəcəyik. Ortaq gələcəyimizə inanırıq və bunu mütləq təmin edəcəyik.

"Yaşasın Türkiyə-Azərbaycan dostluğu və qardaşlığı deyərək", hamınızı sevgi və hörmətlə salamlayıram.

"Biz bir millət, iki dövlətik" deyən Azərbaycanın böyük öndəri, rəhmətlik Heydər Əliyevi ehtiram və hörmətlə anıram.

Bütün Azərbaycan xalqına türk qardaşlarının salamlarını çatdırıram. Sizlər vasitəsilə də onların sevgilərinin, məhəbbətlərinin bir daha bütün Azərbaycan xalqına çatdırılmasını xahiş edirəm.

Hamınıza təkrarən sevgi və hörmətimi bildirirəm. Sağ olun.

TÜRKİYƏ PREZİDENTİ AZƏRBAYCANIN BAŞ NAZİRİ İLƏ GÖRÜŞMÜŞDÜR

Noyabrın 7-də Türkiyə Prezidenti Abdullah Gül onun üçün ayrılmış iqamətgahda - "Ulduz" sarayında Azərbaycanın Baş naziri Artur Rasizadə ilə görüşmüşdür.

Türkiyə dövlətinin başçısı öz səfərinin gedişindən, Azərbaycan Prezidenti İlham Əliyevlə danışıqlarından məmnun olduğunu bildirərək dedi ki, Bakıda imzalanmış sənədlər qardaş xalqlar arasında qarşılıqlı surətdə faydalı əməkdaşlığın inkişafına yeni təkan verəcəkdir.

İqtisadi sahədə Azərbaycan-Türkiyə əlaqələrinin inkişafından söhbət açan Azərbaycanın Baş naziri bu əlaqələrin daha da inkişaf etdirilməsinin hər iki dövlətin mənafeyinə xidmət etdiyini bildirdi.

TÜRKİYƏ PREZİDENTİ ABDULLAH GÜLƏ BAKI DÖVLƏT UNİVERSİTETİNİN FƏXRİ DOKTORU ADI VERİLMİŞDİR

Noyabrın 7-də Türkiyə Prezidenti Abdullah Gülə Bakı Dövlət Universitetinin fəxri doktoru adı verilməsi münasibətilə BDU-da mərasim keçirilmişdir.

Universitetdə Türkiyə Prezidentini və onun xanımını səmimiyyətlə qarşıladılar. Tələbələr ali qonağa və xanımına tər çiçəklər təqdim etdilər.

Türkiyə dövlətinin başçısı əvvəlcə universitetdə fəaliyyət göstərən Heydər Əliyev Muzeyinin eksponatları ilə tanış oldu, Fəxri qonaqlar kitabına ürək sözlərini yazdı.

BDU-nun rektoru, AMEA-nın akademiki, Milli Məclisin deputatı Abel Məhərrəmov mərasimi açaraq, Türkiyə Prezidenti Abdullah Gülün həyat və fəaliyyətinin əsas mərhələləri barədə danışdı. Ali qonağa müsəlman Şərqində ilk dünyəvi ali təhsil müəssisəsi olan Bakı Dövlət Universitetinin yaradılması tarixi barədə məlumat verildi. Bildirildi ki, hazırda bu ali məktəbin 16 fakültəsində 18 mindən çox tələbə təhsil alır. Təqribən 1300 tələbə 20 xarici ölkəni, o cümlədən 900 tələbə Türkiyəni təmsil edir. Universitetdə 1300-dən artıq müəllim işləyir. Onlardan təqribən 300 nəfəri elmlər doktoru, professor, 14-ü Milli Məclisin deputatıdır.

Rektor universitetin geniş beynəlxalq əlaqələrindən də söhbət açdı, Türkiyə Prezidentindən BDU-nun diplomlarının Türkiyədə tanınmasına yardım göstərməsini xahiş etdi.

Sonra Abel Məhərrəmov dünyada sabitliyin qorunub-saxlanması üçün səylərinə, Azərbaycan-Türkiyə qardaşlıq əlaqələrinin möhkəmlənməsində böyük roluna, elmi və tərəqqini dəstəkləməsinə görə Türkiyə Prezidentinə BDU-nun fəxri doktoru adı verilməsi barədə universitetin Böyük Elmi şurasının qərarını oxudu.

Türkiyə dövlətinin başçısına BDU-nun fəxri doktoru mantiyası, diplom və hədiyyə onun rəssam tərəfindən çəkilmiş portreti təqdim olundu.

Türkiyə Prezidenti tələbələrin suallarına cavab verdi, sonra mərasimdə çıxış etdi. O, bu şərəfə layiq görüldüyü üçün Azərbaycanın qocaman ali məktəbinin Elmi şurasının üzvlərinə təşəkkürünü bildirdi. Abdullah Gül Türkiyə Prezidenti vəzifəsində ilk rəsmi səfərini Azərbaycana etdiyini bildirərək dedi ki, bu fakt ölkələrimiz arasında qardaşlıq münasibətlərinin və qarşılıqlı dostluğun yüksək səviyyədə olmasını təsdiq edir. Abdullah Gül ulu öndərlər Mustafa Kamal Atatürkün və Heydər Əliyevin kəlamlarını xatırlatdı: Türkiyə Respublikasının banisi iki xalqın tarixi yaxınlığını sosiyoloji cəhətdən izah edərək deyirdi ki, "Azərbaycanın kədəri bizim kədərimiz, Azərbaycanın sevinci bizim sevincimizdir". Azərbaycan-Türkiyə əlaqələrinin inkişafına misilsiz töhfələr vermiş ümummilli lider

Heydər Əliyev isə deyirdi: "Biz bir millət, iki dövlətik". Bizim birliyimiz bundan yaxşı ifadə edilə bilməzdi.

Ali qonaq dedi ki, Azərbaycanın müstəqil dövlət kimi mövcud olduğu illərdə iki ölkə arasında siyasi, iqtisadi və humanitar əlaqələr sürətlə inkişaf etmiş, münasibətlər strateji tərəfdaşlıq səviyyəsinə çatmışdır. Azərbaycanın təşəbbüsü ilə həyata keçirilmiş Bakı-Tbilisi-Ceyhan neft kəməri, Bakı-Tbilisi-Ərzurum qaz kəməri kimi qlobal energetika layihələri, Bakı-Tbilisi-Qars nəqliyyat layihəsi ilk növbədə Azərbaycan və Türkiyənin möhkəm alyansı sayəsində mümkün olmuşdur.

Türkiyə Prezidenti ölkəmizin əsas problemi olan Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli məsələsindən danışaraq bildirdi ki, ermənilərin mənfur əməlləri barədə həqiqəti dünya ictimaiyyətinə çatdırmaq üçün alimlərin, jurnalistlərin, tarixçilərin, Azərbaycanın qeyri-hökumət təşkilatlarının səylərini fəallaşdırmaları zəruridir.

Mərasim başa çatandan sonra Prezident Abdullah Gül BDU-da təhsil alan türkiyəli tələbələrlə görüşdü.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV POLŞANIN İQTİSADİYYAT NAZİRİ, POLŞA-AZƏRBAYCAN HÖKUMƏTLƏRARASI İQTİSADİ KOMİSSİYASININ HƏMSƏDRİ PYOTR QJEQOJ VOZNYAKIN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİNİ QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev noyabrın 8-də Prezident sarayında Polşanın iqtisadiyyat naziri, Polşa-Azərbaycan Hökumətlərarası iqtisadi komissiyasının həmsədri Pyotr Qjeqoj Voznyakın başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir. Dövlətimizin başçısı Azərbaycanla Polşa arasında münasibətlərin müxtəlif sahələrdə, o cümlədən iqtisadi sahədə uğurla inkişaf etdiyini vurğuladı. Prezident İlham Əliyev Polşanın iqtisadiyyat nazirinin ölkəmizə bu səfərinin ikitərəfli əlaqələrimizin daha da genişləndirilməsi işinə xidmət edəcəyinə əminliyini ifadə etdi.

Pyotr Qjeqoj Voznyak Polşa Prezidenti Lex Kaçinskinin salamlarını Azərbaycan Prezidenti İlham Əliyevə çatdırdı. Qonaq ölkələrimiz arasında iqtisadi sahədə, eləcə də enerji sahəsində əməkdaşlığın inkişaf etdiyini bildirdi. O, bu istiqamətdə əməkdaşlığımızın daha da möhkəmləndirilməsi baxımından hər iki prezidentin Vilnüsdə keçirdiyi görüşün əhəmiyyətini xüsusi vurğuladı.

Prezident İlham Əliyev Polşa Prezidenti Lex Kaçinskinin salamlarına görə minnətdarlığını bildirdi və onun da salamlarını Polşanın dövlət başçısına çatdırmağı xahiş etdi.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV AMERİKA İSRAİL İCTİMAİ MƏSƏLƏLƏR KOMİTƏSİNİN NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞMÜŞDÜR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev noyabrın 9-da Prezident sarayında Amerika İsrail İctimai Məsələlər Komitəsinin nümayəndə heyəti ilə görüşmüşdür.

Prezident İLHAM ƏLİYEV qonaqlara müraciətlə dedi: Mən sizi görməyimə çox şadam, Azərbaycana xoş gəlmisiniz. Məmnunam ki, siz ölkəmizə səfər edirsiniz. Ümid

edirəm ki, səfər maraqlı və əhəmiyyətli olacaq – Birləşmiş Ştatlar ilə Azərbaycan, habelə İsrail ilə Azərbaycan arasındakı gələcək tərəfdaşlığa töhfə verəcəkdir. Sizin sıx proqramınız var və çoxsaylı görüşləriniz olacaqdır. Eyni zamanda bilirəm ki, siz Qubaya səfər etməyi və Azərbaycanın yəhudi icması ilə görüşməyi planlaşdırırsınız. Hesab edirəm ki, həmin görüş Azərbaycan haqqında daha çox məlumatların əldə edilməsi baxımından sizin üçün maraqlı olacaqdır. Qərbdə ölkəmiz haqqında məlumatlar hələ də yetərli deyildir. Ölkənin necə inkişaf etdiyini, onun nailiyyətlərini və problemlərini, siyasi və iqtisadi inkişafını və əlbəttə ki, insanlar arasındakı münasibətləri yerindəcə öyrənmək daha yaxşıdır. Bizim cəmiyyətimizdə yüksək tolerantlıq hökm sürür. Azərbaycan çoxmillətli ölkədir. Ölkəmizdə bir çox milli azlıqlar yaşayır. Bizim hamımız sülh şəraitində yaşayırıq. Azərbaycandakı yəhudi icması cəmiyyətimizin mühüm hissələrindən biridir və ölkəmizin inkişafında fəal rol oynayır. Biz əsrlər boyu, hətta Azərbaycan Rusiya imperiyasının bir hissəsinə çevriləndən əvvəlki dövrdə də birgə yaşamışıq. Həmin dövrdə və Sovet İttifaqı dövründə biz əmin-amanlıq şəraitində yaşamışıq. İndi, Azərbaycan müstəqillik əldə etdikdən sonra da belə şəraitdə yaşayırıq. Azərbaycanda bütün millətlərin və dinlərin nümayəndələri bir ailə kimi yaşayır. Bu, ölkəmizin ümumi inkişafında əhəmiyyətli haldır. Hesab edirəm ki, həmin insanlarla görüşmək, ümumiyyətlə, Azərbaycanın inkişafı və ölkəmizin gələcək perspektivləri ilə tanış olmaq üçün əlavə imkanlar yaradacaqdır. Müstəqil ölkə kimi biz gənc dövlətik. 16 ildir ki, müstəqilik. Lakin, əlbəttə ki, ölkəmiz böyük tarixə, mədəniyyətə və zəngin adət-ənənələrə malikdir. Hesab edirəm ki, siz Bakıda bir sıra tarixi yerləri də görmək imkanına malik olacaqsınız.

Zənnimcə, müstəqil ölkə kimi Azərbaycan totalitar cəmiyyətdən demokratik cəmiyyətə, planlı iqtisadiyyatdan bazar iqtisadiyyatına keçid zamanı çox böyük uğurlara nail olmuşdur. Bu qısa dövrdə, biz bütün lazımi siyasi və iqtisadi islahatları həyata keçirə bildik. Bu proses davam edir və Azərbaycan get-gedə dünya iqtisadiyyatına daha çox inteqrasiya olunur. Siyasi sahədə bizim Birləşmiş Ştatlarla güclü tərəfdaşlığımız mövcuddur. Bu tərəfdaşlıq, demək olar ki, bütün sahələri əhatə edir.

Müstəqilliyin ilk illəri asan olmamışdır, çünki xeyli sosial və iqtisadi problemlərimiz var idi. Ölkədə tam mənada böhran hökm sürürdü və bundan əlavə, vətəndaş müharibəsi, Ermənistan tərəfindən təcavüz və ərazilərimizin işğalı baş verdi. Bütün bunlar, təbii ki, vəziyyəti daha da çətinləşdirirdi. Lakin 1990-cı illərin ortalarından başlayaraq, bu günə qədər ölkə uğurla inkişaf etməkdədir və bu illər ərzində biz əhəmiyyətli dərəcədə iqtisadi artıma nail olmuşuq. Son 3 ildə Azərbaycan ÜDM-in artımına görə nəinki regionda, ümumiyyətlə, bütün dünyada lider ölkədir. 2005-ci ildə ÜDM-in artımı 26 faiz, 2006-cı ildə 35 faiz olmuşdur. 2007-ci ilin 9 ayında isə 27 faiz iqtisadi artım müşahidə edilir. Əlbəttə, bu, bizə ölkədə yaşayış səviyyəsinin yüksəldilməsi üçün bir çox sosial layihələri və iqtisadi proqramları həyata keçirməyə imkan yaradır.

Hesab edirəm ki, bizim yaxşı gələcəyimiz var. Bütün əsas sosial problemlər həll olunub, işsizlik kəskin surətdə aşağı düşübdür. Son 3 il ərzində ölkəmizdə 600 min yeni iş yeri açılmışdır. Yoxsulluğun azaldılması da uğurla həyata keçirilir. Hesab edirəm ki, sabitlik və siyasi inkişaf baxımından Azərbaycan regionda nümunəvi dövlət ola bilər. Lakin, əlbəttə ki, burada baş verənləri öz gözünüzlə görmək sizin üçün daha yaxşıdır.

Biz mühüm enerji layihələrini həyata keçiririk. Onlar nəinki bizim üçün, o cümlədən re-

gion üçün çox mühüm rol oynayır. Xarici tərəfdaşlarımızla, xarici neft şirkətləri ilə birgə, eləcə də ABŞ-ın dəstəyi ilə biz tarixi transmilli neft və qaz layihələrini reallaşdırdıq. Bu gün Azərbaycan çox mühüm neft və qaz hasilatçısına çevrilməkdədir. Ölkəmiz Xəzər regionunu beynəlxalq əməkdaşlıq üçün açdı. Xəzər regionu coğrafi baxımdan hər tərəfdən quru ilə əhatə olunub, lakin əvvəllər o, siyasi və iqtisadi baxımdan da qapalı region idi.

İndi isə, region əməkdaşlıq üçün açıqdır. Xəzərdə hasil olunan neft və qazımız boru kəmərlərimiz vasitəsilə Avropa və dünya bazarlarına nəql olunur. Yeri gəlmişkən, bu yaxınlarda İsrail neftimizin əsas istehlakçılarından birinə çevrilmişdir. Bu, qarşılıqlı fayda gətirən mühüm layihədir. Aralıq dənizinə nəql etdiyimiz neft sonra İsrailin neft emalı zavodlarına daxil olur. Əlbəttə ki, gələcəkdə bu əməkdaşlıq artacaqdır. Enerji təhlükəsizliyi və Avropa üçün enerji təchizatının çoxşaxəliliyi baxımından Azərbaycan güclü ölkəyə çevrilməkdədir. İndiki beynəlxalq vəziyyətdə enerji təhlükəsizliyi ölkənin ümumi təhlükəsizliyi ilə sıx bağlıdır. Bunlar, demək olar ki, eyni amillərdir. Etibarlı tərəfdaş kimi biz Avropanın və dünyanın enerji təhlükəsizliyində fəal rolumuzu davam etdirəcəyik.

Birləşmiş Ştatlarla biz iqtisadi sahədə də əməkdaşlıq edirik, möhkəm iqtisadi əlaqələrimiz mövcuddur. Antiterror əməliyyatlarında Azərbaycan Əfqanıstan və İraqa əsgərlərini göndərən ilk ölkələrdən biri oldu. Bizim əsgərlərimiz hələ də orada xidmətdədir. Baxmayaraq ki, NATO-nun bir sıra üzvləri öz qüvvələrini artıq İraqdan çıxarmağa başlamışdır. Azərbaycan əsgərləri koalisiya qüvvələri ilə İraqda çiyin-çiyinə xidmətlərini davam etdirirlər. Biz bunu regiondakı təhlükəsizliyə töhfəmiz kimi dəyərləndiririk.

Birləşmiş Ştatlarla tərəfdaşlığımız həmin sülhməramlı əməliyyatlar sahəsi ilə məhdudlaşmır. Əməkdaşlığımızın geniş və səmərəli gündəliyi var. Təhlükəsizlik sahəsində də uğurlu əməkdaşlıq həyata keçiririk. Artıq qeyd etdiyim kimi, enerji məsələləri sahəsində işbirliyi qurmuşuq və tərəfdaş kimi çalışırıq. Eyni zamanda, siyasi islahatların davam etdirilməsi, cəmiyyətin demokratikləşməsi Birləşmiş Ştatlar ilə Azərbaycan arasında ikitərəfli münasibətlərin vacib elementlərindən biridir. Biz münasibətlərimizin uğurlu inkişafından məmnunuq. Biz əlaqələrimizin səviyyəsindən çox razıyıq. Ötən ilin aprel ayında Birləşmiş Ştatlara mənim rəsmi səfərim tərəfdaşlığımızın vacib elementini təşkil etdi. Əminəm ki, tərəfdaşlığımız bundan sonra da uğurla davam edəcəkdir.

Enerji mənbələrinin işlənilməsi və iqtisadi təşəbbüslər baxımından ölkənin gələcək inkişaf perspektivləri üçün vacib olan bütün iqtisadi göstəricilərə və sosial problemlərin həllinə baxmayaraq, ölkəmiz nəinki bizim üçün, o cümlədən bütün region üçün ən böyük təhlükə olan və gələcək uğurlu inkişafımıza əngəl törədən bir problemlə hələ də üzləşməkdədir. Bu, Azərbaycan torpaqlarının Ermənistanın silahlı qüvvələri tərəfindən işğalının davam etməsidir. Ermənistanın Azərbaycana qarşı təcavüzü nəticəsində torpaqlarımızın təqribən 20 faizi işğal altındadır. Ermənilər azərbaycanlılara qarşı etnik təmizləmə siyasəti aparmışlar. Etnik təmizləməyə məruz qalmış 700 min azərbaycanlı Azərbaycanın Dağlıq Qarabağ regionundan və digər torpaqlarından, 250 min azərbaycanlı isə Ermənistandan qovulmuşdur. Bu, regionda ən böyük humanitar fəlakətdir. Bəlkə də, bu, dünyada əhalinin sayına nisbətdə qaçqın və məcburi köçkünlərin sayına görə ən yüksək göstəricidir. 8,5 milyonluq əhalinin bir milyonu qaçqın və məcburi köç-

kün vəziyyətindədir. Bu, bizim üçün böyük problemdir. Bu, böyük ədalətsizlikdir. Birləşmiş Millətlər Təşkilatının Təhlükəsizlik Şurası erməni işğalçı qüvvələrinin Azərbaycan torpaqlarından qeyd-şərtsiz və dərhal çıxarılmasını tələb edən dörd qətnamə qəbul edibdir. Lakin onlar yerinə yetirilməyibdir. Avropa Şurası oxşar qətnamə qəbul etmişdir. Yenə də erməni tərəfi buna məhəl qoymur. Artıq 13 il danışıqlar prosesində olmağımıza və 1994-cü ildən atəşkəs rejimi hökm sürməsinə baxmayaraq, hələ də heç bir nəticə yoxdur. Danışıqlar aparılır, lakin heç bir nəticə əldə edilməmişdir.

Vəziyyət bu cür davam edə bilməz. Azərbaycan öz tarixi ərazisinin, Dağlıq Qarabağın ondan ayrılmasına heç vaxt razılıq verməyəcəkdir. Beynəlxalq ictimaiyyət bizim tərəfimizdədir. Bu prosesdə vasitəçi rolunu oynayan ATƏT-in Minsk qrupu və onun həmsədrləri – Birləşmiş Ştatlar, Fransa və Rusiya da eyni mövqedədir. Bütün beynəlxalq ictimaiyyət Azərbaycanın ərazi bütövlüyünü dəstəkləyir və münaqişənin həllini həmin prinsip əsasında görür. Dağlıq Qarabağdakı ermənilərin öz müqəddəratını təyin etməsinə gəldikdə, deyə bilərəm ki, ermənilər artıq öz müqəddəratını təyin ediblər. Onların artıq Ermənistan dövləti var. Ermənilərin bir çox ölkələrdə, o cümlədən Birləşmiş Ştatlarda, Avropada və bizə qonşu dövlətlərdə yaşamasını nəzərə alsaq, ermənilər istədikləri yerdə öz müqəddəratını müəyyən etmək arzusuna düşsələr, onda neçə erməni dövlətinin yaranacağını təsəvvür etmək çətin deyildir. Bu, nə bizim üçün, nə də ki, beynəlxalq ictimaiyyət üçün qəbuledilməndir.

Hesab edirəm ki, Ermənistanın işğalçı rejiminə qarşı beynəlxalq təzyiqin olmaması səbəbindən, torpaqlarımız hələ də Ermənistanın işğalı altındadır. Bu, Dağlıq Qarabağa və onun ətrafında yerləşən yeddi rayona aiddir. Həmin rayonlarda tarixən ermənilər ümumiyyətlə heç vaxt yaşamamışlar. Orada məhz azərbaycanlılar yaşamışlar. Bu gün həmin yeddi rayon tamamilə dağıdılıbdır. İki il bundan əvvəl ATƏT-in faktaraşdırıcı missiyası həmin işğal olunmuş yerlərə getmiş və monitorinq aparmışdır. Missiyanın hesabatında həmin ərazilərdə hər şeyin yerlə-yeksan olunduğu qeyd edilmişdir. Bütün binalar, zavodlar, fabriklər, məscidlər, qəbiristanlıqlar hər şey dağıdılıbdır. Bu, beynəlxalq hüquq normalarının, normal insan davranışının kobudcasına pozulması deməkdir. Bu, XXI əsrə yox, orta əsrlərə xas olan davranışdır.

Əgər Ermənistan beynəlxalq ictimaiyyətin bir hissəsi olmaq və ona inteqrasiya olunmaq istəyirsə, onda öz siyasətini dəyişməlidir. Ermənilər anlamalıdırlar ki, onlar həmin torpaqları uzun illər ərzində əllərində saxlaya bilməyəcəklər. Onlar oradan çıxmalı olacaqlar. Lakin yaxşı olardı ki, hərbi əməliyyat olmadan özləri oranı tərk etsinlər. Biz sülh prosesinə sadiqik, lakin hərb yolunu da istisna etmirik. Azərbaycan özünün beynəlxalq səviyyədə tanınmış ərazi bütövlüyünü bərpa etmək hüququna malikdir. Hazırda bizim inkişaf səviyyəmizlə Ermənistanın inkişaf səviyyəsi arasında olan böyük fərqi, eləcə də Azərbaycan ordusunun geniş imkanlarını nəzərə alsaq, bu variant realdır. Amma biz yenə də məsələnin dinc yolla həllinə ümid edirik. 13 il ərzində heç bir nəticə gətirməyən danışıqlar prosesində olmağımıza baxmayaraq, yenə də düşünürük ki, münaqişənin həlli üçün hələ də imkan ola bilər və biz ondan istifadə etməliyik. Amma belə olmasa, əlbəttə ki, onda bu vəziyyətlə bağlı yanaşmamızı bir daha nəzərdən keçirəcəyik.

XARİCİ İŞLƏR NAZİRLİYİNDƏ KEÇİRİLƏN GÖRÜŞDƏ BİR SIRA MƏSƏLƏLƏR BARƏDƏ FİKİR MÜBADİLƏSİ APARILMIŞDIR

Noyabrın 9-da Xarici İşlər naziri Elmar Məmmədyarov Böyük Britaniyanın Xarici və İttifaq İşləri üzrə İdarəsinin Rusiya, Cənubi Qafqaz və Orta Asiya məsələləri üzrə bölməsinin rəhbəri Maykl Daunport ilə görüşmüşdür.

Regiona mövcud vəziyyətlə yaxından tanış olmaq məqsədi ilə səfər etdiyini bildirən qonaq, Azərbaycanın bölgədə rolu, NATO-ya inteqrasiyası, Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin nizamlanması məsələləri ilə maraqlanmışdır.

Nazir E.Məmmədyarov Azərbaycanın davamlı inkişaf yolunu seçdiyini, bütün sahələrdə islahatların, tərəqqinin tədricən, mərhələ-mərhələ həyata keçirildiyini vurğulayaraq, NATO ilə əməkdaşlığın davam etdirildiyini, FTƏP-in ikinci mərhələsinin uğurla aparıldığını bildirmişdir.

Qonağa Azərbaycanda kiçik və orta sahibkarlığın inkişafına, təhsilə sərmayənin artırılmasına, demokratiyanın möhkəmlənməsinə yönələn tədbirlər barədə məlumat verilmişdir.

Dağlıq Qarabağ münaqişəsinin nizamlanması məsələsinə toxunan E.Məmmədyarov danışıqların hazırkı durumu haqqında danışmış, əsas konsepsiyanın sülh və regionda qarşılıqlı etimad əsasında qurulmuş əməkdaşlıq olduğunu diqqətə çatdırmışdır.

Regional məsələlər, xüsusilə də Gürcüstanda baş vermiş son hadisələrlə bağlı geniş fikir mübadiləsi aparan tərəflər, bu ölkədə sabitliyin tez bir zamanda bərpa olunmasının zəruriliyini qeyd etmişlər.

BOLQARISTANIN BAŞ NAZİRİ SERGEY STANİŞEV AZƏRBAYCANA RƏSMİ SƏFƏRƏ GƏLMİŞDİR

Noyabrın 11-də Bolqarıstanın Baş naziri Sergey Stanişev Azərbaycana üçgünlük rəsmi səfərə gəlmişdir.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV BOLQARISTANIN BAŞ NAZİRİ SERGEY STANİŞEVİN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİNİ QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev noyabrın 12-də Prezident sarayında Bolqarıstanın Baş naziri Sergey Stanişevin başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.

Azərbaycan ilə Bolqarıstan arasında ikitərəfli münasibətlərin siyasi, iqtisadi və digər sahələrdə uğurla inkişaf etdiyini vurğulayan Prezident İlham Əliyev iki il bundan əvvəl Sofiyaya səfərini məmnunluqla xatırladı və bu səfərin əlaqələrimizin möhkəmləndirilməsi baxımından əhəmiyyətli olduğunu bildirdi.

Dövlətimizin başçısı bir sıra beynəlxalq təşkilatlar, o cümlədən Avropa İttifaqı çərçivəsində ölkələrimiz arasında tərəfdaşlığın dinamik surətdə inkişaf etdiyini dedi. Yeni

Qonşuluq Siyasəti proqramında Bolqarıstanın dəstəyinin daim hiss olunduğunu qeyd edən dövlətimizin başçısı hazırda iqtisadi əlaqələr üçün yeni perspektivlərin olduğunu bildirdi və Bolqarıstanın Baş nazirinin ölkəmizə səfərinin münasibətlərimizin daha da genişləndirilməsi işinə xidmət edəcəyinə əminliyini ifadə etdi.

Sergey Stanişev Azərbaycan Prezidentinin Bolqarıstana səfərinin ikitərəfli münasibətlərimizin inkişaf etdirilməsi baxımından əhəmiyyətli olduğunu bildirdi. Dövlət başçılarının qarşılıqlı səfərlərinə toxunan Bolqarıstanın Baş naziri bu səfərlərin siyasi əlaqələrimizin uğurla inkişaf etdirilməsində mühüm rol oynadığını vurğuladı, iqtisadi əlaqələrimizin daha da gücləndirilməsinin zəruriliyini qeyd etdi.

AZƏRBAYCAN-BOLQARISTAN HÖKUMƏTLƏRARASI SƏNƏDLƏRİ İMZALANMIŞDIR

Noyabrın 12-də Azərbaycanın Baş naziri Artur Rasizadənin və Bolqarıstan hökumətinin başçısı Sergey Stanişevin iştirakı ilə aparılmış Azərbaycan-Bolqarıstan danışıqları Azərbaycan və Bolqarıstan hökumətləri arasında iqtisadi əməkdaşlıq haqqında sazişin, antiinhisar siyasəti və rəqabətin qorunması haqqında sazişin, eləcə də ikiqat vergitutmaya yol verilməməsi barədə konvensiyanın imzalanması ilə başa çatmışdır.

Geniş tərkibdə danışıqların başlanmasından əvvəl iki ölkənin baş nazirləri arasında təkbətək görüşü keçirildi.

Baş nazir Artur Rasizadə geniş tərkibdə danışıqları açaraq ümidvar olduğunu bildirdi ki, Azərbaycan dövlət müstəqilliyi əldə edəndən bəri Bolqarıstan hökumətinin başçısının ölkəmizə ilk səfəri, aparılmış danışıqlar hərtərəfli qarşılıqlı sərfəli əlaqələrin inkişaf etdirilməsinə güclü təkan verəcəkdir. Siyasi əlaqələrin yüksək səviyyədə olması, dövlət başçılarının qarşılıqlı səfərlərinin bu əlaqələrin genişlənməsinə şərait yaratması vurğulandı. Bununla bərabər, Azərbaycan hökumətinin başçısı təəssüflə bildirdi ki, bu sözləri iqtisadi əməkdaşlıq haqqında demək olmaz. O, hökumətlərarası komissiyanın işini fəallaşdırmağı, konkret layihələrin reallaşdırılması planının müzakirə olunmasını təklif etdi.

Baş nazir A.Rasizadə qonaqlara regionda Azərbaycanın təşəbbüsü ilə həyata keçirilən qlobal nəqliyyat və energetika layihələri barədə, ölkəmizin əsas problemi olan Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin dinc yolla həlli sahəsində respublika rəhbərliyinin göstərdiyi səylər haqqında məlumat verdi.

Bolqarıstan hökumətinin başçısı Sergey Stanişev bildirdi ki, Azərbaycan ilə Bolqarıstan arasında əmtəə dövriyyəsinin təqribən 10 milyon dollara bərabər olması hər iki ölkənin ilbəil artan iqtisadi potensialına müvafiq deyildir və əməkdaşlığın daha da intensivləşdirilməsi üçün səy göstərmək lazımdır.

Danışıqlar başa çatdıqdan sonra keçirilmiş mətbuat konfransında bildirildi ki, gələn ilin yazında Sofiyada birgə hökumətlərarası komissiyanın növbəti iclasının və biznes forumunun keçirilməsi barədə razılıq əldə olunmuşdur. Energetika sahəsində əməkdaşlıq məsələlərinə də toxunan Sergey Stanişev dedi ki, Bolqarıstanın "Bulqarqaz" şirkəti ilə ARDNŞ arasında əlaqələrin fəallaşdırılması haqqında razılıq var. Bu əlaqələr çərçivəsində NABUKKO layihəsinin həyata keçirilməsinin gedişi müzakirə ediləcəkdir.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV AVRASİYA FONDUNUN PREZİDENTİ HORTON BİBİ-SENTERİN RƏHBƏRLİK ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİNİ QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev noyabrın 12-də Prezident sarayında Avrasiya Fondunun Prezidenti Horton Bibi-Senterin rəhbərlik etdiyi nümayəndə heyətini qəbul etmişdir.

Horton Bibi-Senter Avrasiya Fondunun Azərbaycanda 15 ilə yaxın bir müddətdə fəaliyyət göstərdiyini və əsas məqsədinin ölkə vətəndaşlarının mülki və iqtisadi sahədə rifahına dəstək vermək olduğunu bildirdi. O, Avrasiya Fondunun Azərbaycanda gələcək fəaliyyət planları barədə Prezident İlham Əliyevə məlumat verdi.

Dövlətimizin başçısı İlham Əliyev Avrasiya Fondunun Azərbaycan ilə əməkdaşlığından məmnunluğunu ifadə etdi. O, bu əməkdaşlığın Azərbaycan ilə ABŞ arasında əlaqələrin daha da genişlənməsinə öz töhfəsini verdiyini, eyni zamanda, Azərbaycanda vətəndaş cəmiyyətinin inkişafı, qeyri-hökumət təşkilatlarının fəaliyyətinin təkmilləşməsi işinə kömək göstərdiyini bildirdi.

AZƏRBAYCAN VƏ LİVİYA BEYNƏLXALQ TƏŞKİLATLAR ÇƏRÇİVƏSİNDƏ BİR-BİRİNƏ DƏSTƏK GÖSTƏRİR

Noyabrın 12-də Xarici İşlər naziri Elmar Məmmədyarov Liviya Ərəb Sosialist Xalq Cəmahiriyyəsinin xarici işlər nazirinin müavini Məhəmməd Əl Barrani ilə görüşmüşdür.

Tərəflər ölkələrimiz arasında əməkdaşlığın səviyyəsindən razı qaldıqlarını və əlaqələri daha da dərinləşdirməyin zəruriliyini qeyd edərək, beynəlxalq təşkilatlar çərçivəsində göstərilən qarşılıqlı dəstəyin əhəmiyyətini vurğulamışlar.

Liviya xarici işlər nazirinin salamlarını çatdıran Məhəmməd Əl Barrani, nazir E.Məmmədyarovu ölkəsinə səfərə dəvət etmişdir. Qonaq hökumətlərarası birgə komissiyanın yaradılmasını yüksək qiymətləndirmiş, siyasi müstəvidə əməkdaşlıqla yanaşı, iqtisadi əlaqələri genişləndirmək üçün Azərbaycana iqtisadi missiyanın göndərilməsi niyyətində olduqlarını diqqətə çatdırmışdır.

E.Məmmədyarov Liviyanın gələn ildən BMT Təhlükəsizlik Şurasına üzv olacağı münasibətilə təbrik etmiş, İslam Konfransı Təşkilatı (İKT) daxilində də aktiv fəaliyyətini müsbət qiymətləndirmişdir.

Nazir İKT-nin İslamın dünyada təşviqində mühüm rol oynadığını, müqəddəs dinimizin sülhpərvər din olmaqla bərabər, hər cür terror ünsürlərinə qarşı olduğunu və İslami dəyərlərin dünya ictimaiyyətinə düzgün çatdırılması yönündə fəaliyyətin vacibliyini vurğulamışdır.

Görüşdə qarşılıqlı maraq doğuran digər məsələlər ətrafında fikir mübadiləsi aparılmışdır.

TƏRƏFLƏR ENERJİ SAHƏSİNDƏ DİALOQUN DAVAM ETDİRİLMƏSİNDƏ MARAQLIDIRLAR

Noyabrın 13-də Azərbaycan Respublikasının xarici işlər naziri Elmar Məmmədyarov ölkəmizdə səfərdə olan ABŞ dövlət katibinin Cənubi və Orta Asiya üzrə müavini Stiven Mənn ilə görüşmüşdür.

S.Mənn Transxəzər layihəsinin əhəmiyyətini vurğulamış, Orta Asiya enerji daşıyıcılarının nəqlində Azərbaycanın iştirakının strateji və iqtisadi əhəmiyyətini qeyd etmişdir.

Nazir E.Məmmədyarov Azərbaycanın fəal enerji siyasəti yürütdüyünü bildirmiş. ABŞ-la qurulmuş enerji dialoqu ilə yanaşı, Avropa ölkələri ilə aparılan danışıqlar, keçirilmiş enerji sammitləri barədə ətraflı məlumat vermişdir.

Azərbaycanın bu sahədə milli maraqlarına uyğun müstəqil siyasət yürütdüyü, öz karbohidrogen ehtiyatlarının Avropa enerji bazarına çıxarılması yönündə iş apardığı qeyd olunmuşdur. Nazir Orta Asiya ölkələri ilə qurulmuş faydalı əməkdaşlıq, Türkmənistanla aparılan danışıqlar barədə də məlumat vermiş, bu əməkdaşlıqda Azərbaycanın da maraqlı olduğunu bildirmişdir.

Tərəflər Azərbaycan-ABŞ arasında enerji sahəsində dialoqun davam etdirilməsini zəruri hesab etmişlər.

AZƏRBAYCAN İLƏ İSVEÇRƏ ARASINDA TEXNİKİ YARDIM HAQQINDA SAZİŞ İMZALANMIŞDIR

Azərbaycan-İsveçrə Hökumətlərarası İqtisadi komissiyanın üçüncü iclası çərçivəsində noyabrın 14-də Xarici İşlər Nazirliyində "Azərbaycan Respublikası Hökuməti və İsveçrə Konfederasiyası Hökuməti arasında əqli mülkiyyət hüquqlarının təminatı vasitəsilə Azərbaycan Respublikasında ticarət və investisiya mühitinin yaxşılaşdırılması üzrə texniki yardım haqqında Saziş" imzalanmışdır.

Xarici İşlər Nazirliyinin mətbuat xidmətindən bildirmişlər ki, sənədi Azərbaycanın xarici işlər naziri Elmar Məmmədyarov və İsveçrə Konfederasiyasının İqtisadi Əlaqələr üzrə Dövlət Katibliyi idarə heyətinin üzvü xanım Monika Rühl Burzi imzalamışlar.

Xanım M.Burzi hökumətlərarası iqtisadi komissiyasının növbəti danışıqlarının məhsuldar olduğunu diqqətə çatdırmış, imzalanan sazişdə tərəflərin maraqlarının nəzərə alındığını demişdir. Qonaq, həmçinin ölkəsinin Azərbaycanın Dünya Ticarət Təşkilatına üzvlüyünü dəstəklədiyini, bu üzvlüyün iqtisadi sahədə islahatların daha da genişləndirilməsinə imkan yaradacağını, iqtisadi inkişafı irəli aparacağını bildirmişdir.

Tərəflər Azərbaycan ilə İsveçrə arasında ticarət dövriyyəsinin artırılması, mövcud potensialdan daha əlverişli istifadə olunması, enerji sahəsində əməkdaşlıqla bərabər, qeyri-neft sektoruna sərmayələrin artırılması istiqamətində işlərin davam etdirilməsinin zəruriliyini də vurğulamışlar.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV TÜRKMƏNİSTANIN NAZİRLƏR KABİNETİ SƏDRİNİN MÜAVİNİ XIDIR SAPARLIYEVİ QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev noyabrın 16-da Prezident sarayında Türkmənistanın Nazirlər Kabineti sədrinin müavini Xıdır Saparlıyevi qəbul etmişdir.

Xıdır Saparlıyev Türkmənistan Prezidenti Qurbanqulu Berdiməhəmmədovun salamlarını Azərbaycan Prezidentinə çatdırdı. O, Türkmənistanın dövlət başçısının tapşırığı ilə Türk Dövlət və Cəmiyyətlərinin XI Dostluq, qardaşlıq və əməkdaşlıq qurultayında iştirak etmək üçün Bakıya gəldiyini bildirdi.

Azərbaycan Prezidenti İlham Əliyev Türkmənistan Prezidentinin salamlarına görə minnətdarlığını bildirdi və onun da salamlarını Türkmənistanın dövlət başçısına çatdırmağı xahiş etdi.

Dövlətimizin başçısı ölkələrimiz arasında əlaqələrin daha da inkişaf etdirilməsi üçün yaxşı potensialın olduğunu vurğuladı.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN VƏ TÜRKİYƏNİN BAŞ NAZİRİ RƏCƏB TAYYİB ƏRDOĞANIN GÖRÜŞÜ

Noyabrın 17-də "Gülüstan" sarayında Azərbaycan Prezidenti İlham Əliyevin və Türkiyənin Baş naziri Rəcəb Tayyib Ərdoğanın görüşü olmuşdur.

Görüş zamanı Azərbaycan ilə Türkiyə arasında dostluq və qardaşlıq əlaqələrinin bütün istiqamətlərdə uğurla inkişaf etdiyi vurğulandı. Ölkələrimizin iştirakı və təşəbbüsü ilə həyata keçirilən qlobal enerji layihələrinin xalqlarımızın firavanlığına, bölgədə sülhün, sabitliyin təmin olunması işinə xidmət etdiyi qeyd olundu.

Türk dövlət və cəmiyyətlərinin XI dostluq, qardaşlıq və əməkdaşlıq qurultayının Azərbaycan ilə Türkiyə, habelə bütün türkdilli ölkələr arasında əlaqələrin genişlənməsi işində mühüm rol oynayacağı vurğulandı.

Prezident İlham Əliyev və Baş nazir Rəcəb Tayyib Ərdoğan əlaqələrimizin bundan sonra da inkişaf edəcəyinə əminliklərini bildirdilər.

TÜRK DÖVLƏT VƏ CƏMİYYƏTLƏRİNİN XI DOSTLUQ, QARDAŞLIQ VƏ ƏMƏKDAŞLIQ QURULTAYINDA AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN NİTQİ

-Hörmətli xanımlar və cənablar!

Əziz qonaqlar!

Əziz qurultay iştirakçıları!

Mən sizin hamınızı Azərbaycanda ürəkdən salamlayıram. Bütün qonaqlara "Xoş gəlmisiniz!" deyirəm.

Türk dövlət və cəmiyyətlərinin XI dostluq, qardaşlıq və əməkdaşlıq qurultayının Azər-

baycanda keçirilməsi bütün türk dünyası üçün çox böyük hadisədir. Qurultaylar, adətən, Türkiyədə keçirilirdi. Mən xatırlayıram, keçən il biz Antalyada qurultayda bərabər iştirak etmişdik. Orada çox vacib, çox önəmli qərarlar qəbul edilmişdi, çox maraqlı müzakirələr keçirilmişdi. Mən çox şadam ki, növbəti qurultayın Azərbaycanda keçirilməsi barədə bizim təklifimiz qəbul olundu və bu gün biz bu gözəl qurultayı Bakıda keçiririk. Bu bir daha onu göstərir ki, bütün türk dünyası birləşməyə doğru daha da sürətlə gedir. Buna çox böyük ehtiyac var.

Bizim müstəqil ölkə kimi yaşamağımız, Sovet İttifaqının dağılmasından sonra 5 türk cümhuriyyətinin meydana gəlməsi nəticəsində yaranmış yeni bir vəziyyət, əlbəttə ki, bizi daha sıx birləşməyə sövq edir. Biz bunu fəal şəkildə edirik. Son qısa müddət ərzində Türkiyədə və Azərbaycanda bizim birliyimizi möhkəmləndirən çox vacib tədbirlər keçirildi. Qeyd etdiyim kimi, ötən il Antalyada qurultay keçirildi. Ondan sonra Antalyada türkdilli ölkələrin dövlət başçılarının zirvə görüşü keçirildi. Bu ilin mart ayında Bakıda Azərbaycan və türk diasporları rəhbərlərinin I forumu keçirildi. Bu gün bu gözəl qurultay keçirilir. Gələn il, 2008-ci ildə Bakıda türkdilli dövlət başçılarının növbəti zirvə görüşü keçiriləcəkdir. Yəni bütün bu görüşlər, qurultaylar, tədbirlər bir məqsəd güdür – türk dünyası daha da mütəşəkkil olsun, bir-birilə əlaqələrini və dünyadakı mövqelərini daha da möhkəmləndirsin. Bu, bizim hamımızın marağındadır. Bizim birliyimiz nə qədər güclü olsa, hər bir ölkə öz milli maraqlarını bir o qədər uğurla müdafiə edə bilər.

İndi dünyada gedən qloballaşma prosesləri, əlbəttə ki, bizim ölkələrdən də yan keçmir. Amma bununla bərabər biz milli dəyərlərimiz üzərində dövlətlərimizi qururuq. Müstəqil olmayan dövrdə bizi bir xalq kimi saxlayan, milli mənsubiyyətimizi qoruyan bizim tariximiz olubdur, mədəniyyətimiz olubdur, ana dilimiz olubdur, bizim milli musiqimiz olubdur, ədəbiyyatımız olubdur. Bu sahədə birliyin və qarşılıqlı əlaqələrin möhkəmləndirilməsi üçün çox gözəl imkanlar var.

Bu gün bu gözəl gündə türk dünyasının iki dahi şəxsiyyətinin unudulmaz kəlamları yada düşür. Ulu öndər Mustafa Kamal Atatürk demişdir: "Azərbaycanın kədəri bizim kədərimiz, Azərbaycanın sevinci bizim sevincimizdir". Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyev demişdir: "Türkiyə və Azərbaycan bir millət, iki dövlətdir". Bu kəlamlar bizim münasibətlərimizin təməl prinsipidir. Bu gün Türkiyə-Azərbaycan münasibətləri məhz bu əsasda qurulur və əminəm ki, bizim uğurlu işbirliyimiz bütün türk dünyasına öz müsbət təsirini göstərir. Bu iki məşhur tarixi kəlamda çox böyük məna var və çox böyük məhəbbət var. Bu, bizi birləşdirir və mən çox şadam ki, bu gün bizimlə bərabər bütün türk dünyasını əhatə edən qonaqlar bu qurultayda iştirak edirlər.

Bu gün Azərbaycanın tarixində də çox əlamətdar bir gündür. Düz 17 il bundan əvvəl, 1990-cı ilin noyabrın 17-də Azərbaycanın milli bayrağı ilk dəfə olaraq, rəsmi bayraq kimi qəbul edilmişdir. O zaman Azərbaycan hələ müstəqil dövlət deyildi. Hələ ki, biz Sovet İttifaqının tərkibində idik. Hələ ki, Bakıda Azərbaycan Kommunist Partiyası iqtidarda idi. Ancaq Azərbaycanın tarixi torpağı, ayrılmaz hissəsi olan Naxçıvanda Muxtar Respublikanın Ali Məclisinin o vaxtkı sədri Heydər Əliyevin rəhbərliyi ilə Azərbaycan Xalq Cümhuriyyətinin bayrağı, üçrəngli bayraq Ali Məclisin binasında qaldırılmışdır. Əminəm və şübhə yoxdur ki, bu tarixi hadisə Azərbaycanın dövlət müstəqilliyini yaxınlaşdıran bir addım idi.

Bir daha demək istəyirəm ki, o vaxt Azərbaycan müstəqil deyildi. Bizim müstəqilliyə gedən yollarımız müxtəlif istiqamətlərdən keçibdir. Azərbaycan xalqının müstəqillik uğrunda mübarizəsi, bütün cəmiyyətin birləşməsi və əlbəttə ki, dövlət bayrağının, üçrəngli bayrağın qaldırılması bu istiqamətdə çox vacib bir addım idi.

Biz gözəl bir gündə toplaşmışıq. Bu da yəqin ki, rəmzi xarakter daşıyır. Müstəqillikdən keçən dövr ərzində bütün türk dövlətləri güclənmişlər. Əgər 1991-ci ildə bizim ölkələrimizdə demək olar ki, həm iqtisadi, həm də siyasi problemlər kifayət qədər idisə, bu gün, 16 il keçəndən sonra biz bütün ağır günlərimizi arxada qoymuşuq, biz bütün böhranlardan sərəflə çıxmışıq. Həm iqtisadi artım, həm siyasi sabitlik, həm də dünyadakı mövqelərimizin möhkəmləndirilməsi bizim ölkələrimizi çox qabağa aparıbdır. Tarix baxımından 16 il o qədər də böyük zaman deyil. Ancaq xalqlarımız sübut etdilər ki, biz müstəqil xalqlar kimi yaşaya bilərik.

Müstəqillik ən böyük sərvətdir. Azərbaycan xalqının ən böyük nemətidir. Əsrlər boyu Azərbaycan xalqı müstəqilliyə həsrət qalmışdır. Biz başqa ölkələrin tərkibində yaşayırdıq və müstəqil deyildik. Ancaq bu gün Azərbaycan müstəqil ölkədir. Müstəqilliyimiz bu gün təkcə rəsmi atributlarla deyil, eyni zamanda, bizim siyasətimizlə ölçülür. Azərbaycan müstəqil siyasət aparmaq iqtidarındadır. Nəyin hesabına? Əlbəttə ki, ölkədə gedən iqtisadi, siyasi islahatlar nəticəsində, aparılan böyük quruculuq işləri nəticəsində və eyni zamanda, türk dünyası dövlətlərinin bir-birinə dəstək verməsi nəticəsində.

Mən bizim müstəqil dövlətlərimizin formalaşmasında Türkiyə Cümhuriyyətinin rolunu qeyd etmək istəyirəm. Türkiyə Azərbaycanı müstəqil ölkə kimi tanıyan ilk dövlət olmuşdur. İlk illərdə və bütün dövrlərdə biz Türkiyənin dəstəyini, köməyini hiss etmişik, bu gün də hiss edirik və bu, bizə əlavə güc verir. Biz müstəqil ölkə olanda dünya birliyinə yeni qədəm qoymuşduq. Amma Türkiyə kimi böyük dövlətin, qardaş ölkənin yanımızda olması, əlbəttə, Azərbaycana çox böyük faydalar gətirirdi.

Bu gün isə qarşılıqlı fəaliyyət nəticəsində bizim gücümüz, Azərbaycanın artan gücü eyni zamanda Türkiyəni gücləndirir. Bu gün qarşılıqlı investisiyaların həcmi ildən-ilə artır. Artıq Azərbaycan investisiyaları Türkiyəyə qoyulur. Bu investisiyalar milyardlarla dollar həcmindədir. Azərbaycanın artan iqtisadiyyatı Türkiyəni gücləndirir və əksinə. Bu yaxınlarda Türkiyə-Azərbaycan biznes forumunun keçirilməsi bu istiqamətdə çox önəmli addımdır. Forumda bütün iqtisadi sahədə olan məsələlər müzakirə edildi və gələcək planlar müəyyən olundu. Ölkələrimizin ildən-ilə artan iqtisadi potensialı, əlbəttə, bütün türk dünyasını birləşdirəcəkdir. Biz elə etməliyik ki, qarşılıqlı ticarətin təşviqi ilə bir-birimizi gücləndirək. Bu gün bizim ölkələrimizdə kifayət qədər imkanlar var. Həm təbii sərvətlər, həm inkişaf etmiş sənaye, həm də liberal müasir bazar iqtisadiyyatı. Biz öz resurslarımızı birləşdirib böyük gücə çevrilməliyik.

Yeni yaradılmış, gənc müstəqil türk cümhuriyyətlərində çox böyük təbii ehtiyatlar var. Qazaxıstanda, Türkmənistanda, Azərbaycanda birlikdə neft və qazın hasilatı dünyanın ən böyük neft-qaz hasil edən ölkələri səviyyəsindədir. Eyni zamanda, mövcud neft-qaz ehtiyatları dünya enerji bazarına çox böyük təsiretmə gücündə olan həcmdədir. Biz bunlardan səmərəli istifadə etməklə ölkələrimizi inkişaf etdiririk. Eyni zamanda, qardaş Türkiyənin infrastruktur və tranzit imkanlarından istifadə edərək, öz resurslarımızla dünya bazarlarına çıxırıq. Bu, bizi gücləndirir, əlavə maddi imkanlar yaradır, müstəqil

siyasət aparmaq üçün bizə çox gözəl şərait yaradır. Eyni zamanda, bütün türk dünyasını birləşdirir.

Bakı-Tbilisi-Ceyhan, Bakı-Tbilisi-Ərzurum neft və qaz kəmərləri dünya miqyaslı layihələrdir. Bu layihələr bütün bölgədə coğrafi-siyasi və iqtisadi vəziyyəti köklü şəkildə bizim xeyrimizə dəyişdirmişdir. Bu layihələr həyata keçdikcə bizim xalqlarımız bundan çox böyük fayda götürür. Biz Xəzər dənizinin Azərbaycan sektorunda yerləşən neft-qaz yataqlarından səmərəli istifadə etməklə Türkiyə ərazisi ilə dünya bazarlarına çatdırırıq. Bu yeni iqtisadi, enerji dəhlizlərinin açılması bizim müstəqilliyimizi daha da gücləndirir. İndi enerji müstəqilliyi ölkələrin müstəqilliyi deməkdir. Biz enerji cəhətdən tam müstəqil ölkəyik. Amma dünya bazarlarına çıxışımız yoxdur. Bu çıxışı bizim üçün qardaş Türkiyə təmin edir və bundan bütün türk dünyası faydalana bilər.

Mən əminəm ki, gələcəkdə bu sahədə mövcud olan əməkdaşlıq daha da dərinləşməlidir, yeni ölkələri əhatə etməlidir. Türkiyə və Azərbaycan uzun illər ərzində bu sahədə çox səmərəli işləyirlər. Vaxtilə əfsanə kimi tanınan layihələri bizim təşəbbüsümüzlə, birgə səylərlə, rəhbərlərin iradəsi və xalqların dəstəyi ilə gerçəkliyə çevirmişik. İndi artıq bu yollar açılıbdır. Bunlar yeni yollardır, gələcəyə aparan yollardır. Bu yollar müstəqilliyin möhkəmlənməsinə gedən yollardır. Mən əminəm ki, bu gözəl imkanlardan bütün türk dünyası istifadə edəcəkdir.

Əlbəttə, bizi birləşdirən bizim tariximizdir, – xalqlarımız əsrlər boyu bir yerdə yaşamış, yaratmışlar, – ənənələrimizdir, bizim mədəniyyətimizdir, dilimizdir, kökümüzdür, etnik mənsubiyyətimizdir. Bu, gələcək inkişaf üçün çox böyük bir əsasdır. Ancaq bununla bərabər, onu da bilirik ki, dünyada başqa ölkələr var ki, onlar da etnik cəhətdən bir-birinə yaxındır, onların da etnik mənsubiyyəti birdir, onlar da əsrlər boyu bir yerdə yaşamışlar və bir yerdə olmuşlar. Amma bu, heç də o demək deyil ki, onların indiki maraqları və ya siyasi baxışları üst-üstə düşür, yaxud da dostluğu yüksək səviyyədədir.

Yəni, bu, çox böyük bir üstünlükdür, çox böyük bir zəmindir. Bu zəmin üzərində qurulan münasibətlər xalqların bir-birinə bağlı olmasından, siyasətçilərin bir-birinə yaxın olmasından, maraqların üst-üstə düşməsindən asılıdır. Bizim aramızda, Türkiyə ilə Azərbaycan arasında dostluq, qardaşlıq münasibətləri bütün sahələrdə özünü büruzə verir. Həm xalqlarımız birdir, həm xalqlara rəhbərlik edən insanlar dostdur, qardaşdır, həm də qeyri-hökumət sektoru - millət vəkilləri, bütün elm adamları, ziyalılar bir-biri ilə sıx bağlıdır. Bu, bizim birliyimizi daha da gücləndirir. Mən bugünkü qurultaya bu prizmadan baxıram. Bu qurultay, əlbəttə, çox gözəl qərarlar qəbul edəcəkdir. Əminəm ki, burada aparılan müzakirələr həm praktik cəhətdən, həm elmi cəhətdən, həm də bizim bütün sahələrdə işbirliyimiz baxımından çox önəmli olacaqdır. Ancaq bununla bərabər, əminəm ki, Azərbaycanda keçirilən bu qurultay bütün türk dünyasının birləşməsində çox mühüm bir addımdır. Mən şübhə etmirəm ki, qurultayın nəticələri bizim birliyimizi daha da möhkəmləndirəcəkdir.

Biz indi elə bir mərhələdəyik ki, bütün imkanlardan istifadə edib öz mövqelərimizi daha da möhkəmləndirməliyik. Bu sahədə, əlbəttə, xaricdə yaşayan soydaşlarımızın fəaliyyətindən çox şey asılıdır. Təsadüfi deyil ki, bu ilin mart ayında Bakıda Azərbaycan və türk diaspor təşkilatları rəhbərlərinin I forumu keçirilmişdir. Forum türk və Azərbaycan diaspor təşkilatlarının birləşməsi işində çox mühüm rol oynamışdır. Biz artıq bunun nə-

ticələrini görməkdəyik. Demək olar ki, indi bütün ölkələrdə türk və Azərbaycan diaspor təşkilatları birgə fəaliyyət göstərirlər, birgə işlər görürlər. Bizi narahat edən, bizim əleyhimizə yönəldilən tədbirlərin qarşısını almaqda da birlikdə çıxış edirlər. Bir-birinin imkanlarından, təşkilatlanma imkanlarından istifadə edirlər. Bəzi hallarda bizə qarşı aparılan ədalətsiz kampaniyalara qarşı çox əsaslandırılmış mövqe ortaya qoyurlar. Əvvəllər bizim buna imkanımız yox idi.

Azərbaycan gənc müstəqil ölkə idi. Müstəqilliyimizin ilk illərində bu sahədə o qədər də böyük imkanlarımız yox idi. Amma bu gün bu sahəyə böyük diqqət göstərilir. Türk diaspor təşkilatlarının bütün dünyada çox böyük tarixi var. Azərbaycan diaspor təşkilatları gəncdir. Amma bunlar birləşərək, bir nöqtəyə vuraraq öz məqsədlərinə nail olurlar, ölkələrimizi müdafiə edirlər, ölkələrimizin milli maraqlarını müdafiə edirlər. Biz dövlətlər də öz dəstəyimizlə onları gücləndiririk. Onların orada bütün strukturlarda fəal olması bizim gücümüzdür. Onlar həm iqtisadi sektorda, həm də siyasi müstəvidə – yaşadıqları ölkələrin parlamentlərində təmsil olunmalıdırlar. Onların təsir imkanları daha da güclü olmalıdır. O təsir imkanları ölkələrimizin milli maraqlarına xidmət edəcəkdir.

Biz, Türkiyə və Azərbaycan, bəlkə də, dünyada nadir ölkələrik ki, bizə qarşı çox böyük təşkilatlanmış, böyük maliyyə imkanlarına malik olan erməni lobbisi və dünya ermənilər bizə qarşı kampaniya aparırlar. Başqa ölkələrin belə problemləri yoxdur. Amma bizə qarşı əsassız ittihamlar, əsassız iddialar, düşmənçilik addımları var və əlbəttə, bu, bizi biganə qoya bilməz. Biz buna hazır olmalıyıq. Ermənistanın, erməni lobbisinin və onun himayəsi ilə bəzi inkişaf etmiş ölkələrin riyakar siyasətçilərinin əsassız ittihamlarına qarşı biz öz həqiqətimizi qoymalıyıq. Çünki haqq-ədalət bizim tərəfimizdədir.

Erməni lobbisi və Ermənistan 1915-ci ilin hadisələrinə görə Türkiyəni daim bütün ölkələrdə günahlandırmaq istəyir. Bütün ölkələrin parlamentlərində qondarma "soyqırımı"nı tanıtdırmaq istəyir. Bu, böyük erməni yalanıdır, böyük erməni təxribatıdır. Ermənilər həmişə türklərə, azərbaycanlılara qarşı soyqırımı siyasəti aparmışlar. Keçmiş tarixdə də belə olub, yaxın tarixdə də belə olubdur və Xocalı soyqırımı bunun bariz nümunəsidir. Günahsız insanları, uşaqları, yaşlı qadınları qətlə yetirmək soyqırım deyil, bəs nədir? Ancaq əfsuslar olsun ki, dünya birliyi bunu ya görmür, ya da görmək istəmir, ermənilərin, erməni lobbisinin və dünya ermənilərinin uydurma "faktları" əsasında qərar qəbul edirlər. Biz buna qarşı öz siyasətimizi, öz həqiqətimizi qoymalıyıq, öz təbliğatımızı, öz gücümüzü qoymalıyıq. Əlbəttə ki, həqiqəti çatdırmaq, təbliğ etmək, bütün dünyaya yaymaq bizim işimizdir - dövlətlərin, diaspor təşkilatlarının, hər bir vətənpərvər insanın işidir.

Biz indi bunu edirik və bu sahədə Türkiyə dövlətinin, türk xalqının fəal çalışmaları nəticəsində Amerika Konqresinin Xarici əlaqələr komitəsində qəbul edilmiş ədalətsiz qərarın müzakirəsi dayandı və onun davamı olmadı. Yəni bu, Türkiyənin gücü hesabına mümkün oldu. Amma burada, əlbəttə ki, müxtəlif amillərin mövcudluğu vacibdir. Təbliğat, bizim həqiqətə əsaslanmış sözlərimiz və eyni zamanda, bizim gücümüz. Bizim gücümüz isə birliyimizdədir. Biz nə qədər güclü olsaq, bizim həqiqətimiz də bir o qədər üstün olacaqdır. O qədər də bizim sözümüzü eşidəcəklər, bizim sözümüzlə hesablaşacaqlar. Ona görə bir daha mən bu məsələyə qayıtmaq istəyirəm ki, bizim birliyimiz ölkələrimizin gələcəyi üçün başlıca şərtdir və bizim gücümüz bundadır.

Azərbaycana qarşı uzun illər aparılan işğalçı siyasət, əfsuslar olsun ki, dünya birliyi tərəfindən lazımi səviyyədə pislənmir. Azərbaycanın ərazi bütövlüyü pozulubdur. Ermənilərin azərbaycanlılara qarşı etnik təmizləmə siyasəti nəticəsində 1 milyondan çox soydaşımız qaçqın, köçkün vəziyyətinə düşübdür. Azərbaycanın işğal olunmuş əraziləri tamamilə dağıdılıbdır. Bizim məscidlərimiz, qəbirlər, bütün binalarımız orada yerlə-yeksan edilibdir. Heç kim buna reaksiya vermir. Heç kim buna görə Ermənistanı cəzalandırmır. Bizim qarşımızda seçim qalmır. Biz nə etməliyik?! Biz artıq 13 ildir sülh danışıqları aparmaqla çalışırıq ki, öz ərazi bütövlüyümüzü danışıqlar yolu ilə bərpa edək. Amma görəndə ki, bu baş vermir, biz başqa üsullara əl atmağa məcburuq.

Yenə də qayıdıram bizim əsas mövzumuza – yenə də birlik, yenə də bizim gücümüz. Biz bütün işlərimizdə öz gücümüzə əsaslanmalıyıq və öz haqqımızı bərpa etməliyik. Mən şübhə etmirəm ki, Azərbaycan öz ərazi bütövlüyünü bərpa edəcəkdir. Azərbaycanın işğal altındakı bütün bölgələri azad olunacaq və bizim soydaşlarımız oraya qayıdacaqlar və o gün uzaqda deyildir.

Əziz dostlar!

Mən bu gözəl gündə sizi bir daha ürəkdən salamlayıram. Azərbaycana gəlmiş bütün qonaqları səmimiyyətlə salamlayıram. Sizə "Xoş gəlmisiniz!" deyirəm. Siz öz gəlişinizlə, burada olmağınızla Azərbaycana böyük sevinc gətirdiniz. Bu gün bütün türk dünyası Azərbaycandadır. Bu gün bütün türk dünyası birdir. Mən arzu edirəm ki, türk dünyası həmişə bir olsun. Həmişə bir yerdə olsun və gələcək işlərimiz nəticəsində bizim gücümüz artsın, imkanlarımız artsın, türk dünyası rifah içində yaşasın və bütün türk dövlətləri çiçəklənsin, inkişaf etsin.

Sağ olun.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN TÜRKİYƏYƏ İŞGÜZAR SƏFƏRİ

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev noyabrın 17-də Türkiyəyə işgüzar səfərə gəlmişdir.

PREZİDENT İLHAM ƏLİYEV TÜRKİYƏ-YUNANISTAN QAZ KƏMƏRİNİN AÇILIŞ MƏRASİMİNDƏ İŞTİRAK ETMİŞDİR

Noyabrın 18-də Türkiyə ilə Yunanıstan arasında inşa olunmuş qaz kəmərinin təntənəli açılış mərasimi keçirilmişdir.

Türkiyənin Ədirnə şəhərinin ərazisində, Yunanıstanla sərhəddə yerləşən İpşala sərhəd-keçid məntəqəsində təşkil edilmiş tədbirdə Azərbaycan Prezidenti İlham Əliyev, Türkiyənin Baş naziri Rəcəb Tayyib Ərdoğan, Yunanıstanın Baş naziri Konstantinos Karamanlis, Türkiyənin energetika və təbii ehtiyatlar naziri Hilmi Gülər və ABŞ-ın energetika naziri Samuel Bodman və digər rəsmi şəxslər iştirak edirdilər.

Türkiyə ilə Yunanıstanın qaz kəmərləri şəbəkələrini birləşdirəcək bu boru xəttinin inşasına dair ilkin sənəd 2002-ci ilin aprelində imzalanmış, 2003-cü ilin fevralında hökumətlərarası razılıq əldə olunmuşdu. 296,5 kilometrlik kəmərin 210 kilometri Türkiyənin, 86,5 kilometri Yunanıstanın ərazisindən keçir. Layihənin ümumi dəyəri təxminən 250 milyon avrodur. İlkin mərhələdə 250 milyon kubmetr, ikinci ildə 500 milyon kubmetr, üçüncü ildə 750 milyon kubmetr qaz nəql ediləcəkdir. Sonrakı 15 il ərzində bu göstərici 12 milyard kubmetrə çatdırılmalıdır. Bundan başqa, 2012-ci ilin sonunadək Adriatik dənizinin dibi ilə daha bir kəmərin inşası planlaşdırılır. Bu xətt Yunanıstanla İtaliyanı birləşdirəcəkdir. Nəticədə Xəzər regionunda hasil ediləcək təbii qazın Mərkəzi Avropaya çatdırılması imkanı daha da genişlənəcəkdir.

2007-ci ilin iyulunda Cənubi Qafqaz Boru Kəməri (CQBK) vasitəsilə Türkiyənin "Botaş" şirkətinin qaz nəqli sisteminə ilk qaz verilmişdir.

Azərbaycanın, Türkiyənin və Yunanıstanın dövlət himnləri səsləndirildi. Mərasimi Türkiyənin energetika və təbii ehtiyatlar naziri Hilmi Gülər açdı.

Hilmi Gülər mərasim iştirakçılarını salamlayaraq, Türkiyə-Yunanıstan qaz kəməri vasitəsilə Xəzər hövzəsindən, Orta Şərqdən və Türkiyəyə qonşu olan digər bölgələrdən təbii qazın Türkiyə və Yunanıstan ərazisi ilə Avropa bazarlarına ötürüləcəyini bildirdi. Türkiyə naziri kəmərin tikintisi ilə bağlı hökumətlərarası anlaşma, "Botaş" və "Depa" şirkətləri arasında alqı-satqı razılaşmasının imzalanması, texniki göstəricilər, ilkin mərhələdə və sonrakı illərdə qaz nəqlinin nəzərdə tutulan həcmi barədə məlumat verdi. Hilmi Gülər "Şahdəniz" layihəsi ilə bağlı işlərin başa çatdırılmasında böyük əməyi olan Prezident İlham Əliyevə, habelə Baş nazir Rəcəb Tayyib Ərdoğana təşəkkürünü bildirdi.

ABŞ-ın energetika naziri Samuel Bodman bildirdi ki, bu layihə çox əhəmiyyətli, iqtisadi cəhətdən çox səmərəlidir. O, son illər həyata keçirilən bir sıra beynəlxalq layihələrə və təşəbbüskarlığına görə Azərbaycan Prezidentinə təşəkkür edərək dedi ki, ABŞ bu layihələrə böyük önəm verir. Bu kəmər Azərbaycan, Türkiyə və Yunanıstan üçün böyük müvəffəqiyyətdir və yeni işbirliyi yaradacaq, uzunmüddətli enerji təhlükəsizliyini təmin edəcəkdir. Bunu gerçəkləşdirmək çox vacib idi. Hazırda Avropa ən böyük enerji bazarıdır və gələcəkdə tələbat daha da artacaqdır. Azərbaycanın və Orta Asiyanın ən böyük enerji ixracatçısı olacağını vurğulayan nazir gələcəkdə Türkmənistan və Qazaxıstanın da bu layihəyə qoşulacağına əminliyini söylədi.

Yunanıstanın Baş naziri Konstantinos Karamanlis göstərilən qonaqpərvərliyə görə Türkiyə tərəfinə təşəkkürünü bildirdi, Azərbaycan Prezidentini xüsusi olaraq "Xoş gəlmisiniz!" deyə salamladı. Bu layihənin çox önəmli xarakter daşıdığını vurğulayan Baş nazir bunu dəstəklədiklərinə görə Avropa İttifaqının rəhbərlərinə təşəkkür etdi. O dedi ki, gələcəkdə bu kəmər İtaliya sərhədinə qədər uzanacaq və bununla əlaqədar sənəd imzalanmışdır. Konstantinos Karamanlis bu ilin avqustunda Azərbaycanla təbii qazın nəqli ilə əlaqədar sazişin imzalandığını da vurğuladı. O, Azərbaycan-Türkiyə-Yunanıstan-İtaliya dördtərəfli işbirliyini tarixi reallıq adlandırdı, bunun ölkələr üçün çox əhəmiyyətli olduğunu söylədi. Dünyada enerji problemlərinin yarandığı bir vaxtda kəmərin işə düşməsini yüksək qiymətləndirən Baş nazir bunu həm də beynəlxalq işbirliyinin nümunəsi kimi səciyyələndirdi. Konstantinos Karamanlis gələcəkdə Türkiyə ilə Yunanıstan arasında elektrik xətlərinin birləşdirilməsinin nəzərdə tutulduğunu, bu barədə avqust ayında sənəd imzalandığını xatırlatdı. O dedi ki, Türkiyə ilə əlaqələrin daha da sıx-

laşdırılmasına, dərinləşdirilməsinə çalışırıq və Türkiyənin Avropa İttifaqına qəbuluna böyük dəstək veririk.

Sonra çıxış edən Türkiyənin Baş naziri Rəcəb Tayyib Ərdoğan dedi ki, iki qonşu ölkə arasında reallaşdırılan qaz kəmərinin açılış mərasimində Azərbaycan Prezidenti İlham Əliyevin iştirakı bizim üçün qürur mənbəyidir. 2005-ci ildə təməli qoyulan Avropa İttifaqına üzvlüklə bağlı Türkiyə-Yunanıstan əlaqələri bütün sahələrdə daha da genişlənməkdədir. Türkiyənin geosiyasi əhəmiyyətindən, Bakı-Tbilisi-Ceyhan və Bakı-Tbilisi-Ərzurum neft-qaz layihələrindən danışan Baş nazir Xəzər hövzəsinin təbii ehtiyatlarının Türkiyə və Yunanıstan ərazisi ilə Avropa bazarlarına çıxarılmasının yeni çoxtərəfli əməkdaşlığın əsasını qoyduğunu bildirdi. O dedi ki, bütün işlərdə qarşılıqlı əməkdaşlığa önəm verən Türkiyə, bölgədə böyük enerji dəhlizinə çevrilir. Avropaya qaz nəqli layihəsinin növbəti mərhələsində boru xəttinin Adriatik dənizindən keçməklə İtaliyaya çatdırılmasından sonra Xəzər hövzəsi və Orta Şərq mənbələrindən Yunanıstana ildə 3,6 milyard kubmetr və İtaliyaya isə 8 milyard kubmetr qazın nəqli planlaşdırılır.

Rəcəb Tayyib Ərdoğan Azərbaycan Prezidenti İlham Əliyevin bu mərasimdə iştirakını bir daha yüksək qiymətləndirdi, Azərbaycan nefti və qazının dünya bazarlarına çıxarılmasının beynəlxalq aləmdə əməkdaşlığın əsl nümunəsi olduğunu dedi. NABUKKO layihəsinin önəmindən də bəhs edən Türkiyənin Baş naziri bütün işlərin bölgədə sülhə, əmin-amanlığa və təhlükəsizliyə xidmət etdiyini vurğuladı, layihənin xeyirli və uğurlu olmasını arzuladı.

Azərbaycan Prezidenti İlham Əliyev mərasimdə nitq söylədi.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN NİTQİ

-Hörmətli Baş nazirlər!

Hörmətli nazirlər!

Hörmətli xanımlar və cənablar!

Mən sizin hamınızı ürəkdən salamlayıram və bu tarixi hadisə münasibətilə ürəkdən təbrik etmək istəyirəm.

Bu gün Türkiyə və Yunanıstan arasında qaz xətlərinin birləşməsi bölgəyə yenilik gətiribdir, yeni əməkdaşlıq imkanları gətiribdir. Enerji sahəsində mövcud olan əməkdaşlığın yeni formatı yaranıb və mən əminəm ki, bu başlanğıc çox uğurlu olacaqdır. Bu, birinci addımdır. Mən şübhə etmirəm ki, bundan sonra yeni addımlar atılacaq və bölgədə sabitliyin, bölgədə əməkdaşlığın, təhlükəsizliyin, o cümlədən enerji təhlükəsizliyinin təmin olunması üçün bütün lazımi tədbirlər görüləcəkdir.

Mən çox şadam ki, bu gün Azərbaycan qazı ilk dəfə olaraq, Avropa İttifaqı bazarına çatdırılır. Azərbaycan qədim neft ölkəsidir. İlk dəfə dünyada sənaye üsulu ilə neft XIX əsrin ortalarında Azərbaycanda hasil edilibdir. Eyni zamanda, dənizin dibindən də ilk dəfə olaraq nefti məhz Azərbaycan neftçiləri XX əsrin ortalarında hasil etmişlər. Yəni, Azərbaycanın neft tarixi çox zəngindir. Ancaq qaz ölkəsi kimi Azərbaycan təzə-təzə özünü dünyaya təqdim edir. Biz o ölkəyik ki, hələ keçən il xaricdən 4,5 milyard kubmetr qaz idxal edirdik. Amma Azərbaycanda aparılan böyük işlərin nəticəsində, neft strategiyası-

nın icrası nəticəsində, Azərbaycanda böyük qaz yataqlarının kəşfi və işlənilməsi nəticəsində bu gün Azərbaycan artıq qaz idxal etmir, əksinə, öz qazını qonşu ölkələrin bazarlarına ixrac edir. İndi Azərbaycan üç ölkəyə – Gürcüstana, Türkiyəyə və bu gündən Yunanıstana qazın ixracı ilə məşğuldur. Azərbaycan qazı bundan sonra başqa ölkələrə ixrac ediləcəkdir və bəlkə ki, həm bizim maraqlarımız, həm tranzit ölkələrin maraqları təmin olunacaq və əlbəttə ki, həm də istehlakçıların maraqları təmin ediləcəkdir. Bu gün üç ölkənin əməkdaşlığı məhz bu formatda müşahidə olunur: istehsalçı, tranzit ölkə və qazı istehlak edən tərəf. Üç tərəf vahid formatda öz səylərini birləşdirir. Üç tərəfin maraqları tam şəkildə təmin olunur və əminəm ki, bu, bütün başqa bölgələr üçün nümunə ola bilər. Bizim əməkdaşlığımızın başlanğıcı çox uğurludur və mən əminəm ki, gələcəyi də uğurlu olacaqdır.

1994-cü ildə Azərbaycan xarici neft şirkətlərini ölkəyə dəvət etməklə Xəzər dənizinin neft-qaz yataqlarını dünya bazarına açdı. Bugünkü hadisə də öz başlanğıcını məhz 1994-cü ildən götürür. Daha doğrusu, Azərbaycanın öz dövlət müstəqilliyini bərpa etdiyi və öz təbii sərvətlərinə sahib olduğu 1991-ci ildən.

Biz ardıcıl olaraq, artıq 13 ildir ki, neft-qaz siyasətimizi elə aparırıq ki, ölkənin bütün maraqları təmin edilsin və bizim üçün dost, qonşu ölkələrin maraqları da təmin olunsun. 1994-cü ildə əgər "Əsrin müqaviləsi" imzalanmasaydı, təbii ki, Bakı-Tbilisi-Ceyhan neft kəməri inşa olunmazdı. Əgər o olmasaydı, Bakı-Tbilisi-Ərzurum qaz kəməri inşa olunmazdı və bu gün biz "Şahdəniz" yatağından qaz hasilatına nail ola bilməzdik. Yəni bütün bu məsələlər bir-biri ilə bağlıdır. "Şahdəniz" qaz yatağından çıxarılan böyük həcmdə qaz uzun illər ərzində həm Azərbaycan xalqına, həm də qardaş, dost ölkələrin xalqlarına xidmət edəcəkdir.

Azərbaycanda neft-qaz ehtiyatları çox böyük həcmdədir. Təkcə "Şahdəniz" qaz yatağından biz 1 trilyon 200 milyard kubmetr qaz hasil etmək fikrindəyik, yəni son hesablamalar bunu göstərir. Azərbaycandakı digər qaz yataqlarında da kifayət qədər ehtiyatlar vardır və bu günə ancaq təsdiq edilmiş rəqəm təxminən 2 trilyon kubmetrdir. Ancaq biz keçmiş təcrübədən bilirik ki, işlər getdikcə, yeni quyular qazıldıqca, əlbəttə ki, bu həcmlər daha da artır. Yəni bundan sonra uzun illər ərzində Azərbaycan həm öz enerji təhlükəsizliyini tam şəkildə təmin edəcək, həm də tərəfdaşlarımızın enerji təhlükəsizliyinə öz töhfəsini verəcəkdir.

Mən bugünkü hadisəni eyni zamanda, Azərbaycan-Avropa İttifaqı əməkdaşlığı çərçivəsində mühüm hadisə kimi qiymətləndirirəm. Bir il bundan əvvəl Avropa İttifaqı ilə Azərbaycan arasında enerji məsələləri üzrə strateji tərəfdaşlığa dair anlaşma memorandumu imzalanmışdır və artıq bir ildir biz bu memorandumun icrası ilə məşğuluq.

Türkiyə-Azərbaycan münasibətləri çoxşaxəlidir. Bizim münasibətlərimizi qardaşlıq münasibətləri kimi səciyyələndirmək mümkündür. Biz bütün sahələrdə, o cümlədən enerji sahəsində uğurla əməkdaşlıq edirik. 10 ildən artıqdır ki, bu sahədə çox böyük işlər görülübdür. "Azəri-Çıraq-Günəşli" yataqlarından çıxarılan neft Bakı-Tbilisi-Ceyhan kəməri ilə ixrac olunur. Ceyhan limanında böyük terminal tikilibdir və gələcəkdə böyük işlərin görülməsi nəzərdə tutulur. "Şahdəniz" yatağından çıxarılan qazı biz Türkiyə ərazisi ilə dünya bazarlarına çatdırırıq. Yəni bu münasibətlərin artıq böyük tarixi var.

Avropa İttifaqı ilə Azərbaycan arasında enerji sahəsində əməkdaşlıq yeni yaranır və bunda Yunanıstanın rolu çox önəmlidir. Yunanıstan Avropa İttifaqının ilk ölkəsidir ki, bu sahədə bizimlə əməkdaşlıq edir və biz bu əməkdaşlıqdan çox razıyıq, çox məmnunuq. Əminəm ki, Yunanıstanla Azərbaycan arasında mövcud olan dostluq münasibətləri, o cümlədən enerji sahəsində əməkdaşlıq daha da genişlənəcək və bütövlükdə bölgədə yeni bir əməkdaşlıq formatı yaradılacaqdır.

Biz neft-qaz yataqlarımızın işlənilməsinə başlayanda heç təsəvvür edə bilmirdik ki, nə vaxtsa, Azərbaycan qazı Avropa bazarına çıxarılacaqdır. Biz o vaxt sadəcə olaraq, zəngin yataqlarımızdan çıxarılacaq neft, qazı qonşu ölkələrin bazarına çatdırmaq fikrində idik. Hesab edirdik ki, Bakı-Tbilisi-Ceyhan və Bakı-Tbilisi-Ərzurum neft, qaz kəmərlərinin tikintisi ilə bu sahədə işlərimiz artıq tamamlanıbdır. Yəni biz bütün istədiyimizə nail olmuşuq, qarşımızda duran bütün vəzifələri icra etmişik və bundan sonra Azərbaycan xalqı və Azərbaycan dövləti bu gözəl imkanlardan uzun illər ərzində istifadə edəcəkdir. Ancaq gördüyünüz kimi, 1994-cü ildə Azərbaycanda bağlanmış *ilk neft müqaviləsi* bu gün yeni məsələlərin ortaya çıxmasına xidmət göstərir. Mən əminəm ki, növbəti illərdə, – bu, bizim planlarımızda var, – Avropa-Azərbaycan enerji dialoqu daha da güclənəcəkdir. Avropa İttifaqının üzvü olan ölkələrlə enerji sahəsində müttəfiqliyimiz davam etdiriləcəkdir. Yeni layihələr, yeni məsələlər ortaya çıxacaqdır. Neft, qaz hasil edən ölkə kimi indi biz bütün layihələrdə fəal iştirak edirik və bütün layihələri öz tərəfdaşlarımızla birlikdə icra etməyə qadirik.

Mən bugünkü hadisəyə bu geniş prizmadan yanaşıram. Əminəm ki, bu gün burada, Türkiyə-Yunanıstan sərhədində yaranan yeni əməkdaşlıq formatı daha da genişlənəcəkdir. Bu formata yeni ölkələr daxil olacaqdır. Əməkdaşlığın yeni formaları üzə çıxacaqdır. Beləliklə, həm Xəzər dənizi, Qafqaz, Türkiyə, Avropada – bu bölgədə əməkdaşlıq, təhlükəsizlik daha da güclənəcək və xalqlar bir-birinə daha da sıx bağlı olacaq və həm də bu layihələrdə iştirak edən bütün xalqlar bundan faydalanacaqlar.

Azərbaycan Respublikasının Prezidenti kimi mən bu gün çox şadam ki, Azərbaycanın enerji siyasəti əməkdaşlığın dərinləşməsinə xidmət edir, ölkələrin dostluğuna və gələcək əməkdaşlıq perspektivlərinə xidmət edir.

Bu gözəl hadisə münasibətilə sizin hamınızı bir daha ürəkdən təbrik etmək istəyirəm. Məni bu gözəl mərasimə dəvət etdiyinə görə əziz qardaşım Rəcəb Tayyib Ərdoğana öz təşəkkürümü bildirmək istəyirəm. Biz dünən Bakıda idik, birlikdə Türk dövlət və cəmiyyətlərinin dostluq, qardaşlıq və əməkdaşlıq qurultayında iştirak edirdik. Dünən axşam İstanbula gəldik. Bu gün birlikdə buraya gəldik və dostumuz. Baş nazir Karamanlis ilə görüşdük. Yəni bu, bir daha onu göstərir ki, bizim aramızda olan münasibətlər çox böyük təsir gücünə malikdir, yeni ölkələri əhatə edir, yeni məsələlər üzə çıxır və əməkdaşlıq, dostluq, tərəfdaşlıq güclənəcəkdir.

Bir daha sizin hamınızı ürəkdən təbrik edirəm, xeyirli olsun!

* * *

Sonra Azərbaycan Prezidenti İlham Əliyev, Türkiyənin Baş naziri Rəcəb Tayyib Ərdoğan, Yunanıstanın Baş naziri Konstantinos Karamanlis və Türkiyənin energetika və təbii ehtiyatlar naziri Hilmi Güler Türkiyə-Yunanıstan təbii qaz kəmərinin rəmzi açılışını

bildirən düyməni basdılar və qaz məşəlini alovlandırdılar, məşəl önündə xatirə şəkli çəkdirdilər.

Türkiyə ərazisində təntənəli mərasim başa çatdıqdan sonra Prezident İlham Əliyev, Baş nazirlər və digər qonaqlar Yunanıstan sərhədini keçdilər. Burada mərasimin ikinci hissəsi davam etdirildi.

* * *

Azərbaycan Prezidenti İlham Əliyev, Türkiyənin Baş naziri Rəcəb Tayyib Ərdoğan, Yunanıstanın Baş naziri Konstantinos Karamanlis, ABŞ və digər ölkələrdən gəlmiş qonaqlar Yunanıstanın ərazisində yerləşən qazpaylayıcı və ölçü stansiyası ilə yaxından tanış oldular.

Prezident İlham Əliyev, Baş nazirlər Rəcəb Tayyib Ərdoğan və Konstantinos Karamanlis təbii qaz kəmərinin açılışını bildirən düyməni basdılar və bununla da qaz Yunanıstan ərazisinə daxil oldu.

Bu münasibətlə keçirilən mərasimi Yunanıstanın inkişaf naziri Xristos Folias açaraq, Azərbaycan Prezidentini, Türkiyənin Baş nazirini və digər qonaqları salamladı. O, bu kəmərin açılışı ilə Türkiyə və Yunanıstan arasında münasibətlərdə yeni dövrün başlandığını, Xəzər bölgəsindən, Orta Şərqdən və digər mənbələrdən gələn qazın gələcəkdə Yunanıstan vasitəsilə İtaliyaya da ötürüləcəyini bildirdi.

Sonra Yunanıstanın Baş naziri Konstantinos Karamanlis çıxış edərək dedi ki, Azərbaycan Prezidenti İlham Əliyevin burada olması bizi daha da şərəfləndirir. Biz gələcəkdə daha böyük əməkdaşlığın qurulması üçün birlikdə çalışacağıq. Elektrik enerjisi sahəsində də birgə əməkdaşlığın zəruriliyini vurğulayan K.Karamanlis bütün bunların Yunanıstan-Türkiyə münasibətlərində yeni fürsətlərin yaradacağını və tərəflərin onlardan səmərəli istifadə etməsinin zəruriliyini bildirdi. O dedi ki, biz - Türkiyə, Azərbaycan və Yunanıstan sülhə, əməkdaşlığa gedən yolda mühüm əməkdaşlıq həyata keçiririk.

Türkiyənin Baş naziri Rəcəb Tayyib Ərdoğan çıxışında görülən işlərdən bütün tərəflərin məmnun qaldığını bildirdi və dedi ki, bu layihənin həyata keçirilməsi regional və beynəlxalq əməkdaşlığımızda yeni mərhələ açmışdır. Xəzər hövzəsi ölkələrinin təbii ehtiyatlarının Avropaya çıxarılmasını təmin etmək üçün bundan sonra da səylə çalışacağıq. Mərasimdə iştirak edən və bu işlərdə çox böyük rol oynayan Azərbaycan Prezidenti İlham Əliyevə dərin təşəkkür edirəm və əminəm ki, ölkələrimiz arasındakı əlaqələr bundan sonra daha da möhkəmlənəcəkdir. Bununla da Yunanıstan ərazisindəki mərasim başa çatdı.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV ABŞ-IN ENERGETİKA NAZİRİ SAMUEL BODMANLA GÖRÜŞMÜŞDÜR

Türkiyə-Yunanıstan qaz kəmərinin açılış mərasimində iştirak edən Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev noyabrın 18-də Ədirnə şəhərində Amerika Birləşmiş Ştatlarının energetika naziri Samuel Bodmanla görüşmüşdür.

Samuel Bodman Azərbaycanın bu və digər irimiqyaslı layihələrdə iştirakını və fəaliyyətini yüksək qiymətləndirdi.

Prezident İlham Əliyev regional əməkdaşlıq və enerji təhlükəsizliyi məsələlərində ölkəmizin əhəmiyyətini vurğuladı. Azərbaycan ilə ABŞ arasında energetika sahəsində uğurlu əməkdaşlığın həyata keçirildiyini bildirdi.

Görüşdə ölkələrimiz arasında energetika sahəsində işbirliyinin bundan sonra da inkişaf edəcəyinə əminlik vurğulandı.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN VƏ YUNANISTANIN BAŞ NAZİRİ KONSTANTİNOS KARAMANLİSİN GÖRÜŞÜ

Türkiyə-Yunanıstan qaz kəmərinin açılış mərasimində iştirak edən Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev noyabrın 18-də Yunanıstanın Baş naziri Konstantinos Karamanlislə görüşmüşdür.

Görüşdə ölkələrimiz arasında ikitərəfli münasibətlərin inkişafı ilə bağlı fikir mübadiləsi aparıldı.

Qeyd olundu ki, Türkiyə-Yunanıstan qaz kəmərinin istifadəyə verilməsindən sonra, Azərbaycan, Türkiyə və Yunanıstan arasında əməkdaşlığın yeni formatı yaranıbdır. Bunun həm region dövlətləri, həm də Azərbaycan və Yunanıstan üçün yaxşı perspektivləri vardır.

Prezident İlham Əliyev bildirdi ki, bu əməkdaşlıq Azərbaycanın Avropa İttifaqı ilə enerji sahəsində əməkdaşlığı istiqamətində mühüm bir addımdır.

Tərəflər qeyd etdilər ki, Avropa İttifaqı bu cür tədbirləri dəstəkləməlidir. Görüşdə Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi barədə də söhbət getdi. Yunanıstanın Baş naziri Konstantinos Karamanlis Azərbaycanın ərazi bütövlüyünün dəstəklədiyini bildirdi.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN FRANSAYA SƏFƏRİ

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev noyabrın 19-da Fransa Respublikasına səfərə gəlmişdir.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV "TOTAL" ŞİRKƏTİNİN İSTİSMAR VƏ İSTEHSALAT ÜZRƏ BAŞ DİREKTORU İLƏ GÖRÜŞMÜŞDÜR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev noyabrın 19-da Parisdə Fransanın "Total" şirkətinin istismar və istehsalat üzrə baş direktoru İv-Lui Darrikarrer ilə görüşmüşdür.

Görüşdə Azərbaycanla "Total" şirkəti arasında uzun illər uğurlu əməkdaşlığın olduğu vurğulandı və bu işbirliyinin gələcəkdə də genişlənəcəyinə əminlik ifadə edildi.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN VƏ FRANSA SENATININ SƏDRİ KRİSTİAN PONSÖLENİN GÖRÜŞÜ

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev noyabrın 20-də Fransa Senatının binasına gəlmişdir.

Binanın qarşısında dövlətimizin başçısının şərəfinə fəxri qarovul düzülmüşdü. Fransa Senatının sədri Kristian Ponsöle Azərbaycan Prezidenti İlham Əliyevi binanın önündə böyük hörmət və ehtiramla qarşıladı.

Prezident İlham Əliyev ilə Kristian Ponsöle arasında görüşdə ölkələrimizin əlaqələrinin müxtəlif səviyyələrdə, o cümlədən parlamentlərarası əlaqələrin səviyyəsində uğurla inkişaf etdiyi, beynəlxalq təşkilatlar çərçivəsində əməkdaşlığın genişləndiyi vurğulandı.

Senatın sədri Azərbaycan Prezidentinin Fransaya növbəti səfərinin ölkələrimiz arasında münasibətlərin inkişafına təkan verəcəyini bildirdi.

Görüşdə Azərbaycan-Fransa parlament nümayəndə heyətlərinin qarşılıqlı səfərlər etməsi məmnunluqla vurğulandı, qanunvericilik orqanları arasında əlaqələrin bundan sonra daha da genişlənəcəyinə əminlik ifadə olundu

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN VƏ FRANSA PREZİDENTİ NİKOLA SARKOZİNİN GÖRÜŞÜ

Noyabrın 20-də Parisdə, Yelisey sarayında Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və Fransa Respublikasının Prezidenti Nikola Sarkozinin görüşü olmuşdur.

Sarayın həyətində Azərbaycan Prezidentinin şərəfinə fəxri qarovul dəstəsi düzülmüşdü. Dövlətimizin başçısı hərbi marşın sədaları altında fəxri qarovul dəstəsinin qarşısından keçdi.

Fransa Respublikasının Prezidenti Nikola Sarkozi hörmət və ehtiram əlaməti olaraq, Azərbaycan Prezidenti İlham Əliyevi sarayın pilləkənləri önündə böyük səmimiyyətlə və ehtiramla qarşıladı.

Sonra prezidentlərin görüşü keçirildi.

Görüşdə ölkələrimiz arasında əlaqələrin müxtəlif sahələrdə, o cümlədən siyasi, iqtisadi və digər sahələrdə uğurla inkişaf etdiyi vurğulandı.

Fransa Prezidenti Nikola Sarkozi Azərbaycan Prezidenti İlham Əliyevin Parisə bu səfərinin ikitərəfli əlaqələrin inkişafına öz töhfəsini verəcəyinə əmin olduğunu söylədi.

Söhbət zamanı Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi məsələsinə də toxunuldu.

Azərbaycan Prezidenti İlham Əliyev Ermənistanın Azərbaycana qarşı hərbi təcavüzündən danışdı və etnik təmizləmə siyasəti nəticəsində 1 milyondan çox soydaşımızın qaçqın və məcburi köçkün vəziyyətinə düşdüyünü bildirdi. Dövlətimizin başçısı bu münaqişənin yalnız və yalnız ölkəmizin ərazi bütövlüyü bərpa edilməklə həll olunmasının zəruriliyini vurğuladı.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN FRANSAYA SƏFƏRİ BAŞA ÇATMIŞDIR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Fransa Respublikasına səfəri noyabrın 20-də başa çatmışdır.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN GÜRCÜSTANA SƏFƏRİ

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev noyabrın 21-də Gürcüstana səfərə gəlmişdir.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN VƏ GÜRCÜSTAN PREZİDENTİ MİXAİL SAAKAŞVİLİNİN GÖRÜŞÜ

Noyabrın 21-də Tbilisidə Azərbaycan Prezidenti İlham Əliyevin və Gürcüstan Prezidenti Mixail Saakaşvilinin görüşü olmuşdur.

Söhbət zamanı ölkələrimiz arasında əlaqələrin genişləndiyi, qlobal enerji layihələrinin uğurla həyata keçirildiyi vurğulandı.

Prezidentlər Bakı-Tbilisi-Qars dəmir yolu xəttinin xalqlarımız, eləcə də dünya üçün əhəmiyyətindən söhbət açdılar və bildirdilər ki, yol Azərbaycan ilə Gürcüstanın, bütövlükdə regionun inkişafına xidmət edəcəkdir.

Görüşdə ikitərəfli əlaqələrin bundan sonra da genişlənəcəyinə əminlik vurğulandı.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN VƏ TÜRKİYƏ PREZİDENTİ ABDULLAH GÜLÜN GÖRÜŞÜ

Noyabrın 21-də Tbilisidə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və Türkiyə Respublikasının Prezidenti Abdullah Gülün görüşü olmuşdur.

Görüşdə ölkələrimiz arasında əlaqələrin müxtəlif sahələrdə, o cümlədən siyasi, iqtisadi və digər istiqamətlərdə uğurla inkişaf etdiyi, Türkiyə Prezidenti Abdullah Gülün Azərbaycana rəsmi səfərinin bu əlaqələrin daha da genişlənməsinə töhfə verdiyi vurğulandı.

Dövlət başçıları dost və qardaş Azərbaycan və Türkiyənin qlobal enerji layihələrində birgə iştirakının həm ikitərəfli, həm də regional əməkdaşlığın genişlənməsinə xidmət etdiyini bildirdilər.

Prezidentlər vurğuladılar ki, Bakı-Tbilisi-Qars dəmir yolu layihəsi də ikitərəfli və regional əməkdaşlığı daha da dərinləşdirəcək və möhkəmləndirəcəkdir.

BAKI-TBİLİSİ-QARS DƏMİR YOLUNUN GÜRCÜSTAN HİSSƏSİNİN TƏMƏLİ QOYULMUŞDUR

Noyabrın 21-də Gürcüstanın Tetri-Skaro rayonunda Marabda stansiyasında Bakı-Tbilisi-Qars dəmir yolunun Gürcüstan hissəsinin təməlinin qoyulmasına həsr olunmuş mərasim keçirilmişdir.

Mərasimdə Azərbaycan Prezidenti İlham Əliyev, Türkiyə Prezidenti Abdullah Gül və Gürcüstan Prezidenti Mixail Saakaşvili, habelə Avropa İttifaqından, Amerika Birləşmiş Ştatlarından və digər ölkələrdən qonaqlar iştirak edirdilər. "Dəmir İpək yolu" adlandırılan, Avropadan Çinə qədər birbaşa əlaqəni təmin etməyə imkan verəcək Bakı-Tbilisi-Qars dəmir yolunun işə düşməsi ilə həm də Ermənistanın Azərbaycana hərbi təcavüzü ilə bağlı 1993-cü ildə Türkiyə ilə Orta Asiya arasında kəsilmiş dəmir yolu əlaqəsi yenidən bərpa olunacaqdır.

Layihəyə əsasən, Qarsdan Axalkalakiyə qədər 105 kilometrlik dəmir yolunun çəkilməsinə 420 milyon dollar sərmayə qoyulacaqdır. Qarsdan Gürcüstan sərhədinədək 76 kilometrlik hissəni Türkiyə maliyyələşdirəcəkdir (220 milyon dollar). Gürcüstanın Azərbaycandan aldığı 200 milyon dollarlıq kreditlə isə Türkiyə sərhədindən Axalkalakiyə qədər olan təqribən 30 kilometrlik xətt inşa ediləcək və Azərbaycan sərhədinədək mövcud olan 160 kilometrlik xətt yenidən qurulacaqdır.

Layihənin 2009-cu ildə tamamlanması nəzərdə tutulur. İlkin hesablamalara görə, 2010-cu ildə 1,5 milyon sərnişin və ildə 3 milyon ton yük daşınacaqdır. 2034-cü ildə isə bu yolla 3,5 milyon sərnişin və ildə 16,5 milyon ton yük daşınacağı proqnozlaşdırılır. Qazaxıstanın da bu xəttə qoşulması üçün protokol imzalanmışdır.

Xatırladaq ki, Bakı-Tbilisi-Qars dəmir yolu layihəsi ilə əlaqədar anlaşmanı 2007-ci ilin fevralında Tbilisidə Azərbaycan Prezidenti İlham Əliyev, Türkiyənin Baş naziri Rəcəb Tayyib Ərdoğan və Gürcüstan Prezidenti Mixail Saakaşvili imzalamışlar.

Təməlqoyma münasibətilə keçirilən mərasimi Prezident Mixail Saakaşvili açdı.

GÜRCÜSTAN PREZİDENTİ MİXAİL SAAKAŞVİLİNİN NİTQİ

- Əziz qardaşlarım, Türkiyə və Azərbaycan respublikalarının prezidentləri!

Hörmətli qonaqlar, əziz həmvətənlər!

Bütün Gürcüstana müraciət edib demək istəyirəm ki, bu gün əlamətdar gündür. Gürcüstan düşdüyü dalandan çıxıb Avropaya istiqamət götürür. Biz bu gün Bakı-Tbilisi-Qars dəmir yolu xəttinin tikintisinin təməlini qoyuruq. Bununla bizim Avropaya çıxışımız üçün şərait yaranır. Rusiya-Gürcüstan dəmir yolu xəttinin Abxaziya hissəsi bağlandıqdan sonra bizim Rusiya ilə, eyni zamanda, digər ölkələrlə dəmir yolu əlaqəmiz kəsildi. Mən prezident seçildikdən sonra Abdullah Gül və İlham Əliyev ilə bu layihənin gerçəkləşməsi üzərində işə başladıq. Bu layihənin Gürcüstan üçün, ümumən Cənubi Qafqaz üçün böyük səmərəsi olacaq, yüzlərlə yeni iş yerləri açılacaqdır. Çindən və digər ölkələrdən gələn yüklər bu dəmir yolu vasitəsilə Avropaya ötürüləcəkdir. Bu, böyük geosiyasi inqilabdır. Dostluq və qardaşlıq münasibətlərimiz bu qlobal layihənin həyata keçirilməsinə şərait yaratmışdır. Biz tezliklə bu dəmir yolu vasitəsilə axşam qatara əyləşib, səhər Türkiyədə olacağıq, oradan da Avropaya gedəcəyik. Bu tikintinin tezliklə başa çatıb istifadəyə verilməsi əsas məqsədlərimizdəndir. Əminəm ki, prezidentliyimin ikinci müddətində bu dəmir yolu istifadəyə veriləcək və mən onun ilk sərnişinlərindən olacağam.

Bu əlamətdar gün münasibətilə hamınızı təbrik edirəm.

TÜRKİYƏ PREZİDENTİ ABDULLAH GÜLÜN NİTQİ

-Hörmətli prezidentlər!

Çox dəyərli qonaqlar!

Bu gün tarixi bir gün yaşayırıq. Çox gözəl bir səbəbdən bir yerdəyik. İnanıram ki, bu anlar gələcəkdə ən gözəl bir şəkildə xatırlanacaqdır. Bu gün Bakını Qarsa bağlayacaq dəmir yolunun təməlinin qoyulması münasibətilə buraya toplaşmışıq. Hamınıza hörmət və sevgilərimi çatdırıram. Türkiyə, Gürcüstan və Azərbaycan xalqlarına xoşbəxtlik diləyirəm.

Biz bu gün sadəcə Bakı, Tbilisi və Qarsı bir-birinə bağlamırıq. Əslində, biz bu gün Çini Londona bağlayırıq. Bu, böyük bir layihədir. Çindən çıxan vaqonlar, lokomotivlər Xəzəri, daha sonra Bakı, Tbilisi və Qarsı keçərək, İstanbula çatacaqdır. İstanbulda sürətlə inşa edilən "Mərmərə ray" xətti vasitəsilə dənizin altından keçərək, Avropanı qət edəcək və oradan da La-Manş boğazını keçərək Londona çatacaqdır. Əslində tarixi, coğrafiyanı dəyişdirən böyük bir layihənin həyata keçirilməsinin addımını atırıq. Bu layihədə bir çox insanın əməyi olmuşdur.

1990-cı illərin əvvəllərində həmin layihələr, təəssüf ki, daha sonra lazım olan marağı görmədiyi üçün bir qədər ləngidi. Amma ötən illərdə bu layihə üzərində üç ölkə intensiv işlədi. Xatırlayıram, əvvəlcə Türkiyə, Gürcüstan və Azərbaycanın nəqliyyat nazirləri toplaşdılar və bu layihəni təkrar canlandırmaq üçün səfərbər oldular. Daha sonra bunun həyata keçirilməsinin mümkünlüyü məsələsi ortaya çıxdı. Bu ilin əvvəlində prezidentlərin, baş nazirlərin iştirakı ilə burada keçirilən bir mərasimə qatıldılar, çərçivə müqaviləsi imzalandı. Üç ölkənin siyasi qərarı ortaya qoyuldu və bütün dünyaya, bölgəyə bəyan edildi. Ondan sonra işlər sürətləndi və bu gün böyük bir sevinci yaşayırıq.

Bu layihənin həyata keçirilməsi ilə əlaqədar addımı atırıq, onun təməlini atırıq. Bu layihəni həyata keçirmək üçün düyməni basırıq. Həqiqətən də, böyük bir hadisə, böyük bir xoşbəxtlikdir. İnanıram ki, bu layihə həyata keçirildən sonra tarixi İpək yolu yenidən canlanacaqdır. O zaman şose yolu ilə işləyən "İpək yolu", indi dəmir yolu ilə işləməyə başlayacaqdır. Dediyim kimi, sadəcə, üç ölkəni yox, Mərkəzi Asiyanı, uzaq Asiyanı, Çini Avropaya bağlayacaqdır.

Qazaxıstanın qoşulması bu layihəni, həqiqətən də, işləyən hala gətirmişdir. Bunu burada ifadə etmək, hörmətli Nazarbayevə də təşəkkür etmək istəyirəm. Onun bu layihəyə olan marağını yaxından bilən insanlardan biriyəm.

Xatırlayacaqsınız, ötən il keçirilən toplantılarda Qazaxıstan bu dəmir yolu ilə 10 milyon ton yük göndərəcəyini bildirmişdir. Bildiyiniz kimi, sadəcə, sərnişin daşınmayacaq, eyni zamanda, yüklər də daşınacaqdır.

Layihənin bölgənin iqtisadi inkişafına çox böyük fayda verəcəyinə, bölgəmizdəki insanların rifahının yaxşılaşacağına çox inanıram. Bir tərəfdən hava yolları, bir tərəfdən dəniz yolu, bir tərəfdən dəmir yolları, digər tərəfdən də avtomobil yolları bu üç ölkəni bir-birinə daha çox bağlayır və ortaq iqtisadi bölgə yaranır. Bildiyiniz kimi, Batumi hava limanı ortaq istifadəyə açılmışdır.

Gəncə ilə Bakı arasında, Tbilisi ilə Bakı arasında avtomobil yolu yenidən qurulduqdan

sonra bütün bunlar Qara dəniz nəqliyyat yoluna bağlanacaq və Bakıdan çıxan avtomobillər çox gözəl yollardan keçərək İstanbula çatacaqlar.

Bütün bunlar həyəcanverici böyük layihələrdir. Bir vaxtlar bunlar haqqında danışılarkən, bunları röya kimi, xəyal kimi görənlər olmuşdur. Amma, bu gün görürük ki, bütün bu layihələr gerçəkləşir. Bakı-Tbilisi-Ceyhan neft boru xətti necə gerçəkləşdisə və tankerlər Orta Asiyanın, Qafqazların neftini Aralıq dənizindən dünya bazarına necə daşıyırsa, Bakı-Tbilisi-Ərzurum təbii qaz xətti necə tamamlandısa, əminəm ki, Bakı-Tbilisi-Qars yolu da ən qısa müddətdə tamamlanacaq və bundan sadəcə, bölgəmiz, sadəcə üç ölkə deyil, bütün dünya faydalanacaqdır. Bunlar tarixi hadisələrdir. Belə tarixi bir hadisəni sizlərlə - dəyərli prezidentlərlə, həmkarlarımla birlikdə yaşamaqdan böyük sevinc duyuram. Bu layihələrin daha fərqli layihələri təşviq edəcək nümunə olacağına inanıram. Sadəcə, bölgəmizdə deyil, dünyanın başqa bölgələrində də bunlardan nümunə alacaqlarına inanıram.

Bu bir həqiqətdir ki, təhlükəsizlik, sabitlik, iqtisadi inkişaf, rifah bir-biri ilə bağlı amillərdir. Dünyada sülhü, sabitliyi qorumaq və nəticədə insanların rifahını, xoşbəxtliyini təmin etmək bizim üzərimizə düşən ən böyük vəzifədir.

Bu səbəbdən demək istəyirəm, əslində, Qafqaz bölgəsində bu layihələr bütün ölkələrə açıqdır. Sülh, sabitlik bərqərar olduqda heç kimi kənarlaşdırmaq niyyətimiz yoxdur. Hər kəs bu layihələrə qatıla bilər. Bütün bölgənin insanları irqi, dini ayrı-seçkilik olmadan bu layihələrin faydalarından yararlana və öz xalqlarının, ölkələrinin, millətlərinin rifahını artıra bilərlər.

Ümid edirəm ki, layihələr bu şəkildə dərk olunmalıdır. Bu layihələrin həyata keçirilməsi yanlış şəkildə dərk edilməməlidir. Bu layihələrin, sadəcə, üç ölkəyə deyil, bir gün bütün bu coğrafiyaya xidmət edəcəyinə də inanıram. Bu sahədə əməyi olan hər kəsə təşəkkür edirəm. Yaxın vaxtda bu layihələrin bitdiyini və relslər üzərində insanları, yükləri daşıyan vaqonların hərəkət edəcəyini və onun da açılışını bir yerdə yaşayacağımıza ümid edirəm.

Təkrarən hamınıza hörmət və sevgilərimi çatdırıram.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN NİTQİ

- Hörmətli cənab prezidentlər!

Hörmətli dostlar, xanımlar və cənablar!

İlk növbədə, məni bu gözəl mərasimə dəvət etdiyinə görə əziz qardaşım, Gürcüstan Prezidenti Mixail Saakaşviliyə təşəkkürümü bildirmək istəyirəm. Mən böyük məmnuniyyətlə bu dəvəti qəbul etdim və bu gün biz birlikdə növbəti tarixi addımı atırıq. Bu gün üç ölkə – Gürcüstan, Türkiyə və Azərbaycan bölgə üçün, dünya üçün çox böyük əhəmiyyət kəsb edən yeni layihənin təməlini qoyur.

Bizim əməkdaşlığımızın çox böyük tarixi var. Xalqlarımız əsrlər boyu birlikdə yaşamışlar, yaratmışlar. Gürcüstan və Azərbaycan dövlət müstəqilliyini bərpa etdikdən sonra bizə ilk yardım edən, ilk kömək göstərən Türkiyə dövləti olmuşdur. Biz bunu unutmuruq və heç vaxt unutmayacağıq. Bu gün Gürcüstan və Azərbaycan gücləndikcə, öz müs-

təqilliyini möhkəmləndirdikcə və dünya iqtisadiyyatına inteqrasiya etdikcə, əlbəttə ki, bizimlə Türkiyə arasında olan münasibətlər yeni səviyyəyə qalxır. Biz artıq qarşılıqlı fəaliyyətlə bir-birimizi gücləndiririk, dəstəkləyirik və bizim tərəfimizdən, bizim təşəbbüsümüzlə bölgədə həyata keçirilən layihələr təkcə xalqlarımız üçün deyil, bütün dünya üçün çox böyük əhəmiyyət kəsb edir.

Şübhəsiz, Bakı-Tbilisi-Qars dəmir yolunun tikintisi tarixi hadisədir. Bu layihə uzun illərdir ki, müzakirə olunurdu, yəni mövcud idi, ancaq layihənin gələcəyi qeyri-müəyyən idi. Uzun illər ərzində müxtəlif beynəlxalq maliyyə qurumları ilə, beynəlxalq təşkilatlarla apardığımız danışıqlar, əfsuslar olsun ki, heç bir nəticə verməmişdi. Ancaq bu gün bizim ölkələrimiz öz iradəsini ortaya qoyaraq, bu layihəni özümüz həll edirik. Bütün maliyyə məsələləri öz həllini tapıbdır, texniki məsələlər öz həllini tapıbdır, texniki-iqtisadi əsaslandırma hazırdır və bu gün biz yolun tikintisinə başlayacağıq. Artıq burada deyildi ki, bu yolun tikintisi bütün bölgə üçün, dünya üçün çox böyük əhəmiyyət kəsb edir və mən əminəm ki, Bakı-Tbilisi-Qars dəmir yolunun işə düşməsi bölgəyə daha da çox təhlükəsizlik, daha da çox əməkdaşlıq gətirəcək və bu imkanlardan istifadə edən ölkələr, əlbəttə ki, regional əməkdaşlıq baxımından da bir-birinə yaxın olacaqlar.

Mən çox şadam ki, Gürcüstan, Türkiyə və Azərbaycan tərəfindən bölgədə başlanmış layihələrin hamısı uğurla icra olunur. Deyə bilərəm ki, bu layihənin Bakı-Tbilisi-Qars dəmir yolunun tikintisinin başlanmasında, əlbəttə, bizim aramızda, üç ölkə arasında mövcud olan əməkdaşlıq istiqamətləri, parametrləri də öz rolunu oynamışdır.

1990-cı illərin ortalarında Azərbaycanda başlanmış böyük enerji layihələri yəqin ki, bu dəmir yolunun yaranmasında da az rol oynamamışdır. Bizim əməkdaşlığımızın artıq çox böyük tarixi var. Bakı-Tbilisi-Qars layihəsi Azərbaycanın böyük neft-qaz yataqlarının işlənilməsi nəticəsində həyata keçirilən neft-qaz kəmərləri layihələrinin – Azərbaycanı Gürcüstan və Türkiyə ilə birləşdirən Bakı-Supsa, ondan sonra Bakı-Tbilisi-Ceyhan, ondan sonra Bakı-Tbilisi-Ərzurum layihələrinin məntiqi nəticəsidir. Mən əminəm ki, əvvəlki layihələr nə qədər uğurlu idisə, Bakı-Tbilisi-Qars da bir o qədər uğurlu olacaqdır. Bu, bir daha onu göstərir ki, əgər bizim ölkələrimiz öz siyasi iradəsini, öz dostluq əlaqələrini, əməkdaşlıq prinsiplərini ortaya qoyurlarsa, istənilən layihə öz həllini tapar. Ən böyük şübhələr doğuran layihələr də öz həllini tapıbdır. Hamı bilir ki, həm Bakı-Tbilisi-Ceyhan, həm Bakı-Tbilisi-Ərzurum layihələri bəzi dairələr tərəfindən real layihələr kimi qəbul edilmirdi. Bunlara çox böyük şübhələrlə yanaşırdılar. Hətta deyilirdi ki, Azərbaycanda Bakı-Tbilisi-Ceyhan neft kəmərini doldurmaq üçün kifayət qədər neft yoxdur. Gələn il Bakı-Tbilisi-Ceyhan tam gücü ilə işləyəcək, 50 milyon ton neft nəql edəcəkdir. Bu 50 milyon tonun hamısı da Azərbaycan nefti olacaqdır. Vaxtilə belə bir fikir də var idi ki, Bakı-Tbilisi-Ərzurum qaz kəmərinin tikintisinə ehtiyac yoxdur, çünki Azərbaycanda yetərincə qaz ehtiyatı yoxdur. Amma bu gün Azərbaycan o ölkədir ki, keçən il xaricdən 4,5 milyard kubmetr həcmində qaz alırdı, indi isə idxal yoxdur, Azərbaycan artıq üç ölkəyə öz qazını nəql edir. Azərbaycan qazı Gürcüstan və Türkiyə, iki gün bundan əvvəl isə Türkiyə ərazisi ilə Yunanıstan bazarına da çıxmışdır. Yəni, bu o deməkdir ki, Azərbaycan qazı artıq Avropa İttifaqının bazarındadır.

Bakı-Tbilisi-Qars layihəsinə də şübhə ilə yanaşanlar, buna müqavimət göstərənlər var idi və biz bilirik, onları tanıyırıq. Amma buna rəğmən bizim ölkələrimizin iradəsi əsas

rol oynamışdır. Bu, çox böyük məna daşıyan bir hadisədir. Bu, sadəcə olaraq, bir neqliyyat layihəsi, yaxud da üç ölkəni birləşdirən layihə deyil, halbuki, bu baxımdan da çox böyük əhəmiyyəti var. Bu layihə onu göstərir ki, bizim ölkələrimiz bölgədə həm böyük əməkdaşlığa təkan verəcək layihələrin təşəbbüskarıdır, həm bunları maliyyələşdirir, həm də bunları icra edirlər. Ölkələrimizin müştərək, ortaq iradəsi bölgənin inkişafına öz müsbət təsirini göstərir. Mən bunu xüsusilə vurğulamaq istəyirəm – bizim başladığımız və uğurla icra etdiyimiz bütün layihələr əməkdaşlıq, dostluq amillərini möhkəmləndirən layihələrdir. Bu layihələr heç kimə qarşı yönəldilməyib, sadəcə olaraq, dostluğa, əməkdaşlığa yönəldilmişdir. Biz dostuq, qardaş ölkələrik, qardaş xalqlarıq və tam haqqımız var ki, xalqlarımızın milli maraqlarını təmin etmək üçün istənilən layihəni icra edək və biz bunu edirik. Ona görə mən bu layihəyə bu prizmadan yanaşıram. Mən çox şadam ki, biz bu gün bu böyük işləri birlikdə görürük. Gələcəkdə bu layihə, əlbəttə ki, xalqlarımızın rifah halının yaxşılaşmasına, bölgədə gedən əməkdaşlıq meyillərinin gücləndirilməsinə gətirib çıxaracaqdır. Mən şübhə etmirəm ki, bu layihə başa çatandan sonra ona qoşulan tərəflər və ölkələr kifayət qədər çox olacaqdır. Necə ki, bizim bütün enerji layihələrimizə indi başqa ölkələr də qoşulmaq istəyir və biz də bunu alqışlayırıq. Biz bu yolu açırıq, biz Şərq-Qərb enerji dəhlizini açdıq. İlk dəfə olaraq, Xəzər dənizinin zəngin neft-qaz yataqlarını dünya bazarlarına təqdim etdik. Biz enerji təhlükəsizliyi məsələləri ilə çox ciddi məşğuluq və indi hamı bilir ki, dünyada və xüsusilə Avropada enerji təhlükəsizliyi məsələləri ən birinci yer tutur. Demək olar ki, ölkələrin təhlükəsizliyi xeyli dərəcədə enerji təhlükəsizliyindən asılıdır. Biz öz enerji təhlükəsizliyimizi təmin etmişik. Nəyin hesabına? Birgə işlər hesabına, dostluq hesabına, qardaşlıq hesabına, üç ölkənin birləşməsi hesabına. Bu gün bizim ölkələrimiz Avropanın enerji təhlükəsizliyində öz rolunu oynayır. Azərbaycanda çıxarılan qaz Gürcüstan, Türkiyə ərazisi ilə Avropa İttifaqına nəql edilir. Bizim ölkələrimiz şaxələndirmə məsələlərində çox önəmli rol oynayır və bu rol gələcəkdə artacaqdır. Əgər başqa ölkələr bizim mövcud olan enerji infrastrukturlarına qoşularsa, əlbəttə ki, regional əməkdaşlıq yeni formalarla zənginləşəcəkdir.

Mən hesab edirəm ki, bu layihə bölgədə nəqliyyat təhlükəsizliyinə də öz müsbət təsirini göstərəcəkdir. Bu gün enerji məsələlərinin ön plana çıxması nəticəsində daha çox enerji təhlükəsizliyi haqqında danışılır. Ancaq nəqliyyat təhlükəsizliyi ondan az əhəmiyyət daşımır. Biz bu yolun yaradılması ilə nəqliyyat təhlükəsizliyi məsələsinə öz töhfəmizi veririk. Əminəm ki, bu gün bu layihəyə o qədər də səmimi münasibət göstərməyən tərəflər, ölkələr, yaxud beynəlxalq maliyyə qurumları, bir gün gələcək və bəlkə də, yaxın zamanlarda bu layihəyə qoşulmaq üçün bizimlə əməkdaşlığa başlayacaqlar. Biz də bu əməkdaşlığa hazırıq. Biz gördüyümüz bütün işləri müsbət nəticələrə – əməkdaşlığa, bölgədə təhlükəsizliyin təmin olunmasına, asayişin qorunmasına, iqtisadi və siyasi maraqların birləşməsinə yönəldirik və bizim maraqlarımız üst-üstə düşür. Gürcüstan-Türkiyə-Azərbaycan çox böyük regional qüvvədir. Bizdə həm təbii sərvətlər, həm tranzit imkanları, həm böyük infrastruktur, həm böyük sənaye potensialı və həm də, ən önəmlisi, üç ölkə arasında dostluq, qardaşlıq münasibətləri var. Bu, çox qiymətlidir və biz əlbəttə ki, bütün səylərimizi bundan sonra da bu istiqamətə yönəldəcəyik. Mən əminəm ki, Bakı-Tbilisi-Qars dəmir yolunun tikintisi nəticəsində bizim aramızdakı dostluq, əməkdaşlıq münasibətləri daha da dərinləşəcək və bu, bölgəyə xeyir gətirəcəkdir.

Əziz dostlar, sizin hamınızı bu gözəl tarixi hadisə münasibətilə bir daha ürəkdən təbrik edirəm, bütün xalqlarımıza - gürcü, türk, Azərbaycan xalqlarına rifah, çiçəklənmə və qələbə arzulayıram. Sağ olun.

* * *

Sonra dövlət başçıları "Bakı-Tbilisi-Qars xəttinin təməli 2007-ci il noyabrın 21-də Gürcüstanın Tetri-Skaro rayonunun Marabda kəndi ərazisində Azərbaycan Prezidenti İlham Əliyev, Türkiyə Prezidenti Abdullah Gül və Gürcüstan Prezidenti Mixail Saakaşvili tərəfindən qoyulmuşdur" sözləri yazılmış vərəqi imzalayaraq gilizin içinə qoydular. Prezidentlər gilizi təmələ qoydular və beton qarışığı tökdülər.

Dövlət başçılarına xatirə hədiyyələri təqdim olundu.

Mərasim başa çatandan sonra Azərbaycan, Türkiyə və Gürcüstan prezidentləri ilk sərnişinlər kimi, dəmir yolunun rəmzi olaraq çəkilmiş təxminən iki yüz metrlik hissəsini qatarla keçdilər.

* * *

Noyabrın 21-də Gürcüstan Prezidenti Mixail Saakaşvilinin adından Azərbaycan Prezidenti İlham Əliyevin və Türkiyə Prezidenti Abdullah Gülün şərəfinə nahar verildi.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV MDB VƏ BALTİKYANI ÖLKƏLƏRİN DƏMİRYOL NƏQLİYYATI ŞURASININ 47-Cİ İCLASININ İŞTİRAKÇILARINI QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev noyabrın 22-də Prezident sarayında MDB və Baltikyanı Ölkələrin Dəmiryol Nəqliyyatı Şurasının 47-ci iclasının iştirakçılarını qəbul etmişdir.

Prezident İLHAM ƏLİYEV qonaqlara müraciətlə dedi:

-Mən sizin hamınızı Bakıda ürəkdən salamlayıram, sizə yaxşı işləmək, burada ilk dəfə olanlara isə bizim şəhərlə tanış olmaq imkanı arzulayıram.

Mən MDB Ölkələrinin Dəmiryol Şurasının iclasının məhz Bakıda keçirilməsi faktını yüksək qiymətləndirirəm. Ümidvaram ki, sizin işləməyiniz üçün yaxşı şərait yaradılmışdır. Ümumiyyətlə, keçmiş SSRİ məkanında inteqrasiya prosesləri müsbət istiqamətdə gedir və Azərbaycan da iqtisadi inteqrasiya, humanitar və əlbəttə, nəqliyyat sahəsində əməkdaşlıq məsələlərinə öz töhfəsini verməyə çalışır.

İndi biz aviasiya, dəmir yolu, avtomobil və dəniz nəqliyyatını əhatə edən nəqliyyat infrastrukturunun yaradılması və möhkəmlənməsi məsələləri ilə ciddi məşğuluq. Son illərdə bu sahəyə çox böyük investisiya qoyulur. Ölkəmizin coğrafi mövqeyini və artıq mövcud olan yaxşı infrastruktur imkanlarını nəzərə alaraq ümid edirik ki, gələcəkdə Azərbaycan bizim tərəfdaşımız olan, tarixi münasibətlərimiz çox səmərəli inkişaf edən ölkələrlə tranzit əlaqələrinin təmin olunması məsələlərində daha ciddi rol oynayacaqdır. Ümidvaram ki, bizim münasibətlərimizin nəqliyyatla bağlı sahəsinin də bu məsələdə çox mühüm rolu olacaqdır.

Ümumiyyətlə, biz MDB çərçivəsində əməkdaşlığa böyük əhəmiyyət veririk. Yəqin təsadüfi deyil ki, MDB ölkələrinin istisnasız olaraq hamısında bizim səfirliklərimiz, daimi diplomatik nümayəndəliklərimiz var. Biz çoxtərəfli planda və ikitərəfli formatda səmərəli əməkdaşlıq edirik və ümidvaram ki, bu əməkdaşlıq daha da möhkəmlənəcəkdir.

Biz bütün istiqamətlərdə əməkdaşlığı, qarşılıqlı anlaşmanı möhkəmlətmək, vaxtilə bir ölkədə yaşadığımız respublikalarla möhkəm tərəfdaşlıq münasibətləri qurmaq əzmindəyik. Qeyd etməliyəm ki, bizim müstəqil dövlətlər kimi yaşadığımız bu 16 ildə Azərbaycan MDB-dən olan tərəfdaşlarımızla çox səmərəli və proqnozlaşdırıla bilən münasibətlər yaratmışdır. Bu, həm regional məsələlərin, həm qarşılıqlı iqtisadi fəaliyyət və nəqliyyat məsələlərinin, həm də ümumiyyətlə, ölkələrimizin qarşısında duran məsələlərin bütün kompleksinin həllində bizə kömək edir.

Bu məsələlər, o cümlədən nəqliyyatın müasir infrastrukturunun yaradılması zərurəti MDB-nin üzvü olan dövlətlərin hamısında çox cəhətdən oxşardır. Bunlarsız heç bir dövlət normal inkişaf edə bilməz. Ona görə də biz, artıq qeyd etdiyim kimi, həm avtomobil nəqliyyatına, həm dəmiryol nəqliyyatına, həm də aviasiyaya külli məbləğdə sərmayə qoyuruq ki, iqtisadi inkişaf məsələlərini uğurla həll etmək olsun.

Mən bir daha sizi salamlayıram, sizə ən xoş arzularımı bidirirəm. Sizin dövlət başçılarına mənim ən xoş arzularımı və salamlarımı yetirin.

"Rossiyskiye jeleznıye doroqi" şirkətinin prezidenti VLADİMİR YAKUNİN MDB ölkələrinin iqtisadiyyatının intensiv inkişafını qeyd etdi, bununla əlaqədar, dəmir yollarının modernləşdirilməsinə yönəldilən investisiyaların həcmini artırmağın vacibliyini vurğuladı. O dedi:

-Hörmətli cənab Prezident, icazə verin, qonaqpərvərliyinizə görə, diqqətinizə və vaxt ayırmağınıza görə MDB və Baltikyanı ölkələrin, Bolqarıstanın və Finlandiyanın dəmiryol nəqliyyatı Şurasının üzvləri adından Sizə təşəkkür edim.

Sizin şəxsinizdə biz Azərbaycan xalqına öz salamlarımızı və ən xoş arzularımızı çatdırırıq. Mən burada həm Dəmiryol Nəqliyyatı Şurasının sədri, həm də "Rossiyskiye jeleznıye doroqi" şirkətinin prezidenti kimi iştirak edirəm. Bizim dəmiryolçular arasında belə bir məsəl var (xahiş edirəm, burada iştirak edənlər bu sözləri öz ünvanlarına qəbul etməsinlər): biz deyirik ki, siyasətçilər və diplomatlar istənilən düz xətti müəmmalı bir xəttə çevirməyi bacarırlar. Dəmiryolçuların isə istənilən əyri xətti düzəltmək cəhdi qanlarında var.

Düzdür, bizdə də bəzən qızğın diskussiyalar olur, müəyyən məsələ barədə razılığa gələ bilmirik. Lakin mənim fikrimcə, məhz bu səbəbdən həmkarlarım məni bu məsələdə dəstəkləyirlər. Dəmiryol Nəqliyyatı Şurası MDB-nin, bəlkə də, ən səmərəli orqanıdır. Bunun səbəbi çox sadədir, bizi bir-birimizə bağlayan təkcə məqsəd birliyi - ölkələrimizin nəqliyyat təminatı deyil, həm də dəmir yolunun vahid standartları, onun vahid inkişaf tarixi, bizim xidmətlərdən istifadə edən vətəndaşlar qarşısında vahid məsuliyyət hissidir.

Bu baxımdan, Sizin qəbulunuzda olmaq, Sizinlə söhbət etmək imkanı bizdən ötrü böyük şərəfdir və bu şərəfə görə biz Sizə minnətdarıq.

Sözümün sonunda demək istəyirəm ki, Sizinlə ünsiyyətdə olmaq imkanı mənim üçün

xüsusilə şərəflidir. Mənə Sizin atanızla şəxsən tanış olmaq şərəfi nəsib olmuşdur. O, bizim təsis etdiyimiz Sədaqətə görə mükafatın laureatıdır. Bu mükafatı ona Sankt-Peterburqda şəxsən mən təqdim etmişdim. Ondan əvvəl isə, mən hələ gənc baş leytenant olarkən, bu böyük insanla başqa şəraitdə ünsiyyət saxlamaq şərəfinə layiq görülmüşdüm. Mən də, mənim xanımım da bu ünsiyyəti həmişəlik yadda saxlamışıq. O vaxt oğlum balaca idi və səmimi deməliyəm ki, bu ünsiyyət onun yadında deyil, amma biz bunu çox yaxşı xatırlayırıq. İş elə gətirmişdi ki, indi biz sərhədlərlə ayrılmışıq. Lakin bu vəziyyət daha çox protokol xarakteri daşıyır, biz qəlbən ayrılmamışıq.

Bir daha çox sağ olun, son olaraq mənə icazə verin, bizim şirkətin prezidenti kimi mən Sizə məruzə edim ki, bu yaxınlarda - oktyabrın 30-da Rusiya dəmir yollarının 170 illiyini bayram etmişik. İcazə verin, şirkətin idarə heyətinin tapşırığı və Sizin icazənizlə Sizə bir hədiyyə edim. Bu hədiyyə kiçik olsa da, çox əhəmiyyətlidir. İcazə verin, bu mükafatı - "Rusiya dəmir yollarının 170 illiyi" nişanını da Sizə təqdim edim.

Prezident İLHAM ƏLİYEV dedi ki, iqtisadiyyatı intensiv inkişaf etməkdə olan Azərbaycanın dəmir yollarının inkişafı da dövlətin xüsusi diqqət mərkəzindədir:

-Biz gələcəkdə dəmiryol infrastrukturuna külli məbləğdə sərmayə qoymağı, yeni vaqonlar almağı planlaşdırırıq. Hazırda lokomotivlər alırıq ki, bu sahə maksimum səmərə ilə işləsin.

Əlbəttə, mən ümid edirəm ki, gələcəkdə Şura üzvləri arasında qarşılıqlı əlaqələr nəinki biznes məsələlərinin həllinə, iqtisadi inkişafa kömək edəcək, həmçinin ünsiyyət üçün də yaxşı format yaradacaqdır. Bu da mühüm amildir. Bizim aramızda dil mancəsi yoxdur, bizim ortaq tariximiz və çox cəhətdən ortaq mentalitetimiz var. Ölkələrimizdə böyüməkdə olan, müstəqillik şəraitində formalaşan yeni nəslin yaşlı nəsildən dostluq və əməkdaşlıq təcrübəsini qəbul etməsi üçün bütün müsbət olan nə varsa, qoruyub saxlamaq lazımdır.

"Qazaxıstan dəmir yolları" səhmdar cəmiyyətinin prezidenti YAKSIBEK KULİKİLOV bildirdi ki, Şuranın üzvləri qarşıya çıxan məsələlərin həyəqətlə həll edilməsi üçün öz səylərini birləşdirir, əməkdaşlığın daha da möhkəmləndirilməsi üçün əlavə tədbirlər görürlər. O vurğuladı ki, son illərdə Azərbaycan və Qazaxıstanın iqtisadiyyatları yüksək sürətlə inkişaf edir və bu, ilk növbədə dəmiryol nəqliyyatına tələbatı artırır, qarşıya yeni vəzifələr qoyur.

Prezident İlham Əliyev Azərbaycan ilə Qazaxıstan arasında əlaqələrin daha da inkişaf edəcəyinə ümidvar olduğunu bildirərək qeyd etdi ki, bir sıra istiqamətlər üzrə, o cümlədən yük daşımaları sahəsində əməkdaşlıq çox dinamik şəkildə davam edir. Dövlətimizin başçısı Bakı-Tbilisi-Qars dəmir yolu layihəsindən danışaraq bildirdi ki, yeni dəmir yolu ilk növbədə bu layihədə iştirak edən ölkələr üçün böyük imkanlar açır.

Prezident İLHAM ƏLİYEV daha sonra dedi:

-Lakin bu imkanlar, təbii ki, bizim bütün qonşular üçün də açıqdır. Layihə uzun illər boyu, müxtəlif beynəlxalq strukturlarda müzakirə edilmişdir. Sözdə hamı razılaşırdı, amma maliyyələşdirmə məsələsinə çatanda, hamı kənara çəkilirdi. Bir neçə il bundan əvvəl bu layihəni canlandırmaq üçün bizim göstərdiyimiz cəhdlər məhz maliyyələşdirmənin olmamasına görə nəticəsiz qalırdı. O dövrdə maliyyə çətinliklərinin aradan qaldırılmasını öz üzərimizə götürməyə cəsarət etmirdik.

Lakin hər halda, sonradan qərar qəbul etdik. Biz beynəlxalq maliyyələşdirməyə nail olmağın çətinliyini başa düşəndə layihənin maliyyələşdirilməsini özümüz təmin etmək qərarına gəldik, bu məqsədlə Neft Fondundan 200 milyon dollar ayırdıq və dünən biz ilk gilizi təmələ qoyduq.

Bütün bunlar Azərbaycanın təkcə Türkiyəyə deyil, həmçinin Avropaya da tam çıxışa malik olmasını təmin edəcəkdir. Biz bu layihəni qitələrarası layihə hesab edirik, o, Asiya ilə Avropanı birləşdirəcəkdir. Biz layihə ilə əlaqədar müəyyən tədbirlər planlaşdırmışıq. Əvvəla, bizim dəmir yolları yenidən təşkil edilməlidir. İkincisi, Xəzər dənizində 50 və daha çox sistern daşıyacaq bərələr alınmalıdır. Daha sonra Bakının 70 kilometrliyində yeni dəniz limanı tikiləcək və o, həmin yüklərin buradan göndərilməsini təmin edəcəkdir.

Bu yol hər iki istiqamətdə -- Qərbdən Şərqə və Şərqdən Qərbə işləyəcəkdir. Bütün bunlar nəqliyyat əlaqələrində tamamilə yeni perspektivlər açır, bu layihənin təşəbbüskarı olmuş ölkələr iqtisadi bazarın təsirli iştirakçılarına çevriləcəklər. Bu, həm də əlavə maliyyə vəsaitləri, regionda qarşılıqlı anlaşmanın güclənməsinə şərait yaradan əməkdaşlıq elementidir.

"Latviya dəmir yolları" dövlət səhmdar cəmiyyətinin idarə heyətinin sədri UQİS MAQUNİS dedi:

-Siz bizim ölkədə, Latviyada qonaq olarkən Sizinlə görüşmüşük. Bu gün də burada, Sizin ölkədə, həmkarlarımızın qonağı olmağımız bizim üçün böyük şərəfdir. Biz bir-birimizdən uzaqda yaşasaq da, çox yaxşı dostlarıq və bizim regionlar - Baltik və Xəzər regionları arasında yaxşı münasibətlər vardır.

Uqis Maqunis bildirdi ki, latviyalı dəmiryolçular Şimal-Cənub nəqliyyat dəhlizinin inkişafında, əsasən, konteyner yüklərinin daşınmasında fəal iştirak edirlər. O, ekoloji baxımdan böyük üstünlüklərə malik olan dəmir yollarının inkişaf etdirilməsi üçün böyük həcmdə investisiyalar qoyulmasının zəruriliyini vurğuladı.

Prezident İLHAM ƏLİYEV:

-Sizin region bizdən ötrü maraq doğurur. İndi dünya iqtisadiyyatına inteqrasiya prosesi çox fəallaşmışdır. Siz Avropa İttifaqının bir hissəsisiniz. Biz də bu formatda, Avropa İttifaqı-Azərbaycan formatında əməkdaşlıq edirik. Bu əməkdaşlıq əsasən energetika sahəsindədir, nəqliyyat sahəsində əməkdaşlıq hələlik zəifdir. Lakin düşünürəm ki, Bakı-Tbilisi-Qars dəmir yolu istifadəyə veriləndən sonra bu əməkdaşlıq yeni səviyyəyə çatacaqdır, çünki biz yükləri dəmir yolu vasitəsilə Avropanın istənilən nöqtəsinə göndərmək imkanı əldə edəcəyik.

Hazırda Bosfor yaxınlığında Türkiyənin Avropa və Asiya hissələrini birləşdirəcək dəmiryol tuneli tikilir. Biz dəmir yolunun tikintisini başa çatdırana qədər bu tunel artıq hazır olacaqdır. Bu, bütün ölkələr üçün yaxşı perspektivlər açır. Biz tikintiyə hələ yenicə başlayırıq, lakin coğrafi baxımdan bizə o qədər də yaxın olmayan ölkələr - Yaxın Şərq də, uzaq Asiya ölkələri, Koreya və əlbəttə, Çin də indidən bu layihəyə maraq göstərməyə başlamışdır. Bu da qarşılıqlı etimadın möhkəmlənməsinə və qarşılıqlı səmərəyə xidmət edəcəkdir. Bizim Azərbaycanda başladığımız bütün layihələr, regional layihələr bütün ölkələrin səylərini optimallaşdırmağa yönəlmişdir.

"Rusiya dəmir yolları" şirkətinin prezidenti Vladimir Yakunin MDB və Baltikyanı ölkələrin Dəmiryol Nəqliyyatı Şurasının 47-ci iclasının iştirakçıları adından Prezident İlham Əliyevə hədiyyələr təqdim etdi. O bildirdi ki, Rusiya dəmiryolçuları Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin xatirəsini əbədiləşdirmək üçün Rusiya dəmir yol stansiyalarının birinə onun adının verilməsi təklifi ilə müraciət etmişlər.

Prezident İLHAM ƏLİYEV ulu öndər Heydər Əliyevin xatirəsinə ehtirama görə minnətdarlığını bildirdi:

-Mən bilirəm ki, siz onunla şəxsən tanış idiniz. Ümumiyyətlə, mən Moskvada, Peterburqda olarkən Heydər Əliyevə xoş münasibət bəslənməsini hiss etmişəm. Peterburqda vaxtilə onun oxuduğu hərbi məktəbin yerləşdiyi binaya xatirə lövhəsi vurulmuşdur. İki il bundan əvvəl mən həmin xatirə lövhəsinin açılışında olmuşam. Heydər Əliyev amili Rusiya ilə Azərbaycan arasında münasibətlərdə bu gün də mühüm rol oynayır, gələcəkdə də belə olacaqdır. Heydər Əliyev beş il Kremldə işləmişdir və həmin dövr haqqında xatirələri sonralar, o, burada, Azərbaycanda Prezident olduğu dövrdə ondan ötrü həmişə çox qiymətli xatirələr idi. Biz də bu xətti davam etdiririk, öz səylərimizlə ikitərəfli münasibətlərin potensialını artırmağa çalışırıq. Bu münasibətlər hər hansı iqtisadi layihələrdən qat-qat dərindir və onlardan daha möhkəm təmələ malikdir.

Vladimir Vladimiroviç Putin Heydər Əliyevə çox səmimi münasibət bəsləyirdi və mən özüm dəfələrlə onların görüşlərinin şahidi olmuşam. O vaxt onların arasında heyrətamiz dərəcədə yaxın, səmimi münasibətlər yaranmışdı. Yeri gəlmişkən, deməliyəm ki, 2001-ci ilə qədər Rusiya Prezidenti Azərbaycana gəlməmişdi. İlk dəfə gələn Vladimir Vladimiroviç oldu və bununla da biz münasibətlərimizdə yeni səhifə açmış olduq. Bu səfər mahiyyət etibarilə bizim indi malik olduğumuz münasibətlərin təməlini qoymuşdur.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV MACARISTANIN İQTİSADİYYAT VƏ NƏQLİYYAT NAZİRİ YANOŞ KOKANIN RƏHBƏRLİK ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİNİ QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev noyabrın 22-də Prezident sarayında Macarıstanın iqtisadiyyat və nəqliyyat naziri Yanoş Kokanın rəhbərlik etdiyi nümayəndə heyətini qəbul etmişdir.

Yanoş Koka ölkəsinin Azərbaycan ilə iqtisadi əlaqələrin genişlənməsində, o cümlədən enerji sektorunda əməkdaşlıqda maraqlı olduğunu vurğuladı. O, Macarıstan ilə Azərbaycanın iqtisadi əlaqələrinin ikitərəfli səviyyədə və beynəlxalq təşkilatlar çərçivəsində daha da möhkəmləndiriləcəyinə ümidvar olduğunu bildirdi.

Dövlətimizin başçısı Azərbaycanın Macarıstan ilə müxtəlif sahələrdə əməkdaşlığı inkişaf etdirmək və güclü iqtisadi əlaqələr qurmaq istədiyini qeyd etdi. O, iki ölkə arasında müxtəlif iqtisadi layihələrin, o cümlədən enerji layihələrinin nəzərdən keçirilməsinin mümkün olduğunu bildirdi. Prezident İlham Əliyev dedi: "Hazırda enerji sektoru Avropada mühüm əhəmiyyət kəsb edir və Azərbaycan özünün böyük neft və qaz ehtiyatları ilə bu sahədə vacib rol oynayır".

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV TÜRKİYƏ ALİ MƏHKƏMƏSİNİN SƏDRİ OSMAN ARSLANI QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev noyabrın 22-də Prezident sarayında Türkiyə Ali Məhkəməsinin sədri Osman Arslanı qəbul etmişdir.

Görüşdə Azərbaycan ilə Türkiyə arasında münasibətlərin bütün istiqamətlər üzrə yüksək səviyyədə olduğu vurğulandı, hüquq mühafizə və ədalət mühakiməsi orqanlarının əməkdaşlığının da qarşılıqlı münasibətlərin inkişafına öz töhfəsini verdiyi bildirildi. Türkiyə Ali Məhkəməsi sədrinin Azərbaycana səfərinin ölkələrimizin müvafiq strukturları arasında əlaqələrin daha da möhkəmlənməsinə kömək edəcəyinə əminlik ifadə olundu.

TÜRKMƏNİSTAN PREZİDENTİ AZƏRBAYCANIN BAŞ NAZİRİ İLƏ GÖRÜŞMÜŞDÜR

Türkmənistan Prezidenti Qurbanqulu Berdiməhəmmədov noyabrın 22-də Aşqabadda MDB Hökumət Başçıları Şurasının iclasında iştirak edən Azərbaycanın Baş naziri Artur Rasizadəni qəbul etmişdir.

Görüşdə xalqlarımızın çoxəsrlik dostluq və qardaşlıq münasibətlərindən, bunun daha da inkişaf etdirilməsinin zəruriliyindən söhbət açılmış, ölkələrimiz arasında bütün istiqamətlərdə, xüsusən ticarət-iqtisadi və humanitar sahələrdə əlaqələrin dərinləşdirilməsi haqqında razılıq əldə olunmuşdur.

Tərəflər son vaxtlar fəal dialoq formasını almış dövlətlərarası qarşılıqlı fəaliyyətin inkişafından razı qaldıqlarını, iki dövlət arasında inam və qarşılıqlı fayda prinsiplərinə əsaslanan tərəfdaşlıq münasibətlərinin durmadan inkişaf etdirilməsinə hazır olduqlarını bildirmiş, hər iki ölkəni maraqlandıran çoxsaylı məsələləri müzakirə etmişlər.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV İRAN İSLAM RESPUBLİKASININ İSLAM ŞURASI MƏCLİSİNİN SƏDRİ QULAMƏLİ HƏDDAD ADİLİN RƏHBƏRLİK ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİNİ QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev noyabrın 23-də Prezident sarayında İran İslam Respublikası parlamentinin İslam Şurası Məclisinin sədri Qulaməli Həddad Adilin rəhbərlik etdiyi nümayəndə heyətini qəbul etmişdir.

Dövlətimizin başçısı Azərbaycan ilə İran arasında münasibətlərin daim inkişaf etdiyini bildirdi. İmzalanmış ikitərəfli sazişlərin bütün sahələrdə münasibətlərimizə güclü təkan verdiyini deyən Prezident İlham Əliyev ölkələrimiz arasında müxtəlif birgə layihələrin uğurla həyata keçirildiyini və bunların xalqlarımızı bir-birinə daha da yaxınlaşdırdığını vurğuladı. Dövlətimizin başçısı bu səfərin Azərbaycan-İran parlamentlərarası əlaqələrinin gücləndirilməsinə öz töhfəsini verəcəyinə əminliyini söylədi.

Qulaməli Həddad Adil Azərbaycana yenidən səfər etməkdən məmnunluğunu bildirdi. Qonaq səfər zamanı ona göstərilən qonaqpərvərliyə görə Azərbaycan rəhbərliyinə tə-

şəkkür etdi və bu səfərin iki ölkənin parlamentləri arasında mövcud olan səmərəli əməkdaşlığın daha da genişlənməsinə xidmət edəcəyinə ümidvar olduğunu dedi.

MƏRKƏZİ ASİYA İLƏ AVROPA ARASINDA NƏQLİYYAT ƏLAQƏLƏRİNİN İNKİŞAFINDA AZƏRBAYCANIN STRATEJİ ƏHƏMİYYƏTİ MÜZAKİRƏ OLUNMUŞDUR

Noyabrın 26-da Xarici İşlər naziri E.Məmmədyarov Almaniya Xarici İşlər Nazirliyinin Şərqi Avropa, Qafqaz və Mərkəzi Asiya üzrə müvəkkili səfir Hans-Diter Lukas ilə görüşmüşdür.

Görüşdə ölkələrimiz arasında münasibətlərin mövcud vəziyyətinə və əməkdaşlığın inkişaf etdirilməsinə, eləcə də regionda həyata keçirilən enerji və nəqliyyat-infrastruktur layihələrinin perspektivlərinə, Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin nizamlanması imkanlarına, həmçinin regional və beynəlxalq təhlükəsizliyə dair məsələlər müzakirə olunmuş, fikir mübadiləsi aparılmışdır.

Həmçinin Avropa İttifaqının Yeni Qonşuluq Siyasətinin həyata keçirilməsinin vacibliyi, bu istiqamətdə Almaniyanın mövcud imkanları müzakirə edilmiş, Mərkəzi Asiya ilə Avropa arasında nəqliyyat əlaqələrinin inkişaf etdirilməsində Azərbaycanın strateji əhəmiyyəti vurğulanmışdır.

NAZİRLƏR KABİNETİNDƏ GÖRÜŞ

Azərbaycanın Baş naziri Artur Rasizadə noyabrın 28-də RF müdafiə naziri Anatoli Serdyukovun başçılıq etdiyi Rusiya nümayəndə heyətini qəbul etmişdir.

Azərbaycan hökumətinin başçısı Azərbaycan və Rusiya müdafiə nazirlərinin qarşılıqlı səfərlərini iki ölkə arasında münasibətlərin mühüm elementlərindən biri kimi qiymətləndirdi və ümidvar olduğunu bildirdi ki, bu ənənə gələcəkdə də davam etdiriləcəkdir. İki ölkənin müdafiə nazirlikləri arasında əməkdaşlıq planının dinamik şəkildə həyata keçirildiyi qeyd edildi. Artur Rasizadə bütün sahələrdə fəal inkişaf etməkdə olan ikitərəfli əlaqələri yüksək qiymətləndirdi və qeyd etdi ki, Azərbaycan ilə Rusiya arasında həll edilməmiş problemlər, demək olar, qalmamışdır.

Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinə toxunan Artur Rasizadə bəyan etmişdir ki, Azərbaycan bu münaqişənin dinc yolla həllinin tərəfdarı olduğuna baxmayaraq, Ermənistanın həmin məsələdə qeyri-konstruktiv mövqe tutması səbəbindən müdafiə məqsədləri üçün ayrılan büdcə vəsaitlərinin həcmini artırmağa məcburdur.

Rusiyanın müdafiə naziri Anatoli Serdyukov Azərbaycan hökumətinin başçısına Bakıda azərbaycanlı həmkarı ilə apardığı danışıqlar barədə məlumat verdi və qeyd etdi ki, bu danışıqlarda Qarabağ münaqişəsinin tənzimlənməməsi ilə əlaqədar narahatlıq ifadə edilmişdir. Rusiyalı nazir azərbaycanlı hərbi qulluqçuların Rusiyanın ali hərbi məktəblərində təhsil almaları, silahların rusiyalı mütəxəssislərin qüvvəsi ilə təmir edilməsi barədə razılıq əldə edildiyini də qeyd etdi.

ELMAR MƏMMƏDYAROV: HƏMSƏDRLƏRİN İRƏLİ SÜRDÜYÜ TƏKLİFLƏRİN BİR HİSSƏSİ RAZILAŞDIRILMIŞDIR

Noyabrın 29-da ATƏT-in üzvü olan ölkələrin Xarici İşlər Nazirləri Şurasının Madriddə keçirilən iclası çərçivəsində Azərbaycan və Ermənistan xarici işlər nazirlərinin görüşü olmuşdur.

Azərbaycanın xarici işlər naziri E.Məmmədyarov görüşdən sonra jurnalistlərə bildirmişdir ki, ATƏT-in Minsk qrupu həmsədrlərinin Dağlıq Qarabağ münaqişəsinin həllinə dair irəli sürdüyü təkliflərin bir hissəsi razılaşdırılmışdır. Zənnimcə, problem iki, hətta mən deyərdim ki, bir məsələdədir. Danışıqlara mane olan problemlər aradan qaldırılmalıdır. Bunlar, torpaqların işğaldan azad edilməsi, dağıdılmış kommunikasiyaların bərpası, qaçqınların və məcburi köçkünlərin öz yurd-yuvalarına qaytarılması məsələləridir.

ATƏT-İN XARİCİ İŞLƏR NAZİRLƏRİ ŞURASININ NÖVBƏTİ İCLASI HELSİNKİDƏ KEÇİRİLƏCƏKDİR

Noyabrın 30-da İspaniya paytaxtında ATƏT-in üzvü olan ölkələrin Xarici İşlər Nazirləri Şurasının 15-ci iclası işini davam etdirmişdir.

Azərbaycanın xarici işlər naziri E.Məmmədyarov iclasdakı çıxışında əsasən Demokratiya və İqtisadi İnkişaf Uğrunda Təşkilat - GUAM-ın bölgədəki rolundan bəhs etmişdir.

ATƏT-ə sədrlik İspaniyadan Finlandiyaya keçmiş və növbəti iclasın gələn il Helsinkidə keçirilməsi qərara alınmışdır.

AZƏRBAYCANIN XARİCİ İŞLƏR NAZİRİ MADRİDDƏ BİR SIRA İKİTƏRƏFLİ GÖRÜŞLƏR KEÇİRMİŞDİR

ATƏT-in üzvü olan ölkələrin Xarici İşlər Nazirləri Şurasının 15-ci iclasında iştirak etmək üçün Madriddə səfərdə olan Azərbaycanın xarici işlər naziri E.Məmmədyarov noyabrın 30-da bir sıra ikitərəfli görüşlər keçirmişdir.

E.Məmmədyarovun İslandiyanın xarici işlər naziri xanım Valgerdur Sverrisdottir ilə görüşündə ölkələrimiz arasında münasibətlərin genişləndirilməsi perspektivləri müzakirə olunmuşdur.

Azərbaycan və Rusiya xarici işlər nazirlərinin görüşündə isə hökumətlərarası birgə komissiyanın fəaliyyətinə, qarşılıqlı ticarət dövriyyəsinin həcminin artırılmasına, həmçinin Dağlıq Qarabağ münaqişəsinin həlli prosesinə dair fikir mübadiləsi aparılmışdır.

Tərəflər qarşılıqlı səfərlərin və müxtəlif tədbirlərdə keçirilən görüşlərin ikitərəfli əlaqələrin genişlənməsi baxımından əhəmiyyətli olduğunu vurğulamışlar.

Azərbaycanın xarici siyasət idarəsinin rəhbəri E.Məmmədyarovun ABŞ dövlət katibinin müavini Nikolas Börns, İspaniyanın xarici işlər naziri Migel Angel Moratinos, NATO baş katibinin Cənubi Qafqaz üzrə xüsusi nümayəndəsi Robert Simmons ilə görüşləri də nəzərdə tutulmuşdur.

TOKİODA GUAM+YAPONİYA DİALOQUNUN 2-Cİ RAUNDU KEÇİRİLMİŞDİR

Azərbaycan Respublikasının Yaponiyadakı Səfirliyinin təşəbbüsü, bu ölkədə yerləşən Gürcüstan və Ukrayna Səfirliklərinin birgə səyləri və Yaponiya Xarici İşlər Nazirliyinin dəvəti ilə 4-6 dekabr 2007-ci il tarixində Tokio şəhərində GUAM+Yaponiya dialoqunun 2-ci raundu keçirilmişdir.

GUAM tərəfi Azərbaycanın Sədrliyi altında, Azərbaycan Xarici İşlər Nazirliyinin Xarici Siyasətin Planlaşdırılması və Strateji Araşdırmalar İdarəsinin rəisi Tofiq Musayev, Gürcüstan Xarici İşlər Nazirinin birinci müavini Nikoloz Vaşakidze, Ukrayna Xarici İşlər Nazirinin müavini Andrey Veselovski və GUAM Baş Katibi Valeri Çeçelaşvili tərəfindən təmsil olunmuşdur.

4-5 dekabr tarixlərində GUAM ölkələri nümayəndə heyəti Yaponiya Xarici İşlər Naziri Masahiko Komura, Xarici İşlər Nazirinin müavini M.Koike və Xarici İşlər Nazirinin GUAM məsələləri üzrə xüsusi nümayəndəsi Keiçi Katakami ilə siyasi məsləhətləşmələrin növbəti mərhələsi baş tutmuşdur. Görüşlər zamanı hər iki tərəf cari ilin iyun ayında GUAM Bakı Zirvə Toplantısı çərçivəsində keçirilmiş 1-ci GUAM+Yaponiya görüşünün nəticələrinə əsaslanaraq, qarşılıqlı fəaliyyətin inkişafını alqışlamış və ticarət, sərmayələrin və turizmin təşviqi, enerji və nəqliyyat, o cümlədən GUAM ərazisində mövcud olan münaqişələrin BMT Təhlükəsizlik Şurasının qətnamələrinə uyğun olaraq, sülh yolu ilə həlli sahələrində əməkdaşlıq imkanlarını müzakirə etmişlər.

Yaponiya tərəfi GUAM-ın 10-cu ildönümü münasibətilə nümayəndələri təbrik etmiş, GUAM-ın təşkilat kimi inkişaf etdirilməsinə və onun üzv ölkələrini bundan sonra demokratiyanın və bazar iqtisadiyyatının inkişafında dəstək göstərəcəyi mövqeyini nümayiş etdirmişdir.

GUAM tərəfi Yaponiyanın GUAM üzrə Xarici İşlər Nazirliyində xüsusi nümayəndəsinin təyin olunmasını yüksək dəyərləndirdiyini qeyd etmişdir. Hər iki tərəf əməkdaşlığın gücləndirilməsi və bu istiqamətdə dialoqun davam etdirilməsi ilə əlaqədar səylərinin əsirgəməyəcəyini vurğulamışlar.

Cari ilin 5 dekabr tarixində GUAM üzv dövlətlərin nümayəndə heyəti Yaponiyanın Milli Mətbuat Klubunda Tokioda yerləşən yerli və xarici kütləvi informasiya vasitələri üçün mətbuat konfransı təşkil olunmuşdur.

6 dekabrda Yaponiya Beynəlxalq Münasibətlər İnstitutunun dəvəti ilə "GUAM+Yaponiya əməkdaşlığı və gələcək perspektivləri" mövzusunda geniş dinləyici kütləsinə malik konfrans keçirilmiş və GUAM dövlətləri Yaponiyadakı Səfirlikləri adından rəsmi ziyafət verilmişdir.

Tədbirlərdə GUAM üzv ölkələrinin milli geyimləri nümayiş etdirilmiş, Yaponiyanın bir sıra nazirliklərinin nazir müavinləri, parlament üzvləri, dövlət və qeyri-hökumət təşkilatları, elm adamları, alimlər və özəl şirkət və mətbuat orqanlarının yüksək səviyyəli şəxsləri iştirak etmişdir.

DAĞLIQ QARABAĞ MÜNAQİŞƏSİ AZƏRBAYCANIN ƏRAZİ BÜTÖVLÜYÜ VƏ SUVERENLİYİ ƏSASINDA SÜLH YOLU İLƏ HƏLL EDİLMƏLİDİR

Bu fikir Azərbaycanın və Norveçin xarici işlər nazirlərinin imzaladıqları "Dostluq münasibətlərinin və əməkdaşlığın inkişafı haqqında" birgə bəyanatda yer almışdır.

Xarici İşlər Nazirliyinin mətbuat katibi Xəzər İbrahim dekabrın 10-da keçirilmiş brifinqdə demişdir ki, nazir Elmar Məmmədyarovun bu yaxınlarda Norveçə səfəri zamanı imzalanmış birgə bəyanat iki ölkə arasında beynəlxalq təşkilatlar çərçivəsində gələcək əməkdaşlıq, beş əsas istiqamət - siyasi dialoq və təhlükəsizlik, ticarət və sərmayə yatırımı, enerji və ətraf mühit məsələləri, təhsil, mədəniyyət, elm və vətəndaş cəmiyyəti, diplomatiya təhsili və tərəfdaşlıq istiqamətləri üzrə Avratlantik birliyinə inteqrasiya üçün geniş imkanlar açır.

Bəyanatda vurğulanır ki, Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi Azərbaycanın ərazi bütövlüyü və suverenliyi, hamı tərəfindən tanınmış sərhədlərinə hörmət əsasında sülh yolu ilə həll edilməlidir.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV DAĞISTAN RESPUBLİKASI PREZİDENTİNİN MÜŞAVİRİ SƏİD QURBANOVU QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev dekabrın 12-də Prezident sarayında Dağıstan Respublikası Prezidentinin müşaviri Səid Qurbanovu qəbul etmişdir.

Ulu öndər Heydər Əliyevlə uzun illər şəxsi dostluq münasibətlərini xatırlayan Səid Qurbanov xalqımızın ümummilli liderinin vəfatının ildönümü ilə əlaqədar dövlətimizin başçısına dərin hüznlə başsağlığı verdi. Onunla keçirdiyi görüşlərinin heç bir zaman unudulmayacağını deyən qonaq Azərbaycanın tərəqqisində və inkişafında ulu öndərin əvəzsiz xidmətlər göstərdiyini vurğuladı. Səid Qurbanov müstəqil Azərbaycan Respublikasının memarı və qurucusu Heydər Əliyevin ideyalarının Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirildiyini söylədi.

Dövlətimizin başçısı başsağlığına görə Səid Qurbanova minnətdarlığını bildirdi. Prezident İlham Əliyev onun ümummilli lider Heydər Əliyevlə uzun illər davam etmiş dostluq münasibətlərini yaxşı xatırladığını dedi və ulu öndərin xatirəsini daim uca tutmasını yüksək qiymətləndirdi.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV İTALİYANIN İQTİSADİ İNKİŞAF NAZİRİ PYERLUİCİ BERSANİNİN RƏHBƏRLİK ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİNİ QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev dekabrın 12-də Prezident sarayında İtaliyanın iqtisadi inkişaf naziri Pyerluici Bersaninin rəhbərlik etdiyi nümayəndə heyətini qəbul etmişdir.

Dövlətimizin başçısı Azərbaycan ilə İtaliya arasında ikitərəfli münasibətlərin uğurla inkişaf etdiyini vurğuladı. Siyasi əlaqələrin yaxşı səviyyədə olduğunu deyən Prezident İlham Əliyev iqtisadi əməkdaşlığın da inkişaf etdirilərək, siyasi əlaqələrin səviyyəsinə

çatdırılacağına ümidvar olduğunu bildirdi. Dövlətimizin başçısı İtaliya şirkətlərinin Azərbaycanda bundan sonra da müvəffəqiyyətlə fəaliyyət göstərməsi üçün əlverişli şəraitin olduğunu vurğuladı.

Pyerluici Bersani bütün Azərbaycan xalqı üçün hüznlü gündə İtaliya nümayəndə heyətini qəbul etdiyi üçün Prezident İlham Əliyevə təşəkkürünü bildirdi. O, Azərbaycan Prezidentinin 2005-ci ildə İtaliyaya rəsmi səfərini məmnuniyyətlə xatırladı və İtaliya Nazirlər Şurasının sədri Romano Prodinin yenidən bu ölkəyə səfər etməklə bağlı dəvətini dövlətimizin başçısına çatdırdı. Bakıya səfərinin məqsədinin iki ölkə arasında əlaqələrin daha da möhkəmləndirilməsinə kömək etmək olduğunu deyən Pyerluici Bersani İtaliyanın Azərbaycanın Avropaya inteqrasiyasına öz töhfəsini verə biləcəyini vurğuladı.

BAKIDA NİSA-NIN QIŞ SESSİYASI KEÇİRİLİR

10-15 Dekabr 2007-ci il tarixlərdə Bakıda NİSA-nın (Azərbaycan NATO Beynəlxalq Məktəbi) qış sessiyası keçirilir.

Tədbir "Avro-Atlantik məkanda sülh əməliyyatları: problemlər və perspektivlər" mövzusuna həsr olunur.

Sessiyada NATO-nun Tərəfdaşlıq proqramları və Qafqaz siyasəti, sülh əməliyyatlarının prinsipləri və hüquqi aspektləri, NATO-nun sülh əməliyyatları, sülh və müharibə anlayışlarına konseptual yanaşmalar, post-konflikt cəmiyyətlərində təhlükəsizlik sektorunun islahatları, sülh əməliyyatlarına milli yanaşmalar, Media və mülki təşkilatların sülh yaratma prosesində rolu, mülki-hərbi əlaqələr, sülh əməliyyatlarının problem və perspektivləri haqqında müzakirələr aparılacaq, o cümlədən Silahlı Qüvvələrin Sülhməramlı taboruna tanışlıq səfəri təşkil olunacaqdır.

NİSA-nın Qış sessiyasında Azərbaycan Respublikası Xarici İşlər Nazirliyi, NATO, ATƏT, Böyük Britaniya Müdafiə Akademiyası, Kopenhagen Universiteti, Avropa Təhlükəsizlik Məsələləri üzrə Marşal Mərkəzi, Gənclərin Atlantik Müqavilə Təşkilatından və müstəqil ekspertlər mühazirələrlə çıxış edəcəklər.

Tədbirdə Azərbaycan, ABŞ, Almaniya, Belarus, Belçika, Çex Respublikası, İtaliya, Danimarka, Misir, Finlandiya, Fransa, Gürcüstan, Qırğızıstan, Özbəkistan, Latviya, Litva, Makedoniya, Moldova, Niderland, Rusiya, Sloveniya, Türkiyə və Ukraynadan 50-ə yaxın tələbə, gənc elmi tədqiqatçı və müstəqil ekspertlər iştirak edəcəklər.

NİSA-nın qış sessiyasının açılış mərasimində Azərbaycan Respublikası Xarici İşlər Nazirinin müavini cənab Araz Əzimov, NATO və Tərəfdaş ölkələrin Bakıdakı səfirləri və NATO-nun Cənubi Qafqaz üzrə əlaqələndirici zabiti cənab Zbiqniev Rybacki iştirak edəcəklər.

NİSA Qış Sessiyası Azərbaycan Respublikası Xarici İşlər Nazirliyi və NATO-nun İctimai Diplomatiya İdarəsinin ekspert və maliyyə yardımı ilə keçirilir.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV BP ŞİRKƏTİNİN VİTSE-PREZİDENTİ ENDRYU İNQLİSİ QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev dekabrın 17-də Prezident sarayında BP şirkətinin vitse-prezidenti Endryu İnqlisi qəbul etmişdir.

Endryu İnqlis yenidən ölkəmizə səfər etməkdən məmnunluğunu söylədi. O, "Şahdəniz" yatağından qaz hasilatının artmasını razılıq hissi ilə vurğuladı və bu sahədə işlərin bundan sonra da uğurla davam etdiriləcəyinə əmin olduğunu bildirdi.

Prezident İlham Əliyev "Şahdəniz" yatağından çıxarılan qazın artmasının ölkəmizin mühüm qaz hasilatçısı və ixracatçısı kimi rolunu daha da yüksəldəcəyini vurğuladı. O, uzun illər ərzində Azərbaycan ilə BP şirkəti arasında həyata keçirilən uğurlu əməkdaşlığın bundan sonra da davam etdiriləcəyinə ümidvar olduğunu bildirdi.

AZƏRBAYCAN İLƏ OMAN XARİCİ İŞLƏR NAZİRLİKLƏRİ ARASINDA İKİTƏRƏFLİ MƏSLƏHƏTLƏŞMƏLƏR KEÇİRİLMİŞDİR

Dekabrın 17-də Omanın paytaxtı Məsqət şəhərində Azərbaycan Respublikası və Oman Sultanlığının Xarici İşlər nazirlikləri arasında siyasi məsləhətləşmələr keçirilmişdir.

Azərbaycanın Səudiyyə Ərəbistanındakı səfirliyindən verilən məlumata görə, məsləhətləşmələrdə Azərbaycan tərəfini xarici işlər nazirinin müavini Xələf Xələfovun başçılığı ilə nümayəndə heyəti təmsil etmişdir. Qarşı tərəf isə Oman Sultanlığının Xarici İşlər Nazirliyinin baş katibi Səyid Bədr bin Həməd bin Hamud al-Busaidinin rəhbərlik etdiyi nümayəndə heyəti ilə təmsil olunmuşdur.

Görüşdə qarşılıqlı maraq doğuran sahələr üzrə əməkdaşlığın genişləndirilməsinə dair müzakirələr aparılmışdır. Məsləhətləşmələrdə regional və beynəlxalq məsələlərə toxunulmuş, dünyada əməkdaşlıq, qarşılıqlı anlaşma, təhlükəsizlik və sabitliyin təminatına yönələn təşəbbüslərin dəstəklənməsinin vacibliyi vurğulanmışdır.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV BELARUSUN MÜDAFİƏ NAZİRİ LEONİD MALTSEVİN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİNİ QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev dekabrın 18-də Prezident sarayında Belarusun müdafiə naziri Leonid Maltsevin başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.

Dövlətimizin başçısı Azərbaycan ilə Belarus arasında münasibətlərin uğurla inkişaf etdiyini vurğulayaraq, əməkdaşlığımızın inkişafında yüksək səviyyədə qarşılıqlı dövlət səfərlərinin əhəmiyyətini qeyd etdi. Prezident İlham Əliyev nəzərdə tutulan birgə layihələrin yüksək templə həyata keçirildiyini və Azərbaycan-Belarus tərəfdaşlıq münasibətlərinin regionda təhlükəsizliyin daha da möhkəmləndirilməsi işinə töhfə verdiyini bildirdi. Dövlətimizin başçısı Belarusun müdafiə nazirinin ölkəmizə bu səfərinin ikitərəfli əlaqələrimizin daha da genişləndirilməsinə xidmət edəcəyinə əminliyini ifadə etdi.

Leonid Maltsev ölkələrimiz arasında müxtəlif sahələrdə, o cümlədən müdafiə nazirlikləri arasında əməkdaşlığın uğurla inkişaf etdiyini qeyd etdi. Qonaq ölkəmizə səfəri zamanı Bakıda qısa müddət ərzində böyük inkişafın şahidi olduğunu vurğuladı. Belarusun müdafiə naziri Azərbaycana səfərinin müdafiə nazirlikləri arasında əməkdaşlığımızın inkişafına xidmət edəcəyini bildirdi.

XARİCİ İŞLƏR NAZİRİ GÜRCÜSTAN XARİCİ İŞLƏR NAZİRİNİN MÜAVİNİ QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Xarici İşlər Naziri Elmar Məmmədyarov dekabrın 18-də Gürcüstan Xarici İşlər Nazirinin müavini Nikolos Vaşaqidzeni qəbul etmişdir.

Azərbaycan və Gürcüstan arasında diplomatik əlaqələrin on beş illiyi münasibətilə keçiriləcək tədbirdə iştirak etmək məqsədilə ölkəmizə səfər etdiyindən məmnunluğunu bildirən qonaq, Gürcüstan və Azərbaycan arasında mövcud münasibətlərin məhsuldar qonşuluq əlaqələrinin bariz nümunəsi olduğunu qeyd etmiş, bu əməkdaşlığı intensiv şəkildə inkişaf etdirməyi zəruri saymışdır.

Nazir E.Məmmədyarov da iki dövlət arasında mövcud strateji tərəfdaşlıq əlaqələrinin hazırkı səviyyəsini yüksək qiymətləndirmiş, ikitərəfli səviyyədə mövcud əməkdaşlıqla yanaşı, çoxtərəfli əsasda əlaqələrin effektivliyini vurğulamışdır.

Eyni zamanda, GUAM təşkilatı daxilində qarşılıqlı anlaşma, təşkilatın artan nüfuzu, digər dövlətlərlə yaranmış dialoq, o cümlədən GUAM-Yaponiya, GUAM-ABŞ birbaşa dialoqu, Baltikyanı ölkələrin daxil olduğu "GUAM-ın dostları" qrupu ilə bağlı aparılan işlər yüksək qiymətləndirilmişdir.

Gürcüstandakı cari siyasi proseslərə münasibət bildirən nazir E.Məmmədyarov Azərbaycan üçün Gürcüstanın sabitliyi və inkişafının mühüm əhəmiyyət daşıdığını qeyd etmişdir.

Görüşdə qarşılıqlı maraq doğuran digər məsələlər ətrafında fikir mübadiləsi aparılmışdır.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV MOLDOVANIN "KANAL 4" TELEVİZİYASINA MÜSAHİBƏ VERMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev dekabrın 19-da Prezident sarayında Moldovanın "Kanal 4" televiziyasına müsahibə vermişdir.

-Hörmətli cənab Prezident, Sizin ölkəniz Avropaya inteqrasiya etmək əzmində olduğunu sözün tam mənasında yetərincə qətiyyətlə bəyan etmişdir. Lütfən deyin, bu baxımdan Azərbaycanın hansı uğurlarından danışmaq olar, Azərbaycan Avropaya nə dərəcədə yaxınlaşmışdır?

-Biz artıq bir ildir ki, Avropa İttifaqının Yeni qonşuluq proqramının üzvüyük. Mənim fikrimcə, bu, Avropa İttifaqı ilə münasibətlərimizin çox mühüm elementidir. Bu proqram çərçivəsində bizim əməkdaşlığımızı möhkəmləndirən tədbirlər həyata keçirilir, eləcə də çox ciddi siyasi və iqtisadi islahatlar aparılır. Biz çalışırıq ki, siyasi sistemin və

iqtisadi inkişafın, vətəndaşların sosial təminatının bütün meyarları Avropa İttifaqının meyarlarına yaxın olsun. Biz çalışırıq ki, vətəndaşlarımız üçün Avropa İttifaqında vətəndaşlar üçün mövcud olan yüksək həyat səviyyəsini və azadlıqların səviyyəsini təmin edək. Bizim əməkdaşlığımız çoxplanlıdır, siyasi və iqtisadi sahələrdə əməkdaşlıq edirik, energetika spektri bizim münasibətlərimizin mühüm elementidir, biz Avropa İttifaqı ilə Azərbaycan arasında energetika sahəsində strateji tərəfdaşlıq haqqında memorandum imzalamışıq. Yəni bu əməkdaşlıq çox genişdir, bu, ikitərəfli hərəkət olan küçəyə bənzəyir. Biz Avropa İttifaqı ilə sıx qarşılıqlı əlaqələrdən, təmaslardan özümüzə lazım olanı götürürük, eləcə də bizim regionda təhlükəsizlik sisteminin, o cümlədən enerji təhlükəsizliyinin möhkəmləndirilməsinə töhfəmizi veririk. Deməliyəm ki, bütövlükdə, əməkdaşlığın səviyyəsindən razıyıq, bu, daim yüksəlir.

-Qarşımızda çox kəskin şəkildə duran Qarabağ probleminin həlli məsələsində Avropa İttifaqından dəstək gözləyirsinizmi və əgər gözləyirsinizsə, bu dəstək nədən ibarət olmalıdır?

-Bu gün biz münaqişənin həlli məsələsində bütün dünya birliyi tərəfindən tam siyasi dəstək alırıq. Dünya birliyi, o cümlədən Avropa İttifaqı və bilavasitə tənzimləmə ilə məşğul olan ATƏT-in Minsk qrupunun həmsədr ölkələri - Rusiya, Fransa, ABŞ bu münaqişənin Azərbaycanın ərazi bütövlüyü çərçivəsində həllinə birmənalı şəkildə tərəfdar olduqlarını bildirir. Azərbaycanın ərazi bütövlüyü bütün dünya birliyi tərəfindən, BMT tərəfindən tanınmışdır və bu məsələ bizim apardığımız danışıqların mövzusu deyildir. Bu mənada biz Avropa İttifaqı tərəfindən də siyasi və mənəvi dəstək alırıq, bu, Yeni qonşuluq siyasəti barədə Avropa İttifaqı ilə imzaladığımız sənəddə öz əksini tapmışdır. Bu başqa məsələdir ki, hələlik bu dəstək tənzimləmə üçün zəruri tədbirlərin, daha dəqiq desək, Ermənistan dövləti tərəfindən Azərbaycana qarşı aparılmış etnik təmizləmənin nəticələrinin aradan qaldırılması, bütün qaçqınların və məcburi köçkünlərin öz doğma torpaqlarına qayıtması və beləliklə münaqişənin tənzimlənməsi tədbirlərinin praktik şəkildə həyata keçirilməsinə çevrilməmişdir. Görünür, burada xalis siyasi, diplomatik bəyanatlar kifayət deyildir. Təəssüf ki, təcavüzkar dövlət olan Ermənistan iyirmi birinci əsrdə özünü orta əsrlər dövrünün deyil, iyirmi birinci əsrin reallıqlarına uyğun şəkildə aparmaq barədə dünya birliyinin çağırışlarına hələlik məhəl qoymur. Təəssüf ki, ermənilərin bu məsələyə yanaşmasında məhz orta əsrlər üçün səciyyəvi olan münasibət müşahidə olunur. Bu, qeyri-müəyyənliyə aparan yoldur, onlar heç vaxt Dağlıq Qarabağın Azərbaycandan ayrılmasına nail ola bilməyəcəklər, dünya birliyi heç vaxt Dağlıq Qarabağı müstəqil dövlət kimi tanımayacaqdır və Azərbaycan heç vaxt buna razılıq verməyəcəkdir. Münaqişənin həlli yolları üzdədir, bu yollar bütün ölkələr üçün, o cümlədən Moldova üçün də eynidir. Bizim üzləşdiyimiz problemlər təcavüzkar separatizmdir. Dağlıq Qarabağ, Dnestryanı bölgə, Abxaziya, Cənubi Osetiya problemlərinin kökləri eyni, səbəbləri eyni və təəssüf ki, nəticələri də eynidir. Buna görə də onlar məhz beynəlxalq hüquq prinsipləri əsasında həll olunmalıdır. Ümidvaram ki, Ermənistanda sağlam düşüncə üstün gələcək və ermənilər yaranmış vəziyyətdən, beynəlxalq praktikanın reallıqlarından və regionda qüvvələr nisbətinin dəyişməsi reallıqlarından düzgün nəticə çıxaracaqlar.

-Biz özümüz də yəqin edə bilmişik ki, Bakıda müxtəlif dinlərin nümayəndələri özlərini çox rahat hiss edirlər, pravoslav məbədləri, məscidlər, sinaqoqlar çox rahat işləyir. Si-

zin fikrinizcə, bu faktlar da Azərbaycanın avropasayaqlığının təzahürləridir?

-İctimai formasiyadan asılı olmayaraq, tolerantlıq Azərbaycanda həmişə həyat norması olmuşdur. Bu, indiki dövrün sosiyoloji hadisəsi və bizim Avropa İttifaqı ilə əməkdaşlığımızın nəticəsi deyildir. Biz Rusiya imperiyasının tərkib hissəsi olduğumuz dövrdə də belə idi, Sovet İttifaqının tərkib hissəsi olduğumuz vaxtda da belə idi, indi - müstəqil dövlət olduğumuz şəraitdə də belədir. Ölkəmizdə müxtəlif xalqların, müxtəlif dinlərin çoxsaylı nümayəndələri yaşayır və onların hamısı bir ailə kimidir. Azərbaycanda heç vaxt dini və ya etnik zəmində münaqişələr olmamışdır. Bizim ölkədə bütün dinlərin nümayəndələrinin bir ailə kimi yaşaması faktı dövlətimizi möhkəmləndirir. Ermənistan isə monodövlətdir və onun əhalisinin, demək olar ki, yüz faizini erməni milləti təşkil edir, yeri gəlmişkən, ada-dövlətlər müstəsna olmaqla, bu vəziyyət heç bir normal dövlət üçün norma sayılmamalıdır. Dövlətin siyasəti və dövlətin milli azlıqlara münasibəti həm də dövlətin milli tərkibini müəyyənləşdirir. Vaxtilə Ermənistanda başqa millətlərin çoxlu nümayəndələri, o cümlədən üç yüz mindən artıq azərbaycanlı yaşayırdı. Bütün başqa millətlərin nümayəndələri kimi, azərbaycanlılar da bu torpaqdan qovulmuşdur. Biz Azərbaycanda çox sevinirik ki, milli sülh ölkəmizin dinamik inkişafına kömək edir. Bundan sonra da mümkün olan hər şeyi edəcəyik ki, Azərbaycanda yaşayan bütün xalqlar arasında həmrəylik, sülh və qardaşlıq münasibətləri inkişaf etsin.

-Yan keçə bilmədiyimiz bir sual. Bildiyimizə görə, keçən il Azərbaycan iqtisadiyyatında artım göstəricisi otuz beş faizə çatmışdır. Deyə bilərsinizmi, bu Azərbaycan möcüzəsinin sirri nədədir?

-Əlbəttə, bu, ilk növbədə, hələ ötən əsrin 90-cı illərindən başlanmış cəsarətli iqtisadi islahatlarla bağlıdır. Ölkəmizin müstəqilliyinin bərpa edilməsinin ilk illərində biz vətəndaş müharibəsinin, xaosun, dağıntıların çox ağır nəticələri ilə üzləşmişik. Lakin 1993-cü ildə bütün mənfi meyillər dayandırıldı və 1996-cı ildən 2004-cü ilə qədər biz dinamik şəkildə inkişaf etdik. İqtisadiyyatın həcmi orta hesabla ildə 10 faiz artırdı. Bu, yaxşı göstəricidir və demək olar ki, 10 il müddətində hər il vəziyyət belə olmuşdur. 2005-ci il 90-cı illərdə başlanmış və 2000-ci illərdə davam etdirilmiş bütün islahatların bir növ inikası olmuşdur. 2005-ci ildə bizdə iqtisadi artım göstəricisi 26 faiz səviyyəsində idi. 2006-cı ildə isə sizin qeyd etdiyiniz kimi, 2005-ci ilin 26 faizlik bazası əsasında bu artım 35 faizə çatmışdır. Artıq cari ilə yekun vurulur, bu il iqtisadi artım göstəricisi 30 faiz həddində olacaqdır. Bu o deməkdir ki, biz üç ildə ÜDM-i faktik olaraq iki dəfə artırırıq. Əlbəttə, burada enerji amili - neft və qaz hasilatının artırılması, eləcə də islahatların fəal aparılması, iqtisadiyyatın liberlaşdırılması, özəl sektorun stimullaşdırılması mühüm rol oynayır. Biz özəl sektora hər il təqribən yüz milyon dollar məbləğində güzəştli kreditlər veririk.

-Bu, çox cəsarətli qərardır.

-Elədir. Üstəlik, biz kənd təsərrüfatına çox kömək edirik. Əhalinin yarısı kənd yerlərində yaşayır. Buğda yetişdirilən torpaqların hər hektarına görə kəndlilərə 50 dollar verilir. Bundan əlavə, biz kəndlilərə gübrə sarıdan ciddi kömək etməyi planlaşdırırıq və artıq bu işə başlamışıq. Biz dövlət xətti ilə texnika alırıq və istehsalın artırılması üçün bu texnikanı güzəştli qiymətlə kəndlilərə icarəyə veririk. Bir daha demək istəyirəm ki, iqtisadiyyat maksimum dərəcədə liberallaşdırılmışdır. Bizdə özəl sektorun ÜDM-də payı 80

faizdən çoxdur. Onu da nəzərə almaq lazımdır ki, neft və qaz sahəsi dövlətin inhisarındadır, bunlar isə iqtisadiyyatın əsasıdır. Buna görə də bütün amillərin məcmusu və əlbəttə, vəziyyətin sabitləşməsi, xarici investorların Azərbaycana inamı bu uğurları qazanmağımıza imkan vermişdir. Əlbəttə, üç il dalbadal təqribən 30 faiz və daha artıq iqtisadi artıma nail olmaq, demək olar ki, dünya rekordudur. Lakin mənim üçün hətta bunlar da çox mühüm göstərici deyildir. Ölkədə yoxsulluğun azalması daha mühüm göstəricidir, çünki ÜDM-in səviyyəsi hələ o demək deyil ki, bu imkanlardan hamı istifadə etmişdir. Yoxsulların sayı 2003-cü ildəki 50 faizdən 2007-ci ildə 20 faizə qədər azalmışdır. 2007-ci ilin yekunlarına görə isə, bizdə olan məlumatlara əsasən, bu göstərici daha aşağı olacaqdır. Bu, əsas göstəricilərdən biridir. Son dörd ildə biz regional inkişaf proqramını həyata keçirməklə ölkədə 600 mindən çox yeni iş yeri açmağa nail olmuşuq. Təkcə Bakı deyil, bütün bölgələr inkişaf edir. Biz infrastrukturun inkişafına külli məbləğdə vəsait sərf edirik. Gələn il, ilk dəfə olaraq, daxili investisiyalar xarici investiyaların həcmini aşacaq, xarici investisiyalar isə ildə bir neçə milyard dollar deməkdir. Buna görə də ölkəmiz iqtisadi həre-mərelik dövrünün bütün çətinliklərini geridə qoymuşdur və indi biz inamla inkişaf edirik. Son beş ildə biz dövlət xərclərini demək olar ki, 10 dəfə artırmağa nail olmuşuq. 2003-cü ildə bu xərclərin məbləği bir milyard dollardan bir qədər artıq olduğu halda, 2008-ci ildə on iki milyard dollara çatacaqdır. Bunlar bizim icmal büdcəsinin parametrləridir.

-Bəli, cənab Prezident, Azərbaycan Bakı-Tbilisi-Ceyhan neft kəmərinin, Bakı-Tbilisi-Ərzurum qaz kəmərinin çəkilməsində xüsusi fəallıq göstərmişdir, bu kəmərlərlə enerji daşıyıcılarını nəql edir. İndi isə eşitdiyimizə görə, tezliklə Bakı-Tbilisi-Qars dəmir yol xətti də işə salınacaqdır. Xahiş edirəm, səhv etsəm səhvimi düzəldin. Deyə bilərikmi Azərbaycan regionda lider dövlətə çevrilir?

-Hər halda, regionda mühüm rol oynayan dövlətə xas olan bütün parametrlər bizdə mövcuddur. Bizim ölkəmiz karbohidrogen ehtiyatları ilə zəngindir, bu, həmişə belə olmuşdur. Biz sahildən uzaqda, dənizin dərinliyində yerləşən yataqlardan neft çıxarmağa, neft və qaz kəmərləri çəkməyə başlamışıq. Bizim dünya bazarlarına birbaşa çıxışımız yoxdur. Yeri gəlmişkən, neft hasil edən ölkələr arasında bizimlə eyni vəziyyətdə olanlar azdır. Həmin ölkələrin əksəriyyətinin dünya bazarlarına birbaşa çıxışı vardır. Buna görə də biz neftı çıxarmaqla, sahilə çatdırmaqla bərabər, onu iki ölkə ərazisindən keçməklə dünya bazarlarına nəql etməli idik. Bu gün bizim üç neft kəmərimiz var: Bakı-Tbilisi-Ceyhan, Qara dənizə çıxan Bakı-Supsa və Bakı-Novorossiysk kəmərləri. Bundan əlavə, qazı qonşu ölkələrə çatdıran Bakı-Tbilisi-Ərzurum qaz kəmərimiz mövcuddur. Artıq indi Azərbaycanda hasil edilən qaz Gürcüstan, Türkiyə və Yunanıstan bazarlarına daxil olur. Gələcəkdə biz istehlakçılarımızın coğrafiyasını genişləndirməyi nəzərdə tuturuq. Azərbaycan qazını Yunanıstana satmaqla biz Avropa İttifaqı bazarına çıxırıq. Bu, çox yaxşı başlanğıcdır, onun yaxşı perspektivləri vardır. Bakı-Tbilisi-Qars dəmir yolunun layihəsi on azı on il müzakirə edildi. Lakin maliyyə mənbələri olmadığına görə, bu layihə kağız üzərində qalmışdı. Biz bu prosesi, neçə deyərlər, ölü nöqtədən tərpətməyə nail olduq. Bu, ölkəmiz üçün, eləcə də Gürcüstan üçün, Türkiyə üçün və bütövlükdə Mərkəzi Asiya regionu üçün, Avropa üçün tarixi layihədir. Çünki bu dəmir yolu Avropa ilə Asiyanı çox etibarlı və qısa yolla birləşdirəcəkdir. Bu, İpək yolu layihəsinin əməli təcəssümüdür. Bu layihənin təşəbbüsçüsü bizik, üstəlik, bundan ötrü zəruri

vəsaitin yarısını - təqribən iki yüz milyon dollar pul ayırmışıq. Lap bu yaxınlarda biz Gürcüstanda mərasim keçirdik. Gürcüstan, Türkiyə və Azərbaycan prezidentləri dəmir yolunun tikintisinin təməlini qoydular. Bütün bu amillər, eləcə də Azərbaycanın geosiyasi əhəmiyyətinin getdikcə artması, regionda baş verən proseslərə təsir göstərmək imkanı sayəsində ölkəmiz Cənubi Qafqazın adi bir ölkəsindən regional problemlərin həllində fəal iştirak edən ölkəyə çevrilmişdir. Özü də bütün regional layihələrimiz, bütün təşəbbüslərimiz əməkdaşlığa, təhlükəsizlik, o cümlədən Avropa üçün enerji təhlükəsizliyi tədbirlərinin möhkəmlənməsinə, Xəzər, Qara dəniz, Baltik dənizi, Mərkəzi Asiya regionu, Qafqaz və Avropa arasında regional əməkdaşlığa yönəlmişdir.

-Deməliyəm ki, Sizin Moldovadakı səfirliyiniz çox fəal işləyir. Bu il baş vermiş dəhşətli quraqlıqdan sonra bizə sanballı maliyyə yardımı göstərən ilk ölkə Azərbaycan olmuşdur. Moldova-Azərbaycan əməkdaşlığı sahəsində hansı perspektivlər var?

-Zənnimcə, bu sahədə çox gözəl perspektivlər var. Bizim qarşılıqlı siyasi əlaqələrimiz çox yaxşı səviyyədədir. Sizin qeyd etdiyiniz kimi biz Moldovada səfirlik açmışıq və o, artıq fəal işləyir. Biz GUAM təşkilatı çərçivəsində əməkdaşlıq edirik, regional əməkdaşlıq məsələlərini orada da fəal müzakirə edirik. Bildiyiniz kimi, GUAM-ın təşəbbüsü ilə Birləşmiş Millətlər Təşkilatında dondurulmuş münaqişələr məsələsi müzakirə ediləcəkdir. Bu da çox vacibdir. Münaqişələrin həlli üçün GUAM çərçivəsində səylərimizi birləşdirmişik, çünki yuxarıda dediyim kimi, bu münaqişələrin hamısı eyni təbiətlidir, təcavüzkar separatizmlə bağlıdır və bu münaqişələrin hamısı az və ya çox dərəcədə etnik təmizləmələrlə müşayiət olunmuşdur. Bu münaqişələr nəticəsində Moldovanın, Gürcüstanın və Azərbaycanın ərazi bütövlüyü pozulmuşdur. Buna görə də biz qarşıya qoyulmuş məqsədə çatmaq, müstəqilliyimizi möhkəmləndirmək, ölkələrimizin ərazi bütövlüyünün bərpa edilməsinə nail olmaq üçün qüvvələrimizi daha sıx əlaqələndirməli, səylərimizi birləşdirməliyik. Ölkələrimiz arasında münasibətlərin inkşaf perspektivləri kifayət qədər genişdir. Bu münasibətlər siyasi və iqtisadi qarşılıqlı əlaqələri, Avropaya inteqrasiya məsələlərini əhatə edir. Sizin də qeyd etdiyiniz kimi, biz tərəfdaşlarıq, dostlarıq, deməli, bir-birimizə kömək etməliyik. Kənd təsərrüfatının Moldova iqtisadiyyatı üçün nə qədər əhəmiyyətli olduğunu başa düşürük, ona görə də sizin ölkədə quraqlıq olanda biz dərhal maliyyə yardımı göstərməyi qərara aldıq. Məndə olan məlumata görə, sizə ən çox maliyyə yardımı göstərən biz olmuşuq və bu iş sizin müraciətinizdən dərhal sonra görülmüşdür. Biz qarşılıqlı maraq doğuran layihələrin həyata keçirilməsi istiqamətində əvvəllər də əməkdaşlıq edirdik. Bundan əvvəl Azərbaycandan Moldovaya göndərilən enerji daşıyıcılarının həcminin artırılmasına zərurət olanda biz bunu da təmin etmişdik.

-Gələn il Azərbaycanda seçkilər ilidir. Siz öz qələbənizə əminsinizmi?

-Bəli, əminəm. Biz nəzərdə tutduğumuz tədbirlərin hamısını həyata keçirmişik. Mənim 2003-cü ildə verdiyim bütün vədlərə əməl edilmişdir. Yadımdadır, mən Azərbaycan regionlarının inkişafı proqramı ilə çıxış edəndə demişdim ki, bu, bizim inkişafımızın əsas istiqamətlərindən biridir, təkcə Bakı şəhəri deyil, bütün regionlar inkişaf etdirilməlidir. Mən demişdim ki, prezident seçiləcəyim təqdirdə, beş il ərzində Azərbaycanda altı yüz min iş yeri açılacaqdır. Yadımdadır, o vaxt mənim bədxahlarımdan bəziləri bu vədləri şübhə altına almağa çalışır, məni populizmdə və seçiciləri aldatmaqda ittiham edirdi.

Mən bunu heç vaxt özümə rəva görməmişəm və indi - prezident seçiləndən beş il sonra deyil, dörd il sonra altı yüz mindən artıq iş yeri yaradılmışdır. Bu müddətdə dövlət xərcləri on dəfə artırılmış, 1200 məktəb, onlarca xəstəxana, avtomobil yolları, 6 elektrik stansiyası tikilmişdir - hamısını saymaqla qurtarmaz. İqtisadi sahədə artım təmin olunmuş, bütün transmilli enerji layihələri reallaşdırılmışdır. Buna görə də mən seçkilərə inamla gedirəm, mənim insanlara deməyə sözüm var, mən insanların ovqatına bələdəm. Bizimlə rəqabət aparmağa cəhd göstərənlər bu dörd ildə öz kabinetlərindən bayıra çıxmamışlar. Görünür, onlar kabinetlərdən çıxmağa xəcalət çəkirlər, çünki onlar özlərini çoxdan gözdən salıblar və adamlara deməyə sözləri yoxdur. Bu gün Azərbaycanda ənənəvi müxalifətin fəaliyyət meydanı həmişəkindən daha məhduddur. Ona görə yox ki, biz kimisə sıxışdırır və problemlər yaradırıq. Xeyr, ona görə ki, biz nəyi nəzərdə tutmuşduqsa, ölkəmiz üçün, onun möhkəmlənməsi üçün, təhlükəsizliyi, inkişafı üçün nə lazımdırsa, hamısını edirik. Buna görə də hesab edirəm ki, 2008-ci il əvvəlki illərdən fərqlənməyəcək, bizim 2003-cü ildə nəzərdə tutduğumuz bütün planların həyata keçirilməsi ili olacaqdır.

-Yəqin ki, uşaqlıqda prezidentlik arzusunda olmamısınız?

-Yox.

-Sirr deyilsə, kim olmaq istəyirdiniz?

-Uşaqlıqda mən general olmaq istəyirdim. Atam Heydər Əliyev general olanda mənim altı yaşım vardı. Əlbəttə, hərbi forma, general poqonları bütün uşaqlar üçün xüsusi ehtiram predmetidir. Uşaqlıqda biz hamımız müharibə oyunları oynayırdıq, hamımız özümüzü böyük sərkərdələr kimi təsəvvür edirdik. Mənə gəldikdə isə, hər gün generalı evimizdə görürdüm. Buna görə də təbii ki, mən də atam kimi general olmaq arzusunda idim. Mən general olmadım, lakin bütün başqa məsələlərdə atam kimi olmağa çalışıram.

-Müsahibəyə görə Sizə bir daha təşəkkür edirəm.

-Sağ olun.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV İSGƏNDƏRİYYƏ KİTABXANASININ DİREKTORU, MİSİR PREZİDENTİNİN ELM VƏ TƏHSİL ÜZRƏ MÜŞAVİRİ İSMAYIL SERAGELDİNİ QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev dekabrın 25-də Prezident sarayında İsgəndəriyyə kitabxanasının direktoru, Misir Prezidentinin elm və təhsil üzrə müşaviri İsmayıl Serageldini qəbul etmişdir.

Azərbaycana səfərindən məmnunluğunu bildirən İsmayıl Serageldin Prezident İlham Əliyev tərəfindən qəbul olunmasından şərəf duyduğunu dedi. Qonaq ölkəsi ilə Azərbaycan arasında elm, təhsil sahələrində əlaqələrin daha da inkişaf etdirilməsinə İsgəndəriyyə kitabxanasının töhfə verməyə hazır olduğunu bildirdi.

Dövlətimizin başçısı ölkəmizin müvafiq strukturlarının dünya elminin inkişafına öz töhfəsini verən İsgəndəriyyə kitabxanası ilə əməkdaşlığın əhəmiyyətini vurğulayaraq, bu əməkdaşlığın ölkələrimizin humanitar sahədə əlaqələrinin genişlənməsinə xidmət edəcəyinə əminliyini söylədi.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV İORDANİYA KRALININ ORTA ASİYA VƏ AZƏRBAYCAN ÜZRƏ XÜSUSİ ELÇİSİ ABDULLAH VUREYKƏTİ QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev dekabrın 25-də Prezident sarayında İordaniya Kralının Orta Asiya və Azərbaycan üzrə xüsusi elçisi Abdullah Vureykəti qəbul etmişdir.

Abdullah Vureykət İordaniya Kralı II Abdullahın salamlarını və Prezident İlham Əliyevin doğum günü münasibətilə təbriklərini, ən səmimi arzularını çatdırdı.

Dövlətimizin başçısı İordaniya Kralının salamlarına və təbrikinə görə təşəkkür etdi və onun da salamlarını İordaniyanın dövlət başçısına çatdırmağı xahiş etdi.

Prezident İlham Əliyev Kral II Abdullah ilə dostluq münasibətlərinin Azərbaycan və İordaniya arasında ikitərəfli əlaqələrin daha da genişləndirilməsi işinə töhfə verdiyini vurğuladı.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV MİSİRİN BEYNƏLXALQ ƏMƏKDAŞLIQ NAZİRİ XANIM FAİZƏ ƏBU ƏL-NƏQƏNİN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİNİ QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev dekabrın 27-də Prezident sarayında Misirin Beynəlxalq Əməkdaşlıq naziri xanım Faizə Əbu əl-Nəqənin başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.

Prezident İlham Əliyev Azərbaycan-Misir ikitərəfli münasibətlərinin müxtəlif istiqamətlərdə, o cümlədən iqtisadi sahədə uğurla inkişaf etdiyini bildirdi. Misirə səfərini və orada keçirdiyi görüşləri məmnunluqla xatırlayan dövlətimizin başçısı əlaqələrimizin möhkəmləndirilməsində bu səfərin əhəmiyyətini vurğuladı və ölkələrarası münasibətlərin genişlənməsində qarşılıqlı səfərlərin rolunu yüksək dəyərləndirdi.

Xanım Faizə Əbu əl-Nəqə Misir Prezidenti Hüsni Mübarəkin salamlarını və bayram təbriklərini Prezident İlham Əliyevə çatdırdı. Qonaq dedi ki, Prezident Hüsni Mübarək Azərbaycan Prezidenti İlham Əliyevin Qahirəyə səfərini yüksək dəyərləndirir və bu səfərdən sonra Misir ilə Azərbaycan arasında münasibətlərin uğurla inkişaf etməsindən məmnundur. Misirin Beynəlxalq Əməkdaşlıq naziri Misir Prezidentinin məktubunu dövlətimizin başçısına təqdim etdi.

Dövlətimizin başçısı Misir Prezidenti Hüsni Mübarəkin salamlarına görə minnətdarlığını bildirdi və onun da salamlarını Misirin dövlət başçısına çatdırmağı xanım Faizə Əbu əl-Nəqədən xahiş etdi.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV TÜRKİYƏNİN KƏND TƏSƏRRÜFATI VƏ KƏND İŞLƏRİ NAZİRİ MEHMET MEHDİ EKERİN RƏHBƏRLİK ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİNİ QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev dekabrın 28-də Prezident sarayında Türkiyənin kənd təsərrüfatı və kənd işləri naziri Mehmet Mehdi Ekerin rəhbərlik etdiyi nümayəndə heyətini qəbul etmişdir.

Mehmet Mehdi Eker Türkiyə və Azərbaycanın kənd təsərrüfatı nazirlikləri arasında əməkdaşlığın uğurla həyata keçirildiyini və bir sıra istiqamətlərdə konkret sazişlərin olduğunu bildirdi. O, bu sahədə birgə layihələrin həyata keçirilməsi üçün yaxşı imkanların mövcud olduğunu dedi. Türkiyədə kənd təsərrüfatı sektoruna xüsusi önəm verildiyini qeyd edən qonaq ölkəsinin Azərbaycanla bu sahədə əməkdaşlığın daha da genişləndirilməsinə hazır olduğunu vurğuladı.

Dövlətimizin başçısı kənd təsərrüfatının istər ölkənin ümumi iqtisadiyyatı, istərsə də məşğulluğun təmin edilməsi baxımından çox mühüm sahə olduğunu qeyd etdi. Azərbaycanda əhalinin böyük bir hissəsinin regionlarda yaşadığını deyən Prezident İlham Əliyev kənd təsərrüfatının inkişaf etdirilməsi üçün hökumət tərəfindən müvafiq proqramların həyata keçirildiyini, fermerlərə lazımi kömək göstərildiyini bildirdi. Azərbaycan Prezidenti Türkiyənin kənd təsərrüfatı sahəsində təcrübəsinin ölkəmiz üçün maraqlı olduğunu dedi və bu baxımdan iki ölkənin müvafiq nazirlikləri arasında təcrübə mübadiləsinin bundan sonra da davam etdirilməsinin əhəmiyyətini vurğuladı.

YOLA SALDIĞIMIZ İLDƏ AZƏRBAYCAN MİLLİ MARAQLARA VƏ REGİONDA APARICI MÖVQEYİNİN MÖHKƏMLƏNDİRİLMƏSİNƏ ƏSASLANAN FƏAL XARİCİ SİYASƏT YERİTMİŞDİR

Dekabrın 29-da Xarici İşlər Nazirliyinin mətbuat xidməti 2007-ci ildə nazirliyin fəaliyyətinin yekunlarına dair məlumat yaymışdır. Məlumatda deyilir:

- Beynəlxalq münasibətlər sisteminin inkişafı və bununla əlaqədar, ümumilikdə beynəlxalq təhlükəsizlik və ayrıca olaraq milli təhlükəsizlik konsepsiyasının yenidən qiymətləndirilməsi, regional və qlobal səviyyədə güclənən inteqrasiya prosesləri, o cümlədən dövlətin iqtisadi inkişafının yüksək sürəti və səviyyəsi, dövlətçiliyin güclənməsi Azərbaycanın milli maraqlarına və dövlətin regionda aparıcı mövqeyinin möhkəmləndirilməsinə əsaslanan fəal xarici siyasət aparılmasını şərtləndirmişdir.

2007-ci ildə Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi milli maraqların təmin edilməsinə, dövlətin davamlı inkişafı və vətəndaşların hüquqlarının müdafiəsi üçün əlverişli şəraitin yaradılmasına yönəlmiş ardıcıl fəaliyyətini həyata keçirməkdə davam etmişdir. Dövlətin beynəlxalq aləmdə nüfuzunun və imicinin möhkəmləndirilməsinə xüsusi diqqət ayrılmışdır.

XİN siyasət, təhlükəsizlik, iqtisadiyyat, insan hüquqları sahəsində, humanitar və digər istiqamətlərdə fəal iş aparmışdır.

Müdafiə və təhlükəsizlik sahəsində konseptual əsasın inkişafı üçün vacib addımlar atılmışdır. Azərbaycan Prezidentinin 2007-ci il 23 may tarixli Sərəncamı ilə XİN-in rəhbərliyi altında müvafiq nazirliklərarası işçi qrupu tərəfindən beynəlxalq mütəxəssislərin dəstəyi ilə hazırlanmış Milli Təhlükəsizlik Konsepsiyası təsdiq olunmuşdur. Sənəd Azərbaycan Respublikasının müstəqilliyi, ərazi bütövlüyü, konstitusiya quruluşu və milli maraqlarının müdafiəsinə yönəlmiş dövlət siyasətinin əsasını təşkil edən məqsəd, prinsip və yanaşmaları müəyyən edir. Yola saldığımız ildə hərbi doktrinanın hazırlan-

ması prosesi son mərhələsinə daxil olmuşdur. Həmçinin xarici siyasət strategiyası və Azərbaycanın milli təhlükəsizlik sahəsində digər konseptual sənədləri üzərində iş davam etdirilmişdir.

Azərbaycan Respublikasının suverenliyinin, ərazi bütövlüyünün bərpası və etnik təmizləməyə məruz qalmış məcburi köçkünlərin öz torpaqlarına qaytarılması ölkəmizin xarici siyasətində prioritet məsələ kimi qalmışdır.

Ermənistan və Azərbaycan arasında silahlı münaqişənin tənzimlənməsi istiqamətində prezidentlər və xarici işlər nazirləri səviyyəsində "Praqa prosesi" çərçivəsində Azərbaycan danışıqlar prosesinin irəli aparılması üçün bütün imkanlardan maksimum dərəcədə yararlanmağa çalışmışdır.

Eyni zamanda, beynəlxalq ictimaiyyətin Azərbaycanın ərazi bütövlüyünü, beynəlxalq səviyyədə tanınmış sərhədlərinin toxunulmazlığını dəstəkləmək və ərazilərinin işğalını, etnik təmizləməni pisləyən mövqeyinin daha da möhkəmləndirilməsi yönündə səylər davam etdirilmişdir.

Azərbaycanın işğal olunmuş Dağlıq Qarabağ bölgəsində qondarma "prezident seçkiləri"nin və "yerli özünüidarə orqanlarına seçkilər"in Avropa İttifaqı, ATƏT, Avropa Şurası, GUAM, İKT və dünyanın aparıcı dövlətləri, o cümlədən ATƏT-in Minsk qrupu həmsədrləri tərəfindən qanunsuz sayılması və heç bir hüquqi qüvvəyə malik olmaması kimi qəbul edilməsi Ermənistanın öz ilhaq siyasətini və Azərbaycan ərazilərinin işğalını pərdələmək üçün növbəti cəhdinin tam və qaçılmaz iflası idi. Azərbaycanın ərazi bütövlüyünə dəstəyi və dəyişməz hörməti ifadə etməklə, beynəlxalq ictimaiyyət sülh prosesini çıxılmaz vəziyyətə salmaq və artıq baş vermiş fakt siyasətini qəbul etdirmək istəyənlərə aydın bir siqnal verdi.

Azərbaycan bütün mümkün siyasi-hüquqi vasitələrdən istifadə edərək, beynəlxalq hüququn prinsip və normalarının pozulması ilə bağlı problemlərin bütün kompleksi üzrə fəaliyyətini davam etdirmişdir. XİN-də yaradılmış və mütəmadi yeniləşdirilən məlumat-təhlil bazası ötən ildə bu istiqamətdə işləri gücləndirməyə imkan vermişdir.

Ermənistan tərəfindən azərbaycanlıların tarixi və mədəni abidələrinin məqsədli şəkildə məhv edilməsi, yaşayış məntəqələrinin dağıdılması, habelə zəbt olunmuş torpaqlarda qeyri-qanuni iqtisadi fəaliyyətin aparılması haqqında faktlar beynəlxalq ictimaiyyətin diqqətinə çatdırılmışdır. Xarici İşlər Nazirliyində hazırlanmış bir sıra nəşrlər və hesabatların çap edilməsi və geniş yayılması dünya ictimaiyyətinin işğal olunmuş Azərbaycan torpaqlarında vandalizm faktları haqqında məlumatlandırılması və Ermənistanın Azərbaycana qarşı işğalçılıq siyasəti həyata keçirməsinə görə beynəlxalq hüquq məsuliyyəti daşıması işində mühüm töhfə olmuşdur.

BMT-nin İnsan Hüquqları Şurasının 6-cı sessiyasında Azərbaycanın irəli sürdüyü silahlı münaqişələr zamanı mədəni hüquqların və mədəni mülkiyyətin müdafiəsi haqqında qətnamə yekdilliklə qəbul olunmuşdur. Azərbaycan xalqının tarixi-mədəni irsinin qorunması məsələsi də Azərbaycanın YUNESKO, Avropa Şurası və İKT ilə əməkdaşlığının mərkəzində olmuşdur.

Müvafiq beynəlxalq formatlar çərçivəsində beynəlxalq təşkilatların diqqətinin Azərbaycanda məcburi köçkünlər probleminə cəlb edilməsi, erməni təcavüzünün qurbanı olmuş bu insanların hüquqlarının bərpası üçün BMT və digər beynəlxalq təsisatlar tərəfindən müvafiq tədbirlərin görülməsi istiqamətində lazımi səylər göstərilmişdir.

Azərbaycan terrorizmə, transmilli mütəşəkkil cinayətkarlığa, narkotik vasitələrin qeyri-qanuni dövriyyəsinə, insan alverinə və digər qanunsuz fəaliyyətə qarşı beynəlxalq mübarizədə fəal iştirak etmişdir. Tərəfdaşlarla qarşılıqlı əlaqələrin bütün mümkün ikitərəfli, qlobal və regional formalarından istifadə edilmiş, müvafiq milli strukturların inkişafı üçün beynəlxalq yardımın cəlb olunması davam etdirilmişdir.

Azərbaycanın beynəlxalq təşkilatların seçki strukturlarında daha yaxşı təmsilçiliyinin təminatı üzrə iş aparılması diqqət mərkəzində olmuşdur. Belə ki, 2007-ci ildə Azərbaycan Şərqi Avropa dövlətlər qrupundan BMT-nin İnkişaf Proqramı/BMT-nin Əhali Fonduna üzv seçilmişdir.

Xarici siyasətin Avropa və Avratlantik istiqaməti çərçivəsində Azərbaycanın NATO və Avropa İttifaqı ilə inteqrasiya əlaqələrinin inkişafı, tərəfdaşlığının möhkəmləndirilməsi üçün irəliləyən proses davam etmişdir. Azərbaycan Avropa təhlükəsizliyinə və beynəlxalq təhlükəsizliyə öz töhfəsini verməkdə davam etmiş, tərəfdaşlıq mexanizmlərinin təkmilləşdirilməsi və əsaslarının möhkəmləndirilməsi təşəbbüslərini fəal həyata keçirmişdir. 2007-ci ilin mayında NATO Şurası Azərbaycanın 2005-2007-ci illər üçün Fərdi tərəfdaşlığın əməliyyat planının həyata keçirilməsində əldə etdiyi tərəqqini yüksək qiymətləndirmişdir. Hazırda ikinci planın layihəsi üzrə iş başa çatdırılır. Avropa İttifaqı ilə tərəfdaşlığın inkişafı kontekstində Azərbaycanın xüsusi çəkisi artmış və qlobal enerji təhlükəsizliyinin təminatında onun rolu güclənmiş, ölkənin Avropa nəqliyyat sisteminə inteqrasiyaya çalışması aydın hiss olunmuşdur. İl ərzində Avropa Qonşuluq siyasəti çərçivəsində fəaliyyət planının yerinə yetirilməsinə xüsusi diqqət verilmişdir.

Avropa istiqaməti ilə yanaşı, islam dünyasının bir hissəsi kimi, Azərbaycan İslam Konfransı Təşkilatı ilə sıx əməkdaşlığı davam etdirmişdir. 2007-ci ilin birinci yarısında İKT sədri vəzifəsini yerinə yetirərək, Azərbaycan təşkilatın siyasi rolunun artırılması, beynəlxalq problemlərin həllində onun təsiri və iştirakının gücləndirilməsi, beynəlxalq ictimaiyyətdə, ilk növbədə, Avropada İslamın, onun mədəniyyəti, dəyərləri və fəlsəfəsinin düzgün dərk edilməsi məqsədi ilə fəal səylər göstərmişdir. Mədəniyyətlər və dinlərarası dialoqun təşviqi, müxtəlif millətlər və dinlər arasında dözümlülüyün və qarşılıqlı anlaşmanın inkişafı, etnik və dini dözümsüzlük əleyhinə səmərəli tədbirlərin hazırlanması üçün geniştərkibli bir sıra iri beynəlxalq təşəbbüslər həyata keçirilmişdir. Azərbaycan xalqına xas olan çoxəsrlik dözümlülük ənənələrini əsas tutaraq, Azərbaycan "Sivilizasiyalar alyansı"nın yaradılması üzrə təşəbbüsün fəal iştirakçılarından birinə çevrilmişdir.

Azərbaycan insan haqları sahəsində beynəlxalq səviyyədə fəal qarşılıqlı əlaqələri davam etdirmiş, bərabərhüquqlu tərəfdaş kimi, beynəlxalq hüquqi müdafiə əməkdaşlığı sisteminin möhkəmlənməsinə öz töhfəsini vermişdir.

Azərbaycanın xarici siyasət fəaliyyətinin regional istiqamətinin mühüm tərkib hissələrindən biri "Demokratiya və İqtisadi İnkişaf Naminə Təşkilatın - GUAM-ın üzvü olan dövlətlər ilə əməkdaşlığın genişləndirilməsi və dərinləşdirilməsi olmuşdur. Bakıda GUAM-ın iyun sammiti zamanı sədrlik Azərbaycana keçmiş, Vilnüsdə GUAM-ın on illiyinə həsr edilmiş oktyabr sammiti, ilk dəfə olaraq, tərəfdaş dövlətlərin və digər ma-

raqlı dövlətlərin ali rəhbərlərinin, habelə beynəlxalq və regional strukturların yüksək vəzifəli nümayəndələrinin iştirakı ilə geniş formatda keçirilmişdir. Bu, GUAM-ın artan beynəlxalq nüfuzunu, bu regional təşkilata olan diqqəti və beynəlxalq birlik tərəfindən onun fəaliyyətinin dəstəkləndiyini əyani şəkildə göstərir. Avropa İttifaqı daxilində GUAM-ın dostları qrupunun yaradılması, GUAM-ABŞ, GUAM-Yaponiya və GUAM-Polşa dialoqları bunun təsdiqidir.

Avropa və Asiya arasında təbii dəhliz rolunu oynayaraq və bununla da qitələri birləşdirərək, GUAM təhlükəsizlik və sabitliyin təminatına, ticarət və iqtisadi əməkdaşlığın və tranzit potensialının inkişafına, mədəniyyətlərarası dialoqun təşviqinə, aktual və həssas problemlərin həllində ümumi əsas və yanaşmaların müəyyən olunmasına, xalqların və dövlətlərin yaxınlaşmasına mane olan ideoloji və digər stereotiplərin aradan qaldırılmasına mühüm töhfə verir.

İl ərzində GUAM növbəti dəfə sübut etmişdir ki, üzv dövlətlərin təhlükəsizliyinə risk və təhdidlərə qarşı razılaşdırılmış şəkildə fəaliyyət göstərən və öz səylərinin beynəlxalq ictimaiyyət tərəfindən səfərbər olunmasına çalışan səmərəli bir qurumdur. Ölkələr ərazisində olan münaqişələrin tənzimlənməsi məsələlərində eyni yanaşma əsasında GUAM BMT Baş Məclisinin 62-ci sessiyasının müzakirəsinə "GUAM ərazisində uzunsürən münaqişələr və onların beynəlxalq sülh, təhlükəsizlik və inkişafa təsiri" adlı qətnamə layihəsini təqdim etmişdir.

Yola saldığımız ildə xarici iqtisadi əlaqələr sahəsində də fəal tədbirlər görülmüşdür. Qlobal və regional inteqrasiya prosesləri çərçivəsində dövlətin maraqlarının irəli aparılması üçün addımlar atılmışdır. İl ərzində Azərbaycan Dünya Ticarət Təşkilatına (DTT) üzvlük məsələsi ilə bağlı danışıqları davam etdirmişdir. Azərbaycan qanunvericiliyinin DTT standartlarına uyğun şəkildə təkmilləşdirilməsi planının yerinə yetirilməsi məsələsi diqqət mərkəzində olmuşdur.

Regional xarici iqtisadi təşəbbüslərin, o cümlədən Qara Dəniz İqtisadi Əməkdaşlıq Təşkilatının və İqtisadi Əməkdaşlıq Təşkilatının (İƏT) fəal üzvü kimi Azərbaycan tərəfdaş dövlətlərin diqqətini regional əməkdaşlıq yolunda əngəl təşkil edən münaqişələrə yönəltmiş, bundan əlavə, regional qurumların fəaliyyətinin səmərəliliyinin artırılması və qarşılıqlı əlaqələrinin artırılması istiqamətində aparılmış müzakirələrdə aktiv iştirak etmişdir. İƏT-ə sədrliyi çərçivəsində Azərbaycan bütün təşəbbüslərin reallaşdırılmasına töhfəsini vermiş və eyni zamanda, təşkilatın müxtəlif fəaliyyət sahələrində bir sıra tədbirlər həyata keçirmişdir.

2007-ci ildə Azərbaycan regional və qlobal səviyyədə enerji təhlükəsizliyinin möhkəmləndirilməsinə öz töhfəsini verməkdə davam etmişdir. Avropa İttifaqı ilə bu sahədə mövcud olan əməkdaşlıqdan əlavə, ABŞ-la da enerji sahəsində dialoq yaradılmışdır. Xəzər dənizi və Aralıq dəniz hövzələrini birləşdirən səmərəli və təhlükəsiz nəqliyyat dəhlizlərinin təmin olunması üçün transregional boru kəməri infrastrukturunun yaradılması sahəsində inkişaf əldə olunmuşdur. 2007-ci ildə Türkiyə və Yunanıstanı birləşdirən qaz boru kəmərinin istismara verilməsi Azərbaycan qazının Avropa bazarlarına çıxarılması üçün əlavə imkanlar yaradır. Xəzər regionunda "Şərq-Qərb" nəqliyyat dəhlizinin inkişafı çərçivəsində strateji əhəmiyyətli Bakı-Tbilisi-Qars dəmir yolu layihəsinin tikintisi üzrə ciddi əməli tədbirlər həyata keçirilmişdir.

Azərbaycanın xüsusi rolu, hasilat sənayesi sahələrində əldə etdiyi təcrübə və şəffaflıq məsələsinə prinsipial yanaşması Azərbaycanın BMT-nin Baş Məclisinin 62-ci sessiyasında müvafiq qətnamə layihəsinin irəli sürməsinə əsas vermişdir. Qeyd olunan layihəyə geniş siyasi dəstəyin verilməsi üçün Azərbaycanın təklifi ilə BMT-də həmin təşəbbüsün Dostları qrupu yaradılmışdır.

Azərbaycanın diaspor qurumlarının təşkilatlanması ilə bağlı iş davam etdirilmişdir. Azərbaycan və türk diaspor təşkilatları arasında əməkdaşlığın möhkəmləndirilməsinə və fəaliyyətin əlaqələndirilməsinə xüsusi diqqət yetirilmişdir. Bu və digər məsələlər Bakıda keçirilmiş Dünya Azərbaycan və türk diaspor təşkilatları rəhbərlərinin I forumunda, Türk dövlət və cəmiyyətlərinin XI dostluq, qardaşlıq və əməkdaşlıq qurultayında diqqət mərkəzində olmuşdur. 2007-ci il, eyni zamanda, ikitərəfli əlaqələrin möhkəmləndirilməsi ilə də yadda qalmışdır. Bu proses çərçivəsində Almaniya, Gürcüstan, Misir, İordaniya, Qazaxıstan, Koreya Respublikası, Litva, Rusiya, Rumıniya, Tacikistan, Fransa və İsveçrəyə edilən ən yüksək səviyyəli səfərlər xüsusi rol oynamışdır. Azərbaycanın xarici siyasət idarəsinin rəhbərliyi səviyyəsində dünyanın müxtəlif ölkələrində aparılmış danışıqlar, müxtəlif səviyyələrdə çoxsaylı qarşılıqlı səfərlər, birgə hökumətlərarası komissiyaların və işçi qruplarının iclasları, o cümlədən qonşu dövlətlərlə sərhədlərin delimitasiyası məsələləri, eyni zamanda, müqavilə-hüquq bazasının genişləndirilməsi ikitərəfli əməkdaşlığın dərinləşdirilməsini təmin etmişdir. İl ərzində Xəzər dənizinin hüquqi statusuna dair Konvensiya layihəsinin razılaşdırılması ilə bağlı danışıqlar prosesi davam etdirilmiş, Tehranda Xəzəryanı dövlət başçılarının ikinci zirvə görüşü keçirilmiş və yekunda Bəyannamə qəbul olunmuşdur.

Azərbaycanın diplomatik nümayəndəliklərinin əhatə dairəsi genişlənmiş, il ərzində Azərbaycan Qətər, Qırğızıstan, Litva, Niderland, Tacikistan, Çexiya və İsveçdə səfirliklərini, Kuba və Meksikada isə ofislərini açmışdır. Eyni zamanda, cari il ərzində Belçika, İordaniya, Qətər, Kuba, Litva və İsveçrə Azərbaycanda öz diplomatik nümayəndəliklərini açmışdır.

İl ərzində XİN-in infrastrukturunun müasirləşdirilməsi, diplomatik xidmətin normativ-hüquqi bazasının yaxşılaşdırılması və kadr potensialının gücləndirilməsi istiqamətində əlavə tədbirlər görülmüşdür. Xarici İşlər Nazirliyi ictimaiyyətlə əlaqələri təkmilləşdirməyi davam etdirmiş və ölkənin xarici siyasət idarəsinin fəaliyyəti barədə ictimaiyyətin vaxtında və hərtərəfli məlumatlandırılması məqsədi ilə zəruri tədbirlər görmüşdür.

MÜNDƏRİCAT

DÜNYA AZƏRBAYCANLILARININ HƏMRƏYLİYİ GÜNÜ, QURBAN BAYRAMI VƏ YENİ İL MÜNASİBƏTİLƏ AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ İLHAM ƏLİYEVİN TƏBRİKİ 3

MÜASİR DÖVRDƏ SƏRHƏDLƏRİ ZOR GÜCÜNƏ DƏYİŞDİRMƏK YOLVERİLMƏZDİR 6

BAŞ NAZİR ARTUR RASİZADƏ POLŞA XARİCİ İŞLƏR NAZİRİNİN BİRİNCİ MÜAVİNİNİ QƏBUL ETMİŞDİR 7

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV FRANSANIN "LE MONDE DİPLOMATİQUE" QƏZETİNİN MÜXBİRİNƏ MÜSAHİBƏ VERMİŞDİR 8

AZƏRBAYCAN İLƏ KÜVEYT ARASINDA ƏLAQƏLƏR YÜKSƏK SƏVİYYƏDƏDİR 8

AZƏRBAYCAN RESPUBLİKASININ XARİCİ İŞLƏR NAZİRLİYİ VƏ KÜVEYT DÖVLƏTİNİN XARİCİ İŞLƏR NAZİRLİYİ ARASINDA MƏSLƏHƏTLƏŞMƏLƏRƏ DAİR ANLAŞMA MEMORANDUMU 10

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN FRANSANIN "FİQARO" QƏZETİNƏ MÜSAHİBƏSİ 11

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN İSVEÇRƏYƏ SƏFƏRİ 18

PREZİDENT İLHAM ƏLİYEV "ENERJİ-2007: NEFT SİYASƏTİNİN YENİ ERASI" MÖVZUSUNDA İCLASDA ÇIXIŞ ETMİŞDİR 20

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV ABŞ-IN "MİCROSOFT" ŞİRKƏTİNİN RƏHBƏRİ İLƏ GÖRÜŞMÜŞDÜR 21

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV ABŞ-IN "İNTEL" ŞİRKƏTİ İDARƏ HEYƏTİNİN SƏDRİ İLƏ GÖRÜŞMÜŞDÜR 22

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV İSRAİLİN BAŞ NAZİRİNİN MÜAVİNİ İLƏ GÖRÜŞMÜŞDÜR 22

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV BÖYÜK BRİTANİYANIN TİCARƏT VƏ SƏNAYE NAZİRİ İLƏ GÖRÜŞMÜŞDÜR 22

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV AVROPA İTTİFAQININ ENERJİ MƏSƏLƏLƏRİ ÜZRƏ MƏSUL KOMİSSARI İLƏ GÖRÜŞMÜŞDÜR 23

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN VƏ İSVEÇRƏ PREZİDENTİ MİŞELİN KALMİ-REYİN GÖRÜŞÜ 23

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN FRANSAYA DÖVLƏT SƏFƏRİ 23

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN VƏ FRANSA PREZİDENTİ JAK ŞİRAKIN TƏKBƏTƏK GÖRÜŞÜ 24

"FƏXRİ LEGİONUN BÖYÜK XAÇ KOMANDORU" VƏ "HEYDƏR ƏLİYEV" ORDENLƏRİNİN TƏQDİM OLUNMASI MƏRASİMİ 24

AZƏRBAYCAN PREZİDENTİNİN VƏ XANIMININ ŞƏRƏFİNƏ DÖVLƏT QƏBULU 26

FRANSA PREZİDENTİ JAK ŞİRAKIN NİTQİ 26

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN NİTQİ 28

PARİS ŞƏHƏR MERİYASINDA GÖRÜŞ 29

FRANSA İCTİMAİYYƏTİNİN VƏ DİPLOMATİK KORPUSUN NÜMAYƏNDƏLƏRİ İLƏ GÖRÜŞ 30

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN NİTQİ 30

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN FRANSANIN BAŞ NAZİRİ DOMİNİK DE VİLPEN İLƏ GÖRÜŞÜ 32

SƏNƏDLƏRİN İMZALANMASI MƏRASİMİ 32

FRANSA MİLLİ ASSAMBLEYASININ SƏDRİ İLƏ GÖRÜŞ 33

"GAZ DE FRANCE" ŞİRKƏTİNİN PREZİDENTİ İLƏ GÖRÜŞ 34

"VİNCİ" ŞİRKƏTİ İDARƏ HEYƏTİNİN SƏDRİ İLƏ GÖRÜŞ 34

"SOCİETE GENERALE" ŞİRKƏTİNİN BAŞ İCRAÇI DİREKTORU İLƏ GÖRÜŞ 35

"BNP PARİBAS" BANKININ DİREKTORLAR ŞURASININ SƏDRİ İLƏ GÖRÜŞ 35

NATO PARLAMENT ASSAMBLEYASININ SƏDRİ İLƏ GÖRÜŞ 35

FRANSA SENATI SƏDRİNİN ADINDAN ZİYAFƏT 35

FRANSA SENATININ SƏDRİ KRİSTİAN PONSÖLENİN NİTQİ 36

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN NİTQİ 37

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN FRANSANIN NORD-PA-DE-KALE REGİONUNUN İŞGÜZAR ADAMLARI İLƏ GÖRÜŞÜ 39

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN NİTQİ 40

NORD-PA-DE-KALE REGİONUNUN PREFEKTİ İLƏ GÖRÜŞ 43

"ALSTON" ŞİRKƏTLƏR QRUPUNUN ZAVODU İLƏ TANIŞLIQ 43

PARİSDƏ BİRGƏ BƏYANNAMƏ QƏBUL EDİLMİŞDİR 44

SƏFƏR BAŞA ÇATDI 45

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV İRANIN RADİO VƏ TELEVİZİYA TƏŞKİLATININ SƏDRİ İZZƏTULLAH ZƏRĞAMİNİ QƏBUL ETMİŞDİR 45

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV "DOİNG BUSİNESS 2007"-NİN MÜƏLLİFİ, DÜNYA BANKININ BAŞ İQTİSADÇISI SİMEON DJANKOVU VƏ BANKIN AZƏRBAYCAN ÜZRƏ MENECERİ QREQORİ YEDJEYÇAKI QƏBUL ETMİŞDİR 46

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV AVROPA ŞURASI KATİBLİYİNİN SİYASİ MƏSƏLƏLƏR ÜZRƏ BAŞ DİREKTORU JAN-LUİ LORANI QƏBUL ETMİŞDİR 46

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV "BOİNQ-MÜLKİ AVİASİYA TƏYYARƏLƏRİ" ŞİRKƏTİNİN PREZİDENTİ VƏ BAŞ İCRAÇI DİREKTORU SKOTT KARSONUN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİNİ QƏBUL ETMİŞDİR 46

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV GÖRKƏMLİ FİZİK, KEÇMİŞ SSRİ ELMLƏR AKADEMİYASININ HƏQİQİ ÜZVÜ ROALD SAQDEYEVİ QƏBUL ETMİŞDİR 47

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV ABŞ DÖVLƏT KATİBİNİN MÜAVİNİ, ABŞ-AZƏRBAYCAN BİRGƏ İQTİSADİ ƏMƏKDAŞLIQ KOMİSSİYASININ HƏMSƏDRİ DANİYEL SALLİVANIN RƏHBƏRLİK ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİNİ QƏBUL ETMİŞDİR 47

ABŞ-LA ƏLAQƏLƏRİN İNKİŞAFI AZƏRBAYCANIN XARİCİ SİYASƏTİNİN ƏSAS İSTİQAMƏTLƏRİNDƏN BİRİDİR 48

ROALD SAQDEYEV DİPLOMATİK AKADEMİYADA MÜHAZİRƏ OXUMUŞDUR .. 48

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN GÜRCÜSTANA İŞGÜZAR SƏFƏRİ 49

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN VƏ GÜRCÜSTAN PREZİDENTİ MİXAİL SAAKAŞVİLİNİN GÖRÜŞÜ 49

HEYDƏR ƏLİYEV ADINA PROSPEKTİN TƏNTƏNƏLİ AÇILIŞ MƏRASİMİ 50

MƏRKƏZİ UNİVERSİTET KLİNİKASI İLƏ TANIŞLIQ 50

TBİLİSİ METROSUNUN "AZADLIQ MEYDANI" STANSİYASI İLƏ TANIŞLIQ 50

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN VƏ TÜRKİYƏNİN BAŞ NAZİRİ RƏCƏB TAYYİB ƏRDOĞANIN GÖRÜŞÜ 51

ÜÇTƏRƏFLİ GÖRÜŞ 51

ÜÇTƏRƏFLİ REGİONAL ƏMƏKDAŞLIQ SAMMİTİ SƏNƏDLƏRİNİN İMZALANMASI MƏRASİMİ 52

TÜRKİYƏNİN BAŞ NAZİRİ RƏCƏB TAYYİB ƏRDOĞANIN BƏYANATI 52

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN BƏYANATI 53

TBİLİSİ BEYNƏLXALQ HAVA LİMANININ AÇILIŞI 55

AZƏRBAYCAN YAPONİYA İLƏ MÜNASİBƏTLƏRİN İNKİŞAFINA BÖYÜK ƏHƏMİYYƏT VERİR 56

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV ATƏT PARLAMENT ASSAMBLEYASININ SƏDRİ QORAN LENMARKERİN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİNİ QƏBUL ETMİŞDİR 57

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV İQTİSADİ ƏMƏKDAŞLIQ TƏŞKİLATININ BAŞ KATİBİ XURŞİD ƏNVƏRİ QƏBUL ETMİŞDİR 57

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV GÜRCÜSTANIN ƏDLİYYƏ NAZİRİ GİYA KAVTARADZENİ QƏBUL ETMİŞDİR 58

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV İTALİYANIN BEYNƏLXALQ TİCARƏT NAZİRİNİN MÜAVİNİ, SENATOR MİLOS BUDİNİN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİNİ QƏBUL ETMİŞDİR 58

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV ABŞ MÜDAFİƏ NAZİRİNİN BEYNƏLXALQ TƏHLÜKƏSİZLİK MƏSƏLƏLƏRİ ÜZRƏ MÜAVİNİ PİTER RODMANIN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİNİ QƏBUL ETMİŞDİR 59

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV ABŞ-IN NYU-HEMPŞİR ŞTATININ KEÇMİŞ QUBERNATORU, CORC BUŞ ADMİNİSTRASİYASI APARATININ SABİQ RƏHBƏRİ CON SUNUNUNU QƏBUL ETMİŞDİR 59

AZƏRBAYCANIN BAŞ NAZİRİ TÜRKMƏNİSTANIN YENİ PREZİDENTİ İLƏ GÖRÜŞMÜŞDÜR 59

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN ALMANİYAYA RƏSMİ SƏFƏRİ .. 60

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN VƏ ALMANİYANIN KANSLERİ ANGELA MERKELİN GÖRÜŞÜ 60

BİRGƏ MƏTBUAT KONFRANSI 60

ALMANİYANIN FEDERAL KANSLERİ ANGELA MERKELİN BƏYANATI 60

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN BƏYANATI 61

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN BERLİN ŞƏHƏR MERİ KLAUS VOVERAYT İLƏ GÖRÜŞÜ 62

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN MİXAEL ZUKKOV FONDUNUN PREZİDENTİ İLƏ GÖRÜŞÜ 63

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV ALMANİYANIN BİR SIRA ŞİRKƏTLƏRİNİN RƏHBƏRLƏRİ İLƏ GÖRÜŞMÜŞDÜR 64

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN ÇIXIŞI 65

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN ALMANİYANIN XARİCİ İŞLƏR NAZİRİ İLƏ GÖRÜŞÜ 66

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN ALMANİYA BUNDESRATININ SƏDRİ İLƏ GÖRÜŞÜ 66

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN ALMANİYANIN SABİQ MÜDAFİƏ NAZİRİ İLƏ GÖRÜŞÜ 67

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV ALMANİYANIN KONRAD ADENAUER FONDU TƏRƏFİNDƏN TƏŞKİL OLUNMUŞ "AZƏRBAYCAN XXI ƏSRDƏ – İNKİŞAF VƏ PERSPEKTİVLƏR" MÖVZUSUNDA GENİŞ MÜZAKİRƏLƏRDƏ İŞTİRAK ETMİŞDİR 67

KONRAD ADENAUER FONDUNUN BAŞ KATİBİ VİLHELM ŞTAUDAXERİN ÇIXIŞI 67

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN NİTQİ 69

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN ALMANİYADA FƏALİYYƏT GÖSTƏRƏN AZƏRBAYCAN CƏMİYYƏTLƏRİNİN SƏDRLƏRİ İLƏ GÖRÜŞÜ 83

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN GİRİŞ NİTQİ 84

AVROPA AZƏRBAYCANLILARI KONQRESİNİN SƏDRİ BAHƏDDİN KAYANIN ÇIXIŞI 88

AVROPA-AZƏRBAYCAN STRATEJİ ARAŞDIRMALAR MƏRKƏZİNİN SƏDRİ BAŞAR KÖMÜRÜN ÇIXIŞI 89

ALMAN-AZƏRBAYCAN FORUMUNUN ÜZVÜ SAMİRƏ İSMAYILOVANIN ÇIXIŞI 90

ALMAN-AZƏRBAYCAN FORUMU SƏDRİNİN MÜAVİNİ, KÖLN UNİVERSİTETİNİN PROFESSORU RZA TALİBİ DƏRYANİNİN ÇIXIŞI 91

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN YEKUN NİTQİ 92

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN ALMANİYANIN "DEUTSCHE WELLE" TELERADİO KANALINA MÜSAHİBƏSİ 93

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV ALMANİYANIN İQTİSADİYYAT VƏ YENİ TEXNOLOGİYALAR NAZİRİ İLƏ GÖRÜŞMÜŞDÜR 97

AZƏRBAYCAN-ALMANİYA BİZNES FORUMU 97

"WİNTERSHALL" ŞİRKƏTİ İDARƏ HEYƏTİNİN SƏDRİ RAYNİP SVİTSERLOOTUN ÇIXIŞI 98

ALMANİYANIN İQTİSADİYYAT VƏ YENİ TEXNOLOGİYALAR NAZİRİ MİXAEL QLOSUN ÇIXIŞI 100

PREZİDENT İLHAM ƏLİYEVİN NİTQİ 103

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN ALMANİYANIN BADEN-VÜRTEMBERQ FEDERAL ƏYALƏTİNİN BAŞ NAZİRİ İLƏ GÖRÜŞÜ 107

SƏFƏR BAŞA ÇATDI 108

MALAYZİYA AZƏRBAYCAN İLƏ BÜTÜN SAHƏLƏRDƏ ƏLAQƏLƏRİN GENİŞLƏNMƏSİNDƏ MARAQLIDIR 108

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV AVROPA BİRLİYİNİN CƏNUBİ QAFQAZ ÜZRƏ XÜSUSİ NÜMAYƏNDƏSİ PETER SEMNEBİNİ QƏBUL ETMİŞDİR . 109

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV ALMANİYANIN XARİCİ İŞLƏR NAZİRİ FRANK-VALTER ŞTAYNMAYERİ QƏBUL ETMİŞDİR 109

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV GÜRCÜSTANIN TƏBİİ SƏRVƏTLƏR VƏ ƏTRAF MÜHİTİN MÜHAFİZƏSİ NAZİRİ DAVİD TKEŞELAŞVİLİNİN RƏHBƏRLİK ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİNİ QƏBUL ETMİŞDİR 109

MOLDOVA RESPUBLİKASININ BAŞ NAZİRİ VASİLE TARLEVİN AZƏRBAYCANA RƏSMİ SƏFƏRİ 110

BAKIDA AZƏRBAYCAN İLƏ MOLDOVA ARASINDA İQTİSADİ ƏMƏKDAŞLIQ ÜZRƏ BİRGƏ HÖKUMƏTLƏRARASI KOMİSSİYANIN İKİNCİ İCLASI KEÇİRİLMİŞDİR 110

AZƏRBAYCAN RESPUBLİKASI HÖKUMƏTİ İLƏ MOLDOVA RESPUBLİKASI HÖKUMƏTİ ARASINDA ƏTRAF MÜHİTİN MÜHAFİZƏSİ SAHƏSİNDƏ ƏMƏKDAŞLIĞA DAİR SAZİŞ 112

AZƏRBAYCAN RESPUBLİKASININ MALİYYƏ NAZİRLİYİ İLƏ MOLDOVA RESPUBLİKASININ MALİYYƏ NAZİRLİYİ ARASINDA DÖVLƏT MALİYYƏLƏŞMƏSİ SAHƏSİNDƏ ƏMƏKDAŞLIĞA DAİR SAZİŞ 115

AZƏRBAYCAN RESPUBLİKASI HÖKUMƏTİ İLƏ MOLDOVA RESPUBLİKASI HÖKUMƏTİ ARASINDA MİQRASİYA SAHƏSİNDƏ ƏMƏKDAŞLIQ HAQQINDA SAZİŞ 117

AZƏRBAYCAN RESPUBLİKASININ DÖVLƏT STATİSTİKA KOMİTƏSİ İLƏ MOLDOVA RESPUBLİKASININ MİLLİ STATİSTİKA BÜROSU ARASINDA STATİSTİKA SAHƏSİNDƏ ƏMƏKDAŞLIQ HAQQINDA SAZİŞ 119

AZƏRBAYCAN RESPUBLİKASININ SƏHİYYƏ NAZİRLİYİ İLƏ MOLDOVA RESPUBLİKASININ SƏHİYYƏ NAZİRLİYİ ARASINDA SƏHİYYƏ VƏ TİBB ELMİ SAHƏSİNDƏ ƏMƏKDAŞLIQ HAQQINDA SAZİŞ 121

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV MOLDOVANIN BAŞ NAZİRİ VASİLE TARLEVİ QƏBUL ETMİŞDİR 123

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV "TOTAL" ŞİRKƏTİNİN KONTİNENTAL AVROPA VƏ MƏRKƏZİ ASİYA REGİONU ÜZRƏ BAŞ VİTSE-PREZİDENTİ ARNO BREYAKIN RƏHBƏRLİK ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİNİ QƏBUL ETMİŞDİR 124

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV "CHEVRON" KORPORASİYASININ DİREKTORLAR ŞURASI SƏDRİNİN MÜAVİNİ PİTER ROBERTSONUN RƏHBƏRLİK ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİNİ QƏBUL ETMİŞDİR 124

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV HADSON İNSTİTUTUNUN AVRASİYA SİYASƏTİ ÜZRƏ MƏRKƏZİNİN DİREKTORU ZEYNO BARANI QƏBUL ETMİŞDİR 124

AZƏRBAYCAN RESPUBLİKASININ KONSULLUĞU HAQQINDA ƏSASNAMƏ 125

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV TÜRKİYƏ SİLAHLI QÜVVƏLƏRİ BAŞ QƏRARGAHININ İKİNCİ RƏİSİ ERGİN SAYQUNUN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİNİ QƏBUL ETMİŞDİR 131

AZƏRBAYCANIN XARİCİ İŞLƏR NAZİRİ QAZAXISTAN PREZİDENTİ İLƏ GÖRÜŞMÜŞDÜR 132

AZƏRBAYCAN İLƏ QAZAXISTAN ARASINDA ƏLAQƏLƏRİN DAHA DA İNKİŞAF ETDİRİLMƏSİ MƏSƏLƏLƏRİ MÜZAKİRƏ OLUNMUŞDUR 133

AZƏRBAYCAN RESPUBLİKASI HÖKUMƏTİ VƏ QAZAXISTAN RESPUBLİKASI HÖKUMƏTİ ARASINDA AZƏRBAYCAN RESPUBLİKASININ VƏ QAZAXISTAN RESPUBLİKASININ VƏTƏNDAŞLARININ QARŞILIQLI VİZASIZ GEDİŞ-GƏLİŞİ HAQQINDA 10 İYUN 1997-Cİ İL TARİXLİ SAZİŞƏ PROTOKOL 133

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV POLŞANIN XARİCİ İŞLƏR NAZİRİ ANNA FOTİQANIN RƏHBƏRLİK ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİNİ QƏBUL ETMİŞDİR 135

AZƏRBAYCAN RESPUBLİKASI XARİCİ İŞLƏR NAZİRLİYİ VƏ POLŞA RESPUBLİKASI XARİCİ İŞLƏR NAZİRLİYİ ARASINDA 2007-2008-Cİ İLLƏR ÜÇÜN AVROPAYA İNTEQRASİYA ÜZRƏ ƏMƏKDAŞLIQ HAQQINDA MEMORANDUM 135

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV RUSİYANIN TƏHSİL VƏ ELM NAZİRİ ANDREY FURSENKONU QƏBUL ETMİŞDİR 137

BMT AZƏRBAYCANIN DONOR DÖVLƏTƏ ÇEVRİLMƏK SƏYLƏRİNİ YÜKSƏK QİYMƏTLƏNDİRİR 137

AZƏRBAYCANIN XARİCİ İŞLƏR NAZİRİ ELMAR MƏMMƏDYAROV POLŞANIN XARİCİ İŞLƏR NAZİRİ XANIM ANNA FOTIQA İLƏ GÖRÜŞMÜŞDÜR . 138

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV TÜRKİYƏNİN QURU QOŞUNLARI KOMANDANI İLKER BAŞBUĞUN RƏHBƏRLİK ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİNİ QƏBUL ETMİŞDİR 139

AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ ATƏT-İN MİNSK QRUPUNUN FRANSALI HƏMSƏDRİNİ QƏBUL ETMİŞDİR 139

XARİCİ İŞLƏR NAZİRİ UNİCEF-İN REGİONAL DİREKTORU İLƏ GÖRÜŞMÜŞDÜR 140

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV BELARUS RESPUBLİKASININ FÖVQƏLADƏ HALLAR NAZİRİ ƏNVƏR BARİYEVİ QƏBUL ETMİŞDİR 140

CENEVRƏDƏ AZƏRBAYCAN VƏ ERMƏNİSTAN XARİCİ İŞLƏR NAZİRLƏRİNİN NÖVBƏTİ GÖRÜŞÜ KEÇİRİLMİŞDİR 141

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV NATO BAŞ KATİBİNİN CƏNUBİ QAFQAZ VƏ ORTA ASİYA ÜZRƏ XÜSUSİ NÜMAYƏNDƏSİ ROBERT SİMMONSU QƏBUL ETMİŞDİR 141

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN TACİKİSTAN RESPUBLİKASINA RƏSMİ SƏFƏRİ 141

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN VƏ TACİKİSTAN PREZİDENTİ EMOMƏLİ RƏHMONOVUN TƏKBƏTƏK GÖRÜŞÜ 141

DÖVLƏT BAŞÇILARININ GENİŞ TƏRKİBDƏ GÖRÜŞÜ 142

SƏNƏDLƏRİN İMZALANMA MƏRASİMİ 146

TACİKİSTAN PREZİDENTİ EMOMƏLİ RƏHMONOVUN BƏYANATI 147

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN BƏYANATI 148

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV TACİKİSTANIN BAŞ NAZİRİ AKİL AKİLOVU QƏBUL ETMİŞDİR 153

DÖVLƏTİMİZİN BAŞÇISININ ŞƏRƏFİNƏ RƏSMİ QƏBUL 154

TACİKİSTAN PREZİDENTİ EMOMƏLİ RƏHMONOVUN NİTQİ 154

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN NİTQİ 154

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN TACİKİSTANIN MİLLİ MƏCLİSİNİN SƏDRİ MAHMADSAİD UBAYDULLOYEV İLƏ GÖRÜŞÜ 155

ATƏT-İN MİNSK QRUPUNUN HƏMSƏDRLƏRİ AZƏRBAYCAN VƏ ERMƏNİSTAN XARİCİ İŞLƏR NAZİRLƏRİNİN CENEVRƏ GÖRÜŞÜ BARƏDƏ BƏYANAT YAYMIŞLAR 156

AZƏRBAYCAN VƏ HİNDİSTAN ARASINDA TİCARƏT, İQTİSADİ VƏ ELMİ ƏMƏKDAŞLIQ ÜZRƏ HÖKUMƏTLƏRARASI İŞÇİ KOMİSSİYA YARADILACAQDIR 156

XARİCİ İŞLƏR NAZİRİNİN MÜAVİNİ ARAZ ƏZİMOV BRÜSSELƏ SƏFƏR ETMİŞDİR 157

ELMAR MƏMMƏDYAROV VƏ KONDOLİZA RAYS ENERJİ TƏHLÜKƏSİZLİYİ SAHƏSİNDƏ ƏMƏKDAŞLIĞA DAİR ANLAŞMA MEMORANDUMU İMZALAMIŞLAR 158

ABŞ VƏ AZƏRBAYCAN ENERJİ TƏHLÜKƏSİZLİYİ MƏSƏLƏLƏRİ ÜZRƏ BİRGƏ QRUP YARADACAQLAR 160

AZƏRBAYCAN XARİCİ İŞLƏR NAZİRİNİN BMT BAŞ KATİBİ İLƏ GÖRÜŞÜNDƏ DAĞLIQ QARABAĞ MÜNAQİŞƏSİN TƏNZİMLƏNMƏSİ PROBLEMİ MÜZAKİRƏ EDİLMİŞDİR 161

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN MOSKVAYA SƏFƏRİ 161

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN VƏ RUSİYA PREZİDENTİ VLADİMİR PUTİNİN GÖRÜŞÜ 162

ÇİN AZƏRBAYCANLA ƏLAQƏLƏRİN İNKİŞAFINDA MARAQLIDIR 162

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV RUSİYA FEDERAL MƏCLİSİ FEDERASİYA ŞURASININ SƏDRİ SERGEY MİRONOVUN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİNİ QƏBUL ETMİŞDİR 163

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV BELARUSUN BAŞ NAZİRİ SERGEY SİDORSKİNİ QƏBUL ETMİŞDİR 163

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV ABŞ-IN "BECHTEL CORPORATION" ŞİRKƏTİNİN BAŞ VİTSE-PREZİDENTİ VƏ AVROPA, AFRİKA, YAXIN ŞƏRQ, CƏNUB-QƏRBİ ASİYA REGİONLARI ÜZRƏ PREZİDENTİ ÇARLZ REDMANI QƏBUL ETMİŞDİR 164

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV ABŞ-IN ATƏT-DƏKİ SƏFİRİ CULİ FİNLİNİN RƏHBƏRLİK ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİNİ QƏBUL ETMİŞDİR 164

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV QIRĞIZISTANIN MÜDAFİƏ NAZİRİ İSMAİL İSAKOVUN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİNİ QƏBUL ETMİŞDİR 165

POLŞA PREZİDENTİ LEX KAÇİNSKİNİN AZƏRBAYCANA RƏSMİ SƏFƏRİ 165

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN VƏ POLŞA PREZİDENTİ LEX KAÇİNSKİNİN TƏKBƏTƏK GÖRÜŞÜ 165

DÖVLƏT BAŞÇILARININ GENİŞ TƏRKİBDƏ GÖRÜŞÜ 165

AZƏRBAYCAN VƏ POLŞA PREZİDENTLƏRİ BİRGƏ BƏYANNAMƏ İMZALAMIŞLAR 166

AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN VƏ POLŞA RESPUBLİKASI PREZİDENTİNİN BİRGƏ BƏYANATI 166

BİRGƏ MƏTBUAT KONFRANSI 169

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN BƏYANATI 169

POLŞA PREZİDENTİ LEX KAÇİNSKİNİN BƏYANATI 170

HEYDƏR ƏLİYEV FONDU İLƏ TANIŞLIQ 172

ALİ QONAĞIN ŞƏRƏFİNƏ 173

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN NİTQİ 173

POLŞA PREZİDENTİ LEX KAÇİNSKİNİN NİTQİ 174

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV BMT BAŞ KATİBİNİN MƏCBURİ KÖÇKÜNLƏRİN İNSAN HÜQUQLARI ÜZRƏ NÜMAYƏNDƏSİ VALTER KALİNİN RƏHBƏRLİK ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİNİ QƏBUL ETMİŞDİR 176

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV ABŞ KONQRESMENİ PİT HOEKSTRANIN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİNİ QƏBUL ETMİŞDİR 176

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV GÜRCÜSTANIN BAŞ NAZİRİ ZURAB NOĞAİDELİNİ QƏBUL ETMİŞDİR 177

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV QAZAXISTANIN BAŞ NAZİRİ KARİM MASİMOVU QƏBUL ETMİŞDİR 177

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV TÜRKİYƏNİN RADİO TELEVİZİYA ALİ ŞURASININ SƏDRİ ZAHİD AKMANI QƏBUL ETMİŞDİR 177

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV TÜRKİYƏNİN ƏTRAF MÜHİTİN MÜHAFİZƏSİ VƏ MEŞƏ TƏSƏRRÜFATI NAZİRİ OSMAN PEPENİ QƏBUL ETMİŞDİR 178

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV RUSİYA FEDERASİYASININ REGİONAL İNKİŞAF NAZİRİ VLADİMİR YAKOVLEVİ QƏBUL ETMİŞDİR 178

BMT AZƏRBAYCAN HÖKUMƏTİNİN QAÇQIN VƏ MƏCBURİ KÖÇKÜNLƏRİN VƏZİYYƏTİNİN YAXŞILAŞDIRILMASINA DAİR SİYASƏTİNİ YÜKSƏK QİYMƏTLƏNDİRİR 178

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN AVROPA OLİMPİYA KOMİTƏSİNİN PREZİDENTİ PATRİK HİKEY İLƏ GÖRÜŞÜ 179

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV TÜRKİYƏNİN "MƏRMƏRƏ QRUPU"NUN RƏHBƏRİ AKKAN SUVERİ QƏBUL ETMİŞDİR 179

AZƏRBAYCAN RESPUBLİKASINA QAYIDIŞ ŞƏHADƏTNAMƏSİNİN VERİLMƏSİ QAYDASI HAQQINDA ƏSASNAMƏNİN TƏSDİQ EDİLMƏSİ AZƏRBAYCAN RESPUBLİKASININ QANUNU 180

AZƏRBAYCAN RESPUBLİKASINA QAYIDIŞ ŞƏHADƏTNAMƏSİNİN VERİLMƏSİ QAYDASI HAQQINDA ƏSASNAMƏ 180

PREZİDENT İLHAM ƏLİYEVİN İORDANİYAYA QARŞIDAKI SƏFƏRİDƏN SONRA AZƏRBAYCAN-İORDANİYA ƏLAQƏLƏRİ DAHA YÜKSƏK SƏVİYYƏYƏ QALXACAQDIR 182

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV HİNDİSTANIN TİCARƏT ÜZRƏ DÖVLƏT NAZİRİ CAİRAM RAMEŞİN RƏHBƏRLİK ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİNİ QƏBUL ETMİŞDİR 184

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV CƏNUBİ QAFQAZ ÖLKƏLƏRİNİN RUSİYALI HƏMVƏTƏNLƏR TƏŞKİLATLARININ BAKIDA KEÇİRİLƏN REGİONAL KONFRANSININ İŞTİRAKÇILARINI QƏBUL ETMİŞDİR 184

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV BÖYÜK BRİTANİYANIN İNGİLTƏRƏ-AZƏRBAYCAN CƏMİYYƏTİNİN SƏDRİ LORD FREYZERİN RƏHBƏRLİK ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİNİ QƏBUL ETMİŞDİR 187

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV RUSİYA FEDERASİYASI KURQAN VİLAYƏTİNİN QUBERNATORU OLEQ BOQOMOLOVU QƏBUL ETMİŞDİR 187

SURİYA BAKI-TBİLİSİ-QARS LAYİHƏSİNƏ MARAQ GÖSTƏRİR 188

LİVAN DAĞLIQ QARABAĞ MÜNAQİŞƏSİNİN BEYNƏLXALQ HÜQUQUN PRİNSİPLƏRİNƏ ƏSASƏN SÜLH YOLU HƏLLİNƏ TƏRƏFDARDIR 189

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV LATVİYANIN XARİCİ İŞLƏR NAZİRİ ARTİS PABRİKSİN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİNİ QƏBUL ETMİŞDİR 189

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV BP ŞİRKƏTİNİN KƏŞFİYYAT VƏ HASİLAT İŞLƏRİ ÜZRƏ BAŞ İCRAÇI DİREKTORU ENDİ İNQLİSİ QƏBUL ETMİŞDİR 190

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN KOREYA RESPUBLİKASININ "JOONG ANG LİBO" QƏZETİNİN MÜXBİRİ YU ÇU ÇONA MÜSAHİBƏSİ 190

İSRAİLLİ DEPUTATLAR AZƏRBAYCANDA YƏHUDİ İCMASININ FƏALİYYƏTİ ÜÇÜN YARADILMIŞ ŞƏRAİTDƏN MƏMNUNDURLAR 195

AVROPAYA İNTEQRASİYA ETMƏK İSTƏYƏN BİR ÖLKƏNİN TƏCAVÜZKARLIQ VƏ ETNİK TƏMİZLƏMƏ SİYASƏTİ HƏYATA KEÇİRMƏSİ YOLVERİLMƏZDİR 196

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV QAZAXISTANIN MANGİSTAU VİLAYƏTİNİN HAKİMİ KRİMBEK KUŞERBAYEVİ QƏBUL ETMİŞDİR 196

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV AVSTRİYANIN OMV ŞİRKƏTİNİN İCRAİYYƏ ŞURASININ SƏDRİ VOLFQANQ RUTTENSTORFERİ QƏBUL ETMİŞDİR 197

BELQRADDA AZƏRBAYCAN VƏ ERMƏNİSTAN XARİCİ İŞLƏR NAZİRLƏRİNİN NÖVBƏTİ GÖRÜŞÜ KEÇİRİLMİŞDİR 197

AZƏRBAYCAN RESPUBLİKASI XARİCİ İŞLƏR NAZİRLİYİNİN MƏTBUAT MƏRKƏZİNİN MƏLUMATI 198

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN KOREYA RESPUBLİKASINA DÖVLƏT SƏFƏRİ 198

DÖVLƏT BAŞÇILARININ GENİŞ TƏRKİBDƏ GÖRÜŞÜ 199

SƏNƏDLƏRİN İMZALANMA MƏRASİMİ 199

AZƏRBAYCAN RESPUBLİKASI VƏ KOREYA RESPUBLİKASI ARASINDA BİRGƏ BƏYANAT 200

AZƏRBAYCAN RESPUBLİKASI HÖKUMƏTİ VƏ KOREYA RESPUBLİKASI HÖKUMƏTİ ARASINDA SƏRMAYƏLƏRİN TƏŞVİQİ VƏ QORUNMASI HAQQINDA SAZİŞ 202

AZƏRBAYCAN RESPUBLİKASININ NƏQLİYYAT NAZİRLİYİ VƏ KOREYA RESPUBLİKASININ TİKİNTİ VƏ NƏQLİYYAT NAZİRLİYİ ARASINDA ŞƏHƏR NƏQLİYYATI ƏMƏLİYYATLARINI İNTELLEKTUAL İDARƏETMƏ SİSTEMİNİN YARADILMASI SAHƏSİNDƏ ANLAŞMA MEMORANDUMU 208

AZƏRBAYCAN RESPUBLİKASI RABİTƏ VƏ İNFORMASİYA TEXNOLOGİYALARI NAZİRLİYİ İLƏ KOREYA RESPUBLİKASI İNFORMASİYA VƏ RABİTƏ NAZİRLİYİ ARASINDA ELEKTRON HÖKUMƏTİN FORMALAŞDIRILMASI SAHƏSİNDƏ ƏMƏKDAŞLIQ ÜZRƏ ANLAŞMA MEMORANDUMU 210

AZƏRBAYCAN RESPUBLİKASININ FÖVQƏLADƏ HALLAR NAZİRLİYİ VƏ KOREYA RESPUBLİKASININ FÖVQƏLADƏ HALLARIN İDARƏ OLUNMASI MİLLİ AGENTLİYİ ARASINDA FÖVQƏLADƏ HALLARIN İDARƏ OLUNMASI SAHƏSİNDƏ ƏMƏKDAŞLIQ HAQQINDA ANLAŞMA MEMORANDUMU 212

AZƏRBAYCAN RESPUBLİKASININ DÖVLƏT NEFT ŞİRKƏTİ İLƏ KOREYA RESPUBLİKASININ MİLLİ NEFT KORPORASİYASI ARASINDA ANLAŞMA MEMORANDUMU 214

BİRGƏ MƏTBUAT KONFRANSI 215

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV DÜNYA TAEKVONDO FEDERASİYASININ PREZİDENTİNİ QƏBUL ETMİŞDİR 216

ALİ QONAĞIN ŞƏRƏFİNƏ 216

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVƏ KYUNQ Hİ UNİVERSİTETİNİN FƏXRİ DOKTORU ADI VERİLMİŞDİR 217

SEULDA NƏQLİYYATIN HƏRƏKƏTİNİN İDARƏ EDİLMƏSİNİN İNTELLEKTUAL SİSTEMİ İLƏ TANIŞLIQ 218

KYONBOKKUN SARAY KOMPLEKSİ İLƏ TANIŞLIQ XOŞ TƏƏSSÜRAT DOĞURDU 218

AZƏRBAYCAN-CƏNUBİ KOREYA BİZNES FORUMU KEÇİRİLMİŞDİR 219

AZƏRBAYCAN PREZİDENTİ CƏNUBİ KOREYADA YENİ ŞƏHƏRLƏRİN SALINMASI LAYİHƏLƏRİNİ YÜKSƏK QİYMƏTLƏNDİRMİŞDİR 220

AZƏRBAYCAN PREZİDENTİ PUSAN ŞƏHƏRİNƏ GƏLMİŞDİR 220

PUSAN ŞƏHƏRİNİN MERİ İLƏ GÖRÜŞ 221

ALİ QONAĞIN ŞƏRƏFİNƏ 221

PUSAN ŞƏHƏRİNDƏ YENİ DƏNİZ LİMANI İLƏ TANIŞLIQ 221

STX KORPORASİYASI GƏMİQAYIRMA SAHƏSİNDƏ DÜNYADA LİDERLƏRDƏN BİRİDİR 222

SƏFƏR BAŞA ÇATDI 222

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV İSLAM KONFRANSI TƏŞKİLATININ BAŞ KATİBİ EKMƏLƏDDİN İHSANOĞLUNU QƏBUL ETMİŞDİR 222

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV İSESKO-NUN BAŞ DİREKTORUNU QƏBUL ETMİŞDİR 223

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV RUMİNİYANIN SABİQ PREZİDENTİ VƏ SOSİAL DEMOKRAT PARTİYASININ FƏXRİ SƏDRİ İON İLİESKUNU QƏBUL ETMİŞDİR 223

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV TÜRKİYƏ PARLAMENTİNİN KEÇMİŞ SƏDRİ HİKMƏT ÇƏTİNİ QƏBUL ETMİŞDİR 224

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV BMT-NİN FİKİR VƏ SÖZ AZADLIĞI HÜQUQUNUN TƏŞVİQİ VƏ QORUNMASI ÜZRƏ XÜSUSİ MƏRUZƏÇİSİ AMBEYİ LİQABONU QƏBUL ETMİŞDİR 224

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV GÖRKƏMLİ QAZAX ŞAİRİ, ALİM VƏ İCTİMAİ-SİYASİ XADİMİ OLJAS SÜLEYMENOVU QƏBUL ETMİŞDİR 224

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV ATƏT-İN MƏTBUAT AZADLIĞI ÜZRƏ NÜMAYƏNDƏSİ MİKLOŞ HARAŞTİNİ QƏBUL ETMİŞDİR 225

"AZƏRBAYCAN RESPUBLİKASINA QAYIDIŞ ŞƏHADƏTNAMƏSİNİN VERİLMƏSİ QAYDASI HAQQINDA ƏSASNAMƏNİN TƏSDİQ EDİLMƏSİ BARƏDƏ" AZƏRBAYCAN RESPUBLİKASI QANUNUNUN TƏTBİQ EDİLMƏSİ HAQQINDA AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN FƏRMANI 225

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV İSLAM KONFRANSI TƏŞKİLATI GƏNCLƏR FORUMUNUN PREZİDENTİ ƏLİ SARIKAYANIN RƏHBƏRLİK ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİNİ QƏBUL ETMİŞDİR 226

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV ZƏMANƏMİZİN GÖRKƏMLİ MUSİQİÇİSİ MAESTRO MSTİSLAV ROSTROPOVİÇİN DƏFN MƏRASİMİNDƏ İŞTİRAK ETMİŞDİR 226

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV DAĞISTAN NÜMAYƏNDƏ HEYƏTİNİ QƏBUL ETMİŞDİR 227

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV GÜRCÜSTANIN BAŞ PROKURORU ZURAB ADEİŞVİLİNİN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİNİ QƏBUL ETMİŞDİR 228

NATO İLƏ AZƏRBAYCAN ARASINDA ƏMƏKDAŞLIĞA DAİR FƏRDİ TƏRƏFDAŞLIĞIN ƏMƏLİYYAT PLANININ İCRASININ QİYMƏTLƏNDİRİLMƏSİ ÜZRƏ NÖVBƏTİ GÖRÜŞ KEÇİRİLMİŞDİR 229

BRÜSSELDƏ AZƏRBAYCANIN AVROPA İTTİFAQI İLƏ ƏLAQƏLƏRİNƏ DAİR MÜZAKİRƏLƏR APARILMIŞDIR 229

BELARUS PREZİDENTİ ALEKSANDR LUKAŞENKO AZƏRBAYCANA RƏSMİ SƏFƏRİ 230

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN VƏ BELARUS PREZİDENTİ ALEKSANDR LUKAŞENKONUN TƏKBƏTƏK GÖRÜŞÜ 230

DÖVLƏT BAŞÇILARININ GENİŞ TƏRKİBDƏ GÖRÜŞÜ 230

SƏNƏDLƏRİN İMZALANMASI 232

AZƏRBAYCAN RESPUBLİKASI VƏ BELARUS RESPUBLİKASI ARASINDA DOSTLUQ VƏ ƏMƏKDAŞLIQ HAQQINDA MÜQAVİLƏ 233

AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ YANINDA QİYMƏTLİ KAĞIZLAR ÜZRƏ DÖVLƏT KOMİTƏSİ VƏ BELARUS RESPUBLİKASININ MALİYYƏ NAZİRLİYİ ARASINDA ƏMƏKDAŞLIQ HAQQINDA SAZİŞ 238

AZƏRBAYCAN RESPUBLİKASININ MİLLİ BANKI VƏ BELARUS RESPUBLİKASININ MİLLİ BANKI ARASINDA ƏMƏKDAŞLIQ HAQQINDA SAZİŞ 240

AZƏRBAYCAN RESPUBLİKASININ DÖVLƏT ƏMLAKININ İDARƏ EDİLMƏSİ ÜZRƏ DÖVLƏT KOMİTƏSİ VƏ BELARUS RESPUBLİKASININ DÖVLƏT ƏMLAK KOMİTƏSİ ARASINDA DÖVLƏT ƏMLAKININ İDARƏ EDİLMƏSİ VƏ ÖZƏLLƏŞDİRİLMƏSİ SAHƏSİNDƏ ƏMƏKDAŞLIĞA DAİR SAZİŞ 242

AZƏRBAYCAN RESPUBLİKASININ STANDARTLAŞDIRMA, METROLOGİYA VƏ PATENT ÜZRƏ DÖVLƏT AGENTLİYİ VƏ BELARUS RESPUBLİKASININ STANDARTLAŞDIRMA ÜZRƏ DÖVLƏT KOMİTƏSİ ARASINDA STANDARTLAŞDIRMA, METROLOGİYA, UYĞUNLUĞUN QİYMƏTLƏNDİRİLMƏSİ VƏ AKKREDİTASİYA SAHƏSİNDƏ ƏMƏKDAŞLIQ HAQQINDA SAZİŞ 244

AZƏRBAYCAN MİLLİ ELMLƏR AKADEMİYASI İLƏ BELARUS MİLLİ ELMLƏR AKADEMİYASI ARASINDA 2007-2010 İLLƏR ÜZRƏ ELMİ ƏMƏKDAŞLIQ PROQRAMI 248

DÖVLƏT BAŞÇILARININ BİRGƏ MƏTBUAT KONFRANSI 251

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN BƏYANATI 251

BELARUS PREZİDENTİ ALEKSANDR LUKAŞENKONUN BƏYANATI 252

ALİ QONAĞIN ŞƏRƏFİNƏ 254

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN NİTQİ 255

BELARUS PREZİDENTİ ALEKSANDR LUKAŞENKONUN NİTQİ 257

SƏFƏR BAŞA ÇATDI 259

XARİCİ İŞLƏR NAZİRİNİN MƏRAKEŞ KRALLIĞINA RƏSMİ SƏFƏRİ 259

AZƏRBAYCAN RESPUBLİKASI HÖKUMƏTİ VƏ MƏRAKEŞ KRALLIĞI HÖKUMƏTİ ARASINDA İKİTƏRƏFLİ ƏMƏKDAŞLIQ ÜZRƏ BİRGƏ KOMİSSİYANIN TƏSİS EDİLMƏSİ HAQQINDA ANLAŞMA MEMORANDUMU 260

AZƏRBAYCAN RESPUBLİKASI HÖKUMƏTİ VƏ MƏRAKEŞ KRALLIĞI HÖKUMƏTİ ARASINDA DİPLOMATİK, RƏSMİ, XİDMƏTİ VƏ XÜSUSİ PASPORTLARA MALİK VƏTƏNDAŞLARIN VİZASIZ GEDİŞ GƏLİŞİ HAQQINDA SAZİŞ 262

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV ALMANİYANIN LÜDVİQSHAFEN ŞƏHƏRİNİN NÜMAYƏNDƏ HEYƏTİNİ QƏBUL ETMİŞDİR 264

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN MİSİRƏ RƏSMİ SƏFƏRİ 265

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN VƏ MİSİR PREZİDENTİ HÜSNİ MÜBARƏKİN TƏKBƏTƏK GÖRÜŞÜ 265

AZƏRBAYCAN VƏ MİSİR PREZİDENTLƏRİNİN GENİŞ TƏRKİBDƏ GÖRÜŞÜ 265

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV "ƏZHƏRİ ŞƏRİF" UNİVERSİTETİNİN REKTORU İLƏ GÖRÜŞMÜŞDÜR 266

PREZİDENT İLHAM ƏLİYEV AZƏRBAYCANIN MİSİRDƏKİ SƏFİRLİYİNİN YENİ BİNASININ AÇILIŞINDA İŞTİRAK ETMİŞDİR 266

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN MİSİR XALQ MƏCLİSİNİN SƏDRİ ƏHMƏD FƏTHİ SÜRUR İLƏ GÖRÜŞÜ 267

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN MİSİRİN BAŞ NAZİRİ ƏHMƏD NAZİF İLƏ GÖRÜŞÜ 268

SƏNƏDLƏRİN İMZALANMASI 268

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN ƏRƏB DÖVLƏTLƏRİ CƏMİYYƏTİNİN BAŞ KATİBİ ƏMR MUSA İLƏ GÖRÜŞÜ 269

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN MİSİRİN BEYNƏLXALQ ƏMƏKDAŞLIQ NAZİRİ İLƏ GÖRÜŞÜ 270

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN MİSİRİN MENA AGENTLİYİNƏ MÜSAHİBƏSİ 270

SƏFƏR BAŞA ÇATDI 272

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV TÜRKİYƏNİN KONSTİTUSİYA MƏHKƏMƏSİNİN SƏDRİ TÜLAY TUĞCUNUN RƏHBƏRLİK ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİNİ QƏBUL ETMİŞDİR 272

AZƏRBAYCANIN XARİCİ İŞLƏR NAZİRİ AVROPA ŞURASI NAZİRLƏR KOMİTƏSİNİN İCLASINDA İŞTİRAK ETMİŞDİR 272

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN POLŞAYA İŞGÜZAR SƏFƏRİ 274

AZƏRBAYCAN, UKRAYNA VƏ GÜRCÜSTAN PREZİDENTLƏRİNİN ÜÇTƏRƏFLİ GÖRÜŞÜ 274

VAVEL QƏSRİNƏ GƏLİŞ VƏ ENERJİ SAMMİTİNİN AÇILIŞI 274

SAMMİTİN YEKUNLARINA DAİR MƏTBUAT KONFRANSI 275

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN ÇIXIŞI 276

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN POLŞAYA İŞGÜZAR SƏFƏRİ BAŞA ÇATMIŞDIR 278

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN GÜRCÜSTANA SƏFƏRİ 278

GÜRCÜSTAN PREZİDENTİ MİXAİL SAAKAŞVİLİNİN NİTQİ 278

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN NİTQİ 280

SƏFƏR BAŞA ÇATMIŞDIR 282

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV BOLQARISTANIN ƏDLİYYƏ NAZİRİ GEORGİ PETKANOVUN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİNİ QƏBUL ETMİŞDİR 282

İSLAMABADDA İSLAM KONFRANSI TƏŞKİLATI XARİCİ İŞLƏR NAZİRLƏRİ ŞURASININ 34-CÜ SESSİYASI KEÇİRİLİR 283

PAKİSTAN PREZİDENTİ AZƏRBAYCANIN XARİCİ İŞLƏR NAZİRİNİ QƏBUL ETMİŞDİR 283

AZƏRBAYCANIN XARİCİ İŞLƏR NAZİRİ İSLAMABADDA BİR NEÇƏ İKİTƏRƏFLİ GÖRÜŞLƏR KEÇİRMİŞDİR 284

İSLAMABADDA İSLAM KONFRANSI TƏŞKİLATI XARİCİ İŞLƏR NAZİRLƏRİNİN 34-CÜ SESSİYASI İŞİNİ YEKUNLAŞDIRMIŞDIR 284

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV "HESS KORPORASİYASI"NIN İDARƏ HEYƏTİNİN SƏDRİ VƏ BAŞ İCRAÇI RƏHBƏRİ CON HESSİN RƏHBƏRLİK ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİNİ QƏBUL ETMİŞDİR 285

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV NATO PARLAMENT ASSAMBLEYASI SƏDRİNİN MÜAVİNİ, RUMINIYA PARLAMENTİNİN NATO PA-DAKI NÜMAYƏNDƏ HEYƏTİNİN RƏHBƏRİ MİHAİL LUPOİNİN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİNİ QƏBUL ETMİŞDİR 285

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN FRANSANIN "LA LETTRE DİPLOMATİQUE" JURNALINA MÜSAHİBƏSİ 285

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV MACARISTANIN XARİCİ İŞLƏR NAZİRİ KİNQA GÖNTSİN RƏHBƏRLİK ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİNİ QƏBUL ETMİŞDİR 295

AZƏRBAYCAN RESPUBLİKASININ İQTİSADİ İNKİŞAF NAZİRLİYİ VƏ MACARISTAN RESPUBLİKASININ İQTİSADİYYAT VƏ NƏQLİYYAT NAZİRLİYİ ARASINDA ƏMƏKDAŞLIQ HAQQINDA SAZİŞ 295

AZƏRBAYCAN RESPUBLİKASI VƏ MACARISTAN RESPUBLİKASI ARASINDA SƏRMAYƏLƏRİN TƏŞVİQİ VƏ QARŞILIQLI QORUNMASI HAQQINDA SAZİŞ 297

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV RUSİYA FEDERASİYASININ XARİCİ İŞLƏR NAZİRİ SERGEY LAVROVU QƏBUL ETMİŞDİR 306

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV FRANSA-QAFQAZ DOSTLUQ QRUPUNUN SƏDRİ, SENATOR AMBRUAZ DÜPONUN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİNİ QƏBUL ETMİŞDİR 307

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV ALMANİYANIN "VİNTERŞAL" SƏHMDAR CƏMİYYƏTİNİN İDARƏ HEYƏTİNİN SƏDRİ RAYNER SVİTSERLOTUN RƏHBƏRLİK ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİNİ QƏBUL ETMİŞDİR 308

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV TÜRKİYƏNİN SARIYER BƏLƏDİYYƏSİNİN SƏDRİ YUSUF TÜLÜNÜN RƏHBƏRLİK ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİNİ QƏBUL ETMİŞDİR 308

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV ABŞ DÖVLƏT KATİBİNİN İQTİSADİ VƏ TİCARƏT MƏSƏLƏLƏRİ ÜZRƏ XÜSUSİ NÜMAYƏNDƏSİ FRENK MERMUDUN RƏHBƏRLİK ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİNİ QƏBUL ETMİŞDİR 308

XARİCİ İŞLƏR NAZİRİ ELMAR MƏMMƏDYAROV TÜRKMƏNİSTANDA SƏFƏRDƏ OLMUŞDUR 309

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV MOSKVA DÖVLƏT UNİVERSİTETİNİN REKTORU VİKTOR SADOVNİÇİNİ QƏBUL ETMİŞDİR 310

AZƏRBAYCAN RESPUBLİKASININ MİLLİ TƏHLÜKƏSİZLİK KONSEPSİYASININ TƏSDİQ EDİLMƏSİ HAQQINDA AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI 310

AZƏRBAYCAN RESPUBLİKASININ MİLLİ TƏHLÜKƏSİZLİK KONSEPSİYASI 312

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV ATƏT-İN MİNSK QRUPUNUN FRANSALI HƏMSƏDRİ BERNAR FASYE VƏ RUSİYALI HƏMSƏDRİ YURİ MERZLYAKOVU QƏBUL ETMİŞDİR 336

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV İRANIN EKOLOGİYA KOMİTƏSİNİN SƏDRİ, İRAN PREZİDENTİNİN EKOLOGİYA MƏSƏLƏLƏRİ ÜZRƏ MÜAVİNİ, DOKTOR VAEZ CAVADİNİ QƏBUL ETMİŞDİR 336

YALTADA MDB HÖKUMƏT BAŞÇILARI ŞURASININ NÖVBƏTİ İCLASI BAŞA ÇATMIŞDIR 336

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV LUVR MUZEYİNİN DİREKTORU ANRİ LUARETİ QƏBUL ETMİŞDİR 337

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV ABŞ VİTSE-PREZİDENTİNİN MİLLİ TƏHLÜKƏSİZLİK MƏSƏLƏLƏRİ ÜZRƏ MÜŞAVİRİ COZEF VUDU QƏBUL ETMİŞDİR 337

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV "SİEMENS" SƏHMDAR CƏMİYYƏTİNİN MƏRKƏZİ İDARƏ HEYƏTİNİN ÜZVÜ RUDİ LAMPREXTİ QƏBUL ETMİŞDİR 337

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV "TRANSPARENCY İNTERNATİONAL" TƏŞKİLATININ SƏDRİ HÜGET LABELİ QƏBUL ETMİŞDİR 338

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV "GLOBAL STEEL" ŞİRKƏTİNİN PREZİDENTİ PROMOD MİTTALI QƏBUL ETMİŞDİR 338

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV ALMANİYANIN MAYNS ŞƏHƏR BƏLƏDİYYƏSİNİN BAŞÇISI JENS BEUTELİN RƏHBƏRLİK ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİNİ QƏBUL ETMİŞDİR 339

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV MDB YƏHUDİ İCMALARI FEDERASİYASININ PREZİDENTİ LEV LEVAYEVİN RƏHBƏRLİK ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİNİ QƏBUL ETMİŞDİR 339

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV POLŞANIN DAXİLİ İŞLƏR VƏ ADMİNİSTRASİYA NAZİRİ YANUŞ KAÇMAREKİN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİNİ QƏBUL ETMİŞDİR 339

AZƏRBAYCAN NÜMAYƏNDƏ HEYƏTİNİN ÜÇ ÜZVÜ MDB PA-NIN "SODRUJESTVO" ORDENİ İLƏ TƏLTİF OLUNMUŞDUR 340

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV ATƏT-İN FƏALİYYƏTDƏ OLAN SƏDRİ, İSPANİYANIN XARİCİ İŞLƏR NAZİRİ MİGEL ANGEL MORATİNOS KUYAUBENİN RƏHBƏRLİK ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİNİ QƏBUL ETMİŞDİR 341

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV ABŞ-IN TİCARƏT NAZİRİNİN MÜAVİNİ DAVİD SAMPSONUN RƏHBƏRLİK ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİNİ QƏBUL ETMİŞDİR 342

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV NORVEÇİN DÖVLƏT KATİBİ, NEFT SƏNAYESİ VƏ ENERGETİKA NAZİRİNİN MÜAVİNİ XANIM ANİTA UTSETİN RƏHBƏRLİK ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİNİ QƏBUL ETMİŞDİR 342

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV MDB-NİN İCRAİYYƏ KOMİTƏSİNİN SƏDRİ - İCRAÇI KATİBİ VLADİMİR RUŞAYLONU QƏBUL ETMİŞDİR 343

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV ABŞ-IN DÖVLƏT KATİBİNİN AVROPA VƏ AVRASİYA MƏSƏLƏLƏRİ ÜZRƏ MÜŞAVİRİ, ATƏT-İN MİNSK QRUPUNUN AMERİKALI HƏMSƏDRİ MƏTYU BRAYZƏNİN RƏHBƏRLİK ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİNİ QƏBUL ETMİŞDİR 343

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV GÜRCÜSTANIN ENERGETİKA NAZİRİ NİKA GİLAURİNİ QƏBUL ETMİŞDİR 343

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV KÜVEYTİN XARİCİ NEFT TƏDQİQAT ŞİRKƏTİNİN SƏDRİ VƏ İDARƏETMƏ ÜZRƏ DİREKTORU BƏDR ƏL-XAŞTİNİ VƏ ABŞ-IN GFİ NEFT VƏ QAZ ŞİRKƏTİNİN PREZİDENTİ RİÇARD MAKDUQALI QƏBUL ETMİŞDİR 343

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV ATƏT-İN MİNSK QRUPUNUN HƏMSƏDRLƏRİNİ VƏ ATƏT-İN FƏALİYYƏTDƏ OLAN SƏDRİNİN XÜSUSİ NÜMAYƏNDƏSİNİ QƏBUL ETMİŞDİR 344

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV "CİTİGROUP"UN AVROPA REGİONU ÜZRƏ BAŞ İCRAÇI DİREKTORU UİNFRED BİŞOFUN RƏHBƏRLİK ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİNİ QƏBUL ETMİŞDİR 344

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV BÖYÜK BRİTANİYA PARLAMENTİ İCMALAR PALATASININ NÜMAYƏNDƏ HEYƏTİNİ QƏBUL ETMİŞDİR 344

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV "MİCROSOFT" ŞİRKƏTİNİN BAŞ VİTSE-PREZİDENTİ KREYQ MANDİNİN RƏHBƏRLİK ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİNİ QƏBUL ETMİŞDİR 345

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV ƏFQANISTANIN DAXİLİ İŞLƏR NAZİRİ ZƏRAR ƏHMƏD MUQBİLİN RƏHBƏRLİK ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİNİ QƏBUL ETMİŞDİR 346

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV BƏHREYNİN XARİCİ İŞLƏR NAZİRİ XALİD BİN ƏHMƏD BİN AL XƏLİFƏNİN RƏHBƏRLİK ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİNİ QƏBUL ETMİŞDİR 346

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV KÜVEYT BAŞ NAZİRİNİN MÜAVİNİ, XARİCİ İŞLƏR NAZİRİ ŞEYX MƏHƏMMƏD ƏS-SALİM ƏS-SABAHİN RƏHBƏRLİK ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİNİ QƏBUL ETMİŞDİR 347

DAĞISTAN PREZİDENTİ MUXU ƏLİYEVİN VƏ AZƏRBAYCANIN BAŞ NAZİRİ ARTUR RASİZADƏNİN GÖRÜŞÜ 347

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN SANKT-PETERBURQA SƏFƏRİ 348

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN VƏ ERMƏNİSTAN PREZİDENTİ ROBERT KOÇARYANIN GÖRÜŞÜ 348

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV MDB DÖVLƏT BAŞÇILARININ QEYRİ-RƏSMİ ZİRVƏ TOPLANTISINDA İŞTİRAK ETMİŞDİR 348

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN VƏ TÜRKMƏNİSTAN PREZİDENTİ QURBANQULU BERDİMƏHƏMMƏDOVUN GÖRÜŞÜ 349

AZƏRBAYCAN İLƏ İSRAİL ARASINDA ƏLAQƏLƏRİN İNKİŞAFI İLƏ BAĞLI MƏSƏLƏLƏR MÜZAKİRƏ OLUNMUŞDUR 349

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV YAPONİYANIN "NİKKEY" QƏZETİNİN MOSKVA BÜROSUNUN RƏHBƏRİ EYDZİ FURUKAVAYA MÜSAHİBƏ VERMİŞDİR 350

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV MƏŞHUR OPERA MÜĞƏNNİSİ, SSRİ XALQ ARTİSTİ YELENA OBRAZTSOVANI QƏBUL ETMİŞDİR 357

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN VƏ GÜRCÜSTAN PREZİDENTİ MİXAİL SAAKAŞVİLİNİN GÖRÜŞÜ 358

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN VƏ UKRAYNA PREZİDENTİ VİKTOR YUŞŞENKONUN GÖRÜŞÜ 358

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN VƏ POLŞA PREZİDENTİ LEX KAÇİNSKİNİN GÖRÜŞÜ 358

BAKIDA GUAM-POLŞA GÖRÜŞÜ KEÇİRİLMİŞDİR 359

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN VƏ LİTVA PREZİDENTİ VALDAS ADAMKUSUN GÖRÜŞÜ 360

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV BOLQARISTANIN VİTSE-PREZİDENTİNİ QƏBUL ETMİŞDİR 360

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV MOLDOVANIN BAŞ NAZİRİNİ QƏBUL ETMİŞDİR 360

PREZİDENT İLHAM ƏLİYEV YAPONİYA XARİCİ İŞLƏR NAZİRİNİN MÜAVİNİNİ QƏBUL ETMİŞDİR 361

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN VƏ RUMİNİYA PREZİDENTİ TRAYAN BESESKUNUN GÖRÜŞÜ 361

GUAM ÖLKƏLƏRİ DÖVLƏT BAŞÇILARININ ZİRVƏ GÖRÜŞÜNÜN AÇILIŞI 361

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN NİTQİ 362

UKRAYNA PREZİDENTİ VİKTOR YUŞŞENKONUN ÇIXIŞI 365

GÜRCÜSTAN PREZİDENTİ MİXAİL SAAKAŞVİLİNİN ÇIXIŞI 367

MOLDOVANIN BAŞ NAZİRİ VASİLE TARLEVİN ÇIXIŞI 370

POLŞA PREZİDENTİ LEX KAÇİNSKİNİN ÇIXIŞI 373

LİTVA PREZİDENTİ VALDAS ADAMKUSUN ÇIXIŞI 374

RUMİNİYA PREZİDENTİ TRAYAN BESESKUNUN ÇIXIŞI 376

BOLQARISTANIN VİTSE-PREZİDENTİ ANGEL MARİNİN ÇIXIŞI 378
ESTONİYA PARLAMENTİ SƏDRİNİN MÜAVİNİ KRİSTİİNA OYULANDIN ÇIXIŞI . 380
LATVİYANIN İQTİSADİYYAT NAZİRİ YURİ STRODSUN ÇIXIŞI 381
ABŞ DÖVLƏT KATİBİ MÜAVİNİNİN KÖMƏKÇİSİ DEVİD KREYMERİN ÇIXIŞI .. 383
GUAM-IN BAŞ KATİBİ VALERİ ÇEÇELAŞVİLİNİN ÇIXIŞI 384
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN YEKUN NİTQİ 385
GUAM-IN BAKI ZİRVƏ GÖRÜŞÜNDƏ ƏMƏKDAŞLIĞA DAİR SƏNƏDLƏR İMZALANMIŞDIR 387
GUAM-IN ÜZVÜ OLAN ÖLKƏLƏRİN DÖVLƏT VƏ HÖKUMƏT BAŞÇILARININ BİRGƏ MƏTBUAT KONFRANSI 388
ZİRVƏ GÖRÜŞÜ İŞTİRAKÇILARININ ŞƏRƏFİNƏ 393
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV ÜMUMRUSİYA DÖVLƏT TELERADİO ŞİRKƏTİNİN BAŞ DİREKTORU OLEQ DOBRODEYEVİ QƏBUL ETMİŞDİR. 393
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV AMERİKA BİRLƏŞMİŞ ŞTATLARININ LOS-ANCELES DAİRƏSİNİN ŞERİFİ LEROY BAKANI QƏBUL ETMİŞDİR. 393
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV GÜRCÜSTANIN KVEMO-KARTLİ REGİONUNUN QUBERNATORU ZURAB MELİKİŞVİLİNİN RƏHBƏRLİK ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİNİ QƏBUL ETMİŞDİR 394
AZƏRBAYCANIN XARİCİ İŞLƏR NAZİRİ İRAN PARLAMENTİNİN SƏDRİ İLƏ GÖRÜŞMÜŞDÜR 394
İRAN PREZİDENTİ AZƏRBAYCANIN XARİCİ İŞLƏR NAZİRİNİ QƏBUL ETMİŞDİR. 394
İRAN ERMƏNİSTAN-AZƏRBAYCAN, DAĞLIQ QARABAĞ MÜNAQİŞƏSİNİN AZƏRBAYCANIN ƏRAZİ BÜTÖVLÜYÜ ÇƏRÇİVƏSİNDƏ HƏLLİNİ DƏSTƏKLƏYİR 395
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV ABŞ-IN KEMBRİC ENERJİ TƏDQİQAT ASSOSİASİYASININ SƏDRİ DENİEL YERGİNİN RƏHBƏRLİK ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİNİ QƏBUL ETMİŞDİR 396
"BİR SƏFİRİN MANİFESTİ" – DİPLOMAT HAFİZ PAŞAYEVİN BAKI SLAVYAN UNİVERSİTETİNDƏ TƏQDİM OLUNAN YENİ KİTABI BELƏ ADLANIR. 396
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV İSTANBULA GƏLMİŞDİR. 397
QARA DƏNİZ İQTİSADİ ƏMƏKDAŞLIQ TƏŞKİLATININ ZİRVƏ GÖRÜŞÜ 397
QARA DƏNİZ İQTİSADİ ƏMƏKDAŞLIQ TƏŞKİLATININ ÜZVÜ OLAN ÖLKƏLƏRİN DÖVLƏT VƏ HÖKUMƏT BAŞÇILARININ ZİRVƏ GÖRÜŞÜNDƏ AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN ÇIXIŞI 398
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN VƏ TÜRKİYƏ PREZİDENTİ ƏHMƏD NECDƏT SEZƏRİN GÖRÜŞÜ 400

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN VƏ TÜRKİYƏNİN BAŞ NAZİRİ RƏCƏB TAYYİB ƏRDOĞANIN GÖRÜŞÜ 400
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN YUNİSEF-İN İCRAÇI DİREKTORU XANIM ANN VENEMAN İLƏ GÖRÜŞÜ 400
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN ALBANİYANIN BAŞ NAZİRİ SALİ BERİŞA İLƏ GÖRÜŞÜ 401
İSTANBULDA QİƏT ÖLKƏLƏRİ XARİCİ İŞLƏR NAZİRLƏRİNİN GÖRÜŞÜ KEÇİRİLMİŞDİR 401
İSTANBULDA "ŞƏRQ QƏRBLƏ QARŞILAŞIR: ENERJİ TƏHLÜKƏSİZLİYİNDƏ YENİ HÜDUDLAR" MÖVZUSUNDA 10-CU İLLİK KONFRANS KEÇİRİLMİŞDİR .. 402
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN ÇIXIŞI 403
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV AZƏRBAYCAN VƏ ERMƏNİSTANIN BİR QRUP ZİYALISINI QƏBUL ETMİŞDİR 407
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN VƏ RUSİYA PREZİDENTİ VLADİMİR PUTİNİN GÖRÜŞÜ 407
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV ABŞ KONQRESİNİN NÜMAYƏNDƏ HEYƏTİNİ QƏBUL ETMİŞDİR 408
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV AVROPA ŞURASI NAZİRLƏR KOMİTƏSİNİN "AQO" MONİTORİNQ QRUPUNUN NÜMAYƏNDƏ HEYƏTİNİ QƏBUL ETMİŞDİR 408
AŞPA AZƏRBAYCANDA TƏHSİL VƏ İNNOVASİYALAR SAHƏSİNDƏ HƏYATA KEÇİRİLƏN LAYİHƏLƏRİ YÜKSƏK QİYMƏTLƏNDİRİR 409
DİPLOMATİK XİDMƏT ƏMƏKDAŞLARININ TƏCRÜBƏ KEÇMƏ VƏ TƏYİN OLUNMA QAYDALARI 409
BEYNƏLXALQ TƏŞKİLATLAR ÖZ TORPAQLARINDAN DİDƏRGİN DÜŞMÜŞ İNSANLARIN HÜQUQLARININ MÜDAFİƏSİ ÜÇÜN SƏYLƏRİNİ ARTIRMALIDIRLAR 411
AZƏRBAYCAN RESPUBLİKASI XARİCİ İŞLƏR NAZİRLİYİNİN BƏYANATI 412
AZƏRBAYCAN RESPUBLİKASI XARİCİ İŞLƏR NAZİRLİYİNİN BƏYANATI 413
ERMƏNİSTAN RƏHBƏRLİYİ DAĞLIQ QARABAĞ MÜNAQİŞƏSİNİN TEZLİKLƏ HƏLLİ ÜÇÜN SİYASİ İRADƏ NÜMAYİŞ ETDİRMƏLİDİR 413
AŞQABADDA XƏZƏR DƏNİZİNİN HÜQUQİ STATUSUNA DAİR AZƏRBAYCAN VƏ TÜRKMƏNİSTAN TƏRƏFİ ARASINDA DANIŞIQLARIN NÖVBƏTİ RAUNDU BAŞA ÇATMIŞDIR 414
AZƏRBAYCAN VƏ RUSİYA TELEVİZİYA VƏ RADİO VERİLİŞLƏRİNİN QARŞILIQLI YAYIMLANMASINA DAİR RAZILIĞA GƏLMİŞLƏR 415
DİPLOMATİK NÜMAYƏNDƏLİK VƏ KONSULLUQLARDA ÇALIŞAN MÜHASİBLƏRİN BİRİNCİ MÜŞAVİRƏSİ KEÇİRİLMİŞDİR 415
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV RUSİYA FEDERASİYASI XARİCİ İŞLƏR NAZİRİNİN MÜAVİNİ SERGEY KİSLYAKIN RƏHBƏRLİK ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİNİ QƏBUL ETMİŞDİR 416

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV İORDANİYA KRALI DİVANININ SİYASİ XƏBƏRLƏR ÜZRƏ BAŞ MÜXBİRİ, İORDANİYA TELEVİZİYA VƏ RADİO KORPORASİYASININ BAŞ REDAKTORU VƏ PRODÜSERİ İMAN AKOURA MÜSAHİBƏ VERMİŞDİR 416
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN İORDANİYAYA RƏSMİ SƏFƏRİ . 416
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN VƏ İORDANİYA KRALI II ABDULLAHIN TƏKBƏTƏK GÖRÜŞÜ 417
SƏNƏDLƏRİN İMZALANMA MƏRASİMİ 417
AZƏRBAYCAN PREZİDENTİNİN ŞƏRƏFİNƏ RƏSMİ NAHAR 417
ƏMMAN ŞƏHƏR MERİYASINDA GÖRÜŞ 418
ƏMMAN BƏLƏDİYYƏSİNİN BAŞÇISI ÖMƏR ƏL-MƏƏNİNİN ÇIXIŞI 418
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN ÇIXIŞI 419
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVƏ İORDANİYA UNİVERSİTETİNİN FƏXRİ DOKTORU ADI VERİLMİŞDİR 421
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN NİTQİ 422
SƏFƏR BAŞA ÇATDI 426
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV ABŞ DÖVLƏT KATİBİNİN AVROPA VƏ MƏRKƏZİ ASİYA MƏSƏLƏLƏRİ ÜZRƏ MÜŞAVİRİ MƏTYU BRAYZANI QƏBUL ETMİŞDİR 426
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV YUNANISTANIN İNKİŞAF NAZİRİ DİMİTRİS SİUFASIN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİNİ QƏBUL ETMİŞDİR 426
XARİCİ İŞLƏR NAZİRİ ELMAR MƏMMƏDYAROV İLƏ ABŞ DÖVLƏT KATİBİNİN MÜAVİNLƏRİ BARRİ LOVENKRON VƏ DAN FRİD ARASINDA VİDEOKONFRANS OLMUŞDUR 427
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN QAZAXISTANA RƏSMİ SƏFƏRİ . 427
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN VƏ QAZAXISTAN PREZİDENTİ NURSULTAN NAZARBAYEVİN TƏKBƏTƏK GÖRÜŞÜ 427
GENİŞ TƏRKİBDƏ GÖRÜŞ 427
SƏNƏDLƏRİN İMZALANMA MƏRASİMİ 429
"AZƏRBAYCAN TELEVİZİYA VƏ RADİO VERİLİŞLƏRİ" QAPALI SƏHMDAR CƏMİYYƏTİ VƏ QAZAXISTAN TELEVİZİYA VƏ RADİO ŞİRKƏTİ ARASINDA ƏMƏKDAŞLIQ SAZİŞİ 429
BİRGƏ MƏTBUAT KONFRANSI 432
PREZİDENT NURSULTAN NAZARBAYEVİN BƏYANATI 432
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN BƏYANATI 433
BİRGƏ BƏYANNAMƏSİ 435
AZƏRBAYCAN PREZİDENTİNİN ŞƏRƏFİNƏ 437

QAZAXISTAN PREZİDENTİ NURSULTAN NAZARBAYEVİN NİTQİ 438
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN NİTQİ 439
PREZİDENT İLHAM ƏLİYEVİN QAZAXISTANIN BAŞ NAZİRİ KƏRİM MƏSİMOV İLƏ GÖRÜŞÜ 441
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN QAZAXISTAN SENATININ SƏDRİ QASIMCOMƏRD TOKAYEV İLƏ GÖRÜŞÜ 441
SƏFƏR BAŞA ÇATDI 442
TACİKİSTAN PREZİDENTİ EMOMƏLİ RƏHMONUN AZƏRBAYCANA RƏSMİ SƏFƏRİ 442
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN VƏ TACİKİSTAN PREZİDENTİ EMOMƏLİ RƏHMONUN TƏKBƏTƏK GÖRÜŞÜ 442
DÖVLƏT BAŞÇILARININ GENİŞ TƏRKİBDƏ GÖRÜŞÜ 442
SƏNƏDLƏRİN İMZALANMASI 443
DÖVLƏT BAŞÇILARININ BİRGƏ MƏTBUAT KONFRANSI 444
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN BƏYANATI 444
TACİKİSTAN PREZİDENTİ EMOMƏLİ RƏHMONUN BƏYANATI 446
HEYDƏR ƏLİYEV FONDU İLƏ TANIŞLIQ 449
ALİ QONAĞIN ŞƏRƏFİNƏ 450
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN NİTQİ 450
TACİKİSTAN PREZİDENTİ EMOMƏLİ RƏHMONUN NİTQİ 452
TACİKİSTAN PREZİDENTİ AZƏRBAYCANIN BAŞ NAZİRİ İLƏ GÖRÜŞMÜŞDÜR . 453
AZƏRBAYCAN-TACİKİSTAN ƏLAQƏLƏRİNİN İNKİŞAFINA PARLAMENTLƏR LAYİQLİ TÖHFƏ VERİR 453
SƏFƏR BAŞA ÇATDI 454
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV YAPONİYANIN XARİCİ İŞLƏR NAZİRİNİN MÜAVİNİ MİDORİ MATSUŞİMANIN RƏHBƏRLİK ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİNİ QƏBUL ETMİŞDİR 454
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV İSRAİLİN BAŞ NAZİRİNİN MÜAVİNİ, STRATEJİ PLANLAŞDIRMA NAZİRİ AVİQDOR LİBERMANIN RƏHBƏRLİK ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİNİ QƏBUL ETMİŞDİR 455
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV ŞRİ-LANKANIN İXRACATIN İNKİŞAFI VƏ BEYNƏLXALQ TİCARƏT NAZİRİ CORC PEİRİSİN RƏHBƏRLİK ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİNİ QƏBUL ETMİŞDİR 455
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV ALMANİYANIN KEÇMİŞ DÖVLƏT KATİBİ, ALMANİYA-AZƏRBAYCAN FORUMUNUN SƏDRİ OTTO HAUZERİN RƏHBƏRLİK ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİNİ QƏBUL ETMİŞDİR . . 455
İRAN PREZİDENTİ MAHMUD ƏHMƏDİNEJADIN AZƏRBAYCANA RƏSMİ SƏFƏRİ 456

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN VƏ İRAN PREZİDENTİ MAHMUD ƏHMƏDİNEJADIN TƏKBƏTƏK GÖRÜŞÜ 456
DÖVLƏT BAŞÇILARININ GENİŞ TƏRKİBDƏ GÖRÜŞÜ 456
SƏNƏDLƏRİN İMZALANMASI 457
DÖVLƏT BAŞÇILARININ BİRGƏ MƏTBUAT KONFRANSI 458
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN BƏYANATI 458
İRAN PREZİDENTİ MAHMUD ƏHMƏDİNEJADIN BƏYANATI 459
HEYDƏR ƏLİYEV FONDU İLƏ TANIŞLIQ 462
ALİ QONAĞIN ŞƏRƏFİNƏ 463
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN NİTQİ 463
İRAN PREZİDENTİ MAHMUD ƏHMƏDİNEJADIN NİTQİ 465
SƏFƏR BAŞA ÇATDI 466
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV BP QRUPUNUN KƏŞFİYYAT VƏ HASİLAT İŞLƏRİ ÜZRƏ BAŞ İCRAÇI DİREKTORU ENDİ İNQLİSİ QƏBUL ETMİŞDİR 466
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV BUNDESTAQIN DEPUTATI, AŞPA-NIN MONİTORİNQ KOMİTƏSİNİN SƏDRİ EDUARD LİNTNERİ QƏBUL ETMİŞDİR 466
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV QARA DƏNİZ TƏŞƏBBÜS QRUPUNUN ÜZVLƏRİNİ QƏBUL ETMİŞDİR 467
AZƏRBAYCAN RESPUBLİKASI DİPLOMATİK XİDMƏT ORQANLARI ƏMƏKDAŞLARININ PEŞƏ BAYRAMI GÜNÜNÜN TƏSİS EDİLMƏSİ HAQQINDA AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI 467
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV CƏNUBİ KOREYANIN TİCARƏT, SƏNAYE VƏ ENERGETİKA NAZİRİNİN MÜAVİNİ Lİ ÇJE HUNUN RƏHBƏRLİK ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİNİ QƏBUL ETMİŞDİR 467
AZƏRBAYCANIN XARİCİ İŞLƏR NAZİRİNİN BATUMİYƏ SƏFƏRİ 468
XARİCİ İŞLƏR NAZİRİ ACARİYADA YAŞAYAN AZƏRBAYCAN İCMASININ NÜMAYƏNDƏLƏRİ İLƏ GÖRÜŞMÜŞDÜR 469
QƏTƏR DÖVLƏTİNİN ƏMİRİ ŞEYX HƏMƏD BİN XƏLİFƏ AL TANİNİN AZƏRBAYCANA RƏSMİ SƏFƏRİ 469
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN VƏ QƏTƏR DÖVLƏTİNİN ƏMİRİ ŞEYX HƏMƏD BİN XƏLİFƏ AL TANİNİN TƏKBƏTƏK GÖRÜŞÜ 469
SƏNƏDLƏRİN İMZALANMA MƏRASİMİ 470
SƏFƏR BAŞA ÇATDI 470
AZƏRBAYCAN RESPUBLİKASI XARİCİ İŞLƏR NAZİRLİYİNİN MƏTBUAT MƏRKƏZİ QUBADLI RAYONUNUN İŞĞALININ NÖVBƏTİ İLDÖNÜMÜ İLƏ BAĞLI BƏYANAT YAYMIŞDIR 470

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV RUSİYA FEDERASİYASI HÖKUMƏTİ APARATININ RƏHBƏRİ - HÖKUMƏT SƏDRİNİN MÜAVİNİ SERGEY NARIŞKİNİ QƏBUL ETMİŞDİR 471
AZƏRBAYCAN VƏ RUSİYA XARİCİ İŞLƏR NAZİRLƏRİ ARASINDA MƏSLƏHƏTLƏŞMƏLƏR PLANI RAZILAŞDIRILMIŞDIR 471
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV LİTVANIN "VERSLO ZİNİOS"/"BUSİNESS NEWS" QƏZETİNİN VƏ "VERSLO KLASE"/"BUSİNESS CLASS" JURNALININ MÜXBİRLƏRİNƏ MÜSAHİBƏ VERMİŞDİR 472
AZƏRBAYCANIN XARİCİ İŞLƏR NAZİRİ BRÜSSELDƏ SƏFƏRDƏDİR 479
AZƏRBAYCANIN XARİCİ İŞLƏR NAZİRİ BRÜSSELDƏ KEÇİRİLƏN BEYNƏLXALQ KONFRANSDA ÇIXIŞ ETMİŞDİR 480
AZƏRBAYCANIN XARİCİ İŞLƏR NAZİRİ NATO-NUN MƏNZİL-QƏRARGAHINDA OLMUŞDUR 480
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV CƏNUBİ KOREYANIN "GS E&S" ŞİRKƏTİNİN NÜMAYƏNDƏ HEYƏTİNİ QƏBUL ETMİŞDİR 481
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV AVROPA ŞURASININ İNSAN HÜQUQLARI ÜZRƏ KOMİSSARI TOMAS HAMMARBERQİN RƏHBƏRLİK ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİNİ QƏBUL ETMİŞDİR 482
XORVATİYA DAĞLIQ QARABAĞ MÜNAQİŞƏSİNİN AZƏRBAYCANIN ƏRAZİ BÜTÖVLÜYÜ ÇƏRÇİVƏSİNDƏ HƏLLİNİN TƏRƏFDARIDIR 482
XARİCİ İŞLƏR NAZİRİNİN MÜAVİNİ İRAQIN TÜRKMƏN NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞMÜŞDÜR 483
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV MDB-NİN İCRAİYYƏ KOMİTƏSİNİN SƏDRİ VLADİMİR RUŞAYLONU QƏBUL ETMİŞDİR 483
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV GÖRKƏMLİ ALİM VƏ İCTİMAİ XADİM CAVAD HEYƏTİ QƏBUL ETMİŞDİR 484
AZƏRBAYCAN PARLAMENTİ NÜMAYƏNDƏ HEYƏTİNİN KOREYA RESPUBLİKASINA RƏSMİ SƏFƏRİ 484
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV BEYNƏLXALQ ENERJİ AGENTLİYİNİN İCRAÇI DİREKTORUNUN MÜAVİNİ UİLYAM RAMSEYİN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİNİ QƏBUL ETMİŞDİR 487
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV DÜNYA BANKININ AVROPA VƏ MƏRKƏZİ ASİYA REGİONU ÜZRƏ DAVAMLI İNKİŞAF SEKTORUNUN DİREKTORU PETER TOMSONUN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİNİ QƏBUL ETMİŞDİR 488
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV İRAN-AZƏRBAYCAN DOSTLUQ QRUPUNUN SƏDRİ ƏHƏD QƏZAİNİN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİNİ QƏBUL ETMİŞDİR 488
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV AVROPA İTTİFAQININ CƏNUBİ QAFQAZ PARLAMENTLƏRARASI ƏMƏKDAŞLIQ KOMİTƏSİNİN HƏMSƏDRİ XANIM MARİ ANN İSLER BEQƏNİN RƏHBƏRLİK ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİNİ QƏBUL ETMİŞDİR 488

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN LİTVAYA RƏSMİ SƏFƏRİ 489

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN VƏ LİTVA PREZİDENTİ VALDAS ADAMKUSUN TƏKBƏTƏK GÖRÜŞÜ 489

DÖVLƏT BAŞÇILARININ GENİŞ TƏRKİBDƏ GÖRÜŞÜ 489

SƏNƏDLƏRİN İMZALANMASI MƏRASİMİ 490

AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN VƏ LİTVA RESPUBLİKASI PREZİDENTİNİN TƏRƏFDAŞLIQ MÜNASİBƏTLƏRİNİN İNKİŞAFI HAQQINDA BİRGƏ BƏYANNAMƏSİ 490

AZƏRBAYCAN RESPUBLİKASI HÖKUMƏTİ VƏ LİTVA RESPUBLİKASI HÖKUMƏTİ ARASINDA MƏDƏNİYYƏT SAHƏSİNDƏ ƏMƏKDAŞLIQ HAQQINDA SAZİŞ 493

AZƏRBAYCAN RESPUBLİKASI VERGİLƏR NAZİRLİYİ VƏ LİTVA RESPUBLİKASI MALİYYƏ NAZİRLİYİ YANINDA DÖVLƏT VERGİ MÜFƏTTİŞLİYİ ARASINDA VERGİTUTMA MƏSƏLƏLƏRİ ÜZRƏ MƏLUMAT MÜBADİLƏSİ HAQQINDA SAZİŞ 495

AZƏRBAYCAN RESPUBLİKASI HÖKUMƏTİ VƏ LİTVA RESPUBLİKASI HÖKUMƏTİ ARASINDA TURİZM SAHƏSİNDƏ ƏMƏKDAŞLIQ HAQQINDA SAZİŞ 498

AZƏRBAYCAN RESPUBLİKASI HÖKUMƏTİ VƏ LİTVA RESPUBLİKASI HÖKUMƏTİ ARASINDA İNFORMASİYA VƏ KOMMUNİKASİYA TEXNOLOGİYALARI SAHƏSİNDƏ ƏMƏKDAŞLIQ HAQQINDA SAZİŞ 501

BİRGƏ MƏTBUAT KONFRANSI 503

LİTVA PREZİDENTİ VALDAS ADAMKUSUN BƏYANATI 503

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN BƏYANATI 504

AZƏRBAYCAN-LİTVA BİZNES FORUMU 507

LİTVA PREZİDENTİ VALDAS ADAMKUSUN ÇIXIŞI 507

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN ÇIXIŞI 508

LİTVADA FƏALİYYƏT GÖSTƏRƏN AZƏRBAYCAN CƏMİYYƏTLƏRİNİN NÜMAYƏNDƏLƏRİ İLƏ GÖRÜŞ 510

AZƏRBAYCAN PREZİDENTİNİN ŞƏRƏFİNƏ 512

LİTVA PREZİDENTİ VALDAS ADAMKUSUN NİTQİ 512

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN NİTQİ 514

KLAYPEDA DÖVLƏT DƏNİZ LİMANI İLƏ TANIŞLIQ 515

PREZİDENTLƏR İLHAM ƏLİYEV VƏ VALDAS ADAMKUS AZƏRBAYCAN DÖVLƏTİ BAŞÇISININ RƏSMİ SƏFƏRİNİN YEKUNLARINA DAİR MƏTBUAT ÜÇÜN BƏYANATLARLA ÇIXIŞ ETMİŞLƏR 516

LİTVA PREZİDENTİ VALDAS ADAMKUSUN BƏYANATI 516

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN BƏYANATI 516

SƏFƏR BAŞA ÇATDI 517

AZƏRBAYCANDA TOLERANTLIQ TARİXİ NAİLİYYƏTDİR VƏ HÖKUMƏT BU DƏYƏRLƏRİ QORUYUR 517

XARİCİ İŞLƏR NAZİRLİYİNDƏ GÖRÜŞ 518

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV ATƏT-İN MİNSK QRUPUNUN HƏMSƏDRLƏRİNİ VƏ ATƏT-İN HAZIRKI SƏDRİNİN XÜSUSİ NÜMAYƏNDƏSİNİ QƏBUL ETMİŞDİR 519

MOSKVADA AZƏRBAYCAN DİPLOMATİK AKADEMİYASI İLƏ MDBMİ ARASINDA ƏMƏKDAŞLIQ HAQQINDA SAZİŞ İMZALANMIŞDIR 519

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV İTALİYA PARLAMENTİ DEPUTATLAR PALATASININ XARİCİ İŞLƏR DAİMİ KOMİSSİYASININ SƏDRİ UMBERTO RANİERİNİN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİNİ QƏBUL ETMİŞDİR 521

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV AVSTRİYANIN İQTİSADİYYAT VƏ ƏMƏK NAZİRİ MARTİN BARTENŞTAYNIN RƏHBƏRLİK ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİNİ QƏBUL ETMİŞDİR 521

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV BÖYÜK BRİTANİYANIN ENERGETİKA ÜZRƏ DÖVLƏT NAZİRİ MALKOLM UİKSİN RƏHBƏRLİK ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİNİ QƏBUL ETMİŞDİR 522

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV POLŞA PREZİDENTİ DƏFTƏRXANASININ RƏHBƏRİ VƏZİFƏSİNİ İCRA EDƏN, DÖVLƏT KATİBİ ROBERT DRABANI QƏBUL ETMİŞDİR 522

XARİCİ İŞLƏR NAZİRLİYİNƏ MÜSABİQƏ ÜSULU İLƏ İŞƏ QƏBUL OLMUŞ GƏNCLƏR DİPLOMATİK TƏLİMLƏRDƏ İŞTİRAK EDƏCƏKLƏR 522

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN RUMİNİYAYA İŞGÜZAR SƏFƏRİ 523

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN RUMİNİYA PREZİDENTİ TRAYAN BESESKU İLƏ GÖRÜŞÜ 523

BUXARESTDƏ HEYDƏR ƏLİYEV ADINA XİYABANIN RƏSMİ AÇILIŞ MƏRASİMİ 523

RUMİNİYA-AZƏRBAYCAN DOSTLUQ CƏMİYYƏTİNİN SƏDRİ İOAN POP DE POPANIN ÇIXIŞI 524

RUMİNİYA PREZİDENTİ TRAYAN BESESKUNUN ÇIXIŞI 525

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN ÇIXIŞI 526

BUXARESTDƏ HEYDƏR ƏLİYEV FONDUNUN NÜMAYƏNDƏLİYİNİN AÇILIŞI OLMUŞDUR 527

PLOYEŞTİ RUMİNİYANIN NEFT PAYTAXTIDIR 528

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV PLOYEŞTİ NEFT VƏ QAZ UNİVERSİTETİNDƏ OLMUŞDUR 529

SƏFƏR BAŞA ÇATDI 530

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV KALİFORNİYA SENATI VƏ ASSAMBLEYASININ NÜMAYƏNDƏ HEYƏTİNİ QƏBUL ETMİŞDİR 530

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV GÜRCÜSTANIN BAŞ NAZİRİ ZURAB NOĞAİDELİNİ QƏBUL ETMİŞDİR 531

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV "ŞEVRON" KORPORASİYASININ İDARƏ HEYƏTİNİN SƏDRİ VƏ BAŞ İCRAÇI DİREKTORU DEVİD OREYLİN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİNİ QƏBUL ETMİŞDİR 531

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV HİNDİSTANIN YERLİ ÖZÜNÜİDARƏ, GƏNCLƏR VƏ İDMAN, ŞİMAL-ŞƏRQ REGİONU NAZİRİ MANİ ŞANKAR AİYARI QƏBUL ETMİŞDİR 531

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV NOBEL MÜKAFATI LAUREATLARI JORES ALFYOROVU, İVAR QİAVERİNİ VƏ YÜKSƏK TEXNOLOGİYALAR ÜZRƏ ALİM YOŞİKAZU NAKAYAMANI QƏBUL ETMİŞDİR 532

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV TÜRKİYƏNİN MƏDƏNİYYƏT VƏ TURİZM NAZİRİ ƏRTOĞRUL GÜNAYIN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİNİ QƏBUL ETMİŞDİR 532

XƏZƏR DƏNİZİNİN ORTA XƏTT KOORDİNATLARI ÜZRƏ EKSPERTLƏR QRUPUNUN NÖVBƏTİ GÖRÜŞÜ KEÇİRİLMİŞDİR 533

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV NATO BAŞ KATİBİNİN CƏNUBİ QAFQAZ VƏ ORTA ASİYA ÜZRƏ XÜSUSİ NÜMAYƏNDƏSİ ROBERT SİMMONSUN RƏHBƏRLİK ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİNİ QƏBUL ETMİŞDİR 533

AZƏRBAYCANIN XARİCİ İŞLƏR NAZİRİNİN NYU-YORKA İŞGÜZAR SƏFƏRİ ... 533

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV YORK HERSOQU ENDRYUNU QƏBUL ETMİŞDİR 534

XORVATİYA PREZİDENTİ STEPAN MESİÇİN AZƏRBAYCANA RƏSMİ SƏFƏRİ .. 535

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN VƏ XORVATİYA PREZİDENTİ STEPAN MESİÇİN TƏKBƏTƏK GÖRÜŞÜ 535

DÖVLƏT BAŞÇILARININ GENİŞ TƏRKİBDƏ GÖRÜŞÜ 535

SƏNƏDLƏRİN İMZALANMASI 536

DÖVLƏT BAŞÇILARININ BİRGƏ MƏTBUAT KONFRANSI 536

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN BƏYANATI 536

XORVATİYA PREZİDENTİ STEPAN MESİÇİN BƏYANATI 537

HEYDƏR ƏLİYEV FONDU İLƏ TANIŞLIQ 539

MİLLİ MƏCLİSDƏ GÖRÜŞ 540

ALİ QONAĞIN ŞƏRƏFİNƏ 541

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN NİTQİ 541

XORVATİYA PREZİDENTİ STEPAN MESİÇİN NİTQİ 542

AZƏRBAYCAN-XORVATİYA BİZNES FORUMU 543

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN ÇIXIŞI 544

XORVATİYA PREZİDENTİ STEPAN MESİÇİN ÇIXIŞI 546

XORVATİYA PREZİDENTİ STEPAN MESİÇ BAKI DÖVLƏT UNİVERSİTETİNİN TƏLƏBƏ VƏ MÜƏLLİMLƏRİ QARŞISINDA ÇIXIŞ ETMİŞDİR 549

XORVATİYA PREZİDENTİ STEPAN MESİÇİN VƏ AZƏRBAYCANIN BAŞ NAZİRİ ARTUR RASİZADƏNİN BİRGƏ İŞGÜZAR NAHARI 549

SƏFƏR BAŞA ÇATDI 550

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV QARA DƏNİZ VƏ XƏZƏR DƏNİZİ SAHİBKARLAR KONFEDERASİYALARI BİRLİYİNİN VƏ TÜRK SƏNAYEÇİLƏRİ VƏ İŞ ADAMLARI BİRLİYİNİN PREZİDENTİ ARZUXAN DOĞANI, MƏRMƏRƏ QRUPU VƏQFİNİN SƏDRİ AKKAN SUVERİ VƏ ATA HOLDİNQİN BAŞ DİREKTORU ƏHMƏD ERENTOKU QƏBUL ETMİŞDİR 550

AZƏRBAYCANIN XARİCİ İŞLƏR NAZİRİ NYU-YORKDA İŞGÜZAR SƏFƏRDƏDİR 550

AZƏRBAYCAN XARİCİ İŞLƏR NAZİRİ BMT BAŞ MƏCLİSİNİN 62-Cİ SESSİYASINDA İKİTƏRƏFLİ GÖRÜŞLƏR KEÇİRMİŞDİR 551

AZƏRBAYCAN XARİCİ İŞLƏR NAZİRİNİN NYU-YORKA SƏFƏRİ DAVAM EDİR 551

İSLAM KONFRANSI TƏŞKİLATININ ÜZVÜ OLAN DÖVLƏTLƏR BMT BAŞ MƏCLİSİNDƏ MÜZAKİRƏLƏR ZAMANI AZƏRBAYCANLA HƏMRƏYLİK NÜMAYİŞ ETDİRƏCƏKLƏR 551

AZƏRBAYCANIN XARİCİ İŞLƏR NAZİRİ BMT BAŞ MƏCLİSİNİN SESSİYASINDA BƏYANATLA ÇIXIŞ ETMİŞDİR 552

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV LİTVANIN MİLLİ MÜDAFİƏ NAZİRİ YUOZAS OLEKASIN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİNİ QƏBUL ETMİŞDİR 553

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV MOSKVA MERİNİN BİRİNCİ MÜAVİNİ, AZƏRBAYCAN-MOSKVA HÖKUMƏTLƏRARASI İQTİSADİ KOMİSSİYANIN HƏMSƏDRİ LYUDMİLA ŞVETSOVANIN RƏHBƏRLİK ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİNİ QƏBUL ETMİŞDİR 554

MİLLİ MƏCLİSİN SƏDRİ STRASBURQDA İŞGÜZAR GÖRÜŞLƏR KEÇİRİR 554

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN TACİKİSTANA SƏFƏRİ 555

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN VƏ TACİKİSTAN PREZİDENTİ EMOMƏLİ RƏHMONUN TƏKBƏTƏK GÖRÜŞÜ 555

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV MDB-NİN DÖVLƏT BAŞÇILARI ŞURASININ İCLASINDA İŞTİRAK ETMİŞDİR 556

SƏFƏR BAŞA ÇATDI 557

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV İSVEÇRƏNİN ƏTRAF MÜHİT, NƏQLİYYAT, ENERGETİKA VƏ RABİTƏ ÜZRƏ FEDERAL DEPARTAMENTİNİN RƏHBƏRİ, NAZİR MORİTZ LEUNBERQERİN RƏHBƏRLİK ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİNİ QƏBUL ETMİŞDİR 558

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV QAZAXISTANIN MÜDAFİƏ NAZİRİ DANİAL AXMETOVU QƏBUL ETMİŞDİR 558

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN LİTVAYA İŞGÜZAR SƏFƏRİ 558

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV GUAM-IN ÜZVÜ OLAN ÖLKƏLƏRİN DÖVLƏT BAŞÇILARININ BU TƏŞKİLATIN YARADILMASININ 10 İLLİYİNƏ HƏSR OLUNMUŞ GÖRÜŞÜNDƏ İŞTİRAK ETMİŞDİR 558

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN GİRİŞ NİTQİ 559

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN YEKUN NİTQİ 560

GUAM-IN VİLNÜS ZİRVƏ TOPLANTISININ BƏYANATI 561

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN VƏ UKRAYNA PREZİDENTİ VİKTOR YUŞŞENKONUN GÖRÜŞÜ 562

VİLNÜS ENERJİ TƏHLÜKƏSİZLİYİ KONFRANSI 563

PREZİDENTLƏRİN KOMMUNİKESİ 564

PREZİDENT İLHAM ƏLİYEV ENERJİ TƏHLÜKƏSİZLİYİNƏ DAİR BEYNƏLXALQ KONFRANSDA ÇIXIŞ ETMİŞDİR 565

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN ÇIXIŞI 565

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN BƏYANATI 568

XARİCİ İŞLƏR NAZİRLİYİNİN BƏYANATI 569

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV ALMANİYA BUNDESTAQININ ALMANİYA-CƏNUBİ QAFQAZ PARLAMENTLƏRARASI QRUPUNUN ÜZVLƏRİNİ QƏBUL ETMİŞDİR 570

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN İRANA SƏFƏRİ 570

TEHRANDA XƏZƏRYANI DÖVLƏT BAŞÇILARININ İKİNCİ ZİRVƏ TOPLANTISI İŞƏ BAŞLAMIŞDIR 570

AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ İLHAM ƏLİYEVİN ÇIXIŞI 571

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN VƏ İRAN PREZİDENTİ MAHMUD ƏHMƏDİNEJADIN GÖRÜŞÜ 574

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN VƏ İRANIN ALİ RƏHBƏRİ SEYİD ƏLİ XAMENEİNİN GÖRÜŞÜ 575

LÜKSEMBURQDA AZƏRBAYCAN-Aİ ƏMƏKDAŞLIQ ŞURASININ İCLASI KEÇİRİLİR 575

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV BEYNƏLXALQ FUTBOL ASSOSİASİYALARI FEDERASİYASININ PREZİDENTİ YOZEF BLATTERİ VƏ AVROPA FUTBOL ASSOSİASİYALARI İTTİFAQININ PREZİDENTİ MİŞEL PLATİNİNİ QƏBUL ETMİŞDİR 575

ATƏT-İN MİNSK QRUPUNUN HƏMSƏDRLƏRİ REGİONA SƏFƏR EDƏCƏKLƏR 576

AZƏRBAYCANIN XARİCİ İŞLƏR NAZİRİ ELMAR MƏMMƏDYAROV FRANSADA SƏFƏRDƏDİR 576

AZƏRBAYCANIN XARİCİ İŞLƏR NAZİRİ PARİSDƏ İŞGÜZAR GÖRÜŞLƏR KEÇİRMİŞDİR 577

AZƏRBAYCAN TOLERANTLIĞA VƏ ETNİK QRUPLARA MÜNASİBƏTƏ GÖRƏ BÜTÜN DÜNYAYA NÜMUNƏ OLA BİLƏR 577

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV AVROPA İTTİFAQININ CƏNUBİ QAFQAZ ÜZRƏ XÜSUSİ NÜMAYƏNDƏSİ PİTER SEMNEBİNİN RƏHBƏRLİK ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİNİ QƏBUL ETMİŞDİR 579

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV TACİKİSTANIN MƏDƏNİYYƏT NAZİRİ MİRZOŞOXRUX ASROROVUN RƏHBƏRLİK ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİNİ QƏBUL ETMİŞDİR 579

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV ATƏT-İN BAŞ KATİBİ MARK PERRİN DE BRİŞAMBONU QƏBUL ETMİŞDİR 579

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV İORDANİYA KRALININ ORTA ASİYA VƏ AZƏRBAYCAN ÜZRƏ XÜSUSİ ELÇİSİ ABDULLA VUREYKƏTİ QƏBUL ETMİŞDİR 579

AZƏRBAYCAN İLƏ KÜVEYT ARASINDA SİYASİ SAHƏDƏ ƏLAQƏLƏR YÜKSƏK SƏVİYYƏDƏDİR 580

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV "SAFARİ" BEYNƏLXALQ OVÇULUQ KLUBUNUN PREZİDENTİ DENİS ANDERSONU QƏBUL ETMİŞDİR 581

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV LİTVA SEYMİNİN XARİCİ MƏSƏLƏLƏR DAİMİ KOMİTƏSİNİN SƏDRİ YUSTİNAS KAROSASIN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİNİ QƏBUL ETMİŞDİR 581

XARİCİ İŞLƏR NAZİRLİYİNDƏ GÖRÜŞ 581

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV ATƏT-İN MİNSK QRUPUNUN HƏMSƏDRLƏRİNİ QƏBUL ETMİŞDİR 582

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV LİTVANIN SOSİAL MÜDAFİƏ VƏ ƏMƏK NAZİRİ VİLİYA BLİNKYAVİÇYUTENİN RƏHBƏRLİK ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİNİ QƏBUL ETMİŞDİR 582

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV BP QRUPUNUN KƏŞFİYYAT VƏ HASİLAT İŞLƏRİ ÜZRƏ BAŞ İCRAÇI DİREKTORU ENDRÜ İNQLİSİ QƏBUL ETMİŞDİR 583

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV ESTONİYANIN XARİCİ İŞLƏR NAZİRİ URMAS PAETİN RƏHBƏRLİK ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİNİ QƏBUL ETMİŞDİR 583

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV İRANIN VİTSE-PREZİDENTİ, MİLLİ GƏNCLƏR TƏŞKİLATININ SƏDRİ HÖCCƏTÜLİSLAM ƏLİ ƏKBƏRİNİN RƏHBƏRLİK ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİNİ QƏBUL ETMİŞDİR 584

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV AVROPA YENİDƏNQURMA VƏ İNKİŞAF BANKININ BİRİNCİ VİTSE-PREZİDENTİ VAREL FRİMANIN RƏHBƏRLİK ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİNİ QƏBUL ETMİŞDİR 584

AZƏRBAYCAN DİPLOMATİK AKADEMİYASI İLƏ NORVEÇ XARİCİ İŞLƏR NAZİRLİYİ ARASINDA ƏMƏKDAŞLIQ HAQQINDA SAZİŞ İMZALANMIŞDIR 585

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV İSESKO-NUN BAŞ DİREKTORU ƏBDÜLƏZİZ BİN OSMAN ƏL-TÜVEYCRİNİ QƏBUL ETMİŞDİR 585

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV PORTUQALİYANIN SABİQ PREZİDENTİ, BMT BAŞ KATİBİNİN SİVİLİZASİYALARIN İTTİFAQINDA YÜKSƏK NÜMAYƏNDƏSİ JORJ DE SAMPAYONU QƏBUL ETMİŞDİR 585

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV İSLAM KONFRANSI GƏNCLƏR FORUMUNUN NÜMAYƏNDƏ HEYƏTİNİ QƏBUL ETMİŞDİR 586

ÇEXİYA AZƏRBAYCAN İLƏ ƏLAQƏLƏRİN İNKİŞAFINDA MARAQLIDIR 586

LATVİYA AZƏRBAYCANLA ƏMƏKDAŞLIĞIN İNKİŞAFINA BÖYÜK ÖNƏM VERİR 587

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV İSVEÇRƏ KONFEDERASİYASI MİLLİ ŞURASININ SƏDRİ KRİSTİN EGERSZEGİ-OBRİSTİ QƏBUL ETMİŞDİR 587

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV LİXTENŞTEYNİN ƏTRAF MÜHİT, KƏND VƏ MEŞƏ TƏSƏRRÜFATI NAZİRİ HÜQO KVADERERİ QƏBUL ETMİŞDİR 588

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV ABŞ DÖVLƏT KATİBİNİN AVROPA VƏ AVRASİYA MƏSƏLƏLƏRİ ÜZRƏ MÜAVİNİ DANİEL FRİDİ QƏBUL ETMİŞDİR 588

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV ABŞ-IN "SÜLH KORPUSU" TƏŞKİLATININ DİREKTORU RONALD TŞETTERİN RƏHBƏRLİK ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİNİ QƏBUL ETMİŞDİR 588

TÜRKİYƏ RESPUBLİKASININ PREZİDENTİ ABDULLAH GÜLÜN AZƏRBAYCANA RƏSMİ SƏFƏRİ 589

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN VƏ TÜRKİYƏ PREZİDENTİ ABDULLAH GÜLÜN TƏKBƏTƏK GÖRÜŞÜ 589

DÖVLƏT BAŞÇILARININ GENİŞ TƏRKİBDƏ GÖRÜŞÜ 589

SƏNƏDLƏRİN İMZALANMA MƏRASİMİ 590

DÖVLƏT BAŞÇILARININ BİRGƏ MƏTBUAT KONFRANSI 591

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN BƏYANATI 591

TÜRKİYƏ PREZİDENTİ ABDULLAH GÜLÜN BƏYANATI 593

TÜRKİYƏ PREZİDENTİ ABDULLAH GÜL HEYDƏR ƏLİYEV FONDUNDA OLMUŞDUR 599

ALİ QONAĞIN ŞƏRƏFİNƏ 600

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN NİTQİ 600

TÜRKİYƏ PREZİDENTİ ABDULLAH GÜLÜN NİTQİ 603

AZƏRBAYCAN-TÜRKİYƏ BİZNES FORUMU 605

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN ÇIXIŞI 606

TÜRKİYƏ PREZİDENTİ ABDULLAH GÜLÜN ÇIXIŞI 610

MİLLİ MƏCLİSDƏ GÖRÜŞ 612

TÜRKİYƏ PREZİDENTİ ABDULLAH GÜLÜN ÇIXIŞI 614

TÜRKİYƏ PREZİDENTİ AZƏRBAYCANIN BAŞ NAZİRİ İLƏ GÖRÜŞMÜŞDÜR 617

TÜRKİYƏ PREZİDENTİ ABDULLAH GÜLƏ BAKI DÖVLƏT UNİVERSİTETİNİN FƏXRİ DOKTORU ADI VERİLMİŞDİR 618

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV POLŞANIN İQTİSADİYYAT NAZİRİ, POLŞA-AZƏRBAYCAN HÖKUMƏTLƏRARASI İQTİSADİ KOMİSSİYASININ HƏMSƏDRİ PYOTR OJEQOJ VOZNYAKIN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİNİ QƏBUL ETMİŞDİR 619

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV AMERİKA İSRAİL İCTİMAİ MƏSƏLƏLƏR KOMİTƏSİNİN NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞMÜŞDÜR 619

XARİCİ İŞLƏR NAZİRLİYİNDƏ KEÇİRİLƏN GÖRÜŞDƏ BİR SIRA MƏSƏLƏLƏR BARƏDƏ FİKİR MÜBADİLƏSİ APARILMIŞDIR 623

BOLQARISTANIN BAŞ NAZİRİ SERGEY STANİŞEV AZƏRBAYCANA RƏSMİ SƏFƏRƏ GƏLMİŞDİR 623

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV BOLQARISTANIN BAŞ NAZİRİ SERGEY STANİŞEVİN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİNİ QƏBUL ETMİŞDİR 623

AZƏRBAYCAN-BOLQARISTAN HÖKUMƏTLƏRARASI SƏNƏDLƏRİ İMZALANMIŞDIR 624

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV AVRASİYA FONDUNUN PREZİDENTİ HORTON BİBİ-SENTERİN RƏHBƏRLİK ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİNİ QƏBUL ETMİŞDİR 625

AZƏRBAYCAN VƏ LİVİYA BEYNƏLXALQ TƏŞKİLATLAR ÇƏRÇİVƏSİNDƏ BİR-BİRİNƏ DƏSTƏK GÖSTƏRİR 625

TƏRƏFLƏR ENERJİ SAHƏSİNDƏ DİALOQUN DAVAM ETDİRİLMƏSİNDƏ MARAQLIDIRLAR 626

AZƏRBAYCAN İLƏ İSVEÇRƏ ARASINDA TEXNİKİ YARDIM HAQQINDA SAZİŞ İMZALANMIŞDIR 626

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV TÜRKMƏNİSTANIN NAZİRLƏR KABİNETİ SƏDRİNİN MÜAVİNİ XIDIR SAPARLIYEVİ QƏBUL ETMİŞDİR 627

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN VƏ TÜRKİYƏNİN BAŞ NAZİRİ RƏCƏB TAYYİB ƏRDOĞANIN GÖRÜŞÜ 627

TÜRK DÖVLƏT VƏ CƏMİYYƏTLƏRİNİN XI DOSTLUQ, QARDAŞLIQ VƏ ƏMƏKDAŞLIQ QURULTAYINDA AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN NİTQİ 627

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN TÜRKİYƏYƏ İŞGÜZAR SƏFƏRİ 632

PREZİDENT İLHAM ƏLİYEV TÜRKİYƏ-YUNANISTAN QAZ KƏMƏRİNİN AÇILIŞ MƏRASİMİNDƏ İŞTİRAK ETMİŞDİR 632

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN NİTQİ 634

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV ABŞ-IN ENERGETİKA NAZİRİ SAMUEL BODMANLA GÖRÜŞMÜŞDÜR 637

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN VƏ YUNANISTANIN BAŞ NAZİRİ KONSTANTİNOS KARAMANLİSİN GÖRÜŞÜ 638

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN FRANSAYA SƏFƏRİ 638

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV "TOTAL" ŞİRKƏTİNİN İSTİSMAR VƏ İSTEHSALAT ÜZRƏ BAŞ DİREKTORU İLƏ GÖRÜŞMÜŞDÜR 638

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN VƏ FRANSA SENATININ SƏDRİ KRİSTİAN PONSÖLENİN GÖRÜŞÜ 639

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN VƏ FRANSA PREZİDENTİ NİKOLA SARKOZİNİN GÖRÜŞÜ 639

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN FRANSAYA SƏFƏRİ BAŞA ÇATMIŞDIR 640

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN GÜRCÜSTANA SƏFƏRİ 640

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN VƏ GÜRCÜSTAN PREZİDENTİ MİXAİL SAAKAŞVİLİNİN GÖRÜŞÜ 640

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN VƏ TÜRKİYƏ PREZİDENTİ ABDULLAH GÜLÜN GÖRÜŞÜ 640

BAKI-TBİLİSİ-QARS DƏMİR YOLUNUN GÜRCÜSTAN HİSSƏSİNİN TƏMƏLİ QOYULMUŞDUR 640

GÜRCÜSTAN PREZİDENTİ MİXAİL SAAKAŞVİLİNİN NİTQİ 641

TÜRKİYƏ PREZİDENTİ ABDULLAH GÜLÜN NİTQİ 642

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN NİTQİ 643

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV MDB VƏ BALTİKYANI ÖLKƏLƏRİN DƏMİRYOL NƏQLİYYATI ŞURASININ 47-Cİ İCLASININ İŞTİRAKÇILARINI QƏBUL ETMİŞDİR 646

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV MACARISTANIN İQTİSADİYYAT VƏ NƏQLİYYAT NAZİRİ YANOŞ KOKANIN RƏHBƏRLİK ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİNİ QƏBUL ETMİŞDİR 650

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV TÜRKİYƏ ALİ MƏHKƏMƏSİNİN SƏDRİ OSMAN ARSLANI QƏBUL ETMİŞDİR 651

TÜRKMƏNİSTAN PREZİDENTİ AZƏRBAYCANIN BAŞ NAZİRİ İLƏ GÖRÜŞMÜŞDÜR 651

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV İRAN İSLAM RESPUBLİKASININ İSLAM ŞURASI MƏCLİSİNİN SƏDRİ QULAMƏLİ HƏDDAD ADİLİN RƏHBƏRLİK ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİNİ QƏBUL ETMİŞDİR 651

MƏRKƏZİ ASİYA İLƏ AVROPA ARASINDA NƏQLİYYAT ƏLAQƏLƏRİNİN İNKİŞAFINDA AZƏRBAYCANIN STRATEJİ ƏHƏMİYYƏTİ MÜZAKİRƏ OLUNMUŞDUR 652

NAZİRLƏR KABİNETİNDƏ GÖRÜŞ 652

ELMAR MƏMMƏDYAROV: HƏMSƏDRLƏRİN İRƏLİ SÜRDÜYÜ TƏKLİFLƏRİN BİR HİSSƏSİ RAZILAŞDIRILMIŞDIR 653

ATƏT-İN XARİCİ İŞLƏR NAZİRLƏRİ ŞURASININ NÖVBƏTİ İCLASI HELSİNKİDƏ KEÇİRİLƏCƏKDİR 653

AZƏRBAYCANIN XARİCİ İŞLƏR NAZİRİ MADRİDDƏ BİR SIRA İKİTƏRƏFLİ GÖRÜŞLƏR KEÇİRMİŞDİR 653

TOKİODA GUAM+YAPONİYA DİALOQUNUN 2-Cİ RAUNDU KEÇİRİLMİŞDİR 654

DAĞLIQ QARABAĞ MÜNAQİŞƏSİ AZƏRBAYCANIN ƏRAZİ BÜTÖVLÜYÜ VƏ SUVERENLİYİ ƏSASINDA SÜLH YOLU İLƏ HƏLL EDİLMƏLİDİR 655

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV DAĞISTAN RESPUBLİKASI PREZİDENTİNİN MÜŞAVİRİ SƏİD QURBANOVU QƏBUL ETMİŞDİR 655

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV İTALİYANIN İQTİSADİ İNKİŞAF NAZİRİ PYERLUİCİ BERSANİNİN RƏHBƏRLİK ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİNİ QƏBUL ETMİŞDİR 655

BAKIDA NİSA-NIN QIŞ SESSİYASI KEÇİRİLİR 656

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV BP ŞİRKƏTİNİN VİTSE-PREZİDENTİ ENDRYU İNQLİSİ QƏBUL ETMİŞDİR 657

AZƏRBAYCAN İLƏ OMAN XARİCİ İŞLƏR NAZİRLİKLƏRİ ARASINDA İKİTƏRƏFLİ MƏSLƏHƏTLƏŞMƏLƏR KEÇİRİLMİŞDİR 657

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV BELARUSUN MÜDAFİƏ NAZİRİ LEONİD MALTSEVİN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİNİ QƏBUL ETMİŞDİR 657

XARİCİ İŞLƏR NAZİRİ GÜRCÜSTAN XARİCİ İŞLƏR NAZİRİNİN MÜAVİNİ QƏBUL ETMİŞDİR 658

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV MOLDOVANIN "KANAL 4" TELEVİZİYASINA MÜSAHİBƏ VERMİŞDİR 658

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV İSGƏNDƏRİYYƏ KİTABXANASININ DİREKTORU, MİSİR PREZİDENTİNİN ELM VƏ TƏHSİL ÜZRƏ MÜŞAVİRİ İSMAYIL SERAGELDİNİ QƏBUL ETMİŞDİR 663

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV İORDANİYA KRALININ ORTA ASİYA VƏ AZƏRBAYCAN ÜZRƏ XÜSUSİ ELÇİSİ ABDULLAH VUREYKƏTİ QƏBUL ETMİŞDİR 664

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV MİSİRİN BEYNƏLXALQ ƏMƏKDAŞLIQ NAZİRİ XANIM FAİZƏ ƏBU ƏL-NƏQƏNİN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİNİ QƏBUL ETMİŞDİR 664

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV TÜRKİYƏNİN KƏND TƏSƏRRÜFATI VƏ KƏND İŞLƏRİ NAZİRİ MEHMET MEHDİ EKERİN RƏHBƏRLİK ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİNİ QƏBUL ETMİŞDİR 664

YOLA SALDIĞIMIZ İLDƏ AZƏRBAYCAN MİLLİ MARAQLARA VƏ REGİONDA APARICI MÖVQEYİNİN MÖHKƏMLƏNDİRİLMƏSİNƏ ƏSASLANAN FƏAL XARİCİ SİYASƏT YERİTMİŞDİR 665

T.: 994 12 - 510 24 65
F.: 994 12 - 510 24 87
M.: 994 50 - 213 44 33
e/p.:garisma@majl.ru

Yığılmağa verilmişdir : 17.06.2008
Çapa imzalanmışdır : 01.07.2008
Format : 70x100 1/16
Fiziki ç.v. : 45
Rəngli şəkillər (ç.v.) : 1
Tirajı : 500